AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

SUMQAYIT DÖVLƏT UNİVERSİTETİ

Azərbaycan xalqının Ümummilli lideri

Heydər Əliyevin anadan olmasının

92-ci ildönümünə həsr olunur

MAGİSTRANTLARIN
XV RESPUBLİKA
ELMİ KONFRANSININ

MATERİALLARI

II HİSSƏ

SUMQAYIT – 2015

TƏŞKİLAT KOMİTƏSİ

E.B.Hüseynov (Sədr)	Rektor
R.S.Məmmədov (Sədr müavini)	Elm və innovasiyalar üzrə prorektor
Q.N.Atayev	Qiyabi, distant və əlavə təhsil üzrə prorektor
N.R.Namazov	Humanitar məsələlər üzrə prorektor
F.A.Zeynalov	Ümumi işlər üzrə prorektor
N.İ.Hacıyev	İqtisadi məsələlər üzrə prorektor
A.B.Baxşəliyev	Tarix və coğrafiya fakültəsinin dekanı
S.S.Həmzəyeva	Filologiya fakültəsinin dekanı
S.A.Xəlilov	Mühəndislik fakültəsinin dekanı
Z.Q.Hüseynov	Riyaziyyat fakültəsinin dekanı
M.M.Muradov	Kimya və biologiya fakültəsinin dekanı
T.Ə.Əhmədova	Fizika və elektroenergetika fakültəsinin dekanı
A.Y.Yəhyayeva	İqtisadiyyat fakültəsinin dekan əvəzi
F.İ.Məmmədov	Elektromexanika kafedrasının müdiri, AMEA-nın müxbir üzvü
N.M.Kazımov	İnformasiya və kompüter texnikası kafedrasının müdiri
N.H.Talıbov (Məsul katib)	Doktorantura və magistratura şöbəsinin müdiri
İ.G.Paşayev	Tələbə Elmi Cəmiyyətinin elmi rəhbəri
E.B.Gülməmmədov	Tələbə Gənclər Təşkilatının sədri

BÖLMƏLƏR

1. Fizika və elektroenergetika

2. Riyaziyyat

3. Mexanika

4. Yeni informasiya texnologiyaları

5. Kimya və kimya texnologiya

6. Biologiya

7. Ekologiya

8. Ümumi tarix

9. Coğrafiya

10. Ümumi iqtisadiyyat

11. Müəssisələrin iqtisadiyyatı və idarə edilməsi

12. Mühasibat uçotu

13. Dilçilik

14. Ədəbiyyatşünaslıq

15. Metodika, pedaqogika və psixologiya

X BÖLMƏ

ÜMUMİ İQTİSADİYYAT

İQTİSADİ QLOBALLAŞMANIN VƏ REGİONAL İNTEQRASİYA PROSESLƏRİNİN İNKİŞAFININ MİLLİ GÖMRÜK SİYASƏTİNƏ TƏSİRİ

Müslümov Y.N.
Sumqayıt Dövlət Universiteti

Regional inteqrasiya ilə dünya iqtisadiyyatının qlobal sistemi arasındakı münasibətlər qarşılıqlı təsirdə olan münasibətlərdir. Belə ki, iqtisadiyyatın regionlaşması nəinki uzunmüddətli beynəlxalq dəyişikliklərin nəticəsi kimi, eləcə də qlobal strukturun mühüm elementi kimi çıxış edir. İqtisadi regionlaşma qloballaşmanın formalaşmasında iştirak etməklə iki əsas funksiyanı yerinə yetirir. O bir tərəfdən qloballaşmanın obyekti kimi (passiv funksiya), digər tərəfdən isə qloballaşmanın subyekti kimi (aktiv funksiya) çıxış edir. İqtisadi regionlaşma inteqrasiya proseslərinin genişlənməsinə şərait yaradır və effektivliyinin yüksəldilməsinə təsir göstərir.

Amerika alimi Cekob Vaynerin fikrinə görə inteqrasiya prosesi nəticəsində inteqrasiya qrupuna daxil olan ölkələr arasında yeni əmtəə axınları yaradılır ki, bu da öz növbəsində ölkə daxilində analoji məhsulların bahalı istehsalını ixtisar etməyə imkan verir. Tədricən inteqrasiya qrupu daxilində istehsal olunan məhsullar üçüncü qrup ölkələrdən idxal olunan məhsulları əvəz etməyə başlayır. Beləliklə inteqrasiya daxilində belə "xalis əmtəə axınlarının" yaradılması istehsalın həcminin artmasına, əhalinin həyat səviyyəsinin yülsəlməsinə, inteqrasiyaya daxil olan ölkənin isə ixtisaslaşma səviyyəsinin yüksəlməsinə səbəb olur.

Polşa iqtisadçısı Herard Moseyin fikrinə görə iqtisadi qloballaşma nəticəsində gömrük rüsumları ümumən aşağı düşür, milli gömrük siyasətində muxtariyyətin məhdudlaşdırılması baş verir. Bu sahədə ölkələrin fəaliyyətinin əlaqələndirilməsi və konkret növ məhsullara görə vahid gömrük tarifləri qəbul edilir. Regionlaşmanın nəticəsi kimi konkret birlik daxilində muxtariyyatın (gömrük, ticarət, iqtisadi) saxlanması baş verir. Lakin bu zaman birlik (region) daxilində gömrük siyasəti əlaqələndirilir, vahid gömrük normativləri, vahid gömrük qanunları fəaliyyət göstərir.

Müasir ictimai həyatın, o çümlədən iqtisadi inkişafın əsas şərtlərindən biri onun şəffaflığının güclənməsidir. Keçən əsrin 80-cı və 90-cı illərində neft böhranı ilə əlaqədar protoksionizm meyillərinin tətbiqində dönüş baş verdi. Bunun nəticəsi kimi gömrük məhdudiyyətlərinin tədricən azalması və beynəlxalq iqtisadi münasibətlərin liberallaşdırılması zəruriliyi gücləndi.

Dünya iqtisadiyyatındakı bu yeniliklər hal- hazırda iki əsas istiqamətdə aparılır. Birinci istiqamət ticarət və maliyyə dövriyyəsinin liberallaşdırılması, iki və çoxtərəfli müqavilələrin bağlanmasından imtina edilməsidir.

İkinci istiqamət onlarca dövlətin daxil olduğu birliklərdə şəffaflığın meydana gəlməsidir. Qeyd etmək lazımdır ki, dünya ölkələrinin iqtisadiyyatının xaricə açıqlığının həm mənfi, həm də müsbət olan ümumi cəhətləri çoxdur. Belə ki, beynəlxalq rəqabət qarşısında hər cür məhdudiyyətləri aradan götürmüş milli iqtisadiyyat xarici təsərrüfat konyunkturasının dəyişikliklərinə qarşı, eləcə də sabitliyi pozan spekulyativ xarakterli amillərə qarşı çox həssas olur.

XX əsrin 90-cı illərində dünya ticarəti kəskin dəyişikliklərlə üzləşdi. Hal- hazırda elə bir milli iqtisadiyyat yoxdur ki, o dünya bazarının hər hansı bir seqmentindən bu və ya digər dərəcədə asılı olmasın. Bu asılılıq gömrük siyasətinin müvafiq səmərəli vasitələrinin axtarılmasını tələb edir. Nəticədə əvvəlki dövrlərlə müqayisədə gömrük siyasətinin roluna, onun funksiyalarına baxışlarda dəyişikliklər baş vermişdir. Gömrük siyasətində iqtisadi inkişafın tempi və meyilləri, eləcə də nəinki ayrı- ayrı müəssisələrin, eləcə də milli iqtisadiyyatların rəqabət qabiliyyətliliyindəki eyniliklər nəzərə alınmalıdır. Bu zaman ənənəvi iqtisadi siyasətlə fəaliyyət göstərmək imkanı məhdudlaşır. Belə ki, çox zaman fəaliyyətin etibarlı, klassik üsullarından istifadə etmək mümkün olmur. Bu halı tarif sisteminə də aid etmək olar. İqtisadi qloballaşma və regional inteqrasiya problemləri üzrə aparılan elmi diskussiyalarda əsas diqqətin aşağıdakı məsələlərə yönəldilməsi tələb edilir.

Birinci, iqtisadi qloballaşma və regional inteqrasiya proseslərinin inkişafı milli gömrük siyasətinin müstəqilliyinin azalmasına səbəb ola bilərmi? Həqiqətən qarşılıqlı ticarət asılılığı

şəraitində hər bir ölkənin gömrük siyasətinin səmərəliliyi gömrük tariflərinin müəyyənləşdirilməsində dövlətin sərbəstlik səviyyəsindən asılıdır. Yəni gömrük rüsumları o zaman güclü alətə çevrilir ki, hökumət onun dəyişdirilməsində sərbəsliyə malik olsun.

İkincisi, dünya iqtisadiyyatında baş verən proseslərə ölkənin həssaslığı necədir və bu həssaslıq necə dəyişir?

Üçüncüsü, dövlətlər arasındakı liberal ticarət siyasətindən irəli gələn sıx münasibətlər ayrı- ayrı milli iqtisadiyyatlar arasında ziddiyyətlərin artmasına səbəb ola bilərmi? Belə bir şəraitdə bu və ya digər ölkə tərəfindən həyata keçirilən korrupsiyalar həm dünya əmtəə axınına, həm də bütün beynəlxalq ticarət sisteminə təsir göstərə bilər. Bu zaman digər ölkələrdəki mövcud vəziyyətin pisləşməsi hesabına öz məqsədlərini həyata keçirmək imkanı yaranır. Bu isə dünya iqtisadiyyatındakı sabitliyi pozur.

Dördüncüsü, prinsipial gömrük məqsədlərinin həyata keçirilməsi konkret bir ölkə üçün çətinlik törətməyəcəkmi? Çünki, ümumi xarici ticarət siyasətinin formalaşması müxtəlif konsepsiyalar arasında kompromiss bir variantın seçilməsini və ümumi bir məqsədin işlənib hazırlanmasını tələb edir.

Əmtəə bazarının inkişafı və beynəlxalq ticarətin artması qloballaşmanın ən xarakterik xüsusiyyətidir. Müasir şəraitdə əvvəllər fəaliyyət göstərmiş bir çox qaydalar öz əhəmiyyətini itirmişdir. Bununla əlaqədar dünya ölkələri yeni qaydalarla hesablaşmalıdırlar. Qloballaşma ilə bağlı baş verən proseslərin dərk edilməsi ayrı- ayrı ölkələr üçün xərclərin minimumlaşdırılması və əksinə gəlirlərin artırılmasına imkan verəcəkdir. Dövlətin iqtisadi siyasəti bir tərəfdən qloballaşma proseslərini stimullaşdıra, digər tərəfdən isə onun inkişafını ləngidə bilər.

İqtisadi siyasətin tərkib hissəsi kimi gömrük siyasəti də göstərilən məqsədlərə tabedir. Belə ki, beynəlxalq ticarətin qloballaşması müasir gömrük rüsumlarının mahiyyətinin və funksiyalarının dəyişdirilməsinə səbəb ola bilən əsas hərəkətverici qüvvə kimi çıxış edir.

Fiskal siyasətin modernləşdirilməsi problemi hal- hazırda getdikcə aktuallaşmaqdadır. Bu məsələ əsasən xarici-iqtisadi fəaliyyətin gömrük-tarif tənzimlənməsi ilə əlaqədar beynəlxalq təşkilatlar tərəfindən qaldırılmışdır. Odur ki, XXI əsr üçün gömrük rüsumlarının modelləri tərtib olunur, dəqiq və səmərəli gömrük sistemini yaratmaq istəyində olan ölkələr üçün göstərişlər, tövsiyələr işlənib hazırlanır.

Fiskal siyasətin mahiyyətində də dəyişikliklər baş vermişdir. Hazırda fiskal siyasət beynəlxalq müqavilələri və gömrük konvensiyalarını pozanlara qarşı fəal iqtisadi və hüquqi tədbirlərin tətbiq edilməsi ilə yanaşı maksimum dərəcədə beynəlxalq əmtəə dövriyyəsini yüngülləşdirməlidir. Ölkələr, o cümlədən Azərbaycan Respublikası da öz gömrük sistemini tövsiyə olunan tələblərə uyğunlaşdırmasalar, onlar qlobal ticarət adlanan yeni dünya qaydalarından kənarda qala bilərlər.

Nəticə olaraq qeyd etməliyik ki, Azərbaycan Respublikası öz gömrük siyasətini beynəlxalq tələblərə uyğunlaşdırmaqla yanaşı öz iqtisadi inkişaf səviyyəsindən asılı olaraq formalaşdırmalıdır.

BİRBAŞA XARİCİ İNVESTİSİYALARIN CƏLB EDİLMƏSİ PROBLEMLƏRİ

Quliyev M.F.
Sumqayıt Dövlət Universiteti

İqtisadi inkişafın səviyyəsindən asılı olmayaraq ölkə iqtisadiyyatına investisiya qoyuluşu həmişə diqqət mərkəzində olan aktual problemlərdən biri hesab edilir. Qeyd edək ki, müstəqillik əldə etmiş və bazar iqtisadiyyatı sisteminə keçmiş respublikamız üçün bu problemin aktuallığı daha vacib sayılır. Yəni investisiya milli iqtisadiyyatın inkişafının mühüm maliyyə mənbəyi kimi çıxış edir. Bazar iqtisadiyyatı şəraitində rəqabətə tab gətirmək və rəqabət qabiliyyətli məhsul istehsal etmək üçün investisiya həcmini artırmaq və onu zəruri sahələrə yönəltmək lazımdır. Hal-hazırda investisiya proseslərinin aktivləşdirilməsi aktual və çətin həll olunanan makroiqtisadi problemlərdən hesab edilir. Belə ki, səmərəli investisiya mənbələrinin axtarılması, onların daha məqsədəuyğun sahələrə yönəldilməsi qarşıda duran ən mühim vəzifələrdən hesab edilir.

Azərbaycan Respublikasının müstəqilliyinin ilk illərində iqtisadiyyatın həm daxili, həm xarici investisiyalara böyük ehtiyacı var idi. O dövrkü iqtisadi mühiti nəzərə alsaq, daxili investisiyalar yalnız dövlətin həyata keçirdiyi investisiya layihələrindən ibarət idi. Həmin dövrdə Azərbaycan Respublikasının düşdüyü çətinliklər daxili investisiya qoyuluşlarını çətinləşdirirdi. Bu baxımdan müxtəlif təbii sərvətlərə

malik ölkənin resurslarının emalı və dünya bazarına çıxarılması xarici investisiyanın cəlb olunmasını mühüm zərurətə çevirmişdir.

Bu baxımdan 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması xarici investisiyanın cəlb olunmasının əsas mərhələsi kimi özünü göstərdi. Hazırda da bir çox ölkələr və maliyyə-kredit təşkilatları əsasən Azərbaycanın neft-qaz sənayesinə investisiya qoyuluşları edirlər. Xarici investisiya qoyuluşları həm ölkənin istehsal imkanlarını artırır, həm də ölkəyə xarici valyutanın daxil olmasına səbəb olur.

Ümumiyyətlə, ölkə iqtisadiyyatına birbaşa xarici investisiyaların həcmini əhəmiyyətli dərəcədə artırmağa, xarici investisiyaların cəlb edilməsi üzrə kompleks dövlət proqramının işlənməsi yolu ilə nail olmaq mümkündür. Bir sıra ölkələrin təcrübəsini nəzərə alaraq, bu istiqamətdə Azərbaycan üçün zəruri olan tədbirlər sırasına ümumi siyasi və makroiqtisadi vəziyyətlə yanaşı, aşağıdakılar da daxil olmalıdır:

- təsərrüfat subyektləri arasında, həmçinin respublika və yerli hakimiyyət strukturları arasında mülkiyyətin dəqiq müəyyən edilməsi;
- konsessiyalar və məhsul bölgüsü üzrə normativ baza da daxil edilməklə, sabit iqtisadi və xarici ticarət qanunvericiliyinin yaradılması;
- xarici investisiyaların sığorta mexanizmlərinin yaradılması.

Xarici investorların cəlb edilməsində dünyanın başqa ölkələri tərəfindən yüksək rəqabət şəraitində bu amil Azərbaycan Respublikasına yaxın gələcəkdə birbaşa xarici investisiya qoyuluşunun xeyli kəmiyyət artımını və strukturunun dəyişdirilməsini gözləməyə imkan verir və müəyyən proporsional artım müşahidə olunur.

Xarici investisiyaların Azərbaycan iqtisadiyyatının bütün sahələrinə düzgün istiqamətləndirilməsində əsas məqsəd milli iqtisadiyyatın inkişafına təkan verməkdir.

Ölkənin iqtisadi inkişafı prosesində birbaşa xarici investisiyanın stimullaşdırıcı rolu danılmazdır. Beynəlxalq təcrübə göstərir ki, xarici investisiya milli sənayenin inkişafına kömək edir, yeni iş yerləri yaradaraq qismən işsizlik problemini həll edir, daxili bazarda təsərrüfat subyektlərini istehsal etdikləri mal və xidmətlərin keyfiyyətinin yüksəldilməsini stimullaşdıraraq onları beynəlxalq standartlara uyğun fəaliyyət göstərməyə məcbur edir. Azərbaycanda birbaşa xarici investisiyanın əsas formalarından biri xarici və müştərək müəssisələrin fəaliyyətidir. Dövlət xarici iqtisadi əlaqələrin inkişafı, birbaşa xarici investisiyanın ölkə iqtisadiyyatına cəlb edilməsi işinin gücləndirilməsi və dünya təcrübəsindən istifadə olunması üçün məqsədyönlü tədbirlər görür. Birgə müəssisələrin yaradılması yolu ilə xarici investisiyanın cəlb edilməsi ölkə iqtisadiyyatında nəzərə çarpacaq rol oynamasa da, artıq onun inkişaf etdirilməsinin möhkəm əsasları formalaşdırılmışdır.

Dövlət Statistika Komitəsinin 2014-cü il yanvarın 1-nə olan məlumatlarına əsasən Azərbaycanda təsərrüfat suyektlərinin 79,8%-in xüsusi, 10,6%-i dövlət, 5,7%-i xarici, 2%-i bələdiyyə, 1,9%-i birgə mülkiyyətdədir. Tam xarici investisiyalı və birgə müəssisələrin 34%-i Türkiyəyə, 9,9%- Böyük Britaniyaya, 7,3%-i Rusiyaya, 5,8%-i İrana, 3,9%-i ABŞ-a, 2,4%-i Almaniyaya və 36,7%-i digər ölkələrə məxsusdur. Bütövlükdə Azərbaycanda 6500-dən çox xarici investisiyalı və birgə müəssisə fəaliyyət göstərir.

Davamlı iqtisadi artımın zəruri şərti kimi ölkədə investisiya fəaliyyətinin canlandırılmasında nəzərə çarpacaq meyl xarici investisiyanın ölkə iqtisadiyyatına axınıdır. Təcrübə göstərir ki, birbaşa xarici investisiyanı qəbul edən ölkə ondan real fayda əldə edir. Belə ki, ölkənin investisiya resurslarını artırır, ölkə daxilində müasir texnologiyanın genişlənməsini, sahibkarlığın və idarəetmənin yeni qaydalarının və mədəniyyətinin formalaşmasını stimullaşdırır, habelə milli iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin güclü amilinə çevrilir.

Azərbaycanın investisiya cəlbediciliyinin yüksəldilməsi vergi siyasətini təkmilləşdirmədən mümkün deyildir. Ölkə iqtisadçılarının fikrincə, vergiləri aşağı salmaqla xarici investisiyaların stimullaşdırılmasına birmənalı yanaşmanı qəbul etmək olmaz. Xarici investisiyalara verilən güzəştlər rəqabət qabiliyyətliliyi, yüksək texnoloji, ekoloji və s. səviyyəliliyi nöqteyi-nəzərindən müəyyən tələblərlə şərtlənməlidir. Vergilərin, tarif və güzəştlərin səviyyəsini müəyyən edərkən rəqib ölkələrində mövcud olan investisiyalaşma şərtləri araşdırılmalı, Azərbaycanın əsas tərəfdaş ölkələrlə və potensial investor ölkələri ilə vergi və digər müqavilələr bağlaması təmin edilməlidir.

Birbaşa xarici investisiyanın mühüm əhəmiyyətini qəbul etməklə yanaşı onun neqativ nəticələri də unudulmamalıdır. Məlumdur ki, özünün iqtisadi inkişafının əsas dayaqlarını tədricən formalaşdıran gənc dövlət üçün bazar strukturlarının kifayət qədər inkişaf etməməsi, institusional infrastrukturun və dövlətin tənzimləyici rolunun zəif olması qaçılmaz reallıqlardır. Məhz belə şəraitdə xarici investisiyanı cəlb etməklə ölkə daxilində iqtisadi resurslardan səmərəli istifadəni təmin edərək bütün problemlərin avtomatik həll olunacağını birmənalı qəbul etmək düzgün olmazdı. Odur ki, Azərbaycan dövləti xarici

investisiyanın mümkün neqativ nəticələrindən özünü qorumaq üçün investisiya siyasətində daxili mənbələri prioritet istiqamət kimi qəbul etməlidir. İqtisadi inkişafın başlanğıc mərhələsində Azərbaycan hökumətinin həyata keçirdiyi düşünülmüş və məqsədyönlü sosial-iqtisadi siyasəti perspektivdə investisiyanın maliyyələşdirilməsində daxili mənbələrin aparıcı rol oynamasının potensial imkanlarını formalaşdırmışdır. Onu da qeyd edək ki, səmərəli və rəqabət qabiliyyətli Azərbaycan iqtisadiyyatının formalaşdırılması daim irəliləyən bir hədəfdir. Odur ki, sosial-iqtisadi islahatları dinamik və uğurla həyata keçirən Azərbaycan hökumətinin bu hədəfə doğru daha inamla getməsi üçün növbəti mərhələdəki investisiya siyasətində qeyd edilən daxili potensial imkanların reallaşdırılmasına artıq nail olmaqdadır. Başqa sözlə desək, daha böyük uğurlar əldə etmək üçün həyata keçiriləcək investisiya siyasətinə sistemlilik və konseptuallıq xarakteri verməklə onun maliyyələşdirilməsi mənbələri arasında optimal nisbətin formalaşdırılması günün vacib məsələlərindən biridir.

Müstəqillik dövründən indiyə qədər xarici investisiyalar hesabına ölkə iqtisadiyyatında mühüm dəyişikliklər baş vermişdir. Bu həm istehsalın güclənməsinə, həm də dövlət büdcəsinin gəlirlərini artmasına səbəb olmuşdur ki, hazırda Azərbaycan Respublikası bir sıra mühüm investisiya layihələrini öz dövlət büdcəsi hesabına maliyyələşdirir.

AZƏRBAYCANIN NEFT GƏLİRLƏRİNİN ÖLKƏ İQTİSADİYYATINA TƏSİRİ MƏSƏLƏLƏRİ

Bayramova F.S.
Sumqayıt Dövlət Universiteti

XXI əsrin vacib tarixi hadisələri arasında neft ehtiyatlarının,neft gəlirlərinin xüsusi rolunun tədqiq olunması və ilkin enerji resurslarının müxtəlif növlərinin istifadəsi xüsusi qeyd edilir. Müasir dövrdə mövcud olan ənənədən kömürün istehlakının pazalmasını, neftin və nüvə enerjisinin az istehlakının, qaz və alternativ enerji mənbərinin isə (günəş, külək, geotermik güc) istehlakının artmasını proqnozlaşdırırlar.

Azərbaycan ilkin (əsas) enerji istehlakı, o cümlədən neft resurslarının strukturunun formalaşmasında dünyada əhəmiyyətli rol oynamışdır və hal-hazırda da bu fakt böyük əhəmiyət kəsb etməkdədir.

XXI əsrin əvvəli Azərbaycanda neft və qaz hasilatının yeni əhəmiyyətli artımı ilə qeyd edilir. XX əsrdə Azərbaycanda 1.5 milyard ton neft və 500 milyard m3 qaz istehsal edilmişdir. İşlənmiş, perspektivli və müəyyən olunmuş ehtiyatlar da daxil olmaqla , qazın 2336 milyard m3 və kommersiya qazının 181milyard m3-i ADNŞ-ə (SOCAR) məxsusdur .

XXI əsrdə karbohidrogen istehsalının azalması və yataqların tükənməsi hal -hazırda Rusiya ABŞ, Fars körfəzində və s. istismar olunan yataqlarda proqnozlaşdırılır. Bu fonda o aşkar olur ki, Azərbaycan, Xəzər regionunun geniş enerji potensialının istifadəsi xüsusilə həyatın tələbatıdır. İlkin karbohidrogen ehtiyyatlarının inkişafı 3 istiqamətdə qeyd edilir: 1) qədim neft və qazəməlgələn regionların mövcudluğu 2) orta şəraitli regionlar 3) yeni kəşf olunmuş yataqlar Cənubi Xəzər çökəkliyinin qərb və şərq hissələrində neft və qaz yataqları uzun illər ərzində istifadə olunmuşdur, amma hələ də bu su hövzəsində yüzlərlə qazılmamış struktur qalmışdır ki, bu da 2-ci istiqamət xəttinin Azərbaycanın perspektivli dəniz strukturuna daha adekvat olduğunu müəyyən edir. Bu istiqamətə əsasən, proqnozlaşdırılan karbohidrogen yataqları 80 il ərzində, yəni XXI əsrin sonuna yaxın inkişaf edə bilər.

Azərbaycanda neft ehtiyatlarının istismarından əldə edilən gəlirlərin iqtisadiyyatın inkişafında böyük rolu vardır. Neft gəlirləri dövlətin büdcə gəlirlərinin yarıdan çoxunu təşkil edir.Azərbaycanın makroiqtisadi göstəricilərində,xüsusən ümumdaxili məhsulun payında, sənayeləşmədə,büdcə gəlirlərinin formalaşmasında,xarici ticarətdə və digər əsas makroiqtisadi göstəricilərdə neftin çox ağırlığından da danışmaq olar.Belə şəraitdə neftdən gələn transfer gəlirlərinin digər sektorlarla konpensansiya edilməsi daha məqsədə uyğundur.

Neft gəlirləri və gəlirlərin təsiri iqtisadi iqlim sərf edən ölkələr üçün neftin ixracı böyük əhəmiyyət kəsb edir.Neftin qiymətinin yüksəlməsi ölkəmiz üçün əlverişli imkan kimi görünür,bununla əlaqədar xarici valyuta gəlirlərinin artmasını müsbət nəticə kimi göstərmək olar.Belə bir gəlir mənbəyinin idarə edilməsi,hökumətin qarşısında duran ciddi bir problem kimi meydana çıxır. Neftdən asılı iqtisadiyyat,gəlirlərin artımı ölkə iqtisadiyyatında kiçik dəyişikliklərə çox həssas təsir edir.Neft hazırda yeganə ən mühüm və hələ ən çox siyasi,həssas əmtəə məhsuludur.Buna görə,neftlə zəngin ölkələrdə neft

siyasəti milli siyasətin ən əsas hissəsini təşkil edir.Neft qeyri-neft sektorlarının artımı ilə müqayisədə əhəmiyyətli sayıla bilər.Belə bir fenomenin olması mümkündür.

Neftdən gələn gəlirlərin qeyri-neft sektorunun ayrı-ayrı sahələri üzrə inkişafına yönəlməsi təqdirə layiqdir.Görüləcək işlər 20 il ərzində neftdən gələn gəlirlərin,ölkə iqtisadiyyatının diversifikasiyası,qeyri-neft sektorunda canlanma üçün əhəmiyyətli hesab etmək olar.Azərbaycanda neftdən əldə olunan gəlirlər qeyri-neft sektorundakı iqtisadi artım tempini ləngidə və rəqabət qabiliyyətini zəiflədə də bilər.Neftin enerji daşıyıcı və bir sıra iqtisadi işlərin önündə durduğu üçün investisiyaların demək olar ki,qeyri-neft sektorunun inkişafına doğru dərəcədə təsir etmədiyini qeyd etmək olar.

Azərbaycanda neftdən gələn büdcə daxilolmaların,adambaşına düşən gəlirlərin çoxalmasına, iqtisadiyyatın dinamik inkişafına müsbət təsir göstərir.Sənayedə neft sənayesinin payının qeyri-neft sənayesinə nisbətdə yüksək həddə olması, ölkə iqtisadiyyatında diversifikasiyalaşamanın mənfi halı kimi dəyərləndirmək olar.Sənayedə kənd təsərrüfatı sektorunun,yüngül sənayenin,yeyinti sanayesinin demək olar ki,az olması yerli bazarda xarici məhsulların olması ilə və ixracatın qeyri-neft sektoru üzrə aparılmamasını iqtisadi problem kimi şərh etmək olar.İxracda müsbət saldonu demək olar ki,neft və qaz ixracatı üstələyir.Bu da neftin tükənəcəyi təqdirdə ixracımızın zəifləyəcəyinin və bir sıra çatışmazlıqların olacağından xəbər verir.İxrac və idxal əməliyyatlarını qeyri-neft sektoru üzrə stimullaşdırmaq,xarici və daxili investisiyaları bu sektor üzrə paylanmasını təmin etmək Azərbaycan iqtisadiyyatının inkişaf potensialında görüləcək ən vacib işlərdən biri kimi hesab etmək olar.

Şərti iqtisadi nəzəriyyəyə əsaslanaraq,təbii resurslardan əldə olunan gəlirləri digər sektorlarla sabitləşdirmək və qeyri-mütənasibliyi aradan qaldırmaq mümkündür.Neft gəlirlərindən digər sektorların asılılığı iqtisadiyyatda iqtisadi burulğanlıq yardaır.İqtisadiyyatda infrastruktur sisteminin yetərli şəkildə inkişaf etdirilməsi, nəticə olaraq iqtisadiyyatın investisiya cəlbediciliyinin yüksəldilməsində neft sektorunun və qeyri-neft sektorunun inkişafının əlverişli göstəricisidir.Neftdən gələn gəlirlərin bir növ arxayınlıq yaratma ehtimalı vardır.”Bunun müşahidə olunması yoxdur” demək də olmaz.Demək olar ki,iqtisadi qeyri-mütənasibliyin və bərabərsizliyin yaranmasında neftdən daxil olan gəlirlərin təsirindən meydana çıxdığını qeyd etmək olar.

Nəticə olaraq onu da qeyd etmək olar ki,neftdən gələn gəlirlərin qeyri-neft sektorunun inkişaf etdirilməsinə yönləndirmək,həm siyasi, həm də iqtisadi baxımdan,ölkə iqtisadiyyatının çox şaxəli şəkildə dinamik inkişafına və büdcə gəlirlərinin neftdən asılılığının qarşısının alınmasında daha məqsədəyönlü istiqamət ola bilər.

ASİYA SAKİT OKEAN İQTİSADİ ƏMƏKDAŞLIĞI (ASİƏ)

Sazoğlu Önder Tahir
Sumqayıt Dövlət Universiteti

Asiya-Sakit okean iqtisadi əməkdaşlığı forumu 1989-cu ildə hökumətlərarası assosiasiya kimi yaradılmışdır. Təşkil edildiyi 1989-cu ildə Sakit okean hövzəsinin 6 inkişaf etmiş ölkəsini-Avstraliya, Kanada, Yeni Zellandiya, ABŞ, Cənubi Koreya, Yaponiya və Cənubi-Şərqi Asiya dövlətləri assosiasiyasının 6 inkişaf etməkdə olan ölkəsini Bruney, İndoneziya, Malayziya, Sinqapur, Tailand və Filippini birləşdirirdi. 1997-ci ildə artıq Sakit Okean regionunun bütün ölkələri ASİƏ-nin üzvü idilər: Honq-Konq (1993), ÇXR (1993), Meksika (1994), Panya-Yeni Qvineya (1994), Tayvan (1993), Çili (1995).

1998-ci ildə Rusiya, Vyetnam və Peru da ASİƏ-na üzv oldular və həmin vaxtda forumun tərkibinin genişlənməsinə 10 illik maratoriya qoyuldu. ASİƏ-na daxil olmaq üçün Hindistan və Monqoliya ərizə vermişlər.

1990-cı ildən ASİƏ üzv ölkələrin ticarət, investisiya və maliyyə sahəsində səylərini əlaqələndirən mürəkkəb milli üstqurum institutuna çevrilmişdir.

ASİƏ-nın bəyan edilən məqsədlərinə Asiya-Sakit okean regionu (ASOR) ölkələrinin dinamik iqtisadi inkişafının müdafiə olunması və danışıqlar mexanizmi vasitəsilə bu sahədə liberallaşma üzrə fəaliyyətin həyata keçirilməsi daxildir. ASİƏ-nın əsas təyinatı regional ticarət və investisiya qaydalarının müəyyənləşdirilməsidir.

Baxmayaraq ki, ASİƏ özünün nizamnaməsinə malik deyil və formal olaraq konsultativ xarakter daşıyır, faktiki olaraq onun işçi orqanları çərçivəsində regional ticarətin,maliyyə və investisiya fəaliyyətinin həyata keçirilməsi qaydaları işlənilir,müxtəlif sahələrdə əməkdaşlıq məsələləri özrə sahə

nazirlikləri və ekspertlərinin görüşləri keçirilir. Belə orqanlar sırasına ticarət və investisiya üzrə Komitə,İqtisadi Komitə, investisiyalar, sənayedə elmi-tədqiqat işləri və texnilogiyalar, telekommunikasiya, nəqliyyat, insan ehtiyatlarının inkişafı, enerji sahəsində əməkdaşlıq, ticarət və investisiya ehtiyatlarının saxlanılması, balıqçılıq, turizm üzrə işçi qruplar, kiçik və orta sahibkarlıq üzrə qrup,eləcə də təhsil fondu daxildir.

ASİƏ ölkələrinin dünya ticarətində payı 40 faiz və qızıl valyuta ehtiyatlarında 80 faiz təşkil edir. ASİƏ-nin strukturlaşması,büdcə sahəsində qarşılıqlı iqtisadi əməkdaşlığın dərinləşməsi üzrə layihələrin işlənilməsi, bu regionda əmtəə və xidmətlər üzrə azad ticarət zonasının yaradılmasını gündəmə gətirdi. Bununla əlaqədar olaraq 1994-cü ildə Boqor zirvə toplantısında ASİƏ-na daxil olan inkişaf etmiş ölkələr üçün 2010-cu, inkişaf etməkdə olan ölkələr üçün isə 2020-ci ildə əmtəə,xidmətlər və investisiyanın sərbəst hərəkəti üçün azad ticarət zonalarının yaradılmasının məqsədləri müəyyənləşdirilirdi.

Bu prosesin "birtərəfli razılaşma" əsasında hayata keçirilməsi nəzərdə tutulur. Bu qərar ASİƏ-inin bəyannaməsində əks olunmuşdur. Qoyulan məsələlərin həllinə nail olunması üçün forumun işlənilmiş vahid planı yoxdur. Hər bir ölkə iqtisadiyyatın müxtəlif sahələri, o cümlədən ticarətin liberallaşdırılması sahəsində belə planların işlənilməsini müstəqil şəkildə həyata keçirir. Lakin belə qərar qəbul edilmişdir ki, hər il iqtisadi vəziyyətin icmal şəkildə müzakirəsi həyata keçirilsin.

Birinci belə bir icmal məruzə ASİƏ-ın 1997-ci ilin noyabrında Vankuverdə ali səviyyədə keçirilən görüşdə müzakirə edilmişdir. Məruzənin konsepsiyası ticarət güzəştləri strategiyasından fərqli olaraq, ticarətin liberallaşdırılmasının "Asiya strategiyası" adlandırılmışdır. Asiya strategiyasına müvafiq olaraq ASİƏ-də gömrük maneələrinin azaldılması ÜTT-da əldə edilmiş razılaşma əsasında həyata keçiriləcəkdir. Belə bir inkişaf üçün artıq əvvəlki illərdə əsas yaradılmışdır. Belə ki, 1988-2000-ci illər ərzində ASİƏ ölkələri arasında idxalın orta tarifi 15,4 faizdən 9,3 faizə endirilmişdir ki, bunun da nəticəsində qarşılıqlı ticarətin həcmi sürətlə artmağa başlamışdır.

Bir sıra ölkələr, məsələn ASİƏ-ın yaradıcılarından və əsas fəaliyyətdə olan subyektlərindən biri ABŞ hesab edir ki, birliyin bugünkü durumu üzv ölkələrin marağına cavab vermir. ABŞ-ın fikrincə ASİƏ-ın daha da inkişaf etməsi üçün aşağıdakıların həyata keçirilməsi zəruridir: müəyyən səlahiyyətli təsir mexanizmi yaradılmalıdır; hər bir ölkənin müstəqil qərar qəbul etməsi prinsipindən imtina edilməlidir; inteqrasiya prosesinin çərçivəsi ciddi şəkildə müəyyənləşdirilməlidir; qəbul olunan qərarlar mütləq yerinə yetirilməlidir. Həqiqətən də ABŞ-ın bu təklifləri həyata keçirilirsə, onda ASİƏ ona daxil olan ölkənin real inteqrasiya qruplaşmasına çevrilə bilər. ABŞ inadkarliqla ASİƏ haqqında saziş çərçivəsində ticarətin tam liberallaşdırılmasının həyata keçirilməsi xəttini yeridir.

Hətta ASİƏ çərçivəsində nail olunmuş xarici-iqtisadi əlaqələrin liberallaşdırılmasının hazırkı səviyyəsi belə, ABŞ-ın xarici ticarətinin artımına gətirib çıxarmışdır. Belə ki, ASİƏ ölkələrinə ABŞ-ın ixracının payı 1986-cı ildəki 51 faizdən, 2005-ci ildə 76 faizə, 2007-ci ildə isə 78 faizə çatmışdır. Bundan əlavə regionda Amerika şirkətlərinin investisiya fəaliyyəti üçün əlverişli şərait yaradılmışdır.

ASİƏ-nın gələcəyi barədə ABŞ-a qarşı çıxış edən oponentlərdən biri Çindir. Burada Çin yalnız Amerika şirkətləri tərəfindən rəqabətlə qarşılaşacağı ilə deyil, həm də özünün bazarlarının ABŞ-ın təcavüzkar siyasətindən qorunmamasından ehtiyat edir. Çin tərəfi ASİƏ çərçivəsində tarif və qeyri-tarif maneələrinin ləğv olunmasının XXI əsrin birinci on illiyinin axırında həyata keçirilməsini zəruri hesab edir.

ASOR-nun perspektiv inkişafı nöqteyi nəzərindən bir qayda olaraq ASİƏ-nın inkişafının üç variantına baxılır:

Birinci variant onu nəzərdə tutur ki, ASİƏ Boqor bəyannaməsində nəzərdə tutulan yolla gedecekdir, yəni o özünün hazırki statusunu dəyişmədən, təşkilat kimi deyil, forum kimi fəaliyyət göstərəcəkdir.

İkinci ən çox ehtimal olunan variant, Sakit okean hövzəsində iqtisadi sahədə qarşılıqlı münasibətlərlə əlaqədar problemləri həll etmək üçün, ASİƏ-ın forum rolunu ounayacağını təsbit edir. Bu halda güclü analitik aparatın formalaşdırılması hesabına forumun fəaliyyətinin daha məqsədyönlü xarakter alacağı nəzərdə tutulur. Düzdür, bu halda indiyədək əldə olunmuş razılaşdırmaların yerinə yetirilməsinin gedişi barədə mübahisələr yarana bilər ki, bunu da nizamnamə xarakterli bir sıra dəyişikliklərlə aradan qaldırmaq olar.

Üçüncü variant, ABŞ və Qərbi Avropa himayədarlıq əhval-ruhiyyəsinin üstünlük təşkil edəcəyi imkanları ilə əlaqədardır ki, bu dünya iqtisadiyyatının sürətlə liberallaşmasına maneçilik törədəcək və iqtisadi əlaqələrin qlobal sisteminin regional bloklara parçalanması təhlükəsini yaradacaqdır. Bu halda Asiyada ASEAN çərçivəsində azad ticarət zonalarının yaradılması və ya əməkdaşlığı genişləndirilməsi

mühüm əhəmiyyət kəsb edəcəkdir. Bu da əsas etibarilə bunların Asiyadan olan iştirakçıları arasında baş verəcəkdir.

Qeyd edilənlərlə əlaqədar olaraq Asiyada inteqrasiya prosesinin gedişinə yekun vuraraq aşağıdakı xüsusiyyətləri qeyd etmək istəyirəm:

- Son dövrlərdə dünya iqtisadiyyatında ASOR ölkələrinin xüsusi çəkisinin sürətlə artması müşahidə olunur. Dünya ÜDM-nun 60 faizi bu ölkələrin payına düşür. Region daxili ticarət və investisiya axını üstün templə artır. Əgər 1960-cı illərdə bu regionun ölkələri xarici ticarətdə Avropaya istiqamətlənmişdilərsə, XXI əsrin əvvəllərindən qarşılıqlı ticarət dövriyyəsinin kəskin artımı müşahidə olunur.

- Bu dinamikanın saxlanılması və dünya iqtisadiyyatında baş verən texnoloji və maliyyə amillərini təsirinə vaxtında uyğunlaşmaq üçün ASOR-nun bir çox inkişaf etməkdə olan ölkələri dövlətin tənzimləyici rolunda dəyişikliklər də daxil edilməklə iqtisadi islahatlar keçirilməsi yolunu tutur, bank sahəsində dəyişikliklər aparılır, xarici ticarəti və xarici investisiyaları liberallaşdırılır. Latın Amerikasından fərqli olaraq Cənub-Şərqi Asiyada ticarətin liberallaşdırılması təmamilə ayrı-seçkilik olmadan həyata keçirilir və bu region daxili ticarətin yüksək sürətlə artmasına imkan yaradır.

AZƏRBAYCAN NEFTİNİN İNKİŞAF TARİXİ

Əliyev N.N.
Sumqayıt Dövlət Universiteti

Azərybaycan qədim zamanlardan bəri öz nefti ilə məşhurdur. Hələ eramızdan əvvəl yerdən qalxan təbii qaza və neftə görə bu torpağı "odlar diyarı" adlandırırdılar. Lakin ölkədə əsil neft bunu XIX əsrin sonu – XX əsrin əvvəllərinə təsadüf edir. Həmin dövrdə Rotşild və Nobel qardaşları, eləcə də Rusiya imperiyasının neft sənayeçiləri Bakı nefti sayəsində inkişaf edirdi. Sonra isə "qara qızıl" yataqlarının işlənməsi və hasilatı məsələlərinə Moskvada oturan Partiya funksionerləri rəhbərlik edirdilər. Yalnız 1990-cı illərin əvvəllərində ölkə müstəqillik qazandıqdan sonra azərbaycanlılar öz təbii ehtiyatlarına sahib çıxa bildilər.

Azərbaycan neftinin tarixi kökləri çox qədim dövrlərə gedib çıxır. Ərəb tarixçiləri, coğrafiyaşünasları və səyyahlarından Əhməd Əl-Bəlaruri (IX əsr) Abşerondakı iqtisadi həyatın qədimdən neftlə bağlı olduğunu göstərmiş, Əbu-İshaq İstəxri (XI-X əsrlər), Əbu-d-Həsən Əli Məsudi (X əsr) Bakının neftli torpağı, Abşeronun "ağ" və "qara" nefti haqqında məlumat vermişdir. İtalyan səyyəhı Marko Polo (XIII-XIV əsrlər) Bakı neftinin yaxın Şərq ölkələrinə aparılması, alman diplomatı və səyyahı Adam Oleari (XVII əsr) Bakıdakı neft quyuları, türk səyyahı Övliya Çələbi (XVII əsr) neft mədənləri, neftin İrana, Orta Asiyaya, Türkiyəyə və Hindistana aparılması və neftin gətirdiyi illik gəlir haqqında məlumat vermişdir. Balaxanıdakı neft quyularından birində aşkar edilmiş daş üzərindəki yazı quyunun (35 m dərinliyində) hələ 1594-cü ildə usta Allahyar Məmmədnur oğlu tərəfindən qazılıb istifadəyə verildiyi göstərilir. Əmin Əhməd Razinin (İran, 1601) məlumatına görə XVI əsrin əvvəllərində Bakı ətrafında 500-ə qədər belə neft çalaları və quyusu mövcud idi ki, bunlardan da həm "qara", həm də "ağ" neft çıxarılırdı. Alman səyyahı, həkim və təbiətşünası Engelbert Kempfer İsveç səfirliyinin katibi kimi 1683-cü ildə Abşeron yarımadasında Balaxanı, Binəqədi, Suraxanı yataqlarında olmuş, neftin Abşeron yarımadasından İrana, Orta Asiyaya və Şimali Qafqaza aparılmasını təsvir etmişdir. 1803-cü (1798) ildə Bakı sakini Qasımbəy Mənsurbəyov Bibiheybət yaxınlığında, dənizdə, sahildən 18 m və 30 m aralı iki neft quyusu qazdırmışdır.Azərbaycan neft sənayesinin inkişaf tarixində bir neçə mərhələlər ayrılır ki, bunların da hər birinin özünəməxsus nailiyyətləri olmuşdur. XVI əsrdə neft artıq 30 m dərinlikdən çıxarılırdı. İstehsal Balaxanı sahəsində cəmlənmişdi. Tələbatın artması ilə əlaqədar olaraq neft istehsalı Binəqədi, Suraxanı, Bibiheybət sahələrinə qayıtmalı olur. 1735-ci ildə 122 min t artımla 220 min t neft çıxarılmışdı. 1798-ci ildə Bibiheybət yaxınlığında dənizdə iki neft quyusu qazıldı. Bu fakt dəniz qazımasının əsası, dəniz neft istehsalının özülü idi.

Bir sıra beynəlxalq qurumlar dünya ölkələrində neft ehtiyatları ilə bağlı müxtəlif mülahizə irəli sürür. Bu sahədə aparılan son hesablamaların birinə görə, bütün dünyadakı neft ehtiyatları 1 trilyon 637 milyard barrelə çatır ki, neft hasilatının hazırkı templəri şəraitində ən azı 2062-ci ilə qədər dünyada neft ehtiyatı var. Amma 2062-ci ilin özü də nisbi rəqəmdir, çünki bu sahədəki təsdiq edilmiş ehtiyatlar və proqnoz göstəriciləri ilbəil dəyişərək artması müşahidə olunur. Məsələn, BP şirkətinin 2013-cü il üçün

hazırladığı qlobal neft ehtiyatları hesabatında göstərilir ki, dünya neft ehtiyatları təxminən 1,7 trilyon barrelə çatıb ki,bu da dünyada 53 il istifadə oluna biləcək qədər neft ehtiyatlarının mövcudluğu deməkdir.

Bu cür hesabatlarda Azərbaycan ən çox neft ehtiyatı olan ölkələr sırasındadır. Beynəlxalq səviyyədə açıqlamalarda göstərilir ki, Azərbaycanda təsdiq edilmiş neft ehtiyatlarına görə, neftlə ən zəngin 20 ölkə arasında 17-ci yeri tutur. Düzdür, Azərbaycanın sübut edilmiş neft ehtiyatları 2 mlrd ton və və qaz ehtiyatları 2,55 trilyon kub metrdir. Bundan əlavə ölkəmizin proqnozlaşdırılan neft ehtiyatları 2 mlrd ton və qaz-3,45 trilyon kub metrdir. Ona görə də əslində Azərbaycanın təsdiq olunmuş və hasil edilə biləcək karbohidrogen ehtiyatlarının həcmi 4,5 mlrd. ton şərti yanacaq təşkil edir ki, bu da 1 tonu 7,14 barrel nisbətində götürüb hesablama aparsaq,həmin sənədlərdə göstərildiyi kimi,14 milyard yox, 32 milyard bareldən çox etməklə, Azərbaycanı 12-ci yerə çıxarır. Azərbaycanın neft və qaz üzrə proqnoz ehtiyatları isə 10 milyard ton (4,5-5 milyard ton neft, 6 trilyon kub metr təbii qaz) səviyyəsindədir ki, bu da 100 ildən artıq bir dövr üçün yetərlidir.

Hazırda Azərbaycan İkinci Neft Bumu dövrünü yaşayır. Azəri-Çıraq-Günəşli yatağı üzrə neft hasilatı pik həddinə çatıb, sabitləşmə və tədricən enmə mərhələsinə keçib. Amma hələlik həmin yataqdan 400 milyon tonun altında neft hasil olunduğundan, yataqda hələ bundan qat-qat artıq neft var. Əvvəllər ARDNŞ hesablamışdı ki, AÇG-də 923 mln ton neft və 250 mlrd m3 qaz var. Rəsmi məlumatlara görə Azərbaycan geoloqları "Azəri-Çıraq-Günəşli" layihəsi çərçivəsində yeni karbohidrogen yataqları aşkarlayıblar. AÇG kontrakt meydançasında onların həcmi 1 mlrd ton neft və 350 mlrd m3 qazdır. Ona görə də Azərbaycanın hətta bir əsas neft və bir qaz yatağının timsalında demək olar ki, ölkəmiz uzunmüddətli perspektiv üçün energetika təhlükəsizliyini təmin etmişdir. Amma Azərbaycanın ehtiyatları təkcə AÇG neft və Şahdəniz qaz yatağı ilə məhdudlaşmır.

Azərbaycan özünün enerji təhlükəsizliyi ilə yanaşı, Avropanın, Türkiyənin və Gürcüstanın da enerji təhlükəsizlinin təmin edilməsində mühüm rol oynayır. TANAP-ın işə düşməsindən sonra Azərbaycanın bu sahədəki önəmi daha da artacaq.

O ki, qaldı Azərbaycanın neft ixrac edən edən ölkədən- neft idxal edən ölkəyə çevrilməsinə, Azərbaycandakı hasilat hələ uzun müddət daxili tələbatı ödəməyə kifayət edəcək. Amma Azərbaycan xam neft hasil edən ölkədən neft məhsulları ishehsalını genişləndirən və xaricə həm də neft məhsulları satmaq siyasətinə keçmək istəsə, neft hasilatının istənilən səviyyəsində, istənilən vaxt xaricdən xam neft alıb emal edə bilər. Amma bu, neft ixrac edən ölkədən neft idxal edən ölkəyə çevrilmək yox, həm xam neft, həm də neft məhsulları ixrac edən ölkəyə çevrilmək demək olardı....

Neft - Azərbaycanın mühüm sərvəti, iqtisadiyyatımızın inkişafının təkanverici qüvvəsi olmaqla yanaşı, hazırda Azərbaycan neftdənkənar sahələrin inkişafına böyük önəm verməyə başlayıb. Eyni zamanda alternativ energetikanın inkişafı Azərbaycan üçün gələcək strategiya və ətraf mühitin qorunması və ekoloji tarazlığının təmin edilməsi baxımından da getdikcə aktuallaşır.

KƏND TƏSƏRRÜFATININ İNKİŞAFINDA LİZİNQ ƏMƏLİYYATLARININ SƏMƏRƏLİLİYİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

Feyziyeva Ü.E.
Azərbaycan Dövlət İqtisad Universiteti

Azərbaycan Respublikasının aqrar sahəsindəistifadə edilən texnikanın mənəvi və fiziki cəhətdən xeyli köhnəlməsi nəticəsində son illərdə texniki potensialın azalması meyli maşın vəavadanlıqların yeniləşməsi üçün imkanlar axtarışını zəruri edirdi.Müasir iqtisadi şəraitdə maşın-traktor parkının faktiki yeniləşmə əmsalının normativdən 35-40 faiz aşağı səviyədə olması vəziyyəti yaranmışdır.Respublikada yerli kənd təsərrüfatı əmtəə istehsalçılarının enerji və texniki təchizat səviyyəsi qabaqcıl inkişaf etmiş ölkələrlə müqayisədə 4-6 dəfəaşağı səviyyədədir.Belə ki, keçmiş iqtisadi sistemdəki vəziyyətləmüqayisədə müasir şəraitdə respublikanın aqrar sahəsində fəaliyyət göstərən müxtəlif kateqoriyalı müəssisələrin texniki təchizatının azalmasımeyli müşahidə olunur.Buna görə də respublikada xarici ölkələrin inkişaf təcrübəsinə uyğun olaraq maşın-traktor parkının genişləndirilməsi zəruridir.Bu, aqrar sahədə məhsul istehsalının həcmini artırmağa, köhnəlmiştexnikaya xidmət xərclərini azaltmağa, fəaliyyətin maliyyə nəticələrini yaxşılaşdırmağa və son nəticədə ümumi məhsul buraxılışını artırmağa imkan verər.Köhnəlmiş maşın və avadanlıqların yenidən qurulması vədəyişdirilməsi üçün müasir investisiya vasitəsi kimi lizinqdən səmərəli istifadə edilməlidir.Milli iqtisadiyyatın müasir inkişaf mərhələsindətexnikanın lizinqə verilməsi Azərbaycan Respublikasında aqrar sahənin dövlət tərəfindən

dəstəklənməsinin əsas formalarından biridir.Müstəqillik əldə olunduğu ilk dövrlərdə müxtəlif obyektiv və subyektiv amillər üzündən ölkəmizdə lizinq münasibətləri hələ tam inkişaf etməmişdir. Lakin 23 oktyabr 2004-cü ildə «Aqrar bölmədə lizinqin genişləndirilməsi sahəsində əlavə tədbirlər haqqında» Azərbaycan RespublikasıPrezidenti tərəfindən imzalanmış Sərəncama əsasən 31 mart 2005-ci ildə «Aqrolizinq» Açıq Səhmdar Cəmiyyətinə məxsus kənd təsərrüfatıtexnikasının hüquqi və fiziki şəxslərə lizinqə verilməsi və ya lizinq yolu iləsatılması Qaydaları»nın təsdiq edilməsi və «Aqrolizinq» Açıq Səhmdar Cəmiyyətinin fəaliyyətinin təşkili ilə bağlı zəruri tədbirlərin həyata keçirilməsi haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı qüvvəyəmindikdən sonra aqrar sahədə lizinq münasibətlərinin inkişafına əlverişli şərait yarandı. Belə şəraitdə təsərrüfatlarda sərbəst pul vəsaitlərinin məhdud olmasıilə əlaqədar olaraq kənd təsərrüfatı məhsulları istehsalçılarının maşın vəavadanlıqlarla lizinq əsasında səmərəli təminatı problemi xüsusi əhəmiyyət kəsb edir.Aqrar sahədə lizinq münasibətlərinin formalaşması maşın-traktor parkının tərkibini yeniləşdirməyə imkan verir.Lizinq vasitəsiləformalaşdırılmasına və təkmilləşdirilməsinə ehtiyac duyulan bu parkın vəziyyəti isə aqrar sahədə ümumi məhsulun həcminə və istehsalın inkişaf sürətinə səmərəli şəkildə təsir göstərə bilər.

Azərbaycan Respublikasının iqtisadiyyatında lizinqdən müstəqillik əldə olunduğu dövrlərdən sonra istifadə edilməyə başlanmışdır.Lakin dünya miqyasında lizinq investisiya üçün artıq qərarlaşmış vasitədir.İqtisadiyyat sahəsində lizinqin təkamülünün və lizinq münasibətlərinin yaranma tarixinə nəzər salaraq onun quruluşundakı ümumi mənzərənin aşağıdakı mərhələləri göstərilir.Lizinq münasibətlərinin inkişafının birinci mərhələsini başqalarının əmək vasitələrindən pul və ya kompensasiya ödəməsi müqabilində istifadə etmək ideyasının yaranması ilə səciyyələndirmək olar.Ikinci mərhələ Roma hüququnda mülkiyyət hüququ verilmədən aktivlərə sahiblik institutunun yaranması ilə bağlıdır.Bu, Avropa hüquq sistemlərinin inkişafı üçün zəmin olmuşdur.Üçüncü mərhələ İngiltərədə icarə münasibətlərinin inkişafı tarixini əhatə edir.Bu, İngiltərə hüquq sisteminin unikallığı və onun qitə hüquq sisteminə oxşamaması ilə bağlıdır.Dördüncü mərhələ "Bell" firması və "lizinq» (leasinq)" terminin yaranması ilə əlamətdardır.Beşinci mərhələ əsas fəaliyyət növü lizinq olan təşkilatların yaranması və lizinqin maliyyə bazarında müstəqil seqmentə çevrilməsi ilə bağlıdır.Müasir anlamda lizinqin tarixi məhz bu andan başlanır.Lizinq münasibətlərinin təşəkkülündə altıncı mərhələ lizinqin Qərbi Avropada və Yaponiyada, sonra isə bütün dünyada geniş yayılması ilə bağlıdır.Azərbaycan Respublikasının iqtisadiyyatında həyata keçirilən islahatlar dövründə lizinqin inkişafını lizinq münasibətlərinin təkamülünün yeddinci mərhələsi kimi səciyyələndirmək olar.Bu mərhələ daxilində lizinqin iqtisadi forma kimi təşəkkülünün üç səciyyəvi dövrünü fərqləndirmək olar.Birinci (başlanğıc) dövr lizinq haqqında xüsusi qanunvericiliyin olmaması ilə səciyyəvidir.Bu səbəbdən sahibkarlıq fəaliyyətinin bu forması inkişaf etməmişdir.İkinci dövrdə, 90-cı illərin əvvəlindən başlayaraq Azərbaycan Respublikasında lizinq fəaliyyəti xüsusi normativ və qanunverici sənədlər olmadan icarəyə oxşar qayda üzrə həyata keçirilirdi.1993-cü ildən başlanan üçüncü dövr lizinq əqdlərinin xüsusi normativ bazasının fəal formalaşması ilə səciyyəvi olaraq bir sıra normativ aktlar qəbul edilmiş və 29 noyabr 1994-cü ildə «Lizinq xidməti haqqında» Azərbaycan Respublikasının Qanunu qəbul olunmuşdur (Qanun 17 iyul 2003-cü ildə qüvvədən düşüb).

Azərbaycan Respublikasının kənd təsərrüfatı müəssisələrində traktorların və taxılyığan kombaynların sayının uzun dövr ərzində dəyişməsi dinamikasının təhlili göstərir ki, aqrotexniki potensialın möhkəmlənməsi və artması prosesi keçən əsrin 85-ci illərinin axırlarına qədər davam etmiş, 90- cı illərin əvvəlindən başlayaraq istehsalın texniki bazasının davamlı azalması meyli yaranmışdır.İstehsalın həcmi və səmərəliliyi ilə mövcud texnikanın miqdarı arasında asılılıq mövcuddur.Buna görə də deyə bilərik ki, texniki potensialın daim azalması respublikada kənd təsərrüfatının yaxın illərdə tamamilə bərbad vəziyyətə düşməsinə gətirib çıxara bilər.Deməli, aqrarsənaye kompleksinin idarə edilməsinin müxtəlif səviyyələrində müvafiq tədbirlər görülməsi zəruridir.Kənd təsərrüfatı müəssisələrinin xüsusi vəsaitləri hesabına texnika parkını yeniləşdirmək mümkün olmadığı şəraitdə bərpa edilmiş texnikanın lizinqi bu problemin həllinin əsas istiqamətlərindən biri hesab edilməlidir.Azərbaycan Respublikasında aqrolizinq xidmətləri bazarının inkişaf etdirilməsi və dövlət büdcəsinin vəsaitlərindən daha səmərəli istifadə edilməsi məqsədilə «Aqrolizinq»" ASC yaradılmışdır.Bu qurumun regionlarda kənd təsərrüfatı istehsalının inkişafında böyük əhəmiyyət kəsb etməsinə baxmayaraq respublikamızda daha bir və ya bir neçə aqrolizinq müəssisələrinin yaradılması lizinq xidmətləri bazarında inhisarçılığı azaltmağa, sabitliyi pozan amillərin təsirini zəiflətməyə, motivasiya amillərindən əhəmiyyətli dərəcədə istifadə etməyə imkan verəcəkdir.

Müasir şəraitdə respublikamızda lizinqin maliyyələşdirilməsi şərtlərinin dəyişdirilərək istehsalçıların maraqlarına uyğun təkmilləşdirilməlidir.Belə ki, lizinqalanlara təqdim edilən tələblər yumşaldılmalıdır.Nəticədə respublikanın regionlarında olan istehsalçıların lizinq xidmətlərindən daha səmərəli istifadə edə bilmələri təmin olunar.Aqrar sahədə lizinq münasibətlərinin inkişaf şəraitində maliyyələşdirmə şərtləri bir qədər yüngülləşdiriləndən sonra lizinqalanların regionlarda sayı bir qədər artar və bir sıra regionların istehsalçıları üçün lizinq xidmətləri əlçatmaz olaraq qalmaz.Dövlət lizinqinin həcminin azalması ilə əlaqədar yerli idarəetmə orqanlarının büdcələrindən maliyyələşdirmə hesabına texnikanın regional lizinqi inkişaf etdirilməlidir.Bu məqsədlə vəsait toplamaq üçün regional lizinq fondunun yaradılması zəruridir. Regional lizinq fondunun formalaşması aşağıdakı mənbələr hesabına həyata keçirilə bilər: regionlarda yerli idarəetmə orqanlarının büdcəsindən texnika və avadanlıq alınması üzrə lizinq əməliyyatları aparılması üçün ayrılan birbaşa maliyyə vəsaitləri, yaradılması məqsədəuyğun hesab edilən kommersiya lizinq müssisələrinin xüsusi vəsaitləri, qaytarılan vəsaitlər (lizinq ödəmələri) və borc vəsaitləri.

Texnika lizinqinin səmərəliliyi istehsal edilmiş məhsulun pul ifadəsində həcmi və lizinq predmetlərinin ümumi dəyərinin nisbəti kimi qiymətləndirilir, yəni lizinq fəaliyyətinə dövlət büdcəsindən sərf edilmiş hər manatın səmərəliliyi qiymətləndirilir.Texnika lizinqi üçün ayrılan pul vəsaitlərinin əvəzinin çıxarılması müddəti də mühüm göstəricidir.Texnika lizinqinin səmərəliliyi gəlirlilik indeksi və ya əldə edilmiş gəlirin texnika lizinqi üçün investisiyalara nisbəti kimi göstərilə bilər. Texnika lizinqinin səmərəliliyinin ilkin operativ qiymətləndirilməsi aşağıdakı mühüm göstəricilər əsasında həyata keçirilə bilər: investisiyaların səmərəsi (məsrəflərin hər manatına düşən məhsul istehsalı), onların öz xərcini çıxarmaq müddəti və sosial məsələlərin həll edilməsi imkanı(məsələn, əlavə iş yerlərinin yaradılması). Bir qayda olaraq bu cür qiymətləndirmə böhran və ya fors-major hallarında tətbiq edilir.Müasir dövrdə məhsul istehsalı sahəsində yaranmış vəziyyət də böhranlıvəziyyətlər qisminə aid edilməlidir.

Lizinq münasibətlərinin iştirakçılarının qarşılıqlı münasibətlərinin bu forması texnikanın istismar imkanlarının yaxşılaşdırılmasına və texnika alınması üçün xərclərin azaldılmasına imkan verir.Lizinq obyektinin həyat tsiklinin hər bir mərhələsində müvafiq servis xidmətləri nəzərdətutula və təqdim edilə bilər.Aqrar sahədə müəssisələrin gəlirliliyinin dövlət tərəfindən müxtəlif vasitələrlə, o cümlədən «Aqrolizinq» ASC-nə ayrılmış vəsaitlər hesabına dəstəklənməsi və maliyyə dayanıqlılığının yüksəldilməsi üçün mühüm əhəmiyyət kəsb edən kənd təsərrüfatı risklərinin aşağı salınması üçün ən yaxşısəmərəli vasitə olan sığortadan tam şəkildə istifadə olunmur.Son dövrlərdə aqrar sahədə fəaliyyət göstərən müəssisələrin əmlakının və maddi-texniki vasitələrinin məcburi şəkildə sığortalanmasına böyük ehtiyac duyulur.Ona görə də aqrar sahədəsığorta sisteminin təkmilləşdirilməsi zəruridir.Respublikanın kənd təsərrüfatında son illərdə mövcud maddi-texniki resurslardan səmərəli istifadə olunmasına, aqrolizinqin inkişafı üçün sığortanın yeni strategiyasının işlənib hazırlanmasına və sığortaya dair qanunvericilik bazasının təkmilləşdirilməsinə böyük zərurət vardır.Aqrar sahədə lizinq münasibətlərinin inkişaf etdiyi şəraitdə fəaliyyət göstərən müxtəlif kateqoriyalı təsərrüfat subyektlərinin səmərəli kompleks sığorta proqramını yalnız sığortalının və sığorta şirkətinin birgə iştirakı ilə işləyib hazırlamaq mümkündür.Azərbaycan Respublikasında lizinqin inkişafı üçün kompleks sığorta proqramının bu texnologiya üzrə işlənib hazırlanması aqrar sahədə fəaliyyət göstərən müxtəlif kateqoriyalı təsərrüfat subyektlərinin fərdi tələbatını və maliyyəimkanlarını, eləcə də onun kommersiya fəaliyyətinin və istehsalın spesifikasınınəzərə almağa şərait yaradır.

SƏHMLƏŞDİRMƏNİN İQTİSADİ MƏZMUNU VƏ FUNKSIYALARI

Rəhimli V.E.
Azərbaycan Dövlət İqtisad Universiteti

Bazar iqtisadiyyatına keçidin əsasını təşkil edən özəlləşdirmə prosesinin səmərəli idarəolunması, özəlləşdirmədən sonar dövlət səhmlərinin idarəolunması və milli koorperativ idarəetmə sisteminin formalaşma məsələləri özəlləşdirmənin ikinci və özəlləşdirmədən sonrakı mərhələlərində mühüm əhəmiyyət kəsb edir. Bununla əlaqədar olaraq, yeni mülkiyyət münasibətlərinin bərqərar olması və səhmləşdirmə (özəlləşdirmə) prosesinin təşkili və idarəolunması, mülkiyyət formalarına uyğun tənzimləmə və idarəetmə mexanizmlərinin formalaşması və özəlləşdirmənin sosial-iqtisadi nəticələrinin keyfiyyət praqnozu məsələləri müasir şəraitdə actual iqtisadi məsələlərdən biridir. Hər bir kütləvi özəlləşdirmə proqramlarında fəaliyyət ardıcıllığına görə müəyyən özünəməxsus xüsusiyyətlər meydana

çıxsa da, onların təbii olaraq ardıcıl fəaliyyətini üç mərhələyə qruplaşdırmaq mümkündür. Belə təsnifat proqramlarında xeyli uyğunluğu əsasında aparılır. Beləki, bütün proqramlar üzrə birinci mərhələdə vauçer, çek, kupon və ya səhm hüququ barədə şəhadətnamə paylanmaqla dövlət müəssisələrinin səhmlərinə süni tələbat yaradılır. İkinci mərhələdə özəlləşdirilən müəssisələrlə vauçer sahibləri arasında vasitəçilik funksiyasını yerinə yetirən investisiya fondları formalaşdırılır. Üçüncü mərhələdə müəssisələrin səhmləşdirilməsi, dəyərin qiymətləndirilməsi və kiçik emissiya prospektlərinin buraxılış yolu ilə onların təklifi həyata keçirilir. Özəlləşdirmə prosesinin və dövlət əmlakının idarəolunması, koorperativ idarəetmə sisteminin səmərəli və milli iqtisadiyyatın xüsusiyyətlərinə əsasən modelinişlənməsi, özəlləşdirməni sosial-iqtisadi nəticələrinin proqnozu məsələlərin bu əsərlərdə kifayət qədər araşdırılmaması mövcud problemlərin yaranmasına zəmin yaratmışdır. Səhmdar cəmiyyətlərin maliyyələşmə strukturunda İPO alternativ modern maliyyə aləti kimi çıxış edir. İPO – bazarda səhmlərin ilkin yerləşdirilməsidir, bu isə emitentlər və ya onun tapşırığı ilə broker (anderrayter) vasitəsilə həyata keçirilir, yəni Maliyyə qərarları Mənfəət Risk Şirkət dəyəri şirkət ilk dəfə səhmlərini buraxır və onu geniş dairələr, o cümlədən institusional və özəl investorlar satın alır. İPO keçirilməsində şirkətin əsas məqsədi – biznesin genişləndirilməsidir. İPO geniş miqyasda istifadəsi sadəcə şirkət mülkiyyətçilərinin xeyrinə deyil, eyni zamanda dövlətində marağındadır. Birincisi, real sektor üçün investisiyaların cəlbi makroiqtisadi artıma müsbət təsir göstərir. Digər tərəfdən, İPO tədbirlərinin aparılması qaydası şəffaflığa əsaslandığına görə, şirkət İPO bazarına çıxmadan öncə ilk növbədə maliyyə hesabatlarını beynəlxalq standarta uyğun hazırlamalı və majoritar səhmdarların isimlərini ictimaiyyətə açıq qaydada açıqlamaq məcburiyyətindədir. Hesab edirik ki, səhmləşdirmə prosesinin iqtisadiyyatda rolu və funksiyalarını aşağıdakı kimi sıralamaq olar:

1.Səhmlər,geniş xalq kütlələrinin kiçik həcmli yığımlarını korposiyalara yönəldərək dinamikli inkişaf üçün lazımi kapital təmin edir;

2.Səhmlər, şirkətlərin mülkiyyətini geniş xalq kütləsinə dağıtmaqla iqtisadi rifahı geniş bir hissəyə yayır və daha tarazlı bir gəlir dağlımı təmin edir;

3.Səhmlər, xalqı iqtisadi qərarların qəbulunda iştirakını təmin edir və beləliklə, demokratiyanın iqtisadi bölümünü tamamlayır;

4. Səhmlər, xalqa əla və gəlir təmin edir və bunu faiz yolu ilə deyil, dividend və ya məzənnə marjı hesabına qarşılayır. Beləliklə, cəmiyyətdə səhmləşdirmə prosesinin inkişafının müasir mərhələsi aşağıdakı səciyyəvi əlamətlərə malikdir:

1. Səhmdar cəmiyyətlərinin birləşməsivə "udulması" yolu ilə kapitalın güclü təmərküzləşməsi, bu əsasda strateji alyanslar yaradılması;

2. Ən cəlbedici xarici ölkələrdə törəmə strukturlar təşkil edilməsi, əmtəə və xidmətlərin ölkə hüdudlarından kənarda yayılması yolu ilə qloballaşma;

3. Kapitalın beynəlmiləlləşməsi - mənşə ölkəsindən asılı olmayaraq ən ucuz investisiyaları cəlb edən, sənaye və bank kapitalının inteqrasiyasını təmin edən, öz fəaliyyətinin təşkilati formalarını və istiqamətlərini diversifikasiya etmək siyasətini həyata keçirən transmilli şirkətlərin sayının artması. Uzun tarıxi inkişaf yolu keçmiş səhmləşdirmə bu yolun müxtəlif mərhələlərində tədricən təşkilati, iqtisadi və hüquqi xarakterli yeni elementlər və üsullarla tamamlanmışdır.

СОВРЕМЕННЫЕ ПРОБЛЕМЫ И ПЕРСПЕКТИВЫ СИСТЕМЫ БАНКОВСКОГО НАДЗОРА

Кязимова Н.И.

Азербайджанский государственный экономический университет

Банковская система, являясь неотъемлемой частью экономики, представляет совокупность различных видов банков и банковских институтов в их взаимосвязи. Банки играют важную роль в экономике каждой страны. В связи с этим поддержание стабильности банковской системы является одной из главных задач любого общества. Одним из главных элементов государственного управления банковской деятельности является банковский надзор. В справочных данных даются следующие определения термина «надзор» – это наблюдение за кем-либо, чем-либо с целью контроля, охраны и т.п.; одна из форм обеспечения государственными органами соблюдения законности. С каждым годом страны вынуждены все шире использовать механизмы банковского надзора, однако открытым остается вопрос о том, какие пруденциальные

меры и как следует применять, чтобы эффективно противостоять кризисным тенденциям в финансовой сфере. Все зависит от понимания сущности финансовой дестабилизации, ее причин и последствий. По мнению ряда экспертов, можно существенно продвинуться в создании эффективной системы защиты против финансовой дестабилизации, если сконцентрировать усилия на макроэкономическом или макропруденциальном аспекте регулирования банковской деятельности.

Надзор — форма деятельности различных государственных органов по обеспечению законности. Банковский надзор — это надзор в банковской сфере. Иначе говоря, банковский надзор - это наблюдение Центрального Банка за исполнением и соблюдением кредитными организациями законодательства, регулирующего банковскую деятельность, установленных им нормативных актов, в том числе финансовых нормативов и правил бухгалтерского учета и отчетности. Организация банковского надзора основывается на национальной законодательной базе и рекомендациях международных банковских комитетов.

Можно выделить три функции банковского надзора: превентивную, сигнализирующую и контрольную.

Превентивная функция надзора выражает способность надзора управлять специальными инструментарием, которые регулируют деятельность кредитных институтов в банковской среде.

Сигнализирующая функция надзора выражает его способность своевременно выявлять негативные тенденции в деятельности банков и принимать меры надзорного реагирования. Данная функция сигнализирует в надзорный орган и непосредственно в банк о возникающих проблемах и побуждает их к активным действиям. Для реализации этой функции надзорный орган должен обладать специальной информационно-аналитической системой мониторинга финансового состояния банков и мер надзорного реагирования.

Контрольная функция надзора выявляет отклонения в соблюдении регулятивных норм и требований, причины их возникновения, эффективность действий надзорного органа и кредитного института по предотвращению и устранению возникающих проблем. Основным инструментом, сопровождающим контроль, являются проверки кредитного института на месте.

Система банковского надзора обычно включает:

- типы банковских учреждений, подлежащих надзору;
- процедуру выдачи лицензий на совершение банковских операций;
- стандарты бухгалтерского учета, банковской и статистической отчетности;
- порядок аннулирования лицензий на банковскую деятельность или ограничение банковских операций;
- обязательность аудиторских проверок;
- порядок назначения временной администрации по управлению банком;
- объявление банков неплатежеспособными.

Все элементы системы банковского надзора взаимосвязаны друг с другом. Единство системы надзора обеспечивается его правовой основой, которая входит в эту систему в качестве самостоятельного элемента.

Правовая основа банковского надзора включает законодательные акты, определяющие субъекты и объекты надзора, функции и права органов, осуществляющих надзор. Правовую основу механизма и инструментов надзора составляют нормативные документы надзорных органов. Правовая основа банковского надзора специфична для каждой страны и находится в постоянном развитии и совершенствовании.

Совершенствование банковского надзора требует уделения внимания к уже имеющимся проблемным сферам в деятельности кредитных организаций. Выход азербайджанских банков на мировой конкурентный уровень должен сопровождаться приведением в соответствие международным стандартам системы банковского регулирования и надзора. В современной банковской практике существует множество механизмов, позволяющих «обойти» вышеперечисленные критерии и не связывать в группу связанных заемщиков лиц, опосредованно контролируемых одним лицом и, как правило, обслуживающих один бизнес. Это влечет принятие банком чрезмерной концентрации кредитного риска на конкретный бизнес, который зачастую принадлежит его собственнику. В случае возникновения проблем у банка такие вложения оказываются невозвратными, поскольку теряя одну часть доходного бизнеса, собственник

старается сохранить его другую часть. С учетом того, что ресурсная база подавляющего большинства кредитных организаций сформирована привлеченными средствами, среди которых значительный удельный вес имеют средства населения, наибольшие потери при наличии у банка существенной доли «плохих» активов несут именно его кредиторы, что обостряет социально-экономическую ситуацию в стране.

На современном этапе банковский надзор имеет в своём распоряжении достаточное число инструментов для выявления подобных схем и установления реального уровня рисков в банках, но при этом не имеет законодательно закрепленных возможностей их ограничивать, поскольку национальная правовая система признает только подходы, детально описанные в нормативных документах. Несмотря на то, что в нормативной базе Центрального Банка закреплены принципы достоверности, объективности и других международно признанных принципов, позволяющих качественно оценить операции и отразить их в отчетности, которые обязательны для соблюдения кредитными организациями, в действительности они фактически не реализуются.

Решить эту проблему можно, усилив определённые требования к системе внутреннего контроля, главным бухгалтерам, руководителям банков и к учётно-операционной деятельности банков. В связи с этим появляется необходимость взаимодействия аудиторских организаций и Центрального Банка, осуществляющегося на основе организации общего методологического центра, направленного на работу с аудиторскими организациями и банками. Появление такого центра повысит взаимодействие контрольных, а также надзорных органов с банками и аудиторами, уменшит налоговые и бухгалтерские риски, позволит снизить количество проверок банковских организаций и сократить время их осуществления.

Немаловажное значение имеет и приведение перечня мер надзорного реагирования, предусмотренных отечественным законодательством, в соответствие с международной практикой. Так, меры надзорного реагирования, представленные в документе Базельского комитета по банковскому надзору «Руководство по работе со слабыми банками» (2002 год), включают целый ряд существенных позиций, которые отсутствуют в практике. К таким мерам, включающим «материальные» и организационные аспекты, относятся в том числе:

– направление требования акционерам кредитной организации о дополнительном внесении денежных средств в капитал;

– ограничение распределения акционерами прибыли кредитной организации и принятие решений по иным операциям, связанным с расходами кредитной организации;

– введение запрета на выплаты основной суммы и процентов по субординированным кредитам;

– отстранение от выполнения обязанностей членов совета директоров (наблюдательного совета) и руководителей кредитной организации;

– введение моратория (приостановление действия) на предусмотренные законодательством отдельные или все права акционеров, включая право голоса;

– требование к кредитной организации получать предварительное согласие органа банковского надзора на крупные расходы капитального характера, а также на принятие крупных обязательств, в том числе условных;

– требование закрытия филиалов внутри страны и за границей.

Следует отметить, что от эффективности организаций внешнего контроля за банками, зависит финансовая безопасность не только банков и банковской системы, но и национальная безопасности.

Характеризуя современное положение системы банковского надзора, которая сложилась в современных условиях, можно отметить, что отсутствие тех или иных нарушений контрольных требований ЦБ и положительные показатели работы банка не всегда можно назвать гарантией его надёжности. Есть множество приёмов формального осуществления банками экономических нормативов, кроме того, искажения информации представляемой отчётности. Помимо этого, традиционные методы надзора удовлетворительный результат дают не всегда. Существующая отчётность и способы её анализа препятствуют своевременному выявлению проблемы банка. Анализ банковской отчётности осуществляется к тому же на прошедшую дату, а именно – когда в банке изменилось положение дел, и различные меры надзорного реагирования в таком случае становятся неадекватными и неэффективными.

Названные нами и прочие факты свидетельствуют о потребности дальнейшего улучшения системы банковского надзора и регулирования.

Следует отметить, что от эффективности организаций внешнего контроля за банками, зависит финансовая безопасность не только банков и банковской системы, но и национальная безопасности.

KOMMERSİYA FƏALİYYƏTİNİN MAKROİQTİSADİ SƏVİYYƏDƏ İDARƏ EDİLMƏSİ

Rəhimov M.R.
Azərbaycan Dövlət İqtisad Universiteti

Kommersiya fəaliyyətinin idarəetmə strukturunda makroiqtisadi səviyyə ərazi, sahə və funksiyanın təyinatı üzrə mal dövriyyəsinin artımı, respublika əhalisinin maddi və mənəvi tələbatını ödəyə bilən əmtəə və xidmətlərin ticarətini və ölkə ehtiyatlarını təmin edən meyarlar və göstəricilər təşkil edir. Makroiqtisadi səviyyədə kommersiya fəaliyyətinin fərdi imkanlarını rəqabət qabiliyyətli istehsal və xidmət strukturu təşkil edir. Makro səviyyədə firmaların idarəetmə struktur marketinq tədqiqatı, onun proqnozu və marketinq tələbinə uyğun olaraq satış məhsulunun çeşidi, keyfiyyət və satış həcmi planlaşdırılır. Makro səviyyədə idarəetmə strukturu firmanın gəlirliliyinin təmin olunması, onun mənfəət səviyyəsinin artımı ilə ifadə olunur. Makroiqtisadi səviyyədə idarəetmə strukturunun təhlilinin məqsədi bazar iqtisadiyyatı şəraitində rəqabətə dözümlü inkişaf meyllərini sabitləşdirmək və dinamik artım meyllərini təmin etməyin yollarını aşkara çıxartmaqdan ibarətdir. Bu zaman idarəetmə bazar keçidi və bazar tələbatı əsas götürülür.

Bazar iqtisadiyyatında azad bazar rəqabəti şəraitində kommersiya təşkilatlarının yaşaması, iflasa uğraması və böyük maliyyə uğursuzluqlarına düçar olması, rəqabətdə liderlik, qiyməti və mənfəətin maksimumlaşdırılması, mümkün iqtisadi artım tipləri, kommersiya təşkilatlarının fəaliyyətinin yüksək rentabelliyinin təmin olunması və s. fəaliyyətində həlledici rol oynayan bu əlamətlər maliyyə vəziyyətindən bilavasitə asılıdır.

Bazar iqtisadiyyati şəraitində kommersiya təşkilatlarının maliyyə vəziyyətində əmələ gələn dəyişikliklərə təsir göstərən əsas amilləri aşkara çıxartmaq, onların dərəcəsini təyin etmək və maliyyə vəziyyətində gözlənilən meylləri proqnozlaşdırmaq və idarəetmə qərarlarının araşdırılması təhlilin başlıca istiqamətidir.

Analıtik işin müvəffəqiyyətlə həyata keçirilməsi onun təşkil edilməsinin səviyyəsindən asılıdır. Kommersiya təşkilatlarında daxili analitik iş bütöv və düşünülmüş sistem kimi təşkil edilməlidir. Buraya istehsal və maliyyə retrospektiv, operativ və perspektiv, kompleks və tematik təhlil, habelə digər kommersiya təşkilatlarının-rəqiblərin, malgöndərən-lərin, alıcıların, borc verənlərin xarici təhlili daxil edilməlidir.

Kommersiya təşkilatlarının maliyyə vəziyyətinin təhlilində nəinki kommersiya təşkilatlarının rəhbərləri və müvafiq xidmət işçiləri məşğul olur, eyni zamanda resurslardan istifadənin səmərəliliyini öyrənmək məqsədilə kommersiya təşkilatlarınının sahibkarları, investorlar, kreditləşmə şəraitini öyrənmək və risk dərəcəsini müəyyən etmək üçün banklar, büdcəyə vəsaitin daxil olması planın yerinə yetirməsi üçün vergi müfəttişliyi, ödənişlərin öz vaxtında alınması üçün malgöndərənlər və s. məşğul olur. Bunlarla əlaqədar təhlil daxili və xarici təhlilə bölünür.

Daxili təhlil - kommersiya təşkilatları işçiləri tərəfindən aparılır və onun nəticəsi maliyyə vəziyyətini planlaşdırmaq, nəzarət etmək və proqnozlaşdırmaq üçün istifadə edilir. Onun məqsədi- pul vəsaitinin plana uyğun daxil olunmasını təmin etmək və borc vəsaitlərini elə yerləşdirməkdir ki, müəssisənin normal fəaliyyəti üçün şərait yaradılsın, maksimum mənfəət alınması və müflislik riskinin aradan qaldırılması mümkün olsun.

Xarici təhlil- investorlar, malgöndərənlər və dərc olunan hesabat əsasında isə nəzarətedici orqanlar tərəfindən aparılır. Onun məqsədi- qoyulmuş vəsaitin gəlirli olması imkanın müəyyən etməkdir ki, maksimum mənfəət təmin edilsin və risk itkisinin aradan qaldırılması mümkün olsun.

Kommersiya təçkilatlarında təsərrüfat fəaliyyətini qiymətləndirmək, onun yaşam qabiliyyətini təmin etmək üçün əsas göstərici mal dövriyyəsidir. Bu göstəricinin cəmiyyətin inkişafının, əhalinin maddi və mənəvi həyat səviyyəsinin qiymətləndirilməsində mühüm rol oynayır.

Mal dövriyyəsinin təhlili prosesində pərakəndə mal dövriyyəsi və topdan mal dövriyyəsinin necə inkişaf etməsi, artım tempi, dövriyyədə baş verən dəyişikliklərin ticarət təşkilatı üçün faydalılığı, mal

dövriyyəsinin plana uyğun yerinə yetirilməsinə təsir edən amillərin müəyyənləşdirilməsi öyrənilir. Bu zaman təhlilin qarşısında bir sıra vəzifələr durur:

1. Planın yerinə yetirilməsini, alıcıların ayrı- ayrı mallara olan tələbatının ödənilməsini təmin etmək;
2. Plan göstəricilərinin reallığının və optimallığının müəyyən edilməsi;
3. Planın dinamikasına və onun yerinə yetirilməsinə təsir edən amillərin, ilk növbədə ticarət təşkilatının özündən asılı olan amillərin hesablanması və qiymətləndirilməsi;
4. Planın yerinə yetirilməsində mal və əmək resurslarından istifadə dərəcəsinin qiymətləndirilməsi;
5. Mal dövriyyəsinin artırılması, alıcılara xidmət səviyyəsinin yüksəldilməsi yolları, üsulları və imkanlarının aşkar edilməsi;
6. Təhlilin nəticələrinə istinad etməklə mal dövriyyəsinin inkişafını təmin edən optimal idarəetmə qərarlarının qəbul edilməsi və s. təmin etməkdir.

ДЕЛОВАЯ РЕПУТАЦИЯ ФИРМЫ

Зейналов Э.Ф.
Азербайджанский государственный экономический университет

В ходе дальнейшего развития рыночных отношений особенно в постиндустриальном (информационном) обществе новые информационные технологии, в том числе глобальные информационные системы, кардинально меняют систему обеспечения информацией, как производителей, так и потребителей товаров и услуг. Кроме уже привычных, традиционных механизмов продвижения товаров и услуг к потребителю, каковыми являются менеджмент и маркетинг, требуются новые, которые позволяли бы производителям расширить свои возможности, победить в конкурентной борьбе.

Основной тенденцией расширения этих возможностей для производителей является создание в массовом сознании такой деловой репутации, т.е. положительного образа фирмы, чтобы потребителя, клиента устраивали взаимоотношения именно с этим производителем. Поскольку роль деловой репутации производителя постоянно возрастает, то значению работ в этом направлении придается особое внимание.

Одной из наиболее интересных и сравнительно новых категорий, непосредственно связанных с понятиями "нематериальные активы" и "неосязаемые активы", считается "деловая репутация" или гудвил (goodwill). Деловая репутация — это целостное представление о компании как субъекте определенного вида деятельности, которое складывается из восприятия и оценки результатов и последствий этой деятельности, независимо от организационно-правовых форм или масштабов, различными заинтересованными лицами (стейк-холдерами) и контактными группами.

Оценка содержания деловой репутации включает два направления:

- качественную оценку состояния или положения компании;
- количественную меру стоимости компании как субъекта рыночных отношений.

С точки зрения потребителей информативным критерием оценки репутации является качество выпускаемой продукции, ее цена, доступность и ценовая стратегия компании. Для кредиторов деловая репутация компании заключена в ее кредитной истории; для сотрудников - в системе работы с персоналом, мотивации менеджмента; для государства - в уровне социальной ответственности, полноте выплаты налогов и т.д.

Количественная мера стоимости компании (гудвил) — это стоимостная оценка набора активов, которая может быть определена только в результате продажи всей совокупности активов как целостного имущественного комплекса в виде разницы между рыночной ценой компании и балансовой стоимостью ее активов.

Гудвилл — это "условная стоимость деловых связей фирмы, "цена" фирмы. Репутация или неосязаемая цена бизнеса, в основе которой хорошие отношения с клиентурой, высокий моральный дух сотрудников компании и другие факторы" . "Гудвилл можно представить как совокупность факторов, которые побуждают клиентов вновь прибегать к услугам данной организации. Сюда относятся: круг постоянных клиентов, деловые связи, репутация, название фирмы, используемые торговые марки, навыки руководства, квалификация персонала, запатентованные способы производства и т. д."

В общем гудвилл включает такие понятия, как престиж торговой марки, опыт деловых связей, устойчивость клиентуры, высокие моральные качества служащих и другие подобные факторы, которые содействуют увеличению способности компании извлекать доходы выше среднего уровня в своей отрасли.

В узком же понимании гудвилл — это прежде всего мнение целевой аудитории о названии, стиле, товарном знаке, логотипе, проектах, товарах и любых других предметах, находящихся в чьем-то владении.

На основе представленного исторического обзора возникновения и развития понятия деловая репутация (гудвил), пришли к выводу, что процесс развития данного понятия определил следующие его свойства:

- гудвил не имеет материально-вещественной природы;
- он присущ некоторой компании и неотделим от нее;
- он возникает тогда, когда компания получает некоторые преимущества, которые обеспечат в будущем стабильные и высокие прибыли, превышающие средний уровень по отрасли;
- величина гудвила находит свою оценку только при осуществлении сделки купли-продажи компании.

MƏŞĞULLUĞUN DÖVLƏT TƏNZİMLƏNMƏSİ

Ələsgərova K.C.
Azərbaycan Dövlət İqtisad Universiteti

Məşğulluğa həm geniş,həm də dar mənada tərif verə bilərik.Belə ki,geniş mənada məşğulluq dedikdə,bu istehsal amillərinin istehsala cəlb olunması, istehsal amllərindən gəlir əldə etmək məqsədi ilə onlardan istifadə edilməsi kimi səciyyələnir.Dar mənada isə məşğulluq dedikdə ,bu əməyin istehsala cəlb olunmasıdır.Ümumillikdə məşğulluq qanunvericiliklə zidd olmayan vətəndaşlara gəlir gətirən hər hansı bir fəaliyyət kimi başa düşülür.

Çağdaş dövrümüzdə davamlı inkişafın təmin edilməsində,yoxsulluq və işsizliyin səviyyəsinin minimuma endirilməsində,əhalinin yüksək həyat səviyyəsi ilə təmin edilməsidə,səmərəli iqtisadi fəaliyyətin nizamlanmasında və s. sahələrdə düzgün məşğulluq siyasətinin həyata keçirilməsi vacib əhəmiyyət kəsb edir. Məşğulluq siyasəti vasitəsi ilə yerli şəraitə uyğun olan işsizliyin azaldılması prioritetlərinin müəyyənləşdirilməsi vacib hesab olunur.Bununla əlaqədar bir neçə istiqamətdə siyasətin həyata keçirilməsi əsasdır.Belə ki,ölkənin iqtisadi-texniki inkişaf səviyyəsinə uyğun texnologiyaların gətirilməsi.Bu texnologiyalardan küllü miqdarda işçi qüvvəsi istifadə edə bilər.Bu texnologiyaların əməktutumlu texnologiyalar olması məqsədəuyğundur.Bundan başqa iqtisadiyyatın qeyri-formal sektorunun inkişaf etdirilməsi.Yəni xidmət sferasının,milli xidmət sahələri olan sənətkarlıq sektorlarının həm şəhərlərdə,həm də kəndlərdə fəaliyyət göstərməsni təmin etmək.Məşğulluğun müəyyən səviyyəsinin əldə edilməsi bazar mexanizminin elementlərinin fəal təsiri altında sahibkarın mənfəətini artırmaq marağı ilə üst-üstə düşür.Bazar iqtisadiyyatı şəraitində məşğulluğun tənzimlənməsi əhalinin daima artan tələbatlarının,ehtiyaclarının ödənilməsi baxımından önəmli rola malikdir. Bu baxımdan dövlətin makroqitisadi siyasətinin əsas hədəflərindən biri məhz məşğulluğun tənzimlənməsidir.Buna nail olmaq üçün istehsalın intensivləşdirilməsi,ölkədə əmək bazarının inkişaf etdirilməsi,sahibkarlığın inkişafı,yeni iş yerlərinin açılması,müəssisələrinin sayının artırılması,yəni bir növ işçi qüvvəsinə olan tələbin artırılması zəruridir.Məşğulluğun optimallaşdırılması prosesində dövlət tənzimlənməsinin rolunun artırılması bazar iqtisadiyyatına keçən ölkələrin qarşısında duran vəzifələrdən biridir. Məşğulluğun tənzimlənməsi sahəsində dövlətin başlıca prinsip və məşğulluğun təmin edilməsi sahəsidə həyata keçirdiyi tədbirlər kimi bunlar qeyd olunur:

- ✓ İşə götürənin işçi qüvvəsinin kəmiyyət və keyfiyyətində tam müstəqilliyə malik olması;
- ✓ Əmək haqqının minimum məbləğdən aşağı təyin edilməməsi;
- ✓ İşçilərin şəxsi və iqtisadi azadlığı;
- ✓ İxtisas üzrə kadrların hazırlanmasında dövlətin iştirakı;
- ✓ Təhsil sisteminin inkişafında dövlətin iştirakı və rolu;
- ✓ İş yerlərinə olan tələbatın tənzimlənməsi;
- ✓ İş yerləri sisteminin inkişafının tənzimlənməsi;
- ✓ Müəsissələrin özəlləşdirilməsi ilə əlaqədar işçilərin işdən çıxarmasını qanunla

tənzimləyərək işsizliyi məhdudlaşdırmaq;

- ✓ Yoxsulluq həddinin azaldılması;
- ✓ Sosial gərginliyin yumşaldılması;
- ✓ İqtisadi təhlükəsizliyin qorunması;
- ✓ Müasir texnologiyaya əsaslanan müəsissələrin yaradılması;
- ✓ Sahibkarlığın yol verilən həddə inkişafına nail olunması;
- ✓ Sahibkarlığın stimullaşdırılması və s.

Dövlət məşğulluğu təmin etmək üçün aktiv və yaxud fəal, passiv və nisbi məşğulluq siyasətlərni həyata keçirir.

Aktiv və yaxud fəal siyasətə dövlətin büdcə siyasətindən,vergi, kredit güzəştlərindən, sürətləndirilmiş amortizasiya siyasətindən istifadə edərək yeni iş yerlərinin açılmasını stimulluşdırılması, əmək bazarında tələb və təklifin tənzimlənməsi aiddir.

Vakant iş yerlərinin doldurulmasını və işsizliyə görə müavinətlərin verilməsi dövlətin passiv məşğulluq siyasətinə daxildir.

Nisbi passiv məşğulluq siyasətində dövlət həm aktiv,həm də passiv siyasətlərin elementlərindən istifadə edir.

Məşğulluq haqqında müxtəlif nəzəriyyələr yaranmışdır ki,belə nəzəriyyələrdən biri də məşğulluq barədə klassik nəzəriyyələrdir. Məşğulluq haqqında klassik nəzəriyyələrin nümayəndələrinə D.Rikardo, C.Mill, A.Marşal, A.Piqu və s.aid edə bilərik. Klassik iqtisadçılara görə iqtisadiyyat həmişə tam məşğulluq səviyyəsində tarazlığa gəlir.Tam məşğulluq şəraitində sahibkarlar məhsul istehsal etməklə belə bir uyğunluğu təmin edə bilirlər. Onların fikrincə iş yerləri uğrunda aparılan rəqabət əmək haqqı tarifini aşağı salır.Bu tariflər sahibkarlar üçün faydalı olur.Nəticədə bütün işsiz fəhlələri işə qəbul etmək imkanı yaranır. Əmək haqqı az olmasına baxmayaraq bu proses əmək haqqında tarazlıq yaradır. Buda öz növbəsində məcburi işsizliyi aradan qaldırılır.

Müasir məşğulluq nəzəriyyəsinin nümayəndəsi olan İngilis iqtisadçısı C.M.Keyns klassik nəzəriyyəni tənqid edərək yeni bir nəzəriyyə irəli sürmüşdür. Keynsə görə iqtisadiyyatın əskik məşğulluq halında da tarazlığa gəlməsi mümkündür.

Dövlət məşğulluğun tənzimlənməsi istiqamətində müxtəlif metodlardan istifadə edir.Bu metodlara:

-İnzibati metodlar;

-İqtisadi metodlar aiddir.

İşsizliyə görə müavinətlərin məbləğinin qanuni təsdiqi, Fərdi və kollektiv əmək müqavilələrinin formasının təsdiqi,iş günlərinin ,gün ərzində iş saatlarının,məzuniyyət günlərinin sayının,həftədə iş günləeinin qanunla təsdiqi, Əmək məcəlləsi üzrə işə götürənin hüquqlarının müəyyən edilməsi,işçinin hüquqlarının müəyyən edilməsi, hər bir müəsissə üçün yeni açılacaq iş yerlərinin sayının müəyyənləşdirilərək təsdiq edilməsi, məşğulluq haqqında qanunvericiliyin qəbul edilməsi,iş saatı gün ərsində minimum əmək haqqının təsdiqi və s.dövlətin məşğulluğun tənzimlənməsi istiqamətində gördüyü inzibati metodlara daxildir.

Müxtəlif vergi güzəştlərini tətbiq edilməsi,əmək yarmarkalarının və əmək birjalarının təşkili,kredit verilərkən faizlərdə müəyyən güzəştlərin edilməsi,lazımi səviyyədə informasiya bazasının yaradılması və s. dövlətin məşğulluğun tənzimlənməsi istiqamətində gördüyü iqtisadi metodlara daxildir. 2001-ci ilin iyun ayında "Məşğulluq Haqqında" Azərbaycan Respublikası Qanunu qəbul olunmuşdur. 2006-2015-ci illər üçün "Azərbaycan Respublikasının məşğulluq strategiyası", 2007-2010-cu illər üçün "Azərbaycan Respublikasının məşğulluq siyasətinin həyata keçirilməsi üzrə Dövlət Proqramı" və"Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə 2011-2015-ci illər üçün Dövlət Proqramı" qəbul edilmişdir.Dövlət Proqramının effektiv həyata keçirilməsi nəticəsində: yüksək beynəlxalq standartlara uyğun işgüzarlıq mühitinin formalaşdırılmasına, əmək ehtiyatlarının keyfiyyətcə yaxşılaşdırılmasına və iqtisadi fəallığın yüksəldilməsi üçün əlverişli şərait yaradılmasına, kadr hazırlığı sisteminin, o cümlədən peşə hazırlığı və əlavə təhsil şəbəkəsinin fəaliyyətinin dinamik inkişaf edən əmək bazarının tələblərinə uyğunlaşdırılmasına,səmərəli məşğulluq siyasətinin həyata keçirilməsi üçün əlverişli şəraitin yaradılmasına,iş axtaranların və işsiz şəxslərin sosial nüdafiəsinin gücləndirilməsinə, struktur islahatlarının dərinləşməsinə, investisiya fəallığının artırılmasına, insan kapitalının yüksək inkişaf səviyyəsinin təmin edilməsinə nail olunacaq.

MÜASİR ŞƏRAİTDƏ XARİCİ İQTİSADİ SİYASƏT STRATEGİYASININ FORMALAŞDIRILMASI MEXANİZMİNİN HÜQUQİ TƏMİNATI

Əhmədova V.H.
Azərbaycan Dövlət İqtisad Universiteti

Dövlətin xarici iqtisadi siyasəti və xarici iqtisadi strategiyası mahiyyətcə fərqli anlayışlardır. Xarici iqtisadi siyasət – dövlətin idxal və ixrac, gömrük rüsumları, tariflər, məhdudiyyətlər, xarici kapitalın cəlb olunması, kapitalın xaricə ixracı, xarici istiqrazlar, digər ölkələrə iqtisadi yardımın göstərilməsi və birgə iqtisadi layihələrin gerçəkləşdirilməsi sahəsində dövlət siyasəti deməkdir. Xarici iqtisadi siyasətə dünya bazarında müəyyən imtiyazlara malik ölkələrin iqtisadiyyatı əldə etmələrinə və daxili bazarı xarici malların rəqabətindən müdafiə etmələrinə yönəldilmiş tədbirlər sistemi kimi də baxıla bilər. Ümumiləşdirsək xarici iqtisadi siyasət iki funksiyanı – müdafiə və təcavüz funksiyasını yerinə yetirir. Xüsusilə, ABŞ və Çin kimi ölkələrin təcavüzkar siyasətlərinin sırasına nüfuz dairələrini genişlətməyə yönəlmiş eksponsiyonist mearlar da daxildir.

Xarici iqtisadi siyasətin formalaşmasına təsir edən faktorları ümumi olaraq 3 qrupda birləşdirə bilərik: birinci, xarici iqtisadi siyasətin işlənib hazırlanması prosesində hökumətlər kompromis yolların axtarılmasına doğru yönəlirlər; ikinci, dövlətlər xarici iqtisadi siyasətdə ortaq maraq dairələrinə müvafiq olaraq az və ya çox xarakterdə birləşirlər; üçüncü, problemli xarici iqtisadi məsələlərin həlli zamanı ölkələrin birləşməsini və ya ayrılmasını ifadə edir. Ölkələr öz milli maraqlarını, xarici iqtisadi məqsədlərinə çatmaq üçün hətta bəzən partnyor ölkələrin milli maraqlarına doğru dəyişə bilirlər.

Xarici iqtisadi strategiya dövlətlərin fəaliyyət istiqamələrini və onların uzun müddətli reallaşdırılması prinsiplərini xarakterizə edir. Xarici iqtisadi strategiyanın formalaşdırılması üçün, ölkənin mineral resurs potensialı, ehtiyat depozit fondları, elmi-istehsal potensialının kefiyyəti və müxtəlif kateqoriyalı işçilərin profesional ixtisaslaşma səviyyəsi nəzərə alınmalıdır. Əgər dövlətlərin xarici iqtisadi strategiyaları onların dünya birliyindəki mövqelərini artırırsa o zaman onu milli saymaq olar, əks təqdirdə o anti-millidir. Bu gün inkişaf etmiş ölkələrin digər ölkələr üzərində qüdrətinin əsas səbəbi, gəlirlərin yenidən bölüşdürülməsi üçün digər ölkələrdə öz xeyirlərinə yaratdıqları beynəlxalq ssuda kapitalları bazarlarını istifadə etmək bacarıqları sayılır. Dövlətlərin əsas xarici iqtisadi strategiya növləri aşağıdakılardır: Qismən təcrid olunma strategiyası; Proteksionizm strategiyası; Azad ticarət strategiyası; Defisitli bazarın doldurulması strategiyası.

Dövlətlərin xarici iqtisadi siyasət strategiyaları ilə bağlı bir çox nəzəri yanaşmalar da mövcuddur. Merkantilizm nəzəriyyəsi, A. Smitin mütləq xərclər konsepsiyası, D. Rikardonun müqaisəli xərclər konsepsiyası, Neoklassik istiqamət, John Maynard Keynesin idxalın məhdudlaşdırılması və ixracın subsidiyalaşdırılması ilə bağlı nəzəriyyəsi, Postkeynsçi istiqamətin neqativ və pozitiv inteqrasiya konsepsiyaları, Nicholas Kaldorun "ixrac yönümlü iqtisadi artım" modeli, Eli Filip Heckscher və Bertil Ohlin modeli, Leontyev Vasili Vasilyeviçin "Leontyev paradoksu", Michael Everett Porterin nəzəriyyəsi, Rybczynski nəzəriyyəsi, Paul Anthony Samuelson və Volfgang Stolperin nəzəriyyələri.

Azərbaycanın xarici iqtisadi siyasət strategiyasının formalaşmasında mövcud xarici iqtisadi əlaqələrin rolu böyükdür. Azərbaycan hazırda dünyanın 84 ölkəsi ilə qarşılıqlı iqtisadi-ticarət əlaqələrinə malikdir. İkitərəfli əlaqələrdə Türkiyə və Rusiya ilk sıralarda yer alır. Ümumilikdə tədqiqat işində Azərbaycanın Türkiyə, Rusiya, ABŞ, MDB ölkələri, Avropa ölkələri, Çin ilə xarici iqtisadi əlaqələrinə geniş yer verilmişdir.

Azərbaycanın dövlət səviyyəsində reallaşdırdığı xarici iqtisadi siyasət strategiyasına, strateji məhsulların idxalında və ixracında bütün fiziki və hüquqi şəxslərin bərabər hüquqlarının təmin olunması və inhisarçılığın qarşısının alınması istiqamətində görülən işlər, daxili bazarın marketinqinin düzgün qurulması, gömrük əlaqələrinin sadələşdirilməsi, xarici ticarətin liberallaşdırılması, eləcə də əlverişli investisiya mühitinin yaradılması və s. məsələlər və o cümlədən, xarici iqtisadi əlaqələrin həcminin və coğrafiyasının bir qədər də genişləndirilməsi daxildir. Ölkəmizin beynəlxalq ticarətdə və beynəlxalq əmək bölgüsündə ixtisaslaşmasına nail olmaqla, ixrac potensialının artırılmasıyla və eləcə də, az xərclə daha çox qazanc əldə etmək, ölkəyə valyuta daxilolmalarını artırmaq, rifah yaratmaq və həm də dünya miqyasında sabitliyə təminat verilmək kimi siyasət yürütməklə daha böyük uğurlar əldə edilə bilər. Bununla yanaşı, son illər, xüsusən də 2011-ci ildən başlayaraq, ixracda qeyri-neft sektorunun payının artması müsbət hal kimi qiymətləndirilməlidir.

Son illərdə Azərbaycanın iqtisadi qüdrətinin artması, həyata keçirilən diversifikasiya siyasəti, müasir texnologiyalara əsaslanan və rəqabətqabiliyyətli məhsul istehsal edən yüzlərlə müəssisənin fəaliyyətə başlaması ölkənin xarici ticarətində də müsbət meyillərə təkan vermişdir.

Azərbaycanın xarici iqtisadi siyasət strategiyasının formalaşmasına inteqrasiya proseslərinin müasir vəziyyəti də təsir göstərir. Azərbaycan Avropa İttifaqı, MDB, GUAM, QDİƏT, İƏT, İKT, ÜGT kimi beynəlxalq iqtisasi təşkilatlara inteqrasiya olmuşdur. Azərbaycanın dünya təsərrüfatına inteqrasiyasının tendensiyaları və zidiyyətlərinə gəlincə, qlobal, regional, lokal inteqrasiya proseslərinin təhlili göstərir ki, ortaya çıxan problemlərin beynəlxalq hüquq çərçivəsində həlli üçün bu üç səviyyənin konsepsiya və mexanizminin müəyyənləşdirilməsi vacibdir. Yalnız iqtisadi amilə, iqtisadi fayda və marağa üstünlük verilməsi, inteqrasiyadan irəli gələn obyektiv və subyektiv meyillərin beynəlxalq miqyasda tənzimlənməsinin arxa plana keçməsinə, qlobal sabitlliyi pozan vəziyyətin yaranmasına səbəb ola bilər.

Ölkənin geosiyasi vəziyyəti nəzərə alınaraq, hərtərəfli iqtisadi və sosial inkişafın təmin olunması üçün beynəlxalq maliyyə institutları, iqtisadi təşkilatlar və regional birliklərlə əməkdaşlıq genişləndirilməlidir. Azərbaycan dövlətinin inkişafı baxımından geoiqtisadi strategiyanın seçilməsi sözsüz ən vacib məsələlərdən biridir. Bu baxımdan xarici siyasətdə dövlət prioritetləri sistemini formalaşdırmaq lazımdır. Onun formalaşdırılması zamanı real iqtisadi proseslərin təhlilinə istinad etmək, dünya ölkələrinin və ən başlıcası isə Azərbaycan dövlətçiliyi maraqlarından çıxış etmək lazımdır.

Beynəlxalq Valyuta Fondu ilə əməkdaşlığın neqativ aspektlərindən də bəhs etmək lazımdır. Bu neqativ aspektlərə, iqtisadiyyatın inkişafını ləngidən bir sıra tələblərin qoyulmasını daxil etmək olar ki, onlara da sərt pul-kredit siyasətinin aparılmasına, dövlət büdcəsi vəsaitlərinin xərclənməsinə dair bir sıra tələbləri və s. aid etmək olar.

Dünya bazarı ilə iqtisadi inteqrasiya strategiyası müəyyənləşdirilərkən, dünyada gedən iqtisadi proseslərin inkişaf təmayüllərinin müasir xüsusiyyətləri diqqətlə öyrənilib nəzərə alınmalıdır. Təsərrüfat həyatının beynəlmiləlləşməsi və respublikamızda ardıcıl olaraq "açıq qapı" siyasətinin həyata keçirilməsi istər xaricdə, istərsə də ölkə daxilində məhsulların yüksək rəqabətqabiliyyətli olmasını tələb edir. Beynəlxalq əmək bölgüsünün üstünlüklərindən səmərəli istifadə etməklə iqtisadi tərəqqinin təmin edilməsi əhəmiyyətli dərəcədə idxal və ixracın strukturundan asılıdır.

Azərbaycan Respublikasında xarici iqtisadi əlaqələrin dövlət tənzimlənməsi sisteminin normativ-hüquqi bazası Azərbaycan Respublikası Konstitusiyasından, Azərbaycan Respublikası Gömrük Məcəlləsindən, Azərbaycan Respublikasının digər qanunvericilik aktlarından (Azərbaycan Respublikası Prezidentinin fərmanları, Nazirlər Kabinetinin, İqtisadi İnkişaf Nazirliyi və Dövlət Gömrük Komitəsinin qərar və sərəncamları) və o cümlədən Azərbaycan Respublikasının iştirakçısı olduğu dövlətlərarası sazişlərdən və beynəlxalq müqavilə və konvensiyalardan ibarətdir.

Müasir şəraitdə Azərbaycanın xarici ticarət əlaqələrinin tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsi məsələsindən bəhs edilən zamanı, xarici ticarətdə biliteral asılılıq probleminə də xüsusi diqqət yetirilməlidir. İnkişaf səviyyəsindən asılı olmayaraq heç bir regional qurumla (dövlət və ya inteqrasiya bloku olmasından asılı olmayaraq) münasibətlərdə biliteral asılılığın formalaşmasına imkan verilməməlidir. Bunun həyata keçirilməsi üçün, xarici ticarət fəaliyyətinin coğrafi təmərküzləşməsinə heç cür yol verməməli, hər vəchlə multiliteral əlaqələrin inkişaf etdirilməsinə çalışılmalıdır.

Fikrimizcə, bütün bunları nəzərə alaraq və ümumiləşdirərək, aparılan araşdırmalara əsasən yekunda belə bir nəticəyə gəlmək olar ki, respublikamızda xarici ticarətin dövlət tərəfindən tənzimlənməsi həm gömrük tarif, həm də qeyri-tarif metodları vasitəsi ilə, başlıca olaraq aşağıdakı əsas istiqamətlərdə həyata keçirilməlidir: 1. İxrac potensialının inkişafının təmin edilməsi və ixracın strukturunun təkmilləşdirilməsi; 2. İstehsal olunan məhsulların rəqabət qabiliyyətinin yüksəldilməsi; 3. İdxalın səmərəliliyinin artırılması; 4. Texnoloji yeniləşmənin həyata keçirilməsi və ölkənin güclü iqtisadi potensialının yaradılması məqsədi ilə investisiyaların və kreditlərin prioritet sahələrə cəlb edilməsi; 5. Daxili bazarda azad rəqabət mühitinin inkişaf etdirilməsi, istehlakçıların hüquqlarının müdafiəsinin təmin edilməsi; 6. Yerli istehsalçıların mənafelərinin qorunmasının təmin edilməsi; 7. Ticarət, iaşə və digər növ xidmət sahələrində vahid informasiya-uçot sisteminin yaradılması; 8. Ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsi. Beləliklə, respublikanın ixrac imkanlarının genişləndirilməsi və ixrac bazarının diversifikasiyası Azərbaycanın ümumi iqtisadi siyasətində başlıca istiqamətlərdən biri olmalıdır.

Xarici iqtisadi siyasətin başlıca tənzimlənmə prinsipləri aşağıdakılar sayılır:

- Xarici iqtisadi siyasət ilə ümumi xarici siyasətin vəhdəti prinsipi;
- Milli maraqların hesaba alınması (milli iqtisadiyyatın və daxili bazarın stabil inkişafı, iqtisadiyyatda proqressiv dəyişikliklər, mikrotəsərrüfat kompleksinə effektiv inteqrasiya);

- Xarici iqtisadi fəaliyyəti idarə edən orqanlar sisteminin formalaşdırılması (icra hakimiyyəti, ixtisaslaşdırılmış nazirliklər, gömrük komitəsi, maliyyə və qanunvericilik orqanları və s.).

KAPİTAL BAZARI-RESURSLARININ FORMALAŞMASINDA ONUN ROLU

Yusifli T.Q.
Azərbaycan Dövlət İqtisad Universiteti

Azərbaycanda müasir və yüksək effektivli iqtisadiyyatın qurulması əsas məqsədlərdən biridir. Bunun üçün bütün iqtisadi institutlarda geniş miqyaslı və əsaslı bazar dəyişiklikləri aparılmaqdadır. İnkişaf etmiş bazar iqtisadiyyatı şəraitində qiymətli kağızlar investisiya prosesində aparıcı rol oynayır. Qiymətli kağızların köməyi ilə investorların sərbəst pul vəsaitlərindən iqtisadiyyatın ən müxtəlif sahələrində istehsal məqsədləri üçün istifadə edilir. Xarici ölkələrin təcrübəsi göstərir ki, qiymətli kağızların, ilk növbədə səhmlərin və istiqrazların emissiyaları ənənəvi olaraq korporasiyaların maliyyələşdirilməsinin xarici mənbələrinin strukturunda mühüm yer tutur. Bazar dəyişiklikləri ilə əlaqədar, Azərbaycan iqtisadiyyatında da səhmdar müəssisələri əhəmiyyətli yer tutmağa başlamışdır. Bu gün səhmdar cəmiyyəti iqtisadiyyatın bütün sənaye və maliyyə sahələrində müəssisənin hüquqi forması kimi üstünlük təşkil edir. Dünya təcrübəsi ilə sintez olunmuş proqramların, yerli bazarın incəliklərinin nəzərə alınması Birinci mərhələdə qiymətli kağızlar bazarının infrastrukturunun müasirləşdirilməsi, bu məqsədlə normativ hüquqi bazanın təkmilləşdirilməsi, maddi-texniki bazanın möhkəmləndirilməsi, habelə qiymətli kağızlar bazarında insan kapitalının inkişafı üçün zəruri imkanların yaradılması nəzərdə tutulur. Ölkənin qiymətli kağızlar bazarının əhəmiyyətli dərəcədə optimallaşdırılmasına istiqamətlənmiş bu mərhələnin 2011–2014-cü illəri əhatə etməklə Dövlət Proqramının ilk 4 ili ərzində tamamlanması planlaşdırılır. QKDK qiymətli kağızlar bazarına dair qanunvericiliyin qabaqcıl beynəlxalq təcrübəyə uyğunlaşdırılması sahəsində bir sıra tədbirlər görüldüyünü bildirir. "Qiymətli kağızlar bazarı haqqında" Qanun layihəsi hazırlanaraq aidiyyəti dövlət orqanları ilə razılaşdırılıb və dövlətdaxili prosedurların növbəti mərhələsinə (vizalanma) ötürülmüşdür. Lakin 2013-cü ilin əvvəlində irəli sürülən bu təşəbbüs uğurlu olmadı: bazar iştirakçıları ona adekvat reaksiya verə bilmədilər. Digər tərəfdən peşəkar iştirakçıların dəyərləndirməsinə görə, mexanizm kifayət qədər qüsurlu idi. Axı təkilf olunan 30 dəqiqə ərzində alternativ təklif irəli sürmək Azərbaycan gerçəkliyində hələlik mümkün olmayan bir iş idi. Broker və dilerlərin institusional potensialının artırılması, peşəkar hazırlığının yüksəldilməsi, risk menecmenti və daxili nəzarət sistemlərinin gücləndirilməsi və maliyyə dayanqlığının təmin edilməsi üçün yeni nəzarət və tənzimləmə konsepsiyasının tətbiqinə başlanılıb. Bunun üçün həm hüquqi, həm də təşkilati işlər həyata keçirilməli idi. Artıq bu işlər də başa çatıb və və görünür kü, bazarda yeni alətlərin ticarətinə imkanlar açılır. Bazarda likvidliyin olması qiymətli kağızların ticarətini canlandırır. İnvestorların hüquqlarının müdafiəsi, habelə qiymətli kağızlar bazarı sahəsində hüquqi məsuliyyətin gücləndirilməsi və effektiv təsir mexanizmlərinin yaradılması işləri tamamlanmaq üzrədir. Bu məqsədlə bir sıra qanunvericliik aktlarına əlavə və dəyişikliklərin layihəsi Hökumətə təqdim edilib. Tədqiqatın əsas məqsədi kapital bazarının idarə edilməsi sisteminin nəzəri-metodoloji aspektlərinin dərindən öyrənilməsi həmçinin, Respublikamızda olan kapital bazarının idarə edilməsi sisteminin təhlili və qiymətləndirilməsi,ortaya çıxan problemlərin efektiv həlli üçün mövcud metod və strategiyaların daha da təkmilləşdirilməsi,uğurlu dünya təcrübəsinin uyğun şəkildə ölkəmizdə tətbiqi şəraitini analiz etmək və pul resurslarının idarə edilməsi sisteminin səmərəliliyinin artırılmasına dair elmi cəhətdən əsaslandırılmış təkliflər işləyib hazırlamaqdan ibarətdir.

Dissertasiya işində aşağıdakı vəzifələr qarşıya qoyulmuş və öz həllini tapmışdır:

- Maliyyə bazarının tərkibində kapital bazarının yeri və onun tarixi ilə bağlı nəzəri əsaslar;
- Kapital bazarının əsas maliyyə alətləri və potensial iştirakçılarının xüsusiyyətləri;
- Kapital bazarının mahiyyəti və resursların formalaşmasında onun rolu;
- Milli kapital bazarının formalaşması və idarə olunmasının əsas istiqamətləri;
- Respublikamızda kapital bazarının inkişafi ilə əlaqədar problemlər və onların əhatəli təhlili
- Müasir şəraitdə AR-da kapital bazarının inkişaf persperktivləri;
- Milli kapital bazarının müasirləşdirilməsinin daha da təkmilləşdirilməsi yolları;

Tədqiqatın obyekti kimi Azərbaycan Respublikasında kapital bazarının idarə edilməsi sistemi götürülmüşdür. Kapital bazarının idarə edilməsinin rasional mexanizminin təşkili və dövlətin pul

resurslarının formalaşması siyasətinin prioritetlərinin müəyyənləşdirilməsi isə tədqiqat işinin predmetini təşkil edir. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin, Mərkəzi Bankın, Dövlət Statistika Komitəsinin, Dövlət Qiymətli Kağızlar Komitəsinin,İqtisadiyyat və Sənaye Nazirliyinin normativ sənədləri və Azərbaycan Respublikasının müvafiq normativ hüquqi aktları, eləcə də beynəlxalq maliyyə-institutlarının və digər kredit təşkilatlarının rəsmi sənəd və hesabatları, məlumatlarından ibarətdir.Həmçinin, müxtəlif yerli və xarici iqtisadçı müəlliflərin fikirləri, statistik məlumatlar, təhlil və araşdırmalar ,müxtəlif aktual qəzet və jurnallardan olan məlumatlar da araşdırmada öz əksini tapıb.

Tədqiqatın elmi yeniliyi **:** Tədqiqatın elmi yeniliyini müəyyənləşdirən mühüm xüsusiyyətlər aşağıdakılardır:

- Kapital bazarının idarə edilməsinin nəzəri məsələlərinin dərindən araşdırılması üçün,pul resurs nəzəriyyəsi mövcud iqtisadi reallığa uyğun olaraq,əhatəli təhlil edilmişdir;
- Azərbaycanda kapital bazarının idarə edilməsi sisteminin mövcud durumu araşdırılmış,bu sahədə dünya təcrübəsi ilə bağlı müvafiq elmi ümumiləşdirmələr aparılmış və konkret şəraitə uyğun olaraq kapital bazarının idarə edilməsi siyasətinin ölkəmizdə tətbiq imkanları müəyyən olunmuşdur.
- Kapital bazarının idarə edilməsi sisteminin təkmilləşdirilməsi üçün Qiymətli Kağızların Dövlət Komisiyyası və Fond Birjasını yaradaraq, aidiyyəti qurumların fəaliyyətinin daha da yüksəldilməsi təklif edilmişdir.
- Müasir bazar şəraitində Azərbaycanın kapital siyasətinin səmərəliliyinin əsas meyarları müəyyənləşdirilmişdir və mövcud iqtisadi şəraitə uyğun elmi cəhətdən əsaslandırılmış nəzəri təklif və tövsiyələr hazırlanmışdır.

Dissertasiyada irəli sürülmüş nəzəri müddəaların və praktiki tövsiyələrin praktiki cəhətdən kifayət qədər əhəmiyyətli olduğunu hesab edirəm.Çünki,tədqiqat işimdə qarşıya qoyulan vəzifələr, istifadə olunan metodlar, kapital bazarının, xüsusilə də, daxili kapital bazarının iqtisadi təhlükəsizlik və səmərəlilik baxımından qiymətləndirilməsi üsullarının seçimi, mütərəqqi idarəetmə modelinə əsaslanan dövlət zəmanətli qiymətli kağızlardan istifadənin digər istiqamətli qiymətli kağızlarla eyni normalar çərçivəsində limitləşdirilməməsinin zəruriliyi, kapital bazarının idarə edilməsi sisteminin inzibati quruluşunun uğurlu dünya təcrübəsindən yararlanaraq,mövcud sistemə uyğunlaşdırılması kimi təkliflər dövlət proqramlarının hazırlanmasında istifadə oluna bilər.

MALİYYƏ KREDİT SİYASƏTİNİN MAKROİQTİSADİ SABİTLİKDƏ ROLU

Yusifli T.Q.
Azərbaycan Dövlət İqtisad Universiteti

Son dövrlərdə,iqtisadi konyukturanın dəyişməsi ilə dövlətin fəaliyyətinin maliyyələşmə mənbələri sırasında xüsusi yer alan kapital bazarı Azərbaycanda da ölkənin maliyyə-kredit sisteminin sabitliyini və möhkəmliyini xarakterizə edən əsas göstəricilərdən biridir.Son illərdə, kapital bazarının idarə edilməsində ortaya çıxan problemlər kapital bazarının idarə edilməsinin optimal və effektiv sisteminin formalaşmasını şərtləndirir.Hesab edirəm ki, kapital bazarının optimal idarəetmə mexanizminin yaranması öz növbəsində kapital bazar siyasətinin səmərəli formalaşmasına zəmin yaradır.

Azərbaycanda kapital bazarının idarə edilməsi sisteminin mövcud durumu ilə bağlı dissertasiya işində apardığım müxtəlif istiqamətli təhlillər göstərir ki, son zamanlarda dünyada baş verən kapital bazar böhranları, həmçinin Respublikamızda da olan kapital bazarın idarə edilməsindəki problemlərin mövcudluğu qiymətli kağızların idarə edilməsinə ciddi yanaşmağı tələb edir.

Mövcud problemlər sırasında ilk öncə bizim kimi iri neft gəlirlərinə sahib olan və xarici investisiyaların da yüksək həcmdə daxil olduğu bir ölkənin tez-tez xarici kapital bazara müraciət etməsidir. Problemin aradan qaldırılması üçün təklif edirəm ki, kapital bazar münasibətinə qoşulmamışdan öncə səbəblər dəqiq araşdırılmalıdır. Həmçinin,mərkəzi hakimiyyət kapital bazarla əlaqədar hər cür məlumata sahib olmalı, bütün qərarlar ictimai müzakirə olunmalı və əlavə rəylər verilərək qəbul olunmalıdır.

Bundan əlavə, əldə olunan kapital bazar vəsaitinin bəzən təyinatı üzrə istifadə olunmaması , korrupsiyanın "yeminə" çevrilməsi də AR-da dövlət kapital bazarının idarə edilməsindəki problemli məqamlardandır. Bunun əsas səbəbini isə,hələ indiyə qədər aidiyyəti qurumlar tərəfindən pul resurslarının istifadəsini əks etdirən əhatəli İcmal Hesabatın hazırlanmamasında görürəm.Fikrimcə, qeyd edilən problemin həlli üçün, QKDK və Fond birjası tərəfindən kapital bazarları üzrə İcmal Hesabat

hazırlanmalı,xüsusilə xarici kapitalın cəlb etmə məqsədləri, təyinatı üzrə istifadə vəziyyəti dəqiqliklə əks olunmalı və ictimaiyyətə açıqlanmalıdır.

Ölkə iqtisadiyyatının inkişafı qiymətli kağızlar bazarında peşəkar kadrlara tələbatı artırır. Dünya ölkələrində kapital bazarlarının çəkisinin artması, Azərbaycanda da son illər bu sahənin inkişafına olan diqqəti nəzərə çarpacaq dərəcədə artırmışdır. Bu gün kadr çatışmamazlığının aradan qaldırılması və bazarın inkişafı istiqamətində həm Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi nəzdində yaradılmış Kapital bazarı üzrə Tədris Mərkəzi, həm də fərdi investorlarının sayının artırılması istiqamətində fəaliyyət göstərən InvestAZ şirkəti tərəfindən çoxşaxəli işlər görülməkdədir. Artıq qiymətli kağızlar bazarında fəaliyyət göstərən şirkətlərin ən peşəkar mütəxəssislərə malik olmaları əsas şərtdir. Tam spektr üzrə maliyyə xidmətləri göstərən şirkətlər, əhalini terminlər və risklər haqqında doğru məlumatlandırmaları üçün müvafiq lisenziya almış əməkdaşlar cəlb etməlidirlər.

Ölkənin inteqrasiya və təhlükəsizliyinin əsas indikatoru olan kapital bazarın idarə edilməsinin zəif mexanizmi də Respublikamızda pul resurslarının idarə edilməsindəki mövcud problemlərə aiddir.

Fikrimcə,Azərbaycanda kapital bazarının idarə edilməsi prinsiplərini təkmilləşdirmək üçün ilk öncə QKDK və Fond bazarı sistemi inkişaf olunmalıdır. Burada,əsas məsələ ölkədə resursların formalaşması siyasəti həyata keçirən QKDK və kapitalın idarə edilməsi ilə birbaşa məşğul olan Fond bazarı arasında koordinasiya güclü olmalı və bu sferada səlahiyyətlər dəqiq müəyyən edilməlidir.

Bundan başqa, həmçinin, kapital bazarın idarə edilməsinin təkmilləşdirilməsi üçün məcmu resursların idarə edilməsi statistikasının tərtibi və yayımlanması məqsədilə modern və standartlaşdırılmış statistika sisteminin yaradılmasını təklif edirəm.

Bütövlükdə, bu istiqamət üzrə görülən işlər "2011-2020-ci illərdə Azərbaycan Respublikasında qiymətli kağızlar bazarının inkişafı" Dövlət Proqramına uyğun aparılır. Sahə üzrə mütəxəssislərin inkişaf etdirilməsi və peşəkarlığının artırılması istiqamətində illik təlim proqramları hazırlanmış vəbir sıra yerli və xarici tərəfdaşlarla əməkdaşlıq davam etdirilir. Azərbaycanın qiymətli kağızlar bazarı sabit inkişaf edən stabil kapital bazarıdır. Bu özünü həm əməliyyat prosesləri və bazar infrastrukturunun dinamikasında, həm də bazarın kəmiyyət göstəricilərində büruzə verir. Bütövlükdə, hər iki amil kapital bazarlarında keyfiyyət dəyişikliklərinə təkan verir.

Hökumətinin kapital bazarlarının inkişafı və infrastrukturunun təkmilləşdirilməsi sahəsində sürətli inkişaf tempi əldə etdiyini vurğulayaraq, Məqsəd kapital bazarlarında mövcud olan xüsusiyyətləri nəzərə alan spesifik vergi rejiminin tətbiq olunmasıdır. Kapital bazarları bütün dünyada bank, sığorta, digər sahibkarlıq fəaliyyətindən öz spesifikasına görə fərqlənir. Buna görə də bütün dünyada kapital bazarlarında təkcə vergiqoyma deyil, hüquq rejimi də fərqli olur. Bunun kimi bəzi məsələlər vergi qanunvericiliyinə daxil edilməlidir.

Bundan əlavə,düşünürəm ki,xaricdən ölkəyə cəlb edilən kapitalın ümumi daxili məhsula nisbətinin optimallaşdırılması istiqamətində qiymətli kağızlar üzrə nəzərdə tutulan borclanma limiti getdikcə azaldılmalıdır.Hesab edirəm ki,bu bizə kapital bazarının resursların formalaşmasında xüsusi çəkisinin tarazlı şəkildə saxlanmasına və deyərdim ki, hətta tədricən azalmasına imkan verəcəkdir.

Növbəti problemlərdən olan Qiymətli kağızlar bazarında səhmdarların hüquqlarının qorunması sahəsində QKDK-nın işi daxil olan şikayətlər əsasında səhmdarların hüquqlarını pozan şirkətlərə qarşı inzibati sanksiya tətbiq etməklə məhdudlaşır. Hərçənd, "Qiymətli kağızlar bazarında investorların huquqlarının mudafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən, o, qiymətli kağızlar bazarında qanun pozuntuları haqqında investorlara məlumat verilməsi və onları xəbərdar etmək məqsədilə ozunun rəsmi nəsrində tətbiq etdiyi inzibati məsuliyyət tədbirləri barədə məlumatlar dərc etməlidir. Qanunun tələbinə görə, QKDK qiymətli kağızlar bazarında qanun pozuntularına yol vermiş səxslərə tətbiq etdiyi sanksiyalar, həmin qanun pozuntularını etmiş səxslər və s. ibarət məlumatlar bazasını yaratmalıdır. Dövri hesabata əsasən, təkcə 2014-cü ilin 11 ayı ərzində investorların hüquqlarının pozulması faktlarına görə, 532 şirkətə qarşı cərimə sanksiyası tətbiq olunub. Amma investorlar bu səhmdar cəmiyyətlərini tanımadıqları üçün qiymətli kağızlar bazarına girmək istədikləri zaman faktiki olaraq köməksiz qalırlar.

Həmçinin,kapital bazarı auditi və monitorinqi üçün Hesablama Palatasının səlahiyyətlərinin artırılması da resursların formalaşmasını idarəetmə sisteminin sürətli inkişafına səbəb olacaqdır. Beləliklə,Hesablama Palatasına kapital bazarının tam aşkarlanmasına əminlik yaradılması üçün pul resurslarının auditi işlərini təşkil edilməsi, audit işlərinə, həmçinin maliyyə sistemi və Fond bazarının idarə olunması sahəsində olan məxsusi risklər və təsirlər haqqında ictimayyətə dövri olaraq tam həcmli hesabatların verilməsi, gələcək resursların formalaşması məsələlərinin monitorinqi aparmalı, yüksək və

ya güclü şəkildə artan belə resursların dövriyyə səviyyəsinin potensial təsirləri və nəticələri haqqında müntəzəm olaraq Parlamenti və ictimaiyyət məlumatlandırmalı, pul resursları və onların idarə olunması məsələləri üzrə fəaliyyət auditinin aparılması istiqamətində QKDK və BFB qərarlarının təsirləri araşdırılmalı, risklər müəyyənləşdirilməli, qiymətləndirilməli və onların potensial nəticələri haqqında hesabat verilməsi kimi səlahiyyətlərin verilməsini təklif edirəm.

Bundan əlavə,daxili kapital bazarının inkişafına şərait yaratmaq da dövlət qiynətli kağızlarının idarəetmə mexanizminin inkişafına müsbət təsir edəcəkdir. Çünki, çox zaman xarici qiymətli kağızların düzgün istifadə olunmaması nəticəsində xaricdən asılıq riski artaraq,iqtisadi təhlükəsizliyin artmasına səbəb olur.

Daxili kapital bazarının inkişafı üçün isə dövlətə inam artırılmalıdır.Bünün üçün isə, qiymətli kağızlar bazarı yenidən qurulmalı, təkmilləşdirilməli və daxili maliyyə bazarının qanunvericilik bazası formalaşdırılmalı və daxili borclanma üçün vasitələr artırılmalıdır.

Əsas problem isə,AR-da dövlət fond bazarının idarə edilməsi ilə birbaşa məşğul olan Bakı Fond Birjası birjanın İdarə Edilməsi Agentliyinin yetərsiz fəaliyyətindən irəli gəlir.Düşünürəm ki,Respublikamızda Agentliyin fəaliyyətinin səmərəliliyinin artırılması üçün inkişaf etmiş ölkələrin təcrübəsinə müraciət olunmalıdır.Belə ki, İEÖ-də sırf dövlət fond birjasının idarə edilməsi ilə məşğul olan xüsusi birja menecerləri fəaliyyət göstərir.

Birja menecerlərinin vəzifələrinə birja ilə bağlı məlumatların toplanması, bazarın planlaşdırılması, hökümətin öhdəliklərin vaxtında və dəqiqiliklə həyata keçirilməsi,borc portfelinin dəyərini və əlaqəli risklərin məqbul səviyyədə saxlanması məsuliyyəti və hökümətin birja strategiyasını həyata keçirmək daxildir.

Bundan əlavə,İEÖ-də dövlətin birja menecmentinin əsas məqsədi açıqlananda,bu məqsədləri reallaşdırılmasında dövlətin kapital bazrda olan pul portfelinin xərcləri və riskləri ictimaiyyətə açıqlanır.Bu risklərin idarə olunması üçün ölkənin iqtisadi və maliyyə vəziyyətinə uyğun modellər hazırlanması ilə isə risk menecerleri məşğul olur.

Hesab edirəm ki,dünyada hökm sürən böhranların təsirlərinin minumuma endirmək üçün,Respublikamızda da müvafiq ixtisaslaşdırılmış bilik və təcrübələrə yiyələnmiş birja menecerləri yaradılmalıdır.

Və sonda,qeyd etmək istəyirəm ki,sadalan problemlərin lazımı səviyyədə həlli mövcud sistemin uğurlu fəaliyyətinin təminatı olacağına inanıram.

MİLLİ İQTİSADİYYATIN MALİYYƏ SABİTLİYİNİN TƏMİN EDİLMƏSİNİN PRİNSİPLƏRİ

Hümbətova X.D.
Azərbaycan Dövlət İqtisad Universiteti

Makromaliyyə sabitlik iqtisadiyyatda böyük əhəmiyyət kəsb edir. Makromaliyyə sabitliyi makroiqtisadi sabitliyinin mühüm tərkib hissəsidir. Makroiqtisadi sabitlik dedikdə cəmiyyətdə gedən iqtisadi proseslər, istehsalçılarla istehlakçılar, məcmu tələblə məcmu təklif arasında proporsiyaların qorunması prosesi başa düşülür.

Makromaliyyə sabitliyi təkcə maliyyə resurslarının deyil, eyni zamanda kredit resurslarının istifadəsi zamanı meydana çıxan səmərəliliklə əlaqədardır. Maliyyə sabitliyi anlayışının mahiyyətini aydınlaşdırmağa çalışan hər kəs bilir ki, hələ də maliyyə stabitliyini ölçmək və eləcədə müxtəlif iqtisadi sistemlər üçün siyasətlərin araşdırılmasını təmin edə biləcək hamı tərəfindən qəbul edilən bir model və ya analitik sturuktur yoxdur. Maliyyə sabitliyindəki inkişafı yalnız bir göstərici ilə xarakterizə etmək mümkünsüzdür. Bu, maliyyə institutlarının sabitliyi, maliyyə bazarları və ödəniş sisteminin effektiv fəaliyyəti kimi çoxtərəfli xüsusiyyətləri əks etdirir. Eləcə də real iqtisadi sektora təsir edə biləcək amillər də nəzərə alınmalıdır.

Ölkənin maliyyə sabitliyini müəyyən edən göstəricilər bunlardır:

- büdcə kəsirinin səviyyəsi;
- qiymətlərin sabitliyi;
- maliyyə axınlarının və hesablaşma münasibətlərinin normallaşması;
- bank sisteminin və milli valyutanın sabitliyi;
- əmanətçilərin maraqlarının qorunma səviyyəsi;

- ölkənin qızıl-valyuta ehtiyatı;
- maliyyə bazarı və qiymətli kağızlar bazarının vəziyyəti və səviyyəsi;
- ölkənin xarici və daxili borcu;
- tədiyə balansının kəsiri;
- investisiya fəaliyyətinin aktivləşməsinin maliyyə şərtləri.
- maliyyə sisteminin bütün səviyyələrində maliyyə axınları və hesablaşmaların sabitliyi;
- ödəniş öhdəliklərinin icrası, ödənişlərin icra olunmama səviyyəsi;
- dövriyyənin ümumi həcmində pul hesablaşmalarının payı;
- maliyyə kapitalının xaricə qanunsuz axını;
- pul kütləsinin dövriyyə sürəti, tədavüldə olan pul kütləsinin həcmi.

Makromaliyyə sabitliyi dedikdə maliyyə sisteminin komponentlərinin sabit fəaliyyəti başa düşülür. Milli iqtisadiyyatın maliyyə sabitliyinin təmin edilməsinin bəzi prinsipləri vardır. Bu prinsiplər aşkara çıxarılmalı, geniş şəkildə ayrı-ayrılıqda öyrənilməli, araşdırılmalıdır. Çünki, bu prinsipləri müəyyən etmədən maliyyə sabitliyini təmin etmək olmaz. Bazar iqtisadiyyatı şəraitində makromaliyyə sabitliyinin təmin edilməsinin əsas prinsipləri bunlardır: maliyyə sisteminin bazar sisteminə uyğun qurulması; maliyyə sisteminin dövlət tərəfindən tənzimlənmə, vahid qanunvericilik bazasının olması, pul-kredit və büdcə vergi siyasətinin düzgün aparılması, xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənməsi, büdcə tarazlığı, qiymət tarazlığı, maliyyə bazarında tarazlıq, valyuta sabitliyi, pul tədvülünün tarazlığı, tədiyyə balansının tarazlığı, idxal-ixrac tarazlığı və s.dir.

Maliyyə sisteminin mahiyyətinin isə daha yaxşı dərk olunması üçün ilk öncə maliyyə terimini aydınlaşdırmaq lazım gəlir. Maliyyə münasibətlərinin yaranması özünü həmişə pul vəsaitlərinin hərəkəti şəklində təzahür etdir. Pul yoxdursa, maliyyə münasibətləri də yoxdur, çünki, bu münasibətlər aşkarlanmır və başqa cür ifadə oluna bilmir. Maliyyə anlayışı pul münasibətlərini ifadə etməsinə baxmayaraq, o heç də bütün pul münasibətlərini əhatə etmir. Pul münasibətləri maliyyə münasibətlərinə nisbətən daha geniş anlayışdır.

Maliyyənin mahiyyəti onun funksiyalarında təzahür edir. İqtisadi kateqoriya kimi maliyyəyə 4 funksiya: bölüşdürücü və nəzarət, sabitləşdirici, allokasiya funksiyaları xarakterikdir.

Maliyyə sisteminin düzgün mexanizminin qurulması nəticəsində maliyyə sabitliyinə nail olmaq olar. Maliyyə mürəkkəb struktura malik bir sistemdir. Maliyyə sistemi maliyyə bazarları, maliyyə qurumları və ödəniş sistemləri kimi bir sıra tərkib hissədən ibarətdir. Maliyyə sabitliyi maliyyə sisteminin vəziyyətini əks etdirir ki, bu da aşağıdakı xüsusiyyətləri daşıyır:

-maliyyə sistemi öz funksiyalarını lazımı qaydada yerinə yetirir;

-maliyyə sistemi daxili və xarici şoklara qarşı dayanıqlıdır;

-öz funksiyalarını bərpa etmə xüsusiyyətinə malikdir.

Makromaliyyə sabitliyinə nail olmaq üçün dövlət iqtisadi və sosial siyasətin əsas məqsədlərini və onların təmin olunması üsullarını müəyyənləşdirməlidir. Maliyyə sabitliyini düzgün maliyyə siyasəti əsasında təmin etmək olar. Maliyyə sabitliyini təmin edilməsi üzrə aparılan siyasətlər zaman etibari ilə uğursuz ola bilər. Bəzi siyasətlər qısamüddətli dövrdə maliyyə sabitliyini təmin edə bilsələr də, uzunmüddətli dövrdə təmin edə bilmir və daha çox xərc tələb edə bilər. Makro-maliyyə sabitliyinin təmin edilməsi üçün dövlətin həyata keçirdiyi maliyyə siyasətinin əsas iki istiqamətini büdcə-vergi, pul-kredit siyasəti təşkil edir.

Büdcə tarazlığı makromaliyyə sabitliyinin əsas prinsipilərindəndir. Büdcə tarazlığı səviyyəsinin müəyyən olunması üçün aşağıdakı göstəriciləri istifadə etmək olar: büdcənin minimal xərcləri (Xm); büdcənin məcmu gəlirləri (Mg); büdcənin tənzimləyici gəlirləri (Tg), büdcə borcları (b). Onların köməyi ilə büdcənin dayanıqlılığı belə əks etdirilir:

Mütləq sabitlik

Xm < (Mg +Tg);

Sabitliyinin normal vəziyyəti:

Xm = (Mg +Tg)

Qeyri -sabit vəziyyət

Xm > (Mg +Tg-3);

Mütləq qeyri-sabit vəziyyət

Xm > (Mg+Tg).

Pul tədavülündə tarazlıq pul emissiyası, pul mədaxili və məxaricinin qarşılıqlı əlaqəsindən yaranır. Məlum olduğu kimi tədavüldə pul kütləsinin müəyyən həddi vardır. Pul tədavüldə artıq olduqda infliyasiya, əks halda deflyasiya baş verə bilər. Fişer tənliyinə əsasən tədavüldə olan pul kütləsinin tənzimləmək olar.

MV=PQ

M-Pul kütləsi
V-Pulun dövriyyə sürəti
P- əmtəələrin qiyməti
Q-reallaşdırılan əmtəələrin həcmi

Qiymət sabitliyinin təmin edilməsi maliyyə sabitliyinin bir hissəsi kimi hesab edilə bilər. Qiymət sabitliyi inflyasiya səviyyəsinin insanların iqtisadi qərarlarına təsir edə bilməyəcək qədər aşağı olduğu bir vəziyyətdir. Yəni, qiymətlərin sabit və dəyişməz olduğu vəziyyət deyil, hədəflənən ortalama qiymət səviyyəsində davamlılığının təmin edilməsidir. Qiymətlərinin ümumi səviyyəsindəki illik ortalama artım sürətinin xüsusi olaraq 1-2 % olduğu iqtisadiyyatlarda qiymət sabitliyinin olduğunu söyləmək olar. Hətta inkişaf etməkdə olan ölkələr üçün qiymətlərinin ümumi səviyyəsindəki illik ortalama artım sürəti 5%-ə qədər normal qarşılana bilər.

Xarici ticarət balansı-müəyyən müddətə ölkəyə ixrac və idxal edilən malların dəyərinin nisbətini xarakterizə edir. İxrac və idxal arasındakı fərqə xarici ticarət saldosu deyilir. Xarici ticarət saldosu müsbət və mənfi ola bilər. Müsbət saldo ixracın idxaldan çox olmasını, mənfi saldo isə idxalin ixracdan çox olmasını göstərir. İxrac və idxal tazarlığı təmin edilməsə makromaliyyə sabitliyi təmin edilə bilməz.

Valyuta kursunun tənzimlənməsində də bazar əməliyyatından istifadə edilir. Bunun üçün onun zəruri valyuta ehtiyatına malik olması lazımdır. Əgər xarici valyutanın təklifi artırsa, bu milli valyutanın möhkəmlənməsi, milli valyutanın möhkəmlənməsi isə ölkənin ixrac potensialına mənfi təsir ilə nəticələnir. Belə olan halda, valyuta alışını həyata keçirilərək bazardakı nisbəti birincinin xeyrinə dəyişməyə çalışır.

Əks proses baş verdikdə, yəni xarici valyutanın təklifi azaldıqda milli valyutanın ucuzlaşması, bununla da ölkədə maliyyə sabitliyinin pozulması, əhalinin real gəlirlərinin azalması, inflyasiya təhlükəsi meydana gəlir. Bu zaman sabitliyi təmin etmək üçün bazara xarici valyuta çıxarılır.

İstənilən ölkənin iqtisadi –siyasi vəziyyətini qiymətləndirmək üçün ilk öncə onun iqtisadi artım göstəricilərinə, həyat səviyyəsinə baxılır. Ölkələrin iqtisadi inkişaf səviyyəsi və fəaliyyət göstərən iqtisadi sistemin xarakteri və quruluşunun, həyata keçirilən makroiqtisadi sabitləşmə siyasətinin fərqli cəhətlərinə baxmayaraq, onun bütün mərhələləri üçün əsas götürülən ümumi cəhət oxşardır. Belə ki, makromaliyyə sabitliyinin təmin olunmasında əsas məqsəd iqtisadi inkişafa, iqtisadi artıma nail olunması və əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasıdır. Makromaliyyə sabitliyi iqtisadi inkişafa səmərəli təsir göstərməklə ölkənin ictimai siyasi quruluşu və iqtisadi artımın obyektiv qanunauyğunluqları ilə müəyyən olunur. Beləliklə, makromaliyyə sabitliyi olmadan iqtisadi artımı təmin etmək mümkün deyil.

REGİONAL İNNOVASİYA SİYASƏTİ

Allahverdiyev R.N.
Sumqayıt Dövlət Universiteti

İnnovasiya fəaliyyəti-maliyyə, maddi, informasiya, intellektual və insani resurslarının cəmləşdirilməsini və səfərbər edilməsini tələb edir. Bir çox elmi-tədqiqat institutlarının sınaq-konstruktor büroları (SKB) ilə kooperasiyada innovasiya strukturları yaradılır və onlara rəqabətqabiliyyətli məhsul istehsalının mənimsənilməsi öyrədilir. Xüsusi qərarlar olmadan yeniliklərin Azərbaycanın sənaye müəssisələrinə daxil edilməsi meylini 8-10% dəyişmək olmur, bu isə inkişaf etmiş ölkələrlə müqayisədə kifayət qədər aşağı göstəricidir. İnnovasiya siyasətinin ən əsas tərkib hissələrindən biri – regional innovasiya siyasətidir. Postsovet ölkələrindən Rusiya böyük elmi-texniki potensiala, yüksək elm səviyyəsinə, xaricdə məşhur olan elmi məktəblərə, çoxsaylı ixtisaslı mütəxəssislərə malik idi. Odur ki, Azərbaycanın innovasiya siyasətinin həyata keçirilməsi üçün bu sahədə RF-nin iş təcrübəsinin öyrənilməsi və ölkəmizdə həyata keçirilməsi xüsusilə, əhəmiyyətli olar.

Rusiya fizika, riyaziyyat, kimya, fiziologiya və tibbin bir çox istiqamətlərində dünya liderlərindən biridir.. Onun lazer sahəsi və kriogen texnikasına, yeni materiallar, rabitə və kommunikasiya vasitələri sahəsində əldə etdiyi nailiyyətlər nəinki postsovet məkanında, hətta xaricdə də məlumdur. Eyni zamanda

məlumdur ki, bizdə reallaşdırılmayan ixtiraların xüsusi çəkisi böyükdür, regional elmi potensialdan zəif istifadə olunur. Bu mənada elm və istehsalın müsbət nəticə verən hər hansı bir inteqrasiyası təcrübəsini qəbul etmək lazımdır. Belə ki, bir çox regionlarda ərazi elmi-istehsalat kompleksləri yaratmağa başlamışdırlar. Məsələn, Vladimir vilayətində ali məktəbləri, elmi mərkəzləri və istehsal strukturlarını inteqrasiya edən Vladimir innovasiya texnoloji mərkəzi yaradılmışdır. Kovrov şəhərində "Regional innovasiya-texnoloji mərkəz" yaradılmışdır ki, o, Kovrov dövlət texnoloji akademiyasını B.A.Deqtyarov adına zavodu, Kovrov elektromexaniki zavodunu birləşdirir. Bu Rusiya Federasiyası subyektinin inkişaf yolunu - alim və praktiklər inkişafın innovasiya tipi adlandırırlar.

Kirov vilayətində "Kirov vilayətində sənaye siyasəti haqqında" Qanuna - əsasən, rəqabət qabiliyyətli istehsalların saxlanılması, inkişafı və formalaşmasına əsasında şərait yaradılmışdır. Bunun üçün vilayət Vyatka şəhərinin ticarət-sənaye palatası, Kirov elmi-texniki informasiya mərkəzi, Vyatka dövlət universiteti ilə innovasiya fəaliyyəti sferasında qarşılıqlı əlaqə haqqında saziş imzalanmışdır. Regionlar arası innovasiya inkişafı fonduna yardım edən "Kirov" filialı da fəal işləyir (Nijni Novqorod).

Orlov vilayətində müəssisələr və təşkilatlarda innovasiya və investisiya proseslərinin fəallaşdırılması sahəsində iş aparılır. Bu iş sənaye müəssisələri, elmi idarələrin və ali məktəblərin qarşılıqlı əlaqələrinin inkişafı və elmi-texniki, innovasiya fəaliyyəti ilə məşğul olan işçilərin nüfuzunun artırılması məqsədi ilə həyata keçirilir. Vilayətdə aparılan innovasiya siyasəti vilayət qanunlarına əsaslanır ("Orlov vilayətində innovasiya fəaliyyəti və dövlət innovasiya siyasəti haqqında", "Elm və innovasiya fəaliyyəti haqqında", "Orlov vilayətində innovasiya fəaliyyəti haqqında").Tataristan Respublikası iqtisadiyyatda xammal orientasiyasından innovasiya inkişafı yoluna keçir. Artıq orada 2005-2010-cu illər üçün innovasiya fəaliyyəti inkişafının Proqramı reallaşdırılmışdır. "İdeya" innovasiya-istehsalat texnoparkı yaradılmışdır və burada Avropa texnoparklarının təcrübəsindən geniş istifadə edilir.

Eyni zamanda bir çox regionlarda təşkilatların elmi potensialından kifayət qədər istifadə olunmaması xarakterikdir. Belə vəziyyətin səbəblərinin bir qismi aşağıdakılardır: elmi işlənilmələr nəticəsində alınan məhsulların bir hissəsi bəzən rəqabət qabiliyyətli məhsul kimi çıxış edə bilmir, elmi təşkilatların müəssisələrlə keçmişdə olan əlaqələrinin pozulması demək olar ki, hər bir yerdə elmin istehsalatdan ayrılmasına gətirib çıxardı.

Nəticədə - iqtisadi, hüquqi və təşkilat şəraiti, sənaye məhsullarının rəqabət qabiliyyəti ilə bağlı dövlət innovasiya siyasətinin ən vacib məqsədləri süni surətdə ləngidilir və sosial-iqtisadi məsələlərin həlli yollarında maneələr əmələ gəlir.

RƏQABƏT QABİLİYYƏTLİ İQTİSADİYYATIN YARADILMASINDA İNNOVASİYA ƏSASLI TEXNOPARKLARIN ROLU

Babazadə N.A.
Azərbaycan Dövlət İqtisad Universiteti

Yeni sahibkar tipinin müvəffəqiyyətlə formalaşması üçün texnoparklar, adətən, iri universitetlərin - kampusların bazasında təşkil olunur. Texnologiyaların transferi, kommersiyalaşdırılması və iqtisadiyyatda elmtutumlu məhsulların xüsusi çəkisinin artırılması üçün texnoparklarda innovasiya təyinatlı şirkətlərin təşkili və inkişafı üçün şərait yaradılır.

Texnopark universitet və elmitədqiqat institutlarında yaradılan yeni texnologiyaların kommersiya baxımından reallaşdırılmasını həyata keçirən, gənc mütəxəssislər üçün yeni iş yerləri yaradan və yerləşdiyi şəhərin sosial-iqtisadi həyatında səmərəli rol oynayan güclü qurumdur. Texnopark strukturları mövcud olduğu 60 il ərzində iqtisadiyyat və elmi-texniki tərəqqidə baş vermiş dəyişikliklərin təsiri altında dəfələrlə transformasiya olunmasına baxmayaraq, sistem səciyyəli aşağıdakı təməl prinsiplərini qoruyub saxlaya bilmişdir: yüksək xarakteristikalara malik, innovasiya təyinatlı transprofessional sahibkarın formalaşdırılması; rəqabət qabiliyyətli məhsullara və əqli mülkiyyətə söykənən yüksək texnologiyaların kommersiallaşdırılması.

Dünya təcrübəsində göründüyü kimi , texnoparkların yaradılmasında şərti olaraq üç model əsas götürülür: Amerika, Avropa və Asiya modelləri. Amerika modelinin ən tipik nümunəsi dünyada ilk texnopark - Stenford Universitetində yaradılmış "Silikon vadisi"dir. Stenford texnoparkı böyüklüyünə görə bu gün də liderdir. O, universitet ərazisində yüksək texnoloji şirkətlərə 51 il ərzində icarəyə verilən 280 hektarlıq sahədə yerləşir. 1981-ci ildə parkda 80 şirkət və 26 min işçi çalışırdı. Stenford

texnoparkının inşaatının başa çatmasına, infrastrukturunun formalaşmasına və ərazisinin bütünlüklə icarəyə verilməsinə 30 il vaxt sərf olunmuşdur. Funksional struktur vahidləri ilə innovasiya müəssisələrinə xidmət qurumlarının vahid arxitekturaya daxil olması texnoparkın Amerika modelinin səciyyəvi xüsusiyyəti sayılır. Dünyada ilk texnopark iqtisadi, sosial və ərazi şərtlərinin harmoniyasından yaranan sinergetik effektin reallaşdırılmasının nəticəsi sayıla bilər. "Silikon vadisi"nin yaranmasında aşağıdakı şərtlər aparıcı rol oynamışdır: cəmiyyətdə texnoloji innovasiyaları reallaşdırmaq zərurətinin yaranması; mərkəzi rayonlarda icarə qiymətinin, universitet kampusunun istifadə olunmayan ərazilərinin yerləşdiyi periferiyaya nisbətən çox yüksək olması; universitetlərdə dövlət tərəfindən maliyyələşdirilən elmi-tədqiqat işlərinin aparılması və s.

Texnopark dövlətə və yerləşdiyi şəhərə xeyir gətirir. O, şəhər üçün yeni iş yerlərinin yaradılması və yeni texnologiyaların inkişaf etdirilməsidirsə, dövlət üçün innovasiya əsaslı və rəqabətə davamlı iqtisadiyyatın yaradılması vasitəsidir. Odur ki, belə kommersiya təyinatlı qurumların təsisçisi kimi dövlət, şəhər, bələdiyyə, ali məktəb və biznes strukturları çıxış edirlər. Onlar nizamnamə kapitalına ya maliyyə vəsaiti yatırır, ya da müəyyən preferensiyalar, məsələn, icarə xərci, ərazidən istifadə və s. verirlər.

Texnoparkın digər üstün cəhəti onun kommersiya baxımından cazibədarlığı və sabitliyidir. Məsələn, texnoparkın əsas təsisçilərından birinin ali məktəb olmasına baxmayaraq, kommersiya strukturu kimi onun idarə olunmasını ali məktəb deyil, biznesdə artıq müəyyən müvəffəqiyyətlər qazanmış və onu özünün əsas fəaliyyət sahəsi sayan sahibkar həyata keçirir. Başqa sözlə, texnopark yüksək texnologiyalar və innovasiyalar əsasında biznes fəaliyyəti göstərən sərbəst, kommersiya baxımından əlverişli və səmərəli müəssisədir.

Elmi təyinatlı kiçik şirkətlər üçün bank kreditləri əsas investisiya mənbəyi kimi qəbul edilə bilməz, çünki risk yüksəkdir, kiçik müəssisələr adekvat girov qoya bilmir, potensial risk faizini təyin etmək çətindir, kiçik innovasiya müəssisələrinin təsisçiləri, adətən, kifayət qədər maliyyə və idarəçilik təcrübəsinə malik olmurlar. Vençur (ingiliscə: venture) "riskli fəaliyyət və ya başlanğıc" deməkdir. Riskli fəaliyyət terminindən göründüyü kimi, pul qazanmaq istəyən investorla təşəbbüskarın qarşılıqlı münasibətlərində müəyyən qədər risk elemeni var. Çünki kiçik və orta müəssisələrin vençur maliyyələşdirilməsi, bank kreditindən fərqli olaraq, hər hansı bir girov qoyulmadan həyata keçirilir. Təcrübədə vençur maliyyələşdirilməsinə cəlb olunmuş vəsaitlərin bir hissəsini səhmdarların kapitalları, digər hissəsini isə investisiya kteditləri təşkil edir.

Bu gün milli iqtisadiyyatın inkişaf bazasının yüksək texnologiyalar əsasında qurulması istiqamətində ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında uğurlu siyasət həyata keçirilir. Yüksək texnologiyalar biliyə söykənən iqtisadiyyatın yaranması istiqamətində irəli atılmış əhəmiyyətli addımdır. Bu istiqamətdə fəaliyyətin əyani nümunəsi Sumqayıt texnoparkıdır. Dövlət başçısı Sumqayıt texnoparkını ölkənin artan iqtisadi qüdrətinin göstəricisi adlandırmışdır. Texnopark Sumqayıt şəhəri üçün yeni iş yerlərinin yaradılması və yeni texnologiyaların inkişaf etdirilməsi, ölkə üçün isə innovasiya əsaslı, elmtutumlu və rəqabət qabiliyyətli iqtisadiyyatın inkişaf etdirilməsi vasitəsidir.

Sumqayıt texnoparkı 45 hektarlıq ərazidə yerləşir. Bu ərazinin 140 min kvadratmetrini parkın istehsalat korpusları tutur. Texnoparkın birinci fazasının inşaat-montaj işlərini həyata keçirmək üçün 2300 nəfərdən artıq adamın əməyindən istifadə olunmuşdur. Müəssisə tam layihə gücünə çatandan sonra burada 3000 işçi, o cümlədən yüksəkixtisaslı mühəndis-texniki kadrlar daimi iş yerləri ilə təmin olunacaqdır. Texnoparkda ölkənin elektroenergetika sənayesində yeni infrastruktur layihələrinin həyata keçirilməsi üçün lazım olan müasir avadanlıqlar istehsal edilir. Burada 16 zavodun fəaliyyət göstərməsi planlaşdırılır. Onlardan bir çoxu tam istehsal gücü ilə işləyir, alternativ enerji mənbələrindən istifadə avadanlıqları (günəş kollektoru, külək generatoru), yüksək gərginlik avadanlıqları, yüksək gərginlikli ötürücülərin dayaqları, ağır transformatorlar, hidroturbinlər, müxtəlif kabel məmulatları, geniş çeşidli plastik kütlə və metal borular, şüşə məmulatları və s. məhsullar buraxır.

Texnoparkda plastik kütlə materiallardan 800 millimetrədək diametrli boruların istehsalı həyata keçirilir. 16 atmosferə qədər təzyiqə davamlı olan belə borular MDB məkanında ilk dəfə istehsal edilir. Onlardan qaz və su təchizatında, kanalizasiyada, kiçik elektrik stansiyalarında, kabel çəkilişində istifadə olunacaqdır. Texnoparkdakı digər bir zavodda elektrotexnika sənayesi üçün mis və alüminium kabellər istehsal edilir. Texnoparkda həmçinin müxtəlif növ kabel məmulatları, o cümlədən en kəsiyi 800 kvadratmillimetr olan alüminium və mis ötürücülər, dənizdə istifadəsi nəzərdə tutulan qurğuşun örtüklü nəzarət kabelləri istehsal olunur. Xarici ölkələrdən yüksək gərginlik xətləri üçün kabel istehsalına sifarişlər alınmışdır.

Ölkə Prezidenti cənab İlham Əliyevin 21 dekabr 2011-ci il tarixli fərmanı ilə ölkədə innovativ və yüksək texnologiyalar əsasında rəqabət qabiliyyətli sənaye istehsalının inkişafı üçün əlverişli şərait yaratmaq, bu sahədə sahibkarlığı dəstəkləmək, qeyri-neft sektorunun davamlı inkişafını təmin etmək və əhalinin istehsal sahəsində məşğulluğunu artırmaq məqsədilə digər bir texnopark - Sumqayıt Kimya Sənaye Parkı yaradılmışdır. Burada neft-kimya və digər prioritet sənaye sahələri üzrə rəqabət qabiliyyətli məhsulların istehsalı və emalı müəssisələrinin yaradılması nəzərdə tutulur. Bu məqsədlə parkın xarici və daxili infrastrukturunun yaradılması, ofis, konsaltinq, laborator müayinə, biznes inkubasiya, treninq, peşə hazırlığı, sahibkarlıq fəaliyyəti və digər xidmətlərin həyata keçirilməsi planlaşdırılır.

Azərbaycan üçün kiçik istehsal biznesi böyük əhəmiyyətə malikdir, çünki o, iqtisadiyyatda sabitlik və ixtisaslı iş yerləri yaradır. Ölkə üçün vacib olan digər bir istiqamət iqtisadiyyatı innovasiya əsaslı inkişaf prinsiplərinə keçirməkdir. İnnovasiya və texnopark eyni mahiyyətə malik iki anlayışdır. İnnovasiyalar əsasında inkişaf anlayışı ali məktəblər üçün də böyük əhəmiyyət kəsb edir. Çünki ali məktəblərin əksəriyyəti müəyyən maliyyə çətinlikləri ilə üzləşir. Texnopark ideyası isə istehsal təyinatlı elmi ideyaların kommersiyalaşdırılması üçün geniş imkanlar açır.

Ölkəmizdə Azərbaycan Mühəndislik Akademiyası, Milli Aviasiya Akademiyası, Azərbaycan Texniki Universiteti və digər genişprofilli qurumlar ətrafında yüksək elmi-texniki potensial cəmləşmişdir. Bu qurumların elmi-texniki potensialının və tələbə kontingentinin texnopark ideyası ətrafında təşkilatlanması milli iqtisadiyyatın innovasiyalar və yüksək texnologiyalar əsasında inkişafına böyük töhfələr verə bilər.

Bu töhfələrə görə də aşağıdakı kimi nəticə cıxartmaq olar:

- Yüksək texnologiyaların inkişafının dünya təcrübəsi göstərir ki, texnoparkın səmərəli fəaliyyəti onu elm, sənaye və ali təhsil müəssisələrinin kompakt yerləşdiyi yaşayış məntəqələrində - texnopolislərdə təşkil etmək məqsədəuyğundur.
- Milli Aviasiya Akademiyası və Azərbaycan Texniki Universiteti istehsal infrastrukturu ilə təmin olunmuş binalara və istehsal sahələrinə malikdirlər: su, sıxılmış hava, ventilyasiya, energetika, nəqliyyat magistrallarına yaxınlıq və s.
- Universitetlərin professor-müəllim, alim, tələbə və elmi-texniki heyəti kifayət qədər elmi nəticələrə, ixtira və patentlərə malikdir, aktiv elmi-texniki innovasiya fəaliyyəti həyata keçirirlər.
- Universitetlər elmi-texniki və innovasiya fəaliyyətində geniş beynəlxalq əməkdaşlıq və beynəlxalq layihələrdə iştirak etmək təcrübəsinə malikdirlər.
- Universitetlər xırda və orta sənaye müəssisələri ilə birgə geniş elmi-texniki və innovasiya fəaliyyəti həyata keçirirlər.

YENİ İQTİSADİ ŞƏRAİTDƏ AZƏRBAYCAN RESPUBLİKASINDA İNTELLEKTUAL MÜLKİYYƏT OBYEKTLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİNİN NƏZƏRİ ASPEKTLƏRİ

Həsənova C.F.
Azərbaycan Dövlət İqtisad Universiteti

İntellektual mülkiyyət geniş mənada əqli mülkiyyətin nəticəsi və ya individuallaşmış vasitələrin qanunla təsbit edilmiş müstəsna hüququdur. "İntellektual mülkiyyət" anlayışından hələ XVIII-XIX əsrlərdə istifadə etməyə başlamışlar, lakin geniş istifadəsi XX əsrin ikinci yarısında 1967-ci ildə Cenevrədə BMT-nin himayəsi altında Ümumdünya Əqli Mülkiyyət Təşkilatının təsis olunması haqqında Konvensiyanın imzalanması ilə bağlıdır.

Azərbaycan Respublikasında da intellektual mülkiyyəti Ümumdünya Əqli Mülkiyyət Təşkilatının məlumatı əsasında iki kateqariyaya bölmək olar:

1) sənaye mülkiyyəti - bura ixtiralar (patentlər), əmtəə nişanları, sənaye nümunələri və coğrafi göstərişlər daxildir.

2) müəlliflik hüququ - bura romanlar, pyeslər və şeirlər, filmlər, musiqi əsərləri kimi ədəbi və bədii yaradıcılıq və şəkillər, rəsmlər, heykəltaraşlıq, həmçinin memarlıq qurğuları kimi incəsənət nümunələri daxildir.

Sənaye mülkiyyət obyektlərinin fərqli xüsusiyyətləri ondan ibarətdir ki, bu obyektlərin hüquqi mühafiəsi yalnız xüsusi dövlət orqanlarından qeydiyyatdan keçdiyi hallarında mümkündür. İntellektual mülkiyyətin obyekti olan sənaye mülkiyyətinin mühafizəsi sənaye istehsalının təkamülü və inkişafında

mühüm rol oynayır. Əgər müəssisənin mülkiyyəti ixtiralar üçün müdafiə olunmazsa, onda sahibkara yeni ideya və ixtiraların tədqiqi və işlənməsinə sərmaye qoymaq sərfəli olmazdı. Başqa sözlə, sahibkar rəqibləri ilə müqayisədə ona mənfəət və üstünlük gətirəcək sahəyə və mülkiyyətə vəsait qoymağa hazırdır və bunun üçün isə patent hüququ movcuddur. Sənaye mülkiyyət obyektləri bir qayda olaraq, patent hüququ ilə mühafizə olunur. Patent hüququ yaradıcı fəaliyyət nəticəsində yaradılan obyektlərin mühafizəsinin hüquqi rejimini müəyyən edir və onun təsərrüfat sahəsində tətbiqi, o cümlədən onun istifadəsindən mənfəət əldə edilməsi üçün müəyyən səlahiyyətlərin verilməsinə zəmanət verir.

Müəlliflik hüququ isə elmi, bədii və incəsənət əsərlərinin yaradılması ilə bağlı münasibətlərin hüquqi normalar əsasında tənzimlənməsidir. Azərbaycan Respublikasında müəlliflik hüququ intellektual mülkiyyət haqqında qanunvericiliyin əsas hissəsidir. İfalar, fonoqramlar və yayım təşkilatlarının verilişləri əlaqəli hüquqlarla qorunur. Burada qorunan yaradıcılıq nailiyyətləri ilə yanaşı texniki-təşkilati xidmətlərin də hüquqi qorunması təmin edilir.

Müəllifə öz yaradıcılığının müstəsna hüquqları məxsusdur: müəlliflik hüquqları, ada görə hüququ, ixtiraya toxunulmazlıq hüququ, onun çap edilməsi, istifadəsi, həmçinin ixtiradan istifadəyə görə müəyyən mükafat hüququ. Müəlliflik hüququ müəllifin bütün həyatı ərzində və onun ölümündən 50 il sonra fəaliyyət göstərir. Müəlliflik, müəllifin adı və ixtiraya toxunulmazlıq müddətsiz mühafizə olunur.

Ümumiyyətlə intellektual mülkiyyət obyektlərinin qiymətləndirilməsində üç mühüm yanaşmadan istifadə edilir: xərc, gəlir və bazar yanaşması. Azərbaycan Respublikasında da müvafiq olaraq bu yanaşmalar tətbiq olunur.

Xərc yanaşması intellektual mülkiyyət obyektlərinin bazar dəyərinin istehsalçının xərclərindən yüksək olduğunu nəzərdə tutur və bazarda belə obyektlərin faydalılığı və təklifi ilə ölçülür. İntellektual mülkiyyət obyektlərinin dəyərinin qiymətləndirilməsində əgər analoji obyekt tapmaq mümkün deyilsə, belə obyektlərin reallaşdırılmasının heç bir təcrübəsi yoxdursa və ya gələcəkdə gəlirlərin proqnozu bir qədər stabil deyilsə o zaman xərc yanaşmasından istifadə olunur.

Gəlir yanaşması - intellektual mülkiyyət obyektlərinin istifadəsindən gözlənilən iqtisadi səmərə əsasında intellektual mülkiyyət obyektlərinin və qeyri-maddi aktivlərin dəyərinin müəyyən edilməsidir. Məhz gəlir yanaşması ilə qeyri-maddi aktivlərin dəyəri proqnozlaşdırılan gələcək səmərənin cari anda dəyərinin hesablanması yolu ilə müəyyənləşdirilir.

Bazar yanaşmasında isə bir qayda olaraq, satışların müqayisə metodundan istifadə olunur. Bazar yanaşmasını müqayisə yanaşması da adlandırırlar. Nəzərdən keçirilən aktiv intellektual mülkiyyətin analoji obyektləri ilə və ya açıq bazarda satılan qiymətli kağızlarla təmin olunan qeyri-maddi aktivlərlə müqayisə edilir. Müqayisəli yanaşma zamanı istifadə edilən bu iki ən çox yayılmış məlumat mənbələri həm qeyri-maddi aktivlərin, həm də fyuçers və opsionların satıldığı bazarlar hesab edilir.

Respublikamızda intellektual mülkiyyət obyektləri bazarı formalaşdığı andan etibarən intellektual mülkiyyət obyektlərinin qiymətləndirilməsi zəruriliyi yaranmışdır. İntellektual mülkiyyətin (əqli mülkiyyət, müəliflik hüququnun obyektləri) qiymətləndirilməsi, dəyərinin müəyyən edilməsi zərurəti aşağıdakı məqsədlər üçün aparılır:

- Xüsusi razılığın verilməsində şərtlərin müəyyən edilməsi zamanı;
- Françayzinq və patent hüququnun verilməsi zamanı;
- İntellektual mülkiyyət obyektlərinin hüquqlarının alqı-satqısında;
- Dəyərin yaradılması strategiyası kimi intellektual mülkiyyət obyektlərinin idarə edilməsi zəruriliyi yarananda;
- İntellektual mülkiyyət obyekti müəlliflərinin qonorarının hesablanması;
- İntellektual mülkiyyət obyektlərinin sığortası;
- Məhkəmə ehtiyyacları üçün;
- Qanunsuz istifadə zamanı hüquq sahibinə dəymiş ziyanın kompensasiyasının müəyyən edilməsi zamanı;
- Xarici maliyyələşmənin cəlb edilməsi zamanı.

Azərbaycan Respublikasında intellektual mülkiyyət obyektlərinin qiymətləndirilməsi zamanı aşağıdakı informasiyalardan istifadə zərurəti vardır:

- intellektual mülkiyyət obyektinin təsviri;
- intellektual mülkiyyət obyektinin hüququnu müəyyən edən sənəd (patent, şəhadətnamə və s.);
- intellektual mülkiyyət obyektinin qüvvədə saxlanılmasını və qeydiyyatını təsdiq edən ödəmələr haqqında məlumatlar;

- qiymətləndirilən intellektual mülkiyyət obyektlərin analoqları haqqında məlumat (qiymətləndirilən obyektlə onun analoqu arasındakı fərq;
- intellektual mülkiyyət obyektinin yaradılması, hüquqlarının əldə edilməsi, istifadəsi və reklamı üçün çəkilən xərclər haqqında məlumatlar;
- qiymətləndirilən intellektual mülkiyyət obyektləri bazarının təsviri və tədqiqi;
- intellektual mülkiyyət obyektlərindənistifadə nəticəsində əldə olunan gəlir mənbələri;
- intellektual mülkiyyət obyektlərinin əldə olunması və istifadəsi ilə bağlı risklər.

Ölkəmizdə intellektual mülkiyyət obyektlərinin əsas hüquqi bazasını Azərbaycan Respublikasının Konstitusiyası təşkil edir. Belə ki, Azərbaycan Respublikasının Konstitusiyasının "Əsas hüquqlar, azadlıqlar və vəzifələr" bölməsinin 30-cu maddəsinə uyğun olaraq, "Hər kəsin əqli mülkiyyət hüququ vardır. Müəlliflik hüququ, ixtiraçılıq hüququ və əqli mülkiyyət hüququnun digər növləri qanunla qorunur". Bu baxımdan 5 iyun 1996-cı ildə qəbul edilmiş "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikasının Qanunu böyük əhəmiyyət kəsb edir. Bu Qanun Azərbaycan Respublikası ərazisində elm, ədəbiyyat və incəsənət əsərlərinin (müəlliflik hüququ), habelə ifaların, fonoqramların, efir və ya kabel yayımı təşkilatlarının verilişlərinin (əlaqəli hüquqlar) yaradılması və istifadəsi ilə əlaqədar yaranan münasibətləri tənzimləyir.

İntellektual mülkiyyət obyektlərinin qiymətləndirilməsində "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu və bu Qanuna uyğun olaraq, "Qiymətləndirmə standartları və normaları, peşəkar qiymətləndiricilərin hazırlanması Qaydaları haqqında" Nazirlər Kabinetinin qərarı mühüm əhəmiyyət kəsb edir. "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununda qiymətləndirmə fəaliyyətinin ümumi prinsipləri, obyekt və subyektləri, qiymətləndiricilərin hüquq və vəzifələri, qiymətləndirmə standartları, qiymətləndirmə ilə bağlı xərclər və s. öz əksini tapmışdır.

İntellektual mülkiyyət obyektlərinin qiymətləndirilməsində qiymətləndirmə standartlarının işlənib hazırlanılmasının da böyük əhəmiyyəti vardır. Belə ki, hər bir ölkənin Milli Qiymətləndirmə Standartları məhz Beynəlxalq Qiymətləndirmə Standartları Komitəsinin prinsipləri üzərində qurulmuşdur.

SOSİAL SİYASƏTİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

Mehdizadə G.A.
Azərbaycan Dövlət İqtisad Universiteti

Bazar münasibətlərinin formalaşması şəraitində iqtisadiyyatın vəziyyətinə çoxsaylı və müxtəlif xarakterli amillər təsir göstərir. Bunlardan əsasları kimi iqtisadi münasibətlərin yeni prinsiplər əsasında qurulması, dövlətin iqtisadi təhlükəsizliyinin təmin edilməsi, milli iqtisadi və sosial maraqların qorunması, gəlirlərin səmərəli bölgüsü, səmərəli məşğulluğun təmin edilməsi və s. bu kimi digər amilləri göstərmək olar. Buna görə də, Azərbaycan Respublikasında iqtisadiyyatın sosialyönümlüyünün təmin olunması üçün ilk növbədə, milli iqtisadiyyatın inkişaf potensialı, dünya təsərrüfat sistemində gedən qlobal proseslər, ölkənin konkret iqtisadi şəraiti və xüsusiyyətləri nəzərə alınmaqla məqsədyönlü siyasətin aparılması məqsədəuyğun hesab olunur.Bu isə öz növbəsində, ölkədə sosial iqtisadiyyatın beynəlxalq hüquq normalarına və mütərəqqi dünya təcrübəsinə əsaslanan və milli iqtisadiyyatın inkişaf xüsusiyyətlərini və perspektivlərini nəzərə alan mükəmməl və çevik tənzimlənmə sisteminin yaradılmasını nəzərdə tutur. Tədqiqatlar göstərir ki, müasir dövrdə, demək olar ki, bütün ölkələrdə sosial siyasətin tənzimlənməsi sistemləri mövcuddur. Azərbaycan Respublikasında sosial siyasətin tənzimlənməsi sistemi müstəqil olaraq dovlət müstəqilliyinin bərpasından sonra ölkədə sosial sahədə hüquqi-normativ aktların qəbul edilməsi prosesindən başlanılmışdır.

18 mart 2009-cu il tarixində Azərbaycan Respublikasının Konstitusiyasında ümumxalq referendum yolu ilə edilən əlavələr və dəyişikliklər nəticəsində iqtisadi siyasətın sosial yönümlülüyü müəyyənləşdirilmişdir. Belə ki, Azərbaycan Respublikasının Konstitusiyasının "Azərbaycan dövləti bazar münasibətləri əsasında sosial yönümlü iqtisadiyyatın inkişafina şərait yaradır, azad sahibkarlığa təminat verir, iqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol vermir".

İqtisadiyyatın sosial yönümlülüyünün təmin edilməsinin ən mühüm istiqamətlərindən biri minimum əmək haqqının dövlət tərəfindən tənzimlənməsidir. Bununla əlaqədar qeyd edək ki, son illər minimum əmək haqqının bir neçə dəfə artırılmasına baxmayaraq, onun səviyyəsi yoxsulluq həddini müəyyən edən səviyyədən hələ də aşağıdır.

"Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı(2004-2008-ci illər"nin) icrası bütün regionların inkişafında yeni bir mərhələnin yaranmasına səbəb olmuş,formalaşmış əlverişli iqtisadi mühit ölkənin sosial-iqtisadi inkişafı sahəsində başlanmış tədbirlərin davam etdirilməsi zərurətini yaratmışdır.Ölkədə qeyri neft sektorunun inkişafının sürətləndirilməsinə,iqtisadiyyatın diversifikasiyasına,tarazlı regional və davamlı sosial-iqtisadi inkişafa,əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına nail olunması məqsədilə 2004-cü ildən başlanmış tədbirlərin davam etdirilməsi üçün Azərbaycan Respublikasının Prezidentinin 2009-cu il 14 aprel tarixli 80 nömrəli Fərmanı ilə "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"təsdiq edilmişdir.

"Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın uğurlu icrası nəticəsində ölkədə makroiqtisadi göstəricilərin səviyyəsinə yüksək artım əldə edilmiş,sosial-iqtisadi inkişaf sahəsində nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi əhalinin həyat səviyyəsinin daha da yüksəlməsində mühüm rol oynamışdır.

Azərbaycanda sosial siyasətin tənzimlənməsinin iqtisadi əsasları kimi aşağıdakıların araşdırılması məqsədəuyğun hesab edirik:

-Dövlət budcəsinin sosial məsrəfləri;

-Dövlət sosial müdafiə fondunun sosial məsrəfləri;

-Neft fondunun sosial məsrəfləri.

Nəzərə almaq lazımdır ki, Azərbaycanda əhalinin sayı sabit artımla davam etməkdədir. Bütün bunlar isə onu göstərir ki, gələcəkdə də ölkə əhalisinin artım dinamikasına uyğun olaraq, həm ayrı-ayrı sosial-demoqrafik qruplar və iqtisadi rayonlar, həm də bütövlükdə ölkə üzrə əhalinin məşğulluğunun təmin edilməsi qarşıda duran ən aktual problemlərdən biri olacaqdır.

Ölkədə əhalinin işsizlik səviyyəsinin yüksək olması bu istiqamətdə təxirəsa- lınmaz tədbirlərin həyata keçirilməsini labüd edir. Bu baxımdan, Azərbaycan hökuməti tərəfindən 2006-2015-ci illəri əhatə edən "Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının hazırlanması və qəbul edilməsi təqdirəlayiq hal kimi qiymətləndirilir.

Ölkədə makroiqtisadi sabitliyin təmin olunması, sosial yönümlü tədbirlərin həyata keçirilməsi imkanları, xüsusilə də müasir dövrün tələblərinə cavab verən çevik və işlək mexanizmlərin yaradılmasını, məşğulluğun təmin olunmasını və əhalinin gəlirlərinin artırılmasını, cəmiyyətin bütün üzvləri üçün sosial sığortanın təmin edilməsini təmin edən tam ədalətli hüquqi, iqtisadi və sosial təminat sisteminin yaradılması imkanlarını xeyli genişləndirmişdir. Məhz bu dövrdən başlayaraq əhalinin həyat səviyyəsinin yüksəldilməsi, yeni iş yerlərinin açılması və məşğulluğun artırılması üçün əlverişli şərait yaranmışdır.

BAZAR İQTİSADİYYATININ STRUKTUR PROBLEMLƏRİ VƏ ONUN TƏMİN OLUNMASININ ƏSAS İSTİQAMƏTLƏRİ

Qəhrəmanova G.R.
Azərbaycan Dövlət İqtisad Universiteti

Azərbaycanın müstəqil dövlətə çevrilməsi, bazar sisteminə keçməsi struktur probleminin özünün qoyuluşunu, onun meyarlarını, göstəricilərinin əsaslı dəyişikliyə uğratmışdır. Belə ki, keçmiş SSRİ daxilində qapalı iqtisadiyyata malik respublikalarda, o cümlədən Azərbaycanda iqtisadiyyatın sahə, təkrar istehsal, ərazi, texnoloji strukturunun səmərəliliyi əsasən ümumi ittifaq əmək bölgüsünün tələbləri və həmin məkanda həyata keçirilən texniki siyasətlə müəyyən olunurdu. Azərbaycanın dünya təsərrüfat əlaqələrinə sərbəst qovuşduğu, daxili və xarici ticarətdə liberal prinsiplərə üstünlük verildiyi indiki bir şəraitdə struktur probleminin xarakteri daha çox qlobollaşan dünya iqtisadiyyatında baş verən proseslərlə, milli iqtisadiyyatın rəqabət üstünlüklərinin reallaşdırılması imkanları və s. ilə müəyyən olunur. Başqa sözlə, bu gün respublikamızda formalaşan milli iqtisadiyyatın strukturuna xarici amillər güclü təsir göstərir. Ümumiyyətlə, struktur siyasəti çoxşaxəli, mürəkkəb bir problem olmaq etibarilə , milli iqtisadiyyatın bütün sahə, sfera və səviyyələrini əhatə edir.

Ölkənin düşdüyü kəskin böhrandan çıxmağın imkanlari əhəmiyyətli dərəcədə, bu mərhələdə yeridilən elmi-texniki, investisiya və struktur siyasətinin səmərəliliyi ilə sıx bağlıdır. Bu problemi həll edərkən yadda saxlamaq lazımdır ki, xalq təsərrüfatında baş verən quruluş dəyişiklikləri və elmi-texniki tərəqqinin surətləndirilməsini qarşılıqlı əlaqədə və asılılıqda olan bir prosesdir. Belə ki, elmi-texniki tərəqqi əsasında məhsulun resurs tutumunun aşağı salınması, iqtisadiyyatın başlıca makroiqtisadi

proporsiyalarının təkminləşdirilməsinin maddi əsasını yaradır, digər tərəfdən, iqtisadiyyatın mükəmməl sahə, ərazi,texnoloji və təkrar istehsal quruluşu elmi-texniki tərəqqinin sürətləndirilməsinin həlledici şərtidir. Bütün bunlar, öz növbəsində yeni formalaşan müstəqil dövlətin iqtisadiyyatının mövcud quruluşunun və bu gün hərəkətə gətirilə bilən elmi-texniki potensialının müəyyənləşdirilməsini tələb edir. Bütün bunları nəzərə alaraq respublikada elmi-texniki, struktur siyasəti elə bir istiqamətə yönəlməlidir ki, o, bir tərəfdən, Azərbaycanın bütün resurslarından səmərəli istifadə etməyə şərait yaratsın və ən başlıcası isə perespektivdə iqtisadi artımın inkşaf imkanlarını məhdudlaşdırmasın.

XX-əsrin 70-80-ci illərində dünya iqtisadiyyatında iqtisadi artım sürətinin ümumən zəifləməsi, işsizliyin artması və infilyasiyanın güclənməsinin qarşısını almaq məqsədilə inkşaf etmiş ölkələr yeni şəraitə uyğun struktur və yaxud məcmu təklifi stimullaşdıran siyasətin işlənib hazırlanmasını və həyata keçirilməsini obyektiv zərurətə çevirdi. Məsələnin mahiyyəti ondan ibarətdir ki, bu mərhələdə qısamüddətli sabitləşmə proqramlarını tətbiqi, ölkədə uzunmüddətli sabit, eyni zamanda sağlam iqtisadi artımı təmin edə bilmirdi. Məlumdur ki, məcmu tələbi artırmaq məqsədi ilə inkşaf etmiş ölkələrdə həyata keçirilən struktur siyasəti əhatəli bir anlayış olmaq etibarı ilə rəqabətin stimullaşdırılmasını, maliyyə bazarlarının, fəaliyyətinin, vergi islahatlarının həyata keçirilməsini, dövlətin tənzimləmə funksiyalarının məhdudlaşdırılmasını və s. nəzərdə tutur. Belə ki, bu mərhələdə həyata keçirilən struktur siyasəti, hər şeydən əvvəl, iqtisadi subyektlərin həyat fəaliyyətlərinin hüquqi və institutsional əsaslarının formalaşdırılmasını, uzunmüddətli iqtisadi artımı təmin etməklə yanaşı, istehsal amillərindən səmərəli istifadə etmək və bölüşdürməklə cari istehsalın həcminin artırılmasına istiqamətləndirilməsini nəzərdə tutur.

Əlbəttə, bütün bunlarla yanaşı yeni iqtisadi sistem müstəqillik əldə edən respublikamız üçün struktur siyasətinin ən mərkəzi və xüsusi problemlərindən biri bütünlükdə xalq təsərrüfatının quruluşunun yenidən qurulması ilə bağlıdır. İnzibati-amirlik sistemindən bazar sisteminə keçən ölkələrdə çoxukladlı, qarışıq iqtisadiyyat üçün xarakterik olan müxtəlif mülkiyyət formalarının yaranması məqsədi ilə həyata keçirilən struktur siyasətinin mühüm istiqamətlərindən biri də özəlləşdirmə prosesi ilə bağlıdır. Çünki bazarın tələblərinə uyğun olaraq iqtisadiyyatın sahə quruluşunun, həm dövlətin birbaşa mexanizmi, həm də iqtisadi mexanizmlər vasitəsilə həyata keçirilməsində mülkiyyət və sahibkarlıq formalarının dəyişdirilməsi mühüm əhəmiyyətə malikdir.

Beləliklə, dünya iqtisadiyyatına daha çox xammal ixracının hesabına inteqrasiya olması, milli iqtisadiyyatın formalaşmasına bir-birilə tam əks olan iki istiqamətdə təsir göstərir. Bütün bunları nəzərə alaraq respublikamızda uzun bir dövrü əhatə edən struktur siyasəti, bir tərəfdən, milli iqtisadiyyatın cari problemlərinin həllini, digər tərəfdən, perespektivdə Azərbaycanın dünya iqtisadiyyatına qovuşmasını, milli iqtisadiyyatın rəqabət qabiliyyətinin təmin edilməsi ilə əlaqəli surətdə uzlaşdırılmasını nəzərə almalıdır.

ПРАВОВЫЕ АСПЕКТЫ РЕГУЛИРОВАНИЯ ДЕНЕЖНОГО КАПИТАЛА В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ

Насибова М.А.
Азербайджанский государственный экономический университет

В современных условиях одной из основных проблем, стоящих перед каждой страной является дальнейшее повышение благосостояния населения, которое может быть достигнуто только при наличии экономического роста, рациональном использовании имеющихся ресурсов, совершенствовании экономических отношений, стимулирующих внедрять новейшие технологии. Для решения таких задач всегда необходимы денежные средства. С одной стороны, они могут быть предоставлены за счет дополнительной эмиссии, которая в результате кредитования банками реального сектора, вызовет рост производства и увеличит предложение товара. В то же время такое решение проблемы не всегда бывает возможным из-за неуверенности в том, что вся эмитированная денежная масса пойдет на расширение предложения, а не увеличит денежный спрос, что, соответственно, приведет к инфляции. Поэтому есть другой, менее инфляционный путь развития производства - использование уже имеющихся в стране денежных средств на цели реального производства. Основным источником такого денежного накопления становятся сбережения населения, предприятий и государства. Увеличение или уменьшение объемов сбережений непосредственно влияет на процесс производства, на темпы роста экономики.

Проблема состоит в том, чтобы в большей степени эффективно использовать такие свободные денежные средства, постараться вовлечь их в производство.

В этой связи особенно важным становится изучение факторов, влияющих на общий размер денежного капитала, выделение мотивов накопления, характерных для каждого определенного периода времени. Накопление денежного капитала зависит не только от желания и возможностей самих экономических агентов, но и от развития кредитной системы, возможностей прибыльного, неинфляционного помещения денежных средств в кредитные учреждения в виде вкладов, взносов.

Денежный капитал — капитал в денежной форме, в виде денежных средств. Образование денежного капитала (денежных инвестиций, капиталовложений) обычно предшествует созданию на его основе физического капитала, средств производства, приобретаемых за счет денежного капитала и образующих производительный, товарный капитал.

Денежный капитал может использоваться как ссудный капитал, который предоставляется в распоряжение юридического лица за определенную плату в виде ссудного процента.

Денежные средства - ограниченный ресурс, поэтому важным является создание на предприятиях механизма эффективного управления их денежными потоками. Искусство управления текущими активами состоит в том, чтобы держать на счетах минимально необходимую сумму денежных средств, которые нужны для текущей оперативной деятельности. Сумма денежных средств, которая необходима хорошо управляемому предприятию, - это по сути дела страховой запас, предназначенный для покрытия кратковременной несбалансированности денежных потоков. Сумма должна быть такой, чтобы ее хватало для производства всех первоочередных платежей. Поскольку денежные средства, находясь в кассе или на счетах в банке, не приносят дохода, их нужно иметь в наличии на уровне безопасного минимума. Наличие больших остатков денег на протяжении длительного времени может быть результатом неправильного использования оборотного капитала.

Фундаментальная база для познания капитала как категории, имеющей сложную экономическую, философскую и правовую природу, в классической политической экономии была заложена английским экономистом У.Петти еще во второй половине XVII века. Характерная особенность его исследований состояла в том, что им впервые стали изучаться имущественные отношения во внутренней взаимосвязи с производственными отношениями людей в процессе общественного производства. Именно исходя из этих предпосылок, впоследствии сформировался классический подход в экономической теории, опирающийся на концепцию кругооборота капитала и создание прибавочного продукта. А.Смит задолго до Д.Рикардо и К.Маркса обосновал основные принципы возникновения, формирования и функционирования капитала.

Под денежным капиталом понимают денежные средства, с помощью которых приобретается физический капитал. Термин «капитал», в значении «капитальные вложения материальных и денежных средств в экономику, в производство» называют также капиталовложениями, или инвестициями.

Денежный капитал — капитал в денежной форме. Образование денежного капитала (денежных инвестиций, капиталовложений) обычно предшествует созданию на его основе физического капитала, средств производства, приобретаемых за счет Д.К. и образующих производительный, товарный капитал.

Прежде всего, с развитием рынка ценных бумаг, появлением новых видов ценных бумаг, широким развитием вторичного рынка ценных бумаг, где в большей степени происходит перераспределение денежных средств, а не вложение в реальное производство, денежный капитал все в большей степени обособляется от реального капитала. В настоящее время его необходимо рассматривать как совокупность нескольких элементов - эквивалента реального капитала, эквивалента фиктивного, или, как сейчас его называют, виртуального капитала, и как прирост денежного капитала.

В первом случае накопление денежного капитала рассматривается как превращение денежных средств в производительный капитал, которое происходит в результате размещения денежных средств во вкладах, которые впоследствии банки направляют на кредитование и инвестирование предприятий, а также на приобретение акций и облигаций нефинансового сектора, осуществляемого на первичном рынке ценных бумаг.

Во втором случае накопление денежного капитала выступает как эквивалент вложений в ценные бумаги на вторичном рынке и в третьем случае - увеличение денежного капитала.

Таким образом, исторически главную роль в аккумуляции денежных средств в форме привлечения вкладов играли коммерческие банки, прежде всего сберегательные кассы, выплачивающие процент по вкладам и предоставляющие различные услуги своим клиентам. Но появление других кредитно-финансовых институтов, предоставляющих услуги, привело к появлению возрастающей конкуренции со стороны таких институтов как строительные сберегательные кассы и страховые компании.

Второй составляющей финансового рынка, активно участвующего в мобилизации денежного капитала выступает рынок ценных бумаг. Как показало проведенное исследование, все большая часть денежного капитала в последние годы аккумулируется именно рынком ценных бумаг.

Что касается вложений в ценные бумаги, то здесь определяющую роль играют такие факторы, как рост ВНП, инфляция и ставка процента. Однако четкую зависимость между этими факторами и ростом вложений в ценные бумаги достаточно трудно определить, так как на них оказывает воздействие и ряд других факторов. Основной закономерностью, действовавшей во всех развитых странах, в том числе и в Германии, в послевоенное время было увеличение удельного веса долгосрочных форм сбережений.

В результате проведенного анализа было показано, что с развитием экономики, изменением конъюнктуры происходит постоянное изменение в рассмотренных формах накопления денежного капитала, изменяется преобладающая роль одних и перевод средств в другие формы.

STRATEJİ PLANLAŞDIRMA KONSEPSİYALARI VƏ MODELLƏRİ

Əliyev O.Ə.
Azərbaycan Dövlət İqtisad Universiteti

Strateji planlaşdırma şirkətin məqsəd və vəzifələrinin konkretləşdirilməsi, onların vaxt baxımından icrası, resursların bölüşdürülməsi, perspektiv meyllərin müəyyənləşdirilməsi, fəaliyyətə səmərəli nəzarətin yaradılması kimi fəaliyyətin əsasını təşkil edir. Strateji planlaşdırma özünün məqsədinə, məzmununa, səviyyəsinə və dövrlərinə görə fərqlənir.

Biznesin strateji planlaşdırılması idarəetmə prosesində mövcud olan başqa planlaşdırma növlərindən prinsipcə fərqlənir. Həmçinin bu fərq sadəcə planın detallaşdırılması dərəcəsində, strukturunda, məqsədində, yaxud planlaşdırma dövrünün müəyyənləşdirilməsində deyil. Biznesin strateji planlaşdırılmasında bazar iqtisadiyyatı şəraitində müəssisənin fəaliyyətinin ümumi və spesifik elementləri əsaslandırılır, rəqabətin strategiyası və taktikası seçilir, qarşıda duran məqsədə nail olmaq üçün zəruri maliyyə material və əmək resurslarının qiymətləndirilməsi aparılır.

Strateji planlaşdırma seçilmiş strategiyanın həyata keçirilməsi və qoyulmuş məqsədə nail olunması üzrə sistem tədbirlərin hazırlanması və reallaşmasını nəzərdə tutur. O çıxış mövqeyinin təhlilinə və biznes parametrlərinin dəyişilməsi proqnozlarına əsaslanır. Strateji planlaşdırma firmaya imkan verir ki, bazar konyukturunun dəyişilməsinə çevik reaksiya verməyə kömək edən seçilmiş kursu və taktikanı saxlasın.

Strateji planlaşdırmanın əsas funksiyaları(19,800):

- müəssisənin əsas problemlərini özündə əks etdirir;
- daha detal planlaşdırma və cari qərarların qəbulu üçün çərçivə yaradır;
- planlaşdırmanın digər növləri ilə müqayisədə daha uzunmüddətlidir;
- müxtəlif dövrlərdə müəssisənin fəaliyyətinə ahənglik və daxili birlik gətirir.

Strateji planlaşdırma firma və şirkətlərin məqsəd və vəzifələrinin konkretləşməsi, onların vaxt baxımından icrası, resursların bölüşdürülməsi, perspektiv meyllərin müəyyən edilməsi, fəaliyyətə səmərəli nəzarətin əsaslarının yaradılması kimi fəaliyyətin əsasını təşkil edir. Planlaşdırma prosesinin özünəməxsus ardıcıllığı var: məqsədin formalaşması, problemin öyrənilməsi, alternativin seçilməsi, planlaşdırma vəzifələrinin irəli sürülməsi, planın hazırlanması, proqnozlaşdırma, qiymətləndirmə, plan qərarlarının qəbul edilməsi, icraçılara çatdırılması, həyata keçirilməsi və kənarlaşmaların müəyyən edilməsi.

Beləliklə, strateji planlaşdırma prosesi firmanın fəaliyyət xəttini və məqsədini dəqiqləşdirməyi, fəaliyyət taktikasını, prosedurasını və qaydasını hazırlamağa, resursların bölgüsünü, müəssisənin strukturunun qiymətləndi-rilməsini əhatə edir.

Taktika – firmanın ümumi uzunmüddətli planı və konkret vəziyyəti ilə uyğunlaşdırılan konkret qısamüddətli strategiyadır. Taktika çevik olmalı, burada daxili və xarici amillərin dəyişilməsi nəzərə alınmalıdır.

Uzunmüddətli və taktiki planlar tərtib edildikdən sonra həmin planların dezorientasiyasından və səhv təfsir etmədən qaçmaqdan ötrü əlavə oriyentir, yəni siyasət hazırlamaq lazımdır.

Praktiki siyasət dedikdə, məqsədə çatmağı yüngülləşdirən fəaliyyət və qərar-

ların qəbulu üçün ümumi rəhbərlik başa düşülür.

Prosedura konkret vəziyyətlərdə qəbul edilməsi lazım olan hərəkətlərin təsviridir. Vəziyyətin tez-tez dəyişdiyi vaxtlarda sınaqdan çıxmış fəaliyyət üsulu qəbul etmək və standart göstərişlər hazırlamaq faydalıdır.

Resursların bölgüsü planlaşdırmanın əsas vəzifələrindən biri hesab edilir. Plan qarşıya qoyulmuş məqsədə çatmaq üçün resursları işin istiqamətləri üzrə bölüşdürülməsinə kömək edir. Kəmiyyət formasında bölünmüş resurslar firmanın büdcəsini əmələ gətirir.

Strategiyanı seçdikdə planları işləyib hazırladıqdan sonra qarşıya qoyulan məqsədə nail olmağı aydınlaşdırmaqdan ötrü təşkilatın strukturunu yoxlamaq vacibdir. Çünki strategiya strukturu müəyyənləşdirir. Təşkilat inkişaf etdikcə və onun məqsədi yeniləşdikcə bilavasitə strategiya və plan da öz növbəsində dəyişir. Bu proses strukturda da təzahür olunur.

Strateji plan – firmanın real imkanları əsasında qarşıya qoyulan məqsədə nail olmaq üçün əsas yolların müəyyən edilməsidir. Strateji planın işlənib hazırlanmasına aşağıdakı elementlər daxildir:

- strateji planların təşkili üzrə rəhbər tərəfindən göstərişin hazırlanması;
- firmanın hər bir daxili bölməsi üçün strateji planın formalaşması üzrə təkliflərin hazırlanması;
- alınan təkliflərin ümumiləşdirilməsi;
- əsas strateji məqsədin və kommersiya siyasətinin hərtərəfli, müfəssəl əsaslandırılması;
- vahid perspektiv planın yaradılması.

Strateji planlaşdırma – müəssisənin, firmanın məqsədini, marketinqin bütün elementlərini, maliyyə resurslarının və istehsal imkanlarının vahid kompleks plan halında əks etdirilməsidir. Strateji planlaşdırmanın əsasını 5 strateji konsepsiya:

- bazarın seqmentasiyası;
- məqsədli bazarların seçilməsi;
- bazara çıxış metodlarının seçilməsi;
- marketinq metodunun və vasitələrinin seçilməsi;
- bazara çıxış müddətinin seçilməsi.

Strateji planlaşdırmada firmanın missiyasının müəyyənləşdirilməsi mühüm rol oynayır. Firmanın missiyası – hər şeydən öncə, bazarda firmanın davranış fəlsəfəsini əsaslandırmaqdır, onun imici, partnyorlar qarşısında, eləcə də bütövlükdə cəmiyyət qarşısında iqtisadi və sosial məsuliyyətdir. Strateji planlaşdırmanın başlıca məqsədi minimum məcmu xərclə maksimum nəticənin alınması üçün firma tərəfindən daha effektiv istiqamətlərini seçməkdən ibarətdir. O, firmanın dəqiq formalaşmış missiyasını mütləq əsaslandırmalı, yəni bazara daxil olmağın ən optimal yolları seçilməlidir.

Dialektik nöqteyi-nəzərdən hər bir təsərrüfat subyektinin necə olacağı sualına düzgün cavab verməkdən ötrü ilk növbədə orada həyata keçirilən biznesin inkişaf perspektivini müəyyənləşdirmək lazımdır. Yalnız biznesin perspektivini, həmçinin onun inkişaf istiqamətlərini və metodlarını müəyyənləşdirdikdən sonra müəssisənin gələcək fəaliyyəti haqqında düzgün fikir söyləmək mümkündür.

Strateji planlaşdırmanın klassik nəzəriyyəsi çərçivəsində müəssisənin pers-pektiv inkişafının müəyyənləşdirilməsinə dair altı yanaşma mövcuddur (cədvəl 1).

Kennet Endryus Harvard biznes məktəbinin bir neçə alimləri ilə birlikdə təşkilatın hazırki vəziyyətini onun daxili potensialının və xarici mühitin inkişaf meyllərinə uyğunlaşdırmaq vasitəsilə onun gələcək inkişafını müəyyənləşdirməyi təklif edir. Onun yanaşmasında mərkəzi yeri SWOT təhlili, yəni təşkilatın güclü və zəif tərəfləri, imkanları və ətraf mühitin təsiri nəticəsində inkişaf təhlükələri ətraflı təhlili təşkil edir. Təşkilatın güclü və zəif tərəflərinin və daxili potensialının qiymətləndirilməsi onun fərqli xüsusiyyətlərini aşkara çıxarmağa imkan verir.

Cədvəl 1.

Təşkilatın məqsədli vəziyyətinin müəyyənləşdirilməsinə yanaşmaların qısa xarakteristikası

Adı	Qısa xarakteristikası
K.Endryusun yanaşması	Təşkilatın hazırkı vəziyyətinin onun daxili potensialının və xarici mühitin inkişaf meylinə uyğunlaşdırmaq vasitəsilə təşkilatın gələcək vəziyyətinin müəyyən edilməsi
M.Porterin yanaşması	Sahədə rəqabətin təhlili nəticəsində təşkilatın məqsədli vəziyyətinin müəyyən edilməsi. Bu zaman gələcək vəziyyət sahədə təşkilatın rəqib mövqeləri ilə əlaqələndirilir
Bennis və Neymusun yanaşması	Lider öz təşkilatının məqsədli vəziyyətini görməyi bacarmalıdır
K.Praalad və Q.Xmelin yanaşması	Təşkilatın məqsədli vəziyyəti fərqli qabiliyyətin təzahür etdiyi vəziyyət kimi
Səmərəli inkrimentalizm	Təşkilatın məqsədli vəziyyəti təşkilati böhranın imtina olunması kimi
Liderin arxasınca qaçmaq	Təşkilatın məqsədli vəziyyəti sahə liderinin vəziyyəti kimi

M.Porterin yanaşması sahənin mövcud vəziyyətinin təhlili nəticəsinə əsaslanmağa imkan verir, hansıki müəssisənin biznes fəaliyyəti həyata keçirilir və onun gələcək vəziyyətinin əsasını müəyyən edir. M.Porterin yanaşması K.Endryusun ideyasının özünəməxsus inkişaf etdirilməsidir. Burada həmçinin mahiyyətcə söhbət müəssisənin daxili vəziyyəti ilə xarici mühitin dəyişilməsi arasında ən yaxşı uyğunlaşmanın müəyyənləşdirilməsindən gedir.

M.Porterin fikrincə sahədə vəziyyəti müəyyənləşdirən beş rəqabət qüvvəsi, yəni satıcının bazar hökmranlığı, istehlakçının bazar hökmranlığı, sahə rəqabətinin intensivliyi, yeni iştirakçılardan gələn təhlükələr gələn, məhsul və xidmətlərdən təzahür edən təhlükələr vardır.

Bennis və Neymusanın yanaşması təşkilatın gələcək vəziyyətini perspektivdə lider və biznesin inkişaf imkanlarını görməsi kimi, sahibkarın bacarığının təzahürü kimi, yəni xüsusi incəsənət növü kimi təqdim etməsinə əsaslanır.

Strateji idarəetmə nəzəriyyəsinin inkişafında Prolad və Q. Xmelin "Korporasiyanın fərqli xüsusiyyətləri" əsəri mühüm töhfə oldu. Bu əsrdə faktiki təşkilatın gələcək vəziyyətinin müəyyənləşdirilməsinə tədricən yeni yanaşmalar əks olunmuşdu.

Hazırkı vaxtda bu yanaşma menecerlər və idarəetmə sahəsində problemləri üzrə tədqiqatçılar tərəfindən çox müsbət dəyərləndirilir. Bu yanaşma təşkilatın gələcək vəziyyətini elə səviyyədə görməyi nəzərdə tutur ki, bazarda və biznesdə tanıdan, investorlar üçün cəlbedici edən və rəqiblərin təsirindən kifayət qədər qoruya bilən onun xüsusi, fərqli qabiliyyəti olsun. Bu zaman strateji idarəetmə prosesi fərqli qabiliyyətin inkişafına istiqamətlənmiş proses mənasını daşıyır.

Biznesin strateji planlaşdırılmasında və idarə edilməsində müxtəlif klassik modellərdən istifadə olunur (cədvəl 2).

BCG modeli Boston Consultinq Group Konsaltinq şirkətinin mütəxəssisləri tərəfindən aparılan tədqiqat işinin məntiqi tamamlanması sayılır. Səkkiz sənaye sahələrinin 24 əsas məhsul növləri istehsal edən müxtəlif şirkətlərin fəaliyyətinin öyrənilməsi prosesində belə empirik faktı müəyyənləşmişdi ki, istehsalın həcmini 2 dəfə artırarkən məhsul vahidinin istehsalına dəyişən xərclər 10-30 faiz azalır. Həmçinin müəyyən edilmişdir ki, istənilən bazar seqmentində bu meyl müşahidə olunur. Bu fakt belə bir nəticə çıxarmağa əsas verir ki, dəyişən xərclər işgüzar müvəffəqiyyətin əsas amillərindən biridir və bir şirkətin digər şirkətlə müqayisədə rəqabət üstünlüyünü müəyyən edir.

BCG modelində əsas diqqət firmanın pul axınlarına yönəldilir, hansı ki ya ayrı-ayrı biznes əməliyyatlarının fəaliyyətinə yönəldilir, ya belə əməliyyatların nəticəsində yaranır. Gəlirlərin, yaxud pul məsrəflərinin səviyyəsi bazarın artım tempindən və həmin bazarda firmanın nisbi payından güclü funksional asılılıqda yerləşir.

Cədvəl 2.

Strateji planlaşdırma modellərinin qısa xarakteristikası

Adları	Qısa xarakteristikası
"Bazarın – bazarda payın artması tempi" tipli model (BCG modeli)	Təşkilatın vəziyyəti bazarda fəaliyyət göstərən bütün qalan təşkilatlarla nisbətən mövqeləşir
"Bazarın (sahənin) cəlbediciliyi – şirkətin rəqabət qabiliyyəti" tipli model (GE/Mckinsey, Shell/ DPM) modeli	Təşkilatın vəziyyəti bazarda onun güclü tərəflərinin nisbi qiymətləndirilməsini həmin bazarın perspektivinin nisbi qiymətləndirilməsi ilə əlaqələndirmək yolu ilə mövqeləşir
"Bazarın (məhsulun həyat tsiklinin) təkamül mərhələsi – şirkətin rəqib vəziyyəti" tipli model (Xofer-Şendel, ADL modeli)	Təşkilatın vəziyyəti bazarın təkamül mərhələsindən (yaxud məhsulun həyat tsikli mərhələsindən) asılı olaraq rəqiblərə nisbətən onun mövqeyinin qiymətləndirilməsi nəticəsində müəyyən edilir

Firmada biznesin artım tempi firmada istifadə olunan pul axınlarının tempini müəyyənləşdirir.

GE/Mckinsey modelinin başlıca xüsusiyyəti ondan ibarətdir ki, onda ilk dəfə biznes növlərinin müqayisəsi üçün təkcə fiziki amillərə (satışın həcmi, mənfəət, investisiya verimi və s.) deyil, həm də bazar payının, texnologiyanın dəyişilməsi, kadr təminatı kimi biznesin subyektiv xarakteristikasına baxılır. Bu modelin əsas məziyyətlərindən biri müxtəlif amillərin bu və ya digər biznes növü, yaxud sahə üçün vacibliyindən asılı olaraq müxtəlif çəki əmsalları verə bilməsidir ki, bu da hər bir biznes növünü daha dəqiq qiymətləndirməyə imkan verir.

AZƏRBAYCAN RESPUBLIKASININ GÖMRÜK-TARİF SİYASƏTİNİN HÜQUQİ TƏMİNATININ FORMALAŞMASI MƏSƏLƏLƏRİ

İbrahimov Q.Ə.
Azərbaycan Dövlət İqtisad Universiteti

Öz iqtisadi və siyasi müstəqilliyini qazanan Azərbaycan qarşısında duran ən mühüm vəzifələrdən biri də iqtisadiyyatın idarə edilməsinin inzibati-amirlik metodlarına əsaslanan, öz işini günün tələbləri səviyyəsində qura bilməyən Azərbaycan Gömrük Təşkilatının gücləndirilməsi gömrük xidmətində struktur islahatlarının aparılması və kadr potensialının yeniləşdirilməsini tələb edirdi. Sözsüz ki, müstəqilliyimizin ilk illərindən başlayaraq zəruri hüquqi-normativ bazaya, maddi-texniki resurslara malik və normal nəzarət funksiyaları həyata keçirməyə qabil gömrük xidmətinin formalaşdırılması üçün müvafiq işlər görülməli idi. Belə bir vaxtda ulu öndər Heydər Əliyevin 1995-ci ilin yanvarında Dövlət Gömrük Komitəsinin fəaliyyətini geniş müzakirəyə çıxarması, müşavirədəki proqram xarakterli niqtində söylədiyi tövsiyə və göstərişlər respublikada gömrük xidmətinin yenidən qurulması və inkişafının əsas istiqamətlərini və prinsiplərini müəyyən etdi. 1997-ci ildə ulu öndərin sərəncamı ilə "Dövlət Gömrük Komitəsinin strukturu və əsasnaməsi" təsdiq edildi. Elə həmin il "Gömrük Məcəlləsi" və "Gömrük Tarifi" haqqında qanun da qüvvəyə mindi. 1999-cu ildə isə "Gömrük orqanlarında xidmət haqqında" Əsasnamə qəbul olundu.

Qabaqcıl ölkələrin gömrük işi sahəsində təcrübəsinin öyrənilməsi və tətbiqi, beynəlxalq tələblərə uyğunlaşdırılan gömrük qanunvericiliyinin yaradılması sahəsində görülən işlər, gömrük-tarif siyasətinin müəyyənləşdirilməsi, qaçaqmalçılığa qarşı mübarizənin gücləndirilməsi, gömrük infrastrukturunun möhkəmləndirilməsi tədbirləri bu yeniləşmənin əsas prinsiplərini təşkil edirdi. Beləliklə, yeni tarixi şərait ölkəyə investisiya təyinatlı malların idxalının artımı, xarici-iqtisadi fəaliyyəti tənzimləyə biləcək çevik gömrük siyasətinin həyata keçirilməsi, eləcə də bazar iqtisadiyyatına keçid şəraitində sahibkarlığa sağlam rəqabət şəraiti yaradılmasını tələb edirdi. Azərbaycan Gömrük Xidmətinin yenidən qurulması üçün keçmiş SSRİ-dən miras qalmış hüquqi-normativ bazanın, texniki resursların və kadr potensialının yeniləşdirilməsi tələb olunurdu.

Qeyd etməliyik ki, hal-hazırda respublikamızda dövlətin daxili və xarici siyasətinin tərkib hissəsi olan vahid gömrük siyasəti həyata keçirilir. Azərbaycan Respublikasının gömrük siyasətinin məqsədini gömrük ərazisində gömrük nəzarəti və mal dövriyyəsinin tənzimlənməsi vasitələrindən daha səmərəli istifadənin təmin edilməsi, daxili bazarının qorunması, milli iqtisadiyyatın inkişafının stimullaşdırılması,

dövlətin iqtisadi siyasətindən irəli gələn vəzifələrin yerinə yetirilməsinə kömək edilməsi və qanunvericiliklə müəyyən edilmiş digər məsələlər təşkil edir. Azərbaycan Respublikasının gömrük siyasəti gömrük işini beynəlxalq əməkdaşlığın genişləndirilməsinə yönəldir. Gömrük siyasəti dövlətin iqtisadi təhlükəsizliyinin təmin edilməsinə xidmət edir.

Gömrük işi sahəsindəki münasibətlər «Gömrük tarifi haqqında» Azərbaycan Respublikasının Qanunu ilə yanaşı digər mühüm normativ sənəd olan Azərbaycan Respublikasının Gömrük Məcəlləsi ilə tənzimlənir. 10 iyun 1997-ci il tarixində qəbul və dəfələrlə dəyişikliklər edilmiş bu məcəllə gömrük işinin hüquqi, iqtisadi və təşkilati əsaslarını müəyyən edir, Azərbaycan Respublikasının iqtisadi təhlükəsizliyinin, suverenliyinin və maraqlarının qorunmasına, Azərbaycan iqtisadiyyatının dünya təsərrüfatı ilə əlaqələrinin genişlənməsinə, gömrük işi sahəsində təsərrüfat subyektlərinin, fiziki şəxslərin və dövlət orqanlarının hüquqlarının müdafiəsinin təmin olunmasına, onların öz vəzifələrini yerinə yetirmələrinə yönəlmişdir. 61 fəsil 450 maddədən ibarət olan bu Gömrük Məcəlləsinə müxtəlif illərdə əlavə dəyişikliklərin edilməsinə baxmayaraq dünya iqtisadiyyatında gedən inkişafla əlaqədar olaraq yeni Gömrük Məcəlləsinin qəbul edilməsinə zərurət yaranmışdır və nəticədə 66 fəsil 366 maddədən ibarət yeni gömrük məcəlləsi artıq qəbul olunmuş və 2013-cü ilin yanvar ayının 1-dən qüvvəyə minmişdir. Bu məcəllə Azərbaycan Respublikasında gömrük işinin hüquqi, iqtisadi və təşkilati əsaslarını, o cümlədən Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilən, bu ərazidən aparılan, tranzitlə keçirilən mallara və nəqliyyat vasitələrinə tətbiq edilən ümumi qaydaları və prosedurları, gömrük işi sahəsində şəxslərin hüquqlarını və vəzifələrini müəyyənləşdirir.

Ötən illər ərzində gömrük işi sahəsində normativ-hüquqi bazanın təkmilləşdirilməsi istiqamətində mühüm əhəmiyyət kəsb edən müvafiq işlər həyata keçirilmişdir. "Malların təkrar idxal gömrük proseduru altında yerləşdirilməsi Qaydaları", "Malların təkrar ixrac gömrük proseduru altında yerləşdirilməsi Qaydaları", "Ayrı-ayrı gömrük əməliyyatı və ya gömrük proseduru ilə bağlı gömrük orqanının icazəsinin verilməsi Qaydaları", "Malların sərbəst dövriyyə üçün buraxılış gömrük proseduru altında yerləşdirilməsi Qaydaları", "Gömrük nəzarətindən keçməli olan malların yoxlanılmasının sürətləndirilməsi, gömrük nəzarətinin səmərəliliyinin artırılması və həyata keçirilmə müddətinin azaldılması məqsədi ilə gömrük orqanları tərəfindən istifadə olunan texniki nəzarət vasitələrinin siyahısı və onlardan istifadə Qaydaları", "Gömrük brokerinin dövlət reyestrinin aparılması Qaydaları" hazırlanaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarları ilə təsdiq edilmişdir.

Respublikamızın iqtisadi artım tempinə uyğun mühüm tədbirlərin davamlı görülməsi məqsədilə Azərbaycan Respublikasının qanunvericiliyi ilə gömrük orqanları qarşısında da bir sıra mühüm vəzifələrin yerinə yetirilməsi qoyulmuşdur. Bu, əsasən ölkənin iqtisadi təhlükəsizliyinin qorunması və dünya təsərrüfatı ilə geniş əlaqələrin qurulmasından ibarətdir. Dövlət Gömrük Komitəsi və onun yerli strukturları tərəfindən ötən dövr ərzində idxal-ixrac əməliyyatları üzrə gömrük nəzarətinin təkmilləşdirilməsi, xarici-iqtisadi fəaliyyətdə gömrük tarif tənzimlənməsinin və gömrük orqanlarında maliyyə-vergi mexanizminin təkmilləşdirilməsi, gömrük-vergi qanunvericiliyinə dair normativ-hüquqi bazanın möhkəmləndirilməsi istiqamətində müvafiq işlər görülmüş, qaçaqmalçılıq və gömrük qaydalarının pozulması halları ilə mübarizənin gücləndirilməsi, informasiya texnologiyalarının tətbiqi, elektron gömrük xidmətlərinin təşkili, beynəlxalq gömrük əməkdaşlığının genişləndirilməsi, gömrük orqanlarının maddi-texniki bazasının inkişaf etdirilməsi və s. sahələrdə bir sıra mühüm tədbirlər həyata keçirilmişdir.

AZƏRBAYCAN RESPUBLİKASINDA DÖVLƏTİN AQRAR SİYASƏTİNİN HÜQUQİ TƏMİNATI VƏ TƏKMİLLƏŞDİRİLMƏSİ MƏSƏLƏLƏRİ

İsmayılov F.Ə.
Azərbaycan Dövlət İqtisad Universiteti

Aqrar sahə, ələlxüsus da kənd təsərrüfatı özünün bir sıra xüsusiyyətlərinə görə iqtisadiyyatın digər bölümlərindən fərqlənir. Bu sahənin səciyyəviliyi kənd təsərrüfatı istehsalının bir sıra obyektiv və təbii amillərdən ciddi asılılığından irəli gəlir. Torpaq və su ehtiyatlarının aşınma proseslərinin sürətlənməsi, kənd təsərrüfatı və ərzaq məhsullarına tələb-təklif nisbətinin qeyri-proporsional dəyişməsi, böhran və depressiya halları, kənd təsərrüfatında disparitetlik və s. aqrar sahə üçün əlavə çətinliklər törədir. Bütün bunlar hamısı müasir dövrdə çevik aqrar siyasətin həyata keçirilməsini tələb edir.

Aqrar sektorun dayanıqlı və davamlı inkişafının təmin edilməsi, ölkənin ərzaq təhlükəsizliyi üçün etibarlı əsasların yaradılması, habelə milli istehsalçıların dünya bazarlarında artan rəqabətlə ayaqlaşması üçün müasir aqrar siyasət aqrar sektorun qlobal bazarda rəqabətqabiliyyətli olmasına möhkəm baza yaratmalıdır. Aqrar siyasətin effektivliyinin təhlililə bağlı demək olar ki, bütün tədqiqatlarda məhz dövlət dəstəyinin effektivliyinə xüsusi diqqət yetirilir. Digər tərəfdən, hazırda dünyada aqrar siyasət 3 əsas hədəfi özündə ehtiva edir:

1) Fermerlərin gəlirlərinin təmin edilməsi siyasəti;
2) Kənd ərazilərinin inkişafı siyasəti;
3) Aqro-ekoloji siyasət.

Azərbaycan Respublikasından qlobal bazara çıxarıla biləcək kənd təsərrüfatı və ərzaq məhsullarının həm istehsal potensialı, həm də çeşidi xeyli genişdir. Azərbaycanın aqro-iqlim şəraiti, torpaq və su ehtiyatları bu ərazilərdə müasir tələblərə və beynəlxalq standartlara uyğun məhsulların istehsalı üçün yaxşı əsasdır. Ancaq buna nail olmaq üçün, daha doğrusu, bu potensialı reallaşdırmaq üçün hüquqi-normativ bazanın əsaslı surətdə yeniləşdirilməsi və qlobal miqyasda qəbul edilən qanunvericilik və hüquqi-normativ bazaya uyğunlaşdırılması vacib şərtlərdən biridir. Bu məsələ ancaq şərt olaraq, hansısa normativ tələb funksiyasında deyil, məhz qlobal bazarda rəqabətə dayanıqlı məhsul istehsalını şərtləndirən hüquqi-normativ baza yaradılmasına xidmət etməlidir.

Qanunvericilik bazasının beynəlxalq miqyasda qəbul olunan hüquqi normalara uyğunlaşdırılması bilavasitə Azərbaycanın aqrar sektoru üçün ona görə vacibdir ki, ölkə bütün imkanlarını hərəkətə gətirə bilsin və bu imkanlardan səmərəli surətdə istifadə edilsin.

Aqrar sahə və onun tənzimlənməsinin hüquqi və iqtisadi mexanizmi mürəkkəb iqtisadi münasibətləri əhatə etdiyindən yaranma prosesi və inkişaf mərhələlərinə nəzər salınmasının, onun nəzəri əsaslarının hərtərəfli öyrənilməsinin olduqca mühüm elmi və praktiki əhəmiyyəti vardır. Dünya iqtisadiyyatında baş verən qloballaşmaya və qlobal istehlak bazarının konyukturasındakı dəyişmə dinamikasına uyğunlaşmaq üçün aqrar sahə üzrə həm hüquqi-normativ bazanın, həm də istehsal münasibətlərinin beynəlxalq norma və tələblərə uyğunlaşdırılması, beləliklə də milli istehsalın rəqabətə davamlı olmasının təmin edilməsi aqrar siyasətin ən başlıca hədəfi olmalıdır. Qarşıya qoyulan bu məqsədə çatmaq üçün fikrimizcə, aşağıda göstərilən sahələri aqrar siyasətin prioritetləri kimi qəbul edib vahid strategiya halında həyata keçirmək yaxşı nəticələr verə bilər:

- aqrar sahə üzrə milli qanunvericilik bazasının modernləşdirilməsi;
- ərzaq təhlükəsizliyi;
- idxaldan asılılığın azaldılması;
- qida təhlükəsizliyi (sağlamlığı) tədbirləri;
- torpaq və su resurslarından səmərəli istifadə və onların mühafizəsi;
- elmi tədqiqatların dəstəklənməsi;
- kəndə müasir kadrlar;
- müasir kənd;
- urbanizasiyanın azaldılması;
- ixrac potensialının genişləndirilməsi.

Aqrar siyasətin bu komponentlərinin hər biri olduqca mühüm əhəmiyyətə malikdir və ciddi tədbirlər sisteminin hazırlanıb ardıcıl olaraq həyata keçirilməsini tələb edir.

Hazırda respublikamızda dövlətin aqrar siyasətinin başlıca məqsədi ölkənin ərzaq təhlükəsizliyini tə min etməkdən ibarət olmaqla, həm də kənd yerlərində əhalinin yoxsul təbəqələrinin həyat şəraitini yaxşılaşdırmağa, onların məşğulluğunu təmin etməyə, daxili bazarın qorumasına, əlverişli xarici əlaqələrin qurulmasına, emal sənayesi müəssisələrinin müxtəlif kənd təsərrüfatı xammalına olan tələbatının ödənilməsinə xidmət etməlidir. Buna görədə ilk növbədə, ödənilməyən ərzaq tələbatının səviyyəsi bərpa edilməli, istehsal və idxal olunan ərzaq məhsullarının keyfiyyəti, əhalinin istehlak etdiyi ərzaq məhsullarının strukturu yaxşılaşdırılmalıdır.

Müasir dövrdə aqrar sektorun davamlı inkişafının təmin edilməsinin əsas şərtlərindən biri kimi aqrar siyasətin əsas vəzifələrindən biri də kənd təsərrüfatı istehsalının ekoloji tarazlığın pozulmasına göstərə biləcəyi mənfi təsirin tənzimlənməsidir. Bu məqsədlə ətraf mühitin qorunması üzrə müvafiq standartlar hazırlanmalı və tətbiq edilməli, bu standartlara riayət edilməsinə nəzarət sistemi formalaşdırılmalıdır. Bu baxımdan, ilk növbədə, "Torpaqların münbitliyi haqqında", "Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında" Bitki mühafizəsi haqqında Qanunların,

"Pestisidlər və aqrokimyəvi maddələr haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı müvafiq normativ-hüquqi aktların, "Örüş, otlaq və biçənək sahələrinin istifadəyə və icarəyə verilməsi, habelə istifadə edilməsi" Qaydalarının təsdiq edilməsi barədə Nazirlər Kabinetinin Qərarlarının və digər hüquqinormativ aktların müvafiq müddəalarının təmin edilməsi mexanizmləri yaradılmalıdır. Bununla yanaşı, torpaqların keyfiyyətinin qorunub saxlanılması və yaxşılaşdırılması ilə bağlı istehsalçılar arasında maarifləndirmə işləri də aparılmalıdır. Eyni zamanda, kənd təsərrüfatı istehsalı üzrə ətraf mühitin qorunması siyasətinə "ekoloji təmiz" aqrar məhsulların ixracı siyasəti kontekstində baxılmalıdır.

NƏQLİYYAT-LOGİSTİK KOMPLEKSDƏ FORMALAŞAN MÜNASİBƏTLƏRİNİN HÜQUQİ ASPEKTLƏRİ

Süleymanova L. N.
Azərbaycan Dövlət İqtisad Universiteti

Nəqliyyat ölkənin müxtəlif iqtisadi sahələri arasındakı əlaqəni təmin edir və həmin sahələr üzrə müdafiə qabiliyyətinin möhkəmləndirilməsində mühüm rol oynayır. Nəqliyyat ölkə iqtisadiyyatını vahid kompleks şəklində birləşdirən bir halqadır. Son onillikdə nəqliyyat infrastrukturunun genişlənməsi, habelə nəqliyyat vasitələrinin hərəkət radiusunun artması ilə əlaqədar olaraq dövlətlər bir-biri ilə daha faydalı qarşılıqlı münasibətdə olurlar və bunun da məntiqi nəticəsi kimi hal-hazırda nəqliyyat daşımaları sahəsində müxtəlif razılaşmaların sayı xeyli artmışdır.

Nəqliyyatın davamlı inkişafı iqtisadi sahədə bütövlüyün, mal və xidmətlərin sərbəst mübadiləsinin, iqtisadi fəaliyyətdə sərbəstliyin, rəqabətin və əhalinin həyat şəraitinin yüksəlməsinin təminatıdır. Malların (məhsulların) istehsalının və mübadiləsinin normal prosesinin formalaşdırılması məhz nəqliyyat vasitələrinin köməyi ilə təmin edilir. Material axınlarının ilkin yaranma mənbəyindən son istehlak yerlərinə qədər hərəkəti zamanı logistik əməliyyatların böyük əksər hissəsi məhz müxtəlif nəqliyyat növlərinin iştirakı ilə həyata keçirilir. Bu baxımdan nəqliyyat logistikanın funksional sahələri arasında əlaqələndirici rol oynayır. Məhsulların logistik dövrənin ayrı – ayrı mərhələlərinə ötürülməsi, yəni istehsal prosesinin ahəngdar təşkili, tədavül kanallarından logistik yük vahidlərinin tez ötüb keçməsi, istehsal və əmtəəlik ehtiyatların tələb olunan səviyyədə saxlanılması nəqliyyat logistikası ilə sıx bağlıdır. Yüklərin nəql edilməsilə əlaqədar olan iqtisadi proseslərə logistikanın tətbiqi nəticəsində əldə olunan bu pozitiv irəliləyişlər son illərdə respublikamızda bazar iqtisadiyyatının tələbləri baxımından aparılan əsaslı struktur siyasəti ilə möhkəmlənir. Nəqliyyat logistikası sahəsində bu o deməkdir ki, bazar iqtisadi təfəkküründə sahib olmaq, özlərinin fəaliyyət strategiyalarını məhz bu istiqamətdə qurmaq, logistik sistemlərin üstünlüklərindən praktiki baxımdan bəhrələnmək ixtisaslaşmış nəqliyyat müəssisələri və departamentləri üçün olduqca çətindir. Təbii ki, bu da ətalətli nəqliyyat müəssisələrinin təsərrüfat fəaliyyətində neqativ hallar yaradır, yəni yük vahidlərinin daşınması üçün çevik nəqliyyat parkına malik olmaq, istehlakçı sifarişlərini vaxtında qəbul etmək və onun dolğun ödənilməsi üçün işgüzar səylərin göstərilməsini tələb edir.

Müasir dövrdə nəqliyyat Azərbaycanın iqtisadi infrastruktrunun əsas tərkib hissəsinə çevrilmişdir. Onun səmərəli fəaliyyəti bir tərəfdən iqtisadiyyatın təşkilində və sosial sahənin işində vacib şərt hesab edilir, digər tərəfdən iqtisadiyyat və cəmiyyət nəqliyyat sistemi üçün "ictimai sifarişi" formalaşdırır. Belə ki nəqliyyat sektoru müştərilərin tələb və təkliflərinə uyğun xidmət göstərmək xüsusiyyətlərinə malik olmalıdır. Belə şəraitdə iqtisadiyyatın yüksəlməsində nəqliyyatı yalnız bir sahə kimi qiymətləndirmək olmaz. Nəqliyyat yük və sərnişin daşımalarında, təsərrüfatın idarə olunmasında, habelə insanların həyat fəaliyyətində mövcud şəraiti yaxşılaşdıran sahələrarası sistemdir. Nəqliyyatın davamlı inkişafı iqtisadi sahədə bütövlüyün, mal və xidmətlərin sərbəst mübadiləsinin, iqtisadi fəaliyyətdə sərbəstliyin, rəqabətin və əhalinin həyat şəraitinin yüksəlməsinin təminatıdır. Malların (məhsulların) istehsalının və mübadiləsinin normal prosesinin formalaşdırılması məhz nəqliyyat vasitələrinin köməyi ilə təmin edilir.

Azərbaycan Respublikasında nəqliyyat sferasını tənzimləmək məqsədilə müvafiq hüquqi baza yaradılmışdır. Bu bazada müxtəlif hüquq qüvvəsinə malik olan normativ hüquqi aktlar yer almışdır. Bu normativ aktlar nəqliyyat fəaliyyətinin hüquqi, iqtisadi və təşkilati əsaslarını müəyyənləşdirir. Nəqliyyat sferası ölkənin sosial-iqtisadi inkişafında mühüm əhəmiyyətə malik olduğundan bu sahədə dövlət müdaxiləsi zəruri hesab edilir. Bu baxımdan nəqliyyat sahəsində dövlət müdaxiləsinin praktik reallaşmasının təmini üçün normativ hüquqi bazanın formalaşdırılması hər bir dövlət üçün başlıca vəzifə hesab olunur.

Bir elm sahəsi kimi logistika əhmiyyətli dərəcədə inkişaf etdikcə o, nəqliyyat siyasətinə və bu sahədə mövcud olan müəssisə və departamentlərin (agentliklərin) fəaliyyət xarakterinə, habelə onlarda struktur dəyişikliklərinin aparılmasına əsaslı təsir göstərdi. Lakin ötən əsrin 70 - ci illərində sənayecə inkişaf etmiş ölkələrin iqtisadiyyatında bu sahənin inkişafına xüsusi diqqət yetirilmədiyindən onun xüsusi çəkisi iqtisadiyyatın digər sahələrilə müqayisədə çox azlıq təşkil edirdi. Belə bir vəziyyətin yaranmasının əsas səbəbləri hər şeydən əvvəl dövlət tənzimlənmə orqanlarının yük daşıma tariflərini, yük daşıma məsafələrini, daşınan yüklərin nomenklaturasını, bu sahəyə ayrılan kapital qoyuluşlarını və nəqliyyat kompaniyalarına aid edilən digər parametrləri çox ciddi formada nəzarət altında saxlamaları ilə əlaqədar idi. Nəticə etibarı ilə nəqliyyat təşkilatları arasında rəqabət mübarizəsinin mövcud olmaması onların inhisarçı mövqeyini daha da gücləndirirdi. Bu da nəqliyyat təşkilatları və ya departamentlərinin istehlakçılara göstərdikləri xidmətlərin çeşidi və həcmini tətbiq edilən yüksək tariflər hesabına saxlamaq imkanı verirdi.

Nəqliyyatın inkişaf səviyyəsi ölkədə müəyyən dərəcədə sivilizasiyanın inkişafını müəyyənləşdirir. Nəqliyyat iqtisadiyyatın çox sahələri ilə bilavasitə əlaqəlidir. Nəqliyyat əməyin məhsuldarlığını yüksəltmək və yüklərin çatdırılmasına sərf olunan vaxtı azaltmaqla iqtisadiyyatın inkişafına təsir edən mühüm amil hesab olunur. Dünyada baş verən qloballaşma dövründə nəqliyyat ölkəmizin milli sərvətlərinin səmərəli istifadəsi və dünya iqtisadi sisteminə inteqrasiya prosesində açar rolunu oynayır.

Bir elm sahəsi kimi logistika əhmiyyətli dərəcədə inkişaf etdikcə o, nəqliyyat siyasətinə və bu sahədə mövcud olan müəssisə və departamentlərin fəaliyyət xarakterinə, habelə onlarda struktur dəyişikliklərinin aparılmasına əsaslı təsir göstərdi. Lakin ötən əsrin 70-ci illərində sənayecə inkişaf etmiş ölkələrin iqtisadiyyatında bu sahənin inkişafına xüsusi diqqət yetirilmədiyindən onun xüsusi çəkisi iqtisadiyyatın digər sahələrilə müqayisədə çox azlıq təşkil edirdi. Belə bir vəziyyətin yaranmasının əsas səbəbləri hər şeydən əvvəl dövlət tənzimlənmə orqanlarının yük daşıma tariflərini, yük daşıma məsafələrini, daşınan yüklərin nomenklaturasını, bu sahəyə ayrılan kapital qoyuluşlarını və nəqliyyat kompaniyalarına aid edilən digər parametrləri çox ciddi formada nəzarət altında saxlamaları ilə əlaqədar idi. Nəticə etibarı ilə nəqliyyat təşkilatları arasında rəqabət mübarizəsinin mövcud olmaması onların inhisarçı mövqeyini daha da gücləndirirdi. Bu da nəqliyyat təşkilatları və ya departamentlərinin istehlakçılara göstərdikləri xidmətlərin çeşidi və həcmini tətbiq edilən yüksək tariflər hesabına saxlamaq imkanı verirdi.

Məhz nizamasalma predmeti nəqliyyat hüququnun müstəqil hüquq institutu kimi ayrılmasını və fərqləndirilməsini şərtləndirən əsas və başlıca əlamətdir. Nəqliyyat hüququnun predmeti obyektiv məzmuna malik olub, ictimai münasibətlərin öz xarakteri ilə müəyyən edilir. O, prinsip etibarilə, qanunvericinin iradəsindən asılı deyildir. Qeyd etmək lazımdır ki, nəqliyyat müəssisəsinin əsas funksiyası daşıma prosesini həyata keçirmək məqsədilə nəqliyyat vasitələrindən istifadə edərək, müştərilərə xidmət göstərməkdən ibarətdir. Bu cür xidmət göstərilərkən, təbii ki, nəqliyyat müəssisəsi ilə müştərilər arasında müəyyən ictimai münasibətlər əmələ gəlir. Həmin münasibətlər yük, sərnişin və baqaj daşınması üzrə xidmətlər göstərilərkən yaranır. Elə bu ictimai münasibətlər də nəqliyyat hüququnun predmetini təşkil edir.

Yuxarıda deyilənlərdən belə nəticəyə gələ bilərik ki, nəqliyyat hüququnun predmetini təşkil edən ictimai münasibətlər iki subyekt arasında əmələ gəlir, yəni həmin münasibətlərdə iki iştirakçı çıxış edir: nəqliyyat müəssisəsi və müştəri.

MİLLİ PROQRAMLARIN FORMALAŞDIRILMASI VƏ İQTİSADİ SAHƏLƏRİNDƏ TƏTBİQİ

Əliyev E.V.
Azərbaycan Dövlət İqtisad Universiteti

Dövlətin bazar iqtisadiyyatı münasibətlərinin formalaşması və inkişafına sistemli proses kimi yanaşması və iqtisadi islahatlar üçün hüquqi baza yaradılmasında obyektiv iqtisadi qanunlardan, qanunauyğunluqlardan istifadə edərək qəbul etdiyi qanunlar, fərmanlar, sərəncamlar, qərarlar, müxtəlif səpgili normativ-hüquqi aktlar iqtisadi islahatların hüquqi bazasının yaradılmasında mühüm alət və vasitələrdir. Onlar bazar iqtisadiyyatı subyektlərinin fəaliyyətini tənzimləyir. Bu alət və vasitələrlə dövlət iqtisadi inkişafın cari və perspektiv problemlərini, onların operativ idarə olunması və həllini təmin edir.

Ümumilikdə müasir dövrdə dövlətin iqtisadiyyata fəal şəkildə müdaxiləsi iqtisadi tənzimləmə sistemində qarşıda duran əsas məsələlərdən biridir.

Dövlətin iqtisadiyyata müdaxiləsinin müxtəlif növləri mövcuddur, lakin bunlardan ən aktual və mühümü iqtisadiyyatın tənzimlənməsində dövlət tərəfindən tətbiq edilən qısa və orta müddətli məqsədli dövlət proqramlarıdır. Müstəqilliyin ilk illərində dövlət proqramları öz funksiyasını tam yerinə yetirə bilmirdi. Bu isə daha çox maliyyə çatışmazlığı ilə əlaqədar olmuşdur. Lakin hazırda ölkədə nəinki iqtisadiyyatda, həmçinin digər sahələrdə də məqsədli dövlət proqramları qəbul olunur və uğurla həyata keçirilir. Ölkənin maliyyə resurslarının genişlənməsi dövlət proqramlarının daha səmərəli yerinə yetirilməsinə imkan verir. Bu baxımdan hazırkı dövrdə milli proqramların iqtisadiyyata təsirinin və onların iqtisadiyyatın hüquqi tənzimlənməsi sistemində yerinin araşdırılmasının aktuallığı mütəmadi olaraq artır.

Bazar iqtisadiyyatı şəraitində iqtisadi proqramlaşdırma dövlətin sosial iqtisadi inkişafa nail olmasında çox mühüm əhəmiyyətə malik olmaqla ümumilikdə planlaşdırmanın tərkib hissəsi hesab olunur. Planlaşdırma isə öz növbəsində proqnozlaşdırma, proqramlaşdırma və indiqativ planlaşdırma mərhələlərini əhatə edir. Bazar iqtisadiyyatı şəraitində planlaşdırma öz xarakterini dəyişərək mərkəzləşdirilmiş deyil indiqativ xarakter daşıyır, yəni planların tərtibi könüllülük prinsipi əsasında həyata keçirilir. Hər bir müəssisə öz gələcək inkişaf planını özü hazırlayır, dövlət isə müxtəlif uzun və qısa müddətli proqramlar hazırlamaqla iqtisadi subyektlərin fəaliyyət istiqamətlərini dövlət üçün əhəmiyyətli sahələrin inkişafına yönləndirməyə çalışır. Göründüyü kimi inzibati idarəetmə sistemindən fərqli olaraq bazar iqtisadiyyatı şəraitində plan – proqramların işlənib hazırlanması təsərrüfat subyektlərinin müstəqilliyi prinsipinə əsaslanır.

İqtisadi subyektlərin fəaliyyətinin ümumi qaydaları, normaları, prinsipləri və onların reallaşma mexanizmləri müvafiq qanunlarla müəyyən edilir. Dövlətin dəyişməkdə olan şəraitə uyğun qanunlar, normativ aktlar qəbul etməsi, mövcud qanunlarda yeni iqtisadi münasibətlər sisteminin mahiyyətindən irəli gələn əlavələr və dəyişikliklər aparması zərurətə çevrilir. Bir sözlə dövlətin iqtisadiyyatı hüquqi tənzimlənməsi mülki, əmək, inzibati, gömrük, torpaq və s. hüquqlarının normalarından, həmçinin qanunvericiliyin xüsusiləşmiş – maliyyə (vergi), bank, sığortaya dair normalardan, müəssisələr, sahibkarlıq və s. haqqında qanunvericilikdən istifadə edərək ictimai münasibətləri tənzimlənməsi və nizamlanmasıdır. Ölkə iqtisadiyyatının inkişafını nəzərdə tutan dövlət proqramları iqtisadi tənzimləmə vasitəsi olmaqla yanaşı həm də özlərində hüquqi qüvvə də daşıyır. Belə ki, qəbul olunan hər bir proqram, bu proqramın qəbul olunması üçün prezident fərmanları və digər hüquqi aktlar ölkə qanunvericiliyinin tərkib hissəsinə daxildir.

Müstəqillik qazanılandan indiki dövrə qədər Azərbaycanda xeyli sayda dövlət proqramları və bu proqramların icrası və təkmilləşdirilməsi ilə əlaqədar olaraq digər normativ-hüquqi aktlar qəbul edilmişdir. Bu proqramlar iqtisadiyyatın bütün sahələrini əhatə etməklə yanaşı həm də qeyri-iqtisadi sahələrini də aid edilir. Proqramların icrası ölkənin sürətli və davamlı inkişafına hesablanmışdır. Müstəqilliyin ilk illərində qəbul olunan proqramların icrası ilə bağlı bəzi problemlər yaranırdı ki, bu da maliyyə çatışmazlığı ilə bağlı idi. Lakin sonrakı dövrlərdə ölkənin maliyyə imkanlarının genişlənməsi yeni və daha mütərəqqi proqramların qəbulu ilə yanaşı artıq mövcud olanların da səmərəli icrasına imkan yaratdı.

Ölkədə milli proqramların tətbiqi şərti olaraq iki mərhələyə bölünür. Birinci mərhələ 1990-cı illərin sonlarında 2002- ci ilə qədər olan dövrü əhatə edir. Bu dövr maliyyə imkanlarının azlığı və proqramların həyata keçirilməsinin keyfiyyətcə aşağı olması ilə xarakterizə olunur. İkinci mərhələ 2003- cü ildən sonrakı dövrü əhatə edir. Bu mərhələdə ölkənin maliyyə imkanları genişlənmişdir, həmçinin bu dövrdə yeni, daha mütərəqqi və innovativ proqramlar tətbiq edilməkdədir. Lakin bu heç də o demək deyildir ki, hazırda Azərbaycanda məqsədli dövlət proqramlarının hazırlanması və tətbiqi özünün ən yüksək səviyyəsindədir.

Dövlət proqramlarının həyata keçirilməsini təmin etmək üçün digər mühüm tədbirlər kompleksi bu proqramların reallaşmasını təmin etmək üçün onun normativ-hüquqi bazanın möhkəmlənməsi istiqamətində yeni qanunların, fərmanların qəbul edilməsi, mövcud olanların təkmilləşdirilməsi, onlara dəyişikliklər və əlavələr edilməsidir. Son illərdə bir tərəfdən iqtisadi islahatların hüquqi bazasını təkmilləşdirmək və onları beynəlxalq tələblərə uyğunlaşdırmaq, digər tərəfdən isə regionların davamlı inkişafını təmin etməklə əlaqədar olan yeni proqramlar hazırlanmış və onlar müzakirə edilərək qəbul edilmişdir. Göstərilənlərlə yanaşı respublikada proqram xarakterli iqtisadi tədbirlərin həyata keçirilməsinin hüquqi əsaslarına Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq konvensiyalar,

müqavilələr, beynəlxalq təşkilatlarla imzalanan ikitərəfli və çoxtərəfli müqavilələr və razılaşmalar və digər normativ-hüquqi aktlar da daxildir.

Azərbaycanda həyata keçirilən iqtisadiyyatın milli proqramlar vasitəsilə dirçəldilməsi və bazar iqtisadiyyatının qurulması prosesini daha da təkmilləşdirmək və səmərəli etmək üçün bu sahədə dünyanın aparıcı ölkələrinin həmçinin, bu işdə effektiv nəticələr əldə etmiş ölkələrin təcrübələrini öyrənmək vacibdir. İlk növbədə onu qeyd etmək lazımdır ki, bir çox Qərb ölkələrində proqramlar uzunmüddətli plan xarakteri daşıyır və plan adlandırılır. Bu zaman plan dedikdə inzibati idarəetmə sistemindəki direktiv planlar nəzərdə tutulmur, əksinə bazar iqtisadiyyatına xas olan indiqativ və strateji planlar başa düşülməlidir.

Dövlət proqramlarının hazırlanma prosesinin səmərəliliyi yüksəldilməsi məqsədilə ilk növbədə dövlət tərəfindən etibarlı bir şəkildə işlənib hazırlanan milli və regional səviyyəli informasiya sisteminə ehtiyac vardır. Belə ki, hazırlanan hər bir proqram müəyyən statistik və ya analitik informasiyalar əsasında hazırlanır və bu informasiyaların etibarlılıq səviyyəsi nə qədər yüksək olarsa, hazırlanan proqramların uğur qazanmaq şansı da bir o qədər yüksək olacaqdır. Ölkəmizdə hazırlanan proqramlarla İEÖ-də hazırlanan bir sıra proqramlar arasında müqayisə apardıqda bu sahədə nə qədər ciddi problemlərin olduğunu görməkdəyik. Məsələn, regional inkişafla bağlı proqrama diqqət yetirək. Proqramda ayrı-ayrı regionlar və rayonlar üzrə geniş tədbirlər sistemi nəzərdə tutulsa da bunların hansı sosial-iqtisadi informasiyalar əsasında təyin edildiyini açıq bir şəkildə görmək mümkün deyil. Regionlar yalnız bir sıra tarixi-coğrafi və makroiqtisadi informasiyalar əsasında xarakterizə edilmişdir ki, fikrimcə bu tipli informasiyalara dayanaraq külli miqdarda maliyyə-investisiya ehtiyatlarını səmərəli bir səkildə, regionların həqiqi ehtiyacları istiqamətində bölüşdürmək mümkün deyil.

Araşdırılan məsələlərdən aydın olur ki, məqsədli dövlət proqramlarının tətbiqinin və həyata keçirilməsinin səmərəliliyi ölkənin sürətli templərlə inkişaf etdiyi bir dövrdə xeyli artmışdır. Ölkədə milli proqramların tətbiqi şərti olaraq iki mərhələyə bölünür. Birinci mərhələ 1990-cı illərin sonlarında 2002-ci ilə qədər olan dövrü əhatə edir. Bu dövr maliyyə imkanlarının azlığı və proqramların həyata keçirilməsinin keyfiyyətcə aşağı olması ilə xarakterizə olunur. İkinci mərhələ 2003- cü ildən sonrakı dövrü əhatə edir. Bu mərhələdə ölkənin maliyyə imkanları genişlənmişdir, həmçinin bu dövrdə yeni, daha mütərəqqi və innovativ proqramlar tətbiq edilməkdədir. Lakin bu heç də o demək deyildir ki, hazırda Azərbaycanda məqsədli dövlət proqramlarının hazırlanması və tətbiqi özünün ən yüksək səviyyəsindədir. Xarici ölkələrin təcrübəsinin öyrənilməsi onu göstərir ki, Azərbaycan bu sahədə səmərəliliyi və proqramların keyfiyyətini artırmaq istəyirsə inkişaf etmiş ölkələrin bu sahədə təcrübəsini ölkədə tətbiq etməlidir. Hökumət tərəfindən hazırlanaraq həyata keçirilən dövlət proqramları sosial-iqtisadi proseslərin yönləndirilməsində mühüm rola malikdir. Lakin həyata keçirilən proqramların qarşısına qoyduğu vəzifələri daha səmərəli səkildə yerinə yetirməsi üçün bir sıra istiqamətlərdə təkmilləşdirmə tədbirlərinin görülməsi vacibdir. Bu baxımdan aşağıdakı təkliflərin nəzərə alınması fikrimcə dövlət proqramlarının səmərəliliyini artırar.

DAŞINMAZ ƏMLAK BAZARININ FORMALAŞMASI VƏ FƏALİYYƏTİNİN METODOLOJİ ASPEKTLƏRİ

Quluyeva H.M.
Azərbaycan Dövlət İqtisad Universiteti

Daşınmaz əmlakın tənzimlənməsinə mülkiyyətçinin maraqları daxilində daşınmaz əmlak obyektindən maksimum mənfəət alınmasına yönəldilmiş hüquqi, iqtisadi və texniki xarakterli tədbirlər kompleksi kimi baxılmalıdır.

Daşınmaz əmlakı tənzimləyən peşəkar şirkətlərə tələbat daşınmaz əmlakın istifadəsindən gəlir alınmasına zərurətin meydana çıxdığı vaxtdan yaranmışdır. Daşınmaz əmlak işləməyə və mənfəət gətirməyə başladığı vaxtdan mülkiyyətçilər öz əmlakını idarə etmək üzərində düşünməyə başladılar.

Daşınmaz əmlakın idarə edilməsi dedikdə, həm istehlakçı marağı ilə, həm də daşınmaz əmlak obyektinin müəyyən həyat tsikli ilə bağlı fəaliyyət başa düşülür.

Daşınmaz əmlakın idarə edilməsi öz riskinə görə həyata keçirilən fəaliyyət növü olub, istifadə və sərəncam vermə səlahiyyətlərinin reallaşdırılmasından mənfəət əldə edilməsinə yönəldilir.

Daşınmaz əmlak obyektlərinin idarə olunması əsasən aşağıdakı 3 istiqamətdə həyata keçirilir:

1. Hüquqi, yəni daşınmaz əmlakın obyektlərinə hüquqların bölüşdürülməsi və kombinə edilməsi.

2. İqtisadi, yəni daşınmaz əmlakın obyektinin istismarı prosesində gəlirlərin və xərclərin idarə edilməsi.

3. Texniki, yəni daşınmaz əmlakın obyektinin onun funksional təyinatına uyğun saxlanması.

Daşınmaz əmlakın dövlət tənzimlənməsi müxtəlif növ təsirlər yolu ilə həyata keçirilir. Həmin təsir vasitələri aşağıdakılardan ibarətdir:

- birbaşa müdaxilə yolu ilə (birbaşa inzibati idarəetmə):

- daşınmaz əmlak obyektlərinin fəaliyyətini tənzimləyən qanunların, qərarların, qaydaların, təlimat və əsasnamələrin yaradılması;
- daşınmaz əmlak obyektləri üzərində aparılan sövdələşmələr zamanı normativ tələblərin pozulmasına görə məsuliyyət mexanizminin tətbiq olunması;
- bütün bazar subyektlərinin müəyyən edilmiş norma və qaydalara əməl edilməsi üzərində nəzarət;
- daşınmaz əmlak obyektinə hüquqların və onunla bağlı sövdələşmələrin qeydiyyatı; daşınmaz əmlak sferasında sahibkarlıq fəaliyyətinin lisenziyalaşdırılması.

- dolayı təsir yolu ilə (daşınmaz əmlak obyektlərinin idarə olunmasının iqtisadi metodları):

- daşınmaz əmlak obyektlərindən vergi tutulması və güzəştlərin verilməsi;
- məqsədli dövlət proqramlarının reallaşdırılması;
- amortizasiya normalarının müəyyən edilməsi;
- mənzil-kommunal təsərrüfatlarının islahatlaşdırılması; mənzil sertifikatlarının buraxılışı və dövriyyəsi;
- torpaqdan istifadə və özəlləşdirmə məsələlərinin kompleks həlli;
- mühəndis infrastrukturunun inkişafı.

Hazırda Azərbaycanda daşınmaz əmlakın tənzimlənməsi sahəsində mütəxəssislərin hazırlanmasını həyata keçirən ali təhsil müəssisələri çox azdır. Bu fəaliyyət sferası hazırda yaxşı kadrlara çox böyük ehtiyac içərisindədir. Odur ki, xidmətlə Azərbaycan bazarına daxil olan firmalar, demək olar ki, heç bir rəqabətə məruz qalmırlar.

Daşınmaz əmlakı idarə edən şirkət həmişə müəyyən xarici sferada işləyir. Düzgün idarəetmə qərarlarının qəbulu üçün bazar konyunkturunu və onun meyllərini dəqiq təsəvvür etmək lazımdır.

Azərbaycanın daşınmaz əmlak bazarında işləmək üçün bu bazarın həllini, daşınmaz əmlak sferasında əsas oyunçuları, milli və xarici göstəricilərin meyllərini bilmək lazımdır.

Müasir iqtisadi ədəbiyyatda "daşınmaz əmlak bazarı", xüsusi əmtəə növünün - əmlak hüquqlarının alıcı və satıcılarını bir yerə cəmləşməyə sövq edən institut və prosedurların məcmusu başa düşülür. Daşınmaz əmlak bazarı istənilən öz-özünü tənzimləyən sistemi kimi tələb, təklif, qiymət və infrastrukturla xarakterizə olunur.

Daşınmaz əmlak bazarının funksiyalarına aşağıdakılar aiddir:

- qiymət, tələb və təklif haqqında informasiya;
- vasitəçilik - istehlakçılar, tələb və təklif arasında əlaqənin qurulması;
- daşınmaz əmlak obyektinə qiymətlərin sərbəst formalaşması və mülkiyyət hüquqlarının müdafiəsi;
- daşınmaz əmlak obyektinə investisiyanın yenidən bölüşdürülməsi;
- azad sahibkarlığın təmin olunması;
- sosial proqramların həllinin təminatı.

Daşınmaz əmlak bazarının strukturuna aşağıdakılar daxildir:

1) Daşınmaz əmlak obyektləri;

2) Daşınmaz əmlak bazarının subyektləri;

3) Daşınmaz əmlak bazarının infrastrukturu.

Daşınmaz əmlak bazarının infrastrukturu dedikdə, daşınmaz əmlak bazarının faydalı xassələrinin yaradılmasına və istehlakına, eləcə də bazar mühitində onların bölüşdürülməsinə təsir edən peşəkar və institusional daşınmaz əmlak bazarı iştirakçıları başa düşülür. Infrastrukturun makroiqtisadi, regional, lokal və makroiqtisadi səviyyələrini fərqləndirirlər.

Digər bazar növlərindən fərqli olaraq daşınmaz əmlak bazarı bir sıra spesifik xüsusiyyətlərə malikdir. Həmin xüsusiyyətlərə bəzən bu bazarın tsiklik xarakter daşımasını, aşağı likvidliyə malik olmasını, tənzimləyici dövlət təsirinin yüksək dərəcəsini, tədqiqatların zəif səviyyəsini, daşınmaz əmlak obyektinin vaxta görə dəyərinin artımını, satıcı və alıcıların məhdud sayını, tələb və təkliflərin qeyri-tarazlığını, transaksion xərclərin yüksək səviyyəsini aid edirlər, bəzən isə həmin bazarın lokallığı,

daşınmaz əmlak investisiyalar zamanı risklərin rolunun daha geniş spektri, inflyasiya amillərindən daha çox mühafizə olunması, daşınar əmlakla mü qayisədə daşınmaz əmlakın nisbətən az likvidliyi əsas xüsusiyyətlər kimi götürülür.

Daşınmaz əmlak bazarına xas olan əsas xüsusiyyətləri aşağıdakı kimi ifadə etmək düzgün olar: xüsusilə nadir və ixtisaslaşdırılmış obyektlərin alqı-satqı sövdələşməsinin sayca xeyli az olması; bazarda bəzi sövdələşmələr müxtəlif şayiələrin, müxtəlif psixoloji tələbatların, ayrı-ayrı iştirakçılara kifayət dərəcədə informasiya çatdırılmamasının təsiri altında baş verir; daşınmaz əmlaka tələb çox dəyişkən ola bilər.

Daşınmaz əmlak bazarında aşağıdakı münasibətlər mövcuddur:

- daşınmaz əmlakın yaradılması prosesində investor və tikinti şirkəti arasında;
- podratçı və istifadəçi arasında;
- mülkiyyətə hüququn dövriyyəsi ərəfəsində satıcı və alıcı, icarəyə verənlə icarədar arasında;
- daşınmaz əmlakın istismarı dövründə mülkiyyətçi ilə idarəedici və istifadəçi arasında.

Bütün bu münasibətlər bir-birlərindən mahiyyətcə fərqlənsələr də, onları bir amil-daşınmaz əmlaka münasibət bağlayır. Məhz bu, daşınmaz əmlak bazarının xüsusiyyətlərini təyin edən başlıca amildir.

Müasir şəraitdə daşınmaz əmlak bazarını üç mövqedən xarakterizə etmək olar:

1. Daşınmaz əmlak obyektinə kapital qoyuluşu sferası və daşınmaz əmlakla əməliyyatlarda meydana çıxan iqtisadi münasibətlər sistemi kimi.

2. Daşınmaz əmlak obyektinin xüsusi növ əmtəə şəklində çıxış etdiyi sfera kimi.

3. İnsanın həyat fəaliyyəti və həyat təminatı üçün şərait yaradan xidmətlər bazarı kimi.

Beləliklə, daşınmaz əmlak bazarı əmtəə, investisiya xidmət bazarlarının əlamətlərinin xas olduğu inteqrasiya əlamətlərinin xas olduğu inteqrasiya olunmuş kateqoriyadır. İqtisadi baxımdan daşınmaz əmlak bazarı-infrastruktur kateqoriya olub, istehsal, kommersiya, sosial, ekoloji və digər fəaliyyətin həyata keçirilməsi üçün zəruri olan şəraitin yaradılması ilə bağlıdır.

MİLLİ İNNOVASİYA SİSTEMİNİN FORMALAŞMASININ TƏŞKİLATİ-HÜQUQİ ASPEKTLƏRİ

Nəsirova G.A.
Azərbaycan Dövlət İqtisad Universiteti

Məlumdur ki, bu gün dünyada liberializmə, realizmə və strukturualizmə əsaslanan qlobal dünya iqtisadiyyatı formalaşır. Bu formalaşma prosesində dünya iqtisadiyyatında keyfiyyət baxımından üç meyl, məhsul vahidinə sərf olunan xərclərin dəyərcə artması, müvafiq olaraq məhsul vahidinə gəlirlərin nisbətən azalması, istehsalın və satışın beynəlmiləlləşməsinin kəskin artması, dünya miqyasında iqtisadi konyukturanın dəyişən tələbinə, şəraitinə çevik uyğunlaşmağın çətin və ziddiyyətli bir proses olmasından irəli gələrək görünməz nəticələrin artması müşahidə olunur.Məhz bu cəhətləri nəzərə almaqla davamlı inkişafa nail olmaq mümkündür.

Ümumən, inkişafın təmin edilməsi ölkənin malik olduğu mütləq üstünlüklərlə müəyyənləşsə də düzgün,optimal, çevik iqtisadi siyasət və onun reallaşdırılması prosesində qlobal, regional,milli maraqları uzaqlaşdırmaqla cari və perspektiv məqsədlərin həllinin optimal mərhələliyinin gözlənilməsi davamlı inkişafın ən zəruri şərtlərindən hesab edilməlidir. Beləliklə, "davamlı inkişaf" dedikdə elə inkişaf başa düşülməlidir ki, bu günki problemlər həll edilərkən, gələcək nəsillərin mənafeyinə ziyan gətirilməsin. Bu baxımdan, "davamlı inkişaf" problemi bərpa olunan resurslardan səmərəli istifadəni, başqa sözlə gələcəkdə onun kifayət həcmdə təkrar istehsalını, eyni zamanda "davamlı istifadə" onun ekoloji problemlərlə birgə həllini tələb edir. Deməli, "davamlı inkişaf" iqtisadi artımın hər bir konkret halda iqtisadi sistemin potensial imkanlarını üstələməsini qəbul etmir.

Azərbaycan Respublikası iqtisadiyyatının innovasiya yolu ilə dirçəlişi onunla şərtlənir ki, hələ keçmiş ittifaq tərkibində olarkən bu ölkənin kifayət qədər güclü sənaye və elmi-texniki potensialı olmuş, innovasiya təcrübəsi əldə edilmişdir.

Müasir şəraitdə istər ayrı-ayrı dövlət və regionların, istərsə də ümumbəşəri problemlərin uğurlu həlli üçün inteqrasiya prosesləri genişlənmiş və müxtəlif regional-iqtisadi bloklar şəklində bütün dünyanı əhatə etməyə başlamışdır. Artıq ayrı-ayrı regionlarda və dövlətlərdə əhalinin rifah səviyyəsi orada mövcud olan təbii sərvətlərin miqdarı ilə deyil, həmin təbii sərvətlərdən beynəlxalq əmək bölgüsünün üstünlükləri nəzərə alınmaqla səmərəli istifadə olunma dərəcəsi ilə müəyyən edilir. Ona görə də

beynəlxalq əmək bölgüsü inkişaf etdikcə dünya təsərrüfatı sisteminin müxtəlif həlqələri arasında əlaqələr getdikcə genişlənir. Ciddi kəmiyyət və keyfiyyət dəyişikliklərinə məruz qalmış ümumdünya ticarət əlaqələri özünün mühüm əhəmiyyətini saxlamaqla yanaşı, kapital və maliyyənin beynəlxalq hərəkəti müasir mərhələdə daha geniş vüsət almış, təsərrüfat əlaqələrinin inkişafını təmin edən vacib şərtlərdən birinə çevrilmişdir.

Azərbaycan iqtisadiyyatının iqtisadi, siyasi və coğrafi amilləri nəzərə almaqla onun kəmiyyət və keyfiyyət dəyişikliklərinin ətraflı tədqiqi və təhlili göstərir ki, bu dəyişikliklərin səmərəliliyi əsaslı şəkildə ölkədə yeridilən xarici iqtisadi siyasətdən, o cümlədən xarici investisiya və kreditlərin cəlb edilməsi strategiyasından, həmçinin ölkənin dünya bazarında seçdiyi iştirak formasından, yəni beynəlxalq əmək bölgüsündə onun xammal ixracatçısı, yoxsa hazır məhsul istehsalçısı kimi tutduğu mövqedən, ölkənin iqtisadi təklükəsizliyinin təmin olunma dərəcəsindən asılı olacaqdır. Biz bazar iqtisadiyyatına keçidin, liberallaşmanın, rəqabətə meydan açmanın və s. iqtisadi artıma təsir etmə imkanlarından istifadə edirik. Biz dünya iqtisadiyyatının tərkib hissəsiyik. Dünya rəqabət mühitində öz yerimizi tapmalıyıq. Uzunmüddətli iqtisadi strategiyanın yeni şəraitə adekvat modelini müəyyənləşdirməli, onun iqtisadi artıma və xalqın rifahının daha da yüksəldilməsinə təsir etmə mexanizmlərinin reallaşmasına nail olmalıyıq.

Bildiyimiz kimi Azərbaycan dünya bazarında xammal ixracatçısı kimi çıxış edir. Xammalların bərpa olunmayan növlərinin ixracı milli iqtisadiyyatın perspektivlərini təhlükə altına almaqla, gələcək nəsillərin mənafeyinə ciddi zərbə vurur ki, iqtisadiyyatın belə bir tərkibdə uzun müddət saxlanması təhlükəlidir. Dünya bazarına, BƏB sisteminə xammal ölkəsi kimi daxil olan Azərbaycanın sonradan mövqeyini dəyişmək çətindir.Milli iqtisadi inkişafının təcrid olunmuş halda həyata keçirilməsinin qeyri-mümkünlüyü faktı istər-istəməz xarici amillərin tam ciddiliklə nəzərə alınmasını tələb edir. Başqa sözlə, qapalı iqtisadi məkandan dünya təsərrüfatına inteqrasiya edilməsi artıq ümumbəşəri problemə çevrilmişdir. Milli dövlət mənafelərinin birbaşa regional və qlobal mənafelərdən asılılığı isə iqtisadi inteqrasiyanı zəruri bir amilə çevirir. Resursların məhdudluğu və onlara olan tələbatın durmadan inkişafı istənilən cəmiyyəti xarici resursların ölkəyə cəlb olunması üsullarını axtarmağa məcbur edir. Xüsusən bazar münasibətlərinə keçid şəraitində müxtəlif layihələrə investisiya qoyuluşu çox böyük əhəmiyyətə malikdir. Onsuz əsas istehsal fondlarının təzələnməsi, geniş təkrar istehsalı və onunla əlaqədar rəqabət qabiliyyətli məhsul istehsalı, deməli, ölkənin inkişafının sosial-iqtisadi problemlərinin həlli mümkün deyildir.

Milli innovasiya sistemi ümumiyyətlə, yeni bilik və texnologiyaların istehsalı və yayılması prosesinin bütün iştirakçılarının məcmusu və həcminin onların arasında bu proses zamanı təzahür edən münasibətlər məcmusu başa düşülür. Uzun müddət yaşadığımız sosialist təsərrüfatçılığı şəraitində innovasiya sisteminə bir qayda olaraq vahid bir sistem kimi baxılmasından çox onun tərkib hissələrinin dinamikası ayrı-ayrılıqda təmin edilirdi. Elə elmi və elmi-texniki sferaların ayrılıqda götürülməsi elmlə istehsalatın inteqrasiyasını zəiflədən əsas amillərdən biridir.

Mərkəzləşdirilmiş, inzibati-amirlik idarəçiliyi sistemindəki innovasiya sisteminin digər xüsusiyyətlərindən biri bu sistemdə xüsusi mülkiyyətin və ən başlıca xüsusi intelektual mülkiyyətin olmamasıdır. Xüsusi mülkiyyətin olmaması innovasiya fəaliyyətinin motivasiyasının əsasını təşkil edən kommersiya marağının olmaması deməkdir. Ciddi planlaşdırılan təsərrüfat təsərrüfat plan göstəricilərinin yerinə yetirilməsini kommersiya yolu ilə deyil, inzibatçılıq üsulları ilə həyata keçirilməsini təmin edirdi. İnnovasiya fəaliyyətinin aktivləşməsinə mane olan əsas səbəblərdən biri də nazirlik və idarələr arasında daxili mənafelərin üstünlüyü idi.

Milli innovasiya sisteminin yaranmasına mane olan bir sıra amillər də vardır ki, onları aradan qaldırmadan bu sistemin yaradılması mümkün deyil. Belə amillərdən biri ölkədə "mənimsəyici təsərrüfatçılığın" geniş miqyasda mövcudluğu və onun durmadan inkişaf etməsidir.

İkincisi, indiyədək ölkədə nə vahid innovasiya proqramları,nə də innovasiya layihələri üşün güzəştli şərait müəyyən edən mexanizm yaradılmışdır. Bu sahədə münasibətləri tənzimləyən qanunvericilik sənədləri paketi hələ ki yoxdur.

Üçüncü amil kimi respublikada intelektual mülkiyyət obyektlərinin qiymətləndirilməsi sisteminin yaradılmamsını göstərmək olar. Bu da bir tərəfdən özəlləşdirilən obyektlərin qiymətinin süni olaraq aşağı hesablanmasına gətirib cixarır, digər tərəfdən də elmi-tədqiqat müəssisələrinin innovasiya fəaliyyətində iştirakını çətinləşdirir, ona olan marağı zəiflədir.Daha bir amil də respublikada intelektual məhsul bazarının yaradılmasıdır. İntelektual məhsul bazarı milli innovasiya sisteminin yaradılmasının ən başlıca şərtidir.

Təcrübə göstərir ki, ən zəngin təbii resursları olan ölkə belə dünyanın ən səmərəli ideyalarından, elmi-texniki yeniliklərindən, qabaqcıl texnoloji sistemlərindən istifadə etmədən müvəffəqiyyət qazana bilməz. Bu cəhətdən Sinqapurun təcrübəsi diqqətəlayiqdir. Təbii resursları yox dərəcəsində olan Sinqapur xarici əlaqəsiz, dünya inkişaf resurslarından, ən yeni texnika və texnoloji sistemlərindən, informasiya, kommunikasiya texnologiyalarından, dünya elmindən, təcrübəsindən və kapitalından istifadə etmədən inkişaf edə bilməzdi. Dünyaya inteqrasiya etmək Sinqapur hökumətinin birinci dərəcəli işi olmuşdur. Sinqapurda istehsal və sosial infrastruktur sahələri yaratmaq, yollar, körpülər salmaq, aeroportlar inşa etmək, informasiya və kommunikasiya texnologiyaları sistemləri, enerji, kommunal müəssisələr yaratmaq dövlətin işi olmuşdur. Sahibkarlar isə zavodlar, fabriklər yaratmaqla, istehsal məsələləri ilə məşğul olmuşdur.

AZƏRBAYCANDA GÖMRÜK-TARİF TƏNZİMLƏNMƏSİNİN FORMALAŞMASININ ƏSAS İSTİQAMƏTLƏRİ

Məmmədov A.M.
Azərbaycan Dövlət İqtisad Universiteti

Azərbaycan Respublikasının gömrük xidməti, XİF-in tənzimlənməsi, gömrük siyasətinin həyata keçirilməsində mühüm institutdur. Ölkə iqtisadiyyatının idarə edilməsi və inkişafında gömrük-tarif tənzimlənməsi vacib rol oynayır və çoxşaxəli funksiyalara malikdir. Gömrük-tarif tənzimlənməsi daxili bazarı qoruyur, iqtisadi təhlükəsizlik baxımından lazımi məhsulların istehsalı stimullaşdırılır, valyuta ehtiyatlarından səmərəli istifadə olunur və ona nəzarət edilir, dövlət büdcəsinə gəlir gətirilir. Gömrük tarifi və rüsumları dövlətin iqtisadi təhlükəsizliyinin, eləcə də xarici ticarət əlaqələrinin inkişaf etdirilməsinin təmin edilməsində mühüm faktora çevrilir. İdxal gömrük tarifi, XİF-in mərkəzə gömrük tarif tənzimlənmə vasitəsidir. İdxal gömrük tarifi adətən ayrı-ayrı milli iqtisadiyyat sahələrini müdafiə edir və fəal xarici ticarət siyasəti yürütməyə, milli əmtəələrin ixracının formalaşmasına imkan verir.

Bu baxımdan idxal ixrac siyasətinin formalaşması, iqtisadi maraqlarla yanaşı sosial mənafelər və sosial inkişaf, iqtisadi təhlükəsizlik və daxili resursların iqtisadi dövriyyəyə cəlb olunması baxımından hazırlanır və tənzimlənir. İdxal strukturu istehsal və istehlak tələbatı və daxili istehsalm tələbatının ödənilməsində rolundan asılı orlaraq formalaşır. Təbii ki, idxalın məhz istehlak xarakterli olması ölkədən valyutanın getməsinə, ölkənin iqtisadiyyatının öz resursları hesabma inkişafınm zəiflənməsinə və iqtisadi müstəqilliyinin və əmtəə və xidmət bazarının məhz idxaldan asılı olmasma gətirib çıxarır.

İdxal-ixrac siyasətinin konseptual əsaslan gömrük siyasətini, idxalın və ixracın tənzimlənməsində gömrük orqanlannm vəzifələrini və mexanizmlərini müəyyən edir. Belə ki, daxili bazarın və istehlakçılann hüquqlannm qorunmasmda optimal qərar qəbulu məhz elmi proqnozlara əsaslanan və səmərəli inkişaf baxımından seçilən düzgün gömrük vergiləri və rüsumları ilə tənzimlənir.

Azərbaycan Respublikasının gömrük orqanları Azərbaycan Respublikasının gömrük sərhəddindən mövcud valyuta əməliyyatlanndan əldə edilmiş valyuta sərvətlərinin Azərbaycan Respublikasına qaytarılmasına nəzarəti təmin edir. Azərbayban kimi inkişaf etməkdə olan bazar iqtisadiyyatı tam təşəkkül tapmayan bir ölkədə gömrüyün əsas vəzifələri büdcə gəlirlərindən yaranmasında bilavasitə iştirak etmək, imkan düşdükcə milli iqtisadiyyatı xarici rəqabətin hər cür mənfi təsirindən qorunmaqdır. Bu gün Azərbaycanın gömrük siyasətində hər iki istiqamətdə iş aparılır.

Bunun nəticəsidir ki, ölkə iqtisadiyyatı dinamik inkişaf edir. Ümumi iqtisadi inkişafda yeni mərhələyə qədəm qoymuşdur. Büdcə gəlirlərinin formalaşması təmin edildikcə, büdcə kəsri azalır. Qeyri neft sektorunun inkişaf etdirilməsi üçün real zəmin yaranıb.

Ölkə daxilindəki istehsalçılann maraqlarını qorunması üçün cəmi 5 dərəcədən (0,3,5,10,15) ibarət olan differensiallaşdırılmış tarif sistemi qəbul edilmişdir. Bu ölkə daxilində istehsal edilən və ya istehsalmı təşkil etmək mümkün olan mallara yüksək gömrük rüsumları, əksinə yerli istehsalı mümkün olmayan mallara isə aşagı gömrük rüsumları müəyyənləşdirilir.

Amma bu uzun müddətli olmamalıdır. Hər bir ölkədə milli istehsalın inkişafının bir «uşaqlıq dövrü» və müdafiə tədbirləri var. Bu tariflər sistemi özəlləşdirmənin birinci mərhələsindən sonra yaranmış yeni milli istehsalımızın «ayaga durması» onun müdafiəsi üçün vacibdir. Proteksionist tarif sistemi dünyanın hər yerində əgər uzun müddət davam edərsə artıq mənfi nəticələrə gətirib çıxarır. Misal üçün qonşu Türkiyə Respublikasında vaxtı ilə avtomobil sənayesini «ayaga qaldırmaq» üçün protensionist tarif siyasəti həyata keçirməklə avtomobil sənayesini inkişaf etdirmək məqsədilə xarici

avtomobillərin Türkiyəyə gətirilməsi zamanı dəyərin 100%-ə qədər gömrük idxal rüsumu tətbiq edilməyə başladı. Amma bu siyasətin əhatə etdiyi dövr uzandı. Nəticədə son vaxtlar buraxılan türkiyə avtomobilləri öz keyfiyyətinə görə xarici ölkə avtomobillərinə uduzurlar. Protensiomist siyasət yalnız 3-5 il üçün nəzərdə tutulmalıdır. Başqa sözlə protensiomist siyasət total xarakter daşımalı, ölkənin iqtisad təhlükəsizliyi baxımmdan xarici ticarət siyasəti aşagıdakı prinsiplər əsasında qurulmalıdır: tədricilik, differensiallaşdırma və müddətlilik.

Tədricilik prinsipi daha çox xarici ticarətin liberallaşdırılmasma tətbiq edilməlidir. Bu sahədə Azərbaycanda müəyyən işlər görülmüşdür. İxrac gömrük vergiləri ləgv edilmiş, idxal vergilərinin isə səviyyəsi aşagı salınmışdır.

Differensiallaşdırma prinsipi dedikdə, milli iqtisadiyyatın sahələri özlərinin inkişaf səviyyəsinə, daxili və xarici bazarda rəqabət qabiliyyətinə, ölkədəki məşgul əhalinin həmin sahələrdə iştirak səviyyəsinə, istehsalın və malların strateji əhəmiyyət daşımasına görə, əhalinin zəruri istehlakında malların oynadıgı rola görə (xüsusi ilə ərzaq məhsulları) ayrılaraq qruplaşdırılması başa düşülür. İqtisadiyyatın hər hansı konkret sahəsində ölkədəki məşgul əhalinin iştirak payı yüksəldikdə və əhalinin zəruri istehlak mallannda həmin sahənin məhsulları mühüm paya malikdirsə və həm də strateci əhəmiyyət daşıyırsa, onda həmin mallara proteksionist siyasətdə, bu və ya digər məhsullara qarşı yeridilən proteksionist siyasətin uzun müddətli olmaması, konkret müddətinin göstərilməsi nəzərdə tutulur.

Hal-hazırda beynəlxalq təcrübəyə uygun olaraq XİF-in gömrük-tarif tənzimlənməsi tədbiri kimi differensiallaşdırılmış tarif sisteminə uygun oalraq Azərbaycan Respublikasmın gömrük tarifi müəyyən edilmiş, Nazirlər Kabineti ilə «Azərbaycan Respublikasmın ərazisinə gətirilən mallar üzrə gömrük idxal rüsumlannm dərəcələri», «Azərbaycan Respublikasmdan ixrac zamanı ixrac gömrük rüsumuna cədb olunan malların ixrac gömrük rüsumuna cəlb olunan malların siyahısı və ixrac rüsumlarının dərəcələri» və «Gömrük rəsmiləşdirilməsinə görə alınan gömrük yıgımlarınm miqdarı» təsdiq edilmişdir.

Differensiallaşdırılmış tarif sisteminə uygun olaraq bu gün bəzi məhsullara ixrac rüsumlannın tətbiq edilməsi məqsədəuygun hesab edilmişdir. Müxtəlif istehsal sahələrinin yaranması, həm də belə müəssisələrin ölkə daxilindəki xammalla təmin edilməsi problemini ortaya qoyur. Məsələn, bu gün poladəritmə - «Bakı Steel Company», əlvan metalldan məmulatların hazırlanması istiqamətində müəyyən istehsal sahələri qurulmuşdur. Bunların isə yerli xammalla təmin olunması daha çox səmərə verə bilər.

ЗАРУБЕЖНЫЙ ОПЫТ РЕГУЛИРОВАНИЯ РЫНКА ТРУДА

Набиева И.М.
Азербайджанский государственный экономический университет

Многие зарубежные страны формируют новые подходы к регулированию национальных рынков труда и сферы занятости в постоянно изменяющихся условиях глобальной экономики.

Поэтому для Азербайджана важной задачей становится изучение опыта развитых стран в данной области и, в частности, европейских государств, применяющих помимо традиционных, сложившихся в течение всей истории развития рыночной экономики, совершенно новые подходы к пониманию, оценке перспектив и разработке политики государственного регулирования рынка труда в период кризисного и посткризисного развития.

Европейские страны отличаются большим разнообразием в подходах к регулированию сферы занятости и рынка труда. Так, во Франции, Германии и Скандинавских странах действует достаточно жесткое трудовое законодательство, строго регулирующее взаимоотношения между работодателями и наемными работниками в вопросах найма, увольнения и условий работы.

Система социального страхования является весьма развитой и обеспечивает реализацию государственных гарантий в отношении граждан, оставшихся без работы, пенсионеров, инвалидов, матерей и т.д. В этих странах существуют развитые системы профессиональной подготовки и переподготовки безработных и работающих граждан.

Государственное регулирование рынка труда в странах ЕС, в том числе в Германии, направлено на реализацию активной политики на рынке труда, о чем свидетельствует разработка стратегии «взаимных обязательств» безработных и государства, предполагающей, что эффективные услуги государства по возвращению безработных к занятости комбинируются с

разработкой мер по стимулированию безработных к поиску работы, что расширяет предложение на рынке труда.

Разработанные в Германии государством мероприятия в рамках данной концепции способствовали реформированию Федерального агентства занятости; объединению выплат по безработице и социальной помощи; созданию агентств по оказанию персональных услуг безработным; учреждению выплат средств на самостоятельную профессиональную деятельность. В целях борьбы с теневой занятостью в рамках «мини-работ» (оплата менее 400 евро в месяц) и «миди-работ» (400-800 евро в месяц) разработан механизм частичного освобождения от уплаты налогов, что привело более чем к двукратному увеличению спроса и предложения в данном сегменте на рынке труда.

Страны Северной Европы (Швеция, Финляндия, Норвегия) характеризуются созданием широкой системы социальной поддержки для всех граждан, финансируемой за счет общих доходов государства, а не за счет индивидуальных взносов.

Цель этой системы состоит в том, чтобы уменьшить неравенство и несправедливость на основе равного доступа к базовым социальным благам. Активная политика государства в области занятости в таких странах, как Швеция и Норвегия, делает основной упор на меры по предупреждению безработицы в сочетании с поддержкой безработных. Политика занятости в этих странах включает в себя четыре основных элемента:

1) ограничительную фискальную политику, которая направлена на поддержку менее прибыльных предприятий и сдерживание прибыли высокодоходных компаний для снижения инфляционной конкуренции между ними в повышении заработной платы;

2) политику солидарности в заработной плате, которая преследует цель достижения равной оплаты за равный труд независимо от финансового положения предпринимателя или отраслевой принадлежности фирмы;

3) стимулирование создания новых рабочих мест, а также центров по подготовке и переобучению кадров;

4) селективную (выборочную) поддержку в секторах экономики, имеющих низкие экономические показатели, но при этом обеспечивающих решение важных социальных задач.

В отличие от стран континентальной Европы, регулирование рынка труда в Великобритании осуществляется с минимальным участием государства и профсоюзов. Система социального страхования в этой стране предоставляет широкие возможности для поддержания уровня доходов в период безработицы. Пособия, выдаваемые государством гражданам, предоставляются в рамках государственной программы национального страхования, которая финансируется главным образом за счет обязательных страховых взносов со стороны работодателей и наемных работников. Выплаты по безработице осуществляются в течение одного года за счет страховых взносов потерявшего работу гражданина и активно ищущего новое занятие. По истечении года безработный может получать социальные выплаты, которые значительно меньше пособия.

Примечательно, что Великобритания еще в 1988 г. отказалась от финансирования проектов по созданию новых рабочих мест, направив эти средства на реализацию активных действий на рынке труда.

MÜSTƏQİLLİK İLLƏRİNDƏ AZƏRBAYCAN İQTİSADİYYATININ VƏ İXRACININ DİVERSİFİKASİYASI SİYASƏTİ

Abdullayeva L.B.
Azərbaycan Dövlət İqtisadiyyat Universiteti

İqtisadi diversifikasiyaya belə bir açılış vermək olar: iqtisadi diversifikasiya geniş çeşiddə məhsulların iqtisadiyyatda istehsal edilməsi prosesi kimi nəzərdən keçirilir. İxracın diversifikasiyası isə mövcud ixrac səbətindəki ayrı-ayrı malların xüsusi çəkisini dəyişməyə, ixrac səbətinə yeni əmtəələr təklif etməyə və yeni coğrafi bazarlara çıxışı nəzərdə tutan siyasətlərin məcmusudur. İqtisadi diversifikasiya siyasətinin əsas elementləri bunlardır: kapital, rəqabətli bazarlar, infrastruktur təminati, xarici kapitalın hərəkətində və ticarətdə sərbəstlik, institusional islahatlar və makroiqtisadi sabitlik.

2011-ci ilin yekunlarına əsasən Azərbaycanda ÜDM-in 51,7%-i, ümumi ixracın 92%-i, büdcə gəlirlərinin 70%-i, ümumi investisiya qoyuluşlarının 25%-ə yaxını neft sektorunun payına düşür. Təbii qaz ixrac imkanlarının getdikcə artması ilə bütövlükdə ölkə iqtisadiyyatı karbohidrogen ehtiyatlarının istismarından asılı hala düşür. Azərbaycan iqtisadiyyatının iqtisadi artım, ümumi daxili məhsul, ixrac və büdcə gəlirləri kimi aparıcı iqtisadi parametrlər üzrə neft-qaz sektorundan asılılığı və iqtisadi ixrac diversifikasiyasına nail olmağın önəmi nəzərə alınmaqla artırılmalıdır.

Bu məqsədlə Azərbaycanda Revenue Watch Institute tərəfindən müəyyən edilən vahid metodoloji yanaşma və struktur əsasında "İqtisadiyyatın və ixracın diversifikasiyasının qiymətləndirilməsi" tədqiqatı aparılıb. Tədqiqatda ilk növbədə Azərbaycanın makroiqtisadi mühit amilləri ətraflı təhlil edilmişdir. Daha sonra iqtisadi və ixracın diversifikasiyası ilə əlaqəli qanunvericilik, iqtisadi diversifikasiyaya yönəlik strategiya və proqramlar, Azərbaycan iqtisadiyyatının diversifikasiyasına həsr olunan sənədlər araşdırılmış və yekunda ölkədə iqtisadi diversifikasiyaya maneə olan faktorlar üzə çıxarılmışdır. Araşdırma zamanı iqtisadi və ixrac diversifikasiyasının ölçülməsi indikatorları kimi aşağıdakılar nəzərdə tutulub: 1. Təbii resurslardan asılılıq indikatorları; 2. İqtisadi diversifikasiya indikatorları; 3. İxrac diversifikasiyası indikatorları; 4. Məhsul təkmilliyi indikatorları.

İqtisadiyyatın və ixracatın diversifikasiyası ilə əlaqəli qanunvericilik 1990-cı illərin sonlarından 2010-cu ilədək Azərbaycanda iqtisadiyyatın və ixracatın şaxələnməsinə təsir göstərə biləcək 20-dən artıq qanun qəbul edilib. Bunların arasında kiçik sahibkarlığa dövlət köməyi; maliyyə-sənaye qrupları; xüsusi iqtisadi zonaların yaradılması və kənd təsərrüfatı məhsulları istehsalçılarına müddətli vergi güzəştlərinin verilməsi haqqında qanunları xüsusi qeyd etmək gərəkdir. Bu qanunlar ümumi iqtisadi səviyyədə iqtisadi şaxələnmənin təməlini yaratmaq üçün önəmli sayılır.

İqtisadi diversifikasiyaya yönəlik strategiya və proqramlar 2000-2010-cu illər ərzində Azərbaycan hökuməti qeyri-neft sektorunun və regionların inkişafı, yoxsulluğun azaldılması ilə əlaqəli bu proqramları qəbul edib: 1) Ərzaq təhlükəsizliyi Proqramının əsas məqsədi kimi yerli kənd təsərrüfatı məhsulları istehsalının artırılması və ölkədə ərzaq bolluğunun yaradılması göstərilir. 2) 2002-2006-cı illərdə aqrar bölmənin inkişafına dair Proqramın əsas məqsədi kimi aqrar sektorun inkişaf etdirilməsi, torpaqların münbitliyinin artırılması, rəqabətqabiliyyətli məhsul istehsalının təmin edilməsidir. 3) 2003-2012-ci illər üzrə informasiya və kommunikasiya texnologiyalarına dair Milli Strategiyanın başlıca məqsədi kimi informasiya və kommunikasiya texnologiyalarından geniş istifadə etməklə ölkənin demokratik inkişafının və informasiya cəmiyyətinə keçidin təmin edilməsidir. 4) 2002-2005-ci illərdə turizmin inkişafına dair Dövlət Proqramında əsas məqsəd kimi qeyri-neft sektorunun mühüm sahələrindən biri olaraq turizmin inkişafı, ölkənin turizm resurslarından səmərəli istifadənin təmin olunması müəyyən edilmişdir. 5) Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı iqtisadiyyatın müxtəlif sahələrinin inkişafı, həmçinin sosial və kommunal infrastrukturun yenidən qurulması əsasında regionlar arasında tarazlı inkişafın təmin edilməsini qarşıya əsas məqsəd kimi qoymuşdur. 6) Neft və qaz gəlirlərinin 2005-2025-ci illərdə idarə olunması üzrə uzunmüddətli strategiya 20 il ərzində neftqaz gəlirlərindən istifadənin əsas prinsiplərini və ortamüddətli xərclər siyasətini müəyyənləşdirir. Hökumət neft-qaz gəlirlərini iqtisadiyyatın qeyri-neft sektorunun, regionların, kiçik və orta sahibkarlığın, infrastruktur sahələrin inkişafına yüksək ixtisaslı kadrların hazırlanmasına yönəltmisdir.

2003-2010-cu illərdə Azərbaycan Prezidenti İlham Əliyev rəsmi çıxışlarında dəfələrlə iqtisadi diversifikasiyanın önəmi və qeyri-neft sektorunun inkişafı məsələlərinə toxunub. Prezidentin çıxışlarının təhlili göstərir ki, burada iqtisadi diversifikasiya əsasən neft gəlirlərinin dövlət investisiya proqlamları vasitəsilə qeyri-neft sektoruna yatırılması ilə əlaqələndirilir."Neft sənayesindən əldə edilən gəlirlərin ağılla və böyük səmərə ilə qeyri-neft sektoruna yatırılması nəticəsində Azərbaycanda kənd təsərrüfatı, tikinti, emal sektoru sürətlə inkişaf edir. Bu gün biz artıq ərzaq təhlükəsizliyinin böyük hissəsini həll etmişik".

BANK SISTEMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ VƏ RƏQABƏT QABİLİYYƏTİNİN ARTIRILMASI YOLLARI

Niftiyev İ.M.
Azərbaycan Dövlət İqtisad Universiteti

Müstəqilliyin əldə edilməsi ilə Azərbaycan Respublikasında bazar iqtisadiyyatı prinsiplərinin tətbiqi və qloballaşma prosesində aktiv iştirak prosesləri başlamışdır. Bu proseslər bir çox hüquqi və

inzibati tənzimləmələr, özəlləşdirmə proqramları və beynəlxalq təşkilatlara üzvlük ilə davam etmişdir. Aparılan bir çox islahatlar sırasında mərkəzi bank, pul və kommersiya bankları ilə əlaqədar tədbirlər xüsusilə əhəmiyyətlidir.

Müstəqilliyin ilk illərindən başlayaraq aparılan islahatlar nəticəsində Azərbaycan Respublikasının bank sistemində olduqca əhəmiyyətli işlər görülsə də, sistemin təkmilləşdirilməsi üçün görüləcək işlər kifayət qədər çoxdur. Biz bunu qısa, orta və uzunmüddətli prioritetlər fonunda təhlil edə bilərik.

Yaxın müddətdə xüsusiylə hüquqi baza, problemli kreditlər, banklarda hələ də tətbiqini tapmayan risk menecmenti və daxili idarəetmənin auditi mexanizmləri kimi məsələlər prioritet təşkil etməldir. Eyni zamanda qısa müddət ərzində antiböhranlı idarəetmə və beynəlxalq maliyyə və bank təşkilatlarının təcrübəsinin öyrənilib tətbiqi ilə əlaqədar proqram və layihələr icra edilməlidir.

Orta müddətli prioritetlərə əsasən rəqabət mühitinin yaxşılaşdırılması, bazar mexanizmlərinin iş prinsiplərinin daha effektiv və şəffaf vəziyyətə gətirilməsi, insan resursları və texnoloji infrastrukturun inkişaf etdirilməsi daxildir.

Uzunmüddətli prioritetlər baxımından isə bank sisteminin maliyyə təhlükəsizliyinin təmin edilməsi ilə əlaqədar tədbirlərin görülməsini nümunə vermək olar. Çünki qeyri-sabit bank sistemi ölkə iqtisadiyyatı üçün böyük riskdir.

Bütün bunlarla yanaşı Azərbaycan bank sektorunun xüsusiylə ehtiyac duyduğu məsələlərə strateji idarəetmənin vacib hissəsi olan rəqabət qabiliyyətinin yaxşılaşdırılması tədbirləri rəhbərlik edir.

Zəruri rəqabət mühitinin təmin edilməsində həm dövlətin, həm də subyektlərin böyük rolu vardır. Dövlətin rolu rəqabət üsul və metodlarının qanunvericilik çərçivəsində müəyyənləşdirilməsini tənzimləməkdir. Əgər dövlət inzibati və normativ metodlarda rəqabəti tənzimləməsə, haqsız rəqabət və inhisarçılığın yaranması qaçılmaz olur ki, bu da dövlətin milli iqtisadi maraqlarına bilavasitə ziddiyət təşkil edən vəziyyətlə nəticələnə bilər.

Azərbaycan bank sektorunun da rəqabət analizi göstərir ki, rəqabət mühitinin yaxşılaşdırılması üçün bəzi tədbirlər lazımi keyfiyyətdə aparılmır. Mütəmmadi olaraq müvafiq sektorun monitorinqi aparılması və rəqabət indeksasiyası aparılmalıdır ki, bazara giriş və çıxış əngəlləri, haqsız rəqabət halları, inhisar vəziyyəti və təmərküzləşmə aşkarlansın. Bu funksiyanı yerinə yetirməkdə dövlətin üzərinə böyük vəzifələr düşür. Bu vəzifələrin lazımi səviyyədə icra edilməsi sahibkarlıq mühitinin yaxşılaşdırıması üçün həlledici tədbirlər məcmusunun əsas hissəsidir.

Rəqabət analizi Azərbaycanın bank sektoru üçün müstəsna əhəmiyyət kəsb edir. Qloballaşan dünyanın bank və maliyyə sisteminə uyğunlaşaraq iqtisadiyyatın hərtərəfli inkişafına zəruri şəraitin yaradılması heç də sadə proses deyil.

Azərbaycan bank sektorunun ümumi iqtisadi konyunkturdan asılı olaraq təsirləndiyi bəzi nüanslar var ki, onlar da rəqabət mühitinin və qabiliyyətinin yaxşılaşdırılmasını zəruri edir: neft gəlirlərindən asılılıq; ilbəil sabit qalmayan nizamnamə kapitalı; aşağısəviyyəli depozit miqdarı və s.

Ümumilikdə isə bank sistemində ən əsas kapital güvəndir. Azərbaycan cəmiyyətinin üzvləri son illərdə yüksək depozit faiz dərəcələrinin verdiyi stimul ilə həvəslənib kommersiya banklarına investisiyalar etsələr də, yenə də cəmiyyətin böyük hissəsində qənaət edilmiş gəlir əsasən evlərdə saxlanılır. Bu da iqtisadiyyatın investisiyalaşma dərəcəsini aşağı salır. Bu baxımdan bank sistemi və maliyyə bazarlarının inkişaf etdirilməsi öz aktuallığını itirmir.

RƏQABƏT STRATEGİYALARININ HAZIRLANMASINDA NƏZƏRİ ƏSASLAR VƏ METODOLOGİYALAR

Niftiyev İ.M.
Azərbaycan Dövlət İqtisad Universiteti

Rəqabət iqtisadi nəzəriyyənin ən əsas anlayışlarından birisi olub, Adam Smitdən bu günkü günümüzə qədər iqtisadi təhlillərdə ən əsas faktorlardan hesab olunmaqdadır. Qloballaşan dünyanın özüylə birlikdə gətirdiyi yeni imkanlar və bazar iqtisadiyyatının bu anlayışı qabardması, rəqabət anlayışına daha da əhəmiyyət qatmışdır.

Rəqabət anlayışının iqtisadi müstəvidə bir neçə klassik tərifi olsa da, ümumi olaraq universal xarakterli bu tərifdən istifadə etmək məqsədəuyğundur: rəqabət iki və ya daha çox tərəfin bir-birinə üstünlük etmək cəhdləri ilə müəyyən resursu əldə etmək cəhdlərinin məcmusudur.

Strategiya və rəqabət anlayışları əsasən 1940-cı illərdən etibarən birlikdə işlədilməyə başlandı. İlk öncə bu fenomen fərdi yanaşma tərzi əsas götürüldü və bir-biri ilə mübarizədə üstünlük qazanmaq istəyən iki şəxsin davranışlarının təhlili fonunda qiymətləndirildi. Qısa müddətdən sonra isə rəqabət strategiyaları firmaların mənfəətin maksimumlaşdırılması probleminin həllinə böyük tövhələr verməyə başladı. Belə ki, bazar payının artırılması və fasiləsiz olaraq dəyişən mühitdə varlığını qorumaq və gəlir əldə etmək üçün yeni və daha inkişaf etmiş sistemli yanaşmalara ehtiyac yarandı.

Müasir biznes dünyasının ən məşhur rəqabət analitiki, Harvard Biznes Məktəbinin nümayəndəsi Maykl Porter (Michael Porter) rəqabət strategiyalarına belə tərif verir: Rəqabət strategiyası hər hansısa sektorda üstünlüyün əldə edilməsi üçün aparılan araşdırmaları əhatə edir. Rəqabət üstünlüyü isə sektordakı beş giriş maneəsi ilə: mövcud firmalararası rəqabətin şiddətlənməsi, alıcılar, tədarükçülər, əvəzedici firmalar və sektora yeni girən firmalarla mübarizə üçün lazımdır. Porter rəqabət üstünlüyünü təmin edən əsas üç növ rəqabət strategiyasını müəyyən etmişdir: maya dəyəri liderliyi, fərqliləşdirmə və bu iki iki strategiya bazisində bazarın sadəcə müəyyən hissəsini hədəf alan fokuslanma strategiyaları. Bu üç rəqabət strategiyası növü rəqabət strategiyalarının hazırlanmasında uzun müddətdir ki nəzəri əsas mövqeyini qoruyub saxlamışdır.

Maya dəyəri liderliyi 1970-ci illərdə geniş tətbiq edilirdi. Bu strategiya özündə ümumi xərclərin minimuma endirərək funksional siyasətlərlə maya dəyərinin aşağı səviyyəsi sayəsində rəqiblər qarşısındakı üstünlüyünü ehtiva edir. Fərqliləşdirmə strategiyası təqdim edilən məhsul və ya xidmətin xüsusiləşdirilərək nə isə yeni və bənzərsiz əmtəənin təqdim edilməsini ifadə edir. Bu özünü məhsulun dizaynında, müştəri xidmətlərində və s. kimi nüanslarda göstərə bilər. Fokuslanma isə hər hansısa bazar payına və ya məhsul qrupuna diqqətin ayrılmasını və digər müxtəlif strategiyalarla dəstəklənərək rəqabət strategiyasının hazırlanmasıdır.

Porterin strategiyaları hər hansısa sektorda rəqabət üstünlüyü qazanmaq üçün ümumi modellər təklif edir. Bu modellər rəqibləri başa düşmək, analiz etmək və planlaşdırma prosesləri üçün bünövrə statusundadır.

Müasir iqtisadi tələblər şirkətlərin qarşısına daha da böyük məqsədlər qoyur. Bu məqsədlərə nail olmaq üçün biznes subyektləri müxtəlif növ kapitallarını strateji üstünlüyə çevirmək üçün çalışırlar. Bu da öz növbəsində rəqabət stretegiyalarının hazırlanmasında daha yeni və elmi yanaşmaların işlənib hazırlanması üçün nəzəriyyə və metodologiyaların hazırlanmasını qaçılmaz edir.

Firmalara rəqabət üstünlüyünü təmin edən ümumi və xüsusi strategiyalar sektor analizi ilə dəstəklənərək, rəqabət strategiyalarının hazırlanması üçün zəruri olan metodologiyaların tərkib hissəsinə iştirak etməlidirlər. Belə ki, sektor analizi mövcud vəziyyətin təhlil edilərək sektorun miqyasının və inkişaf potensialının müəyyənləşdirilməsi prosesidir. Sektor analizinin həyata keçirilməsi üçün də müvafiq olaraq sektor strategiyaları hazırlanır.

Müasir iqtisadiyyat rəqabət anlayışını həm idarəetəmə, həm də iqtisadi müstəvidə olduqca əhəmiyyətli olduğunu qeyd edir. Sektor analizi ilə dəstəklənən rəqabət strategiyaları günbəgün dinamik surətdə dəyişən biznes dünyasına uyğunlaşmaqda firmalara böyük kömək edir. Bu baxımdan rəqabət strategiyalarının hazırlanmasında yeni nəzərəi-metodoloji yanaşmaların hazırlanması müasir biznes məktəblərinin əsas məqsədlərinə çevrilmişdir.

ƏHALİ GƏLİRLƏRİNİN FORMALAŞMASI VƏ TƏLƏBAT SİSTEMİNDƏ ROLU

Mirzəyeva N.A.
Azərbaycan Dövlət İqtisad Universiteti

Əhali gəlirləri ölkədə yaradılan ümumi daxili məhsulun əhaliyə çatan,verilən,müxtəlif istiqamətlərdə bölünən hissəsi olmaqla alıcılıq qabiliyyətini,yəni tələbatın ödənilən hissəsini və real istehlak səviyyəsini formalaşdırır. Bu baxımdan müxtəlif aspektdən öyrənilir və tənzimləmə mexanizmi kimi istifadə olunur. Bölgü və yenidən bölgü sistemini və istehlak sferasını formalaşdırır.Gəlirlər sahibkarlıq mülkiyyəti baxımından dövlət gəlirlərinə,müəssisə,şirkət gəlirlərinə və əhalinin gəlirlərinə bölünür. Dövlətin gəlirləri ayrı-ayrı sahələrin gəlirlərindən ibarətdir, onların məcmuudur.Dövlət gəlirləri xalis gəlir olub mahiyyətcə dövlətin və əhalinin gəlirlərini formalaşdıran dəyər göstəricisidir. Dövlətin gəlirlərinin əsas göstəricisi, mənbəyi il ərzində istehsal olunmuş istehsal vasitələrinin və istehlak şeylərinin həcmi, onların qiyməti təşkil edir. Bu məhsulların reallaşması nəticəsində ümumdaxili məhsul formalaşır və ümumdaxili məhsulun dəyərindən istehsal vasitələri və material məsrəflərinin dəyəri

çıxıldıqda milli gəlir formalaşır. Milli gəlir cəmiyyətin istehsal və istehlak tələbatını ödəyən, həyat səviyyəsini formalaşdıran sintetik ümumiləşmiş gəlir göstəricisidir. Milli gəlirin artırılması istehsal və sosial təyinatlı tədbirlərin həyata keçməsinə şərait yaradır. Dövlət gəlirləri ÜDM-in 60-70%-ni təşkil etməklə müxtəlif sahələrin fəaliyyətinin və iqtisadi əlaqələrin təşkili nəticəsində il ərzində dövlətin sərəncamında ola bilən gəlirlərdir.Bu məbləğ nə qədər çox olarsa,bir o qədər milli gəlir,xalis gəlir,dövlət gəliri və əhali gəlirləri formalaşır.Əhali gəlirləri bölgü və yenidən bölgü sistemi nəticəsində müxtəlif mənbələr hesabına dəyişir.Bütövlükdə götürsək,gəlirlər əməyə görə və tələbata görə bölgünün nəticəsi olaraq ailənin,əhalinin hər nəfərinə düşən,istifadə oluna bilən məcmu gəlirlərdir.Əhalinin məcmu gəlirləri pul gəlirləri,natural gəlirlər,pulsuz xidmətlər və müxtəlif sosial müdafiə yolu ilə istehlak olunan maddi və mənəvi nemətlərin xərclərinin dəyəri ilə formalaşır.Beləliklə,məcmu gəlirlər birbaşa və dolayı,bölgü və yenidən bölgü mexanizmləri vasitəsilə ayrı-ayrı sosial təbəqələrin,regionların əhalisinin və müxtəlif fərdi insanların gəlirlərinə bölünür.Məcmu gəlirlər məcmu tələbatla tarazlaşır.Məcmu gəlirləri ölçməklə,təyin etməklə onların reallaşması üçün istehsal tələbatı, idxal-ixrac və istehlak sferası tənzimlənir. Ədəbiyyatlarda daha çox tənzimlənmə baxımından nominal gəlirlərə yer verilir. Milli gəlirin bölgüsündə əhalinin payını müəyyən edən gəlir səviyyəsi nominal gəlirlər adlanır. Nominal gəlirlər il ərzində əhalinin sərəncamına düşən bütün mənbələr hesabına formalaşan gəlirlərdir.

Əmək haqqı,təqaüdlər,yardımlar,qiymətləndirilmiş,hesablanmış pulsuz xidmətlər nominal gəlirlərin əsas mənbəyidir. Nominal gəlirlər nominal əmək haqqını və orta aylıq pensiyanı,daimi müavinətləri özündə əks etdirir.Nominal gəlirlər sahibkarın və əhalinin xərclərini ödəmək üçün ilkin bölgü yolu ilə əldə olunan gəlirlərdir. Lakin nominal gəlirlərin yenidən bölgüsü baş verir. Nominal gəlirlərin yenidən bölgüsü maliyyə-kredit, bank, qiymət sisteminin bölgüsü prosesində rolu ilə baş verir. Belə ki, dövlət nominal gəlirlərdən vergi vasitəsilə özünü ümumi cəmiyyətin tələbatını ödəmək üçün yenidən özünə qaytarır, qiymət və maliyyə vasitəsilə iqtisadi subyekt kimi yenidən bölgüdə iştirak edir. Beləliklə, bazar iqtisadiyyatı şəraitində təsərrüfatçılıq fəaliyyətlərini liberallaşdırılması bütün iqtisadi subyektlər kimi dövlətin də yenidən bölgü prosesində gəlirlərini artırmaq üçün iştirakı zəruri prosesdir. Bu mexanizmlər vasitəsilə gəlirlərin yenidən bölgüsü baş verir. Dövlətlə əhali, müəssisələr və əhali qrupları arasında nominal gəlirlərin bir subyektdən başqa subyektə axını baş verir. Beləliklə, potensial imkanları olan subyektlərin real alıcılıq qabiliyyəti və tələbatı məhdudlaşır. Tənzimləmə nöqteyi nəzərindən məhz yenidən bölgü hesabına formalaşan gəlirlərin qiymətləndirilməsi onun istehlaka təsirinin öyrənilməsi, hesablanması və sonra isə proqnoz tədbirlərində nəzərə alınması əhəmiyyətlidir.

Əhali gəlirlərinin təhlili onun struktur dəyişməsi ilə müəyyənləşir. Struktur təhlil gəlirlərin mənbələri, normaları və sosial demoqrafik qrup əhalisi üzrə dəyişmə dinamikası ilə müəyyənləşir. Aşağidakı mənbələr hesabına gəlirlərin əsas həcmi və strukturu formalaşır.

- Əmək haqqı gəlirləri;
- Sahibkarlıqdan əldə olunan gəlirlər;
- Kənd təsərrüfatı məhsullarının istehsalı və istehlakından olan gəlirlər;
- Sosial müdafiə sistemindən əldə olunan pul vəsaitləri və yardımlar (transfert gəlirləri) ;
- Əmanətlərin azalması və artması nəticəsində əldə olunan gəlirlər.

Qeyd etdiyimiz gəlirlərin növlərində bölgü münasibətlərini daha çox şərh edən əməyə görə əmək haqqı gəlirləridir.Əmək haqqı gəlirləri müxtəlif sahələrdə,təsərrüfatlarda müxtəlif formada özünü formalaşdırır. Müqavilə formasında,nominal əmək haqqı formasında,görülən işin kəmiyyəti formasında verilən haqqdır. Əmək haqqı da uyğun olaraq real və nominal əmək haqqına bölünür. Nominal əmək haqqı ay ərzində sahibkarla işçi arasında müəyyən tariflərə uyğun verilən haqqdır. Real əmək haqqı isə alıcılıq qabiliyyətidir,yəni həmin pula istehlak olunmuş maddi və mənəvi nemətlərin təcəssümüdür.

Real gəlirlər əhalinin həyat səviyyəsinin göstəricisidir.Tələbatın ödənilmə dərəcəsini ifadə edir.Real gəlirlər istehlak səbətinin,istehlakın strukturunun,istehlaka təsir edən amillərin dəyişməsi ilə formalaşır və dəyişir. Belə ki,təbii coğrafi şərait,demoqrafik tərkib,peşə sənəti,iş xüsusiyyətləri real gəlirləri formalaşdırır. Real gəlirlər artdıqca,strukturunu dəyişdirdikcə keyfiyyətli həyat tərzi formalaşır. Dövlətin real gəlirlərə təsiri qiymət siyasəti,qiymətlərin aşağı düşməsi və ya qalxması,vergilərin azaldılması, nominal gəlirlərin artırılması ilə mümkündür. Real gəlirlərin formalaşmasına təsir edən amillər aşağıdakılardır:

- Nominal gəlirlərin səviyyəsi;
- Qiymət amili;
- Əhalinin yığımı,əmanətlərin artım səviyyəsi;
- Vergilər,ödəmələr,rüsumlar və s.

Sahibkarlıq gəlirləri tələbata və istehlaka təsir edir.Sahibkarlıq gəlirləri sahibkalığın obyekti,mülkiyyət münasibətinin formasından və təsərrüfatçılıq növündən asılıdır.Sahibkarlıq gəlirləri son illərdə bütün bazar iqtisadiyyatı ölkələrində, o cümlədən Azərbaycanda öz xüsusi çəkisinə və artım tempinə görə digər gəlirləri qabaqlayır.60%-ə qədər gəlirlərin payını sahibkarlıq gəlirləri təşkil edir.Təsərrüfat formalarına görə fermer təsərrüfatları,sənaye müəssisələri,ailə təsərrüfatı sahibkarlıq gəlirlərinin obyektidir.Sahibkarlıq gəlirləri birbaşa sosial inkişafın,tələbatın və istehlakın amilidir.Burada insanın əməyi formalaşır,yəni işçi qüvvəsi meydana gəlir və natural istehlaka təsir edir,yəni kənd təsərrüfatı məhsulları istehsal edir,xidmət yaradır,ailənin gündəlik və perspektiv tələbatını formalaşdırır və ödəyir.Özəl sektorun inkişafı bəzi sahələrdə 85-90% təşkil edir.Özəl sektorun həm tələbata,həm də istehlaka təsiri onun yaratdığı mənfəət dövlət vəsaitləri arasındakı gəlirlərin bölgüsü,yenidən bölgüsü,vergi,ödəmələr,rüsumlar yolu ilə baş verir.Sahibkarlar dövlət büdcəsinin formalaşmasında öz xalis gəlirlərinin bir hissəsini dövlətə keçirir,digər hissəsi xalis mənfəət şəklində içşilərlə material xərcləri arasında bölünür,daha sonra isə ailənin gəlirləri formalaşır. Sahibkarlıq gəlirlərinin artırılması yolu perspektiv idarəetmənin ən səmərəli və konseptual yoludur. Sahibkarlığı inkişaf etdirməklə məşğulluq həll olunur, gəlirlər formalaşır, istehlak bazarında əmtəə və xidmət xüsusi inkişaf edir, artır. Beləliklə,sahibkarlığın inkişafı ölkədə maliyyə-büdcə və tənzimləmə sisteminin tərkib hissəsi sayılır.

Transfert gəlirləri isə pensiyaların, müavinatların artırılması ilə artır. Transfertlərin maliyyə mənbəyi dövlət büdcəsidir və müəssisələrin hüquqi və fiziki şəxslərin sosial müdafiə fonduna məcburi sosial sığorta ödəmələridir: 22%+3% (22% sosial sığorta fonduna,3% isə hər nəfərə).

Əhali gəlirlərinin dinamikasında əmanətlər xüsusi rol oynayır. Əgər əmanətlərin miqdarı artırsa o xərc strukturunda oturmur, əks halda əmanətlər azalırsa o xərc strukturunda oturur. Deməli, əhalinin əmanətləri xərc baxımından, fikrimizcə, gəlir kimi qəbul edilə bilər. Qeyd edək ki,əmanətlər keçmiş illərin yığılmış vəsaiti olduğuna görə istifadə olunan ili,yəni reallaşan ili istehlakda özünü əks etdirdiyinə görə həmin ilin cari gəlirləri hesabına daxil olunur.Bu da ona görə edilir ki,istehlak bazarı alıcılıq qabiliyyətinə uyğun tənzimlənsin,faktiki tələbat nəzərə alınsın. Məcmu tələblə məcmu təklif tarazlaşdırılır. Ticarət, əmtəə, xidmət sferası,idxal-ixrac idarə olunur,tənzimlənir.

İŞSİZLİYİN GÖSTƏRİCİLƏRİ VƏ ONUN DİNAMİKASINI MÜƏYYƏNLƏŞDİRƏN AMİLLƏR

Mustafayev A.M.
Azərbaycan Dövlət İqtisad Universiteti

Tsikliklikdən başqa iqtisadi tarazlığı pozana miLli şsizlikdir. İş yerini itirmək təhlükəsi hər bir yaşlı adamın həyatında ciddi problemdir. İnsanların çoxu üçün əmək haqqı yeganə gəlir mənbəyidir və bundan başqa, iş mənəvi məmnunluq da verir. Çünki işləmək istəyən, lakin belə imkandan məhrum olan adamlar əmtəə və xidmətlərin artırılmasına öz töhfələrini verə bilmirlər, ölkədəki işsizlərin sayı ölkədə kif irəvanlığın aşkar göstəricisidir.

İşsizlik mürəkkəb çox səpkili hadisədir.“İşsizlik” məfhumu ilk dəfə 1911-ci ildə Britaniya ensiklopediyasında, sonar isə 1915-ci ildə ABŞ-ın Əmək Nazirliyinin hesabatında işlədilmişdir. Hazırda işsizlik müxtəlif həcmlərdə, formalarda, müddətlərdə olmaqla dünyanın bütün ölkələrində var.

Məşğulluq və issizlik vəziyyətini aşağıdakı statistik göstəricilər səciyyələndirir:

- Qeyri-institusional əhali $M_{qiə}$;
- Məşğulların miqdarı M_m ;
- İşsizlərin miqdarı M_i ;
- İş qüvvəsi tərkibinə daxil olmayanların miqdarı M_{qiq};

İşsizliyin yayılmasının göstəricisi işsizliyin iş qüvvəsini əhatələnməsini səciyyələndirir. İşsizliyin müddəti göstəricisi bir işsizlik halının orta müddətini səciyyələndirir. Orta hesabla ABŞ-da, məsələn, qısa müddətli işsizlik beş həftədən az, uzunmüddətli isə altı aydan çox çəkir.

İşsizliyin səviyyəsinin dəqiq qiymətləndirilməsi aşağıdakı amillərə görə çətinləşir:

1.Qismən məşğulluq. Rəsmi statistikada natamam iş günü işləyənlərin hamısı tam məşğullar siyahısına daxildirlər. Onları tam məşğul hesab edən rəsmi statistikada işsizliyin səviyyəsini aşağı salır.

2. İş tapmağa ümidini itirən işçilər. İş tapmağa ümidini itirən işçiləri işsizlər sırasına aid etməyən rəsmi statistikada işsizliyin səviyyəsini aşağı salır.

3.Yalnış informasiya. İşləməyənlərin bəziləri həqiqətən iş axtarmadıqları halda iş axtardıqlarını bildirirlərsə, bu halda işsizliyin səviyyəsi şişirdilmiş olur, gizli iqtisadiyyatda işsizliyin səviyyəsinin şişirdilməsinə səbəb olur.

Beləliklə, işsizliyin səviyyəsi ölkənin iqtisadi vəziyyətinin ən mühüm göstəricilərindən olsa da, onu bizim iqtisadiyyatımızın sağlamlığının dəqiq barometri hesab etmək olmaz.

İşsizliyin dinamikasına təsir edən amillərdən ən əsasları aşağıdakılardır:

1.Demoqrafik amillər - əhalinin doğuş, ölüm səviyyəsində, cins və yaş strukturunda, orta ömür uzunluğunda, miqrasiya axınlarının istiqaməti və həcmlərində dəyişikliklər nəticəsində iqtisadi fəal əhalinin payının dəyişməsi.

2. Texniki – iqtisadi amillər – ETT-nin iş qüvvəsinə qənaəti şərtləndirən sürəti və istiqamətləri. Elm tutumlu Rusiya istehsallarının dağıdılması, iqtisadi və social nəticələr nəzərə alınmadan bütün səviyyələrdə konversiyaların aparılması müəssisələrin kütləvi müflisləşməsi və iş qüvvəsinin uçqunvari artması təhlükəsini yaratdı.

3. İqtisadi amillər – milli istehsalın, investisiya fəallığının, maliyyə-kredit sisteminin vəziyyəti, qiymətlərinvə inflyasiyanın vəziyyəti. A.Oukenin təklif etdiyi qanuna görə, işsizliyin səviyyəsi ilə ÜMM arasında əks əlaqə mövcuddur: hər bir işsizlik "dalğası" ÜMM-in real həcminin azalması ilə əlaqədardır.

4. İnstitusional amillər – qanunvericiliyin, bazarın infrasturukturunun vəziyyəti, qaydalar, adət-ənənələrin spesifikliyi və s.

İşsizlik dinamikasını izah etmək üçün gisterezis haqqında fərziyyədən istifadə olunur ki, həmin fərziyyəyə görə, bəzi makroiqtisadi dəyişilənlər onları törədən səbəblər aradan qaldırılandan sonar öz ilkin qiymətlərinə qayıtmağa qabil deyildirlər. Dəyişilənlərin bir qisminin müvəqqəti dəyişmələri digərlərinin daimi dəyişmələrinə səbəb olur.Məsələn, işsizlərin san kapitalı olan bacarıq və səriştələrinin bir hissəsini itirirlər və işsizliyin artımına səbəb olan şok təsiri dayanandan sonra da işləyə bilmirlər.

Sonda İşsizliyin sosial-iqtisadi nəticələrini belə ümumiləşdirmək olar: qiymətdən düşmə, cəmiyyətinin san kapitalından tam istifadə etməməsi baş verir, işsizlərin və onların ailə üzvlərinin yaşayış vəziyyəti keyfiyyətcə pisləşir, işləyənlərin əmək haqqına əmək bazarında rəqabət aparanlar tərəfindən təzyiq güclənir, cəmiyyətin və fərdin peşə statusunun bərpa olunmasına və ya dəyişməsinə xərclər artır, deviant davranışlı, qəbul olunmuş sosial norma və dəyərlərə zidd hərəkətlərə meyilli olan şəxslər formalaşır.

SOSİAL ƏDALƏT NƏZƏRİYYƏSİ VƏ RİFAH.

Zeynalov A.A.
Azərbaycan Dövlət İqtisad Universiteti

"Sosial ədalət" anlayışı XIX əsrin ortalarında meydana çıxmış və onu L.Taparelli irəli sürmüşdür (Xoman – Blome-Drez 2001). Bu anlayışın zərurəti "ev təsərrüfatından" "xalq təsərrüfatına" transformasiyasının sosial nəticələrdən irəli gəlir: indi söhbət fəaliyyətlərin mənəvi qiymətləndirilməsindən yox, sistemin nəticələrinin qiymətləndirilməsindən gedir.

Sosial ədalət bir cəmiyyətdə iqtisadi baxımdan zəif vəziyyətdəki sinifləri, xüsusilə işçiləri daha güclü siniflər və işəgötürənlər qarşısında qorumaq, siniflər arasındakı gəlir bərabərsizliyini aradan qaldırıcı istiqamətdə tədbirlər almaq şəklindəki fəaliyyətlərə verilən ümumi addır. Bu anlayış ilk ortaya çıxışında daha çox işçi sinifi üçün istifadə edilmişdir. Sənaye inqilabıyla, əməyindən başqa bir gəlir qaynağı olmayan işçilər əhəmiyyətli bir ictimai sinif vəziyyətinə gəlmişlər.



Ədalət söz olaraq adil olma deməkdir. Adil olma isə haqqı güdmə, haqsızlıq etməmək, hər kəsə haqqını vermə mənasına gəlməkdədir. Bu üç ifadədə ortaq olan haqq anlayışıdır. Bunun isə iki mənası var. Birincisi düzgünlük və dürüstlüyü ifadə edir. O zamanda ədalət doğruluğu göstərmə, düzgünlükdən ayrılmama mənasına gəlir. Bu vəziyyətdə ədalətin birinci buyruğu hər kəsin başqaları ilə olan

əlaqələrində doğru olanı etməsi və başqalarına səhv etməməsidir. İkincisi bu doğruluğun özündə bütün insanların insani dəyərlərini tanımaq və heç bir zaman onlara vasitə kimi rəftar etməməkdir.

Ədalətmüəyyən qaydalar çərçivəsində məntiqli anlayış olur və beləliklə qaydaların mövcudluğunu nəzərdə tutur.Lakin "sosial ədalətin" problemi elə bu qaydaların qiymətləndirilməsindədir.

Sosial ədalət deyildikdə yalnız iqtisadi dəyərlərə sahib olan zənginliklərin dövlət əliylə paylanması ilə məhdud bir bölüşdürmə prinsipi başadüşülməməlidir, bunun kənarında insan hüquq və azadlıqlarının təminatı olan, insanların ictimai həyatın hər mərhələsində, hər anında cəmiyyətdən və bir-birlərindən tələb edəbiləcəkləri haqqlarını təsbit edən qanun və prinsiplər bütünü olaraq başa düşülməlidir. Bu mənada ələ alındığında ictimai ədalətin başqalarının hüquqlarının pozulması şərti ilə fərdi azadlığı təməl qanun sayan liberal nəzəriyyə ilə də uyğunlaşa biləcəyi deyilə bilər.

Sosial ədalət dini etiqadlarda, o cümlədən, İslamda önəmli yer tutur. Ədalət İslam dinin və ona əsaslanan islam iqtisadi doktrinların əsas prinsiplərindən biridir. Sosial ədalət yuxarı səviyyəli etik prinsiplərə və Islam normalarına əsaslanmış "əxlaqi biznes"də öz əksini tapır.

Sosial ədalət islamda dörd prinsip üzərində qurulur: 1. Bütün sərvət Allaha məxsusdur: (Quran: 24:33); 2. Sərvət insan cəmiyyətinə "etibar əsasında idarəetmə hüququ" ilə verilir: (Quran: 57:7); 3. Sərvətin məqsədsiz toplanması qadağandır: (Quran: 9:34); 4. Ehtiyacı olanlarla bölüşmək - hər bir müsəlmanın borcudur: (Quran: 59:7).

İqtisadiyyata islam yanaşması qərb sistemlərinin yanaşmasından (misal üçün, sosializm-kommunizm və kapitalizm) qəti sürətdə fərqlənir. İslamın məqsədi şəxsiyyət ilə cəmiyyət arasında harmoniyaya nail olmaqdır. O, yaxınlıqda yaşıyan kasıblara görə məsuliyyəti qonşuların üzərinə qoyur.

Rifah.Bəşər övladı həmişə firavanlığa və rahat həyat tərzinə - rifaha (xoşbəxtlik, tələbatların tam ödənilməsi) nail olmaq üçün səy göstərmişdir. Rifah haqqında iqtisadi nəzəriyyələr maksimum sərvətin (iqtisadi rifahın) yaradılmasına imkan verən təsərrüfat metodlarının öyrənilməsi ilə bilavasitə əlaqəlidir. İqtisadiyyatın alternativ hallarının müqayisəsini iqtisad elminin rifahla bağlı hissəsinin predmeti hesab etmək olar. Rifah nəzəriyyələrinin əsas problemi ictimai rifahın mahiyyətinin müəyyən edilməsi ilə bağlıdır. İctimai rifahı hansı meyarlarla qiymətləndirmək olar və ictimai rifaha təsir edəcək qərarlar necə qəbul edilməlidir? Qoyulan sualı cavablandırmaq üçün ictimai rifahla bağlı ideayaların təkamülünə diqqət yetirək.

Hələ ilkin utopik sosialist ideyalarında xüsusi mülkiyyətin ləğv edilməsi, bərabərləşdirici bölgü və ictimai həyatın tamamilə reqlamentləşdirilməsi ümumi xoşbəxtliyə nail olmağın əsas şərti kimi qəbul edilirdi. Bu ideyalara görə insanın bədbəxtliyi (xoşbəxt olmaması) onda maddi baxımdan daha uğurlu soydaşlarına paxıllıq hissinin yaranmasından doğur. Utopik sosialistlər hamının maddi baxımdan bərabərləşdirilməsini (paxıllığın məhdudlaşdırılması), birinin digərindən üstünlüyünün (təkəbbürün məhdudlaşdırılması) və insanın maddi nemətlərə hərisliyinin (tamahın məhdudlaşdırılması) aradan qaldırılmasını ictimai xoşbəxtliyə nail olmanın yeganə yolu kimi qəbul edirdilər. Həm islamda, həm də xristianlıqda, təkəbbür, paxıllıq, tamahkarlıq kimi xüsusiyyətlər insana yaraşmayan əməllər kimi təqdim olunur.

İnsanları mülkiyyətdən məhrum etməklə bərabərləşdirilməsi paxıllıq hissi ilə yanaşı sosial fərqlənmə mexanizmini də məhdudlaşdırır. Bizə yaxşı məlumdur ki, sosial fərqlənmə mexanizmi həm iqtisadi, həm də ictimai həyatın digər sahələrinin dinamik inkişafının əsasında dayanır. Buna baxmayaraq, ilkin utopistlər qeyd edirdilər ki, cəmiyyətin ideal modeli iqtisadi sistemin sadə təkrar istehsalı üzərində qurula bilər.

Cəmiyyətdə gəlirlərin bərabərsizliyi ilə şərtlənən sosial ziddiyyətlərin azaldılması və bu ziddiyyətlərin dağıdıcılıqdan konstruktiv məcraya istiqamətləndirilməsi problemi həmişə iqtisad elminin, xüsusilə rifah haqqında iqtisadi nəzəriyyələrin diqqət mərkəzində olmuş, bu istiqamətdə əsaslı tədqiqatlar aparılmışdır. Belə tədqiqatlara müasir dövrün prizmasından baxılması gəlirlərin bölgüsünün tənzimlənməsi məsələsi üçün həm nəzəri, həm də praktiki əhəmiyyət kəsb edir. Digər tərəfdən, gəlirlərin bərabərsizliyinin azaldılması inkişaf etmiş və etməkdə olan ölkələrin bir çoxunda, o cümlədən Azərbaycanda aparılan vergi siyasətinin əsas prioritetlərindən biri hesab olunur.

Rifah haqqında iqtisadi nəzəriyyələrdə "utilitarizm" ideologiyasından geniş istifadə olunur. Utilitarizm əməlin faydalılığını onun mənəviyyata uyğunluq meyarı kimi qəbul edən etik nəzəriyyədir. Bentama görə hər bir insanın fəaliyyə- tinin məqsədi rifaha nail olmaqdan ibarətdir. o, rifahı verilən dövr ərzində məmnunluqla iztirabın fərqi kimi təqdim edirdi. İ.Bentam məhz sərvətə baxışları ilə A.Smitdən fərqlənmişdir. o, indvidualizmə, bazarın təbii seçmə mexanizmi olan rəqabətə və A.Smitin "görünməz əl"inə yanaşmalarında da fərqli mövqedə dayanmışdır. Belə ki, İ.Bentam fərdin təsərrüfat müstəqilliyinin

və şəxsi motivlərdən qaynaqlanan fəaliyyətinin azad rəqabət vasitəsilə cəmiyyətın rifahına xidmət edəcəyi ideyasını tam olaraq qəbul etmir və ictimai rifahın təmin edilməsi üçün "hamı üçün maksimum xoşbəxtliyi" təmin edə biləcək qanunlar toplusunun yaradılmasını təklif edirdi.

Klassik iqtisadi təfəkkürə görə rifahın mənbəyi milli kapitalın yığımıdır. Əhalinin bir nəfərinə düşən nemətlərin miqdarının artımı və xalis milli gəlir rifahın səviyyəsinin göstəricisi kimi, xalis milli gəlir isə kapital, torpaq və əmək ehtiyatlarının - istehsal amillərinin funksiyası kimi təqdim olunur. Buradan belə nəticəyə gəlmək olar ki, iqtisadi artım amilləri (kapitalın yığımı, əmək bölgüsü) mexaniki olaraq rifahın amillərinə çevrilir. Milli gəlirin - sərvətin artımı üçün isə "təbii azadlıq" sistemi - təsərrüfat müstəqilliyi və azad rəqabət - əsas şərt hesab olunurdu.

A.Piqu qəbul edirdi ki, insanın rifahı onun məmnunluğunu, tələbatlarının ödənilməsini əks etdirir. Əgər insan büdcəsində olan pul vəsaitlərinin istifadəsi üzrə qərar vermək hüququna malikdirsə, onda həmin fərdin hər-hansı nemətə görə ödəməyə hazır olduğu pulun miqdarı onun bu neməti əldə etmək istəyinin dərəcəsinin göstəricisi hesab oluna bilər. A.Piqu bu ideyaya əsaslanaraq milli gəliri pulla alına bilən nemətlərin məcmusu kimi qəbul edirdi. Alıcıların məhsula görə ödəməyə hazır olduğu pulun miqdarı ilə məhsulun yaradılmasına sərf olunan pulun miqdarı arasındakı fərq milli gəlirin artımına daxil edilir. Bu mülahizələrə görə, istehsalın artımı şərti olaraq rifahın artımı hesab olunur.

MƏŞĞULLUĞUNUN YÜKSƏLDİLMƏSİ İSTİQAMƏTLƏRİ

Zeynalov A.A.
Azərbaycan Dövlət İqtisad Universiteti

Məşğulluq, ölkədəki mövcud işçi qüvvəsinin iqtisadi fəaliyyətlər içərisində davamlı şəkildə işlədilməsidir. Məşğulluq anlayışı bir iqtisadiyyatda müəyyən bir dövrdə mövcud istehsal elementlərinin mövcud texnoloji səviyyəyə görə hansı nisbətdə istifadə edildiyini ifadə edər.

Məşğulluq anlayışı dar və geniş olmaq üzrə iki şəkildə ələ alınır. Dar mənada məşğulluq əməyin, yəni yalnız işçilərin istehsal prosesində istifadəsi araşdırılır. Geniş mənada isə əmək, sərmayə, torpaq kimi istehsal prosesində rol alan bütün faktorlar araşdırılır.

İşsizliyin tam aradan qaldırılması mümkünsüzdür, çünki müəyyən səbəblərdən dolayı (təhsil, analıq məzuniyyəti, evdar xanım olmaq və.s) hər zaman əmək qabiliyyətli əhalinin müəyyən qismi işsiz olur ki, bu da ölkə iqtisadiyyatının inkişafı və əhalinin həyat səviyyəsinə elə də ciddi təsir etmir. Lakin bəzi hallarda əhalinin bir qismi aylar, hətta illərlə işsiz qalmalı olurlar ki, bu da öz növbəsində əhalinin gəlirlərinin və həyat səviyyəsinin aşağı düşməsinə və yoxsulluğun artmasına gətirib çıxarır. Buna görə də istənilən ölkədə məşğulluğun artırılması ilə bağlı nəzərdə tutulmuş siyasət dövlət proqramının mühüm hissəsini təşkil edir. İşsizliyin başqa sözlə əmək bazarında əmək təklifinin əmək tələbini üstələməsi kimi ifadə edə bilərik. Yəni əmək bazarı da digər bazarlar kimi sərbəst bazara xas olan tələb və təklif qanunu əsasında fəaliyyət göstərir və əgər öz işçi qüvvəsini satmaq istəyən insanların sayı bazarda dövlət və özəl sektor müəssisələri tərəfindən təklif olunan iş yerlərinin sayından artıq olarsa, işsizlik yaranar. Və elə buna görə də Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə 2011-2015-ci illər üçün Dövlət Proqramının əsas vəzifələrindən biri ölkədə əmək bazarında tələb və təklifin tarazlaşdırılmasından ibarətdir. Bu məqsədlə sahibkarlığın inkişafı, yeni iş yerlərinin açılması, müəssisələrinin sayının artırılması, yəni bir növ işçi qüvvəsinə olan tələbin artırılması vacibdir. Eləcə də, müəssisələrin iflasa uğramasının və öz işçilərinin sayını ixtisar etmə məcburiyyətində qalma ehtimalının azaldılması da mühüm məsələdir. Bu isə hər bir müəssisəyə və onun daxilində baş verən proseslərə ayrıca diqqətlə yanaşı, bütün müəssisələrin fəaliyyətinə makrosəviyyədə baxaraq onların iflasa uğrama və ya işçi qüvvələrini ixtisar etməklə üz-üzə qalmasına səbəb ola biləcək makroiqtisadi sabitlik və iqtisadi artımın pozulmasına nəzarəti tələb edir. Əgər ölkədə iqtisadi geriləmə, inflyasiya, böhran və.s problemlər olarsa bu təbii ki müəyyən müəssisələrin iflasına və işçilərin işsizliyinə səbəb olacaqdır. Bundan əlavə ölkədə sağlam rəqabət təmin olunmalı, bəzi müəssisələrin digərləri tərəfindən sıxışdırılıb çıxarılması və nəticədə öz işçilərini ixtisar etmələrinin qarşısı alınmalıdır.

İşsizliyin əsas səbəblərindən biri təbii ki insan amilidir. Təsadüfi deyil ki, təhsili olmayanlar arasında işsizlik daha yüksəkdir. Buna görə də insan kapitalının yüksəldilməsi, aztəminatlı ailələrin təhsil alma imkanlarının genişləndirilməsi, yüksək istisaslı kadrların yetişdirilməsi, işçilərin ixtisasının artırılması məşğulluğun yüksəldilməsi istiqamətində atılmış mühüm addımlardan hesab olunur. Kompyuterlərin istehsaldan tutmuş xidmət sahələrinə qədər hər yerdə geniş istifadəsini nəzərə alaraq

qeyd etməliyik ki, işsizlərin asanlıqla iş tapmalarını və mövcud vakansiyalar barədə məlumatlılıqlarının artırılması, bu istiqamətdə elektron səhifələrin yaradılması da olduca vacibdir.

Məlum məsələdir ki, gənclər, yəni təcrübəsiz, iş həyatına yeni addımlayan şəxslər və eləcə də müəyyən qüsurları olan şəxslər arasında işsizlik faizi xüsusilə yüksəkdir. Buna görə də məşğulluq siyasətində gənclərə və həssas şəxslərə müəyyən qayğı göstərilməsi təsadüfi deyil.

Növbəti mühüm addım isə təbii ki, işsizlərə dövlət tərəfindən qayğı göstərilməsi, onların işsiz qaldığı dövr ərzində müavinətlə təmin olunması və işçilərin işsizliyə görə sığortalanmasından ibarətdir. Lakin işsizlərə lazımi səviyyədən artıq qayğı göstərilərsə bu əhali arasında "işsiz" qalma meyillərinin artmasına, işsizlər üçün ayrılmış xərclərin artmasına və son nəticədə iqtisadi artımın zəifləməsinə və Alman Kanslerinin adlandırdığı kimi ölkənin "istirahət parkı Almaniya"ya çevrilməsinə gətirib çıxarar.

İşsizliyin azaldılması üçün dövlətin məşğulluq üzərindəki vergi yükünü və xərcləri salacaq xüsusi dəstəkləri təmin etməsi lazımdır.

Rəhbərliklər isə özəl sektor investisiyalarını və məşğulluq provayderlərə işləri asanlaşdırmaq və onlar üçün təməl infrasturukturları formalaşdırmalıdır. Özəl müəssisələrdə ən çox hansı xüsusiyyətdə işçiyə ehtiyac duyulduğunu müəyyən edərək bu keyfiyyətdəki işçilərin təmin edilməsi nöqtəsində əlaqədar dövlət qurumları ilə sıx əməkdaşlıq edilməlidir.

İşsizlik probleminin həlli yollarını axtarmaq və bu problemdən çıxış yolunu tapmaq hər bir ölkənin əsas iqtisadi siyasi məsələlərindən biridir. Bunun üçün bir çox iqtisadi siyasi tədbirlər planı hazırlanır və tətbiq edilir. Bu iqtisadi tədbirlərin reallaşdırılması üçün xüsusi diqqət ayrılır və nəzarət mexanizması artırılır.

İşsizliyin azaldılması üçün dövlətin əlində bir neçə iqtisadi alət var. Bunlar fizikal və monetar siyasətdir. Bu siyasi alətlər vasitəsi ilə iqtisadi inkişafa və işsizliyə təsir edə bilər.

Dövlət vergilər vasitəsi ilə iqtisadiyata müdaxilə edə bilir. Bu müdaxilənin bir neçə mənfi və müsbət nəticələri özünü biruzə verə bilər. Vergilərin artırılması iqtisadi daralmaya səbəb olacaqdır. Vergilərin artırılması nıticəsində investorların iqtisadi gəlirləri azalacaq. İnvestorların əsas məqsədləri gəlir olduğuna görə yatırımları azaldacaq nəticə etibari ilə işsizliyin artmasına səbəb olacaq.

İşsizlik problemini həll etmək istəyən hər bir dövlət ölkədə xarici və daxili investorları ölkədə yatırımlarını artırmağa həvəsləndirmək, onlar üçün xüsusi güzəştlər tətbiq etmək lazımdır. Bu sayədə ölkədə artan investisiyalar ölkə iqtisadiyyatına çox sahəli təsiri olacaqdır. Bunlardan biri işsizlik azalacaq, digəri isə dövlətin büdcəsinin formalaşmasında çox önəmli yer tutan vergilər vasitəsi ilə büdcə açığının qarşısının alınmasında önəmli rol oynayacaq.

Buna misal olaraq Almaniya iqtisadiyyatını göstərmək olar. Almaniya iqtisadiyyatının avropada birinci dünyada yeddinci olmasının əsas səbəblərindən biri ölkədəki investisyanın artırılması və təşviqi üçün bir çox addımların atılmasıdır.

İşsizlik probleminin həlli yollarından digər bir məsələ dövlət ixracatı artırmaq üçün iqtisadi siyasət həyata keçirməlidir. İxracatı dəstəkləməli, onun önündəki maneələrin qaldırılması üçün işlər görülməlidir. İxracat nəticəsində istehsalatın inkişafı artacaq və şaxələnəcəkdir. Ixracat ölkə iqtisadiyyatının inkişafında çox önəmli paya sahibdir. ÜDM-in artırılmasında önəmli paya sahibdir.

İstehsalçının ixracata təşviqi nəticəsində ölkədə işsizliyin azaldılması qaçınılmazdır. İxracat nəticəsində istehsalatın həcminin artırılması planlaşdırılır nəticə etibari ilə yeni iş imkanları yaranır. Buda işsizliyin azaldılmasına xidmət edir. Almaniya modelini biz misal olaraq göstərə bilərik. Almaniya iqtisadiyyatında ixracat çox önəmli yer tutur. Almaniya hökuməti ixracatı xüsusi olaraq dəstəkləyir. Bu da iqtisadi artıma səbəb olur.

Məşğulluğun artırılması üçün bir digər məsələ peşə sahəsinə üstünlük verilməsidir. Ixtisaslaşdırılmış peşə sahələrinə diqqət göstərilməlidir. Dünyada baş verən elmi texniqi tərəqqinin yeni yeni nailiyyətlərindən maksimum səviyyədə faydalanmaq, gənc kadırların bu yöndə hazırlanmasını təşkil etmək lazımdır. İxtisaslaşdırılmış peşələr üzrə peşə məktəblərinin keyfiyyət standartlarını artırmaq və bu sahəyə xüsusi diqqət artırılmalıdır.

Azərbaycan Respublikası vətəndaşlarının əmək hüquqlarının qorunması, əmək, məşğulluq və əhalinin sosial müdafiəsi sahəsində səmərəli tədbirlərin həyata keçirilməsi, əmək qanunvericiliyinin təkmilləşdirilməsi, işçilərin maddi, sosial, mənəvi və digər həyati tələbatlarının ödənilməsi ölkədə aparılan sosial iqtisadi siyasətin əsas prioritet istiqamətini təşkil edir.

Əmək ehtiyatlarının keyfiyyətcə yaxşılaşdırılması və iqtisadi fəallığın yüksəldilməsi üçün əlverişli şərait yaradılması, kadr hazırlığı sisteminin, o cümlədən peşə hazırlığı və əlavə təhsil şəbəkəsinin

fəaliyyətinin dinamik inkişaf edən əmək bazarının tələblərinə uyğunlaşdırılmasına xüsusi diqqət ayrılmışdır.

İşaxtaran və işsiz şəxslərin sosial müdafiəsinin ünvanlı dövlət sosial yardım sistemi ilə əlaqələndirilməsi işinin təkmilləşdirilməsi, o cümlədən işsizlərin və onların ailə üzvlərinin təhsil, tibbi və digər xidmətlərə çıxış imkanlarının genişləndirilməsi üçün müvafiq tədbirlərin həyata keçirilməsidir.

MÜSİR ŞƏRAİTDƏ ƏHALİNİN SOSİAL MÜDAFİƏSİ PROBLEMLƏRİ

İsmayıllı Ş.İ.
Azərbaycan Dövlət İqtisad Universiteti

Müasir dövrdə əhalinin sosial müdafiəsi dedikdə, insanların iqtisadi, hüquqi, tibbi və mənəvi müdafiəsini, həmçinin, onların həyatının təhlükəsizliyinin təminatını, təbii fəlakətlər zamanı və fövqəladə vəziyyətlərdə yardımı başa düşülür.

Əhalinin sosial müdafiəsində başlıca rol oynayan iqtisadi müdafiə sosial-iqtisadi problemlərin həlli üçün formalaşdırılan,cəmiyyətin yaşlı vətəndaşlarına, əlillərə, xəstələrə, işsizlərə, uşaqlı ailələlərə, həmçinin, əhalinin aztəminatlı qruplarına yardım göstərilməsinin zəruriliyi ilə şərtləndirilən məqsədli kompleks sistemdir.

Bu sistemi aşağıdakı qruplara bölmək olar:

- Əmək pensiyaları təminatı;
- Əhalinin əlil qruplarının həyat səviyyəsini təmin etmək üçün sosial pensiyalar təminatı;
- Ünvanlı sosial yardımlar və sosial müdafiə tədbirləri;
- Əhalinin aztəminatlı qruplarının həyat səviyyəsinin yüksəldilməsi.

Sosial müdafiə təminatları beynəlxalq xarakter kəsb etməklə hər bir dövlətin sosial iqtisadi sabitliyinin təmin edilməsinin əsas göstəricisidir.

Sosial müdafiə sistemi dövlət büdcəsi,büdcədənkənar fondlar və qeyri-dövlət maliyyələşmə mənbələri hesabına formalaşır.

Azərbaycanda sosial müdafiə xərcləri Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyi, Dövlət Sosial Müdafiə Fondu və qeyri-dövlət maliyyələşmə mənbələri (məsələn Heydər Əliyev Fondu) hesabına formalaşır.

Hər bir dövlətin iqtisadi potensial imkanları sosial müdafiə sisteminin maddi əsaslarını və onun normalarının dəyişməsi dinamikasını formalaşdırır. Büdcə gəlirlərinin artımı və onun sosial sığorta yolu ilə ödəmələri sosial müdafiə xərclərinə transfertlərin büdcədən köçürülməsinə şərait yaradır və bu əhalinin sosial müdafiəsi problemlərinin həlli istiqamətində lazımı tədbirlərin həyata keçirilməsinə imkan yaradır .

Bazar iqtisadiyatına keçid dövründə olan Azərbaycanda əhalinin sosial müdafiəsi problemlər əsasən aşağıdakılardan ibarətdir.

Sosial müdafiə sahəsində olan problemləri təhlil etdikdə, onları aşağıda göstərilən qruplara bölmək mümkündür:

- Sosial müdafiə və pensiya təminatı sistemlərinin bazar iqtisadiyyatı prinsiplərinə cavab verməməsi.
- Sosial müdafiə sistemi sahəsində idarəetməyə dair məlumatların şəffavlığının aşağı olması.
- Əmək fəaliyyəti ilə məşğul olan vətəndaşların qeydiyyatı və onlardan məcburi dövlət sosial sığorta haqlarının yığılması məsələlərinin müasir tələblərə cavab verməməsi.
- Toplanmış vəsaitlərin istifadə olunma prinsiplərinin izahı və təbliği qənaətbəxş səviyyədə olmaması və sair problemlər.

Sosial müdafiə və pensiya təminatı sistemlərinin bazar iqtisadiyyatı prinsiplərinə cavab verməməsinə səbəb bazar münasibətlərinə keçid dövründə, dövlətin əhali ilə münasibətlərinin iki istiqamətdə qurulmasıdır. Bir tərəfdən əhali – bu münasibətlərin fəal subyektidir; mülkiyyətə malikdir, çalışır, Ümumi Daxili Məhsul və öz gəlirini yaradır, vergiləri ödəyir, xidmətlərdən istifadə edir və s., digər tərəfdən o, dövlətin sosial müdafiə funksiyasının obyektidir. İqtisadiyyatı güclü olan dövlətlərdə və normal halda, qarşılıqlı münasibətlər sisteminin, dövlətin və əhalinin partnyorluq olduğu birinci forması üstünlük təşkil edirsə, iqtisadiyyatı zəif olan dövlətlərdə, böhran dövründə isə, dövlətin əhaliyə münasibətdə himayəedici hərəkətlərinin əhəmiyyəti olduqca artır. Bazar iqtisadiyatına keçid dövründə olan Azərbaycanda sahibkarlıq, neft, qaz hasilatı ilə əlaqəsi olmayan maddi istehsal sahələri və

xidmətlər inkişaf etdikcə bazar iqtisadiyyatı prinsiplərinə cavab verən sosial müdafiə sisteminin yaradılması mümkün olacaq.

Əmək fəaliyyəti ilə məşğul olan vətəndaşların qeydiyyatı, cəmiyyətin bütün işləyən üzvlərinin məcburi sosial sığortaya cəlb olunması və onlardan məcburi dövlət sosial sığorta haqlarının yığılması məsələlərinin müasir tələblərə cavab verməməsi, sosial müdafiə sahəsində olan başlıca problemlərdən biridir.Məcburi sosial sığortada 3 tərəf iştirak edir: işə götürən,işçi və dövlət.Hazırki dövrdə bu sahədə Əmək Müqavilələrinin bağlanmasına nəzarət güclənsə də,işçilərə verilən faktiki əmək haqlarının vergilərə cəlb olunan əmək haqlarından çox olması, işçilərin sayının az göstərilməsi sosial mudafiə ayırmalarının azalmasına səbəb olur və bu sahədə problemlər yaradır.

Əhalinin sosial müdafiəsi problemlərindən biri də əhalinin nominal əmək haqqının real əmək haqqından, yəni hər hansı məbləğdə olan nominal əmək haqqına alına biləcək istehlak mallarının və göstərilə biləcək xidmətlərin həcmindən nəzəzrəçarpacaq dərəcədə az olmasıdır.Buna səbəb ölkəmizdə minimum əməkhaqqının Minimum İstehlak Büdcəsindən kifayət qədər az olmasıdır.Ölkədə minimum aylıq əmək haqqı mexanizminə dəyişiklik etmək təklif olunur ki, Həmkarlar İttifaqrları Konfederasiyası ilə bir sıra sosial qrumlar tərəfindən Əmək Məcəlləsinə dəyişiklik etməklə onun hesablanması zamanı təkcə işçinin deyil, ailəsinin də minimum tələbatlarını nəzərə almaq lazım gəldiyi irəli sürülür.

Minimum sosial təminatların mühüm aspektlərindən biri işsizlikdən müdafiə təminatlarıdır.Bu problemin həllinin iki tərəfi var: bir tərəfdən əhalinin maksimum məşğulluğu və özünü məşğulluğu üçün iqtisadi şəraitin yaradılması və digər tərəfdən dövlət yardımının həyata keçirilməsidir.Dövlət tərəfindən işsizliyin azaldılması üçün lazımı qədər və qarşılıqlı əlaqəli əmək birjalarının yaradılması və əmək yarmarkalarının keçirilməsi də əhalinin işlə təmin olunması sahəsində sosial müdafiəsi problemlərindən biridir.

Pensiya təyinatı sahəsində olan problemləri təhlil etdikdə, aşağıdakı vəziyyəti müşaidə etmək mümkündür:

- Pensiya təminatı sisteminin işinə nəzarət prosedurları mürəkkəb, bahalı, vaxt aparan və insan faktorundan çox asılıdır.
- Pensiyaların təyin olunmasında insan faktorunun yüksək olması bu sahədə neqativ halların baş verməsinə zəmin yaradır.

Yuxarıda yazılanları nəzərə alaraq müasir dövrdə əhalinin sosial müdafiəsini təmin etmək üçün görülməsi lazım olan tədbirlərin əsas istiqamətlərini göstərək.

Əhalinin gəlirlərinin indeksləşdirilməsi

1) Gəlirlər üzrə minimum təminatların təmin edilməsi
2) Minimum standartların və normativlərin köməyi ilə sahələrin tənzimlənməsi
3) İmtiyazların və güzəştlərin verilməsi
4) Qiymətlərə dotasiyaların ayrılması
5) Məcburi sığorta
6) Sosial təminat və sosial yardım
7) İşə götürənlə işçi arasında sosial tərəfdaşlıq.

MALİYYƏ TƏHLÜKƏSİZLİYİNİN TƏMİNATINDA İSTİFADƏ OLUNAN MONETAR SİYASƏTİN ALƏTLƏRİ

Ağayeva N.K.
Azərbaycan Dövlət İqtisad Universiteti

Monetar tənzimləmə alətlərinin təsnifatı, onarın xüsusiyyətləri və tətbiq olunmasının konkret hallarını ətraflı nəzərdən keçirməmişdən öncə isə bu alətlər vasitəsilə iqtisadiyyatda hansı proseslərin və göstəricilərin tənzimlənməs ilə bağlı bir sıra nəzəri-metodoloji məsələləri araşdırmaq məqsədəuyğun olardı.

Məsələyə bu cür yanaşdıqda biz, monetar siyasətin müxtəlif alətlərinin pul sektorunun tənzimlənməsində rolu və yerini müəyən etmək, eləcədə bu prosesin fəlsəfəsini dərindən dərk etmək imkanını əldə etmiş oluruq.

– Monetar siyasətin strateji aspektləri. Məlum olduğu kimi, dövlətin makroiqtisadi siyasətinin son məqsədləri iqtisadi artımın, tam məşğullun, qiymətlərin sabitliyinin və tədiyyə balansının tarazlığının

təmin olunmasından ibarətdir. Bu məqsədlərə nail olmaq üçün dövlətin sərəncamında monetar siyasət kimi mühüm makroiqtisadi tənzimləyici mexanizmi mövcuddur ki, bu da müxtəlif üsullarla reallaşdırılır. Bu mexanizim dövriyyədə olan pul kütləsini tənzimləməklə məcmu tələbə (pula tələbin amillərinə və pul təklifi kanallarına təsir etmək vasitəsilə) təsir göstərir və beləliklə də makroiqtisadi tarazlığın arzuolunan səviyyəyə çatdırılmasına imkan verir. Pul kütləsinin tənzimlənməsinin iki üsulu mövcuddur Faiz dərəcəsinin dəyişdirilməsi ilə pul təklifinə təsir olunması (məsələn, qiymətli kağızların alınması – satılması vasitəsilə faiz dərəcələrinin aşağı düşməsi-qalxması təmin edilir) ;

– Pul multiplikatoru və pul aqreqatları. Monetar tənzimləmə alətləri bank sisteminin pulu yaratmaq və yaxud pulu multiplikasiya etmək imkanına təsir göstərilməsi məqsədilə tətbiq olunur . Pulun multiplikativ artım mexanizmini başa düşmək üçün aşağıdakı misala nəzər yetirək:

(1) kommersiya bankı 1000$ məbləğində depozit cəlb edir, bunun rəsmi qaydada müəyyən edilmiş 10%- i yəni 100$ -nı mərkəzi bank məcburi ehtiyat norması kimi köçürür. Yerdə qalan 900$ vəsaiti ilə müştəriyə kredit verir.

Müştəri aldığı kredit hesabına digər bazar subyektlərindən əmtəə və xidmət alır, əmtəə və xidmət realizə etmiş subyekt isə qazandığı 900$ vasiti (2) bankında depozit şəklində erləşdirir. (2) bank öz növbəsində yerləşdirilmiş depozit 10 %- vi, yəni 90$ məcburi ehtiyata yönəldir, qalan 810$ vəsait hesabına isə digər müştərisinə kredit verir. Beləliklə də zəncirvari proses davam

Göründüyü kimi , hər bir bank cəlb etdiyi depozitlərin 90% -i kredit kimi müştəriyə verir. Bütövlükdə, bütün banklar son nəticədə ilkin mərhələdə cəlb edilmiş 1000$ həcmində depoziti 9 dəfə artırırlar və beləliklə də 9000$həcimdə kredit qoyuluşunu həyata keçirirlər. Depozitlərin multiplikatim artımı onun tamamilə məcburi ehtiyat normalarına yönəldilməsinə qədər davam edir.

Multiplikativ prosesin gedişatında mərkəzi bank bir tərəfdən kreditin dəyərinə, digər tərəfdən isə bankların izafi likvidliyinə təsir göstərə bilər. Birinci halda faiz dərəcəsinin dəyişdirilməsi , ikinci halda isə məcburu ehtiyat normaları və açıq bazar əməliyatları kimi alətlər tətbiq edilir.

Pulmultiplikatoru yeni bankların pulu yaratmaq qabiliyyətinin göstəricisi aşağıdakı nisbətlə müəyyən edilir vəsaitlər daxildir. Mərkəzi bankdakı hesabda olan vəsaitin bir hissəsini məcburi ehtiyatlar (müxbir hesablarında olan vəsait), digərini isəizafi ehtiyatlar təşkil edir. Mərkəzi bankın aktivləri nöqteyi-nəzərdən isə Mb –yə xalis xarici aktivlər və xalis daxili aktivlər (kommersiya banklarına və hökumətə kreditlər) daxildir.

Ms aqreqatına banklardan kənardan nəğd pul, tələb olunanadək depozitlər, müddətli depozitlər, digər depozitlər və qiymətli kağızlar daxildir. Ms -ə daxil olan komponentlərin sayı və növü ölkələr üzrə müxtəlif ola bilər. Bu , maliyyə - bank sektorunun inkişaf səviyyəsindən asılıdır. İnkişaf səviyyəsi yüksəldikcə Ms-in keyfiyyət göstəricisi bir o qədər yüksəkdir (M2, M3, M4 və s.).

Eyni ilə pul bazasında olduğu kimi, burada göstərilən struktur Ms –in yalniz passiv tərəfini görərik. Lakin konsolidə edilmiş balansın yəni pul kütləsinin aktiv hissəsi də mövcuddur və buraya bank sisteminin məcmu xalis xarici aktivləri və xalis daxil edilir.

Bu iki aqreqat arasında fərq ondan ibarətdir ki, Mb –in təklifi bilavasitə mərkəzi bank tərəfindən dövriyyəyə nəğd pulun buraxılması və məcburi ehtiyyatnormalarının müəyyən edilməsi vasitəsilə nəzarət altına alınır. Ms aqreqatının komponentlərinə isə (nağd pul istisna olmaqla) mərkəzi bank yalnız dolayı təsir edir. Digər tərəfdən, əgər, Mb yalnız mərkəzi bankın balansının əks etdirirsə, Ms bütövlükdə bank sisteminin balansını (konsolidə edilmiş balans) əks etdirir (monetar sektorun terminilogiyasında buna " pul icmalı "deyilir).

Monetar siyasət alətlərinin təsnifatı və spesifik cəhətləri. Monetar siyasət dolayı və birbaşa təsir vasitələri ilə reallaşdırır . Monetar siyasətin birbaşa və dolayı alətlərini aşağıdakı cəhətlərə görə bir birindən fərqləndirirlər;

– Birbaşa alətlərin tətbiqi bank kreditlərinin həcminə bilavasitə təsir göstərir, dolayı alətlər isə yalnız bank likvidiliyinə təsir etməklə bankların kredir vermə qabiliyyətini tənzimləyir;

– Birbaşa alətlər vasitəsilə qiymət (faiz dərəcələri) və həcm (kredit) müəyyən edilir, dolayı alətlər isə pul bazarında tələb və təklifin formalaşmasının şəraitinə təsir gösrərir;

– Birbaşa alətlər normativ qaydalar xarakterini daşayır, dolayı alətlər isə bazar vasitəsilı (daha doğrusu bazarın reaksiyası) müvafiq təsir potensialına malikdir.

Birbaşa təsir alətləri kommersiya banklarının fəaliyyətinə birbaşa inzibati müdaxilə tədbirləridir və bu tədbirlərin bankıların likvid mövqelərinə bazar vasitəsilə yəni dolayı yolla təsir olunmasının tam istisna edir.

Monetar siyasətin birbaşa təsir vasitələrinə faiz dərəcələrinə nəzarət və kreditin həcminin limitləşdirilməsi aiddir.

Faiz dərəcələrinə nəzarətin əsas forması mərkəzi bank tərəfindən kommersiya banklarının kreditləri üzrə faiz dərəcələrinin inzibati qaydada tənzimlənməsidir. Bundan başqa mərkəzi bank normativ qaydalar vasitəsilə kommersiya banklarının depozitlər və əmanətlər üzrə müəyyənləşdirdikləri faiz dərəcələrinə nəzarət funksiyasını həyata keçirə bilər.

Kreditlərin limitləşdirilməsi aşağıdakı üsullarla aparılır

– İqtisadiyyatın sektorları üzrə kreditin məhdudlaşdırılması. Bu cür məhdudiyyətlər kredit növləri üzrə (məsələn,istehlak və yaxud ipoteka kreditləri) yuxarı həddin müəyyən edilməsi və əsas sektorlara ayrılan kreditlər üzrə (məsələn, aqraq sektora ayrılan kreditlər) aşağı həddin müəyyən edilməsi formasında tətbiq edilir .

Yuxarı hədd adətən makroiqtisadi sabitliyin bərqərar olması məqsədilə təsbit edilir. Başqa sözlə, bu metodun tətbiqinin əsas məqsədi iqtisadiyyatın bu və ya digər sahələrdəişgüzar fəallığın arzu olunmaz (inflyasiya) dərəcədə yüksəlməsinin qarşısını almaqdır.

Aşağı hədd metodu isə əksinə tənəzzül keçirən,lakin ölkənin iqtisadi inkişafında əhəmiyyətli rol oynaya biləcək sektora maliyyə dəstəyinin genişləndirilməsi məqsədilə tətbiq edilir.

– Bank sektorunun kreditlərinə ümumi həddin müəyyən edilməsi. Bu metoda əsasən bütün bankların kredit əməliyyatlarına bərabər limitnormaları təyin edilir. Bankın müştərilərə ayırdığı kreditlərin ümumi həcmi müəyyən edilmiş limitlərdən kənara çıxmamalıdır. Əks təqdirdə mərkəzi bank öz nəzarət funksiyalarına uyğun olaraq limiti pozmuş banklara qarşı sanksiyalar tətbiq edə bilir.

- Bank kreditinin mənbələrinin inflasiyon potensialına görə kreditin yuxarı həddinin müəyyən edilməsi. Məlumdur ki,banklar kredit əməliyyatlarını bir tərəfdən, inflasiyaya zəyif təsir göstərən uzunmüddətli qiymətli kağızların emissiya və yaxud uzunmüddətli əmanətlərin cəlb edilməsi hesabına, digər tərəfdən isə inflasiyanı sürətləndirə biləcək qısa müddətli əməliyyatların cəlb edilməsi hesabına maliyyələşdirə bilərlər. Maliyyələşdirmə mərhələlərindən asılı olaraq mərkəzi bank kredit limitlərini dəyişdirə bilər. Adətən mərkəzi bank uzunmüddətli qeyri-infiliyasiyon mənbələr hesabına kredit əməliyyatları aparan banklar üçün kreditləşmə limitini genişləndirir. Hal-hazırda Fransa və Hollandiyada bu metoddan geniş istidə olunur.

Monetar siyasətin birbaşa alətlərinin əsas üstünlüyü ondan ibarətdir ki, kreditin genişlənməsi və faiz dərəcələri üzərində səmərəli nəzarət mezanizi təmi edir.

Bununla yanaşıbu alətlərin çatışmamazlıqlarını təmin etmək lazımdır. Bunlar aşağıdakılardır:

– Birbaşa nəzarət bankların kredit əməliyyatlarını sərt məhdudlaşdırmaqla bank sektorunun maliyyə vasitəçisi funksiyasını zəyiflədir və bütövlükdə onun inkişafını ləngidir;

– Banklar arasında sərt inzibati normativlərə əməl etməkdən yayınmaq meyilləri güclənir;

– Qeyri – bank maliyyə institutlarının fəaliyyətinə birbaşa nəzarət həyata keçirilmədiyi şəraitdə bankların kredit əməliyyatlarına həddin müəyyən olunması onların diskriminasiyasının şərtləndirir ;

– Kredit əməliyyatlarına həddin qoyulması bank sistemində izafi likvidliyin artmasına və beləliklə də bank sisteminə zərər gətirə bilər. Çünki kommersiya banklarının mərkəzi bankda saxlanılan bank ehtiyatlarına görə (müxbir hesablarında olan və kredit verilməsi üçün qadağan olunana vəsait) faiz ödənilmədikdə,onlar da öz növbəsində cəlb etdikləri depozirlər üzrə aşağı faiz təklif edir və yaxud ümumiyyətlə faiz ödəmirlər. Bu isə son nəticədə əmanətçilərin itirilməsinə və bankların iqtisadiyyatda maliyyə vasitəçisi funksioyasının məhdudlaşmasına gətirib çıxara bilər.

Dolayı alətlər bankların likvidliyinə bazarın reaksiyası vasitəsilə təsir olunmasını təmin edir ki, bu da ilk növbədə mərkəzi bankın balans hesablarında müvafiq dəyişikliklərin edilməsi formasında həyata keçirilir. Baçşqa sözlə dolayı alətlər mərkəzi bankın balansı səviyyəsində prosesləri tənzimləyərək ehtiyyat pullar, xüsusi balansın daxili kredit komponentinin məqsədyönlü tənzimlənməsini təmin edir.

Dolayı alətlərindən əsas üstünlüklərdən biri ondan ibarətdir ki, bu alətlər bir-birini tam siğorta etmək potensiyalına malikdir. Məsələn, bir alətin pulkütləsinin arzuolunmaz artımına gətirib çıxarması (valyuta müdaxiləsi nəticədində xarici valyutanın asınması) digər alətin paralel tətbiqi hesabına pul təklifinin azaldılması ilə müşahidəolunur (məsələn, istiqraz vərəqlərinin mərkəzi bank tərəfindən banklara satılması və yaxud " sterelizasiya " tədbirləri).

Monetar siyasətin dolayı alətlərinin aşağıdakı növlərio mövcuddur:

Yenidənmaliyyələşmə mexanizmi.Yenidən maliyyələşdirmə mərkəzi banklar tərəfindən pul- kredit sferasının ən qədim tənzimləmə vasitələrindəndir.Hələ XIX əsrin ortalarında bu alət İngiltərə Bankı

tərəfindən tətbiq olunmuşdur. Mərkəzi banklar iqtisadiyyatda "son instansiyalı kreditor" rolunda çıxış edirlər.Yenidən maliyyələşdirmə dedikdə, bankların mərkəzi bank tərəfindən müxtəlif formalarda kreditləşdirilməsi nəzərdə tutulur. Banklar mərkəzi bank tərəfindən müxtəlif formalarla müəyyənləşdirilə bilərlər: təminatlı və təminatsız kreditlərin verilməsi, veksellerin uçotu və yenidən uçotu və s.Ümumiyyətlə ,yenidən maliyyələşdirmə texniki xarakterli qısa müddətli likvidliyin tənzimlənməsinə və ral sektorun inkişafına yönəldilə bilər.

Mərkəzi bankların yenidən maliyyələşmə mexanizminin aşağıdakı formaları mövcuddur:
Lombard krediti : Mərkəzi bank tərəfindən kommmersiya banklarının kreditləşdirilməsində girov təminatl kimi bir çox hallarda qısamüddətli dövlət istiqraz vərəqləri və yaxud xəzinədarlıq vekselləri istifadə olunur. Bu cür kreditlərə lombard kreditləri deyilir. Lombard kreditlıri adətən maksimum 30 gün müddətinə verilir.

Overnayt və overdraft. Kommersiya bankının mərkəzi bankdakı müxbir hesabında vəsait az olduğda və ya hec olmadıqda o irihəcmli hesablaşmaları aparmaq üçün mərkəzi bankdan 1 günlük kredit alır. Növbəti iş günü və yaxud əməliyyat gününün axırında isə bankın müxbir hesabına vəsait daxcil olan kimi kredit dərhal geri qaytarılır. Belə kreditlərə overnayt kreditləri deyilir. Overnaytın tətbiq olunmasının əsas məqsədi bankların qısamüddətli likvidlik probleminin həll olunmasıdır.

MÜASİR BAZAR İQTİSADİYYATI ŞƏRAİTİNDƏ İNFLASİYANIN TƏNZİMLƏNMƏSİ

Əliyev A.N.
Azərbaycan Dövlət İqtisad Universiteti

İnflyasiya dünya iqtisadiyyatının ən təhlükəli, ən dəhşətli problemlərindən biridir. O vərəm xəstəliyi kimi ən kiçik təmasdan belə asanlıqla digər ölkələrə yoluxmaq imkanma malikdir. Hal-hazırda dünyada güclü qloballaşma prosesi gedir.Ölkələr beynəlxalq əmək bölgüsü nəticəsində bu və ya digər məhsul istehsalı üzrə ixtisaslaşır. Belə ki, hər hansı bir ölkədə bir məhsulun istehsalı daha az xərclə, lakin yüksək keyfiyyətlə başa gəlir və başqa dövlət həmin məhsulu idxal edir, yəni həmin dövlətdən qismən asılı olur. Birinci ölkədə məhsulun qiymətinin artması, inflyasiyanın güclənməsi həmin məhsulla onu idxal edən ölkəyə də keçir və bu proses çox sürətlə yayılır. Göründüyü kimi, inflyasiya həqiqətən də dəhşətli bir problemdir.

Ona görə də bu problemin qarşısını almaq üçün bütün dövlətlər birlikdə çalışmalı və bir-birinə bu məsələdə böyük yardım göstərməlidirlər.Bu fakı unutmaq olmaz ki, inflyasiyanm kökünü kəsmək qeyri-mümkündür.Kağız pul dövriyyəyə buraxılandan mövcuddur və nə qədər ki, kağız pullardan istifadə olunur, inflyasiyadan heç bir ölkə sığortalanmayıb.

İnflyasiyaya qarşı bütün dövlətlərin birgə mübarizəsi ona görə zəruridir ki, əwəldə də qeyd etdiyim kimi, biz hal-hazırda qloballaşma şəraitində - Avropa Birliyi kimi ittifaqların meydana gəldiyi dövrdə yaşayırıq və ölkələr öz iqtisadiyyatlan ilə bir-birilə çox sıx-sıx tellərlə bağlanırlar, bir-birindən qarşılıqlı asılılıqda inkişaf edirlər. Onlarm hər hansı birində tarazlığın pozulması digərinə də müəyyən dərəcədə təsir göştərir. Bütün bunlar dünya iqtisadiyyatının ayrı-ayrı hissələri olan bütün dövlətlərdən səylərini birləşdirməyi və inflyasiya problemini daim diqqət mərkəzində saxlamağı t-ələb edir. Yuxandakılara görə bu nəticəyə gəlmək olar:

Hal-hazırda inflyasiya - maliyyəyə, pul və iqtisadi sistemə neqativ təsir göstərən ən təhlükəli hallardan biridir.İnflyasiyamn yaranma səbəbləri hər bir ölkədə müxtəlifdir.

Xarakter və sürətinə görə inflyasiya müxtəlif olur. (sürünən, sürətli, hiper, tələb və təklif inflyasiya, gözlənilən, gözlənilməyən, açıq, balanslaşdırılmış və balanslaşdırılmamış inflyasiya) Baxmayaraq ki, hamısı bir termində ifadə olunurlar.

Bazar iqtisadiyyatmm inkişaf etmiş ölkələrdə inflyasiyaya təsərrüfatın ayrılmaz hissəsi kimi baxırlar.Orada o çox böyük təhlükə törətmir, çünki çox geniş şəkildə inflyasiyanı məhdudlaşdıncı və tənzimləmə metodlan həyata keçirilir.

İnflyasiyanın idarə edilməsi pul-kredit və bütünlüklə iqtisadi siyasətin ən vacib problemidir.Hər bir ölkə inflyasiyam aradan qaldırmaqda öz yolunu seçir.Ölkəmizdə inflyasiya nəinki iqtisadiyyatın düşməsi həm də büdcə kəsri ilə əlaqədardır.Buraya həmçinin təcili hərbiləşdirməni aid etmək olar.Bunun sayəsində Azərbaycanda inflyasiya hiper vəziyyətə çatmışdır.

Yüksək templi inflyasiya müəssisələrin stabilləşdirilməsinə, maliyyə sahələrinə, ölkənin iqtisadi

inkişafına, onun əhalisinə, xalqm dövlətə olan inamına mənfi təsir göstərir.İnflyasiya çox vaxt dövlətin hər-hansı fəaliyyəti sayəsində meydana çıxır, dövlətin siyasətinin dəyişməsi, ikincisi isə müharibə və kəskin çevrilişlərin yaranması ilə baş verir.

İnflyasiyamn xarakteri və mövcudluğu üzrə iqtisadi nəzəriyyə və konsepsiyalarda xeyli debatlar mövcuddur: klassik iqtisadi məktəbin nümayəndələri inflyasiyanın artıma təsirini onun qənaətə təsiri nöqteyi-nəzərindən izah etməyə çalışır, keynsçilər AD-AS strukturunu artım və inflyasiya ilə əlaqələndirən model təqdim edir, monetarçılar pul-kredit münasibətlərinin inflyasiyadakı kəskin rolunu təkrarən qeyd edir, neoklassiklər və artımm endogen nəzəriyyəsinin tərəfdarları isə inflyasiyanm iqtisadi artım üzərindəki təsirini onun investisiya və kapitala təsiri nöqteyi-nəzərindən təhlil edirlər.Azərbaycanda inflasiyanin keyfiyyət göstəricilərinin azalmasma təsir edən amilləri bir neçə qrupa bölmək olar. Bunlardan birincisi, istehlak səbətinin strukturunun və çəkilərinin müəyyən edilməsidir.

İstehlak səbətindəki əmtəə və xidmətlərin xüsusi çəkilərinin müəyyən edilməsi metodologiyası: Statistika Komitəsinin verdiy metodoloji məlumata əsasən, istehlak səbətində olan əmtəə və xidmətlərin çəkiləri əsasən əhalinin istehlakı, gəlirləri və xərclərinin seçmə müşahidə formalarmdan biri olan büdcə müayinələri ilə təyin edilir. İstehlak dəstinin ayrı-ayrı maddələrinin çəki payınm müəyyən olunması üçün əlavə məlumatlardan da istifadə olunur.Bura pərakəndə əmtəə dövriyyəsinin strukturu, ayrıayrı əmtəə növlərinin istehlakı haqqında məlumatlar, ekspert qiymətləndirmələri və digər rəylər aiddir.

TURİZMDƏ REKLAM TƏMİNATININ ƏSAS MƏQSƏDİ VƏ TURİZMİN İNKİŞAFINDA ONUN ROLU

Namazova L.Y.
Azərbaycan Kooperasiya Universiteti

Reklam nə deməkdir və onun turizmdə rolu nədədir?Reklam alıcılarıməlumatlandıran və bunun nəticəsində turizm məhsuluna həvəsləndirən birprosesdir. Bu proses turist agentlikləri ilə turistlər arasında əlaqə yaradır,təklif olunan məhsulun turist üçün zəruri olmasını turistlərə inandırır vəonları bu sahədə qərar qəbul etməyə hazırlayır. Lakin turist bazarındakəskin rəqabət gedir və hər bir kəs çalışır ki, öz məhsulunun üstün cəhətləriniaçıqlasın. Məlumatların alıcılara çatdırılması reklamın əsas vəzifəsidir.Qeydetmək lazımdır ki, reklam, ötürmə mənbəyindən asılı olaraq, çox da ucuz başa gəlmir. Lakin aydındır ki, o, turist məhsulunun satılmasınavə çoxlu gəlir əldə olunmasına qulluq edir, deməli turizmin inkisafınıtəmin edir. Reklam, kütləvi satışın bir aləti kimi, inkişafa və həyat tərzininyüksəlməsinə səbəb olur. O, bütün istehsalat sahələrində tərəqqiyəqulluq edir və inkişafın carçısıdır.

Azad reklamkompaniyası bazar iqtisadiyyatının vacib elementidir. Məhsulu irəlilətmək üçün marketinq strategiyası tərtibolunur. Bu cür strategiya 4 elementin kombinasiyasınıözündə əks etdirir.Bu elementlər «P» hərfi ilə başlanan ingilis sozləridir: product, price (qiymət),promotion (məhsulun irəliləməsi), place (satılma yeri). Bu üsullardanhər biri turist məhsulunu satmaq və ya müştəriləri cəlb etməkdən ötrü istifadəoluna bilər.Turizm sahəsində də reklam çarxlarının rolu danılmazdır. Bu baxımdan turizm reklam çarxının estetik və texniki cəhətdən professionallığı dünya reklam bazarının yüksək şərtlərinə uyğun gəlməlidir. 2011-ci ilin Azərbaycanda "Turizm ili" elan olunması bu sahədə reklam-tanıtım çarxlarının dünya miqyasına daha geniş şəkildə çıxarılması üçün bir vasitə idi. Ölkəmizin turizm imkanlarından bəhs edən "Azərbaycan", "Odlar yurduna xoş gəldiniz", "Ecazkar rənglər diyarı", "Bakı", "Azərbaycanı kəşf et" və s. başlıqlı reklam çarxları dünyanın bır sıra nüfuzlu telekanallarında (CNN, Euronews və s.) nümayiş olunub. Bu çarxların demək olar ki, hamısı Mədəniyyət və Turizm Nazirliyi tərəfindən maliyyələşdirilib. Bu sifarişlər özəl reklam şirkətləri və ya kinostudiyalar tərəfindən çəkilir. Məlumat üçün bildirim ki, 2010-cu ildə Mədəniyyət və Turizm Nazirliyinin maliyyə dəstəyi ilə "Azərbaycanı kəşf et" adlı turizmlə bağlı 9 dəqiqəlik çarx çəkildi. Reklam çarxı bir neçə telekanalda nümayiş olunub. Reklam çarxında dörd turistin gözü ilə Azərbaycanın təbiəti, incəsənəti, dini tolerantlığı nümayiş olunur. Bakı, müasir tikililər, otellərdən sonra bölgələrə keçid palçıq vulkanı və meşəyə səyahətlə göstərilir. Çarxda musiqidən (bəstəkar Azad Vəliyev) peşəkarcasına istifadə edilib. Hər məkana uyğun musiqi müşayiəti süjetin təsir gücünü daha da artırır.

2009-2010-cu illərdə Mədəniyyət və Turizm Nazirliyinin sifarişi əsasında "Maxmedia" reklam agentliyi tərəfindən iki reklam çarxı çəkilib. Əsas süjet xəttini milli xalçalarımız təşkil edən bu reklam çarxlarının devizi "A Land of Magic Colors" ("Ecazkar Rənglər Diyarı") kimi səslənir.Reklam

informasiya fəaliyyətini qüvvətləndirmədən turizmin inkişafını təminetmək, Azərbaycan turizminin imicini yaratmaq mümkün deyil.

İnformasiya reklamı muxtəlif vasitələrlə məlumatları alıcılara çatdırır.Hazırda hər bir konkret turizm firmasının nəinki nüfuzu, həm də ölkə üzrə bütövlükdə turizm haqqında ümumi rəy məhz reklamdan asılıdır.

Turizmdə reklam fəaliyyətinin metodlarına gəldikdə isə, onları bir neçə növə ayırmaq olar: - informasiya materiallarının buraxılması - genişformatlı çap, informasiya bukletlərinin, turist kartlarının tərtib edilməsi və başqa poliqrafik nəşrlər turistlərə çox sayda eynitipli təkliflər arasında baş çıxarmağa və hansınasa üstünlük verməyə kömək edir, turoperatorlara isə başqa ölkələrdəki tərəfdaşlarla işi asanlaşdırır.

Bu metodlar içərisində infoturlar, famturlar da geniş yayılmışdır. Həm infotur, həm dəfamturlar marşruta daxil olan ziyarət obyektlərindən və marşrutun özündən asılı olaraq reklam və tanışlıq məqsədli turlara bölmək olar.Bu cür marşrutları reklam səfərləri də adlandırmaq olar. Reklam səfərləri - müştərilər və turizm agentliklərinin əməkdaşları üçün təşkil olunmuşdur. Birinci halda onun məqsədi həmin müştəridə öz yaxınlarına və dostlarına çatdıra biləcəyi hər hansı ölkə və ya konkret kurort haqqında müsbət təəssürat formalaşdırmaqdır. İkinci halda bu, - turizm şirkətləri əməkdaşlarının ölkə və ya kurortların bütün üstünlükləri ilə "yerində" tanış etmək imkanıdır ki, bu da gələcəkdə onlara belə turları daha fəal surətdə təklif etməyəimkanverəcək;

Kütləvi informasiya vasitələri ilə iş - televiziya proqramlarında reportajlar, jurnallarda məqalələr, qəzetlərdə informasiya-reklam qeydləri-turizmin reklam təminatında xüsusi yer tutur. Məşhur insanların - siyasətçilərin, televiziya və incəsənət xadimlərinin fikirləri xüsusilə təsirlidir, belə ki, insan psixoloji olaraq pərəstiş etdiyi qəhrəmanının zövqünə etibar edir: əgər bu onun xoşuna gəlirsə, mənə də xoş olacaq. Reklam-kampaniyalara nümunələr çox ola bilər. Bunlar həm kurort regionunun diqqətəlayiq yerləri haqqında sənədli filmlər, həm əyləncəli proqramların çəkilişi üçün gözəl guşələrdən istifadə, həm tematik sərgilərin təşkil edilməsi, həm turizm regionunun ənənə və mədəniyyətinin populyarlaşdırılması və s. ola bilər.Reklamda əsas odur ki, bütövlükdə turizmin inkişafının xeyrinə olacaq ictimai rəy formalaşdırmaq üçün onunla məqsədyönlü məşğul olmaq lazımdır.

Ölkədə turistləri cəlb edə biləcək hər hansı böyük tədbirin təşkil edilməsi də ən böyük reklam vasitəsidir.Buna parlaq nümunə Eurovision mahnı müsabiqəsinin uğurla keçirilməsi olmuşdur. Bundan başqa, Bakı -2015 Avropa oyunlarının keçirilməsi, eyni zamanda, Bakı-2016 Şahmat Olimpiadası, Bakı-2017 İslam ölkələri üzrə idman oyunlarının keçirilməsinin nəzərdə tutulması artıq dünya arenasında Azərbaycan turizm sənayesinin hansı səviyyədə yerləşməsini göstərən xüsusi məqamlardır.

AZƏRBAYCANDA İNVESTİSİYA SİYASƏTİ VƏ İNVESTİSİYA FƏALİYYƏTİ

Əsgərli Y.R.
Azərbaycan Dövlət İqtisad Universiteti

Bazar iqtisadıyyatının hakim olduğu müasir dövrdə hər bir iqtisadiyyatın inkişaf istiqamətinin əsasında investisiya və onun fəaliyyət dairəsi əsas yer tutur. Müasir dövrdə aparılan tədqiqatlardan məlum olur ki, investisiya anlayışı geniş məzmuna və tərkibə malikdirç beləki investisiyaya iki aspektden makroiqtisadiyyat və mikroiqtisadiyyat araşdırılır.

Makroiqtisadiyyatda investisiya qoyuluşları ümumi xərclərin tərkib elementlərindən biridir. Belə ki, fabrik, zavod, yaşayış binalarının tikilməsi, yeni maşın və avadanlıqların alınması, həmçinin cari ildə istehsal edilmiş, lakin istehlak olunmamış əmtəə-material qiymətləri investisiya kimi qəbul edilir.

Mikroiqtisadiyyatda isə investisiya yeni kapitalın istehsalın maddi-əşya elementlərinin yaradılması, həmçinin şəxsi amilini, insanın lazımi bacarıqlara və vərdişlərə yiyələnməsinə vəsait sərfi kimi başa düşülür.

Bazar iqtisadiyyatı şəraitində investisiya siyasətinin ən səciyyəvi xüsusiyyətlərindən biri mövcud müəssisələrin texnika ilə təchizinə və yenidən qurulmasına yönəldilən əsaslı vəsait qoyuluşunda avadanlıq və maşınlar üçün məsrəfin xüsusi çəkisini yüksəltməkdən ibarətdir. Bu istiqamətdə xərclərin getdikcə artması əsas istehsal fondlarının yeniləşməsinə səbəb olur.

Müasir dövrdə bu istiqamətdə ölkə iqtisadiyyatında əhəmiyyətli keyfiyyət dəyişiklikləri aparılır. Belə ki, əsas investisiya siyasətinin formalaşmasına diqqət daha da artırılır. İnvestisiya qoyuluşları vasitəsilə iqtisadiyyatın strukturunun təkmilləşdirilməsində əhəmiyyətli keyfiyyət dəyişiklikləri həyata

keçirilir. Bu məqsədlə əsasən investisiya siyasətinin formalaşmasına diqqət artırılır, çünki investisiya sferası təsərrüfat mexanizminin təkmilləşdirilməsində mühüm əhəmiyyət kəsb edir.

İnvestisiya siyasəti dedikdə, investisiya qoyuluşlarının əsas istiqamətlərini iqtisadiyyatın aparıcı sahələrində cəmləşdirilməsi üzrə kompleks tədbirləri müəyyən edən təsərrüfat qərarlarının məcmusu başa düşülür. İnvestisiya vasitəsi ilə respublikanın makro-mikro iqtisadiyyatının yüksək inkişafına nail olunur. Eyni zamanda iqtisadiyyatın tarazlığı, onun səmərəliliyinin yüksəldilməsi və milli gəlirin artımı təmin edir.

Azərbaycanın investisiya siyasətinin əsas məqsədi elmi-texniki nailiyyətlərin tətbiqi hesabına, əsas fondların yeniləşdirilməsinin və istehsalın yenidən qurulmasının həyata keçirilməsinin təmin edilməsidir. Azərbaycanın investisiya siyasətinin mühüm istiqamətlərindən aşağıdakıları göstərmək olar:

- mərkəzləşdirilmiş qaydada maliyyələşdirməni azaltmaqla, onlardan əsasən ümum dövlət obyektlərinin investisiyalaşdırılması üçün istifadə etmək;
- investisiyaları ən çox iqtisadiyatın prioritet sahələrinin inkişafına yönəltmək;
- investisiya resursları bazarını təşkil etmək;
- mənzil tikintisi və digər investisiya layihələrinin reallaşdırılması üçün əhalidən toplanan resurslardan istifadəni genişləndirmək;
- investisiya sığortası üzrə hüquqi bazanın yaradılması;
- birgə dövlət – kommersiya maliyyə investisiya layihəsi və o cümlədən, fərdi biznes;
- investisiya tsiklinin davam etməsi müddətinin qısaldılması

İnvestisiya fəaliyyətinin dövlət tənzimlənməsində, ölkədə vahid iqtisadi, elmi-texniki, sosial siyasətin həyata keçirilməsi üçün kompleks tədbirlər sistemi başa düşülür. Bu tədbirlərin maliyyələşdirilməsi respublika və yerli büdcələr və şəxsi vəsaitlər hesabına yerinə yetirilir. İnvestisiya qoyuluşları başlıca olaraq ölkənin ictimai tələbatının ödənilməsinə, iqtisadiyyatın strateji sahələrinin inkişafına yönəldilir. Təsərrüfat və mülkiyyət formalarından asılı olmayaraq respublikada investisiya qoyuluşları fəaliyyətdə olan ölkə qanunvericilik aktları ilə tənzimlənir. Dövlət, respublikanın sosial-iqtisadi inkişafını tənzimləmək və habelə, xalq təsərrüfatında lazımi nisbətlərin yaradılması, istehsal və sosial infrastrukturunun formalaşmasına da ciddi nəzarət edir.Məlum olduğu kimi, hər hansı bir istehsal və sosial sahələrinin yaradılması, yenidən qurulması, genişləndirilməsi və beləliklə, məşğulluğun təmin edilməsi müvafiq investisiya qoyuluşlarını və ondan daha səmərəli istifadə edilməsini tələb edir.

Bunun üçün ölkə lazımi maliyyə, material resurslarına malik olmalıdır. Əks halda milli iqtisadiyyatın formalaşdırılmasını və inkişafını təmin etmək məqsədilə ölkəyə xarici investorların cəlb edilməsi zəruriyyətə çevrilir. Məhz buna görə də, müasir bazar iqtisadiyyatı şəraitində respublikamızda xarici ölkələrin marağına və Azərbaycan milli iqtisadiyyatının inkişafına tam uyğun olaraq, qarşılıqlı investisiya qoyuluşlarının həyata keçirilməsi imkanı yaradılır.

İnvestisiya fəaliyyəti dedikdə, investisiya qoyuluşlarının və onun həyata keçirilməsi ilə bağlı olan bütün proseslərin məcmusu başa düşülür. İnvestisiya fəaliyyətinin aşağıdakı əsas növlərini göstərmək olar:

- istehsalata və sosial sahələrə elmi-texniki tərəqqinin nailiyyətlərini tətbiq etmək istiqamətində investisiya fəaliyyəti;
- dövlət, qeyri-dövlət, müəssisə, idarə, təşkilatlar və fiziki şəxslər tərəfindən həyata keçirilən investisiya fəaliyyəti.

Bu fəaliyyətlərə xarici dövlətlər, beynəlxalq maliyyə təşkilatları, xarici vətəndaşlar və fiziki şəxslər tərəfindən qoyulan investisiya fəaliyyəti də daxildir.

İnvestisiya fəaliyyəti, investisiya bazarında həyata keçirilir ki, bu da öz növbəsində kapital qoyuluşu bazarını əsas fondların təkrar istehsalı üçün, əmlak bazarını, qiymətli kağızlar bazarını, intellektual mülkiyyət və hüquqlar bazarını, investisiya layihələri bazarını özündə birləşdirən bir sıra müstəqil seqmentlərə bölünür. İnvestisiya fəaliyyətinin ümumi prinsiplərində bu bazarlar investisiyaların obyektlərinə görə fərqlənirlər. Bu isə aparılan təhlilin forma və metodlarının iqtisadi səmərəliliyinin qiymətləndirilməsini, investisiyanın risklik səviyyəsini və etibarlığını müəyyən edir.

İnvestisiya fəaliyyətinin səmərəliliyinin yüksəldilməsində subyektlərin də düzgün seçilməsi həlledici amilə malikdir. Məhz buna görə də Azərbaycan Respublikasının «İnvestisiya fəaliyyəti haqqında» Qanununda qeyd edilmişdir ki, xarici ölkələrin vətəndaşları və hüquqi şəxslər, vətəndaşlığı olmayan şəxslər, dövlətlər investisiya fəaliyyətinin subyektləri hesab edilə bilər. Məlum olduğu kimi, investisiya obyektlərinə cəlb edilən maliyyə, maddi və intellektual sərvətlərin istifadə olunmasına yönəldilməsi üçün müvafiq qərar qəbul edən və həmin qərarlara tam əməl edilməsini təmin edən

subyektlər investorlar hesab edilir. İnvestorlar, investisiya fəaliyyəti ilə əlaqədar olan əmanətçi, kreditor və alıcı qismində çıxış etməkdə investisiya fəaliyətinin iştirakçısının funksiyalarını yerinə yetirirlər. Mülkiyyət formasından və təsərrüfat fəaliyyətinin növündən asılı olmayaraq investisiya fəaliyyətinin həyata keçirilməsi sahəsində bütün investorlar eyni və bərabər hüquqlara malikdirlər. Azərbaycan Respublikasının ərazisində investisiya prosesinin həyata keçirilməsi zamanı yaranan münasibətlər «İnvestisiya fəaliyyəti» haqqında Azərbaycan Respublikasının 13 yanvar 1995-ci il tarixli Qanunu və digər qanunvericilik aktları ilə tənzimlənir.

Bütün investisiya fəaliyyəti Azərbaycan Respublikasının qanunvericilik aktları çərçivəsində dövlət tərəfindən tənzimlənir. Hər bir investor müstəqil olaraq investisiya qoyuluşlarının məqsədini, istiqamətini və həcmini müəyyənləşdirir və onun həyata keçirilməsində nəzərdə tutulmuş müqavilələr əsasında fəaliyyət aparır. Adətən, müsabiqəç yəni tender və hərrac yolu ilə fiziki və hüquqi şəxslər investisiya fəaliyyətinə cəlb edilə bilərlər.

İnvestisiya fəaliyyətinin müsbət nəticələrindən biri də bazar iqtisadiyyatı şəraitində məşğulluq probleminin həlli ilə bağlıdır. Məşğulluq haqqında qərb alimlərinin Seyin, Keynsin fikirlərinə tam uyğun olaraq qeyd etmək lazımdır ki, investisiya ilə məşğulluğun son dərəcə sıx və qarşılıqlı əlaqəsi mövcuddur. Belə ki, investisiya qoyuluşunda son məqsəd maksimum mənfəət əldə etməkdirsə, buna nail olmağın başlıca vasitəsi isə ölkədə məşğulluğun tənzimlənməsidir. Bunun üçün ölkənin malik olduğu milli sərvətlərdən tam və səmərəli istifadə edilməsi lazımdır. Cəmiyyətə istənilən həcmdə maddi nemətlər istehlak etmək və onun müqabilində xidmətlər göstərmək kimi problemlər investisiya qoyuluşlarının həcmindən və strukturundan bilavasitə asılıdır. Güclü iqtisadi potensiala malik olan ölkələrin təcrübəsi göstərir ki, istehsalın genişləndirilməsi, onun artım tempinin sürətləndirilməsi, bu sahədə çalışanların sayının getdikcə azalmasına, xidmət sferasında isə çalışanların sayının getdikcə azalmasına, xidmət sferasında isə çalışanların sayının artmasına gətirib çıxarır. Məhz buna görə də ölkədə daxili və xarici investisiya qoyuluşlarının artırılması əsasən iki istiqamətdə həyata keçirilməlidir. Birinci növbədə istehsal strukturunu bazar tələbatına səmərəli uzlaşdırmaq, idxalı azaltmaq və ixracı isə çoxaltmaq, digər tərəfdən isə istehsalın hər bir mərhələsində müvafiq sosial infrastrukturun inkişafının təmin edilməsidir. Aydındır ki, hər bir sahibkar öz fəaliyyətində lazımi qazanc-mənfəət əldə etmək fikrindədirsə, o, istər-istəməz istehsal heyətinin sosial vəziyyətini, xüsusilə əmək şəraitinin getdikcə yaxşılaşdırılmasını təmin etməlidir.

Bununlada belə bir nəticə çıxır ki, investisiya siyasəti və onun fəaliyyətinin nəticəsi olaraq ölkə ərazisində rifah halı yaxşılaşdırılır, iqtisadiyyatın davamlı inkişafına nail olunur. Yəni dövlətin iqtisadi inkişafı onun heyata keçirdiyi investisiya siyasəti ilə birbaşa və qarşılıqlı əlaqədədir.

AZƏRBAYCAN RESPUBLİKASINDA İNNOVASİYANIN TƏNZİMLƏNMƏSİ İSTİQAMƏTLƏRİ

Qasımzadə C.T.
Azərbaycan Dövlət İqtisad Universiteti

Müasir dövrdə iqtisadiyyatın təkamül tapıb inkişaf etməsində innovasiya prosesi mühüm rol oynayır. İnnnovasiya fəaliyyəti müəssisənin sərəncamında olan iqtisadi ehtiyatları yanaşı, eyni zamanda istehsal, bölgü, mübadilə və istehlakla əlaqədar olan münasibətlərin bütün kompleksini əhatə edir.Innovasiya fəaliyyətinin təşkilinin əsas cəhəti ondan ibarətdir ki, o, elm və texnikanın hərtərəfli tətbiqinə, yeni növ məhsulların işlənib hazırlanmasına, mütərəqqi texnoloji proseslərin yaradılmasına, mövcud məhsul növlərinin keyfiyyətinin yaxşılaşdırılmasına və əmək vasitələrinin modernləşdirilməsinə, yaradıcılıq axtarışlarına və yeniliklərə, iqtisadi artımın əldə edilməsinə və s. yönəldilmişdir.

Azərbaycanda texnolgiyanın inkişafı ibtidai icma dövründən bu günə kimi uzun inkişaf yolu keçmişdir. Aydındır ki, ibtidai icma dövründə icma münasibətlərinin əsasında duran məhsuldar qüvvələr az inkişaf etməklə iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil etmişdir. Lakin ibtidai icma quruluşu dağılması ilə yaranan dövlətlərdə də,ümumiyyətlə SSRİ-nin tərkibə daxil olana qədər iqtisadiyyatda kənd təsərrüfatı üstün mövqe tutmuşdur. SSRİ dövründən başlayaraq ölkədə elm tutumlu sahələr inkişaf etməyə başladı. Sovet Azərbaycanının texnoloji inkişaf tarixi 1920-1992-ci illər arasında davam etmişdir. Bu illər ərzində iqtisadiyyatda əvvəl neft sənayesi və birbaşa onunla bağlı digər sənaye sahələri inkişaf etməyə başladı. 1970-ci ildən sonra isə texnoloji inkişaf bir sıra yeni istehsal sahələrinin yaradılması və genişlənməsi ilə xarakterizə olunmuşdur. Bütün bu inkişaflara baxmayaraq, Azərbaycanın əsas inkişaf

dövrü müstəqilliyimiz bərpa olunandan sonra əldə edildi. Düzdü,1992-2007-ci illərə uyğun olan Azərbaycan müstəqilliyi dövründə Sənayədə radikal və təkmilləşdirici innovasiyalar tətbiq olunmurdu. Azərbaycan sənayesi tənəzzül dövrünü yaşayır, SSRİ dövründə yaradılmış radikal və təkmilləşdirici innovativ məhsullar hesabına istehsal davam edir, ama məhsul istehsalı kəskin şəkildə aşağı düşmüşdür. Ölkəmizdə iqtisadi inkişafın ləngiməsinə səbəb iqtisadiyyatda qeyri müntəzəmliklərin əmələ gəlməsi, o dövrdən qalan texnoloji strukturun köhnəlməsi və idarəetmədəki çatışmazlıqlardır. Ölkədə uzun illər istehsalın inkişafının ekstensiv amillər əsasında fəaliyyət göstərməsi elmi-texniki potensialın və innovasiya potensialının təkrar istehsal qanunauyğunluqlarını, onun idarə edilməsi problemlərini önə çəkmişdir.

Azərbaycan sənayesini düşdüyü böhran vəziyyətindən çıxarıb inkişaf etdirmək üçün ölkənin elmi-texniki və innovasiya potensialının saxlanılması və inkişafı strategiyasını işləyib hazırlamaq lazım gəldi. Bu strategiya aşağıdakı istiqamətləri özündə əks etdirir:

1. Maddi, maliyyə və intellektual resursların təmərküzləşdirilməsini nəzərə almaqla sənayenin müxtəlif sahələrində elmi-texniki potensialın restrukturizasiyasının aparılması;

2. Bahalı cihaz və avadanlıqlarından istifadə etməklə elm tutumlu məhsulların istehsalı ilə məşğul olan innovasiya fəaliyyəti subyektləri üçün effektiv bazar mexanizmi kimi lizinqdən istifadə sisteminin işlənib hazırlanması;

3. Innovasiya fəaliyyətini genişləndirmək və kapital bazarının inkişafına şərait yaratmaq üçün bank kreditinin cəlb edilməsi sistemi mexanizmlərinin təkmilləşdirilməsi;

4. Neftin, neft məhsullarının və qazın ixracından alınan mənfəətin bir hissəsinin innovasiya fondu yaratmaq üçün ayrılması və istifadəsi;

5. Elmi-texniki işçilər, alimlər və mütəxəssislərin iştirakı ilə innovasiya layihələrinin işlənməsi və idarə olunması institutunun yaradılması;

6. Innovasiya fəallığının əhəmiyyətli dərəcədə artırılmasını təmin edən vergi sisteminin tətbiq edilməsi.

Bildiyimiz kimi hazırkı dövrdə texniki tərəqqinin inkişafına diqqətin artırılması zəruriləşmişdir. Bu istiqamətdə texnoloji strukturun bazar münasibətlərinə uyğun inkişaf etdirilməsi məsələsi qarşıda durur. Bu məqsədlə innovasiya fəaliyyəti subyektlərinin bazar münasibətlərinə uyğunlaşdırılması təmin olunmaqla, fəaliyyətin dövlət tənzimlənməsi sisteminin yaradılması zəruridir. İnnovasiya fəaliyyəti bir qayda olaraq yüksək risklə bağlı olduğundan dövlətin tənzimləmə mexanizmi bazar iqtisadiyyatı şəraitinə uyğunlaşa bilən innovasiya biznesinin yaranması, istehsalın yenidən qurulması və elmi təşkilatların fəaliyyət istiqamətlərinin məqsədyönlü, adekvat dəyişilməsini və elmi-texniki kompleksin təşkilati strukturunun yenidən qurulmasını əhatə edən qlobal məsələlərdən biridir. Bu mexanizm normativ-hüquqi və təşkilati-iqtisadi tədbirlərin həyata keçirilməsini nəzərdə tutmalıdır Bu tədbirlə aşağıdakı istiqamətlərdə aparılır:

1. Əlverişli iqtisadi şəraitin yaradılması:

- özəlləşdirilən sənaye müəssisələrinin struktur dəyişikliklərinin yeni texnika və texnologiyadan istifadə etməklə aparılması;
- maliyyə vəsaitlərinin istehsalat müəssisələrinin yenidən qurulmasına cəlb edilməsinin stimullaşdırılmasını təmin edən sağlam maliyyə bazarının yaradılması;
- rəqabəti təmin edən dövlət tənzimləmə qanunvericiliyi sisteminin yaradılması və s.

2. Əlverişli elmi-texniki mühitin yaradılması:

- elmi kadrların ixtisas yönümünün dəyişdirilməsi sisteminin yaradılması;
- dövlət sifarişləri sisteminin formalaşdırılması və bunun üçün məqsədli maliyyələşdirmənin tətbiqi;
- sənaye müəssisələri və elmi təşkilatların kooperasiyasının dəstəklənməsi;
- elmi-texniki sahədə kiçik sahibkarlıьın dövlət dəstəyi və s.

3. Innovasiya fəaliyyətinə şərait yaradan investisiya iqliminin formalaşdırılması:

- innovasiya xərclərinin stimullaşdırılması, yeni texnologiyalara əsaslanan maşınqayırma sənayesinin məhsullarının ixracının genişləndirilməsini təmin edən vergi sisteminin yaradılması;
- innovasiya biznesinin subyektlərinə güzəştli kreditlərin verilməsi mexanizminin işlənib hazırlanması.

4. Elmi, elmi-texniki və innovasiya fəaliyyəti ilə məşğul olan müəssisələr şəbəkəsinin yaradılması:

- müəssisələrin potensial imkanlarının qiymətləndirilməsi və müflisləşmə meyarının seçilməsi;
- müflisləşmiş müəssisələrə dövlət yardımı, köməyi mexanizminin yaradılması;

- elmi müəssisələrin inventarizasiyası, attestasiyası və dövlət akkreditasiyası sisteminin yaradılması və s.

Dövlət eyni zamanda innovasiya fəaliyyətinin reallaşmasını birbaşa və dolayı tənzimləmə metodlarından istifadə etməklə həyata keçirir.

-İnnovasiya fəaliyyətinin dövlət tənzimlənməsinin birbaşa metodları aşağıdakılardır:

-Dövlət büdcəsi hesabına ETTKİ-nin və innovasiya layihələrinin maliyələşdirilməsi;

-Uzunmüddətli prespektivə elm və texnikanın inkişaf proqnozlarının işlənib hazırlanması , eləcə də innovasiya proseslərinin orta müddətli inkişaf meyllərinin qiymətləndirilməsi;

-Dövlət innovasiya strukturunun formalaşdırılması;

-İqtisadiyyatın sahibkarlıq sektoru üçün innovasiya menecmenti sferasında kadrların hazırlanması;

-ETTKİ nəticələrinin istehsala tətbiqinə yardım göstərmək.

İnnovasiya fəaliyyətinin dövlət tənzimlənməsinin birbaşa metodlarına isə aşağıdakıları aid etmək olar:

-Vergi güzəştləri;

-Sürətli amortizasiya siyasəti;

-Güzəştli kreditləşmə;

-Maliyə lizinqinə dövlət köməyi;

-Françayzinqin stimullaşdırılması tədbirləri və s.

Son illər ölkəmizdə aparılan uğurlu islahatlar, quruculuq işləri, iqtisadiyyatda baş verən dinamika, qeyri-neft sektorunun inkişafında müsbət nəticələr əldə olunmuş, regionların sosial-iqtisadi inkişafı, əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində mühüm tədbirlər həyata keçirilmişdir. İnnovasiya fəaliyyətinin stimullaşdırılması məqsədi ilə innovasiya fəaliyyətinin normativ-hüquqi tənzimlənməsi, müxtəlif qanun və normativ aktların qəbul edilməsi və iqtisadiyyata tətbiq edilməsi nəzərdə tutulmuşdur. Azərbaycan Respublikası prezidentinin 2010-cu il 19 fevral tarixli Fərmanı ilə yaradılmış "Azərbaycan Respublikası Prezidenti yaninda Elmin İnkişafı Fondu" innovasiya fəaliyyətini stimullaşdırmağa istiqamətlənmişdir. Dövlət innovasiya siyasətinin əsas istiqamətlərindın biri olan elm və təhsil sahəsinə göstərilən qayğının ardıcıl davam etdirilməsi, elmi-texniki potensialın qorunub saxlanması, elm və təhsil sahəsində yüksək ixtisaslı kadrların hazırlanması, onlara qayğı göstərilməsi, cəmiyyətdə elmi işçilərin nüfuzunun artırılması sahəsində mühüm qərarlar qəbul edilmişdir.

Bütün yuxarıda qeyd edilənlərlə yanaşı, innovasiya fəaliyyətinin davamlı inkişafını təmin etmək üçün ölkədə elm və təhsilin inkişafına nail olmaq lazımdır. Hazırda Azərbaycanda elm və təhsilin inkişafı dövlət siyasətinin mühüm prioritetlərindın biridir. Bu məqsədlə Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 4 may tarixli 255 nömrəli sərəncamında "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiya" da fundamental elmlər üzrə tədqiqatları genişləndirmək və fundamental elmlər üzrə araşdırmaların müasir tələblərə çatdırılması vəzifələri təsbit edilmişdir.

Biliklərə əsaslanan iqtisadiyyatı inkişaf etdirmk məqsədilə əsas görüləcək işlər aşağıdakılar olmalıdır:

-iqtisadi və institusional sistemin adekvatlığını təmin etmək;

-insan kapitalının formalaşmasını təmin edən güclü sosial bazanın təminatı;

-dinamik informasiya infrastrukturu və informasiyanın geniş kütləyə çatdırılmasını təmin edən səmərəli milli sistemin təsisatı.

Elm və təhsil, yüksək ixtisaslı kadr potensialı hər bir dövlətin davamlı sosial-iqtisadi, mədəni-intellektual yüksəlişinin əsas təminatı qismində çıxış edir. İntellektual potensial əhəmiyyətinə və gətirdiyi dividendlərə görə indi hətta zəngin təbii sərvətləri də üstələyir. Müasir dünyada rəqabətə tab gətirmək üçün ilk növbədə təhsilə, zəngin biliklərə, informasiya texnologiyalarına, innovasiya iqtisadiyyatına arxalanmaq lazımdır.

НЕКОТОРЫЕ АСПЕКТЫ ПОВЫШЕНИЯ РОЛИ ФИНАНСОВОГО КОНТРОЛЯ В ПЛАНИРОВАНИЕ ГОСУДАРСТВЕННОГО БЮДЖЕТА

Солтанова Л.А.
Азербайджанский государственный экономический университет

Центральное место в системе финансовых балансов занимает государственный бюджет. Он, в отличие от сводного финансового баланса, ежегодно утверждается в виде закона и представляет собой систему экономических отношений по планомерному формированию и использованию централизованного фонда денежных средств государства.

Государственный бюджет — важнейший финансовый документ страны. Он представляет собой совокупность финансовых смет всех ведомств, государственных служб, правительственных программ и т. д. В нём определяются потребности, подлежащие удовлетворению за счёт государственной казны, равно как указываются источники и размеры ожидаемых поступлений в государственную казну.

Планирование государственного бюджета является процессом разработки предложений по определению объемов поступлений бюджета на планируемый период и направлений их использования с учетом приоритетности и в соответствии с задачами социально-экономического развития государства. Бюджет планируется на один финансовый год. Одновременно с проектом бюджета на очередной финансовый год составляется прогноз бюджета на предстоящий трехлетний период.

Расходы государственного бюджета – это экономические отношения, возникающие в связи с распределением фонда денежных средств государства и его использованием по отраслевому, целевому и территориальному значению. Категория расходов бюджета проявляется через конкретные виды расходов, каждый из которых может быть охарактеризован с качественной и количественной сторон. Качественная характеристика позволяет установить экономическую природу и общественное назначение каждого вида бюджетных расходов, количественная – их величину.

Бюджетные расходы имеют разнообразные формы проявления, что связано с действием ряда факторов: природой и функциями государства, уровнем социально-экономического развития страны, разветвленностью связей бюджета с народным хозяйством, формами предоставления бюджетных средств и т.д. Сочетание названных факторов на каждом из этапов развития государства порождает такую систему расходов, которая соответствует потребностям экономики, типу и уровню управления ею. Бюджетные расходы классифицируются по определенным признакам:

По роли в общественном производстве расходы государственного бюджета подразделяются на две части, одна связана с развитием материального производства, совершенствованием его отраслевой структуры, другая используется на содержание и дальнейшее развитие непроизводственной сферы.

Экономическая группировка бюджетных расходов по их общественному назначению отражает выполняемые государством функции – экономическую, социальную, оборонную и др. В соответствии с общественным назначением все расходы бюджета могут быть подразделены на четыре группы: народное хозяйство, социально-культурные мероприятия, оборона, управление. Основу отраслевой группировки расходов государственного бюджета составляет общепринятой деление экономики на отрасли и виды деятельности. Исходя из него расходы в производственной сфере подразделяются по отраслям народного хозяйства: на развитие промышленности, сельского хозяйства, капитального строительства, транспорта, связи, торговли и т.д.; в непроизводственной – по отраслям и видам общественной деятельности; на народное образование, культуру, здравоохранение, социальное обеспечение, государственное управление и т.д. Отраслевое деление расходов бюджета позволяет выявить пропорции в распределении бюджетных средств и, изменяя их, добиваться нужных сдвигов в отраслевой структуре общественного производства. Одновременно с экономической классификацией расходов государственного бюджета используется и организационная их группировка, в основе которой лежит распределение ассигнований по целевым программам и уровням управления. Группировка расходов в разрезе

целевых программ указывает на конкретных получателей бюджетных средств, ответственных за эффективное использование выделяемых бюджетных ресурсов.

Расходы государственного бюджета тесно взаимосвязаны с его доходами. Эта взаимосвязь выражается в количественном соответствии расходов доходам, а также в их влиянии друг на друга. С одной стороны, объем расходов бюджета лимитируется жесткими рамками поступающих бюджетных доходов. С другой стороны, расходы при надлежащем использовании бюджетных средств могут оказывать обратное влияние на доходы, содействую росту производства, развитию науки и т.д.

Главный распорядитель средств соответствующего бюджета:

- определяет задания по предоставлению государственных или муниципальных услуг для подведомственных распорядителей и получателей бюджетных средств;
- утверждает сметы доходов и расходов подведомственных бюджетных учреждений,
- составляет бюджетную роспись;
- распределяет лимиты бюджетных обязательств по подведомственным распорядителям и получателям бюджетных средств;
- исполняет соответствующую часть бюджета и др.

Основными принципами планирования бюджета являются:

- принцип преемственности - планирование бюджета с соблюдением направлений среднесрочной фискальной политики, принятых за основу в предыдущий период, с учетом результатов исполнения бюджета истекшего и текущего финансовых годов;
- принцип приоритетности - планирование бюджета с соблюдением приоритетных направлений социально-экономического развития на предстоящий среднесрочный период;
- принцип обоснованности - планирование бюджета на основе нормативных правовых актов и других документов, определяющих необходимость включения в проект бюджета тех или иных поступлений или расходов и обоснованность их объемов.

Бюджет как правовая категория – это закрепленная законом форма образования и расходования денежных средств, предназначенных для обеспечения функций органов государственной и муниципальной власти, а как экономическая категория – финансовый план. Совокупность всех существующих на территории страны бюджетов, включая бюджеты государственных внебюджетных фондов (пенсионный фонд, фонд социального страхования, фонды обязательного медицинского страхования), основанная на экономических отношениях и регулируемая нормами права, образует бюджетную систему.

Учитывая специфику образования и использования бюджетных средств, а также организации и реализации межбюджетных отношений, в качестве органичной составной части финансового механизма целесообразно выделять бюджетный механизм. Бюджетный механизм представляет собой совокупность методов, инструментов и рычагов формирования и реализации бюджетных средств и межбюджетных отношений.

Основополагающие принципы и направления организации и использования финансов, а также финансового регулирования социально-экономического развития общества находят отражение в финансовой политике государства. Ее главное предназначение – обеспечение стабильного функционирования финансовой системы. От нормального функционирования финансовой системы в огромной мере зависят эффективность всей экономики, уровень жизни населения, национальная безопасность страны. Как показывает практика, даже незначительные сбои в движении финансов могут привести к расстройству всей экономической системы страны. Поэтому финансовую политику следует рассматривать как органическую часть социально-экономической политики, а стратегию развития финансов тесно увязывать со стратегическими целями социально-экономического развития общества.

НЕФТЕНАЯ СТРАТЕГИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

Мустафаев М.Я.

Азербайджанский государственный экономический университет

Азербайджан является первой страной добывающей нефть в промышленных масштабов, это началось в середине XIX века Уже в 1899 году Азербайджан вышел на первое место в мире по

добыче и переработке нефти, добывая половину мировой нефти и еще Азербайджан является первой страной которая начало добычу нефти в море это пришлось к середине XX столетия. По этой причине история нефтяной промышленности Азербайджана очень богата. После обретение независимости в 90-ых годах XX - ого столетия экономика Азербайджана в после военных годов была в упадке и нуждалась в зарубежных инвестициях.

Под руководством Гейдара Алиева была разработана нефтяная стратегия Азербайджана

Основным условием при разработке этой стратегии было соблюдение интересов, как нынешнего, так и будущего поколений

Первое соглашение, подписанное в рамках нефтяной стратегии Азербайджана, предусматривает совместную разработку месторождений "Азери", "Чираг" и "Гюнешли" в азербайджанском секторе Каспия с иностранными нефтяными компаниями. Переговоры по подготовке этого контракта продолжались более года в городе Баку, Стамбуле и Хьюстоне, и в сентябре 1994 года контракт в готовом виде был представлен для подписания. Этот контракт, основывающийся на принципе долевого распределения добычи (ДРД) предусматривает совместную разработку энергетических ресурсов вышеназванных месторождений с 11 крупными нефтяными компаниями, представляющими 8 стран мира. Впоследствии это соглашение вошло в историю под названием "Контракт века". Этот контракт заложил основу новой нефтяной стратегии Азербайджана и его сегодняшнего стремительного развития

"Контракт века" еще раз продемонстрировал Азербайджан всему миру как нефтяную страну

Благодаря нефтяной стратегии была создана нефтехимическая, нефтеперерабатывающая промышленности, составляющие основу национальной экономики

Но не смотря на все это кроме положительных эффектов нефтяного сектора и есть минусы этой сферы в экономике Азербайджана , но они в большей мере связаны с человеческим фактором, в первую очередь нефтедоллары которые начали поступать в бюджет азербайджанской республики и налоги от этой сферы сделали национальную экономику в прямом смысле этого слово зависимым от этой сферы экономики , а точнее от той большой прибыли которое оно приносило. В Азербайджане пик добыче нефти был зафиксирован в 2010 году на уровне 50,8 млн тонн что в долларах отразилось как 16 309 300 000 (более 16 млрд$), но самую высокую прибыль Азербайджан получил от продаж нефти в 2011 году 19 799 900 000 (почти 19.8 млрд$) не смотря что добыча нефти значительно упал , но цены на нефть были высоки чем в 2010 году. Следующие годы показали уязвимость нашей экономики от цен и добычи на нефть.

Кратко можно сказать , что нефтяной сектор укрепил независимость Азербайджанской республики , доходы от этой сферы начались направляться на диверсификации национальной экономики, чтоб ослабить зависимость экономики от продаж на нефть

2015 год начался не легким для Азербайджана , цена на нефть в бюджете заложена на уровне 90$, а цены рухнули ниже чем 60$ что в конце года может привести к дефициту от ожидаемых доходов на 5 млрд$ меньше , чем нужно , что в свою очередь ведет к опустошение сбережений которые составляют чуть больше 50 млрд $ которые были накоплены во времена высокой стоимости на нефть в течении примерно 10-12 лет, чтоб уменьшить риски опустошение казны и увеличить экспортную силу государства было принято решение о девальвации Азербайджанского маната со стороны центрально банка Азербайджанской республики

Учитывая нефть и газовые запасы Азербайджана новые мировые проекты как проект ШАХ ДЕНИЗ 2, можно смело сказать , что нефтяная стратегия Азербайджана принесет еще много прибыли этой стране, и еще эти проекты как , Баку Тблиси Джейхан, ТАП, ТАНАП , они дают нам возможность быть политически сильной страной и превращают Азербайджан в дальнейшем транзитную страну, потому что ожидается , что в ближнем будущем через эти нефте-газо проводы будут экспортироваться также , нефть и газ стран Туркмении , Ирана , Казахстана…

Нефтяная стратегия Азербайджанского государства уже дала свои положительные результаты, стала известной в мире и является одним из факторов, составляющих основу независимого, свободного развития Азербайджана в XXI веке.

AQRAR-SƏNAYE KOMPLEKSLƏRİ VƏ ONLARIN ÖLKƏ İQTİSADİYYATINDA ROLU

Atayev F.M.
Azərbaycan Dövlət İqtisad Universiteti

ASK-nın formalaşması və böyük nailiyyətlər qazanmasında inkişaf etmiş ölkələrin təcrübəsi diqqətə layiqdir.Bu ölkələrdə sahələrarası kooperasiyanın inkişafı ona gətirib çıxarmışdır ki,ASK çərçivəsində istehsal olunan məhsulların dəyərində kənd təsərrüfatına xidmət edən sənaye sahələri və istehsalatların xüsusi çəkisi fasiləsiz olaraq yüksəlir.Qərb ölkələrinin aqrobizneslərinin xüsusiyyəti onların əsas etibarilə ərzaq istehsalına istqamət götürməsidir.

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki,aqrar bölmədə təsərrüfatçılığın əsas forması fermer təsərrüfatlarıdır.Ona görə də ölkəmizdə ASK-da təsərrüfatçılığın çoxnövlülüyünə,onların normal fəaliyyət göstərmələri üçün hüquqi bazanın yaradılmasına və qabaqcıl təcrübə nəzərə alınmaqla onun təkmilləşdirilməsinə xüsusi diqqət yetirilir.Kənd təsərrüfatında aparılan islahatların nəticəsində təsərrüfatçılığın müxtəlif formaları əmələ gəlmişdir ki,bunların içərisində də əsas yeri kəndli (fermer) təsərrüfatları tutur.

Lakin qeyd etmək lazımdır ki,xırda fermer təsərrüfatları qabaqcıl texnika və ən yeni texnologiyalardan istifadə etmək iqtidarında deyillər.İri kənd təsərrüfatı istehsalı ilə bütün istehsal amillərindən daha səmərəli istifadə etmək imkanına malikdir.Odur ki,inkişaf etmiş ölkələrdə aqrar bölmədə fermer təsərrüfatları arasında kooperasiya və inteqrasiya prosesləri baş verir,iri aqrokoperasiyaya çevrilirlər.Kooperativ şirkətləri çərçivəsində fermer təsərrüfatları intensiv texnologiyaya yiyələnir və öz məhsullarının emalı ilə məşğul olan müəssilərlə inteqrasiyaya girirlər.Ölkəmizin kənd təsərrüfatında son 10-15 il ərzində əsas diqqət (elə indinin özündə də) iri təsərrüfatların deyil,xırda əmtəə istehsalı bölməsinin inkişaf etdirilməsinə yönəldilmiş,islahatların gedirşində buraxılmış bir sıra nöqsanlar ASK-nın fəaliyyətinin nəticələrinə mənfi təsir etmişdir.Bu proseslər kənd təsərrüfatı ilə emaledici müəssisələr arasındakı əlaqələrin pozulması və investisiya fəaliyyətinin pisləşməsi ilə müşayiət olunmuşdur.

Müasir şəraitdə kənd təsərrüfatı istehsalının effektivliyi xalq təsərrüfatının digər sahələrinin uğurlu fəaliyyətində çox asılıdır.Hər şeydən əvvəl,kənd təsərrüfatı texnikasından yanacaq-sürtgü materialları,zəhərli kimyəvi maddələrdən,mineral gübrələr,tikinti materialları,nəqliyyat vasitələri və s. asılıdır.

Kənd təsərrüfatının inkişafının dinamikası və templəri onun üçün istehsal vasitələrini hazırlayan sənaye sahələrinin istehsal səviyyəsindən asılıdır.Kənd təsərrüfatının inkişafı həm də kənd təsərrüfatı müəssisələrinə xidmət göstərən istehsal sahələrinin fəaliyyəti ilə sıx bağlıdır.Bu ilk növbədə texnikanın təmirini,kənd təsərrüfatı obyektlərinin tikintisi,istehsal vasitələriylə təmin edilməsi,məhsulların və materialların daşınması və s. üzrə sahələrə və istehsala aiddir.Kənd təsərrüfatı xammalından son məhsulun alınmasında yeyinti,toxuma və s. sənaye sahələrinin rolu getdikcə artmaqdadır.

Sənaye və kənd təsərrüfatı fəaliyyətinin xüsusi sahələrinin bazasında aqrar sənaye kompleksinin formalaşması baş verir.Bu aqrar sənaye kompleksinin iştirakçıları ayrılmaz surətdə bir-biri ilə bağlıdır və vahid son məqsədə istiqamətlərini yönəldiblər.

Aqrar sənaye kompleksi kənd təsərrüfatının inkişafı,onun istehsalına xidmət göstərilməsi və kənd təsərrüfatı məhsullarının istehlakçıya çatdırılması ilə sıx bağlı olan xalq təsərrüfatı sahələrinin məcmusunu təşkil edir.

Aqrar sənaye kompleksinin inkişafı bütün xalq təsərrüfatının potensial vəziyyətini,dövlətin ərzaq təhlükəsizliyini və cəmiyyətdə sosial-iqtisadi şəraiti müəyyən edir.

Aqrar sənaye kompleksinin əsas vəzifəsi əhalinin istehlak etdiyi mallara və yeyinti məhsullarına olan tələbatını maksimum səviyyədə ödəməkdir.Aqrar sənaye kompleksi iri xalq təsərrüfatı kompleksidir.O xalq təsərrüfatının müxtəlif sahələrinin vahid kompleksdə birləşdirilməsi üçün material-texniki,elmi-nəzəri və sosial-iqtisadi ilkin şərtlərin yaradıldığı vaxtda,20-ci əsrin 70-ci illərinin ortalarında bütöv-vahid olaraq formalaşmışdır.

Aqrar sənaye kompleksi sənaye kompleksinin son məhsulunun yaradılmasında istehsalın və işləmənin müxtəlif mərhələlərində birbaşa və dolayısı ilə 700dən çox xalq təsərrüfatı sahələri iştirak edir.Aqrar sənaye kompleksinin tərkibinə ancaq bir-biri ilə texnoloji və iqtisadi cəhətdən bağlı olan və istehsal prosesində,eləcə də son məhsulun istehlakçıya çatdırılması prosesində vasitəsi olaraq iştirak

edənlər daxildir.Yeyinti məhsullarının və istehlak edilən qeyri-ərzaq vasitələrinin istehsalında iştirak edən sahələrin münasibəti aqrar sənaye kompleksiin sahə strukturunu təşkil edir.

Ümumiyyətlə aqrar sənaye kompleksi 3 sahəni özündə birləşdirir.Birinci sahə aqrar sənaye kompleksini istehsal vasitələri ilə təmin edən,eləcə də kən təsərrüfatına istehsal texniki xidmət göstərən sahələrdən ibarətdir.BU sahələrə aşağıdakılar aiddir:

Traktor və kənd təsərrüfatı maşınları,ərzaq,mineral gübrələrin və bitkilərin qorunması üçün kimyəvi vasitələrin istehsalı,mikrobioloji sənaye,kənd təsərrüfatı texnikasının təmiri,aqrar sənaye kompleksində əsaslı tikinti və s.

Birinci sahəyə daxil olan aqrar sənaye kompleksinin qurumlarının vəzifələri bunlardır:istehsalat prosesini resurslarla təmin etmək,kənd təsərrüfatın sənayeləşdirilməsi və yenidən işləmə sənayesində texniki tərəqqi üçün baza yaratmaq,kompleksin bütün hissələrinin normal fəaliyyətinə kömək etmək.Aqrar sənaye kompleksinin birinci sahəsinə təxminən 9 min sənaye müəssisəsi,7 min tikinti təşkilatı,10 min kənd təsərrüfatına istehsal-texniki xidmıtin göstərilməsi üzrə müəssisələr daxildir.Aqrar sənaye kompleksinin birinci sfera hesabına demək olar ki,12 % istehsal edilmiş məhsulun ümumi hıcmi,11 % əsas istehsal ləvazimatı və 18 % işçi düşür.

İkinci sferaya bilavasitə kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan müəssisə və təşkilatlar daxildir.Bu sferanın tərkibinə kənd təsərrüfatı kooperativləri formaları da daxildir.

Aqrosənaye istehsalında beş qarşılıqlı əlaqəli mərhələ ayırd edilir:

-bütün aqrosənaye kompleksi sistemi üçün istehsal vasitələrinin istehsalı;

-kənd təsərrüfatı istehsalı;

-kənd təsərrüfatı xammalından hazırlanan istehlak mallarının istehsalı;

-yenidən hasilat tsiklinin bütün mərhələlərinin istehsal-texniki və texnoloji təminatı;

-hazır məhsulun satışı və s

Aqrosənaye kompleksinin üçüncü sahələri əhaliyə satış üçün kənd təsərrüfatı sahəsinin kənd təsərrüfatının ilkin sənaye emalını,onun tədarükü və saxlanılmaını,həmçinin xammalın təkrar emalını və hazır vəziyyətə gətirilməsini təmin edir.Onlar hazır məhsulun saxlanma və satış yerlərinə çatdırılmasını həyata keçirirlər.Aqrosənaye kompleksinin üçüncü sferasının sahə və müəssisələrinin payına ümumi məhsul istehsalının həcminin 43 %,bütü istehsal fondlarının 24 %-i düşür.

Ölkə əhalisinin həyat səviyyəsi aqrosənaye kompleksinin,xüsusilə də onun üçüncü sferaları-qida və emal sənayesinin vəziyyəti və inkişaf tempindən asılıdır.

Hər bir növdən olan artıq məhsulun istehsal həcmi həmin məhsulu istehlak edən həlqənin tələblərinə əsasən müəyyən olunur.Bu mərhələdə,bütövlükdə kompleksin inkişafının proporsionallığı və balanslaşdırılması təmin edilməlidir.Fondyaradıcı sahələr öz məhsullarını kənd təsərrüfatına və emal müəssisələrinə çatdırırlar.Onlar təkcə kompleksin hər bir həlqəsinin tələbatını ödəmək yox,həm də aqrosənaye istehsalı mərhələləri üzrə onların qarşılıqlı nisbətində optimallığı təmin etməlidir.Əks təqdirdə ASK-nın inkişafında qeyri-mütənasiblik yaranır ki,bu da kənd təsərrüfatı məhsulunun nəqliyyat,saxlanma və istehlakçıya çatdırılma prosesində böyük itkilərə gətirib çıxarır.

"НАЦИОНАЛЬНОЕ БОГАТСТВО И КОНКУРЕНТОСПОСОБНОСТЬ НАЦИОНАЛЬНОЙ ЭКОНОМИКИ"

Паналиева Л.Э.

Азербайджанский государственный экономический университет

Положение национальной экономики в мировой системе хозяйствования диктуется уровнем национального богатства и конкурентоспособностью страны на международных рынках товаров, услуг, капиталов.

Национальное богатство - важнейшая социально-экономическая категория, используемая для оценки экономического потенциала и уровня экономического развития страны.

Национальное богатство представляет собой совокупность накопленных ресурсов страны, её экономических активов, необходимых для осуществления процесса производства и обеспечения жизни её жителей.

Национальная конкурентоспособность определяется как результирующий относительный показатель, отражающий уровень эффективности производства, распределения и реализации

товаров как внутри страны, так и за её пределами в целях повышения собственного экономического потенциала и уровня социально-экономического развития.

В современных условиях конкурентоспособность страны является показателем состояния и перспектив развития хозяйственной системы, определяет характер её участия в международном разделении труда, выступает гарантом экономической безопасности и в общем виде представляет собой способность страны в условиях свободной конкуренции производить товары и услуги, удовлетворяющие требованиям мирового рынка, реализация которых увеличивает благосостояние населения.

На сегодняшний день национальное богатство представляет собой совокупность материального, нематериального духовного, информационного богатства общества страны и является результатом настоящего, предпосылкой текущего и будущего развития страны и её регионов. Национальное богатство можно определить как совокупность экономических активов страны, уменьшенная на стоимость её финансовых обязательств.

Человеческий капитал является наиболее ценным ресурсом современного информационного общества и наиболее важным, поскольку именно он оказывается основой конкурентоспособности, экономического роста и эффективности.

В современных условиях, когда каждый процент ВВП, а именно ВВП является основным накопителем национального богатства, может влиять на последующую динамику развития экономики и, соответственно, увеличение национального богатства.

Отражая взаимообусловленность динамических и структурных характеристик макроэкономического процесса, показатель национального богатства как итоговый макростатистический показатель, включающий систему взаимоувязанных обобщающих показателей, фиксирует необходимые пропорции, как между ценностными, так и между натуральными составляющими готового продукта, которые в своём единстве обеспечивают непрерывность процесса его воспроизводства.

Исследование теоретических аспектов конкурентоспособности национальной экономики позволяет сделать ряд следующих выводов:

1. В широком смысле слова конкурентоспособность предполагает, что ею обладает тот или иной хозяйствующий субъект, который лучше других удовлетворяет спрос на результаты своей деятельности и за этот счет обеспечивает себе длительное процветание, является конкурентоспособным. Аналогично можно судить о конкурентоспособности всей национальной экономики.
2. Уровень конкурентоспособности национальной экономики определяется отношением величины затрачиваемых ресурсов (элементов национального богатства) на единицу валового национального продукта. Он зависит от наличия в стране национальных и региональных конкурентных преимуществ.
3. Национальные детерминанты конкурентных преимуществ формируют условия функционирования всех экономических агентов страны, региональные детерминанты — специфические условия, присущие определенным регионам страны.
4. Потенциал конкурентоспособности, то есть возможности конкурировать с другими странами на внешнем и внутреннем рынках, характеризуется прежде всего доминированием отечественной продукции (товаров и услуг) на соответствующих отраслевых рынках.

Основная причина неудач в достижении конкурентоспособности — недостаточное внимание к проблемам реструктуризации и отсутствие комплексного подхода к этим вопросам. При этом реструктуризация предприятий и производств является важнейшим направлением формирования конкурентоспособности и повышения на этой основе эффективности экономики, чем и определяется актуальность проблемы.

На современном этапе развития национальной экономики отрасли промышленности адаптируются к рыночным условиям хозяйственной деятельности с разной интенсивностью и в зависимости от востребованности производимой ими продукции. Но в перспективе на передний план выходит проблема формирования такой отраслевой структуры, которая отвечала бы современным требованиям экономического роста на основе инновационного обновления производства, повышения его эффективности и конкурентоспособности, что характеризуется частотой и глубиной структурных преобразований и его адаптации к изменяющимся внутренним

и внешним условиям. Поэтому важна стратегическая эволюция отраслей, поскольку она неизбежно повлечет за собой изменение источников конкурентоспособности, что усиливает в целом целесообразность реструктуризации. При этом необходимо учитывать, что реструктуризация — комплексный, многомерный процесс, создающий условия для устойчивого роста выпуска конкурентоспособной продукции и эффективного выхода на внешние рынки.

Азербайджан за последние несколько лет улучшил свою позицию во многих мировых рейтингах. По отчетам "Глобальный индекс конкурентоспособности" в течение последних девяти лет позиция страны улучшилась на 30 пунктов: Азербайджан с 69 места из 117 экономик в 2005 году поднялся до 38 места в 2014 году.

На основе различных отчётов Всемирного Экономического Форума можно сделать следующие выводы:

1. Во всех отчетах рейтинг Азербайджана за последние годы даже во время глобального кризиса улучшился. Улучшение индексов говорит о проведенных реформах.

2. В частности, улучшились показатели страны в области государственных финансов. С каждым годом улучшается показатель по бюджетному балансу, а также индекс открытости бюджета.

3. По показателю конкурентоспособности Азербайджан находится на 38 позиции.

4. Одним из важных показателей является индикаторы, связанные с ИКТ. И в этом плане Азербайджан опережает почти все страны СНГ.

Подводя итоги, можно сказать, что благодаря правильной экономической политики, а также своевременных шагов Азербайджан смог улучшить свою позицию в мировых рейтингах.

TORPAQ RESURSLARINDAN İSTİFADƏNİN İQTİSADİ SƏMƏRƏLİYİ

Muradov R.C.
Azərbaycan Dövlət Aqrar Universiteti

Hər bir ölkə təsərrüfatının ən qədim və mühüm sahəsi kənd təsərrüfatıdır. Kənd təsərrüfatı ölkənin iqtisadi həyatında mühüm yer tutur. Belə ki, kənd təsərrüfatı sahələrində əhalinin ərzaqla təmin edilməsi üçün xammal istehsal olunur. Əhalinin istifadə etdiyi istehlak şeylərinin əksəriyyəti kənd təsərrüfatı təbiətlidir. Kənd təsərrüfatı həmçinin, iqtisadiyyatın müxtəlif sahələri üçün daxili bazar rolunu oynayır. Həyatımızda kənd təsərrüfatının rolunu ABŞ prezidenti olmuş Franklin Ruzvelt belə ifadə etmişdir: **“*Fermer bu gün ölərsə biz hamımız sabah öləcəyik ”*.**

Ölkənin iqtisadi həyatında mühüm rol oynayan kənd təsərrüfatı istehsalı iqtisadiyyatın digər sahələrindən müəyyən xarakterik xüsusiyyətlərinə görə fərqlənir. Bu xarakterik xüsusiyyətlərdən biri odur ki, kənd təsərrüfatı sahələrində əsas istehsal vasitəsi ***torpaqdır.***

Torpaq xarici mühitin mühüm amillərindən biri olub, təbiətin böyük əhəmiyyətə malik, başlıca nemətidir. O, yer kürəsinin həm daxilində, həm də səthində gedən və uzun sürən proseslərin nəticəsində yaranmış, bioloji, atmosferdir. Amillərin təsiri altında daima dəyişmiş və dəyişməkdədir. Torpaq dedikdə yalnız müəyyən bir coğrafi ərazi deyil, torpağın təkində olan nə varsa (neft, qaz, filiz, kömür və s.) hamısı, habelə meşə sahələri, su resursları, balıq sərvətləri də nəzərdə tutulur.

Azərbaycan Respublikasının ümumi torpaq fondu 8641,5 min hektar təşkil edir ki, onun 4756,5 min hektarı və yaxud 55%-i kənd təsərrüfatına yararlıdır. Ümumi ərazinin 1432,6 min hektarı və yaxud 16,6%-i suvarılan torpaqlardır.Torpaq balansı üzrə kənd təsərrüfatına yararlı sahənin 1808,4 min hektarı əkin sahəsidir. Bu sahədən 181,6 min hektarı işğal altındadır. Kənd təsərrüfatına yararlı torpaqların 224,7 min hektarı çoxillik əkmələr, 117,6 min hektarı biçənəklər, 2560,0 min hektarı örüşlər, 45,7 min hektarı isə dincə qoyulmuş sahələrdir. Ölkə üzrə həyətyanı sahələr 258,1 min hektar (ondan 227,6 min hektarı kənd təsərrüfatına yararlı), meşə sahələri isə 1038,8 min hektar təşkil edir.

Dağlıq ərazilərdə torpaqların 40 faizə qədəri müxtəlif dərəcədə eroziyaya uğramışdır. Suvarılan əkin sahələrinin təxminən 47%-i müxtəlif dərəcədə şoranlaşmışdır.

Elmi-texniki tərəqqi şəraitində torpaqdan qayğı və ondan yüksək səmərəliliklə istifadə etməklə ölkəmizin artan kənd təsərrüfatı məhsullarına tələbatını ödəmək olar. Əhalinin artımı ilə əlaqədar olaraq torpaqların qeyri-kənd təsərrüfatı obyektlərinə və fərdi tikintilər altına ayrılması, digər tərəfdən isə torpaqların eroziyaya uğraması, Xəzər dənizinin səviyyəsinin qalxması nəticəsində yeraltı suların

səviyyəsinin yüksəlməsi, melorasiya tədbirlərinin lazımınca aparılmaması əkinçilik texnologiyalarının pozulması və s. ilə əlaqədar hər nəfərə düşən əkin sahəsi ilbəil azalır. Əgər 1959-cu ildə bir nəfərə 0,36 hektar əkin sahəsi düşürdüsə, 1970-ci ildə bu rəqəm 0,23, 1979-cu ildə 0,21, 2006-cı ildə isə 0,155 hektara enmişdir. Ərzaq məhsullarına getdikcə artan tələbatı da bu deyilənlərə əlavə etsək, onda torpaqların münbitliyinin artırılması yolu ilə sahə vahidindən məhsul istehsalının artırılmasının nə dərəcə böyük əhəmiyyətə malik olduğunu da aydın şəkildə görərik.

Məhz Azərbaycan Respublikasının Prezidentinin verdiyi sərəncamlar, qəbul olunmuş Dövlət Proqramlarında da torpaqlardan istifadənin yaxşılaşdırılması, iqtisadi səmərəliyin yüksəldilməsi kimi bir çox tədbirlər planı nəzərdə tutulmuşdur. Təsadüfi deyil ki, Azərbaycan Respublikası Prezidentinin 28 iyun 2011-ci il tarixli 1578 nömrəli Sərəncamı ilə təsdiq olunmuş **"2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı**"nın həyata keçirilməsi üzrə Tədbirlər Planında da torpaqların münbitliyinin qorunması və artırılmasına dair tədbirlərin hazırlanmasına və həyata keçirilməsinə nəzarətin gücləndirilməsinə, şoranlaşmış, şorakətləşmiş, eroziyaya uğramış torpaqlarda sağlamlaşdırma tədbirlərinin görülməsinə, kənd təsərrüfatına yararlı torpaqlardan istifadə sisteminin təkmilləşdirilməsinə, torpaqların antropogen çirklənmədən qorunmasının gücləndirilməsinə və bu kimi digər məsələlərə xüsusi diqqət ayrılmış, tez bir zamanda adı çəkilən problemlərin həllinin vacibliyi vurğulanmışdır.

Torpaqlardan səmərəli istifadə edilməsi tədbirlərinin həyata keçirilməsi ilə əlaqədar olaraq kənd təsərrüfatına yararlı torpaqlardan istifadənin iqtisadi səmərəliliyinin müəyyən edilməsi əsas iqtisadi məsələlərdən biri sayılır.

Torpaqlardan istifadənin iqtisadi səmərəliliyini xarakterizə edən göstəricilərə ümumi göstəricilərlə yanaşı vahid torpaq sahələrinə düşən ümumi və xalis gəlir də daxildir. Göstəricilərə həmçinin əmək məhsuldarlığı, rentabellik səviyyəsi, maya dəyəri və s. aiddir.

Əgər torpaqlardan istifadədə iqtisadi səmərəliyi yüksəltmək, münbitliyi artırmaq istəyiriksə ən birinci ehtiyat tədbiri kimi ***meliorasiya*** işlərinin görülməsi vacibdir.

Meliorasiya - kompleks tədbirlər sistemi olub, torpaqların iqtisadi münbitliyini artırmaq və su ehtiyatlarından səmərəli istifadə etmək məqsədi daşıyır. Hal-hazırda ərzaq bolluğunu bu yolla əldə etmək olar. Meliorasiya sisteminə torpaqların şoranlıqdan yuyulub təmizlənməsi, torpağın erroziyasına qarşı mübarizə tədbirlərinin aparılması, torpaqların suvarılması, qurudulması, torpaqlara əhəng və gips verilməsi və s. daxildir. Qeyd etdiyimiz kimi Respublika ərazisinin 1,4 mln hektarı suvarılan torpaqlardı.

Torpaqdan səmərəli istifadə etmək üçün meliorasiya işləri ilə yanaşı ***yer quruluşu*** işlərinin aparılması da vacib məsələdir. Hər bir təsərrüfatda tarlaların konfiqurasiyasının əkin dövriyyəsinin tələblərinə uyğunlaşdırılması, torpaq səthinin hazırlanması, təsərrüfatlararası yolların və su kanallarının çəkilməsi aqrotexniki tədbirlərin həyata keçirilməsinə əlverişli şərait yaratmaqla, əməkdən və texnikadan səmərəli istifadə olunmasına zəmin hazırlamaqdır.

Torpaqdan istifadəni yaxşılaşdırmaq və təsərrüfatın iqtisadiyyatını yüksəltmək üçün başlıca məsələ hər vasitə ilə əkinçilik mədəniyyətinin yüksəldilməsinə nail olmaqdır.

Bu sahədə ***əkin dövriyyəsinin*** rolunu xüsusi qeyd etmək lazımdır. Belə ki, əkin dövriyyəsi sisteminə düzgün riayət etdikdə bitkilərin məhsuldarlığı 30-40%-ə qədər yüksəlir. Əkin dövriyyəsi planına əsasən bitkilərin tarlalarda düzgün növbələşməsinin böyük texnoloji və iqtisadi əhəmiyyəti vardır. Növbələşmə zamanı hər hektar torpaq sahəsindən elmi əsaslarla istifadə sayəsində torpağın münbitlik xüsusiyyətlərinin artdığını görərik. Əkin dövriyyəsinin tətbiqi ilə əlaqədar olaraq kənd təsərrüfatına yararlı torpaqlardan səmərəli istifadə edilir, eyni zamanda gələcək illərdə yüksək məhsul almağın əsası qoyulur, yem istehsalı da artır.

Torpağın iqtisadi səmərəliyinin artırılmasına birbaşa təsir edən amillərdən biri üzvü və mineral gübrələrdən səmərəli istifadə edilməsidir. Respublikamızda üzvü gübrələrə nisbətən mineral gübrələrdən daha çox istifadə olunur.

Mineral gübrələrə birlikdə digər kimyəvi vasitələrdən optimal istifadə etməklə də torpaq sahəsi vahidindən istifadənin səmərəliliyini artırmaq olar.

Torpaqlardan səmərəli istifadə etmək üçün çoxillik əkmələrin düzgün yerləşdirilməsinin də əhəmiyyəti vardır.

Torpaqlardan səmərəli istifadə etmək üçün ən mühüm məsələlərdən biri külək və su erroziyasına qarşı mübarizədir. Eroziya (lat. Ersio – yeyilmə, yuyulma) – torpağın su və küləyin təsiri altında dağılması prosesidir. Eroziya bir çox ölkələrdə (ABŞ, Çin, Hindistan, İtaliya, Rusiya, Qazaxıstan, Mərkəzi Asiya Respublikaları və s.), o cümlədən Azərbaycanda geniş yayılmışdır.

Torpaqların iqtisadi səmərəliyinin yüksəldilməsi, münbitliyin artırılması istiqamətində görülən tədbirlərdən biri də ***torpaqların aqroistehsalat quruplaşdırılmasıdır***. Bu qiymətləndirmə kənd təsərrüfatı bitkilərinin elmi əsaslarla düzgün yerləşdirilməsinə əsaslanmışdır. Respublikamızda torpaqların bonitet balı əsasında aqroistehsalat quruplaşdırılmasına daha çox üstünlük verilir.

Beləliklə, deyə bilərik ki, bütün qeyd olunan tədbirlərin və ya tədbirlər sisteminin bir məqsədi var buda ki, torpaq resurslarının iqtisadi səmərəsini yüksəltmək. Yalnız bu yolla ərzaq təhlükəsizliyi problemini həll edə, eyni zamanda torpaq resursunu gələcək nəsilə ötürə bilərik.

MƏHSULUN KEYFİYYƏTİNİN TƏMİN OLUNMASI ÜZRƏ BEYNƏLXALQ STANDARTLARIN YARANMASI VƏ İNKİŞAF TARİXİ

Mahmudov N.F.
Azərbaycan Dövlət Aqrar Universiteti

Dünyada artan rəqabət məhsulun keyfiyyətinə dair istehlakçıların qoyduqları tələblərin bir daha sərtləşdirilməsinə gətirib çıxardı. İstehlakçıların tələbləri texniki şərtlərdə göstərilir. Məhsulun hazırlanması və təchizatı sistemində uyğunsuzluq olarsa texniki şərtlər onun keyfiyyətinə zəmanət verə bilməz.

Buna görə də, texniki şərtlərdə məhsulun keyfiyyətinə qoyulan tələbatları tamamlayan keyfiyyət sistemlərinə və rəhbəredici göstərişlərə standartlar işlənib hazırlanmışdır. Beynəlxalq İSO 9000 seriyalı standartlar sənaye və iqtisadiyyatda keyfiyyəti idarəetməni təmin etmək üçün nəzərdə tutulmuşdur. İSO 9000 seriyalı standartlar müəssisə və təşkilatların keyfiyyətin menecment sisteminin tələblərini ümümiləşdirən beynəlxalq standartlardır.

Keyfiyyət sistemləri məhsulun bütün mərhələlərini əhatə edir. Beynəlxalq İSO 9000 seriyalı standartlara uyğun olaraq keyfiyyət sahəsində bu istiqamətlər əsas götürülür:

Keyfiyyətin planlaşdırılması; keyfiyyəti idarəetmə; keyfiyyətin təminatı; keyfiyyətin yaxşılaşdırılması.

Keyfiyyətin idarə edilməsi sistemlərin standartları ilk dəfə XX-ci əsrin 70-ci illərində Böyük Britaniyada işlənmişdir və 80-ci illərin ortalarında Standartlaşdırma üzrə Beynəlxalq təşkilat (İSO) bu problem üzrə 9000 seriyalı Beynəlxalq standartların işləməsinə başlamışdır. 2000-ci ildə Texniki-Komitə İSO/TK176 tərəfindən işlənmiş 9000 seriyalı beynəlxalq standartlar bu seriyalı standartların üçüncü versiyasıdır.

Birinci versiya 1987-ci ildə təsdiq olunmuşdur və bu standartlara daxildir:

- İSO 9000-87 « Keyfiyyətə ümumi rəhbərlik və keyfiyyəti təmin edən standartlar. Seçim və istifadəolunma üzrə rəhbəredici göstərişlər»;
- İSO 9001-87 « Keyfiyyət sistemləri. Layihələndirmədə və (ya) işlənmədə, istehsalda, quraşdırılmada və xidmətin göstərilməsində keyfiyyətin təmin olunması üçün model»;
- İSO 9002-87 « Keyfiyyət sistemləri. İstehsal və quraşdırmada keyfiyyətin təmin olunması üçün modeli»;
- İSO 9003-87 «Keyfiyyət sistemləri. Yekun nəzarət və sınaqlarda keyfiyyətin təmin olunması üçün model»;
- İSO 9004-87 « Keyfiyyət üzrə ümumi rəhbərlik və keyfiyyət sistemi elementləri. Rəhbərdici göstərişlər».

1987-ci ildən əsasını təşkil edən beş standartdan başqa İSO 9000 seriyalı yeni standartların işlənməsi davam edir. Seriyanın üç standartı İSO 9001, İSO 9002 və İSO 9003 normativ xarakter daşıyır və istehlakçı və üçüncü tərəf ilə xaricdən keyfiyyət sisteminin qiymətləndirilməsinə xidmət edir. İSO 9000 seriyalı beynəlxalq standartların işlənməsi bir çox dövlətlərdə keyfiyyət sistemlərinin sertifikat-laşdırması üçün normativ baza yaratmışdır.

1994-cü ildə yeni standartlara baxılmanın birinci mərhələsində standartlara əlavə olunan dəyişiliklər 1987-ci ildə qəbul olunan standartların əsas yanaşmalarına və strukturuna zidd deyildi.

2000-ci ildə İSO beynəlxalq standartların plan üzrə ikinci yenidən baxılma işləri qurtardı və İSO 9000:2000 standartların yeni versiyası qəbul olundu. Yeni versiya standartların işlənməsində TQM (Total Quality Management) və keyfiyyət üzrə beynəlxalq mükafatın elementləri nəzərə alınmışdır.

Üçüncü versiya aşağıdakı standartları daxil edir: İSO 9000 «Keyfiyyətin menecmenti sistemləri. Əsas müddəalar və lüğət», İSO 9001 «Keyfiyyət menecmenti sistemləri. Fəaliyyətin yaxşılaşdırılması

üzrə rəhbərlik». Bu versiya 15.12.2000-ci ildə təsdiq olunmuşdur. 2003-cü ilin dekabrında bu versiya ikinci versiyanı tam əvəz etdi.

Axırıncı İSO 9001 standartlarının yeni versiyasının 2013 –cü ildə hazırlanmağı nəzərdə tutulurdu,lakin ekspertlər onun 2015-ci ildə (ISO 9001:2015) tamamlanmasını ehtimal edirlər.

Dünyanın 190 ölkəsi tərəfindən milli standart kimi qəbul edilmiş İSO 9000 standartlarının fəaliyyət sferasından,mülkiyyət formasından asılı olmayaraq istənilən müəssisəyə tətbiqi mümkündür.

KADR POTENSIALINDAN SƏMƏRƏLİ İSTİFADƏ

Yusifova T.N.
Azərbaycan Dövlət İqtisad Universiteti

Kadrların öyrənilməsi onların fəaliyyəti üzərində ardıcıl nəzarətin qoyulması və təsərrüfat, sosial iqtisadi məsələlər üzrə qəbul edilmiş qərarların icrasının yoxlanılması idarə etmə fəaliyyətinin təşkili üçüm mühüm əhəmiyyətə malikdir. Ardıcıl nəzarət kadrların tərbiyə edilməsi, tapşırılmış iş üçün onların məsuliyyətinin artırılması, buraxilan səhvlərin aradan qaldırılması üçün vacibdir.

Kadır siyasətinin əsasını kadrların seçilməsi, yerləşdirilməsi və təriyə edilməsinin prinsipləri təşkil edir. Müəssisənin heyətinin sayı istehsalın və idarəetmə prosesinin xarakterindən, mürəkkəbliyindən, əmək tutumundan, işlərin mexanikləşdirilməsi səviyyəsindən, avtomatlaşdırılmasından, komputerləşməsindən asılıdır.

Kadrların fəaliyyəti üzərində nəzarətin həyata keçirilməsində idarəetmə sənədlərinin düzgün qurulmasının mühüm əhəmiyyəti vardır. Bu sənədlərdə onların şəxsi fəaliyyəti, rəhbərlik etdikləri sahələrin fəaliyyəti, həmin sahəyə aid yuxarı orqanların qəraravə göstərişləri dəqiq əks olunmalıdır. Burada kadrlaın öyrənilməsi və sınaqdan çıxarılması məsələlərinə müstəsna əhəmiyyət verilməlidir.

Kadrları seçmək üçün birinci növbədə, onları öyrənmək lazımdır. Burada anket məlumatları kifayət deyildir. Kadrların seçilməsi aşağıdakı məsələləri əhatə edir: a) bu və ya digər vəzifə üçün mümkün olan namizədlər haqqında informasiya; b) onların haqqında zərurui məlumatların təhlili; v) namizədlərin keyfiyyət göstəricilərinin məcmu halda müqayisə edilməsi; q) nəzərdə tutulan vəzifə ilə bu keyfiyyətin müqayisə edilməsi; ğ) həmin vəzifəyə daha uyğun gələn adamın seçilməsi; d) konkret adamın vəzifəyə təyin edilməsi.

Kadrlar seçilərkən və yerləşdirilərkən bir sıra xüsusi qaydalara, prinsiplərə əməl olunmalıdır. Bu qaydalardan birincisi, rəhbər işə, vəzifəyə namizədin həmin işə, yaxud vəzifəyə uyğunluğu qaydasıdır. Bu ilk baxışda çox sadə görünür. Lakin bu tələblərə həmişə əməl olunmur, bir çox hallarda pozulur, işçinin təcrübəsi, biliyi, ixtisası, texniki-texnoloji profili və s. nəzərə alınmır. Ikincisi, yaşlı rəhbər işçi ilə gənc kardrların düzgün əlaqələndirilməsi və kadrların seçilməsində onun nəzərə alınmasıdır. Üçüncüsü, rəhbər işçinin idarəetmə obyektinin rəhbərlik səviyyəsinə uyğunluğudur. Dördüncüsü, rəhbər işçidə olan keyfiyyətlərlə onun tabeçiliyində olan, onun köməkçiləri olan adamların yaxşı keyfiyyətlərinin əlaqələndirilməsidir. Bunun idarəetmə kollektivlərinin formalaşmasında, yeni keyfiyyətlərin meydana çıxmasında mühüm əhəmiyyəti vardır. Beşincisi, təsərrüfat kadrları həmdə ictimai istehsalın mənafeyini nəzərə almaqla seçilməsi tələbidir. Altıncısı, hər bir təsərrüfat rəhbəri üçün onun qabliyyətindən tam istifadə oluna bilməsi şərti ilə iş sahəsinin (vəzifənin) seçilməsidir.Müasir şəraitdə işçilərin seçilməsinə belə yanaşma nəinki effekt verir, əksinə işçi qüvvələrinə olan tələbatın ödənilməsini çətinləşdirir, həm də çox xərc tutumlu olur.

Kadrların öyrənilməsi onların üzərində ardıcıl nəzarətin qoyulması və təsərrüfat, sosial-iqtisadi məsələlər üzrə qəbul edilmiş qərarların icrasının yoxlanılması idarəetmə fəaliyyətinin təşkili üçün mühüm əhəmiyyətə malikdir. Ardıcıl nəzarət kadrların tərbiyə edilməsi, tapşırılmış iş üçün onların məsuliyyətinin artırılması, buraxılan səhvlərin vaxtlı vaxtında aradan qaldırılması üçün vacibdir. Müasir elmi-texniki tərəqqi kadrların öyrənilməsi, seçilməsi, irəli çəkilməsi və yerləşdirilməsi, habelə hazırlanmasında onların işgüzar və şəxsi keyfiyyətlərini, qabiliyyətlərini müəyyən edən obyektiv metodlardan istifadə olunmasını zəruri edir. Burada bir sıra metodlardan o cümlədən sosial məsələlər üzrə anketin doldurulması, işçilərin təfəkkürü, yaddaşı və s. bilmək üçün testlərdən, idarə etmə situasiyalardan və s.- dən istifadə olunur.

İşçi heyətinin qiymətləndirilməsi: heyətin qiymətləndirilməsi heyətlə aparılan iş sisteminin mühüm tərkib hissəsidir.

Heyətin qiymətləndirilməsi ən çətin və mübahisəyə səbəb olan bir məsələdir. Burada ən vacib məsələlərdən biri qiymətləndirmə üçün ilkin materialların toplanmasıdır. Həmin ilkin materiallar aşağıdakılardan ibarətdir:

1.İş yerlərinin modeli və onun ünsürləri (peşə biliyi və bacarığı, şəxsi keyfiyyəti, xidmət karyerası, əməyin təşkili, əməyin ödənilməsi və s.)

2.Kadrların atestatiyası haqqında əsasnamə və ilkin materiallar: atestasiya kartları, atestasiya edilənin sorğu vərəqəsi, iş yerinin modeli, əməkdaşla kontrakt, ştat cədvəli, vəzifə instuksiyası, ball qaydasında qiymətləndirmə, heyətin kompleks qiymətləndirilməsi, işçinin şəxsi keyfiyyəti (işgüzarlığı, icra intizama əməl etmə, nüfuzu, təşkilatçılığı, məsuliyyəti, tələbkarlığı və s.), işçi nəticələrinə görə fərdi töhfəsinin qiymətləndirilməsi.

1. Kadraların reytinq qiymətləndirilməsi metodu.

2. Müəssisə fəlsəfəsi (firma daxili fəhlə və qulluqçular arası qarşılıqlı münasibət prinsipləri və qaydaları, dəyərlər sistemi kollektiv müqavilə və s.)

3. Təşkilat daxili əmək qaydaları.

4. Digər ilkin məlumatlar: əməkdaşın şəxsi vərəqəsi, ştat cədvəli, sosioloji anketlər, psixoloji testlər.

Yuxarıda göstərilənlərin bəziləri həmdə heyətin qiymətləndirilməsi metodları kimi çıxış edir. Bütövlükdə heyətin qiymətləndirilməsi metodlarına aşğıdakıları aid etmək olar: ekspert qiymətləndirilməsi, kritik situasiyalar yaratmaq əsasında kritik qiymətləndirmə, xüsusi testlər əsasında testləşdirmə, işgüzar oyunlar, sosioloji sorğular, müşahidə, ranjirovka, proqram nəzarət, imtahan, biznes-planın müdafiəsi, əməyin kompleks qiymətləndirilməsi, heyətin atestatiyası.

Firma və şirkətlər heyətin qiymətləndirilməsindən, müvafiq standart və normalardan, qiymətləndirmə metodlarından istifadə edirlər. Burada ən başlıca vəzifə həm seçilmiş qiymətləndirmə meyarlarının özünün keyfiyyətli olması, həmdə əməkdaşların qiymətləndirilməsinin obyektiv aparılmasıdır. Kadrların düzgün qiymətləndirilməsi firma və şirkətlərinin səmərəli fəaliyyətinin ilkin şərtlərindən biridir.

Kadrlar müəyyən obyektiv əlamətlərə görə attestasiyadan keçirilir. Attestasiya yalnız yeni vəzifələrə irəli çəkilmək üçün deyil, işçinin işlədiyi sahədə qalmasının məqsədəuyğunluğu üçün də vacibdir. Attestasiyanın nəticələri kadr uçotu şəxsi vərəqədə qeyd olunur. Attestasiya müəyyən sayda balla ifadə olunur. Ən yüksək bal bütün keyfiyyət əlamətlərinə cavab verən işçi üçün müəyyənləşdirilir.

Rəhbər kadrlar ehtiyatını yaratmaq işini yüngülləşdirmək üçün matrisa cədvəlindən istifadə edilir. Burada hər bir rəhbər işçinin malik olmalı olduğu bütün işgüzar və şəxsi keyfiyyətlər əks olunur, bu həm ayrı-ayrı peşələr, vəzifələr üzrə konkretləşdirilir, ona görədə bu bəzən matrisa metodu adlandırılır. Matrisa ayrı-ayrı keyfiyyət əlamətlərini bal üzrə xüsusi çəkisi, vəzni müəyyənləşdirilir. Matrisa metodunun üstün cəhəti ondan ibarətdir ki, onun vasitəsilə yalnız potensial rəhbərlərindeyil, faktiki işləyənlərin də fəaliyyətini dəqiq qiymətləndirmək olar. Bu, həmçinin işçilərin mükafatlandırılması, mənəvi maraqlandırılması, habelə, onlar üçün yüksək səviyyəli maaşın müəyyən edilməsi üçün də vacib cəhətdir.

Kadrların öyrənilməsi çoxcəhətli idarəçilik fəaliyyəti ilə əlaqədardır. Bu, sosiologiya, psixologiya, o cümlədən mühəndis psixologiyası, əməyin psixologiyası, bir sıra sosial-iqtisadi məsələlərlə şərtləşir. Bütün bunlar nəticə etibarıilə birlikdə, məcmuu halında şəxsiyyətin, onun peşə-təşkilatçılıq qabiliyyətinin kompleks öyrənilməsini nəzərdə tutur. Bu zaman bir çox formalardan – anket məlumatlarından, söhbətlərdən, müşahidə və testləşdirmədəngeniş istifadə olunur. Burada hər bir formanın öz yeri və əhəmiyyəti vardır.

Kadrların seçilməsi və yerləşdirilməsinin psixo-fizioloji aspekti.

Məlumdur ki, müxtəlif istehsal prosesləri, əmək fəaliyyəti bir-birindən xeyli dərəcədə fərqlənir. Ona görədə hər bir iş sahəsi, əmək fəaliyyəti üçün kadrlar seçərkən bu cəhət hökmən nəzərə alınmalıdır. Burada başlıca cəhət işçinin psixo-fizioloji keyfiyyətinin, iş qabiliyyətinin əmək fəaliyyəti ilə uyğunluğunun təmin edilməsidir. Bu isə hər bir, peşə-ixtisas üzrə işçilərə olan tələblər və həmin tələblərdən asılı olaraq peşə seçmə, peşə təmayülü və omların konkret iş sahələri üzrə yerləşdirilməsi mexanizmi vasitəsilə həyata keçirilir. Kadrlar seçilərkən, onların peşəsini, ixtisasını və təhsilini nəzərə almaq hələ kifayət deyildir. Bu zaman onların psixo-fizioloji keyfiyyətidə nəzərə alınmalıdır. Peşə seçmə və peşə təmayülü kadrların əməyindən istifadə olunmasında mühüm əhəmiyyətə malikdir. Bu həmdə əməkdən istifadənin təşkilinin mühüm sistemidir. Bu sistemdə ayrı-ayrı əmək fəaliyyətinin və peşələrin

qarşılıqlı xüsusiyyətlərinin öyrənilməsi, onlara və adamlara olan tələblərin nəzərə alınması, həmin əmək fəaliyyəti üçün kadrların seçilməsidir.

Kadrlar seçilən zaman aşağıdakı psixomotor tələblər nəzərə alınmalıdır: işdə tələb olunan hərəkət tempi, tələb olunan hərəkətverici reaksiyanın sürəti, işdə ahəngdarığın vəziyyəti, hərəkətin tələb olunan qaydada əlaqələndirilməsi, hərəkətin xarakteri, daimiliyi, hərəkətin dəqiqliyi (zaman və məkan etibar ilə hərəkətin məhdudluğu.

Kadrlar seçilərkən aşağıdakı fizioloji tələblər nəzərə alınmalıdır:

Tələb olunan fiziki səylər, gözün tələb olunan görmə qabiliyyəti, qulağın tələb olunan eşitmə qabiliyəti, tələb olunan yaddaş qabiliyyəti, orqanizimlərin hissetmə qabiliyyəti, fiziki və zehni fəaliyyətə, iş tempinə, rejiminə dözümlülük qabiliyyəti.

Yuxarıda göstərilən psixo-fizioloji tələblər müəyyən peşələrin iş fəliyyətinə uyğun olaraq seçilməsi və onun əsasında peşəqramanın tərtib edilməsi üçün əsasdır. Bu, nəticə etibarilə adamların iş qabiliyyətinin artırılması, kadrların təlim sisteminin təkminləşdirilməsi üçün də vacibdir.

Beləliklə kadrların peşə seçilməsi və peşə təmayülü aşağıdakı üç məsələni əhatə edir: hər bir peşənin adamlardan tələb etdiyi psixo-fizioloji keyfiyyətlərin öyrənilməsi, seçilmiş peşələr üçün adamlarım yararlığının təyin edilməsi, konkret iş sahəsində işləməyə töfsiyə edilmək üçün işçinin psixo-fizioloji keyfiyyətinin müəyyənləşdirilməsidir.

Burada peşə yaradıcılığına təsir edən amillərin nəzərə alınması, yararlılıq dərəcəsinin müəyyən edilməsi üçün fizioloji meyarların eksperimənt və digər metodlarla əsaslandırılması, fizioloji mexanizmlərin öyrənilməsi, bu işdə tibbi məsləhətlərdən, həmin işlərin təşkilində tibb işçiləri ilə yanaşı sosioloqlardan, iqtisadçılardan, psixoloqlardan, onların təmsil etdikləri elmi sahələrin müddəalarından geniş və kompleks istifadə edilməsi böyük əhəmiyyət kəsb edir. Bütün bunlar kadrların seçilməsi və yerləşdiriləmsinin elmi cəhətdən əsaslandırılması üçün müstəsna rola malikdir. Bunun kadrların qabiliyyətinin obyektiv , ədalətli qiymətləndirilməsi, kadrların seçilməsində səhvə yol verilməsi hallarının azaldılması, kadr axıcılığının azaldılaması, əməyə mənəvi tələbatın formalaşması baxımındanda əhəmiyyəti vardır.

Heyətlə işin planlaşdırılması və strateji idarə edilməsi. Kadrlarla iş planı onların formalaşmasında mühüm rol oynayır. O planlaşdırma sisteminin, kadrlar siyasətinin mühüm tərkib hissəsidir. Bu hər bir müəssisə, idarə və nazirlik üzrə tərtib olunur. Burada istehsal vəzifələri, elmi-texniki tərəqqidən irəli gələn tələblər nəzərə alınır. Kadrlarla iş planı cari və perespektiv planların tərtib olunması ilə əsaslandırılır. Müəssisə, firma və nazirliklərin iş təcrübəsində kadrlarla iş planı dörd mərhələdə aparılır: birinci mərhələdə təsərrüfat rəhbərlərinin, MTİ- lərin tərbiyə edilməsi onların keyfiyyətcə yaxşılaşdırılması, ehtiyyat kadrların yaradılması, kadrların yeniləşməsi, onların attestasiyası, gənc mütəxəssislərə iş, onların yerləşdirilməsi məsələləri;

İkinci mərhələdə kadrların (əsas və əlavə tələbata uyğun olaraq), hazırlıq formaları ilə əlaqədar olan bütün məsələlər; üçüncü mərhələdə elmi-texniki tərəqqi ilə əlaqədar olaraq kadrların yenidən hazırlanması və ixtisasının artırılması üzrə işlər; dördüncü mərhələdə isə kadrların müəssisə və idarə daxili bölmələr üzrə yerləşdirilməsi, onlardan istifadənin təhlili əks olunur.

Kadr planlanlaşdırılamsında daha çox praktiki əhəmiyyət kəsb edən məsələlər aşağıdakılardan ibarətdir:

- işçilərin mövcud əmək bölgüsüvə əmək kooperasiyasına uyğun olaraq düzgün yerləşdirilməsi
- təşkilata və onun bölmələrinə hansı peşə- ixtisasdan və nə qədər işçinin lazım gəldiyini müəyyənləşdirmək
- nə qədər yeni peşədən olan işçini qəbul etmək və köhnə işçilərdən nə qədər ixtisar etmək
- işçiləri öz potensialına uyğun istifadə etmək
- əmək resurslarını, kadrları keyfiyyətcə inkişaf etdirmək, bunun üçün lazım gələn xərcləri müəyyənləşdirmək
- kadrlara olan tələbatı planlaşdırmaq
- kadrların işə cəlb edilməsinin yəşkilat daxili və xarici mənbələrini araşdırmaq, müəyyən etmək.

Heyətlə işin planlaşdırılmasına heyətin marketinqi mühüm əhəmiyyət kəsb edir. Heyətin marketinqinin ən başlıca vəzifələrindən biri işçilərə olan tələbatın və onun ödənilməsi mənbələrinin müəyyən edilməsidir. Bununla yanaşı heyətin marketinqi bazar prinsipləri əsasında kadr siyasətini, marketinq fəaliyyətinin həyata keçirməkdən ibarətdir. Həmin fəaliyyət isə müvafiq informasiyaların əldə edilməsi, firma daxili və firmadan kənar amillərin, əmək bazarı amillərinin nəzərə alınmasını, heyət marketinq planının tərtib edilməsini, müvafiq tədbirlərin görülməsinin nəzərdə tutur.

ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ ФОРМИРОВАНИЯ РЫНКА РЕКЛАМЫ В АЗЕРБАЙДЖАНЕ

Зверева А.Г.
Азербайджанский государственный экономический университет

Данная тема подразумевает под собой изучение рынка рекламы в Азербайджанской Республике и основные направления ее формирования.

На сегодняшний день рекламная деятельность занимает крайне важное место в системе социально-экономических отношений страны. Развитие данной сферы в Азербайджане идет крайне интенсивно.

Рекламный рынок подразумевает под собой определенный сектор экономики, где такие его субъекты, как рекламодатели, рекламораспространители и рекламопроизводители могут свободно контактировать друг с другом. Это место, где возникает предложение и спрос на рекламу и формируется ее стоимость.

В Азербайджане рекламная деятельность стала развиваться еще в 1990-ых годах, но широкое распространение получила уже после 2002 года. Сначала на рынке действовали в основном локальные рекламные агентства, которые были ориентиованы сугубо на местный рынок.

С течением времени в стране стали открываться представительства и филиалы крупных зарубежных «рекламщиков». К ним можно отнести McCannEricssonBaku, GennaBaku, Starcom и прочие. В стремлении не упустить клиента локальные рекламные агентства стали на путь совершенствования, увеличения, улучшения ресурсов. На данный момент существует ряд местных агентств, с которыми компании, как частные, так и государственного масштаба имеют крайне положительный опыт работы. КнимможноотнестиMaxmedia, Krea, PeachLine, 121, RedCommunications ит.д.

В стране наблюдается тенденция роста в рекламной сфере. Рекламные агентсвта выходят на международый уровень. Укрепляется сотрудничетво со странами ближнего и дальнего зарубежья.

На сегодняшний день наиболее развита в стране ТВ и Радио реклама. Доля рекламы на телевидении страны составляет около 68%. Имеет наиболее широкое географическое покрытие. Вовлеченность зрителя более 95%. Кроме того есть оборудование, которое позволяет измерять популярность тех или иных каналов и телепередач. В Азербайджане такое оборудование уже применяется, так называемые «человеко-метры».

Радио реклама – вторая по популярности в стране (около 18%) . Популярна в часы пик. Позволяет предоставить достаточно подробные отчеты по результатам рекламных кампаний.

Довольно эффективной можно считать наружную рекламу в столице и регионах страны. Среди наиболее популярных носителей – скроллеры, лайтбоксы, биллборды и призмы. Также все чаще используют мониторы. Есть возможность мониторинга в Баку, Гяндже, Мингячевире, Сумгаите, Губе, Ленкорани и Шеки.

Развивается в рекламной индустрии интернет-реклама. Наиболее популярна – реклама в социальных сетях, контекстная реклама, баннеры на популярных сайтах и развлекательных порталах.

Наименее популярной на сегодняшний день является реклама в прессе. Охват небольшой, целевая аудитория в основном не сосредоточена на чтении прессы, когда есть возможность получить всю необходимую информацию в интернет пространстве. Исключение составляют глянцевые журналы. Потенциальные клиенты рекламодателей все еще приобретают их и есть чуть больше вероятности, что ключевой посыл рекламного сообщения дойдет до них через данное средство рекламы.

Одним из сравнительно новых веяний исследуемой нами индустрии является реклама в кинотеатрах. На данный момент все больше развивается и по прогнозам бужет ялвяться довольно эффективым инструментом рекламы.

В общих чертах можно сказать, что перспективы развития рекламного бизнеса в Азербайджане крайне велики. Все больше студентов выбирает эту сферу труда.

Развитие туризма также влияет на популяризацию данного направления. Приток туристов способствует применению все более и более усовершенствованных и прозрачных способов

доставления необходимой информации целевой аудитории. Более того, страна выходит на международный уровень и есть смысл внедрять так называемую «туристскую» рекламу – создание логотипа страны, городов, которые делают упор на наиболее привлекательные и популярные акценты.

Данная работа осонована на исследовании рекламного рынка страны, на работе с крупными бизнес единицами страны в рекламном деле.

İNNOVASİYA ANLAYIŞI, NƏZƏRİ ASPEKTLƏRİ

Hacıyev T.
Azərbaycan Dövlət İqtisad Universiteti

"İnnovasiya" ingilis dilindən "innovation" sözündən götürülərək, yenilik və innovatorluq mənalarını ifadə edir. Buna baxmayaraq, iqtisadi ədəbiyyatlarda «innovasiya» anlayışına dair müxtəlif fikirlərə rast gəlmək olar. A.Abbasov qeyd edir ki, «innovasiya anlayışı ilk dəfə XIX əsrdə mədəniyyətşünaslıq üzrə elmi tədqiqatlarda bir mədəniyyətin bəzi elementlərinin digər mədəniyyətlərə daxil olmasını ifadə edirdi. Söhbət Avropa mədəniyyətinə Afrika və Asiya cəmiyyətlərinin ənənələrinin daxil olmasından gedirdi»

İnnovasiya – layihənin hazırlanmasında, planlaşdırılmasında, istifadəsində keyfiyyət üstünlüklərinə malik olan yeni məhsul, xidmət və texnologiyalar və ya yeni təşkilati-iqtisadi forma şəklində ifadə olunan, əvvəlki məhsul və ya təşkilati formalarla müqayisədə əlavə iqtisadi və ya içtimai mənfəəti təmin edən innovasiya fəaliyyətinin nəticəsidir.

İqtisadi ədəbiyyatlarda innovasiya fəaliyyəti sahəsində ümumi qəbul olunmuş terminalogiya yoxdur. Tədqiqat obyektindən və predmetindən asılı olaraq, iqtisadi ədəbiyyatda innovasiyanı proses, sistem, dəyişiklik və nəticə kimi nəzərdən keçirirlər. XX əsrin 30-cu illərində innovasiya haqqında tədqiqatların əsasını qoyan Avstriya iqtisadçısı I.Şumpeter özünün «Iqtisadi inkişaf nəzəriyyəsi» əsərində innovasiyaya texniki dəyişikliyin iqtisadi təsiri kimi baxmışdır. O, istehsal funksiyası çərçivəsində innovasiya sahibkarlığının mahiyyətini tapmağa cəhd etmiş və innovasiya prosesləri nəzəriyyəsinin əsaslarını tədqiq etmişdir. Yeniliyə texnologiyanın və idarəetmənin dəyişməsi kimi baxan alim, innovasiya prosesində sahibkarın rolunu qeyd etmiş və onu ixtira ilə yenilik arasında əlaqələndirici adlandırmışdır.

Dünya iqtisadi ədədbiyyatında «innovasiya» termini potensial elmi-texniki tərəqqinin yeni məhsul və texnologiyalarda öz əksini tapması kimi şərh olunur.Müxtəlif alimlər «innovasiya» anlayışını öz tədqiqat obyekti və predmetlərindən asılı olaraq təhlil edirlər:

- T.Ə.Quliyev göstərir ki, innovasiya yenilikdir, yeni fikrin məhsuludur.
- A.Abbasova görə innovasiya idarəetmə obyektinin dəyişdirilməsi və iqtisadi, sosial, ekoloжi, elmi-texniki və digər növ effekin alınması məqsədilə yeniliklərin tətbiqinin son nəticəsidir.
- M.C.Atakişiyev, Q.S.Süleymanovun fikrincə, innovasiya bazar iqtisadiyyatına uyğun elm və texnikanın nailiyyətləri əsasında istehlakçıların tələbatını ödəmək məqsədilə yeni əmək məhsullarını təklif etmək üzrə tədbirlər olub, investisiyanın keyfiyyət tərəfini xarakterizə edir.
- T.Q.Evdokimova, Q.A.Maxovikova, N.F.Efimovaya görə innovasiya prosesini elmi biliyin innovasiya şəklinə düşməsi kimi yaxud ideyanın məhsul, texnologiya və ya xidmətə çevrilməsi prosesi kimi müəyyən etmək olar.
- V.Q.Medınskiy innovasiya dedikdə, aparılmış elmi tədqiqat yaxud edilmiş kəşf nəticəsində istehsalata tətbiq olunun və özündən əvvvəlki analoqundan keyfiyyətcə daha yaxşı olan obyekti nəzərdə tutur.

Ümumiyyətlə, **İnnovasiya** dedikdə, bütünlükdə yeniliklərə fərdi tələbi, eləcə də cəmiyyətin tələbatını ödəmək üçün yeni və yaxşılaşdırılmış məhsulların (xidmətlərin) və onların istehsalının yeni üsullarının alınması məqsədilə elmi, elmi-texniki və intellektual potensial tədbirləri sistemi başa düşülür.

İnnovasiyaya olan baxışlar müxtəlifdir. Odur ki, innovasiyaya müxtəlif təriflər verilmiş və o müxtəlif formada izah edilir. Bunlardan bəziləri:

- İnnovasiya (yenilikşünaslıq) – istehsal orqanizminin ilkin strukturunda gedən dəyişikliklərdir, yəni onun daxili strukturunun yeni vəziyyətə keçirilməsidir.
- İnnovasiya – yeni praktiki vasitələrin yaradılması, yayılması və istifadə edilməsinin kompleks prosesidir (insanların məlum tələblərinin daha yaxşı təmin edilməsi üçün yeniliklərdir).

- İnnovasiya – yeni texnoloji ideyaların, təkliflərin elmi-texniki qərarların praktiki tətbiq edilməsi və həyata keçirilməsidir.
- İnnovasiya yeni texnologiya şəklində yeniliklərin, məhsul və xidmət növlərinin, istehsal, maliyyə, kommersiya və inzibati xarakterli təşkilati-texniki və sosial-iqtisadi qərarların mənfəətlə istifadə edilməsidir.
- İnnovasiya – aparılmış elmi-tədqiqatların və xidməti kəşflərin istehsala tətbiq edilən (əvvəlki analoqlardan fərqli) obyektlərdir.

Beləliklə,innovasiya müxtəlif sahələrdə yeniliklərin, yeni ideyaların, qaydaların yaradılması və təcrübədə istifadə edilməsi prosesidir.

İnnovasiya – praktiki fəaliyyətdə istifadə olunan yeni və ya mütərəqqi texnoloji proses, bazarda realizə edilən yeni və ya təkmilləşdirilmiş məhsul formasını almış innovasiya fəaliyyətinin son nəticəsidir.

İnnovasiya prosesi aşağıdakı tədbirlərin həyata keçirilməsini nəzərdə tutur:

1. yeni növ məhsulun mənimsənilməsi və buraxılan məhsulun modernləşdirilməsi;
2. yeni maşın, avadanlıq və materialların istehsala tətbiqi;
3. yeni texnologiyaların və məhsulun yeni istehsal üsullarından istifadə edilməsi;
4. istehsalın təşkili və idarəetmənin mütərəqqi metodları, vasitələri və qaydalarının tətbiqi.

İnnovasiya prosesi əmək məhsuldarlığının yüksəldilməsi, tədavül xərclərinin azaldılması və məhsul satışında keyfiyyət tələbatlarının yüksəldilməsi və qiymətin aşağı salınması ilə müşahidə olunur.Məhz yeniliklərin dəqiq mexanizminə arxalanaraq, şirkətlər öz məhsullarının rəqabətə davam gətirməsini təmin edir və tələbatın formalaşmasında təşəbbüsü əldə saxlayırlar.

Professor A.Abbasovun fikrincə, elmi-texniki tərəqqi və istehsalın inkişafı nöqteyi-nəzərindən innovasiya fəaliyyəti beş cür olur:

1. Böyük innovasiya. Bunların nəticəsində inqilabi yeniliklər həyata keçirilir ki, istehsal strukturunu, idarəetməni və iqtisadi inkişafın sürətini kökündən dəyişir.

2. Radikal innovasiya. Elmi ideyalar və ixtiralarla nəticələnir ki, bunların da əsasında texnoloji sistemlərin keyfiyyətinin kökündən dəyişdirilməsi və yeni istehsal sahələrinin yaranması mümkün olur.

3. Prinsipial innovasiya. Böyük ixtiralar və elmi-texniki təkliflərlə nəticələnir ki, bunların da bazasında texnikanın yenisi ilə əvəz edilməsi, fundamental elmi prinsipin saxlanması şərti ilə yeni texnologiya yaranır.

4. Təkmilləşdirilmiş innovasiya. Mövcud texnologiyanın, obyektlərin, məhsulun və texnikanın təkmilləşdirilməsinə yönəldilmiş innovasiyadır.Bunun nəticəsində yeni ixtiralar meydana çıxır ki, onlar da buraxılan məhsulun əsas texniki-iqtisadi göstəricilərinin yaxşılaşmasına nail olur.

5. Sadə innovasiya. Bunun vasitəsilə istehsalda istifadə edilən texnika və texnologiyanın texniki-iqtisadi parametrlərinin bir müddət saxlanmasına nail olunur

İnnovasiyanın belə siniflərə bölünməsi dünya bazarında liderliyi əldən verməmək, kapitalın investisiya riskini azaltmaq və elmi-texniki inkişafın idarə olunması strategiyasının formalaşması zamanı istifadə etmək üçün lazımdır.

Beləliklə, İnnovasiya fəaliyyəti deyərkən istehsal, kommersiya, idarə etmə və sosial proseslərin səmərəliyini artıran elmi tədqiqatların və təcrübi-konstruktor işlərinin (ETTKİ) nəticələrinin praktiki tətbiqi nəzərdə tutulur.İnnovasiya prosesi nəticəsində yeni və ya təkmilləşmiş məhsul, xidmət təklif olunur.Eyni zamanda innovasiya texnoloji prosesləri, idarə və təşkil etmə proseslərində tətbiq oluna bilər. Daha dəqiq ifadə etsəm, innovasiya fəaliyyəti cəmiyyətin intellektual fəaliyyətinin təkmilləşdirilməsinə yönələn nəticədir.

AZƏRBAYCANIN ÜTT İLƏ QARŞILIQLI FAYDALI ƏLAQƏLƏRİNİN FORMALAŞDIRILMASI –XARİCİ TİCARƏT ƏLAQƏLƏRİNİN TƏNZİMLƏNMƏSİNİN MÜHÜM İSTİQAMƏTİ KİMİ

Dünyamalıyev E.Ə.
Azərbaycan Dövlət İqtisad Universiteti

Azərbaycanın ÜTT-yə üzvlüyü qanunvericiliyin təkmilləşdirilməsi ilə birbaşa bağlıdır. Hazırda tənzimləmə, intellektual mülkiyyət və investisiyalar sahəsində elə qanunlar var ki, onlar beynəlxalq standartlara , eləcə də ÜTT-in tələblərinə cavab vermir. Burada gömrük, lisenziyalaşdırma, kvotalar və

ÜTT-nın əsasını təşkil edən və beynəlxalq ticarətin tənzimlənməsi üçün çərçivə yaradan Uruqvay Raundu Sazişlərindəki prinsiplərə və normalara uyğun bütün digər nəzarət növləri üçün tənzimləyici, rejim yaratmaq tələb olunur. Uruqvay Raundu prinsipləri və normaları heç bir mülahizələrdən asılı olmayaraq, ümumiyyətlə ölkənin ticarəti üçün faydalıdır. Onlar əməliyyat xərclərini azalıdırlar və ölkənin ticarətdə rəqabət bacarığını artırırlar. Belə ki, ÜTT-yə qəbul ölkənin ticarət siyasətini proqnozlaşdırmağa imkan verəcək , şəffaflıq artacaq, beynəlxalq ticarət tərəfdaşları çoxalacaq və iqtisadi münaqişələr daha səmərəli həll olunacaq. Qeyd edək ki, kənd təsərrüfatı sazişi çərçivəsində müzakirə olunan əsas məqamlar bu sahəyə subsidiyaların yuxarı həddinin və tariflərin müəyyənləşdirilməsini önə çəkir.

Azərbaycan Respublikası İqtisadiyyat və Sənaye Nazirliyinin ÜTT qəbulu üzrə katibliyinin araşdırmalarına görə, xarici iqtisadi münasibətlər sahəsində təhlillər göstərir ki, investorlar əsasən investisiya mühiti daha əlverişli olan və investisiya siyasəti proqnozlaşdırıla bilən ölkələri axtarırlar. ÜTT-yə üzvlük isə xarici investisiyaların cəlb edilməsinə əhəmiyyətli dərəcədə müsbət təsir göstərir, çünki "şıffaflıq" ÜTT-nin əsas prinsiplərindən biridir. Bununla yanaşı, xarici sahibkar ÜTT-nin digər əsas prinsipi olan – "milli rejim"in (xarici və yerli sahibkarlar arasında ayrı-seçkiliyə yol verilməməsi) tətbiq olunduğu ölkələrə ehtiyat etmədən investisiya yönəldir. Bu baxımdan, Azərbaycanın ÜTT-yə qəbulu ilə əlaqədar danışıqlar zamanı tutacağı mövqe 4 əsas istiqamətdə:

---Malların ticarəti

---Xidmətlərin ticarəti

---Əqli mülkiyyət

---ÜTT-nin qaydalarından kənara çıxan məsələləri üzrə müəyyən edilmişdir.

ÜTT-nin fəaliyyətinin geniş olmasını əhatə edən hüquqi normativ aktlar,sazişlər daxil edilmişdir. Bunlar sənaye, kənd təsərrüfatı , toxuculuq, emal, bank və UKT xidmətlərini, hökumət satın mallarını, qida məhsullarının təhlükəsizliyinə sanitar nəzarəti, intellektual mülkiyyəti və bir çox başqa sahələri əhatə edir.

Qeyd etmək lazımdır ki, Respublikamızın iqtisadi maraqlarına uyğun olmayan öhdəliklərin qəbul olunmasının qarşısını almaq məqsədilə, bir sıra tədbirlərin sırasında biznes dairələri ilə daimi məsləhətləşmələrin aparılması və bununla da üzvolma prosesində şəffaflığın təmin edilməsi durmalıdır.

Qeyd etmək lazımdır ki, ÜTT –yə qəbulla bağlı fəaliyyət göstərən qurum eyni zamanda daxildə fəaliyyət göstərən işçi qrupları ilə yanaşı, ÜTT Katibliyi, Azərbaycanın Cenevrədəki Missiyası və eləcədə xarici ölkələrin müvafiq qurumları ilə əlaqə yaratmaq səlahiyyətinə malik olmalıdır. Nəzərə alsaq ki, hazırda ÜTT-nin 160-a yaxın üzvü var, onda nəzərə almaq lazımdır ki, bu üzvlərlə konsepsiyaya nail olmaq nə qədər çətindir.

Azərbaycanın Hökuməti Respublikanın ÜTT -yə üzv olmaqda məqsədi Dünya iqtisadiyyatı sisteminə inteqrasiya prosesini sürətləndirmək, üzv olan ölkələrin bir-birinə verdikləri güzəştlərdən faydalanmaq, ÜTT tərəfindən qəbul edilmiş ümumi qaydalar əsasında ticarət əməliyyatları həyata keçirməkdən ibarətdir. Bundan başqa Respublikada aparılan iqtisadi islahatlara beynəlxalq təşkilatlar və eləcə də ölkələr tərəfindən yardımın artırılmasına nail olmaq, daha çox həcmdə birbaşa xarici investisiyaları cəlb etməkdən ibarətdir.

Hal-hazırda ÜTT –də aparılan danışıqların hər bir yeni raundu beynəlxalq ticarətin daha da liberallaşdırılması ilə nəticələnir. Belə bir şəraitdə hər bir yeni üzv olmuş ölkə daha sərt şərtlərlə təşkilata qəbul edilir.

Qeyd etməklazımdır ki, ÜTT-nin başlıca prinsipini xarici ticarətdə diskriminasiyasının aradan qaldırılması və üzv ölkələrin bazarlarına sərbəst girişin təminatı təşkil edir. Bu prinsiplərin Azərbaycan üçün əhəmiyyəti sübhə doğurmur. Doğrudan da idxal əməlyyatlarına tətbiq olunan kəmiyyət məhdudiyyətləri xarici ticarətlə məşğul olan biznes stukturların imkanlarından milli iqtisadiyyatın inkişafı naminə istifadə etmək sahəsində böyük əngələ çevrilib. Hazırda belə kəmiyyət məhdudiyyətlərinin sayı 7-yə qədərdir. Bu prosesdə aşkarlığın və şəffaflığın təminatı baxımından da ciddi problemlər göz qabağındadır. Xarici ticarətdə gizli dövriyyənin həcminin ildən ilə çoxaldığı , diskriminasiyanın aşkar xarakter aldığı indiki şəraitdə bu problemlərin həlli istiqamətində ÜTT –nin imkanları əvəzsiz görünür Qeyd etmək lazımdır ki, ÜTT-yə qəbulun uduşların artırılması daha çox milli iqtisadiyyatın strukturundan və inkişaf səviyyəsindən asılıdır.Ona görə də ilk növbədə iqtisadiyyatımız bu prosesə hazır olmalı, diplomatiyanın imkanlarını səfərbər edilməli və məsələyə peşəkarcasına yanaşma ortalığa qoyulmalıdır. Unutmayaq ki, ÜTT-yə qəbul məqsəd deyil, bir vasitədir. Onun vasitəsilə biz dünya iqtisadiyyatın inteqrasiya imkanlarını artıra, xarici ticarətimizi daha da liberallaşdıra, o sıradan texniki və kəmiyyət baryerlərini aradan qaldıra, gömrük nəzarət proseduralarını

sadələşdirə , şəffaflığı artıra, mütərəqqi texnika və texnologiyaların, nou-hauların , patentlərin , bir sözlə, qabaqcıl innovasiyaların ölkəmizə cəlbini sürətləndirə, qanunlarımızı beynəlxalq standartlara uyğunlaşdıra , müəllif hüquqlarımızı qoruya bilərik. Digər tərəfdən də ümid var ki, ÜTT-yə qəbuldan sonra dünyanın aparıcı bankları və sığorta şirkətləri üzv-dövlətin iqtisadiyyatına sərmayə qoyacaq və nəhayət ki, normal maliyyə sektoru formalaşacaq, böyük pullar və uzunmüddətli kreditlər milli iqtisadiyyatların qeyri-neft sektorunun kapital problemlərini həll edəcək.

XI BÖLMƏ

MÜƏSSİSƏLƏRİN İQTİSADİYYATI VƏ İDARƏEDİLMƏSİ

BİZNESDƏ REKLAM İŞİNİN TƏŞKİLİ

Abbaslı M.V.
Sumqayıt Dövlət Universiteti

Bazar münasibətlərinin inkişafı reklamsız imkansızdır. Ölkəmizdə reklam müxtəlif formalı müəssisələrin fəaliyyətində vacib şərtə çevrilmişdir. O, milyonlarla insanların maraqlarına toxunur və onların həyatının ayrılmaz hissəsinə çevrilir. Azərbaycan biznesi bütün bazar alətləri arasından reklamı daha tez mənimsəyib və geniş istifadə edir. Bu onunla bağlıdır ki, reklam marketinq kommunikasiya sistemində satışın stimullaşdırılması metodlarından ən əlverişlisidir.

Hər gün biz hamımız yerləşdiyimiz yerdən asılı olmayaraq reklam ilə üzləşirik; işdə, evdə, nəqliyyatda, küçədə. O, hər yerdədir. İnsanların bir qismi onu heç sevmir, nifrət edir. Bu ona görədir ki, reklam onların həyatına daxil olaraq öz dəyərlərini tətbiq edir. Bəzi insanlar reklama anlayışlı şəkildə və yaxud yumor hissi ilə yanaşır, digərləri isə ona qarşı neytraldır. Bu ondan irəli gəlir ki, reklamın müsbət tərəfləri ilə yanaşı mənfi tərəfləri də mövcuddur.

Əslində, reklam əlbəttə ki, gərəklidir. Hər şeydən öncə, reklam, təklif edilən mallara olan tələbatı tənzimləyir. Reklamın hərəkət mexanizmi çox sadədir – potensial alıcı özündə olmayan hər hansı bir mala edilmiş reklamı eşidib və ya gördükdə onu almaq və ya əldə etmək istəyəcək, əlbəttə ki, buna imkanı çatarsa. Reklam – o qədər güclü alətdir ki, o, tamamilə gərəksiz, lazımsız, rəqabətə dayanıqlı olmayan bir malın satılmasına kömək edə bilər.

Təəssüf ki, biz bir istehlakçı kimi tez-tez yorucu və keyfiyyətsiz, yalnız qıcıqlandırıcı bir reklam ilə rastlaşırıq. Beləliklə, yadda saxlamaq lazımdır ki, reklam işi də - bir incəsənətdir.

Latın dilindən tərcümədə reklam – "reklamare" "ucadan çığırmaq, qışqırmaq" və ya " məlumatlandırmaq " deməkdir.

Azərbaycan Respublikasının 03.10.1997-ci ildə qəbul olunmuş "Reklam haqqında" qanununda reklama bu cür tərif verilmişdir: "Reklam – fiziki və hüquqi şəxslərə, əmtəələrə, fikir və yeniliklərə (reklam informasiyası) marağın formalaşması məqsədilə yayılan və ya bu marağın saxlanılması və yaxud qorunması, əmtəənin satışdan köməklik, fikir və yeniliklərin tətbiq edilməsi barədə informasiyadır ". Bu qanun əhalinin dürüst məlumatlandırılması hüququnu istehsal prosesində yaranan münasibətlərin tənzimlənməsini, bazarda əmtəələrin yayılması və yerləşdirilməsini Azərbaycan Respublikasında hüquqi və fiziki şəxslərin iş və xidmətlərini müəyyən edir.

İmic reklamı (cəmiyyətdə müəssisənin prestijinin yaradılması məqsədilə istifadə olunan reklam) - əsasən alıcı və partnyorlarda firma və əmtəə barədə xoş təəssürat (imic) yaratmağa yönəldilir. Bu reklamı etibarlılıq, effektivlik, alıcıya xoş münasibət, stabillik səciyyələndirir.

Stimullaşdırıcı reklam - əsasən, istehlakçılarda göstərilən (reklam olunan) firmanın məhsulunu əldə etmək tələbatının stimullaşdırılmasına yönəldilir. Burada konkret olaraq firmanın məhsullarının başlıca üstünlükləri, onların müsbət cəhətləri digər analoji əmtəə və xidmətlərlə müqayisədə göstərilir.

Stabillik reklamı - əsasən tərəfdaşları və istehlakçıları firmanın işinin nəticələrindəki stabillik, onun bazarda möhkəm yer tutduğu barədə məlumatlandırmağa yönəlir.

Firmadaxili reklam – işçilərdə öz müəssisələrinə inamı gücləndirməyə, onların işinin və şəxsi həyatının sıx əlaqədə olmaları hissini formalaşdırmağa yönəldilir. Belə hesab edilir ki, əgər müəssisənin hər bir işçisi öz fəaliyyətinə dair lazımi qərarları qəbul edə və onların məsuliyyətini daşıya bilərsə, onda işçilər firmadakı işlərdən razı qalaraq cəmiyyətdə bu firmanın reklam daşıyıcılarına çevriləcəklər.

İstehsalın satışının genişləndirilməsi məqsədilə reklam – reklam fəaliyyətinin başlıca sahəsidir.

Nəsihətverici reklam – reklamın ən aqressiv növüdür, onun başlıca məqsədi istehlakçını rəqib firmanın əmtəə və xidmətini deyil, məhz bu əmtəə və xidməti almağa inandırmaqdır.

Müqayisəli reklam – o, nəsihətverici reklamın bir növüdür. O, əsasən reklam olunan əmtəə və xidmətin, rəqib firmanın əmtəə və xidmətinin müqayisə olunmasına yönəldilir. Belə ki, bir çox sivil

dövlətlərin qanunvericiliyi ilə rəqib əmtəəsini və ya istehlakçısını tənqid etməyə icazə verilmir, bu cür reklam düşünülmüş və yumor hissinə malik olmalıdır, çox zaman elə belə də olur.

Xatırladıcı reklam – potensial alıcıya müəyyən bir əmtəənin bazarda mövcudluğu və onun xarakteristikası barədə xatırlatmaq üçün nəzərdə tutulur.

Əsaslandırıcı reklam – xatırladıcı reklamın bir növüdür. Onun rolu artıq əmtəəni əldə etmiş istehlakçılara yardım göstərmək, onların etdiyi seçimin düzgün alınmasına inandırmaqdır. Bu ona yönəldilir ki, konkret alıcını daimi alıcı qismində təsbit etsin.

Məlumatlandırıcı reklam – firma və onun buraxdığı məhsulun xarakteristikaları, üstünlükləri və yenilikləri barədə zəruri məlumatları təqdim etməyə yönəldilir.

Preventiv (qoruyucu) reklam – bu reklama nümayişkaranə, lazım olduğundan da çox vəsait sərf olunur. Bu cür reklamın məqsədi – rəqiblərin mövqelərini nüfuzdan salmaqdır, hansı ki, reklam fəaliyyətinə çoxlu vəsait sərf etmək iqtidarında deyildirlər. Aydındır ki, bu və ya digər reklam, eyni zamanda reklamın bir neçə növlərini özündə cəmləşdirməyə qadirdir.

Amansız reklam – təkidli, inadlı reklam müraciətinin təqdim edilməsi üsuludur.

Rəqabətli reklam – rəqabət aparan firmalar tərəfindən buraxılan, reklam olunan malları analoji malların kütləsindən fərqləndirən, onların üstünlüyünü göstərən və alıcını məhz bu malı almağa inandıra bilən reklamdır.

Kontreklam – yararsız reklamın və onun nəticələrinin təkzibi üçün yayılan reklamdır.

Kooperativ reklam – topdansatış və yaxud pərakəndə satışı ilə məşğul olanların istehsalçı ilə bərabər xərcini çəkdiyi reklamdır, həm də istehsalçı reklam üzrə tərəfdaşının reklam xərclərinin 100 %-ni kompensasiya edə bilər.

Korporativ reklam – şirkətin xüsusi imicini yaratmaq və ya yaxşılaşdırmaq məqsədi güdən reklamdır.

BIZNES FƏALİYYƏTİNİN SƏMƏRƏLİLİYİNİN TƏMİN EDİLMƏSİ İSTİQAMƏTLƏRİ

Osmanov E.Ç.
Sumqayıt Dövlət Universiteti

Bazar münasibətləri şəraitində ayrı – ayrı ölkələrin milli iqtisadiyyatının səmərəli inkişafında biznes fəaliyyəti xüsusi rol oynayır. Belə ki, biznesin inkişafı mülkiyyətin müxtəlif formalarının meydana gəlməsinə və inkişafına, azad rəqabətə, işgüzarlığa və təşəbbüskarlığa real şərait yaradır. Qeyd etmək lazımdır ki, dünyanın inkişaf etmiş ölkələrində fəaliyyət göstərən müəssisələrin 80-90%-i, ümumi milli məhsulun 45-50 % - i, yeni yaradılan iş yerlərinin 70 – 80 % - dən çoxu biznesin payına düşür.

Hal – hazırda bizim respublikamızda həyata keçirilən iqtisadi islahatların əsas istiqamətlərindən biri də biznesin inkişafı üçün əlverişli mühitin formalaşdırılması hesab edilir.

Azərbaycanda biznes fəaliyyətinin inkişafı bir çox çətinliklərlə qarşılaşır. Belə ki, biznes bizim iqtisadiyyatda nisbətən yeni bir fəaliyyət sahəsidir. Buna görə də bizneslə məşğul olan müəssisələrin yaradılmasında və inkişaf etdirilməsində bir sıra problemlər meydana çıxır. Belə problemlərə aşağıdakıları aid etmək olar.

1. Maddi və maliyyə resurslarının kifayət qədər olmaması.
2. Biznesin yaradılması və səmərəli fəaliyyəti üçün zəmanət verəcək qanunvericilik bazasının tam formalaşmaması və qeyri – sabitliyi.
3. Məhsul satışı problemi.
4. Xammal və material əldə etmək çətinliyi.
5. Daxili bazarın zəif olması.
6. İdxal olunan malların bazarda hakim rol oynaması.
7. Hakimiyyət orqanlarının biznes fəaliyyətinə müdaxilə etməsi.
8. Biznes fəaliyyətinin sosial müdafiəsi.

Yuxarıda göstərilən bütün problemlər ölkəmizdə biznesin inkişafını ləngidən əsas amillərdir. Bütün bu amillərlə yanaşı biznes fəaliyyətinin inkişafına bilavasitə daxili və xarici amillər də təsir edir.

Daxili amillər dedikdə, müəssisənin özündən asılı olan amillər nəzərdə tutulur. Başqa sözlə, müəssisə belə amillərə təsir göstərə bilir. Daxili amillərə respublikamızda fəaliyyət göstərən biznesin maliyyə vəsaitinin və xammal ehtiyatlarının zəif olması və s. aid edilir.

Xarici amillər dedikdə, elə amillər nəzərdə tutulur ki, bu amillər müəssisədən asılı olmur və müəssisə onlara təsir göstərə bilmir. Belə amillərə vergi yükünün ağır olması, inzibati maneələrin çoxluğu, qanunvericiliyin qeyri – sabitliyi, natamamlığı və fəaliyyətsizliyi, satış bazarının məhdudluğu, xammal bazasının inkişaf etməməsi və s. aid etmək olar.

Azərbaycanda biznesin inkişafına təsir edən problemlərdən biri də kreditləşdirmə problemidir. Kreditlər girov qoymaqla verilir. Sahibkarların girov qoymaq imkanı aşağı olduğundan, çox vaxt belə kreditləri almaq mümkün olmur. Kredit almaq imkanı olmayan sahibkarlar isə öz biznes fəaliyyətini inkişaf etdirə və rəqabət apara bilmirlər. Biznesin inkişaf etdirilməsində iqtisadi amillər də mühüm rol oynayır. Qeyd etmək lazımdır ki, milli sahibkarlığın inkişafı yolunda duran maneələrin böyük əksəriyyəti subyektiv xarakter daşıyır. İlk növbədə özəlləşdirilmiş müəssisələrin sağlamlaşdırılması problem olaraq qalır, bu da biznes fəaliyyətinin inkişafını ləngidir.

Göstərdiyimiz problemlərin aradan qaldırılması və ölkədə biznesin inkişaf etdirilməsi məqsədi ilə son illər Azərbaycanda mühüm işlər görülmüşdür.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən müəyyən edilmiş məqsədyönlü siyasət ölkədə sərbəst bazar iqtisadiyyatı prinsiplərinə əsaslanan milli iqtisadiyyatın formalaşmasına yol açmış, sosial-iqtisadi sabitliyi və dinamik inkişafı təmin etmişdir. Həyata keçirilən iqtisadi islahatlar ölkədə sahibkarlığın davamlı inkişafına əlverişli zəmin yaratmışdır. Belə ki, bu islahatlar nəticəsində ölkədə sahibkarlıq fəaliyyətini tənzimləyən, sahibkarlıq fəaliyyətinin, o cümlədən sahibkarlığın inkişafına dövlət himayəsinin gücləndirilməsi, sahibkarlığın inkişafına mane olan müdaxilələrin qarşısının alınması, dövlət əmlakının özəlləşdirilməsinin sürətləndirilməsi, lisenziya verilən fəaliyyət növlərinin sayının azaldılması və bu kimi digər vacib məsələlərin tənzimlənməsi ilə əlaqədar mütərəqqi hüquqi-normativ baza, institusional və iqtisadi mexanizmlər yaradılmış və onların mütəmadi olaraq konkret şəraitin tələbləri nəzərə alınmaqla təkmilləşdirilməsi, sahibkarlığın, xüsusi ilə kiçik və orta sahibkarlığın inkişafının dəstəklənməsi üzrə kompleks siyasət tədbirlərinin, o cümlədən konkret dövrlər üçün qəbul edilən dövlət proqramlarının həyata keçirilməsi və işgüzar mühitin yaxşılaşdırılması istiqamətində məqsədyönlü, ardıcıl və sistemli iş təşkil olunmuşdur. Ölkədə həyata keçirilmiş genişmiqyaslı iqtisadi islahatlar nəticəsində Azərbaycan cəmiyyətində sahibkarlar təbəqəsi formalaşmış, ÜDM-də özəl bölmənin payı 83%-ə çatmış, sahibkarlıq fəaliyyəti cəmiyyətin inkişafında əhəmiyyətli rol oynamağa başlamışdır.

Bütün bunlara baxmayaraq, ölkəmizdə sahibkarlığın inkişafı sahəsində, xüsusilə də qeyri-neft sektorunda və regionlarda böyük potensial imkanlar vardır. Eyni zamanda, bu sahədəki inkişaf meyllərinin və beynəlxalq təcrübənin təhlili göstərir ki, ölkəmizdə sahibkarlığın inkişafı sahəsində əldə olunmuş nailiyyətlərin möhkəmləndirilməsi və artırılması üçün biznes mühitinin əlverişliliyinin artırılması və kiçik və orta sahibkarlığın inkişafına dəstək verilməsi siyasəti davam etdirilməlidir.

Ölkədə sahibkarlığın inkişafı məqsədilə biznes mühitinin daim yaxşılaşdırılması, bu sahədə qanunvericilik bazasının təkmilləşdirilməsi, yerli və xarici investisiyaların, müasir texnologiyaların, idarəetmə təcrübəsinin cəlb edilməsi və bu yolla yüksək keyfiyyətli, rəqabət qabiliyyətli məhsulların istehsal edilməsi Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi iqtisadi inkişaf strategiyasının prioritetlərindəndir.

Bu sahədə həyata keçirilən dövlət siyasəti sahibkarlığa yaradılmış fəaliyyət mühitinin daha da yaxşılaşdırılmasına, dövlət himayəsinin təkmilləşdirilməsinə, dövlət-sahibkar münasibətlərinin yaxşılaşdırılması, bazar iqtisadiyyatının tələblərinə uyğun təsisatların yaradılmasına və onların səmərəli fəaliyyətinin təmin edilməsinə yönəldiləcəkdir.

Azərbaycan Respublikasında sahibkarlığın inkişafı məqsədi ilə xüsusi dövlət proqramları və sahibkarlıq fəaliyyətinə mane olan bürokratik əngəllərin aradan qaldırılmasına yönəldilmiş qərarlar qəbul edilmiş və digər tədbirlər həyata keçirilmişdir.

Respublikamızda sahibkarlıq fəaliyyətinin formalaşdırılması və inkişafı üçün sahibkarlığa dövlət köməyi proqramı mühüm əhəmiyyət kəsb edir.

Biznes fəaliyyətinin inkişafında qarşıya çıxan problemlərin həllinə kömək məqsədi ilə Prezident yanında Sahibkarlar Şurası da yaradılıb. Bu şura dövlət və iş adamları arasında körpü rolunu yerinə yetirərək, sahibkarların problemləri və təklifləri barədə dövlət başçısı qarşısında məsələ qaldırır və onların həllinə çalışır.

HEYƏTİN İDARƏ OLUNMASI STRATEGİYASININ FORMALAŞMASI VƏ İŞLƏNİB HAZIRLANMASI PROBLEMLƏRİ

Qaçayev E.İ.
Sumqayıt Dövlət Universiteti

Sənayedə heyətin formalaşması idarəetmə strategiyasında ən mühüm vəzifələrdəndir. Uyğun işçilərin işə qəbulu üçün rəhbərlik onların iş müddətində hansı məsələləri icra edəcəklərini və bu işlərin şəxsi və ictimai səviyyəsinin nədən ibarət olduğunu hər bir işin əməliyyat tərkibləri üzrə bütünlükdə bilməlidir. Bu biliklər işlərin məzmununun təhlili vasitəsilə əldə edilir ki, həmin biliklər heyətin idarə edilməsində başlıca şərtdir. Onsuz başqa idarəetmə funksiyalarının reallaşdırılması olduqca çətindir. Bütün idarə operativ, texniki və inzibati ixtisaslar üzrə işlərin diqqətlə dəyərləndirilməsi və mahiyyətinin açılması nəticəsində işçi toplanması, seçimi, əmək haqqı, müəyyən işçi fəaliyyətinin qiymətləndirilməsi və vəzifə yüksəldilməsi haqqında gələcək qərarların qəbulu üçün etibarlı əsas yaradır.

İşlərin məzmununun təhlil edilib açılmasının bir neçə metodu vardır. Onlardan biri işçilərin mübadilə edilməsindən və onlar tərəfindən icra edilən tapşırıq və hərəkətlərin qeydiyyatı və rəsmi müəyyənləşdirilməsindən ibarətdir. Digər metod isə işçi və ya onun birbaşa rəisi ilə ünsiyyət və danışıqların aparılması vasitəsi ilə onlar haqqında adı çəkilən informasiyaların toplanmasıdır. Bu metod sorğu edilənin və sorğunu aparanın yanlışlıqları nəticəsində daha az dəqiq edilə bilər. Üçüncü metod işçilərdən suallar siyahısını doldurmağı və ya işinin təsvirini verməsi və ona tələblərdən ibarətdir. İşin məzmununun təhlilindən alınmış informasiyalar planlaşdırma üzrə sonrakı tədbirlərin əksəriyyəti və işçi qüvvəsinin toplanması və s. üçün əsasdır. Onların əsasında vəzifə təlimatları tərtib edilir ki, onlarda əsas vəzifələrin siyahısı, bilik və vərdiş tələbləri, habelə işçinin hüquqları əks etdirilir. O, təşkilatın bütün vəzifələri və əsas iş ixtisasları üzrə işlənilməli, hər bir vəzifəli şəxs ekspeditor, reklam üzrə menecer və bu təlimatdan geniş istifadə etməlidir.

Heyətin idarəetmə strategiyasının formalaşmasında işçi kadrların toplanması xüsusi əhəmiyyət kəsb edir. İşçi qüvvəsi toplanması zəruriyyəti doğuran vəzifələr və ixtisaslar üzrə namizədlər ehtiyatının yaradılmasından ibarətdir ki, onlardan müəssisə və təşkilatlar ən uyğun gələnini seçib öz işləri tərkibinə daxil edir. Bu seçmə işləri, demək olar ki, bütün ixtisaslar: idarə, istehsal, texniki, inzibati işçilər üzrə də həyata keçirilir. Toplanış üzrə zəruri işlər həcmi mövcud işçi qüvvəsi miqdarı ilə onu gələcək tələbat arasından fərqin kəmiyyəti ilə müəyyən edilir. Bu zaman bir sıra amillər - pensiyaya çıxmalar, işə qəbul üzrə müqavilənin müddətinin qurtarması ilə əlaqədar işdən çıxmalar, təşkilatın fəaliyyət dairəsinin genişlənməsi ilə bağlı olaraq işçilərin say dəyişmələri nəzərə alınır. İşçi qüvvəsi yığımı adətən xarici və daxili mənbələrin hesabına aparılır.

Xarici dövriyyə ilə əlaqəar olan vasitələrə: qəzetlərdə və peşələrə dair jurnallarda planların çap etdirilməsi, müəssisələrə və işə düzəltmə agentliklərinə müraciət edilməsi, rəhbər kadrlar göndərən təşkilat və elmi mərkəzlərə tələbin bildirilməsi, saziş bağlamış insanların ixtisas almaq üçün kolleclərə göndərilməsi daxildir. Bir sıra təşkilatlar yerli əhalini gələcəkdə olacaq iş yerləri üçün kadrlar şöbəsinə dəvət edirlər.

Əksər təşkilatlar işə əsasən öz təşkilatı daxilində işçi yığımının keçirilməsinə üstünlük verir. Öz işçilərinin xidmət pillələri ilə irəliləyişi və hərəkəti ucuz başa gəlir. Budan başqa bu işə qəbul üzrə hərəkətlər işçilərin marağını yüksəldir, mənəvi iqlimi yaxşılaşdırır, işçilərin müəssisəyə bağlılığını gücləndirir. Motivləşdirməyə münasibətdə gözləmə nəzəriyyəsinə uyğun olaraq düşünmək olar ki, əgər işçilər onların xidmət pilləsi ilə artımının işin səmərəlilik dərəcəsindən asılılığına inanarlarsa, onlar daha məhsuldar əməkdə maraqlı olacaqlar. Meydana çıxan problemlərin həll edilməsini müstəsna surətdə daxili ehtiyatların hesabına həll edilməsində mümkün çatışmazlıqlar başlıca olaraq müəssisə və təşkilatlara yeni baxışlı insanların gəlməməsi ilə əlaqədardır ki, bu isə öz növbəsində həmin təşkilatlarda durğunluğa gətirib çıxara bilər.

Daxili ehtiyatlar hesabına yığımın ən yayılmış metodu açılmış boş iş yeri üçün işə cəlb edilməyə yüksək ixtisaslı və ixtisaslı işçilərə informasiyalar və dəvətlərin göndərişidir. Daha bir dəyərli metod isə öz işçilərinə boş iş yerinə qəbul üçün onların uyğun dəyərli dost və tanışlarının cəlb edilməsi xahişidir.

Kadrların formalaşdırılmasının idarə edilməsində rəhbərlik yığıncaq yaratmış ehtiyatdan daha uyğun gələn namizədi seçir. Əksər hallarda elə adamı seçmək lazımdır ki, onun həmin xidmətə irəli çəkilməsi üçün ən yaxşı ixtisası olsun və bu zaman vəzifə və xidmət pilləsi ilə irəliləyişin həmin vəzifəyə təyini idarəetmə baxımından düzgün sayıla bilməz. Vəziyyətdən asılı olaraq seçim haqqında obyektiv

qərar namizədin təhsilinə, onun şəxsi keyfiyyətinə əsaslanmalıdır. Əgər vəzifədə əsas texniki biliklərin əsas olduğu amillər götürülərsə, onda görünür ki, ən mühüm göstərici təhsil və əvvəlki elmi fəaliyyət olacaqdır. Daha yüksək vəzifələrə rəhbərlik seçimi üzrə əsas regionlararası münasibətlərə dair bilik və vərdişlərinin olması və habelə namizədin daha yüksək rəis və onun tabeliləri ilə əlaqələrdə iştirak edə bilməsi və onların onu qəbul edə bilmələridir.

Sənaye müəssisələrində kadrların hazırlanması prosesi işçilərə vərdişlərin təlimindən ibarətdir ki, nəticədə onların əməyinin məhsuldarlığının yüksəldilməsinə şərait yaradırlar. Təlim verilməsi əhəmiyyəti ölkədə artıq geniş tanınmaqdadır. Çox təəssüf ki, hələ də bir çox rəhbərlər bununla əlaqədar meydana çıxa mürəkkəblikləri dərk etmirlər.

Artıq müəssisə və şirkətlərdə dərk edilməlidir ki, təlim və öyrətmə olduqca faydalı olmaqla üç əsas halda xüsusilə tələb doğurur:

Birincisi, insan nə vaxt təşkilata daxil olur.

İkincisi, əməkdaş yeni vəzifəyə təyin edilir və ona yeni iş verilir.

Üçüncüsü isə yoxlama nəticəsində müəyyən edilir ki, öz işinin səmərəli icra edilməsi üçün cəlb edilmiş adamda müəyyən vərdişlər çatışmır.

Təlim etmə və təhsil vermənin spesifik metodları olduqca çoxsaylıldır ki, onları ölkədaxili müəssisə və şirkətlərdə peşələrin və təşkilatların şərait və xüsusiyyətlərinə uyğunlaşdırmaq lazım gəlir. Səmərəli təhsil və təlim verilməsi proqramlarının bir neçə əsas tələblərindən aşağıdakıları təklif edirik:

1. Təlim və öyrədilmə üçün motivləşdirmə zəruridir. İnsanlar proqramın məqsədini anlamalı, təlimin və öyrədilmənin onların məhsuldarlığını necə yüksəldəcəyini dərk etməli və bununla birlikdə öz işlərindən özlərinin məmnunluğunu aydınlaşdırmalıdırlar.

2. Rəhbərlik təlim və təhsil verməyə əlverişli şərait iqlimi yaratmalıdır. Bu fəaliyyət öyrənənlərin maraqlandırılmasını, onların təlim və təhsil alma proseslərində aktiv iştirakını, müəllimlər tərəfindən dəstəyi, qarşıya qoyulmuş cavab vermək arzusunu əks etdirməlidir. Bir sıra müəssisə və təşkilatlarda təhsil verilməsinin xüsusi ixtisaslaşdırılmış mərkəzlərdə aparılmasına diqqət edilməlidir.

3. Əgər vərdişlər təlim verilməsi vasitəsilə əldə olunarsa, bu olduqca çətin bir gedişat olduğunda belə təlim edilməni ardıcıl mərhələlərə bölmək lazımdır. Proqram iştirakçılarının hər bir təlim mərhələsində əldə olunmuş vərdişləri yenidən tərtib etmək imkanlarına malik olmalı və yalnız bundan sonra olan təkmil hərəkətlər etməlidirlər.

4. Fənn öyrənənlərin təlimin nəticələrinə əks münasibətləri olmalı və bu, onlarda keçirilmiş materialların zəkalarında möhkəm yer tutmasına zərurət doğurmalıdır. Bunlar ancaq müəllimlər tərəfindən təlim edilmə və uğurlarının nəzərlərinə çatdırılması vasitəsilə həyata keçirilməli, yaxud kompyuterləşdirilmiş müasir təlimlər sisteminin tətbiqində təklif edilən proqramların düzgün həllində bilavasitə əks vasitə şəklində tətbiq edilməlidir.

Heyətin formalaşmasında seçim qərarının verilməsi informasiyalar əsasında sınaqların, təkbətək danışıqların və qiymətləndirilmə mərkəzlərinin təşkil edilməsindədir. Əmək fəaliyyəti nəticələrinin maksimum dəqiqliklə qiymətləndirilməsinə nail olunması üçün arzu ediləndir ki, danışıqların aparılması ikili xarakter daşısın. İşçinin müstəqil götür-qoy etməyə imkanı olmalıdır ki, o müəyyən etsin: niyə onun işi standarta uyğun gəlmir, buna səbəb nədir və bu vəziyyətin aradan qaldırılması üçün nələr edilməlidir? Tədqiqatlar və təcrübə nəticələri əsasında belə bir qərara gəlmək olar: rəhbər öz tabelərində işlərin nəticələrini daha obyektiv surətdə qəbul etməsi üçün cəhd göstərməlidir.

Bu gün ölkənin bütün iri müəssisə, şirkətləri və kompaniyalarında rəhbər kadrların hazırlanmasına dair inkişaf etmiş sənaye ölkələrində işlənmiş proqramlardan istifadə edərək, Azərbaycanın bir çox iri şirkətləri, kompaniyaları və məsləhətçi təşkilatlarında mənsəblərin idarə edilməsi, başqa sözlə xidmət üzrə irəliləyiş proqramının tətbiqi müasir dövrün təxirəsalınmaz vəzifəsidir.

İSTEHSALA XİDMƏTİN TƏŞKİLİNİN YAXŞILAŞDIRILMASININ ZƏRURİLİYİ

Soltanov V.K.
Sumqayıt Dövlət Universiteti

Müasir bazar iqtisadiyyatının təcrübəsi sahibkarlıq fəaliyyəti qarşısında bir sıra məqsəd dayandığını göstərir. İqtisadiyyatın inkişaf mərhələsindən, səviyyəsindən və həcmindən asılı olmayaraq bu fəaliyyət qarşısında duran başlıca iqtisadi vəzifə, strateji məqsəd, həmçinin onun əsas hərəkətverici amili mənfəət əldə edilməsidir. Bu da təbiidir, çünki, hər bir iqtisadi subyekt öz iqtisadi fəaliyyətində hər şeydən əvvəl

öz şəxsi mənafeyindən, marağından çıxış edir. İqtisadi fəaliyyət nəticəsində mənfəət əldə edilməsinə göstərilən cəhd, hər şeydən əvvəl sahibkarın özünə müəyyən rifah halının təmin edilməsi zərurətindən doğur, lakin iş bununla bitmir. Bununla belə hər bir dövrdə iqtisadi fəaliyyət qarşısında duran problemlərdən asılı olaraq ümumiyyətlə, mənfəət əldə edilib-edilməməsi və yaxud onun aşağı, yoxsa yuxarı olması ön plana çəkilə bilər. Mənfəətin əldə edilməsi maddi istehsalın səmərəli təşkilindən asılıdır.

Maddi istehsal insan fəaliyyətinin həlledici sahəsidir. Maddi rifahın artması və ölkənin müdafiəsinin möhkəmləndirilməsi imkanı onun inkişafından asılıdır. Odur ki, hazırda təsərrüfat mexanizminin, investisiya və struktur siyasəti, elmi-texniki tərəqqinin sürətləndirilməsi sahəsində həyata keçirilən kompleks tədbirlər ilk növbədə maddi istehsal sahəsinin hərtərəfli inkişafına və təkmilləşdirilməsinə yönəldilmişdir.

Maddi istehsalın qeyri-maddi istehsal sahəsindən fərqləndirici meyarı, birincisi, insanın təbiət maddələrinə təsiri ilə, ikincisi, dəyişdirici təsiri ilə müəyyən olunur. Üçüncüsü, bu, insanların elə bir əmək fəaliyyəti formasıdır ki, onların bütün fəaliyyətinin, qeyri-maddi istehsal fəaliyyəti də daxil olmaqla maddi əsasını təşkil etməklə həyata keçirilir. Bu üç fərqləndirici xüsusiyyət birlikdə maddi istehsalın mahiyyətini və onun bütün digər fəaliyyət növlərindən, eyni ilə insanın mənəvi fəaliyyətindən fərqini göstərir.

Maddi istehsalın mahiyyəti insanlarla təbiət arasında baş verən maddələr mübadiləsi ilə xarakterizə olunur və bu zaman əmək cismi kimi təbiət əşyaları və qüvvələri çıxış edir, təbiətə dəyişdirici təsiri isə əmək vasitələri ilə həyata keçirilir. Deməli, maddi istehsalın insanın fəaliyyət növlərindən fərqi əmək prosesinin mahiyyəti və onun üç şərti ilə müəyyən olunur. İnsanla təbiət arasında bilavasitə maddələr mübadiləsini təmin etməyən bütün digər fəaliyyət növləri maddi istehsal sahəsindən kənarda qalır və birlikdə qeyri-maddi istehsal sahəsini təşkil edir.

Beləliklə, qeyri-maddi istehsal sahəsinin fəaliyyəti maddi istehsaldan fərqli olaraq, təbiətin maddəsi və qüvvələrinə dəyişdirici təsirlə əlaqədar deyildir, bilavasitə əmək vasitələri yaradılması ilə səciyyələnmir və insanla təbiət arasında maddələr mübadiləsi kimi çıxış etmir. Onun təsir obyekti insan, insanın həyat və fəaliyyətinin sosial şərtləri, habelə, ictimai orqanizm olan cəmiyyətdir.

Qeyri-maddi istehsal sahəsindəki fəaliyyət bilavasitə ya maddi dünyanı insan başında əks etdirən mənəvi nemətlər yaradır, ya da əmək prosesinin özündə istifadə olunan faydalı səmərə formasında xidmət göstərən fəaliyyət kimi çıxış edir. Qeyri-maddi istehsal sahəsində əmək fəaliyyəti spesifik istehlak dəyərləri, xidmətlər yaradır və reallaşdırır.

Qeyri-maddi istehsal sahələrində yaradılan xidmətlərin müxtəlifliyinə baxmayaraq, onlar arasında bir ümumilik vardır ki, bu onları bir sahə daxilində birləşdirir.

İstehsala xidmətin təşkilində əsas məqsəd ayrı-ayrı iş yerlərində çalışan işçilərə normal və fasiləsiz əmək şəraitinin yaradılmasından ibarətdir. İş yerinin özü və onun bütün texniki vasitələrlə təchizatı daima istehsala yararlı vəziyyətdə, səliqəli və təmiz saxlanılmalıdır. Belə ki, iş yerlərinə müntəzəm surətdə və dəqiq xidmət olmasının təşkili işçilərdən və avadanlıqlardan səmərəli istifadə edilməsi, əmək məhsuldarlığının yüksəldilməsi və maddi-texniki vasitələrin qənaətlə sərf olunması üçün zəruri şərtlərdən biridir. Odur ki, müəssisə miqyasında istehsala xidmətin təşkili dedikdə ayrı-ayrı iş yerlərinə xidmətin təşkili sistemi nəzərdə tutulur. Çünki, maddi nemətlər hazırlanması və xidmətlərin göstərilməsi konkret iş yerində həyata keçirilir. İstehsala xidmətin təşkilinin əsas vəzifəsi istehsal prosesində mümkün fasilələrin və mexanizmlərin işindəki nasazlığın vaxtında qarşısını almaqdan ibarətdir. Odur ki, istehsala xidmət sisteminin yaxşı təşkil edilməsi istehsal prosesinin normal gedişinə maneçilik törədən bu və ya digər hadisənin aradan qaldırılması üçün böyük əhəmiyyət kəsb edir.

Sənaye müəssisələrində ən az xərclə daha çox və yüksək keyfiyyətli məhsul hazırlanması təkcə texnoloji əməliyyatların səmərəli təşkil edilməsi və əsas istehsal fondlarının təkmilləşdirilməsi nəticəsində əldə edilmir. Yüksək keyfiyyətli məhsul buraxılışında, onun maya dəyərinin aşağı salınmasında, deməli, istehsalın səmərəliliyinin yüksəldilməsində maşın və avadanlıqların işə daim saz vəziyyətdə hazır olması, əsas sex və istehsal sahələrinin xammal və materiallarla, yanacaq və enerji ilə, alət və tərtibatlarla təmin olunması da mühüm əhəmiyyət kəsb edir. Bu isə öz növbəsində istehsala texniki xidmətin təşkil olunmasından bilavasitə asılıdır. Deməli, sənaye müəssisələrində əsas sex və istehsal sahələri ilə yanaşı, köməkçi və xidmətedici sex və təsərrüfatlar da yaradılır ki, bunların da əsas vəzifəsi maşın və avadanlıqları vaxtlı-vaxtında təmir etməkdən, əsas istehsalları maddi-enerji ehtiyatları ilə təchiz etməkdən, istehsal prosesinin gedişatında baş verə biləcək boşdayanmaları aradan qaldırmaqdan, yüklərin zavod daxilində daşınmasını təmin etməkdən və s. ibarətdir.

AZƏRBAYCANDA TURİZMİN İNKİŞAF İMKANLARI

Əliyeva İ.S.
Sumqayıt Dövlət Universiteti

1991-ci illərdən sonra Azərbaycanın yeni ictimai-iqtisadi inkişaf yoluna qədəm qoyması, açıq bazar iqtisadiyyatı sisteminin tələbləri əsasında irəliləməsi onun beynəlxalq aləmə olan baxışlarını da dəyişdirmişdir, beynəlxalq iqtisadi əlaqələr genişlənmiş, respublikanın beynəlxalq turizmdə iştirakı məsələsi ön plana çəkilmişdir.

1999-cu ildə Azərbaycan Respublikasının prezidenti H.Əliyevin fərmanı əsasında «Turizm haqqında qanun» qəbul edilmişdir. Prezidentin fərmanına uyğun olaraq 2002-ci ildə «2002-2005-ci illərdə Azərbaycanda turizmin inkişafı proqramı» qəbul edilmişdir.

Burada aşağıdakı məqsəd nəzərdə tutulmuşdur:

- turizm sahəsində dövlət siyasətinin həyata keçirilməsi və bu sahənin inkişafı üçün zəruri olan bazanın yaradılması;
- mövcud turizm sistemində köhnə təcrübələri saxlamaqla, ölkənin strateji mənafeyinə cavab verə biləcək müasir turizm sisteminin yaradılması;
- turist ehtiyatları və turist sənayesinin idarə edilməsi üzrə əsas istiqamətlərin müəyyən edilməsi;
- turizmin sisteminin inkişafında optimal nisbətlərin təmin edilməsi.

Onu da qeyd etməliyik ki, turizmin inkişafında dönüş yaratmaq məqsədilə 2005-ci ildə «Gənclər, İdman və Turizm Nazirliyi» bazasında «Mədəniyyət və Turizm Nazirliyi» yaradılmışdır.

2004-2008-ci illərdə Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafına dair Dövlət Proqramında turizm sahəsinin imkanlarına dair 30 bənddən ibarət tədbirlər sistemi nəzərdə tutulmuşdur. Eləcə də Respublikada turizmin inkişafına dair Dövlət Proqramına əsasən və ÜTT-nin marketinq planına əsasən 2005-2010-cu illərdə respublikada master-turizm inkişaf planı işlənib hazırlanmışdır.

Azərbaycanda bir sıra beynəlxalq və regional təşkilatlarla - Ümumdünya Turizm Təşkilatı (ÜTT), İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT), Qara Dəniz Iqtisadi Əməkdaşlıq Təşkilatı (QDİƏT), GUAM, Islam Konfransı Təşkilatı (İKT) və MDB üzv dövlətlərinin turizm şuraları ilə turizm sahəsində əməkdaşlıq edir. Onu da qeyd etməliyik ki, 2006-cı ilin dekabr ayında İslam Konfransı Təşkilatına üzv olan dövlətlərin turizm nazirlərinin birinci Konfransı Bakıda keçirilmişdir. 57 ölkənin turizm nazirlərinin Azərbaycanda toplanması turizmin beynəlxalq standartlara uyğun inkişaına real zəmin yaradacaqdır.

Azərbaycan ilə 14 ölkənin - Türkiyə, Pakistan, Özbəkistan, Qırğızıstan, Çin, Polşa, İtaliya, Gürcüstan, Ukrayna, Bolqarıstan, Belorus, Yunanıstan, Qətər, Rumıniya, Moldova və Qazaxıstan hökumətləri arasında turizm sahəsində əməkdaşlığa dair saziş imzalanmışdır. Bundan əlavə Böyük Britaniya, Misir, Rusiya, Avstriya, Küveyt, Bəhreyn, Macarıstan, İsveçrə, Yaponiya, Koreya, İran, İsrail ilə turizm sahəsində əməkdaşlıq haqqında saziş layihələri dövət qurumlarına təqdim olunmuşdur.

Bütün dünyada olduğu kimi Azərbaycanda da turizmin inkişafı üçün turizm sənayesinin inkişafı ön plana çəkilmişdir.

Qeyd etməliyik ki, respublikada - xüsusilə Bakı şəhərində mehmanxana təsərrüfatı demək olar ki, tamamilə yenidən qurulur. Yaxın vaxtlaradək bizim üçün çox möhtəşəm görünən köhnə və təzə İnturist, Moskva, Bakı, Qarabağ, Gənclik və digər mehmanxanalar tamamilə sökülüb yenidən inşa edilir. Belə bir şeyi heç təsəvvür etməsək də real gerçəklik, günün tələbi bundan ibarətdir.

Hazırda Bakı şəhərində və regionlarda beynəlxalq standartlara uyğun mehmanxana və turist istirahət mərkəzləri tikilərək istifadəyə verilir. Ümumilikdə respublika üzrə mehmanxana və ona bənzər turist yerləşdirmə obyektlərinin sayı 2001-ci ildə 149, 2002-ci ildə 173, 2003-cü ildə 203, 2004-cü ildə 238, 2005-ci ildə isə 262 olmuşdur. 2001-ci illərdə 112 mehmanxana və mehmanxana tipli turizm obyekti tikilib istifadəyə verilmişdir (yaxın keçmişdə isə 4-5 ilə ancaq bir mehmanxana inşa edilirdi). Bunlardan 60-ı Bakı şəhərindədir. Bu obyektlərdə çarpayıların ümumi sayı 20000-ə yaxındır. Bunun da 6000-dən çoxu paytaxtın payına düşür.

Mehmanxanaların xidmət səviyyəsinin öyrənilməsi və beynəlxalq standartlara uyğun qiymətləndirilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı olmuşdur. Bu qərara əsasən «Turist-ekskursiya xidmətlərinin sertifikatlaşması»nın keçirilməsi qaydaları təsdiq edilmişdir. Həmin qaydalara əsasən Mədəniyyət və Turizm Nazirliyi respublikada fəaliyyət göstərən mehmanxana və ona bərabər tutulan Turistlərin yerləşdirilməsi obyektlərinin təsnifatı aparılır.

Bu günə qədər Bakı şəhərində 22, digər şəhər və rayonlarda isə 11 mehmanxana təsnifatdan keçmiş və xidmət dərəcələrinə görə fərqləndirilmişlər.

Respublikada turizm sahəsində sahibkarlığın inkişaf etdirilməsi məqsədilə bir sıra zəruri hüquqi-normativ sənədlər qəbul edilmişdir. Bu da həmin sahəyə olan marağı artırmışdır. Respublikada fəaliyyət göstərən turizm şirkətlərinin sayı 18 ədəd olduğu halda, bu gün onların sayı 200-ə çatmışdır.

Mədəniyyət və Turizm Nazirliyinin BMT İP ilə birgə hazırladığı layihəyə əsasən respublikada turizm informasiya mərkəzlərinin yaradılması barədə geniş iş aparılır.

Artıq Bakı şəhərində, Xaçmaz, Şamaxı rayonlarında və Şəki şəhərində belə mərkəzlər fəaliyyət göstərirlər.

Bunlardan əlavə ABŞ Ticarət və İnkişaf Agentliyinin qrantı hesabına respublikada «turizmin strateji inkişaf planı» hazırlanmışdır. Respublikada dağ-xizək turizm növünün inkişaf etdirilməsi sahəsində geniş iş aparılır.

Bütün bunlarla yanaşı turistlərə göstərilən nəqliyyat xidmətlərinin, ictimai iaşə sisteminin yaxşılaşdırılması, cəlbedici suvenir məhsullar istehsalı (məsələn tutaq ki, Şəki ipəyi, nar şərabı, zeytun və s.) savadlı və mədəni bələdçilər hazırlan-ması, yollarda müəyyən dayanacaqlarda məişət xidməti obyektbrinin yaradılması həyata keçirilməlidir.

Onu da göstərməliyik ki, son illərin məlumatlarına görə respublikaya gələn turistlərin sayı da ardıcıl olaraq artmışdır. Belə ki, respublikada olan turistlərin sayı 2002-ci ildə 428,4 min, 2003-cü ildə 629,8 min, 2004-cü ildə 785,9 min, 2005-ci ildə 865,3 min, 2006-cı ildə isə 1300 min nəfər ol-muşdur. Turizm fəaliyyətindən dövlət büdcəsinə daxil olan vəsait 2002-ci ildə 51,0 mln., 2003-cü ildə 57,7 mln., 2004-cü ildə 57,9 mln., 2005-ci ildə isə 77,7 mln. dollar təşkil etmişdir.

2006-cı ildə ölkəmizin mövcud turizm potensialının səmərəli istifadə olunması məqsədilə turizm sahəsində ardıcıl işlər görülmüşdür.

Yeni mədəni-turizm marşrutlarının yaradılması çərçivəsində layihələrin hazırlanması üzrə işlər aparılmışdır.

Turizm sahəsində çalışan kadrların maarifləndirilməsinə və turizmin müxtəlif növlərinin inkişafına təkan verəcək «Azərbaycan Respublikasında 2007-2016-cı illər üçün Turizmin inkişafına dair Dövlət Proqramı»nın layihəsi hazırlanmış və müvafiq dövlət orqanlarına təqdim edilmişdir.

Dövlət Proqramının əsas məqsədi "Turizm haqqında" Qanunda, habelə digər müvafiq normativ-hüquqi aktlarda nəzərdə tutulmuş müddəalara uyğun olaraq turizm sahəsində dövlət siyasətinin həyata keçirilməsini, ölkənin sosial-iqtisadi inkişafını təmin edən vasitələrdən biri kimi turizm sərvətlərindən səmərəli istifadə olunmasını, turizmin ölkə iqtisadiyyatının öncül istiqaməti kimi tanınması və bu sahənin səmərəliliyinin artırılmasını təmin etməkdir.

İNNOVASİYA FƏALİYYƏTİNİN STİMULLAŞDIRILMASI VƏ İDARƏ EDİLMƏSİ ÜSULLARI

Atayev Ü.V.
Sumqayıt Dövlət Universiteti

Regional innovasiya fəaliyyətinin stimullaşdırılması və idarə edilməsi üsulları daha çox idarə etmə orqanlarından, innovasiya –inkişafı konsepsiyasının tərkibi və proqramlarından və eləcə də regionlarda yaradılan innovasiya infrastrukturu obyektlərindən asılıdır.

Bu ilkin şərtlərə əsaslanaraq regionda innovasiya əsaslarında sosial-iqtisadi mexanizm yaradılır. Ilk mərhələlərdə elm və istehsalın səmərəli qarşılıqlı əlaqəsi təmin edilir və bütün reallaşdırılma mərhələlərində lazımi maliyyə resursları cəlb edilir.

Inkişaf etmiş ölkələrdə innovasiya fəaliyyətinin stimullaşdırılması tələb olunan innovasiya məqsədləri və prioritetləri problemlərinin işlənilməsi müxtəlif ekspet qruplarının yaradılması, onların müxtəlif idarə orqanları ilə qarşılıqlı əlaqələri vasitəsilə həll edilir. Ölkəmizdə bu qrum yaradılacaq "Regional elmi-texniki koordinasiya Şurası" adlandırıla bilər.

Onun əsas vəzifələrinə aşağıdakılar aiddir:

- regionun elmi-texniki və innovasiya inkişafının uzun müddətli proqramının işlənilməsi;
- elmi-texniki proqramların və layihələrin formalaşması və onların resurs təminatı üzrə təkliflərin işlənilməsi;
- innovasiya layihəələrinin ekspertizası və həyata keçirilməsi;

- regionda innovasiya fəaliyyətinin informasiya təminatının inkişafına köməklik göstərmək;
- innovasiya fəaliyyətinin inkişafı üçün əlverişli şəraiti təmin edən normativ –hüquqi bazanın təkmilləşdirilməsi üzrə təkliflərin hazırlanması;
- yerli büdcə vəsaitləri hesabına prioritet layihələrin güzəştli şərtlərlə maliyyələşdirilməsi;
- regionun elmi-texniki və innovasiya inkişafının əsas göstəricilərinin monitorinqinin həyata keçirilməsi;
- innovasiya sferası üçün kadrlar hazırlanmasının təşkili;
- elmi-texniki və innovasiya fəaliyyəti məsələləri üzrə yerli və beynəlxalq təşkilatlarla əməkdaşlıq.

Bir sıra regionlarda innovasiya sferasının bir inkişaf "lokomotivi" kimi "Pilotlayihə"-sinin işlənilməsi metodundan istifadə edilir. Təcrübədə belə layihələrə aşağıdakılar aid edilir:

- idarə etmə orqanları strukturuna regionun innovasiya sisteminə kuratorluq edən bölmənin yaradılması; innovasiya fəaliyyətində iştirak edən müxtəlif hakimiyyət orqanları, müəssisə və təşkilatların qarşılıqlı əlaqəsi
- müəssisə və təşkilatların perspektiv innovasiya layihələri paketinin formalaşdırılması, onların regional innovasiya inkişafı proqramına daxil edilməsi üçün ekspertizasının keçirilməsi;
- regionun innovasiya inkişafının konsepsiyası və strategiyasının işlənilməsi; müəssisə və təşkilatların pasportunun formalaşdırılması, onların inkişaf prioritetlərinin seçilməsi;
- regionda innovasiya fəaliyyətinin səmərəliliyini təmin edən infrastrukturun formalaşdırılması;
- milli innovasiya sistemi ilə qarşılıqlı əlaqə, dövlətin məqsədli proqramlarına inteqrasiya;
- regional innovasiya sisteminin qanunvericilik bazasının formalaşdırılması;
- innovasiya texnologiyaları mübadiləsinin vahid informasiya mühitinin yaradılması;
- elmi-texniki innovasiya fəaliyyətinin saxlanılması fondları ilə qarşılıqlı əlaqə, regionda vençur investləşdirilmə fondunun yaradılması.

Ərazi-sənaye zonalarının yaradılmasının stimullaşdırılması prosesində şəhərlər çərçivəsində xüsusi proqramlar işlənilməlidir.

СОВРЕМЕННОЕ СОСТОЯНИЕ СТРАХОВОЙ ДЕЯТЕЛЬНОСТИ В АЗЕРБАЙДЖАНЕ И ЕГО СОВЕРШЕНСТВОВАНИЕ

Довлетханова Г.Д.
Азербайджанский государственный экономичекий университет

Страхование - это экономическая категория, являющаяся составной частью банковской системы, одновременно - это процесс создания и использования целевых денежных фондов созданных с целью оказания финансовой помощи и устранения полученного материального ущерба во время чрезвычайных происшествий связанных с их личной жизнью.

Страхование в Азербайджане в своем развитии прошло в основном 3 этапа: период до октябрьской революции 1917-го года, послереволюционный период (1917-1990-е гг.) и современный период, начиная с 1990-го года. Страховое дело в Азербайджане стало развиваться независимым путем после 1990-го года. В 1991-м году был создан Госстрахнадзор при Кабинете Министров Азербайджанской Республики. В задачу этой организации входило регулирование развития рынка страховых услуг в нашей стране, защита страховщиков, страхуемых и государственных интересов, осуществление методического руководства, подготовка соответствующих нормативно-правовых документов и т.д. В настоящее время страховой рынок переживает в Азербайджане этап своего развития. Страховые компании предлагают более 40 обязательных и добровольных видов страхования. Однако этого еще недостаточно. Для сравнения в развитых странах предоставляется более 300 различных страховых услуг. Сегодня в Азербайджане действуют 28 страховых компаний, лишь 3 из которых специализируются на страховании жизни. Кроме того, в стране действует одна перестраховочная компания - «AzRe Tekrarsigorta». Согласно новым поправкам в закон «О страховании», операции по перестрахованию на территории страны смогут осуществлять только компании, получившие отдельную лицензию на оказание таких услуг. При этом для получения права на перестрахование им нужно иметь более высокую капитализацию, чем это требуется от других страховщиков. Так,

если страховая компания намерена параллельно со страховой деятельностью осуществлять и перестраховочную, то для ведения перестраховочной деятельности её капитал уже с 1 марта 2014 года должен был быть выше на 2.5 миллиона AZN. С января нынешнего года показатель капитализации должен быть выше на 5 миллионов AZN. Иными словами, все страховые компании, которые хотят заниматься и перестраховочной деятельностью, должны сегодня иметь минимальный капитал - 10 миллионов AZN. Само разделение страховой деятельности от перестраховочной через разные уровни капитализации компаний связано с необходимостью обеспечения финансовой стабильности на рынке. В соответствии с последними изменениями в законе «О страховой деятельности» в Азербайджане внедрена общемировая практика разделения лицензирование страховой и перестраховочной деятельности. А чтобы компании могли параллельно заниматься и перестраховочной деятельностью, вводится отдельный вид лицензий. Соответственно для получения лицензии на перестраховочную деятельность, одним из условий теперь стало наличие дополнительного капитала.

Ознакомимся с ситуацией на страховом рынке в наши дни: в январе 2015 года премии страховых компаний (СК) Азербайджана по добровольным видам страхования составили 50,9 млн манатов, что на 7,8% ниже показателя за аналогичный период 2014 года. «По итогам января добровольные виды страхования заняли 80,9% страхового рынка страны», - говорится в отчете Ассоциации страховщиков Азербайджана (ASA). В январе сборы страховщиков по обязательным видам страхования составили 12 млн манатов (19,1% рынка) с двукратным ростом в сравнении с сопоставимым периодом 2014 года. 73,1%, или 7,5 млн манатов выплат страховых компаний пришлось на добровольные виды страхования. Выплаты по данным видам страхования выросли по отношению к январю 2014 года на 32,9%. В свою очередь, выплаты по обязательным видам страхования увеличились на 15,7% - до 2,8 млн манатов и заняли 26,9% всего объема выплат страховщиков. В январе на каждые 100 манатов премий по добровольным видам страхования приходилось 14,8 маната выплат против 10,3 маната за аналогичный период 2014 года. Данный показатель по обязательным видам страхования увеличился с 23,1 до 40,2 маната. В январе 2015 года премии страховых компаний Азербайджана составили 62,9 млн манатов, что на 2,9% превысило показатель за аналогичный период 2014 года. Выплаты были равны 10,3 млн манатов, что свидетельствует о 27,8% росте. На каждые 100 манатов премий приходилось 16,4 маната выплат против 13,2 маната в январе 2014 года. В 2014 году сборы страховщиков составили 429,2 млн манатов, что на 23,5 млн манатов, или на 5,8% превысило показатель за 2013 год. Выплаты были равны примерно 157,1 млн манатов с ростом на уровне 28% (34,3 млн манатов). На каждые 100 манатов премий приходилось 36,6 маната выплат против 30,3 маната в 2013 году. В прошлом году премии страховщиков по добровольным видам страхования составили 284,7 млн манатов, что 5,1% превысило показатель за 2013 год, выплаты - 114,7 млн манатов с ростом на уровне 35,1%. В свою очередь, сборы по обязательным видам страхования были равны 144,5 млн манатов (+ 7,3%), выплаты - 42,5 млн манатов (+ 11,9%). В 2014 году добровольные виды страхования заняли 66,3%, обязательные - 33,7% страхового рынка страны.

Государственная служба страхового надзора внедряет график постепенного повышения требований к минимальному размеру уставного капитала страховщиков. Очевидно, что основные цели введения нового графика повышения капитализации компаний это: обеспечение платежеспособности страховщиков и перестраховщиков, а также защита интересов страхователей. Как известно, собственный капитал в страховом бизнесе является буфером, который защищает страховую компанию и её клиентов от возможного банкротства. Наличие достаточного капитала также позволяет своевременно инвестировать в улучшение качества услуг. Кроме того, практика страховщиков в Азербайджане показывает, что, как правило, компаниям, имеющим проблемы с капитализацией, трудно выплачивать страховое возмещение. При низкой капитализации существует большой риск того, что к ней будут применены какие-то санкции - приостановление или аннулирование лицензии, что опять же бьет по страхователю. Несмотря на растущий объём сборов и потенциал развития, новые требования на какое-то время сделают рынок страховых услуг в Азербайджане чуть менее привлекательным для зарубежных инвесторов. Наряду с этим вырастет концентрация страховых услуг, поскольку растёт вероятность закрытия ряда местных страховых компаний. Половина из действующих страховых компаний в год не собирает и 10 миллионов AZN премий. Очевидно, что с повышением требований к капитализации лучшим решением для так называемых «малых игроков» станет добровольный уход с рынка. Поскольку

объём страхового портфеля этих компаний составляет мизерную долю, то не следует ожидать снижения объёмов премий и других показателей страхового рынка.

Самое главное для улучшения ситуации в страховой сфере - это клиентоориентированная работа страховых компаний и оказание качественных профессиональных услуг. Только в этом случае страхование получит широкое распространение среди населения и, соответственно, страховой рынок будет развиваться. Сегодня есть необходимость в активной работе по информированию населения о страховании. Страховые компании должны уделять большое внимание этому вопросу. Есть много способов, как это сделать. Некоторые страны с развитым рынком страхования имеют положительный опыт по внедрению знаний о страховании в школьную программу, что дало хорошие результаты. Также важна реклама услуг страховых компаний и осуществленных страховых выплат наряду с повышением прозрачности деятельности страховщиков. Есть страховые компании, которые очень активны в этом вопросе, есть компании, которые принимают выжидательную позицию. Считаю, что все страховщики должны быть активны, и объединение усилий пойдет на пользу всем.

В целом проведенные исследования дают возможность сделать ряд предложений по совершенствованию и развитию страховых услуг в Азербайджане наравне с ускорением экономического развития страны в современных условиях и ближайшей перспективе.

1. Разработка и внедрение Страхового кодекса.
2. Совершенствование законодательства и применение действующих активных рычагов страхования в разных сферах экономики, особенно в сфере услуг и недвижимости .
3. Совершенствование и усиление гарантий правил выплат услуг и определение их максимального размера для увеличения доверия к страховым агентам.
4. Усиление антимонопольной политики в сфере страхования, создание деловой среды и равноправных условий деятельности страховых компаний .
5. Координация контролирующих, финансирующих государственных органов для усиления и развития управленческой системы рынка страхования в Азербайджане и приведение ее на уровень мирового стандарта.

MÜƏSSİSƏNİN ÖDƏMƏ QABİLİYYƏTİNİN TƏHLİLİ

Şıxkərimov S.T.
Sumqayıt Dövlət Universiteti

Bazar iqtisadiyyatı şəraitində müəssisənin maliyyə vəziyyəti onun ödəmə qabiliyyəti ilə müəyyən olunur. Ödəmə qabiliyyəti də öz növbəsində bilavasitə üç parametrdən - satışın həcmindən, mənfəət məbləğindən və dövriyyə vəsaitlərinin həcmindən asılıdır.

Maliyyə vəziyyəti, ilk növbədə, müəssisənin ödəmə qabiliyyətində, mal göndərənlərin ödəmə tələblərinin vaxtında təmin edilməsində, kreditlərin qaytarılmasında, fəhlə və qulluqçulara əmək haqqının ödənilməsində, büdcəyə və büdcədənkənar dövlət fondlarına ödəmələrin vaxtında köçürülməsi qabiliyyətində öz əksini tapır. Ödəmələrin vaxtında və tam aparılması təsərrüfat subyektinin ödəmə qabiliyyətinin xarici görünüş formasıdır. Maliyyə sabitliyi isə həmin halın daxili tərəfini əks etdirir.

Müəssisənin ödəmə qabiliyyətini əks etdirən əsas göstəricilər aşağıdakılardır:

1) Mütləq likvidlik əmsalı ($Ə^{ml}$)

$$Ə^{ml} = \frac{\text{Pul vəsaiti} + \text{qısamüddətli maliyyə qoyuluşları}}{\text{qısamüddətli öhdəliklər}}$$

Normal ödəmə qabiliyyəti üçün bu göstərcinin minimum həddi **0,2-0,25** hesab edilir.

Bu əmsal təsərrüfat subyektlərini material resursları ilə təmin edən malgöndərənlər və kreditləşdirən banklar üçün mühüm əhəmiyyət kəsb edir. Əgər $Ə^{ml}$**>0,5** olarsa, müəssisənin ödəmə qabiliyyəti yüksək hesab edilir.

2) Aralıq («böhranlı») likvidlik əmsalı ($Ə^{al}$):

$$Ə^{al} = \frac{\text{pul vəsaiti} + \text{qısamüddətli maliyyə qoyuluşları} + \text{debitor borcları}}{\text{qısamüddətli öhdəliklər}}$$

Normal ödəmə qabiliyyəti üçün bu əmsalın minimum həddi 0,7-0,8 hesab edilir. Bu göstərici səhm sahiblərini daha çox maraqlandırır.

3) Cari likvidlik əmsalı (Ə^{cl}):

$$Ə^{cl} = \frac{\text{pul vəsaiti} + \text{qısamüddətli maliyyə qoyuluşları} + \text{debitor borcları} + \text{ehtiyat və xərclər}}{\text{qısamüddətli öhdəliklər}}$$

Cari ödəmə qabiliyyətini hesablayarkən gələcək dövrün xərcləri ehtiyat və xərclərin məbləğinə daxil edilmir. Bu əmsal vahiddən aşağı olmamalıdır. Inkişaf etmiş ölkələrdə bu göstəricinin **«təhlükəsizlik» həddi 2-2,5** hesab edilir.

Ödəmə əmsallarının mahiyyətində olan fərqlər sahənin xüsusiyyətləri, mal və xidmətlərə görə hesablaşma formaları, istehsal həlqəsinin müddəti, əmtəə-material dəyərliləri ehtiyatının strukturu ilə bağlıdır. Ödəmə əmsalı yüksək olduqca kreditorların müəssisəyə inamı artır.

4) Əmtəə-material dəyərliləri ehtiyatının likvidlik əmsalı (Ə^{əmdl}):

$$Ə^{əmdl} = \frac{\text{ehtiyat və xərclər}}{\text{qısamüddətli öhdəliklər}}$$

Bu əmsal onu göstərir ki, əgər müəssisə əmtəə-material dəyərlilərini satarsa, qısamüddətli öhdəliklərin hansı hissəsini ödəyə bilər.

İnkişaf etmiş xarici ölkələrin təcrübəsi göstərir ki, bu və ya digər idarəetmə qərarının hazırlanması və qəbul edilməsi zamanı mühasibat balansı və mənfəət və zərər haqqında hesabatla yanaşı pul vəsaitlərinin hərəkəti haqqında hesabata (PVHH) daha üstünlük verilir.

MÜƏSSİSƏNİN İŞGÜZAR FƏALLIĞININ TƏHLİLİ

Quliyeva G.N.
Sumqayit Dövlət Universiteti

Təsərrüfat fəaliyyətinin səmərəliliyi müəssisənin işinin nəticələrini əks etdirən iki üsulun biri ilə müəyyən olunur:

a) avans edilmiş ehtiyatların həcmi ilə;

b) istehsal prosesində həmin ehtiyatların istehlakının həcmi ilə (məsrəflər)

Məhsulun və ehtiyatların (məsrəflərin) dinamikasının nisbəti iqtisadi artımın xarakterini səciyyələndirir. İstehsalın iqtisadi artımı həm ekstensiv, həm də intensiv üsulla əldə oluna bilər. Məhsul istehsalının artım sürətinin ehtiyatların artım sürətini üstələməsi intensiv iqtisadi artımı əks etdirir.

Maliyyə aspekti baxımından müəssisənin işgüzar fəallığı onun vəsaitinin dövr sürətində öz əksini tapır. Bu qrupdan olan göstəricilər cari əsas istehsalat fəaliyyətinin nəticələrini və səmərəliliyini səciyyələndirir. İşgüzar fəallığın keyfiyyətcə qiymətləndirilməsi müəssisənin göstəricilərinin müqayisəli təhlili vasitəsi ilə həyata keçirilə bilər. Həmin keyfiyyət meyarlarına məhsul satışı bazarının genişliyi, ixrac olunan məhsulların həcmi, müəssisənin imici (şöhrəti) və i.a. aid edilir. Kəmiyyətcə qiymətləndirmə iki istiqamətdə aparılır:

a) əsas göstəricilər üzrə, onların müəyyənləşdirilmiş artım sürəti üzrə proqnozun icra səviyyəsi;

b) müəssisənin ehtiyatlarından istifadənin səmərəliliyinin səviyyəsi.

Təhlilin birinci istiqaməti üzrə əsas göstəricilərin müqayisəli dinamikasını nəzərdən keçirmək məqsədəuyğun hesab olunur. Belə ki, onların aşağıda göstərilən nisbəti optimal hesab edilir.

$$Tmb > Tq > Tak > 100\%$$

Burada, Tmb – balans mənfəətinin dəyişilmə sürəti;

TQ– satışın həcminin dəyişilmə sürəti;

Tak – avans edilmiş kapitalın dəyişilmə sürəti.

Həmin asılılığa əsasən aşağıdakı nəticələri irəli sürmək olar:

a) müəssisənin iqtisadi potensialı artır;

b) iqtisadi potensialın artımı ilə müqayisədə satışın həcmi üstün artır, daha doğrusu, müəssisədə ehtiyatlardan daha səmərəli istifadə olunur;

c) mənfəət üstün sürətlə artır ki, bu da istehsal və tədavül məsrəflərinin nisbi azalmasını əks etdirir.

Yuxarıda göstərilən nisbəti şərti olaraq «müəssisənin iqtisadiyyatının qızıl qaydası» adlandırmaq olar.

Təhlilin ikinci istiqaməti material, əmək və maliyyə ehtiyatlardan istifadə səviyyəsini özündə əks etdirən müxtəlif göstəricilərin (hasilatın həcmi, fondverimi, istehsal ehtiyatlarının dövr sürəti, əməliyyat həlqəsinin davamiyyəti, avans edilmiş kapitalın dövr sürəti və b.) hesablanması yolu ilə həyata keçirilə bilər.

Müəssisənin ehtiyatlarının səmərəli istifadə edilməsini, onun inkişafının dinamikliyini səciyyələndirən ümumiləşdirici göstərici kimi resursverimi (avans kapitalının dövretmə əmsalı) və iqtisadi artımın sabitliyi əmsalı çıxış edir.

Resursverimi müəssisənin fəaliyyətinə qoyulmuş vəsaitlərin hər manatına düşən satılmış məhsulun həcmini səciyyələndirir. İqtisadi artımın sabitliyi əmsalı müxtəlif maliyyə mənbələri ilə fondverimi, istehsalın rentabelliyi, dividend siyasəti və s. arasında mövcud nisbəti dəyişmədən gələcəkdə müəssisənin inkişafının orta sürətini müəyyən edir. Həmin göstəricilər arasında qarşılıqlı əlaqə aşağıda verilmişdir:

Vəsaitlərin və ya onların mənbələrinin rentabelliyi = Satışın rentabelliyi x Vəsaitlərin və ya onların mənbələrinin dövranı

Beləliklə, iqtisadi artımın sabitliyi əmsalı ($Ə^{ias}$) kommersiya təşkilatının gələcəkdə müxtəlif maliyyələşdirmə mənbələri, fondverimi, istehsalın rentabelliyi, dividend siyasəti və i.a. arasında mövcud nisbəti dəyişmədən, orta hesabla hansı sürətlə inkişaf edəcəyini göstərir.

TURİZM SAHƏSİNDƏ SAHİBKARLIQ FƏALİYYƏTİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

Vəliyeva A.S.
Azərbaycan Kooperasiya Universiteti

Regionların sahibkarlıq maraqları isə region əhalisinin məşğulluğu, regionun kompleks inkişafı infrastrukturanın genişlənməsi, sosial mədəni servis xidmətlərinin müasirtələblərə uyğun olaraq transformasiyası məqsədini güdür. Sahibkarlıq regional, sahə və əhali problemləri qarşılıqlı əlaqədə idarə olunur. Sahibkarlığın turizm sahəsində inkişafı, dərinləşməsi bu sahənin sahələr arası rəqabət mühitində gəlirliyi ilə ölçülür. Sahələ rarası rəqabət hər bir sahənin əhatə iqtisadi potensialını genişləndirir.

Regional sahibkarlığın turizm sferasında idarəolunmasının forma və metodlarından asılıdır. İlkin növbədə regionlarda turizm fəaliyyəti regionlarda sahibkarlığın fəaliyyəti dövlət qeydiyyatından keçir.Bu məqsədlə fəaliyyətin əsas məqsədi onun istehsal etdiyi və göstərdiyi turizmin ayrı-ayrı növləri və onların reallaşması,satılması nəticəsində əldə olunan gəlirlərin bölgüsü, yenidən bölgüsü layihələri yenidən tərtib olunur.Turizm sahibkarlığının ümumi gəlirləri onun bölgüsü, yerli və dövlət orqanlarının ödəmələridir. Müasir şəraitdə sahibkarlıq fəaliyyəti vergi orqanlarında qeydiyyatdan keçirilir və sosial müdafiə fondunda sosial vergilərin toplanması üçün fərdi uçot sistemi ilə hesaba daxilolur.

Turizmdə sahibkarlığın maliyyə dəstəyini ayrı-ayrı sahibkarların xüsusi vəsaitləri və əhalinin vəsaitləri hesabına formalaşdırmaq əsas istiqaməti təşkil edir. Bununla yanaşı əhalinin rifahının yüksəldilməsi yolları onun maddi tələbatına yönəlməsi mənəvi tələbatın artmasına təsir edir. Təcrübə göstərir ki, regionlarda əhalinin həyat səviyyəsi yüksəldikcə maddi tələbatın ödənilməsi ilə yanaşı turizm tələbatı da prioritet istiqaməti təşkil edir. Turizm məhsulunun qiyməti, onun xidmət şəraiti tələbatçıların tələbatının formalaşmasına təsir edir. Ona görə də müasir şəraitdə turizmi inkişaf etdirmək üçün onun bazarını təşkil etmək və turistlərin istehlak davranışına uyğun olaraq seqmentləşdirmək təşkilati quruluş kimi inkişaf etdirilir. ÜDM-un artımı turizmin inkişafına maddi əsas yaradır. Büdcədən ayrılan vəsaitlər, turizmdən tutulan vergilər, yaşlı kreditlər, xarici investorların turizmdə müştərək iştirakı bu sahənin inkişafına təsir edir. İnvestorlar *xarici investorlara* və *respublikada sahibkarlıqla məşğul olan* investorlara bölünür. İnvestorların rəqabət mühiti şəraitində turizmə risk etməsi bu sahənin dövlət tərəfindən təminatçı kimi çıxış etməsi ilə bağlıdır. Təşkilati quruluş olaraq dövlət regionda digər sahələrin inkişafına da şərait yaradır.Turizmin təşkilati problemləri regionlarda infratstrukturların inkişafına mülkiyyət formasından asılı olmayaraq yönəldilən kapitalla ölçülür. Beləki, neft gəlirlərinin bir hissəsi müasir şəraitdə qeyri-neft sektoruna bölünür. Turizmin sahibkarlığı daxilində bir sıra vəzifələr bu sahənin imicini yaradır. Turizmin səmərəliyinin təşkili onun davamlı, dayanıqlı və rəqabət mühiti şəraitində uzun müddətli fəaliyyət üçün baza yaradır.Turizm fəaliyyətinin regionlarda təşkili region tabeliyində olan

resursların pullu ödəmələr yolu ilə istifadəsinə və onun təkrar istehsalına zəruri olan, lazım olan və saitlərin düzgün bölgüsünə yönəldilir.

Regionlarda turizm sahibkarlığı mövsümi xarakter daşıyır. Mövsümilikisə regionların şəraitinin daima turizm dövriyyəsində turizm ehtiyatları kimi istifadə olunmasına gətirib çıxarır. Turizm ehtiyatlarını artırmaq üçün fiziki şəxslər, hüquqi şəxslər əsas rol oynayır. Regionlarda turizmin xüsusiyyətləri dünya turist təşkilatlarının və dünya turizm ölkələrində olan ümumi təcrübələrlə yanaşı sahibkarlıq mühiti ilə formalaşır və inkişaf edir.Turizm məhsullarının regional xüsusiyyətləri, onun bazarı sahibkarlığın formalarını yaradır. Sahibkarlıq formaları sahibkarlıq məhsulunun çeşidini, keyfiyyətini formalaşdırır. Sahibkarlar arasında iqtisadi cəhətdən əsas maraq prinsipi eyni məsrəflər də müxtəlif gəlirlər əldə etmək qabiliyyəti inkişaf etdirilir. Bununla yanaşı subsidiyaların verilməsi və ya uzunmüddətli tikinti infrastrukturu layihələrinə qoyulan və saitlərə kreditlər verilməsi sahibkarlığa marağı artırır və öz xüsusi vəsaitlərini bu sahibkarlığa yönəltməyə sövq edir.Hər bir sahibkar öz xüsusivəsaitləri ilə yanaşı digər vəsaitlərin, digər subsidiyaların vəsaitlərinin turizm dövriyyəsinə cəlb edilməsinə imkan yaradır.Təbii ki, bu təsərrüfat əlaqələri, ümumi qaydalar, müqavilələr və gəlirlərin əlverişli bölgüsü ilə təmin olunur.

MÜƏSSİSƏLƏRDƏ KEYFİYYƏTİN İDARƏETMƏ METODLARİNİN MƏHSULUN RƏQABƏTQABİLİYƏTLİLİYİNƏ TƏSİRİ

Nəbiyev B.Z.
Azərbaycan Dövlət Aqrar Universiteti

Məhsulun keyfiyyətinin idarə edilməsi fəaliyyətinin inkişafı müəssisələrdə keyfiyyətin idarəetmə sisteminin yaranmasına zəmin yaratdı.Müəssisələr arasında keyfiyyət uğrunda kəskin rəqabətin yaranması onları vahid kompleks idarəetmə sisteminə keçməyi məcbur etdi.Keyfiyyət sisteminin yaradılması,keyfiyyət üzrə planlı,mütəmadi işlərin aparılmasına və təşkilinə gətirib çıxarır.Bu sahənin get-gedə inkişafı dünya tiçarətində keyfiyyət üzrə İSO 9000 beynəlxalq standartların yaranmasına,sonra isə müstəqil orqanlar tərəfindən bu sistemin sertifikatlaşdırılmasının yaranmasına və inkişafına təsir etdi.Müəssisələr İSO 9000 seriyalı standartların əsas prinsiplərini və tövsiyələrini rəhbər tutaraq keyfiyyətin idarə edilmə sistemlərinə qoyulan tələblərə riayət etməlidir.

İqtisadiyyatın müvəffəqiyyətli inkişafının əsas şərti rəqabət qabiliyyətli məhsulun istehsalıdır. Rəqabət qabiliyyətliliyin əsasını keyfiyyət təşkil edir. İstehlakçılar arasında aparılan sorğu göstərdi ki, rəqabət qabiliyyətliliyi müəyyən edən göstəricilər (qiymət, çatdırılma vaxtı, xidmət və b.) arasında keyfiyyət məhsulun istehlakçı tərəfindən seçiminin əsas amilidir. Bu nəticələrin düzgünlüyünü inkişaf etməkdə olan ölkələrin (Türkiyə, Çin, Cənubi Koreya və b.) müvəffəqiyyəti təsdiq edir. Bu onunla əlaqədardır ki, bu ölkələrin məhsulu yüksək keyfiyyəti ilə bütün dünyada məşhurdur. İqtisadiyyatın qloballaşdırılması prosesi rəqabəti daha da gərginləşdirir. Belə ki, bazarın genişləndirilməsi istehlakçıya bütün dünya istehsalçılarının məhsullarını əldə etməyə imkan yaradır. Nəticədə, onların hər biri digərləri ilə müəyyən bir sahədə rəqabət aparır. Belə şəraitdə yalnız yüksək keyfiyyəti aşağı qiymətlə təklif edənlər bazarda fəaliyyət göstərməyə imkan əldə edirlər.Keyfiyyətin idarə olunmasinin müasir metodları artıq tələbatın öyrənilməsindən başlayaraq (marketinq tədqiqatları) və öz istifadə müddətini qurtarmış utilizasiya məsələləri ilə qurtaran, məmulatların həyat dövrünün bütün mərhələlərini əhatə edir.

Son illərdə bütün bu amillər keyfiyyət menecmentinin kəskin sürətdə inkişafına təkan verdi. Onların istifadəsi keyfiyyətin yüksəldilməsi sahəsində işləri sistemləşdirməyə, səmərəliləşdirməyə imkan yaradır. Məhz məhsulun keyfiyyətinin daimi yaxşılaşdırılması şəraitində təşkilat, şirkət və ya firma bazarda mövqeyini saxlayır, hətta yaxşılaşdırır.

Müasir dünya bazarının xüsusiyyətləri keyfiyyət probleminin həllində yeni yanaşmaların işlənib hazırlanmasını tələb edir. Hazırda ənənəvi idarəetmə metodlarından savayı yeni spesifik yanaşmalar və metodlar istifadə edilir. Keyfiyyət menecmenti metodları, alətləri və sistemləri ilə yanaşı olaraq bu metodların istifadəsi ilə keyfiyyət sahəsində müvəffəqiyyətlər əldə etmiş ölkələrin təcrübəsi də nəzərə alınmalıdır.

Dünyanın inkişaf etmiş ölkələri bazar və rəqabət şəraitində yüksək keyfiyyəti strateji ticarət simvolu və milli sərvətləri ən mənalı mənbəyi kimi qəbul edirlər. Keyfiyyət bir çox şeydə hökümətin nüfuzunu müəyyən edir. Ancaq onun əsasında müəssisə rəqabət şəraitində davam gətirə bilər, buna görə

də tam obyektiv olaraq görünür ki, bazar şəraitində keyfiyyətin yüksəldilməsi və təmin edilməsi əsas şərtdir. Qeyd etmək lazımdır ki, rəqabətin həyata keçirilməsinin iki əsas metodu var:

1. qiymət üzərində qurulan rəqabət – bu metodda rəqib qiymətlərin aşağı salınması yolu ilə bazardan sıxışdırıb çıxarılmasını nəzərdə tutur;
2. qiymət üzərində qurulmayan rəqabət – bu metodda bazara rəqib məhsulun qiymətinə uyğun, lakin ondan daha keyfiyyətli məhsul təklif edir.

Müəssisələrdə keyfiyyət menecment sisteminin yaradılması dunya bazarında həmin təşkilatın rəqabətqabiliyyətinin və fəaliyyətinin gücləndirilməsinə gətirib çıxarır.Qeyd edək ki, uğurlu keyfiyyət menecmenti sisteminin yaradılması və tətbiqi o qədər də sadə və sürətli proses deyildir. Keyfiyyət menecmenti sistemi yalnız keyfiyyətin idarə edilməsi metodlarının və alətlərinin düzgün istifadəsi, ixtisaslaşdırılmış menecmentin və personalın olması, rəhbərliyin və işçilərin psixologiyasının köklü sürətdə dəyişdirilməsi, məhsul və xidmətlərin keyfiyyətinin təmin edilməsi məsələlərində təşkilatda fəaliyyət göstərən bütün kolektivlərin tabeçiliyi şəraitində effektiv ola bilər.

AQRAR SAHƏDƏ İXRAC POTENSİALININ ARTIRILMASININ ZƏRURİLİYİ

Məmmədova Ü.Ş.
Azərbaycan Dövlət Aqrar Universiteti

Bazar iqtisadiyyatı prinsipləri əsasında öz milli iqtisadiyyatını inkişaf etdirən Azərbaycan üçün aqrar sahənin mümkün potensialından tam mənada istifadə edilməsi Gələcəyə baxış Konsepsiyası üçün ən aktual mövzulardan birinə çevrilmişdir.

Aqrar sahənin modernləşdirilməsində başlıca məqsəd kənd əhalisinin bütün təbəqələrinin iqtisadi fayda götürməsi üçün səfərbər olması, iqtisadiyyatın diversifikasiyası və istehsalın genişlənməsi,öncə idxalı əvəzləyən, sonra isə ixrac oluna bilən məhsulların istehsalının reallaşmasıdır. Nəzərə almaq lazımdır ki, 2020-ci ildən sonra kənd təsərrüfatı məhsullarının idxalından asılılıq milli iqtisadiyyatımız üçün böyük zərbə ola bilər.

Kənd təsərrüatı məhsulu və ərzaq ixracının rəqabətədavamlılığı modernizasiya yolu ilə artırılmalıdır: daha az xərc və daha yüksək keyfiyyət. Azərbaycandan ixrac məhsullarının nə dərəcədə texniki tərəqqiyə əsaslanaraq istehsal edilməsi təhlil edilməlidir: yəni idxal və ixrac məhsulları nə dərəcədə əsas istehsal amilləri (resurs və əmək) və mütərəqqi amillər (texnologiya və ixtisas dərəcəsi)əsasında yaradılır. Əgər ixrac məhsulları daha çox texnologiya və ixtisaslı əmək hesabına istehsal olunarsa bu, ölkənin üstünlüyü deməkdir.

Son zamanlar aqrar sahədə əsas istiqamət diqqətin intensiv əmək və orta səviyyəli istehsal, habelə meyvə-tərəvəz ixracına yönəldilməsi olmuşdur.Xarici bazarda, xüsusilə də Rusiya bazarında Azərbaycan almalarına tələbat artmaqdadır ki, bunun nəticəsində ötən illər ərzində ixrac artmışdır. Lakin sovet dövründən qalmış bağların yenilənməsi və daha məhsuldar sortların yetişdirilməsi bilavasitə modernizasiya sahəsində olan çağırış kimi qiymətləndirilməlidir. Nar yetişdirilməsi üçün tələb olunan məxsusi torpaq növü Azərbaycanda mövcuddur və fermerlər öz meyvə bağlarını fəal şəkildə genişləndirirlər. Həm alma, həm də nar modern texnologiyalarla emal olunaraq get-gedə daha çox şirə və şirə konsentratı istehsal olunur. Təzə tərəvəz ixracı əsasən Rusiya və Ukrayna olmaqla artmaqda davam edir. Əsas ixrac bazarları Rusiya və Ukrayna olsa da ixracatçılar Qərbi Avropa ölkələrinə də ixrac etməyi qarşılarına məqsəd qoyur. Azərbaycanın iqlim və hava şəraiti modern istixanalarda ildə 3-4 dəfə məhsul yetişdirməyə imkan verir və enerji qiymətlərinin aşağı olması Azərbaycanı bu baxımdan çox rəqabətli edir. İxracatının sürətlə artdığı digər meyvə-tərəvəz məhsullarına albalı,xurma,fındıq, faraş kartof, kivi, feyxoa və tomat pastası konsentratı daxildir.

Müxtəlif tədqiqatlar Azərbaycanda balıqçılığın ixrac potensialına malik sahə olduğunu göstərir. İxracın artması üçün həmçinin innovativ balıqçılıq məhsulları və xidmətləri inkişaf etdirilməlidir. Quşçuluğun inkişafı isə həm idxalın əvəzlənməsi, həm də ixracın genişlənməsinə gətirib çıxara bilər. Bunun üçün yeni texnologiyaların tətbiqi, damazlıq və yem bazasının, habelə menecment və marketinqin inkişafı və maliyyə resurslarına çıxışın genişləndirilməsi mümkündür.

Süd və ət ixracının genişləndirilməsi üçün sahəyə xarici birbaşa investisiyaları cəlb etməklə heyvanların cins tərkibini təkmilləşdirmək, yem bazasını yaxşılaşdırmaq və menecmenti inkişaf etdirmək,habelə standartlara əməl etmək lazımdır.

Modernləşmə Azərbaycanda istehsal olunan kənd təfərrüfatı məhsulları və ərzaq üçün xarici bazarlara daxil olmaq imkanı yaradan sertfikatların əldə edilməsinə yardım göstərə bilər. Azərbaycan ixracatçıları xarici bazarların tələbini ödəmək üçün beynəlxalq səviyyədə qəbul edilmiş sanitar və fitosanitar normalara, o cümlədən " Qida Məcəlləsi" və " Bitki Mühafizəsi Konvensiyası"nın tələblərinə cavab verməlidirlər. Bundan başqa kənd təsərrüfatı sahəsində Yaxşı Kənd Təsərrüfatı Təcrübəsi və ərzaq emalı sənayesi üzrə Yaxşı İstehsal Təcrübəsi standartları da mövcuddur.

Qeyri-neft sektoru kimi özünü göstərən aqrar sahədə inkişafın davamlı olması üçün dövlətin iqtisadi rolu mütləq yeni keyfiyyət müstəvisində reallaşmalıdır. Bunun üçün isə problemin həllinə dövlət sektoru çərçivəsində yanaşılması məqsədəuyğundur. Çünki aqrar sahənin inkişafında dövlətin rolu sadəcə vəzifə və funksiya xarakteri daşımamalı, həmçinin iqtisadi bir subyekt kimi ümumi təsərrüfat mexanizminin işləməsində faydalanan tərəf kimi çıxış etməlidir. Yalnız belə halda rəqabətqabiliyyətli mühitin inkişafı təmin edilər, innovativ-texnoloji yeniliklərdən istifadə imkanları genişlənər.

QLOBALLAŞMA VƏ ONA TƏSİR EDƏN AMİLLƏR

Cəlilova D.X.
Azərbaycan Dövlət Aqrar Universiteti

Qloballaşma dünya təsərrüfatının,əmtəə və xidmətlərin, kapital və işçi qüvvəsinin, biliyin timsalında vahid bazara çevrilməsidir. Qloballaşma dedikdə, bütün dünyanın bir qlobal məkana çevrilməsi və həmin məkan daxilində xalqların qarşılıqlı asılılığın zaman keçdikcə daha da artması və bütün sərhədlərin və maneələrin aradan qaldırılması başa düşülür. Qloballaşma müsbət və mənfi nəticələrə malikdir. Digər tərəfdən milli, dövləti maraqları arxa plana keçirir. Mahiyyətcə beynəlmiləlləşmənin yüksək fazası kimi, o həm də dünyada yoxsulluğun artmasına zəmin yaradır və bu əsnada yerlərdə çoxlu etirazlarla müşayiət olunur. Qloballaşma həm də daha çox sindikatlara gəlir gətirir. Dünyanın müxtəlif ölkələrinin iqtisadiyyatlarının qarşılıqlı aslılığının artması və dünya iqtisadiyyatının qloballaşması proseslərinin güclənməsi beynəlxalq biznesin artımı və inkişafından, kapitalın ixracından, intensiv informasiya mübadiləsindən və texnologiyalardan, işçi qüvvəsinin miqrasiyası ilə bilavasitə bağlıdır.

Hazırda qloballaşma prosesi daha çox iqtisadi asılılıq,azad bazar iqtisadiyyatının sərbəst tənzimlənməsi və hakimiyyəti, məsuliyyətin dövlətdən qeyri-dövlət strukturlara keçməsi kimi göstəricilərlə xarakterizə olunur. Bütövlükdə vətəndaşların və ayrı-ayrılıqda fərdlərin hüquqlarının qorunması qloballaşma prosesinin əsas prioritet istiqamətlərindən biri hesab olunur. Bu nöqteyi nəzərdən yanaşdıqda ilkin olaraq sənaye, nəqliyyat və rabitə sahəsində texnoloji inqilab əsasında müasir qlobal maliyyə-iqtisadi və informasiya məkanının dinamik formalaşması prosesi başa düşülür.

Makroiqtisadi planda qloballaşma dedikdə, müəssisənin daxili bazarın hüdudlarından kənarda fəaliyyətinin genişləndirilməsi başa düşülür. Sahibkarlıq fəaliyyətinin millətlərarası və ya çoxmillətli oriyentasiyasından fərqli olaraq, qloballaşma dünya bazarının mənimsənilməsinə vahid yanaşmanı bildirir. Qlobal bazarda satılan məhsul ayrı-ayrı ölkələrin spesifik şəraitlərinə adaptasiyaya ehtiyac duymur, belə ki, onun xassələri dünya bazarının tələblərinə cavab verir.

Qloballaşmanın iqtisadi, texnoloji, sosial-ictimai, beynəlxalq və siyasi amilləri mövcuddur. İqtisadi amillərə istehsalın qloballaşması və dünya ticarətinin qlobalaşması, texnoloji amillərə nəqliyyatda irəliləyiş, telekommunikasiya texnologiyaları sahəsində irəliləyiş, informasiyanın ötürülməsi sürətini yüksəldilməsi və ötürmə haqqının azaldılması,internet istifadəçilərinin sayının artması,vahid informasiya məkanının yaradılması daxildir. Sosial-ictimai amillərə zövqlərin, vərdişlərin, davranışın unifikasiyası, milli ənənələrin zəifləməsi, beynəlxalq amillərə beynəlxalq iqtisadi təşkilatların rolunun artırılması, standartlaşdırma və mərkəzləşdirmə, siyasi amillərə isə dünya sosialist təsərrüfat sisteminin dağılması, dünya ölkələrinin bazar iqtisadiyyatına doğru getməsi, sərhədlərin şəffaflığı- bəzi AB ölkələrində pasport rejimi sisteminin ləğv edilməsi buraya aid edilir.

Qloballaşma prosesində dünya telekommunikasiya şəbəkəsinin yaradılması mühüm rol oynayır və bu istehlakçıların davranışı ilə mal və xidmətlərin qlobal bazarlarının artması arasında fərqlərin silinməsinə səbəb olur. Qloballaşma prosesi 20-ci əsrin 60-cı illərində elmi texniki tərəqqinin sürətlənməsi, istehsal və kapitalın beynəlmiləlləşməsi proseslərinin inkişafı ilə əlaqədar başlanmışdır. 1990-cı illərdə Qərb Ölkələri BMT sistemi, Ümumdünya Ticarət Təşkilatı və başqa beynəlxalq təşkilatlar vasitəsilə dünyanın qlobal və siyasi quruluşunu və iqtisadiyyatın tənzimlənməsində dövlətin rolunun

dəyişməsinin yeni starategiyasını fəal inkişaf etdirməyə başladılar ki, bu da beynəlxalq ticarətin genişlənməsinə, investisiyaların və maliyyə kapitalının beynəlmiləlləşdirilməsinə kömək etdi. Dünya iqtisadiyyatının qloballaşmasının əsas amilləri aşağıdakılardır:

-beynəlxalq təşkilatların rolunun artması, harmonizasiyalı standartların işlənib hazırlanması;
-beynəlxalq ticarətin liberallaşdırılması;
-qlobal beynəlxalq maliyyə bazarının formalaşması;
-beynəlxalq əmək bölgüsünün dərinləşməsi;
-beynəlxalq nəqliyyat strukturunun formalaşması.

Fikirmizi yekunlaşdıraraq deyə bilərik ki, qloballaşma yer kürəsində insanlar, xalqlar, millətlər və ölkələr arasında qarşılıqlı əlaqə və aslılıqları əks etdirməklə insan təfəkküründün nailiyyətlərindən hamının faydalanmasına, problemlərə qarşı vahid güc kimi çıxış etməyə imkan yaradır.

AZƏRBAYCANIN İQTİSADİ SAHƏLƏRİNİN İNKİŞAFINDA AZAD İQTİSADİ ZONALARIN ROLU

İbrahimova L.N.
Sumqayıt Dövlət Universiteti

Ayrı – ayrı dövlətlər öz rifahını əmtəə dövriyyəsinin genişləndirilməsi hesabına artırırlar. Bu iqtisadi fikir azad ticarət nəzəriyyəsinin formalaşması və inkişafına xidmət edir. Lakin qeyd etmək lazımdır ki, sözün əsl mənasında azad ticarət praktiki olaraq mövcud deyil. Tarif və kvotaların mövcud olmadığı yeganə müasir dövlət demək olar ki, HonqHonqdur.

1973-cü il mayın 18-də Kiotoda keçirilən gömrük proseduralarının sadələşdirilməsi və harmonikləşdirilməsi üzrə beynəlxalq konvensiyada göstərilir ki, azad zona (franko zona) dedikdə, ölkə ərazisinin hər hansı bir hissəsi başa düşülür ki, burada məhsullara milli gömrük ərazisindən kənarda olan bir obyekt kimi baxılır. Buna görə də onlar gömrük nəzarətindən keçirilmir və vergiyə cəlb edilmirlər.

Bir çox dövlətlərə bazar münasibətlərinin inkişafı üçün zəruri olan əsas amil xarici investisiyaların cəlb edilməsidir. Müxtəlif dövlətlər arasında xarici kapitalın cəlb edilməsi uğrunda rəqabət getdikcə daha da artır. Bu investorların cəlb edilməsi üçün istifadə edilən müxtəlif üsul və mexanizmlərin rolunu artırır. Son 25 ildə isə bu üsul və mexanizmlərdən özünü ən çox doğruldanı kimi azad iqtisadi zonaların yaradılmasını göstərmək olar.

Dövlət müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikasında bazar münasibətlərinin dərinləşməsi, biznes fəaliyyətinin genişlənməsi istiqamətində azad iqtisadi zonaların (AİZ) yaradılmasının mühüm iqtisadi önəmi vardır. Respublikamızda belə zonaların yaradılması üzrə iş 1994-cü ildə BMT-nin inkişaf proqramı ilə başlanmış, lakin 1999-cu ildə bir sıra səbəblər üzündən dayandırılmışdır. Bu zonanın Sumqayıt şəhərində yaradılması nəzərdə tutulmuşdur. Sumqayıt Azad iqtisadiyyat zonasının yaradılmasının başlıca vəzifəsi şəhərin əsas aparıcı istehsal sahələrinin dirçəlməsi və müasir tələblərə cavab verən səviyyəyə çatdırılmasıdır.

Azad iqtisadi zonaların təsərrüfat həyatı xarici dünyaya yüksək formada açıqlığı ilə seçilir. Burada gömrük, vergi və investisiya rejimi isə daxili və xarici investisiya üçün əlverişlidi.

Ölkədə azad iqtisadi zonaların təşkil olunması üçün qanunverici aktlar hazırlanmalıdır. Normativ – hüquqi baza təkcə AİZ – lə bağlı deyil, həm də digər sahələrdə - vergi, gömrük, valyuta, bank, sığorta və s. –də bir daha ətraflı nəzərdən keçirilməli və təkmilləşdirilməlidir.

Azad iqtisadi zonalarda yerləşən təsərrüfat subyektləri xüsusi qanunvericiliyi özündə əks etdirən rejim altında fəaliyyət göstərirlər və onların bu fəaliyyəti tənzimlənir. Bu da özündə gömrük tənzimlənməsi, vergiyə cəlb etmə, lisenziyalaşdırma, viza rəsmiləşdirilməsi, bank fəaliyyəti, mülkiyyət və girov münasibətləri, konsesiyaların verilməsi, azad zonaların idarə edilməsi kimi vacib məsələləri əhatə edir.

Azərbaycanın iqtisadçı alimlərindən M.A.Əhmədovun fikrinə görə milli iqtisadiyyatların davamlı inkişafı proseslərində ayrı – ayrı iqtisadi sektorların rəqabət qabiliyyətli olması və sürətli inkişafı, layiqli iş yerlərinin mövcudluğu, milli istehsal sahələrinin ölkənin inkişaf etməkdə olan sektorlarına dəstəyi, milli brendlərin dünya bazarında uğurlu yerləşməsi ölkələrin iqtisadi imicinin və reytinqinin artırılmasına əsas verən ciddi amillərdir.

Buna sübut olaraq bir çox dövlətlər öz ölkələri üçün əsas saydığı iqtisadi sektorlarını inkişaf etdirməklə dünyada güclü iqtisadiyyata malik olan ölkələr sırasına daxil olmuşlar. AİZ – in fəaliyəti ilə belə sahələrin inkişafını daha tez sürətləndirmək olar.

Azad iqtisadi zonaların müxtəlif formaları mövcuddur. Adətən AİZ-in bu və ya digər növünü birmənalı şəkildə təsnifləşdirmək çox çətin olur. Belə ki, o, özündə bir çox zonaların xüsusiyyətlərini birləşdirir. Dünyada daha geniş yayılmış AİZ - ə: azad ticarət zonaları, xüsusi gömrük zonaları, xüsusi ticarət – sənaye zonaları, texniki – iqtisadi inkişaf zonaları, yeni və yüksək texnologiyanın inkişaf zonaları, kompleks, çoxsahəli inkişaf təyinatlı iqtisadi zonaları, açıq rayonlar və offşor zonalar aiddir.

Azad iqtisadi zonaların yaradılmasında başlıca məqsəd ölkələrin beynəlxalq əmək bölgüsündə baş verən inkişaf proseslərinə fəal surətdə qoşulmasıdır. Söhbət ixrac üçün rəqabətqabiliyyətli məhsul istehsalının genişləndirilməsi və bu yolla da valyuta daxilolmalarının artımının təmin edilməsindən gedir. Əgər ölkə hər hansı səbəblər üzündən birbaşa xarici kapital üçün açıq iqtisadiyyatı təmin edə bilmirsə, onda bunu azad iqtisadi zonalar çərçivəsində həyata keçirə bilər. Bu zonaların yaradılmasında maraqlı olan ölkənin daxili bazarının yüksək keyfiyyətli məhsullarla, ilk növbədə isə idxaləvəzedici məhsullarla doldurulması cox vacibdir. Bu məqsədə çatmaq üçün ayrılmış ərazidə xarici kapitalın iştirakı ilə idxaləvəzedici istehsal yaradılır.

Azərbaycanda gələcəkdə yaradılması planlaşdırılan azad iqtisadi zonaları istehsal xarakterli, xarici iqtisadi zonalar, funksional və ya sahəvi formalarda qruplaşdırmaq olar.

Azərbaycanın iqtisadçı alimlərindən professor A.Ş.Şəkərəliyevin fikrinə görə ticarət üzrə formalaşdırılan zonalarda əsas məqsəd güzəştlər: gömrük rüsumlarının tam və ya qismən azaldılması, gömrük prosedurlarının maksimum dərəcədə sadələşdirilməsi, ticarət sahəsində lisenziyaların qısa müddətdə verilməsi və s. tətbiq etməklə idxal – ixrac əməliyyatlarını stimullaşdırmaqdır. Sənaye istehsalı zonalarında isə güzəştlər daha çox idxaləvəzedici və ya ixracyönümlü məhsulların istehsalının genişləndirilməsinə nail olmaq məqsədilə tətbiq edilir. Elmi – texniki zonalarda əsasən elmtutumlu məhsulların istehsalı həyata keçirilir, müasir texnoloji biliklər tətbiq edilir, elmi işçilərin peşə və ixtisasları artırılır və s. müsbət istiqamətli proseslər baş verir.

1992 – ci ildə "Xarici investisiyaların qorunması haqqında" Azərbaycan Respublikasının qanununda göstərilir ki, ölkədə fəaliyyət göstərən xarici investorlara dövlət təminatı verilir. Bu qanunun qüvvəyə minməsi ölkəyə yeni investisiyaların axınına təkan vermiş oldu.

Azərbaycan Respublikasında yeni iqtisadi münasibətlərin təkamülü, onun beynəlxalq əmək bölgüsünə və dünya təsərrüfat əlaqələri sisteminə qoşulması, beynəlxalq ticarət təşkilatlarına üzv olmağa hazırlıq, xarici iqtisadi fəaliyyətin liberallaşması şəraətində gömrük sisteminin inkişafını və daha da təkmilləşdirilməsini tələb edir.

AİZ – in müxtəlif növlərinin fəaliyyət göstərməsində vacib aspektlərdən biri yerli və xarici investorlar üçün tətbiq ediləcək güzəştlər sistemidir. Vergi güzəştləri investor üçün daha çox əhəmiyyət kəsb edir, belə ki, bazar iqtisadiyyatı ölkələrində yüksək vergilərin tətbiqi nəticəsində investorlar öz mənfəətlərinin təxminən yarısından məhrum olurlar. Bu vergilərin içərisində isə əsas yeri mənfəət vergisi tutur. Bu vergi üzrə güzəştlər vergi dərəcələrinin azaldılması və ya onun ödənilməsindən uzunmüddətli azadolmalar formasında tətbiq edilə bilər.

Azad iqtisadi zonalar istehsalata milli və xarici elmi-texniki layihələrin sürətlə tətbiqini təmin edir və bunun da nəticələri gələcəkdə ölkənin milli iqtisadiyyatının bütün sahələrində istifadə edilir.

Belə iqtisadi zonalardan istifadə edilməsi təchizatçılara imkan verir ki, onlar öz məhsullarını onlara olan tələbin və qiymətin yüksələcəyinə qədər reallaşdırılmasını təxirə salsınlar, öz məhsullarını potensial topdan alıcılara nümayiş etdirsinlər, gələcəkdə daha aşağı rüsm ödəməklə ölkədaxili bazara satsınlar.

Dünyanın istənilən ölkəsində azad iqtisadi zona yaradılarkən onun harada yerləşdirilməsi, infrastruktur, işçi qüvvəsinin keyfiyyəti, bu ərazidə fəaliyyət göstərəcək müəssisələrin xarakteristikası, yaradılmış azad iqtisadi zonanın ölkənin mədəni, sosial-iqtisadi həyatına təsiri və zonanın təşkilində hakimiyyət orqanlarının rolu nəzərə alınmalıdır.

Azərbaycanda belə zonaların yaradılması üçün real imkanlar vardır. Azad iqtisadi zonaların yaradılması baxımından əlverişli bölgələrin müəyyənləşdirilməsi məqsədilə aparılan təhlilin nəticələrinə əsaslanaraq, bu qənaətə gəlirik ki, hazırda Azərbaycanın əlverişli coğrafi-nəqliyyat mövqeyinə, zəruri elmi-texniki potensiala və ixtisaslı kadr ehtiyyatlarına malik olan bölgələrində istehsal xarakterli kompleks xüsusi iqtisadi zonaların, sərhəd bölgələrində xarici ticarət zonalarının, mövcud turizm mərkəzləri və müalicə-sanatoriya şəbəkələri bazasında azad turizm və müalicə - sağlamlıq zonalarının,

qabaqcıl elmi-tədqiqat mərkəzləri və elmi istehsal birlikləri yanında texnoloji parkların və ya texnopolislərin yaradılması imkanı vardır.

Nəticə olaraq onu demək olar ki, Azərbaycanda azad iqtisadi zonaların hələ də yaradılmaması ölkə üçün aktual problemlərdən biri olaraq qalmaqdadır. Xəzər dənizi sahilində yerləşən Sumqayıt şəhərində AİZ – in yaradılması ölkənin 5 ölkə ilə qarşılıqlı əlaqələrinin genişlənməsinə səbəb olacaqdır. Belə zonanın mövcudluğu ölkə iqtisadiyyatının inkişafına gətirib çıxaracaqdır.

İQTİSADİYYATIN TƏNZİMLƏNMƏSİ METODLARI

Məhəmmədov İ.N.
Azərbaycan Dövlət İqtisad Universiteti

İqtisadiyyatın tənzimlənməsi dedikdə makroiqtisadi amillərdə baş verən tsiklik dəyişmələrin mənfi nəticələrini aradan qaldırılması başa düşülür.Bu da öz növbəsində mənfi anplituda zamanı son nəticə olaraq iqtisadi geriləməyə,məcmu tələbin azalmasına və bunun fonunda da işsizliyin artması,ÜMD-nin azalması, iqtisadi buraxılışın geriləməsi və bunu fonunda da ölkənin idxaldan asılılığının arması kimi xoşagəlməz hallara gətirib çıxardır.Müsbət amplitudada artma da özünəxas mənfi proseslərmə müşahidə olunur.Belə ki,iqtisadiyyatın sürətli inkişafı nəticəsində məcmu tələbin həddindən artıq olması məcmu təklifi üstələyir və məcmu təklif məcmu tələbi ödəyə bilmədiyi təqdirdə onu eyni məhsulları həcm dəyişmədən daha baha qiymətə bazara təklif etməklə nəticələnir.Bu da ona əsaslanır ki,artıq bütün əmək və xammal resursları tam istifadə olunmaqdadır,məcmu tələb potensial buraxılışı ötüb keçmişdir.Bu da tələb inflyasiyasına güclü təkan vermiş olur.Hökumət və Mərkəzi Bank öz tədbirlərini işə salmasa tələb və xərclər inflyasiyası birləşərək inflyasiya spiralı yaradır və nəticədə Hiper inflyasiya meydana gəlir.

Belə bir dövrlərdə iqtisadiyyata müdaxilə edilməsinə yanaşmada iki iqtisadi sinfin fikirləri daha ön plana çıxır:Bunlardan biri Klassik ədəbiyyatın nümayəndələri və onların davamçıları olan Neoklassik ədəbiyyatın nümayəndələri digərləri isə Keynsçilərdir.Bunların hər ikisinin fərqli yanaşmaları var.

İlk olaraq monetar siyasəti dəstəkləyən Neoklassiklərə nəzər salaq.Onlar iqtisadi proseslərə daha uzunmüddətli zamanda baxırlar və nominal dəyişənlərdən fərqli olaraq real dəyişənlər(məs. işsizliyin səviyyəsi,Real ÜMD,Real faiz dərəcələri) demək olar ki, olduqca sabitdir və onların dəyişməsi texnoloji inkişaf və əhalinin artımı ilə əlaqədardır.Bir də onu iddia edirlər ki iqtisadiyyat belə olduğu təqdirdə deməli tam potensial şəraitdə fəaliyyət göstərir.Pul kütləsinə tələbə gəldikdə isə "Pulun kəmiyyət Nəzəriyyəsi" tənliyinə əsasən pula tələb müəyyən edilir: MV=PY (burada M-tədavüldəki pulun miqdarı,V-pulun tədavül sürəti,P-qiymət indeksi,Y-real ÜMD).bununla da M-i dəyişməklə qisamüddətli dövrdə ancaq nominal kəmiyyətlərə(nominal əməkhaqqına,nominal ÜMD-yə,nominal faiz dərəcələrinə) təsir etmiş olunacaq.Monetarislərin qaydasına görə dövlət pul kütləsinin artım tempini real ÜMD-nin orta artım tempində saxlamalıdır.Onlar iqtisadiyyata dövlətin stimullaşdırıcı müdaxiləsini qəbuledilməz hesab edir və bu prosesləri bazar özü tənzimləməsini irəli sürürlər.

Kens məktəbinin davamçıları isə iqtisadiyyata daha qısa vaxtda baxmağa üstünlük verirlər.1929-1933-cü illərdəki böhran Keynsə bunu sübut etməyə imkan verdi ki,iqtisadiyyata dövlət müdaxiləsi mütləqdir və məcmu tələbi stimullaşdirmaqla iqtisadi potensiala nail olmaq olar.Monetaristlərdən fərqli olaraq Keynsçılər iqtisadiyyat heç bir vaxt özü özlüyünda potensial buraxılış səviyyəsində fəaliyyət göstərəbilməz,əgər bu baş versə belə bu çox qısa bir zamanda baş verəcək.Buna gorə də dövlət xərclərini və vergi dərəcələrini dəyişməklə bunu iqtisadiyyatda tənzimləmə metodu kimi istifadə etmək olar.Bildiyimiz kimi $Y=C+İ+G+X_n$ (Y-məcmu buraxılış,C-məcmu istehlak xərcləri,İ-iqtisadiyyata qoyulan investisiyaların həcmi,G-dövlət xərcləri,X_n-xalis eksport yəni eksportdan inport olunan məhsulların kəmiyyətinin fərqi) hesablanır.burada G-ni artirmaqla bərabərliyin sol tərəfinə yəni ÜMD-yə müsbət artım təsirini göstərmiş olacağıq.Bu da öz növbəsində yenidən məcmu xərclərin artmasına gətirib çıxaracaq ki,beləcə də biz dövlət xərclərini artırmaqla iqtisadiyyatda mutifikator effekti yaratmış olacağıq.

Bunu həmcinin vergi dərəcələrini azalrmaqla da əldə etmək olar,ancaq vergi mutifikatoru xərclər mulifikatoruna nisbətən müəyyən qədər az effekt verir. Bundan çox zaman dövlət öz xərclərini artırdığı zaman vergi dərəcələrini də eyni zamanda artırır ki,bu da bir növ tənzimləyici xarakter daşıyır və tələb inflyasiyasını önləmiş olur.Vergi dərəcələrinin dəyişməsini isə yuxarıda qeyd etdiyimiz tənliyə necə təsir etməsini bu formada göstərə bilərik: C=a+b(Y-T) bu tənkil istehlak xərcləri tənliyidir.Burada C-istehlak xərcləri,a-muxtar xərclər yəni əhali gəlirindən asılı olmayaraq bu xərcləri xərcləyir,b-istehlaka son həd

meylliyi,Y-əhalinin ümumi gəirləri,T-gəlir vergisi ödəmələri.Biz burada vergiləri ixtisar etməklə yəni T-ni azaltmaqla istehlak xərclərinin məbləğini artırmış olarıq.

Bu planlaşdırılmış xərclər nəticəsində məcmu tələbi stimullaşdırmaqla potensial buraxılışa nail olunmasını Keyn öz "Keyn Xaçı" adlanan modelində göstərməklə bunu sübut etmiş oldu.

Hazırda bütün dövlətlər bu iki sinifin tənzimləmə və iqtisadi yanaşmalarında istifadə edərək qarışıq bir model əldə etmiş oldular.Bu da Keynsçilərə uyğun Fiskal Siyasət(Büdcə-Vergi Siyasəti) və Monetaristlərə uyğun olan Monetar Siyasərdir (Mərkəzi Bankın yürütdüyü siyasət).Bununla da Hökumət Və Mərkəzi Bank daha uyğun alətlərdən istifadə edərək öz istisadi tənzimləmə siyasətlərini yeridirlər.

Mərkəzi Bank əsasə yuxarıda da qeyd etdiyimiz kimi MV=PY tənliyinə əsasən pulun kütləsinə təsir etməklə öz istəyinə nail olur.Bunun da aşağıdakı alətləri var:

1. Açıq bazar əməliyyatları: Bununla Mərkəzi Bank dövlətin qiymətli kağızlarının açıq bazarda alqı-satqısını həyata keçirməklə pulun kütləsinə təsir etmiş olur.Bu qiymətli kağızlar satıldıqda pul kütləsi Mərkəzi Bank tərəfindən azaldılır,alındıqda isə çoxalır.
2. Məcburi ehtiyyatlar norması: Bu vasitəylə mərkəzi bank özəl bankların əhalıdən yığdığı depozitlərin bir hissəsini faizsiz şəkildə özündə saxlamasıdır. Bu əslində bir sığorta adıyla saxlansa da əslində pul kütləsinə təsir etmə mexanizmidir.Sığortaya gəldikdə isə bunu müəyyən faiz qarşılığında xüsusi maliyyə orqanları həyata keçirir.Məcburi ehtiyyat norması artdiqda bankların kredit təklifetmə qabiliyyətliyi aşağı düşür.
3. Uçot dərəcələri: Mərkəzi bank bütün özəl bankların ilk kreditləşdirmə orqanıdır.Belə ki mərkəzi bank özəl banklara münasib faizlə kredit verir,banklar isə bunun üzərinə öz gəlir və xərclərini əlavə edərək əhaliyə kredit verirlər.Mərkəzi bank bu uçot dərəcələrini dəyişməklə maliyyə bazarına təsir etmiş olurlar.Bu da birbaşa investisiyalara təsir edir.

Bu iki metoddan hansının digərindən daha üstün olmasını söyləmək şətindir, çünki hərbirinin müsbət və mənfi cəhətləri var.Misal üçün Monetar siyasətin xarici laqı böyükdür,Fiskal siyasətin isə daxili laqı,yəni Mərkəzi bankın qəbul etdiyi qərarla onun təsir edəyəyi obyekt birbaşa deyil ötürücü xarakter daşıyıy.Bu da uzun zaman alır.Ancaq Fiskal siyasətdə birbaşa olsa da bunun da qərar verilmə zamanı çox çəkəbilər.Məsələn parlamentdə uzunsürən müzakirələr və s.....

AZƏRBAYCAN RESPUBLİKASININ İXRAC POTENSİALININ MÜASİR VƏZİYYƏTİ VƏ HÜQUQİ TƏMİNATININ TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

İsmayılov Y.E.
Azərbaycan Dövlət İqtisad Universiteti

İxrac potensialı, ölkənin iqtisadi potensialının bir hissəsi olmaqla, milli iqtisadiyyatın və onun ayn-ayrı sahələrinin istehsal vasitələrindən tam şəkildə istifadə edilməsi nəticəsində xarici bazar istehlakçılarının tələblərinə müvafiq miqdarda və keyfiyyətdə müxtəlif növ maddi nemət və xidmət istehsalı və ixrac et-mək qabiliyyətidir.

Müstəqillik dövrünə qədər Azərbaycan Respublikasında ixrac potensial siyasəti olmamışdır. Respublikada istehsal olunan bütün məhsulların sahibi kimi dünya bazarında məhz Azərbaycan dövləti deyil, SSRİ adlanan ölkə çıxış edirdi. Belə bir şəraitdə respublikaya məxsus təbii sərvətlərdən istifadə, onların son məhsula çevrilməsi, istehsal üçün lazım olan maliyyə, xammal, material, əmək resurslarının həcminin müəyyən edilməsi, daxili bazarın əsas məhsullara olan tələbatının ödənilməsi, ixracın həcminin müəyyən edilməsi qeyri-adi hadisə kimi görünə bilərdi. Planlı təsərrüfatçılıq sistemindən bazar iqtisadiyyatına keçən respublikamız hazırda müstəqil olaraq xarici siyasət, o cümlədən xarici ticarət siyasəti hazırlayaraq həyata keçirir.

Respublikamızda həyata keçirilən xarici ticarət strategiyasında keçid dövrü amillərinin təsiri, milli iqtisadiyyatın inkişaf xüsusiyyətləri, prioritet sahələrin məhsullarına dünya bazarında olan tələbat nəzərə alınmaqla ixrac potensialının səmərəli formalaşdırılması istiqamətində islahatlar aparılır. Bu imkanları və ixrac potensialının formalaşması xüsusiyyətlərini tədqiq etməzdən əvvəl sahə səviyyəsində ixrac potensialının iqtisadi məzmununu nəzərdən keçirtməyi məqsədəuyğun hesab edirik.

Son dövrdə Azərbaycan Respublikasının dünyanın bir sıra ölkələri ilə ticarət iqtisadi əlaqələri genişlənmişdir. Bu isə idxal-ixrac əlaqələrinin artmasına səbəb olmuşdur. Qeyd etmək lazımdır ki, hazırda respublikanın ixrac potensialı strukturunda əsas sahə neftçıxarma və neft

məhsulları təşkil edir. Bura ilk növbədə əlvan metallurgiya və kənd təsərrüfatı məhsullarını aid etmək olar. Belə sahələrdən biri də əlvan metallurgiya sənaye sahələridir. Azərbaycanın ixrac potensialında həmçinin kənd təsərrüfatı məhsullarının istehsalı da xüsusi əhəmiyyət kəsb edir. Məhz bu istiqamətdə prioritet sahələrin, yəni real sektorun idxalı əvəz edəcək və ixraca yönələcək sahələrinin davamlı inkişafının təmin edilməsi, həmin sferanın və proseslərin həyata keçirilməsinin səmərəli hüquqi mexanizminin qurulması olduqca mühüm əhəmiyyət kəsb edir.

Bugün Azərbaycandan ixracın əsas hissəsi, təbii olaraq, neft və neft məhsullarının payına düşsə də (96%-ə yaxını), xarici bazarlarda rəqabətə davamlı məhsullar istehsal edən sahibkarlıq subyektlərinin sayının tədricən artımı qeyri-neft sektoru üzrə ixrac potensialının möhkəmlənməsinə imkan yaradıb. Sahibkarların xarici bazarlara çıxış imkanlarının genişlənməsi həm də qanunvericiliyin təkmilləşdirilməsi və gömrük prosedurlarının sadələşdirilməsi ilə izah olunur. Ölkə başçısının 11 noyabr 2008-ci il tarixli «Azərbaycan Respublikası dövlət sərhədinin buraxılış məntəqələrindən keçirilən malların və nəqliyyat vasitələrinin yoxlanılmasında «bir pəncərə» prinsipinin tətbiqi haqqında» fərmanı əlverişli geostrateji məkanda yerləşən Azərbaycanda gömrük sisteminin təkmilləşdirilməsinə, bu sahədə informasiya-kommunikasiya texnologiyalarının imkanlarından geniş istifadəyə imkan yaradıb. Ümumilikdə, sözügedən fərman dövlət sərhədinin keçid məntəqələrinin buraxılış qabiliyyətinin artırılmasına; keçirilən malların və nəqliyyat vasitələrinin yoxlanılması zamanı süni maneələrin aradan qaldırılmasına; idxal-ixrac əməliyyatlarının müasir tələblərə uyğun aparılmasına; bu sahədə «bir pəncərə» prinsipinin tətbiqinə xidmət edir.

«Azərbaycan - 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyası layihəsində də respublikanın yüksək rəqabət qabiliyyətinə malik məhsullar ixrac etməsi qarşıya başlıca vəzifələrdən biri kimi qoyulub. Həyata keçirilən tədbirlər nəticəsində qeyri-neft sektoru üzrə adambaşına düşən ixrac həcminin 1000 ABŞ dollarına çatdırılması nəzərdə tutulur. Bunun üçün yüksək əlavə dəyər yaradan ixrac yönümlü iqtisadiyyatın formalaşdırılması da prioritet məqsədlərdən biridir. İnfrastrukturun müasirləşdirilməsi, iş adamlarına istehsal yönümlü müəssisələrin açılması üçün güzəştli kreditlərin verilməsi, investisiyaların cəlbinə mane olan bürokratik amillərin aradan qaldırılması, o cümlədən elektron xidmətlərin həcminin genişləndirilməsi tədbirləri də bu baxımdan mühüm əhəmiyyət kəsb edir.

Dünyanın inkişaf etmiş ölkələrin təcrübəsində öz əksini tapan sistemli yanaşma, proqramlaşdırma və s. metodları fəaliyyət göstərir ki, sistemli yanaşma ixrac potensial struktur artıq tempi iqtisadi artımın tərkib hissəsi kimi proqnozlaşdırılır.

İxracın strukturunun təkmilləşdirilməsi üçün fikrimizcə aşağıdakı kompleks tədbirlərin həyata keçirilməsi üçün ilk növbədə ixracın təkmilləşdirilməsi üçün xüsusi proqram işlənib hazırlanmalıdır. Orada ixrac sahələri, onların prioritetləri, inkişaf istiqamətləri müəyyənləşdirilməlidir. İxracın səmərəliliyini artırmaq üçün qanunvericilikdə müəyyən dəyişikliklər edilməlidir. Bu dəyişikliklər ilk növbədə vergi sistemində (mənfəət vergisi, əlavə dəyər vergisi və s.) və digər tənzimləmə metodlarında aparılmalıdır. İdxalı əvəz edəcək və ixrac orientasiyalı sahələrin kompleks inkişafının təmin edilməsi prioritet vəzifələrdəndir. Fikrimizcə, bu iki sahənin məhsulları qarşılıqlı asılı və qarşılıqlı tamamlayıcı olduğundan onların birgə inkişafı təmin edilməlidir.

İQTİSADİ İNTEQRASİYANIN REALLAŞDIRILMA XÜSUSİYYƏTLƏRİ

Əhmədova Ş.H.
Azərbaycan Dövlət İqtisad Universiteti

Beynəlxalq iqtisadi inteqrasiya milli təsərrüfat mexanizmlərinin yaxınlaşmasına, qarşılıqlı uyğunlaşmasına və artımına gətirən, dövlətlərarası sazişlər formasını qəbul edən və razılaşdırılmış şəkildə dövlətlər və dövlətlərarası orqanlar tərəfindən tənzimlənən obyektiv iqtisadi qarşılıqlı fəaliyyət prosesidir. İqtisadi inteqrasiyanın əsasında müstəqil fəaliyyət göstərən subyektlərin iqtisadi maraqları və beynəlxalq əmək bölgüsü durur.

İqtisadi inteqrasiyanın obyektiv ilkin şərtləri aşağıdakılardır:

- İnteqrasiya edən ölkələrin iqtisadi inkişaf səviyyəsinin və bazar yetkinliyi dərəcəsinin yaxınlığı;
- İnteqrasiya ölkə iqtisadiyyatları inkişafda olduğu zaman daha müvəffəqiyyətlə inkişaf edir;

- İnteqrasiya edən ölkələrin liderlərinin siyasi iradəsi;
- İnteqrasiya edən ölkələrin coğrafi yaxınlığı, əksər hallarda ümumi sərhədin və tarixən formalaşmış iqtisadi əlaqələrin mövcudluğu;
- Ölkələr qarşısında inkişaf, maliyyələşdirmə, iqtisadiyyatın tənzimlənməsi, siyasi əməkdaşlıq və sair sahələrdə duran iqtisadi və digər problemlərin ümumiliyi;
- "Domino effekti". Bu və ya digər regionun əksər ölkələri inteqrasiya birliyinin üzvləri olduqdan sonra həmin birlikdən kənarda qalan digər region ölkələri mütləq bir sıra çətinliklərlə üzləşirlər;

İnteqrasiya onu digər qarşılıqlı iqtisadi fəaliyyət formalarından fərqləndirən bir sıra əhəmiyyətli əlamətlərlə xarakterizə olunur:

- üzv-ölkələrin iqtisadi siyasətinin razılaşdırılması;
- milli qanunvericiliklərin, norma və standartların yaxınlaşması;
- milli istehsal proseslərinin bir-birləri ilə qarşılıqlı qovuşması, region çərçivəsində istehsal prosesinin texnologiya vahidliyinin formalaşması;
- istehsalda, elm və texnikada beynəlxalq ixtisaslaşma və kooperasiyanın inkişafı;
- üzv-ölkələrin iqtisadiyyatlarında baş verən struktur dəyişiklikləri;
- inteqrasiya prosesinin məqsədyönlü tənzimlənməsi.

Müasir beynəlxalq iqtisadiyyatda yaranmış və inkişaf edən çoxsaylı inteqrasiya birlikləri öz qarşılarına prinsipcə eyni vəzifələri qoyurlar. Bu vəzifələrdən isə inteqrasiyanın məqsədləri irəli gəlir: asştab iqtisadiyyatının üstünlüklərindən istifadə; əlverişli xarici siyasət mühitinin yaradılması; ticarət siyasəti vəzifələrinin həlli; iqtisadiyyatın struktur dəyişikliklərinə dəstək; milli sənayenin gənc sahələrinin dəstəklənməsi; dünya bazarlarında mövqelərin gücləndirilməsi

Tarixən inteqrasiya bir neçə əsas mərhələdən keçməklə təkamül edir ki, bu mərhələlərdən hər biri onun yetkinlik dərəcəsini xarakterizə edir.

Birinci mərhələdə ölkələr qarşılıqlı yaxınlaşmaya hələ ilk addımlarını atarkən onlar arasında imtiyazlı ticarət sazişləri imzalanır.

İkinci mərhələdə ölkələrin inteqrasiyası azad ticarət zonalarının yaradılmasına keçir. Bu zonalar qarşılıqlı ticarətdə gömrük tariflərinin sadəcə olaraq ixtisarını deyil, ümumiyyətlə aradan qaldırılmasını nəzərdə tutur.

Üçüncü mərhələ isə gömrük birliyinin yaradılması ilə bağlıdır. Bu zaman inteqrasiya blokuna daxil olan ölkələr tərəfindən razılaşdırılmış surətdə milli gömrük tarifləri aradan qaldırılır və üçüncü ölkələrə münasibətdə ümumi gömrük tarifi və vahid qeyri-tarif tənzimlənməsi sistemi tətbiq edilir.

Dördüncü mərhələdə inteqrasiya ümumi bazar səviyyəsinə çatır ki, burada da inteqrasiya edən ölkələr təkcə əmtəə və xidmətlərin deyil, həm də istehsal amillərinin kapital və işçi qüvvəsinin sərbəst hərəkəti barədə razılığa gəlirlər.

Beşinci mərhələdə ən nəhayəti inteqrasiya birliyi iqtisadi birliyə çevrilir. İqtisadi birlik ümumi gömrük tarifi və əmtəələrin, istehsal amillərinin sərbəst hərəkəti ilə yanaşı, makroiqtisadi siyasətin koordinasiyasını və əsas sahələrdə (valyuta, büdcə, pul) qanunvericiliyin unifikasiyasını nəzərdə tutur. Yəni vahid kənd təsərrüfatı siyasəti, sənaye siyasəti, enerji siyasəti, nəqliyyat siyasəti, sosial siyasət, elmi-texniki siyasət, regional siyasət həyata keçirilməlidir.

Qeyd etmək zəruridir ki, inteqrasiya inkişaf etdikcə meydana gələn dinamik effektlər sırasında ən əsas yeri müxtəlif ölkələrin istehsalçıları arasında artan rəqabət tutur. Bu rəqabət qiymətlərin artımının qarşısını alır, əmtəələrin keyfiyyətinin yaxşılaşmasına gətirib çıxarır, yeni texnologiyaların yaradılmasını stimullaş-dırır və s. İnteqrasiya nəticəsində üzv-ölkələr masştab iqtisadiyyatının üstünlüklərindən istifadə etməyə başlayırlar ki, bu da istehsalın həcminin artırılmasına, eyni zamanda xərclərin aşağı salınmasına imkan verir.

Azərbaycan dövlətinin dünya iqtisadiyyatına inteqrasiyasının mühüm istiqamətlərindən biri də onun beynəlxalq iqtisadi təşkilatların işində iştirakıdır.Ölkənin İslan Konfransı Təşkilatına,Qara Dəniz İqtisadi Əməkdaşlığına,EKO-ya,Beynəlxalq Bərpa və İnkişaf Bankına,MDB-yə və bir sıra başqa beynəlxalq təşkuilatlara üzv olması,onlarla müvafiq əlaqələrin yaradılması və əməkdaşlıq etməsi dünya iqtisadiyyatında inteqrasiyanın uğuru kimi qiymətləndirilməlidir.

İqtisadi həyatın beynəlçilələşdirilməsi,Azərbaycanın ağır şərtlər altında gedən müasir dünya inteqrasiyanın bütün istiqamətlərində yeni imkanlar yaratmaqla yanaşı,yeni problemlər ,bəzən də təhlükələr yaratmaqdadır.Bu imkanlardan səmərəli istifadə edilməsi, mövcud problem və təhlükələr yaratmaqdadır.Bu imkanlardan səmərləri istifadə edilməsi,mövcud problem və təhlükələrin vaxtinda

aşkara çıxarılıb öyrəlinlməsi bu gün Azərbaycan üçün həyati əhəmiyyət kəsb etmısi zərurətindən gündəmdə olan məsələlərdəndir.

Azərbaycanın uğurları nüfuzlu beynəlxalq təşkilatların hesabatlarənda da z əksini tapmışdır.Təsadüfi deyil ki, 2009-2010-cu illər üçün hazırlanmış "Qlobal Rəqabətlilik Hesabatı"nda Azərbaycan 18 pillə irəliləyərək, 133 ölkə arasında 51-ci yerə,MDB ölkələri arasında 1- ci yeri tutmuşdur.

Növbəti mərhələnin əsas məqsədlərini makroiqtisadi sabitliyin qorunub saxlanılması və iqtisadi inkişafın dayanıqlığının təmin edilməsi təşkil edəcəkdir.Bu məqasədlə iqtisadiyyatın diversifikasiyasının genişləndirilməsi nəticəsində neft sektorunda asılılıq minimuma endiriləcək,innovasiya sahibkarlığı əsasında formalaşan iqtisadiyyata keçid təmin ediləcəkdir.

РАЗРАБОТКА КОНКУРЕНТНОЙ СТРАТЕГИИ РАЗВИТИЯ ПРЕДПРИЯТИЙ МОЛОЧНОЙ ПРОМЫШЛЕННОСТИ АЗЕРБАЙДЖАНА

Гусейнова С.Р.

Азербайджанский государственный экономический университет

При современном уровне развития общества проблема выживания организации в среднесрочной перспективе обязывает думать о создании эффективной торговой марки, которая будет символизировать деятельность компании в будущем. Разработка бренда-один из важнейших шагов формирования собственной аудитории будущего продукта. Главное преимущество данной стратегии заключается в том, что если выпускаешь продукцию под известным брендом, то на раскрутку нового товара под этой же маркой потребуется гораздо меньше средств, чем запуск нового независимого бренда. Молокоперерабатывающие предприятия внедряют стратегии долгосрочного планирования и развития, с целью кардинальной перестройки сформировавшегося типа производства, разработки и внедрения не только определенных производственных технологий, но и формирование в своей деятельности иных форм поведения на определенном сегменте продовольственного рынка. В периоды активизации технологических изменений стратегий, направленных на инновационное развитие, должны оказывать системообразующий эффект. Для того, чтобы предприятию обеспечить успешное функционирование, оно должно уметь возрождать свои ключевые стратегии, в крайнем случае предприятие потеряет свои конкурентные преимущества. Существует, по меньшей мере, четыре основных типа стратегий.

Первый тип – (силовая) виолентная, стратегия. Характерна для фирм, производящих стандартизированный, добротный, массовый продукт с низким уровнем издержек или по умеренно высокой цене, которая становится источником конкурентных преимуществ для фирмы-виолента. Примером такого типа стратегии является деятельность фирмы Palmali.

Второй тип – это патиентная, (нишевая) стратегия типична для предприятий, выпускающих высокоспециализированную и слабостандартизованную продукцию для определенной группы.

Производитель старается контролировать небольшую часть рынка, постепенно завоевывая максимальную долю соответствующей рыночной ниши. Аналогичные стратегии реализуют предприятия, специализирующиеся на одном из сегментов рынка, например, на здоровом питании. Примером такой стратегии является деятельность компании «Milk-Pro».

Третий тип стратегии конкуренции – коммутантная (приспособительная) стратегия. Предприятия, реализующие эту стратегию, производят неспециализированную продукцию для небольших специфических ниш, с целью удовлетворения краткосрочных нужд конкретного потребителя.

Повышение потребительной ценности происходит за счет индивидуализации услуги. Такой тип стратегии присущ многим региональным молокоперерабатывающим предприятиям. Однако на современном этапе применения этого типа стратегии существуют некоторые особенности и специфические отличия.

Четвертый тип стратегии – это эксплерентная (пионерная) стратегия связана с радикальным преобразованием старых сегментов рынка. Предприятия, использующие такую тактику ведут бизнес в поиске революционных решений. Сегодня трудно найти пример молокоперерабатывающего предприятия, использующего такую стратегию, т.к. она более характерна для высокотехнологичного и инновационного типа бизнеса.

Ужесточение рыночной конкуренции вынуждает предприятия более конкретно определяться с моделью рыночного поведения, нацеленную на долгосрочную перспективу развития. Таким образом, продолжается процесс смены моделей рыночного поведения, формирования рыночных стратегий национальными предприятиями пищевой промышленности.

BİZNES (MÜƏSSİSƏ) ƏMTƏƏ VƏ QİYMƏTLƏNDİRMƏ OBYEKTİ KİMİ

Həsənova G.
Azərbaycan Dövlət İqtisad Universiteti

Digər əmtəələr kimi biznes də alıcı üçün faydalılığa malikdir. Hər şeydən əvvəl o, gəlirin əldə edilməsi tələbatına uyğun olmalıdır. Hər bir əmtəədə olduğu kimi biznesin faydalılığı da ondan istifadə zamanı müəyyənləşir. Bu baxımdan əgər biznes sahibkara gəlir gətirmirsə , o öz faydalılığını itirir və satışa çıxarılır. Eyni zamanda gəlirin əldə edilməsi təkrar istehsalın və ya alternativ biznesin formalaşması, yeni müəssisənin yaradılması müəyyən xərclərlə müşayiət olunur. Biznes (müəssisə) əmtənin bütün xüsusiyyətlərini özündə birləşdirir və alqı-satqı obyekti ola bilər. Həmçinin biznes – müəyyən prinsiplər, yanaşmalar və qiymətləndirmə metodlarına malik olan xüsusi əmtəə növüdür. Əmtəə kimi biznesin xüsusiyyətləri əsasən aşağıdakılardan ibarətdir:

- biznes investisiyayönümlü əmtəədir. Ondan gözlənilən gəlirin miqdarı naməlumdur və ehtimal xarakterinə malik olduğuna görə sahibkar müəyyən riskləri nəzərə almalıdır. Beləliklə, sahibkarın əldə edəcəyi gələcək gəlirlərin cari dəyəri alıcı tərəfindən qiymətin yuxarı həddini təşkil edir.
- biznes bir sistemdir onu bütöv bir sistem, hətta ayrı –ayrı komponentlər kimi də satmaq mümkündür. Belə olan halda onun öz konkret kapitalı, konkret təşkilati-iqtisadi forması ilə olan əlaqəsi kəsilir və bu keyfiyyətcə yeni bir sistemin yaranmasına səbəb olur. Faktiki olaraq bu halda biznes əmtəə kimi deyil, onun elementləri kimi çıxış edir.
- əmtəəyə olan tələbat daxili səbəblər kimi xarici ətraf mühitdəki proseslərdən də asılıdır. Bir tərəfdən cəmiyyətdə olan qeyri –sabitlik biznesin dayanıqsızlığına səbəb olur, digər tətəfdən isə - onu dayanıqsızlığı gələcəkdə cəmiyyətdə qeyri-sabitliyə gətirib çıxarır. Buradan da biznesin əmtəə kimi daha bir xüsusiyyəti ortaya çıxır – alqı-satqı prosesinin tənzimlənməsinə daima ehtiyac vardır.
- ümumilikdə cəmiyyətdə sabitliyin əldə olunması üçün biznesin alqı-satqı mexanizmi və qeydiyyatının həyata keçirilməsində, qiymətləndirməsində və bazar qiymətlərinin rəsmiləşdirilməsində sabitliyin olması vacibdir.

Müəssisə biznesin mövcudluğunun təşkilati - iqtisadi formasını təşkil edir. Amma bununla bərabər müəssisənin özünəməxsus fərqli xüsusiyyətləri də vardır. Müəssisə mülki hüquqlarının obyektidir və ona sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün istifadə edilən əmlak kompleks kimi baxılır. Müəssisə əmlak kompleksi kimi sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün mülkiyyətin bütün növlərini özündə birləşdirir: torpaq sahələri, binalar və tikintilər, maşınlar və avadanlıq, xammal və məhsulu, qeyri-maddi aktivlər, öhdəliklər və s.

Müəssisənin qiyməti onun dəyərinin pulla ifadə olunmasını bildirir. Bu ehtimal edilən satış qiyməti faydalılığı və xərcləri özündə əks etdirməlidir. Faydalılıq göstəricisi alıcının konkret marağından asılı olduğuna görə, qiymətləndirici dəyərin müxtəlif növlərini (bazar, sığorta, girov,likvid, investisiya və s.) müəyyənləşdirir. Prinsipial olaraq belə bir fakt da mövcuddur ki, bazar qiyməti yalnız əmtənin istehsalı ilə bağlı olan xərcləri deyil, həm də müəssisənin bazardakı vəziyyəti, vaxt amili, risklər və rəqabətin səviyyəsi kimi digər iqtisadi amilləri də nəzərə alır. Qiymətləndirici iqtisadi konsepsiya mövqeyindən çıxış edərək müəssisənin dəyərini müəyyənləşdirir. Hal-hazırki konsepsiya mühasibatlığa zidd olaraq müəssisənin bazar qiymətini müəyyənləşdirməyə imkan verir. O vaxt, risk , xarici rəqabət səviyyəsi və qiymətləndirilən obyektin daxili xüsusiyyətlərini nəzərə alır. Qiymətləndirmə obyekti kimi biznesin (müəssisənin) dəyərinə aşağıdakı amillər təsir göstərir:

- biznesin likvidliyi ;
- gəlirlərin risklərlə bağlılığı;
- qeyri-maddi aktivlər və işgüzar imic;
- biznes üzrə məhdudiyyətlər;
- qiymətləndirilən payın (hissənin) ölçüsü

- biznesin inkişaf perspektivləri;
- maliyyə vəziyyəti;
- konkret sahədə rəqabət mübarizəsinin xüsusiyyəti;
- texnologiya, keyfiyyət, istehsal xərcləri;
- qiymət siyasəti;
- kadr potensialı.

Real qiymətləndirmə nəinki biznesin satışı vaxtının həm də biznesin gələcək inkişafının planlaşdırılmasına da köməklik edir. İstehsalda işlərin real vəziyyətinin əsas idarəetmə aləti kimi qiymətləndirmə nəticəsində aşkar edilməsi mümkündür.

Obyektiv qiymətləndirmə üçün pul axınlarının formalaşmasına və onların hərəkət istiqamətlərinə nəzarət etmək lazımdır. Biznesin qiymətləndirilməsi zamanı nəzərə almaq lazımdır ki, müəssisə hüquqi şəxs olmaqla yanaşı, eyni zamanda təsərrüfat subyekti hesab edilir. Ona görə də onun dəyəri müəyyən hüquqi normaların mövcudluğunu nəzərə almalıdır.

Biznesin qiymətləndirilməsində obyekt qismində gəlirin əldə olunmasına istiqamətlənən müəssisə kompleksinin funksionallaşdırılması əsasında həyata keçirilən fəaliyyət çıxış edir. Müəssisənin əmlak kompleksinin tərkibinə onun məqsədlərinin reallaşması, təsərrüfat fəaliyyətinin həyata keçirilməsi və gəlirin əldə olunması üçün nəzərdə tutulan bütün əmlaklar aid edilir. Müəssisənin əmlak kompleksinə aid edilir: mülkiyyət (torpaq sahələr, binalar, tikililər, maşınlar , avadanlıqlar , nəqliyyat vasitələri, inventor, xammal ehtiyat detalları, hissələri, məhsul həmçinin mülki öhdəliklər, xidmət nişanları, ticarət markaları və qeyri maddi aktivlərin ,intellektual mülkiyyətin digər növləri buna biznesin qiymətləndirilməsində qiymətləndirici bütövlükdə müəssisəni onun şəxsi kapitalnın dəyərini müəyyən edərək qiymətləndirir. Qiymətləndirilən işlərin metodiki xüsusiyyətlərini və texnologiyalarını nəzərə alaraq qiymətləndirmə obyetkləri fərqləndirilir:

- bütövlükdə müəssisə (biznes);
-daşınmaz əmlak, maşınlar, avadanlıqlar, nəqliyyat vasitələri , və qeyri-maddi aktivlər.

Müəssisənin mövcudluğunun təşkilati - hüquqi forması böyük əhəmiyyətə malikdir. Qiymətləndirmə zamanı müəssisənin əmlakının tərkibini , onların hüquqlarını konkretləşdirmək lazımdır , çünki bir çox sənaye müəssisələrinin strukturu çox mürəkkəbdir. Müəssisənin strukturuna sexlər, ərazilər, xidmət təsərrüfatları, xüsusi bölmələr, ofis tikililəri, müxtəlif sahələrdə həmçinin müxtəlif regionlarda yerləşən komunikasiya vasitələri daxildir. Eyni zamanda birliklər, holdinqlər və ya maliyyə sənaye qrupları da qiymətləndirmə obyekti kimi çıxış edə bilər. Bu halda bir neçə şirkətlər, bölmələr, filiallar birləşir.

AQRAR SFERADA QİYMƏTLƏRİN TƏNZİMLƏNMƏSİ MEXANİZMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

Əşrəfova R.M.
Azərbaycan Dövlət İqtisad Universiteti

Prezident İlham Əliyev 2015-ci ilin Azərbaycan Respublikasında "Kənd təsərrüfatı ili" elan edilməsi haqqında sərəncam imzalayıb. Sərəncamda qeyd olunur ki, Azərbaycan Respublikasında həyata keçirilən aqrar islahatlar nəticəsində kənd təsərrüfatının dinamik inkişafı üçün zəmin yaradılıb. Aqrar sektorda əsaslı dəyişikliklər baş vermiş, yeni iqtisadi və mülkiyyət münasibətləri formalaşmış, normativ hüquqi baza təkmilləşdirilmişdir. İdarəetmədə səmərəliliyin və şəffaflığın artırılması üçün elektron kənd təsərrüfatı sistemi tətbiq edilməktədir.

Kənd təsərrüfatının inkişafına dövlət dəstəyinin gücləndirilməsi, yeni çağırışlara uyğun sahə üzrə strateji hədəflərin və institusional dəyişikliklərin müəyyən edilməsi sahənin keyfiyyətcə yeni mərhələyə keçməsinin təməlini qoymuşdur. Əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsi, aqrar sahədə ixrac potensialının artırılması məqsədi ilə ölkədə müasir aqroparklar və iri fermer təsərrüfatları təşkil edilir. Regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramları çərçivəsində bölgələrdə müasir infrastruktur qurulub, kəndlərarası avtomobil yollarının şəbəkəsi genişləndirilib.

Aqrar bazarın tənzimlənməsində qeyri-iqtisadi və iqtisadi metodlardan istifadə edilir.

Qeyri-iqtisadi metod qanunvericiliklə bağlı məsələləri nəzərdə tutur. Məsələn, inhisarçılığın aradan qaldırılması və rəqabət mühitinin formalaşdırılması məqsədilə «Antiinhisar fəaliyyəti haqqında»,

normal vergi sistemi formalaşdırmaq üçün «Vergi xidməti haqqında» qanunlar və digər normativ-hüquqi sənədlər qeyri-iqtisadi metodlardır.

Aqrar bazarın tənzimlənməsində istifadə olunan iqtisadi vasitələr əsasən aşağıdakılardır: qiymət, pul-kredit, büdcə, vergi, gömrük və sığorta sistemləri.

Qeyd olunan məsələlərin həllində hər bir iqtisadi vasitənin özünəməxsus xüsusiyyətinin, bir-biri ilə qarşılıqlı əlaqələrinin nəzərə alınması vacibdir. Məsələn, aqrar bazarda kənd təsərrüfatı məhsullarının qiymətlərinin tənzimlənməsi prosesi əhalinin alıcılıq qabiliyyətinin, büdcədən əmək haqqı, pensiya, müavinətlərin və s. diqqətdən yayınmamasını tələb edir. Yaxud büdcə vəsaiti hesabına tənzimləmə tədbirləri əhalinin pula, yaxud müəssisələrin kreditə olan tələbatı ilə dövriyyədəki pul kütləsinin həcmi arasındakı uyğunluğun təmin edilməsi baxımından həyata keçirilməni şərtləndirir.

Qiymət aqrar bazarın tənzimlənməsində əsas vasitələrdən hesab edilir. Qiymət tənzimlənməsi birbaşa və dolayı yollarla mümkündür. Birbaşa tənzimləmə istehsalçı və istehlakçılara qiymət artımı və azalma nəticəsinə görə subsidiya, yaxud digər birbaşa ödəmələri, həmçinin inhisarçılıq şəraitində sərt qiymətlərin müəyyənləşdirilməsini (qiymətin son həd limitinin-aşağı və yuxarı həddinin müəyyənləşdirilməsini misal göstərmək olar) nəzərdə tutur. Bazarın dolayı yolla tənzimlənməsinə vergi dərəcələrinin dəyişdirilməsi, gömrük rüsumlarında dəyişikliklər, tələb və təklifin səviyyəsinə təsir və s. aiddir. Qiymət sistemilə aqrar bazarın tənzimlənməsində əsas məqsəd kənd təsərrüfatı əmtəə istehsalçılarının gəlirlərinin artımına şərait yaradılması, qiymət tarazlığının təmin edilməsi, istehsalın stimullaşdırılması, istehlakçıların zəruri ərzaq ehtiyaclarının ödənilməsi və daxili bazarın qorunmasıdır.

Kənd təsərrüfatı əmtəə istehsalçılarının gəlirlərinin səviyyəsi həm bazar qiymətlərindən, həm də maddi-texniki resurslar və iş və xidmətlərin qiymətindən-onlara çəkilən xərclərdən asılıdır.

Qiymət arasında mütənasibliyin pozulması istehsal xərclərinin artımına səbəb olmaqla istehsalçıların gəlirlərinə mənfi təsir göstərir. Bu problemin yaranması, yaxud aradan qaldırılmasında son həd qiyməti və təminatlı qiymətdən istifadə olunur. Son həd qiyməti əsasən sənaye məhsullarına elə səviyyədə müəyyənləşdirilir ki, bu halda istehsal üçün zəruri məhsullar əldə etmək-almaq imkanı yaranır.

Təminatlı qiymətlər əsasən kənd təsərrüfatı məhsullarına tətbiq olunur. Bəzi hallarda istehsalçı bazar qiymətlərinin elə səviyyəsi ilə rastlaşır ki, o, öz xərcini ödəyə bilmir, yaxud olduqca aşağı səviyyədə gəlir əldə edir. Belə şəraitdə dövlət istehsalçılara elə qiymət həddi-təminatlı qiymət təklif edir ki, istehsalçının məhsul istehsalına marağı itməsin.

Aqrar bazar şəraitində istehsalı stimullaşdırmaqla məhsul istehsalının artırılmasında, beləliklə istehlakçıların kənd təsərrüfatının ərzaq məhsullarına tələbatının ödənilməsində tətbiq olunan əsas qiymət növü girov qiymətidir. Girov qiyməti vasitəsilə dövlət girov əməliyyatları aparmaqla istehsalçıdan əlavə məhsulunu (satışdan qalan məhsul) elə qiymət səviyyəsində alır ki, əmtəə istehsalçısı minimum səviyyədə belə gəlir əldə edə bilsin.

Yerli istehsalın ölkənin tələbatının ödənilməsi məqsədilə stimullaşdırılması idxalın tənzimlənməsi zərurətini əsaslı şəkildə ortaya qoyur. Belə ki, ölkəyə gətirilən məhsulların həcmi və qiymətinin daxili bazarın qorunması şərti ilə tənzimlənməsi, bu baxımdan rəqabət qabiliyyətli yerli məhsullara həmin məhsullarla rəqabət aparma imkanlarının yaradılması, həyata keçirilən struktur siyasətinin prioritetlərindəndir. Eyni zamanda daha səmərəli iş və xidmətlər göstərməklə rəqabətə davamlı kənd təsərrüfatı istehsalının təmin edilməsi, məhsul istehsalının artırılması və səmərəliliyinin yüksəldilməsi üçün lizinq xidmətinin, texniki xidmət və təmir-bərpa işlərinin yerinə yetirilməsini həyata keçirən müəssisələrin fəaliyyətinin gücləndirilməsi aqrar bazarın inkişafında zəruri tədbirlərdəndir.

QLOBALLAŞMA VƏ İNSAN HÜQUQLARI

Hüseynova S.A.
Azərbaycan Dövlət İqtisad Universiteti

İnsan hüquq və azadlıqları insan inkişafının minillərdən keçmiş, lakin hələ də hüquqi və ictimai həyatın diqqət mərkəzində duran problemlərdən biridir. Hegel yazırdı: "Dünya tarixi azadlığın dərk edilməsinin inkişafıdır. Bu inkişaf özünü obyektiv həqiqətlərin dərkində eləcə də bu idrakın dövlət-hüquq qəlibinə salınmasında özünü göstərir."

Başqa sözlə desək, hər növbəti nəsil insan hüquqlarının dərk olunmasında irəliyə doğru daha bir addım atmış olur. Əgər nisbətən yaxın keçmişdə dövləti vətəndaşların şəxsi həyatına qarışmaqdan

çəkindirən "neqativ azadlıq"dan danışılırdısa artıq bu gün kollektiv hüquqlar (sülh hüququ, sağlam ətraf mühit hüququ və s.) haqqında danışılır.

Ümumilkdə inkişaf hər bir dinamik sistemin ayrılmaz hissəsidir. İnsan, cəmiyyət, dövlət bu və ya digər məfhumların daimi determinasiyası kimi özünü göstərən dinamikaya sahib sistemlərdir. Təbii ki, insan hüquqlarının dərk olunmasının inkişafı ilə eyni vaxtda bir-birinə təsir göstərən digər irimiqyaslı proseslər də cərəyan edir. Bu cür proseslərdən biri də birmənalı qarşılanmayan qloballaşmadır. Belə ki, bəziləri bunda çiçəklənmə, digərləri isə əksinə insan tarixinin süqutunu görürlər. Lakin hamı qloballaşmanın ictimai həyatın bütün sahələrinə təsir edən makromiqyaslı proses olduğu ilə razılaşırlar.

Bu prosesin miqyasını nəzərə alaraq öz məruzəmdə qloballaşmanın insan hüquqlarına təsirinin yalnız bəzi aspektlərinə toxunacam.

Qloballaşmanın əsas xüsusiyyətlərindən biri mövcud dövlət sərhədlərinin tədricən silinməsidir. Dövlətlərin bu cür açıqlığı keyfiyyətcə yeni bir qlobal mühitin yaranmasına gətirib çıxardacaq. Bu cür mühitdə insan fəaliyyətinin həm müsbət həm də mənfi nəticələrinin ümumi şəkildə təsirli olması ilə xarakterizə olunur. Bunun pis və yaxşı olmasını birmənalı şəkildə söyləmək çətindir. Lakin fikrimcə, qloballaşmanın əsas səbəbi əvvəlki kommunikasiya və dünyanı dərk etmə vasitələrini alt-üst etmiş elmi tərəqqiyə nail olan insan şüurunun inkişafıdır. Qərb politoloqları tərəfindən əsas səbəb kimi göstərilən qlobal problemlər isə qloballaşma prosesini bu və ya digər şəkildə aktivləşdirən faktorlardır. İnsan şürunun inkişafını dayandırmağın yeganə yolu bəşəriyyətin tam olaraq məhv edilməsidir. Bu səbəbdən də qloballaşma prosesinin qarşısını yalnız insanlığın süqutu ala bilər. Beləliklə, qloballaşma təbii və qarşısıalınmaz bir prosesdir. Lakin bu və ya digər şərtlərin üstünlüyü onu iki müxtəlif yolda apara bilər: 1) Daimi konfliktlər yolu ilə bəşər sivilzasiyasının sonuna doğru; 2) Ədalət və əməkdaşlıq yolu ilə sülh və yeni şəraitdə inkişafa doğru.

Toymbinin fikrincə, bu günümüzün ən əsas və çətin məsələlərindən biridir. O yazır: "İnsanlıq gec olmadan müəyyən ədalət mexanizmlərini hazırlamalıdır. Bu təkcə bizim özümüz üçün yox, həm də bəşəriyyətin gələcək mövcudluğu üçün vacibdir."

"Ədalətin əldə olunmağının əsas yolu hər kəsin ədalətli olmasıdır. Bu çətin olsa da mümkün olan yeganə yoldur, bu müqəddəslərin getdiyi yoldur." Toymbinin fikrincə müqəddəs olmaq üçün ilk addım müəyyən məsuliyyət hissinə sahib olmaq və bu məsuliyyəti əsas tutaraq öz eqosentrik düşücəsindən imtina etməkdir. Növbəti addım isə insan tərəfindən digər insanların müdafiəsi rolunun dərk edilməsidir.

Bu rolun hər kəs tərəfindən dərk edilməsindən bütünlüklə bəşəriyyətin gələcəyi asılıdır.

Bir çoxlarının insan hüquqlarını ön plana çəkməsinə baxmayaraq, bu fikirlə razılaşmayanlar da var. Kersten Knippin fikrinə görə hal-hazırda insanlar öz hüquqları barədə yekdil fikrə malik deyillər. İnsan hüquqları yerli adət-ənənələr, coğrafi və tarixi təcrübə səddini keçə bilmir.

Gettingen universitetinin professoru Əli Yakheşi sual verir: "Söz azadlığı, partiyaların yaradılması və siyasi həyatda iştirak işsizliyin, yoxsulluğun və antisanitariyanın hökm sürdüyü ölkədə əsas prinsip sayıla bilərmi?". O, islam dövlətlərinə qərb standartlarının yeridilməsinə qarşı çıxış edirdi. İnsan hüquqlarının elə bir konsepsiyası işlənib hazırlanmalıdır ki, o dövlətlərin mədəniyyətini nəzərə alsın. [5] Həqiqətən də, XXI əsrin əvvəlinə olan məlumatlara görə, əhalinin kəskin sosial fərqliliyi azalmaq əvəzinə artmışdır. Belə ki, hazırda dünya əhalisinin 20%-i planetin 86% daxili məhsuluna sahibdir. Dünya əhalisinin ən yoxsul 20%-i isə bu məhsulun cəmi 1%-ni əlində saxlayıb. Planet sakinlərinin yarısından çoxu (3 milyarddan bir qədər artıq) aclıqdan əziyyət çəkir. Hər il 5 milyon uşaq aclıqdan dünyasını dəyişir. Milyonlarla uşaq isə daimi aclıq səbəbindən təhsil alıb ixtisasa yiyələnə bilmir. Bu qarşılıqlı anlaşmaya müsbət təsir göstərə bilməz. İnsan hüquqları ilə bağlı Vyana konfransında Dalay Lama demişdir: "İnsan hüquqları məsələsi gündəmə gəldikdə onun şərq ya qərb, cənub ya da şimaldan olmağı, ağ və ya qaradərili olması heç bir məna kəsb etmir."

İnsan inkişafının və həyat fəaliyyətinin təmin olunmasının fundamental şərtlərinin mövcud olmaması aşağı ekstremist ideologiyanın cəmiyyətə daxil olub onun üzvlərinin şüuruna hakim kəsilməsinə səbəb olur.

Bütün bunları nəzərə alaraq söyləmək olar ki, yoxsul və varlı təbəqə arasındakı sosial fərqin artması və əhalinin ən müdafiəsiz təbəqəsinə sosial dəstəkdən imtina olunması çox təhlükəlidir. Bu, millətçilik, ekstremizm kimi xoşagəlməz hallara yol açа bilər və bəşər sivilzasiyasının sonu ola bilər. Qloballaşma şəraitində isə bunun özəlliyi ondan ibarətdir ki, səhvin nəticəsi də qlobal olacaq.

İnsan hüquqları və onun səviyyəsi birbaşa olaraq vətəndaş cəmiyyətinin vəziyyətindən asılıdır.

Vətəndaş cəmiyyəti – dövlət fəaliyyətinin məhdudlaşdırılması və onun nəzarət mexanizmlərini hazırlamaq yolu ilə tək bir adama yönəldilən və onun hüquq və azadlıqlarının həyata keçirilməsini təmin edən hüquqi demokratik cəmiyyətdir.

Qloballaşma proseslərinin təsiri nəticəsində vətəndaş cəmiyyəti də dəyişir. O, milli çərçivədən qlobal çərçivəyə keçir. Qloballaşma dövründə bütün ölkə ərazisində məcburiyyət hüququna və ali hakimiyyətə sahib suveren dövlət isə qərar qəbul etmək sahəsində əvvəlki azadlığını itirmiş olur. Müxtəlif beynəlxalq təşkilatlar getdikcə daha çox təsir qüvvəsi qazanır. Beləcə, transmilli korporasiyalar və yeni malların istehsalı üçün ayırdığı vəsait sayəsində milli şirkətləri bazarlardan faktiki olaraq sıxışdırır,bununla da, işsizliyin artmasına yol açır. Bu cür transmilli şirkətlərin sərmayesini özünə cəlb etməkdən ötrü onların və cəmiyyətin maraqları arasında götür-qoy etməli olur. Sərmaye üçün daha əlverişli şəraitin (aşağı vergilər, sosial sığortanın həcmi, ətraf-mühitin müdafiəsi ilə bağlı tələblər) yaradılması ilə təkcə dövlətin hakimiyyətinin məhdudlaşdırılması deyil, faktiki olaraq, bu dövlətin ərazisində yaşayan insanların hüquqları tamamilə pozulmuş olur.

C.Sorosun fikrinə görə, bazarlar idealdan çox uzaqdırlar. Onlar yalnız şəxsi tələbləri qarşılaya bilir. İctimai tələblərin qarşılanması isə onların imkanları daxilində deyil.

Bu şəraitdə insan hüquq və azadlıqlarının təmin olunması üçün qlobal vətəndaş cəmiyyətinin qarşısında duran əsas məsələ yalnız dövlətin deyil, həm də bu cür transmilli təşkilatların fəaliyyətinə nəzarət və onların məhdudlaşdırılması mexanizmlərinin hazırlanmasıdır. Y.Xabermasın qeyd etdiyi kimi: "Millət – dövlət müstəvisindən kosmopolit müstəviyə keçilən zaman nəyin daha təhlükəli olduğu bilinmir: beynəlxalq hüququn suveren subyektlərinin məhv olmaqda olan dünyası,yoxsa transmilli instansiyaların naməlum qarışığı..."

Bu məsələnin həlli və insanlığın hüquq və azadlıqları təmin edən gələcək siyasi təşkilatının bünövrəsinin möhkəmliyi üçün müxtəlif ictimai birliklərlə dövlətlərin sıx əməkdaşlığı vacibdir.

Hal-hazırda maksimal gəlir əldə etmək istəyi ilə hərəkətə gətirilən iqtisadi qloballaşma təəssüf ki, insan hüquq və azadlıqları sahəsindəki qloballaşmadan daha güclüdür. Buna ictimai birliklərin beynəlxalq əməkdaşlığı vasitəsilə qarşı çıxmaq olar. Özündə problemləri lokal şəkildə həlli ilə məşğul olan milyonlarla insanı ehtiva edən və dünyanın müxtəlif yerlərində mərkəzləri olan özünəməxsus hüquq müdafiəsi şəbəkəsi vətəndaş cəmiyyətini gücləndirər və qlobal müstəvidə insan hüquq və azadlıqlarının təmin olunmasında böyük rol oynayar.

Martin və Şuman belə qeyd edir: "Qlobal düşünmək və lokal hərəkət etmək əlbəttə ki, yaxşıdır. Lakin sərhədləri nəzərə almadan əməkdaşlıq etmək daha yaxşıdır."

İQTİSAD ELMİ İLƏ BİZNES PRAKTİKASINDAKI İSTEHLAKÇI DAVRANIŞI MODELLƏRİNİN FƏRQLİLİKLƏRİNİN AZALDILMASINDA "NOBEL MÜKAFATI" LAUREATLARININ ROLU

Rəhimli H.H.
Azərbaycan Dövlət İqtisad Universiteti

İqtisadi subyektlərdən olan alıcıların davranışını nəzəri baxımdan öyrənən iqtisad elmi ilə davranış modellərini praktiki məqsədlər üçün (mənfəət əldə etmək və s.) tətbiq edən biznes idarəediciləri (xüsusən marketinq mütəxəssisləri) arasında istehlakçı davranışlarının öyrənilməsi problemi həm öyrənmə modelləri, həm də öyrənmə məqsədi baxımından fərqlənir. Həm iqtisadçı alimlər (əsasən iqtisadi nəzəriyyəçilər), həm də marketoloqlar (və ya biznes idarəediciləri), baxmayaraq ki, iqtisadçı sayılırlar, amma onların iqtisadi nəzəriyyə və praktikaya münasibətləri bir-birindən fərqlənir. Əgər iqtisad elmində nəzəriyyəçi alimlər daha fundamental, elmi-nəzəri və daha geniş ictimai ümumxalq əhəmiyyətli tətbiqi məsələlər üzərində çalışırlarsa, marketoloqlar isə öz peşələrinin (sahələrinin) tələbi ilə daha çox mikro səviyyədə firmanın bazardakı istehsal-satış fəaliyyətinin idarəedilməsinin nəzəri və praktiki tərəfləri ilə məşğul olurlar. Məhz bu fərqi ki qrupun arasındakı fikir ayrılığının əsas mənbəyi sayıla bilər. Fikir ayrılığının digər bir səbəbi isə iqtisadçı alimlərin hədsiz mücərrədləşdirmələr aparması və araşdırılan problemin daha çox iqtisadi tərəfini mütləqləşdirməsi ilə əlaqədardır. Öz inkişafı dövründə bəzən (çox vaxt) həddən artıq nəzəriyyələşərək real dünyadan kənar qalan iqtisad elmindən fərqli olaraq, marketinq nəzəriyyəsi (yaxud elmi) marketinq mütəxəssislərinin daim real iqtisadi həyatda olmaları səbəbindən əldə etdikləri təcrübə və gəldikləri ümumi nəticələr hesabına reallığa daha uyğun olub, mövcud elmi paradiqma ilə uzlaşmır. Məlumdur ki, əgər bir iqtisadi nəzəriyyəçi araşdırdığı məsələləri daha

rahatlaşdırmaq, sadələşdirərək həll etmək üçün hədsiz mücərrədləşdirmələr apararaq, müəyyən bir abstrakt model yaradırsa, məlumdur ki, bu model konkret tətbiq zamanı üzləşəcəyi çətinliklər səbəbindən daha çox praktiki əhəmiyyətliliyi meyar hesab edən marketoloqlar tərəfindən məqbul hesab olunmayacaq. Həmçinin qeyd edilməlidir ki, marketoloqlar istehlakçı davranışını öyrənərkən (mövcud modellər əsasında və ya yeni araşdırmalar nəticəsində) və ya bunun üçün yeni davranış modelləri hazırlayarkən elmin inkişafını deyil, öz bazar mənfəətlərini güdürlər. Amma bu iş özləri də bilmədən bəzən elmin inkişafına səbəb olur.

Mikroiqtisadiyyatın öyrəndiyi əsas problemlərdən olan istehlakçı davranışı ilə biznes sahəsində ən çox əlaqəli olan və ən çox məşğul olan şəxslər marketinq nəzəriyyəçiləri və praktikləridir.Məlumdur ki, marketoloqlar marketinq konsepsiyasına əsasən çalışırlar ki, öz firmalarının əsas satış fəlsəfəsi "istehlakçıların tələbatlarının öyrənilməsi və dolğun ödənilməsi hesabına fəaliyyət göstərmək" olsun. Məhz istehlakçı davranışının öyrənilməsinə olan praktik ehtiyac marketoloqların müxtəlif elm sahələrində hazırlanmış "insan modelləri"nə (o cümlədən də iqtisad elmindəki "insan modelləri"nə) müraciət etməsinə səbəb olmuşdur. Bununla da, həm praktik biznes idarəediciləri və ya marketoloqlar elmi əsaslara malik, fundamental tədqiqat nəticələri olan belə modelləri əldə edərək öz bazar fəaliyyətlərində əsas kimi onlardan istifadə etmişlər. Həmçinin də, həmin modellərin praktiki yararlılığının yoxlanılmasına imkan yaradaraq, onlarda aşkarlanan səhvlərin praktiki təcrübələr əsasında aradan qaldırması üçün tövsiyələr formalaşdırmışlar.

İstehlakçı davranışının öyrənilməsi ilə firmalar kimin alıcı olduğunu, necə aldığını, nə vaxt aldığını, harada aldığını və məhz nəyə görə aldığını aydınlaşdırmağı çalışırlar. İstehlakçı davranışının öyrənilməsi sırf marketinq nəzəriyyəsi və praktikası baxımından yeni problem olsa da, elm tarixində bu məsələnin araşdırılması ilk dəfə hələ 18-ci əsrin əvvəllərinə gedib çıxır. Mənbələrdə bildirilir ki, bu problemin elmi şəkildə tədqiqinə hələ 300 il bundan əvvəl (1713-cü ildə) Nikolas Bernulli tərəfindən başlanılmış, sonrakı dövrlərdə isə Con fon Neyman və Oskar Morqenştern (1944) tərəfindən yaradılan "oyunlar nəzəriyyəsi" çərçivəsində istehlakçıların rasional qərar qəbul etməsi məsələləri öyrənilmişdir. Marketinq nəzəriyyə və praktikasında isə istehlakçı davranışlarının elmi baxımdan öyrənilməsi 1960-cı illərdə Ford kompaniyasının göstərişi ilə Amerika Biznes Məktəbində 2 illik marketinqin tədrisindən sonra inkişaf etməyə başladı. İstehlakçı davranışına aid ilk kitablar 1960-cı illərdə ABŞ-da nəşr olunmuş və ilk müəlliflər Amerika marketoloqları Ceyms Engel, David Kollal və Rocer Bləkvell olmuşlar. 20-ci əsrin ortalarından etibarən aktuallaşan bu məsələnin əsas səbəbi isə həmin dövrlərdən başlayaraq alıcı davranışlarında yaranan yeni dəyişikliklər idi ki, bunlar da özünü alıcının məhsul alışına ənənəvi "nə taparamsa, onu da alaram" deyil, yeni "nə istəyirəmsə, onu alaram" prinsipi ilə yanaşmasında özünü göstərirdi. Artıq o dövrdən indiyədək istehlakçı davranışlarında artıq təbii tələbatın deyil, arzu və istəklər əsasında formalaşan süni tələbatın rolu artmış və bu səbəbdən də bu gün alıcı davranışını anlamaq daha mürəkkəb olmuşdur.

İstehlakçı davranışı dedikdə, nəzərə almaq lazımdır ki, əgər söhbət son istehlakçılardan gedirsə, bu halda insan davranışı ön plana keçir. İnsan müasir dövrdə 200-ə qədər elmin tədqiqat obyektidir. Bu səbəbdən dəinsan davranışı humanitar elmlərin birgə nəticələri ilə öyrənilə bilər. Çünki bu elmlər insana və onun davranışına öz nöqteyi-nəzərindən baxır və bu da istər-istəməz birtərəfli fikirlərin yaranmasına gətirib çıxarır.Marketinqdə istifadə edilən istehlakçı davranışı modelləri bir əlamətə görə (zaman əlaməti) iki yerə bölünürlər: 1) klassik (ənənəvi) modellər; 2) müasir modellər.Klassik modellər aşağıdakılardır: 1) Marşalın "iqtisadi model"i; 2)Pavlovun "öyrənmə modeli"; 3)Freydin "psixoanaliz modeli"; 4)Veblenin "sosial-psixoloji model"i. Müasir modellərə isə bunlar aid edilir: 1) Nikosiyamodeli; 2)Hovard və Şetmodeli; 3)Engel, KollatvəBləkvelinmodeli; 4)Mark və Saymonmodeli; 5)Lazersfeldmodeli; 6)Katona modelir. Bu modellərin bəzisi müxtəlif elm sahələrindəki fundamental araşdırmaların, bəzisi isə praktiki ehtiyaclara uyğun hazırlanaraq daha çox tətbiqi səciyyəli tədqiqatların nəticəsidir. Göstərilən elmlərdən biri də iqtisad elmidir.

İqtisad elmində mövcud insan modeli (bunu "iqtisadi insan" da adlandırmaq olar) heç də bütün məktəblərin nəzərində eyni xüsusiyyətlərə malik deyil. İqtisad elmində uzunmüddət əsas istiqamət olan klassik məktəbin "iqtisadi insan" modelinə uyğun olan və marketinqdə də tətbiq edilən Marşalın modeli real həyatda yarıtmazlığından dolayı tez-tez tənqidə məruz qalmışdır. Klassik məktəbin insan davranışının rasionallığı ideyası və onun əsasında yaradılmış "iqtisadi insan" modeli davranışın izahında modelləşdirmənin əsas prinsiplərindən birini - "modelin real obyektə kafi adekvatlığı"-nı pozurdu. Bu çatışmazlığın əsas səbəblərindən biri də iqtisad elmini lazım olandan artıq xalisləşdirib, digər ictimai-humanitar elmlərin nailiyyətlərindən istifadə etməməkdir. Bunun obyektiv səbəbi isə iqtisad elmində

insanın əsasən iqtisadi fəaliyyətinin tədqiq olunmasıdır ki,bu da mövcud olan insan modelinin birtərəfli xarakterinə, yəni əsas diqqətin iqtisadi amillərə yönəldilməsinə səbəb olur.

"Nobel mükafatı"nın verilməsindəki bəzi qərəzli yanaşmaları kənara qoysaq, son dövrlərdə iqtisad elminin əsas istiqamətinin nümayəndələrinin bəzi nailiyyətləri nəzəriyyə ilə praktika arasındakı fərqliliklərixeyli azaltdı. Həm psixoloq, həm də iqtisadçı olan Herbert Saymonun (Simonun) 1947-ci ildəki "İnzibati davranış", ardınca "İnsan modelləri" və "Təşkilat" adlı kitablarında bu prosesin başlanğıcı qoyuldu. O Ceyms Markla birgə işləyərək belə bir nəticəyə gəldi ki, "firmalar gəlirin (faydanın) maksimallaşdırılmasını qarşıya məqsəd qoymur. Subyektlər rasional deyil, məhdud rasional olurlar və qərar qəbulu ən yaxşı deyil, kafi olan nəticəyə gətirib çıxara bilər". Onun fikrincə klassik insan modeli insanın əxlaqi və idraki keyfiyyətlərini nəzərə almır. Ondan sonra Morris Alle, daha sonralar isə qeyri-müəyyənlik şəraitində qərar qəbulu mexanizmini araşdıran Daniel Kaneman və Amos Tverski "iqtisadi insan" modelinin çatışmazlıqlarını qeyd edərək, psixologiyadan iqtisadi davranışın izahında istifadə etmişdir. Kaneman ilk dəfə olaraq qərar qəbulu psixologiyasını sistemli tədqiq etmişdir. Kanemanın "Perspektiv nəzəriyyəsi" risk şəraitində qərar qəbulunu təhlil edərək bu qənaətə gəldi ki, insanlar itki və mənfəətə eyni cür münasibət bildirmir, eyni miqdarda olan itki həmin miqdarda olan mənfəətə nisbətdə insanda daha çox reaksiya yaradır. Qeyd edilən iqtisadçıların hamısı Nobel mükafatı laureatlarıdır və bu da onu göstərir ki, artıq iqtisad elmində insan modeli inkişaf etdirilib, get-gedə real həyata daha çox uyğunlaşdırılır. Eksperimental iqtisaddiyyatın yaradııcılarından olan və iqtisadi nəzəriyyədə təsərrüfat həyatını riyazi modellərdə deyil, insanlarla təcrübələrdə təqdim edən Vernon Smit də baxmayaraq ki, klassik insan modellərini təsdiq edən nəticələrə gəlmişdi, amma onun da nəzəriyyəsi yüksək qiymətləndirilib, Nobel mükafatına layiq görüldü.

Son dövrlərdəiqtisadi subyektlərin davranışının izahında yeni yanaşma olan "qeyri-səlis məntiq"in marketinq praktikası (ümumi halda desək, biznes praktikası) iləiqtisad elmi arasındakı yaxınlaşmada xüsusi yeri vardır. İqtisad elmində real həyata uyğun, firmaıların və xüsusən onların marketoloqlarının praktiki ehtiyaclarına cavab verə biləcək bir "insan modeli" Azərbaycanlı alim akademik Rafiq Əliyev tərəfindən işlənilmişdir. Əsası Lütfizadə (Lütfəli Rəhim oğlu Əsgərzadə)tərəfindən qoyulan "qeyri-səlis məntiq" nəzəriyyəsinin əsasında iqtisadi subyektlərin qərar qəbulu problemi Rafiq Əliyevin "İnperfekt (tam olmayan) informasiya şəraitində yeni qərar qəbul etmə nəzəriyyəsi" adlı fundamental əsərində öyrənilmiş və bu yanaşma elmdə yeni cığır açmış innovasiyalı bir töhfə sayıla bilər. Sözü gedən yanaşmanın əsas fərqli xüsusiyyəti ondadır ki, əvvəla qərar qəbul olunan mühitdə mövcud informasiya imperfektdir, yəni natamam, qeyri-müəyyən, bəzən dürüst olmayan, yarım həqiqi olan informasiyadır. Həmçinin bu informasiya rəqəmlər şəkilində deyil, təbii dildə formalaşaraq, qərar qəbul edən şəxsin xüsusiyyətləri və qərar qəbul etmək gücü nəzəriyyənin kökündə duran məntiqi-riyazi modelə daxil edilir.

ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ РАЗВИТИЯ И СОВЕРШЕНСТВОВАНИЯ РЕКЛАМЫ В КОММЕРЧЕСКИХ ФИРМАХ

Мешадизаде С.В.
Азербайджанский государственный экономический университет

В Азербайджане реклама развивающийся сектор экономики. При современных условиях социально-экономического развития нашей страны, реклама как элемент системы маркетинговых коммуникаций играет очень важную роль практически охватывая все сферы жизнедеятельности.

Хорошо известно что, история в её кратком изложении иллюстрирует развитие рекламы, отражающее развитие нашего мира. На протяжении всей истории задача рекламы — информировать и убеждать, нисколько не изменилась. Реклама в том виде, в каком мы знакомы с ней сегодня, представляет собой современное, прошедшее эволюцию, корнями, которая уходит на века в прошлое.

Реклама в Азербайджане представлена во всех основных средствах коммуникаций. Примерно половина общего рекламного бюджета всех участников отечественного рынка уходит все еще на телевидение и радио, на каналы с национальным охватом. Интернет до недавнего времени получал символический процент, но последние годы стремительно развивается. Также приоритетным у рекламодателей является размещение наружной рекламы в столице, г. Баку. Это стратегическая ошибка маркетинговых отделов многих азербайджанских компаний. Во всем

остальном мире уже давно пришли к выводу, что между разными вариантами рекламы нужно выбирать по их эффективности, а не по старой привычке.

Львиная доля рекламы приходится на ТВ и рекламные щиты. При этом, ТВ аудитория сильно разделилась, большинство целевой аудитории с покупательной способностью переключилось на кабельное телевидение или свело просмотр ТВ к минимуму, получая новости, информацию и даже просматривая фильмы по интернету.

Многие международные и транснациональные компании а также их дистрибьюторы уменьшили свой рекламный бюджет на 15-20%, а более мелкие отечественные компании в последние годы размещают свою рекламу в более дешевом, но в достаточно эффективном интернете. Данная ситуация на рынке поставило в трудное положение рекламные агентства, у которых уменьшилась работа. А если нет работы и прибыли не будет. Единственным выходом из данного положения может быть снижение цен. В Союзе Рекламистов сообщается что, из-за высоких цен на наружную рекламу в стране, многие компании отказываются давать сюда рекламу. По этой причине отмечается что в Совете Тарифов необходимо уменьшить цены в данной сфере.

На сегодняшний день на рынке Азербайджане наблюдается дефицит квалифицированных кадров, достаточно хорошо разбирающихся в маркетинге и в частности рекламе.

Поэтому союз рекламистов и общество маркетинга Азербайджана уделяет особое внимание проведению периодических мероприятий по повышению квалификации рекламных работников, такие как, NIMA, MarketingAir, Национальные форумы по маркетингу, приводящиеся с 2013-го года.

Рекламный рынок развивается ежедневно и поэтому сейчас на первом месте находится проблема кадров.

Второй проблемой национальной рекламы является нормативно-правовая база. «Закон о рекламе» следует полностью изменить. Он был составлен в 1997 году. Сейчас у нас совсем другие темпы жизни, а в законе на многие вопросы нет ответов.Несмотря на значительные изменения в законе в 2015-ом году, многие проблемы все еще остаются актуальными. Даже, по мнению некоторых экспертов, новый закон о рекламе даже хуже предыдущей.

Бурное развитие интернет рекламы и постепенное уменьшение доли телевизионной рекламы. Появление в Азербайджане новых ТВ технологий, в частности OTTи IPтелевидения и последующие за ними широкие рекламные возможности.Напряженная конкуренция в сфере сбыта и все более активные усилия в сфере дифференциации продукции за счет имиджа и позиционирования характеризуют дальнейшую перспективу развития рекламного рынка Азербайджана.

С другой стороны недавно проведенная Национальным Банком девальвация национальной валюты по отношению с долларом также окажет существенную роль на развитие конкуренции и стимулировании экспорта. Данная тенденция, безусловно, качественно скажется в росте эффективности рекламного рынка в стране. В частности увеличению доли рекламного рынка местных предприятий.

В ближайшие 5-10 лет рынок будет меняться в лучшую сторону, но нам нужно уже сейчас задуматься над тем, как изменить все к лучшему. И самое главное, наши производители должны понять, что мало создать товар. Чтобы его продать, необходимо товар продвигать. А также применять чистый маркетинг, т.е. удовлетворять нужды и запросы потенциальной клиентской аудитории.

СОВРЕМЕННЫЕ ТЕНДЕНЦИИ РАЗВИТИЯ РЕКЛАМЫ В АЗЕРБАЙДЖАНЕ

Адыгезалова Н.Э.
Азербайджанский государственный экономический университет

В диссертации наряду с другими направлениями современной рекламы рассмотрены особенности развития рекламных агентств в Азербайджане.

Для начала стоит отметить, что реклама – это целенаправленная часть маркетинговых коммуникаций , в рамках которой производится распростронение неперсонализированной

информации, оплаченной спонсором с целью мотивирования интереса потребителя к обьекту, товару и услугам . Согласно Уильяму Уэллсу, реклама выполняет 7 основных функций:

1. Создаёт осведомленность о товарах и брендах.
2. Формирует имидж бренда.
3. Информирует о товаре и бренде.
4. Убеждает людей.
5. Создаёт стимулы к совершению действий.
6. Обеспечивает напоминание.
7. Подкрепляет прошлый опыт покупок.

По исследованиям приведенным в диссертации раскрывается немаловажный фактор-влияние рекламных агентств на реализацию, поддержание и развитие рекламы.На современном рынке рекламы действуют рекламные агентства различных типов, которые могут классифицироваться по масштабу и виду деятельности, специализации, а также отраслевым признакам. Многообразие форм рекламных агентств отражает различие и глубину задач, которые они решают.По масштабу деятельности и территориальному охвату рекламные агентства классифицируюся следующим образом:

1. **Глобальные рекламные агентства** — выступают как рекламопроизводители на глобальном, международном уровне, в различных странах и регионах мира.
2. **Национальные рекламные агентства** — выступают как рекламопроизводители в масштабе отдельной страны.
3. **Региональные рекламные агентства** — выступают как рекламопроизводители в рамках конкретного региона или города.

По итогам считается, что полноценное рекламное агенство должно обладать всеми следующими качествами : Определение целевых действий;

- Определение целевой группы;
- SWOT-анализ;
- Разработка маркетинговой стратегии;
- Разработка рекламной стратегии;
- Выбор рекламных каналов;
- Размещение рекламы;
- Проведение специальных проектов;
- Производство любых видов рекламной продукции;
- Оптимизация хода рекламной кампании;
- Анализ результатов рекламной кампании;
- Отчет о результатах кампании;
- Корректирующие действия.

Но к сожалению не все агентства могут предложить клиенту , рекламопотребителю такой широкий потенциал возможностей.

В работе получены следующие основные результаты :

1) Выявлены пути роста и трансформации рекламного бизнеса в стране,определено что выбор вида рекламы в большинстве случаев целиком зависит от учредителя предприятия.

2) Исследованы и показаны структура рекламного агентства, выявлено удручающее состояние рекламного рынка, которому способствует не столько нежелание рекламных агентств развиваться , столько типовая квалификация заказчика.

3) Реализованы формы оплаты услуг рекламного агенства в Азербайджане Основные источники дохода. Таким образом рекламные агества получают прибыль от комиссионных, гонораров и реглярных предварительных выплат .

4) В ходе получения информации об особенностях раскрыты причины популярности, партнерство, а также недостатки структуры . Вопрос о том, что эффективнее- полный цикл или узконаправленное агентство в данный момент открыт.

5) В работе показана основная категория рекламопотребителей, которая оказывает намаловажное влияние на рынок в данной сфере.

1. B2C-реклама (B2C образовано от английского словосочетания Business to Consumer — бизнес для потребителя) — потребительская реклама, действие которой направлено на индивидуальных, или так называемых «конечных», потребителей.

2. B2B-реклама (B2B образовано от английского словосочетания Business to Business — бизнес для бизнеса) — деловая реклама, действие которой направлено на организации и сферу бизнеса.

В диссертации также опубликованы основные этапы развития рекламы на территории страны. Первый этап развития азербайджанской рекламы (90-е гг.) характеризуется подходом, который можно условно назвать «Реклама - это искусство». Второй этап становления азербайджанской рекламы (XXI в.) может быть охарактеризован следующим образом. Значительно более широкое применение в практике рекламы получает концепция маркетинга, расширяется применение различных методов планирования и оценки рекламных кампаний, прежде всего медиа-планирования. Рекламные бюджеты обосновываются и соотносятся с другими направлениями маркетинговой деятельности.

AZƏRBAYCAN RESPUBLİKASINDA HƏYATA KEÇİRİLƏN SOSİAL SİYASƏTİN MALİYYƏLƏŞDİRİLMƏSİ MƏSƏLƏLƏRİ

Cəfərli M.Y.
Azərbaycan Dövlət İqtisad Universiteti

Bazar münasibətlərinin müasir inkişafı mərhələsi qloballaşma prosesinin dərinləşməsi, dünya ölkələri arasında inteqrasiyanın sürətlənməsi fonunda milli iqtisadiyyatlarda baş verən genişmiqyaslı transformasiya prosesləri cəmiyyətin inkişafı proseslərində sosial sferanın rolunun daha da güclənməsini şərtləndirmişdir. Bunun nəticəsi olaraq, iqtisadi inkişafda sosial amillərin artan təsirlərinin təzimlənməsi zəruriliyi hər bir ölkənin müasir və sivil sosial texnologiyalar və mexanizmlər əsasında həyata keçiriləcək sosial siyasət kursunun, sosial inkişaf strategiyasının formalaşdırılması və reallaşdırılmasını və bu istiqamətdə əsas problemlərdən biri kimi sosial sferanın inkişafına investisiya yatırımlarının artırılması və onların səmərəliliyi məsələlərinin aktuallığını ön plana keçir. Onu da qeydə edək ki, hər bir ölkədə həyata keçirilən sosial siyasət müxtəlif çoxsaylı amillərin, o cümlədən ölkənin iqtisadi inkişaf səviyyəsi, siyasi quruluşu, mülkiyyət və bölgü münasibətlərinin inkişafı səviyyəsi, vətəndaş cəmiyyətinin inkişafı, ölkənin tarixi, milli xüsusiyyətləri və ənənələri əsasında formalaşır və onun maliyyələşdirilməsi ölkənin iqtisadi imkanları çərçivəsində reallaşır. Bu gün beynəlxalq təcrübədə sosial siyasətin maliyyə təminatı müxtəlif mənbələrdən, o cümlədən, dövlət büdcəsi, özəl sektor, ictimai təşkilatlar və digər subyektlər tərəfindən həyata keçirilir.

Respublikamızın dövlət müstəqilliyinin bərpasında keçən dövr ərzində sosial-iqtisadi inkişafla bağlı çoxsaylı dövlət proqramları, strategiyalar qəbul edilmişdir. Bu sırada milli iqtisadiyyatın bir çox sahələri, sosial sferanın inkişafı, o cümlədən də sosial müdafiə sisteminin, səhiyyə, təhsil, elm və mədəniyyət, bədən tərbiyəsi və idman sahələrinin, informasiya və kommunikasiya texnologiyalarının və digər sahələrin inkişafı ilə bağlı proqramlar, müxtəlif sənədlər qəbul edilmiş və hal-hazırda da sistemli tədbirlər həyata keçirilməkdədir. Bu proqramların maliyyə təminatında büdcə vəsaitlərinin payı daha çoxdur. Son illər respublikamızda dövlət büdcəsindən sosial-mədəni tədbirlərə ayrılan vəsaitlərin həcmi də davamlı şəkildə artmaqdadır.

Dövlət büdcəsindən sosial-mədəni tədbirlərə ayrılan vəsaitlərin həcmi, mln.manat

Cədvəl 1.

Xərclərin istiqamətləri	**İllər**					
	2008	**2009**	**2010**	**2011**	**2012**	**2013**
Dövlət büdcəsi xərcləri, mln. manat	10774,2	10503,9	11765,9	15397,5	17416,5	19143,5
Təhsil xərcləri	979,7	1147,9	1180,8	1268,5	1453,2	1437,7
Səhiyyə xərcləri	346,2	402,4	429,2	493,4	609,4	618,9
Sosial müdafiə və sosial təminat	846,4	1054,4	1122,98	1495,4	1769,6	1750,4
Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi və digər kateqoriyalara aid edilməyən sahələrdə fəaliyyət	140,2	158,3	168,4	189,9	240,8	274,9
Elm xərcləri	62,1	83,3	92,8	106,1	116,7	117

Mənbə: Dövlət büdcəsi zərfi 2010-2015-ci illər.

Cədvəl məlumatlarından göründüyü kimi, 2008-2013-cü illər ərzində dövlət büdcəsi xərclərinin strukturunda sosial-mədəni tədbirlərə ayrılan xərclərin xüsusi çəkisi 22-27% arasında dəyişmişdir. Onu da qeyd edək ki, bu tədbirlərlə bağlı xərclərin strukturunda təhsil və sosial müdafiə və sosial təminat xərcləri daha üstün olmuşdur. Belə ki, bu strukturda təhsil xərclərinin xüsusi çəkisi 2008-ci ildə 41,3%-dən 2013-cü ildə 34,2% təşkil etmişdir. Sosial müdafiə və sosial təminat xərcləri isə bu dövrdə 35,6%-dən 40,7%-dək yüksəlmişdir. Digər xərclər, o cümlədən səhiyyə xərcləri 14,6%-dən 15,5%-dək artmiş, mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi və digər kateqoriyalara aid edilməyən sahələrdə fəaliyyətin maliyyələşdirilməsi ilə bağlı xərclər isə 2013-cü ildə 6,9% olmuşdur. Elmə ayrılan vəsaitlərin xüsusi çəkisi göstəricisi isə 2,6-3% arasında dəyişmişdir.

Respublikamızda sosial siyasətin maliyyələşdirilməsində əsas mənbələrdən biri də Dövlət Sosial Müdafiə Fondudur. Fondun vəsaitləri hesabına sosial müdafiə və sosial təminat tədbirlərinin maliyyələşdirilməsində məcburi sosial sığorta haqları üzrə toplanan vəsaitlərlə yanaşı dövlət büdcəsi vəsaitləri əsadında maliyyələşmə həyata keçirilir, lakin büdcə vəsaitlərinin payı burada üstünlük təşkil edir. bunu aşağıdakı cədvəldən də görə bilərik.

Dövlət büdcəsindən sosial müdafiə və sosial təminata ayrılan vəsaitlərin həcmi, mln.manat

Cədvəl 2.

	İllər					
	2008	**2009**	**2010**	**2011**	**2012**	**2013**
Sosial müdafiə və sosial təminat xərcləri, cəmi	846,4	1054,4	1122,98	1495,4	1769,6	1750,4
Sosial müdafiə xərcləri	825,3	1038,9	1108,0	1478,3	1750,8	1730,9
Azərbaycan Respublikasının Dövlət Sosial müdafiə Fonduna dövlət büdcəsindən ayırımlar (transfertlər)	435,0	520,0	533,7	691,0	1044,3	1077,0
Sosial təminat xərcləri	21,1	15,5	14,9	17,1	18,8	19,4

Mənbə: Dövlət büdcəsi zərfi 2010-2015-ci illər.

Cədvəldən də göründüyü kimi, sosial müdafiə və sosial təminat xərclərinin maliyyələşdirilməsində 2008-2013-cü illərdə dövlət büdcəsindən birbaşa ayırmalar təxminən 51%-dən 61,5%-dək artmışdır.

Göründüyü kimi, son illər dövlət büdcəsi xərclərinin əsas prioritetləri sırasında sosial xərclərin üstünlük təşkil etməsi, sosial proqramların maliyyə təminatının və sosial islahatlara dövlət tərəfindən dəstəyin gücləndirilməsi müşahidə edilməkdədir. Bu isə onu deməyə əsas verir ki, respublikamızda sosial sferanın maliyyələşdirilməsində, sosial inkişafın təmin edilməsində dövlət büdcəsi müstəsna rola malikdir və həmin mənbədən ayrılan vəsaitlərin həcmi davamlı olaraq artmaqdadır.

AZƏRBAYCANDA TURİZMİN VƏZİYYƏTİ

Əhmədova N.S.
Azərbaycan Dövlət İqtisad Universiteti

İqtisadi islahatların həyata keçirilməsində iqtisadi və sosial mexanizmlərin formalaşması, dinamikası və proqnozlaşdırılması, xüsusi tədqiqat obyekti kimi təhlili, islahatların əsaslandırılması və onun reallaşması zamanı meydana çıxan sosial nəticələrin qiymətləndirilməsi aktuallıq baxımından mühüm əhəmiyyət kəsb edir. Müstəqillik əldə etmiş Azərbaycan Respublikasının qarşısında duran strateji məqsəd ölkənin bazar iqtisadiyyatına keçməsilə bağlı qarşıya çıxan bir sıra sosial-iqtisadi problemlərin həllində onun mütərəqqi formalarından səmərəli istifadə yollarını müəyyən etməkdir. Turizm haqqında Azərbaycan Respublikası qanunu Azərbaycan Respublikasında turizm bazarının hüquqi əsaslarının bərqərar edilməsinə yönəldilmiş dövlət siyasətinin prinsiplərini, turizm fəaliyyətinin əsaslarını müəyyən edir və turizm sahəsində meydana çıxan münasibətləri tənzimləyir, sosial-iqtisadi inkişafı təmin edən vasitələrdən biri kimi turizm ehtiyatlarından səmərəli istifadə olunması qaydasını müəyyənləşdirir.

Ölkəmizin dünyada turizm ölkəsi kimi tanınması üçün geniş imkanlar mövcuddur. Müstəqil Azərbaycanın neft strategiyasının əsasını qoyan «Əsrin müqaviləsinin» imzalanmasının 8 ili tamam

olmasına iki gün qalmış – 2002-ji il sentyabrın 18-də Bakı şəhərində Bakı-Tbilisi-Jeyhan ƏİBK-nin tikintisinin təməli qoyuldu və bu layihə müvəffəqiyyətlə başa çatdırıldı. Bu layihənin davamı olaraq «Avropa-Qafqaz-Asiya» (TRASEKA) nəqliyyat dəhlizi proqramı çərçivəsində 1998-ji il setyabr ayının 7-8-də 32 dövlətin və 13 beynəlxalq təşkilatın rəsmi nümayəndələrinin iştirakı ilə Bakı şəhərində tarixi İpək Yolunun bərpası üzrə beynəlxalq konfrans keçirildi və burada Avrasiya nəqliyyat dəhlizi üzərində yerləşən ölkələrin inkişafı, onların təbii ehtiyatlarının mənimsənilməsi, iqtisadi potensialdan daha da səmərəli istifadə olunması, ticarətin, turizmin və iqtisadi əməkdaşlığın genişlənməsi üçün etibarlı zəmin yaradan saziş imzalandı. Müxtəlif regionlarda 6 mindən artıq memarlıq və mədəniyyət abidələri qorunub saxlanılır. YUNESKO tərəfindən qeydiyyata alınan «İçəri şəhər», Qız qalası, Şəki Xan sarayı, Möminə Xatun Türbəsi və digər mədəniyyət abidələri artıq bütün dünyada məhşurdurlar. Dövlət proqramı bütün sərvətlərdən səmərəli istifadə etməklə, turizmi inkişaf etdirməyi qarşıya məqsəd qoymuşdur.

Azərbayjanda turizm sahəsi üzrə dövlət siyasətini həyata keçirən Mədəniyyət və Turizm Nazirliyi turizm sahəsində beynəlxalq əlaqələrin genişləndirilməsinə xüsusi diqqət yetirir. Azərbaycan Respublikası hökuməti ilə 16 ölkə – Türkiyə, Pakistan, Özbəkistan, Qırğızıstan, Çin, Polşa, İtaliya, Gürcüstan, Ukrayna, Rumıniya, Bolqarıstan, Belarus, Yunanıstan, Moldova, Qazaxıstan və Qətər hökumətləri arasında turizm sahəsində əməkdaşlıq haqqında sazişlər imzalanıb. Son illər beynəlxalq turizmin inkişafı, respublikamızda turizm şirkətlərinin və mehmanxanaların sayının artması, ölkəmizdə turizm sektorunun dünya standartlarına uyğun səviyyədə inkişaf etdirilməsi Azərbaycanın dünya turizm bazarına inteqrasiyası istiqamətində aparılan ardıjıl işlərdəndir.

Mehmanxanaların xidmət səviyyəsinin öyrənilməsi və beynəlxalq standartlara uyğun qiymətləndirilməsi məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı ilə «Turist-ekskursiya xidmətinin sertifikatlaşdırılması»nın keçirilməsi qaydaları təsdiq edilmişdir. Bu qaydalara əsasən Mədəniyyət və Turizm Nazirliyi tərəfindən ölkəmizdə fəaliyyət göstərən mehmanxana və ona bərabər tutulan yerləşdirmə obyektlərinin təsnifatı aparılır. Bu günə qədər 39 mehmanxana – Bakı şəhərində 25, digər şəhər və regionlarda 14 mehmanxana təsnifatdan keçmişdir və göstərdikləri xidmətə uyğun dərəjələrə layiq görülmüşlər.

Mehmanxanaların istismarından 2004-cü ildə əldə edilən gəlir 271 mlr. 632,6 mln. manat, 2005-ji ildə 665 mlr. 10,9 mln manat gəlir vergisi, ƏDV və digər vergilərdən büdjəyə daxil olmalar 2004-cü ildə 30 mlrd. 473,6 mln. manat, 2005-ci ildə 94 mlr. 41, 1 mln manat təşkil etmişdir.

Ölkənin regionlarında turist zonalarının və marşrutlarının təşkil edilməsilə bağlı 7 marşrut istiqamətində proqramlar hazırlanmışdır. Bu marşrutlara aşağıdakılar daxildir:

1.Abşeron

2.Qobustan-Şamaxı-Ağsu-Göyçay-İsmayıllı-Kürdəmir-Zərdab-Ağdaş

3.Xızı-Siyəzən-Dəvəçi-Xaçmaz-Quba-Qusar

4.Qəbələ-Oğuz-Şəki-Qax-Zaqatala-Balakən

5.Gənjə-Goranboy-Xanlar-Gədəbəy-Tovuz-Qazax

6.Salyan-Masallı-Lerik-Lənkəran-Astara

7.Naxçıvan-Şahbuz-Şərur-Sədərək-Ordubad-Julfa-Babək

Turizm fəaliyyətinin ərazi təşkili ərazinin təbii-rekreasiya sərvətlərinin mövjudluğu şəraitində mümkün olur. Bu sərvətlərin dəyəri və ehtiyatlarından asılı olaraq, müxtəlif səviyyəli kurortların təşkilindən danışmaq olar. Bunların hər birinə hazırlıq səviyyəsi, sənədlərin təsdiqi və qərarların qəbulu xasdır. Burada təbii müalicəvi sərvətlərin axtarılması və ekspert qiymətləndirilməsi, iqlimin müalijəvi xüsusiyyətləri haqqında məlumatın olması ilk addım ola bilər. Qeyd edək ki, ərazinin turist rekreasion sənədlərinin hazırlanması işinin təşkilinin sifarişçisi qeyri-dövlət və kommersiya strukturları ola bilər. Lakin müvafiq dövlət orqanların ijazəsi ilə ilk növbədə aşağıdakı sənədlər hazırlanmalı və müzakirə edilməlidir:

- ərazinin təbii-rekreasiya amillərinin keyfiyyəti haqqında elmi nətijələr;
- təbii-rekreasiya sərvətlərin ehtiyyatı haqqında ekspert nətijə;
- müalijə-sağlamlıq zonası, ərazisinin və onun hüdudları daxilindəki təbii sağlamlıq sərvətlərinin vəziyyəti haqqında dövlət ekologiya və sanitar-epidemioloci ekspertizanın nətijələri;
- profil dəyişmə, yerdəyişmə və bağlanması lazım olan təbii-rekreasiya ərazisi hüdudlarında yerləşən sənaye, kənd təsərrüfatı və başqa müəssisələrin siyahısı;
- ərazinin topoqrafik planı, onların istehsalçıları haqqında məlumatlar.

Sənədlərə müəyyən müddət ərzində Mədəniyyət və Turizm Nazirliyinin rayonlararası ekspert şöbəsi tərəfindən baxılır. Hökumət qərarının qəbulundan sonra texniki-təşkilati tədbirlər həyata keçirilir:

- ərazinin abadlaşdırılması;
- təbii-rekreasiya sərvətlərin yenidən öyrənilməsi;
- sərhədlərin qoyulması və istehlak rejimi layihəsinin işlənilməsi;
-ərazidə sərvətlərin müəyyən olunması və vəziyyəti üzərində müşahidənin təşkili;

Turizmin ərazi təşkili zamanı bu əraziyə aşağıdakılar aid olmalıdır:

- bir və ya bir neçə unikal təbii-müalijəvi sərvətlərə malik olmalıdır;
- bu sərvətlərin lazımi ehtiyatına malik olmalıdır;
- kurort tikintisi üçün geniş və münasib sahəyə malik olmalıdır;
- ekoloji və sanitar-epidemioloji normalara uyğun gəlməlidir;
- digər texniki təjhizat mənbələrinə malik olmalıdır.

Daha sonra təbii-rekreasiya zonasının fəaliyyətdə olan zonaya çevrilməsi prosesi gedir. Məhz bu mərhələdə investorların maraqları reallaşır. Bura aşağıdakı mərhələlər daxildir:

1. Ərazinin planlaşdırılması və sanatoriya-kurort sahəsinin inkişafı nəzərə alınmaqla, turist-rekreasiya və kurort kompleksinin baş planı hazırlanır.

2. Cəlb olunan investisiyalar, büdjə, qeyri-büdcə vəsaitləri hesabına istirahət müəssisəsi və obyektlərinin iş layihəsi və tikintisi başlanır.

3. Ərazinin əhəmiyyətli turist-kurort zonası kimi tanınması haqqında sənədlər hazırlanır:

- fəaliyyətdə olan turist-kurort obyektlərinin siyahısı;
- təbii-müalicə sərvətlərinin vəziyyəti haqqında balneoloji və onların ehtiyatları haqqında ekspert nətijələri;
- təbii müalijəvi və başqa təbii sərvətlərin, ərazinin vəziyyəti haqqında dövlət ekoloji və sanitar-epidemioloci tədqiqatların nəticələri.

Ölkəmizdə turizm xidməti üçün çox əlverişli şərait var. Bu ondan irəli gəlir ki, respublikamızın hər cür təbii iqlim, landşaft şəraiti, iqtisadi imkanları və turizm obyektləri mövcuddur.

Turizmin inkişaf etdirilməsi əhalinin həyat səviyyəsinin yüksəldilməsində və xarici iqtisadi əlaqələrin möhkəmlənməsində də mühüm rol oynayır. Ölkəmizdə mineral suların, müalicə nefti və palçığın olması kurort yerlərinin əhəmiyyətini artırmaqla yanaşı, buraya turist axınını da gücləndirir. Xəzər dənizi sahilləri, Quba-Xaçmaz, Lənkəran-Astara, Şəki-Zaqatala, Gəncə-Qazax iqtisadi rayonları turizmin inkişaf etdirilməsi üçün çox yararlıdır. Məhz bu zonalara turist axını daha çoxdur. Bundan əlavə, müxtəlif arxeoloji, tarixi-memarlıq abidələri, incəsənət obyektləri də xarici turistləri cəlb edir.

Ölkəmizdəki turistlərin əksəriyyətini Avropa ölkələrindən, qonşu dövlətlərdən və ABŞ-dan gələnlər təşkil edir.

Azərbaycanda turizmin inkişaf etdirilməsi üçün geniş imkanlar yaradılır və turistlərə xidmət yüksək səviyyədə təşkil olunur.

Turizmin inkişafı üçün yeni Dövlət Proqramı hazırlanır. Bu proqramda turizm üçün lazımi infrastrukturun yaradılması, mövcud infrastrukturun inkişafı, turizmin müxtəlif sahələrinin genişləndirilməsi nəzərdə tutulur.

Ötən il ölkəmizdə turistlərin sayı 1.177 277 nəfər olmuşdur ki, bunlardan 865-i daxili, 255 xarici turistlərdir. Onların sayı ilbəil çoxalmaqda davam edir.

BAZAR MÜNASİBƏTLƏRİ ŞƏRAİTİNDƏ KİÇİK VƏ ORTA SAHİBKARLIĞIN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİNİN HÜQUQİ TƏMİNATININ TƏKMİNLƏŞDİRİLMƏSİ MƏSƏLƏSİ

Əlizadə Ş.M.
Azərbaycan Dövlət İqtisad Universiteti

Ölkə iqtisadiyyatı, xüsusilə son illər ərzində sürətlə böyüyən neft sənayesi hesabına, inkişaf etmişdir ki, bu da öz növbəsində kiçik və orta sahibkarlıq sahəsində fəaliyyət göstərn müəssisələrin sayının da artımına təkan vermişdir.Lakin kiçik və orta sahibkarlığın say artımı bu sahibkarlıq sektorunun ÜDM-ə tövhəsini əks etdirmir. Neft sektorunun artımı nəticəsində qeyri-neft sektorunun da inkişafı, ümumi iqtisadi sıçrayışın fonunda demək olar ki, avtomatik şəkildə baş vermişdir. Son meyllər qeyri-neft sektorunun artımının zəiflədiyini, yəni nisbət baxımından neft sektoru ilə müqaysədə kiçildiyini göstərir.

Azərbaycanda kiçik və orta sahibkarlıq müəssisələri 2 qrupa bölünür:

1.fərdi sahibkarlar- yəni, hüquqi şəxs yaratmadan müəssisənin yeganə sahibi.

2.kiçik və orta müəssisələr- yəni, hüquqi şəxslər.

Fərdi sahibkarlar birmənalıolaraq hüquqi baxımdan kiçik müəssisələr hesab olunurlar, hüquqi şəxs kimi qeydiyyata alınanlar isəiki göstəriciyə işçilərin sayı və illik dövriyyəyə əsassən təsnif olunurlar.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin kiçik sahibkarlıq subyektlərinin fəaliyyət növünə görə təsnifləşdirilməsi haqqında 20 aprel 2004-cü il 57 saylı sərəncamına görə "kiçik biznes" sektorlar üzrə aşağıdakı kimi təyin olunur:

- tikinti və sənaye sahələrində- işçilərin sayı 40 nəfərdə və illik dövriyyə 200000 AZN-dən azdırsa
- kənd təsərrüfatı- işçilərin sayı 15 nəfərdən və illik dövriyyə 100 000 AZN-dən azdırsa
- topdansatış ticarəti- işçilərin sayı 10 nəfərdən və illik dövriyyə 300 000 AZN-dən azdırsa
- digər sahələr- işçilərin sayı 5 nəfərdən və illik dövriyyə 100 000 AZN-dən azdırsa.

Kiçik və orta sahibkarlıq məssisələrinin böyüməsi ölkənin iqtisadiyyatı üçün əhəmiyyətinin artmasından xəbər verir. Bu, qeydiyyata alınan müəssisələrin sayının artması, xüsusilə də burada çalışan işçilərin sayının artması ilə xarakterizə olunur.Bununla belə sahibkarlıq icmasında əmək qüvvəsinin 90 %i fərdi sahibkarlıq subyektləri nin payına düşməkdədir.

Kiçik və orta sahibkarlıq məssisələrinin böyüməsi ölkənin iqtisadiyyatı üçün əhəmiyyətinin artmasından xəbər verir. Bu, qeydiyyata alınan müəssisələrin sayının artması, xüsusilə də burada çalışan işçilərin sayının artması ilə xarakterizə olunur.Bununla belə sahibkarlıq icmasında əmək qüvvəsinin 90 %i fərdi sahibkarlıq subyektləri nin payına düşməkdədir.

Eyni zamanda hər min nəfər əhaliyə düşən kiçik və orta müəssisələrin sayı bu sahədə artım potensialının olduğunu göstərir ki, bu da ÜDM-ə və sənaye istehsalının artımına ciddi tövhə verə bilər.

Fərdi sahibkarlar hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxsdir və qeyri məhdud məsuliyyətə malikdir.

Fərdi sahibkarlar müəssisələrin və işçilərin sayı baxımından kiçik və orta sahibkarlıq müəssisələri sektorunun əksər hissəsini təşkil edir. Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, yerli sahibkarların 93%i fərdi sahibkarlar kimi qeydiyyta alınmışdır.

Ölkənin ümumi iqtisadiyyatı inkişaf etdikcə sahibkarların gəlirləri də artır. Əgər gəlir artırsa bu bir tərəfdən istehlakçı gəlirini artırır, digər tərəfdən fərdi və kiçik sahibkarlıq üçün maliyyə bazasını formalaşdırır ki, bu da yenə öz növbəsində istehlakçıların artan ehtiyacını ödəməyə yönəlir.

Fərdi sahibkarlar əsasən minimal investisiya ilə tez gəlir gətirən sahələrdə, xüsusilə ticarət sahələrində cəmləşmişdir.Fərdi sahibkarların yalnız kiçik hissəsi yüksək ilkin investisiyalar tələb edən və nisbətən uzun müddətdən sonra gəlir verməyə başlayan istehsal fəaliyyəti ilə məşğul olurlar.Fərdi sahibkarlar orta hesabla tam və ya yarımştatlı 3 işçiyə malikdir və onlara orta hesabla ayda 185$ əməkhaqqı ödəyirlər.

Kiçik müəssisə Nazirlər Kabinetinin kiçik və orta müəssisələrin tərifini müəyyənləşdirən sərəncamında göstərilmişmeyarlara uyğun gələn hüquqi şəxsin nəzarətində olan müəssisədir.2006-cı ilin əvvəlində ölkədə təxminən 12 000 kiçik müəssisə qeydə alınmışdır ki, bu da ümumi kiçik və orta sahibkarlıq sektorunda fəaliyyətgöstərən müəssisələrin 6,6%ni təşkil edirdi. 2005-2006-cı illər arasında illik artım göstəricisi 2% olmuşdur. Bu artım göstəricisi ümumilikdə sektorun orta artım göstəricisindən aşağıdır və bu göstərir ki, sahibkarların daha azhissəsi hüquqi şəxs kimi qeydiyyata alınmağa üstünlük verir.

Fərdi sahibkarlarda olduğu kimi kiçik müəssisələr də əsasən iri şəhərlərdəcəmləşirlər. Belə ki, Bakı, Sumqayıt və Gəncədə kiçik müəssisələrin ümumi sayı ölkədəki kiçik müəssisələrin 56%ni təşkil edir(Sumqayıt Aran zonasına, Gəncə isə Gəncə-Qazax zonasına aid edilmişdir).

Fərdi sahibkarlardan fərqli olaraq hüquqi şəxslər daha geniş çeşidli iqtisadi fəaliyyətlə məşğul olurlr.Belə ki, fərdi sahibkarların 69%i ticarətlə məşğulolduğu halda, hüquqi şəxslərin yalnız 28%i iqtisadiyyatın bu sahəsinə yönəlmişlər.

Kiçik və orta sahibkarlıq fəaliyyətinin artımının ölçülməsi üçün vacib göstəricilərdən biri sahibkarların öz bizneslərinə qoyduqları investisiyaların həcmi və mənbələridir. Araşdırma göstərir ki, yerli sahibkarlar öz bizneslərini genişləndirmək üçün nadir hallarda investisiya qoyuluşuna gedirlər.Belə ki, 2007-ci ildə sahibkarların yalnız 28%i öz müəssisələrinə investisiya qoymuşlar.

Bu investisiyaların böyük hissəsi sahibkarların şəxsi vəsaitləri hesabına maliyyələşdirilir. Sahibkarların yalnız kiçik hissəsi investisiyalar üçün maliyyə yardımı almaq məqsədilə maliyyə təşkilatlarına müraciət edirlər.

Bakıda fəaliyyət göstərən sahibkarların yarıdan çoxu, regionlarda isə sahibkarların yalnız 26%i kommersiya məqsədi üçün binanı icarəyə götürür.Sahibkarların bildirdiyinə görə, müəssisələrin təxminən

60%i icarəyə götürülmüş binalarda yerləşir.Bakı şəhərində icarə haqqı müəssisənin mənfətinin 30-40%i təşkil edir.Paytaxtın mərkəzinə yaxın və fəal küçələrdə, küçüyə birbaşa çıxışı olan binaların icarəçiləri və icarə obyektinin profili bəzən ildə bir neçə dəfə dəyişir.Bu onunla izah olunur ki, sahibkarlrın mənfəət və gəliri bir çox halarda yüksək icarə haqqını ödəmək üçün kifyət etmir.Buna görə də, ən azından yüksək icarə xərclərini ödəmək iqtidarında olan sahibkarlar, fəaliyyətlərində investisiya ehtiyaclarını daha arxa plana keçirilməli olurlar.

Azərbaycanda müasir milli sahibkarlığın inkişafı bilavasitə 1993-cü ilin ortalarından başlanılmışdır. Azərbaycanda ardıcıl keçirilən islahatlar nəticəsində bütün istiqamətlərdə olduğu kimi sosial-iqtisadi sahədə də uğurlu nəticə əldə edilmiş, sahibkarlığın inkişafı istiqamətində də bir sıra önəmli addımlar atılmış, bu da sağlam biznes mühitinin daha da əlverişli olmasına şərait yaratmışdır.

REGİONLARIN DAVAMLI İNKİŞAFININ TƏDQİQİNİN NƏZƏRİ ƏSASLARI

Əliyeva A.M.
Azərbaycan Dövlət İqtisad Universiteti

Dünya iqtisadiyyatında mövcud vəziyyət və bir çox ölkələrdə olan iqtisadi böhran müasir iqtisadi sistemlərdə əsas prioritetlərin və inkişaf istiqamətlərinin yenidən baxılmasını zərurətə çevirir. Belə ki, 1950-60-cı illərdə bir çox nəzəriyyəçilər inkişaf prosesinə hər bir ölkənin keçməli olduğu iqtisadi artımın ardıcıl mərhələsi kimi baxırdılar. Bu nəzəriyyəyə əsasən üçüncü dərəcəli ölkələr inkişaf etmiş ölkələrin tarixi inkişaf təkamülünü təkrar etmələri üçün yalnız investisiya, yığım və xarici ölkələrin dəstəyinin zəruri olan kombinasiyasını tapmalı idilər. İnkişafa, belə halda ancaq iqtisadi artımın yüksək tempinin sinonimi kimi baxılırdı. Artıq 70-ci illərdə iqtisadi artımla bağlı iqtisadi ideya iki istiqamətdə inkişaf etməyə başladı. Birinci istiqamətdə struktur dəyişiklərinin təhlili nəticəsində iqtisadi artıma və inkişafa nail olma əsas kimi götürülürdü. Hər bir inkişaf edən ölkə öncə iqtisadi nəzəriyyə və statistikanın vəhdəti əsasında qabaqcadan seçilmiş struktur təkamülə məruz qalmalı idi. Ikinci istiqamət daha radikal olan və siyasi xarakterli xarici asılılıq nəzəriyyəsi üzərində qurulmuşdu. Bu nəzəriyyə iqtisadiyyatda struktur və institusional disproporsiyaların, ölkə daxili və beynəlxalq aləmə görə qüvvələr nisbətinin az inkişaf etməsi fenomeninə diqqət yetirir. Asılılıq nəzəriyyəsinin tərəfdarları iqtisadi inkişafa təsiri olan daxili və xarici institutsional maneələri, yoxsulluqla mübarizədə, yeni iş yerlərinin açılmasında və gəlirlərdə olan bərabərsizliyin azaldılması istiqamətində yeni siyasi kursun qəbulunu qeyd edirlər. 1980-cı illərin əvvəllərində dövdüncü yanaşma – neoklassik yanaşma, azad bazarların pozitiv rolunu qeyd edərək iqtisadi inkişafa nail olmanın iqtisadiyyatın açıqlığı, ziyanla işləyən dövlət müəssisələrinin özəlləşdirilməsi və iqtisadiyyata dövlət müdaxiləsinin azaldılması üzərində quruldu. Nəhayət, 1980-cı illərin sonu və 90-cı illərin əvvəllərində neoklassiklər və institutsionalistlər artımla bağlı yeni bir nəzəriyyənin üzərində işləyərək bir çox ölkələrin nə səbəbdən daha az zamanda və sürətlə inkişaf etməsi, digərlərinin staqnasiya etməsi və hətta azad bazarda dövlətin iqtisadi inkişafda nə kimi əsas rol oynaya bilməsi suallarna cavab axtarmağa başladılar. Onların fikrincə iqtisadi artımın nə qədər müsbət xüsusiyyətləri olsa da onun ziddiyyət təşkil etdiyi sahələr də var. Belə ki, hər bir dövlət siyasətinin başlıca məqsədi insanları yüksək həyat səviyyəsilə təmin etməkdir və bura təkcə sosial – iqtisadi təminat deyil, eyni zamanda ətraf mühit və insanların səhhətinə mənfi təsir edən amillərdən qorunma təminatı da daxildir. Artıq bu problem konkret ölkə səviyyəsindən çıxaraq qlobal xarakter almış və ekoloji siyasət bütün ölkələrin iqtisadi siyasətlərinin tərkib hissəsinə çevrilmiş, makroiqtisadi modellərin hazırlanmasında isə ekoloji amillər, cəmiyyətlə ətraf mühitin qarşılıqlı münasibəti nəzərə alınmağa başlanmışdır. İqtisadi artım ekoloji problemi daha da kəskinləşdirir və maddi istehsalın intensivləşməsi prosesi ətraf mühitə təsirin artmasına gətirib çıxarır. Bu isə öz növbəsində ekoloji tarazlığın istər lokal - regional, istərsə də qlobal səviyyədə pozulmasına səbəb olur. Bütün bunlardan belə nəticəyə gəlmək olar ki, iqtisadi artım modelinin tam təhlili ekoloji amilin nəzərə alınması şərtilə həyata keçirilməlidir.Məhz bu yanaşma - iqtisadiyyatın davamlı inkişaf konsepsiyası sosial-iqtisadi inkişafın prinsipial yeni modeli olmaqla sosial ədalət anlayışının daha da genişləndirilmiş formasını ifadə edir.

Hər bir inkişaf edən sistem üçün onun tərkib elementlərinin sistemin dayanıqlılığına təsir etmə dərəcəsi vacib amillərdən biridir. Bir çox iqtisadçılar tərəfindən ayrılıqda sistemin elementi kimi götürülən ölkədaxili regionun davamlı inkişaf etməsi ayrılıqda yüksək əhəmiyyətli bir proses kimi qəbul edilmir. Əlbəttə, hər bir elementin yaranması və məhvi tarixi, təbii prosesdir. Lakin qeyd etməliyik ki,

regionun iqtisadi, sosial və ekoloji vəziyyəti bütünlükdə sistemin inkişafında yüksək dərəcəli rola malik ola bilər.

Hal-hazırda davamlı inkişafın təhlili zamanı alimlər tərəfindən zəif və güclü davamlı inkişaf anlayışları istifadə olunur. Güclü davamlı inkişaf tərəfdarları iqtisadiyyatın inkişafında daha kəskin mövqeni tutaraq davamlılıq altında dövlətin birbaşa tənzimləməsinin üstünlük təşkil etməsini, stabilləşməni, bəzi hallarda iqtisadiyatın miqyasının azaldılmasını (artımın sıfır səviyyəsini), tələbin kəskin məhdudlaşdırılmasını və s. nəzərdə tuturlar. Zəif davamlı inkişaf tərəfdarları isə ekoloji amillərin nəzərə alınması ilə modifikasiya edilmiş iqtisadi artıma üstünlük verirlər. Fərqlərinin olmasına baxmayaraq hər iki yanaşma texnogen inkişaf konsepsiyasına əks müqabil bir mövqeni ifadə edir.

Eyni zamanda davamlı inkişaf konsepsiyasının qlobal, milli, lokal və fərdi səviyyələrini fərqləndirirlər. Qeyd etməliyik ki, belə fərqləndirmənin olmasına baxmayaraq bu səviyyələr bir–biri ilə sıx əlaqəli olub biri digərindən törəyəndir. Qlobal davamlı inkişaf dünya təsərrüfat əlaqələrini, milli – konkret ölkənin səviyyəsini, lokal isə ayrılıqda götürülmüş regionun və təsərrüfat subyektinin davamlı inkişaf səviyyəsini əks etdirir. Davamlı iqtısadi inkışafın qlobal məqsədi – cəmiyyətin maksımum rifah halının təmin olunmasıdır. Lakin bu məqsədin dəqiq meyar ifadəsi yoxdur. Ona görə qlobal məqsəddən əlavə lokal səviyyədə mühüm olan əsas məqsədlər qrupu mövcuddur ki, bunlara da sosial istiqamətli cəmiyyətdə hüquqi qayda-qanun və cəmiyyətin azad inkışafı, o cümlədən xarıci və daxıli təhlükəsizlik, iqtisadiyyatın sabit inkişafına nail olmaq, tam məşğulluğa nail olmaq, həmçinin qiymətlərin sabitliyinin təmini və s. aiddir.

Son dövrlər məhz lokal səviyyələrdə, başqa sözlə regional davamlı inkişafa diqqət artmaqdadır və bunun izahı iqtisadiyyatın inkişafında müsbət nəticələr əldə etmək üçün tarazlıq vəziyyətinin əldə edilməsi ilə bağlıdır. Milli iqtisadiyyatın məqsədi iqtisadiyyatın balanslaşdırılmış, bərabər səviyyədə inkişafına nail olmaqdır. Bazar iqtisadiyyatlı ölkələrdə dövlət coğrafi şərtlərinə, həyat səviyyəsi və şəraitinə, iqtisadi inkişaf tempinə, məşğulluq və işsizlik səviyyəsinə, sahibkarlıq, investisiya mühitinə və s. görə biri-birindən fərqlənən regionlar arasında mövcud bərabərsizliyin minimuma endirilməsi üçün sosial-iqtisadi fəaliyyətin bölgüsü və proposiyanın, rifah və resursların dəyişilməsi üzrə davamlı regional inkişaf siyasətini həyata keçirir. Dövlət bu məqsədi həyata keçirmək üçün ölkə ərazisində iqtisadiyyatdakı disproporsiyanın aradan qaldırılması yolu ilə iqtisadiyyatın bütün sahələrinin və ərazilərinin bərabər səviyyədə inkişaf etdirilməsinə çalışır. Bu baxımdan regionların davamlı inkişafa keçid probleminin konseptual əsaslarını formalaşdırarkən aşağıdakılar nəzərə alınır:

- Regionun iqtisadi inkişafının ölkənin strateji məqsədlərini müəyyən edən geosiyasi mövqeyi;
- Regionun bütün növ resurslarının parametrləri, onların regionun strateji inkişafının məqsədlərinə uyğunluğu;
- Iqtisadi, sosial və ekoloji fəaliyyətin tənzimlənməsində regionun hakimiyyət orqanlarının səlahiyyət dərəcəsi və onlar tərəfindən istifadə olunan tənzimləmə sisteminin parametrləri, strateji məqsədlərə nail olunma istiqamətləri;
- Regionun istehsal və sosial infrastrukturunun parametrləri və onların strateji məqsədlərə uyğunluğu.

Əgər regionun bütünlükdə təsərrüfatının və ya onun konkret sahələrinin böhran vəziyyətinin olmasına görə verilirsə, onda konkret sahə və təsərrüfatların, o cümlədən komplekslərin, infrastrukturunun cari vəziyyətinin təyini , daxili bazara istiqamətlənmiş və ixrac potensiallı sahələrinin böhrana qədər, böhranlı və adi vəziyyətlərdə inkişaf strategiyalarının və taktikalarının müəyyənləşdirirlməsinə baxılmalıdır.

Müasir şəraitdə regionun əhalisinin həyat səviyyəsi göstəricisi və sosial problemlərin depressiv olmasına görə təhlili əhalisinin gəliri, məşğulluq səviyyəsi çox aşağı olan regionlar, «milli münaqişələr zəminində qeyri-sabit» regionlar təyini əsasında aparılır.

Qeyd edək ki, belə bölgü regionların həm mövcud problemlərini, həm də gələcək davamlı inkişafının istiqamətlərini təyin etməyə imkan yaradır. Digər bir təsnifləşdirmə xüsusiyəti kimi regionların təbii-iqlim və geosiyasi mövqeyi baxımından bölünməsi çıxış edir ki, bu zaman regionlar ekstrimal şəraitli, yüksək texnogen təsirə məruz qalan regionlar, sərhədboyu və mərkəzdən uzaqda yerləşən regionlara bölünür. Nəzərə alsaq ki, regionların bu xüsusiyyəti dəyişməz qalır, onda məhz onların sosal-iqtisadi inkişafını əks etdirən bütün normativ-hüquqi sənədlərin qəbulu zamanı bu xüsusiyyətin birinci növbədə nəzərə alınması vacib hesab edilir.

AZƏRBAYCANDA REGİONAL İNKİŞAFIN TƏNZİMLƏNMƏSİNİN XARAKTERİK CƏHƏTLƏRİ VƏ ONUN TƏKMİLLƏŞDİRİLMƏSİNİN PRİORİTETLƏRİ

Mirzəyeva S.Ş.
Azərbaycan Dövlət İqtisad Universiteti

Regionlarda mövcud olan əmək ehtiyatlarından, təbii və iqtisadi potensialdan səmərəli istifadə etmək, iqtisadiyyatın qeyri-neft sektorunun inkişafını sürətləndirmək və aqrar sektorda islahatları dərinləşdirmək, əhalinin məşğulluğunu artırmaq, yoxsulluğun səviyyəsini azaltmaq, infrastrukturu yeniləşdirmək, əlverişli investisiya şəraiti, müasir tipli müəssisələr, yeni iş yerləri yaratmaq istiqamətində sistemli tədbirlərin həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 11 fevral tarixli Fərmanı ilə "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)" təsdiq edilmişdir. Eyni zamanda, Quba-Xaçmaz, Şəki-Zaqatala, Dağlıq Şirvan, Lənkəran, Aran, Gəncə-Qazax və Yuxarı Qarabağ iqtisadi rayonlarına daxil olan şəhər və rayonların sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə olaraq 17 sərəncam imzalanmışdır. Regionların sosial-iqtisadi inkişafı ilə yanaşı, Bakı şəhərinin ətraf qəsəbələrini abadlaşdırmaq, onların resurslarından daha səmərəli istifadəni təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 27 fevral tarixli 1338 nömrəli Sərəncamı ilə "Bakı şəhərinin qəsəbələrinin 2006-2007-ci illər üzrə sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair Tədbirlər Proqramı" təsdiq olunmuşdur. Bu Proqramda hər bir qəsəbə üzrə müxtəlif sahələri əhatə edən konkret tədbirlər müəyyən edilmişdir. Hər iki proqramda nəzərdə tutulmuş vəzifələrin yerinə yetirilməsi nəticəsində ölkədə qeyri-neft sektorunun davamlı inkişafı, yeni müəssisələrin və iş yerlərinin yaradılması, regionlarda, eləcə də ölkə paytaxtında kommunal xidmət və sosial infrastruktur təminatının həcminin və keyfiyyətinin yüksəldilməsi, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılması, əhalinin məşğulluq səviyyəsinin artırılması, yoxsulluğun azaldılması sahəsində əhəmiyyətli nailiyyətlər əldə olunmuşdur. Odur ki, "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)", eləcə də "Bakı şəhərinin qəsəbələrinin 2006-2007-ci illər üzrə sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair Tədbirlər Proqramı" çərçivəsində başlanmış işlərin davam etdirilməsi məqsədilə "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" hazırlanmışdır.

Dövlət Proqramının Tədbirlər Planı aşağıdakı bölmələr üzrə tərtib edilmişdir:

1. Ölkə əhəmiyyətli tədbirlər.
2. Bakı şəhərinin rayon və qəsəbələri üzrə tədbirlər.
3. Ölkənin iqtisadi rayonları üzrə tədbirlər:

3.1. Abşeron iqtisadi rayonu (Abşeron, Xızı rayonları, Sumqayıt şəhəri);

3.2. Aran iqtisadi rayonu (Ağcabədi, Ağdaş, Beyləqan, Bərdə, Biləsuvar, Göyçay, Hacıqabul, İmişli, Kürdəmir, Neftçala, Saatlı, Sabirabad, Salyan, Ucar, Zərdab rayonları, Şirvan, Mingəçevir, Yevlax şəhərləri);

3.3. Dağlıq Şirvan iqtisadi rayonu (Ağsu, İsmayıllı, Qobustan, Şamaxı rayonları);

3.4. Gəncə-Qazax iqtisadi rayonu (Ağstafa, Daşkəsən, Gədəbəy, Goranboy, Göygöl, Qazax, Samux, Şəmkir, Tovuz rayonları, Gəncə və Naftalan şəhərləri);

3.5. Quba-Xaçmaz iqtisadi rayonu (Dəvəçi, Xaçmaz, Quba, Qusar, Siyəzən rayonları);

3.6. Lənkəran iqtisadi rayonu (Astara, Cəlilabad, Lerik, Masallı, Yardımlı, Lənkəran rayonları);

3.7. Naxçıvan iqtisadi rayonu (Naxçıvan şəhəri, Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Kəngərli, Şərur rayonları);

3.8. Kəlbəcər-Laçın iqtisadi rayonu (Kəlbəcər, Laçın, Zəngilan, Qubadlı rayonları);

3.9. Şəki-Zaqatala iqtisadi rayonu (Balakən, Qax, Qəbələ, Oğuz, Zaqatala, Şəki rayonları);

3.10. Yuxarı Qarabağ iqtisadi rayonu (1) (Ağdam, Tərtər, Xocavənd, Xocalı, Şuşa, Cəbrayıl, Füzuli rayonları, Xankəndi şəhəri).

Dövlət Proqramının icraçıları müvafiq mərkəzi və yerli icra hakimiyyəti orqanlarıdır. Onun icrasının əlaqələndirilməsi Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi tərəfindən həyata keçirilir.

"Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın əsas məqsədi ölkədə qeyri-neft sektorunun inkişafının sürətləndirilməsinə, iqtisadiyyatın diversifikasiyasına, tarazlı regional və davamlı sosial-iqtisadi inkişafa, əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına nail olmaqdır.

Dövlət Proqramında müəyyən edilmiş məqsədə nail olmaq üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulur:

• ölkənin təbii və əmək potensialından səmərəli istifadə etməklə qeyri-neft sektorunun sürətli inkişafının təmin edilməsi;

• infrastruktur təminatının yaxşılaşdırılması istiqamətində tədbirlərin davam etdirilməsi;

• sahibkarlıq mühitinin yaxşılaşdırılması ilə bağlı məqsədyönlü tədbirlərin həyata keçirilməsi və sahibkarlığın inkişafının daha da sürətləndirilməsi;

• iqtisadiyyatın inkişafına investisiyaların cəlb olunması işinin davam etdirilməsi;

• ixracyönümlü məhsul istehsalının stimullaşdırılması;

• müasir tipli infrastruktur obyektlərinin yaradılması, mövcud obyektlərin beynəlxalq standartlara uyğunlaşdırılması;

• əhalinin kommunal xidmətlərlə təminatının yaxşılaşdırılması;

• əhalinin məşğulluq səviyyəsinin artırılması istiqamətində tədbirlərin davam etdirilməsi;

• yoxsulluğun səviyyəsinin azaldılması.

Makroiqtisadi sabitliyi nəzərə alaraq qarşıdakı illərdə bütövlükdə iqtisadiyyatın, o cümlədən regionlarda ayrı-ayrı sahələrin inkişafının başlıca şərtlərindən biri olan orta illik inflyasiya tempinin və milli valyutanın məzənnəsinin məqbul səviyyədə saxlanılması, vergi dərəcələrinin optimal həddə müəyyənləşdirilməsi, kənd təsərrüfatı məhsulları istehsalçılarına tətbiq edilən güzəştlərin müddətinin artırılması, yeni iş yerlərinin yaradılmasının stimullaşdırılması, gömrük dərəcələrinin optimal səviyyədə saxlanılması, xarici borcların səmərəli idarə olunması siyasəti davam etdiriləcəkdir. Valyuta gəlirlərinin artırılması, inflyasiya risklərinin azaldılması, monetar və büdcə-vergi siyasətinin koordinasiyasının gücləndirilməsi, dövlət xərclərinin artımının nəzarətdə saxlanılması və digər tədbirlər hesabına makroiqtisadi vəziyyətə, habelə qeyri-neft sektorunun inkişafına mənfi təsirlərin qarşısının alınması növbəti illərdə də iqtisadi siyasətin başlıca məsələləri hesab olunur. Ölkə iqtisadiyyatının dünya təsərrüfat sisteminə inteqrasiyasının sürətləndirilməsi məqsədilə gələcəkdə Azərbaycanın nüfuzlu beynəlxalq təşkilatlarla, iqtisadi birliklərlə əməkdaşlığının genişləndirilməsi üçün qanunvericiliyin, standartların beynəlxalq tələblərə, o cümlədən Ümumdünya Ticarət Təşkilatının (ÜTT) tələblərinə uyğunlaşdırılması prosesi sürətləndiriləcəkdir. Xarici iqtisadi siyasət istehsal olunmuş məhsulların ixracı üçün əlverişli şərait yaradılmasına, eyni zamanda, daxili bazarın haqsız rəqabətdən qorunmasına yönələcəkdir. Qarşıdakı illərdə özəlləşdirməyə açılmış müəssisələrdə şəffaf və səmərəli özəlləşdirmə prosesinin həyata keçirilməsi davam etdiriləcəkdir. Qeyri-neft sektorunda müəssisələrin investisiya fəaliyyətinin dəstəklənməsi istiqamətində məqsədyönlü işlər həyata keçiriləcək, müasir istehsal avadanlıqlarının idxalı təşviq ediləcəkdir.

Dövlət investisiya siyasəti regionlarda yeni iş yerlərinin yaradılmasına, infrastruktur obyektlərinin etibarlı istismarının təmin edilməsinə, insan kapitalının inkişafı və vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi kimi prioritetlərin həyata keçirilməsinə yönəldiləcəkdir. Məşğulluq siyasətinin mühüm istiqamətlərindən biri yeni iş yerlərinin yaradılmasını məhdudlaşdıran amillərin aradan qaldırılması və məşğulluq səviyyəsinin artırılmasını stimullaşdıran şəraitin yaradılmasıdır. Bu baxımdan sahibkarlığın, əsasən, kiçik və orta sahibkarlığın inkişafına yönəlmiş tədbirlər xüsusi əhəmiyyət kəsb edir. Qarşıdakı illərdə məşğulluq siyasətində əsas məqsəd əmək ehtiyatlarından daha dolğun istifadə etməklə əhalinin səmərəli məşğulluğunun təmin edilməsindən ibarət olacaqdır.

2009-2013-cü illərdə səhiyyə sahəsində həyata keçiriləcək tədbirlər əhalinin sağlamlığının qorunmasına, tibbi xidmətlərin keyfiyyətinin daha da yüksəldilməsinə, Azərbaycan Respublikasında müasir standartlara cavab verən səhiyyənin qurulmasına təminat verməlidir. Səhiyyə sahəsində dövlət siyasətinin başlıca məqsədi əhalinin sağlamlığının yaxşılaşdırılmasından, orta ömür müddətinin uzadılmasından, əhalinin bütün təbəqələrinin keyfiyyətli tibbi xidmətlə təmin edilməsindən ibarətdir. Son illər həyata keçirilən infrastruktur layihələrinin reallaşdırılmasında və əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması sahəsində bir sıra əhəmiyyətli tədbirlərin həyata keçirilməsində bələdiyyələrin fəal iştirakı müşahidə olunmuş, yerli təbii və əmək resurslarından səmərəli istifadə olunmasında onların iştirakını zəruri etmişdir. Qarşıdakı illərdə də əhalinin sosial problemlərinin həllində və bölgələrin inkişafında mühüm işlərin həyata keçirilməsində, o cümlədən yeni iqtisadi münasibətlərin formalaşması, sahibkarlığın inkişafı, təsərrüfatlararası keyfiyyətli və qarşılıqlı münasibətlərin yaranmasında yerli özünüidarəetmə orqanları fəal iştirak edəcəkdir. Dövlət Proqramında qeyd olunan istiqamətlərdə nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafında vacib mərhələ olmaqla ölkənin iqtisadi inkişafında və "2008-2015-ci illərdə Azərbaycan Respublikasında

yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı" çərçivəsində nəzərdə tutulan məqsədlərə nail olunmasında, eləcə də ölkə əhalisinin rifahının yaxşılaşdırılmasında mühüm rol oynayacaqdır.

ОРГАНИЗАЦИЯ УЧЕТА И ОТЧЕТНОСТИ НА ПРЕДПРИЯТИЯХ СФЕРЫ УСЛУГ

Эйвазов Э.М.
Азербайджанский государственный экономический университет

Сегодня в мировой экономической системе происходят многочисленные изменения. Причиной этому служат как структурные сдвиги, так и воздействия различных социальных факторов. Трансформация привела к тому, что в развитых странах ведущей экономической сферой является сфера услуг. Расширение потребления услуг является одним из самых значительных явлений экономической жизни начала XXI века. По данным Всемирной торговой организации (ВТО), доля услуг в мировом валовом продукте составляет более 60 %.

Для современного рынка услуг характерна не только тенденция роста, причем опережающего по сравнению с продукцией материального производства, но и нарастающей тенденцией диверсификации услуг. Последние десятилетия отмечены появлением новых видов услуг в сфере компьютерных информационных технологий и телекоммуникаций. В целом же рынок услуг характеризуется значительным удельным весом так называемых наукоемких услуг, требующих приложения специальных экономических, технических, инженерных и других знаний.

Деятельность по оказанию услуг простирается как на сферу удовлетворения социальных, бытовых, духовных человеческих потребностей, так и на сферу удовлетворения деловых потребностей организаций или даже политических, социальных и экономических потребностей отдельных государств и мирового сообщества в целом.

Масштабы и динамика развития сектора услуг, его роль в хозяйственном организме и социальной жизни общества естественным образом обусловили возрастание устойчивого интереса со стороны научного сообщества, делая сферу услуг приоритетным объектом изучения в экономических исследованиях. Это вполне объяснимо вышеотмеченными тенденциями, а также и тем обстоятельством, что современные экономические науки не накопили значительного объема знаний относительно специфического товара, именуемого услугой. Торговый оборот как материальных (осязаемых) товаров, так и услуг имеет многотысячелетнюю историю. Однако, только в последние десятилетия исследованиям особенностей экономических отношений в сфере производства и реализации услуг стало уделяться адекватное внимание.

В экономике сфера услуг и сфера товарного производства являются органичными взаимодополняющими отраслями.

Сфера услуг представляет собой одну из важнейших областей общественной жизни и оказывает заметное влияние на все стороны нашей деятельности. В связи с этим сервисная деятельность играет определенную роль в материальном жизнеобеспечении людей, здесь осуществляются самые различные виды их духовной деятельности.

Сфера услуг - это, с одной стороны, круг сервисных услуг, оказываемых населению, с другой - совокупность организаций и индивидуальных исполнителей, которые в рамках сервисной деятельности оказывают материальные и социально-культурные услуги потребителям.

Цель сервисной деятельности - удовлетворение общественных и индивидуальных потребностей людей, а результат сервисной деятельности -повышение качества жизни городского и сельского населения.

Таким образом, в XXI веке сервис превратился в крупномасштабную сферу человеческой активности. Резко возросло значение секторов услуг в экономике практически всех стран - как развитых, так и развивающихся. В Азербайджане сервисная деятельность представлена в большом количестве видов различных услуг.

В настоящее время теоретические разработки и практические рекомендации по организации бухгалтерского учета, внешней и внутрифирменной финансовой отчетности, а также по ряду других проблем совершенствования учета не распространяются на сферу сервиса. При этом, очевидно, что деятельность предприятий сферы услуг имеет ряд особенностей, которые

отличают ее от других сфер и отраслей хозяйства и оказывают определенное влияние на организацию учетных систем на предприятии. К ним относятся: многоотраслевой характер оказываемых услуг, непосредственный контакт с потребителями услуг, индивидуальность заказов, их разнообразие и многочисленность, территориальная разобщенность производства и кассовых хозяйств.

Изложенные выше факты свидетельствуют о необходимости углубленных практических исследований, направленных на совершенствование методологии бухгалтерского учета в сфере услуг.

В связи с этим, становится необходимой разработка теоретических и методических положений по совершенствованию технологий бухгалтерского учета на предприятиях сферы услуг в условиях азербайджанской экономики. Для этого решаются следующие задачи:

- уточнить понятие и определить социально-экономическую сущность услуг;
- выявить особенности сферы услуг и раскрыть их влияние на организацию и ведения бухгалтерского учета на предприятиях сферы услуг;
- уточнить методические подходы к формированию учетной политики на основе факторов, учитывающих специфику предприятий сервиса;
- исследовать проблемы организации финансового, налогового и управленческого учета на предприятиях сферы услуг;
- разработать рекомендации по совершенствованию методики бухгалтерского учета на основе применения интегрированного плана счетов на предприятиях сферы услуг;
- разработать рекомендации по совершенствованию регистров бухгалтерского учета.

Для решения поставленных задач должны применяться общенаучные методы - анализ и синтез, индукция и дедукция, восхождение от абстрактного к конкретному, эксперимент и моделирование.

Научная новизна состоит в разработке теоретико-методологических и методических положений по организации бухгалтерского учета, направленных на совершенствование учетного обеспечения управления на предприятиях сферы услуг и имеющих существенное значение для повышения качества и обоснованности принятия управленческих решений.

Решение поставленных задач будет способствовать совершенствованию систем учета и внутреннего контроля предприятий сферы услуг, развитию и более широкому применению методов анализа хозяйственной деятельности в выработке и обосновании управленческих решений, повышению их эффективности, что, в конечном счете, должно оказать позитивное влияние на финансовые результаты, уровень риска и инвестиционную привлекательность данных хозяйствующих субъектов.

МЕТОДЫ РЕГУЛИРОВАНИЯ ДЕНЕЖНО-КРЕДИТНОГО ОБРАЩЕНИЯ

Шукюрова Г.А.
Азербайджанский государственный экономический университет

Денежно-кредитная политика представляет собой комплекс взаимосвязанных мероприятий, предпринимаемых Центральным банком в целях регулирования совокупного спроса путем планируемого воздействия на состояние кредита и денежного обращения. Основополагающей целью кредитно-денежной политики является помощь экономике в достижении общего уровня производства, характеризующейся полной занятостью и отсутствием инфляции. Кредитно-денежная политика состоит в изменении денежного предложения с целью стабилизации совокупного объема производства, занятости и уровня цен.

Осуществляя денежно-кредитную политику, Центральный банк, воздействуя на кредитную деятельность коммерческих банков и направляя регулирование на расширение или сокращение кредитования экономики, достигает стабильного развития внутренней экономики, укрепления денежного обращения, сбалансированности внутренних экономических процессов. Таким образом, воздействие на кредит позволяет достичь более глубоких стратегических задач развития всего хозяйства в целом. С помощью денежно-кредитного регулирования государство стремится смягчить экономические кризисы, сдержать рост инфляции, в целях поддержания конъюнктуры

государство использует кредит для стимулирования капиталовложений в различные отрасли экономики страны.

Методы денежно-кредитной политики — совокупность приемов и операций, посредством которых субъекты денежно-кредитной политики воздействуют на объекты для достижения поставленных целей.

Прямые методы — административные меры в форме различных директив Центрального Банка, касающихся объема денежного предложения и цены на финансовом рынке. Лимиты роста кредитования или привлечения депозитов служат примерами количественного контроля. Реализация этих методов даёт наиболее быстрый экономический эффект с точки зрения центрального банка за максимальным объёмом или ценой депозитов и кредитов, за количественными и качественными переменными денежно-кредитной политики.

Косвенные методы регулирования денежно-кредитной политики воздействуют на мотивацию поведения хозяйствующих субъектов при помощи рыночных механизмов, имеют большой временной лаг, последствия их применения менее предсказуемы, чем при использовании прямых методов.

Так же различают общие и селективные методы:

Общие методы являются преимущественно косвенными, оказывающими влияние на денежный рынок в целом.

Селективные методы регулируют конкретные виды кредита и носят в основном директивный характер. Благодаря этим методам решаются частные задачи, как ограничение выдачи ссуды некоторым банкам, рефинансирование на льготных условиях.

Основными методами денежно-кредитного обращения также являются:

- процентные ставки по операциям ЦБ;
- нормативы обязательных резервов;
- операции на открытом рынке;
- рефинансирование банков;
- депозитные операции;
- валютное регулирование;
- установление ориентиров роста денежной массы;
- прямые количественные ограничения.

1. Процентные ставки по операциям ЦБ. ЦБ может устанавливать одну или несколько процентных ставок по различным видам операций. Это ставки рефинансирования, ставки по депозитным операциям, ломбардные ставки, ставки "репо" и др. Процентные ставки ЦБ – это минимальные ставки, по которым он осуществляет свои операции. Значение этого инструмента состоит в следующем:

- регулируя уровень процентных ставок по своим операциям, ЦБ влияет на величину денежной массы через управление депозитной базой коммерческих банков, их спросом на кредит;
- официальная процентная ставка оказывает косвенное влияние на рыночные процентные ставки, устанавливаемые коммерческими банками самостоятельно в соответствии с рынком кредитных ресурсов. При этом официальная процентная ставка может отклоняться от рыночной в ту или иную сторону.

2. Нормативы обязательных резервов- это беспроцентные обязательные вклады кредитных организаций в ЦБ. Размер обязательных резервов устанавливается Советом директоров в процентах к обязательствам кредитных организаций. Эти резервы используются при отзыве лицензии для погашения обязательств кредитной организации перед вкладчиками и кредиторами. Резервы используются при отзыве лицензии для погашения обязательств кредитной организации перед вкладчиками и кредиторами. Однако основное назначение нормативов обязательных резервов - регулирование денежного обращения.

3. Операции на открытом рынке. Эти операции представляют собой куплю-продажу ЦБ государственных ценных бумаг, облигаций ЦБ и краткосрочные операции с указанными ценными бумагами с совершением затем обратной сделки. Механизм операций на открытом рынке несложен, что делает его привлекательным для использования. Так, в случае покупки Центральным банком ценных бумаг объем резервов банков увеличивается на эту сумму. Более того, денежная масса увеличится в несколько раз относительно суммы покупки центральным

банком. Покупка ценных бумаг означает выпуск денег в обращение, продажа бумаг – изъятие денег из обращения. Это наиболее мощный и эффективный метод регулирования денежного обращения, который чаще других методов используется в мировой практике.

4. Рефинансирование банков. Это кредитование ЦБ коммерческих банков, в том числе, учет и переучет векселей. ЦБ устанавливает процентную ставку рефинансирования. Увеличение этой ставки приводит к удорожанию кредитов и уменьшению массы денег в обращении, снижение ставки — к удешевлению кредитов и росту массы денег. Система рефинансирования коммерческих банков по своим функциональным задачам выходит за пределы сугубо прагматических целей денежно-кредитной политики и выступает одним из факторов стимулирования наращивания кредитного потенциала банковской системы. Несмотря на поступательное развитие банковского сектора, его роль в развитии реального сектора экономики остается недостаточной.

5.Депозитные операции. Это операции по привлечению в депозиты (вклады) средств банков. Они позволяют ЦБ привлекать временно свободные денежные средства банков и тем самым нейтрализовать их возможное давление на валютный рынок. Для проведения этих операций используются следующие механизмы:

- проведение депозитных аукционов;
- проведение депозитных операций по фиксированной ставке процента;
- прием на депозит средств банков на основе отдельного соглашения, определяющего условия депозита.

6. Метод валютной интервенции. Под этим методом понимается купля-продажа ЦБ иностранной валюты на валютном рынке для воздействия на курс, суммарный спрос и предложение валюты.

7. Установление ориентиров роста денежной массы ЦБ устанавливает минимальные и максимальные границы прироста денежной массы на контрольный срок. Таргетирование — это применение доступного спектра экономической политики для ответственного достижения количественных ориентиров целевой переменной. Предметом таргетирования могут выступать валютные курсы, темпы инфляции, денежные агрегаты. Таргетирование денежной массы в настоящее время основано на определении целевых параметров агрегата М2. Этот показатель служит монетарным индикатором, который с определенным краткосрочным временным лагом оказывает влияние на инфляцию.

8. Прямые количественные ограничения. Это установление лимитов на рефинансирование банков, проведение кредитными организациями отдельных банковских операция. В качестве примера могут служить ограничения на проведение валютных операций, которые могут проводить только уполномоченные банки, получившие от ЦБ лицензию на проведение таких операций.

ГОСУДАРСТВЕННЫЙ ФИНАНСОВЫЙ КОНТРОЛЬ И ЕГО РОЛЬ В ПОВЫШЕНИИ ЭФФЕКТИВНОСТИ ФИНАНСОВОЙ СИСТЕМЫ

Аллахвердиев А.Н.
Азербайджанский государственный экономический университет

Государственный финансовый контроль — это установленная законодательством деятельность органов государственной власти и управления всех уровней повыявлению, предупреждению и пресечению:

- ошибок и злоупотреблений в управлении государственными денежными и иными материальными ресурсами, а также используемыми в хозяйственной деятельности и отчуждаемыми нематериальными объектами государственной собственности, влекущих прямой или косвенный финансовый и материальный ущерб государству;
- несоблюдения финансово-хозяйственного, в том числе бюджетного законодательства;
- недостатков в организации систем управления финансово-хозяйственной деятельностью государственных органов, организаций с полным или частичным государственным участием или особо с ним связанных.

Цель государственного финансового контроля — обеспечение соблюдения принципов законности, целесообразности и эффективности распорядительных и исполнительных действий по управлению — включая стадии планирования, формирования, распределения и использования — государственными финансовыми ресурсами, материальными ценностями и нематериальными объектами, их сохранности и приумножения для выполнения функций государства.

Предметом государственного финансового контроля являются средства консолидированного государственного бюджета как на этапе их формирования, так и

на этапах распределения и использования.

Существуют следующие формы государственного финансового контроля:

Предварительный – осуществляется на стадии составления, рассмотрения, утверждения проектов бюджетов, финансовых планов и программ, смет поступлений и расходов, проектов законодательных актов, балансов финансовых ресурсов территорий и т.д.

Текущий – осуществляется в процессе совершения производственных, хозяйственных и финансовых операций, исполнения бюджета, смет доходов и расходов бюджетных учреждений с целью предупреждения и выявления нарушений финансовой дисциплины, соблюдения финансовых норм и нормативов, требований бухгалтерского учета и отчетности.

Последующий – проводится по окончании финансового года или отчетного периода. В ходе его проверяется количественное и качественное выполнение намеченных показателей по каждому виду доходов и расходов, по налоговым и неналоговым поступлениям в бюджеты разных уровней и расходованию бюджетных средств, исполнение внебюджетных фондов и финансовых планов предприятий, организаций, смет бюджетных учреждений.

Для осуществления контроля могут использоваться различные методы, к числу которых относятся:

а) проверки, которые подразделяются на документальные и камеральные.

Документальные проверки проводятся непосредственно на предприятии или в организации. При этом изучаются сметы расходов, бухгалтерская и статистическая отчетность, расчеты с бюджетом по налогам и другим обязательным платежам, иные финансовые документы. Особенностью камеральных проверок является то, что они не связаны с посещением проверяемых организаций. Такие проверки проводятся по месту нахождения контрольного органа на основе документов, предоставленных предприятиями и организациями, а также иных сведений, имеющихся в его распоряжении;

б) обследование. Основано на личном ознакомление проверяющего с отдельными сторонами деятельности предприятий и организаций по месту их нахождения. При этом могут не только изучаться финансовые документы, но и проводиться наблюдение, опрос сотрудников, контрольные замеры, обследование помещений, используемых для осуществления хозяйственной деятельности, и др.;

в) экономический анализ, который предполагает анализ исполнения доходной и расходной части бюджета, а также смет бюджетополучателей. Он позволяет выявить проблемы и противоречия бюджетного процесса, пути повышения его эффективности.

г) ревизия. Это наиболее распространенный метод бюджетного контроля. Ревизия – это комплекс взаимосвязанных проверок финансово-хозяйственной деятельности предприятий, учреждений, организаций. Проверкой может быть также охвачена работа финансовых органов по составлению и исполнению бюджета.

Эффективность финансового контроля — сложная экономическая категория. Она характеризуется определенными критериями и показателями. Обычно, когда рассматривают вопрос об эффективности управленческой деятельности, прежде всего имеют в виду адекватность достигнутых в процессе ее осуществления результатов намеченным целям, степень приближения результата к цели с одновременным учетом производственных затрат. С учетом этого положения критерием эффективности финансового контроля будет соотношение достигнутого контролирующим органом результата к поставленной цели. В широком смысле такими целями для государственного финансового контроля будут:

- рост темпов развития экономики, обеспечение стабильности финансовой системы,
- увеличение доходной части бюджета и экономия средств в его расходной части.

Конечный результат, т. е. совокупность объективных последствий финансового

контроля, — это главный критерий определения его эффективности. Получение данных о таком результате требует знания конкретного содержания деятельности контролирующего органа, реакции на его действия субъекта контроля, изменений, происходящих под влиянием контроля в управленческой деятельности. Однако результаты финансового контроля будут неточными, если не учитывать сопровождающие проведение контроля затраты: длительность проверок, число участвующих в проверках лиц, различного рода расходы при выезде на место и т. п. Затраты на проведение контроля могут быть большими или меньшими и должны соизмеряться с его результатами. В этой связи одним из критериев эффективности финансового контроля является его экономичность.

Финансовый контроль необходимо рассматривать в финансовой системе как элемент, обеспечивающий процесс самосовершенствования, так как контроль позволяет выявлять возникшие проблемы и искать пути их устранения. Очевидно, что вероятность принятия правильного решения прямо пропорциональна наличию достоверной информации о проблеме и правильной диагностике. Финансовый контроль может служить эффективным источником информации для совершенствования финансовых норм, так как результаты контроля являются своеобразной оценкой нормы в правоприменительном процессе. Все это улучшает нормативную базу в области финансов, что может служить обеспечением стабильного функционирования финансовой системы.

Финансовый контроль может быть эффективным в том случае, если его организация, проведение, результаты и т.д. опираются на научные разработки, полученные в этой области. Для повышения качества финансового контроля необходимо также добиться высокой технико-технологической оснащенности его проведения и соответствующего класса специалистов.

Государство осуществляет финансовый контроль с помощью своих органов власти, обладающих соответствующими полномочиями. Исследование компетенции государственных органов в области финансового контроля позволит выявить проблемы, которые возникают в процессе их деятельности, причины и пути их решения. Таким образом, можно добиться совершенствования, повышения эффективности финансовой деятельности государства в целом и государственного финансового контроля в частности.

TƏŞKİLATİ İDARƏETMƏ STRUKTURUNUN QURULMASI PRİNSİPLƏRİ

Koroğluyeva Ü.H.
Azərbaycan Dövlət İqtisad Universiteti

Təşkilati strukturların ümumi prinsipləri ilə yanaşı onun qurulmasının konkret prinsipləri də vardır. Bu prinsiplər təşkilati strukturun qanunauyğunluğunu müəyyən etməklə, bəzi hallarda idarəetmə sisteminin səmərəli fəaliyyətini səciyyələndirən meyarlar sistemi kimi də özünü göstərir. Həmin prinsiplərlə struktur amilləri arasında üzvi əlaqə vardır. Təşkilatı strukturun prinsipləri müxtəlif formada təsnifləşdirilir. Ümumi halda bu prinsiplər aşağıdakı iki formada verilir:

- Təşkilati strukturun təşkilati mexanizminə - məqsəd, prinsiplər, metodlar, funksiyalar – uyğunluğu prinsipi;
- Təşkilati strukturun təşkilati obyektinin xarakteri və xüsusiyyətlərinə uyğunluğu prinsipi.

Bundan başqa təşkilati struktur prinsipləri sistemdaxili struktur baxımından daha da konkretləşdirilir. Təşkilati strukturun aşağıdakı prinsipləri səciyyələndirilir:

- Ənənəvi mövcud olan xətti – funksional prinsiplə proqram məqsədli prinsipin əlaqələndirilməsi;
- Struktur bölmələrinin məqsədlərinin bütövlükdə idarəetmə sistemlərinin son məqsədi ilə uyğuluğun və əlaqəsinin təmin edilməsi;
- Mərkəzləşdirilmiş, qeyri – mərkəzləşdirilmiş idarəetmə sisteminin əlaqələndirilməsi və səlahiyyətlərin bu sistemlər üzrə optimal bölüşdürülməsi
- Təşkilati məqsədlilik prinsipi.

Təşkilati struktur həmin sistemin ünsürlərin inteqrasiyasıdır və müəyyən məqsədlərlə bağlıdır. Ona görə də təşkilati strukturu təhlil edərkən aşağıdakılar nəzərə alınmalıdır:

- Təşkilati struktur quruluşun təşkilati obyektinin məqsəd və xüsusiyyətlərinə uyğunluğu;
- Təşkilati strukturda ierarxiya və funksional strukturun təhlili;

- Təşkilati struktur bölmələri arasında qarşılıqlı əlaqələrin təhlili.

Təşkilati strukturun qurulması prinsipləri A. Fayol tərəfindən aşağıdakı şəkildə verilmişdir:

- Təşkilati strukturda vəhdətlilik prinsipi – səlahiyyətlərin mərkəzləşdirilməsi və təmsilçilik dərəcəsindən asılı olmayaraq, müəssisənin fəaliyyətinə görə tam və mütləq məsuliyyəti bir şəxs çəkməlidir;
- Səlahiyyətlərin başqasına verilməsinin skalyar metodu – tam və mütləq məsuliyyət yalnız tək idarə etmək yox, həmçinin idarəetmə üzrə səlahiyyətlərin bir hissəsinin rəgbərlik xətti ilə başqa şəxslərə verilməsi deməkdir;
- Vahid tabeçilik prinsipi – hər bir işçinin yalnız bir rəhbəri ola bilər;
- Uyğunluq prinsipi – səlahiyyətlərin bölgüsü cavabdehlik səviyyəsinə uyğun olmalıdır. Əgər bir şəxsə müəyyən vəzifə həvalə edilibsə, onda bu vəzifələri yerinə yetirmək üçün ona uyğun səlahiyyətlər də verilməlidir;
- İdarəetmənin miqyası prinsipi– səmərəli idarəetmədə olan şəxslərin sayı limitləşməlidir, bu yerinə yetirilən işin xarakteri və bir sıra şəraitdən asılıdır;
- Kommunikasiyalar, rabitə sistemi – həm formal, həm də qeyri-formal rabitə əlaqələri yaranmalı və saxlanılmalıdır;
- Səmtləndirmə prinsipi – təşkilatlar onların üzərinə qoyulan məsələlərin xarakterinə uyğun qurulmalı və subyektiv amillərdən asılı olmamalıdırlar;
- Seçmə prinsipi – rəhbərlik yalnız plan çərçivəsindən kənara çıxan, müstəsna olan, daha doğrusu, biznesi aparmaq üçün əlverişli və ya əlverişsiz olan məlumatları almalıdır. Ancaq bu qayda ilə istifadə üçün yararsız, artıq məlumatları seçmək mümkün olacaq;
- İşin differensiyası prinsipi– işlərin müxtəlif növləri, müxtəlif xarakteri var. Odur ki, təşkilat yaranan vaxt bunu nəzərə almaq lazımdır. Məsələn, yüksək iştisaslı fərdi əmək yarımixtisaslı təkrar olunan əməkdən fərqli olaraq əməliyyatlarda başqa şərait tələb edir;
- Mürəkkəb elementlərin xırda elementlərə ayrılması, ixtisaslaşdırma və standartlaşdırma prinsipi – bu üsullar xərcləri aşağı saldığına görə müəssisədə öz tətbiqini tapmalıdır;
- Əməliyyatın yerinə yetirilməsinə nəzarət prinsipi – bu funksiya bu məqsəd üçün dəqiq təyin olunan aparata həvalə edilməlidir. Müdriyyətin müəyyən hissəsi hər gün əməliyyatların müəyyən hissəsinin yerinə yetirilməsinə nəzarət etməlidir. İşə yaradıcı münasibət mükafatlandırılmalıdır;
- Planlaşma prinsipi – təşkilatın missiyasının həyata keçirilməsinə zəmin yaratmaq üçün nəzərdə tutulan spesifik strategiyaların işlənilməsi və reallaşdırılmasını təmin edən qərarların vəfəaliyyətlərin məcmusudur. Planlaşma həmişə işin yerinə yetirilməsini qabaqlamalıdır;
- Çeviklik prinsipi – Təşkilatın strukturu elə olmalıdır ki, kommersiya fəaliyyətinin metodları, məsələləri, məqsədləri, miqyasının dəyişməsi, yeni texnologiyavə resursların meydana gəlməsi ilə əlaqədar onda dəyişilikər etmək mümkün olsun;
- Təşkilatın bütün səviyyələrinə əlçatma imkanı prinsipi – bu o deməkdir ki, təşkilatın istənilən əməkdaşı şikayət etmək, iradlarını demək və ya uyğun rəhbərə reklamasiya vermək imkanına və hüququna malik olmaldır.

İdarəetmə sistemindəki təşkilati idarəetmə strukturlarının təhlili onlara verilən aşağıdakı tələbləri formalaşdırmağa imkan verir:

1. Sadəçilik və qənaətçilik (qənaət). Mə'ludur ki, olduqca mürəkkəb təşkilati struktur idarəetmə orqanlarlarının işini mürəkkəbləşdirir və onun saxlanması üçün xərclərin artmasına səbəb olur. Ona görə də gömrük orqanlarında yeni struktur birləşmələr elə hallarda yaradılır ki, onların hansısa xidməti funksiyanı reallaşdırmağın səmərəliliyi başqa birləşmələrdə işləyən əməkdaşlar tərəfindən bu funksiyanın həyata keçirilməsinin səmərəliliyi ilə müqayisədə açıq-aşkar daha yüksək olsun.

2. Aydınlıq (açıqlıq). Müəssisənin hər bir bölməsi, hər bir əməkdaşı harada yerləşdiyini, informasiya üçün kimə müraciət etməli olmasını, kimin idarəçilik qərarlarını qəbul etdiyini dəqiq bilməlidir. Strukturun aydınlığını sadəliklə qarışdırmaq olmaz. Əksinə, mürəkkəb strukturlar aydın ola bilər.

Aydınlığı olmayan struktur konfliktlər yaradır, əməkdaşları boş-boşuna faxt keçirməyə vadvr edir, onlara mənfi tə'sir edir, qərar qəbul etməyi ləngidir.

3. Müəyyənlik. Təşkilati struktur hər bir əməkdaşa özünün vəzifəsini başa düşməkdə kömək etməlidir. Bunun üçün təşkilati struktur idarəetmənin yuxarı səviyyələrindən aşağı səviyyələrinə qədər ötürülmə zamanında informasiyanın minimum itkisini tə'min etməlidir.

4. Idarə oluna bilmə. Təşkilati struktur qərar qəbul etmə prosesini sadələşdirməlidir. Pis təşkilati strukturda qərar «yuxarıdan-aşağıya», yaxşı strukturda isə «aşağıdan-yuxarıya» qəbul olunur.

5. Sabitlik. Təşkilati struktur eyni vaxtda stabil (sabit) olmalıdır. Yə'ni ətrafda baş verən fırtınadan asılı olmayaraq o «işləməlidir». Hər bir işçi müəyyən yer tutduğu ünsiyyətdə müəyyən idarəyə malik olmalıdır. Insan özünü tam vağzalda olan kimi hiss etməklə işləyə bilməz. Təşkilat zaman e'tibarilə sabitlik, öz-özünə yeniləşmə və öz-özünə inkişaf qabiliyyətinə malik olmalıdır. Buna isə, hər şeydən öncə, mütəxəssislərin yeni liderlərin peşəkarlığının və şəxsiyyətinin inkişaf etdirilməsi hesabına nail olmaq olar.

6. Çeviklik. Çeviklik anlayışı yalnız son zamanlarmeydana çıxmış və açıq sosial sistemlər üçün səciyyəvidir (10,71).

Təşkilati idarəetmə strukturu, həttaən böyüyü və mürəkkəbi belə, «donuq», birdəfəlik və həmişəlik müəyyən olmamalıdır. Çevik struktur təşkilata (müəssisəyə) xarici şəraitin dəyişməsinə cəld reaksiya verməkvə ona uyğunlaşmaq imkanı verir.

7. Təşkilati idarəetmə strukturunun göstəricisi olan homeostatiklik, yə'ni daxili tarazlığın saxlanması üzrə sistemin avtomatik reaksiya işləyib hazırlamaq qabiliyyəti, sabitlik və çeviklikdən törəmədir. Müxtəlif növ «birdəfəlik» həyəcanlanmalara görə strukturda öz sapmalar (kənaraçıxmalar) nə qədər az meydana gəlirsə, bu struktur bir o qədər sabit olur.

8. Struktur nə qədər mürəkkəbdirsə, onda şaxələnmələr (budaqlar) bir o qədər çox olur, aşağıdakı faktorlar idarəetmədə bir o qədər çox rol oynayır:

-Səlahiyyətlərin ötürülməsi (verilməsi). Məsələn, maliyyə sahəsinin rəisi məsuliyyətində olan bütün şövbə və bölmələrin fəaliyyətinə mə'suliyyət daşıyır. Lakin o, funksiyalarının bir hissəsini maliyyə rəisinin müavinlərinə, şövbə rəislərinə verməyə məcburdur. Onlar da öz növbəsində ayrı-ayrı vəzifələri tabeliyindəki qruplara və ya maliyyə işinin konkret mütəxəssislərinə tapşırırlar ki, həmin şəxslər də bu vəzifələrin yerinə yetirilməsinə görə onların qarşısında hesabat verirlər;

- Koordinasiya (əlaqələndirmə). Qarşıya qoyulmuş vəzifələrin icra edilməsində nə qədər çox sayda mütəxəssis iştirak edirsə, onların səyləri bir o qədər çox razılaşdırılmalıdır. Burada isə informasiya bir səviyyədən digərinə ötürülür və üfüqi istiqamət üzrə informasiya mübadiləsi aparılır;

- Səlahiyyətlilik (səriştəlilik). Müəssisənin hər bir əməkdaşının məsuliyyət dairəsi ciddi olaraq müəyyən edilməlidir. Rəhbərin səlahiyyətliliyi (səriştəliliyi) onun öz bölməsinin və ya bütövlükdə müəssisənin işini necə təşkil edə bilməsində ifadə olunur. Rəhbər öz əməkdaşlarının səriştəsinə inanmalıdır.

- Mərkəzləşdirmə. Müəssisənin struktur vahidlərin (bölməsi) rəislərinin «əlində» funksiya və bilavasitə tabe mütəxəssislər nə qədər çox olarsa, onun idarəçilik fəaliyyətinin mərkəzləşdirmə səviyyəsi bir o qədər yüksək olar. Hər bir rəhbər idarəetmənin aşağı struktur həlqələri ilə birlikdə özü üçün müəyyənləşdirməlidir ki, səlahiyyətlərin hansı həcmi onun üçün qalır, hansısı isə aşağı həlqələrə verilir.

Müəssisənin idarəolunması üçün formalaşmış təşkilati-strukturlar yaradılarkən onların layihələndirilməsi olduqca vacib şərtdir. Təşkilati strukturun layihələndirilməsinə müəssisə yeni yaradılarkən və ya fəaliyyətini genişləndirərkən daha çox ehtiyac duyulur. Bundan başqa mövcud təşkilati-struktur səmərəsiz hesab edildiyi təqdirdə də onun yenidən layihələndirilməsi məsələsi ön plana çıxır.

Bazar münasibətləri şəraitində hər bir müəssisə müasir idarəetmə metodlarının tətbiqi və yeni texnoloji mühitin mənimsənilməsi məsələlərinə ciddi səy göstərir. İdarəedici heyət çox vaxt bazar iqtisadiyyatı şəraitində idarəetmə sahəsində kifayət
qədər biliklərə və təcrübəyə malik olmur.

BAZAR İNFRASTRUKTURUNUN ELEMENTİ KİMİ FOND BİRJALARINDA QİYMƏTƏMƏLƏGƏLMƏNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

Nəsibov O.M.
Azərbaycan Dövlət İqtisad Universiteti

Birja – kütləvi standart əmtəələrin topdasatış ticarətinin təşkilatı forması və ya valyuta, iş qüvvəsi və qiymətli kağızların alqı-satqısı üzrə sistematik əməliyyatlar növüdür. Bir sözlə birja əmtəələrin, xammalın, qiymətli kağızların satışı ilə məşğul olan və vaxtaşırı fəaliyyət göstərən topdan satış bazarıdır. Belə ki, əmtəə, xammal, qiymətli kağızlar, valyutalar və s. birja fəaliyyətinin obyektini təşkil edir.

Birja fəaliyyətinin subyekti qismində müxtəlif dövlətlər, istehsalçı şirkətlər, kommersiya müəssisələri, peşəkar birja iştirakçıları və hətta bazarın istənilən subyektləri çıxış edə bilərlər. Lakin dövlət hakimiyyəti və idarə orqanları, habelə dövlət büdcəsindən maliyyələşdirilən təşkilatlar əmtəə birjasının təsisçisi ola bilməz.

Birjaların başlıca məqsədi, eləcə də vəzifələri və funksiyalarının təyinatı əmtəələr, qiymətli kağızlar, xarici valyutalar və işçi qüvvəsinin alqı-satqı proseslərini sadələşdirmək, asanlaşdırmaq, az vaxt və vəsait sərf edərək reallaşdırmaqdan ibarətdir. Məhz birjaların vasitəsilə cəmiyyətin maddi, əmək, maliyyə və digər imkanları səfərbər edilərək, hərəkətə gətirilir, bölünüb və təkrarən bölünərək, ən yüksək mənfəət vəd edən sahələrin inkişafına yönəldilir. Bununla birjalar bazar mexanizminin işə düşüb fəaliyyət göstərməsinin ən zəruri elementlərindən birinə çevrilir. Onların fəaliyyəti ilə cəmiyyətin istehsal potensialının, o cümlədən maddi ehtiyatlar, sərmayələr, istehlak və yığım imkanlarının səfərbər edilməsinə və kompleks şəkildə birgə işləyib yaratmasına nail olunur. Birjaların fəaliyyətində brokerlərin və dilerlərin rolu çox böyükdür. Belə ki, onlar çox vaxt öz əllərində əmtəəyə olan tələb və təklifi cəmləşdirir və bunun əsasında qiymətli kağızların kursunu dəyişir.

Fond birjalarında qiymətli kağızların ticarəti onlara olan tələb və təklifin təsiri altında tez-tez dəyişən birja kursu əsasında həyata keçirilir. Həmin kursun səviyyəsinə isə qiymətli kağızlardan götürülən gəlirin (dividentin) və borc faizinin həcmi göstərir.

Fond birjasının müasir iqtisadiyyatdakı əhəmiyyəti və rolu onun funksiya və vəzifələrindən də görünür. Belə ki fond birjasının aşağıdakı funksiyaları mövcuddur:

a)fond birjası səxsi yığımları səfərbər etməyə və qiymətli kağızlarla əməliyyatlar vasitəsi ilə uzunmüddətli kapital qoyuluşlarına çevirməyə imkan verir.

b)bazarın təşkilatı forması olmaqla, fond birjası qiymətli kağızların tələb olunan likvidliyini təmin edir və qısamüddətliyığımların uzun müddətli maliyyələşməyə cəlb olunmasına imkan yaradır.

c)birjada tədavül edən qiymətli kağızların qiymətləndirilməsi, qeydiyyatdan keçirilməsi və məzənnə bülletenlərində dərc edilməsi

ç) yenidən bölgü funksiyasıdır ki,bu zaman birjada hər gün artıq istehsala investisiya edilmiş və yeni edilən kapital qoyuluşların həcm və istiqamətlərinə təsir edən kapitalın yenidən qiymətləndirilməsi baş verir. Yalnız səhmləri birjada yüksək qiymətləndirilən müəssisələr səhmlərin yeni buraxılışları hesabına istehsalın genişləndirilməsini maliyyələşdirmək imkanına malik olur.

d)fond birjası nəzarət səhm zərflərinin formalaşdırılması yolu ilə kapitalın mərkəzləşdirilməsinin sürətlənməsində mühüm rol oynayır.

Qiymətli kağızlar bazarında qiymətəmələgəlmə fasiləsiz xarakter daşıyır. Hər bir fond birjasının nüfuzu onun sistemi daxilində bağlanılan əqdlərin həcmi ilə müəyyən olunur. Əqdlərin həcmi isə birjada tədavül edən qiymətli kağızların növündən asılıdır. Bu iki göstərici konkret ticarət meydanının seçimində investora yardım edir. Dünya təcrübəsində fond birjası ya asosiasiya, ya da səhmdar cəmiyyəti şəklində yaradılır. Fond birjanın fəaliyyəti nizamnamə əsasında qurulur. Nizamnamədə birjanın idarə olunma qaydası, orqanların yaradılması və funksiyaları, üzvlərinin tərkibi, onların qəbul olunması şərtləri və s. müəyyən edilir.

Fond birjasında qiymətəmələgəlmə strategiyasından asılı olaraq qiymətəmələgəlmə prinsipləri həyata keçirilir. Məqsədlərindən asılı olaraq fond birjalarında qiymətəmələgəlmə strategiyaları aşağıdakı əlamətlərlə fərqləndirilir:

- satışdan tez gəlirin əldə edilməsi;
- bazarın böyük hissəsinin ələ alınması;
- yüksək ilkin qiymətin müəyyən edilməsi;
- aşağı ilkin qiymətin müəyyən edilməsi;

- bazara daxil olma;
- kalkulyasiya xərcləri əsasında qiymətin müəyyən edilməsi;
- bazar səviyyəsində qiymətin müəyyən edilməsi.

Bununla yanaşı qiymətli kağızlar bazarında qiymətəmələgəlməyə bir sıra amillər təsir göstərir. Bu amillərər aşağıdakılar şamil edilir:

- tələbat;
- təklif;
- rəqabət;
- qiymətli kağızın növü;
- tədavül müddəti;
- ivestisiya mühiti;
- idarəetmə imkanları;
- emitentin reytinqi və işgüzar nüfuzu;
- idarəetmə imkanları.

Bazar iqtisadiyyatı əsasən açıq iqtisadiyyat və azad sahibkarlıq prinsiplərinə əsaslandıqlarına görə mövcud olan bütün fond birjaları bir-birilə qarşılıqlı əlaqə və qarşılıqlı təsir altında fəaliyyət göstəririlər.

Əvvəllər birja ticarəti birjaların özləri tərəfindən hazırlanan norma və qaydalarla tənzimlənirdi. Son 10 illikdə birja fəaliyyətinin qanunverici tənzimlənməsi xeyli güclənmişdir.

Azərbaycanın fond məkanında ilk birja 1991-ci ildə yaradılan "Bakı Qiymətli Kağızlar birjası" hesab olunurdu. O zaman fond birjasının fəaliyyəti Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin "Qiymətli Kağızlar bazarında birja fəaliyyətinin lisenziyalaşdırılması haqqında" qanunla tənzimlənirdi. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin nəzdində yaranan Qiymətli kağızlar üzrə komissiya birja fəaliyyətini lisenziyalaşdırır və birja işçilərinin attestasiyasını keçirirdi.

Lakin Azərbaycanda ilk birja qanunvericiliyi 1992-ci ildə qəbul edilmiş "Qiymətli kağızlar və fond birjaları haqqında" Azərbaycan Respublikasının Qanunudur. "Qiymətli kağızlar və fond birjaları haqqında" qanun investorların mənafelərini qorumaq və Azərbaycan Respublikası iqtisadiyyatının səmərəli inkişafına kömək göstərmək məqsədilə qiymətli kağızlar buraxılışının və tədavülünün vahid qaydasını müəyyən edir, qiymətli kağızlar bazarı iştirakçılarının fəaliyyətini tənzimləyir.

LİZİNQ MÜNASİBƏTLƏRİ SİSTEMİNİN QURULUŞU

Hacızadə N.H.
Azərbaycan Dövlət İqtisad Universiteti

Lizinq, iqtisadi mənada material və pul formasında birbaşa investisiyaların köməyilə müəssisənin texniki cəhətdən yenidən silahlanmasını və elmi-texniki tərəqqinin sürətləndirilməsini təmin edən mülkiyyət münasibətləri kompleksidir.

Lizinq – özünə üç növ təşkilati-iqtisadi münasibəti (icarə, investisiya və ticarət) daxil edən sahibkarlıq fəaliyyəti sistemidir. Lizinq münasibətlərinin sosial əhəmiyyəti ondan ibarətdir ki, onlar sahibkarlara istehsal vasitələrindən fəal şəkildə istifadə etməyə imkan yaradır, onların əmək fəallığını və yaradıcılıq imkanlarını stimullaşdırır. Lizinq münasibətləri mexanizmi hüquqi, maliyyə və təşkilati-texniki münasibətlər əsasında qurulur (şəkil 1.1).

Sistemli iqtisadi böhran və bütün növdən olan investisiya resurslarının çatışmaması lizinqdən hazır məhsulun əlavə satış kanalı kimi istifadə olunmasını zəruri və optimal edir.

Müasir tarixdə "lizinq" anlayışından ilkin olaraq 1877-ci ildə, "Bell" telefon kompaniyasının özünün istehsal etdiyi telefonları satmaq yox, onları icarəyə vermək qərarına gəldiyi zaman istifadə olunmuşdur.

İlk lizinq birliyi 1952-ci ildə San-Fransiskoda (ABŞ) yaradılmış və "Yunayted steyts lizinq korporeyşn" adını almışdı. Amerikan lizinqinin atası bu kompaniyanın prezidenti Henri Şonfeld hesab olunur.

ABŞ-da lizinq maliyyə-lizinq birlikləri sayəsində iqtisadi fəaliyyətin effektiv alətinə çevrildi. Lizinq müqavilələrinin çoxvariantlılığı investisiya vəsaitlərinin əldə edilməsi və onlardan istifadə olunması yollarını əhəmiyyətli dərəcədə diversifikasiya etməyə imkan yaratdı.

Avropada lizinq fəaliyyəti sistemli olaraq 1960-cı illərdən həyata keçirilməyə başlamışdı. Özünün çoxnövlü formaları sayəsində lizinq qanunvericiliyi də öz rəngarəngliyi ilə fərqlənir.

Müasir lizinq bank strukturlarının iqtisadiyyatın real sektoru ilə istehsalın maliyyələşdirilməsi və stimullaşdırılması üzrə qarşılıqlı fəaliyyətinin forma və metodlarını tamamlayır və zənginləşdirir. Lizinqin reallaşdırılması forması maliyyələşdirmənin ənənəvi formalarının müxtəlif cür əlaqələndirilməsi vasitəsilə diversifikasiya etdirilmiş və zənginləşdirilmişdir.

Lizinq (leasing) icarə münasibətlərinin növ müxtəlifliklərindən biridir və özündə müvəqqəti azad olmuş və ya cəlb olunmuş maliyyə vəsaitlərinin müqavilə üzrə müəyyən haqq müqabilində hüquqi və ya fiziki şəxslərə müvəqqəti istifadə üçün icarəyə verilən əmlak üzərinə investisiya etdirilməsi üzrə sahibkarlıq fəaliyyətinin əsas növünü əks etdirir.

Bank və kredit təsisatları lizinq müqavilələrinin yerinə yetirilməsi üzrə maliyyə lizinqi əməliyyatlarının reallaşdırılması şərtilə üç və daha artıq il üçün kreditlərin təqdim edilməsindən əldə olunan mənfəət üzrə vergidən azad edilirlər. Hazırki dövrdə lizinq, əmlakın əldə edilməsi və onun müəyyən müddət üçün müqavilə üzrə, dövlətin səlahiyyəti orqanları qismində dövlətə, fiziki və hüquqi şəxslərə mənfəət (gəlir) əldə edilməsi və ya sosial effektə nail olunması məqsədilə, lizinqverənin, malgöndərənin, lizinqalanın və lizinq layihəsinin başqa iştirakçılarının iştirakı şərtilə lizinq predmetinin amortizasiyasının nəzərə alınması ilə istifadə üçün verilməsi ilə bağlı investisiya-sahibkarlıq fəaliyyətinin bir növü kimi nəzərdən keçirilir.

Lizinq fəaliyyətini bir sıra əlamətlərə görə təsnifləşdirmək olar:

- predmetlər (obyektlər) üzrə – daşınar və daşınmaz əmlakdan istifadə edilməsi;
- iştirakçılar (subyektlər) üzrə – birbaşa, çoxtərəfli (daxili), dövlətlərarası;
- bazar üzrə – daxili, xarici, dövlətlərarası;
- ödənişlər üzrə – maliyyə, kompensasiya, barter, qarışıq;
- özünü ödəmə və amortizasiya üzrə – tam və natamam;
- xidmətlər üzrə – xalis, tam dəstli, natamam dəstli.

(Təsnifat əlamətləri sxemi şəkil 1.1-də təsvir olunmuşdur.)

Müasir şəraitdə təsərrüfat lizinqi, kommersiya münasibətləri forması kimi, əlavə maliyyələşdirmə mənbəyi və lizinq dövriyyəsi iştirakçılarının maddi təminatçısı kimi fəal istifadə olunmağa başlanmışdır. Lizinq sahəsinin formalaşdırılması üçün bütün obyektiv şəraitlər mövcuddur və hər şeydən əvvəl, buraya müxtəlif növ icarə münasibətlərinin əsası kimi çıxış edən mülkiyyət formalarının meydana çıxan rəngarəngliyi, habelə lizinq fəaliyyətinin əsas növlərinin metodiki və normativ təmin olunmasının tədricən genişlənməsi aid edilə bilər.

Lizinq, əmlakın əldə edilməsi və onun sonradan müəyyən haqq müqabilində müvəqqəti istifadə üçün başqasına verilməsi üzrə mülkiyyət və iqtisadi münasibətlər kompleksidir.

Lizinq, bir qayda olaraq, kontragentlərin (lizinqverən, lizinqalan və satıcı (malgöndərən) qarşılıqlı təsirinin üçtərəfli xarakterinə malikdir. Gələcək lizinqalan lazım olduqda kifayət qədər maliyyə vəsaitləri olan lizinq kompaniyasını tapır və ona lizinq müqaviləsinin bağlanılması üzrə işgüzar təkliflə müraciət edir. Bu müqaviləyə görə lizinqalan tələb olunan əmlaka sahib olan satıcını seçir, lizinqverən isə həmin əmlakı öz mülkiyyətinə alır və onu razılaşdırılmış haqq müqabilində müəyyən müddət üçün müvəqqəti istifadə üçün lizinqalana verir. Müqavilənin müddəti bitdikdən sonra onun şərtlərindən asılı olaraq əmlak, ya lizinqverənə qaytarılır, ya da lizinqalanın mülkiyyətinə keçir.



Şəkil 1.1. Lizinq münasibətləri mexanizmi

MARKETİNQ TƏDQİQATLARI VASİTƏSİLƏ KOMMERSİYA FƏALİYYƏTİNİN TƏHLİLİ MEXANİZMİ

Kazımov P.N.
Azərbaycan Dövlət İqtisad Universiteti

Kommersiya fəaliyyətinin formalaşmasının müxtəlif aspektlərini araşdırmaq məqsədilə hər hansı bir firma üzrə marketinq tədqiqatlarının aparılması və bu tədqiqatlar zamanı həmin müəssisənin kommersiya işini səciyyələndirən xüsusiyyətləri müəyyən etmək lazımdır.

Marketinq tədqiqatları

Marketinq tədqiqatının keçirilməsindən məqsəd məhsulların daxili və xarici bazarının tədqiq olunmasından ibarətdir ki, bu zaman da aşağıdakılar müəyyən olunurlar:

- Bazarın ölçüsü və xarakteri;
- Potensial istehlakçıların coğrafi vəziyyəti;
- Satışın ümumi həcmində əsas rəqiblərin mallarının xüsusi çəkisi;
- Strukturuna təsir göstərən xarici ətrafın dəyişkənlik meylləri;
- Müxtəlif seqmentlərin satış həcmlərində olan fərqlər.

Məhsulun satışı zamanı aşağıdakılara can atmaq lazımdır:

- Daxili bazarda kosmetikanın satışını daima artırmaq;
- Özünün istehsalını və özünün şəxsi satış şəbəkələrində kosmetik məhsulun satışını inkişaf etdirmək;
- Xarici tərəf-müqabillərlə ticarəti inkişaf etdirmək;
- Kosmetik məhsulun keyfiyyətinin qaldırılması və potensial istehlakçıların cəlb olunması üçün həyata keçirilən elmi-tədqiqat fəaliyyətin nəticələrindən istifadə etdirmək.

6. Xarici əhatə mühitinin təhlil

6.1. Xarici əhatə mühiti amillərinin təsviri (STEEPV-təhlil)

Aşağıda göstərilən xarici əhatə mühiti amilləri (məsələn, «FABERLIC» şirkətinin timsalında) həm bir təşkilat kimi, həm də onun yaxın rəqabət mühitinə «hərtərəfli» təsir göstərirlər.

6.1.1. S) Sosial

-əhalinin həyat səviyyəsinin aşağı olması əlverişli olmayan amil kimi qəbul edilir;

-yeni iş yerlərinin yaradılması əlverişli amil kimi qəbul olunur

6.1.2. T) Texnoloji

Müasir kompüter sistemləri bazasında yeni məhsulun tədqiq olunması və işlənilməsi üçün mütərəqqi texnologiyaların tətbiqi (istifadə olunması). Bu amil təşkilata müsbət təsir göstərir, ona, özünün effektivliyini artırmağa və istehlakçıların gözündə cəlbedici etməyə imkan yaradır.

6.1.3. E) İqtisadi

Ölkədəki hər hansı bir qeyri-sabitlik «FABERLIC» firmasının vəziyyətinə təsir göstərir. Bir sıra əlverişsiz amillərin təsirini göstərmək olar:

- hökumətin əlverişsiz (istehsal üçün) pul-kredit siyasəti;
- dövlətin daim dəyişilən vergi siyasəti;
- yerli valyutanın məzənnəsinin dünya valyutalarına nisbətən aşağı düişməsi.

6.1.4. E) Ekoliji

Ölkədəki ekoloji vəziyyət də «FABERLIC» firmasının fəaliyyətinə təsir göstərir, yəni aşağıdakı əlverişsiz amillərin təsiri ilə:

- enerjinin bütün növlərinin bahalaşması və enerji qoruyucu texnologiyaların olmaması;
- qlobal ekoloji dağıdıcı kataklizmlər qorxusu;
- ölkədə məişət tullantılarının emalının (utulizasiyasının) inkişaf etmiş sisteminin yoxluğu və bunun nəticəsində də ətraf mühitin çirlkəndirilməsi.

6.1.5. P) Siyasi

Təsir dərəcəsinin qiymətləndirilməsi üçün siyası amillər xarici və daxili amillərə bölünmüşdür:

<u>Xarici (bütövlükdə əlverişli olan):</u>

- ölkədə keçirilən islahatların dünya birliyi tərəfindən dəstəklənməsi;
- ölkənin bazar iqtisadiyyatı ölkəsi kimi qəbul olunması.

<u>Daxili (bütövlükdə əlverişsiz olan):</u>

- antiterror əməliyyatlarının aparılması;

- siyasi qruplaşmaların hakimiyyət uğrunda mübarizə və qarşıdurmanın mövcudluğu.

Hökumətin apardığı daxili və xarici siyasətdən təkcə bütövlükdə ölkənin deyil, həmçinin onun tərkib hissəsi olan şirkətin də taleyi asılı vəziyyətdədir. Ölkədə siyasi şəraitin kəskinləşdiyi zaman mala olan tələb də kəskin surətdə arta və yaxud azala bilər. «FABERLIC» şirkətinin xarici bazarlara (Polşa, Slovakiya, Fransa) çıxması imkanları da yaranmışdır ki, siyasi amillərin təsiri bu zaman daha da aktuallıq təşkil edir.

6.1.6. PV) Vacib adamların təsiri

Hökümət orqanlarında işləyən məmurların, ya da ki, deputatların FABERLIC»in fəaliyyətinə olan münasibətdən asılı olaraq bu təsir həm müsbət, həmçinin mənfi əhəmiyyət daşıya bilər. Bütövlükdə bu, işgüzar fəallıq mühitinə və istehsalda işin vəziyyətinə kompleks təsir göstərir.

Rəqabət mühitinin vəziyyətinin təhlili «FABERLIC» şirkətinin mənfəətinin 1) alıcıların; 2) malgöndərənlərin; 3) rəqiblərin təsir dərəcəsinə (asılılığına) görə aparılmışdır.

6.2.1. Alıcılardan asılılıq dərəcəsi

Alıcılardan asılılıq dərəcəsi «FABERLIC» firmasında yüksəkdir və bu da kosmetikanın satış həcmlərindən birbaşa asılıdır. Bu, onunla izah olunur ki, məhsul əsasən təşkilatlara böyük partiyalarla satılır.

6.2.2. Malgöndərənlərdən asılılıq dərəcəsi

Malgöndərənlərdən asılılıq dərəcəsi «FABERLIC» firmasında yüksəkdir və bu da əvəz oluna bilinməyən xammaldan və onun emalı üçün spesifik avadanlıqdan istifadə olunması ilə bağlıdır.

6.2.3. Rəqabətin intensivliyi

Rəqabətin üç tərkib hissələrini nəzərdən keçirək: 1) birbaşa rəqabət; 2) əvəzedici malların təzyiqi; 3) potensial rəqiblər tərəfindən təhlükələr.

1) Birbaşa rəqabət çox da yüksək deyildir.

Hazırda «FABERLIC» şirkətinin buraxdığı məhsulun (oksigen kosmetikası) analoqu yoxdur. Xarici «AVON» firmasının oksigen kosmetika kolleksiyası mövcuddur, lakin «FABERLIC» şirkətinin Avropa standartları ilə buraxdığı məhsulun maya dəyəri çox aşağıdır və qərb rəqiblərindən fərqli olaraq dollar məzənnəsinin qalxıb-enməsindən az dərəcədə asılıdır.

2) Əvəzedici malları təzyiqi demək olar ki, yox dərəcəsindədir.

«FABERLIC» şirkəti tərəfindən buraxılan məhsul üçün xammal bənzərsiz AKVAFTEM emulsiyasından və eksklüziv bioloji əlavələrdən ibarətdir. Bu tərkib hissələri (inqrediyentlər) unikal yerli texnologiyaları əsasında işlənib hazırlanmışlar və dünyada onların analoqu da yoxdur. Əvəzedici malların olmaması, şübhəsiz ki, müsbət amildir.

3) Potensial rəqiblər tərəfindən təhlükə yüksək deyildir. Ətriyyat-kosmetika bazarında belə bir təhlükənin yaranma imkanlarını ölkədə kosmetika sahəsinin inkişaf perspektivlərindən asılı olaraq nəzərdən keçirmək lazımdır. Məlum olan informasiyalara əistinadən demək olar ki, «FABERLIC» şirkəti səviyyəsində oksigen kosmetikası buraxan heç bir yerli təşkilat yoxdur.

6.2.4. Xarici əhatə mühitinin dəyişilməsi proqnozu

Hazırda ətriyyatın və kosmetikanın bütün istehsalı bir neçə iri şirkətlərin: «AVON», «Procter & Gamble» və s. kimi şirkətlərin əlində cəmləşmişdir ki, onlar da dünya kosmetika istehsalının təxminən 70%-nə və onun satışının isə 80%-nə nəzarəti həyata keçirirlər. Yeni minillikdə də insanlığın gözəl hissəsi kosmetika həyəcanından heç zaman yaxa qutara bilməyəcək və buna görə də xarici mühitin dəyişmələrinin proqnozu «FABERLIC» firmasında istehsalın inkişafı üçün optimistik və əlverişli bir hal kimi qiymətləndirilə bilər.

7. Təşkilatın SWOT - təhlili

SWOT - təhlil özündə zəif və güclü tərəflərin təhlilini, həmçinin xarici əhatənin və rəqabət mühitinin əlverişli və əlverişsiz amillərinin təhlilini cəmləşdirir. Bunun üçün biz SWOT - təhlil matrisası yarada bilərik.

8. Təşkilatın marketinq məqsədlərinin əsaslandırılması

«FABERLIC» şirkətinin marketinq məqsədlərinin müəyyən olunması meyarı kimi şirkət tərəfindən onun qarşıya qoyduğu məqsədlərinə çatması üçün lazım olan resurslardan istifadənin səmərəliliyi amili əsas tutulur. Səmərəlilik dedikdə, daha çox cəlbedici məqsədlərə az sayda resurslardan istifadə etməklə çata bilmə nəzərdə tutulur.

Tərtib olunmuş SWOT - təhlil matrisasından göründüyü kimi, «FABERLIC» şirkəti üçün ən çox üstünlüyü o məqsədlər təşkil edirlər ki, onlara nail olmaq üçün rəhbərlik güclü tərəflərə lazım olan resursları yönəldəcək və bu zaman xarici əhatənin əlverişli təsirini də nəzərə alacaqdır, yəni kosmetika

məhsulunun artmaqda olan bazar seqmentlərində satış kanallarının artırılması və onların yeni istehlakçılara doğru yeridilməsi kimi məsələlərə xüsusi diqqət yetirəcəkdir.

İNVESTİSİYA PROSESİ VƏ ONUN KOMMERSİYA FƏALİYYƏTİNƏ TƏSİR MEXANİZMLƏRİ

Kazımov V.M.
Azərbaycan Dövlət İqtisad Universiteti

İnvestisiya prosesi (fəaliyyəti) dedikdə, investisiya qoyuluşlarının və onun həyata keçirilməsi ilə bağlı olan bütün proseslərin məcmusu başa düşülür. İnvestisiya proseslərinin aşağıdakı əsas növlərini göstərmək olar:

- istehsalata və sosial sahələrə elmi-texniki tərəqqinin nailiyyətlərini tətbiq etmək istiqamətində investisiya fəaliyyəti;
- dövlət, qeyri-dövlət, müəssisə, idarə, təşkilatlar və fiziki şəxslər tərəfindən həyata keçirilən investisiya fəaliyyəti.

Bu fəaliyyətlərə xarici dövlətlər, beynəlxalq maliyyə təşkilatları, xarici vətəndaşlar və fiziki şəxslər tərəfindən qoyulan investisiya fəaliyyəti də daxildir.

Məlum olduğu kimi istehsal və sosial sahələrdə elmi-texniki tərəqqinin fəaliyyətlərindən istifadə etmək istiqamətində investisiya fəaliyyətinin bir forması da innovasiyadır.

İnnovasiya fəaliyyəti dedikdə, əsasən uzun müddətli elmi-texniki tərəqqi şəraitində iqtisadiyyatda baş verəcək struktur dəyişiklikləri ilə əlaqədar və habelə ölkədə fundamental tədqiqat işlərinin maliyyələşdirilməsi nəzərdə tutulur.

İnnovasiya fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar olaraq investisiya prosesi daha geniş forma alır.

İnnovasiya prosesi aşağıdakı istiqamətlərdə həyata keçirilir:

- elmi-texniki proqramların həyata keçirilməsi;
- iqtisadiyyatın strukturunun təkmilləşdirilməsi məqsədilə məhsuldar qüvvələrin tərkibində keyfiyyət dəyişiklikləri etmək üçün fundamental tədqiqatların maliyyələşdirilməsi;
- texnika və texnologiyanın prinsipcə yeni qənaətçil növlərinin işlənib hazırlanması, yayılması və tətbiqi;
- ixtiraların və kəşflərin tətbiqinin genişləndirilməsi nəticəsində istehsalın texniki səviyyəsində keyfiyyət dəyişikliklərinin sürətləndirilməsi;
- iqtisadiyyatin sahələrində yeniliklərin tətbiqi nəticəsində sosial, iqtisadi və ekoloji səmərənin artırılmasının təmin edilməsi

Qeyd etmək lazımdır ki, innovasiyanın iqtisadi və sosial səmərəliliyini təmin etmək üçün innovasiya təyinatlı investisiya resursundan istifadə istiqamətlərini müəyyənləşdirmək lazımdır. Beləliklə, belə maliyyə vəsaitlərindən: yeni məhsul mənimsənilməsi və buraxılışı; istehsalın və əməyin texniki silahlanması; istehsalın genişləndirilməsi, yenidən qurulması və s. məqsədlər üçün istifadə edilməsi daha məqsədəuyğun hesab edilir.

Qeyd etmək lazımdır ki, iqtisadi ədəbiyyatda «ödənilmə» anlayışı tam araşdırılmamışdır. Bir çox iqtisadçı alimlər əsaslı vəsait qoyuluşunun səmərəliliyinin tədqiq edərkən «ödənilmə» anlayışını «xərcin ödənilmə müddəti» anlayışının sinonimi kimi qəbul etməklə onları eyniləşdirirlər. Lakin həmin anlayışların hər biri müstəqil məzmuna malikdir.

Belə ki, ödəmə dedikdə, avans olunan resursların ödənilməsi üçün istifadə olunan vəsait kimi amortizasiya ayrımının (hansı ki, renovasiya məqsədi üçün nəzərdə tutulur), yəni əsas və dövriyyə fondlarının istismarı ilə əlaqədar olaraq istehsal prosesində əldə edilən mənfəət başa düşülür.

«Xərclərin ödənilməsi» dedikdə isə əldə edilən əsaslı vəsait qoyuluşunun investisiyanın həyata keçirilməsinə yönəldilən məbləğin həcminə uyğun gəlməsi başa düşülür.

Bazar iqtisadiyyatı şəraitində investisiyanın tam dövriyyəsi o vaxt başa çatmış olur ki, o, tamamilə ödənilir. Daha doğrusu, investisiya qoyuluşları həcmi ilə müqayisədə buraxılan məhsulun maya dəyərində amortizasiya ayrımının həcmi nəzərdə tutulan məbləğə uyğun gəlsin. Əldə edilən mənfəət investisiyanın həcminə bərabər olsun. Bu halda investisiyanın ödənilməsi ($İ_{nv}$) faizini belə hesablamaq olar:

$$İ_{nv}Y = (M_a : Y_h) \cdot 100$$

burada, M_a – obyektin istismara verilməsindən başlayaraq mənfəətin artan yekunun məbləği; $İ_{nv}$ – illik investisiyanın həcmi (məbləği).

Kommersiya firmasının (müəssisəsinin) fəaliyyətinin ən mühüm cəhəti investisiya prosesidir. İnvestisiya layihəsinin realizə edilməsi ona yönəldilən əsaslı vəsait qoyuluşu ilə əlaqədardır ki, bu il ərzində firmanın mənfəət almasını təmin etməlidir.

Kommersiya təcrübəsində investisiyanın aşağıdakı tiplərini (növünü) bir-birindən fərqləndirmək lazımdır:

- fiziki aktivlərə investisiya;
- pul aktivlərinə investisiya;
- qeyri-material (gözə görünməyən) aktivlərə investisiya.

Fiziki aktivlərə istehsalat binası və tikililər, həmçinin xidmət müddəti bir ildən çox olan müxtəlif maşın və avadanlıqlar və s. daxildir.

Pul aktivlərinə – fiziki və hüquqi şəxslərdən pul vəsaiti almaq hüququ olanlar (məsələn: uduş, aksiya, bank depoziti və s.) aiddir.

Qeyri-material aktivlərinə – lisenziyanın alınması, ticarət nişanının işlənməsi, işçilərin təhsil alması və ixtisas səviyyəsinin yüksəldilməsi və s. daxildir. İnvestisiyanın real aktivliyinin hazırlanması və təhlili hər şeydən əvvəl firmanın qarşısında duran problemin bu növ investisiyanın köməkliyi ilə həll edilməsindən asılıdır. Bu mövqedən mövcud bütün müxtəlif investisiyaları aşağıdakı qruplara bölmək olar:

1. İstehsalın səmərəliliyinin yüksəldilməsinə investisiya qoyuluşları. Bu cür investisiyaların məqsədi firmada xərcin aşağı düşməsi üçün köhnə avadanlıqların yenisi ilə əvəz edilməsini, işçilərin ixtisas səviyyəsinin yüksəldilməsini, istehsalın və əməyin səmərəli təşkilini və s. təmin etməkdən ibarətdir.

2. İstehsalın genişlənməsində investisiya qoyuluşları. Belə investisiyaların qarşısında duran əsas vəzifə mövcud istehsal prosesi miqyasında əvvəlcədən yaranmış bazar üçün əmtəə buraxılışının həcminin və çeşidinin genişləndirilməsini həyata keçirməkdir.

3. Bu tip investisiyalar yeni müəssisələrin yaradılmasına yönəldilir və bunun əsasında çoxçeşidli və yüksək keyfiyyətli əmtəə istehsalı həyata keçirilir ki, bu da firmanın dünya bazarına çıxmasına imkan verir.

4. Dövlətin idarəetmə orqanlarının tələbatının ödənilməsinə investisiya qoyuluşları. Bu tip investisiyalar o vaxt yaranır ki, firma menecmentin təkmilləşdirilməsi hesabına dövlət orqanlarının tələbatını ödəyə bilmir.

Dövlətin investisiya siyasətinin əsas məqsədi elmi-texniki nailiyyətlərin tətbiqi hesabına, əsas fondların yeniləşdirilməsinin və istehsalın yenidən qurulmasının həyata keçirilməsinin təmin edilməsidir. Respublikanın investisiya siyasətinin mühüm istiqamətlərindən aşağıdakıları göstərmək olar:

- mərkəzləşdirilmiş qaydada maliyyələşdirməni azaltmaqla, onlardan əsasən ümum dövlət obyektlərinin investisiyalaşdırılması üçün istifadə etmək;
- investisiyaları ən çox iqtisadiyatın prioritet sahələrinin inkişafına yönəltmək;
- investisiya resursları bazarını təşkil etmək;
- mənzil tikintisi və digər investisiya layihələrinin reallaşdırılması üçün əhalidən toplanan resurslardan istifadəni genişləndirmək;
- investisiya sığortası üzrə hüquqi bazanın yaradılması;
- birgə dövlət – kommersiya maliyyə investisiya layihəsi və o cümlədən, fərdi biznes və MDB ölkələrindən kapitalın cəlb edilməsi;
- investisiya tsiklinin davam etməsi müddətinin qısaldılması.

Respublikamızda xarici və daxili investisiya resurslarının səfərbərliyə alınması məqsədilə ölkə iqtisadiyyatına investisiyanın cəlb edilməsi üçün Milli proqram işlənib hazırlanmışdır. Bu proqramda xarici və daxili investisiyanın cəlb edilməsinin prinsipləri və mexanizmləri öz əksini tapmış və eyni zamanda, investisiyanın prioritet sferası üzrə əməkdaşlıq və onun səmərəlilik formaları göstərilmişdir.

TURİZM BAZARINDA RƏQABƏTLİLİYİN FORMALAŞMASININ XÜSUSİYYƏTLƏRİ

Məmmədzadə N.M.
Azərbaycan Dövlət İqtisad Universiteti

Rəqabət latın sözü olub (concurere) "toqquşma" mənasını verir. Rəqabətin meydana gəlməsi tarixən mülkiyyət ayrı seçkiliyinin və əmək bölgüsünün şərtləndirdiyi əmtəə istehsalının meydana gəlməsi dövrünə təsadüf edir, əmtəə istehsalının inkişafı ilə iqtisadi inkişafın ən fəal ünsürünə çevrilir. İstehsal vasitələri üzərində xüsusi mülkiyyət rəqabətin mövcudluğunu şərtləndirir. Rəqabət bəhsləşmədir. Rəqabət nəticəsində istehsalçı və istehlakçılar bərabər imkanlara malik olmalarına baxmayaraq, bu imkanlardan daha səmərəli istifadə etməklə qalib gəlmək istəyi həmişə onları istehsalın nəticəsini yaxşılaşdırmağa situmullaşdırır.

Rəqabət – müxtəlif istehsalçılar və satıcılar arasında aparılan mübarizə vəziyyətidir, ümumilikdə isə istənilən subyektlərlə, bazarı tutmaq üçün fəaliyyət mübarizəsidir ki, burada daha faydalı şərtlə mal və xidmətlərin bazarda satışı və alışı üzrə fəaliyyət göstərilir ki, daha çox gəlir, mənfəət, başqa qazanclar əldə edilsin.

Müəssisələr fəaliyyətdə olan potensial rəqiblərinə qarşı rəqabət – mübarizə strategiyasını yeni layihələri, biznes – planları hazırlayıb həyata keçirməklə təmin edirlər. Onlar qiyməti tənzimləməklə operativ tədbirlərə də əl atırlar: alıcılara və istehlakçılara xidmət göstərirlər, reklamlardan istifadə edirlər, vasitəçiləri hərəkətə gətirirlər.

Rəqabətqabiliyyətliyin idarə edilməsi – idarə subyektlərinin təşkilati – sərəncamçılıq, iqtisadi və mənəvi – psixoloji təsiridir, onlar dövlət və regional orqanlar, sahibkarlar, menecmentlər, bilavasitə istehsalçılar və istehlakçılar şəxsində olurlar. Rəqabət üstünlüyünə müqayisədə daha yüksək texniki səviyyə, malın və xidmətin keyfiyyəti, daha aşağı qiymətlər, istehsalat və dövriyyə xərcləri daxil edilir.

Müəssisələr məhsulun və ya xidmətin rəqabətqabiliyyətliyini, yüksək keyfiyyətliliyi maraqlandırmaq, keyfiyyət parametrlərinə nəzarət və tənzim etməni, vergi stavkalarının, tariflərin qoyulması yolu ilə artırmaq imkanına malikdir. Məhsul və xidmətlərin rəqabətqabiliyyətliyinə tələb edilən qiymətə qarşı aşağı və ya yuxarı tələbat göstərməklə istehlakçılar da ona xeyli dərəcədə təsir edirlər.

Rəqabətqabiliyyətliliyin əməli (operativ) olaraq idarə edilməsi bazarın vəziyyətini, tələbin cari dəyişməsini, bazarın meylini, ehtiyacını, tələbini öyrənmək və onu cəld həll etməkdən ibarətdir.

Turizm bazarı – xidmətlər bazarıdır. O, turizm biznesinin təşkili zamanı zəruri olan spesifik xüsusiyyətlərə malikdir. Turizm terminlərinin izahlı lüğətində «turizm bazarı» anlayışının üç variantı verilir:

1) Bu gün və ya sabah turizm məhsulunu almaq üçün imkanı olan (potensial alıcılıq qabiliyyəti olan) istehlakçılar toplumu;

2) Dünyanın təsərrüfat əlaqələri sistemində turizm-ekskursiya xidmətlərinin pula və əksinə pulların turizm-ekskursiya xidmətlərinə çevrilmə prosesinin baş verməsi;

3) Dörd əsas elementin (turist tələbi, turizm məhsulunun təklifi, qiymətlər və rəqabət) qarşılıqlı iqtisadi əlaqələr sistemi.

Başqa mal bazarları kimi turizm bazarı da çox müxtəlifdir. Onun strukturunda öz miqyasına görə xırda bazarlar da olur. Bununla əlaqədar, turizm bazarı öz əlamətlərinə görə marketinq üçün vacib olan müxtəlif qruplara bölünür:

- Daxili turizm bazarı. Daxili turizm bazarına ölkədə yaşayan vətəndaşların və vətəndaşlığı olmayan şəxslərin ölkənin hüdudları daxilində səyahətləri aiddir;
- Beynəlxalq turizm bazarı. Beynəlxalq turizm bazarı özü də iki cür olur, ölkəyə gəlmə turizm bazarı və ölkədən xaricə getmə turizm bazarı.

Turizm bazarı iqtisadi sistem kimi, 4 əsas elementin qarşılıqlı təsiridir:

1) turizm təklifi;
2) turizm məhsuluna olan tələb;
3) qiymət;
4) rəqabət.

Turizm bazarının mahiyyəti onun funksiyaları ilə müəyyən olunur. Müasir turizm bazarının əsas funksiyaları aşağıdakılardır:

1) Turizm bazarı turizm məhsuluna olan tələb və təklifi bazarın həcmi və strukturuna uyğun balanlaşdırmasını təmin edir;

2) Turizm bazarı turizm məhsulunun dəyişdirilməsi üçün qiymətli ekvivalentlərin qurulmasını təmin edir. Bu zaman turizm bazarı, turizm məhsulunun istehsalına çəkilən individual xərcləri ümumi xərclərlə müqayisə edir və nəticədə bu yolla, turizm məhsulunun dəyərini müəyyənləşdirir;

3) Turizm bazarı, turizm məhsulu istehsalının effektivliyinin iqtisadi stimullaşdırmasını təmin edir. Belə ki, bu zaman daha az xərclərlə yüksək keyfiyyətli məhsul istehsal etməyə və sonda yüksək gəlir götürməyə çalışılır;

4) Turizm bazarı tələbin tədavülü sferasında ləngimələrin azaldılması və əhalinin aylıq əmək haqqısı ilə turizm məhsuluna olan təklifinin mütənasibliyinin saxlanması yolu ilə turizm məhsuluna iqtisadi tələbatı təmin edir.

Turizm bazarı elə bir yerdir ki, burada turist tələbi turizm təklifi ilə görüşür. Tələb dedikdə, alıcının müəyyən dövr ərzində hər hansı bir əmtəədən müəyyən qiymətdə, müəyyən kəmiyyətdə əldə etmək arzusu və imkanı başa düşülür. Turizmdə tələb mövsümü xarakter daşıyır. Buna bir sıra faktorlar təsir edir: təbii – iqlim, iqtisadi, sosial, psixoloji və s.

Turizm bazarında "təklif" anlayışına, turizmin maddi bazası, istirahət infrastrukturunun inkişafı üçün təqdim olunan məhsul və xidmətlərin keyfiyyəti daxildir. Turizm bazarında təklifin bütün növləri konkret alıcıya, onun istəyinə, zövqünə və səyahətinin məqsədinə uyğun düzgün istiqamətləndirilməlidir.

Müasir turizm bazarı böyük differensasiya ilə xarakterizə olunur. Differensasiya bazarın müxtəlif seqmentlərə bölünməsidir.

Turizm bazarının differensiasiyasının məqsədi – xidmətin tematikasına, səviyyəsinə və tərkibinə uyğun turizm xidmətlərinin yaradılmasıdır. Buna görə də, əlbəttə ki, milli zövqlər və gələn turistlərin adət və vərdişləri barəsində ətraflı məlumat toplamaq və xidmət zamanı bunları nəzərə almaq lazımdır.

Turizm bazarında qazanılan uğur turizm məhsulunun cazibədarlığından asılıdır. Turizm məhsulu mürəkkəb və müxtəlif elementlərin birləşməsindən əmələ gəlir. Turizm məhsulunu qiymətləndirəndə bilmək lazımdır ki, bu məhsul kimə lazımdır və onu kim alacaqdır? Bu suala cavab tapılandan sonra həmin adam alıcıya çevrilir.

Turizm müəssisəsi öz fəaliyyətində müəyyən etməlidir ki, kimə və necə xidmət göstərməlidir. İstehlakçılar bir-birindən zövqlərinə, istəklərinə, ehtiyaclarına görə fərqlənirlər və turizm məhsulunu müxtəlif motivasiyalara görə alırlar. Bu səbəbdən uğurlu marketinq fəaliyyətini həyata keçirmək üçün istehlakçıların fərdi istəklərinin uçotu yerinə yetirilməlidir. Məhz bu bazarın seqmentləşdirilməsinin əsasını təşkil edir. Seqmentləşdirmə vasitəsilə istehlakçıların ümumi sayından təxminən eyni tələb və motivləri olan istehlakçı tipi seçilir.

Seqment – bazarın elə hissəsidir ki, orada alıcılar turizm məhsuluna oxşar tələblərlə iştirak edirlər. Turizm bazarının seqmentləşdirilməsi – onun alıcıların oxşar tələbləri olan hissələrə bölünməsi deməkdir. Bazarın bir çox hissəsinə alıcılar müəyyən səbəblərdən çıxa bilmirlər (məsələn, qiymətlər münasib deyil), bazarın bu hissəsi onları maraqlandırmır. Ona görə də, firmalar öz qüvvələrini və sərvətlərini o seqmentə yönəltməlidirlər ki, ondan maksimum xeyir götürə bilsinlər.

Səyahətlər zamanı turistlərin mənəvi tələbatını ödəmək məqsədilə hər bir seqmentin özünəməxsus xüsusiyyətləri nəzərə alınmaqla məhsullar hazırlanır, satış və xidmət metodları tətbiq edilir.

Turizm sahəsindəki mütəxəssislərin fikrincə, turizm bazarının inkişafının əsasında iqtisadi və sosial proqress dayanır. Turizm bazarı əhəmiyyətli dərəcədə bir çox faktorlardan asılıdır:

- Təbii – ekoloji faktorlar: yaxşı iqlim və komfortlu təbiət şəraiti; gözəl landşaftların və diqqətəlayiq təbiət yerlərinin mövcudluğu; çayların, göllərin mövcudluğu; təmizlik və qayğı.
- Sosial – iqtisadi faktorlar: əhalinin əsas kütləsinin həyat səviyyəsi; vətəndaşların dövlət daxili və xarici hərəkətlərinə imkan verən sosial azadlıq və qanunlar; dövlətin xarici iqtisadi əlaqələri.
- Siyasi faktorlar: siyasi stabillik; dövlətlərarası sülh əlaqələri; turizm sahəsində beynəlxalq müqavilələrin mövcudluğu.
- Demoqrafiq faktorlar: əhalinin artımı; uzunömürlülüyün artımı; etnik turist axınları; turizmə gənclərin axını; ailəvi səyahətlərin artım tendensiyası.

TİCARƏT FƏALİYYƏTİNDƏ XYZ-TƏHLİLİNİN APARILMASININ XÜSUSİYYƏTLƏRİ

Əhmədova E.E.
Azərbaycan Dövlət İqtisad Universiteti

Ticarət menecmenti özünün əsas məqsədini və vəzifələrini müəyyən funksiyaların həyata keçirilməsi vasitəsilə reallaşdırır. Ümumi halda hər bir idarəetmə sisteminin funksiyaları: *təhlil - planlaşdırma - icranın təşkili - icraya nəzarət* alqoritminə əsaslanır və göründüyü kimi təhlil bu alqoritmin əsasını təşkil edir. Digər tərəfdən onu qeyd eləmək lazımdır ki, ticarətin əsas payına malın yenidən alınıb satılmasına düşür. Bunun nəticəsi kimi, ticarətin təşkil olunması üçün tələbi ödəyə bilən həcmlərdə mal ehtiyatlarına malik olmaq lazımdır. Lakin necə bilmək olar ki, məhz həmin bu mala gələcəkdə tələb daha çox olacaqdır? Bunun üçün XYZ-təhlil mövcuddur.

Ticarət prosesinin sürətləndirilməsi və müstərilərin tələbatının tezliklə ödənilməsi üçün anbarda lazımı miqdarda mal ehtiyatları olmalıdır. Ən əsası da odur ki, lazımi ehtiyatlarla məhz tez satılan mallar təmin olunmalıdırlar. Düzgün malı necə seçmək olar? Təbii ki, şirkətin, firmanın bütün mal çeşidi genişmiqyaslı, total, hərtərəfli təhlilə məruz qalmalıdır. Bunun üçün XYZ-təhlildən başlamaq məqsədəuyğundur.

XYZ-təhlilin mahiyyəti.

XYZ-təhlil kimi şirkətin, firmanın yaxın gələcəyə mala olan tələbindən asılı olaraq mal ehtiyatlarının təsnifləşdirilməsi başa düşülür. Başqa sözlə, bu təhlil, yaxın gələcək üçün nə qədər malın və hansı malın anbarda fasiləsiz ehtiyatlarının olmasını başa düşməyə imkan verir. Bu təhlil bütün mövcud olan mal çeşidi matrisasını qabaqcadan duyula bilən tələbə malik oan müəyyən fərqli qruplara ayırmaq olar. tdir. Əgər ABC-təhlilin köməyi ilə daha çox satılan mal mövqelərini müəyyən etmək mümkündürsə, XYZ-təhlilinin köməyi ilə tələbin bərabər olaraq paylaşdırılmasını əks etdirmək olar. Mahiyyətcə, XYZ-təhlil – malların satış dinamikasının təhlil olunması üçün və böyük mal çeşidinin olduğu mal çeşidi matrisanıda problemli zonaların aşkar olunması çox yaxşı bir alətdir. Lakin bir şeyi nəzərə almaq lazımdır ki, XYZ-təhlil tək özlüyündə vəziyyətin ümumi görünüşünü əks etdirə bilməz. Onun vasitəsilə əldə olunan məlumatlar mal qrupunun sonrakı təhlilinin aparılmasının əsasına qoyula bilərlər.

XYZ-təhlilin həyata keçirilmə alqoritmi

Şirkətdə həyata keçirilən istənilən bir təhlil müəyyən alqoritmə uyğundur. XYZ-təhlilin aparılması üçün aşağıdakıların olması zəruridir.

1.Bütün satılan malların tam siyahısı.

2.Hər bir mal mövqeyi üzrə satışların həcmi.

3.Variasiya əmsalının hesablanması.

4.Hesablanmış əmsaldan asılı olaraq qruplar üzrə paylaşdırma.

5.Birgə ABC-XYZ-təhlillərinin aparılması.

Satılan çeşidin siyahısı. Burada hər şey aydındır, təhlil olunacaq çeşidin siyahısı lazımdır.

Satışların mal mövqeləri üzrə həcmləri. Onu nəzərə almaq lazımdır ki, burada əsas məqam – dövr məsələsidir. XYZ-təhlilinin aparılması üçün daha daha çox il ərzində olan məlumatlar yararlıdır. Lakin dövr nə qədər uzundursa, təhlilin nəticələri də o qədər dəqiq və düzgün olacaqdır. Inimal dövr kimi üç ayın məlumatları da götürülə bilər.

Varisasiya əmsalının hesablanması. *Variasiya əmsalı (V)* – malın ölçülən göstəricilərinin orta kvadratik kənarlaşmasının onun orta riyazı göstəricisinə olan nisbətidir. Başqa sözlə, variasiya əmsalı, müəyyən malın aylıq satışı ilə təhlil olunan dövr üzrə satışı arasında orta kvadratik kənarlaşmadır.

Əmsalın hesablanması aşağıdakı düstürla həyata keçirilir:

$$V = \frac{\sigma}{\bar{x}}; \qquad \sigma = \sqrt{\frac{\sum_{i=1}^{n}(x_i - \bar{x})^2}{n}}; \qquad \bar{x} = \frac{\sum_{i=1}^{n} x_i}{n}$$

burada:

- V - variasiya əmsalıdır;
- σ - orta kvadratik kənarlaşmadır;
- x orta - təhlil olunan bütün dövr ərzində satışın orta həcmidir;
- x_i – müəyyən malın i dövrü ərzində satış həcmidir;
- n – təhlil olunan vaxt intervallarının sayıdır (məsələn, ayların sayıdır).

Bütün bunları Excel proqramının köməyi ilə asanlıqla hesablamaq mümkündür.

Lakin onu da qeyd eləmək lazımdır ki, müxtəlif mal qrupları üçün variasiya əmsalı aşağıdakı səbəblədən asılı olaraq bir-birlərindən fərqlənə bilərlər:

- satışların mövsümiliyi,
- trend (мода),
- marketinq aksiyaları,
- mal qıtlığı və s. digər bir çox amillər.

Hesablanmış əmsaldan asılı olaraq qruplar üzrə paylaşdırma. Qeyd olunduğu kimi, XYZ-təhlilindəki kateqoriyalar hesablanmış variasiya əmsalı əsasında bölüşdürülür. İndiki zamanda, praktikada, aşağıdakı bölüşdürmə qəbul olunmuşdur:

Kateqoriya X - tələbin olçüsünün sabitliyini əks etdirir, bu zaman onun məsrəfindəki çox az fərqlənmələr və proqnozlaşdırmanın yüksək dəqiqliyi müşahidə olunur. Bu kateqoriyanın variasiya əmsalının ölçüsü 0-dan 10 %-dək yerləşmişdir. Başqa sözlə, əgər hər hansı bir mal bu kateqoriyaya düşürsə, bu mal qrupundan olan malları keçən ayın satış həcmi miqdarında düşünmədən sifariş etmək olar. Bu kateqoriyadan mal anbarda həmişə olmalıdır.

Kateqoriya Y – ciddi qalxıb-enmələrə məruz qalan, məsələn, mövsümüliklə bağlı olan malları ayırır və orta proqnozlaşdırma imkanlarına malikdir. Y kateqoriyasında variasiya əmsalının ölçüsü 10-dan 25 %-ə bərabər olur. XYZ təhlilinin bu kateqoriyasından olan malı təhlil edərkən, mütləq mövsümilik amilinə diqqət yetirmək lazımdır. Başqa halda istehsal templərini və yaxud mal alışı həcmlərini aşağı salmaq lazımdır.

Kateqoriya Z - malın istehlakı qeyri-daimidir, dəqiq ifadə olunmuş meyllər yoxdur, proqnozun dəqiqliyi minimaldır. Variasiya əmsalının ölçüsü 25 %-dən yüksəkdir. Bu kateqoriyadan olan mallar proqnozlaşdırmaya məruz qalmırlar, çünki tələbin qalxması və aşağı düşməsi amillərini aşkar eləmək çox çətindir. Bu cür malı anbarda saxlamaq olar, lakin çox az miqdarda, «hər ehtimala qarşı». Z kateqoriyasından olan mal üçün ideal variant kimi, bu mala tələb yaranan zaman malgöndərinin anbarından nizamlanmış logistika ola bilər.

Birgə ABC и XYZ təhlillərinin aparılması. XYZ-təhlil özlüyündə malın alış həcmləri və yaxud onun gələcək satışları barəsində dəqiq dəqiq təsəvvür yaratmır (X kateqoriyasından olan mal istisna olmaqla). Bununla əlaqədar olaraq bu təhlili ABC-təhlili ilə birgə aparmaq lazımdır.

XYZ-təhlilinin Excel-də hesablanması üzrə misal.

XYZ-təhlili konkret mal qrupu – avtomobil yağı üzrə nəzərdən keçirək. Satış dinamikası 12 ay üzrə göstərilmişdir. Variasiya əmsalını Excel-də aşağıdakı düsturla hesablamaq olar:

=STDEVPA(B3:M3)/(SUM(B3:M3)/COUNTIF(B3:M3;">0"))

Malın adı	Satışın miqdarı, ədədlə												Variasiya əmsalı	XYZ-təhlil
	yanvar	fevral	mart	aprel	may	iyun	iyul	avqust	sentyabr	oktyabr	noyabr	dekabr		
Mal 1	21783	18065	18077	18094	28660	18301	18346	18403	18419	18442	18523	18586	15%	Y
Mal 2	18523	18553	18600	18621	18637	18678	18707	18744	18815	18847	18865	18901	1%	X
Mal 3	2684	2729	5683	5708	5727	5839	5852	5869	5995	6036	6081	6090	22%	Y
Mal 4	13155	13215	13332	13361	13383	13648	13651	13654	13835	13885	13993	14011	2%	X
Mal 5	3606	3681	3833	3866	3891	4309	4328	4351	4587	4646	4817	4862	10%	Y

Hesablanmış variasiya əmsalı əsasında malları qruplar (X, Y, Z) üzrə bölüşdürmək lazımdır. Son nəticədə isə mal qrupunun sonrakı təhlili və gələcək tələbin proqnozlaşdırılması modelinin qurulması üçün göstəricilər əldə olunur.

BİRJA FƏALİYYƏTİNİN ƏHƏMİYYƏTİ VƏ ONUN ƏSAS FUNKSİYALARININ TƏHLİLİ

Şahmarova A.Ə.
Azərbaycan Dövlət İqtisad Universiteti

Birja ticarəti olmadan, eləcə də, əmtəələrlə ticarəti topdan və pərakəndə satışa bölmədən, bazar münasibətlərində tərəqqi mümkün olmazdı. Indiki zamanda isə, ümumiyyətlə kifayət qədər ciddi təsdiq etmək olar ki, birja ticarəti öz miqyası, həcmi, iştirakçıları nöqteyi – nəzərindən ticarətin əsas formasıdır. Lakin, bu heç də digər mütəşəkkil bazarların, digər əmtəə və xidmətlərin ikinci dərəcəli olması demək deyildir.

Birja ticarəti, ticarət fəaliyyətinin hər hansı bir digər növlərindən fərqli olaraq, aşağıdakı əsas əlamətlərə malikdir:

- müəyyən məkan və zamana uyğunlaşdırılması, yəni birja ticarəti yalnız, bu proses üçün xüsusi olaraq ayrılmış yerdə və birjanın müyyənləşdirilmiş iş saatlarında keçirilir;
- təsdiq edilmiş birja ticarəti qaydalarına tabelik. Hər bir birja öz ticarət qaydalarını hazırlayır və bütün birja ticarəti iştirakçıları bu qaydalara əməl etməlidirlər. Qaydalara riayət olunmaması cərimə ilə və ya birja üzvlüyündən xaric olunmaqla cəzalandırılır;
- kütləvilik, yəni birja ticarəti bütün birja üzvlərinin iştirakı və ya razılığı ilə keçirilir;
- aşkarlıq, yəni birja ticarətinin nəticələri geniş kütlə üçün açıqdır, bu məlumatlar kütləvi informasiya vasitələri ilə cəmiyyətə çatdırılır;
- ictimaiyyət və dövlət tərəfindən tənzimlənmə; dövlət özünün qanunvericilik və normativ aktları ilə qaydalar müəyyənləşdirir və birjalar öz fəaliyyətlərini bu qaydalar əsasında qururlar;
- birjada reallaşdırılan əmtəələr üzrə tələb və təkliflərin bir yerə yığılması, çünki, birja - ən münasib yerdir ki, orada satılan əmtəəyə alıcı və ya alıcıya lazım oln əmtəənin satıcısını asanlıqla tapmaq olar. Əmtəələrə nüfuzlu birja (bazar) qiymətləri bu əsasda əmələ gəlir.

Birjanın funksiyalarında yalnız onun özünə xas olan və adətən hər hansı bir digər ticarət təşkilatlarının məşqul olmadığı fəaliyyət əks olunur.

Birjanın əsas funksiyaları aşağıdakılardır :

1. Aşkar kütləvi ticarətin keçirilməsi üçün birja yığıncaqlarının təşkili. Bu funksiya aşağıdakıları özündə birləşdirir:

- birja ticarətlərinin təşkili;
- birja ticarəti qaydalarinin işlənib hazirlanması;
- ticarətlərin maddi-texniki təchizatı;
- birja personalının hazırlanması;
- ticarət iştirakçıları üçün peşəkar tələblərin işlənib hazirlanması.

Ticarətin təşkili üçün hər şeydən əvvəl birjanın avadanlıqla yaxşı təchiz olunmş "ticarət yeri" (birja zalı) olmalıdır. Burada kifayət qədər böyük sayda, açıq birja ticarəti keçirən, alıcı və satıcılar yerləşə bilər. Müasir elektron rabitə vasitələrindən istifadə ticarət edənlərin bir yerdə fiziki iştirakını tələb etmir və elektron kompüter terminalları vasitəsilə ticarət aparmağa imkan verir. Lakin bu halda da birjanın vəzifəsidir ki, yüksək səmərəli elektron ticarət sistemini təmin etsin.

Ticarətin təşkili ticarət qaydalarının hazırlanmasını və bu qaydalara ciddi əməl olunmasını tələb edir, yəni birja, ticarət iştirakçılarının zalda davranış qaydaları və normalarını müəyyənləşdirməlidir.

Ticarətin maddi-texniki təchizatına birja zalının, ticarət iştirakçılarının iş yerlərinin avadanlıqla təmin olunması, birjada bütün proseslərin kompüter təminatı və s. daxildir.

Birja ticarətinin keçirilməsi üçün birjanın yüksək ixtisaslı əməkdaşları olmalıdır. Birja ticarətində iştirak edən birja üzvləri birjada iş qaydalarını bilməli, birja ticarəti ilə bağlı bütün fəaliyyət sahələrində lazım olan biliklərə və praktiki vərdişlərə malik olmalıdır.

2. Birja əqdlərinin hazırlanması. Birjanın bu funksiyasına daxildir:

- birja əmtəələrinin keyfiyyət xarakteristikasına olan tələblərin standartlaşdırılması;
- əqdlərinin əsasında olan aktiv partiyaları ölçülərinin standartlaşdırılması;
- birja əqdləri üzrə hesablaşmalara vahid tələblərin hazırlanması;

3. Birja arbitrajı və ya birja ticarətləri zamanı bağlanmış birja əqdləri üzrə meydana çıxan mübahisələrin həlli. Birjanın bu funksiyası çox böyük əhəmiyyətə malikdir. Bir tərəfdən, yalanla, fırıldaqçılıqla fəaliyyət göstərməyə çalışan ticarətçiləri müəyyənləşdirmək tədbirləri, digər tərəfdən, ticarət zamanı saziş haqqında qeyri-dəqiq qeydlərə görə, kompüter təminatı sistemində nasazlıq, insan və ya texniki səhvlərdən yaranan mübahisələrin həlli.

4. Birjanın qiymət funksiyası. Birjanın bu funksiyasına iki nöqteyi-nəzərdən yanaşmaq lazımdır. Birinci "əsl" bazar qiymətinin aşkar edilməsi, eyni zamanda birjada qiymətlərlə qeyri-qanuni manipulyasiyaya yol verməmək, onların tənzimlənməsinin birjanın vəzifəsi olaraq saxlanılması. Ikinci – birjanın qiymət proqnozu funksiyası:

a) birja qiymətlərinin aşkar edilməsi və tənzimlənməsi. Birja bütün növ birja əmtəələrinin qiymətlərinin formalaşmasında və tənzimlənməsində iştirak edir. Birjada tələb və təklifin cəmləşməsi, çoxlu sayda əqdlərin bağlanması qeyri-bazar amillərin qiymətə təsirini istisna edir, onu real tələb və təklifə maksimum yaxınlaşdırır. Birja qiyməti onun kotirovka (məzənnə) prosesində müəyyənləşdrilir və bu birjanın ən vacib funksiyası kimi sayılır. Beləliklə, kotirovka dedikdə, birjada onun hər bir iş günü ərzində qiymətlərin qeyd edilməsi başa düşülür: valyuta və ya qiymətli kağızlar kursunun, birja əmtəələri qiymətlərinin qeydə alınması.

b) qiymət əmələgəlmə və qiymət proqnozu funksiyası. Əmtəə satıcılarının və alıcılarının birjada cəmləşməsi, birja əqdlərinin kütləvi xarakteri ilə xarakterizə edilir. Adətən ticarət iri əmtəə partiyaları ilə aparıldığından onların böyük miqyası birja əmtəələrinin birja qiymətlərini nüfuzlu bazar qiymətlərinə çevirir və bu adətən bir çox digər əmtəələrə qiymət əmələ gəlməsinin əsasını təşkil edir. Nəticədə birja qiymətləri qiymət əmələ gəlmə funksiyasını yerinə yetirir, əmək haqqı tarifi, amartizasiya ayırmaları normaları və s. ilə yanaşı onun bazisi olur. Birjada əmtəələrlə (əqdlərlə) ticarət, əqdin bağlandığı tarixdən bir neçə ay sonra göndərilməklə aparılır, bununla da əmtəələrin gələcəkdə göndərilmə tarixinə qiymətlərin gündəlik proqnozu prosesi baş verir. Deməli real qiymət proqnozu baş verir və təkcə birja əmtəələri qiymətlərinə deyil, həm də bu birja əmtəələrinə əsaslanan bütün aktivlərə aid edilir.

5. Hecerləmə funksiyası, və ya birja ticarəti iştirakçılarının onlar üçün əlverişsiz qiymət dəyişmələrindən birja sığotalanması. Bunun üçün birjada əqdlərin xüsusi növü və onların bağlanma mexanizmi istifadə olunur. Birja ticarəti iştirakçılarının sığortalanması vəzifəsini yerinə yetirərək, birja o qədər ticarəti təşkil etmir, o qədərki ona xidmət edir. Birja şərait yaradır ki, real (nəğd) əmtəə alıcıları və satıcıları öz arzuları ilə eyni zamanda müvafiq birja ticarətlərində müştəri və ya iştirakçı qismində iştirak edə bilsinlər. Bu birjaya inamı artırır, bazar spekulyantlarını ora cəlb edir ticarət iştirakçılarının sayını bilavasitə, eləcə də vasitəçilər hesabına artırır.

Hecerləmə funksiyası füçers əqdləri ilə birja ticarəti mexanizmindən istifadəyə əsaslanır. Bu funksiyanın mahiyyəti ondan ibarətdir ki, ticarətçi-hecer (yəni, sığortalanan) eyni zamanda əmtəənin satıcısı və onun alıcısı olmalıdır. Bu halda onun əmtəəsinin qiymətinin hər bir dəyişməsi neytrallaşdırılır, belə ki, satıcının udması eyni zamanda alıcının uduzmasıdır və əksinə. Bu cür vəziyyət onunla yaranır ki, hecer, məsələn adi bazarda alıcı vəziyyətində olursa, birja füçers əqdləri bazarında əks mövqedə, bu halda satıcı vəziyyətində durmalıdır. Adətən əmtəə istehsalçıları onların məhsullarının qiymətlərinin aşağı düşməsindən sığortalanırlar, alıcılar isə- alınacaq məhsulların qiymət artımından sığortalanırlar.

6. Möhtəkir (spekulyativ) birja fəaliyyəti. Bu birjada birja əmtəələrinin alqı-satqı qiymətlərinin fərqinə görə oyunda gəlir əldə etmək məqsədi olan kommersiya fəaliyyəti formasıdır. Birjanın spekulyativ funksiyası ayrılmaz sürətdə onun hecerləmə funksiyası ilə bağlıdır. Birjada hecerin xilas olunduğu riski spekulyant öz üzərinə götürür. Spekulyant- bu vacib deyildir ki, peşəkar birja iştirakçısı olsun. Bu hər hansı bir şəxs, şirkətdir ki, "ucuz alıb, baha satmaq" prinsipi ilə fəaliyyət göstərərək gəlir əldə etmək arzusundadır.

7. Əqdlərin icrasına təminat funksiyası. Birjanın klirinq və hesablama sistemlərinin köməyi ilə nail olunur. Bunun üçün birja nəğdsiz hesablaşma sistemindən istifadə edir, ticarət iştirakçılarının qarşılıqlı tələb və öhdəliklərinin hesaba alınması, eləcə də onların icrasını təşkil edir.

8.Birjanın informasiya funksiyası. Birja kütləvi informasiya vasitələrinə birja qiymətləri, birjada ticarət edən şirkətlər, bazarın konyunkturası, müxtəlif bazarlar üzrə proqnozlar və s. haqqında çoxsaylı məlumatlar təqdim edir. Müasir birjanın informasiya fəaliyyəti o qədər əhəmiyyətlidir ki, inkişaf etmiş ölkələrdə birjalar öz gəlirlərinin 30 % -ə qədərini birja informasiyasının satışından əldə edirlər.

ƏMTƏƏ BAZARLARI VƏ ONLARIN FORMALAŞMASINA BİRJALARIN TƏSİRİ

Həsənli Ə.İ.
Azərbaycan Dövlət İqtisad Universiteti

Əmtəə bazarı mürəkkəb sosial – iqtisadi kateqoriyadır. Əgər bazarın yaranmasına müxtəlif aspektlərdən baxsaq onun mahiyyəti daha da tam açılar. Birincisi, bazar əmtəə mübadiləsi sahəsi kimi çıxış edir. Ikincisi, əmtəənin istehsalçıdan istehlakçıya irəliləməsinə istiqamətlənmiş, təşkilati – iqtisadi fəaliyyət sistemi, təsərrüfat sistemidir. Bu cür fəaliyyətlər əmtəənin istehsalı və reallaşmasının konkret təssərrüfat mexanizminin inkişafı ilə, satış forma və metodları ilə, realizasiya üzrə idarə etmə qərarı ilə, əmtəənin reklamının aparılması ilə, əhalinin tləbinin öyrənilməsi və formalaşdırılması ilə bağlıdır.

Beləliklə, əmtəə bazarı – əmtəə mübadiləsi sahəsidir. Burada əmtəə alqı – satqısı ilə bağlı münasibətlər üzə çıxır və əmtəənin reallaşması ilə əlaqədar, konkret təsərrüfat fəaliyyəti baş verir.

Əmtəə təklifi reallaşdırılmaq üçün əmtəə kütləsidir. Əmtəə təklifinin əsas mənbələri ölkədə əmtəə istehsalı, material ehtiyatları, idxal mallarıdır.

Tələb – bu ölkə əhalisinin ödəniş qabliyyətli tələbatıdır. Tələb, tələbatdan (ehtiyacdan, istəkdən) istehlakçıların ödəyə bildikləri kəmiyyət qədər fərqlənir.

Əmtəənin qiyməti onun dəyərinin pulla ifadəsidir. Qiymətin dəyərdən fərqlənməsi bir sıra amillərlə şərtlənir. Hər şeydən əvvəl bu pulun dəyər ifadəsidir. O, birincisi, xüsusi əmtəə kimi qızılın qiymətindən asılıdır. Onun köməkliyi ilə bütün digər əmtəələrin dəyəri ifadə olunur. İkincisi, dövriyyədə olan pulun miqdarından. Bu əvəz olunan qızılın miqdarına uyğun olmaya bilər. Ona görə də əmtəələrin keyfiyyətində, istehlak dəyərində müxtəliflik vardır. Əmtəələrin istehlak xüsusiyyətlərinin müqayisə olunması ayrı–ayrı əmtəələrin, onların müxtəlif növlərinin qiymətlərinə münasibətə təsir edir. Bundan başqa, tələb və təklifin dəyişməsindən irəli gələn əmtəənin reallaşması şəraiti qiymətlərin konyunktur dəyişməsinə təsir edir. Əmtəə bazarında qiymətlərin formalaşmasına təsir edən amilləri I və II qrup amillər kimi təsnifatlandırmaq olar.

Hər bir əmtəə bazarının fəaliyyəti əsas göstəricilərlə xarakterizə olunur. Əmtəə bazarının əsas fəaliyyət göstəricilərinə aşağıdakıları aid etmək olar.

1. Əmtəə bazarının tutumu. Bazar tutumu – əmtəə təklifi və pərakəndə qiymətin, ödəniş qabiliyyətli tələbin mövcud səviyyəsində, əmtəələrin maksimum mümkün satış həcmi deməkdir.

2. Ölkənin ayrı-ayrı sahələr üzrə əmtəə bazarlarının inkişaf dinamikası, (ölkənin vahid əmtəə bazarının tərkib hissələri).

3. Əmtəə bazarının diversifikasiya dərəcəsi. Diversifikasiya dedikdə coğrafi, etnik, ölkə əhalisinin ödənişqabliyyətli xüsusiyyətləri nəzərə alınmaqla müxtəlif əmtəə məhsulları növləri ilə (çeşid və qiymət üzrə) əhatə edilmə dərəcəsi başa düşülməlidir.

4. Bazarda realizə olunan əmtəənin keyfiyyəti. Əmtəənin keyfiyyəti dedikdə ona xas olan xüsusiyyətlərin məcmusu başa düşülür. Istehlakçıların tələbkarlığının artdığı şəraitdə ona qarşı, onun istehlak təhlükəsizliyi, ekoloji normalara əməl olunması, qablaşmaya, nişanlanmaya tələblər və satışdan sonrakı xidmətin təmin olunması nəzərə alınmaqla yüksək tələblər irəli sürülür.

5. Bazarda əmtəənin rəqabətqabliyyətli olması. Rəqabətqabliyyətli əmtəə dedikdə məhsulun baxılan dövrdə mövcud bazarın formalaşmış tələblərinə uyğunlaşma qabliyyəti başa düşülür.

Əmtəə bazarını müxtəlif xüsusiyyətlərinə görə təsnifatlandırmaq olar. Bu cür xüsusiyyətlərdən biri coğrafi əlamət ola bilər. Onun əsasında ayrı – ayrı regionların bazarlarını ayırmaq olar. Onlardan hər biri ayrı – ayrı ölkə bazarlarının qrupu şklində göstərilə bilər. Bu

təsnifat əmtəə nöqteyi – nəzərindən aparılmır. Mahiyyətcə, bu ayrı-ayrı əmtəə bazarlarını birləşdirən məcmu bazarlardır.

Sahə əmtəəsi əlamətlərinə görə əmtəə bazarını hazır məhsullar bazarına, xammal və yarımfabrikat bazarına, xidmət bazarına ayırmaq (təsnifatlandırmaq) olar. Əmtəə bazarları qrupları sonradan ayrıca əmtəə bazarı səviyyəsinə qədər bölünə bilər. Məsələn, sənaye xammalı bazarına daxildir: dəmir, manqan, xrom, polad, metal məmulatı, polad trubalar, nikel, platin, qiymətli metallar, almaz, kimya məhsulları, plasmas, kimyəvi liflər, dərmanlar bazarı və s. Yanacaq bazarında neft və neft məhsulları bazarı xüsusi yer tutur. Belə ki, sonuncular birja əmtəəsidir və neft əmtəə birjasında ticarət predmetidir.

Neft məhsullarını iqtisadçıların "birgə" adlandırdığı əmtəələr qrupuna aid edirlər, yəni bu qrup əmtəələrdən hər – hansı birini, digərini istehsal etmədən almaq olmaz.

Hər bir ayrıca əmtəə bazarı üçün onun, müəyyən funksiyaları yerinə yetirən, iştirakçılarının böyük əhəmiyyəti vardır. Məsələn, hazırda beynəlxalq neft bazarı iştirakçıları sayılır:

- kəşviyyat, hasilat, emal və xam neft, həm də onun emal məhsullarının satışı ilə məşğul olan neft şirkətləri. Bundan başqa, bir çox neft şirkətləri neft və neft məhsullarına hüququn ticarətini öyrənmişlər:fyuçerslərlə, opsionlarla, fyuçerslərin real əmtəəyə mübadiləsi: məsələn, British Petroleum Şell;
- xam neft alıcısı və bazara neft məhsulları satan (göndərən) rolunda çıxış edən neft emalı zavodları;
- müstəqil ticarət kompaniyaları: məsələn, Mark Riç, Vitol, Arkadiya. Onlar həm real bazarlarda, həm də yeni növ bazarlarda işləyirlər.
- maliyyə investisiya kompaniyaları, banklar, ticarət evləri: Morqan Stenley, hansılar ki, yeni növ bazarlarda işləyirlər;
- yeni növ bazarlarda işləyən, neft və neft məhsullarına fyuçers və opsion əqdlərinə uğurlu pul qoyulmasından gəlir götürməyə çalışan həm xüsusi, həm də kollektiv investorlar.

Hazırda neft bazarında qiymətlər qiymət qoyulmanın bazar mexanizminin işi hesabına formalaşır. İstehlakçıların, OPEK ölkələrinin və müstəqil istehsalçıların fərdi maraqları bazarın fəaliyyətinə təsir edə bilmir. Belə ki, onların özləri bazardan asılı vəziyyətdədir.

Neft sənayesi, əvvəlki kimi beynəlmiləl xarakter daşıyır və neftin böyük bir hissəsi, hələ də uzun müddətli müqavilələr əsasında satılır. Lakin qiymətlər artıq real "spot" əqdlər mexanizmləri əsasında formalaşır və hər bir mal göndərilməsindən ayrıca müəyyənləşdirilir.

İş prosesində şirkətlər qiymətlərin qeyri – sabitliyi ilə bağlı maliyyə riskini müddətli (forvard) əmtəə əqdlərindən istifadə etməklə minimuma endirməyi öyrəndilər.Şirkətlərə mənfəət götürmək o amillərin istfadəsi hesabına mümkün olur ki, onlar, obyektiv şəraitə görə formalaşmışlar, yəni neft və neft məhsulları ticarətində artım; spot – bazarların inkişafı (və spot – qiymətlərə keçid); forvard və fyuçers ticarətinin spot - bazarlar əsasında inkişafı.

Bazar ticarətində iştirak edən neft şirkətləri , onların apardığı siyasət nöqteyi – nəzərindən, heç də bir – birinə oxşamır.

İri şirkətlərdən ən uğurluları (məsələn, ŞELL) son dərəcə müvəffəqiyyətlə yeni bazarlardan istifadə edirlər, digərləri yalnız bu bazarlara irəliləməyə başlayır (Mobil); Esso konservativ olaraq yeni bazarlara əhəmiyyət vermir (şirkətin idarə etmə siyasətində, ümumiyyətlə fyuçers əqdləri nəzərdə tutulmur); bu cür şirkətlər (Gulf) yeni bazarlarda iştirak etmir. Bütün iri şirkətlər üçün kəşfiyyat və neft hasilatı, əvvəlki kimi, prioritet istiqamət olaraq qalır.

Yeni firmaların bütöv bir qrupu "riskin idarə olunması" sahəsində xidmət göstərməkdə ixtisaslaşır. Obyektiv şəraitin yaranması nəticəsində fyuçers əqdləri bazarları yaranmağa və fəaliyyət göstərməyə başladı. Nyu-York əmtəə birjasında (NAYMEKS) birinci olaraq soba yanacağı göndərilməsinə kontrakt, Avropada isə Beynəlxalq neft birjasında - qazolin göndərilməsi haqqında fyuçers kontraktı hazırlandı. NAYMEKS birjasında Qərbi Texas orta nefti (WTI) göndərilməsi üzrə fyuçers kontraktı dövriyyəyə buraxılmışdır. Bu halların hər birində ticarət standart kontraktlarla aparılmışdır.

Eyni zamanda forvard neft bazarı, əvvəlcə Brent növlü Şimal dənizi nefti, sonra isə Dubay – daha yüksək tərkibli orta sıxlıqlı kükürdlü yaxın şərq nefti əsasında inkişaf etmişdir. Baxmayaraq ki, bu hallarda kontraktlar üzrə birja ticarəti aparılmayıb, onlar həm hecerlərin, həm də spekulyantların diqqətini cəlb etmişdir ki, o da kontrakta lazım olan dəstəyi təmin etdi.

Kənd təsərrüfatı və meşə malları bazarında onların struktur bölmələrini ayırmaq olar. Burada taxıl bazarı xüsusi yer tutur.

Əmtəə bazarını öyrənərkən bazarın strukturunun tipini müəyyənləşdirməyə, əqdin şərtlərindən və xarakterindən asılı olaraq onun ayrı – ayrı elementlərinin təsnifatına xüsusi əhəmiyyət verilir.

RİSK-MENECMENT VƏ İNVESTİSİYALARIN RİSK SƏVİYYƏSİ İLƏ ƏLAQƏLƏRİ

Əbilzadə A.Ş.
Azərbaycan Dövlət İqtisad Universiteti

Kommersiya müəssisələrinin fəaliyyət göstərdiyi müasir iqtisadi, iqtisadi, sosial, ekoloji, siyasi, mədəni və digər mühitlərin artmaqda olan mürəkkəbliyi və ehtimala əsaslanan strukturunun, rəqabətin olması, bazarın tez dəyişən konyunkturu, bazarın iştirakçılarının maraqlarının üst-üstə düşməməsi, həyatın bütün sferalarının keyfiyyətli surətdə dəyişdirilməsi riskin yaranmasına səbəb olur və onun problemlərinə olan diqqətin artmasına gətirib çıxarır.

Hazırki sosial yönümlü iqtisadiyyatın yaradılması şəraitdə risk sosial-iqtisadi elementlərin ayrılmaz elementinə çevrilir və ticarət müəssisələrinin sosial-iqtisadi siyasətinin strategiya və taktikasının canlı hissəsi olur. Bununla əlaqədar olaraq, «risk» anlayışının araşdırılması, onun kommersiya fəaliyyətinin strukturundakı rolunun və yerinin müəyyən olunması, onun sosial-iqtisadi məqamlarının formalaşması, risk dərəcəsinin ölçülməsi və risk şəraitində qəbul olunmuş qərarlardan gözlənilməyən nəticələrin alınması, həmçinin bu və digər riskin ölçüsünü müəyyən edən meyarların tapılması zəruriyyəti yaranır. Bütün bunlar risklərin təhlili, qiymətləndirilməsi və idarəedilməsi metodlarının işlənilməsi, onların ticarət müəssisələrinin praktikasına tətbiq olunması, risk-menecmentin təşkili ilə bağlıdır.

Kommersiya müəssisələrinə qoyulan investisiyalar da ciddi riskə məruz qalırlar. İnvestisiyanın təkmilləşdirilməsi hər şeydən əvvəl onun müxtəlif risk səviyyəsi ilə bağlı olmasıdır. İnvestisiyanın tipi ilə onun riski arasındakı asılılıq aşağıdakı sxemlə izah edilir.

Sxem 1

İnvestisiyanın tipi ilə risk səviyyəsi arasında əlaqə

TİP 3	TİP 2	TİP 1	TİP 4
Yeni istehsalın yaradılmasına investisiyalar	İstehsalın genişləndirilmsinə investisiyalar	Səmərəliliyin yüksəldilməsinə investisiyalar	Dövlət orqanlarının tələbatının ödənilməsinə investisiyalar
Riskin yüksək sviyyəsi		Riskin aşağı səviyyəsi	

Qeyd etmək lazımdır ki, hər bir risk amilinin özünün xüsusi çəkisi var və bal hesabı ilə qiymətləndirilir. Buna gör də istər ayrı-ayrı risk amilləri, istərsə də bütövlükdə investisiya mühiti miqdarca qiymətləndirilə bilər. Risklər müxtəlif formada təsnifləşdirilir. Belə ki, bir çox dünya dövlətləri üzrə hər il amerikan LOPS firması Inteinationess Companu USA tərəfindən dərc edilmiş yeddi cildlik «Publitical Rick Yearbook» adlı kitabında aşağıdakı risklər qiymətləndirilir. Bunlardan: siyasi, maliyyə köçürmləri, ixracat və s. birbaşa investisiyaları göstərmək olar. Burada risklər 12 bal sistemi üzrə qiymətləndirilir. Qeyd etmək lazımdır ki, Amerikan firmaları «Business Environment Rick Inteligence International» və Alman firması «Beri» riskləri 100 bal sistemi ilə qiymətləndirirlər.

İnvestisiya qoyuluşunda istifadə oluan risk anlayışı – potensial investor tərəfindən qoyulmuş vəsaitin itirlməsi deməkdir.

Dünya təcrübəsində risk etmənin ənənəvi təsnifatı aşağıdakı sxemdə verilir.

Sxem 2

Təsnifləşdirmənin əlamətləri	Təsnifata uyğun olaraq risklərin əlamətləri
Subyektlər üzrə	- bəşəriyyət üzrə ümumilikdə; - ayrı-ayrı regionlar, ölkələr, millətlər; - sosial qruplar, ayrı-ayrı fərdlər; - iqtisadi, siyasi, sosial və s. sistemlər;

	- təsərrüfat sahələri; - ayrı-yrı layihələr; - fəaliyyətin növləri.
İnvestisiyanın növləri üzrə	- maliyyə - investisiya layihələri
Təzahür sferası üzrə	- iqtisadi amillərin dəyişməsi ilə əlaqədar olaraq iqtisadi risk; - respublikanın siyasi mövqeyindən asılı olaraq siyasi risk; - sosial şəraitin dəyişməsi (çətinləşməsi) ilə əlaqədar olaraq sosial risk; - ekoloji fəlakətlərlə əlaqədar olaraq ekoloji risk; - qanunvericiliyin və normativ aktların (bazarın) dəyişməsi ilə əlaqədar olaraq normativ qanunvericilik risk.
Əmələ gəlmə mənbələri üzrə	- konkret subyektə xas olan, onun nəzəriyyəsindən və xüsusiyyətlərindən asılı olaraq qeyri-sistematik risk; - bazar konyunktrasıının dəyişkənliyi ilə əlaqədar olan sistematik risk, subyektdən asılı olmayan tənzimlənməyən risk; Sistematik risklər aşağıdakılara bölünür: a) qanunvericilik, qiymətin əmələ gəlməsi, normativlər, bazar konyukturası sferasında gözlənilməyən tənzimlənmə tədbirləri; b) təbii qəzalar və fəlakətlər; v) cinayətlər; q) siyasi dəyişikliklər.

Risk hər bir investisiya layihlərinin reallaşdırılması gedişində ziyanın baş verməsi və ya layihənin səmərəliliyinin aşağı düşməsi ilə nəticələnən arzu olunmaz halların yaranması imkanı ilə əlaqədar olan qeyri-müəyyənlikdir. Ümumi formada risk – layihənin reallaşdırılmasında əmələ gələn zərər və ya ziyanın ehtimalıdır. Risk aşağıdakı kimi müəyyən edilir:

$$R = f(P,L)$$

burada, R – riskli hadisələr

P – riskin əmələ gəlməsi ehtimalı

L – riskli hadisələrin əmələ gəlməsi halında nəticənin vacibliyi.

Risklərin idarə edilməsi – layihənin reallaşdırılmasının faktiki göstəricilərinin əvvəlcədən planlaşdırılmış mənalardan kənarlaşmaların azaldılması məqsədi ilə risklərin monitorinqi, təhlili və indentivikasiyasını birləşdirən tədbirlər kompleksidir. Riskin idarəedilməsi üzrə hərəkətin alqoritmi aşağıdakı sxemdə verilir.

Sxem 3



Sosial-siyasi risk ölkədə iqtisadi vəziyyətə və xarici kapital itkisinə təsir edə biləcək sosial-siyasi vəziyyətin dəyişmə səviyyəsinin nəticəsindən asılıdır.

İnvestisiya prosesi obyektlərinə görə real və maliyyə investisiyalara bölünür.

Real investisiyalar dedikdə, maddi və qeyri-maddi aktivlərə vəsait qoyuluşu başa düşülür.

Maliyyə investisiyaları dedikdə isə müxtəlif maliyyə vasitələrinə (aktivlərinə) vəsait qoyuluşu başa düşülür ki, bunların da içərisində əsas yeri qiymətli kağızlara vəsait qoyuluşu tutur.

AZƏRBAYCANDA FOND BİRJALARININ MİLLİ İQTİSADİYYATIN İNKİŞAFINA TƏSİRİ

Tağızadə E.C.
Azərbaycan Dövlət İqtisad Universiteti

Nəzəriyyədən göründüyü kimi, qiymətli kağızların ikinci bazarında mühüm yeri fond birjaları tutur. Fond birjalarında məqsəd ondan ibarətdir ki, qiymətli kağızların normal tədavülü üçün zəruri şərait yaradılsın. Fond birjalarının əsas vəzifələri kapitalın səmərəli bölgüsü və təsərrüfat subyektlərinin inkişafı məqsədlərindən ötürü investisiyaların cəlb olunmasıdır.

Fond birjasının ən mühüm cəhəti onun likvidliyidir. Burada məzənnələrin tədavülü, aşağı və yuxarı satış xərcləri ilə müvəffəqiyyətli və geniş fond ticarətinin mümkünlüyü başa düşülür. Fond birjasının digər cəhətlərindən isə investisiya imkanlarının genişliyi və müxtəlifliyini, tədavül edən qiymətli kağızların çeşidliyini göstərmək olar.

Fond birjası üçün xarakterik olan amillərdən biri də risk amilidir. Belə ki, birjada öz qiymətli kağızını satışa çıxaran emitent və bu qiymətli kağıza sərmayə qoyan investor, eləcə də onlar arasındakı vasitəçilikdən möhtəkir məqsədlərlə istifadə edən şəxslər risklərlə üzləşməli olurlar. Təsadüfi deyil ki, fond birjalarının fəaliyyətinin 70%- i risklə bağlıdır.

Azərbaycanda fond birjasının yaranma tarixi və fəaliyyət qaydaları bir neçə tarixi inkişaf mərhələsindən keçmişdir. Azərbaycanın fond məkanında ilk birja 1991-ci ildə yaradılan "Bakı Qiymətli Kağızlar Birjası" hesab olunur. O vəxt fond birjasının fəaliyyəti Azərbaycan Respublikası Maliyyə Nazirliyinin "Qiymətli Kağızlar Bazarında birja fəaliyyətinin lisenziyalaşdırılması" haqqında verdiyi qanunla tənzimlənirdi.

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin nəzdində yaradılan Qiymətli Kağızlar üzrə komissiya birja fəaliyyətini lisenziyalaşdırır və birja işçilərinin attestasiyası keçirildi.

Bundan sonra 1997-ci il 27 yanvar tarixli Azərbaycan Respublikasının Prezidentinin "bəzi sahibkarlıq fəaliyyəti növlərinə xüsusi razılıq (lisenziya) verilməsi haqqında", 1997-ci il 4 oktyabr tarixli "Xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növlərinin siyahısının təsdiq edilməsi haqqında" fərmanı imzalanmışdır.

Müvafiq fərmanların verilməsindən sonra Azərbaycan Respublikasının Prezidentinin 26 iyul 1999-cu iltarixli fərmanı ilə birja fəaliyyəti üçün baş əlaqələndirici orqan funksiyasını yerinə yetirən Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi yaradılmışdır. Müvafiq əlaqələndirici orqanın yaradılmasından sonra Azərbaycan Respublikasının Prezidenti tərəfindən 18 noyabr 1999-cu ildə "Qiymətli kağızlarla fəaliyyət sahəsində bəzi fəaliyyət növlərinin lisenziyalaşdırılması qaydalarının təsdiq edilməsi haqqında" fərman imzalanmışdır. Bundan sonra 1 oktyabr 2000-ci ildə Bakı Fond Birjasının rəsmi açılış olmuşdur. Beləliklə Azərbaycanın fond məkanında fəaliyyəti həyata keçirən birja yaradılmışdır.

Bakı Fond Birjası qapalı səhmdar cəmiyyəti formasında təşkil olunmuşdur. Birjanı təsis etmiş 19 səhdardan hər biri birjanın nizamnamə kapitalının 300 adi adlı səhminə malikdir. Birjanın təsisçilərinin tərkibinə Azərbaycanın maliyyə və investisiya institutları və bir neçə xarici bank və investisiya şirkətləri daxildir. Təsisçilər bunlardır:

TCFS Services Ltd, Kontinent Bank, M Bank, Cİ Bank, Koç Bank, Most Bank, Yunayted Kredit Bank, Azəriqazbank, Azərdəmiryolbank, Azərbaycan Beynəlxalq Bankı, Bay Bank, Rabitə Bank, BYC Bankı, Azərtürk Bank, İstambul Fond Birjası, İlk Bank.

Bakı Fond Birjasının idarəetmə strukturu aşağıdakı kimidir:

- ali idarəetmə orqanı səhmdarların ümumi yığıncağıdır;
- səhmdarların ümumi yığıncağıbirja şurası üzvlərini seçir;

Birja şurası aşağıdakı orqanlardan ibarətdir:

- birjanın müşahidə şurası;
- maliyyə təftiş komissiyası;
- münsiflər komissiyası;

- idarə heyəti.

Birja şurasının tərkibi səhmdarların təmsilçilərindən ibarət olur. Birja Şurasının sədri səhdarların ümumi yığıncağında seçilir. Bakı Fond Birjasının fəaliyyətinə nəzarəti, işin təşkil olunması və planlaşdırılması vəzifələri Birja Şurasının üzərinə düşür.

Bakı Fond Birjasının nizamnamə kapitalı 5 milyard manat həcmindədir. Eyni zamanda fond birjası adi adlı səhlərdən başqa digər qiymətli kağız buraxa bilməz və ticarəti də yalnız birja üzvləri arasında təşkil edə bilər. Qiymətli kağızlar bazarının digər iştirakçılar yalnız birja üzaləri vasitəsilə əməliyyatlar apara bilər.

Fond birjası fəaliyyətindən əldə etdiyi gəlirlərisəhmdarlar arasında bölüşdürür.

Bakı Fond Birjasının fəaliyyətinin mühüm amili qiymətli kağızın gün ərzində qiymətinin müəyyən edilməsidir. qiymətli kağızın gün ərzində qiymətinin dəyişmə həddi həmi günün ilkin qiymətinin 90%-i həddində müəyyən olunur. Qiymətin dəyişmə həddi artıq olduqda bu barədə QKDK-ə məlumat verilir.

Qiymətli kağızın II səviyyəli kotirovka vərəqəsinə daxil edilməsi üçün tələblər fond birjası tərəfində müəyyən olunur. Emitent qiymətli kağızların listinq prosedurası və kotirovka vərəqəsinə daxil edilməsi barədə ərizə təqdim etdikdən sonra onun daxil olub-olmaması barədə birja iki gün müddətində xəbər verməlibir.

Fond birjasında qiymətli kağızın delistinqi aşağıdakı hallarda həyata keçirilir:

- qiymətli kağızın buraxılışı etibarsız olduqda;
- qiymətli kağızın tədavül müddəti bitdikdə;
- qiymətli kağızın emitenti ləğv edildikdə;
- qiymətli kağızın emitenti müflis elan edildikdə;
- fond birjasının qaydaları ilə müəyyən edilmiş əsaslarla.

Bakı Fond Birjasının fəaliyyətinin mühüm ünsürlərindən biri də müvafiq reyestrlərin aparılmasıdır:

~ üzvlük reyestri;

~ hərrac iştirakçılarının və onların səlahiyyətli treyderlərinin reyestri;

~ hərrac iştirakçılar tərəfindən elan edilmiş sifarişlərin reyestri;

~ fond birjasında bağlanmış əqdlərin reyestri.

Bakı Fond Birjası hər bir ticarət günü bitdikdən bir saat sonra bağlanmış əqdlər haqqında aşağıdakı yekun məlumatları verir:

~ ticarət sessiyası ərzində bağlanmış əqdlərin ümumi məbləği və sayı;

~ qiymətli kağızların orta qiyməti;

~ emitentin adı, qiymətli kağızın növü, kateqoriyası;

~ ticarət sessiyası ərzində qiymətli kağızın ən yüksək alış qiyməti və ən aşağı satış qiyməti.

Bond birjası ticarətə buraxılmış ticarətdə çıxarılmış qiymətli kağızların siyahısını rübdə bir dəfədən az olmayaraq açıqlamalıdır. Həm də fond birjası ticarət sisiyasının gedişi və yekunu haqqında cari məlumatları maraqlı şəxslərə açıqlaya bilər. Bütün bu fəaliyyət qaydaları əvvəldə sadaladığımız qanunlar əsasında formalaşmışdır. Ümumiyyətlə, birja fəaliyyətinin tənzimlənməsi üçün dövlət nəzarətinin olması labüddür.

Dünya təcrübəsində birjaların tənzimlənməsinin iki modelindən istifadə olunur. Bakı Fond Birjasının fəaliyyətinin tənzimlənməsi birinci modelə əsaslanır. Bu modelə görə fond birjalarının tənzimlənməsi sırf dövlət orqanları tərəfindən həyata keçirilir. Elə Bakı Fond Birjasının QKDK-inin nəzdində fəaliyyət göstərməsi buna misaldır.

Bakı Fond Birjası öz fəaliyyətini "Müəssisələr haqqında", "Səhdar Cəmiyyəti haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı haqqında" və "Qiymətli Kağızlar haqqında" verilmiş Azərbaycan Respublikasının qanunları əsasında qurmuşdur.

Aəzərbaycanda fond birjasının təşəkkül tapmış modeli Alman modelinə çox yaxındır. Alman modelində fond birjasının, eləcə də qiymətli kağızlar bazarının tənzimlənməsində mühüm rol Mərkəzi Bankı (Bundes Bank) və qiymətli kağızlar üzrə federal komissiyaya məxsusdur. Eynilə Azərbaycanın fond məkanında bu rolu QKDK-sı və Milli Bank oynayır.

Fond birjalarının fəaliyyətinə dövlət nəzarətinin olması ilə yanaşı özünü tənzimləmə təşkilatlarının da nəzarətinin olması vacibdir. Özünü tənzimləmə təşkilatları öz üzvləri üçün dəqiq standart tələblər müəyyən edən qrumlar statusuna malikdir. Digər tərəfdən, qiymətli kağızlar bazarı iştirakçıları hökumət məmurları ilə müqayisədə bazarın normal tənzimlənməsində daha maraqlı olurlar.

QKDK-si tərəfindən 24 mart 2000-ci il tarixli "Qiymətli kağızlar bazarının peşəkar iştirakçılarının öz-özünü tənzimləyən təşkilatlarının fəaliyyəti"nin qəbul olunmasına baxmayaraq, indiyə kimi Azərbaycan Respublikasında fond bazarı sistemində özünü tənzimləmə təşkilatları formalaşmışdır. Sonda onu deyə bilərik ki, fond birjalarını tənzimləyən dövlət və müstəqil qurumlarının yaradılması artıq qayda halını almışdır. Bu qurumların yaradılması və quruluşu tənzimlənmənin hansı modelinin tətbiq olunmasından və dövlətin quruluşundan asılıdır.

MÜASİR REKLAMIN İNKİŞAFINDA MÜASİR TEXNOLOGİYALARDAN İSTİFADƏ YOLLARI

Zalov O.C.
Azərbaycan Dövlət İqtisad Universiteti

İqtisadi ədəbiyyatda reklamın məzmununa iki yanaşma: dar və geniş mənada yanaşma mövcuddur. *Dar mənada yanaşmaya* görə reklam dedikdə, konkret məhsulun (xidmətin, ideyanın, müəssisənin və s.) təbliğat məqsədilə kütləvi informasiya vasitələrində, həmçinin birbaşa marketinq və internet vasitəsilə pullu, biristiqamətli, qeyri-şəxsi və dolayı müraciət başa düşülür. Reklamın məzmununa *geniş mənada yanaşmada* isə istehsalçının (satıcının) və ya onların nümayəndəsinin potensial istehlakçıya (alıcıya) istənilən müraciəti başa düşülür. *Reklam* - mövcud olanları (əmtəə, xidmət, ideya, təşkilat, şəxs və s.) kimi, yaxud olduğundan daha yaxşı təsvir etməklə insanlarda onlara qarşı xoş münasibət yaratmağa xidmət edən və bu münasibətə müvafiq hərəkətlər etməyə (almağa, səs verməyə, ianə verməyə və s.) sövq edən uzunmüddətli pullu kommunikasiya formasıdır.

Kommersiya internet-layihəsi üçün saytın sadəcə olaraq Şəbəkədə yerləşdirilməsi bəs eləmir: sayta kataloqlara, axtarış sistemlərinə və bir-birinə yaxın olan mövzulara istinadlar edilməli, reklam aksiyaları həyata keçirilməli, məqsədli auditoriya cəlb olunmalı və istehlakçı birlikləri yaradılmalı, yəni *saytpromoutinqlə* məşğul olmaq lazımdır.

Saytpromoutinq — saytların tanınılmasının artırılmasına yönəldilən internet-kommersiya metodları toplusundan ibarətdir və özündə aşağıdakıları cəmləşdirir:

— internet-reklam və alıcıların cəlb olunmasının digər formaları;

— müştərilərin saytda saxlanılması, onlar tərəfindən saytda təklif olunan malların və xidmətlərin alışı, yaxud digər hərəkətlərin yerinə yetirilməsi (qeydiyyatdan keçmə, yeniliklərə abunə yazılışı və s.) metodları;

— saytın və (və yaxud) şəbəkə birliyinin (komyuniti) metodu.[11]

Reklamın klassik anlayışından belə bir nəticəyə gəlmək olar ki, partnyor (tərəfi-müqabillər) proqramlarının yaradılması, daimi auditoriyanın formalaşdırılması, şəbəkə birliklərinin qurulması və s. buna bənzər işlər saytpromoutinqin hissələrindən biridirlər.

Potensial alıcıların əhəmiyyətli hissəsi mallar haqqında informasiyanı İnternetdən alırlar. Onların payı daima artmaqdadır. İnternetə daxil olanların əsas hissəsi – gəlirləri orta səviyyədən yuxarı olan nisbətən cavan adamlardırlar, yəni reklamverənlər üçün daha maraqlı olan əhali kateqoriyalarıdırlar.

Reklam — malın, xidmətin və yaxud müəssisənin şəxsləndirilməmiş təqdimatı olmaqla, adətən ödənilir, kütləvi müştəriyə ünvanlanır və inandırma xarakterinə malik olur. Reklamın bu ənənəvi anlayışı internet-reklamın meydana çıxması, onun targetinq texnologiyaları, maraqların və istehlakçıların üstünlüklərinin izlənilməsi, şəxsləndirilmiş interaktiv reklam və s. ilə çox ciddi dəyişikliklərə məruz qalır.

İnternet-reklam — İnternet şəbəkəsində reklamdır. İnternet-reklam, bir qayda olaraq, ikipilləli xarakter daşıyır. Birinci pillə — *reklamverənlərin nəşrlərdə* yerləşdirilmiş xarici reklamdır. Bu reklamın mümkün olan növlərindən: *bannerləri, mətn bloklarını, bayrikləri, minisaytları, Interstitials* göstərmək olar. Bu reklam adətən reklamverənin birbaşa saytına istinad edir (ikinci pillə).

Web-nəşriyyat — reklam meydançasının sahibi olmaqla, sayt və yaxud digər elektron nəşri kimi ola bilər.

Ənənvi reklamdan fərqli olaraq internet-reklamı aşağıdakı keyfiyyətlər fərqləndirir:

— reklam tədbirlərinin dərindən və operativ təhlilinin avtomatlaşdırılması imkanları;

— reklam tədbirlərinin operativ qaydada və qənaətnən dəyişilməsi və dəqiqləşdirilməsi. Şirkətin reklamda vermək istədiyi informasiya çox tez-tez dəyişir. Yeni-yeni mallar və xidmətlər meydana çıxır, qiymətlər dəyişir və s. Televiziya üçün yeni reklam roliklərinin çəkilməsi, yeni bukletlərin çar olunması –

bütün bunlar reklamverəndən böyük vaxt və maddi məsrəflər tələb edir. İnternet-reklam reklam məlumatlarının məzmununu həddindən artıq operativ və minimal əlavə xərclərlə dəyişməyə imkan verir;

— istifadəçi ilə əks əlaqə, onun münasibətinin (reaksiyasının) alınması və işlənilməsi imkanları;

— məqsədli auditoriyaya və konkret istifadəçilərə fokuslaşdırılmış təsirin (targetinq) effektiv üsulları: reklamın müəyyən tematikserverlərdə göstərilməsi, ancaq müəyyən regionlardan olan istifadəçilər üçün göstərilmə, ancaq müəyyən vaxtda və müəyyən olunmuş intensivliklə göstərilmə və s.;

— Şəbəkə vasitəsilə yaradılan əlaqənin yüksək keyfiyyətdə olması. Reklam üzrə mütəxəssislər təsdiq edirlər ki, istehsalçılar daha çox "gözləri ilə sevirlər": Şəbəkə ilə yayımlanan animasiyalı reklam daha yaxşı qavranılır.

Profaylinqin müasir texnologiyaları internet-istifadəçilər haqqında informasiyanı (onların maraqlarının mövzularını, indentifikasiya xarakteristikalarını) avtomatik olaraq toplamağa imkan verdiyi üçün reklamverənlər reklam kampaniyasını dar istehlakçı qruplarına istiqamətləndirə bilirlər. Məqsədli auditoriyaya əlverişli çıxışın olması reklamverənlərə reklam kampaniyası qarşısında qoyulan məqsədlərə çəkilən xərcləri azaltmağa imkan verir.

İnternetdəki reklam kampaniyası: *mediaplanlaşdırmadan, kampaniyanın aparılmasından* (lazımi hallarda planın dəqiqləşdirilməsi ilə) və *nəticələrin qiymətləndirilməsindən* ibarətdir.

Mediaplanlaşdırma — reklam kampaniyasının planının tərtib olunmasıdır. Plan - reklam materiallarının növlərini, reklam meydançalarını, orada reklamın yerləşdirilməsinin müddəti və növlərini, reklamın tarifləşdirilməsini, reklamın yekun dəyərini və kampaniyanın ehtimal olunan effektivliyini şərtləndirilir. Bəzi hallarda daimi müştərilər dairəsinin – dəfələrlə alışlar edən istifadəçilərin sayının - formalaşdırılması da mümkündür.

Bir tərəfdən yeni daxil olanların cəlb olunması və satış həcmlərinin artırılması metodları kimi, dıgər tərəfdən isə komisiyon haqlarının alınması üsulları kimi elektron kommersiyada *partnyor (tərəfi-müqabil) proqramları* geniş yayımışlar.

Partnyor proqramlarında malların və xidmətlərin sayt-satıcıları və sayt-partnyorlar iştirak edirlər. Partnyorlar özlərində loqotipləri, bannerləri, axtarış formalarını, konkret malların və xidmətlərin sifariş səhifəsini və yaxud sadəcə olaraq satıcıının serverinə istinadı yerləşdirirlər. Bu tipdə istinadlar bir qayda olaraq, *Direct storefront entry* (birbaşa çıxış) prinsipi ilə təşkil olunurlar ki, bu da daxil olanların web-serverin müəyyən səhifəsinə, məsələn, internet-mağazanın kataloquna, köçürülməsi prosesini əhatə edir.

Sayt-satıcı hər bir partnyordan gələn sifarişləri qeydiyyatdan keçirir və partnyorlara komisiyon mükafatını köçürür. Web-naşir (partnyor) onun saytından gələn daxil olanlar tərəfindən edilmiş və haqqı ödənilmiş sifarişlərin statistikasını apara bilər.

Proqramın variantından asılı olaraq komisiyon haqqları aşağıdakı hallarda ödənilə bilərlər:

— kliklərə görə və yaxud partnyorun saytından reklamverənin saytına keçilməsinə görə;

— qeydiyyatdan keçmə və yaxud abunəyə görə (əgər partnyor istinadı ilə gələn istifadəçi anketi doldurursa və yaxud səsvermənin suallarına cavab verirsə, saytın sahibinə müəyyən məbləğ ödənilir. Bu isə müxtəlif marketinq tədqiqatlarının təşkil olunması, potensial müştərilərin məlumat bazasının yaradılması və s. üçün yararlı ola bilər);

— satışa görə (rekalmverənləri daha çox təmin eləyən variant: partnyora istifadəçilər tərəfindən edilən alışlardan asılı olaraq ödənilir; pullar malın pulunun ödənişi faktı üzrə hesablanır).

Partnyor proqramlarına yeni web-naşirlərin cəlb olunması üçün çoxsəviyyəli *referral-proqramlardan* istifadə olunur. Bu ona əsaslanır ki, mövcud partnyor cəlb olunmuş web-naşirlərin qeydiyyatına görə pul alır və yaxud onların gəlirindən faiz götürür.

Partnyor proqramları — malların İnternetdə yeridilməsinin effektiv alətlərindən biridir.

Web-resursun saytpromoutinqi məsələsinin həllinə **Webring,** və yaxud **web-halqa** adlandırılan texnologiya köməklik edir ki, bu da: 1) bir qayda olaraq mövzu (tematika) üzrə oxşar olan bir neçə internet-saytların toplusudur ki, onlarda bir-birləri ilə şəbəkə naviqasiyasının xüsusi alətləri ilə bağlıdırlar. *Webring* məqsədi — sayt-iştirakçıların Şəbəkədə axtarışını asanlaşdırmaq, onalrı daha əlçatan olmasını təmin etməkdir; 2) web-resursun saytpromoutinqinin texnologiyalarından biridir.

Web-halqa — İnternetdə naviqasiyanın ən sadə və effektiv üsullarından biridir. O, faktiki olaraq o deməkdir ki, istifadəçi qrupun istənilən saytından istənilən digər sayta daxil ola bilər, özü də bir neçə üsullarla. Bunun üçün saytın səhifələrində (yaxşı olar ki, birincidə) yuxarı hissədə və yaxud aşağıda naviqasiya paneli yerləşdirilir — bu da Webringdə səyahət aparatıdır.

MƏRKƏZİ BANK VƏ ONUN ƏMƏLİYYATLARI

Mehdibəyli G.Ə.
Azərbaycan Dövlət İqtisad Universiteti

Bank sisteminə malik istənilən ölkənin pul-kredit sistemlərinin əsasını mərkəzi banklar təşkil edir.

Müasir dövlətin bank sistemində mərkəzi banın əsas rolu və mövqeyi bu dlkədə bazar iqtisadiyyatmm səviyyəsi və xarakteri ilə müəyyənləşir ki, bu inünasibətləri sabit hesab etmək düzgün olmazdı. Bunun ən parlaq tərənnümü bnzar münasibətlərinin müxtəlif mərhələlərində mərkəzi bankm rolunun dəyişməsidir.

Bank sistemində mərkəzi bankm əsas rolu və mövqeyi bu ölkədə bazar iqtisadiyyatmm səviyyəsi və xarakteri ilə müəyyənləşir ki, bu münasibətləri sabit hesab etmək düzgün olmazdı. Bazann və ümumiyyətlə maliyyə sektorunun gələcək inkişafımn dövlətin tənnzimləyici orqanı olan mərkəzi banksız təsəvür etmək qeyri mümkündür.

Bank sırasından mərkəzi bankın aynlması ikipilləli bank sisteminin yaranmasma səbəb oldu ki, bu pillənin başında mərkəzi bank durdu. Belə bir sistemin yaranmasmm vacibliyi bazar münasibətlərinin ziddiyyətli xaraktenndən qaynaqlanır. Çünki, bir tərəfdən bazar xüsusi maliyyə resurslarmdan sərbəst istifadəni tələb edir ki, bu da ikipilləli bank sisteminin aşağı piləsinin elementləri ilə təmin olunur, digər tərəfdən isə, bu münasibətlərə dövlət tənzimlənməsi vacibdir ki, bu da xüsusi institutun - mərkəzi bankın olmasmı tələb edir. Beləliklə Mərkəzi Bankin əməliyyatlan və onlann təkmilləşdirilməsi bizə bir sıra nəticələr əldə etmək imkanı vermiş oldu ki, onlar aşağıdakılardır.

- mərkəzi banklarm yaranması bir növ tarixi kəşfdir ki, bu da özlüyündə sahibkarlıqda sərbəstliyi qorumaqla bazara effektiv yiyələnməyə imkan yaradır.

Ayrı-ayrı ölkələrin mərkəzi banklannm fəaliyyətinin araşdırılma nəticəsində demək olar ki:

- mərkəzi banklar, ilk növbədə dövlətlə iqtisadiyyat arasmda vasitəçidir və vasitəçi kimi qanunvericiliklə təsdiqlonmiş alotlor vasitəsilə pul və kredit axımm tənzimləyən bir təşküatdır.

- istənilən ölkənin mərkəzi bankınm fəaliyyətində əsas məqsəd, bütövlükdə maliyyə-bank industriyasmm inkişafı üçün qanunvericilik mühitinin daha da yaxşılaşdırılması, beynəlxalq standartlara uyğun müasir və rəqabətə dözümlü maliyyə- bank xidmətləri bazannm inkişaf etdirilməsi üçün münbit hüquqi bazanm yaradılmasıdır.

- Mərkəzi banklar ənənəvi olaraq dörd əsas funksiyanı yerinə yetirir: banknotlarm inhisarçı emissiyasmı həyata keçirir; banklar bankı kimi çıxış edir; hökumətin bankiri kimi çıxış edir; milli valyutanm pul-kredit tənzimlənməsini və sabitliyinin təmin olunmasmı həyata keçirir.

Azərbaycaan Respublikası Mərkəzi Bankınm fəaliyyətinə gəldikdə, qeyd edək ki, o öz fəaliyyətində sərbəstdir, onun səlahiyyətləri, vəzifə və funksiyaları Azərbaycan Respublikasınm Konstitusiyası ilə və «Azərbaycan Respublikasmın Milli Bankı haqqmda» Qanunu ilə müəyyənləşdirilir. Azərbaycan Respublikasının Milli Bankı haqqmda» Azərbaycan Respublikasmm Qanunu Azərbaycan Respublikası Mərkəzi Bankmın hüquqi statusunu, onun məqsəd, funksiya və səlahiyyətlərini, habelə idarəetmə və təşkilati strukturunu müəyyən edir, dövlətin mərkəzi bankı kimi dövlət hakimiyyəti orqanları ilə və digər şəxslərlə münasibətlərini tənzimləyir.

- Mərkəzi Bankın passiv əməliyyatları sırasında olan banknot emissiyanın müasir mexanizmi kommersiya banklannm, dövlətin kreditləşməsi və qızıl valyuta ehtiyyatlarmm artırılması üzərində qurulmuşdur. Emissiya mexanizmi banknotlarm kredit təminatmı müəyyənləşdirir.

- Mərkəzi bank özünün analoji fəaliyyəti çərçivəsində pul emissiyasmm ölçüsünü müəyyən etmək üçün kommersiya banklarmm kassa dövriyyələrinin proqnozlarından istifadə edir.

- Mərkəzi banklann təyin etdiyi məcburi ehtiyatlar banklarm depozit bazasmm həcminə təsir etdiyindən, banklarm kredit verməsini tənzimləyir və buna görə də bank resurslarmm həcminə təsir edir.

- Mərkəzi Bank, tədavüldəki pul kütləsi (nağd və nağdsız formada) ı təsərrüfat subyektləri tərəfindən ona olan tələbi üstələdiyi zaman məcburi ayırmalar üzrə normativlərin artırılması yolu ilə kredit restriksiyası siyasətini yürüdür. Bununla da o, bankları aktiv əməliyyatların həcmini azaltmağa məcbur edir.

- Mərkəzi Bankın mənfəəti Maliyyə Hesabatlarının Beynəlxalq Standartlanna uyğun olaraq gəlirlərdən xərclərin çıxılması ilə hesablanır. Mərkəzi Bank öz əməliyyatları üzrə faiz dərəcələrini pul bazarının likvidlik vəziyyətini nəzərə alaraq özünün açıq bazar, yenidən maliyyələşdirilmə və depozit

əməliyyatları üzrə faiz dərəcələrini təsbit etməklə və ya hərraclarda tələb və təklif əsasmda müəyyənləşdirir.

Mərkəzi Bankı özünün pul-kredit siyasətini yürütdüyü zaman bu siyasətin yenidənmaliyyələşdirmə faiz dərəcələri, məcburi ehtiyyat normaları və açıq bazarda qiymətli kağızlarla bank əməliyyatlan kimi alətlərindən istifadə edir.

Dünya maliyyə böhranmm ölkə iqtisadiyyatma təsirini azaltmaqməqsədilə Mərkəzi Bank pul və maliyyə sabitliyi siyasətinin əsas istiqamətləri iqtisadi artımm və inkişafm başlıca şərti olan makroiqtisadi sabitliyin qorunmasına, bank sektorunda maliyyə; sabitliyinin təmin olunmasma və maliyyə vasitəçiliyinin dərinləşməsinə yönəltmişdir.

XARİCİ İQTİSADİ SİYASƏTİN STRATEGİYASI

Hüseynli A.Ə.
Azərbaycan Dövlət İqtisad Universiteti

Azərbaycanın iqtisadiyyatı və onun təsərrüfat subyektləri üçün xarici iqtisadi siyasət strategiyasının necə işlənməsi və hansı imkanların, qanunauyğunluqların olmasını müəyyən etmək çox vacibdir. Dövlətin inkişafı cəmiyyətin tələbatlarına cavab verə bilən məhsul, xidmət təklif etmək imkanları olan, mikro səviyyədə fəaliyyət göstərən sahibkarlıq subyektləri ilə sıx bağlıdır. Bununla əlaqədar xarici iqtisadi siyasətin öyrənilməsi respublikamızın iqtisadi potensialının, xüsusi sektorun real vəziyyətinin qiymətləndirilməsinə, fəaliyyət sferasının genişləndirilməsinə təkan verir.

Xarici iqtisadi siyasət strategiyasında Azərbaycanın dünya dövlətləri ilə qarşılıqlı əlaqələri əsas prinsiplərdəndir. Müstəqilliyimizin ilk illərində iqtisadi sabitlik amili əsas götürülsə də, hal hazırda yeni fəaliyyət müstəvisinə keçirilmiş və inkişaf yönündə addımlar atılmaqdadır və nəticədə, Azərbaycan İqtisadiyyatı dünya iqtisadiyyatına inteqrasiya prosesinə fəal qoşulmaqdadır. Uğurla həyata keçirilən strateji neft və qeyri-neft layihələri respublikamızın beynəlxalq iqtisadi sistemə inteqrasiyasının və iqtisadi münasibətlərin coğrafi miqyaslarını əks etdirir.

Bazar münasibətlərinə keçid müasir ictimai-iqtisadi həyatın əsas fundamental qanunauyğunluqlarından biridir. Onu müəyyən edən amillərdən asılı olaraq bu cür keçid həm beynəlxalq-qlobal, həm regional, həm də milli-dövlət səviyyəsində həyata keçirilir. Bu prosesin obyektiv zəruriliyi və qaçılmazlığı məhsuldar qüvvələrin və istehsal münasibətlərinin inkişafının dinamikası və xarakteri ilə şərtlənir.

Xarici iqtisadi siyasət strategiyasına olan bu tələblər kontekstində belə bir nəticə çıxarmaq olar ki, xarici iqtisadi siyasət dedikdə, digər ölkələrlə iqtisadi münasibətlər sahəsində dövlətin həyata keçirdiyi razılaşdırılmış tədbirlərin məcmusu nəzərdə tutulur və bu siyasət xarici ticarəti, beynəlxalq elmi-texniki və mədəni əlaqələri, birgə proqramların həyata keçirilməsini, xarici kapitalın cəlbini əhatə edir. Dövlət xarici iqtisadi siyasət strategiyasını həyata keçirilməsində istifadə edilən konkret alətlərə misal kimi gömrük tariflərini və rüsumlarını, ixrac-idxal məhdudiyyətlərini, valyuta mübadilə məzənnələrini, valyuta nəzarətini göstərmək olar.

Azərbaycanın xarici iqtisadi siyasət strategiyası ölkənini ümumi iqtisadi siyasətinin ayrılmaz tərkib hissəsi olmaqla onun bütün cəhətlərini və əlamətlərinin özündə əks etdirir. Azərbaycanın iqtisadi tərəqqisinə nail olmaq üçün həyata keçirilən xarici iqtisadi siyasət strategiyası aşağıdakıları əhatə etməlidir:

1) maliyyə sabitliyi və sabit maliyyə sisteminin yaradılması;
2) milli ixracatçıların bir çox növ məhsullar (xüsusilə də yüksək emal dərəcəsinə malik olan məhsullar) üzrə dünya bazarlarında köklü mövqe əldə etmələri üçün aktiv struktur siyasəti;
3) ixracatçılar üçün güclü dövlət dəstəyinin təmin edilməsi;
4) xarici kapitalın cəlbinin aktivləşdirilməsi üçün sahibkarlıq mühitinin təkmilləşdirilməsi.

Xarici ticarət siyasətinin mühüm istiqamətlərindən biri də ixracın stimullaşdırılması siyasətidir. Azərbaycanda fikrimizcə, ixracın stimullaşdırılmasının bir neçə metdoundan istifadə etmək məqsədəuyğun olardı:

1.Vergi və gömrük güzəştlərinin tətbiq edilməsi.

2.İnhisarlar və sənayenin prioritet sahələri arasında qarşılqlı münasibətlərin tənzimlənməsi.

3.Xarici ticarət ilə əlaqədar olan sahələrdə məqsədli investisiya proqramlarının hazırlanması və həyata keçirilməsi.

4.İxracın stimullaşdırılmasında lizinq mühüm rol oynaya bilər.

5.İxrac-idxal əməliyyatlarının kreditləşdirilməsinin həyata keçirilməsi üçün güclü kredit təşkilatlarının yaradılması.

6. Azad iqtisadi zonaların bir növü olan xüsusi ixracyönümlü və elmi-texniki zonaların ayardılması.

Beləliklə, xarici iqtisadi siyasətin həyata keçirilməsi zamanı ölkənini dünya təsərrüfat sisteminə inteqrasiyasına önəm verilməli, mövcud ictimai əmək bölgüsü, ixtisaslaşma və kooperasiyalaşmadan çıxış edərək bu siyasət yüksək texnoloji səviyyədə həyata keçirilməlidir.

NEFT EMALI MÜƏSSİSƏLƏRİNDƏ HEYƏTİN İDARƏ EDİLMƏSİNİN TƏŞKİLİ

Quluzadə A.N.
Azərbaycan Dövlət Neft Akademiyası

Bazar iqtisadiyyatı şəraitində,istehsal demokratiyasının genişləndirilməsi,işçilərin istehsalın idarə edilməsində daha çox fəallıq göstərməsi,istehsalın nəticələrinin heyət üzvləri arasında ədalətli bölgüsü və yekun məqam kimi əmək kollektivində sosial-psixoloji tarazlığın bərqərar olması neft emalı müəssisələrinin idarəçiliyində inzibati metodların miqyasını ciddi surətdə məhdudlaşdırmışdır.

Dünya təcrübəsi göstərir ki,idarəetmənin iqtisadi,sosial-psixoloji və inzibati metodlarından məhz kadrların idarə edilməsi sisemində kompleks şəkildə istifadə olunmalıdır.

Neft emalı müəssisələrində kadrlara olan tələbat müəyyən edilərkən və onların gələcəkdə seçilib yeniləşdirilməsi və səmərəli istifadə olunması üçün bir sıra zəruri idarəetmə funksiyaları həyata keçirilir.Həmin funksiyalar aşağıdakılardır:

1.İşçilərin seçilməsi,qiymətləndirilməsi və işə qəbul edilməsi;

2.İşçilərin uyğunlaşdırılması,təlimlənməsi və ixtisasının yüksəldilməsi;

3.Heyətin yaradıcı əməyinin motivləşdirilməsi;

4.Karyeranın planlaşdırılması;

5.Heyətin fəaliyyətinə inteqrativ qaydada ümumi rəhbərlik;

6.Heyətin fəaliyyəti ilə bağlı xərclərin(əməyin ödənilməsi,təhsili,sosial xərclər və s.)idarə edilməsi;

7.İş yerlərinin,əmək fəaliyyətinin təşkili;

8.Heyətin marketinqi(yüksək ixtisaslı işçilərə,menecerlərə tələbatı müəyyən etmə);

9.Fəaliyyətin nəticələrini qiymətləndirmə;

10.Heyət fəaliyyəti üzərində nəzarət,əmək intizamını təmin etmə,münaqişələri tənzimləmə;

11.Heyətin sosial təminatı və hüquqi tənzimlənməsi və s.

Neft emalı müəssisələrinin səmərəli fəaliyyəti onun kadrlarından,orada çalışan işçilərin səriştələrindən,peşəkarlıq və ixtisas səviyyələrindənbilavasitə asılı olur.Onlar əmək vasitələri və predmetlərini təkmilləşdirir və texniki tərəqqinin fasiləsizliyində,müvafiq elmi-tədqiqat və layihə təşkilatları ilə yanaşı,çox mühüm rola malik olurlar.Burada idarəetmə sisteminin səmərəliliyi xeyli dərəcədə onun özünün düzgün təşkilindən asılıdır ki,bu da idarəetmə orqanlarının quruluşunun,idarə qərarlarının əsaslandırılması,qəbul edilməsi və həyata keçirilməsi prosesinin,rəhbərlərin və mütəxəssislərin əməyinin informasiya və texniki idarəetmə ilə əlaqələndirilməsinin planauyğun şəkildə qaydaya salınmasından ibarətdir.Burada idarəetmə subyektinin məqsədi idarəetmə aparatının işlənməsi üçün daha əlverişli şərait yaratmaqdan və istehsalın səmərəliliyinin yüksəldilməsi və ona müsbət təsir göstərilməsindən ibarətdir.

Neft emalı müəssisələrində əmək potensiallarının formalaşması və inkişafı üzrə fəaliyyətinin aşağdakı kompleks istiqamətləri müəyyən edilməlidir:

1)Neft-qaz çıxarma müəssisələrinin insan resurslarının formalaşması və təkrar istehsalı;

2)Əmək fəaliyyətinin səmərəli təşkilinə şərait yaradılmalıdır;

3)Kadr işiprosesi və sosial -əmək münasibətləri idarə olunmalıdır;

4)Kadrların sosial mühafizəsi təmin edilməlidir;

5)Kadr işinin elmi-metodiki və analitik informasiya bazası yaradılmalıdır.

Azərbaycanın bir dövlət kimi möhkəmlənməsində, çiçəklənməsində iqtisadiyyatın inkişafi ən əsas amillərdən biridir, həmçinin hər bir dövlətin yüksək səviyyəli, inkişaf etmiş sənaye ölkəsinə çevrilməsində yüksək ixtisaslı mütəxəssislərin hazırlanması istiqamətində atılan addımlar mühüm rol oynayır. Bu baxımdan sənayeləşmə, elmi-texniki inkişaf yüksək səviyyəli kadrların formalaşması prosesi ilə həmahəngdir.

Müasir dövrdə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən və Azərbaycanı dünyanın ən sürətli inkişaf etmiş ölkəsinə çevirən çoxsaylı tədbirlərin əsas iştirakçılarından biridir. Ölkəmizin əldə etdiyi uğurlar, heç şühəsiz ki, həyatımızın ən müxtəlif sahələrində öz müsbət nəticələrini göstərməkdədir. ARDNŞ üzərinə düşən vəzifələrin məsuliyyətini dərk edərək, istər ölkə daxilində, istərsə də beynəlxalq əlaqələrdə bu inkişaf tendensiyasının təmin edilməsi üçün mühüm tədbirlər həyata keçirir. Bütün sahələrdə beynəlxalq təcrübənin öyrənilməsi və onun milli qanunvericiliyin tələblərinə uyğun olaraq şirkətdə tətbiqi istiqamətində zəruri işlər davam etdirilməkdədir.

Neftin canlı kapitala çevrilməsi, gənc kadrlarının yetişdirilməsi, həmçinin xaricdə təhsil almaları üçün ARDNŞ çoxşaxəli işlər görür. Bu görülən işlər Prezident İlham Əliyevin "Neft kapitalının insan kapitalına çevrilməsi bizim əsas prioritetimizdir" kəlamlarının təsdiqinə bariz nümunədir. Azərbaycan Respublikasında həyata keçirilməkdə olan islahatlar tədrisin təşkili, müasir təlim metodlarının tətbiqi, yeni plan və proqramların, alternativ təlim metodlarının prosesdə istifadəsi, pedaqoji kadrların ixtisasının artırılması və tətbiqini zəruri edir.

NEFTQAZÇIXARMA SƏNAYESİNİN İNKİŞAFINDA İNVESTİSİYA LAYİHƏLƏRİNİN ROLU VƏ ONLARIN ƏSASLANDIRILMASI MEXANİZMİ

İbrahimova G.A.
Azərbaycan Dövlət Neft Akademiyası

Azərbaycan öz müstəqilliyini əldə etdikdən sonra respublikanın neft-qaz sərvətləri xarici dövlətlərin, dünyanın ən iri şirkətlərinin diqqət mərkəzinə çevrilmişdir. Xəzərin zəngin neft ehtiyatları Azərbaycana olan marağı o qədər artırmışdır ki, indi onun neft resurslarından istifadə məsələsinə dünya siyasətinin aparıcı istiqamətlərindən biri kimi baxılır. Artıq bu sahədə bir çox tanınmış nəhəng neft şirkətləri ilə müqavilələr bağlanmış, Azərbaycanın dünyanın inteqrasiyasına qovuşması sahəsində mühüm, konkret addımlar atılmışdır. Belə bir strateji istiqamət respublikada neftqazçıxarma sənayesinin problemlərinin elmi cəhətdən daha ətraflı tədqiq edilməsini zəruri edir. Neftqazçıxarma sənayesində yaranmış vəziyyət Azərbaycanın iqtisadiyyatına, onun tərəqqisinə böyük təsir göstərir. Sahənin inkişafı respublikada neft maşınqayırma, neft emalı, neft kimyası, neftin nəql edilməsi ilə bağlı güclü istehsal infrastrukturlarının yaradılmasını təmin etmişdir. Azərbaycanın elmi-texniki, istehsal potensialını neftqazçıxarma sənayesiz təsəvvür etmək qeyri mümkündür. Məhz buna görə də Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi, onun iqtisadi dirçəlişi, neft və qaz sənayesinin yenidən qurulmasını, inkişaf etdirilmasini son dərəcə obyektiv zərurətə çevirir. Məlumdur ki, neftqazçıxarmanın dinamik inkişafı bir sıra prose qillik əldə etdikdən sonra quruda qazma işlərində müvə slərdən, xüsusilə qazma işlərindən asılıdır. Bu işin ahəngar aparılması neftqazçıxarma sənayesinin ən mürəkkəb, ən çətin istiqamətlərindən biridir. Daha doğrusu, qazma işlərinin dinamikası ilə neftqazçıxarma istehsalı arasında bir qanunauyğunluq mövcuddur. Bir cəhəti də qeyd etmək cismi təbiətlə verildiyindən, burada dövriyyə fondlarına tələb emaledici sahələrdən qat-qat azdır. Bunun əksinə olaraq isə əsas fondlara tələb daha böyükdür. Hazırda sahənin özündə iqtisadiyyatın malik olduğu əsas fondların 50%-dən çoxu cəmlənmişdir. Quyu fondu isə meftqazçıxarma sənayesində böyük çəkiyə malik olam əsas istehsal fondlarının 3/4 hissəsini təşkil edir. Azərbaycana xüsusi marağın onun zəngin neft resurslarının mənimsənilməsində böyük miqdarda investisiya qoyulmasını zəruri edir. Artıq bu sahədə çox konkret addımlar atılmışdır. Bununla belə, quruda olan neft ehtiyatlarının mənimsənilməsi məsələsi də diqqət mərkəzində olmalıdır. Bu təkcə sırf iqtisadi məsələ deyildir və qeyd etdiyimiz kimi bunu mənəvi baxımdan da nəzərə almaq lazımdır.

Azərbaycanın iqtisadiyyatının inkişaf mərhələlərində neftqazçıxarma sahəsinə ayrılan kapital qoyuluşu bütünlükdə xalq təsərrüfatına ayrılan kapital qoyuluşunun 2/3 hissəsini təşkil edirdi. Bu gün də yanacaq kompleksində ayrılan vəsait respublika iqtisadiyyatına investisiya qoyuluşunun yarıdan çoxuna bərabərdir. Lakin bu investisiya dənizdə zəngin neft yataqlarının istismarı ilə bağlıdır və bu demək olar ki, tamamilə xarici investorların payına düşür. Quruda neftqazçıxarma istehsalının normallaşdırmaq üçün isə vəsait çatışmır, daha doğrusu respublikanın mövcud iqtisadi vəziyyəti buna imkan vermir. Əlbətdə bu proses iqtisadiyyatında baş verən sabitləşmə meylləri, bir sıra sahələrdə isə iqtisadi artım çeylləri əsas verir ki, yaxın gələcəkdə daxili mənbələr hesabına səmərəlilik baxımından dənizdəki hasilata nisbətən xeyli aşağıda duran quruda neftqazçıxarma sənayesinə investisiya axını təmin edilsin. Bu işdə mənafeləri

qorumaq prinsipini rəhbər tutmaqla xarici investorların cəlb edilməsi imkanlarından da istifadə edilməlidir. Hazırda ölkə iqtisadiyyatına xarici investorların cəlb edilməsi dövlət siyasətinin ən aparıcı istiqamətlərdən biri kimi qiymətləndirilir. Bu aspektdə neft-qaz sənayesində investisiya layihələri nəzərdən keçirildikdə onun struktur elementlərinin və təsir amillərinin geniş təhlil edilməsi zərurəti mövcuddur. Layihələrin seçimi təhlil obyektinə çevrildikdə tərəflərin maraqları və mövqelərinin öyrənilməsi də vacib şərt sayılır. Müvafiq layihələrin təhlilinə sistemli və situasiyalı yanaşma gerçəkliyi daha dolğun əks etdirir. Sistemli yanaşma prosesində strukturun və ayrı-ayrı elementlərin öyrənilməsi layihələrin təbiəti haqqında daha düşünülmüş fikri formalaşdırır. Lakin hər hansı bir optimal layihədə digər amilləri də nəzərə almaq lazımdı. Belə amillər mövcud məkanda və zaman kəsiyində vəziyyətdə əlaqədar təsirini şərtləndirə bilər. Məhz buna görə də, investisiya layihələrinin ideal perspektivi həm sistemli, həm də situasiyalı yanaşmanın vəhdətində təhlil edilməlidi. Digər tərəfdən bu konteksdə təkrar istehsala yönələn investisiyaların reallaşmasında müxtəlif riyazi-iqtisadi modellərdən istifadə oluna bilər. Belə modellərə istinadən idarəetmənin funksional elementləri, inteqrasiya olunan istehsalın əsas proseslərini əhatə edən strateji, taktiki və operativ planlaşdırmada vahid struktur sxemini yaratmaq mümkündür.

AZƏRBAYCANIN GUAM ÖLKƏLƏRİ İLƏ İQTİSADİ ƏLAQƏLƏRİNİN YUKSƏLDİLMƏSİNİN STRATEGİYASI

Dadaşova J.N.
Azərbaycan Dövlət Neft Akademiyası

GUAM Demokratiya və İqtisadi İnkişaf naminə Təşkilat — Gürcüstan, Ukrayna, Azərbaycan və Moldovanı birləşdirən regional təşkilat. 1997-ci il oktyabrın 10-da yaradılmışdır. 1999-2005-ci illərdə Özbəkistan da təşkilatın üzvü olmuşdur. Təşkilatın adı üzv ölkələrin adlarının ingilis dilindəki baş hərflərindən əmələ gəlir. Özbəkistanın üzv olduğu dövrdə təşkilat GUUAM adlanırdı. GUAM — Azərbaycan, Gürcüstan, Moldova və Ukrayna prezidentlərinin 10 oktyabr 1997-ci ildə, Strasburqda Birgə Kommunike imzalaması ilə bu dörd dövlətin birliyi kimi fəaliyyətə başlamışdır. Kömmunikedə prezidentlər suverenlik, ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı, demokratiya, hüququn aliliyi və insan hüquqlarına hörmət prinsipləri əsasında Avropada sabitliyin və təhlükəsizliyin gücləndirilməsi məqsədilə dördtərəfli əməkdaşlığın inkişaf elətdirilməsinin vacibliyinin vurğulamışlar.

7 iyun 2001-ci ildə Yaltada təşkil olunmuş GUAM-ın ilk zirvə toplantısı onun beynəlxalq struktur kimi formalaşması və institusionallaşmasında böyük rol oynamışdır. Dövlət başçıları tərəfindən imzalanmış GUAM-ın "Yalta Xartiyası" iştirakçı dövlətlər arasında əməkdaşlığın məqsədlərini, prinsiplərini və istiqamətlərini müəyyənləşdirmişdir.

22 may 2005-ci il tarixində GUAM-ın Kişinyovda keçirilmiş zirvə toplantısı üzv-dövlətlərin demokratik cəmiyyət, Avropaya inteqrasiya, iqtisadi inkişaf, regionda sabitlik və təhlükəsizlik məsələlərinə dair vahid baxışlarını nümayiş etdirmişdir. Dövlət başçıları GUAM əsasında beynəlxalq təşkilatın yaradılması zərurətinə dair birgə mövqedən çıxış etmişlər və bununla əlaqədar GUAM Xarici İşlər Nazirləri Şurasına müvafiq qərar vermişlər.

Dövlət başçılarının bu qərarı 22-23 may 2006-cı il tarixində GUAM-ın Kiyev Zirvə Toplantısı zamanı həyata keçmişdir. Belə ki, 1997-ci ildən mövcud olmuş birlik əsasında Demokratiya və İqtisadi İnkişaf naminə Təşkilat – GUAM təsis olunmuşdur. Kiyev Zirvə Toplantısında prezidentlər GUAM-ın Nizamnaməsini qəbul etmişlər. Nizamnaməyə görə demokratik dəyərlərin bərqərar olması, davamlı inkişafın təminatı, beynəlxalq və regional təhlükəsizliyin gücləndirilməsi, Avropaya inteqrasiya, üzv-dövlətlərin iqtisadi, humanitar və sosial sahələrdə əməkdaşlığının genişləndirilməsi təşkilatın başlıca məqsədlərini təşkil edir.

Həmçinin, GUAM dövlət başçıları tərəfindən Kiyev Zirvə Toplantısında qəbul olunmuş "Demokratiya və İqtisadi İnkişaf naminə Təşkilat – GUAM-ın yaradılması haqqında Kiyev Bəyannaməsi"ndə aşağıdakı məqamlar və vəzifələr qeyd olunmuşdur:

1.Demokratiyanın möhkəmləndirilməsi, əsas insan hüquqları və azadlıqlarının qorunması, dövlətlərin iqtisadi inkişafının və təhlükəsizliyinin və sabitliyin təmin olunması;

2.GUAM dövlətlərinin davamlı inkişafı məqsədilə, dinamik iqtisadi artım, sosial ahənglik və ətraf mühitin mühafizəsi vasitəsilə qarşılıqlı əlaqələrinin gücləndirilməsi;

3.Bu dövlətlərin suverenliyini, ərazi bütövlüyünü və azadlığını dağıdan, tam miqyaslı demokratik islahatları həyata keçirilməsini və regionun iqtisadi inkişafını çətinləşdirən, Avro inteqrasiyaya mənfi təsir göstərən və bütün dünya birliyinə çağırış törədən həll olunmamış münaqişələrin nizamlanması məqsədilə fəal əməkdaşlıq;

4.Beynəlxalq terrorizm, ekstremizm və aqressiv separatizm, və həmçinin onunla bağlı olan digər mənfi hallarla mübarizə sahəsində əməkdaşlığın gücləndirilməsi;

5.İqtisadiyyat, ticarət və nəqliyyat sahəsində əməkdaşlığın dərinləşdirilməsi və Azad Ticarət Zonası haqqında Sazişin həyata keçirilməsi;

6.Enerji təhlükəsizliyi sahəsində səylərin fəallaşdırılması;

7.GUAM dövlətlərinin beynəlxalq tranzit potensialından istifadə olunması və s.

GUAM dövlətləri ərazilərində mövcud olan münaqişələrin həlli məqsədilə bir sıra tədbirlər görməkdədirlər. Belə ki, BMT və BMT sistemi təşkilatlarında birgə mövqedən çıxış edərək məqsədyönlü şəkildə iş aparmaq üçün GUAM dövlətləri arasında razılaşma əldə olunmuş, GUAM dövlətlərinin beynəlxalq təşkilatlar nəzdindəki Daimi Nümayəndəliklərinin fəaliyyət planları qəbul olunmuşdur. Bu istiqamətdə aparılan işlərin nəticəsi kimi "GUAM ərazisində uzanmış münaqişələr və onların beynəlxalq sülhə, təhlükəsizlik və inkişafa təsiri" adlanan 42 bənd BMT 61-ci sessiyasının gündəliyinə daxil edilmişdir. 5 dekabr 2007-ci il tarixində bu bənd altında eyni adlı qətnamə layihəsi baxılması üçün BMT Baş Assambleyasında rəsmi yayılmışdır. Hal-hazırda GUAM dövlətləri arasında qətnamənin qəbul olunmasına dair məsləhətləşmələr aparılır.

GUAM-da Azərbaycanın sədrliyi 19 iyul 2007-ci ildə Bakı Zirvə Toplantısından başlayaraq 1 iyul 2008-ci il Batumi Zirvə Toplantısınadək davam etmişdir.

"GUAM: qitələri birləşdirərək" şüarı altında keçirilmiş Bakı Zirvə Toplantısı Təşkilatın inkişafının uzunmüddətli prioritetlərini müəyyən etmiş, onun instusional cəhətdən möhkəmləndirmiş və tərəfdaş ölkələrlə "GUAM+" formasında əməkdaşlığım üstünlüklərini nümayiş etdirmişdir. Azərbaycan Respublikasının Sədrlik proqramında əksini tapmış bu strateji istiqamətlər təşkilatın 2007-2008-ci illər üçün fəaliyyət istiqamətlərinin əsasını təşkil etmişlər. Azərbaycan sədrliyi üzv dövlətlərin və Katibliyin əlaqələndirilmiş səyləri nəticəsində GUAM-ın beynəlxalq mövqeyinin möhkəmlənməsi və təşkilatın keyfiyyətcə yeni inkişafı ilə yadda qalmışdır.

Bakı Zirvə Toplantısının əsas ideyasını təşkil edən regionda ümumi inteqrasiya və təhlükəsizlik məkanının yaradılması ideyası Azərbaycan Sədrliyinin başlıca vəzifəsi idi. Bu ideyadan irəli gələrək Sədrlik edən ölkənin diqqəti GUAM-ın regional əhəmiyyətinin möhkəmləndirilməsinə və ona beynəlxalq dəstəyin gücləndirilməsinə, üzv-dövlətlərin ümumi maraqlarının konsolidasiyasına və Təşkilat daxilində əməkdaşlıq sisteminin inkişaf etdirilməsinə yönəlmişdir.

Bakı Zirvə Toplantısında GUAM Dövlət Başçıları Şurası təşkilat çərçivəsində sahələr üzrə əsas əməkdaşlıq istiqamətlərini müəyyənləşdirən GUAM-ın Sahəvi Əməkdaşlığının İnkişafı Strategiyasını qəbul etmişlər.

Azərbaycanın bir illik sədrliyi kifayət qədər aktiv keçmişdir. Bunun bariz nümunəsi kimi Bakı Zirvə Toplantısından sonra keçirilmiş 27 sentyabr 2007-ci il tarixli Nyu-Yorkda GUAM Xarici İşlər Nazirləri Şurasının (XİNŞ) iclasını, GUAM-ABŞ və GUAM-Polşa görüşlərini, 10 oktyabr 2007-ci il tarixli GUAM+ formatında Vilnüsdə GUAM-ın onilliyinə həsr olunmuş Zirvə Toplantısını, 30 oktyabr 2007-ci il tarixli Vaşinqtonda GUAM-ABŞ görüşünü, 29 noyabr tarixli Madriddə GUAM XİNŞ-in növbəti iclasını, 4-5 dekabr 2008-ci il tarixli Tokioda GUAM-Yaponiya görüşünü, "GUAM ərazisində uzadılmış münaqişələr və onların beynəxalq sülh, təhlükəsizlik və inkişafa təsiri" adlı qətnamə layihəsinin BMT Baş Assambleyasında yayılmasını, GUAM-Aİ əlaqələrinin gücləndirilməsi üçün "GUAM-ın Aİ-də dostları qrupu"u formatında GUAM və Aİ dövlətlərinin xarici işlər nazirliklərinin ekspertləri səviyyəsində görüşü, 19 mart 2008-ci il tarixli GUAM-Avropa Şurası görüşünü, 15-16 aprel 2008-ci il tarixli GUAM dövlətlərinin ərazisində münaqişələrin həllinin prinsipial əsasları, 29-30 aprel 2008-ci tarixli "GUAM-tranzit" və 29-30 may 2008-ci il tarixli Bakıda "GUAM-ın inkişaf strategiyası" beynəlxalq konfranslarını və digər tədbirləri xatırlatmaq olardı.

Azərbaycanın sədrliyi müddətində təşkilatın fəaliyyətinə dair ətraflı məlumat Batumi Zirvə Toplantısında GUAM Dövlət Başçıları Şurası tərəfindən təsdiq olunmuş Hesabatda öz əksini tapmışdır.
1 iyul 2008-ci il tarixində Gürcüstanın Batumi şəhərində GUAM-ın növbəti Zirvə Toplantısı keçirilmişdir.

AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ İQTİSADİ ƏLAQƏLƏRİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

Hacıyeva S.İ.
Azərbaycan Dövlət Neft Akademiyası

Azərbaycan dövləti son illər ayrı-ayrı ölkələrlə ikitərəfli əlaqələrin inkişafına xüsusi əhəmiyyət verir. Artıq bu sahədə müsbət nəticələr əldə edilmiş, qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsi üçün yeni istiqamətlər müəyyənləşdirilmişdir. Azərbaycanın beynəlxalq əlaqələrinin coğrafiyası ildən-ilə genişlənir. Ölkəmizin ikitərəfli əməkdaşlıqda qonşu dövlətlərlə əlaqələri mühüm əhəmiyyət daşıyır. Azərbaycan dövlət müstəqilliyini bərpa edəndən rəsmi Bakı bu məqama xüsusi diqqət yetirmiş, mehriban qonşuluq münasibətlərinin möhkəmlənməsi naminə səyini əsirgəməmişdir. Qardaş Türkiyə ilə əlaqələrin timsalında bu fikri təsdiqləmək olar. Həm regionun, həm də Avropanın enerji təhlükəsizliyinin təmin olunmasına töhfə verən Cənubi Qafqaz enerji dəhlizi, ilk növbədə, Azərbaycan və Türkiyənin siyasi iradəsi ilə gerçəkləşmişdir. Hazırda bu dəhlizi daha da gücləndirmək üçün yeni bir layihəyə başlanılmışdır. Başqa sözlə, Azərbaycandan nəql olunacaq təbii qazın Türkiyə üzərindən tranzit daşınması məqsədilə boru xəttinin inşasını nəzərdə tutan TANAP layihəsinə start verilmişdir. Həmçinin bu gün Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin reallaşdırılması da uğurla davam edir. Heç bir xarici şirkətin və beynəlxalq maliyyə təşkilatının iştirakı olmadan məhz Azərbaycanın təşəbbüsü ilə gerçəkləşdirilən bu layihə Şərq-Qərb nəqliyyat dəhlizinin fəallaşmasına, yükdaşımaların əhəmiyyətli dərəcədə artmasına və nəticə etibarilə regional inkişafın sürətlənməsinə gətirib çıxaracaqdır.

İkitərəfli əməkdaşlıqda qonşu Rusiya ilə olan münasibətlərə də mühüm önəm verilir. Azərbaycan Rusiya Federasiyasının əksər subyektləri ilə birbaşa əməkdaşlıq əlaqələri yaratmış, onların bəziləri ilə hökumətlərarası sazişlər bağlanılmışdır. Bu gün qonşu ölkənin 70-dən artıq regionu Azərbaycanla əməkdaşlıq edir və qarşılıqlı ticarət dövriyyəsinin 70 faizindən çoxu həmin regionların payına düşür.

Azərbaycanda ixracın böyük bir qismini neft, neft məhsulları və qazın satışı təşkil etsə də, xarici ticarətdə qeyri-neft sektorunun payı getdikcə artır. Sözügedən sahədə inkişafı daha sürətləndirmək məqsədilə ölkəmizdə dünya bazarlarında rəqabət apara biləcək keyfiyyətli və beynəlxalq standartlara uyğun məhsulların istehsalı, müasir texnologiya əsasında müəssisələrin qurulması və ixracı stimullaşdıracaq tədbirlərin həyata keçirilməsi prosesi uğurla davam etdirilir. Bu da son nəticədə daxili bazarın idxaldan asılılığının azaldılmasına imkan yaradır. Ümumiyyətlə, son vaxtlar Azərbaycanın qeyri-neft məhsullarının xarici bazarlara ixrac imkanlarının daha da genişləndirilməsi məqsədilə mühüm işlər görülmüşdür. Belə ki, qanunvericilik bazası təkmilləşdirilmiş, ixrac mallarının istehsalı stimullaşdırılmış, ixracın infrastruktur təminatı yaxşılaşdırılmışdır. Sənaye şəhərciklərinin, ixrac bazarı ölkələrində Azərbaycan ticarət evlərinin yaradılması sözügedən istiqamətdə görülən mühüm işlər sırasındadır.İxrac məhsulları arasında xam neft, neft məhsulları, təbii qaz, meyvə-tərəvəz, bitki və heyvan mənşəli piylər və yağlar, idxal məhsulları arasında qida məhsulları, qara metallar və onlardan hazırlanan məmulatlar, maşın, mexanizm, elektrik avadanlıqları, nəqliyyat vasitələri və onların hissələri üstünlük təşkil etmişdir.2014-cü ildə iqtisadi artımın davam etməsinin başlıca mənbəyi qeyri-neft sektoru olmuşdur. Şaxələnmə prosesləri davam etmiş, iqtisadi artımın daxili və xarici tələb mənbələri arasında yenidən balanslaşması müşahidə olunmuşdur. Ötən ilin 11 ayında real ÜDM 2,2%, o cümlədən qeyri-neft iqtisadiyyatında 6,5% artmışdır. ÜDM-in 57%-i qeyri-neft sektorunun payına düşmüşdür. «Sənaye ili» çərçivəsində aparılan məqsədyönlü siyasət emal sənayesində istehsalın artımına müsbət təsir etmişdir. Qeyri-neft sektorunda yüksək iqtisadi fəallıq şəraitində ölkədə 100 mindən çox yeni, o cümlədən 82 mindən çox daimi iş yeri açılmışdır.

2014-cü ildə ölkədə qiymətlərin sabitliyi təmin edilmişdir. Dünya İqtisadi Forumunun son hesabatına görə, Azərbaycan dünyada inflyasiyanın ən aşağı olduğu ölkələrdən biridir. Ötənilin 11 ayında orta illik inflyasiya 2013-cü ilin eyni dövrü ilə müqayisədə 0,8 faiz bəndi azalaraq 1,5% təşkil etmişdir. Bu, ticarət tərəfdaşı ölkələrindəki orta inflyasiyadan (5,2%) əhəmiyyətli səviyyədə aşağıdır.

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsindən verilən məlumata əsasən, 2014-cü ildə Azərbaycan Respublikasının xarici ticarət dövriyyəsinin həcmi 31,02 milyard ABŞ dolları, o cümlədən idxalın həcmi 9,19 milyard ABŞ dolları, ixracın həcmi isə 21,83 milyard ABŞ dolları təşkil etmişdir. Bu dövr ərzində Azərbaycan Respublikası 150 ölkə ilə ticarət sahəsində qarşılıqlı əməkdaşlıq etmiş və xarici ticarət saldosu müsbət 12,64 milyard ABŞ dolları olmuşdur.

AZƏRBAYCANIN NEFT-QAZ STRATEGİYASI VƏ BİM-IN İNKİŞAFINDA ONUN ROLUNUN QİYMƏTLƏNDİRİLMƏSİ

Gülməmmədova A.N.
Azərbaycan Dövlət Neft Akademiyası

Heydər Əliyev 1969-cu ildə Azərbaycana rəhbər seçildikdən sonra sosial-iqtisadi həyatın bütün sahələrində olduğu kimi, neft emalı sənayesində də dərin keyfiyyət dəyişiklikləri baş vermişdir. 1969-cu ildən başlayaraq Azərbaycanın xalq təsərrüfatının bütün sahələri kimi neft və qaz sənayesinin də yüksək dinamik inkişaf mərhələsinə qədəm qoyması ilə səciyyələnir Bu dövrdə Azərbaycanın neft və qaz sənayesinin inkişaf tarixində yeni mərhələ başlayır.

70-80-ci illərdə Azərbaycanda neft sənayesinin inkişafına təkan verən 75 növdə 400-dən çox ağır yük qaldıran kran gəmisi, boruçəkən gəmilər, seysmik, sərnişin və s. gəmi növləri gətirildi. Xəzərdə 2500 t gücündə "Azərbaycan" kranı, "Xəzər" tipli özüqalxan, sonralar isə dənizin 200 m dərinliyindəki sahələrdə işləməyə imkan verən "Şelf" tipli yarımdalma üzən qazma qurğularının alınması nəticəsində dənizin daha dərin sahələrində zəngin neft və qaz yataqlarının kəşf olunmasına imkan yarandı. Nəticədə 60-cı illərin sonu ilə müqayisədə yeni 8 neft və qaz yataqları kəşf edildi, neft ehtiyatları iki, qaz ehtiyatları isə üç dəfə artırıldı. 1975-ci ildə neft və qazın ümumi hasilatı 27,1 mln. t-a (şərti yanacaq) çatdırıldı. 80-ci illərdə üzən qazma qurğularının sayı 11-ə çatdı və onlardan istifadə nəticəsində, indi Azərbaycan neftinin əsas hissəsini təşkil edən dənizin 80-350 m dərinlkdə yatan zəngin neft ehtiyatlarına malik olan yataqlar kəşf olundu (Günəşli, Çıraq, Azəri və b.).

Eyni zamanda neftayırma zavodlarının yenidən qurulmasına başlandı. "Azərbaycanda neftayırma sənayesinin yenidən qurulması" planı mərhələlərlə icra olunduqca, bu sahədə başlanan keyfiyyət dəyişiklikləri də genişlənərək dərinləşirdi. Məsələn, 1976-cı ildə "ELOU-AVT-6", 1980-ci ildə "Katalitik Riforminq", 1986-cı ildə "Neftin kokslaşdırılması", 1993-cü ildə "Katalitik Krekinq" qurğularının inşası, hələ sovet hakimiyyəti illərində onun rəhbərliyi ilə respublikamızda görülən digər işlər, yaradılan möhkəm təməl bu gün müstəqil Azərbaycanda dünya standartlarına uyğun neft sənayesinin formalaşmasına imkan yaratmışdır.

Azərbaycan müstəqillik əldə etdikdən sonra 90-cı illərin əvvəllərində bir çox çətinliklərlə üzləşmişdir. SSRİ-nin keçmiş respublikaları ilə Azərbaycan Respublikası arasında iqtisadi əlaqələrin qırılması, respublika ərazisində qeyri-sabitliyin mövcud olması, maliyyə və texniki təchizatın sıfra enməsi neft və qaz sənayesini ağır böhran vəziyyətinə salmışdır. Bütün bu çətinliklər "Azəri", "Çıraq", "Günəşli" kimi yataqların işlənməsinə imkan vermirdi. Neft sənayesində yaranmış çətin vəziyyətdən çıxmaq və ölkəmizin karbohidrogen ehtiyatlarının mənimsənilməsi üçün iki variantdan birini seçmək lazım idi. Ya 15-20 il ölkəmizin maliyyə-iqtisadi vəziyyətinin əlverişli olmasını gözləmək, ya da xarici neft şirkətlərini dəvət etmək lazım idi. Heydər Əliyev xarici iri neft şirkətlərini Azərbaycana dəvət etmək qərarına gəldi və "Yeni neft strategiyası" tez bir vaxtda işlənib hazırlandı. O dövrdə Azəri-Çıraq-Günəşli (dərin sulu hissəsi) yataqlarının işlənməsi üzrə xarici şirkətlərlə danışıqlara başlandı. 1994-cü ilin sentyabrın 20-də Azəri-Çıraq-Günəşli (dərin sulu hissəsi) yataqlarının işlənməsi üzrə dünyanın 7 ölkəsinin 11 məşhur neft şirkəti ilə "Məhsulun Pay Bölgüsü" sazişi – "Əsrin müqaviləsi" imzalandı.

"Yeni neft strategiyası"nın nailiyyətlərinin aşağdakı istiqamətlərdə reallaşdığını göstərmək olar:

1. Azərbaycanın, neft-qaz layihələrinə beynəlxalq neft korporasiyalarının, bütövlükdə xarici işgüzar dairələrin, iri investisiyaların cəlb edilməsi hesabına dünyanın enerji daşıyıcıları bazarına sürətlə çıxışın təmin edilməsi;

Bütövlükdə "Əsrin müqaviləsi"ndən bugünkü günə qədər xarici neft şirkətləri ilə 26 neft sazişi imzalanmışdır.

2. Azərbaycan neftinin dünya bazarına sərbəst və sürətli çıxışını təmin etmək üçün ixrac boru kəmərləri sisteminin yaradılması;

2002-ci ilin sentyabrın 18-də Bakıda, Səngəçal terminalında Heydər Əliyevin, Türkiyə və Gürcüstan prezidentlərinin iştirakı ilə Bakı-Tbilisi-Ceyhan ixrac neft kəmərinin təməl daşı qoyulmuş və tikintisinə başlanmışdır. BTC-nin Azərbaycan hissəsinin Gürcüstan hissəsi ilə birləşdirilməsi 2004-cü ilin oktyabrında baş tutdu. Sonda Azərbaycan neftini daşıyan ilk tanker Ceyhandan 2 iyun 2006-cı ildə yola düşdü.

Hazırda hasil edilən neftin böyük hissəsi dünya bazarlarına əsasən Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri vasitəsilə çıxarılır.

Yeni neft-qaz strategiyasının ən mühüm tərkib hissələrindən biri Trans Anadolu Qaz Boru Kəməri (TANAP) layihəsidir. TANAP layihəsi qazın Azərbaycanın "Şahdəniz" yatağından Gürcüstan-Türkiyə sərhədi ilə Türkiyənin qərb sərhədlərinədək tədarükünü nəzərdə tutur.

Boru kəmərinin ilkin buraxılışının ildə 16 milyard kubmetr təşkil edəcəyi gözlənilir. Təqribən 6 milyard kubmetr Türkiyəyə, qalanı isə Avropaya tədarük ediləcək. Qaz Türkiyəyə 2018-ci ildə çatacaq, Transanadolu qaz kəmərinin tikintisindən sonra qaz təxminən 2020-ci ilin əvvəlində Avropaya tədarük olunacaq.

3. Azərbaycanın milli sərvəti olan neftdən gələn gəlirlərin gələcək nəsillər üçün toplanaraq artırılması, bu gəlirlərdən ölkəmizin cari sosial ehtiyaclarını, iqtisadi tərəqqi və inkişaf tələblərini nəzərə almaqla, bugünkü nəsillər üçün istifadə edilməsi;

Bu məqsədlə 1999-cu il dekabrın 29-da sabiq prezident Heydər Əliyev "Azərbaycan Respublikası Dövlət Neft Fondunun yaradılması haqqında" fərman imzalamışdır. Dövlət Neft Fondu fəaliyyətə başlayandan indiyə qədər bu fonda neçə milyard ABŞ dolları məbləğində vəsait daxil olmuşdur.

4. Yeni neft strategiyasının həyata keçirilməsinin nailiyyətlərindən biri də Qərbin qabaqcıl texnika-texnologiyasının Azərbaycana gətirilməsidir;

Ölkənin özəl ixrac boru kəmərinə sahib olması onun Rusiyadan asılılığını zəiflətmiş və onun regional enerji layihələrinə qoşulmasına şərait yaratmışdır. Nəticədə belə bir perspektiv meydana çıxmışdır ki, ölkə Orta Asiya neftinin və qazının nəqli üçün tranzit ərazisi kimi istifadə oluna bilər ("Nabukko" layihəsi). Dağlıq Qarabağ münaqişəsi nəticəsində bir milyona yaxın qaçqın öz ev-eşiyini tərk etmək məcburiyyətində qalmışdır. Bəzi qaçqınlar isə hələ də çadır şəhərciklərində yaşayırlar. Bu insanlara kömək məqsədi ilə görülən tədbirlər sayəsində sosial gərginlik aşağı düşmüş və işsizlik problemi qismən də olsa həll edilmişdir.

AZƏRBAYCANIN XARİCİ ÖLKƏLƏRLƏ TİCARƏT ƏLAQƏLƏRİNİN İNKİŞAF PERSPEKTİVLƏRİ

Qocayev A.R.
Azərbaycan Dövlət Neft Akademiyası

Müstəqillik əldə edildikdən sonra xarici iqtisadi, o cümlədən ticarət siyasətinin formalaşması və inkişafı, respublikamız üçün tamamilə yeni olan bu sahədə həyata keçirilən islahatlar bazar islahatlarının mühüm və ayrılmaz hissəsini təşkil edir. Müstəqil Azərbaycanın xarici ticarət siyasətinin formalaşdırılmasını müəyyənləşdirən amillərdən biri ondan ibarət olmuşdur ki, SSRİ –nin tərkibində olduğu müddət ərzində xarici ticarət əlaqələri bütövlükdə dövlətin özü tərəfində həyata keçirilmişdir. Ona görə də xarici ticarətin tənzimlənməsi sahəsində hər hansı bir tədbirin həyata keçirilməsinə zərurət yaranmırdı, ona görə də, idxal və ixrac mərkəzləşdirilmiş planlı qaydada yerinə yetirilirdi. Müstəqillik aktı qəbul edildikdən sonra Azərbaycan Respublikasında 24 iyun 1997-ci ildə "Xarici ticarətin liberallaşdırılması haqqında" Qanun qəbul olundu. Bu qanunu müvafiq olaraq bütün hüquqi şəxslərin xarici iqtisadi fəaliyyətin bütün növlərini həyata keçirmələrinə icazə verildi, barter əməliyyatlarına olan qadağalar ləvğ edildi, gömrük tənzimlənməsi elan olundu.

Azərbaycanın xarici ticarətində dönüş nöqtəsi 1993-cü ilə təsadüf edir. Xalqın iradəsi, çağırışı və təkidi ilə 1993-cü ildə Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanın siyasi və iqtisadi həyatında taleyüklü dəyişikliklərin başlanğıcını qoydu. Azərbaycanı labüd fəlakətdən xilas edən dahi rəhbər Heydər Əliyev ölkənin iqtisadi yüksəlişi üçün də tədbirlər görməyə başladı. Elə ilk günlərdən ARDNŞ-in birinci vitse-prezidenti, millət vəkili İlham Əliyev danışıqlar prosesinə cəlb edildi, yeni neft strategiyasının hazırlanmasının və uğurla həyata keçirilməsinin ən fəal iştirakçılarından oldu. Onun bütün fəaliyyətinin mərkəzində özünün yığcam şəkildə ifadə etdiyi belə bir möhkəm ideya durur: "Bizim məqsədimiz təkcə neft hasil etmək, onu nəql etmək, bundan vəsait əldə etməkdən ibarət deyildir. Bizim məqsədimiz neftdən gələn bütün mənfəətləri həm siyasi, həm iqtisadi, həm də başqa mənfəətləri Azərbaycan xalqının gələcək mənafeyinə, rifahına yönəltməkdən ibarətdir". Onun iştirakçısı olduğu saysız-hesabsız görüş və danışıqlar məhz bu deviz altında keçirilirdi. Əlbəttə, çətinlik və maneələr də olurdu. "Əsrin müqaviləsi" ilə bağlı danışıqların 1994-cü ilin yazında və yayındakı İstanbul və Hyustondakı son mərhələləri xüsusilə ağır keçdi. Bəzən böhran anları da olur, müəyyən şərtlərin qəbuledilməzliyi ucbatından danışıqlar dayandırılma məqamına çatırdı. Bütün çətinliklərə baxmayaraq, müqavilə Azərbaycanın milli mənafeyinə uyğun hazırlandı.

1994-cü il sentyabrın 20-də Bakıda Gülüstan sarayında Xəzərin Azərbaycan sektorundakı "Azəri", "Çıraq", "Günəşli" yataqlarının dərin su qatlarındakı neftin birgə işlənməsi haqqında "məhsulun pay bölgüsü" tipli müqavilə imzalandı. Müqavilə öz tarixi, siyasi və beynəlxalq əhəmiyyətinə görə "Əsrin müqaviləsi" adlanmış, təxminən 400 səhifə həcmində və 4 dildə öz əksini tapmışdır. "Əsrin müqaviləsi"ndə dünyanın 8 ölkəsinin (Azərbaycan, ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç, Yaponiya və Səudiyyə Ərəbistanı) 13 ən məşhur neft şirkəti (Amoko, BP, MakDermott, Yunokal, ARDNŞ, LUKoyl, Statoyl, Ekson, Türkiyə Petrolları, Penzoyl, İtoçu, Remko, Delta) iştirak etmişdir. Bununla da "Yeni neft strategiyası" və doktrinası uğurla həyata keçirilməyə başlandı. "Əsrin müqaviləsi" Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təsdiq edildi və 12 dekabr 1994-cü ildə qüvvəyə mindi. İlk dəfə hesablanmış çıxarılabilən neft ehtiyatı 511 milyon ton olmuş, sonralar qiymətləndirici quyuların nəticələrinə görə bu ehtiyat 730 milyon tona çatmışdır və bununla əlaqədar yataqların işlənilməsinə tələb olunan sərmayə xərcləri 11,5 milyard ABŞ dolları qəbul edilmişdir; ümumi təmiz gəlirdən Azərbaycanın payına 80%, sərmayəçilərin payına 20% düşür.

2014- cü ildə Azərbaycan Respublikasının əsas ticarət tərəfdaşları

Dövriyyədə			İxracda			İdxalda		
Ölkələr	Mln $	%	Ölkələr	Mln **$**	%	Ölkələr	Mln **$**	%
1.İtaliya	5 078,26	16,37	1. İtaliya	4 805,62	22,02	1.Rusiya	1 314,48	14,31
2.Almaniya	2 629,20	8,48	2.İndoneziya	2 012,32	9,22	2.Türkiyə	1 286,64	14,00
3.İndoneziya	2 045,07	6,59	3. Almaniya	1 925,56	8,82	3.Birləşmiş Krallıq	978,34	10,65
4.Rusiya	1 954,75	6,30	4. İsrail	1 766,95	8,09	4.Almaniya	703,64	7,66
5.İsrail	1 790,91	5,77	5. Fransa	1 523,48	6,98	5. Çin	697,08	7,59
6.Türkiyə	1 789,13	5,77	6. Tailand	839,91	3,85	6. ABŞ	563,42	6,13
7.Fransa	1 680,84	5,42	7. İspaniya	783,67	3,59	7.Ukrayna	419,58	4,57
8.ABŞ	1 309,25	4,22	8. Hindistan	778,25	3,57	8. İtaliya	272,64	2,97
9.Birləşmiş Krallıq	1 104,79	3,56	9. ABŞ	745,83	3,42	9.Yaponiya	240,51	2,62
10.Tailand	869,81	2,80	10. Rusiya	640,27	2,93	10.Braziliya	221,43	2,41
11.İspaniya	833,05	2,69	11. Çexiya Respublikası	592,04	2,71	11.Qazaxıstan	221,06	2,41
12.Hindistan	815,20	2,63	12.Portuqaliya	552,15	2,53	12.Niderland	188,84	2,06
13.Çin	760,95	2,45	13. Gürcüstan	529,55	2,43	13.Koreya	186,30	2,03
14.Çexiya Respublikası	637,97	2,06	14. Türkiyə	502,49	2,30	14. Fransa	157,36	1,71
15.Gürcüstan	623,44	2,01	15. Tayvan	432,07	1,98	15. İran	147,16	1,60
Digər	7 093,69	22,88	Digər	3 398,45	15,56	Digər	1 589,22	17,28
Cəmi	**31 016,31**	**100,00**	**Cəmi**	**21 828,61**	**100,00**	**Cəmi**	**9 187,70**	**100,00**

Yanvarın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2014-cü ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib. Dövlət başçısı nitqində 2014- cü ilin ölkəmiz üçün ugurlu olduğunu vurğulayıb. Qarşıya qoyulan mühüm vəzifələrin yerinə yetirilməsi üçün gərgin iş aparılmışdır və 2014-cü ildə də Azərbaycan xalqı təhlükəsizlik şəraitində yaşamışdır. Ölkə iqtisadiyyatı uğurla inkişaf etmişdir. Keçən ilin əvvəlində qarşıya vəzifə qoyulmuşdur ki, həm ümumi daxili məhsul, eyni zamanda, qeyri-neft sektorumuz artsın. Bu iki əsas vəzifə tam şəkildə təmin edilmişdir. İqtisadiyyatımız təxminən 3 faiz artmışdır. Artım olan ölkələrdə bu, 1 faizə qədərdir. Baxmayaraq ki, ilin sonunda neftin qiyməti kəskin şəkildə aşağı düşmüşdür, Azərbaycanda iqtisadiyyat 3 faizə yaxın artmışdır. Ən sevindirici hal ondan ibarətdir ki, qeyri-neft sektorumuz 7 faiz artmışdır. Əhalinin pul gəlirləri isə 4,8 faiz artmışdır.Əhalinin pul gəlirləri inflyasiyanı üç dəfədən çox üstələmişdir. Ölkə iqtisadiyyatına 27 milyard dollar investisiya qoyulmuşdur. Onlardan 16 milyardı daxili sərmayədir. Xarici investisiyalar isə 11 mlrd dollar təşkil etmişdir. 2014-cü ildə Azərbaycan iqtisadiyyatı dünyada rəqabət qabiliyyətliliyinə görə 38-ci yerə layiq görülmüşdür.

TİCARƏT MÜƏSSİSƏLƏRİNİN SATIŞ FƏALİYYƏTİNDƏ MÜASİR MEYLLƏR

Əliyeva T.M.
Azərbaycan Dövlət İqtisad Universiteti

Beynəlxalq iqtisadi münasibətlərin normalaşması şəraitində ticarətin rolu nəzərə çarpacaq dərəcədə artır. Ticarət bazar münasibətlərinin inkişafında daha əhəmiyyətli sferaya çevrilir.Ticarətin vəzifəsi istehsal mallarının son alıcıya çatdırılması ilə bitmir, həm də kefiyyətli ticarət xidməti olmadan mümkun olmayan alıcı tələbinin formalaşmasına aktiv təsir edir.Ticarət ölkə iqtisadiyyatında vacib rol oynayır və dinamik inkişaf edən sahələrdən biri hesab olunur. 2014-cü ilin yanvar-dekabr aylarında ölkənin pərakəndə ticarət şəbəkəsindən əhaliyə satılan mallar 2013-cü ilin müvafiq dövrü ilə müqayisədə 10.0 faiz və ya 2345.8 milyon manat artaraq 22001.7 milyon manat təşkil etmişdir. İstehlak mallarının 99.8 faizi özəl təsərrüfat subyektlərində, o cümlədən 11.5 faizi hüquqi şəxs statuslu özəl müəssisələrdə, 52.4 faizi fərdi sahibkarlara məxsus ticarət subyektlərində, 35.8 faizi əmtəə bazarlarında satılmışdır. İstehlak mallarının ticarət subyektləri üzrə satışı Əmtəə dövriyyəsinin ümumi həcmində qeyri-ərzaq mallarının xüsusi çəkisi artaraq 2013-cü ilin yanvar-dekabr ayları ilə müqayisədə 46.6 faizdən 49.9 faizədək yüksəlmişdir. Pərakəndə şəbəkədə satılmış qeyri-ərzaq mallarının həcmi 16.2 faiz artaraq 10978.8 milyon manata çatmış, əmtəə dövriyyəsi üzrə real artımın 78.4 faizi qeyri-ərzaq mallarının satışı hesabına təmin edilmişdir. Pərakəndə əmtəə dövriyyəsinin ümumi həcmində qida məhsulları, içkilər və tütün məmulalatlarının payı 50.1 faiz təşkil edərək 11022.9 milyon manata bərabər olmuş və 2013-cü ilin yanvar-dekabr aylarının səviyyəsini 3.9 faiz üstələmişdir. Hər bir istehlakçı fərdi istehlak məqsədi ilə pərakəndə ticarət müəssisələrində orta hesabla ayda 97.5 manatlıq qida məhsulları, içkilər və tütün məmulatları, 97.2 manatlıq qeyri-ərzaq malları almışdır. Hal-hazırda Respublikamızda pərakəndə ticarət şəbəkəsi gündən-günə genişlənir. Pərakəndə satış ticarət şəbəkəsi müəssisələrinin 80%-dən çoxu kiçik və orta müəssisələrin payına düşür . Həm də bu müəssisələrin əksəriyyəti geniş çeşidli mal qrupları ilə ticarət edir . 2007-i illə 2001-ci il arasında bu müəssisələrin artımı 5 dəfədən çox olmuşdur . Fiziki şəxslərin , 36.1% -i isə hüquqi şəxs yaratmadan ticarətlə məşğul olan fərdi sahibkarların fəaliyyəti hesabına formalaşmışdır .

Mal yeridilməsi prosesində pərakəndə satış mal dövriyyəsi sonuncu mərhələni təşkil edir. Onun həyata keçirilməsi ilə xalq istehlakı mallarının tədavül prosesi tamamlanır və əmtəə tədavül dairəsindən şəxsi istehlak dairəsinə keçir. Çox mürəkkəb hərəkəti prosesinin son mərhələsi olaraq pərakəndə ticarət istehsal-texniki və geniş tələbat mallarına olan tələbat və qiymət üzrə vacib bir halqadır ki, tələbin indikatoru olur. Məhz, pərakəndə ticarət təkcə bazar mühitinin dəyişikliklərinə dinamik cavab vermir. Cəmiyyətin həyatına onun hər bir üzvünün məmnuniyyətini qazanmaqla təsir edir, onun həyat kefiyyətin xidmətini yüksəldir.Ticarət xidmətinin kefiyyət problem həmişə alıcıları və satıcıları maraqlandırır.Bu qanunauyğun bir haldır. İnsanların həyat səviyyəsi və mədəni səviyyələridə yüksəlir.Belə bir şəraitdə alıcının ona lazım olan mali onun üçün əlverişli bir vaxtda, lazım çeşiddə, daha rahat bir məkanda əldə etmək istəyi tamamilə təbiidir.

Ona görə də rəqabətli bazar şəraitində daha çox ticarət xidmətinə əhəmiyyət verilir. Çünki ticarət xidmətinin kefiyyətindən ,səviyyəsindən istənilən gəlir əldə etmək istəyən müəssisənin effektiv ticarət fəaliyyətindən asılıdır. Ticarət müəssisənin işinin düzgün təşkili yeni,satış mütərəqqiliyi satışda olan məhsulun çesidi,onun mal dövriyyəsinə,son nəticədə isə firmanın maliyyə göstəricilərinə təsir edir.Təklif olunan mal ehtiyatlarının ,firmanın daimi alıcılarının tələbinə müvafiq olmasının təhlili isə firmanın marketinq söbəsinin əsas vəzifəsi hesab olunur.Müştəri mütəhərrikdir,onun üçün hansı pərakəndəci daha yaxşısının təklif etsə ona istiqamətlənəcək, bu baximdan müştərini daimi müştəriyə çevirmək tədbirini işləmək lazımdır. Bunun üçün ona ən geniş çesid, ən ucuz qiymət,ən rahat alış-verış yeri, ən maraqlı stimullaşma kompleksi təklif etmək lazımdır.

İstənilən ticarət müəssisənin işinin təşkilinin vacib momenti tətbiq olunan satış metodlarıdır.Bu xüsusən iri müasir univermaqlar ve müasir supermarketlər üçün aktualdır.Çünki, həmin məkanlarda həmişə çoxlu alıcı axını olur.

Müasir dövrdə ən effektiv satış metodu özünə xidmət hesab olunur. Mal satışı prosesi özündə aşağıdakı əməliyyatları birləşdirir: alıcının qarşılanması,tələbin aşkara çıxarılması, malın tərkibi və göstərilməsi, mal seçiminə yardım olunması məsləhət müsaiətedici əmtəələrin təklifi, yeniliklər,çəkilib bükülmə ,ölçmə işlərini yerinə yetirmək, mal uzrə hesablaşmalar, əlavə xidmətlərin göstərilməsi.

Bizim tərəfimizdən müxtəlif satış metodlarını təhlil olunub.Ayrıca biz satış metodlarının nəzəri əsaslarını təhlil etmisik, həm də pərakəndə şəbəkə olan Mərkəzi univermaqın fəaliyyətini təhlil edərək müəyyən nəticələrə gəlmişik.

Hazırki dövrdə mərkəzi univermaqda xırda pərakəndə və ənənəvi satış metodlarından fərqli olaraq özünə xidmət onun həm sosial, həm dəki iqtisadi effektivliyini artirir.Alıcı özünə xidmətlə mal alışına pis taxtada satıcı ilə ünsiyyətlə mal alışına sərf etdiyindən 3 dəqiqə az vaxt sərf edir.Bu özünə xidmətin sosial effektivliyi ilə xarakterizə olunur.Özünə xidmət mağazalarında quraşdırma və ekspozisiya sahəsinin artması, ticarət zalında daha geniş çeşid yaratmağa imkan verir, buda kompleks mal alışını yüksəldir.Bunun nəticəsi olaraq mağazanın buraxılıs qabiliyyəti artır.Onun mal dövriyyəsi, xalis gəliri artır, tədavül xərcləri azalır.

Tədqiqat göstərdi ki, özünə xidmət sistemində 1 ay sonra mağazanın mal dövriyyəsi 2092,5min manat, 1 il sonra isə 23386 min manat olacaq.Özunə xidmət sisteminin təşkilində alıcı axının 70-80 nəfər (pis taxta arxasından isə 50 nəfər) yüksələcəyi gözlənilir.

Hazırki univermaqlar istehlak bazarında ticarət fəaliyyətini həyata keçirərkən alıcı tələbinin kompleks ödənilməsini və keyfiyyətli ticarət xidməti göstərilməsini düsünürlər.

MİLLİ İQTİSADİYYATIN RESURS TƏMİNATI VƏ ONDAN İSTİFADƏNİN DÖVLƏT MEXANİZMİ

Dadaşova S.R.
Azərbaycan Dövlət İqtisad Universiteti

Azərbaycan müstəqil dövlətə çevrildikdən sonra ölkənin resurs üstünlüklərindən optimal və səmərəli istifadəyə imkan verən iqtisadi strategiyanın formalaşdırılması və reallaşdırılması, milli iqtisadiyyatın inkişaf baxımından müstəsna əhəmiyyətə malik oldu. Belə ki, milli iqtisadiyyatın resurs potensialı onun qarşısında duran sosial-iqtisadi məqsədlərin reallaşmasının mühüm həlledici amili və şərtinə çevrildi. Bu baxımdan bir milli iqtisadiyyatın resurslardan istifadə dərəcəsi nəzərə alınaraq onun malik olduğu resurs üstünlüklərindən optimal istifadəyə imkan verən dövlət tənzimləmə sisteminin formalaşdırılması və reallaşdırılması onun gələcək inkişafının təmin edilməsində müstəsna əhəmiyyətə malikdir. Bu baxımdan hər hansı bir konkret resursun, xüsusən ölkəmiz üçün neft resurslarının iqtisadi inkişafdakı rolunun araşdırılması, iqtisadi inkişafın prinsip və tələblərinə uyğun həmin resurslardan səmərəli, optimal istifadəyə imkan verən iqtisadi mexanizmin formalaşdırılması və reallaşdırılmasının konseptual əsaslarının və prioritetlərinin müəyyənləşdirilməsini bir problem kimi kəskin aktuallaşdırdı.

Belə bir şəraitdə ölkənin malik olduğu, sərəncamında olan resurslar dövlətin səmərəli və optimal tənzimləmə siyasəti nəticəsində o, sosial-iqtisadi inkişafın məqsədlərinin reallaşmasının obyektiv əsasına çevrilir.

Əlbəttə, burada ən prinsipial məsələ indiki və gələcək nəsillərin maraq və mənafelərini nəzərə alaraq neft gəlirlərinin bölüşdürülməsi və səmərəli istifadə edilməsi ilə bağlıdır. Ulu öndər Heydər Əliyev «Əsrin müqaviləsi»ni bağlayaraq və Neft Fondunun fəaliyyətinin konseptual əsaslarını müəyyənləşdirməklə Azərbaycanda neft gəlirlərinin idarə olunması və istifadəsinin ən efektiv modelini yaratdı. Bu model neftin ixracından əldə edilən bütün valyuta gəlirlərinin xüsusi fonda toplanması və həmin vasitələrdən mərkəzləşdirilmiş qaydada bütünlükdə ölkənin prioritet sosial-iqtisadi məqsədlərini reallaşdırmaq üçün şəffaflıq prinsipi tam gözlənilməklə ondan səmərəli stifadəsinə imkan verdi. Bu baxımdan, bu gün uğurla reallaşdırılan neft strategiyası, Azərbaycanın qlobal maliyyə böhranından ən az itki ilə çıxmasının, iqtisadi-siyasi müstəqilliyinin, təhlükəsizliyinin, sabitliyinin təmin edilməsinin və davamlı inkişafa keçidini şərtləndirən ən başlıca amil hesab edilməlidir.

Qlobal maliyyə böhranı göstərdi ki, hər bir ölkənin inkişaf modelinin prinsiplərinə uyğun olaraq həyata keçirilən iqtisadi siyasət, sosial-iqtisadi proseslərin fiskal və monetal tənzimlənməsi, sadəcə olaraq ancaq iqtisadi artımın yüksən sürətinin təmin edilməsi məqsədlərinə istiqamətlənməsi müasir dövrdə məqbul sayıla bilməz. Bu baxımdan, ölkəmizdə yaxın gələcək üçün işlənib hazırlanan beynəlxalq miqyasda baş verən prosesləri, mütərəqqi meyylləri milli iqtisadiyyatın təhlükəsizliyi, dinamik və tarazlı inkişafı, rəqabət qabiliyyətliliyi gözlənilməklə davamlı inkişafın təmin olunmasına istiqamətlənməlidir.

Neft hasilatının artımı və əldə olunan gəlirlərdən istifadənin dövlət tənzimlənməsi sistetminin, modelinin xarakterik cəhətlərinin aşkara çıxarılması, dəyərləndirilməsi resursların mənimsənilməsi prosesində dövlətin iştirakı dərəcəsinin, yerinin və rolunun müəyyən edilməsi bu sferada tətbiq olunan

hüquqi və iqtisadi mexanizmlərin təcrübəsinin tədqiqi, onların ölkəmizə səmərəli tətbiqi prinsiplərini əsaslandırmağa imkan verir.

Neft resurslarından istifadənin dövlət tənzimlənməsinin, xarici ölkələrin təcrübəsinin öyrənilməsi göstərir ki, ümumi cəhətlərə baxmayaraq ayrı-ayrı ölkələrdə tətbiq olunan tənzimləmə modellərin müxtəlifliyi obyektiv olaraq aşağıdakı amil və şərtlərlə izah olunur: dövlətlərin iqtisadi-siyasi və təşkilati quruluşunun müxtəlifliyi; milli iqtisadiyyatın inkişaf səviyyəsinin fərqli olması; regionda gedən geosiyasi proseslərin kəskinliyi; dövlətin iqtisadi proseslərə müdaxilə səviyyəsi; ölkənin iqtisadiyyatında təbii resurslardan istifadə konsepsiyalarının fərqliliyi; neft hasilatının geoloji-coğrafi şəraiti; ölkənin dünya iqtisadiyyatına inteqrasiya dərəcəsi və s.

Dünyanın inkişafının müasir mərhələsində beynəlxalq aləmdə yeni qaydalar, standartlar, paradiqmalar formalaşır. Bu yeni təşəkkül tapan dünya strukturunda Azərbaycanın yeri və rolu, onun geosiyasi, geoiqtisadi mövqeyi, hər şeydən əvvəl, onun zəngin neft yataqları və coğrafi mövqeyi ilə bağlı tranzit-nəqliyyat imkanları ilə müəyyənləşir.

XII BÖLMƏ

MÜHASİBAT UÇOTU

PUL-KREDİT SİSTEMİNDƏ İQTİSADİ TƏHLÜKƏSİZLİYİN TƏMİN EDİLMƏSİNİN ZƏRURİLİYİ

Qurbanov E.R.
Sumqayıt Dövlət Universiteti

İqtisadi təhlükəsizliyin bütün təhdidlərinin bütövlükdə ümumiləşdirilməsi göstərir ki, onlar iqtisadiyyatın ən vacib sferalarını əhatə etmiş, insanın həyat fəaliyyətinin fundamental əsaslarına toxunmuşdur. Məlum oldu ki, struktur cəhətdən yenidənqurma maraqları altında aparılan, lakin istehsalın tənəzzülünə gətirib çıxaran iqtisadi siyasətin həyata keçirilməsinin özü də milli təhlükəsizliyin əsaslarına zərbə vurmaqla, inkişafı süni olaraq ləngidir. Azərbaycanın iqtisadi təhlükəsizliyinin təmin edilməsi sahəsində dövlət strategiyası hər şeydən əvvəl istehsal potensialının və elmi-texniki potensialın lazımi səviyyədə qorunub saxlanmasını, əhalinin həyat səviyəsinin son həddkəmiyyətinə qədər aşağı düşməsinə yol verilməməsini, əhalinin ayrı-ayrı təbəqə və qrupları, ayrı-ayrı millət və xalqları arasında münaqişələrin aradan qaldırılmasını tələb edir.

İqtisadi təhlükəsizliyin təmin edilməsi üzrə dövlət fəaliyyətinin bəzi vacib müddəaları Azərbaycanın sosial-iqtisadi inkişaf proqnozu və hər növbəti il üçün dövlət büdcəsi layihələrinin işlənib hazırlanması prosesində həyata keçirilir. İqtisadi təhlükəsizliyin təmin edilməsi sahəsində dövlət strategiyası həyata keçirilən iqtisadi siyasət çərçivəsində işlənib hazırlanır və reallaşdırılır. Həmin iqtisadi siyasətin əsas istiqamətləri şəxsiyyətin iqtisadi vəziyyətinin sabitliyinə, cəmiyyətin, dövlətin sosial-iqtisadi sabitliyinə nail olunması, vətəndaşların konstitutsiya hüquqlarına və azadlıqlarına əməl edilməsi sayılır. Bu məqsədlə iqtisadiyyata dövlət təsirinin nizamlı və etibarlı sistemi yaradılmalıdır. Həmin sistem ən az itkilərlə mühüm iqtisadi dəyişikliklərin tənzimlənməsini həyata keçirməyə imkan verməli, həm də təhlükəsiz səviyyədə öz üzərinə ölkə iqtisadiyyatının idarə edilməsi və qorunub saxlanması funksiyalarını götürməyə qadir olmalıdır. Bunun üçün dövlətin iqtisadiyyata müdaxiləsinin sərhədləri və meyarları, xüsusilə də dövlət sektorunun sərhədləri dəqiq müəyyən edilməli, eləcə də dövlət tənzimlənməsinin səmərəli metodlarının inkişafı təmin edilməlidir.

«Milli təhlükəsizlik haqqında» AR Qanunun 17-ci maddəsində qeyd edilir ki, «İqtisadi sahədə milli təhlükəsizliyin təmin edilməsi Azərbaycan Respublikasının milli iqtisadiyyatının və iqtisadi münasibətlərinin inkişafına təhlükə yaradan daxili və xarici amillərdən qorunmasıdır». Həmin qanunvericiliyə əsasən, ölkənin sənaye potensialının saxlanılması və möhkəmləndirilməsi üçün dövlət xarici sərmayəçilərə verilmiş zəmanətlərə riayət etməklə, xarici hüquqi və fiziki şəxslərin iştirakı ilə yaradılmış müəssisələrin istifadəsinə, yaxud mülkiyyətindəki iqtisadi obyektlərin vəziyyətinə və istismarına nəzarət etməlidir. Onu da qeyd edək ki. qanunvericiliyə görə, respublikanın strateji ehtiyatlarının istifadəsi üzrə müqavilələrin bağlanmasında və yerinə yetirilməsində milli təhlükəsizliyin təmin olunması tələbləri mütləq nəzərə alınmalıdır. Qanunda həmçinin ölkədə daxili bazarın vahid və müstəqil maliyyə sisteminin, milli valyutanın qorunması, maddi və maliyyə vəsaitlərinin ölkə hüquqlarından qanunsuz çıxarılmasının qarşısının alınması, kommunikasiya və energetika sisteminin fasiləsiz və etibarlı fəaliyyətinin təmin olunması məqsədi ilə kompleks tədbirlərin həyata keçirilməsi təsbit olunur. Qeyd etmək lazımdır ki, iqtisadi strategiyanın başlıca məqsədi Azərbaycanda iqtisadi artımın davam etdirilməsini təmin etməkdən ibarətdir. Şübhəsiz ki, bu yeni əsasda və bazar İqtisadiyyatının yeni institutlarının köməyi ilə baş verməlidir. Bu, prinsip etibarı ilə, iqtisadiyyatın başqa bir strukturunun formalaşmasını və kapitalın iqtisadiyyatın yeni iqtisadi inkişaf istiqamətinə axını üçün şərait yaratmağa qabil olan sənaye-maliyyə və bank strukturlarının yaradılmasını göstərir. Struktur siyasətə belə yanaşmanın fərqləndirici xüsusiyyəti sahələrarası və əmtəə-məhsul yanaşmalarının uzlaşdırılmasından ibarətdir. Əlbəttə, bazar müəyyən edə bilər ki, hansı növ məhsulları və hansı həcmdə istehsal etmək sərfəlidir. Əmtəəni əldə edənə qədər istehsalçı yalnız təxmini bilər ki, onun rentabelliyi və gəlirliliyi necədir. Lakin istiqamətlər, özlüyündə «artım dəhlizi» makroiqtisadi tənzimlənmənin tərkib hissəsi kimi struktur siyasət çərçivəsində işlənib hazırlanır. Odur ki, yeni struktur siyasəti kəsiyində bu və

ya digər əmtəə-məhsul dəstinin seçilməsi real əmtəə bazarlarının dərindən öyrənilməsi əsasında həyata keçirilə və ödəmə, qaytarma və mənfəət normasına əməl etmə prinsiplərinə cavab verə bilər. Qeyd etmək lazımdır ki, mikroiqtisadi səviyyədə struktur siyasətinin həyata keçirilməsi gedişində qarşıda bir sıra vəzifələr durur. Bu məqsədlə, iqtisadi cəhətdən səmərəli müəssisə və təşkilatların inkişafının qorunub saxlanması və stimullaşdırılması, qeyri-səmərəli iqtisadi strukturların ləğv edilməsi və ya yenidən təşkili və qiymət artımlarını dayandırmaq məqsədilə və iqtisadi subyektlərin bazar davranışı normalarının tətbiqi üçün razılaşdırılmış prosesin təşkili həyata keçirilməlidir.

İqtisadi təhlükəsizlik strategiyasının aspektlərindən biri milli valyutanın sabitliyidir. Belə bir qənaətə gəlmək olar ki, monetarist yanaşma çərçivəsində Azərbaycanda hələ də valyutanın sabitliyini təmin etmək mümkün olmamışdır. Onu da qeyd edək ki, milli valyutanın sabitliyi problemi bütün bazar indikatorları sistemində çox mühüm əhəmiyyət kəsb edir. Qiymətlərin tam liberallaşması ilə manatın məzənnəsi istehsal və tədavül xərclərinə, qiymətlərin səviyyə və dinamikasına təsir edən ən başlıca amillərdən birinə çevrilmişdir. Belə ki, əgər 1992-ci ildə və qismən də 1993-cı ildə valyutanın məzənnəsi qiymətlərin dinamikasından asılı idisə, indi hazırda məzənnənin özü qiymətə təsir edən amilə çevrilmişdir.

Keçid dövründə iqtisadi təhlükəsizliyi təmin edən xarici iqtisadi fəaliyyət sahəsində ölkənin iqtisadi maraqlarına riayət etməklə xarici ticarətin inkişafının tənzimlənməsi və onun iqtisadi təhlükəsizliyinin təmin edilməsi, milli iqtisadiyyatın dünya təsərrüfatına inteqrasiyası şəraitində xarici iqtisadi fəaliyyətin iqtisadi səmərəliliyinin yüksəldilməsi məsələsinə xüsusi fikir verilməlidir.

Rusiya iqtisadçısı S.Qlazyevin fikrinə görə ölkədə milli iqtisadi təhlükəsizlik sisteminin formalaşmasında makroiqtisadi sabitliyin qorunub saxlanmasına, davamlı iqtisadi artıma və yoxsulluğun azalmasına imkan verən səmərəli pul-kredit və məzənnə siyasətinin həyata keçirilməsi müstəsna əhəmiyyətə malikdir. Odur ki, neft gəlirlərinin artması şəraitində ölkədə makroiqtisadi əlaqələndirmə mexanizmini daha da gücləndirmək məqsədilə pul-kredit siyasətini iqtisadi siyasətin digər istiqamətləri ilə daha sıx uzlaşdırmaq tələb olunur.

Dövlətin pul-kredit siyasətinin əsas monetar istiqamətlərindən biri də iqtisadiyyatın monetizasiyasının daha da artırılmasından ibarətdir. Bunun üçün makroiqtisadi sferada, o cümlədən valyuta bazarında baş verəcək proseslərin çoxvariantlı inkişaf ssenariləri tərtib edilməli, pul kütləsinə təsir edə biləcək bütün potensial monetar və qeyri-monetar amillər qruplaşdırılmalı və bu əsasda pul təklifinin müvafiq dövr üçün proqnozları verilməlidir.

Qeyd etmək lazımdır ki, pul siyasəti ilə fiskal siyasətin səmərəli şəkildə əlaqələndirilməsi məsələsinə xüsusi diqqət yetirilməlidir. Odur ki, pul təklifi parametrlərinin formalaşa biləcək bütün halları üzrə inkişaf ssenarilərinin və mümkün sterilizasiya variantlarının işlənib hazırlanması mühüm əhəmiyyət kəsb edir ki, bu da pul kütləsinin adekvat səviyyəsini təmin etməyə imkan yaradır.

Bununla yanaşı, maliyyə bazarlarında faiz dərəcələrinin yüksəlməsi meyillərinin, inflyasiyanın artma səviyyədə olmasını, pul təklifinin genişlənməsi və iqtisadi artım proseslərində nəzərə alaraq, gələcəkdə yenidənmaliyyələşdirmə dərəcəsinin 9%-dən 11-13%-ə qədər qaldırılmasını məqsədəuyğun hesab edirik.

Ölkənin pul-kredit siyasətinin səmərəliliyini artırmaq üçün daha əsaslandırılmış qərarların qəbuluna imkan verən iqtisadi tədqiqatlar bazası təkmilləşdirilməlidir. Bu zaman ekonometrik metodların daha geniş tətbiqinə xüsusi fikir verilməli, mütərəqqi ekonometrik modellərin tətbiqi genişləndirilməlidir. Eyni zamanda, yaxın vaxtlarda bank risklərinin qiymətləndirilməsinə və real sektorun ekonometrik modellərinin, habelə ölkə iqtisadiyyatının ümumi makro-modelinin qurulub başa çatdırılmasına nail olunmalıdır.

Nəticə olaraq qeyd etmək olar ki, ölkənin maliyyə-bank sisteminin təhlükəsizliyinin daha da möhkəmləndirilməsi, bank xidmətlərinin əhəmiyyətli dərəcədə genişləndirilməsi, əhalinin və bütövlükdə iqtisadi sferanın maliyyə-bank xidmətlərinə çıxış imkanlarının mühitdə, maliyyə sektorunun digər seqmentlərində və korporativ sektorun özündə ciddi islahatların həyata keçirilməsini və bu tədbirlərin qarşılıqlı əlaqələndirilməsini tələb edir.

НЕКОТОРЫЕ ПРОБЛЕМЫ ОРГАНИЗАЦИИ ФИНАНСОВОГО КОНТРОЛЯ И АУДИТА

Сеидзаде Р.Ш.
Азербайджанский государственный экономический университет

На современном этапе развития рыночных отношений в АР происходят радикальные преобразования важнейших рычагов финансово-экономического управления. В числе этих процессов отмечаются функциональная активизация и реформирование финансового контроля, формирование и совершенствование налогового, таможенного, бюджетного, банковского контроля. В обществе контроль все в большей степени реализуется как средство регулирования при решении конкретных экономических задач. Однако эффективность финансового контроля в стране остается достаточно низкой. Одной из причин сложившегося положения является отсутствие единых правовых и методологических основ осуществления контрольных мероприятий. Не однозначна трактовка вопросов теории и организации контроля, существуют различные терминологические расхождения, в сфере государственного финансового контроля не приняты соответствующие законы и не разработаны стандарты методологического аспекта проведения финансового контроля. Следовательно, назрела необходимость в осмыслении содержания и роли финансового контроля в современных условиях.

Анализ истории и современного состояния государственного финансового контроля в АР, а также зарубежного опыта организации внешнего финансового контроля позволяет сделать вывод, о том что от того, насколько квалифицированно и добросовестно контрольно-финансовые органы справляются с возложенными на них обязанностями, во многом зависит обеспечение экономической безопасности государства, динамичное развитие экономики, рациональное использование всех видов государственных ресурсов, а в целом - социально-экономическое благополучие граждан. Общество весьма заинтересовано в том, чтобы деятельность органов государственного финансового контроля была эффективной и созидательной, т.е. вносила реальный вклад в развитие экономики АР и ее регионов. Бюджет любой страны обеспечивает выполнение целей государственного управления, поэтому в данном случае государственное управление, с финансовой точки зрения, и есть выполнение государственного бюджета, из задач которого может быть выведено понятие института финансового контроля, осуществляющего проверку правильности выполнения государственного бюджета. Государственный финансовый контроль предназначен для реализации финансовой политики государства, создания условий для финансовой стабилизации. Поэтому контроль осуществляется во всех сферах общественного воспроизводственного процесса и сопровождает весь процесс движения денежных фондов, включая и стадию осмысления финансовых результатов. Вместе с тем осуществление финансового контроля в обществе должно учитывать и социальные аспекты его реализации, не допуская усиления административного давления и фискальных претензий государства.

Актуальность исследования вопросов организации финансового контроля в АР на современном этапе заключается в необходимости анализа эффективности его реализации с целью определения основных направлений совершенствования как его организационной структуры, так и методологии проведения. Вместе с тем именно в рамках социологического анализа возможно раскрытие проблемы. Отмеченные аспекты определяют актуальность комплексного исследования вопросов организации финансового контроля в АР.

Социально-экономическая значимость финансового контроля обусловливает неугасаемый интерес к проблематике его осмысления с позиций различных теоретико-методологических подходов. Так, проблемы определения понятия и содержания контроля рассматривались еще Ш. Монтескье и Г.В.Ф. Гегелем. Согласно их мнению, социологический анализ контроля основывается на его понимании как механизма саморегуляции в социальных системах, осуществляемого путем нормативного регулирования поведения индивидов.

Наиболее фундаментальные исследования финансового контроля проводились в рамках финансово-правовой науки. Так, изначально финансовый контроль рассматривался в XIX - начале XX в. не как самостоятельный финансово-правовой институт, а в качестве одного из разделов учения о государственном бюджете, т.е., по существу, отождествляла понятия государственного и бюджетного контроля. Но несмотря на значительное количество монографий по исследованию

данного вопроса в свете административного права, финансов и финансового права, социального управления единого подхода к определению данного понятия нет.

Таким образом, как свидетельствует проведенный анализ, проблема организации государственного финансового контроля на протяжении последних лет является одной из наиболее актуальных в сфере государственного строительства, что находит подтверждение в материалах научно-практических конференций и программных документах высших органов государственной власти. Вместе с тем на настоящий момент отсутствуют исследования, посвященные социологическому анализу данной проблемы. Имеющиеся работы ученых в рамках социологии управления, к сожалению, не анализируют вопросы, посвященные особенностям организации реализации данного направления государственно-властных полномочий, что в рамках отмеченной актуальности свидетельствует о необходимости и востребованности проведения комплексного социологического исследования финансового контроля.

MALİYYƏ BAZARININ ÖLKƏNİN SOSİAL-İQTİSADİ İNKİŞAFINDA ROLU VƏ ƏHƏMİYYƏTİ

Əbdürəhmanova A.A.
Azərbaycan Dövlət İqtisad Universiteti

Maliyyə bazarının ölkə iqtisadiyyatının inkişafında rolu və tutduğu mövqe bazar iqtisadiyyatı yolu ilə inkişaf etmiş ölkələrin təcrübəsində kifayət qədər sübüta yetirilmişdir. Lakin bazar iqtisadiyyatına yenicə qədəm qoymuş Azərbaycan Respublikasında maliyyə bazarının yüksək səviyyədə inkişaf etməməsi səbəbindən ölkənin sosial-inkişafında onun rolu bir o qədər də üstün mövqe tutmur. Lakin buna baxmayaraq dövlətin səyləri, maliyyə bazarının inkişafına, eləcə də onun sosial-iqtisadi inkişafa təsirinin maksimumlaşdırılması məqsədilə qəbul edilmiş dövlət proqramlarının icrası nəticəsində onun rolunun artmasına qismən də olsa nail olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 24 Noyabr 2003-cü il tarixli "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri" haqqında fərmanında iqtisadçılar və bütövlükdə respublikamız iqtisadi xidmət sahələri qarşısında bir sıra həlli vacib olan məsələlər qoyulmuş və onun icra mexanizminin müəyyənləşdirilməsi tapşırıqları verilmişdir. Maliyyə bazarının inkişafı və burada resurs təminatının artırılması, ötürülən informasiyanın şəffaflığının maksimum təmin olunması da bu tədbirlər sırasına daxil edilmişdir.

Maliyyə bazarının ölkənin sosial-iqtisadi inkişafında rolunun artırılması əsasən dövlət tənzimlənməsindən birbaşa asılıdır ki, bu istiqamətdə dövlətin əsas vəzifələri aşağıdakılardan ibarətdir:

- qiymətli kağızlar bazarının inkişafı üzrə dövlət proqramının həyata keçirilməsi;
- peşəkar iştirakçılar və müştərilər üçün qiymətli kağızlar bazarının təhlükəsizliyinin təmin edilməsi;
- qiymətli kağızlar bazarı haqqında açıq informasiya sisteminin yaradılması və bazar iştirakçıları tərəfindən informasiyanın məcburi açıqlanmasına nəzarət edilməsi.

Maliyyə bazarının iqtisadi sistemə təsirini qiymətləndirmək üçün belə bir misala nəzər salaq. Bildiyimiz kimi, inflyasiyanı yaradan səbəblərdən biri də dövriyyədə olan pul kütləsinin artımıdır. Qiymətli kağızlar bazarı ilə inflyasiya qarşılıqlı əlaqədədir. Müvəqqəti sərbəst pul vəsaitlərinin şəxsi istehlaka deyil, investisiya proseslərinə yönəltməklə, inflyasiyanın qarşısını almaq mümkündür. Bu isə yalnız maliyyə bazarının inkişaf etməsi ilə mümkündür. Burada dövlət qiymətli kağızların rolunu xüsusilə qeyd etmək lazımdır. Dövlət və korporativ qiymətli kağızların buraxılışı absarbent rolunu oynayaraq dövriyyədə olan artıq (izafi) pul kütləsini investisiya məqsədlərinə yönəldir ki, bu da inflyasiyanın qarşısını alır. Hazırda buraxılan dövlət qiymətli kağızları (DQİV və notlar) inflyasiyanın aşağı salınmasında öz rolunu oynayır.

Bazar iqtisadiyyatı və ona keçid şəraitində olan ölkələrdə iqtisadiyyat qarşısında duran əsas vəzifələrdən biri də qarşılıqlı borc problemlərinin, həmçinin müəssisələr arasında ödəmələr məsələsinin həll olunmasıdır. Çünki, qarşılıqlı borc probleminin mövcudluğu özuylə bərabər yeni-yeni problemlər də doğurur. Müəssisə vergiləri ödəyə bilmir, çünki mal alıcıları aldıqları mala görə borclarını ödəmirlər. Dövlət isə öz növbəsində vergi daxilolmalarının azlığından büdcə planını yerinə yetirə bilmir və iqtisadiyyatın bəzi sahələrinə dövlət yardımı gecikdirilir və ya ümumiyyətlə yardım edilmir. Bütün bunlar isə ümumilikdə iqtisadi həyata öz təsirini göstərir və dövlət istər

iqtisadi, istər siyasi, istərsə də digər sahələr üzrə gücünü itirir. Beləliklə, müasir dövrdə bu problemlərin həlli üçün dövlət borc bazarının inkişafını daha məqsədəuyğun hesab edir. Bu bazar müəssisənin əsas və dövriyyə vəsaitlərinə olan ehtiyacının təmin olunmasında böyük rol oynayır. Bazarda dövr edən borc qiymətli kağızları ehtiyacı olan sahələri təmin edən qiymətli kağızlar qismində çıxış edir. Borc bazarının əsas elementi olan veksel və istiqrazların hərəkəti zamanı maliyyə resurslarının az effektli sahələrdən çox effektli sahələrə axını baş verir. Bu baxımdan ölkədə borc bazarının inkişafı bütövlükdə müəssisə daxilində olan bir çox problemlərin həllinə kömək edir, resursların səmərəli paylanması təmin olunur. Bu bazarda dövr edən əsas qiymətli kağızlar müxtəlif növ veksellər, korporasiya və dövlət istiqrazları, dövlətin xəzinə öhdəlikləri, əmanət sertifikatları və s. qiymətli kağızlardır.

Qeyd etdiyimiz kimi respublikamızda qiymətli kağızlar bazarının rolu ilk növbədə onun bazar iqtisadiyyatı inkişaf yolunu seçməsi ilə müəyyən olunur. Bazar iqtisadiyyatı isə azad sahibkarlığa əsaslanır. Buna nail olmağın əsas üsulu isə dünya təcrübəsindən məlum olan özəlləşdirmə, yəni dövlət mülkiyyətinin özəlləşdirilməsi prosesinə keçilməsidir. Məhz belə bir şəraitdə, dövlətimizin xarici təcrübəyə əsaslanaraq seçdiyi özəlləşdirmənin həyata keçirilməsi prosesində qiymətli kağızlar bazarının mövcudluğu zərurəti meydana çıxır. Belə ki, özəlləşdirmənin normativ-hüquqi bazasını təmin etmək məqsədilə 7 yanvar 1993-cü ildə "Dövlət mülkiyyətinin özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edildi. Bu prosesin həyata keçirilməsi üçün prezidentin 23 iyun 1992-ci il Fərmanına uyğun olaraq Dövlət Əmlak Komitəsi (hazırda Dövlət Əmlakının İdarə Edilməsi Üzrə Dövlət Komitəsi) yaradıldı. Bu komitəyə dövlət əmlakının özəlləşdirilməsi haqqında proqram hazırlamaq tapşırıldı. Birinci proqramın həyata keçirilməsi istənilən nəticə vermədi və 29 sentyabr 1995-ci ildə 1995-98 illərdə Azərbaycanda dövlət mülkiyyətinin özəlləşdirilməsinin yeni Respublika Proqramı qəbul edildi. Məhz bu proqramın qəbulu ilə özlləşdirmə kimi mühüm problemin həllində fond bazarının iştirak etməsi zəruriliyi meydana çıxdı. Həmin proqramda özəlləşdirmənin müddəti və mərhələləri, məqsədləri, özəlləşdirilən müəssisələrin təsnifatı, onların səhmdar cəmiyyətə çevrilməsi, səhmləşdirmənin konkret variantları, özəlləşdirmə çeklərinin verilmə şərtləri, miqdarı və onlardan istifadə qaydaları öz əksini tapırdı. Müəssisələrin özəlləşdirilməsi bazarın və bazar münasibətlərinin formalaşdırılması; istehsal prosesinə rəqabət qabiliyyətli müəssisələrin cəlb edilməsi; istehsalın idarə olunmasında çevikliyin yüksəldilməsi; xarici investisiyaların cəlb olunması; fond birjası və fond bazarının formalaşdırılması; büdcə kəsirinin azaldılması və ləğv edilməsi və s. kimi problemlərin həlli ilə əlaqələndirilirdi.

Bildiyimiz kimi Respublika Prezidentinin Fərmanına əsasən Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər) qəbul olunmuşdur. Bu proqramda respublikamızın regionlarında müxtəlif iqtisadi və sosial təsərrüfat sahələrinin inkişaf etdirilməsi və mərkəz ilə regionlar arasında bu sahələrdə tarazlığın bərpası nəzərdə tutulmuşdur. Proqramda yuxarıda göstərilənlərlə əlaqədar olaraq müxtəlif tədbirlər, onların məqsədi və icraçıları müəyyən olunmuşdur. Proqramda müəssisələrin fəaliyyətinin bərpa edilməsi, maliyyə bazarının inkişaf etdirilməsi məqsədilə özəlləşdirmə prosesinin sürətləndirilməsi, orta və iri müəssisələrin səhmdar cəmiyyətlərinə çevrilməsi və onların səhmlərinin satışı bəndi nəzərdə tutulmuşdur ki, bu cür irimiqyaslı dövlət proqramının həyata keçirilməsində qiymətli kağızlar bazarının nə dərəcədə böyük rol oynamasından xəbər verir.

Qiymətli kağızlar bazarı yarandıqdan sonra onun ölkəmizin iqtisadiyyatında rolunun artması ilə əlaqədar olaraq dövlət tərəfindən tənzimlənməsi vacibliyi meydana çıxdı. Bununla əlaqədar 26 iyul 1999-cu il Fərmanına uyğun olaraq tənzimləyici orqan olan QKDK təsis edildi. 2000-ci ildə isə Bakı Fond Birjası (BFB) yaradılması ilə ölkəmizdə fond bazarının rolu daha da artdı. Çünki, bu qiymətli kağızlar bazarının mütəşəkkil forması olmaqla mühüm əhəmiyyət kəsb edirdi. Qeyd etmək yerinə düşərdi ki, respublikamızın fond məkanında ilk birja 1991-ci ildə yaradılan "Bakı Qiymətli Kağızlar Birjası" idi. O zaman fond birjasının fəaliyyəti Maliyyə Nazirliyinin "Qiymətli kağızlar bazarında birja fəaliyyətinin lisenziyalaşdırılması haqqında" Qanunu ilə tənzimlənirdi. Lakin həmin ərəfədə büdcə kəsiri və ardı kəsilməyən pul-kredit emissiyası nəticəsində infilyasiya dərəcəsi 50%-i keçmişdi. Bundan sonra ölkədə baş verən siyasi və iqtisadi böhran nəticəsində bu bazarın inkişafına əlverişli şərait yaranmadı və onun fəaliyyəti dayandırıldı.

8 noyabr 1999-cu ildə "Qiymətli kağızlarla fəaliyyət sahəsində bəzi fəaliyyət növlərinin lisenziyalaşdırılması Qaydaları" təsdiq edildi ki, bu da çox mühüm sənəd olmaqla ölkədə sivil kapital bazarı infrastrukturunun yaranması, 12 fəaliyyət növünün tənzimlənməsi, korporativ kağızlar bazarını genişləndirmək və investisiya axınını gücləndirmək məqsədilə onların dövlət tərəfindən nizamlanması yolunda yeni prioritet addımlardan biri oldu.

2000-ci ildə "Azərbaycan Respublikasında qiymətli kağızlar bazarının inkişafı" proqramı (iyul 2000 ci il - dekabr 2001ci il) qəbul olundu. Bu proqramda Azərbaycan Respublikasının qiymətli kağızlar bazarında dövlət siyasətinin və qiymətli kağızlar bazarının inkişafının əsas istiqamətləri müəyyən olunmuşdur. Bazarın inkişafının əsas istiqamətləri kimi qiymətli kağızlar bazarının qanunvericilik bazasının formalaşdırılması, qiymətli kağızlar bazarının infrastrukturunun inkişaf etdirilməsi, institusional investorlar sisteminin yaradılması, qiymətli kağızlar bazarında investorların hüquqlarının qorunması, qiymətli kağızlar bazarı üzrə mütəxəssislərin hazırlanması, beynəlxalq əlaqələrin inkişafı, qiymətli kağızlar bazarında açıq informasiya sisteminin yaradılması nəzərdə tutlmuşdur.

Fond bazarının iqtisadiyyatımızın inkişafindakı rolu nəzərə alınaraq İqtisadi İnkişaf Nazirliyi tərəfindən Azərbaycan Respublikasının 2007-ci il və gələn 3 il üzrə İqtisadi-sosoial İnkişaf Konsepsiyasında bu bazarın gələcək inkişaf istiqamətləri müəyyən edilmişdir. Maliyyə bazarının tərkib hissəsi olan qiymətli kağızlar bazarının inkişafı istiqamətində gələcək prioritetlər Azərbaycanın beynəlxalq kapital bazarına inteqrasiyasının dərinləşdirilməsi, nüfuzlu beynəlxalq təşkilatlar olan İOSCO, Milli Kodlar Agentliklərinin Assosiasiyası (ANNA) və digər beynəlxalq maliyyə təşkilatları ilə əməkdaşlığın qurulması, Euroclear və Clearstream təşkilatlarında beynəlxalq depozitar-klirinq mərkəzlərinə üzv olmaq və ölkə daxilində beynəlxalq standartlara cavab verən vahid dövlət mətbəəsinin yaradılmasından ibarətdir.

AZƏRBAYCANDA KİÇİK BİZNESİN KREDİTLƏŞMƏSİNDƏ BANKLARIN ROLU

Tağıyeva A.V.
Sumqayıt Dövlət Universiteti

Bazar iqtisadiyyatı şəraitində ayrı-ayrı ölkələrin milli iqtisadiyyatının səmərəli inkişafında kiçik biznes fəaliyyəti xüsusi rol oynayır. Belə ki, kiçik biznesin inkişafı mülkiyyətin müxtəlif formalarının meydana gəlməsinə və inkişafına, azad rəqabətə, işgüzarlığa və təşəbbüskarlığa real şərait yaradır. Azərbaycanda biznes fəaliyyətinin inkişafı bir çox çətinliklərlə qarşılaşır. Kiçik biznes iqtisadiyyatda nisbətən yeni bir fəaliyyət sahəsidir. Buna görə də kiçik bizneslə məşğul olan müəssisələrin yaradılmasında və inkişaf etdirilməsində bir sıra problemlər meydana çıxır. Azərbaycanda biznesin inkişafına təsir edən əsas problemlərdən biri də kreditləşmə problemidir.

Yeni yaranmış və ümumiyyətlə fəaliyyətdə olan müəssisələrin də əsas və dövriyyə fondlarının maliyyələşməsi, yeni biznesin yaradılması problemlərinin həlli mənbələrindən biri və əsası bank kreditidir. Mülkiyyət formasından asılı olamayaraq müəssisələrdə dövriyyə vəsaitlərinin çatışmazlıqlarını aradan qaldırmaq üçün müəssisə rəhbərləri bank kreditlərinə müraciət edirlər. Bu, mülkiyyətçilər üçün ona görə sərfəlidir ki, bank onlar üçün müqavilə əsasında səmərəli variantlarda, zəmanət və ya girov əsasında, lazım olan müddətə istənilən məbləğdə vəsaitləri ayıra bilir. Beləliklə, mülkiyyətçinin pul vəsaitlərinə olan tələbatı dərhal ödənmiş olur. Buna görə də pul vəsaitlərinə ciddi tələbat olduğu dövrlərdə heç bir mənbə bank krediti kimi sərfəli şəkildə bu tələbatı ödəyə bilmir. Əgər mülkiyyətçi digər mənbələrdən vəsait cəlb etmək istəsə, bu onun üçün digər ağır şərtlərin meydana çıxmasına səbəb ola bilər. Bank kreditlərinin istifadəsi zamanı mülkiyyətçi yalnız öz arzu və istəyi ilə sərbəst hərəkət edir və bank tərəfindən edilən təklifləri müstəqil olaraq ayırd edir. Mülkiyyətçilərlə münasibətdə olarkən bank özü də maraqlı tərəf kimi çıxış edir. Bir tərəfdən bank kredit vasitəsilə maliyyələşmə prosesini apararaq ölkə iqtisadiyyatının inkişafına kömək edir, yaranan sosial problemlərin həllinin yardımçısına çevrilir. Digər tərəfdən isə mülkiyyətçi ilə qarşılıqlı razılaşma əsasında bağladığı müqaviləyə görə sərəncamında olan sərbəst vəsaitləri dövriyyəyə buraxaraq mənfəət əldə etmək üçün kommersiya məqsədlərini reallaşdırmış olur, əldə etdiyi mənfəətdən vergi ödəyərək yenə də sosial instituta çevrilir. Məhz bazar iqtisadiyyatına keçid dөründə kreditin əhəmiyyəti bu mexanizm reallaşarkən özünü göstərir. Hər bir bankda kreditlər verilərkən ilk əvvəl səlahiyyət bölgüsü aparılmalıdır. Bankdaxili qaydalarda kreditlərin verilməsi funksiyasını yerinə yetirən bankdaxili strukturda (departament, şöbə və s.) kreditlərin məbləğindən (kredit limitlərindən) asılı olaraq kredit sifarişlərinə rəy vermək səlahiyyəti olan şəxslər (vəzifələr) müəyyən olunmalıdır. Səlahiyyətli şəxslər iş təcrübəsindən və müvafiq ştat cədvəlindən asılı olaraq seçilməlidir. Kredit limitlərindən asılı olaraq kredit sifarişinə baxmaq səlahiyyəti olan şəxslər kredit şöbəsində yüksək təcrübə və ixtisas səviyyəsinə malik əməkdaşlardan başlayaraq nisbətən aşağı səviyyəyədək müəyyən edilməlidir. Qaydalarda təcrübəsi daha az olan əməkdaşlar üçün kiçik və mürəkkəb olmayan kreditlərə rəy verə bilməsi barədə şərhlər verilməlidir. Bank kredit siyasətində

müştərilərə kommersiya, daşınar və daşınmaz əmlakın alınması, dövriyyə vəsaiti üçün, kənd təsərrüfatı, tikinti, nəqliyyat və sair sahələr və məqsədlər üçün müxtəlif növ kreditlərin verilməsini müəyyən edə bilər. Bankdaxili qaydalarda verilməsi nəzərdə tutulan kredit növləri ilə yanaşı verilməsi məqsədəuyğun sayılmayan və planlaşdırılmayan kreditlər, habelə müxtəlif növ kreditlərin verilməsi üçün şərtlər müəyyənləşdirilə bilər. Bank kredit siyasətində müxtəlif növ kreditlərin verilməsi barədə qərarlar qəbul edən zaman əməkdaşlarının bilik və təcrübəsini nəzərə almalıdır. Kreditlərin növlərindən asılı olaraq onların qaytarılması üçün maksimum müddət mütərəqqi bank təcrübəsinə uyğun olaraq müəyyən olunur.

Qaydalarda kreditlərin növlərindən asılı olaraq qaytarılması üçün müəyyən olunan maksimum müddət aylarla göstərilməlidir. Kredit müqavilələrində isə kreditlərin qaytarılması qaydalarda müəyyən olunmuş müddətlərdən çox olmamaq şərti ilə kreditin məqsədindən, ödəmə mənbəyindən və real pul axınlarının müddətindən asılı olaraq müəyyən edilir. Kreditlərin növlərindən asılı olaraq onların qaytarılma müddətinin uzadılması və ya vaxtından əvvəl ödənilməsi üçün şərtlər və səbəblər müəyyən oluna bilər. Bank təcrübəsində müddətli kreditlərin əsas və faiz məbləğləri üzrə ödənişlər adətən aylıq nəzərdə tutulur. Lakin maliyyə baxımından sağlam, yaxşı tanınmış, sabit işləyən və əvvəllər banka olan borclarını vaxtlı-vaxtında ödəyən müştərilərə veriləcək 3 aylıq və daha az ödəniş müddəti olan kreditlər, habelə altı ay və daha az ödəniş müddəti ilə tikinti və kənd təsərrüfatının ehtiyacları üçün nəzərdə tutulan kreditlər barəsində fərqli şərtlər müəyyən oluna bilər. Qaydalarda ayrı-ayrı kreditlər və onların müxtəlif növləri üzrə kreditlərin faiz dərəcələrini müəyyənləşdirmək üçün istifadə edilən iqtisadi və bazar şərtləri, habelə müxtəlif amillər nəzərdə tutulmalıdır. Bank rəhbərləri faiz dərəcələrini müəyyən edən zaman resursların dəyərini, kreditlərə xidmət xərclərini, komisyon haqlarını, ümumi inzibati xərcləri, mümkün zərərin ödənilməsi üçün xüsusi ehtiyatı və yetərli miqdarda mənfəəti nəzərə almalıdırlar. Bildiyimiz kimi, bankalrın kreditvermə təcrübəsində girovdan geniş istifadə olunur. Bu baxımdan bankdaxili qaydalarda girovun götürülməsi qaydaları və girovun qiymətləndirilməsi üçün tələblər nəzərə alınmalıdır. Girovun dəyəri bankı kredit əməliyyatı üzrə dəyən zərərdən qorumaq üçün kifayət qədər olmalıdır. Bununla belə qaydalarda qeyd etmək lazımdır ki, kreditlərin qaytarılması üçün götürülən girov yeganə və əsas mənbə deyildir. Kreditin qaytarılması üçün əsas borcalanın sağlam maliyyə vəziyyəti və fəaliyyəti dövründə əldə etdiyi pul vəsaiti olmalıdır. Qaydalarda girov götürüləcək hər bir əmlak növü üzrə dəyərin veriləcək kreditin məbləğinə olan nisbətinin məqbul əmsalları nəzərdə tutulmalıdır. Müvafiq qaydada müştərinin bankda saxlanmış depozitləri və ya dövlət qiymətli kağızları ilə təmin olunmuş kreditləri istisna olunmalıdır.

Qaydalarda daşınmaz əmlakın alınması, tikintisi və istehlak məqsədləri ilə verilən kreditlər üçün borcalan tərəfindən ilkin vəsaitin qoyulması nəzərdə tutula bilər. Yəni bu növ kreditlər verilən zaman kreditləşdirilən layihə üçün borcalan tərəfindən verilən minimum maliyyə vəsaiti müəyyən olunur. Girovun qiymətləndirilməsi mövcud qanunvericiliyə və girovun götürülməsi üçün müəyyən olunmuş qaydalara uyğun aparılmalıdır. Qaydalarda götürülən girovun qiymətləndirilməsinin hansı hallarda bankın mütəxəssisi və ya kənar qiymətləndirici tərəfindən aparılması və qiymətləndirmənin qeyri-obyektiv aparılmasına görə qiymətləndiricinin məsuliyyəti müəyyən olunmalıdır. Girovla təmin olunmuş kreditlərdən dəyən zərərin minimallaşdırılması üçün girovun bazar dəyəri konservativ qiymətləndirmə əsasında müəyyən edilməlidir. Bunun əsas səbəbi verilmiş kreditlər ümidsiz kreditə çevrildikdə girovun əlverişsiz şərtlər əsasında satılması ehtimalıdır. Nəticədə bank girova görə daha az vəsait əldə edə bilər. Girovun növündən və dəyərinin kreditin məbləğinə olan nisbətindən asılı olaraq müxtəlif qiymətləndirmə metodları tətbiq olunmalıdır.

НАЛОГ, КАК ОСНОВНОЙ ИСТОЧНИК УВЕЛИЧЕНИЯ БЮДЖЕТНЫХ ДОХОДОВ

Иманова Т.И.

Азербайджанский государственный экономический университет

По итогам проведенного исследования можно сделать определенные выводы: 1. Система налогообложения является одним из важнейших факторов, влияющих на решение об инвестировании, особенно если речь идет об иностранных инвестициях. В целом на принятие решений об инвестировании оказывают влияние как налоговые, так и неналоговые факторы, при помощи которых осуществляется сравнение потенциальной прибыли от инвестиций и риска. 2. К налоговым факторам, влияющим на инвестиционную деятельность можно отнести: - уровень налога; - гласность налоговой системы; - ставка налога; - база налогообложения; - таможенные

пошлины; - налоговые соглашения. 3. К издержкам налоговых стимулов инвестиционных стимулов относятся: - издержки, связанные с отказом от прибыли; - сложность системы налогообложения; - налоги на фонд заработной платы и рабочую силу; - прямое налоговое стимулирование инвестиций. 4. В целом можно отметить, что основными инструментами налогового стимулирования инвестиционной деятельности самих предприятий являются инвестиционный налоговый кредит, инвестиционная налоговая льгота и инвестиционная налоговая премия.

Налоговые службы АР так определяют основные причины уклонения предприятий от налогообложения (в порядке убывания приоритетности): тяжелое налоговое бремя, сложное финансовое состояние предприятий, недостаточно знание налогового законодательства, преступный умысел предпринимателей, нежелание выполнять свои обязанности перед государством, причем последнее отнесено к области азербайджанского менталитета.

Таким образом, можно утверждать, что в экономическом плане система налогов выполняет свои функции неудовлетворительно.

Наиболее значимые недостатки налоговой политики в Азербайджане, носящие макроэкономический характер, заключаются в следующем: а) отсутствие благоприятного налогового режима для частных инвестиций в экономику; б) огромная нагрузка на фонд оплаты труда (она несколько снизилась после введения единого социального налога); в) отсутствие среднего класса, что приводит к переложению налогов на производственную сферу и ее подавление; г) неравномерное распределение налогового бремени между законопослушными и уклоняющимися от налогов потенциальными плательщиками.

На микроуровне можно выделить следующие недостатки: 1) расхождения между стандартами бухгалтерского учета и налоговым учетом, приводящие к трудоемким корректировкам бухгалтерской прибыли при исчислении налогооблагаемой прибыли; 2) ежемесячные авансовые платежи многих налогов, что приводит к вымыванию собственных оборотных средств предприятий; 3) исключительная множественность налогов; 4) противоречивость и запутанность многочисленных инструкций и разъяснений налоговой службы и Министерства финансов АР, арбитражной практики.

Налоговая политика изначально формировалась с акцентом на фискальные цели. Позиция бизнеса никого не интересовала. Определяя сферу, в которой законодательство в наибольшей мере несовершенно, более 90% руководителей отмечают налоги и обязательные платежи.

Большинство руководителей в качестве недостатков налоговой системы, затрудняющих работу предприятий, отмечают большое число налогов (более 60%), нечеткость документов и частые изменения в налогообложении (примерно 50—55%), а также чрезмерную величину совокупных налоговых выплат (примерно 45—48%). Важная особенность налоговой политики заключается в чрезмерно высокой доле косвенных налогов. По потребительским товарам носителями этих налогов выступают физические лица; поскольку косвенные налоги являются регрессивными, то тем самым существенно снижается жизненный уровень малообеспеченных. Поэтому социальная функция налогов реализуется также недостаточно.

Таким образом, налоговая система и налоговая политика Азербайджанской Республики далеки от совершенства. Необходима рационализация налогообложения.

В первую очередь, экономика Азербайджана как составная часть мировой экономической системы продолжает пользоваться позитивной динамикой международных рынков и источников внешнего финансирования, и это придает дополнительный импульс для экономического роста внутри страны. С другой стороны, поддержка государства экономической активности в стране также положительно влияет на динамику экономики. В прошлом году было продолжено укрепление организационно-технического потенциала налоговой системы, активизировался процесс внедрения современных информационно-коммуникационных технологий во всех сферах налогового администрирования, были подготовлены различные законодательные инициативы в области усовершенствования налогового законодательства и администрирования, расширилась сфера охвата услуг, предоставляемых налогоплательщикам. При оценке итогов прошлого года, коротко можно сказать, что этот период для налоговой службы охарактеризован выходом на более динамичный уровень развития, определением новых приоритетов развития, углублением процесса технологической модернизации. Процесс модернизации налоговой системы Азербайджана всецело связан с процессами, идущими в мировой налоговой системе. С этой

точки зрения, как и во многих странах, и в Азербайджане 2011 год запомнился расширением спектра электронных услуг в налоговой службе, подготовкой законодательных изменений на правовом уровне для внедрения более масштабных технологических процессов. С этой целью со стороны министерства по налогам была принята "Концепция по развитию услуг, оказываемых налоговыми органами, налогоплательщикам (2011-2015 годы)". После завершения осуществления этой концепции сфера обслуживания налогоплательщиков будет построена полностью по-новому и будет полностью интегрировано в систему услуг электронного правительства.

Мы, в то же время, заинтересованы в развитии в стране института независимых налоговых консультантов. В 2011 году мы выступили с законодательной инициативой для организации частной налоговой консультативной службы. Министерство по налогам подготовило и представило в правительство законопроект "О частной налоговой консультативной службе". Мы считаем, что в нашей стране должна постепенно активироваться деятельность частного сектора в области оказания налоговых услуг. Проведенные нами социологические исследования показывают, что часть налогоплательщиков все еще пользуется помощью посторонних лиц во время подготовки налоговых деклараций. Это, в основном, наблюдается среди предпринимателей, работающих в регионах. К примеру, в Ширване и Ленкорани есть частные консультанты, занимающиеся этими услугами. Они оказывают услуги 500-600 физическим лицам. Однако есть необходимость в сертификации таких консультантов. Поскольку оказание этих услуг лицами, не обладающими соответствующими знаниями, в конечном итоге приводит к финансовым санкциям для налогоплательщиков. С этой точки зрения, предпринимателям может оказывать содействие институт сертифицированных частных консультантов. Отмечу, что этот институт широко распространен в западных странах.

MÜƏSSİSƏNİN DEBİTOR VƏ KREDİTOR BORCLARININ UÇOTU

İsgəndərli T.R.
Sumqayıt Dövlət Universiteti

Debitor və kreditor borcunun formalaşması nəticəsində yaranan öhdəliklər təşkilatın uçot obyektlərinin siyahısında mühüm yer tutur. Bu halda maliyyə mühasibatının rolu güclənir. Alıcılar və mal göndərənlərlə hesablaşmalar mürəkkəbləşdikdə və tədiyələrin ödənilməməsi kütləvi hal alduqda maliyyə mühasibatı müəssisənin maliyyə vəziyyəti (tədiyə qabiliyyəti, gəlirlilik) barədə rəy verməlidir.

Müəssisənin cari tədiyə qabiliyyətinin səviyyəsi, maliyyə davamlılığı, iqtisadi və maliyyə şəraiti (malların yığılıb qalması, nağd pula ehtiyac və s.) debitor və kreditor borcunun idarə edilməsini zəruri edir. Bu borclar yaranma müddətləri üzrə ranqlara bölünür.

Borcun idarə edilməsi üçün informasiya hesablaşma hesablarında formalaşan mühasibat uçotu məlumatları ilə təmin edilir: debitor borcu üzrə 62 №-li "Alıcılar və sifarişçilərlə hesablaşmalar" və başqa hesablarda; kreditor borcu üzrə - 60 №-li "Malgöndərənlər və podratçılarla hesablaşmalar", 76 №-li "Müxtəlif debitorlar və kreditorlarla hesablaşmalar" və başqa hesablarda.

Mühasibat uçotu əsasən qeyri-kommersiya xarakterli müxtəlif təşkilatlarla (tədris müəssisələri, elmi təşkilatlar və s.) əməliyyatlar üzrə nəqliyyat təşkilatları ilə, haqqı çeklərlə ödənilən xidmətlərə görə hesablaşmalar barədə informasiya təmin edir. Debitor borcunun uçotu üçün nəzərdə tutulan hesabların debet saldosu; kreditor borcunun uçotu üçün nəzərdə tutulan hesabların kredit saldosu olur. 76 №-li "Müxtəlif debitorlar və kreditorlarla hesablaşmalar" hesabı üzrə debitor və kreditor borcları hissəsində ayrı-ayrılıqda saldo çıxarılır.

Bağlanmış müqavilələrə uyğun olaraq borcun ödənilmə müddətlərinə görə ranqlara bölünməsi müvafiq öhdəliklərin mühasibat uçotuna qəbul edildiyi andan həyata keçirilir: ödənilmə müddəti bir ilə qədər olan borclar qısamüddətli, ödənilmə müddəti bir ildən çox olan borclar uzunmüddətli borclar hesab edilir. Bununla əlaqədar, borcun analitik uçotunun rolu və əhəmiyyəti artır. Müəyyən müəssisəyə münasibətdə malgöndərən və ya alıcı qismində çıxış edən hər bir təşkilat üzrə, eləcə də bilavasitə ilkin sənədlər əsasında borcun ödənilmə müddətlərinə görə analitik uçot aparılır. Debitor borcunun tələb edilməsi üçün iddianın təqdim edilməsi zəruri şərtdir. Yuxarıda sadalanan tədbirlərə riayət edildikdə debitor borcunu tələb edilmiş hesab etmək olar. Bu, təşkilatın rəhbərinin əmri ilə həmin borcun maliyyə nəticələrinə silinməsinə əsas verir. Mənfəət hesabına şübhəli borclar üzrə ehtiyat yaradıldıqda əgər bu hal

uçot siyasətində nəzərdə tutulmuşdursa, hesablarda aşağıdakı qaydada qeydiyyat aparılır.

Şübhəli borclar üzrə ehtiyatın yaradılması aşağıdakı mühasibat qeydi ilə əks olunur:

D-t hesab 91 «Sair gəlirlər və xərclər», subhesab 2 "Sair gəlirlər"

K-t hesab 63 "Şübhəli borclar üzrə ehtiyatlar".

Alınmasına ümid olmayan və ya vaxtı keçmiş borcun il ərzində silinməsi aşağıdakı qeydlə əks olunur:

D-t hesab 63 "Şübhəli borclar üzrə ehtiyatlar".

K-t hesab 62 "Alıcılar və sifarişçilərlə hesablaşmalar", 76 "Müxtəlif debitorlar və kreditorlarla hesablaşmalar".

Təşkilatın müqavilədə müəyyən edilmiş müddətlərdə ödənilməmiş və müvafiq zəmanətlərlə təmin edilməmiş debitor borcu şübhəli borc sayılır. Qüvvədə olan normativ sənədlərə əsasən təşkilatlara başqa hüquqi və fiziki şəxslərlə məhsullara, əmtəə və xidmətlərə görə hesablaşma öhdəliklərinin yerinə yetirilməməsi nəticəsində yaranmış borcların silinməsi üçün göstərilən ehtiyatı yaratmaq hüququ verilmişdir. Ehtiyatın həcmi hər bir borc üzrə borclunun tədiyə qabiliyyətindən və borcun tamamilə və ya qismən ödənilməsi ehtimalından asılı olaraq müəyyən edilir. Ehtiyatın yaradılması üçün zəruri şərt qüvvədə olan qaydaya müvafiq olaraq debitor borcunun tələb edilməsidir.

Şübhəli borclar üzrə ehtiyatın yaradılması və ondan istifadə edilməsi konkret borcun yaranması ilə əlaqədardır. Buna görə də 63 №-li "Şübhəli borclar üzrə ehtiyatlar" hesabı üzrə analitik uçot hər bir borclu üzrə aparılır.

Bu ehtiyatın yaradıldığı ilin sonuna qədər tələb edilməmiş məbləğlər hesabat ilinin mənfəətinə əlavə edilir və bu halda 63 №-li "Şübhəli borclar üzrə ehtiyatlar" hesabının debeti və 99 №-li "Mənfəət və gəlirlər" hesabının krediti üzrə qeydiyyat aparılır.

Ləğvetmə faktı debitor təşkilatın olduğu yer üzrə vergi müfəttişliyinin arayışı ilə sənədləşdirilir. Bu sənəd debitor borcunun kreditor təşkilatın maliyyə nəticələrinə silinməsi üçün əsasdır. Debitor borcunun silinməsinin başqa bir aspekti kreditor təşkilat tərəfindən həmin borcun tələb edilməməsi ilə bağlıdır. Tələb edilməmiş debitor borcu dedikdə elə borclar nəzərdə tutulur ki, kreditor təşkilat həmin borcun qaytarılması üçün bütün mümkün tədbirləri görməmiş olsun.

Bu cür öhdəliklər üzrə son icra müddəti malların alındığı (işlərin görüldüyü, xidmətlərin göstərildiyi) faktiki tarixdən etibarən üç aya, tələb edilməmiş debitor borcunun kreditorların zərərinə silinmə müddəti isə malların, xidmətlərin borclu tərəfindən faktiki alındığı gündən etibarən dörd aya bərabərdir.

Bu halda tələb edilməmiş borc mənfəət vergisi üzrə vergitutma bazasını azaltmır, halbuki tələb edilmiş borc mənfəətdən vergi tutularkən maliyyə nəticəsini azaldır. Praktikada tələb edilməmiş debitor borcunun vaxtında silinməməsi halları mümkündür. Bu borcun məbləği 62 "Alıcılar və sifarişçilərlə hesablaşmalar", 76 "Müxtəlif debitorlar və kreditorlarla hesablaşmalar" və s. hesablarda qalır. Bu onunla izah edilir ki, vaxtında (dörd ay keçdikdən sonra) silinmiş borc vergitutma zamanı nəzərə alınan maliyyə nəticəsini (mənfəəti) azaltmır. Aşkardır ki, bu şəraitdə vergi orqanları tələb edilməmiş debitor borcunun silinməsi qaydasının pozulmasını vergi tutulmalı olan satışdankənar gəlirin azaldılması kimi qiymətləndirirlər.

MÜHASİBAT BALANSININ İQTİSADİ OXUNUŞU VƏ ONUN BEYNƏLXALQ STANDARTLARA UYĞUNLAŞDIRILMASI PROBLEMLƏRİ

Orucov İ.Ş.
Sumqayıt Dövlət Universiteti

Azərbaycanda həyata keçirilən iqtisadi və siyasi islahatların nəticəsində mühasibat uçotunun mahiyyəti və funksiyaları müəssisədə onun yerinə yetirdiyi vəzifələri dəyişmişdir.

Bazar iqtisadiyyatına keçidlə əlaqədar olaraq dövlət mühasibat uçotunun ciddi tənzimləmədən çox variantlı yanaşmaya keçmişdir. Hal hazırda bir çox hallarda uçot sisteminin ayrı-ayrı parametrlərini, uçot sistemini müəssisə özü seçir. Mühasibat uçotu sahəsində dəyişikliklər bir sıra iqtisadi və hüquqi xarakterli daxili və xarici amillərin təsiri nəticəsində zəruri olmuşdur.

Hazırkı dövrdə dünya ölkələri arasında olan iqtisadi əlaqələr mühasibat uçotunu vacib beynəlxalq münasibətlər vasitəsnə çevirmişdir. Millətəlrin bir-biri ilə beynəlxalq iqtisadi əlaqələrinin getdikcə daha

da genişlənməsi, onların sosial və iqtisadi xarakterinin möhkəmliyi dövlətlər arasında əməkdahlığın səviyyəsinin yüksəlməsinə şərait yaradır.

Müasir şəraitdə bütün bunlarla yanaşı, mühasibat uçotu beynalq sistemi, standartları və prinsiplərinin təhlili və öyrədilməsi mühüm əhəmiyyətə malikdir.

Bazar münasibətlərinin idarə olunması ilə əlaqədar olaraq faydalı və təkmilləşmiş idarəetmə formasının yaradılması, vergi siyasətinin müasir formalarının işlənib hazırlanması, mövcud mülkiyyətlə kirayə münasibətlərinin təkmilləşdirilməsi və bir sıra digər məsələlər qəti şəkildə beynəlxalq təcrübədən istifadə olunması əsasında mühasibat uçotu və hesabatının ətraflı öyrənilməsi və təkmilləşdirilməsini qarşıya qoyur.

Qeyd olunmalıdır ki, dünya ölkələri arasında sahibkarlıq fəaliyyətinin beynəlmiləlləşdirilməsi prosesi ilə əlaqədar olaraq mühasibat uçotunun bir sıra əməliyyatları elmi və təcrübi baxımdan beynəlxalq xarakter almaqdadır.

Dünyanın bir sıra ölkələrində iqtisadiyyatın beynəlmiləlləşdirilməsi prosesi geniş şəkildə həyata keçirilməkdədir. Beynəlmiləlləşdirilmə prosesi bir sıra ölkələrdə sərmayələrlə nəzarət paketinin alınması, yaxud bəzi firmaların xarici ölkə firmaları ilə birləşməsi əməliyyatı ilə həyata keçirilir. Ölkələr arasında beynəlmiləlləşdirilmə prosesinin genişlənməsi ölkələrin birjalarında səhmlərin və qiymətli kağızların satışının təşkil olunmasıdır.

Dünya ölkələrinin hər birinin iqtisadi və tarixi inkişafı ilə əlaqədar özünəməxsus göstəriciləri ilə fərqlənir. Eyni fikirlər mühasibat uçotunun yaranması və inkişafı prosesinə də aiddir. Mühasibat uçotunun prinsipləri ABŞ-da və digər ölkələrdə mövcud olan ictimai-iqtisadi quruluşun xarakteri və uçotun aparılmasına təsir edən amillərin nəticəsi ilə əlaqədardır. Bunlarla yanaşı, bütün ölkələrdə mühasibat uçotunun aparılması prinsiplərində müəyyən oxşarlıq və yaxınlıq əlamətləri vardır.

Mühasibat uçotu siyasət və ideologiya kimi milli sərhədlə məhdudlaşmır. Uçotun aparılması prinsipləri ixrac, idxal olunur və bunula bir daha sübut olunur ki, müxtəlif ölkələrdə istifadə olunan mühasibat uçotunun ümumi prinsiplərində xeyli yaxınlıq və oxşarlıq mövcuddur. Xüsusilə iqtisadi cəhətdən bir-biri ilə əlaqədar olan ölkələrdə uçotun oxşarlığı daha geniş şəkildə özünü göstərir. Hazırda bütün keçmiş Ingiltərə müstəmləkələri Britaniya uçotu forması üzrə işləyirlər. Böyük Britaniyanın həmin ölkələrdə təsir dairəsi elə böyükdür ki, uçot prinsiplərinin ixracı ilə yanaşı, kadr hazırlığı da həyata keçirilir.

Müəssisələrdə təsərrüfatçılığın səmərəliliyi mühasibat uçotunun təşkilindən birbaşa asılıdır. Mühasibat uçotunun təşkili və aparılması, mühasibat hesabatlarının tərtib edilməsində eyniliyin əldə edilməsi, uçot məlumatlarının vaxtında verilməsi və dəqiqliyinin artırılması, onların əldə edilməsinin əmək tutumluğunun azaldılması mühasibat uçotu və hesabatının dövlət tərəfindən tənzimlənməsini tələb edir. Mühasibat uçotunun təşkilində və uçot məlumatlarının uyğunluğu, etibarlılığı və ardıcıllığının təmin edilməsində Beynəlxalq Mühasibat Uçotu Standartları komitəsi tərəfindən işlənib hazırlanmış və Beynəlxalq Mühasibat Standartları çərçivəsində fəaliyyət göstərən əsas prinsiplərdən istifadə olunur. Bu prinsiplər mühasibat (maliyyə) uçotunun beynəlxalq standartlara uyğun təşkilinin əsas şərtləri və prinsipləri kimi çıxış edir. Gürcüstan Respublikasının təcrübəsinə baxdıqda görürük ki, onlar İFRS-lərə heç bir əlavə və dəyişikliklər edilmədən tərcümə edilib qəbul edilmişdir. Bu vəziyyət mühasiblər üçün və Gürcüstan Maliyyə Nazirliyi üçün müəyyən asanlıq yaradıb.

Lakin artıq gecdir, bu standartların hamısı tərcümə olunaraq təsdiq edilib və bizlər onları oxumaq üçün vaxt ayırmağa məcburuq.

Yeni maliyyə hesabatları ilə vergi hesabatları arasında əlaqənin olmaması. Qeyd edək ki, bu məsələ barəsində Dünya Bankının həyata keçirdiyi araşdırma hesabatında, həmçinin mühasibatlıq üzrə beynəlxalq təşkilatların öz hesabatlarında da rast gəlinir.

Misal üçün Avrasiya Regional Mühasib və Auditorlar Federasiyasının (IRFAA EURASIA) araşdırma hesabatında qeyd olunur ki, Azərbaycanda mühasibatlığın instisional bazası kifayət qədər beynəlxalq standartlara uyğun olsa da problemin həmin qanunun icra mexanizminin işlənməsindədir. Məsələ burasındadır ki, faktiki olaraq mühasibatlıq vergi məcəlləsində baş verən dəyişiklikləri təkib edir və ona yönəlik bir sistemə çevrilib. Halbuki, beynəlxalq praktikada öz əhəmiyyətinə görə vergi orqanı istifadəçilər arasında sonuncu yerlərdən birində durur. Bu da uçotun vəzifələrindən irəli gəlir ki, beynəlxalq praktika məsələyə şirkət maraqları nöqteyi-nəzərindən yanaşaraq əsas istifadəçiləri daxildə təsisçi və idarəçilər, xaricdə isə səhmdar və investorlar olmaqla nəzərdən keçirməkdədir.

Beləliklə, qeyd olunan problemlərin həll edilməsi üçün bir sıra tədbirlərin görülməsinə ehtiyac vardır. Sozsüz ki, müəssisələrdə uçot və hesabatlılığın beynəlxalq mühasibatlıq sisteminə keçməsi asan bir prosesi olmayıb uzun sürən bir porosesdir. Fikrimcə müəssisə rəhbərləri öz mühasiblərinə bu sahədə dəstək göstərsələr çox yaxşı olardı.

MALİYYƏ HESABATININ KEYFİYYƏT MEYARLARI VƏ PRİNSİPLƏRİ

Vəliyev R.A.
Sumqayıt Dövlət Universiteti

Maliyyə hesabatının tərtib olunması uçot əməliyyatlarının aparılmasının yekun mərhələsi sayılır. Vaxtında və düzgün tərtib olunmuş hesabat əmlakın qorunub saxlanması, məhsulun maya dəyərinin aşağı salınması üçün yeni imkanların araşdırılıb tapılması, mənfəətin artırılması, müəssisənin maliyyə vəziyyətinin möhkəmləndirilməsi və ümumiyyətlə idarəetmə sisteminin daha da təkmilləşdirilməsində geniş şəkildə istifadə olunur.

Maliyyə hesabatlı müəssisə və təşkilatın hesabat dövründə əmlak və maliyyə vəziyyəti, onların maliyyə nəticələri haqqında məlumatların vahid sistemi olmaqla mühasibat uçotu məlumatları əsasında müəyyən olunmuş formalarda tərtib olunur.

Maliyyə hesabatı müəssisənin təsərrüfat həyatını idarə etmək və ona operativ rəhbərlik etmək üçün ən mühüm vasitələrdən biri hesab olunur.

Maliyyə hesabatlarında təqdim olunan informasiyanı istifadəçilər üçün daha yararlı edən keyfiyyət xüsusiyyətləri ayrı-ayrılıqda müvafiq amillə təcəssüm olunur:

Anlaşıqlılıq: Maliyyə hesabatlarında təqdim olunan informasiyanın mahiyyəti istifadəçilər tərəfindən anlaşılmalıdır. Eyni zamanda, istifadəçilər Büdcə Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartları haqqında zəruri biliklərə malik olmalı və informasiyanı kifayət qədər dərindən öyrənməyə hazır olmalıdırlar. Münasib informasiya, onun mürəkkəbliyinə görə istifadəçilər tərəfindən anlaşılmaması səbəbindən maliyyə hesabatlarından çıxarılmamalıdır.

Müqayisəlilik: İstifadəçilər üçün maliyyə hesabatları arasında müvafiqliyi və fərqliliyi müəyyən etmək və qiymətləndirmək imkanını yaradan informasiya müqayisəli hesab olunur.

Ardıcıllıq: Ardıcıllıq müqayisə olunan informasiyanın ən mühüm xüsusiyyətlərindən hesab olunur. Müqayisəlilik prinsipi maliyyə hesabatlarında əks olunan informasiyanın dövrdən dövrə ardıcıl olaraq tanınmasını, qiymətləndirilməsini və təqdim edilməsini tələb edir. İnformasiyanın ardıcıllığı təşkilat tərəfindən bütün dövrlər ərzində oxşar hadisələr üçün eyni uçot metodunun tətbiq edildiyini bildirir. Ardıcıllıq prinsipinin tətbiq edilməsi maliyyə hesabatlarının etibarlılığını, münasibliyini və anlaşılmasını təkmilləşdirmək üçün uçot siyasətində dəyişikliklərin edilməsinə maneə yaratmamalıdır.

Münasiblik: Keçmiş, indiki və gələcək hadisələri qiymətləndirməklə istifadəçilərin iqtisadi qərarlar qəbul etmələrinə təsir edən informasiya münasib hesab olunur. İnformasiyanın münasibliyi onun mahiyyəti və əhəmiyyətliliyindən asılıdır.

Əhəmiyyətlilik: Maliyyə hesabatlarını təqdim edənlər tərəfindən nəzərə alınmaması və ya təhrif olunması səbəbindən istifadəçilərin bu hesabatlar əsasında iqtisadi qərarların qəbul edilməsinə təsir edə bilən informasiya əhəmiyyətli hesab olunur. Əhəmiyyətlilik konkret şəraitlərdə maliyyə hesabatlarında diqqətsizlikdən göstərilməmiş məlumatın və ya yol verilmiş səhvin həcminin dəyərindən asılıdır.

Etibarlılıq: Tərkibində əhəmiyyətli səhvlər və qabaqcadan əmələ gəlmiş yanlış fikirlər mövcud olmayan informasiya etibarlı hesab olunur. Etibarlı informasiya neytrallıq, ehtiyatlılıq, düzgün təqdimat və tamlıq kimi keyfiyyətlərə malik olmalıdır.

Düzgün təqdimat: Təşkilatın maliyyə hesabatlarında informasiyanın düzgün təqdimatı onun maliyyə vəziyyətini və fəaliyyətinin maliyyə nəticələrini qərəzsiz, təhrifsiz, manipulyasiyasız və ya əhəmiyyətli faktları gizlətmədən, mahiyyətin formadan üstünlüyü konsepsiyası əsasında, mümkün qədər obyektiv əks etdirməsini nəzərdə tutur;

Neytrallıq: Maliyyə hesabatlarında təqdim olunan informasiyanın etibarlı olması üçün məlumatlar neytral, yəni, qərəzsiz olmalıdır. Maliyyə hesabatlarını hazırlayanlar tərəfindən təqdim olunan informasiya, onların öncədən müəyyən olunmuş nəticənin əldə edilməsi üçün istifadəçinin qərarına təsir etdikdə, maliyyə hesabatları neytral hesab oluna bilməz;

Ehtiyatlılıq: Ehtiyatlılıq - qeyri-müəyyən şəraitdə qiymətləndirmə zamanı aktiv və ya gəlirlərin artırılmamasının, öhdəlik və xərclərin azaldılmamasının təmin olunması məqsədilə diqqətli yanaşmanın tətbiqidir.

Tamlıq: Maliyyə hesabatlarında təqdim olunan informasiyanın etibarlı olması üçün bu informasiya, onun əhəmiyyətliliyi və ona çəkilən xərclər nəzərə alınmaqla, dolğun olmalıdır.

KOMMERSİYA BANKLARINDA DAXİLİ AUDİTİN TƏNZİMLƏNMƏSİ XÜSUSİYYƏTLƏRİ

İsgəndərli O.R.
Sumqayıt Dövlət Universiteti

Daxili audit nəzarət sisteminin ilkin forması olmaqla, idarəetmənin əsas elenentlərindən biri kimi (proqnozlaşdırma, təhlil və s.) mühüm əhəmiyyət kəsb edir.

Daxili auditin məqsədi uçot siyasəti də daxil olmaqla, kredit təşkilatlarının iqtisadi siyasətinə ekspert rəyinin verilməsindən və bütün struktur bölmələrinin həyata keçirdiyi müəssisədaxili nəzarətin səviyyəsinin qiymətləndirilməsindən ibarətdir. Bundan başqa, daxili audit daha geniş və müasir anlamda nəzarət xarakterli vəzifələrdən əlavə, iqtisadi təhlil, maliyyə strategiyasının müəyyənləşdirilməsi, bazar münasibətlərinin araşdırılması, idarəetmə məsləhətləri vəzifələrini də geniş əhatə edir.

Daxili audit kredit təşkilatlarının rəhbərliyinin göstərişi (sifarişi) ilə onun struktur bölmələrinin daxili sənədləri ilə tənzimlənən maliyyə-təsərrüfat fəaliyyətinin qəbul edilmiş muhasibat uçotu qaydalarına uyğunluğunun və idarəetmə prinsiplərinin səmərəliliyinin yoxlanılması sistemidir.

Azərbaycan Respublikasında banklarda daxili nəzarət və daxili audutin təşkili məsələləri Azərbaycan Respublikası Milli Bankı İdarə Heyətini 29 dekabr 1999-cu il tarixli qərarı ilə təsdiq olunmuş "Banklarda daxili nəzarət və daxili auditin təşkili barədə Qaydalar"la tənzimlənir. Ölkənin bütün kommersiya (səhmdar-kommersiya) bankları daxili nəzarət və daxili auditi təşkil edərkən bu qaydalara istinad etməlidirlər.

Daxili nəzarət mexanizmləri bank fəaliyyətində baş verə biləcək səhvlərin, nöqsanların və itkilərin vaxtında aşkar edilməsi və qarşısının alınmasının, bank risklərinin minimuma endirilməsinin mühüm vasitəsidir. Daxili nəzarət mexanizmlərinin yaradılması bank əməliyyatlarının etibarlığı, təhlükəsizliyi, səmərəliliyi və qanunvericiliyə uyğunluğunu təmin etmək üçün zəruridir. Bankın müvafiq daxili nəzarət mexanizmlərini işləyib hazırlayarkən bu işə məsul olan şəxslər, ilk növbədə, mükəmməl təşkilati struktur üzrə səmərəli proqram kimi əsas prinsip və qaydaları rəhbər tutmalıdır.

Bank işinin və siyasətinin ümumi strateji istiqamətlərinin, o cümlədən daxili nəzarət sisteminin yaradılması və həyata keçirilməsi, habelə bank əməliyyatlarının düzgün və səmərəli aparılması üçün bankın Müşahidə Şurası və İdarə heyəti məsuliyyət daşıyır.

Bankın Maliyyə-təftiş komissiyası isə bankın qanunlara, normativ aktlara, habelə bankın özünün siyasətinə və qaydalarına əməl edilməsini təhlil etmək məqsədilə, onun əməliyyatlarının müntəzəm auditinin keçirilməsi üçün məsuliyyət daşıyır.

Daxili audit, həmçinin bank aktivlərinin təhlükəsizliyini təmin edən müvafiq nəzarət mexanizmlərinin adekvatlığını, yaxud mövcudluğunu, bankın səhmdarlara, nəzarətedici orqanlara və ictimaiyyətə təqdim etdiyi dövri hesabatların dəqiqliyini, tamlığını və dürüstlüyünü təsdiq etməlidir.

Daxili nəzarət mexanizmləri bank fəaliyyətində potensial səhvlərin, nöqsanların və itkilərin vaxında aşkar edilməsi və qarşısının alınmasının, bank risklərinin minimuma endirilməsinin mühüm vasitəsidir. Daxili nəzarət mexanizmlərinin yaradılması bank əməliyyatlarının etibarlığı, təhlükəsizliyi, səmərəliliyi və qanunvericiliyə uyğunluğunu təmin etmək üçün zəruridir.

Hər bir bank öz fəaliyyətində nəzarət mexanizmlərinin adekvatlığını təmin etmək məqsədilə aşağıdakı əsas prinsipləri və qaydaları rəhbər tutmalıdır:

a) Mükəmməl təşkilati struktur;

b) Zəruri siyasət və uçot qaydaları;

c) Aktivlərin qorunması üçün tədbirlər;

d) Daxili audit üzrə səmərəli proqram;

Bankın müvafiq daxili nəzarət mexanizmləri siyasətinin işlənib hazırlanmasına, həmçinin rəhbərlik və işçilər tərəfindən bu siyasətə əməl olunmasına Müşahidə Şurası, Maliyyə-təftiş komissiyası və İdarə heyəti məsuliyyət daşıyırlar.

Bu siyasət və mexanizmləri, həmçinin kredit təşkilatlarının filial və şöbələrindən ibarət olan bütün strukturunu əhatə etməlidir.

MÜƏSSİSƏNİN MALİYYƏ SABİTLİYİNİ XARAKTERİZƏ EDƏN ƏMSALLAR VƏ ONLARIN HESABLANMA ÜSULLARI

Musayev O.Ə.
Sumqayıt Dövlət Universiteti

Müəssisənin normal fəaliyyət göstərməsi ilk növbədə onun maliyyə vəziyyətinin sabitliyi ilə xarakterizə olunur.

Müəssisənin maliyyə sabitliyini bilavasitə xarakterizə edən əmsallar da hesablanır ki, onlara aşağıdakılar aiddir:

1) Müstəqillik əmsalı ($Ə^{m}$). Bu əmsal xüsusi vəsait mənbəyinin balansın ümumi yekununda payını əks etdirir. Müstəqillik əmsalının normal minimal həddi 0,5 səviyyəsində qəbul edilir:

2) Xüsusi vəsaitlərin manevrlik əmsalı ($Ə^{xvm}$). Bu əmsal müəssisənin xüsusi dövriyyə vəsaitinin xüsusi vəsait mənbələrinə nisbəti kimi hesablanır Bəzi xüsusi ədəbiyyatlarda manevrlilik əmsalının optimal həddi 0,5 tövsiyə edilir.

3) Cari aktivlərin xüsusi vəsaitlə örtülməsi əmsalı ($Ə^{xvt}$). Bu əmsal xüsusi dövriyyə aktivlərinin dövriyyə aktivlərinə nisbəti kimi hesablanır. $Ə^{xvt}$>0,1 həddi məqbul hesab olunur.

4) Material ehtiyatlarının xüsusi vəsaitlə örtülməsi əmsalı ($Ə^{mxvt}$). Bu əmsal xüsusi dövriyyə vəsaitinin ehtiyat və xərclərə nisbəti kimi hesablanır və normal həddi - $Ə^{mxvt}$>0,6-0,8 qəbul edilir.

5) Maliyyə riski əmsalı ($Ə^{mr}$). Bu əmsal borc kapitalının xüsusi kapitala nisbəti kimi hesablanır. Maliyyə riski əmsalı hər manat xüsusi vəsaitə düşən borc vəsaiti məbləğini göstərməklə hər manat borcun xüsusi vəsaitlə təmin olunması səviyyəsini xarakterizə edir: $Ə^{mr}$<1 həddi normal hesab olunur.

Qeyd etmək lazımdır ki, maliyyə riski əmsalı aktivlərin ümumi məbləğində borc kapitalının payından, aktivlərin ümumi məbləğində əsas kapitalın payından, dövriyyə və əsas kapitalın nisbətindən, cari aktivlərin formalaşmasında xüsusi dövriyyə kapitalının payından, eləcə də xüsusi kapitalın ümumi məbləğində xüsusi dövriyyə kapitalının payından asılıdır.

Müstəqillik əmsalı ilə maliyyə riskin əmsalı arasında qarşılıqlı əlaqəni müəyyənləşdirmək üçün aşağıdakı düsturdan istifadə etmək olar:

$$Ə^{mr} = \frac{1}{Ə^{m}} - 1$$

6) Əmlakın real dəyəri əmsalı ($Ə^{ərd}$). Bu əmsal köhnəlmə çıxılmaqla əsas vəsaitlərin və azqiymətli tezköhnələn əşyaların, material dövriyyə vəsaitlərinin cəminin balansın yekununa nisbəti kimi hesablanır. Əmlakın real dəyəri əmsalı adətən 0,6-nı keçməməlidir. Bəzən real əsas kapitalın (qeyri-maddi aktivlərlə birlikdə) xüsusi kapitala nisbəti əmsalı da hesablanır.

7) Daimi aktivin indeksi ($Ə^{da}$). Bu əmsal dövriyyədən kənar aktivlərin xüsusi vəsait mənbəyinə nisbəti kimi hesablanır.

8) Amortizasiya yığımı əmsalı ($Ə^{ay}$). Bu əmsal toplanmış amortizasiya məbləğinin müəssisənin bütün əsas kapitalının (qeyri-maddi aktivlər də daxil edilməklə) ilkin dəyərinə nisbəti kimi müəyyən edilir. Amortizasiya yığımı əsas fondlara yönəldilmiş vəsaitin azad olunmasının intensivliyini xarakterizə edir. Onun optimal həddi 0,3-0,5 səviyyəsində götürülür.

9) Uzun müddətli kredit və borc vəsaitinin müəssisənin xüsusi vəsaitinin və uzunmüddətli kredit və borcların məbləğinə nisbəti kimi müəyyən olunan borc vəsaitinin uzun müddətə cəlb edilməsi əmsalı ($Ə^{bvc}$) aid olunur. Bu əmsal kapital qoyuluşunun maliyyələşdirməsində borc vəsaitinin payını təqribi qiymətləndirməyə imkan verir.

KOMMERSİYA BANKLARINDA AUDİTİN MAHİYYƏTİ, ZƏRURİLİYİ VƏ ONUN FORMALARI

Novruzəliyev R.B.
Sumqayıt Dövlət Universiteti

Bank bazarı infrastrukturunun ən vacib və zəruri elementlərindən biri də bank auditini həyata keçirən subyektlərdir. Digər nəzarət və yoxlama orqanları kimi, bu subyektlər, yəni auditor firmaları da ölkədə bank sisteminin normal fəaliyyət göstərməsi, bu sistemin maliyyə cəhətdən gücləndirilməsi, dayanıqlığının möhkəmləndirilməsi, fəaliyyətin təkmilləşdirilməsivə dünya bank sisteminə inteqrasiya etməsini təmin edir.

Bank sistemi digər sistemlərdən özünəməxsus xüsusiyyətlərinə görə fərqləndiyi kimi, bank audit idə özünəməxsus xüsusiyyətlərə malikdir. O, aid olduğu sistemin, bütövlükdə onun strukturlarının xüsusiyyətlərini özündə əks etdirir.

Hər bir ölkədə bank auditinin özünəməxsus xüsusiyyətləri vardır. Bu hər şeydən əvvəl onun yaranma tarixi, kökləri, şəraiti, qanunvericilik bazası, təbiq mexanizmi, fəaliyyət qaydaları və başqa amillərdən asılıdır.

Yeni mülkiyyət formalarının yaranması, yeni ictimai münasibətlərin formalaşması, sahibkarlar ordusunun yaranması, investorların meydana gəlməsi yeni dövrün, yeni iqtisadi sistemin xarakterik xüsusiyyətlərindəndir. Bu sistemdə hər bir investorun, hər bir yeni təşkilatının ən böyük məqsədi maksimum dərəcədə mənfəət əldə etməkdir. Buna nail olmaq üçün mülkiyyət əmlak sahibləri ən mühüm, vacib və operativ məlumatlara malik olmalıdır. Bunu isə audit vasitəsi ilə təmin etmək mümkündür. Keçid iqtisadiyyatlı ölkələrdə audit xidmətinin beynəlxalq maliyyə təşkilatları təkan verdilər.

Hal-hazırda faktiki olaraq bazar yönümündə inkişaf edən blkələrdə bu və ya digər formada auditor xidməti mövcuddur.

Dünya ölkələrinin iqtisadiyyatının inkişaf tarixi sübut edir ki, auditin meydana gəlməsi obyektiv səbəblərlə bağlıdır. Hər şeydən əvvəl bu səbəblər təsərrüfatın, iqtisadiyyatın tarixi inkişaf prosesi ilə bağlı olmuşdur. İqtisadiyyat inkişaf etdikcə, onun idarə olunmasında operativliyə ehtiyac artıqca , idarəetmədə dəqiq məlumatların əldə olunması və onların əhəmiyyətininyüksəlməsi auditin zəruriliyini şərtləndirmişdir. Çox hallarda mülkiyyət sahiblərinin maraqları ilə, onların tabeçiliyində çalışan uçot-hesabat işçilərinin maraqlarının üst-üstə düşməməsi auditin meydana gəlməsinə səbəb olmuşdur. Eyni zamanda sıravi uçot işçilərinin və həmçinin investorların əldə olunan məlumat əsasında vəziyyəti kifayət dərəcədə qiymətləndirə bilməməsi auditi zəruri etmişdir. Yüksək səviyyəli , peşəkar auditorlar mülkiyyətçilərin, təsərrüfat orqanlarını idarə edənlərin ən düzgün yol göstərənləridirlər.

Ayrı-ayrı ölkələrdə mövcud olan standartlara nəzər saldıqda belə bir nəticəyə gəlmək olar ki, auditin əsas məqsədi iqtisadi subyektlərin mühasibat hesablarının dürüstlüyünün, doğruluğunun müəyyən edilməsi və bu iqtisadi subyektlərin apardığı maliyyə və təsərrüfat əməliyyatlarının ölkənin normativ aktlarına uyğunlaşdırılmasıdır.

Yoxlanılan iqtisadi subyektlərin xarakterindən asılı olaraq auditin aşağıdakı növləri mövcuddur:

-bank auditi-bu ölkədə mövcud olan kredit təşkilatlarının auditidir;

-sığorta auditi, yəni ölkədə mövcud olan sığorta təşkilatlarının auditi;

-xüsusi institutların auditi, yəni birjaların, büdcədənkənar fondların və investisiya təşkilatlarının auditi;

-ekoloji audit-Bu təbii resursların istifadəsi və bərpası üzrə hesabatların düzöün tərtib edilməsi də daxil olmaqla, təbiətdən istifadəçi tərəfindən ekoloji tələblərin, ətraf mühitin mühafizəsi normalarının və qaydalarının gözlənilməsi məqsədi iilə onların təsərrüfat və digər fəaliyyətinin yoxlanılmasıdır;

-ümumi audit, yəni digər iqtisadisubyektlərin auditi.

Kommersiya banklarının fəaliyyətinə nəzarət zərurəti bank sisteminin bazar iqtisadiyyatı şəraitindəki fəaliyyət xüsusiyyətlərindən yaranır. Bank sistemi ölkənin iqtisadi həyatında vasitəçi rolunu oynayır. Banklar hüquqi və fiziki şəxslərin sərbəst pul vəsaitlərini cəlb edərək, onları daha səmərəli və msəhsuldar istifadə üçün digər fiziki və hüquqi şəxslərə verir. Banklar müasir ictimai həyatın infrastrukturunun mühüm elementlərindən biri olduğuna və iqtisadiyyatda çox mühüm funksiyaları yerinə yetirdiyinə, həmçinin iqtisadiyyatın sabit inkişafının daha çox bu sistemdən asılı olduğuna görə onun fəaliyyəti üzərində daimi nəzarət olmalıdır.

Hal-hazırda kommersiya banklarının fəaliyyətinə nəzarətin aşağıdakı formaları mövcuddur:

-dövlət nəzarəti;
-daxili nəzarət;
-müstəqil nəzarət;

Dövlət nəzarəti. Kommersiya banklarının fəaliyyətinə nəzarət mövcud bank qanunvericiliyində ifadə olunmuşdur. Ölkə ərazisində bütün banklarqanunvericilik orqanları tərəfindən qəbul olunmuş, Milli Bankın , bütün kommersiya banklarının və digər kredit təşkilatlarının fəaliyyətinin tənzimləyən qanunlar əsasında fəaliyyət göstərir.

Daxili nəzarət. Nəzarətin bu formasına kommersiya banklarının və digər kredit təşkilatlarının fəaliyyətinə Milli Bank tərəfindən həyata keçirilən nəzarət aid edilir. Daxili nəzarətin vəzifə, məqsədvə hədləri müvafiq qanunvericilik və normativ aktları ilə müəyyən edilir.

Müstəqil nəzarət: Nəzarətin bu forması kənar, müstəqil təşkilatlar daha doğrusu, auditor firmaları tərəfindən həyata keçirilir.

Yuxarıda qeyd edilən həm audit formaları, həm də nəzarət formaları Azərbaycan Respublikasının qanunvericiliyinə və normativ aktlarına uyğun olaraq həyata keçirilir. Hər bir formanın özünəməxsus xüsusiyyətləri vardır ki, onların həyata keçirilməsi üçün xüsusi attestasiya qaydaları mövcuddur.

MALİYYƏ HESABATININ İSTİFADƏÇİLƏRİ ÜÇÜN AUDİTİN ZƏRURİ XÜSUSİYYƏTLƏRİ

Qaradağlı Z.Ç.
Sumqayıt Dövlət Universiteti

Yeni iqtisadi münasibətlər şəraitində resursların səfərbər edilməsi, onlardan səmərəli istifadə vacib məsələdir. Belə şəraitdə bütün idarəetmə elementləri, o cümlədən uçot, planlaşdırma, təhlil, nəzarət, təftiş və həmçinin audit də bu problemlərin həlli istiqamətinə yönəldilməlidir. Bu zaman elmi-texniki tərəqqinin sürətli inkişafı ilə təsərrüfat-maliyyə fəaliyyətinə təsir göstərən amillər durmadan artır, informasiya çoxalır, məhsul istehsalı prosesinin özü kəmiyyət və keyfiyyət etibarilə mürəkkəbləşir. Bütün idarəetmə elementləri kimi audit də, bu problemləri dərindən öyrənməli və müvafiq nəticələrə gəlməlidir.

Audit müəssisə və təşkilatlarda yalnız maliyyə sənədlərinin yoxlanması ilə məhdudlaşmamalıdır. O, həmçinin mövcud şəraitin analitik nəticələrini ümumiləşdirməli, perspektiv inkişaf üçün proqnoz verməli, yeni şəraitdə təzə meylləri, prosesləri əhatə etməli, elmi-texniki nailiyyətlərin və qabaqcıl təcrübələrin istehsala tətbiqini, kollektivin psixoloji iqlimini, sosial problemlərin həlli yollarını müəyyənləşdirməli, idarəetmənin təkmilləşdirilməsi məqsədi ilə yeni modellərin hazırlanması və tətbiqi üçün real təkliflər verməlidir. Bütün bu proseslər, axınlar və nəticələr müxtəlif amillərlə bağlıdır.

İqtisadi ədəbiyyatda yalnız iqtisadi proseslərə təsir göstərən, istehsalın səmərəli təşkili, ehtiyatlardan, resurslardan səmərəli istifadə olunması ilə bağlı amillər obyektiv və subyektiv əlamətlərinə görə xarakterizə edilir. Lakin digər amillər: elmi-texniki tərəqqi, sosial-iqtisadi problemlər, insan kapitalının formalaşması ilə bağlı olan amillər diqqət mərkəzindən kənarda qalmışdır. Nəticədə təsərrüfat-maliyyə fəaliyyətinə kompleks qiymət vermək, müəssisənin perspektiv inkişafı üçün tədbirlər hazırlayıb həyata keçirmək imkanları azalmışdır.

Bazar iqtisadiyyatı münasibətləri inkişaf etdikcə hər bir müəssisə və təşkilat ciddi rəqabət şəraiti ilə üzləşir. O, istehsal etdiyi məhsulu tələb-təklifə uyğun olaraq reallaşdırmaq üçün istehlak bazarında müvafiq yer tutmağa cəhd edir. Ona görə də, audit fəaliyyətində istehsal prosesinə və maliyyə nəticələrinə təsir göstərən amillərlə yanaşı, müəssisənin perspektiv inkişafı ilə bağlı amillər də diqqət mərkəzində durmalıdır.

Auditor fəaliyyətinin əsas məqsədi maliyyə hesabatlarının yoxlanılması ilə həmin hesabatların düzgünlüyünün təsdiqi və ya onların qeyri-müəyyən olmasının açıqlanması, yoxlanılan dövrdə gəlirlərin və müəssisə fəaliyyətinin nəticələrinin uçotda və hesabatda tam, düzgün və dəqiq əks etdirilməsinin yoxlanılması, mühasibat uçotu və hesabatının qaydalarını tənzimləyən qanunvericiliyə və normativ sənədlərə əmələ olunmasına nəzarət və müəssisə əmlakının daha səmərəli istifadə olunması imkanlarının müəyyən olumasıdır.

Burada isə əsas səbəb maliyyə hesabatı informasiyasının istifadəçiləri üçün düzgün, etibarlı, əhəmiyyətli, neytral informasiyanın formalaşdırılmasıdır.

Bütün bu ilkin şərtlər müvafiq hazırlığı, ixtisası, təcrübəsi və bu cür xidmətlər göstərməyə icazəsi olan müstəqil ekspertlərin (auditorların) xidmətlərinə ictimai tələbatın yaranmasına gətirib çıxarmışdır. Auditor xidmətləri maliyyə informasiyasının düzgünlüyünü müəyyənləşdirən vasitəçilərin xidmətləridir.

Düzgün informasiyanın olması kapital bazarının fəaliyyətinin səmərəliliyini yüksəltməyə və müxtəlif iqtisadi tədbirlərin nəticələrini proqnozlaşdırmağa imkan verir.

Bazar iqtisadiyyatı şəraitində təsərrüfat subyektləri əmlakdan və pul vəsaitindən istifadə edilməsi, kommersiya əməliyyatlarının aparılması və investisiyalar qoyulması sahəsində müqavilə münasibətlərinə girirlər. Bu münasibətlərin etibarlılığı müqavilənin bütün iştirakçılar üçün düzgün maliyyə informasiyası almağın və istifadə etməyin mümkünlüyü ilə möhkəmləndirilməlidir. İnformasiyanın düzgünlüyünü isə auditor təsdiq edir.

Müəssisənin bəzən son dərəcə mürəkkəb olan bütün çoxsaylı əməliyyatlarının qanuniliyinə və hesabatda düzgün əks etdirildiyinə mülkiyyətçilər və ən əvvəl, kollektiv mülkiyyətçilər – səhmdarlar, payçılar, habelə kreditorlar müstəqil surətdə əmin olmaq imkanından məhrumdurlar, çünki, adətən, mülkiyyətçilər uçot qeydlərini yoxlamağa buraxılmır və onların müvafiq təcrübəsi də yoxdur, buna görə də auditor xidmətinə ehtiyacları olur.

Müəssisələrin fəaliyyətinin nəticələri haqqında informasiyanın və onların qanunvericiliyə əməl etməsinin müstəqil təsdiqi dövlətə iqtisadiyyat və vergitutma sahəsində qərarlar qəbul etmək üçün gərəkdir. Habelə bank və ya hakimiyyət orqanlarının auditor təşkilatlarının sifarişçisi olan müəssisəni ödəmə qabiliyyəti olmayan elan etmək fikrinə gəldiyi hallarda, yaxud müəssisə başqa səbəblərə görə fəaliyyətini dayandırdıqda, auditor yoxlamalarına zərurət duyulur. Ümumilikdə auditor yoxlamaları dövlət orqanlarına, məhkəmələrə, prokurorluğa və digər səlahiyyətli orqanlara onları maraqlandıran maliyyə hesabatının düzgünlüyünü təsdiq etmək üçün lazımdır.

Auditor yoxlaması auditorlardan xüsusi bilik, təcrübə və peşə vərdişləri tələb edir. Bu keyfiyyətlərin mövcudluğu audit aparılan obyektin mühasibat hesabatı istifadəçisinin (o cümlədən üçüncü şəxslərin) auditorların təsdiqetmə xidmətlərinə marağını daha da artırır.

MALİYYƏ SABİTLİYİ ANLAYIŞI VƏ ONUN ƏHƏMİYYƏTİ

Abdullayeva F.N.
Sumqayıt Dövlət Universiteti

Maliyyə sabitliyi maliyyə resurslarının elə bir vəziyyətidir ki, müəssisə pul vəsaitlərindən sərbəst surətdə, bacarıqla və səmərəli istifadə etməklə məhsul (iş. xidmət) istehsalı və satışı prosesinin fasiləsizliyini təmin edir, həmçinin minimum və ya sabit məsrəflərlə istehsalın genişləndirilməsinə nail olur.

Müəssisənin normal fəaliyyət göstərməsi ilk növbədə onun maliyyə vəziyyətinin sabitliyi ilə xarakterizə olunur. **Müəssisənin maliyyə sabitliyinə müxtəlif amillər təsir göstərir:**

- Əmtəə bazarında müəssisənin vəziyyəti;
- Geniş tələbata malik ucuz mallar istehsal etməsi;
- Işgüzar əməkdaşlıqda müəssisənin potensialı;
- Xarici investor və kreditorlardan maliyyə asılılığı səviyyəsi;
- Ödəmə qabiliyyəti olmayan debitorların mövcudluğu;
- Təsərrüfat və maliyyə əməliyyatlarının səmərəliliyi və i.a.

Müəssisənin ümumi sabitliyi dedikdə onun vəsaitinin (gəlirinin) daxil olma sürətinin həmin vəsaitin istifadəsi (məsrəflərdən) sürətindən üstün artımını təmin edən pul axınının hərəkəti başa düşülür.

Maliyyə sabitliyi - gəlirlərin xərclərdən stabil olaraq yüksək olmasını, müəssisənin pul vəsaitlərinin sərbəst manevrliyini və fasiləsiz məhsul(is,xidmət) istehsalı və satışı prosesində onlardan səmərəli istifadə olunmasını əks etdirir.

Qeyd etmək lazımdır ki, yüksək rentabellik daha yüksək risklə bağlıdır. Bu, o deməkdir ki, müəssisə gəlir əldə etməklə yanaşı zərərə də düşə bilər. Buradan belə qənaətə gəlmək olar ki, maliyyə sabitliyi kompleks anlayışdır.

Beləliklə, müəssisənin maliyyə sabitliyi dedikdə mənfəət və kapitalın artması hesabına riskin ehtimal olunan səviyyəsində, ödəmə qabiliyyətinin və krediti ödəmə bacarığının saxlanması şəraitində müəssisənin inkişafını təmin edən maliyyə resurslarının vəziyyəti, onların bölüşdürülməsi və istifadəsi başa düşülür.

Müəssisənin maliyyə sabitliyinə təsir edən daxili amillərə aşağıdakıları aid etmək olar:

- təsərrüfat subyektinin sahə mənsubluğu;

• buraxılan məhsulun (görülən işin, göstərinlən xidmətin) strukturu və ümumi ödəməqabiliyyətli təklifdə onun xüsusi çəkisi;

• ödənilmiş nizamnamə kapitalının həcmi;

• pul gəlirləri ilə müqayisədə xərclərin həcmi, onların dinamikası;

• əmlak və ehtiyat mənbələr daxil olmaqla maliyyə resursları, onların tərkibi və strukturu.

Yuxarıda sadalanan amillərin təsiri müəssisənin menecerinin səriştəsi və peşəkarlığı, onun daxili və xarici mühitin dəyişilməsini nəzərə almaq bacarığından çox asılıdır.

MÜHASİBAT UÇOTUNDA SİNTETİK HESABLARIN MAHİYYƏTİ VƏ ƏHƏMİYYƏTİ

Əliyeva N.R.
Sumqayıt Dövlət Universiteti

Bütün müəssisə və şirkətlərdə mühasibat uçotu informasiyalarından istifadə edənlər müxtəlif əmlak növləri göstəricilərinə, onların formalaşması mənbəələrinə və həm də ayrı-ayrı təsərrüfat proseslərinə dair məlumatları əldə etməlidirlər. Həmin informasiyaların istifadə olunması xarakterindən asılı olaraq, onlar cəmləşmiş şəkildə müəyyən ölçü vahidləri üzrə tərtib olunurlar. Müxtəlif informasiyalardan istifadə edənlər onların tərtib olunması formasına qarşı müxtəlif tələblər irəli sürürlər.

Məsələn, hər bir firma rəhbərini ümumiyyətlə istehsal ehtiyatlarının təmin olunması vəziyyəti, sex rəisini istehsal ehtiyatlarının çeşidi informasiyaları daha çox maraqlandırır. Bu göstəricilərdən sexin istehsal proqramının yerinə yetirilməsi, müəyyən olunmuş çeşidlər üzrə hazır məhsul buraxılışı, avadanlıqların istehsal gücündən istifadə, fəhlə qüvvəsindən istifadə olunması və s. asılıdır. Bütün bunlara uyğun olaraq mühasibat uçotunda tələb olunan göstəricilərin əldə olunması üçün sintetik və analitik hesablardan istifadə olunur. Buna uyğun olaraq bütün iqtisadi subyektlərdə sintetik və analitik uçot aparılır. Belə uçotun təşkili və aparılması sistemi mühasibat uçotunun əsasını müəyyən edir.

Sintetik uçot – mühasibat uçotunun sintetik hesablarında aparılan, aktiv, öhdəlklər üzrə mühasbat uçotu və müəyyən iqtisadi əlamətlər üzrə təsərrüfat əməliyyatları məlumatlarının ümumləşdirilmiş uçotudur.

Sintetik uçot – iqtisadi yekcins təsərrüfat vəsaitlərinn(resurslarının), onlarınmənbəylərinin və təsərrüfat fəaliyyətinin pul ölçüsündə ümumiləşdirilmiş əksidir. Mühasibat uçotunun sintetik hesabları əsasında aparılır. Analitik uçotun məlumatları sintetik uçot üzrə hesabaların dövriyyə və qalıqlarına uyğun olmalıdır.

Bu cür göstəricilər sintetik uçot hesablarında əks olunur(ehtiva olunur, toplanılır) və vəsaitlərin mövcudluğu, hərəkəti, mənbələri (əsas vəsaitlər, xammal, material, yanacaq, istehsal xərcləri, müəssisənin kassa və bank hesablarındakı pul vəsaitləri. Xammal üzrə nizamnamə fondu və s.) haqqında ümumi təsəvvür üçün zəruridir.Sintetik uçotun verilənləri (məlumatları) öz inkişafını (detalizasiyasını) analitik uçotda tapır.Sintetik uçotun registrləri baş kitab, "Baş-jurnal"kitabı və jurnal-orderdir.

Bu əsasda da mühasibat uçotu hesabları müəssisə balansı maddələrinə uyğun olaraq sintetik və analitik hesablara bölünür.

Mühasibat uçotunun sintetik hesablarında müəssisə əmlakının iqtisadi qrupları göstəriciləri, onların formalaşdırılması mənbəələri və bütün təsərrüfat əməliyyatları pul ifadəsində, cəmləşmiş formada əks olunur. Belə hesablara «Əsas vəsaitlər», «Materiallar», «Əməyin ödənişi üzrə işçi heyəti ilə hesablaşmalar», «Hesablaşma hesabı», «Kassa» hesabı və s. daxildir.

Beləliklə mühasibat uçotunda sintetik hesab əmlakın, kapitalın, maliyyə nəticələrinin və s. müəyyən edilmiş növü üzrə təyin edilmiş əlamətlərinə görə ümumiləşdirilmiş məlumatların qruplaşdırılmasına xidmət edir.

Sintetikhesabların qısa xarakteristikası:

01№-li "Əsas vəsaitlər" hesabı (aktiv, nventar hesabdır)müəssisənin mülkiyyətində istismarda olan,ehtiyatda olan, müvəqqəti dayandırılan, yaxud icarəyə verilən(uzunmüddətli icarədən başqa)əsas vəsaitlərin mövcudluğu və hərəkəti haqqında məlumatların ümumiləşdirilməsi üçün nəzərdə tutulmuşdur. Ə/sas vəsaitlərə aid edilən obyetlər və onların tərkibi normativ aktlarla nizamlanır.

Binalar, qurğular, ötürücü mexanizmlər, iş-güc maşınları,ölçü tənzimləyici cihazlar, hesablama texnikası,nəqliyyat vasitələri, alətlər, istehsalat, təsərrüfat inventarları, məhsuldar heyvanlar, çoxillik əkmələr, daxili təsərrüfat yolları, torpaq sahələri, torpaqların yaxşılaşdırılması və digər vəsaitllərəsas vəsaitlərə aid edilir.

02№-li "Əsas vəsaitlərin köhnəlməsi" hesabı (passiv əskinazlar hesabıdır) müəssisənin xüsusi mülkiyyətində olan, yaxud uzun müddətə icarəyə götürülən əsas vəsaitlərin könəlməsi haqqında məlumatları ümumiləşdirmək üçün nəzərdə tutulmuşdur.

Material-istehsal ehtiyatlarının sintetik uçotu:Ehtiyatların mövcudluğu və hərəkəti barədə ümumiləşdirilmiş məlumatlar təşkilatın mühasibatında sistemiləşdirilir. Bu cür hesablara ilk növbədə 10№-li "Material" hesabı aiddir. Həmin hesab üçüm bir neçə subhesab açıla bilər.Məsələn, 1№-li "Xammal və material" subhesabı tikinti materialları da daxil olmaqla istehsal prosesində yaradılmış məəhsulun maddi əsasını təşkil edən xammalin və əsas materialların, eləcə də əsas materialların istehsal xərclərinin və keyfiyyətinin yaxşılaşdırılması üçün əsas materiallara qoşula biuləcək yrdımşı materialların (laklar,boyalar) uçotu üçün nəzərdə tutulmuşdur. Onlar əmək vasitələrinin işçi vəziyyətində saxlanılması üçün istifadə edilə bilər, onlardan həmçinin istehsal prosesinə kömək üçün, təsərrüfat ehtiyatları üçün və s. üçün istifadə edilə bilər.

12№-li "Azqiymətli və tezköhnələnəşyalar" hesabı (passiv,əks paylayıcı hesabdır) istismarda olan az qiymətli və və tezköhnələn əşyaların, təsərrüfat inventarlarının, xüsusi alət və ləvazimatların, digər əmək vəsaitlərinin hərəkəti haqqında məlumatları ümumiləşdirmək üçün nəzərdə tutulur. Bu hesabda istismarda olan müvəqqəti tikililər, ləvazimatlar və qurğuların da uçotu aparıla bilər.

19№-li alınmış"Alınmış sərvətlər üzrə əlavə dəyər vergisi" hesabı (aktiv,hesablaşma hesabıdır) müəssisənin əldə etdiyi sərvətlər üzrə (iş, xidmətlər) ödənilmiş, yaxud ödənilməmiş əlavə dəyət vergisiməbləğinin uçotunu özündə əks etdirir.

85№-li "Nizamnamə kapitalı" hesabı (fond hesabıdır,passivdir)müəssisənin nizamnamə kapitalının hətrəkəti və mövcudluğunu əks etdirmək üçün nəzərdə tutulmuşdur.və s.

BANK MARKETİNQİNİN TƏŞKİLİNDƏ REKLAM İŞİNİN ƏHƏMİYYƏTİ

Məmmədova K.H.
Azərbaycan Kooperasiya Universiteti

Bazar şəraitində fəaliyyət göstərən hər bir müəssisə kimi bankların iş və xidmətlərinin təşkilində və satışında reklam işi mühüm əhəmiyyət kəsb edir. Məqsədyönlü marketinq strategiyasının reallaşdırılmaması bankların mənfəətlərinin azalmasına şərait yaradır. Bank məhsulları burada istisna təşkil etmir. Bank rəhbərliyinin və onun bütün xidmətlərinin fəaliyyət siyasətinin məqsədi daha çox müştəri cəlb edilməsi, xidmətlər sahəsinin genişləndirilməsi, bazar payının artırılması, mənfəətin maksimumlaşdırılmasıdır. Bank sektorunda kəskin güclənən rəqabət və banklarla müştərilər arasında modifikasiya olunan münasibətlərin təsiri altında məzmunu və məqsədləri dəyişən bankın reklam xidmətinin əhəmiyyəti də elə bundadır. Rəqabətin kəskinləşməsi nəticəsində, bank fəaliyyətində bank xidmətləri seqmentlərinə kommersiya və nüfuz səmərəsini gətirməyə malik olan maksimum maliyyə resursu cəlb etmək imkanı verən əsaslandırılmış reklam strategiyası daha çox önəm daşıyır.

Bankların rəqabətə dözümlülüyünün artırılması və rəqabət qabiliyyətliliyinin yüksəldilməsi üçün ən geniş çeşiddə bank xidmətləri təklif edilməlidir. Banklar bazar fəaliyyətlərini müştərilərin tələblərinin maksimum surətdə ödənilməsinə yönəltməlidirlər. Marketinq yanaşması bankın birinci növbədə öz məhsuluna deyil, müştərilərin real tələblərinə istiqamətlənməyi nəzərdə tutur. Ona görə də bazarın ciddi öyrənilməsi, bank xidmətləri istehlakçılarının dəyişən zövq və üstünlük verdikləri təkliflərin təhlili zəruridir.

Bank və müştəri münasibətlərində marketinq siyasəti dəyişdirilməlidir. Əgər əvvəllər bank öz əmanətçisinə və borcalana standart bank məhsulları təqdim edirdisə, indi o, mövcud bazar şəraitinə uyğun olaraq konkret müştəri qruplarına – iri firmalara, kiçik müəssisələrə, ayrı-ayrı kateqoriyalardan olan fiziki şəxslərə və s. ünvanlanan yeni xidmət növlərini təklif etməyə məcburdur. Bankların fəaliyyətində yeganə və əsas meyar müştərilərin real tələblərinin təmin olunmasıdır. Bankın fəaliyyəti, məlum olduğu kimi, təkrar olunan əməliyyatlara əsaslanır. Buradan da, onun səyləri müştəri kontingentini qoruyub saxlamağa və bu əhatəni genişləndirməyə, perspektivdə maliyyə xidmətinin mərkəzinə çevrilməyə yönəlməlidir. Bankın marketinq siyasəti müştərilərin real tələblərinin ödənilməsinə istiqamətlənməlidir və bu barədə potensial müştəriləri mövcud informasiyalar əsasında məlumatlandırmalıdır. Bazar iqtisadiyyatı şəraitində müştəriləri cəlb etməyin əsas üsulu marketinq fəaliyyətində reklam işinin təkmilləşdirilməsidir.. Bank reklamının əsas məqsədlərindən biri də bazar seqmentində daim yeni müştərilərin cəlb edilməsidir. Maliyyə bazarı da hər hansı başqa bazarlar kimi, marketinq yanaşma tələb

edir. Bank marketinqi bazarın tədqiqi, bazarda bankın şəxsi mövqeyinin qiymətləndirilməsi, bazara yeni məhsulunun hərəkətinin marketinq strategiyasının işlənib hazırlanması ilə məşğul olur. Bank xidmətinin hərəkəti marketinqin kommunikasiya funksiyasıdır. Bank xidmətlərinin hərəkəti üzrə, həm reklam həm də əməliyyatçının peşəkar iş məqsədi istənilən bank məhsullarının əsasında həmişə bankın müştəriləri və bütövlükdə cəmiyyət ilə birgə əlaqələndirilməsi durur. Lakin hərəkət – sadəcə ünsiyyət və ya informasiya mübadiləsi deyil, bu, müştərini maliyyə xidməti üçün banka müraciət etmək zərurətinə inandırmaq üçün edilən məqsədyönlü kommunikasiya hərəkətləridir. Məhz buna görə də, reklam və hərəkət bankın strateji məqsədlərə nail olması üçün marketinq vasitələri arsenalı arasında mərkəzi yerlərdən birini tutur və həm marketinq strategiyasının yaranma mərhələsində, həm də bankda marketinqin idarə edilməsi zamanı ən ciddi diqqət tələb edir.

Bank marketinqində reklamın formaları olduqca müxtəlifdir. Bank spesifikası nöqteyi-nəzərdən reklam edilən obyektlərdən asılı olaraq, reklam formalarının təsnifatı mühüm əhəmiyyətə malikdir. Bu meyardan irəli gələrək, aşağıdakılar fərqləndirilir: bank məhsulunun reklamı , kredit institutunun reklamı, tələbat reklamı.

Bank reklamının daha bir təsnifat forması reklam kampaniyasının konkret məqsədlərindən asılı olaraq qruplaşdırmadır. Bu nöqteyi-nəzərdən aşağıdakıları fərqləndirirlər: bank və onun fəaliyyət sahəsi ilə tanış edən giriş reklamı ,bankın fəaliyyətinin genişlənməsini təmin edən ekspansiya reklamı , müştəriləri saxlamaq üçün xatırladıcı reklam. Reklam kampaniyası bank imicinin yaradılması və saxlanmasına, yeni xidmət növlərinin təbliğatına, geniş kütləyə həmin bankın üstünlüklərinin başqa banklarla müqayisəli izahına yönəlmişdir.Bu kampaniya kütləvi kommunikasiya vasitələrindən istifadə etməklə geniş miqyasda təşkil olunur. Institutun reklamı kütlənin şüurunda bankın adını və simasını daim saxlamaq məqsədini daşımalı, onun loqotipini bankın öz fəaliyyəti üçün əsas saydığı bazarlarla bağlamalıdır. Bank xidmətləri kompleksinin reklamı kütləni bankın təklif etdiyi geniş əməliyyatlar bloku ilə tanış etməyə istiqamətlənir, lakin adətən ayrı-ayrı xidmət növlərini ətraflı olaraq açmır. Reklamın bu növü banklarla daha az üzləşən potensial müştərilər üçün nəzərdə tutulmuşdur, onları bankın baza əməliyyatları ilə tanış etmək lazımdır. Məhsulun reklamı konkret bank əməliyyatı haqqında daha ətraflı təsəvvür yaratmaq məqsədi daşıyır. Adətən reklamın başlıca məzmunu müştərinin bu bankın xidmətinə etibar etməklə əldə etdiyi faydaları nümayiş etdirməkdən ibarət olur. Bundan başqa, reklam adətən bank ilə onun rəqibləri arasında xidmət sahəsində fərqləri vurğulamağa çalışır. Bu fərqlər, bir qayda olaraq, yalnız bəzi nüanslara aiddir, belə ki, həqiqətdə iri bankların servis səviyyəsi praktiki olaraq eynidir. Marketinq kampaniyasının keçirilməsinə gəldikdə isə, bank həmişə reklamın dəyəri ilə onu qəbul edən insanların sayının nisbətini nəzərə almalıdır. Kommunikasiya vasitələrini seçərkən reklamın ünvanlandığı məqsədli bazarı nəzərə almaq vacibdir.Marketinq proqramlarında bank şöbələri mühüm rol oynayır. Bank məhsullarının hərəkətini təşkil etmək və bankın müəyyən rayonda ekspansiyasını genişləndirmək uçun marketnq şöbəsinə rəis təyin edilməsi praktikası meydana gəlmişdir. Onun güclü tərəfi yerli şəraiti yaxşı bilməyidir. Ona görə də yerli bankir həmin rayonda kimlərin konkret maliyyə xidmətlərindən istifadə etməsini, hansı xidmətlərin daha populyar olmasını, hansılarının isə istifadə edilməməsini, hansı potensial müştərilərin xidmətə ehtiyacı olduqlarını və deməli, müvafiq reklamın lazım olub olmadığını daha dəqiq müəyyən edə bilir. Reklam kampaniyasını planlaşdırarkən keçirilən tədbirlərin dəyərini hesablamaq zəruridir, və əgər lazımdırsa, onları bankın büdcə məhdudiyyətlərini nəzərə almaqla dəyişdirmək lazımdır. Əgər kampaniya artıq başlanmışdırsa, informasiya kontaktlarının səmərəliliyini yüksəltmək üçün məhsulun hərəkətinin uğurluluğunu diqqətlə təhlil etmək və əlavə tədbirlər qəbul etmək çox mühümdür. Reklamın quruluşu elə olmalıdır ki, istehlakçılar bu yeniliyə laqeyd qalmasınlar. Bankın marketinq xidməti daim istehlak tələbinin dəyişməsini izləməli və ona reaksiya verməlidir. Reklam dəqiq ifadə edilmiş məqsəd istiqaməti olan fasiləsiz kompleks həyata keçirildikdə daha effektli olur, onun forma və vasitələri o qədər geniş və rəngarəngdir ki, saymaqla qurtaran deyil. Bazarın hazırlanmasında və tələbatların formalaşması prosesinin təkmilləşdirilməsində reklamın rolu həlledicidir. Reklamın düzgün qoyuluşu xidmətlər, qazanclar, xüsusiyyətlər, keyfiyyət və istifadə üsulları, verilmə şərtləri və təqdimat yerləri haqqında əhalinin və korporativ bazarın nümayəndələrinə məlumatların çatdırılması üzrə tədbirlər məcmusunun işlənib hazırlanmasını nəzərdə tutur. Bank sahəsinə görə reklam ikili çalar daşıyır: məlumat və inandırıcı. Reklam fəaliyyətinin məqsədləri – istehlakçıların diqqətini müəyyən xidmətə cəlb etmək və onu əldə etməyin daha yararlı üsulunu göstərmək, yeni məhsula görə isə, bundan əlavə, potensial sorğu yaratmaq və onun həqiqi sorğuya çevrilməsini sürətləndirməkdir. Reklamın effektivliyini yüksəltmək üçün bankın marketinq strategiyası ilə razılaşdırılmış reklam kampaniyası planının işlənib hazırlanması zəruridir. Reklam kampaniyası planının tərtib edilməsi mərhələsində reklam xərcləri müəyyən edilir,

reklam kampaniyasının hansı məkanda yerləşdirilməsi planı tərtib olunur, reklamın hansı vaxtlar keçirilməsi planı müəyyən edilir.

QEYRİ-MADDİ AKTİVLƏRİN UÇOTUNUN AUDİTİ

Hüseynov H.A.
Azərbaycan Dövlət İqtisad Universiteti

Qeyri-maddi aktivlərə təsərrüfat fəaliyyətində uzun müddət istifadə edilən (bir ildən artıq vaxta), gəlir gətirən vəsaitlər daxildir. Bu əmlak qrupuna gəlir gətirən torpaq sahələri, təbii ehtiyatlardan istifadə hüquqları, patentlər, lisenziyalar, proqram məhsullar, xüsusi fəaliyyət növünə verilən lisenziyalar, ticarət markaları, əmtəə nişanları və s. aiddir.

Qeyri-maddi aktivlərə müəssisənin təsərrüfat-maliyyə fəaliyyətində əhəmiyyətli rol oynayan və uzun müddət onun istifadəsində olan intellektual məhsulların nəticələri, kompüter proqramları, bu və ya digər sahələr üzrə proqram təminatları, müəlliflik işləri, təbii ehtiyatlar gəlir gətirən torpaq sahələri, təbii ehtiyatlardan istifadə hüquqları, patentlər, xüsusi fəaliyyət növünə verilən lisenziyalar, xarici ticarət markaları, əmtəə nişanları, etiketlər və sair bu kimi maddi məhsullarla birbaşa əlaqəsi olmayan, lakin maddi-məhsul istehsalında bu və ya digər formada iştirak edən vəsaitlər və s. aiddir. Hər bir müəssisə istehsalın spesifik xüsusiyyətlərindən asılı olaraq yuxarıda qeyd etdiyimiz qeyri-maddi aktivlərin bütün formalarından bu və ya digər dərəcədə istifadə edə bilər.

Mühasibat uçotu və hesabatında qeyri-maddi aktivlər onların alınması, hazırlanması və nəzərdə tutulmuş məqsəd üçün istifadə olunma vəziyyətinə satılması üçün sərf olunmuş məsrəflər məbləği üzrə əks olunur.

Yoxlamada auditor xatırında saxlamalıdır ki, qeyri-maddi aktivlər uçotda o vaxt əks oluna bilər ki, onun forması (sxem, nümunəsi, müəllif vəsiqəsi, layihəsi və s.) olmaqla alqı-satqı obyekti kimi istifadə olunsun qanunla müəyyən olunmuş real qiyməti olsun və gəlir gətirməklə, alınmasına dair sübutedici sənədlər rəsmiləşdirilsin.

Auditor qeyri-maddi aktivlərin düzgün qiymətləndirilməsini, hərəkətinin uçotunu və dəyəri üzrə köhnəlmə (amartizasiya) hesablaşmasını yoxlamalıdır.

Qeyri-maddi aktivlər müəssisəyə təsisçilər tərəfindən nizamnamə kapitalına qoyulmuş formasında, alış vasitəsliə və müəssisənin özündə yaranmaqla, debitor borcla əlaqədar daxil olan və əvəzsiz verilmə əsasında daxil olur.

Auditor onu da xatırlamalıdır ki, qeyri-maddi aktivlərin alınması, yaradılması ilə əlaqədar olan məsrəflər kapital qoyuluşu xarakteri daşıyır və onlar bilavasitə istifadə yerinə verilənə qədər uzunmüddətli kapital qoyuluşu kimi 08 №-li «kapital qoyuluşu» hesabında əks olunur.

Qeyri-maddi aktivlərin uçotu əsas vəsaitlərin uçotu qaydasında aparılır. Ona görə də yoxlama üçün əsas informasiya mənbəi analitik uçot üzrə aparılmış uçot, qəbul-təhvil aktı, ləğv olunma aktı və s. sənədlərdən istifadə edilməlidir.

Müəssisənin mülkiyyətində olan qeyri-maddi aktivlərin, mövcudluğu və hərəkəti haqqında məlumatları ümumiləşdirmək üçün mühasibat uçotu hesablar planında 04№-li «Qeyri-maddi aktivlər» hesabı nəzərdə tutulmuşdur.

Audit yoxlaması zamanı müəssisə və təşkilatlarda qeyri-maddi aktivlərin mövcudluluğu, onların alınması (əldə edilməsi), qeyri-maddi aktivlərin hərəkəti, təsərrüfatdan silinməsi, qeyri-maddi aktivlərə dair uçot və hesabat işlərinin vəziyyəti qiymətləndirilməlidir. Audit yoxlama-ekspertizasında qeyd etdiyimiz məsələlərin qiymətləndirilməsi üçün auditor yanaşması və audit prosedur qaydaları olmalıdır.

Bu qaydalarda müəssisənin malik olduğu qeyri-maddi aktivlərin növləri, formaları, uçot-hesabat məlumatları əsasında müəyyənləşdirilməlidir. Auditor cari yoxlama dövründə əldə edilmiş, alınmış və ya müəssisənin özündə hazırlanmış qeyri-maddi aktivlərin rəsmiləşdirilməsinə dair sənədləri nəzərdən keçirməli və bu proseslərin qanunvericilik baxımından normativ hüquqi aktların tələblərinə uyğun olaraq həyata keçirilməsini qiymətləndirməlidir.

KOMMERSİYA SƏMƏRƏLİLİYİ VƏ ONA TƏSİR EDƏN AMİLLƏR

Hüseynov O.V.
Azərbaycan Dövlət İqtisad Universiteti

Əmtəə bazarının fasiləsiz və maksimum mənfəətli işləməsi üçün onun fəaliyyət mexanizminə təkan verən kommersiya işinin səmərəliliyi mümkün dərəcədə əməl olunmalıdır. Kommersiya səmərəliliyi topdan və pərakəndə ticarətin bir iqtisadi qurum kimi fəaliyyət göstərməsinin əsasını təşkil edir. Bu fəaliyyət sahəsində ticarətin və istehsalın bütün pillələri ardıcıl olaraq qoşulur və onlar vaxta, maliyyə, material, nəqliyyat və s. digər xərclərə maksimum qənaət edir, əmtəəni pərakəndə ticarətə vaxtında çatdırır, mal yeridilihəlqələrinin sayını azaldaraq maksimum mənfəət əldə edir. Bu və buna oxşar digər qənaət xarakterli fəaliyyət sahələri kommersiya səmərəliliyinin əsasını təşkil edir.

Sistematik olaraq müəssisənin kommersiya səmərəliliyindən faydalanması üçün ardıcıl olaraq aşağıdakı əməliyyatlara əməl etməlidir.

İstehsal müəssisəsinin yerini seçmək, onun bazarda rəqabət əldə edə biləcək məhsul istehsal etməsi, məhsullarını reallaşdırmaq üçün topdan ticarət və birbaşa mal təchizatıçılarla kommersiya sövdələşmləşmələrinin təşkil edilməsi, hesablaşma formalarının seçilməsi, topdan ticarətin formalarının seçilməsi, topdan ticarətin planlı şəkildə fəaliyyət göstərməsi, onun anbar fəaliyyətinin müasir texnologiaya ilə və səmərəli işçi qüvvəsi ilə təchiz edilməsi, nəqliyyat xidmətinin çoxşaxəli quruluşu, pərakəndə satışla və istehsalla vaxt aşırı əks-əlaqə (feed-back) yaratmaq, malları pərakəndə ticarətə vaxtında daxil olmasını təşkil etmək və qeydə almaq pərakəndə ticarətin bu malları qəbul etməsi, onları ticari əməliyyat və tədarük fəaliyyətini səmərəli təşkil etmək, onların uçotunu aparmaq, topdan ticarətlə əlaqə yaratmaq və sifarişlərin vaxtında göndərilməsi və s. kimi digər səmərə xarakterli əməliyyatlar daxildir. Ticarət müəssisəsinin səmərəli işləməsini müəyyən etmək üçün müəyyən göstəricilərdən istifadə olunur. Bu göstəricilərdən ən əsası mənfəətdir ki, onda müəssisənin bütün ticarət fəaliyyətinin nəticələri öz əksini tapır- satılmış məhsulun həcmi, onun tərkib və çeşid quruluşu, əmək məhsuldarlığı , xərclərin səviyyəsi, qeyri məhsuldar xərclərin və itgilərin mövcudluğu və s. Ticarət müəssisəsinin mənfəəti onun bütün gəlirləri və xərcləri arasındakı fərq kimi hesablanır. Ticarətdə əmtəə satışından əldə edilən mənfəəti (əməliyyat mənfəəti) və xalis mənfəəti fərqləndirilir.

Əməliyyat mənfəəti - ticarət əlavələri (qiymət əlavələri) ilə tədavül xərcləri arasında fərqdən ibarətdir.

Balans mənfəəti – sair planlaşdırılan və planlaşdırılmayan gəlirləri və xərcləri nəzərə almaqla hesablanır.

Kommersiya işinin səmərəliliyinin qiymətləndirilməsində mənfəətlə çəkilən xərclərin (tədavül xərclərinin) müqayisəsi böyük əhəmiyyət kəsb edir.

$$(M / X) * 100 \%$$

Burada: M – müəyyən dövr üçün ticarət müəssisəsinin mənfəəti (məbləğ)

X- ticarət müəssisəsinin xərcləri .

Bu göstərici kommersiya fəaliyyətinin səmərililiyi haqqında mühakimə yürütməyə imkan verir, belə ki, kommersiya işinin aparılmasına çəkilən hər bir manata düşən mənfəətin xüsusi çəkisini əks etdirir.

Kommersiya fəaliyyətinin keyfiyyət göstəricilərindən biri tədavül xərcləridir. (kommersiya fəaliyyətinin səmərəli həyata keçirilməsi üçün çəkilən xərclər)

Tədavül xərcləri malların istehaslçıdan istehlakçıya çatdırılması ilə əlaqədar olan əmək məsrəflərinin pulla ifadəsinə deyilir.

Tədavül prosesinin bütün mərhələlərində tədavül xərcləri yaranır. Bunların bir hissəsi satış və təchizatla məşğul olan təşkilat və müəssisələrin, digər hissəsi kənd təsərrüfatı məhsullarını satanların payına düşür.

Ticarət müəssisəsinin kommersiya fəaliyyətinin səmərililiyinin digər mühüm şərti əmtəələrin dövriyyə sürətidir ki, bu da mal dövriyyəsi sürəti göstəricisində öz əksini tapır.

Mal dövriyyəsi sürəti əmtəələrin dövretmə sürətini və ya əmtəə ehtiyyatlarının satıldığı müddəti vaxtı göstərir. Əmtəələrin dövriyyəsinin tezləşdirilməsi kommersiya təşkilatının işinin qiymətləndirilməsinin əsas meyarıdır, çünki əmtəələrin tədavül sahəsində olması vaxtının qısaldılması deməkdir və deməli pul vəsaitlərinin daha tez dövr etməsi və ticarət proseslərinin yerinə yetirilməsində onlara olan tələbatın azalması deməkdir.

Dövriyyəyə görə gün hesabı ilə mal dövriyyəsi orta əmtəə ehtiyyatlarını hər hansı bir dövr üçün ortagünlük dövriyyəyə bölməklə aşağıdakı formula əsasında hesablanır:

$$Dg = Əe\ ort\ /\ Md0/d$$

Burada Dg – gün hesabı ilə dövriyyəni (bir dövrün müddətini) ;
Əe ort – müəyyən dövr üçün orta əmtəə ehtiyyatlarını
Md*0*/d – həmin dövr üçün orta günlük mal dövriyyəsini göstərir.

Ticarət müəssisəsinin fəaliyyətinin son nəticəsi satılmış əmtəə və xidmətlərin dəyəridir. Buna görə də ticarət müəssisəsinin kommersiya fəaliyyətinin səmərəliliyi ümumiləşdirici göstərici ilə ifadə oluna bilər ki, o da satılmış əmtəə və xidmətlərin dəyərinin onların satışına sərf olunan xərclərə nisbəti kimi bu formula üzrə hesablanır.

Səmərəlilik = Realizə edilmiş əmtəə (xidmətlərin) dəyəri / Real tədavül xərcləri

Müəssisənin normal fəaliyyəti üçün səmərəliliyin müəyyən edilməsi və onun təşkili zəruri ehtiyaclardan biridir.

Kommersiya fəaliyyətinin səmərəli təşkilinə təsir edən amilləri bilavasitə öyrənmək onun tərkib elementlərinin iş mexanizminin tam heyətli işləməsi baxımından zəruridir. Bu amillər sayılmaqla aşağıdakı kimi qruplaşdırılır.

- iqtisadi
- sosial
- demoqrafik
- coğrafi
- tarixi
- milli və s.

İqtisadi amillər dedikdə əsasən kommersiya fəaliyyəti həyata keçirilən ölkənin iqtisadi durumu (ilk növbədə əhalinin alıcılıq qabiliyyəti) nəzərdə tutulur. Belə ki, əgər ölkə iqtisadi cəhətdən inkişaf etmiş və ixtisaslaşdırılmış sayılarsa onda ölkənin əmək haqqı fondu çox olar və əhalinin alıcılıq qabiliyyəti və tələbin maksimum səviyyədə ödənilməsi zərurəti olar. Nəticədə kommersiya fəaliyyəti təkmil qurula bilər və onun səmərəliliyi şübhəsiz artmış olar.

Sosial amil dedikdə cəmiyyət və onun daxilində gedən proseslər nəzərdə tutulur. Belə ki, əgər o cəmiyyət maarif cəhətdən və kübar inkişaf etmiş cəmiyyətdirsə onda onlar öz tələblərini daha keyfiyyətli və tanınmış mallara yönəldəcəkdir. Buradan da, kommersiya fəaliyyətinin səmərəli işləməsi üçün məhsulun cəmiyyət arasında tanınması zərurəti ortaya çıxır.

Demoqrafik amillər dedikdə əsasən əhalinin sayı, kişilərin, qadınların əhali cinsində tərkibi strukturluğu, əhalinin yaş həddi bölgüsü, ölüm, doğum və s. nəzərdə tutulur.

Coğrafi amil dedikdə kommersiya fəaliyyətinin həyata keçirildiyi ölkənin fəaliyyətinin həyata keçirildiyi ölkənin yerləşdiyi yer, relyef quruluşu, nəqliyyat, rabitə əlaqələri və s. nəzərdə tutulur.

Tarixi amil ölkənin illər ərzindəki fəaliyyəti, onun tarixdə qoyduğu izlər və s. nəzərdə tutulur. Milli amillər özünü ölkənin adət-ənənələrində, onun mentallıq dərəcəsində, əhalisinin yaşam tərzində və s. göstərir.

MÜASİR DÖVRDƏ GƏLİRLƏR VƏ XƏRCLƏRİN UÇOTU, ONLARIN MÜƏSSİSƏNİN MALİYYƏ FƏALİYYƏTİNDƏ ROLU

Məmmədova Ü.Ə.
Azərbaycan Dövlət İqtisad Universiteti

Gəlirlər və xərclər müəssisə fəaliyyətin əsasını təşkil edir. Müəssisədə gəlirlərin və xərclərin müəyyən olunması müəssisənin gələcək fəaliyyətinin istiqamətini müəyyənləşdirməklə yanaşı, onun fəaliyyətində təsadüf edilən nöqsanları üzə çıxartmağa kömək edir. Ümumilikdə gəlirlərin və xərclərin müəyyənləşdirilməsi birbaşa müəssisənin inkişafına təkan verir.

Uçot və hesabatın köməyilə müəssisədə baş verən bütün əməliyyatlara dəqiq nəzarət etmək mümkündür və bu da onun maliyyə-təsərrüfat fəaliyyətinin son nəticələrinə qiymət vermək baxımından müstəsna əhəmiyyət kəsb edir.

Müəssisələrdə gəlirlər və xərclər araşdırıldıqda əsas diqqəti cəlb edən amillərdən biri maliyyə icarəsidir. Maliyyə icarəsi əməliyyatları aparıldığı zaman faiz gəlirləri anlayışı yaranır. Faiz gəlirləri

dedikdə maliyyə aktivləri üzrə verilmiş borclardan əldə olunan faizlər başa düşülür və bu gəlirlərin uçotunun dəqiq aparılması müəssisə üçün ən vacib amillərdən biridir.

Maliyyə gəlirlərinin uçotu 2008-ci ildən qüvvədə olan yeni hesablar planına əsasən 631 saylı "Maliyyə gəlirləri" adlı hesabda uçota alınır. Maliyyə gəlirlərinin tərkibinə daxildir: faiz gəlirləri, qiymətdən düşmüş borclar üzrə fazir gəlirləri, maliyyə icarəsi üzrə gəlir, əldə olunmuş divident gəliri, maliyyə alətlərinin ədalətli dəyərinin dəyişməsindən gəlir, faiz xərcləri yaradan öhdəliklər üzrə məzənnə gəliri və digər maliyyə gəlirləri.

Ümumiyyətlə müəssisədə uçot prosesi maliyyə hesabatları hazır olduğu zaman tamamlanmış sayılır. Maliyyə vəziyyə haqqında hesabatın digər adı isə balans hesabatıdır ki, bu da özlüyündə müəssisənin maliyyə hesabatlarından biridir. Bu hesabat müəyyən tarix üçün müəssisənin maliyyə vəziyyətini əks etdirir. Balans hesabatı mahiyyət etibarı ilə müəssisənin maliyyə fəaliyyətini əks etdirir/ Bu sənəd müəssisənin maliyyə vəziyyəti, müəssisənin fəaliyyətinin müsbət və ya mənfi yöndə hərəkəti barədə anlayış yaradır. Maliyyə vəziyyəti haqqında hesabatın əsasını iki anlayış təşkil edir: bunlar mühasibat uçotu bərabərliyi və kommersiya müəssisəsi konsepsiyalarıdır. Müəssisənin balans hesabatında əksər hallarda yenidənqiymətləndirmə artımı, emissiya gəliri və ya səhm mükafatı, ümumi kapital ehtiyyatını və kapitalın geri alınması üzrə kapital ehtiyyatı əks etdirilir. Yenidənqiymətləndirmə artımı aktivlərin xalis dəyərinin artımı səbəbiylə yaranır və bilavasitə aktiv və öhdəliklərin yenidənqiymətləndirilməsindən sonra əmələ gəlir.

Ümumi kapital ehtiyyatı mahiyyət etibarı ilə könüllü kapital ehtiyyatı hesab olunur və müəssisənin ümumi mənafeyinə xidmət edir. Sözü gedən kapital ehtiyyatı dividentlərin ödənilməsi məqsədi ilə istifadə olunmur (fövqəladə hallar istisna olmaqla).

Müəssisələrdə ən çox təsadüf olunan əməliyyatlardan biri də satışla bağlıdır ki, bu da işlərin və xidmətlərin görülməsindən gələn gəlirləri yaradır. Satış əməliyyatlarının bir neçə hesabda sintetik uçotu aparılır. Yeni hesablar planında əsas əməliyyat gəlirləri 601 saylı "Satış" hesabında əks olunub və özündə malların satışı, tikinti müqavilələri üzrə gəlir, xidmətlərin göstərilməsi üzrə gəlir, royalti gəliri, əməliyyat icarəsi üzrə gəlir və digər əməliyyat gəlirləri subhesablarını birləşdirirb. Əməliyyat gəliri əsasən müəssisənin əsas fəaliyyət növündən əldə olunan gəlirdir. Bu gəlirlərin tanınması və qiymətləndirilməsi 6 N-li Milli Mühasibat Uçotu Standartının tələblərinə əsasən tənzimlənir.

Müəssisə gəlirlərindən bəhs olunduğu zaman sair əməliyyat gəlirləri hesabını da nəzərə almaq lazımdır. Yeni hesablar planına əsasən "Sair əməliyyat gəlirləri" üçün 611 N-li hesab nəzərdə tutulmuşdur. Hesabın tərkibinə keçmiş illər üzrə gəlirlər, cərimələr və sair oxşar ödənişlər, ümidsiz borcların bərpası, silinmiş ehtiyyatların bərpası, məzənnə fərqləri üzrə gəlirlər, əvəzsiz olaraq alınmış aktivlər, torpaq, tikili, avadanlığın və digər uzunmüddətli aktivlərin satışından gəlirlər və s. subhesabları aiddir. Subhesabların adından göründüyü kimi burada müəssisənin adi fəaliyyətindən əldə edilmiş gəlirlər daxil edilir, lakin buna baxmayaraq sair əməliyyat gəlirlərinin "Sair əməliyyat gəlirləri" qismində göstərilməsinin səbəbi müəssisənin adi fəaliyyətində daimi olaraq yaranmamasıdır.

Xərclər özlüyündə geniş anlayış olmaqla müəssisələrin fəaliyyət dairəsindən asılı olaraq bir sıra bölmələrə ayrılır. Bunlardan bir neçəsi aşağıda qeyd olunmuşdur:

İlk öncə inzibati xərclər anlayışına nəzər yetirək. İnzibati xərclər özündə müəssisənin idarə olunmasına çəkilmiş bütün xərcləri özündə əks etdirir. İnzibati xərclər uçotu üçün yeni hesablar planında 721 N-li "İnzibati xərclər" adlı hesab nəzərdə tutulmuşdur. Bu zaman inzibati xərclərin tərkibində inzibati heyətin əmək haqları, ofis xərcləri, inzibati aktivlərin amortizasiyasını və s. bu kimi xərcələr uçota alınır.

Müəssisədə xərclərdən bəhs edildiyi zaman kommersiya xərclərini də nəzərdən qaçırmaq olmaz, bu qəbildən xərclər bütün müəssisələrə xasdır və onun dəqiq uçotunun aparılması bütün müəssisələr üçün vacib amil hesab olunur. Kommersiya xərcləri müəssisə xərclərinin böyük bir hissəsini əhatə etməklə onun fəaliyyətinin tənzimlənməsində və gələcək gəlirlərinin yaranmasında mühüm əhəmiyyətə malikdir. Ümumilikdə kommersiya fəaliyyəti elə bir sahəsidir ki, müasir bazarda bu fəaliyyət növü ilə geniş səpkidə bilavasitə müəssisələr məşğul olur. Bu fəaliyyət növünə ticarət fəaliyyəti, malların tədarükü, diler fəaliyyəti və s. aiddir. Qeyd etmək lazımdır ki, qablaşdırma və daşınma xərcləri də kommersiya xərclərinin tərkibinə aid edilir. Bu qəbildən olan xərclər məhsulun maya dəyərində birbaşa öz əksini tapır. 711 N-li "Kommersiya xərcləri" aktiv hesab olduğundan kommersiya xərcləri bu hesabın debetində uçota alınır. Belə xərclərə reklam, marketinq, bu fəaliyyət sektoru ilə məşğul olan işçi heyəti ilə bağlı xərclər, satışla əlaqəsi olmayan xərclər və s. aiddir. Adı çəkilən hesabdan təchizat, istehsalat, ticarət və bir çox fəaliyyətlə məşğul olan firmalar istifadə edir.

Bu anlayışlarla yanaşı, yeni hesablar planında 731 N-li "Sair əməliyyat xərcləri" hesabını da nəzərdən qaçırmamalıyıq. Bu xərclərə 24 N-li Milli Mühasibat Uçotu Standartına uyğun qiymətdəndüşmə üzrə zərərlər və göstərilmiş xərclərə oxşar sair əməliyyat xərcləri də aiddir.

Maliyyə xərcləri dedikdə, müəssisənnin fəaliyyəti zamanı yaranmış digər xərclər başa düşülür. Bu xərclər mahiyyət etibarı ilə özündə faiz xərclərini, konvertasiya olunan istiqrazlar üzrə faiz xərclərini, maliyyə icarəsi üzrə faiz xərclərini, maliyyə alətlərinin ədalətli dəyərinin dəyişməsi üzrə xərcləri və s. əks etdirir. Sadalanan maliyyə xərclərinin tərkib hissələri 751 N-li hesabın müvafiq subhesablarında uçota alınır.

Xərclərdən danışıldığı zaman borclar anlayışını da nəzərdən keçirmək məqsədə uyğun olardı. Borclarla bağlı qeyd olunması nəzərdə tutulan vacib amil yeni hesablar planına əsasən ilkin müxabirləşmə aparıldığı dövr ərzində göstərilən bütün məbləğləri uzunmüddətli borclar kimi uçota alınmasının mümkünlüyüdür. Daha sonra - hesabat ilinin sonunda qısamüddətli və uzunmüddətli borcları müəyyən edib, maliyyə hesabatlarında əks etdirirlər. Qısamüddətli borclar müəyyən olunduqdan sonra onlar uzunmüddətli borclar hesabından silinərək qısamüddətli borclar hesabında əks etdirilir.

Müəssisədə gəlirlərin və xərclərin dəqiq uçotunun aparılması onun mənfəət və zərəri haqda aydın və obyektiv təəssürat yaratmağa kömək edir. Hesabat ili ərzində müəssisənin bütün fəaliyyətinin son nəticəsini müəyyənləşdirmək üçün 801 "Ümumi mənfəət (zərər)" hesabı nəzərdə tutulmuşdur. Mənfəət və zərər haqqında hesabat müəssisə tərəfindən hazırlanılan əsas hesabatlardan birini və demək olar ki ən əsasını təşkil edir.

Gələcək dövrlərin gəlirləri qismində hesabat dövrü ərzində alınmış, lakin gələcək hesabat dövrünə aid olacaq gəlirlər çıxış edir. Sözü gedən gəlirlər hesabat dövrü çatdığında həmin dövrün maliyyə-təsərrüfat fəaliyyəti nəticələrinə aid edilir.

Gəlirlər və xərclərin uçotunun aparılmasına dair məlumatlardan aydın olur ki, müəssisə fəaliyyətinin müsbət inkişafında onların rolu əvəzsizdir. Müəssisələrin fəaliyyət sektorundan asılı olaraq müəssisənin gəlir və xərclərinin tanınmasında cüzi fərqlər olsa da, bütün müəssisələrdə onların dəqiq uçotunun aparılması eyni əhəmiyyətliliyə malikdir.

SƏHM BAZARININ TƏŞƏKKÜLÜ VƏ MÜASİR İNKİŞAF MEYLLƏRİ

Qocayev X.L.
Azərbaycan Dövlət İqtisad Universiteti

Hal-hazırda Azərbaycan iqtisadiyyatı həm iqtisadi, həm də siyasi cəhətdən inkişaf etmiş, rəqabətqabiliyyətli ölkələr sırasında yer alır. Ölkəmizdə müstəqillik əldə etdildikdən sonra bütün sahələrdə olduğu kimi maliyyə bazarı da, bu inkişafdan öz bəhrəsini götürmüşdür. Yerli şirkətlərin sürətli inkişafını tələb edən müasir bazar iqtisadiyyatının formalaşması şirkətlərin rəqabət qabiliyyətli olmalarını tələb etməklə yanaşı, onların yüksək gəlirlər qazanmalarını, inkişaf etmələrini, beynəlxalq bazara çıxışlarını təmin etmişdir. Həmçinin, sosial-iqtisadi sahələrdə əldə olunan uğurlar beynəlxalq reytinq agentliklərinin "Fitch Ratings", "Moody's", "Standard & Poor's"-un Azərbaycan iqtisadiyyatı ilə bağlı ildən-ilə yaxşılaşan qiymətləndirmələrində də öz əksini tapmışdır. Dünya Bankı və Beynəlxalq Maliyyə Korporasiyası tərəfindən hazırlanan "Doing Business" hesabatında Azərbaycan mövqeyini yaxşılaşdırmış, Dünya İqtisadi Forumunun "Qlobal Rəqabətlilik Hesabatı"nda Müstəqil Dövlətlər Birliyi və region ölkələri arasında lider mövqeyinə yüksəlmişdir. Ölkəmizdə müasir, beynəlxalq standartlara uyğun, iqtisadiyyata geniş kapitalizasiya imkanları təqdim edən və risklərin etibarlı idarə edilməsini təmin edən, yüksək səmərə ilə fəaliyyət göstərən qiymətli kağızlar bazarının formalaşdırılması istiqamətində mühüm addımlar atılır, qiymətli kağızlar üzrə qeyri-mütəşəkkil bazarın məhdudlaşdırılması, bazarın investorlar üçün cəlbediciliyinin artırılması məqsədi ilə sistemli tədbirlər həyata keçirilir, bazarın peşəkar iştirakçılarının fəaliyyətini və onlara nəzarət mexanizmlərini tənzimləyən qanunvericilik təkmilləşdirilir. Qiymətli kağızlar bazarının institusional inkişaf səviyyəsinin yüksəldilməsi və onun beynəlxalq standartlara uyğunluğunun təmin edilməsi, ölkə iqtisadiyyatında kapitallaşma dərəcəsinin yüksəldilməsinə nail olunması və iqtisadi layihələrin maliyyələşdirilməsində fond bazarı vasitəsilə cəlb olunan qeyri-inflyasiya mənşəli investisiya vəsaitlərindən istifadənin genişləndirilməsi məqsədi ilə tədbirlər həyata keçirilir ki, bu da maliyyə bazarında inkişafa güclü təkan verir. Eyni zamanda, iqtisadi subyektlərin və əhalinin yığımlarının fond bazarında səmərəli yerləşdirilməsi üçün və ölkənin qiymətli kağızlar bazarının tədricən beynəlxalq kapital bazarlarına

inteqrasiya olunması məqsədi ilə müvafiq şərait yaradılması daim diqqət mərkəzində olmuşdur. Sovet dönəmində demək olar ki, çox az inkişaf edən, lakin sonradan ölkəmiz müstəqillik əldə etdikdən sonra maliyyə bazarının əsas sahələrindən olan səhm bazarı, keçən bu 24 il ərzində xeyli inkişaf etmişdir. Bazar iqtisadiyyatı şəraitində maliyyə resurslarının ölkə iqtisadiyyatına cəlb edilməsi mühüm əhəmiyyət kəsb edir. Azərbaycanda həyata keçirilən iqtisadi islahatlar və onun dünya iqtisadiyyatı sisteminə inteqrasiyasının dərinləşməsi iqtisadiyyatın dinamik inkişafına şərait yaratmışdır. Daxili və xarici resursların iqtisadi inkişafa cəlb edilməsini təmin edən maliyyə bazarının mövcudluğu zərurətə çevrilmişdir. Digər tərəfdən, bazar iqtisadiyyatının inkişafı maliyyə bazarı olmadan mümkün deyildir. Maliyyə bazarı pul vəsaitlərinin hərəkətinin təşkil edilməsinin xüsusi forma və sferası olub maliyyə münasibətləri sferasında alqı-satqı münasibətlərinin məcmusudur. Azərbaycan Respublikası maliyyə bazarı artıq 1995-ci ildə tam formalaşmışdır. Son beş ildə respublikamızda maliyyə bazarı və onu təşkil edən seqmentər üzrə normativ baza daha da inkişaf etdirilmiş, yəni bir çox qanun və qərarlar qəbul edilmişdir. Onlardan "Mərkəzi Bank haqqında", "Banklar haqqında", "Səhmdar cəmiyyətlər haqqında", "Qiymətli kağızlar haqqında", "Valyuta tənzimlənməsi haqqında" qanunları eləcə də Azərbaycan Respublikasının Nazirlər Kabinetinin bir sıra qərarlarını göstərmək olar. 1998-ci ildən başlayaraq Azərbaycan Respublikasının maliyyə bazarında kəmiyyət və keyfiyyət baxımından ciddi dəyişikliklər baş vermişdir. Maliyyə resurslarının alıcıları sırasında müəssisə və təşkilatların payı artmağa və dövlətin payı azalmağa başlamışdır. Cəlb edilən vəsaitlərin dəyərinin nisbətən azaldılması sayəsində onların əldə edilməsi çoxsaylı müəssisələr üçün mümkün olmuşdur. Hal-hazırda Azərbaycanın maliyyə bazarı inkişaf etməkdə olan maliyyə bazarı qrupuna aiddir. Tələb xususiyətinə görə maliyə bazarı borc bazarına və səhm bazarına ayrılır ki, Azərbaycanda 1999-cu ildən Bakı Fond Birjası yaradılmışdır və birjanın inkişafı ölkədə səhmləşdirilmiş mülkiyyətin ÜDM-da xususi çəkisindən asılıdır. Beləki, Azərbaycanda birja fəaliyyətinin canlanması üçün ilk növbədə özəlləşməni sürətləndirmək lazımdır. Birjadankənar ticarət əsasən birja ticarətinin alternativi kimi çıxış edir. Bunun səbəblərindən biri odur ki, bəzi müəssisələrin göstəriciləri birjada qeydiyyatdan keçmək üçün kifayət etmədiyinə görə bu müəssisələr birjaya çıxa bilmirlər. Hal-hazırda kiçik və orta müəssisələrin səhmlərinin satışının böyük əksəriyyəti birjadan kənar həyata keçirilir. Birjadan kənar əməliyyatları, ayrı-ayrı broker və diler kompaniyaları həyata keçirir, əsasən telefon və kompyuter vasitəsilə əqdlər yerinə yetirilir. Belə ticarətdə konkret olaraq hər hansı vahid mərkəz olmur və qiymətlər adətən müxtəlif səviyyələrdə aparılan danışıqlarda müəyyən edilir. Onu da qeyd etmək olar ki, qabaqcıl ölkələrdə fond bazarının inkişafı nəticəsində ikinci bazarın ənənəvi olaraq birja və birjadankənar seqmentlərə bölünməsi artıq əvvəlki kimi aktual deyil. Bu cəmiyyətlərə payın qoyulması xüsusi sənədlə təsdiqlənirdi. Bu sənnəddə sahibin ümumi kapitaldakı payı göstərilir və ümumi gəlirin müəyyən hissəsini əldə etmə hüququ təsdiqlənirdi. Bu sənədlər ilk səhmlər idi. Korporativ əsaslarda yaradılmış və fəaliyyət göstərən təsərrüfat subyektlərinin, yəni açıq və qapalı səhmdar cəmiyyətlərin əsas maliyyə mənbəyini səhmlərin buraxılması və yerləşdirilməsindən əldə olunan vəsaitlər təşkil edir. Səhmdar cəmiyyət təsərrüfat fəaliyyətini həyata keçirmək məqsədilə nizamnamə fondunu səhm buraxmaq yolu ilə formalaşdıran fiziki və ya hüquqi şəxslərin könüllü sazişi əsasında yaradılan müəsissədir. Müxtəlif sənaye və ticarət müəsissələri, banklar, investisya fondları və s. səhmdar cəmiyyət ola bilər. Azərbaycan Respublikasının "Qiymətli kağızlar haqqında" qanununda səhm haqqında belə deyilir: "Səhm – onun sahibinin (səhmdarın) səhmdar cəmiyyətin mənfəətinin bir hissəsini dividend şəkilində almaq, səhmdar cəmiyyətin idarə edilməsində iştirak etmək və o, ləğv edildikdən sonra qalan əmlakın bir hissəsini əldə etmək hüqüqunu təsdiqləyən sənəddir".Yəni, səhm sahibi səhmdar cəmiyyətə müəyyən miqdarda vəsait köçürür və bu vəsaitə uyğun nisbətdə cəmiyyətin əldə etdiyi gəlirin bir hissəsini əldə etmək hüququnu əldə etmiş olur. Həmçinin müəsissənin öhdəliklərinə görə də, bu nisbətə uyğun həcmdə məsuliyyət daşıyır. Bundan başqa ümumiyyətlə səhmlər malik olduqları hüquqlara görə də adi və imtiyazlı səhmlərə bölünür ki, hal-hazırda inkişaf etmiş ölkələrdə səhmdarların hüquqlarını məhdudlaşdıran müxtəlif cür adi səhmlər buraxılır. Səhmlərin nəzarət zərfinin arzuolunmaz şəxslərin əlinə keçməsinə yol verməməkdən ötrü səhmdar cəmiyyəti məhdud səs hüquqlu adi səhmlərin buraxılmasına əl ata bilər. Məsələn, səssiz səhmlər. Belə səhmlərin sahibləri iclaslarda səs hüququna malik deyillər. Bu mənada onlar imtiyazlı səhmlərə yaxındırlar. Lakin, dividentin ödənilməsi və emitent ləğv olunduqda iddialara baxılmasına görə adi səhmlərlə üst-üstə düşür. Səssiz adi səhmlərin öz müştəriləri vardır. Bu səhmlərə daha çox şirkəti idarə etməyə iddialı olmayan amma qoyulmuş kapitala görə sabit və daha yüksək gəlir əldə etmək istəyən şəxslər maraq göstərir. Səssiz adi səhmlərin qiyməti, bazarda səs hüququ verən adi səhmlərə nisbətən aşağıdır. Bundan başqa dünya təcrübəsində tabeli səhmlər də mövcuddur. Bu səhmlər sahiblərinə səs hüququ versə də, səhmdar cəmiyyətin buraxdığı digər

tipli adi səhmlərlə müqayisədə bir qədər az miqyasda verir. Məsələn, adi səhm sahibinə 1 səs hüququ verirsə, belə tip səhmin 10 ədədi 1 səs hüququ verir. Məhdud səs hüquqlu səhm sahibləri isə yalnız müəyyən sayda səhmlərə sahib olduqda səs hüququ əldə edirlər.

Ölkəmizdə maliyyə bazarının inkişafına 1998-ci il 30 dekabr tarixində ölkə prezidenti tərəfindən imzalanmış "Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin yaradılması haqqında" fərman bu sahənin inkişafında yeni mərhələnin başlanğıcı hesab olunur. Qiymətli Kağızlar bazarının fəaliyyəti və tənzimlənməsinə dair hüquqi normativ bazanın təkmilləşdirilməsi, ölkədə mütəşəkkil qiymətli kağızlar bazarının baza institutlarının formalaşdırılması, bazara bir sıra müxtəlif maliyyə alətlərinin çıxarılması bu sahənin inkişafı üçün xüsusi diqqətin ayrılmasının nümunəsidir.

VERGİ YÜKÜ – VERGİ SİSTEMİNİ XARAKTERİZƏ EDƏN GÖSTƏRİCİ KİMİ

Hənifəyev Ə.Ş.
Azərbaycan Dövlət İqtisad Universiteti

Vergi sistemi - ölkənin ərazisində fəaliyyət göstərən vergilərin məcmusunu,vergi quruculuğunun metodları və prinsiplərini ifadə edir.Səmərəli şəkildə qurulmuş vergi sistemi, bir tərəfdən dövlətin maliyyə ehtiyatlarına olan tələbatını ödəməli, milli iqtisadiyyatı canlandırmalı, digər tərəfdən isə vergi ödəyicilərinin sahibkarlıq fəaliyyətinə olan maraqlarını stimullaşdırmalıdır. Bu səbəbdən də vergi yükü göstəricisi ölkənin vergi sisteminin keyfiyyət ölçüsüdür.

Vergi ödəyiciləri üçün vergilərin ağırlıq dərəcəsini xarakterizə edən vergi sisteminin effektivliyinin ölçülməsinin baza göstəricilərindən biri də vergi yükü göstəricisi hesab edilir. İki yüz ildən artıqdır ki, maliyyə elmi təkcə vergitutma və vergilərin istehsal prosesinə təsiri problemlərini tədqiq etməmiş, həm də iqtisadi nəzəriyyənin, vergitutma nəzəriyyəsinin və statistikanın mümkün inkişaf səviyyəsindən asılı olaraq vergitutma ağırlığının müəyyən edilməsi və onun iqtisadiyyata təzyiqi məsələlərinin həllinə təşəbbüslər edilmişdir.

Vergitutma ağırlığı anlayışı, ilk növbədə vergi ağırlığının kəmiyyətinin ölçülməsi, daha sonra isə ikinci olaraq vergi yükünün ümumi iqtisadiyyata və ayrı-ayrı təsərrüfatlara təzyiqinin, təsirinin müəyyən edilməsini tələb edir.

Müasir termonoloji aparat vergi yükü, vergi gərginliyi, vergi təzyiqi, vergitutma ağırlığı və s. kimi anlayışlarla zəngindir. Bu anlayışların çoxlu sayda tərifi, izahı həmçinin vergilərin iqtisadiyyata təsirinin müəyyən edilməsinin çoxlu sayda metodikaları mövcud olduğuna görə vergi yükü probleminin sonrakı tədqiqi dəqiq anlayış aparatının olmasını zəruri edir.

İlkin olaraq vergitutma ağırlığının hesablanması məsələsi əsasən büdcə ilə milli gəlir arasında hər hansı iqtisadi əsaslandırılmış proporsiyanın müəyyən edilməsi cəhdinə gətirilmişdir. Bu zaman makro və mikro səviyyə arasında dəqiq bölgünün, fərqlədirmənin olmamasına baxmayaraqhər biri iqtisadçı alim vergitutma ağırlığının hesablanmasına münasibətdə özünün yanaşmasını irəli sürməklə, onu ya makro , yaxud da mikrosəviyyədə müəyyən etmişdir.

Vergitutma ağırlığını ilk dəfə XVIII əsrdə tədqiq etmiş F.Jutsi və A.Bifeld onun iqtisadiyyata təzyiqini dövlət büdcəsi ilə milli gəlir arasında nisbət kimi müəyyən etmişdir. Bu zaman F.Jutsi milli gəlirin 1/6 hissəsini xərcləyən büdcənin normal olduğunu nəzərdə tuturdu. A.Bifeld isə vergi ödəyicilərindən onların gəlirlərinin 1/4 hissəsinin tutulmasını son həddhesab edirdi.

XX əsrin əvvəllərində maliyyə elmində "vergi yükü" və "vergitutma ağırlığı" anlayışlarında oxşarlıqla bərabər müxtəliflik də olmuşdur. K.F.Şmelyov yazırdı ki, "vergitutma ağırlığı" anlayışı aşağıda qeyd edilən iki elementə gətirilir:

- vergitutma yükü
- bu yükün iqtisadiyyatda yaratdığı təzyiq (məcburi vergi tutulmaları nəticəsində xalq təsərrüfatının, o cümlədən digər ayrı-ayrı təsərrüfatların və onun tərkib hissələrinin daşıdığı ağırlıq).

İqtisadi ədəbiyyatlarda vergilərin iqtisadiyyata təsirinin təhlili zamanı ənənəvi olaraq makro və mikro səviyyələr fərqləndirilir və əksər hallarda belə təsirin qiymətləndirilməsi üçün "vergi ağırlığı" və "vergi yükü " kimi məhfumlardan istifadə olunur. Müasir iqtisadi ədəbiyyatda "vergi ağırlığı" və "vergi yükü" kimi anlayışlara rast gəlinir. Rus iqtisadçısı V.Q.Panskovin fikrincə "vergi ağırlığı vergilərin ümumilikdə ölkə iqtisadiyyatının ayrıca təsərrüfat subyektinin və digər ödəyicinin gəlirlərində vergilər və

vergi xarakterli digər ödənişlər formasında dövlətə ödənilən pay kimi müəyyən edilən məcmu təsir göstəricisini ifadə edir."

Zənnimizcə, vergilərin ölkə iqtisadiyyatına yaxud təsərrüfat subyektinə təsirinə bütün dərəcəsini faizlərlə ifadə edilmiş, yalnız bir göstərici ilə ölçmək mümkün deyildir. Digər məşhur alim A.B.Paskaçyov "vergi yükü" və "vergi ağırlığı" anlayışlarını fərqləndirir. O, vergi yükünü büdcə sisteminə və büdcədənkənar fondlara ödənilən vergilərin, yığımların və digər ödənişlərin ÜDM-ə, region üzrə ümumi regional məhsula (ÜRM) olan nisbəti kimi müəyyən edir. Eyni zamanda o, vergi ağırlığını aşağıdakı kimi təklif edir:

- dövlət tərəfindən hüquqi və fiziki şəxslərdən tutulan icbari ödənişlərin (vergilərin, yığımların) ümumi həcmi, məcmu vergi yükü;
- realizə olunan vahid məhsul həcminə düşən müəssisənin bütün vergi ödənişləri məbləğini müəyyən edən göstərici.

Məlumdur ki, həm makro, həm də mikro səviyyədə büdcəyə və büdcədənkənar fondlara ödənilən vergilərin və yığımların ümumi məbləğinin mütləq ifadədə vergi yükü adlandırılmasına heç bir zərurət yoxdur. Bu termin ödənilən vergilərin və yığımların həcmi barədə məlumatdan başqa heç bir informasiya və məna daşımır.

Bu baxımdan fikrimizcə, vergitutmanın iqtisadiyyata təsirini qiymətləndirmək üçün bir göstəricidən - vergi yükündən istifadə etmək məqsədəuyğundur. Bu göstərici iqtisadi subyektin gəlirlərinin vergilər və yığımlar, həmçinin vergi xarakterli digər ödənişlər formasında büdcəyə və büdcədənkənar fondlara tutulan payını ifadə edir. Bu zaman vergi xarakterli ödənişlər dedikdə, vergilərin vaxtında ödənilməməsinə görə hesablanmış faizlər vergi qanunvericiliyinin pozulmasına görə tətbiq edilən maliyyə sanksiyaları , eyni zamanda inzibati cərimələr başa düşülür.

İ.V.Qorski vergi yükünü vergi sisteminin xarakterizə edən ən mühüm göstərici kimi hesab edir. Vergi yükü həmçinin ölkədə iqtisadi şəraitin və iqtisadi siyasətin, daha dəqiq vergi siyasətinin vacib göstəricisi kimi hesab edilir.

Vergi yükü dövlət xərclərinin, istehlak həcminin dəyişməsindən asılı olaraq dəyişir. Belə ki, dövlət xərcləri artdıqca, orta vergi yükü artır, azaldıqda isə azalır. Bununla yanaşı, dövlət investisiyasına münasibətdə də oxşar yanaşma mövcuddur. İqtisadi inkişaf tempinin yüksəlməsi, şübhəsiz, iqtisadiyyatın vergi yükünün artırılmasını tələb edir və əksinə. İstehlakın səviyyəsinin artması halında isə əks mənzərə yaranır. İstehlak norması artdıqca orta vergi yükü azalır. Ona görə də ümumi daxili məhsulun istehlak və yığım komponentlərinin optimal nisbəti iqtisadi siyasətin əsas vəzifələrindən biri kimi diqqət mərkəzində saxlanmalıdır.

Vergi yükü göstəricisi milli iqtisadiyyatın vergi tənzimlənməsinin indikatorlarından biri olmalıdır. Ümumdövlət (makro) səviyyədə vergi ağırlığı göstəricisinin zəruriliyinin aşağıdakı səbəbləri var:

- ilk növbədə, vergi siyasəti strategiyasının işlənib hazırlanması və vergi islahatlarının aparılması üçün. Dövlət iqtisadi fəaliyyətin idarəetmə subyekti kimi öz ərazisində yeni vergiləri daxil etməklə, köhnələri ləğv etməklə, vergi dərəcələrini və vergi güzəştlərini dəyişməklə iqtisadiyyata düşən vergi təzyiqinin yol verilən son sərhədini müəyyən etməyə borcludur. Bu sərhəd elə bir həddir ki, onun getdikcə yüksəldilməsi ölkə iqtisadiyyatı üçün mənfi nəticələrə gətirib çıxara bilər.

- ikincisi; cari ilin büdcə gəlirləri üzrə daxilolmaların qiymətləndirilməsi və növbəti ilə və daha uzun perspektivə büdcənin hazırlanması zamanı region, ölkə üzrə vergi daxilolmalarının və vergi bazasının inkişafının proqnoz hesablanmalarının aparılması üçün.

- üçüncüsü; vergi sisteminin ümumilikdə ölkənin, regionların və iqtisadiyyatın ayrı - ayrı sahələrinin sosial - iqtisadi inkişafına təsirinin effektivliyinin qiymətləndirilməsi üçün. Bu qiymətləndirmənin nəticəsi özünün ifadəsini büdcələrarası münasibətlərin tənzimlənməsi, regionların iqtisadi inkişaf səviyyələrindəki fərqlərin hamarlanması zamanı dövlətin büdcə - vergi siyasətində tapır. Milli iqtisadiyyatın müxtəlif sahələrində vergi yükünün səviyyəsinin obyektiv qiymətləndirilməsi dövlət orqanları tərəfindən qəbul edilən qərarlarda vergilərin fiskal funksiyaları ilə onların istehsal prosesinə effektli təsir etmə qabiliyyətini düşünülmüş şəkildə uyğunlaşdırılmasının reallaşdırılmasına imkan verir.

- dördüncüsü; vergi sisteminin cəmiyyətdə baş verən sosial proseslərə təsirinin qiymətləndirilməsinin təhlil edilməsi üçün. Vergi islahatlarının planlaşdırılması zamanı əhaliyə münasibətdə vergi tutma ağırlığının öyrənilməsi dövlətə imkan verir ki, qarşıya müxtəlif sosial qruplar arasında vergitutma ağırlığının daha edalətli paylanması məqsədini qoysun ki, bununla da ölkədə sosial - iqtisadi situasiyanın sabitləşməsinə və əhalinin həyat səviyyəsinin yüksəlməsinə yönəldilmiş dövlətin sosial siyasətinin aparılması təmin olunur.

- beşincisi; beynəlxalq miqyasda kapitalın mümkün axının proqnozlaşdırılması və ölkənin milli iqtisadiyyatına investisiyaların cəlb olunmasına yönəldilmiş stimullaşdırıcı tədbirlərin qəbul edilməsi məqsədilə müxtəlif ölkələrdə vergi yükünün müqayisəli təhlilinin aparılması üçün.

Əgər praktikada vergitutma potensialı mümkün olan maksimum dərəcədə reallaşdırılarsa və vergilərin fiskal funksiyası ilə onun təkrar istensal prosesinə təsiretmə qabiliyyəti arasında nisbi tarazlıq əldə olunarsa, onda bu rol müsbət olur.Bu,vergi tutulmalarının səviyyəsinin optimallaşdırılmasında, xüsusilə də vergi ödəyicilərinin maraqlarını məhdudlaşdırmayan ölkə büdcəsinin formalaşdırılmasında özünü büruzə verir.

Ümumiyyətlə, vergiqoyma obyektləri,vergi dərəcələri,vergi güzəştləri və verginin ödənilməsi üsulu kimi vergitutma elementlərini özündə birləşdirən elə bir vergi mexanizmi lazımdır ki, yeni yaradılan dəyərin bir hissəsi tutularkən istehsalın inkişafı və investisiyaların artımı ücün əlverişli şərait təmin olunsun və iqtisadi artıma təkan vermiş olsun. Belə mexanizmin işlənib hazırlanması vergitutma sferasında situasiyanı qiymətləndirmədən, mümkün deyildir.

VERGİ SİYASƏTİNİN VERGİ YÜKÜNÜN OPTİMALLAŞDIRILMASINA TƏSİRİ

Hənifəyev Ə.Ş.
Azərbaycan Dövlət İqtisad Universiteti

Dövlətin vergi siyasəti vergitutma sahəsində konkret məqsədə çatmaq üçün vergilər vasitəsilə manipulyasiyanı (istehsal həcminin artırılması və məşğulluğun təmin olunması və ya inflyasiya səviyyəsinin azaldılması və s.) nəzərdə tutulur. Dövlətin iqtisadi siyasətinin əsas istiqamətlərindən olan fiskal siyasətin tərkib hissəsi olmaqla vergi siyasəti vergi sisteminin formalaşması və dəyişməsini nəzərdə tutan vergilərin növlərini, həmçinin, hər bir verginin dövlət büdcəsinin formalaşmasındakı rolunu, vergilərin dərəcələrini və diferensiasiyasını,vergi güzəşt, imtiyaz və kreditlərin, vergilərin hesablanması və dövlət büdcəsinə ödənilməsi mexanizmini müəyyən edir.

Beynəlxalq təcrübədə yuxarıda qeyd olunan sahələr üzrə önəmli məsələlərdən biri kimi vergi qanunvericiliyinin və inzibatçılığının sadəliyinə çox böyük əhəmiyyət verilir. Lakin maksimal sadə vergi sisteminə yönəlmiş vergi siyasətinin formalaşdırdığı gəlirlərin yenidən bölüşdürülməsi mexanizmi ictimai təminatın optimal səviyyəsi və s.ilə bağlı məqsədlərə çatmağa imkan vermir. Xüsusi halda nisbətən sadə vergi sistemində vergilərdən gəlirlərin yenidən bölüşdürülməsi aləti kimi istifadə etmək mümkün olmur.

Diskriminasiya xarakterli vergi siyasəti dövlətin bilərəkdən iqtisadi proseslərə müdaxilə etməsi, vergi amilləri ilə manipulyasiyasının nəticəsi olaraq meydana çıxır. Bu halda, iqtisadi sistemin subyektləri arasında diskriminasiya elementlərinin meydana gəlməsi qaçılmazdır. Belə ki, vergi dərəcələri, vergitutma bazası,vergi güzəşt və imtiyazlarında istənilən dəyişiklik sahibkarlıq subyektlərinin müəyyən qrupunun digərləri qarşısında üstünlük qazanmasına, sahibkarlıq subyektlərinin hərəkətlərinə məhdudiyyət qoyulmasına gətirib çıxarır.

Dövlətin iqtisadi proseslərə müdaxilə səviyyəsi artdıqca, vergi siyasətinin diskriminasiya xarakteri də artır. Ona görə də vergi siyasətinin sabitliyi, sahibkarlıq mühitinin əsas göstəricisidir.

Vergi münasibətləri yenidən bölüşdürücü xarakterli olduğundan ictimai tərəqqi bu münasibətlərin inkişaf səviyyəsindən asılıdır. İqtisadiyyatda bazar münasibətlərinin formalaşdırılması istiqamətində islahatların həyata keçirilməsi səmərəli vergitutma sistemi yaratmadan mümkün deyildir. Vergi münasibətlərinin təkmilləşdirilməsi bütün dövlətlərin fəaliyyətlərinin ən vacib, eyni zamanda,mürəkkəb sahələrindən hesab olunur.Sosial yönümlü bazar iqtisadiyyatlı bütün ölkələrdə vergi sistemi iqtisadiyyatın tənzimlənməsində, büdcə gəlirlərinin formalaşmasında,qiymət artımının məhdudlaşdırılmasında,inflyasiyanın qarşısının alınmasında,dövlət maraqlarının əsas daşıyıcısı kimi çıxış edir.Vergi sistemi təkrar istehsal prosesinin iştirakçılarının iqtisadi maraqlarını ifadə etməklə, onların tarazlığını və bununla da içtimai tərəqqini təmin edir.

Vergi islahatları aparmağa sövq edən əsas amillər bunlardır:

- vergi sisteminin səmərəliliyinin artirilması;
- iqtisadi inkişafın artım sürətini zəiflədən vergi maneələrinin aradan qaldırılması. İnkişaf etmiş ölkələrdə hər 5-7 ildən bir əsaslı vergi islahatları aparılır.Vergitutma nəzəriyyəsi vergi islahatları prinsiplərinin 2 qrupunu nəzərdə tutur. 1-ci qrupa vergitutmanın klassiık prinsipləri daxildir. 2-ci qrupa isə ayrıca götürülmüş bir ölkədə vergi islahatları aparılan zaman həmin ölkənin spesefik xüsusiyyətlərini nəzərə alan prinsiplər daxildır.

Vergi islahatlarının aparılmasının əsas məqsədlərindən biri sahibkarların və dövlət maraqlarının maksimal tarazlığının təmin olunmasıdır.Sosial yönümlü bazar iqtisadiyyatı şəraitində vergi sistemində meydana çıxan vergi hüququ münasibətlərinin tənzimlənməsində mükəmməl normativ hüquqi bazanın olması mühüm rol oynayır.

Vergi yükününün iqtisadi səmərəliliyini artırmaq məqsədilə vergi siyasəti aşağıdakı pinsiplər əsasında həyata keçirilməlidir :

* vergilər haqqında qanunvericilik vergitutmanın ümumi,bərabər və ədalətli olmasına əsaslanmalı;
* vergilər iqtisadi cəhətdən əsaslandırılmalı;
* hər kəsin konstitusiya hüquqları və azadlıqlarının həyata keçirilməsinə maneçilik törədən vergilərin müəyyən edilməsinə yol verilməməli;
* vergilər siyasi, ideoloji, eynik və vergi ödəyiciləri arasında mövcud olan digər xüsusiyyətlər əsas götürülməklə müəyyən olunmalı və diskriminasiya xarakteri daşımamalı;
* vergi yükü optimal səviyyədə saxlanılmalı;
* vergi ödəyiciləri tərəfindən vergi qanunvericiliyinə könüllü əməletmə səviyyəsi yüksəldilməli, vergi mədəniyyəti formalaşdırılmalı və s.

Həyata keçirilən vergi siyasətinin əsas istiqamətləri aşağıdakılar olmalıdır.

- vergi dərəcələrinin azaldılması;
- vergitutma bazasının genişləndirilməsi;
- vergi ödəyijilərinin hüquqlarının genişlənməsı;
- səmərəli vergi nəzarətinin təşkili;
- ölkənin iqtisadi tənlükəsizliyinin təmin edilməsinə yönəldilən tədbirlərin həyata keçirilməsi;
- daxili və xarici investisiyaların prioritet sahələrə cəlb edilməsinə imkan verən əlverişli vergi mühitinin yaradılması.

Son illər yüksək iqtisadi artım göstəricisinə görə dünya ölkələri arasında ön sıralarda qərarlaşan Azərbaycan iqtisadiyyatının inkişafına paralel olaraq,aparılan kompleks vergi islahatları,həyata keçirilən vergi siyasəti respublikanın vergi sisteminin inkişafının keyfiyyətcə yeni mərhələyə çıxmasına imkan vermişdir.

Vergi sistemini xarakterizə edən göstəricilərə ilk növbədə vergi yükü aid edilir. Elmi cəhətdən sübut edilmişdir ki, səmərəli vergi sistemi vergi ödəyicilərinin gəlirlərinin 30% dən çoxunun tutulmasına imkan verilməməlidir.

Azərbaycanda vergi yükünün optimal səviyyədə olması qəbul ediləndir. Ölkəmizdə vergi yükünün səviyyəsi xarici ölkələrlə müqayisədə yüksək deyildir, buna görə də onun aşağı salınması məqbul hesab edilə bilməz.

Sosial vergi Azərbaycanda sosial ayırmalarla bir yerdə 21,5%,sosial ayırmalarsız 17,5% təşkil edir. Avropa İttifaqı ölkələrində isə bu göstərici 39,5%-ə bərabərdir.

İnkişaf etmiş bəzi ölkələr xarici investisiyaların cəlb edilməsi, xarici iqtisadi fəaliyyətin stimullaşdırılması üçün bu istiqamətdə fəaliyyət göstərən şirkətlərə xüsusi vergitutma rejimi tətbiq edirlər. Onlar mənfəət vergisinin güzəstli dərəcəsindən başqa,gəlirlərin bölüşdürülməsi və repatriasiyası vergilərinin dərəcələrini də aşağı salırlar. Cədvəl№ 3.4 -dən göründüyü kimi, Avropa İttifaqı daxilində birbaşa vergilərin uyğunlaşdırılması sahəsində aparılan işlərə baxmayaraq,hələ ki, bu məqsədə istənilən səviyyədə nail olunmamışdır.

Müasir iqtisadiyyatda qloballaşma prosesinin dərinləşməsi,təsərrüfat sistemlərinin inteqrasiyası müxtəlif ölkələrin vergi sistemlərinin uyğunlaşdırılması zərurətini yaradır. Müxtəlif ölkələrin vergi sistemlərinin uyğunlaşdırılması prosesi Avropa İttifaqı çərçivəsində iqtisadi inteqrasiyanın inkişafı gedişində təşəkkül tapmışdır.Qeyd etməliyik ki, republikamızın vergi sistemi inkişaf etmiş ölkələrin vergi təcrübəsində işlənib hazırlanmış prinsiplər nəzərə alınmaqla, vergitutmanın klassik prinsipləri əsasında formalaşmış və bu gün yüksək tələblərə cavab verir.

Vergi yükünün optimallaşdırılması,optimal vergi sisteminin formalaşdırılması baxımından qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində məqsədyönlü tədbirlər uğurla davam etdirilməlidir.

Ölkə iqtisadiyyatında baş verən tərəqqi və dirçəliş digər sahələrdə də olduğu kimi, vergi sistemində səmərəli islahatların aparılmasına, bu sahədə inkişafı təmin edə biləcək, çevik vergi siyasətinin həyata keçirilməsinə də şərait yaratmışdır. Ötən illər ərzində vergi qanunvericiliyi və inzibatçılığının təkmilləşdirilməsi, vergi ödəyicilərinə xidmətin daha da inkişaf etdirilməsi, vergi inzibatçılığının bütün sahələrində müasir informasiya və kommunikasiya texnologiyalarının tətbiqi, inzibati idarəetmənin keyfiyyətcə yaxşılaşdırılması və avtomatlaşdırılması qısa müddətdə öz müsbət təsirini göstərmişdir.

Vergi həddi vergitutmanın elə şərti göstəricisidir ki, bu nöqtədə həm vergi ödəyiciləri, həm də dövlət xəzinəsi üçün ümumi daxili məhsulun büdcə sistemi vasitəsi ilə yenidən bölüşdürülən optimal xüsusi çəkisinə nail olunur. Şərti nöqtənin bu və ya digər istiqamətdə hərəkəti vergi ödəyicilərinin vergi qanunlarına tabe olmamasına, ölkədən kapital axınına, vergidən yayınma hallarının kütləvi hal almasına səbəb olur.

Formalaşan vergiqoyma sistemi, oxşar prinsiplər əsasında qurulmalı, xarici kapitalın cəlb edilməsi və MDB ölkələrinin beynəlxalq əməkdaşlıqda inteqrasiya proseslərinin dərinləşməsi üçün əlverişli şərait yaratmalıdır.

Bununla əlaqədar olaraq, dövlətin vergi siyasəti vergi yükünün optimal səviyyəsinə nail olmağa yönəldilməlidir. Qeyd etməliyik ki, bu gün təşkilatlar üçün vergitutmanın effektiv optimallaşdırılması istehsal və ya marketinq strategiyası kimi olduqca zəruridir.

BİZNESDƏ MÖVQELƏRİN TƏHLİLİ VƏ SƏLAHİYYƏTLƏRİN BÖLÜŞDÜRÜLMƏSİ

Bayramlı N.M.
Azərbaycan Dövlət İqtisad Universiteti

Menecmentin texnologiyası baxımından idarəçilik qərarları aşağıdakı üç mərhələdən ibarətdir:

a) Qərarların hazırlanması;

b) Qərarların qəbul edilməsi;

c) Qərarların həyata keçirilməsi.

İdarəetmə qərarların hazırlanması prosesinin ümumi məzmunu: 1) Problemin, situasiyanın, vəzifələrin təhlili, aydınlaşdırılması və məqsədin formalaşması; 2) Ümumi məlumatların əldə edilməsi və təhlili; 3) Qərarların qəbul edilməsi zəruriyyətinin aşkara çıxarılması; 4) Meyarların seçilməsi; 5) Vəzifələrin parametrinə təsir edən amillərin əsaslandırılması; 6) Vəzifələrin müəyyənləşdirilməsi; 7) Qərar modellərinin hazırlanması; 8) Qərar modelinin əlverişliliyinin qiymətləndirilməsi; 9) Alqoritmin tərtib edilməsi; 10) Proqramın tərtib edilməsi; 11) Qərarın qəbulu zamanı şəraitin qiymətləndirilməsi; 12) Variantların seçilməsi və qiymətləndirilməsi; 13) Əlverişli qərar variantının seçilməsi; 14) Qərarın konkretləşməsi, hissələrə ayrılması, yekun qərarın qəbul edilməsi; 15) Qərarların sənədləşməsi; 16) Qərarların icraçılara çatdırılması; 17) Qərarın icrası üzərində nəzarət qaydasının müəyyənləşməsi.

İdarəetmə qərarlarının qəbul edilmə mexanizmi. İdarəetmə qərarlarının qəbul edilmə mexanizmi menecment qaydaları və menecment texnologiyası ilə üzvi şəkildə əlaqədardır. İ.N.Qreçikova mexanizm dedikdə aşağıdakıları nəzərdə tutur:

1) Qərarların qəbul edilməsinə ümumi rəhbərlik; 2) Qərarların qəbul olunması qaydası; 3) Qərarların qəbul olunmasında planın rolu; 4) Rəhbər işçilərin (eyni səviyyəli) ikitərəfli qərarların fərdi qaydada qərar qəbul etməsi; 5) Məqsədli qruplar və qərarların qəbulunda onların rolu.

Lakin qeyd etmək lazımdır ki, yuxarıda adı çəkilənlərin hamısını idarəçilik qərarlarının qəbul edilməsi mexanizminə aid etmək düzgün olmazdı. Burada iqtisadi, hüquqi, mənəvi, motivləşdirmə forma və metodlarının da böyük əhəmiyyəti vardır.

Qərarların qəbul edilməsi metodları. İdarəetmədə qərarların qəbul edilməsi metodları müxtəlif olsa da nəticə etibarilə aşağıdakı üç qrupa ayrılır:

a) qeyri-formal (evristik) metod;

b) kollektiv (qrup adamlar, komisiya, müşavirə və s.);

c) kəmiyyət (riyazi funksiyalar, modellər)

Qeyri-formal (evristik) metod menecerin analitik yaradıcı qabiliyyətinə, məntiqi mühakiməsinə əsaslanır. Burada menecerlərin şəxsi intuisiyası başlıca rola malik olur.

Kollektiv metod qərarların kollektiv formada qəbul edilməsi ilə bağlıdır. Müvafiq adamlar qrupu hər hansı bir problemin həlli üzrə qərarlar qəbul edirlər. Burada ideyalar irəli sürülür, mütəxəssislər tərəfindən araşdırılır. Qərarların kollektiv qəbulu bəzən "beyin hücumu" adlandırılır. Sənayecə inkişaf etmiş eləcə də Yaponiyada Delfi metodu (Yunanıstanın Delfi şəhərinin adıdır-gələcəyi görə bilən müdrik adamlar şəhəri) geniş yayılmışdır. Burada ideyalar, sorğular ekspert qaydasında təsdiq edilir.

Kəmiyyət metodunun əsasında informasiya massivi durur. Burada xətti modelləşdirmənin, dinamik proqramlaşdırmanın oyunlar nəzəriyyəsinin, statistik modellərin böyük əhəmiyyəti vardır.

Menecment sistemində səmərəli, ardıcıl qərarların qəbul edilməsinin böyük əhəmiyyəti vardır. Bunsuz ümumi menecment funksiyalarının lazımi nəticələri də mümkün olmazdı. İdarəetmə qərarları da informasiyalar kimi keyfiyyətli olmalıdır. Bu məqsədlə idarəetmə qərarlarına qarşı aşağıdakı əsas tələblər qoyulur:

- Məqsədli meylə, istiqamətə malik olması;
- Sistemli, kompleksli əsaslandırılması;
- İyerxiyalı qaydada subardinasiya olunması;
- Konkret ünvanlı olması;
- Direktivliyi;
- Müvafiq resurslarla təminatı.

İdarəetmə qərarları bir çox prinsiplər, əlamətlər üzrə təsnifata ayrılır. Aşağıdakı sxemdə qərarlar idarəetmə funksiyaların, situasiyaların, hadisələrin müəyyənlik səviyyəsi və s. əlamətlər baxımından nəzərdən keçirilir:

Sxem 1.İdarəetmə funksiyaları

İdarəetmənin funksiyalarına görə	**Situasiyaların müəyyənlik səviyyəsinə görə**	**Funksional məzmununa görə**	**Vəzifələrin həlli xarakterinə görə**
Planlaşdırma	müəyyənlik şəraitində	maliyyə	operativ
təşkiletmə	qeyri-müəyyənlik şəraitində	Vergi	strateji
motivləşdirmə	risk şəraitində proqramlaşdırılan	Istehsal	---
uçot, nəzarət və s. funksiyalar üzrə	Proqramlaşdırılmayan	kommersiya	---

İdarəetmə problemləri bir qayda olaraq idarəetmə qərarlarını tələb edir. Bu xüsusən mürəkkəb təsərrüfatçılıq situasiyalarına, problemlərinə aiddir. Həmin problemlərin, situasiyaların məzmunu müxtəlif idarəetmə orqanlarının konkret fəaliyyətini, qərarlarını tələb edir. Məsələn, mühüm elmi-texniki kəşflər, sahə, ərazi problemləri, sahə və sahələrarası, respublikalar, qloballaşmış problemlər hər hansı bir müəssisə, yaxud şirkətin qəbul etdiyi qərarlarla tənzim oluna bilməz. Deməli, problemlər müxtəlif səviyyələrdə öz həllini tapmalıdır.

Mürəkkəb təsərrüfat situasiyalarının meydana gəlməsi yalnız obyektiv iqtisadi qanunların tələblərinin pozulması ilə deyil, həm də idarəetmə məqsədlərinin düzgün müəyyən edilməməsi, habelə sosial-iqtisadi inkişafın öz qanunauyğunluqlarından da irəli gələ bilər. Belə ki, ölkənin iqtisadiyyatının cari və perspektiv inkişaf istiqamətləri obyektiv olaraq xalq təsərrüfatı sahələrində struktur dəyişikliklərini, təbii resurslardan kompleks istifadə olunması, məhsuldar qüvvələrin səmərəli yerləşdirilməsi, əmək ehtiyatlarından tam istifadə edilməsi, əhalinin, ölkənin ərazisi üzrə miqrasiyası meydana çıxır. Məsələn, respublikada əhalinin təbii artımı ilə yeni iş yerlərinin yaradılması arasında xeyli uyğunsuzluqlar vardır. Bundan başqa məktəbləri qurtaran mütəxəssislər də işlə təmin olunmalıdır.

Sosial-iqtisadi situasiyalar hadisələrə, onları əmələ gətirən səbəblərə, amillərə sistem və konkret-tarixi halda yanaşmaları tələb edir. Yalnız tarixi halda yanaşma nəticəsində, əvvəllər mövcud olan ziddiyyətlərin səbəblərini aşkar etmək və qəbul edilmiş qərarların mümkün olacaq nəticələrini müəyyən etmək olar.

İdarəetmə qərarlarının düzgün dərk edilməsi və onun xüsusiyyətlərinin hərtərəfli öyrənilməsi həmin qərarlara aspektli yanaşmağı tələb edir. Aspektli yanaşma idarəetmə qərarlarının elmi cəhətdən əsaslandırılması üçün də çox vacibdir. İdarəetmə qərarları müxtəlif elmlər, o cümlədən fəlsəfə, iqtisadiyyat, hüquq, sosialogiya, psixologiya tərəfindən öyrənilir. Hər bir elmi sahə idarəetmə qərarlarını öz müddəaları əsasında izah edir. Nəinki müxtəlif məsələlər, hətta eyni idarəetmə məsələləri də müxtəlif cəhətdən izah edilir və ona görə də həmin məsələlərin həllinə kompleks yanaşmaq zəruriyyəti meydana çıxır.

İdarəetmə qərarlarına siyasi, iqtisadi, sosial, psixoloji, hüquqi və təşkiletmə və s. aspektlərdə yanaşmaq olar.

Səlahiyyət və məsuliyyətin bölüşdürülməsi:- Təşkilati qərarların əksəriyyətinin qəbul edilməsi üçün başlıca elementlərdən biri təşkilat daxilində səlahiyyətlərin (hakimiyyətin) adamlar və istehsal vahidləri arasında bölüşdürülməsidir. ***Səlahiyyət***lərin adamlar arasında bölüşdürülməsi nəticəsində hakimiyyət menecerlərdən işçilərə keçir. Menecerdən işçilərə yönələn bu hakimiyyət bölgüsü adətən səlahiyyətlərin həvalə olunması adlanır. Hakimiyyət həmçinin təşkilatın daxilində müxtəlif səviyyəli

istehsal vahidləri və ya şöbələri arasında da bölüşdürülür. Təşkilati səviyyələr arasında hakimiyyətin bölüşdürülməsi qeyri-mərkəzləşdirmə adlanır. Bu yollardan hər hansı birinə müraciət etməzdən əvvəl hakimiyyətin təbiətini öyrənmək lazımdır.

Hakimiyyətin müxtəlif tərifləri vardır. Onlardan ikisini göstərim:

1. Hakimiyyət – müəyyən məqsədin həyata keçirilməsi ilə əlaqədar ictimai münasibətlərin meydana gəlməsinə, dəyişilməsinə və ya dayandırılmasına gətirib çıxaran və adamların davranışına təsir edən sosial idarəetmə alətidir.

2. Hakimiyyət – təşkilatın daxilindəki hər bir mövqe ilə əlaqədar olan qanuniləşdirilmiş qüvvədir. O, adətən əmr etmək, icra etmək, qərar qəbul etmək və resursları sərf etmək hüququnu əhatə edir.

Hakimiyyət konsepsiyasının hər cür müzakirəsi hakimiyyətin və qüvvənin hansı nisbətdə olmasının başa düşülməsini tələb edir. Adamlar adətən hakimiyyəti və qüvvəni eyniləşdirirlər. Lakin əgər qüvvə fəaliyyət göstərmək və ya təsir etmək qabiliyyətidirsə, hakimiyyət isə bunları məhz belə etmək hüququdur. İnsan lazımi hakimiyyətə malik olmasa da o, müəyyən işi görmək gücünə malik ola bilər. Qüvvə müxtəlif tip resurslara nəzarətdən doğur və beləliklə insanın təşkilatdakı mövqeyindən asılı deyildir. Lakin təşkilatdakı mövqe insanı qanuni qüvvə adlanan xüsusi qüvvə tipi ilə təmin edir.

Hər bir təşkilatda menecerin qarşılaşdığı ən vacib problemlərdən biri tabeliyindəki işçilərə səlahiyyətlər vermək və yuxarı səviyyəli rəhbərlikdən səlahiyyətlər almaqdır. Səlahiyyətlərin verilməsi tabeliyində olan işçilərə müəyyən tapşırıqların və hakimiyyətin verilməsi prosesidir. Bu zaman həmin fəaliyyət növləri üçün məsuliyyəti də işçilər öz üzərilərinə götürürlər.

Səlahiyyətlərin bölüşdürülməsi dörd əsas səbəbə görə vacibdir:

1. O, menecerin qabiliyyətini və səriştəliliyini genişləndirir. Əsas qulluqçulara müxtəlif vəzifələri həvalə etməklə menecer daha ciddi problemləri öz üzərinə götürmək və öz fəaliyyətini daha yaxşı planlaşdırmaq imkanına malik olur.

2. Səlahiyyətlərin verilməsi potensial menecerlərin tədrisi və testləşdirilməsi üçün əla imkanlar təmin edir. Yuxarı səviyyəli rəhbər əgər müəyyən idarəetmə öhdəliklərini tabeliyində olanlara həvalə etdikdə bu işçilər istehsal vahidlərinin fəaliyyəti haqqında daha çox məlumat almaq və idarəçilik ustalığını artırmaq imkanı əldə edirlər.

3. Səlahiyyətlərin verilməsi işçilərin xüsusi sahələrdəki unikal təcrübəsindən və biliklərindən istifadə etməyə imkan yaradır.

4. Səlahiyyətlərin verilməsi menecerlərin işində ixtisaslaşdırmaya imkan verir. Başqa sözlə, bu, menecerin vəzifələrini bölüşdürməyə və onların xüsusi biliklərinə əsaslanaraq bəzi işçiləri menecer təyin etməyə imkan verir.

Səlahiyyətlərin müəyyən hissəsinin menecerlərdən tabeliyindəki işçilərə həvalə olunması üç mühüm elementi əhatə edir:

- Öhdəlikləri (tapşırıqları) bilavasitə öz tabeliyindəki işçilərə vermək;
- Tabeliyindəki işçilərə bu öhdəlikləri yerinə yetirmək üçün lazım olan hakimiyyəti vermək;
- Öhdəliklərin uğurla yerinə yetirilməsi üçün məsuliyyəti müəyyən etmək.

Öhdəliklərin verilməsi səlahiyyətlərin bölüşdürülməsi prosesinin bir elementidir. Öhdəlik isə menecerin və ya təşkilatın başqa üzvünün həyata keçirəcəyi tapşırıq, göstəriş, hərəkət və ya qərardır. Bilmək lazımdır ki, menecer işçisinə həvalə etdiyi öhdəlikdən faktiki imtina edə bilməz. Hətta menecer çalışsa belə işçi öhdəlikləri öz üzərinə götürsün, yenə də məsuliyyət menecerin üzərində qalır.

Qeyd etdik ki, hakimiyyət əmr etmək, icra etmək, qərarlar qəbul etmək və resursları xərcləmək hüququdur. Səlahiyyətlərin verilməsində ikinci addım ondan ibarətdir ki, menecer hakimiyyəti tabeliyindəki işçiyə həvalə edir, işçi isə öz növbəsində verilmiş səlahiyyəti üzərinə götürür. İşçi yeni öhdəlikləri həyata keçirmək üçün lazım olan qərarları qəbul etmək və resursları xərcləmək hakimiyyətinə də malik olmalıdır.

Hakimiyyət və öhdəliklər arasında balansın olması səlahiyyətlərin verilməsinin səmərəliliyi üçün başlıca şərtdir. Bu balans adətən *naritet prinsipi* adlanır və öhdəliklərlə hakimiyyətin bərabər olmasını təsdiq edir.

Məsuliyyət səlahiyyətlərin verilməsinin üçüncü elementidir. Məsuliyyətin nə olduğunu başa düşmək üçün iki ünsürü yadda saxlamaq lazımdır. Birincisi, əmin olmalısınız ki, sizin işçiniz tapşırılan öhdəliyin uğurla yerinə yetirilməsi üçün məsuliyyət daşıdığını başa düşür və razılaşır. Bu qəbul olunmuş öhdəlik hissi işçilərin öhdəliklərə diqqətini təmin etməyə kömək edir, onları sual verməyə və "qaranlıq yerləri" aydınlaşdırmağa sövq edir, eləcə də işçilərin inamlılıq səviyyəsini ölçməkdə və nəzarət etməkdə menecerlərə kömək edir. İkincisi, menecerlər məsuliyyəti işçilərə verə bilmir. Menecer işçisinə müəyyən

öhdəliyi tapşırır və nəzərdə tuta bilər ki, həmin adam məsuliyyətlidir. Lakin menecer özünün məsuliyyətindən imtina edə bilməz, əmək bölgüsü müəyyən əmrlər zəncirindən keçdiyi üçün menecer tapşırığın kim tərəfindən yerinə yetirilməsindən asılı olmayaraq tapşırığın yerinə yetirilməsi üçün məsuldur.

Səlahiyyətlərin bölüşdürülməsinin müəyyən üstünlüklərinin olmasına baxmayaraq bu prosesdən səmərəli istifadə edilməsinə mane olan müxtəlif sədlər mövcuddur. Bu sədlərin mənbələri bunlardadır:

1) supervizorda (menecerdə) 2) tabeliyindəki işçilərdə 3) təşkilatda

1) Supervizorlar və ya menecerlər səlahiyyətlərin bölüşdürülməsinə mane olurlar və bu halda onlar aşağıdakı mövqelərindən birində və daha çoxunda dayanırlar:

- onlar hakimiyyətə malik olmaq istəyirlər və hakimiyyətin bir zərrəsini də tabeliyindəki işçilərə vermək istəmirlər;
- onlar səlahiyyətlərin verilməsinə zəiflik əlaməti kimi baxırlar;
- fəaliyyətin öhdəsindən gələ bilməsinə şübhə edirlər;
- onlar öz fəaliyyətlərində təhlükəsizliyi hiss etmirlər və qorxurlar ki, yaxşı işləyən işçi onlardan daha yaxşı görünə bilər;
- onlar hiss edirlər ki, nəyisə yaxşı görmək lazımdırsa, bunu onlar özləri etməlidirlər;
- tabeliyindəki işçiyə işin necə yerinə yetirilməsini öyrətmək üçnü vaxt sərf etmək istəmirlər.

2) Tabelikdəki işçilər də səlahiyyətlərin verilməsinə mane ola bilərlər. Belə ki :

- əlavə öhdəlik götürmək üçün imkana malik olduqlarına əmin deyillər;
- uğursuzluqdan qorxurlar;
- onlar əlavə öhdəliyə əlavə mükafatı olmayan, növbədənkənar iş kimi baxırlar;
- işin yerinə yetirilməsi üçün informasiyanın və ya resursların çatışmaması ilə üzləşirlər;
- onlar hesab edirlər ki, problemi özləri həll etməkdənsə supervizordan (menecerdən) soruşmaq daha asandır.

3) Səlahiyyətlərin bölüşdürülməsinə təşkilatın göstəriciləri və ya onun mədəniyyəti mane ola bilər:

- təşkilatın ölçüsü ya kiçikdir, ya da işçiyə tapşırılacaq fəaliyyət növləri azdır;
- təşkilatda səlahiyyətlərin bölüşdürülməsi ənənəsi yoxdur.

TİCARƏT MÜƏSSİSƏSİ İŞÇİLƏRİNİN ƏMƏYİN MADDİ HƏVƏSLƏNDİRİLMƏSİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

Əhmədli Ə.Ə.
Azərbaycan Dövlət İqtisad Universiteti

Kommersiya müstəqilliyi əsasında fəaliyyət göstərən müəssisələr üzrə əməyin maddi maraqlandırılması işinin təşkili iqtisadi mexanizmin mühüm elementlərindən biri hesab olunur. O, kollektivinin hər bir üzvünün maddi marağının kollektivin maddi marağı ilə düzgün əlaqələndirilməsində mühüm vasitədir. Bu məqsədlə qarşıda duran mühüm vəzifə hər şeydən əvvəl sosial məsələlərin həllində sahibkarlar maliyyə resurslarının yüksəldilməsi məqsədilə mühüm tədbirlər görməli, digər tərəfdən isə bu tədbirlərin həyata keçirilməsində kollektivin hər bir üzvünün əməli fəaliyyəti nəzərə alınmalıdır. Yalnız onu qeyd etmək lazımdır ki, 2002-ci ildə respublika əhalisinin əmək haqqının həcmi 21%-dən çox artaraq orta aylıq əmək haqqının 264 min manata çatması təmin olunmuşdur.

Ticarətdə müəssisə kollektivinin iqtisadi və maddi cəhətdən həvəsləndirilməsində mənfəətin mühüm rolu vardır. Bazar iqtisadiyyatına keçid şəraitində mənfəət bir işçinin maddi marağını kollektivin maddi marağı ilə düzgün əlaqələndirilməsində mühüm vasitədir. Ticarətdə mənfəətləəmək haqqı arasındakı əlaqənin düzgün təşkili hər bir müəssisənin və hər bir işçinin maddi maragının əlaqələndirilməsinin əsas şərtidir.

Müasir şəraitdə ticarət mənfəəti təsərrüfat müstəqilliyi əsasında fəaliyyət göstərən müəssisənin kollektivi tərəfindən yaradılır və onlara məxsusdur. Ona görə də onlar ticarətdə az xərclə daha yüksək nəticələrin əldə olunması yolu ilə mənfəətin həcminin və səviyyəsinin yüksəldilməsində maddi cəhətdən maraqlıdırlar. Bazar iqtisadiyyatına keçid ilə əlaqədar olaraq mənfəətdən istifadə olunmasında əsaslı dəyişikliklər edilmişdir. Hazırda kommersiya müstəqilliyi əsasında fəaliyyət göstərən müəssisələrin təsərrüfat fəaliyyətindən alınan mənfəətdən nəzərdə tutulmuş məcburi ödənişlərə ayırdıqdan sonra qalan məqsədilə istifadə olunur.

Kollektiv və fərdi maddi maraqların təmin olunması mənfəət hesabına, satılan məhsul və rentabellik göstəriciləri üçün maddi maraqlandırma fonuna və digər fondlarına vasitələrin ayrılması və bölüşdürülməsi hesabına həyata keçirilir. Bununla əlaqədar olaraq mənfəətdən fondlara və saitin ayrılması sisteminin düzgün qurulması və fondların əmələgəlməsi və bölüşdürülməsi prinsiplərinin iqtisadi cəhətdən əsaslandırılmasının mühüm əhəmiyyət vardır.

Ticarətdə əmək məhsuldarlığı və effektivliyinin yüksəldilməsində işin son nəticələrinə görə hər bir işçinin əməyinin maddi və mənəvi həvəsləndirilməsi mühüm rol oynayır. Bu görülən işin keyfiyyətinin yüksəldilməsi də və mal dövriyyəsi həcminin artırılmasında böyük əhəmiyyəti vardır. Aparılan tədqiqatlar nəticəsində məlum olmuşdur ki, əmək məhsuldarlığının yüksəldilməsi amili kimi əməyin ödənilməsinin təkmilində Qərb ölkələrinin özünəməxsus xüsusiyyətləri vardır. Bu məqsədlə hər bir kompaniya özünün həvəsləndirmə proqrammasını tərtib edir. **Həvəsləndirmə** - tələb olunan həcmdə məhsul istehsalına və ya hər bir bölmə üzrə arzu olunan səviyyədə məhsuldarlığa nail olmasına görə işçilərə nəğdi olaraq ödənilən vəsaitdir.Deməli, əməyin ödənilməsi üçün əsas baza sadəcə olaraq fəaliyyət deyil, onun nəticələri ilə müəyyən olunur. Bu məqsədlə əməyin həvəsləndirilməsinin müxtəlif formalarından istifadə olunur. Buraya, mükafat və firmanın satış həcminə görə verilən, ödənişlər, mənfəətdə və məqsədə nail olmasında iştirakına, əməyin məhsuldarlığının yüksəldilməsinə, ixtisas dərəcəsinə və s. görə verilən mükafatlar daxildir.Ümumiyyətlə, xarici ölkələrin təcrübəsi göstərir ki, iş prosesi ərzində işçilərə verilən əlavə ödənişlərdə əsas məqsəd onların əməyinin məhsuldarlığını artırmaq, sağlamlığı keşiyində durmaq, kompaniyanın daimi işçi qüvvəsi ilə təmin etmək və son nəticədə müəssisənin effektivliyinə nail olmaqdan ibarətdir.

PUL KÜTLƏSİNİN TƏNZİMLƏNMƏSİ

Əliyeva N.Ə.
Azərbaycan Dövlət İqtisad Universiteti

Hər bir ölkənin iqtisadiyyatının inkişafında azad bazar nə qədər önəmli rol oynayırsa, onun tənzimlənməsi də bir o qədər böyük əhəmiyyətə sahibdir. Azad bazar öz – özlüyündə müəyyən inkişaf səviyyəsinə çata bilər, lakin bu inkişaf prosesi idarəedilmədikdə iqtisadiyyat üçün böyük fəlakətlər, böhranlar yarada bilir.

Pul təklifi iqtisadiyyatda dövr edən (iqtisadiyyatda əmtəələrin və xidmətlərin və s. alınıb satılması üçün lazım olan) pul kütləsinin həcmi kimi xarakterizə olunur. Pul kütləsi – təsərrüfatda nağd və nağdsız formalarda olan və xalq təsərrüfatında əmtəə və xidmətlərin tədavülünü təmin edən bütün pul vəsaitlərinin məcmusudur. Yəni pul kütləsi dövriyyəyə buraxılmış kağız pul nişanları, metal sikkələr və banklarda cari hesablarda olan vəsaitlərdir. Məlum olduğu kimi dövriyyədə olan pulun həcmi davamlı olaraq eyni səviyyədə qalmır. Bir başqa formada ifadə etsək pul təklifi öz – özünə həcm və strukturunu dəyişə bilən yaranma və yoxetmə mexanizminə malikdir.

Mərkəzi banklar tərəfindən monetar siyasətin həyata keçirilməsində pul kütləsinin dinamikası və strukturunun təhlili mühüm əhəmiyyətə malikdir. Hal – hazırda Azərbaycan Respublikası statistik hesablamalarında M2 aqreqatı nağd pul və milli valyutada olan hesablaşma hesabı cari və depozit hesablarının qalığı göstəricisindən istifadə olunur. Daha qısa desək M0 + milli valyutad olan bütün depozitlər (dövlət idarəetmə oqranlarının depozitləri istisna olmaqla) kimi hesablanır. Bundan başqa həm də M3 geniş pul kütləsi də hesablanır. M3 – M2 + xarici valyutada olan depozitlər də əlavə olunur. Bu məlumatlar hər ay Məkəzi Bank tərəfindən bank statistik bülletenində verilir.

2014-cü ildə geniş pul kütləsi iqtisadiyyatın tələbatına və inflyasiyaya adekvat olaraq dəyişmiş, onun strukturunda yaxşılaşma prosesi davam etmişdir.

İl ərzində manatla geniş pul kütləsi (M2) 6.1% artaraq 17436 mln. manata çatmışdır. Bank sisteminin pul yaratma qabiliyyətini ifadə edən pul multiplikatorunun dövr ərzində artıma meyilli olması (ilin əvvəlinə nəzərən 7% artım) qeyri-nağd pul kütləsinin həcminin genişlənməsinə şərait yaratmışdır.

Qrafik 3.1.1.

Pul kütləsinin dəyişməsi, % -lə



Mənbə: AMB

Hesabat ilində manatla pul bazasında 0.9% azalma müşahidə olunmuşdur.

Mərkəzi Bankın pul miqdarını tənzim etmək üçün imkanları onun aktivlərinin xarici (tədiyyə balansının vəziyyətini müəyyən edən – valyuta ehtiyatları) aktivlərdən və daxili (dövlətin həyata keçirdiyi pul siyasətindən asılı olaraq – dövlətə və kommersiya banklarına kreditlər) aktivlərdən asılıdır. Tənzimləmə dedikdə, inzibati qərarlarla qiymətlərin müəyyənləşdirilməsi nəzərdə tutulmur. Dövlət makro səviyyədə tələbi tənzimləməklə bazarda qiymətlərin arzu edilən səviyyədə dəyişməsinə çalışır. Burada söhbət dövlətin yürütdüyü pul – kredit siyasətindən gedir. Dövlət məhz düzgün qurulan pul – kredit siyasəti hesabına iqtisadi inkişaf üçün əlverişli maliyyə təminatı yaradır. Əgər siyasətin məqsədləri uyğun gəlmirsə, onda Mərkəzi Bank sterilizasiya həyata keçirir, əlavə pul vəsaitlərini dövriyyədən çıxarır.Pul bazasının pul kütləsinə artırıcı təsirini müəyyənləşdirmək üçün pul multiplikatorunu müəyyənləşdirmək lazımdır. Pul multiplikatoru =M2 Pul bazası kimi hesablanır. Bunun mahiyyəti ondan ibarətdir ki, 1 vahid pul bazasının artması nə qədər pul kütləsi artımına səbəb olur.Bank qanunvericiliyinə görə hər bir bank cəlb etdiyi depozitlərə mütənasib olaraq – müəyyən faiz miqdarında Mərkəzi Bankda məcburi ehtiyyat norması kimi saxlamalıdır. Əgər bankda faktiki ehtiyyatlar məcburi ehtiyyat normasından çoxdursa banklar həmin vəsaiti kredit verə bilər. Buna görə də hər bir bank artıq vəsaitlərinə uyğun olaraq kredit verə bilər və nəticədə pul təklifini artıra bilər. Yəni, iqtisadiyyatda pul təklifi (D) əlavə ehtiyyatların (E) pul multiplikatoruna (m) hasili qədər artacaqdır.

Ümumi olaraq qeyd etmək olar ki, pul kütləsinin tənzimlənməsinin aşağıdakı alətlərindən istifadə edilir:

- Dünya praktikasında ən əsas alət kimi açıq bazarda əməliyyatları qeyd etmək olar.
- Deviz əməliyyatları. Mərkəzi Bank tərəfindən xarici valyutaların alınıb satılması və bunlada dövriyyədə olan pul kütləsinin tənzimlənməsi
- Depozit əməliyyatları. Mərkəzi Bank sərbəst pul vəsaitlərini depozit əməliyyatları vasitəsilə cəlb edir və milli valyutanın dəyərdən düşməməsinə və eyni zamanda inflyasiya prosesinə nəzarət etmiş olur.
- Uçot dərəcəsi vasitəsilə bankların kredit üzrə faizlərinə təsir edir.
- Məcbur ehtiyyat normalarının dəyişdirilməsi vasitəsilə pul vəsaitlərinin dondurulmasına və ya əksinə döviyyəyə buraxılmasına imkan yaradır.

Pul kütləsinin həcminə əsir edən amillərdən ən mühümü rəsmi uçot dərəcəsinin həcmidir. Müasir dövrdə Mərkəzi Bank digər özəl banklarına kredit verilməsi sahəsində restriktiv siyasət həyata keçirdiyindən bu alətin təsir gücü o qədər də güclü deyildir. Ancaq bunu Mərkəzi Bankın istiqrazlarının uçot dərəcəsi kimi tənzimləmə aləti hesab etmək olarş Bu baxımdan yanaşsaq Mərkəzi Bankın rəsmi uçot dərəcəsi dedikdə, Mərkəzi Bankın istiqrazlarının vaxtı çatdıqda özəl banklardan alışına sərf etdiyi vəsait başa düşülür. Bu eyni zamanda digər istiqrazların alış və satışı üçün də orientr rolunu oynayır. Deməli, bu yolla Mərkəzi Bank pul bazarının keyfiyyət parametrlərinə təsir edir, yəni Mərkəzi Bank rəsmi uçot dərəcəsini dəyişməklə istiqrazlar vasitəsilə investisiyaların dəyərinin aşağı və ya yuxarı olmasını tənzimləyir. Bu da öz növbəsində həm istiqrazların və həm də eyni zamanda digər qiymətli kağızlara olan tələb və təklifə təsir edir. Beləliklə qeyd etmək olar ki, Mərkəzi Bank uçot siyasəti həyata keçirməklə bilavasitə kredit institutlarının likvidliyinə və bununla da dolayısıyla ölkənin iqtisadiyyatına təsir edir.

Açıq bazarda əməliyyatların aparılması da pul kütləsinə təsir edən amillərdən biridir. Məlum olduğu kimi Mərkəzi Bank notlar və istiqrazları bazara təqdim etməklə bankların resurslarına təsir edir. Yəni əgər banklar Mərkəzi Bankın təklif etdiyi qiymətli kağızları alırsa deməli müştərilərə kredit vermək imkanlarını məhdudlaşdırırlar. Bu tənzimləmə metodu inkişaf etmiş ölkələrdə daha çox istifadə olunur. Qeyd etmək lazımdır ki, bu vasitə ilə pul kütləsinin dövriyyədə həcmi azalır və eyni zamanda borc kapitalının faizi eyni münasibətdə artır.

Yuxarıda qeyd etdiyimiz metodlardan fərqli olaraq ehtiyyat normasının tətbiqinin üstün və çatışmayan tərəfləri vardır. Bu metod daha çox inzibati tənzimləmə vasitəsi hesab olunur və birbaşa təsir imkanlarına malikdir. Belə olduğu halda bankların kredit vermək imkanları azalır və eyni zamanda banklar daha çox kredit tarixi olan ənənəvi müştərilərə üstünlük verirlər. Kiçik və orta sahibkarlar banklar tərəfindən daha çox imtinalar almış olurlar.

Pul kütləsinin tənzimlənməsinin ən geniş yayılmış metodlarından biri də Mərkəzi Bank tərəfindən deviz əməliyyatlarının aparılmasıdır. Xarici ticarət dövriyyəsindən və ölkə daxilində devizə olan tələbatın səviyyəsindən asılı olaraq xarici valyutaların sterilizasiyası və ya tam əksinə dövriyyəyə SDV – buraxılması prosesi həyata keçirilir. Bu proses həm də dollarlaşmanın qarşısının alınmasında da mühüm əhəmiyyətə malikdir.

PUL SİYASƏTİNİN HƏYATA KEÇİRİLMƏSİNDƏ MÜASİR TEXNOLOGİYALARIN TƏTBİQİ

Əliyeva N.Ə.
Azərbaycan Dövlət İqtisad Universiteti

Pulun təkamülü prosesinin növbəti mərhələsi nağd pulların avtomatik verilməsi sistemi hesabına geniş yayılan debet kartların buraxılması oldu. Bu "elektronpullar" adınıalmış EHM – ın köməyiiləaparılanhesablaşmasistemidir. Elektronkartlar nəinki hesablaşmalarda nağd pulları və çekləri əvəz etdi, həmçinin sahibinə bankdan qısamüddətli ssuda almaq hüququ da vermiş oldu. Pul dairəsində kağız məlumat daşıyıcılarından elektron ötürmələrinə keçmə istehsal və tədavül dairəsinə elektron hesablama avadanlıqlarının daxil edilməsi ilə mümkün olur.

Elektron pullar sisteminə bir sıra elementlər daxildir: avtomatlaşdırılmış hesablaşma palatası, avtomatlaşdırılmış kassir sistemi və əmtəələrin alınma, yaxud xidmət göstərilmə məntəqələrində təsis edilmiş terminallar sistemi. Avtomatlaşdırılmış hesablaşma palatası vahid hesablama mərkəzi ilə əlaqələnən banklar şəbəkəsidir. Avtomatlaşdırılmış kassir bir sıra pul əməliyyatları aparmağa – bank hesabından pul çıxarmağa, əmanəti almağa, ödənişlərə - imkan verir.

E – pul real pulların modelləşmiş formasıdır və şəxsdə olan elektron alətə yüklənmiş bir maliyyə dəyəri və ya fərdi fondu idarə edir.Hazırda 4cür kredit kartları mövcuddur. Onlardan ən çox istifadə edilənləri bank və ticarət kartlarıdır. Bu kartlar istifadəçi üçün çox sərfəlidir. Belə ki, daşınmada da istifadəçinin rahatlığı ön plana çəkilir.Elektron pulların əsas fərqləndirici cəhətlərindən biri də mikroödəmələri yerinə yetirə bilmək qabiliyyətidir. E – pulları həm bank, həm də qeyri – bank təşkilatları emissiya edə bilər.

Plastik kart - təyinatından, göstərilən xidmətin növündən, texniki imkanlarından asılı olmayaraq bütün növ kartları ifadə edən ümumiləşdirici termindir. İlk dəfə ABŞ-da yaranmış və dünyaya yayılmışdır. Bu kartlar ilk dəfə kredit kartları şəklində yayılmışdı. Sahibkarlar, kartı ixrac edən bankla razılığa girməmişdən əvvəl bankın yeterli sayda kart sahibi olub olmadığına diqqət etməlidirlər. İnsanlar alacaqları kartın mümkün olduqca daha çok yerlərdə qəbul edilməsinə üstünlük verirlər. Bu baxımdan kart ixrac edən və ya yayımında vasitəçilik edən banklar, həm kart sahibləri həm də kartı qəbul edən tərəflər arasında uyğun bir bazar yaratmağa çalışırlar.

Plastik kartlar aşağıdakı imkanları verirlər:

- Pul vəsaitlərinin rahat və təhlükəsiz saxlanılması.Çünki kart məxfi PİN-kodla qorunur və plastik kartın itirildiyi və ya oğurlandığı hallarda hesabdakı vəsait olduğu həcmdə qalır;
- Dünyanın istənilən nöqtəsində, sutkada 24 saat ərzində, banka müraciət etmədən, bankomatlardan pul vəsaitinin çıxarılması;
- Ölkə daxilində və onun hüdudlarından kənarda malların və xidmətlərin ödənilməsi;
- İnternet vasitəsilə həyata keçirilən “on-line” sifarişlərin ödənilməsi;
- Kart hesabınızdakı hər hansı dəyişikliklər barədə ətraflı hesabatın alınması;

- Şəxsi məsrəflərin və gəlirlərin kart hesabı üzrə alınmış çıxarışların əsasında təhlil edilməsi və planlaşdırılması;
- Bir hesaba ailə üzvləri üçün bir neçə əlavə kartın, onlara müəyyən limit müəyyən etməklə və ya bunsuz, rəsmiləşdirilməsi.

Plastik ödəniş kartların istifadəsində 3 əsas istiqamət mövcuddur:

- fiziki şəxslər üçün plastik kartlar
- nümayəndəlik xərcləri üçün korporativ kartlar
- maaş kartları.

Hesablaşmaların həyata keçirilməsi üçün istifadə olunan bütün plastik kartları ki yerə ayrılırlar şəxsi və korporativ.

Şəxsi kartları banklar ayrı – ayrı şəxslərə, özünün ödəmə qabiliyyətli müştərilərinə verirlər. Bundan başqa, banklar şəxsi kartları digər tanımadıqları şəxslərə də verə bilərlər. Bunun üçün bank tərəfindən həmin şəxslərin ödəmə qabiliyyətləri öyrənilməli, "kredit tarixləri" nəzərdən keçirilməlidir. Həmin şəxslər bankda cari hesab açmalı və bu hesaba sığorta depoziti keçirməlidirlər.

Korporativ kartlar banklar tərəfindən hüquqi şəxslərə onların təminatı əsasında verilir. Belə kartları vermək üçün bank mütləq həmin hüquqi şəxsin ödəmə qabiliyyətini yoxlamalıdır.

Funksional əlamətlərinə görə şərti olaraq plastik kartlar yeddi növə və iki qrupa bölünürlər. Birinci qrupa maqnit kartları (kredit kartlar, ödəmə (debet) kartları, ekzekyutiv (icra) kartları, çek təminat kartları, alıcılıq qabiliyyəti qeyd olunmuş kartlar), ikinci qrupa isə elektron kartlar (yaddaş kartları, intellektual kartlar (Smart cards), super intellektual kartlar (Supersmart cards), lazer kartlar) aid edilir.

Bütün plastik kartların üzərində bir sıra simvol və elementlər olur ki, bunlar ödəniş sisteminin simvolu, bankın loqotipi, kartın nömrəsi, kartın qüvvədə olma müddəti, kart sahibinin adı və soyadı, maqnit lenti və ya cip və kağız lentdir.

Müasir plastik kartların ən geniş yayılmış növü debet və kredit kartlarıdır.

Kredit kartlar pul növü deyil, baxmayaraq ki insanlar çox vaxt onu "plastik pul" adlandırırlar. Kredit kartı vasitəsilə kart sahibi əməliyyat aparan zaman kart hesabında tələb olunan vəsait olmadıqda belə, ticarət və ya digər təşkilatlarla hesablaşmalar apara bilər. Bir çox banklar kredit kartları hətta daimi olmayan müştərilərinə də verir. Kredit kartı verməzdən qabaq bank müştəridən ərizə blankını doldurmağı tələb edir və müştərinin hesablarını vaxtlı-vaxtında ödəməsi haqda məlumat toplayır. Bəzi hallarda banklar kart sahiblərindən bu xidmətdən istifadəyə görə illik ödəniş tuturlar. Kredit kart sahibinə bankdan kredit şəklində verilən məbləğ miqdarında məhsul və xidmətlər almağa imkan verir.

Debit kartları kredit kartlarına oxşasa da onlar fərqlənirlər. Debit kart vasitəsilə ödəniş edərkən məbləğ bir başa istifadəçinin hesabından çıxılır. Debit kart vasitəsilə həm də bankomatdan nağd pul çıxartmaq olar. Bu kart vasitəsilə kart sahibi hesabındakı puldan sərbəst şəkildə istifadə edə bilər. Bu kart sahibinə hesabındakı məbləğəuyğun olaraq bankomatdan nağd pul götürmək, alış-veriş etmək imkanı verir. Beləliklə debet kartı ilə ödəniş edən zaman müştərinin məbləği ödəyə biləcəyi haqda məlumat almaq üçün banka və ya prosessinq mərkəzinə zəng etmək lazımdır. Bu halda məbləğ ya dərhal hesabdan silinir, ya da çekprosessinq mərkəzinə çatdırılana qədər hesab dondurulur.

Bankın və ya təşkilatın plastik kart sistemi dedikdə, fəaliyyətdə olan müqavilə münasibətlərinin məcmusu, texniki – proqram məsələləri, daxili təşkilati və metodoloji infrastruktur, ödəmə və hesablaşmaların elektronlaşdırılmış formada həyata keçirilməsi və gəlir əldə etmədən söhbət gedir. Plastik kart sisteminin əsas subyektləri aşağıdakılardır:

- Bankda hesabı olan, plastik kartın sahibi;
- Bank – emitent, plastik kartı verən və müştərinin hesabını açan bank;
- Xidmət göstərən bank, müştəriyə öz plastik kart sistemini, kartın vasitəsilə mal və xidmətləri almaq üçün təqdim edən bank;
- Ödəmə vasitəsi kimi plastik kartı qəbul edən servis və ya ticarət təşkilatı;
- Ödəmə sisteminin subyektləri arasında qarşılıqlı proqram – texniki əlaqəni təmin edən təşkilat.

Plastik kartlarla əməliyyat aparılması banklar üçün bir çox səbəblərdən əhəmiyyət kəsb edir. Bu səbəblər aşağıdakılardır :

- Plastik kartlarla əməliyyatlar banklara cəlb olunmuş vəsaitlərin həcmini artırmağa imkan yaradır;
- Müştərilər banklardan kartları alarkən kart üçün haqq ödəyirlər. Eyni zamanda kartlar vasitəsilə aparılan bütün növ əməliyyatlar üçün bank komisyon haqqı alır ;
- Ödəmə dövriyyəsindən nağd pulların və çeklərin sıxışdırılıb çıxarılması meyli istiqaməti üzrə bankın rəqabət potensialı güclənir ;

- Plastik kartlardan istifadə innovasiya prosesinin iştirakçısı kimi bankın nüfuzunu artırır.

QIZIL BAZARI VƏ ONUN İNKİŞAF XÜSUSİYYƏTLƏRİ

Məmmədli A.M.
Azərbaycan Dövlət İqtisad Universiteti

Qədim zamanlardan etibarən bugünkü günə qədər qızıl insan fəaliyyətinin bir çox sahəsində, maliyyə sektorunda, sənaye və digər sahələrdə istifadə edilir. Qahirədən cənubda səhralıqda dünyanın ən qədim qızıl hasilatı üzrə mədən yerləşir. Bu mədən artıq 5 min ildir ki, mövcuddur.

Qızıl nadir metalldır. Bütün dünyada 1 saat ərzində bəşəriyyətin bütün tarixi boyu ərzində tökülən qızıldan daha çox qızıl tökülür. 2014-cü ildə dünyada 2,8 min.ton qızıl hasil olub. Bugünkü gündə dünya bankının qızıl ehtiyatları 32 min ton təşkil edir. Ən nəhəng qızıl sahibləri ABŞ (8,1 min.ton), Almaniya (3,4 min.ton) və Beynəlxalq Valyuta Fondudur. (2,8 min ton) təşkil edir.

Qızıl bazarı və ölkənin qızıl ehtiyatlarının artırılması və həm də biznesi təşkil etmək və sənaye istehlakı məqsədilə alqı-satqısı ilə əlaqədar olan iqtisadi münasibətlər sferasıdır. Qızıl bazarlarında əsasən yeni hasil edilən qızıl, dövlət və xüsusi qızıl ehtiyatları, qızıl pullar alınıb satılır. Təşkilati baxımdan qızıl bazarı bir neçə bankdan ibarət konsorsum olub, qızılın alqı-satqısı üzrə sazişlər bağlayır. Bu banklar alıcılar və satıcılar arasında vasitəçi rolunu oynayırlar.

Dünya qızıl bazarlarına misal olaraq London, Surix, Nyu-York, Çikaqo, Hon Konqu misal göstərmək olar.

Azərbaycanda qızıl 2013-cü ildə 1619,2 kq, 2014-cü ildə isə 1872,5 kq təşkil etmişdir.

Qızıl bazarı ilə əlaqədar aparılan təhlilləri ümumiləşdirərək belə nəticəyə gəlmək olar ki, müasir şəraitdə kapital və sərvət yığımının səviyyəsini, onun artımını və ölkə daxilində ayrı-ayrı sahələr arasında bölüşdürülməsini əks etdirən qızıl bazarı və onun istehsalı hər bir ölkə iqtisadiyyatının mühüm tərkib hissəsidir. Belə ki, maliyyə bazarının tərkib hissəsi kimi qızıl bazarı maliyyə resurslarının hərəkətini təşkil etmək dövlətin maliyyə və pul-kredit siyasətinin əsas aləti kimi çıxış etmək və s. baxımından iqtisadiyyatın inkişafında mühüm rol oynayır. Xüsusilə də bazar iqtisadiyyatı sistemləri ölkələr üçün bu bazarın inkişafı müstəsna əhəmiyyət kəsb edir.

Rəsmi qızıl-valyuta ehtiyatları (QVE) ölkənin onun beynəlxalq maliyyə öhdəlikləri üzrə, ən əvvəl valyuta-hesablaşma sahəsində həmin ölkənin ödəmə qabiliyyətinin təmin olunması üçün nəzərdə tutulmuşdur. Qızıl-valyuta ehtiyatlarının digər mühüm vəzifəsi öz ölkəsində makro-iqtisadi vəziyyətə təsir göstərməkdir, məhz bunun üçün daxili valyuta bazarında dövlət xarici valyutanı satır və alır. Bu cür sövdələşmələr valyuta intervensiyaları adlanır və bazar tələb və təklifinin milli və xarici valyutaya dəyişməsi və onların mübadilə kursu əsasında saxlanılması və ya dəyişilməsi üçün nəzərdə tutulmuşdur.

Qızıl – Valyuta ehtiyatının pul formasında olan qızıl hissəsi, yəni dövlət xəzinələrində olan qızıl xalis qızılın təxminən 31min ton həcminin təşkil edir. Bu rəsmi qızıl ehtiyatı son onillik ərzində yavaş – yavaş azaldılır, belə ki, qızıl demək olar ki, beynəlxalq valyuta hesablaşma əməliyyatlarından sıxışdırılıb çıxarılmışdır.

Buna baxmayaraq, qızıl yüksək likvidli məhsul olaraq qalmaqdadır və tez bir zamanda istənilən valyutaya çevrilə bilir. XX əsrin əvvəllərində dünya miqyasında qızıl-valyuta ehtiyatlarının az hissəsi onun payına düşür. ABŞ ənənəvi olaraq daha çox qızıl ehtiyatına malikdir, 2,5-8,1 min ton həcmində qızıl ehtiyatı Çində, Almaniyada, Fransa, İtalya, Yaponiyada, İsveçrədə mövcuddur.

Dünya maliyyə bazarında son vəziyyətin təhlilini investorların qızıla getdikcə daha çox vəsait yatırmağa başladığını göstərir. Belə vəziyyətdə qızılın qiyməti proqnozlarda səslənən rəqəmlərdən də daha sürətlə bahalaşır. Ümumiyyətlə qızılda müşahidə olunan qiymət artımı onun hasilatının yenidən artması ilə nəticələnə bilər. Bu baxımdan ölkəmizdə də qızıl hasilatı artır. Belə ki, Azəbaycanda qızıl hasilatı illik müqayisədə 15,6%artaraq 2014-cü ildə 1.872,5kq təşkil etmişdir.

Tədqiqatdan aydın olur ki, beynəlxalq miqyasda dolların və qızılın qiymətləri arasında əlaqələrin təzahür formaları daha rəngarəng olmuşdur. Əgər bu əlaqələri təşkil etsək aşağıdakıları söyləmək olar. Qızılın qiymətinin artım tempi dolların başqa valyutalara nisbətən ucuzlaşması tempini qabaqlayırsa, bu halda yerli qiymətlərdə azalma baş vermir.

Dünyada qızılın qiymətini hətta yaxın perspektivdə belə proqnozlaşdırmaq çətindir. Buna səbəb isə təsir edən amillərin sayca çoxluğu deyil, onların bəzən qeyri-iqtisadi xarakterli olmasıdır. Qızıl hasilatının

dəyişməsi onun qiymətini şərtləndirən mühüm amil olsa da, dünyada toplanan qızıl ehtiyat hasilat və qiymət arasındakı əlaqələri zəiflədə bilər.

Fikrimcə ölkəmizdə qızıl bazarının inkişafını daha da sürətləndirmək üçün aşağıdakı tədbirlər kömək edə bilər:

1. Müvafiq qurumlarla birlikdə qızıl bazarlarında vergi məcəlləsində bir sıra dəyişikliklər aparmaqla aksiz vergi dərəcələrini azaltmaq.
2. Yeni bir texnologiya işlənərək həmin texnologiyaya əsaslanıb zəif (kasıb) yataqlardan qızılın çıxarılması daha məqsədəuyğundur.
3. Azərbaycanda sahibkarlar yaxşı olar ki, öz vəsaitlərini qızıl yataqlarının kəşfinə və istehsalına yönəltsinlər, çünki bu sahə riskli olsa da gəliri qat-qat böyükdür.
4. Ölkəmizdə istehsal olunan qızıl İsveçrənin Cenevrə şəhərində daşınıb saflaşdırılır. Yaxşı olar ki, qeyd olunan ölkənin təcrübəsindən istifadə edərək öz vətənimizdə qızılı saflaşdıran zavod tikilsin.

Qeyd edilən tədbirlərin həyata keçirilməsi ölkəmizdə daha da inkişaf etmiş və təkmilləşmiş qızıl bazarının yaranmasına və iqtisadiyyatın artım tempinin sürətlənməsinə şərait yaradar.

MƏRKƏZİ BANKIN BANK RİSKLƏRİNİN İDARƏ OLUNMASINDA ROLU

Şıxıyeva P.E.
Azərbaycan Dövlət İqtisad Universiteti

Bank-maliyyə sektoru ölkə iqtisadiyyatının əsas arteriyası hesab olunur. Elə öna görə də bank risklərin idarə olunması sahəsində beynəlxalq təcrübəni öyrənərək burada daha çox dəyişikliklər aparılmışdır. Şübhəsiz, ölkədə risklərin idarə olunması ilə bağlı Mərkəzi Bankın apardığı siyasətin rolu əvəz olunmazdır. 2004-cü ildə Mərkəzi Bank tərəfindən "Banklarda korporativ idarəetmə standartlarının tətbiqi" qaydaları təsdiqlənmiş və onun əsasında banklarda Risklərin İdarəedilməsi Departamentləri yaranmağa başlamışdır. Yaradılmış hüquqi çərçivə banklarda daha mükəmməl sistemlərin yaradılmasına təkan vermişdir. Mərkəzi Bank beynəlxalq maliyyə institutlarının, o cümlədən Bank Nəzarəti üzrə Bazel Komitəsinin tövsiyələrinə əsaslanaraq daimi olaraq qabaqcıl islahatlar həyata keçirməkdədir. Bu islahatların əsas məqsədi bank sisteminin sağlam və sürətli inkişafına nail olmaqdır. Azərbaycan dinamik inkişaf edən ölkələr sırasındadır. Hətta son qlobal maliyyə böhranı şəraitində Azərbaycan öz stabilliyini qoruyub saxlaya bilmişdir. Bütün bunlar dövlət tərəfindən düşünülmüş iqtisadi islahatların aparılması, düzgün iqtisadi siyasətin həyata keçirilməsi ilə izah olunur. Lakin bu o demək deyil ki, biznes subyektləri bütün risklərdən sığortalanıb və potensial problemlər istisnadır. Biznesin bütün formalarında risklər mövcuddur və təbii ki, bu risklər hal-hazırda da müəyyən istiqamətlərdə idarə olunur. Lakin ölkə iqtisadiyyatı inkişaf etdikcə, maliyyə sektorundakı münasibətlər dərinləşdikcə və maliyyə alətləri mürəkkəbləşdikcə, biznes subyektlərindən daha mükəmməl və daha modern idarəetmə prosesinin formalaşdırılması tələb olunur. Bank sektorunun inkişafı Azərbaycanda nisbətən ilkin mərhələdə olduğundan risklərin idarə edilməsinə diqqət daha çox daxildən deyil, kənar faktorların təsirindən qaynaqlanır. Ölkədə bank sektorunda bu kənar təsirlər bir tərəfdən mərkəzi tənzimləyicinin tələb və tövsiyələri (müvafiq korporativ standartlar vasitəsilə formalaşdırılan) digər tərəfdən isə bankların xarici hissədarlarının ("stakeholders") (reytinq agentlikləri, maliyyə institutları və donorlar) gözləntiləri və tələbləri formasında özünü büruzə verir. Elə bu səbəbdən də, risklərin idarə edilməsi prosesi və onun aparıcı qüvvəsi ("champion"u) olan risklərin idarə edilməsi bölməsi banklarda bir çox hallarda formal xarakter daşıyır və risklərin idarə edilməsi prosesinə bəzən çox cüzi təsiri ilə fərqlənir.

Müasir şəraitdə Azərbaycanın bütün banklarında risk menecment adlı struktur bölmə fəaliyyət göstərir və həmin bankların idarəetmə orqanları risklərin idarəedilməsini ümumi idarəetmənin ən mühum elementi kimi qəbul edirlər. Bunun özü artıq mühum bir irəliləyişdir. Digər sektorlarda bu istiqamətdə müəyyən işlər həyata keçirilir. Təbii ki, görülən işlərin həcmi və xüsusiyyətləri bir-birindən fərqlənir. Dünyada baş vermiş qlobal maliyyə böhranı Azərbaycanda da bu sahədəki boşluqları aktuallaşdırmışdır. 2008-ci ilin 17 sentyabrında "Lehman Brothers" şirkətinin müflis elan edilməsi ilə daha da gərginləşən maliyyə böhranı, 2009-cu ildə real sektora da öz təsirini göstərməyə başladı. Qloballaşma ilə əlaqədar dünyanın bütün ölkələrində, o cümlədən Azərbaycanda da hiss olundu. Böhran bir sıra ökələrə ciddi, digərlərinə isə nisbətən zəif təsir göstərmişdir. Azərbaycan böhranın mənfi təsirləri ilə nisbətən az üzləşən ölkələr sırasındadır. Buna beynəlxalq reytinq şirkətlərinin hesabatlarında rast gəlmək olar. Bütün bunlar, ölkənin maliyyə bazarlarının nisbətən zəif inkişaf etməsi, xarici borclardan asılılığın aşağı

səviyyədə olması, böhrana səbəb olan maliyyə alətlərinə investisiya edilməməsi və ümumilikdə yerli bankların beynəlxalq bazarlara inteqrasiya səviyyəsinin nisbətən aşağı olması ilə səciyyələnir. Bununla belə, bir sıra banklar qısamüddətli likvidlik böhranı ilə qarşılaşsalar da, bu problem aradan tez bir zamanda qaldırılmış, bank sistemi özünün stabilliyini və həcmini qoruyub saxlaya bilmişdir. Risk menecment korporativ idarəetmə standartlarının tərkib hissəsidir və 2004-cü ildən başlayaraq banklar Mərkəzi Bank tərəfindən təsdiq olunmuş bu standartların tətbiqinə aktiv şəkildə başlamışlar. Buna tələblər çox yüksəkdir və banklardan kifayət qədər böyük həcmdə institusional, texnoloji, insan və maliyyə resursları tələb edir. Lakin yolun əhəmiyyətli hissəsi artıq geridə qalmış və irəliyə doğru proqres çox böyükdur. Ən önəmlisi, bir az əvvəl də qeyd olunduğu kimi, bankların rəhbərlərinin bu zərurəti qəbul etməsi və işə ciddi yanaşmalarıdır. Banklarda risklərin idarə edilməsi və korporativ idarəetmə, maliyyə və qeyri maliyyə sektorunda prioritet məsələ kimi gündəmdədir. Maliyyə böhranı bir çox maliyyə institutlarına ciddi zərər vurmuş və onların rentabelliyini aşağı salmışdır.

Hazırki şəraitdə, risklərin idarə edilməsi, eləcə də qəbul edilən risk müqabilində gəlirlərin optimallaşdırılması, hər bir maliyyə müəssisənin əsas funksiyası hesab edilir. Bu sahədə ölkədəki mövcud boşluqların aradan qaldırılması məqsədi ilə, Azərbaycan Risk Peşəkarları Assosiasiyasının nəzdində ARPA Consulting şirkəti də yaradılmışdır. Azərbaycan Risk Peşəkarları Assosiasiyası (ARPA) Azərbaycanda risk idarəetməsi üzrə aparıcı təşkilatdır. Təhsil, bilik və məsləhətçi xidmətləri üzrə aparıcı təchizatçılardan biri olan və aşağıdakı sahələr, işlər (lakin bunlarla məhdudlaşmayan) çərçivəsində əvəzsiz təcrübə ilə fərqlənən ARPA tanınmış nüfuza və yüzlərlə üzvlərə sahibdir: risk idarəetməsi və qiymətləndirilməsi; korporativ və dövlət maliyyə və mühasibatlıq işləri; sərişteliliyin artırılması və təlimlər; idarəetmə və nəzarət analizləri; biznes strategiyaları; inkişaf və proseslərin planlaşdırılması və təkmilləşdirmə; korporativ idarəetmə və qiymətləndirmə; bank işi və kredit əməliyyatları; hüquqi ekspertiza və məsləhət; daxili audit və əlaqədar sahələrin auditi. Çox-sektorlu istiqamətlənmə və təcrübə üzrə üstün keyfiyyətlərimizlə biz konfranslar, seminarlar, üzvlük proqramları və nəşrlər vasitəsilə əvəzsiz texnoloji alətləri və təlimləri təmin etməklə Azərbaycanda böyük nüfuz qazanmışdır. ARPA, bilik və fikirlərin bölgüsü, təcrübə və anlayışların inkişafı və "praktiki təcrübəyə" şərait yaradılması üçün forum da təmin edir. Təşkilat müxtəlif miqyaslar və sahələr üzrə peşəkarları və gənc istedadları bir araya gətiririk, təcrübə və informasiya mübadiləsi üçün körpü yaradırıq və tədris proqramları vasitəsilə, yerli və beynəlxalq layihələrə daxil olmaqla və iştirak etməklə onların gələcək inkişaflarına köməklik göstərir. Azərbaycan Risk Peşəkarları Assosiasiyası daimi olaraq dünya bazarını tədqiq edir və yeni qabaqcıl həlləri araşdırır. ARPA işləri, bölmələri və komponentləri təhlil edən zaman bilik və məlumatların təmin edilməsi üçün dəyərli "now- how", xüsusi alətlər və texnologiyalar yaradır.

Xüsusi vəsaitlərin tərkibinə, ilk növbədə, aktiv əməliyyatlardan dəyən zərərləri ödəmək üçün nəzərdə tutulmuş, müvafiq bank hesabına yaradılan Ehtiyyat fondu daxil edilir. Bu gün Azərbaycan Respublikasının bank qanunvericiliyi Bazel komitəsinin tövsiyələrinə uyğun dəyişdirilməkdədir. Hal-hazırda nizamnamə fodunun formalaşdırılmasının genişləndirilməsi imkanları, maliyyə mənbələrinin artırılması hesabına mümkündür. Azərbaycan Respublikasında "Banklar və bank fəaliyyəti haqqında" qanuna müvafiq olaraq, nizamnamə fondlarının formalaşdırılmasına cəlb edilmiş vəsaitlərdən istifadə edilə bilməz. Son illərdə Mərkəzi Bankda bank sisteminin xarici və daxili şoklara qarşı dayanıqlılığının ölçülməsi üçün "top-down" yanaşması əsasında stress test modelləri qurulmuş və müxtəlif stress-testlər həyata keçirilmişdir. Bununla belə, qlobal böhranın təcrübələri əsasında stress-testinq praktikasının təkmilləşdirilməsi və genişləndirilməsi məqsədilə Dünya Bankının FİRST proqramı çərçivəsində və ABŞ-ın "Booz Allen Hamilton" şirkətinin texniki dəstəyilə yeni stress test modeli qurulmuşdur. Modeldən Mərkəzi Bankın prudensial nəzarət məqsədləri üçün istifadə edilməsi nəzərdə tutulur. Eyni zamanda, bankların özləri tərəfindən "bottom-up" yanaşması əsasında stress-testləri aparılması və bankın xarici və daxili şoklara qarşı davamlılığının qiymətləndirilməsi zəruridir. Lakin hələlik banklarda stress testlərin həyata keçirilməsi praktikası, hələ ki, yetərli dərəcədə deyildir. Stress-test praktikasının Azərbaycan banklarında inkişaf etdirilməsi məqsədilə beynəlxalq təcrübə araşdırılmaqla, banklarda stress testlərin aparılması üzrə Mərkəzi Bankın normativ qaydalarının layihəsi hazırlanmış və onun yaxın gələcəkdə tətbiqi gözlənilir. Bununla əlaqədar, Mərkəzi Bank tərəfindən banklara stress test arxitekturasının qurulması ilə bağlı metodoloji dəstək göstərilir. Bununla yanaşı, Azərbaycan banklarının stress-test çərçivəsini formalaşdıran zaman müəyyən problemlərlə üzləşməsi də gözlənilir.

BEYNƏLXALQ MALİYYƏ QURUMLARININ FƏALİYYƏTLƏRİNDƏ NAİLİYYƏTLƏR VƏ ÇATIŞMAZLIQLAR

İsayeva Ə.V.
Azərbaycan Dövlət İqtisad Universiteti

Beynəlxalq maliyyə qurumlarının yaranma kökləri hələ 1923-1932-ci illərdə bütün dünyanı bürümüş olan dərin iqtisadi böhranlar dövrünə gedib çıxır. İqtisadi ədəbiyyatlarda o dövrü "böyük depressiya" dövrü adlandırırlar. Kənd təsərrüfatı məhsulları və torpaq dəyərindən dəfələrlə ucuz satılır, heyvandarlıq ziyanla işləyir, minlərlə bank müflisləşir, bütün sahələrdə işsizlik baş alıb gedir, zavodlar işləmirdi. Bir sözlə, iqtisadiyyatın bütün sahələri "iflic" vəziyyətinə düşmüşdü. Bu vəziyyət eyni zamanda özünü beynəlxalq və pul-kredit bazarında da göstərirdi. Bir sıra ölkələr, o cümlədən, Birləşmiş Krallıq qızıl standartlarından, yəni valyuta dəyərinin qızılla təyin edilməsi prosesindən məcburi surətdə imtina etməli oldular. Hansı ki, bu qanun uzun müddət idi ki, pulun dəyərinin sabit saxlanmasına qulluq edirdi. Kağız pulun dövriyyəyə buraxılması azaldıldı. Bu da iş yerlərinin azalmasına səbəb oldu. Həyat səviyyəsi kəskin şəkildə aşağı düşdü. Bəzi ölkələr milli pulun xarici pula dəyişdirilməsinə qadağa qoydular və barter mübadiləsini tətbiq etməyə başladılar. Bir qisim ölkələr isə öz milli valyutalarını dəyərlərindən aşağı qiymətə xarici alıcılara satmaqla öz kənd təsərrüfatı məhsullarını əslində çox ucuz qiymətə satdılar. Bununla da onlar digər ölkələrin ticarət əlaqələrini pozurdular. Yəni rəqabət devalivasiyası yaradırdılar. Məhsulun dəyəri ilə pulun nisbəti pozulurdu. Beləliklə, bütün bunlar nəticə etibarı ilə dünya iqtisadiyyatının dağılmasına gətirib çıxartdı. Bu problemləri həll etmək üçün 30-cu illərdən başlayaraq dəfələrlə beynəlxalq konfranslar çağırılsa da, lakin qəbul edilmiş müvəqqəti qərarlar məsələni tam həll etmirdi. Bunun üçün dünyanın əksər ölkələrinin birgə əməkdaşlığı lazım idi. Yalnız bu halda bütün dövlətlərdə valyuta sistemini tənzimləyən və böhran nəticəsində iqtisadiyyatı dağılmış ölkələrə uzun müddətə kredit verə bilən bir maliyyə təşkilatının yaradılması mümkün idi. Odur ki, 1940-cı illərin əvvəllərində Birləşmiş Ştatlardan Qarri Dekster Uayt və Birləşmiş Krallıqdan Con Meynard Keyns məhz belə bir sistemin yaradılması yollarını təklif etdilər. Onlara görə bu sistem hazırki şəraitə təsir etməliydi. Çoxsaylı danışıqlardan sonra çətin vəziyyətdə olan beynəlxalq aləm belə bir sistemin yaradılmasına və nəzarət etmək üçün təşkilatlanmasına razılıq verdi. 1944-cü ilin iyul ayında BMT-yə daxil olan 45 dövlətin iştirakı ilə ABŞ-ın Bretton-Vuds şəhərində (Nyu-Hempşir Ştatı) Beynəlxalq Valyuta Maliyyə konfransı keçirildi. Bu konfrans tarixə "Bretton-Vuds Konfransı" kimi daxil oldu. Konfransın qəbul etdiyi qərarla 1945-ci ilin dekabr ayında BMT-nin iki xüsusiləşmiş təşkilatı – Dünya Bankı və Beynəlxalq Valyuta Fondu (BVF) təsis edildi.

Beləliklə, beynəlxalq maliyyə qurumları yarandığı anda əsas məqsədləri dünya ölkələrini ikinci dünya müharibəsindən sonra dirçəltmək idisə, hal-hazırda ən başlıca məqsədləri yoxsulluğun qlobal səviyyədə ləğv edilməsidir. Qurumların fəaliyyəti də məhz bu məqsədə çatmaq üzərində cəmlənib. DB ölkələrə kreditlər, qrandlar, yardımlar vermək yolu ilə onların inkişafına dəstək olur. Bank öz xərclərini heç bir kənar maliyyələşdirmə mənbəyi olmadan ödəyir. Onun 5 qurumu inkişafın ayrı-ayrı aspektləri üzrə ixtisaslaşsa da, hamısının ümumi məqsədi kimi yoxsulluğun ləğv edilməsi çıxış edir. DB öz kapitalını beynəlxalq maliyyə bazarlarında "AAA" reytinqli istiqrazlarını reallaşdırmaqla artırır. DB üzv ölkələrin hökumətləri ilə birlikdə layihələr, proqramlar hazırlayır, eyni zamanda ölkələrin həyata keçirdikləri proqram-layihələri maliyyələşdirir. DB eyni zamanda onun tərəfindən maliyyələşdirilən layihələrin həyata keçirilməsinə nəzarət edir. Beləliklə, DB müasir beynəlxalq iqtisadi münasibətlər sistemində mühüm iqtisadi təşkilat olmaqla dünya iqtisadiyyatının tam, stabil inkişaf etməsinə səbəb olur. Ancaq Bretton-Vuds maliyyə sistemləri hal-hazırda effektiv fəaliyyət göstərə bilmir. Artıq 70 ildən çoxdur ki, BVF və DB dünyanın başlıca maliyyə institutları olaraq qalırlar. Bu müddət ərzində onlar kasıb ölkələrdə neoliberallaşma, heteredoks ticarət və özəlləşdirmə siyasəti həyata keçirirlər. Bunun səbəblərindən biri kimi bank əməliyyatlarında ənənəvi olaraq valyuta kimi dollardan istifadə olunmasıdır. Marşall planı nəticəsində dollar həm də Avropa dövlətlərinə də daxil olmuşdur. Bu onun mövqeyini möhkəmləndirdi. Bildiyimiz kimi, dolların arxasında çox az əmtəə və qızıl ehtiyatı durur. Asiyanın və Latın Amerikasının inkişaf edən bazarlarının daim valyutaya ehtiyacı var. Bütün bunlar ABŞ-ın hədsiz gəlir qazanmasına səbəb olur. Buna görə də ABŞ hələ də dünya maliyyə sistemində lider rolunu saxlayır. Bu kimi proseslər maliyyə institutlarının fəaliyyətinə də təsir edir. Beynəlxalq valyuta sistemi stabilliyini qorumaq üçün beynəlxalq maliyyə qurumları reformasiya olunmalı və dəyişmiş tələbatlara uyğunlaşdırılmalıdır.

Liberallaşdırma və özəlləşdirmə siyasəti dövlətlərin öz öhdələrinə buraxılmalıdır, heç bir dövlət buna məcbur edilməməlidir. Çünki "kənardan inkişafı idxal etmək alınmır". BVF və DB-nın ölkələrə nə etmək lazım olduğunu əmr etməli olduğu günlər arxada qalıb. BVF və DB borc vermə şərtlərini və maliyyə öhdəliklərini azaltmağa söz versələr də, onlar sadəcə yenidən quruplaşdırılır və ya digər adlarla adlandırılırlar. BVF etiraf edir ki, kapital bazarının liberallaşdırılması bəzən daha çox qeyri-sabitliyə gətirib çıxarır. BVF-nin Afrika ilə bağlı proqramlarının uğursuzluğa düçar olmasının səbəbi onların dövlətlərə, demək olar ki, məcburi surətdə yeridilməsi, yəni bərabərhüquqlu tərəfdaşlar kimi danışıqlar aparılmamasıdır. Bu layihələr kasıbları daha da kasıb edir. BVF və DB-nın fəaliyyətində aclıq problemini həll edilməməsidir. Dövlətlər borclarının çoxluğundan və strukturi uyğunlaşmadan əziyyət çəkirlər.

Bretton-Vuds sistemi yarandığı dövrdə olan kapital qıtlığı şəraiti ilə hazırki şərait üst-üstə düşmür. BVF-nın beynəlxalq valyuta marketlərində münasibətlərinin sonrakı sabitliyini qorumağı bacarmadığı prinsipial surətdə bildirilir. BVF beynəlxalq maliyyə sisteminin stabilliyini təmin etmək üçün kifayət qədər resursa malik deyil. Aydındır ki, artıq onu " axırıncı müdafiə edə biləcək kreditor" adlandırmaq olmaz. BVF bəzən elə şərtlərlə kredit verir ki, bu ölkədəki vəziyyəti daha da ağırlaşdırır.

Son illərdə inkişaf etməkdə olan ölkələrin qlobal iqtisadi sistemdəki ədalətsizlikləri tədqid etmələrində ruhlandırıcı irəliləyişlər nəzərə çarpır. Artıq inkişaf etməkdə olan ölkələr öz vəziyyətlərini yaxşılaşdırmaq üçün əməkdaşlıq etməyə çalışırlar. Məsələn, Braziliya və Argentina "BVF ilə danışıqlar aparılmasının adi prinsipləri" barədə razılıq imzalayıblar. Başqa nümunə kimi 120 BVF üzvünün imzaladığı kommunikeni göstərmək olar. Bu ölkələr BVF-nin baş direktorunun seçilmə prosesinin daha açıq və şəffaf keçirilməsini tələb edirlər. Adətən baş direktoru ABŞ və Avropa nümayəndələri bağlı qapılar arxasında seçirlər. Hal-hazırda Bretton-Vuds institutlarının idarə edilməsi debatlarda ən çox müzakirə edilən mövzulardır. Ənənəvi şüar olan bir ölkə - bir dollar sistemi qəbul edilmir.

Beləliklə, beynəlxalq maliyyə qurumlarının müasir beynəlxalq münasibətlər sistemində rolunun effektivliyini artırmaq üçün düşünürəm ki, aşağıdakı məsələlərə xüsusi diqqət artırılmalıdır.

- Beynəlxalq maliyyə qurumlarının müasir tələbatlara cavab verməsi üçün onlarda **struktur islahatları** aparılmalıdır. Həmçinin bəzi dövlətlər əməkdaşlığa daha ciddi əmək sərf etməlidirlər.

- İcra ilə bağlı məsələlərə daha çox diqqət ayırmaq.

Bank mövcud layihələrin icrasına diqqəti artırmalı və yalnız o halda yeni kreditləri nəzərdən keçirməlidir ki, mövcud icra vəziyyəti buna zəmanət versin. İcra vəziyyətinin əhəmiyyətli dərəcədə ləngidiyi layihələri Bank və hökumət ləğv etməyi nəzərdən keçirməlidir ki, daha tez uğurun əldə oluna biləcəyi layihələrə daha yaxşı diqqət yetirsin.

- Yeni layihələri seçərkən daha diqqətli olmaq.

- Yeni layihələr üçün daha güclü hazırlıq süzgəcini tətbiq etmək.

- Biliklərin bölüşdürülməsi və siyasi kursla bağlı dialoq üçün daha konkret mexanizmlərə doğru Bankın tədbirlərini yenidən tarazlaşdırmaq.

Siyasi kursla bağlı dialoqu irəliyə aparmaq üçün bir sıra daha konkret mexanizmləri nəzərdən keçirmək faydalı ola bilər. Bunlara yeni kreditlərin və potensial olaraq siyasi kursla bağlı bəzi kreditlərin verilməsindən əvvəl daha çox analitik işin görülməsi daxildir. 2009-cu ildə keçirilmiş yüksək səviyyəli siyasət forumunda bir sıra uğur vəd edən nəticələr yarandı və bu, dialoqu daha da artırmaq üçün mexanizmi təmin edə bilər.

BANK SİSTEMİNDƏ İQTİSADİ TƏHLÜKƏSİZLİK AMİLLƏRİ

İslamzadə S.A.
Azərbaycan Dövlət İqtisad Universiteti

Bank sisteminin iqtisadi təhlükəsizliyi aşağıdakı amillərdən asılıdır:

- Həm dövlət, həm qonşu ölkələrdə, həm də böyük iqtisadi və siyasi münasibətlərə malik olduğu ölkələrdə siyasi və iqtisadi sabitlik;
- Ölkənin bank sisteminin daxili və xarici maliyyələşmə mənbələrindən asılılıq səviyyəsi
- Digər dövlətlərin maliyyə müəssisələrində və banklarında aktivlərin konsentrasiya səviyyəsi;
- İqtisadiyyatın sahələri üzrə maliyyə-sənaye qrupları və ya banklarda aktivlərin konsentrasiya səviyyəsi;
- Banklar üzərində mülkiyyət strukturu;

Aparılan araşdırmala göstərir ki, müasir şəraitdə MDB ölkələrinin bank sektoru üçün ən xarakterik təhlükələr aşağıdakılardır:

1. Bankların kapitallarının aşağı keyfiyyəti.
2. Bankların apardığı riskli kredit siyasəti.
3. Kifayət qədər səmərəli bank nəzarətinin olmaması.
4. Əmanətlərin sığortalanması sistemi depozitlərin kifayət qədər örtüklü olmasına yetmir .
5. Bank aktivlərinin aşağı likvidliyi .
6. İqtisadiyyatın real sektorunda müəssisələrin kredit qabiliyyətinin aşağı səviyyədə olması.

Yuxarıda sadalanan amillərin təhlili ilə yanaşı, iqtisadi təhlükəsizliyin səviyyəsini müəyyənləşdirmək üçün əhəmiyyətli olan, dolayı amillərin də təhlil edilməsi lazimdır:

1. Banklararası rəqabət səviyyəsi.
2. Bankdaxili nəzarətin keyfiyyəti.
3. Sənaye sahələrinin iqtisadi vəziyyəti.
4. Milli valyutanın sabitliyi və iqtisadi siyasət.

Banklar üçün bilavasitə səbəb ola biləcək bank təhlükəsizliyinin pisləşməsi bir sıra faktorlardan asılıdır. Bu faktorların mənfi təsirinin azalmasına kömək edən tədbirlər işlənib hazırlanmalıdır:

Faktorlar	Mənfi təsirinin azaldılması üzrə tədbirlər
Planlı olaraq bir qrup müştəri və əmanətçinin təcili olaraq öz əmanətini geri götürməsi, bankın ödəmə qabiliyyətini aşağı salır.	Bankın müstəqilliyini təmin etmək üçün maliyyə mənbələrini və passivlərin diversifikasiyası.
Bankın aktivlərinin digər maliyyə qurumları tərəfindən bloklaşdırılması.	Maliyyə vasitələrinin yalnız nüfuzlu maliyyə müəssisələrində yerləşdirilməsi. Onların maliyyə vəziyyəti və siyasi asılılıqlarının monitorinqi.
Müəssisənin saxta müflisləşmə həddinə çatması.	Müəssisə haqqında daha ətraflı məlumatın toplanması.
Bankı diskreditasiya etmək üçün kütləvi informasiya vasitələrindən istifadə etmək lazımdır.	Daimi olaraq bankın imicini qoruyan reklamlardan istifadə etmək, bankın maliyyə şəffaflığını göstərən kütləvi tədbirlərin həyata keçirilməsi.
Kapitalın hərəkətinə siyasi təsirlər (dövlət müəssisələri və dövlət təşkilatlarının hesabları idarə etməsi, dövlət fondlar, və s).	Müstəqillik və yaxud siyasi strukturlardan asılılığı azaltmaq. Belə əməliyyatlar zamanı bütün normativ hüquqi aktlara riayət etmək lazımdır.
Müəyyən bank xidmətləri bazarlarından bankın sıxışdırılması.	Bankın regional iqtisadi layihələrə inteqrasiyası, düşünülmüş qiymət siyasətinin aparılması.
Xidmət bazarında demping	Bank xidmətlərinin maya dəyərinin azaldılması və səmərəliliyinin artırılması üzrə işlərin fasiləsiz olaraq aparılması.
İxtisaslı kadrların itkisi, onların başqa, rəqib banklara keçməsi.	Bank işçilərinə əmək haqqının verilməsi və sosial müdafiəsi, düşünülmüş kadr siyasətinin aparılması.

Yuxarıda sadalanan amilləri nəzərə alaraq, daimi monitorinq apararaq bankların, müəssisələrin və strateji tərəfdaşların fəaliyyətinin prioritet istiqamətlərini və onların maliyyə və siyasi fəaliyyətlərini dəqiq müəyyən etmək lazımdır.

Bank sisteminin iqtisadi təhlükəsizliyin artırılması və daim təkmilləşdirilməsi Mərkəzi Bank tərəfindən banklar üçün keyfiyyət nəzarəti tələb edir.

Bank sahəsində müxtəlif amillərin mənfi təsirinin qarşısının alınması üçün, bankdaxili nəzarət xidməti tərəfindən daim təhlil aparılaraq aşağıdakı məlumatlar alınlmalıdır:

- Bankların maliyyə mənbələrinin asılı olduğu, biznes və maliyyə qrumlarının aktivlərinin həcmi.

- Digər dövlətlərin banklarında və ya fərdi maliyyə institutlarında olan bank aktivlərinin keyfiyyəti, onların nüfuzuna daimi nəzarət. Bununla yanaşı, banklar arasında rəqabətin mümkün forma və metodları haqqında informasiya almaq məqsədi ilə vəsait yerləşdirdiyi maliyyə qurumlarına və banklara nəzarətin forma və dərəcəsi, həmçinin potensial müştərilərin analizi.
- Bank xidmətləri bazarında inhisarçı mövqeyə malik olan bankların ayrı-ayrı maliyyə axınlarının konsentrasiyası və onların analizi.

Həm ayrı-ayrı ölkələr, regionlar, həm də müəyyən əməliyyatlar, investisiyalar, ayrı-ayrı maliyyə-sənaye qruplarının və ya sahələrin kreditləşdirilməsi bank üçün təhlükə zonası ola bilər.

Eyni zamanda bankdaxili nəzarət üçün, bank sisteminin maliyyə sabitliyi təhlil edilməli və proqnozlaşdırılmalı, sonra isə siyasi və iqtisadi mühitin yarada biləcəyi mənfi təsir imkanlarının qarşısı almalıdır.

Bank sisteminin sabitliyinin artırılması istiqamətində həyata keçirilən tədbirlər ümumi makroiqtisadi amillərin yaxşılaşdırılması istiqamətində olmalıdır:

- Bank sisteminə ümumi etimadın artırılması və əhalinin vəsaitlərinin cəlb edilməsinin təmini.
- Bank sistemini iqtisadiyyatın kölgəli sektorundan çıxarılması.
- Milli valyutaya inam və sabitliyin artırılması.
- Vergi təzyiqinin azalması.

Beləliklə, bank sisteminin iqtisadi təhlükəsizliyi, analitik sistem, Mərkəzi Bank tərəfindən həyata keçirilən tənzimləyici və makroiqtisadi tədbirlər və Mərkəzi Bankın səlahiyyətləri xaricində dövlətin qəbul etdiyi tədbirlərlə dəstəklənməlidir.

AZƏRBAYCANDA MALİYYƏ EHTİYATLARININ SƏMƏRƏLİ İSTİFADƏ OLUNMASINDA NƏZARƏT FƏALİYYƏTİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

Ələkbərova A.R.
Azərbaycan Dövlət İqtisad Universiteti

İstehsal prosesinin səmərəliliyinin yüksəldilməsi, onun həcminin genişləndirilməsi nəticəsində ÜDM – in, milli gəlirin və son nəticədə maliyyə ehtiyatlarının həcmini artırır. Bu da cəmiyyət üzvlərinin tələbatlarının daha dolğun ödənilməsinə imkan verir. Öz növbəsində, yaradılmış maliyyə ehtiyatlarının səmərəli, düzgün istifadə edilməsi istehsalın fasiləsizliyinin təmin edilməsinə, onun həcminin genişlənməsinə, ən başlıcası istehsalın səmərəliliyinin artmasına gətirib çıxarır.

Dövlət maliyyəsinin və onun əsas tərkib hissəsi olan dövlət büdcəsinin icrasına nəzarət dövlətin təkcə mərkəzləşdirilmiş pul gəlirləri və xərclərinin uçotu, hesabatı deyil, dövlətin iqtisadi siyasətini reallaşdırmaq vasitələrindən biridir. Ölkədə aparılan iqtisadi islahatların strateji əsası büdcə gəlirləri və xərclərinin daha səmərəli idarə olunmasını mümkün edən dövlət maliyyə nəzarət sisteminin yaradılmasından, dövlət xərclərinin mövcud qanunvericiliyə uyğun olaraq maliyyə nəzarəti vasitəsilə yoxlanılmasından, təhlil edilməsindən, iqtisadiyyatın inkişafının mümkün yollarının araşdırılmasından və bu sahədə daim mütərəqqi təkliflərin hazırlanmasından ibarət olmalıdır.

Dövlət icra hakimiyyəti orqanlarının daxili nəzarəti səmərəli dövlət idarəetməsinin təmin edilməsində mühüm rol oynayır. Bu büdcə gəlirlərinə və xərclərinə nəzarət etməyə, dövlət maliyyə sisteminin fəaliyyət göstərməsini izləməyə, bu sistemi səmərəli idarə etməyə, habelə, maliyyə siyasətini reallaşdırmağa imkan verir. Dövlət maliyyə vəsaitlərinin istifadəsinə kənar nəzarət isə dövlət vəsaitlərinin qorunub saxlanması, maliyyə sferasında qəbul edilmiş qanunvercilik və şəffaflıq, hesabat vermə, qənaətcillik, səmərəlilik prinsiplərindən kənarlaşmalar haqqında cəmiyyəti informasiya ilə təmin edir.

Maliyyə nəzarəti dövlətin maliyyə-iqtisadi siyasətinin həyata keçirilməsinə, maliyyə sabitliyi üçün şəraitin yaradılmasına, mövcud qanunvericiliyə əməl edilməsinə təminatın yaradılmasına, dövlət maliyyəsinin təyinatı üzrə və qənaətlə istifadə olunmasına, dövlət əmlakının qorunub saxlanmasına, büdcə və maliyyə intizamının pozulması hallarının aşkar olunmasına, dövlət vəsaitinin qanunsuz xərclənməsinin, habelə dövlət əmlakının mənimsənilməsi hallarının aşkar edilərək bərpa edilməsinə xidmət etməlidir.

Dövlət maliyyə vəsaitlərinin təyinatı üzrə səmərəli xərclənməsi, dövlət vəsaitinin formalaşmasında və xərclənməsində ehtiyatların müəyyən edilməsi, dövlət büdcəsinə və büdcədənkənar dövlət fondlarına hesablanmış borcların vaxtında və tam ödənilməsi, habelə dövlət büdcəsinin gəlirlərinin artırılması üzrə

ehtiyatların aşkar edilməsi və bu işlərin xüsusi dövlət orqanları tərəfindən həyata keçirilməsi dövlət nəzarəti vasitəsilə həyata keçirilir.

Dövlət vəsaitinin səmərəli xərclənməsində müstəsna əhəmiyyəti olan dövlət maliyyə nəzarəti dövlət idarəetmə fondlarının əsas və məcburi elementlərindən biri olmaqla, dövlətin maraqlarına xidmət edir və dövlətin adından müxtəlif istiqamətlərdə həyata keçirilir. Dövlət nəzarəti nöqsanların gələcəkdə təkrarlanmaması üçün tədbirlər görmək, bəzi hallarda təqsirkar şəxsləri məsuliyyətə cəlb etmək, habelə vurulmuş zərərin günahkar şəxslər tərəfindən ödənilməsini təmin etmək məqsədi ilə mümkün qədər ilkin mərhələlərdə material resurslarının səmərəli və qənaətlə xərclənməsində yol verilmiş qanunsuzluqların, mövcud qanunvericiliklə müəyyən edilmiş qaydaların pozulması hallarının aşkar edilməsidir.

Dövlət maliyyə nəzarətinin səmərəliliyindən son nəticədə ölkənin sosial-iqtisadi uğurunun təminatı birbaşa asılıdır və dövlətin funksiyalarının yerinə yetirilməsi üzrə onun malik olduğu pul vəsaitlərinin və əmlakın qorunub saxlanılmasını və onların artımının təmin edilməsini, dövlət büdcəsinin tərtibi və icrasının qanunvericiliyə uyğun həyata keçirilməsini, dövlət vəsaitlərinin təyinatından kənar məqsədlərə xərclənməsinin və israf edilməsinin qarşısının alınmasını, büdcə qanunvericiliyinə əməl olunmasını təmin edir.

Respublikamızda dövlət maliyyə nəzarəti, fəaliyyətləri qanunvericiliklə tənzimlənən xüsusi dövlət orqanları tərəfindən Hesablama Palatası, Maliyyə və Vergilər nazirlikləri, Dövlət Gömrük Komitəsi və digər təşkilatlar tərəfindən təmin olunur. Hal-hazırda Respublikada dövlət maliyyə vəsaitlərindən düzgün istifadə olunmasının mexanizmi dəqiq müəyyən edilmiş, dövlət vəsaitlərinin xərclənməsi üzərində cari nəzarətin həyata keçirilməsi üçün mühüm addımlar atılmış, iqtisadi münasibətlərə uyğun dövlət nəzarəti mexanizminin tətbiq olunması təmin edilmiş, bazar münasibətlərinin inkişafına mənfi təsir göstərə bilən halların qarşısının alınmasına, fiziki və hüquqi şəxslərin hüquq və mənafelərinin qorunmasına, habelə nəzarət funksiyasını həyata keçirən dövlət orqanlarının əməkdaşları tərəfindən istehsal, xidmət, maliyyə-kredit fəaliyyətinə əsassız müdaxilələrin, yol verilən sui-istifadə və digər neqativ halların aradan qaldırılması üçün lazımi tədlbirlər görülmüşdür.

Ölkəmizdə dövlət maliyyə nəzarəti işlərinin günün tələbləri səviyyəsində qurulması, aparılan təftiş və yoxlamaların keyfiyyətinin yüksəldilməsi, büdcədən maliyyələşən müəssisə və təşkilatlarda büdcə vəsaitlərinin təyinatı üzrə səmərəli xərclənməsi işlərinin gücləndirilməsi və maliyyə pozuntularına yol verilməsinin qarşısının alınması sahəsində mühüm tədbirlər həyata keçirilmişdir. Ötən dövr ərzində bu sahədə görülmüş işlərin nəticəsi olaraq büdcə vəsaitlərinin təyinatından kənar məqsədlərə xərclənməsinin qarşısının alınması, dövlət gəlirlərinin artırılması və xərclərə qənaət olunması, həmçinin dövlət əmlakının qorunub saxlanılması istiqamətində qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsində xeyli müsbət irəliləyişlər müşahidə olunmaqdadır. Maliyyə nəzarəti müəssisə və təşkilatların gəlir və xərc smetalarının, büdcə layihələrinin, müqavilə sənədlərinin tərtibi və təsdiqi zamanı həyata keçirilməklə, onların maliyyə fəaliyyətlərində maliyyə ehtiyatlarının təyinatından kənar məqsədlər üçün istifadə olunmasının qarşısını alır, həmçinin əlavə maliyyə ehtiyatlarını aşkara çıxarır.

Son illərdə həyata keçirilən dövlət maliyyə nəzarətinin keyfiyyətinin yüksəldilməsi, büdcədən maliyyələşən təşkilatlarda büdcə vəsaitinin təyinatı üzrə xərclənməsi üzərində nəzarətin gücləndirilməsi, maliyyə pozuntularına yol verilməsinin qarşısının alınması istiqamətində müvafiq orqanların fəaliyyəti daha da gücləndirilmişdir. Büdcədən ayrılmış vəsaitin təyinatı üzrə səmərəli xərclənməsi üzərində dövlət nəzarətini təmin etmək məqsədi ilə büdcə təşkilatlarında, mərkəzi icra hakimiyyəti orqanlarında və onların tabeçiliyində olan təşkilatlarda, Azərbaycan Respublikasının xarici dövlətlərdə və beynəlxalq təşkilatlarda fəaliyyət göstərən diplomatik xidmət orqanlarında mütəmadi olaraq təftiş və yoxlamalar aparılır.

Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən dövlət büdcəsindən maliyyələşən təşkilatlarla bərabər, mövcud qanunvericiliyə uyğun olaraq hüquq-mühafizə və məhkəmə orqanlarının qərarlarına əsasən qeyri-büdcə təşkilatlarında da təftişlər aparılır. Azərbaycanın maliyyə təsisatlarının beynəlxalq kapital bazarına qoşulması, xarici investorların ölkə iqtisadiyyatına marağının artırılması, respublikada mövcud olan maliyyə sisteminin beynəlxalq standartlara uyğunlaşdırılması məqsədi ilə dövlət maliyyə nəzarətinin mütərəqqi tələblər səviyyəsində yenidən qurulması ən aktual məsələ kimi qarşıya qoyulmuşdur.

Müasir dövrün tələblərinə uyğun olaraq büdcə vəsaitlərinin xərclənməsi mərkəzləşdirilmiş qaydada Dövlət Xəzinədarlığı Agentliyi tərəfindən həyata keçirilir və büdcə təşkilatlarını resursla müntəzəm təmin etməyə və zəruri dövlət ödənişlərini vaxtında həyata keçirməyə, büdcə vəsaitlərinin səmərəli xərclənməsi üzərində cari nəzarəti təmin etməyə imkan verir.

İqtisadiyyatımızın dünya iqtisadi sisteminə inteqrasiyasının sürətləndirilməsi, dövlət idarəetmə sistemində islahatların aparılması və bütövlükdə cəmiyyətin demokratikləşdirilməsi prosesi beynəlxalq standartlara cavab verən dövlət maliyyə nəzarətinin yenidən qurulmasını zəruri edir. Dövlət xərclərinin idarə olunmasının səmərəliliyinin yüksəldilməsinin ən vacib elementlərindən biri bu xərclərin proqnozlaşdırılması və icrası sahəsində şəffaflığın təmin edilməsidir.

Respublikamızın iqtisadiyyatında aparılan struktur islahatların başlıca istiqamətlərindən biri də büdcə gəlirlərinin artırılması, sabit iqtisadi artımın və istehsalın inkişafının təmin edilməsi məqsədi ilə vergi xidmətinin nəzarət işinin təkmilləşdirilməsidir. Vergi orqanları tərəfindən vergilərin yığılması üzərində nəzarətin həyata keçirilməsi üçün vergi sistemi əsas fəaliyyət prinsiplərinə uyğunlaşdırılmalı və daim təkmilləşdirilməsi məqsədə müvafiqdir. Bu məqsədlə vergilərin sayı və dərəcəsi elə olmalıdır ki, könüllü vergi ödəyicilərinin sayı artmış olsun, vergi qanunlarında olan bəzi boşluqlar aradan qaldırılsın və gələcəkdə vergi ödəyicilərinin iqtisadi vəziyyəti nəzərə alınaraq vergi dərəcələri üçün elə həddmüəyyən olunmalıdır ki, ödəyicilər onu könüllü ödəyə bilsin və düzgün uçot sistemi qurmağa imkan yaransın.

Fikrimizcə, büdcə-vergi intizamının daha da möhkəmləndirilməsi dövlətin apardığı siyasətin əsas istiqamətlərindən biri kimi qəbul olunduğu bir vaxtda iqtisadiyyatın inkişafının və dövlət vəsaitinin səmərəli xərclənməsinin təmin olunmasına xidmət edən dövlət nəzarəti sisteminin təkmilləşdirilməsi daha vacib bir məsələ kimi qarşıya çıxır. İqtisadiyyatı əhatə edən bütün sahələrin dövlətin nəzarətində olmasının zəruriliyini nəzərə alaraq, dövlət maliyyə sisteminin daha da möhkəmləndirilməsinə məhz dövlət maliyyə nəzarəti sisteminin təkmilləşdirilməsindən başlanılması məqsədəmüvafiqdir.

MÜASİR DÖVRDƏ BANKLARIN İNKİŞAF XÜSUSİYYƏTLƏRİ

Həsənli G.N.
Azərbaycan Dövlət İqtisad Universiteti

Bazar iqtisadiyyatı sisteminə malik hər bir ölkənin iqtisadiyyatının inkişafında kiçik firma və şirkətlərin rolu danılmazdır. Günümüzdə kredit alqı-satqısı böyük əhəmiyyətə malikdir. Malları istehsal edən, malların topdan və pərakəndə ticarətini həyata keçirən bir yerdən digər yerə daşınmasını firma və şirkətlər arasında, bunlarla ev idarələri arasında çeşidli formalarda kredit verilir, kredit alınır. Cəmiyyət içində alınan və verilən kreditlərin önəmli bir bölümünə banklar vasitəçi olur. Çünki kredit zəmanətə və ya etimada əsaslanır. Banklar kredit tələb edənlərin kreditlərini ölçmək, verdikləri kreditlərin müddətində qaytarılmasını zəmanəti altına salmaq şərti ilə bu etimadi saxlayır.

Banklar kiçik, orta, böyük borc verən, borc verə bilən fondları toplayaraq, böyük fondların yığımına xidmət edirlər. Bununla müasir böyük şirkətlərin və dövlətin kredit tələblərini ödəmək imkanına sahibdirlər. Əgər banklar olmasa idi, müasir iri şirkətləin və dövlətin böyük həcmdəki kredit tələblərini ödəyə bilmək üçün yüzlərlə əmanət sahibinə müraciət edilməsi lazım gələrdi.Banklar hər şeydən öncə kredit aliş-verişinin əsası olan girovu saxlayan qurumlardır. Çoxluq içində pulu olub, Borc verməyə hazır kimsələr və kredit axtaranların sayı sonsuzdur. Ancaq bunların arasında bir kredit alış verişinin meydana gəlməsi üçün borc alana etimad əsas şərtdir. Bank kredit almaq istəyində olanlanin kreditlərini ölçmək və verdiyi krediti zəmanət altına almaq üçün gərəkli texniki alətlərə malikdir. Banklar iqtisadiyyatın pul və kredit ehtiyacını ödəyən qurumlardır və iqtisadiyyatın inkişafinda böyük rola malikdirlər.

Mərkəzi bank dövlətlə iqtisadiyyat arasında vasitəçilik edir, ölkəyə kredit axınını tənzimləyir. Bu bankın üzərinə hansı funksiya düşürsə-düşsün Mərkəzi bank həmişə tənzimləyici orqan olaraq qalacaq. Pul kütləsinin idarə olunması da Mərkəzi bankın fəaliyyəti ilə baş verir.

Azərbaycan Respublikası müstəqilliyini qazandıqdan sonra iqtisadiyyatın bütün sahələrində olduğu kimi bank sistemində də libaral islahatlara başlandı. İslahatların ilkin mərhələsində dövlət banklarının restrukturizasiyası və sağlamlaşdırılması tədbirləri həyata keçirildi, özəl bank sisteminin institusional formalaşması təmin edildi. Bu mərhələdə kapitalla bağlı aşağı tələblər, sistemə daxil olmaq üçün son dərəcədə liberal şərtlər müəyyən olundu və bank fəaliyyətini tənzimləmək üçün yumşaq tənzimləmə alətləri tətbiq edildi. Bu proseslərin nəticəsində bank sistemi institusional olaraq genişlənməyə və özəl bankların sayı artmağa başladı. 1996-cı ildən etibarən isə minimal kapital tələbinin mərhələli şəkildə artırılması kiçik bankların birləşməsinə və bağlanmasına səbəb oldu.

Bank islahatlarının növbəti mərhələsində, 2000-ci ildən başlayaraq həyata keçirilən özəl bankların intensiv sağlamlaşdırılması tədbirləri bank sisteminin davamlılığının möhkəmlənməsinə və maliyyə

vasitəçilik funksiyasının yaxşılaşmasına mühüm şərait yaratdı. 2002-ci ildən bank sisteminin restrukturizasiyasının mühüm mərhələsi həyata keçirilməyə başlandı. Uğurlu neft strategiyasının məntiqi nəticəsi kimi iri neft gəlirlərinin ölkəyə axınını və bu əsasda bankların maliyyə resurslarının strateji məqsədlərə effektiv ötürülməsinə hazır olmalarını nəzərə alaraq yeni, 2002-2005-ci illəri əhatə edən inkişaf strategiyası hazırlandı.Strategiyanın əsas məqsədini neft gəlirlərinin qeyri-neft sektoruna səmərəli və təhlükəsiz trasformasiyası, əhalinin və regionların bank xidmətlərinə çıxış imkanlarının artırılması və bu əsasda yoxsulluğun azaldılması üçün bank sisteminin maliyyə vasitəçilik funksiyasının inkişaf etdirilməsi, bank sisteminin davamlılığının və etibarlılığının möhkəmləndirilməsi, bank xidmətləri bazarında azad və sağlam rəqabət mühitinin təmin edilməsi təşkil edirdi. Bank sisteminin bütün istiqamətləri üzrə həyata keçirilən radikal islahatlar və institusional inkişaf nəticəsində sektorda dərin kəmiyyət və keyfiyyət dəyişiklikləri baş vermişdir. İslahatların ən ümumi nəticəsi həm maliyyə sabitliyi parametrlərinə, həm risk menecmenti təcrübəsinə, həm də xidmətlər spektrinə görə beynəlxalq standartlara tam uyğun bank sisteminin formalaşmasıdır.

2014-cü il dövrün sonuna Azərbaycanda 45 bank, 752 bank filialı fəaliyyət göstərir. Banklarla yanaşı respublikada 157 bank olmayan kredit təşkilatı fəaliyyət göstərir. Əhalinin real pul gəlirlərinin artımı, bank sisteminə olan inamın inkişafı, kreditorların və əmanətçilərin maraqlarının müdafiəsinin hüquqi əsaslarının təkmilləşdirilməsi, xüsusilə də "Əmanətlərin Sığortalanması Fondu" nun fəaliyyətə başlaması əhalinin əmanətlərinin sürətli artımını şərtləndirən amillərdən olmuşdur.

2014-cu il tarixə əhalinin banklardakı əmanətləri 15453,4 man təşkil edir ki, bunun da 40%-i uzunmüddətli əmanətlərin (1 ildən yuxarı) payına düşür.Əhali ilə yanaşı korporativ müştərilərin də banklardakı depozitləri artır. 2014cü il dövrün sonuna korporativ müştərilərin banklardakı depozitləri də artmışdır.Bankların xüsusi və cəlb edilmiş vəsaitlərinin həcminin dinamik inkişafı aktiv əməliyyatların genişləndirilməsi üçün əlverişli şərait yaratmışdır. Nəticədə bank aktivlərinin həcmi davamlı artım göstərərək 2014-cu il dövrün sonuna 24706,7 manata çatmışdır.Bank aktivlərinin strukturunda kredit qoyuluşları xüsusi çəkiyə malikdir. 2014cü il dövrün sonuna bankların müştərilərə kredit həcmi 18542,6 man təşkil edir.

Bank sistemində əsas rol kommersiya banklarına məxsusdur. Kommersiya bankları ölkədə kredit resurslarının əsas hissəsinin toplanmasına xidmət göstərir və müştərilərə maliyyə-kredit xidmətlərinin bütov kompleksini təqdim edir.

	2003	01.2015
Mənfəətlə işləyən bankların sayı	33	40
Zərərlə işləyən bankların sayı	11	5
Xalis faiz mənfəəti (zərər)	35,18(mln.man)	128,34(mln.man)
Xalis qeyrifaiz mənfəəti (zərər)	10,01(mln.man)	33,99(mln.man)

Hazırda inkişaf etmiş ölkələrdə universal kommersiya bankları öz müştərilərinə 300-ə yaxın müxtəlif növlü xidmətlər təklif edirlər. Lakin Azərbaycanda kommersiya bankları hələlik məhdud miqdarda əməliyyatlar yerinə yetirirlər ki, bunlar da əsasən ənənəvi bank xidmətləridir. Buna baxmayaraq, Bank xidmətləri bazarında rəqabətə tab gətirən bir sıra nüfuzlu kommersiya bankları get-gedə müştərilərə göstərdikləri xidmətlər dairəsini genişləndirirlər.Banklar öz fəaliyyətlərində müntəzəm olaraq kredit riski ilə də üzləşirlər. Belə vəziyyət ən yaxşı halda borclu tərəfindən kredit üzrə faizləri ödəmək imkanının olmaması, ən pis halda isə ümumiyyətlə krediti qaytarmaq imkanının olmaması ilə izah edilir.

Hər bir ölkənin özünəməxsus xüsusiyyətləri olduğu üçün tənzimlənmə metodları da müxtəlif olur. Ümumiyyətlə, hal-hazırda dünya miqyasında bank işi getdikcə dövlətin müdaxiləsindən azad olur. Bu isə ilk növbədə beynəlxalq maliyyə bazarlarında müxtəlif aparıcı transmilli bankların rəqabəti ilə əlaqədardır.

Ümumiyyətlə bank fəaliyyətinin, eləcə də bank əməliyyatlarının inkişaf etdirilməsində aşağıdakı amillər ön plana çəkilməlidir:

– əsas diqqət uzunmüddətli vəsaitlərin cəlb edilməsinə yönəldilməli;

– bankın depozit və əmanət resurslarının məbləği və müddətləri onun aktiv əməliyyatlarına uyğun gəlməli;

– əlavə əməliyyatlar, xidmətlər və qoyuluşların həcmini artırmaq üçün güzəştlər tətbiq edilməklə, depozit və əmanət əməliyyatlarının spektri genişlənməli;

– bank fəaliyyətində aktiv və passivlərin səmərəli idarə edilməsində xüsusi nəzarət sisteminin təkmilləşdirilməsi məqsədəuyğun olmalıdır.

Son dövrlər dünya bank təcrübəsində bankların əldə etdikləri gəlirlərdə qeyri-ənənəvi, xüsusilə də komisyon-vasitəçilik əməliyyatlarının xüsusi çəkisi artmaqdadır.

Müasir şəraitdə yerli kommersiya bankları üçün əhalinin vəsaitlərinin cəlb edilməsi əməliyyatı bir tərəfdən onlara heç də asan başa gəlmirsə, digər tərəfdən bu gün Azərbaycanda fiziki şəxslərin bank əməliyyatlarına olan tələbi və bu tələbin ödənilməsi imkanları arasında müəyyən fərqliliklər mövcuddur. Bunu ilk növbədə hələ də əhalinin bütün banklara, bankların isə müştərilərə olan inamının yüksək səviyyədə olmaması ilə izah etmək olar. Qarşılıqlı inamın qənaətbəxş olmaması bank və müştəri arasında dezinteqrasiya meylini gücləndirir. Son nəticədə bu bankların fiziki şəxslərə olan maraqlarının azalmasında, digər tərəfdən isə əhalinin əksər hissəsinin hələ də öz yığımlarını xarici valyuta və dəfinə formasında həyata keçirməsində özünü biruzə verir.

Zənnimcə depozitlərin sığortalanması sisteminin reallaşması bu problemin nisbətən həll olunmasında mühüm rol oynayır. Belə ki, əmanətçilərin bankda yerləşdirilmiş vəsaitlərinin qaytarılmasına zəmanət verilməsi, bank sisteminin sabitliyinin təmin edilməsinin və bankların depozit bazasının möhkəmləndirilməsinin əsas formalarından biridir.

İqtisadi inkişafın növbəti mərhələsi maliyyə-bank sisteminin inkişafı üzrə yeni vəzifələr irəli sürür. Bank sisteminin iqtisadiyyata daha geniş maliyyə xidmətinin göstərilməsində, sahibkarlığın maliyyə ehtiyaclarının ödənilməsində rolu daha da artırılmalı, bank sektorunda sağlam rəqabət mühiti formalaşdırılmalı, bank sisteminin etibarlılığı və dayanıqlığı yüksəldilməli və müasir qloballaşma tələblərinə uyğun dünya bank sisteminə inteqrasiyası sürətləndirilməlidir..

İPOTEKA KREDİTLƏŞMƏSİ VƏ ONUN İNKİŞAF İSTİQAMƏTLƏRİ

Hüseynova N.E.
Azərbaycan Dövlət İqtisad Universiteti

Hazırda ipoteka siyasətinin müasir sosial dövlətin bir elementi olduğunu və inkişaf etməkdə olan Azərbaycanda, dövlətin qarşısında əhalinin mənzil şəraitinin yaxşılaşdırılması və ya yeni həyat standartlarına uyğunlaşdırılması kimi öhdəliklərin olmasını nəzərə alsaq həmçinin, ölkəmizdə ipoteka sisteminin yeni təşəkkül tapması və təkmilləşdirilməsinə olan ehtiyac mövzunu əhəmiyyətli edən əsas səbəblərdəndir. İlk ipoteka aktı 27 əsr bundan əvvəl qədim Yunanıstanda həyata keçirilib. Məqsəd borclu vətəndaşların borc qarşılığında köləyə çevrilməsinin qarşısını almaq və həmçinin mülkiyyət münasibətlərinin tənzimlənməsi olub. Qeyd etmək lazımdır ki, ipoteka sözünün mənası "dayaq", "dirək" deməkdir. Dünyada ipoteka sistemi XX əsrin əvvəllərindən etibarən sürətlə inkişaf etməyə başlayıb və nəticədə ayrı-ayrı ipoteka sistemi modellərinin təşəkkül tapmasına yol açıb. Hazırda dünya ölkələri ipoteka sisteminin iki əsas modelindən ABŞ və Avropa modellərindən istifadə edir. ABŞ modeli ikipilləli maliyyələşmə sisteminə malikdir. Birinci mərhələdə əgər nağd pul əmlakın girovluğu müqabilində ipoteka kağızına çevrilirsə, ikinci mərhələdə ipoteka kağızı aktiv bazar likvidi olaraq çıxış edir və onun alınıb satılmasına başlanılır. Avropa modeli isə daha çox sosial model olaraq xarakterizə edilir. Bu modelin üstün tərəfi ondan ibarətdir ki, kreditləşmənin maliyyə mənbəyi olaraq əhalinin öz yığımları çıxış edir və bu üsulla passiv vəsaitlər daha səmərəli aktivlərə çevrilir. Prosesin tənzimlənməsi isə tikinti əmanət birlikləri tərəfindən həyata keçirilir. Ümumiyyətlə isə hər iki model hazırda inkişaf etmiş ölkələrdə əhalinin mənzilə olan tələbatının ödənilməsində böyük rol oynayır. Məsələn, ABŞ-da alınıb satılan evlərin 90 %-i ipoteka krediti vasitəsilə baş verir. Yaxud da Almaniyada tikinti əmanət bankları ötən müddət ərzində təxminən bir trilyon avro vəsaiti bu məqsədlə vətəndaşlara təqdim edib.

Bütün bu qeyd edilənlərlə yanaşı, prioritet məqsəd Azərbaycanda mövcud ipoteka sistemi, onun modeli, yararlılığı və əhəmiyyətini artıran səbəblər, ipoteka sisteminin nöqsanları, reallığa uyğunlaşdırılması variantları kimi hər bir ölkə vətəndaşını maraqlandıran məsələlər müəyyən olunmalıdır. Nəticədə, ipoteka kreditləşməsində ciddi uyğunsuzluğun olduğu və bu halların aradan qaldırılması üçün radikal dəyişikliklərin edilməsi vacibliyi qənaətinə gəlmək olar. Belə ki, ipoteka götürən zaman tələb edilən sənədlərin bir hissəsi vətəndaşdan deyil, bu sənədlərin alınmalı olduğu qurumlardan elektron qaydada tələb edilə bilər. Və yaxud mənzili olan vətəndaşların ipoteka krediti almaq hüququ məhdudlaşdırılaraq aztəminatlı və faktiki olaraq evsiz vətəndaşların kredit imkanlarından istifadə şansını artırmaq mümkündür. Ailə həyatı qurmayan gənclərə ipoteka yolunun açılması ölkədə

günü-gündən artan nikah yaşını azaldar və həmçinin əhalinin artımını stimullaşdıra bilər. Beynəlxalq təcrübənin araşdırılması onu da ortaya çıxarır ki, hazırda ölkəmizdə tətbiq edilən ipoteka faizləri yüksəkdir və əhalinin gəlirlərinə uyğun deyil. ABŞ, Danimarka, Fransa, Almaniya, Birləşmiş Ərəb Əmirliyi, Avstriya, Türkiyə və hətta qonşu Gürcüstanda ipoteka faizləri 2-5 faiz arasında qərarlaşdığı halda, ölkəmizdə müvafiq göstəricinin 4-12 faiz arasında dəyişməsi və adi ipoteka krediti qarşılığında aylıq ödənişin 386 manat olaraq təxminən ölkədəki orta aylıq əmək haqqına bərabər olması bu sahədə ciddi addımların atılmasını şərtləndirən amillərdəndir. Beynəlxalq təcrübəyə və əhalinin faktiki həyat şəraitinə istinadən təklif edirik ki, ipoteka faizləri iki dəfə azaldılmalı, Azərbaycan İpoteka Fondunun maliyyə qaynaqları şaxələndirilməli və artırılmalı, ipoteka kreditinin maksimum həddi 50 min manatdan 80 min manata qədər artırılmalıdır.

İpoteka krediti sistemindəki mövcud nöqsanları daha doğru təsbit etmək məqsədi ilə sorğu keçirilib və sorğunun nəticələri real vəziyyətin necə olduğunu göstərir. Sorğunun nəticələrindən aydın olur ki, ipoteka şərtlərinin dəyişdirilməsi əhalinin ipoteka kreditlərinə olan tələblərinin effektiv şəkildə qarşılanmasında müsbət təsir göstərəcəkdir. Mütəxəssislərin fikrincə aşağıda göstərilən tədbirlərin görülməsi Azərbaycanda mənzil ipoteka kreditləşməsinin inkişafına səbəb ola bilər.

1) Adi ipoteka kreditlərinin faizinin aşağı salınması. Nəzərə almaq lazımdır ki, ipoteka kreditləri 8 faizlə verilir. Bu, kifayət qədər yüksək faizdir. Qonşu Türkiyədə ölkə vətəndaşlarına verilən ipoteka kreditlərinin faiz dərəcələri bizdəkindən 2 dəfə aşağıdır. Türkiyədə yaşayan xarici vətəndaşlara təklif olunan ipoteka kreditlərinin faiz dərəcəsi isə 7 faizdir. Göründüyü kimi, bu da Azərbaycandakı adi ipoteka kreditlərinin faiz dərəcəsindən aşağı rəqəmdir. Bu məqsədlə, MDB məkanında Rusiya və Qazaxıstanın da ipoteka modellərindən istifadə etmək mümkündür. Rusiyada bu gün adi ipoteka kreditləri 3.5 faizlə təklif olunur və bu da orada yaşayan insanlara kreditlərdən yararlanmağa imkan yaradır. Azərbaycanda faizlərin 8-dən 6-ya endirilməsi zəruridir.

2) İlkin ödənişin ləğvi və ya azaldılması. Əhali ilə aparılan sorğu zamanı məlum olur ki, onların ilkin ödəniş etmək gücü 4-6 min manata çatır. İlkin ödənişləri 20 %-dən 10%-ə endirmək lazımdır.

3) Sıfır və ya bir faizli kreditlərin tətbiqi. Bəzi mütəxəssislər bu üsulu birmənalı qarşılamır və onların fikrincə bu, Azərbaycanda hələ real deyil və bunun tətbiq edilməsi iqtisadi baxımdan doğru deyil. Belə ki, sosial ipoteka kreditləri dövlət büdcəsindən İpoteka Fonduna ayrılır, fond isə həmin vəsaitləri müvəkkil banklara yönəldir. Müvəkkil banklar vəsaitlərin bölüşdürülməsini həyata keçirir. Onlar belə hesab edirlər ki, əgər kredit sıfır faizlə verirlərsə, o zaman bankın kreditlərin bölüşdürülməsində marağı olmayacaq. Çünki bütün hallarda kreditin müəyyən miqdarda faizi olmalıdır ki, bank həmin faizlərin bölüşdürülməsində maraqlı olsun. Hazırda sıfır faizli ipoteka kreditlərinin verilməsi əlverişli deyil. Digər mütəxəssislər isə mənzil ipoteka kreditləşməsinin inkişafı üçün dövlət büdcəsindən maliyyələşən kreditlərin sıfır faizlə verilməsini zəruri hesab edirlər. Onların fikrincə dövlət büdcəsindən ayrılan vəsait kommersiya xarakterli olmamalıdır. Bankların əməliyyat xərclərinin ödənilməsi üçün isə kreditlər 1 faizlə verilə bilər. Kanadada dövlət büdcəsi hesabına verilən ipoteka kreditləri 1 faiz təşkil edir. Rusiyada adi ipoteka kreditləri 4,7 faiz, güzəştli ipoteka kreditləri 2,2 faizdir. Qazaxıstanda isə bu rəqəm 2 faizdir. O baxımdan güzəştli ipoteka kreditlərinin faiz dərəcələri birinci mərhələdə 4 faizdən 2 faizə, gələcəkdə isə digər inkişaf etmiş ölkələrdə olduğu kimi 1 faizlə verilməsi məqbuldur.

4) Elektron ipotekanın tətbiqi. Elektron ipotekanın tətbiq edilməməsi ipoteka kreditlərinin alınması prosesinin sadələşdirilməsinə imkan vermir. Bütün bunları nəzərə alaraq elektron ipoteka sisteminin tətbiqinə, müraciətlərin onlayn həyata keçirilməsinə və tələb olunan sənədləri azaltmaqla ipoteka kteditləşməsindəki bürokratik əngəllərin aradan qaldırılmasına ehtiyac var.

5) Tələb olunan sənədlərin sayının azaldılması. Kreditlərin verilməsi üçün tələb olunan sənədlərin sayı 18-dir. Hətta elə sənədlər var ki, onların tətbiqi kifayət qədər lüzumsuz görsənir. Misal üçün, ipoteka götürən şəxsdən şəxsiyyət vəsiqəsinin sürətinin natariusda təsdiq edilməsi tələb edilir. Halbuki inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə belə bir şərt yoxdur.

6) Əhalinin ipoteka istiqrazlarına inamının artırılması. İpoteka istiqrazlarından səmərəli qiymətli kağız kimi istifadə olunması üçün tikinti şirkətlərilə emitent (istiqrazı buraxan) arasında sıx əməkdaşlıq qurulmalıdır. Bu kağız ipoteka qoyan, yəni mənzil sahibi (tikinti şirkəti) ilə mənzil alan arasında ikitərəfli qaydada razılaşdırılmış təminat vasitəsi olduğundan, bazarda real ifadəsini də tapmalıdır. Belə ki, dövlət qeydiyyatına alınan istiqrazlar daşınmaz əmlakın dəyərini ifadə etməklə, mənzil alan şəxslə satan arasında bilavasitə dəyər forması statusunu almalıdır. Təkcə, dövlət büdcəsi hesabına ölkədə sözügedən kreditləşdirilməni həyata keçirmək mümkün deyil. O səbəbdən ki, söhbət, əhaliyə məhz uzunmüddətli kredit verilməsindən getdiyindən, buna yalnız dövlət "cibindən" pul xərcləməməlidir. Çünki ipoteka

kreditləşdirməsi digər kredit növlərindən fərqli olaraq, həm yüksək gəlir vəd etmir, həm də vəsaitin geri qayıdışı baxımından uzun vaxt tələb edir.

7) Maksimum məbləğin artırılması. İpoteka kreditləri ilə bağlı əsas problem maksimum məbləğin aşağı olmasıdır. Sosial ipoteka kreditləri üçün maksimum məbləğ 35 min manat təşkil edir. Hansı ki, bu da gənclərin sosial ipoteka kreditlərindən istifadəsini əngəlləyir.

8) Digər mənbələrdən maliyyə vəsaitlərinin cəlbi. Bu həm daxili həm də xarici mənbələrdən ola bilər.

Onu da qeyd etmək lazımdır ki, Azərbaycanda gənc ailələrə ipotekaların verilməsi qaydalarının sadələşdirilməsi gözlənilir. Belə ki, Gənclər və idman nazirliyi yetkililərinin açıqlamalarına görə "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramında gənclərin sosial problemlərinin həlli, məşğulluq məsələləri və gənc ailələrə ipoteka kreditlərin verilməsi ayrıca bənd kimi daxil edilib. Dəyişikliklərdən sonra bütün hallarda vətəndaşlarımız kifayət qədər sadə və asan şərtlərlə uzunmüddətli və aşağı faizlərlə kredit götürmək imkanı əldə edəcəklər.

İPOTEKA KREDİTİNİN VERİLMƏSİNİN HÜQUQİ ASPEKTLƏRİ

Hüseynova N.E.
Azərbaycan Dövlət İqtisad Universiteti

İstənilən iqtisadi prosesin və ya fəaliyyətin həyata keçirilməsi üçün ilk və ən vacib faktor hüquqi bazanın formalaşdırılması hesab edilir. Təbii ki, Azərbaycanda ipoteka kreditləşməsinin həyata keçirilməsi, prosesin təmin edilməsi və məqsədliliyi qanunlar, hüquqi aktlar və sərəncamlarda öz əksini tapıb.

Azərbaycan respublikasında ipoteka ilə əlaqəli münasibətlər aşağıdakı qanunlar vasitəsi ilə tənzimlənir:

- İpoteka haqqında Azərbaycan Respublikasının Qanunu;
- Azərbaycan Respublikasının Mülki Məcəlləsi;
- Daşınmaz əmlakın dövlət reyestri haqqında Azərbaycan Respublikasının Qanunu;
- Dövlət rüsumu haqqında Azərbaycan Respublikasının Qanunu.

Bundan əlavə, ipoteka sisteminin təkmilləşdirilməsi haqqında ölkə prezidentinin fərmanları (Azərbaycan Respublikasında ipoteka kreditləri sisteminin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı, Azərbaycan Respublikasının Mərkəzi Bankı nəzdində Azərbaycan İpoteka Fondu haqqında Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan respublikası Prezidentinin Fərmanı, Azərbaycan Respublikasında ipoteka kreditlərinin verilməsi mexanizminin təkmilləşdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı, Azərbaycan Respublikasında güzəştli ipoteka kreditləri verilməsi Qaydalarında dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı), Nazirlər Kabinetinin qərarları (İpoteka kağızının formasının təsdiq edilməsi barədə Nazirlər Kabinetinin Qərarı, İpoteka kağızının dövlət qeydiyyatı Qaydalarının təsdiq edilməsi haqqında Nazirlər Kabinetinin Qərarı) və sair normativ hüquqi aktlarla yanaşı, Azərbaycan respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr də ipoteka qanunvericiliyinin predmeti hesab edilir. Bu qanun və fərmanlarla yanaşı Azərbaycanda ipoteka kreditlərinin verilmə qaydaları, yenidən maliyyələşdirmə, güzəştli ipoteka şərtləri, ilkin qiymətləndirici və sığorta şirkətləri ilə münasibətlər AİF-in normativ sənədləri və təlimatları ilə tənzimlənir.

Ölkə prezidentinin 15 aprel 2005-ci il tarixli fərmanı ilə qüvvəyə minən "İpoteka Haqqında Azərbaycan Respublikasının Qanunu" ölkə vətəndaşlarına ilk dəfə ipoteka kreditlərindən istifadə imkanı yaratdı. Bu qanun ipoteka kreditləşməsinin ilkin şərtlərini müəyyənləşdirməkdə baza sənədi hesab edilir. Belə ki, qanunda ipoteka predmetinin və xüsusiyyətlərinin müəyyən edilməsi, tərəflərin hüquq və vəzifələrinin müəyyənləşdirilməsi, ipotekanın növləri, istifadə hüquqları, dövlət qeydiyyatına alınması və qeydiyyata xitam verilməsi qaydaları kimi əsas prinsipləri əksini tapıb. Qanun 7 fəsil və 59 maddədən ibarətdir.

Bu qanunun 6-ci maddəsi ipoteka predmeti olaraq dövlət reyestr xidmətində aktiv mülkiyyət hüququ təsdiqlənmiş daşınmaz əmlakdan istifadə edilməsini şərtləndirir. Qanun həmçinin, bölünməsi mümkün olmayan əşyaların hissə-hissə ipotekasını qadağan edir. Lakin bir neçə əşya borcalanın razılığı ilə eyni zamanda ipoteka predmeti hesab edilə bilər. Yəni, qanunla ümumi ipotekaya icazə verilir. Bununla yanaşı, bu qanun müqavilədə xüsusi qeyd olmadığı halda tərəflərin razılığı əsasında ipoteka

predmetinin dəyişdirilə bilməsinə imkan yaradır. (Maddə 6.5: İpoteka müqaviləsində ayrı qayda nəzərdə tutulmayıbsa, ipoteka predmeti ipoteka saxlayanın razılığı ilə dəyişdirilə bilər. Bu halda ipoteka müqaviləsində dəyişikliklər edilir.) Qanunda ümumi mülkiyyət hüququ olan əmlakın ipotekaya qoyulması yalnız digər mülkiyyətçilərin notarial qaydada razılığı olduqda mümkün hesab edilir. (Maddə 8.1: Ümumi birgə mülkiyyətdə olan əşya bütün mülkiyyətçilərin notariat qaydasında təsdiq olunmuş razılığı ilə ipotekaya qoyula bilər.)Bununla belə, ümumi paylı mülkiyyətin iştirakçısı öz payını digərlərinin razılığı olmadan ipoteka etdirə bilər.

Qanunun 7-ci maddəsində ipotekanın xüsusiyyətləri müəyyənləşdirilir. İpotekanın xüsusiyyətləri dedikdə, ipotek etdirilən əmlakın üzərində olduğu torpaq sahəsinin də ipoteka predmeti olması, gələcəkdə yaranmış problemlərdən doğan ipoteka predmetinə tutmanın əmlakın yerləşdiyi torpaq sahəsinə də aid olması kimi hüquqi tələblər nəzərdə tutulur. Bundan başqa, ipoteka haqqında qanun borcalana 3-cü tərəfin irəli sürdüyü hər hansı iddianın qarşılığı vətəndaşa məxsus digər mülklərlə ödənilə bilmədikdə ipoteka predmetinə tələb yalnız kreditin digər hissəsi borcverən tərəfə ödənildikdən sonra müzakirə mövzusu ola biləcəyinə imkan verir. Başqa sözlə, ipoteka predmeti ipoteka krediti üzrə öhdəliklər tamamilə yerinə yetirildikdə yenidən aktiv əmlaka çevrilir.

Bütün bu sadalanan şərtlərin ipoteka müqaviləsində əks olunması məcburidir. Çünki borcalan və borcverən arasındakı gələcək münasibətlərin əsas istinad yeri və ya hüquqi tərəfləri yalnız ipoteka müqaviləsində razılaşdırıldığı kimi olur. İpoteka müqaviləsi isə aidiyyatı dövlət qurumu tərəfindən qeydiyyata alındığı andan qüvvəyə minir. Daşınmaz əmlakın ipotekası zamanı tərəflər arasında bağlanan müqavilə daşınmaz əmlakın dövlət reyestrində qeydə alınmalıdır. Müqavilə dövlət qeydiyyatına alındığı zaman ipotekanın predmeti, əsas öhdəliyin mahiyyəti, icra müddəti və ipoteka saxlayan barədə məlumat ətraflı şəkildə qeyd edilir. Əgər müqavilədə ipoteka kağızının verilməsi nəzərdə tutulubsa, dövlət qeydiyyatına alınan zaman bu informasiyanın da qeyd edilməsi məcburi tələblər sırasındadır. Qanunvericilikdə ipoteka müqaviləsinin qeydiyyata alınmasından imtina halları ilə bağlı sənədlərdə çatışmazlığın olması, ipoteka etdirənin həmin mülkiyyət üzərində sərəncam vermə səlahiyyətinin olmaması və yaxud qanunla məhdudlaşdırılması, bəhs olunan əmlakla əlaqədar məhkəmə mübahisəsinin olması kimi hüquqi əngəllər hesab edilir. Lakin qeydiyyatdan imtina son deyil. Belə ki, imtina qərarını aldıqdan sonra imtina səbəbini aradan qaldıraraq əmlakı yenidən ipotek etdirmək olar. Bundan başqa, vətəndaş ipotekanın dövlət qeydiyyatından imtinanı əsassız hesab edirsə, inzibati qaydada məhkəməyə müraciət edə bilər. Yeri gəlmişkən, onu da qeyd etmək lazımdır ki, ipotekanın dövlət qeydiyyatının ləğvi qanunvericiliyə uyğun olaraq ipoteka saxlayanın ərizəsi və yaxud da məhkəmənin qərarı əsasında baş verə bilər. İpoteka müqaviləsi dövlət qeydiyyatına alınan zaman dövlət rüsumunu ipoteka qoyan tərəf ödəyir.

Yuxarıda da qeyd olunduğu kimi, ipoteka münasibətləri Azərbaycan Respublikası Mülki Məcəlləsi və "İpoteka haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir. Hər iki normativ hüquqi aktın müddəaları arasında bir sıra ziddiyyətlər mövcuddur. Məsələn, Mülki Məcəllə ilə ipoteka predmetinə daşınmaz əşyalarla yanaşı, dövlət qeydiyyatından keçən daşınar əşyalar da aid edildiyi halda, "İpoteka haqqında" Qanunda ipoteka predmetinə yalnız daşınmaz əşyalar daxildir. Digər əşyalar isə girov anlayışlarına daxil edilir. Mülki Məcəllə ilə ipoteka müqaviləsinin mütləq notariat qaydasında təsdiqi tələb olunursa, "İpoteka haqqında" Qanunda ipoteka müqaviləsinin notariat qaydasında təsdiqi tələb olunmur. Qanunvericilik texnikası baxımından eyni hüquq münasibətlərinin ayrı-ayrı normativ aktda tənzimlənməsi də arzuolunmazdır və bu, yeni "İpoteka haqqında" qanunun hazırlanmasını şərtləndirir.

AZƏRBAYCANDA QİYMƏTLİ KAĞIZLAR BAZARI, İQTİSADİYYATIN DAVAMLI İNKİŞAFINDA ONUN ROLU

Həsənzadə F.M.
Azərbaycan Dövlət İqtisad Universiteti

Qiymətli kağızların reytinq qiymətləndirmə modelinin tətbiqi ilə əlaqədar aparılan təhlilləri ümumiləşdirərək belə nəticəyə gəlmək olar ki, müasir şəraitdə kapital yığımının səviyyəsini, onun artımını və ölkə daxilində ayrı-ayrı sahələr arasında bölüşdürülməsini əks etdirən qiymətli kağızlar bazarı hər bir ölkə iqtisadiyyatının mühüm tərkib hissəsidir. Belə ki, maliyyə bazarının tərkib hissəsi kimi qiymətli kağızlar bazarı maliyyə resurslarının hərəkətini təşkil etmək, onların düzgün istiqamətləndirilməsini təmin etmək, dövlətin maliyyə və pul-kredit siyasətinin əsas aləti kimi çıxış etmək

və s. baxımından iqtisadiyyatın inkişafında mühüm rol oynayır. Xüsusilə də bazar iqtisadiyyatı sistemli ölkələr üçün bu bazarın inkişafı müstəsna əhəmiyyət kəsb edir.

İqtisadiyyatda mövcud olan digər bazar növləri kimi qiymətli kağızlar bazarının özünün iştirakçıları, alətləri, tənzimləmə formaları və istiqamətləri mövcuddur. Qiymətli kağızlar bazarında fəaliyyət göstərən qiymətli kağızların sayı, forma və prinsip müxtəlifliyi onlara aparılan əməliyyatların sayının və formalarının çox olmasına səbəb olur. Qiymətli kağızlar bazarında aparılan əməliyyatların böyük əksəriyyəti istiqraz və səhmlər payına düşür. Çünki, maliyyə vəsaitlərini artırmaq məqsədilə şirkətlər ya səhmlərin satılması ya da istiqrazların buraxılması yolu ilə əldə edirlər. Məhz bu səbəbdən bu iki növ qiymətli kağız investisiya qiymətli kağızlar adlanır və onların reytinqinin təyini və qiymətləndirilməsi mühüm əhəmiyyət kəsb edir.

Səhmlərin qiymətlərinin formalaşması səhmləri buraxan şirkətlərin ümumi maliyyə-iqtisadi durumu ilə qarşılıqlı əlaqəlidir. Belə ki, əgər müəssisənin maliyyə sistemi qənaətbəxş hesab olunursa, investorlar həmin müəssisənin səhmdarı olmağa can atırlar ki, bu da həmin səhmə olan tələbin həcmin artmasına və səhmin qiymətinin yüksəlməsinə səbəb olur. Və yaxud da əksinə, maliyyə vəziyyəti pis olan müəssisənin səhmlərini almaq istəyənlərin sayının az olması həmin səhmlərə olan tələbin azalmasına səbəb olur ki, bu da qiymətin azalması ilə nəticələnir.

Qiymətli kağızlar bazarında qiymətlərin yuxarıda qeyd olunan dəyişiklərini izləmək və qeyd etmək üçün səhm indekslərindən istifadə olunur. Səhm indeksləri müxtəlif beynəlxalq birjalarında qiymətlərin son satış – bağlanış qiymətlərini əks etdirir. Bu indekslərin qiymətlərinin formalaşmasında bazarın fundamental elementləri – tələb və təklif ilə yanaşı digər amillər də mühüm rol oynayır. Bu amillər iqtisadi, siyasi, psixoloji faktorlar, şayiə və ümidlər, fors-major hallarıdır. Digər tərəfdən də obyektiv səbəblər xaricində digər faktorlarda vardır ki, qiymətli kağızlar bazarında qiymətlərin səviyyəsinə təsir göstərir. Bu təsirlərin qarşısının alınması və bazarlara nəzarət olması üçün xüsusi qurumlar mövcuddur ki, həmin qurumlar sözügedən bazara dair ümumi normativ hüquqi bazanı və qaydaları müəyyən edir və Qiymətli kağızlar bazarının tənzimlənməsini göstərilən çərçivədə həyata keçirilir. Azərbaycan Respublikasında bu siyasətin həyata keçirilməsi və nəzarət Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi tərəfindən təmin olunur.

Qiymətli kağızlar bazarına dair araşdırmada müəyyən olunan məsələrdən biri də müxtəlif növ qiymətli kağızların qiymətlərinin formalaşmasıdır. Belə ki, qiymətli kağızların xüsusiyyətlərinin müxtəlif olması onların qiymətlərinin formalaşma mexanizmlərinin müxtəlifliyinə səbəb olur. Bu istiqamətdə səhmlərin qiymətləri üzrə bir səhmə düşən gəlirin artırılması və səhm Splitinin tətbiqi səhmlərin nominal qiymətlərinin yüksəldilməsinə səbəb olur.

Qiymətli kağızlar bazarı üçün mühüm aspektlərdən biri də qiymətli kağızların qiymətlərinin gələcəkdə dəyişilmə meylləridir. Bunu müəyyən etmək üçün qiymətlərin proqnozlaşdırılması həyata keçirilir. Proqnozlaşdırma üç istiqamətdə müxtəlif strategiyalar vasitəsi ilə həyata keçirilir. Bu metodlar ekstrapolyasiya, ekspert qiymətləndirmə, riyazi-hesablama üsullarıdır ki, bunlardan birgə istifadə etdikdə qiymətlərin dinamikası haqqında əsaslandırılmış fikir yürütmək mümkün olur.

Qiymətlərin dəyişilməsinin müxtəlif aspektlərinə uyğun olaraq qiymətlərin proqnozlaşdırılması zamanı müxtəlif proqnozlaşdırma strategiyalarından istifadə olunur. Bu strategiyaların hər biri qiymətlərin gələcəkdə hansı formada dəyişilə bilmə imkanlarını özündə əks etdirir.

Fikrimcə ölkəmizdə qiymətli kağızlar bazarının inkişafını daha sürətləndirmək üçün aşağıdakı tədbirlər kömək edə bilər:

1.Müvafiq qurumlarla birlikdə qiymətli kağızlar bazarında vergitutma məsələlərinin təkmilləşdirilməsi, dünya təcrübəsində istifadə olunan və investisiyaların artımı üçün əlverişli mühitin yaradılması baxımından tətbiq edilməsi zəruri hesab olunan vergi güzəştlərinin hazırlanmasının həyata keçirilməsi.

2.Respublikamıza xarici kapitalın cəlb olunması, neft və qeyri-neft sektorunun inkişafı, dövlət əhəmiyyətli iri layihələrin maliyyələşdirilməsi üçün avroistiqrazların buraxılması, eləcə də respublikamızda dövlət və qeyri-dövlət qiymətli kağızlarının dünyanın ən inkişaf etmiş fond bazarlarına çıxışının təmin olunması.

3.Korporativ idarəetmə sahəsində xarici təcrübədən daha geniş istifadə edilməsi.

4.Fond birjasında təhlillərin aparılması sahəsində peşəkar iştirakçıların bilik və bacarıqlarının artırılması istiqamətində təlimlərin təşkili.

5.İnfrastruktur layihələrinin həyata keçirilməsində qiymətli kağızlardan maliyyələşdirilmədən istifadə.

Qeyd edilən tədbirlərin həyata keçirilməsi ölkəmizdə daha da inkişaf etmiş və təkmilləşmiş qiymətli kağızlar bazarının yaranmasına və iqtisadiyyatın artım tempinin sürətlənməsinə şərait yaradar.

BÜDCƏ XƏRCLƏRİ VƏ ONLARIN MALİYYƏLƏŞDİRİLMƏSİ SİSTEMİ

Balaxanova L.M.
Azərbaycan Dövlət İqtisad Universiteti

Büdcə maliyyələşdirilməsinin mühüm elementi büdcədən vəsaitin verilməsi metodlarıdır. Bu metodların köməyilə maliyyə orqanları tərəfindən büdcədə nəzərdə tutulmuş tədbirlər pul vəsaiti ilə təmin edilir, maliyyə resurslarının bölüşdürülməsində mövcud proporsiyalar tənzimlənir.

Büdcə vəsaiti nazirliklərə, idarə və müəssisələrə istehsalın genişləndirilməsilə əlaqədar xərclərə (kapital qoyuluşu), sadə təkrar istehsalın təmin edilməsinə (subsidiya, dotasiya və transfertlər), əməliyyat və s. məqsədlərə verilir. Xalq təsərrüfatının maliyyələşdirilməsinə xərclər nazirlik, idarə və müəssisələr üzrə planlaşdırılır və eyni zamanda məqsədli təyinatı üzrə nəzərdə tutulur.

Büdcə vəsaitinin xeyli hissəsi xalq təsərrüfatının üstün sahələrinə ayrılır ki, buna da yanacaq sənayesi, energetika, kənd təsərrüfatı, nəqliyyat və s. sahələri aid etmək olar.

Büdcə vəsaitinin məqsədli sitifadəsi baxımından iqtisadiyyatın inkişafı üçün kapital qoyuluşunun maliyyələşdirilməsi xərcləri daha böyük əhəmiyyət kəsb edir. Kapital qoyuluşunun maliyyələşdirilməsi-istehsal və qeyri-istehsal təyinatlı yeni əsas fondların yaradılması və fəaliyyətdə olan fondların genişləndirilməsinə pul vəsaitinin verilməsidir.

Xalq təsərrüfatının maliyyələşdirilməsi xərclərinin mühüm istiqaməti hüquqi şəxslərə müxtəlif subsidiyaların, dotasiya və subvensiyaların ödənilməsidir. Bu vəsaitlər dövlət, bələdiyyə və özəl müəssisələrin müxtəlif cari xərclərini və zərərlərin örtmək üçün ayrılır. Vəsaitin əsas hissəsi energetikaya, iqtisadiyyatın digər sahələrinə yönəldilir.

Sosial ehtiyaclara xərclər dövlətin sosial funksiyalarını yerinə yetirilməsi ilə əlaqədardır. Bu xərclər aşağıdakı əsas qruplara bölünür:

1) təhsilə;
2) mədəniyyət, incəsənət və kinoya;
3) kütləvi informasiya vəsitələrinə;
4) səhiyyə və bədən tərbiyəsinə;
5) sosial siyasətə.

Sosial ehtiyaclara xərclər smeta planlaşdırılması prinsipi əsasında müəyyən edilir. Büdcə təşkilatlarının smetaları üzrə xərclərin hesablanmasının əsasını onların fəaliyyət göstəricilərinin (şagirdlərin, tədris qruplarının, siniflərinin, siniflərinin sayı, çarpayıların sayı və s) həcmi, təşkilatın il ərzində fəaliyyət müddəti və maliyyə normaları təşkil edir.

Büdcə vəsaitlərinin xərclənməsinin əsas prinsipi- onların təyinatı və vaxtına görə ciddi nizama salınmasıdır. Büdcə təşkilatlarının pul vəsaitini smeta nəzərdə nəzərdə tutulmayan məqsədlərə istifadə etməyə hüququ yoxdur. Xərclər smetası büdcə təşkilatının maliyyə planıır. Smeta büdcə təşkilatının saxlanması üçün büdcədən ayrılan vəsaitin illik məbləğini, rüblük bölgüsünü və məqsədli təyinatını əks etdirir.

Büdcənin icrası onun xərclərinin gəlirlər hesabına tam ödənilməsini nəzərdə tutur. Büdcə gəlirlərinin onun xərclərindən artıq olması büdcə profisiti adlanır. Büdcə qanunvericiliyinə əsasən bütün səviyyəli büdcələr profisitsiz tərtib edilməlidir. Əgər büdcənin tərtibi və təsdiqi prosesində gəlirlərin xərclərdən artıqlığı aşkar edilərsə, büdcə təsdiq olunanadək profisitin aşağıdakı ardıcıllıqla ixtisar edilməsi həyata keçirilməlidir:

1) Dövlət və bələdiyyə mülkiyyətinin satışından gəlirlərin cəlb edilməsi ixtisar edilməli;
2) Dövlət ehtiyatlarının satışından gəlirlərin cəlb edilməsi ixtisar edilməli;
3) Büdcə vəsaitlərinin borc öhdəliklərinin əlavə ödənilməsinə yönəldilməsinə yenidən baxılmalı;
4) Büdcənin xərclərini, o cümlədən gəlirlərin bir hissəsinin digər səviyyəli büdcələrə verilməsi hesabına artırılmalı.

Büdcə maliyyələşdirilməsinin iqtisadi göstəricilərin yerninə yetirilməsindən asılılığı maliyyə orqanlarına müəssisə, təşkilat və idarələrin fəaliyyətinə təirli və səmərəli nəzarət həyata keçirməyə imkan verir.

MÜƏSSİSƏNİN MALİYYƏ MEXANİZMİ VƏ ONUN TƏKMİLƏŞDİRİLMƏSİ

Yusifzadə P.R.
Azərbaycan Dövlət İqtisad Universiteti

Müəssisə və təşkilatların maliyyəsi əmtəələrin istehsalı və xidmətlərin göstərilməsində birbaşa iştirak edir. ÜDM və milli gəlir istənilən dövlətin mövcudluğunun təminatı olduğundan müəssisələrin maliyyəsinin əhəmiyyətinin nə dərəcədə böyük olduğunu başa düşmək çətin deyildir.

Maliyyə sisteminin tərkib hissəsi olmaqla, müəssisələrin maliyyəsi ümumi daxili məhsulun yaradılması, bölgüsü və istifadəsi proseslərinin dəyər formasındakı ifadəsini əks etdirir. Maliyyə münasibətləri əsasən məcmu ictimai məhsulun və milli gəlirin yarandığı maddi istehsal sahələrində baş verir. Müəssisələrin maliyyəsi müəssisədə gəlirlərin və yığımın yaradılması, bölüşdürülməsi və istifadəsi proseslərində meydana çıxan pul münasibətlərinin məcmusunu ifadə edir və o, geniş təkrar istehsalın fasiləsizliyinin təmin edilməsinin mühüm şərtidir. Müəssisələrin maliyyəsi-təsərrüfat subyektlərində pul fondlarının və yığımlarının formalaşdırılması, bölüşdürülməsi və geniş təkrar istehsal xərclərinin maliyyələşdirilməsi, maliyyə-bank sistemi qarşısında öhdəliklərin yerinə yetirilməsi, işçilərin maddi stimullaşdırılması və sosial təminatüzrə istifadəsi ilələlaqədar yaranan iqtisadi münasibətlərdir.

Müəssisələrin maliyyəsinin düzgün idarə olunması onların maliyyə vəziyyətinin yaxşılaşmasına səbəb olur ki, bu da öz növbəsində onun debitor və kreditorlarının da maliyyə vəziyyətini yaxşılaşdırır. Bu effekt avtomatik olaraq maliyyə sisteminin digər həlqələrinə təsir edir. Çünki digər həlqələr bir növ müəssisələrin maliyyəsi ilə qidalanır.

Müəssisələrin maliyyəsinin miqdarca və keyfiyyətcə yüksəlməsi işsizlik, inflyasiya və ÜDM-un artımı kimi makroiqtisadi indikatorların müəyyənləşdirilməsində böyük rol oynayır. Artıq neçə ildir ki, respublikamızda fəaliyyət göstərən müstəqil təsərrüfat subyektlərinin müəssisə maliyyəsinin idarə olunmasında təcrübələri artır və bu da onların sayının artmasına, miqyaslarının genişlənməsinə, mənfəətlərinin yüksəlməsinə səbəb olur. Müəssisələrin düzgün maliyyə mexanizminin seçilməsi nəinki onların sayının artmasına, mənfəətlərinin çoxalmasına, həm də onlara qoyulan daxili və xarici investisiyaların həcminin artmasına səbəb olur.

Bazar iqtisadiyyatışəraitində müəssisələrin maliyyə mexanizminin öyrənilməsi, bu sahədə mövcud problemlərin araşdırılması və onun təkmilləşdirilməsi olduqca böyük əhəmiyyət kəsb edir.

Bu baxımdan müasir dövrdə müəssisələrin maliyyə mexanizmlərinin təkmilləşdirilməsiüzrə aşağıdakıların həyata keçirilməsi məqsədəuyğun olardı:

- Sahibkarlıq fəaliyyətinin qarşısında duran bütün inzibati maneələrin aradan qaldırılması;
- Vergilər sahəsində mövcud qanunvericiliyin sadələşdirilməsi, prioritet sahələrin inkişafının stimullaşdırılması məqsədi ilə vergi güzəştlərinin, azadolmaların tətbiqinin davam etdirilməsi;
- Müəssisələrin əlavə maliyyə vəsaiti mənbələri hesab olunan kreditlər üzrə faiz dərəcələrinin bir qədər aşağı endirilməsi onların maliyyə vəziyyətini yaxşılaşdırmaq istiqamətində atılmış mühüm addım olardı;
- Respublikanın maliyyə fəaliyyəti sahəsində mövcud qanunvericilik bazasının daha da təkmilləşdirilməsi və bu sahədə beynəlxalq təcrübənin tətbiqi;
- Elmi – texniki tərəqqinin son nailiyyətlərinin, innovasiyaların tətbiqinə ciddi fikir verilməsi və s.

REGİONLARIN SOSİAL-İQTİSADİ İNKİŞAFINDA VERGİ AMİLİNİN ROLU

Atakişiyev F.H.
Azərbaycan Dövlət İqtisad Universiteti

İqtisadiyyatı sabit və sürətlə inkişaf etdirmək mənafeyi respublikanın inkişafı qarşısında strateji məqsəd və vəzifələr qoyulmasını və onun yerinə yetirilməsinin regionların inkişafı ilə düzgün əlaqələndirilməsini obyektiv zərurətə çevirir. Başqa sözlə, Azərbaycanda bazar iqtisadiyyatının tələblərinə cavab verən və yerli şəraiti nəzərə alan dövlət regional inkişaf siyasəti aparılması və müvafiq dövlət tənzimləmə mexanizminin formalaşması vacibdir.

Cədvəl 1.Qeyri-neft ÜDM-nin dinamikası (mln. manat)



Mənbə: Statistika Komitəsinin rəsmi internet səhifəsi

Ölkə prezidenti İlham Əliyevin 11 fevral 2004-cü il tarixli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Rsepublikası regionlarının sosial-iqtisadi inkişafının Dövlət Proqramı» (2004-2008 -ci illər) və 14 aprel 2009-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasıregionlarının2009-2013-cü illərdəsosial-iqtisadi inkişafı Dövlət Proqramı" ölkənin sosial-iqtisadi inkişafı üçün çox mühüm əhəmiyyət kəsb etməklə yanaşı sahibkarlığın regionlar üzrə inkişafının reallaşdırılması baxımından ölkə üzrə kompleks tədbirləri əhatə edir. 10 iqtisadi rayon üzrə tərtib edilmiş Dövlət Proqramında Azərbaycan Respublikasının regionlarının investisiya xəritəsi dəqiq göstərilmiş, regional təşviq mexanizmləri müəyyən edilmiş və bunların reallaşdırılması mənbələri dəqiqləşdirilmiş, regional infrastrukturunun yaradılması və inkişafı istiqamətində həyata keçiriləcək tədbirlər öz əksini tapmışdır. Bu proqram yerinə yetirildiyi təqdirdə «Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının sürətləndirilməsi tədbirləri haqqında» prezident fərmanının icrasının ümumi istiqamətidir. Bu proqram həm də regionların sosial-iqtisadi inkişafının stimullaşdırılması tədbirləri məcmusudur.Bütün bunlar göstərir ki, Dövlət Proqramının qəbulundan ötən bir il ərzində onun icrası ilə bağlı bütün sahələr üzrə həyata keçirilmiş tədbirlər kompleksi regionlarımızın inkişafına təkan verməkdədir. Bu nailiyyətlər iqtisadiyyatın bütün sahələrini əhatə etməklə özünü makroiqtisadi göstəricilərin artımında da göstərmişdir. Belə ki, 2013-cu ildə Azərbaycanda ümumi daxili məhsulun (ÜDM) real artımı 2012-ci illə müqayisədə 9.3% təşkil edərək, cari qiymətlərlə 50,8 mlrd. manata çatmışdır. Əhalinin hər nəfərinə düşən ÜDM-nin real həcmi isə 2012-ci illə müqayisədə 7.9% artaraq cari qiymətlərlə 3917.3 manat (4874.1 ABŞ dolları) təşkil etmişdir. ÜDM-nin 64.1%-i iqtisadiyyatın istehsal, 28.3%-i xidmət sahələrinin payına düşmüş və bu sahələrdə real artım müvafiq olaraq 10% və 9.1% təşkil etmişdir.Digər tərəfdən, Ötən ildə neft-qaz sektorunda real artım 14.3%, qeyri-neft sektorunda isə 3.2%olmuşdur.

Proqramda qarşıya qoyulmuş vəzifələrdən biri də əhalinin məşğulluğunun təmin edilməsi üçün 600 min yeni iş yeri açılacaq. Belə bir mülahizə də vardır ki, 600 min iş yeri açmaq çoxlu vəsait və vaxt tələb edir. Bu beşillikdə buna nail olmaq çətindir. Amma nəzərə almaq lazımdır ki, yeni iş yerlərinin xeyli hissəsi keçmişdə tikilmiş, indi fəaliyyət göstərməyən, yaxud çox aşağı səviyyədə işləyən ixtisaslaşmış böyük istehsal müəssisələrinin (qara və əlvan metallurgiya, kimya, toxuculuq, maşınqayırma, ipəkçilik və i. a.), istehsal və sosial infrastruktura sahələrinin yeni əsaslarla bərpası və yenilərinin işə salınması hesabına olacaqdır. Artıq çoxsaylı istehsal sahələri yaradılmış, minlərlə iş yeri açılmışdır. Belə ki,1 oktyabr 2003-cü ildən 1 yanvar 2013-cu il tarixinədək 766277 yeni iş yeri açılmışdır ki, bunu da 547573-ü daimidir. Dövlət Proqramının regionların sosial-iqtisadi tərəqqisinə xidmət edən, real vəziyyətə uyğun hazırlanan və obyektivliyi əks etdirən təkmil sənəd olmasını yeni açılmış iş yerlərinin ümumi sayının

80%-i regionların payına düşməsi əks etdirilir. Yeni iş yerlərinin 87%-nin qeyri-dövlət sektorunda yaradılması isə sahibkarlara yaradılmış əlverişli şəraitin və onlara göstərilən dövlət qayğısının məntiqi nəticəsidir. Ümumilikdə isə son 6 il ərzində 840 min yeni iş yeri açılmış, 32886 yeni müəssisə fəaliyyətə başlamışdır. 2009-cu ildə ölkə üzrəyoxsulluq səviyyəsi 11%-ə enmişdir. Daimi iş yerlərinin 30,8%-i yeni yaradılmış , 33,4%-i mövcud, 5,8%-i fəaliyyəti bərpa edilmiş müəssisələrdə, 30%-i isə fiziki şəxslərdə açılmışdır. Dövlət proqramına əsasən vergi sahəsində əsasən üç istiqamətdə tədbirlər həyata keçirilməsi nəzərdə tutulub.

Birinci istiqamət vergi dərəcələrinin optimal həddən azaldılmasıdır. Qeyd olunan tədbir üzrə artıq bir sıra iş görülmüşdür. Belə ki, 1 yanvar 2004-cü il tarixindən hüquqi şəxslərin mənfəət vergisinin dərəcəsi 25%-dən 20%-ə endirilmiş, maliyyə lizinqi xidmətləri ƏDV-dən azad edilmiş, habelə, maliyyə lizinqi olan əmlak üçün müvafiq amortizasiya normaları 2 dəfəyədək artırılmışdır. Bu istiqamətin məqsədi vergitutma bazasının genişləndirilməsinə, iqtisadiyyata investisiya qoyuluşunun stimullaşdırılmasına, sahibkarlıq fəaliyyətinin inkişafı üçün əlverişli şəraitin yaradılmasına xidmət etsin.

İkinci mühüm istiqamət vergi tətillərinin tətbiqinin davam etdirilməsidir. Dövlət proqramı birbaşa regionların iqtisadi inkişafına yönəldiyindən vergi qanunvericiliyində bölgələrdə fəaliyyət göstərən sahibkarlar üçün bir sıra güzəşt və azadolmalar nəzərdə tutulmuşdur. Belə ki, kənd təsərrüfatı məhsulları istehsalçıları daha 5 il müddətinə torpaq vergisindən başqa digər vergilərdən azad olunmuşdur.(2014-cü ilə qədər)

Üçüncü istiqamət vergi ödəyicilərinin vergi qanunvericiliyinin tətbiqi ilə bağlı məlumatlandırılması və maarifləndirilməsi, sahibkarlar üçün məsləhət, informasiya təminatı, marketinq və digər xidmətlərin gücləndirilməsidir.

BEYNƏLXALQ MALİYYƏ BAZARLARI

Məmmədov V.Q.
Azərbaycan Dövlət İqtisad Universiteti

Maliyyə bazarı — əmanət toplayanların vəsaitlərini birbaşa borc götürənlərə təqdim edilməsinə şərait yaradan maliyyə institutlarıdırlar. Maliyyə bazarının yaranması zəruriliyinin əsas amillərindən biri maliyyə ehtiyatlarının qeyri-bərabər bölgüsüdür. Çünki bu bölgü zamanı müəssisələrin bir qismində maliyyə ehtiyatlarının artıqlığı, digər qismində isə maliyyə ehtiyatlarının çatışmamazlığı özünü büruzə verir. Bu zaman maliyyə ehtiyatlarının bir müəssisədən digərinə doğru hərəkətinin təmin edilməsinin mühüm forması kimi maliyyə bazarı çıxış edir. Deməli, maliyyə bazarı pul vəsaitlərinin sahiblərindən ehtiyacı olanlara doğru yönəldilməsində vasitəçi rolunu oynayır. Müasir şəraitdə maliyyə bazarı aşağıdakı funksiyaları həyata keçirir:

— pul vəsaitlərini bir mülkiyyətçidən (kreditordan) digərinə (borclarına), yəni pula ehtiyacı olanlara hərəkətini təmin etmək; təcrübədə o, özünü müvəqqəti sərbəst pul vəsaitlərinin və qiymətli kağızların alqı — satqısı, maliyyə ehtiyatlarının bölgüsü ilə əlaqədar iqtisadi münasibətləri ifadə edir. Hazırda dünya miqyasında maliyyə vəsaitlərinin böyük hissəsi maliyyə bazarı vasitəsilə bölüşdürülür;

— bazarda alıcı ilə satıcının birbaşa görüşməsi zamanı satışa çıxarılan aktivlərin real bazar qiymətləri müəyyən olunur. Burada həmçinin aktivlərin geri ödənməsi səviyyəsi, onun müddətləri müəyyənləşdirilir;

— maliyyə bazarı investorlar üçün pulların ən səmərəli istiqamətlərə yerləşdirmək üçün yer, imkan və şərait yaradır. Bu vaxt nəinki ölkə, hətta bütün dünya üzrə seçmə imkanı yaranır. Bu isə firmalar üçün ən sərfəli qiymətlə maliyyə mənbəyi tapmağa imkan verir;

— Qızıl bazarı – qızılın həm yığım və ölkənin qızıl ehtiyatlarının artırılması və həm də biznesi təşkil etmək və sənaye istehlakı məqsədilə alqı-satqısı ilə əlaqədar olan iqtisadi münasibətlər sferasıdır. Dünya qızıl bazarlarına misal olaraq London, Sürix, Nyu-York, Çikaqo, Honkonqu misal göstərmək olar. Kapital bazarı maliyyə bazarının ümumən pul bazarına və kapital bazarına bölgüsünün əsasında müvafiq maliyyə alətlərinin tədavül müddəti durur.Ssuda kapitalları bazarı – ssuda kapitalının dövriyyəsinin təmin edilməsi prosesində yaranan münasibətləri, yaxud da dövriyyənin təşkili formasını ifadə edir. Pay qiymətli kağızları – onun sahibinin mülkiyyətə sahib olmasını, təşkilatın nizamnamə kapitalında payını, mənfəətin bölgüsündə iştirakını və bir qayda olaraq bu təşkilatın idarə edilməsində iştirak etməsi hüququnu təsdiq edən sertifikatlardır. Maliyyə bazarının digər tərkib hissəsi qiymətli kağızlar bazarıdır. Maliyyə bazarına çox vaxt qiymətli kağızlar bazarı kimi baxırlar. Maliyyə bazarının qeyd

etdiyimiz bütün subyektləri bu bazarın iştirakçılarıdır. Qiymətli kağızlar bazarı bazar iqtisadiyyatının vacib atributlarından biridir. Hazırda qiymətli kağızlar bazarı olmayan dövlətdə yüksək səviyyədə inkişaf etmiş bazar iqtisadiyyatının mövcudluğundan danışmaq olmaz. Qiymətli kağızlar bazarı pul vəsaitlərinə olan tələbə təklifin qarşılıqlı əlaqədə olan münasibətlərindən ibarətdir. Qiymətli kağızlarla əməliyyatları başa çatdırmaqdan asılı olaraq qiymətli kağızlar bazarı spot və müddətli bazarlara bölünür.

Spot bazarında qiymətli kağızların pul vəsaitinə mübadiləsi praktiki olaraq sövdələşmə anında təcili olaraq həyata keçirilir. Müddətli bazarlarda ticarət müddətli sazişlə həyata keçirilir.Forvard bazarı – elə bir bazar növüdür ki, burada tərəflər onlarda həqiqətən mövcud olan qiymətli kağızların gələcəkdə müəyyən vaxtda son hesablaşmaq şərti ilə göndərilməsinə razılaşırlar.

Fyuçers bazarı – elə bir bazardır ki, burada gələcəkdə qiymətli kağızların və yaxud maliyyə bazarında real surətdə satılan digər maliyyə alətlərinin müəyyən müddətə göndərilməsi üzrə müqavilə ilə ticarəti həyata keçirilir.

Opsion bazarı – elə bazardır ki, burada müəyyən vaxt çərçivəsində müəyyən maliyyə alətlərinin (qiymətli kağızların) qabaqcadan təyin edilmiş qiymətlə alınıb-satılması hüququnu verən müqavilənin alqı-satqısı baş verir. Əvvəlcədən müəyyən edilmiş qiymət opsionun icra qiyməti adlanır.

Svop bazarı – qiymətli kağızlar sazişi iştirakçıları arasında müqavilələrin birbaşa mübadiləsi bazarıdır. Bu gələcəkdə müəyyən anda (və ya bir neçə anda) saziş iştirakçılarına iki maliyyə öhdəliyi ilə mübadilə etməyə təminat verir.

DÖVLƏT MALİYYƏ NƏZARƏTİ VƏ ONUN TƏKMİLƏŞDİRİLMƏSİ

Mitəlov R.Ə.
Azərbaycan Dövlət İqtisad Universiteti

Müstəqillik əldə etdikdən sonra Azərbaycanın sosial-iqtisadi quruluşunda və iqtisadiyyatın idarəedilməsi metodlarında baş verən köklü dəyişikliklər maliyyə-təsərrüfat fəaliyyətinin idarə edilməsinin mühüm aləti olan maliyyə nəzarətinin əsaslı olaraq yeniləşməsini zəruri etmişdir.

Ölkədə əvvəllər mövcud olan maliyyə nəzarəti sistemi dövlət mülkiyyətinin əsas rol oynadığı və inzibati-amirlik metodları ilə idarə edilən iqtisadiyyata istiqamətlənmişdi.

İqtisadiyyatın idarə edilməsinin, təsərrüfat fəaliyyətinin, demək olar ki, bütün tərəflərini reqlamentləşdirən inzibati-amirlik sisteminin ləğv edilməsi sovet dövründə təşəkkül tapmış maliyyə nəzarəti sisteminin əsaslarını ciddi dərəcədə sarsıtmışdı. Bu sistem cəmiyyətin tələbatına, sosial-iqtisadi reallıqlara cavab vermirdi və praktikada bir sıra neqativ hallar yaradırdı.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev, yeni iqtisadi vəziyyətin və dövlət idarəetmə prinsiplərinin dəyişməsinin dövlət maliyyə nəzarəti sisteminin yenidənqurulmasına və təkmilləşdirilməsinə ehtiyac yaratdığını nəzərə alaraq, bazar münasibətlərinə uyğun müvafiq dövlət nəzarəti mexanizmlərinin yaradılması, tətbiq edilməsi və inkişafında mühüm əhəmiyyət kəsb edən tədbirlər həyata keçirtdi.

Prezident tərəfindən imzalanan 17 iyun 1996-cı il tarixli 463 nömrəli "İstehsal, xidmət, maliyyə-kredit fəaliyyətinə dövlət nəzarətinin qaydaya salınması və əsassız yoxlamaların qadağan edilməsi barədə" və 07 yanvar 1999-cu il tarixli 69 nömrəli "Dövlət nəzarəti sisteminin təkmilləşdirilməsi və sahibkarlığın inkişafı sahəsində süni maneələrin aradan qaldırılması barədə" Fərmanlar dövlət nəzarəti sisteminin təkmilləşdirilməsi istiqamətində ilkin addımlar oldu.

Mövcud nəzarət sisteminin təkmilləşdirilməsi və nəzarət mexanizmlərinin bazar iqtisadiyyatının xüsusiyyətlərinə uyğunlaşdırılması istiqamətində qəbul olunan normativ hüquqi aktlar sırasına «Auditor xidməti haqqında» Azərbaycan Respublikasının Qanunu (16 sentyabr 1994-cü il), «Hesablama Palatası haqqında» Azərbaycan Respublikasının Qanunu (2 iyul 1999-cu il), «Azərbaycan Respublikasında korrupsiyaya qarsı mubarizənin gucləndirilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin fərmanını (8 iyun 2000-ci il) da aid etmək olar.

Bunun da nəticəsində Azərbaycanda beynəlxalq tələblərə cavab verə biləcək nəzarət sisteminin əsası qoyulmuşdur. Başqa sözlə, bir tərəfdən, nəzarətedici orqanların sayının azaldıldığı və səlahiyyətlərinin məhdudlaşdırıldığı halda, digər tərəfdən də sivil nəzarət institutlarına geniş yer verilmiş, onların inkişafına nail olunmuşdur.

Maliyyə şəffaflığının təmin edilməsi, nəzarətin müasir dövrün tələblərinə uyğun qurulması istiqamətində əsaslı işlər görülsədə, müəyyən problemlər və çatışmamazlıqlar da mövcuddur ki, onların aradan qaldırılması ümumi işin xeyrinə olardı.

Müasir şəraitdə maliyyə nəzarəti sferasında mövcud olan əsas problemlərdən biri maliyyə nəzarəti üzrə vahid qanunvericilik aktının və ya vahid konsepsiyanın olmamasıdır.

Maliyyə nəzarəti sisteminin effektiv fəaliyyətinin əsas problemlərindən biri də maliyyə-büdcə qanunvericiliyinin pozulmasına görə adekvat tədbirlərin kifayət qədər yumşaq olmasıdır. Təsadüfi deyildir ki, məhz bunları nəzərə alaraq Hesablama Palatasının sədri V.Gülməmmədov maliyyə-büdcə qanunvericiliyinin pozulmasına qarşı inzibati tədbirlərin gücləndirilməsini zəruri hesab edir.

Müasir şəraitdə nəzarət-maliyyə mexanizminin təşkilinin ən vacib problemləridən digəri isə müstəqil audit institutu ilə dövlət maliyyə nəzarəti arasında qarşılıqlı əlaqənin qurulması və onun beynəlxalq təcrübəyə əsasən təşkilinin təmin edilməsidir.

Maliyyə nəzarəti sahəsində mövcud olan problem və çatışmamazlıqların sırasına həmçinin maliyyə nəzarəti orqanları üçün qanunvericiliklə təsdiqlənmiş nəzarətin aparılmasının vahid norma, standart və qaydalarının hazırlanmamasını, nəzarət orqanları üçün kadr hazırlığının qənaətbəxş olmamasını və sairəni aid etmək olar.

Qeyd etdiyimiz təşkilati-struktur məsələlərin vaxtında həllindən, nəzarətin hüquqi və təşkilati strukturunun təkmilləşdirilməsindən, elmi tədqiqatların nəticələrinin uğurlu tətbiqindən dövlət maliyyə nəzarətinin vahid və effektiv sisteminin qurulması və fəaliyyəti, eləcə də bütövlükdə dövlətin uğurlu iqtisadi siyasəti bilavasitə asılıdır.

MALİYYƏ BİZNESİNİN FORMALAŞMASINDA KOMMERSİYA BANKLARININ ROLU

Musayeva A.E.
Azərbaycan Dövlət İqtisad Universiteti

Kommersiya fəaliyyətinin xüsusi növü olan maliyyə biznesi dedikdə insanın öz biliyi,bacarığı və kapitalından istifadənin köməyi ilə yüksək keyfiyyətli maliyyə xidmətlərinin göstərilməsi vasitəsi ilə puldan pul əldə etmək bacarığı başa düşülür. Burada alqı-satqı obyekti kimi spesifik əmtəə-pul, valyuta və qiymətli kağızlar hesab edilir. Maliyyə biznesinin fəaliyyət sahəsi bank,sığorta, audit,lizinq və fond birjaları kimi təsnifləşdirilir.Maliyyə biznesi valyuta bazarının və qiymətli kağızlar bazarının təhlilini və marketinq tədqiqatlarının aparılmasını nəzərdə tutur. Maliyyə biznesinin mahiyyəti onun tərkib hissələrindən olan maliyyə xidmətlərinin göstərilməsini nəzərdə tutur.

Bazar iqtisadiyyatının hakim olduğu ölkələrdə ikipilləli bank sisteminin sonuncu pilləsi olan kommersiya bankları maliyyə biznesinin əsas fəaliyyət sahəsi sayılır. Maliyyə biznesinin formalaşmasında kommersiya banklarının müstəsna rolu isə birbaşa olaraq onun fəaliyyəti və həyata keçirdiyi funksiyalarla əlaqəlidir.

Kommersiya banklarında maliyyə biznesinin formalaşması ilk olaraq həyata keçirdiyi klassik əməliyyatlar olan aktiv və passiv əməliyyatlarla bağlıdır.Ssuda,hesablaşma,kassa,investisiya,fond və zəmanət əməliyyatlarını özündə birləşdirən aktiv əməliyyatlar vasitəsilə banklar onların sərəncamında olan ehtiyyatları gəlir əldə edilməsi üçün yerləşdirir.Passiv əməliyyatlar isə vəsaitlərin banka cəlb edilməsi ilə bankın maliyyə resurslarının formalaşdırılmasıdır. Bunlardan əlavə , müştərilərin tapşırığı ilə müəyyən ödəniş – komissiya müqabilində həyata keçirilən komisyon (debitor borcunun inkassasiyası üzrə əməliyyatlar, köçürmə, ticarət-komissiya,trast, müştərilərə hüquqi və digər xidmətlərin göstərilməsi üzrə əməliyyatlar) və vasitəçilik (lizinq,faktorinq) əməliyyatlarından ibarət olan bankların aktiv-passiv əməliyyatları da vardır.

Beləliklə,bu əməliyyatlar kommersiya banklarında maliyyə biznesinin formalaşma vasitələridir.

Lizinq əməliyyatları kommersiya banklarının apardığı vasitəçilik əməliyyatlarının bir formasıdır. Lizinq – (Leasing ingilis sözündən olub icarə mənasını bildirir) ixtisaslaşmış lizinq şirkətinin, firmasının, bank şöbəsinin lizinqalan üçün əmlak olaraq, həmin əmlakın müəyyən müddətə icarəyə verilməsi ilələlaqədar olaraq əsas vəsaitlərə (maşın, qurğu, nəqliyyat vasitələri, istehsal təyinatlı tikililər və s.) investisiya qoyuluşunun maliyyələşdirilməsidir.

İlk baxışdan lizinq və icarəəməliyyatları bir – birinə oxşardırlar. Hər iki əməliyyat zamanı bir şəxsin əmlakı müqaviləəsasında digər şəxsə müəyyən müddətə və müəyyən şərtlərlə məhsuldar istifadəyə

verilir. Bununla yanaşı, bu iki anlayış arasında əsaslı fərqlər vardır. Belə ki, icarəəməliyyatında sövdələşmənin predmeti olaraq icarədarın təsərrüfat əməliyyatlarından müvəqqəti azad olan əmlakıçıxış edir. İcarə münasibətləri iki iştirakçı mülkiyyətçi vəəmlakı müvəqqəti istifadə edən tərəf arasında yaradılır.

Lizinq əməliyyatlarında isə xüsusi olaraq bu əməliyyatın həyata keçirilməsi üçün icarədarın əvvəlcədən verilmiş sifarişinə uyğun olaraq əldə olunmuşəmlak müqaviləsiəsasında icarəyə verilir.

Trast əməliyyatları– müştərinin tapşırığına əsasən əmlakın idarə olunması və digər xidmətlərin onun maraq dairəsində, onun xeyrinə kommersiya bankları və xüsusi maliyyə institutları tərəfindən aparılan əməliyyatlardır.

Trast əməliyyatlarının mahiyyəti ondan ibarətdir ki, əmlak sahibi onun idarə olunması hüququnu mövcud qanunvericiliyə riayət etməklə müqaviləəsasında digərinə– ya banka, ya da ki, xüsusi maliyyə institutuna verir.

Trast əməliyyatlarının həyata keçirilməsində müştərinin müxtəlif növ əmlakı - istehsal və qeyri – istehsal xarakterli daşınmaz əmlak,nəqliyyat və rabitə vasitələrindən ibarət daşınan əmlak,əmlak hüququ, pul vəsaitləri,qiymətli kağızlar iştirak edə bilər.

Trast əməliyyatları mahiyyət və xarakter etibarilə kommersiya banklarının digər əməliyyatlarından fərqləndiklərinə görə, onların aparılmasıüçün kommersiya bankları tam sərbəstlik və müstəqillik prinsipi əsasında işləyən bölmə yaradırlar. Bu müstəqillik təkcə təşkilati cəhətə deyil, eyni zamanda həm müştərilərləəlaqələrə, xidmət növünün – seçilməsinə, informasiya bazasının formalaşmasına və s. aiddir.

Konkret əməliyyatları icra edə bilərlər.

Bazar iqtisadiyyatışəraitində trast əməliyyatları banklar üçün xüsusi maraq kəsb edir. Çünki bazara keçid və bazar şəraitində yeni yaranmış çoxlu müxtəlif mülkiyyət formalı müəssisələrin çoxu heç dəəmlakın müxtəlif növləri illəəməliyyatlar aparmaqda səriştəyə malik olmurlar. Ona görə də trast əməliyyatlarının aparılmasında marağı olan müəssisə, təşkilat və fiziki şəxslərin sayı artır. Banklar və digər xüsusi institutlar trast əməliyyatlarına artan tələbatdan istifadə edərək bazarda öz mövqeyini möhkəmlətmək üçün bir çox vacib məsələləri həll edirlər. Onlar əsasən aşağıdakılardan ibarətdir:

- aparılan əməliyyatlar və göstərilən xidmətlər dairəsinin genişləndirilməsi;
- müştəri bazasının genişləndirilməsi;
- müştəri bazasının keyfiyyətinin yaxşılaşdırılması;
- bank bazarının digər seqmentlərinə (tərkib hissəsinə) daxil olması, müdaxilə etməsi;
- əlavə gəlir əldə edilməsi;
- müxtəlif müəssisə təşkilat, fiziki şəxslər üzərində nəzarətin əldə olinması;
- üzərində nəzarətin əldə olunduğu müəssisə, təşkilat, fiziki şəxslərin trast əməliyyatlarında iştirak edən müxtəlif fondlarıüzərində nəzarətin əldə olunması;
- payda iştirak etməklə, təsisçi oimaqla, səhm paketinə nəzarətin əldə olunması vasitəsilə iqtisadiyyata investisiya qoyuluşu ilə qanunvericiliklə banklar üçün müəyyən edilmiş məhdudiyyətlərin ötülməsi;
- fond bazanrının iştirakçısı kimi bankın rolunun yüksəlməsi.

Aparılacaq trast əməliyyatlarının həcmindən asılı olaraq kommersiya bankları idarə və ya şöbə yaradırlar. Müxtəlif ölkələrdə kommersiya banklarının trast şöbə və ya idarə yaratmasıüçün fərqli şərtlər vardır. Məsələn, Rusiya Federasiyasında trast əməliyyatlarının aparılmasıüçün kommersiya bankları qarşısında aşağıdakı tələblər qoyulmuşdur:

- ✓kommersiya bankının fəaliyyət müddəti 1 ildən çox olmalıdır;
- ✓kommersiya bankının xüsusi kapitalının həcmi 100 mlrd. rubldan çox olmalıdır;
- ✓bank trast əməliyyatlarını icra etməyə başladığı dövrə qədərki son bir il ərzində Mərkəzi Bank qarşısındakı bütün iqtisadi normativlər ehtiyat fonduna məcburi ayırmaları və digər öhdəlikləri yerinə yetirməlidir;
- ✓trast əməliyyatları başlayana kimi son il ərzində bank mənfəətlə işləməlidir, heç olmazsa zərərlə işləməməlidir. Bu şərtlərəəməl edərək, kommersiya banklarıözünün trast bölməsini (idarə və ya şöbə) yaradır.

Yaranmış ənənəyə görə banklarda trast əməliyyatlarına rəhbərliyi bank rəhbərinin müavinlərindən biri həyata keçirir. Adətən elə həmin şəxs bankın həm investisiya, həm də fondlarla bağlı fəaliyyətinə də rəhbərlik edir. Təqribi quruluşa görə sonrakı məsul şəxs trast bölməsinin rəhbəridir, O, trast əməliyyatlarına cari rəhbərliyi həyata keçirir, əməkdaşların funksiyalarını müəyyən edir, iş bölgüsünü

aparır, proqnozları müəyyən edir, trast əməliyyatlarıüzrə uçot və hesabata nəzarət edir, bölmə adından müqavilələr imzalayır, onun icrasına məsuliyyət daşıyır.

Trast əməliyyatlarının həyata keçirilməsi zamanı bankлar müştərinin xarici valyuta ilə olan hesablarına xüsusi diqqət yetirir. Adətən belə hesablarda olan vəsaitlərin daha sabit valyutaya çevrilməsi tövsiyə edilir (məsələn, 50% ABŞ dolları, 30% - EURO, 20% - funt sterlinq). Bu növ diversifikasiya bu və ya digər valyutanın məzənnəsinin kəskin şəkildə dəyişməsi ilə bağlıolan itkilərin qarşısını almağa imkan verir. Hesablaşmaların aparılmasının asanlaşdırılmasıüçün bir çox bankлar müştərilərin bütün valyutalarda olan vəsaitlərini ümumi şəkildə qəbul edilmiş vahidəçevirir. Müştərinin depozit valyutasının seçimi haqqında bankа xüsusi tapşırıq verm ədikdə onun hesabına xarici valyutada daxil olan məbləğlər istənilən valyutaya çevrilir.

РОЛЬ ФИНАНСОВОГО КОНТРОЛЯ И ПОВЫШЕНИЕ ЭФФЕКТИВНОСТИ УПРАВЛЕНИЯ ГОСУДАРСТВЕННЫМ ДОЛГОМ

Манафлы Н.М.
Азербайджанский государственный экономический университет

Наличие финансового контроля объективно обусловлено тем, что финансам как экономической категории присущи не только распределительная, но и контрольная функции. Поэтому использование государством и муниципальными образованиями для решения своих задач финансов обязательно предполагает проведение с их помощью контроля за ходом выполнения этих задач. Финансовый контроль осуществляется в установленном правовыми нормами порядке всей системой органов государственной власти и органов местного самоуправления, в том числе специальными контрольными органами при участии общественных организаций, трудовых коллективов и граждан. Значение финансового контроля выражается в том, что при его проведении проверяются, во-первых, соблюдение установленного правопорядка, в процессе финансовой деятельности органами государственной власти и местного самоуправления, предприятиями, учреждениями, организациями, гражданами и, во-вторых, экономическая обоснованность и эффективность осуществляемых действий, соответствие их задачам государства и муниципальных образований. Таким образом, он служит важным способом обеспечения законности и целесообразности проводимой финансовой деятельности.

Важно отметить, что в настоящее время система финансового контроля должна охватывать всю экономическую форму в целом и в том числе транспортную сферу страны. Безусловно, создание и функционирование на территории Азербайджанской Республики единой системы финансового контроля необходимо для цивилизованного развития азербайджанской экономики и в том числе транспорта в условиях рынка, поскольку в правовом государстве не может и не должны быть зон, свободных от финансового контроля. Финансовый контроль объективно необходим в любом обществе, где существуют товарно- денежные отношения; но правовом государстве с рыночными формами хозяйствования она многократно возрастает. Несомненно, значение финансового контроля особенно повышается в условиях рыночной экономики, поскольку рыночная экономика выдвигает на первое место достижение высокой эффективности хозяйственной деятельности. В связи с этим возрастает значение контроля над процессами формирования, сохранности, рационального и эффективного использования финансовых ресурсов во всех звеньях экономической системы страны. Будучи весьма сложным, по своей природе правовым явлением, финансовый контроль состоит из следующих элементов; а именно на основании этих элементов можно исследовать: – предмет (кого контролирует); – объект (что контролирует); – субъект (кто контролирует); – содержание; – сфера деятельности. Особое место в этой системе занимают органы государственного финансового контроля, которым необходимо возглавить и повести за собой всю систему финансового контроля в стране, определить все направления деятельности в этой области; от разработки необходимых законопроектов до создания и внедрения соответствующих стандартов и методик. Система органов государственного финансового контроля представляет собой элемент общей структуры контрольных органов государства и вместе с тем выступает как важнейшая часть того финансового механизма, с помощью которого государство реализует свою финансовую политику.

Следует отметить, что сущность финансового контроля находит свое отражение в его задачах. К основным задачам финансового контроля можно отнести следующее. Иными словами, финансовый контроль выполняет следующие задачи: – проверка своевременности и полноты образования фондов государственных средств; – контроль за состоянием финансовых ресурсов; – проверка сохранности, эффективности и целевого использования фондов государственных средств; – обеспечение своевременности и полноты выполнения финансовых обязательств перед государственным бюджетом; – обеспечение соблюдения действующего финансового законодательства, в том числе в области налогообложения предприятий, относящихся к различным организационно-правовым формам; – контроль за прохождением государственных средств в сфере денежного обращения; – проверка выполнения международных финансовых обязательств государства; – содействие рациональному расходованию материальных ценностей и денежных ресурсов на предприятиях, в организациях и бюджетных учреждениях, а также правильному ведению бухгалтерского учета и отчетности и др.

Несомненно, систему финансового контроля целесообразно строить на основе последовательно осуществляемой многоступенчатой классификации. В связи с этим весь финансовый контроль делится на два типа (на государственный и негосударственный). Внутри каждого типа выделяются отдельные группы финансового контроля. Каждая группа состоит из различных видов финансового контроля. Наконец, конкретные виды финансового контроля делятся на подвиды. Поэтому более предпочтительной представляется приведенная выше система финансового контроля, основанная на их многоступенчатой классификации.

Проблема государственного долга приобрела актуальности во второй половине XX столетия, когда государства были неспособные аккумулировать в бюджете достаточные финансовые ресурсы для выполнения своих функций и начали применять долговую политику.

Управление государственным долгом состоит в обеспечении платежеспособности государства, то есть возможности погашения долгов. Это касается как текущего, так и капитального долга. В управлении внутренним и внешним долгом существуют некоторые специфические признаки. Платежеспособность по внутренним займам обеспечивается, как правило, за счет внутренних источников. Платежеспособность по внешнему долгу зависит прежде всего от валютных поступлений. Возможности погашения этого долга определяются в сальдо торгового баланса. Его положительное сальдо характеризует те ресурсы, которые обеспечивают платежеспособность государства и дают возможность тем самым урегулировать платежный баланс.Государственным долгом являются долговые обязательства АР перед физическими и юридическими лицами, иностранными государствами и международными организациями.

- Внешний долг — это обязательства перед нерезидентами в иностранной валюте.
- Внутренний долг — обязательства перед резидентами в манатах.

Государственный долг может быть краткосрочным (до одного года), среднесрочным (от одного года до пяти лет) идолгосрочным (от пяти до тридцати лет).

Управление государственным долгом осуществляется правительством АР. Система госдолгов требует создания системы управления долгами. Обслуживание госдолгов, внутренних и внешних, включает в себя поэтапно: погашение процентов; погашение капитальной суммы долга и его рефинансирование в случае необходимости. Управление государственным долгом - совокупность мероприятий государства по выплате доходов кредиторам, погашению займов, изменению условий уже выпущенных займов, определению условий по выпуску новых государственных ценных бумаг. Это одно из направлений финансовой политики государства. Выплаты доходов по займу и их погашение обычно производятся за счет бюджетных средств, однако в условиях значительного роста государственной задолженности и нарастающих бюджетных трудностей страна может прибегнуть к рефинансированию государственного долга.

Государством могут приниматься следующие меры в области управления государственным долгом:

- конверсия - изменение доходности займов, т. е. в целях снижения расходов по управлению государственным долгом государство чаще всего снижает размер выплачиваемых процентов по займам (однако не исключено и увеличение процентов);

- консолидация - изменение условий займов, связанных со сроком. Благодаря консолидации может быть достигнуто увеличение срока действия уже выпущенных займов;

- унификация займов - это объединение нескольких займов в один, когда облигации ранее выпущенных займов обмениваются на облигациинового займа. Унификация обычно проводится вместе с консолидацией, но может быть проведена и самостоятельно;
- аннулирование государственного долга - мера, в результате которой государство полностью отказывается от обязательств по выпущенному займу.

SIĞORTA TƏŞKİLATLARINDA PUL AXINLARININ HƏRƏKƏT METODLARI

Muradova M.Y.
Azərbaycan Dövlət İqtisad Universiteti

İqtisadi kateqoriya olan sığorta təcrübədə sığorta fondunun yaradılması və istifadəsi metodlarından biri kimi meydana çıxır. Bundan başqa, digər metodlar da mümkündür ki, bunlar da əsasən mərkəzləşdirilmiş və mərkəzləşdirilməmiş metodlardan ibarətdir. Mərkəzləşdirilmiş metod birbaşa qanunvericilik yolu ilə milli gəlirdən və milli sərvətdən müəyyən maliyyə ehtiyatları fonduna, o cümlədən sığorta fonduna vəsaitlərin ayrılması yolu ilə əlaqədardır. Məhz bu metodun köməyi ilə dövlət büdcəsinin ehtiyat fondları və qızıl valyuta ehtiyatları formalaşdırılır. Mərkəzləşdirilməmiş maliyyə ehtiyatları maddi istehsal sahəsində, ilk növbədə isə kənd təsərrüfatında fəaliyyət göstərən birliklərdə və müəssisələrdə təşkil edilir ki, bundan da məqsəd yerli zərərlərin və müxtəlif ziyanların ödənilməsidir.

Sığorta fondunun yaradılması və istifadə olunması üçün məhz sığorta kateqoriyasından istifadənin iqtisadi zəruriliyi özünü onda göstərir ki, dövlət təsərrüfat subyektləri – müəssisələr, təşkilatlar, cəmiyyətlər, kooperativlərin və daha çox ayrı-ayrı vətəndaşların maliyyə ehtiyatları ilə geniş surətdə manevr etmək imkanından məhrum olur.

Sığorta müdafiəsinin obyektlərindən-maddi qiymətlilərdən, dəyərlilərdən, adamların həyat, sağlamlıq və əmək qabiliyyətliliyindən asılı olaraq sığorta bir tərəfdən maddi zərərlərin ödənilməsi, digər tərəfdən isə ailə gəlirlərindəki itkilərlə əlaqədar ola bilər. Ailə gəlirlərindən itkilər xəstəliklər, əlillik, bədbəxt hadisələrdən alınan zədənin müalicəsi və s. dövrlərdə əmək qabiliyyətinin itirilməsi nəticəsində meydana çıxır. Ona görə də bu gəlirlərin sığortalanması və ya, sığorta müdafiəsi, ilk növbədə, cəmiyyətin hesabına sosial sığortanın təşkil edilməsi yolu ilə həyata keçirilir.

Müasir bazar iqtisadiyyatı şəraitində hər bir təsərrüfat subyekti kimi sığorta təşkilatları da öz inkişaf strategiyası və taktikasını sərbəst seçir, özünümaliyyələş-dirməni birinci dərəcəli vəzifə kimi qarşıya qoyur. Müəssisədə pul vəsaitlərinin hərəkəti (pul axınları) daim baş verir.

Pul vəsaitlərinin hərəkəti haqqında hesabat böyük informasiya dəyəri daşıyır. Bu informasiyadan maliyyə menecerləri və investorlar yetərincə faydalanırlar, sahibkarlar isə əlavə aktivlərin formalaşdırılması, borcların ödənilməsi və yeni investisiya qoyuluşu ilə bağlı məsələlərin həllində istifadə edirlər.

Pul axınlarının idarə edilməsi elə maliyyə alətidir ki, onun köməyilə müəssisənin maliyyə-təsərrüfat fəaliyyətinin yüksək son nəicələrinə nail olmaq, yəni daha çox mənfəət əldə etmək mümkündür. Bütün bunlar müəssisə səviyyəsində pul axınlarının idarə edilməsi mexanizminin təkmilləşdirilməsini zəruri edir.

Təsərrüfat subyektlərində pul vəsaitləri əsas fondların əldə edilməsi, əmtəə ehtiyatlarının yaradılması, debitor borclarının formalaşdırılması və başqa məqsədlər üçün istifadə olunur. Pul vəsaitlərinin hərəkətilə istehsal-kommersiya tsikli başlayır və onunla da başa çatır. Müəssisənin maliyyə-təsərrüfat fəaliyyətinin tsikli prosesində pul vəsaitləri müxtəlif aktivlərə, məhsulun reallaşdırılması zamanı debitor borclarına çevrilir.

Pul axınlarının təhlili müəssisənin pul vəsaitləri ilə təmin edilməsi vəziyyətini qiymətləndirməyə imkan verir. Pul axınlarının təhlilinin əsas məqsədi pul vəsaitlərinin çatışmaması səbəblərini aşkara çıxarmaq, onların cəlb edilmə mənbəylərini və istifadə istiqamətlərini müəyyənləşdirməkdən ibarətdir. Pul axınlarının təhlili müəssisənin əsas, investisiya və maliyyə fəaliyyəti üzrə ayrıca aparılır ki, bu da fəaliyyət növlərinin hər birindən alınan gəlirin xüsusi çəkisini müəyyənləşdirməyə və inkişaf perspektivlərini qiymətləndirməyə imkan verir.

Dünya uçot-analitik təcrübədə pul vəsaitlərinin hərəkətini müəyyənləşdirmək üçün təhlilin birbaşa və dolayısı metodlarından istifadə edilir. Birbaşa metod pul vəsaitlərinin daxil olması və istifadəsinin hesablanmasına əsaslanır, müəssisənin likvidliyini qiymətləndirməyə, cari öhdəliklər üzrə ödənişlər,

investisiya fəaliyyəti və əlavə xərclər üçün pul vəsaitlərinin kifayət qədər olması barədə operativ nəticə çıxartmağa imkan verir. Bu metodun nöqsan cəhəti alınmış maliyyə nəticələri və müəssisənin hesablaşma hesabında pul vəsaitlərinin dəyişilməsi arasında qarşılıqlı əlaqəni müəyyənləşdirə bilməməsidir.

Dolayısı metod pul vəsaitləri ilə əlaqədar əməliyyatların və balansın maddələrinin uçotuna və xalis mənfəətin məbləğində müvafiq dəyişikliklərin aparılmasına əsaslanır, müəssisənin xalis mənfəəti və aktivlərində baş verən dəyişikliklər arasında qarşılıqlı əlaqəni aydınlaşdırmağa imkan verir. Gəlir və xərclərin elə növləri vardır ki, onlar pul vəsaitlərinə toxunmadan xalis mənfəət yaradırlar. Təhlil prosesində gəlir və xərclərin həmin maddələrinə və xalis mənfəətə müvafiq düzəlişlər edilir, çünki xərc maddələri pul vəsaitlərinin daxil olmasından asılı deyil, vəsaitin xərclənməsi ilə müşayət olunmayan gəlir maddələri xalis mənfəətin məbləğinə təsir etmir.

Maliyyə hesabatlarının bütün istifadəçiləri praktiki öz maraqlarına uyğun qərarların qəbulu üçün təhlilin müxtəlif metodlarından istifadə edirlər. Məsələn, mülkiyyətçilər kapitalın gəlirliyini artırmaq və şirkətin dayanaqlı fəaliyyətini təmin etmək üçün, kreditorlar və investorlar borclar və qoyuluşlar üzrə riskləri azaltmaq üçün maliyyə hesabatlarını təhlil edirlər. Maliyyə hesabatlarının beynəlxalq standartlara uyğunlaşdırılması təhlilin yeni metodikasından istifadəni zəruri edir. Bu metodika tərəfdaşların seçilməsini əsaslandırmaq, müəssisənin maliyyə dayanaqlığı səviyyəsini müəyyənləşdirmək, işgüzar aktivliyi və sahibkarlıq fəaliyyətinin effektivliyini qiymətləndirmək üçün vacibdir.

İstənilən ölkədə pul kütləsi dövlət tərəfindən daim tənzimlənir. Belə tənzimləməyə zərurət onunla şərtlənir ki, pul kütləsinin həcmi və onun artım tempi digər iqtisadi göstəricilərin səviyyəsinə təsir edir. belə ki, əgər pul kütləsi ümumi daxili məhsula nisbətən surətlə artırsa, onda eyni bir şəraitdə bu inflyasiyaya gətirib çıxara bilər. Eyni zamanda dövlət iqtisadi artımı stimullaşdırmaq üçün əlavə pul emissiyasına qaçır. Bu halda tədavüldə pulun çoxalması krediti ucuzlaşdırır və istehsal investisiyasının genişlənməsinə səbəb olur. Əgər pul kütləsinin artım sürəti ümumi daxili məhsulun artım sürətindən geri qalırsa, onda pulun tədavül sürəti dəyişilməyəndə onlar bütün ödənişlərə və hesablara normal xidmət üçün kifayət etməyə bilər ki, bu da milli təsərrüfatın işində müəyyən boşluqlar yaradar. Kontragentlərə hesablaşmaq üçün heç nə qalmır, onlar yaranan pul tələblərini ödəyə bilmirlər. Bu zaman, bir qayda olaraq, baş borclu dövlətdir və o pul kütləsinin artımını ləngidir.

SIĞORTA TƏŞKİLATLARINDA MALİYYƏ NƏTİCƏLƏRİNİN FORMALAŞMASI

Muradova M.Y.
Azərbaycan Dövlət İqtisad Universiteti

Bazar iqtisadiyyatı şəraitində sığorta münasibətləri geniş inkişaf edir. Qısa müddət ərzində respublikamızda sığorta bazarı formalaşmış, göstərilən sığorta xidmətlərinin sahəsi xeyli genişlənmişdir.

Fəaliyyət göstərən sığorta şirkətləri kommersiya hesabı prinsipləri ilə işləyir. Digər müəssisə və təşkilatlarda olduğu kimi sığorta şirkətləri də öz fəaliyyətinin nətijəsində mənfəət əldə edir və qanunla müəyyən edilmiş vergiləri ödəyirlər.

İqtisadi kateqoriya olan sığorta təcrübədə sığorta fondunun yaradılması və istifadəsi metodlarından biri kimi meydana çıxır. Bundan başqa, digər metodlar da mümkündür ki, bunlar da əsasən mərkəzləşdirilmiş və mərkəzləşdirilməmiş metodlardan ibarətdir. Mərkəzləşdirilmiş metod birbaşa qanunvericilik yolu ilə milli gəlirdən və milli sərvətdən müəyyən maliyyə ehtiyatları fonduna, o cümlədən sığorta fonduna vəsaitlərin ayrılması yolu ilə əlaqədardır. Məhz bu metodun köməyi ilə dövlət büdcəsinin ehtiyat fondları və qızıl valyuta ehtiyatları formalaşdırılır. Mərkəzləşdirilməmiş maliyyə ehtiyatları maddi istehsal sahəsində, ilk növbədə isə kənd təsərrüfatında fəaliyyət göstərən birliklərdə və müəssisələrdə təşkil edilir ki, bundan da məqsəd yerli zərərlərin və müxtəlif ziyanların ödənilməsidir.

Sığorta şirkətinin fəaliyyətinin maliyyə nəticələri hesabat dövründə onun sahibkarlıq fəaliyyəti prosesində yaranan xüsusi kapitalın artmasını, yaxud azalmasını ifadə edir. Sığorta əməliyyatlarının maliyyə nəticələri sığorta şirkətinin təsərrüfat fəaliyyətinin yekununun dəyər qiymətləndirilməsidir. Onlar sığortanın hər bir növü üzrə və bütövlükdə sığorta əməliyyatları üzrə müəyyən edilir. Sığorta şirkətinin təsərrüfat fəaliyyətini yekunlaşdırarkən maliyyə nəticəsi bir il ərzində müəyyən edilir; sığorta edən və sığortaçının münasibətlərinin ekvivalentliyini qiymətləndirərkən həmin dövr tarif hesablanarkən əsas götürülür.

Sığorta əməliyyatlarının maliyyə nəticələri sığorta şirkətinin gəlirləri və məsariflərinin müqayisəsi yolu ilə müəyyən edilir. Əgər gəlirlər məsarifləri üstələyirsə, o halda sığorta şirkətinin müsbət saldosu olur.

Bazar iqtisadiyyatı şəraitində sığorta şirkətinin fəaliyyəti təkcə öz xərclərini ödəməyi deyil, həm də mənfəət almağı nəzərdə tutur. Sığorta şirkəti öz sığorta əməliyyatlarından böyük mənfəət almağa cəhd göstərməməlidir, çünki bununla sığorta edən və sığortaçı münasibətlərinin ekvivalentlilik prinsipini poza bilər. Eyni zamanda "mənfəət" terminin özü sığorta biznesində şərti tətbiq edilir, belə ki, sığorta şirkətləri milli gəlir yaratmırlar, yalnız onun bölüşdürülməsində iştirak edirlər.

Sığorta əməliyyatlarından mənfəət dedikdə elə müsbət maliyyə nəticələri başa düşülür ki, bu zaman sığorta müdafiəsinin təmin edilməsi üzrə gəlirlərin məsarifləri üstələməsinə nail olunur.

Sığorta şirkətinin mənfəətinə (zərərinə) iki aspektdə baxmaq olar:

- maliyyə nəticəsi kimi mənfəət;
- normativ mənfəət, yaxud tariflərdə mənfəət.

Normativ mənfəət tarif hesablanarkən sığorta xidmətinin qiymətində nəzərdə tutulur. O, tarifin netto-stavkasına yük elementini ifadə edir. Bu sığortanın konkret növü üzrə planlaşdırılan sığorta edənin hesablama mənfəətidir. Lakin təcrübədə sığorta əməliyyatlarının aparılması təcrübəsi heç də həmişə gözlənilən nəticəni təmin etmir. Sığorta növləri üzrə mənfəətin qəti məbləği ümumi gəlirin məsariflərlə müqayisəsi əsasında müəyyənləşdirilir.

Bununla belə sığorta şirkətlərinin maliyyə-təsərrüfat fəaliyyətini təhlil edərkən investisiya fəaliyyətindən mənfəət xüsusi ayrılır. Təqdim edilən sığorta xidmətlərinin maliyyə xarakteri sığorta edənin geniş investisiya imkanlarını müəyyənləşdirir. Sığortanın bəzi növləri üzrə investisiya mənfəəti zərərləri ödəmək üçün sığorta ehtiyatlarının mənbəyi ola bilər. İnvestisiyadan mənfəət xüsusi kapitalın artırılması, sığorta işinin inkişafının maliyyə mənbəyi qismində sığorta edənə xidmət edir.

Sığorta şirkətinin gəliri sığorta və qanunla qadağan edilməyən fəaliyyətin həyata keçirilməsi nəticəsində onun hesabına pul daxil olmaları məbləğinin məcmusudur. Sığorta şirkətinin gəlirlərini üç qrupa ayırmaq olar:

- sığorta əməliyyatlarından gəlrlər;
- sığorta fəaliyyəti ilə əlaqədar digər sövdələşmələrdən gəlirlər;

başqa sövdələşmələrdən gəlirlər.

BANK XİDMƏTLƏRİ SFERASINDA MARKETİNQİN TƏTBİQİ

Ağadadaşov Ə.İ.
Azərbaycan Dövlət İqtisad Universiteti

Marketinq – ingilis dilində "market" sözündən götürülüb, bazar mənasını verir. Azərbaycan dilinə hərfi tərcüməsi "bazarda fəaliyyət"dir.Marketinqin əsas məqsədi istehsalçını istehlakçının konkret ehtiyaclarına istiqamətləndirməkdən ibarətdir. İstehsalçı marketinqin prinsipləri əsasında fəaliyyət göstərərək öz strategiyasını istehlakçının tələblərinin qeydiyyatına yönəldir və istehlakçı ilə münasibətlərin qurulması haqqında fikirləşir.

Marketinq – mübadilə fəaliyyətinini həyata keçirmək üçün bazarda aparılan məqsədyönlü fəaliyyətdir. Mübadilə prosesini effektiv həyata keçirmk üçün istehlakçıların tələbatlarının müəyyən edilməsi bu tələbatlara uyğun məhsulların hazırlanması, məhsulların bazara çıxarılması, anbarlaşdırılması, daşınması, qiymətləndirilməsi, satışdan avvəl və satışdan sonrakı xidmətin təşkili reklam fəaliyyəti tələb olunur və bütün bunlar marketinq tərəfindən həyata keçirilməlidir.Başqa sözlə, bu, buraxılan məhsulun satışı üçün əlverişli şərait yaratmaq, onun keyfiyyətini, çeşidini və istehsal həcmini istehlakçıların tələbatına uyğunlaşdırmaq məqsədi ilə bazar şəraitinin təhlili və proqnozlaşdırılmasıdır. Marketinqin fəlsəfəsi çox sadədir: "elə məhsul istehsal et ki, onun satışı təmin edilmiş olsun". Yalnız belə olduqda, müəssisə bazarda özünə möhkəm yer tuta bilər və onun gəliri də yüksək olar.

Hər bir sahədə olduğu kimi bank xidmətləri sahəsində də marketinq xüsusi önəmə malikdir.Bank sistemində marketinqin prinsiplərinin genişlənməsi və marketinqin strateji bank planlaşdırılmasına daxil edilməsi 80-ci illərdən start götürməyə başladı. Uzun müddət banklar öz iş ənənələrinə əsaslanaraq strateji planlaşdırmaya və marketinqə lazımi əhəmiyyət vermirdilər. 60-cı illərin ortasına qədər banklar iş fəaliyyətində praktiki olaraq reklam ilə məşğul olmurdular. Bu dövrün sonuna yaxın reklam kompaniyası

keçirildi və bunun da məqsədi hər hansı bir konkret banka diqqətin cəlb edilməsi deyil, sadəcə bank fəaliyyətinin məşhurlaşması idi. Yalnız 70-ci illərdə müxtəlif banklar öz müəssisələrinin və onların fəaliyyətinin reklamına ciddi yanaşdılar. Məhz bu zaman bank xidmətləri arasında marketinq xidmətindən söhbət açmaq mümkün oldu. 80-cı ildə banklar marketinqin bütün üsullarına yiyələndilər və öz fəaliyyətinin strateji planlaşdırılması ilə fəal məşğul olmağa başladılar. 80-ci illərin ikinci yarısında ABŞ-da bank marketinqi kommersiya bankının idarə sistemində bütövlük təşkil edirdi. Bu müasir şərait onunla səciyyələnirdi ki, banklar bu problemə diqqəti artırırdılar. Bu prosesin əsasında iki ənənə dururdu ki, bu da bütün dünya iqtisadiyyatı üçün xarakterikdir:

– bank institutlarının və xidmətlərinin beynəlmilləşdirilməsi

– maliyyə bazarının ikili tənzimlənməsi.

Bank marketinqi - bank fəaliyyəti sferası olub, hansının ki əsas məqsədi bazarının ehtiyacları öyrənilməsi, o cümlədən bank xidmətləri üçün tələbin formalaşmasıdır.

Xarici bankların təcrübəsində bank öz marketinqinə istehlakçı tapılmasının aləti kimi yanaşmır. Hər bir bank rəhbəri artıq marketinq eksperti kimi çıxış etməlidir. İnkişaf etmək üçün, banklar geniş bank xidmətləri təklif məcburiyyətində qalır. İndi bazar fəaliyyətinin əsası kimi müştərilərin ehtiyaclarını və məmnuniyyətini maksimum qarşılamağdır.

Bank marketinqi aşağıdakı məsələləri həll edir:

1. Mövcud və potensial bazarların bank fəaliyyətinin müəyyənləşdirilməsi;
2. Konkret bazarların seçilməsi və sifarişçinin ehtiyaclarının müəyyənləşdirilməsi;
3. Mövcud və yeni xidmət növlərinin uzun və qısa müddətli məqsədlərinin müəyyənləşdirməsi;
4. Yeni xidmət növlərinin təcrübədə tətbiqi və bankın həmin proqramın reallaşdırılmasına nəzarəti.

Bank marketinq əsas funksiyaları aşağıdakılardır:

- Bank xidmətləri bazarının və ona tələbin daxili və xarici mühitinin proqnozlaşdırılması
- Bankın resurslarının, imkanlarının, təhdidlərin, təşkilatın güclü və zəif tərəflərinin kompleks qiymətləndirilməsi;
- Marketinq fəaliyyətində strateji və taktiki planlaşdırmanın inkişafı;
- Məhsul siyasətinin təhlili, bazar tələbatı əsasında məhsul çeşidinin idarəolunması, rəqabət strategiyası bankın potensialı;
- Tələb və satışın formalaşdırılması;
- Satışın planlaşdırılması və təşkili, marketinq komunikasiyasının təşkili;
- İşçi heyətinin idarəolunması, vaxtında təlim, qiymətləndirilmə, motivasiya təşviq proqramının həyata keçirilməsi;
- Müştərilər və işçilər üçün bankda qonaqpərvər və rahat atmosferi yaratmaq;
- Bank xidmətləri biznes proseslərinin optimallaşdırılması.

Müasir marketinq çərçivəsində bank və müştəri münasibətləri dəyişir. Əgər əvvəllər bank öz əmanətçisinə və borc alana standart bank məhsulları təqdim edirdisə, indi o, konkret müştəri qruplarına – iri firmalara, kiçik müəssisələrə, ayrı-ayrı kateqoriyalardan olan fiziki şəxslərə və s. ünvanlanan yeni xidmət növləri işləyib hazırlamağa məcburdur. Bankın işində yeganə meyar müştərilərin real tələbatları olur. Bankın fəaliyyəti, məlum olduğu kimi, təkrar olunan əməliyyatlara əsaslanır. Buradan da, onun səyləri müştəriləri qoruyub saxlamağa və bu əhatəni genişləndirməyə, uzunmüddətli perspektivdə insanlara maliyyə xidmətinin mərkəzinə çevrilməyə yönəlmişdir.

Bank marketinqinin əsas məqsədləri

- Bank məhsulları və xidmətlərinə tələbin öyrənilməsi;
- Bank məhsullarına və xidmətlərinə müştərilərin tələbləri;
- Bank xidmətləri bazarının təhlil və seqmentləşdirilməsi;
- Yeni növ bank məhsulları və xidmətlərinə tələbin formalaşdırılması;
- Yeni məhsulların istehsalında iştirak;
- Bank məhsullarının qiymətlərinin formalaşmasında iştirak etmək;
- Bank məhsulları və xidmətləri bazarında öz fəaliyyətinin genişləndirilməsində iştirak;
- Bank məhsullarının reklam daxil olmaqla bankın kommersiya səylərinin fəallaşması.

MİLLİ İQTİSADİYYATIN TƏNZİMLƏNMƏSİNDƏ İSTİFADƏ EDİLƏN PROQRAM, NORMATİV BALANS METODLARININ İSTİFADƏ İMKANLARI

İbrahimova L.İ.
Azərbaycan Dövlət İqtisad Universiteti

İqtisadiyyatın dövlət tənzimlənməsinin metodları çox cəhətlidir. Ona görə də iqtisadiyyatın dövlət tənzimlənməsinin metodlarını izah etməzdən əvvəl, metodologiya, metod, metodika anlayışlarını bir – birindən fərqləndirmək lazımdır.

Metodologiya – ictimai təkrar istehsalın dəyişilməsi və dərk olun-ması metodlarının məcmusundan ibarətdir.

Metod – metodologiyanın tərkib hissəsi olub, iqtisadi inkişaf planlarının işlənib hazırlanması üsullarından biridir.

Metodika – iqtisadi inkişaf planlarının işlənib hazırlanmasında istifadə olunan fərdi qayda və üsulları, fəndləri əhatə edir.

İqtisadiyyatın hüquqi tənzimlənməsinin metodları dedikdə, iqtisadi sahədə baş verən münasibətləri tənzimləmək üçün hüquqi vasitə və üsulların məcmusu nəzərdə tutulur. İqtisadi sahədə qarşıya qoyulan məqsədlərə ən optimal səviyyədə nail olmaq üçün müvafiq sahədə baş verən münasibətlərin tənzimlənməsində metodların düzgün müəyyən olunması və bu münasibətlərə tətbiq olunması böyük əhəmiyyətə malikdir.

Dövlət iqtisadiyyatı tənzimləmək üçün ilk növbədə səhih informasiyaya malik olmalı, onu elmi əsaslandırılmış şəkildə təhlil etməli, şəraitlə bağlı düzgün nəzəri nəticəyə gəldikdən sonra onun hansı metodlarla tənzimlənməsi barədə qərar verməlidir. Buna görə də ilkin informasiyanın alınması və təhlili metodlarına qısa nəzər saldıqdan sonra iqtisadiyyatın dövlət tənzimlənməsi metodarına şərh verək. Belə ki, ilkin informasiyanın alınması və təhlili metodları aşağıdakılardır:

1. Qruplaşdırma metodu - dövlət hər hansı bir problemi həll et-mək üçün onu müəyyən qruplara ayırır.

2. Normativ metod - dövlət normalar təyin etməklə normativlər işləyib hazırlayır və bununla da tənzimləmədə onu əsas kimi götürür. Məsələn: minimal əmək haqqı özü bir norma olub digər əmək haqqılar ona əsasən təyin edilir.

3. İndeks metodu - cari ilə keçmişin müqayisəsidir. Məsələn: qiymət indeksinin təyini.

4. Sturukturlaşma metodu - bu zaman dövlət bir məqsədi bir neçə kiçik məqsədlərə bölür ki, buna da çox vaxt "məqsədlər ağacı" deyilir. Yəni problemin həlli xırda məqsəddən daha irisinə çatmağa doğru həyata keçirilir.

5. Sosial metodlar - bunlara sosial problemləri təyin etmək üçün istifadə olunan sorğu, anketləşdirmə, intervyu və s. misal göstərmək olar.

6. Ekspert metodu - bu zaman dövlət həlli riyazi yolla mümkün olmayan problemlərin həllində mütəxəssis rəyindən istifadə olunur.

İqtisadiyyatın dövlət tənzimlənməsi metodlarına gəldikdə, bu metodlar 2 əsas əlamətinə görə təsnifləşdirirlər:

1. Təsir xarakterinə görə metodlar: İqtisadi və İnzibati təsir metodlarına bölünür.

a) İqtisadi təsir metodları. Bu metodlar müxtəlif iqtisadi subyektlərin motiv və maraqlarını nəzərə almağa, onlar arasında şərtləri müəyyən etməyə, iqtisadi fəaliyyəti seçməyə və s. imkan verir. Bu metodların köməyilə: dövlət maliyyələşdirilməsi və kreditləşdirilməsi, güzəştli vergi tətbiqetmə və s. həyata keçirilir. Bu metodlar nəinki fəaliyyət növləri subyektlərinin seçiminə təsir edir, həm də, iqtisadi fəaliyyətin məqsədlərinin onlar tərəfindən formalaşması prosesinə də təsir edir.

b) İnzibati təsir metodları. Bu metodlar hakimiyyət gücünə əsaslanır və aşağıdakıları nəzərdə tutur:

- qanunvericilik məhdudiyyətləri (ixracın lisenziyalaşdırılması və ixrac kvotalarının tətbiq edilməsi, qiymətlərin dondurulması, sahibkarlıq fəaliyyətinin müəyyən növlərinə lisenziyaların verilməsinin tətbiq edilməsi və s.).
- sahibkarlıq fəaliyyətinin əldə edilməsi üçün birmənalı olaraq müəyyən parametrlərin ödənilməsində iqtisadi subyektlərə məcburi tələblərin müəyyən edilməsi (nizamnamə kapitalının minimum həcmi, işçilərinə minimum əmək haqqı və s).
- təşkiletmə qaydası, onun tətbiqi və biznesin likvidliyi (sahibkarların dövlət qeydiyyatının qaydaları, onlarla müqavilələrin bağlanması, onlardan vergilərin alınması ölçüsü və müddəti və s.)

2. Tətbiqetmə üsuluna görə metodlar: Birbaşa təsir metodları və Dolayı təsir metodları.

a) Birbaşa metodlar. Bu metodlar iqtisadiyyatın elə tənzimlənməsilə şərtlənir ki, burada dövlət təşəbbüskar qaydada müəyyən edilmiş fəaliyyətləri ona məxsus olan obyekt və resurslardan istifadə edərək həyata keçirir. Birbaşa təsir metodları vasitəsilə dövlətin sosial təminat sistemi işlənib-hazırlanır və təşkil olunur. Sosial təminat proqramlar çərçivəsində - sosial sığorta, sosial yardım kimi həyata keçirilir.

Birbaşa tənzimləmə, həmçinin, vergi (vergilərin tərkibinin və onla-rın ödənilməsi müddətinin müəyyənləşdirilməsi), pul-kredit (pul təklifinin həcminin və dinamikasının tənzimlənməsi), qiymət (qiymətlərin dondurulması, ayrı-ayrı əmtəələr üçün qiymətlərin müəyyənləşdirilmiş səviyyəsinin təyin edilməsi), dövlətin xarici iqtisadi siyasəti (tarif və kvota sistemlərinin müəyyən edilməsi.) vasitəsilə həyata keçirilir.

b) Dolayı təsir metodları. Bu metodlar hər şeydən əvvəl dövlətin vergi, pul-kredit, büdcə, qiymət, xarici iqtisadi siyasətilə həyata keçirilir.

- vergi siyasətinin instrumentarisi (bu sahədə işlənən alətlər kom-plekti) bu halda özünə investisiyaya olan vergi güzəştlərini, əsas kapitalın sürətləndirilmiş amortizasiyasını, xüsusi vergi güzəştlərini daxil edir.
- pul-kredit siyasətinin ən vacib instrumentariləri aşağıdakılardır: fond bazarında dövlət qiymətli kağızları ilə əməliyyatlar, uçot dərəcəsi mexanizmi vasitəsilə kreditin genişləndirilməsi və məhdudlaş-dırılması, bankın məcburi ehtiyat normalarının və kreditin uçot dərəcəsinin dəyişdirilməsi, ixrac kreditlərinin sığortalanması, perspektiv sahələrin kreditləşdirilməsi və s.

AZƏRBAYCANDA TİBBİ SIĞORTANIN İNKİŞAF İSTİQAMƏTLƏRİ

Qarazadə F.N.
Azərbaycan Dövlət İqtisad Universiteti

Sığortaçılar fəaliyyət istiqamətlərinə görə həyat və qeyri-həyat sığortasına bölünürlər. Bugün mən öz tezisimdə qeyri-həyat sinfinə aid olan tibbi sığorta haqqında danışacam.

Tibbi sığorta əhalinin sağlamlıq maraqlarını sosial müdafiəsi forması olmaqla, sığorta hadisəsi baş verdikdə Azərbaycan Respublikası əhalisinin tibbi və dərman yardımı almasına təminat verir.

Tibbi sığorta icbari və könüllü formada həyata keçirilir. İcbari tibbi sığorta dövlət sosial sığortasının tərkib hissəsi olmaqla, icbari tibbi sığorta proqramına müvafiq həcmdə əhalinin tibbi və dərman yardımı almasını təmin edir. Könüllü tibbi sığorta icbari tibbi sığorta proqramında müəyyənləşdirildiyindən əlavə künüllü tibbi sığorta müqaviləsi əsasında tibbi və digər xidmətlər almasını təmin edir.

İcbari və könüllü tibbi sığorta müqaviləsinin subyekti olan vətəndaşlar tibbi sığorta şəhadətnaməsi almalıdırlar. Tibbi sığorta şəhadətnaməsi- sığorta olunana yaşayış yerindən asılı olmayaraq Azərbaycan Respublikasının bütün ərasisində, habelə Azərbaycan Respublikası ilə tibbi sığorta sahəsində müqavilə bağlayan digər dövlətin ərazisində tibbi sığorta proqramında göstərildiyindən az olmayan həcmdə tibbi yardım almağa təminat verən sənəddir. Tibbi sığorta şəhadətnaməsi sığorta olunanın özündə olur və tibb müəssisəsinə müraciət edərkən təqdim olunur. Şəhadətnamənin forması və onun tətbiqi müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir.

Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslər tibbi sığorta sistemində Azərbaycan Respublikasının vətəndaşları ilə eyni hüquq və vəzifələrə malikdirlər.

"Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitutsiyasindan, bu Qanundan, Azərbaycan Respublikasının Mülki Məcəlləsindən, "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunundan, digər normativ hüquqi aktlardan və Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələrdən ibarətdir.

Mülkiyyət formasından asılı olmayaraq müəssisə, idarə və təşkilatların icbari tibbi sığorta müqaviləsinin bağlanmasından imtina edilməsinə, sığorta haqlarının hesablanması üçün məbləğlərin gizlədilməsinə və ya aşağı salınmasına, ödənilmə müddətlərinin pozulmasına görə qanunvericilikdə müəyyən olunmuş qaydada müvafiq icra hakimiyyəti orqanı tərəfindən maliyyə sanksiyaları tətbiq edilir. Cərimənin ödənilməsi hüquq pozuntusunun aradan qaldırılması vəzifəsindən azad etmir.

Tibbi sığorta müqaviləsinin şərtlərinin yerinə yetirilməsinə görə tibbi sığorta təşkilatı sığorta olunan və ya sığortalı qarşısında məsuliyyət daşıyır.

Azərbaycan Respublikasının mövcud olan tibbi sığorta sisteminin əsas çatışmayan xüsusiyyətlərindən biri odur ki, ölkədə bu sistemə nəzarət sistemi mövcud deyil.

Digər bir çatışmazlıq tibbi sığorta sisteminin xidmət mexanizminin zəif və natamam olması ilə əlaqəlidir. Yəni Azərbaycanda bir sıra qərb ölkələrindən (məsələn, Almaniya, Kanada) fərqli olaraq, tibbi xidmətlər natamam həyata keçirilir. Belə ki, ölkədə mövcud olan icbari tibbi sığorta sistemi sosial xarakterli xəstəliklərin (vərəm, psixoloji, damar və.s bu xarakterli xəstəliklər) sığorta olunmasını nəzərdə tutmur.

Həmçinin mövcud icbari tibbi sığorta sistemi yüksək dəyərli və yüksək peşəkarlıq tələb edən xəstəliklərin müalicəsini maliyyələşdirməyi nəzərdə tutmur. Bu növ xərclər məhz dövlət büdcəsindən çəkilir.

Azərbaycanda sığortanın inkişafı ilə bağlı konsepsiyanın və onun reallaşdırılması üzrə uzunmüddətli proqramın olmaması səbəbindən dövlət hələ də özü üçün dəqiqləşdirə bilməmişdir ki, ölkə iqtisadiyyatının inkişaf etdirilməsində sığortanın nə kimi rolu və yeri vardır. Ölkədə mövcud olan ilkin və geniş yayılmış yanaşmalardan biri odur ki, sığorta daha çox büdcə kəsirinin aradan qaldırılmasının taktiki problemlərini həll etmək məqsədi ilə fiskal məsələlərə xidmət etməlidir. Həmçinin aydındır ki, sığortanın sosial-iqtisadi funksiyalarından biri məhz investisiya fəaliyyətini həyata keçirmək, uzunmüddətli kapital qoyuluşlarını etmək məqsədilə maliyyə resurslarının formalaşdırılmasıdır.

Ümumilikdə icbari tibbi sığorta xarakter daşıyır və kommersiya maraqlarını özündən demək olar ki, kənar edir. Amma qeyd etmək lazımdır ki, bu gün ölkədə tibbi sığorta sferasında bazar ünsürlərinin genişləndirilməsi vacib məsələdir. ən azından ona görə ki, inkişaf etdikcə bütün resurslardan səmərəli və minimum xərclər daxilində istifadə edilməsi yolu ilə tibbi sığorta sahəsində resursların qənaət etmək, xidmətin keyfiyyətini yüksəltmək olar.

Bir sıra ekspertlərin fikrincə, Azərbaycanın sığorta sistemini tənzimləyən qanunvericilik aktları sığorta fəaliyyətinin bütün aspektlərini əhatə etmir və bəzən daxili ziddiyyətlərə də gətirib çıxarır. Deməli, bu gün həm könüllü tibbi sığorta fəaliyyət göstərən sığorta şirkətlərinin sayının çox olmaması, həm də aktiv göstərməməsi faktları tibbi sığorta bazarının çatışmamazlıqlarındandır.

Xarici ölkələrin təcrübəsi ilə tanışlıq onu deməyə əsas verir ki, səhiyyənin maliyyələşmə mexanizmini bazar iqtisadiyyatının prinsipləri ilə uyğunlaşdırmağın əsas yolu məhz tibbi sığorta institutunun formalaşmasıdır. Azərbaycanda səhiyyədə sistemli islahatlar aparmağa ehtiyac vardır.

Azərbaycanda digər post sovet ölkələrində (xüsusilə, Rusiya Federasiyasında) olduğu kimi icbari tibbi sığorta sisteminin tətbiqini və inkişafını təmin etmək üçün aşağıdakı islamatların həyata keçirilməsi məqsədəuyğundur:

-İcbari tibbi sığorta mexanizminin real tətbiqinə başlanılması;

-Müvafiq hökumət strukturları arasında birgə işçi qrupunun yaradılması;

-İcbari ödənişlərin səviyyəsinin müəyyən etmək üçün başlanğıc ilində ölkə üzrə gözlənilən əmək haqqı fondunun səviyyəsi ilə ümumi səhiyyə xərcləri səviyyəsinin dərindən təhlil olunması, həmçinin dövlətin digər maliyyə imkanları qiymətləndirilməklə qərarların qəbul olunması;

-İcbari tibbi sığorta sisteminin gəlirləri ilə sığorta olunan pasientə göstərilən tibbi xidmət üzrə öhdəlik arasında balansın təmin edilməsi;

-İcbari tibbi sığorta sisteminin bütün subtektləri tərəfindən resursların məqsədli və səmərəli istifadə ilə bağlı effektiv mexanizmin təmin edilməsi;

-Fəaliyyət dövründə yığılmış mənfi xüsusiyyətlərin aradan qaldırılması;

-İcbari tibbi sığortanın, səhiyyənin və vətəndaşların hüquqi və təşkilati-iqtisadi mexanizmlərin qarşılıqlı mexanizminin harmoniyası.

Azərbaycanda tibbi sığorta sisteminin inkişafına mane olan amillərdən ən vacibi vətəndaşların sığorta sahəsində maarifçilik və reklam səviyyəsinin aşağı olmasıdır. Buna görə də cari dövrdə ölkədə dövlət maliyyəsi hesabına ictimai, sahibkarların maliyyəsi hesabına isə biznes reklam və məlumat materiallarının vətəndaşlara çatdırılması tibbi sığortanın inkişafı baxımından zəruridir. Bu yolla, həmçinin vətəndaşlara tibbi sığorta sisteminin sərfəliliyinə olan inam problemi də öz həllini tapmış olar.

Əhalinin gəlirinin azlığı, işsizlik və yoxsulluq problemi bu gün ölkədə tibbi sığorta sisteminin inkişafına ciddi maneə törədir. Məhz bu baxımdan, hökumət tərəfindən əhalinin həyat səviyyəsini yüksətmək məqsədilə həyata keçirilən istənilən islahat və tədbir son anda ölkədə tibbi sığorta sisteminin inkişafına öz töhfəsini verməlidir. Burada islahatın intensiv və yüksək qayğı içərisində aparılması xüsusilə diqqət mərkəzində olmalıdır.

Bu gün ölkədə işləyən əhali ilə yanaşı,işsiz əhalinin də tibbi sığorta sisteminə cəlb olunması və ya hər hansı bir yolla onların pulsuz tibbi xidmətlərlə təmin edilməsini reallaşdırmaq məqsədilə də yeni və davamlı maliyyə mənbələri tapmaq lazımdır.

AZƏRBAYCANDA FOND BAZARININ PROBLEMLƏRİ

Mahmudova S.Y.
Azərbaycan Dövlət İqtisad Universiteti

Azərbaycanda qiymətli kağızlar bazarının yaranması 20-ci əsrin əvvəllərinə təsadüf edir. Ölkəmizdə ilk səhmlər 1913-cü ildə Bakı Tacir Bankının nizamnaməsinin təsdiq edilməsi ilə buraxılmışdır.Müstəqilliyimizin ilk dövrlərində, 1991-ci ildə təşkil olunan Bakı Qiymətli Kağızlar Birjası Azərbaycan Respublikasının yeni yaranan qiymətli kağızlar bazarında ilk birja oldu.Müstəqil Azərbaycan Respublikasında qiymətli kağızlar bazarının yaranması yeni iqtisadi tariximizdə ən önəmli hadisələr sırasındadır, çünki bu bazarın mövcudluğu hər ölkənin iqtisadi tərəqqi amillərindən, Azərbaycanı dünya iqtisadi sisteminə yaxınlaşdıran vacib maliyyə infrastrukturlarından biridir. Dünya təcrübəsindən bəllidir ki, qiymətli kağızlar bazarı bazar iqtisadiyyatının əsas təməlidir, məhz buna görə də ümummilli liderimiz möhtərəm Heydər Əliyevin 1998-ci il dekabrın 30-da Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin yaranması haqqında verdiyi 58 saylı Fərmanı dünya maliyyə təşkilatları, xarici sərmayədarlar və şirkətlər tərəfindən yüksək dəyərləndirilmişdir. 26 iyul 1999-cu il tarixində «Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin (QKDK) fəaliyyətinin təmin edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin Fərmanının imzalanması ilə ölkədə mütəşəkkil qiymətli kağızlar bazarının formalaşmasında çox mühüm rol oynamışdır.

Azərbaycanda fond bazarının inkişafının əsas problemləri kimi aşağıdakılar qeyd edilə bilər:

- Marifləndirmə işlərinin zəif aparılması;
- Neqativ təsir göstərən xarici amillərin aradan qaldırılması (istehsal sahələrinin dirçəldilməsi, sosial sabitliyin bərqərar olunması, əhalinin real gəlirlərinin artırılması və b.);
- Qiymətli kağızlar bazarının məqsədli yenidən istiqamətləndirilməsi-ilk növbədə dövlətin maliyyə ehtiyyatlarının QKB vasitəsilə ödənilməsinin azaldılması və iri səhm paketlərinin Azərbaycanda istehsalın dirçəldilməsi və inkişafı məqsədlərinə sərbəst pul resurslannın yönləndirilməsi üçün yenidən bölüşdürülməsi;
- Qanunvericiliyin yaxşılaşdırılması və ona riayət olunmasına nəzarət;
- Fond bazarında dövlətin rolunun artırılması, bunun üçün: qiymətli kağızlar bazarının inkişafı və onun cari tənzimlənməsi, fond bazarı modelinin seçilməsi, eyni zamanda qiymətli kağızlar buraxılışı hesabına təsərrüfatın və büdcənin maliyyələşdirilməsi mənbələrinin payını müəyyənləşdirmək məqsədilə uzunmüddətli fəaliyyət konsepsiyası və siyasəti işlənib hazırlanmalı, qiymətli kağızlar bazarını formalaşdırmaq məqsədilə dövlət və özəl sektorun resurslarını birləşdirə biləcək qiymətli kağızlar və fond bazarı üzrə güclü Komissiya yaradılmalıdır və b.;
- İnvestorların qorunması problemi. Bunu üçün dövlət və ya qismən dövlət qoruma sistemi formalaşdırmalıdır. Emitentlərin maraqlarını qorumaq məqsədilə və qiymətli kağızların hərəkətinin qeydiyyatı üçün depozitar və klirinq, eyni zamanda vasitəçi şəbəkələrinin yaradılması.
- Məlumatların açıqlığı prinsipinin reallaşması: bu qiymətli kağız emitentlərinin fəaliyyəti haqqında nəşrlərin genişləndirilməsi, emitent-kompaniyaların qəbul olunmuş reytinq qiymətləndirməsinin tətbiq olunması, ixtisaslaşmış nəşrlərin (investisiya obyekti kimi ayrı-ayrı sahələri xarakterizə edən) şəbəkəsinin inkişaf etdirilməsi, qiymətli kağılzlar bazarını qiymətləndirmək üçün ümumi qəbul olunmuş göstəricilər sisteminin yaradılması və s.
- QKB-ın inkişaf etdirmək məqsədilə xarici köməyin cəlb edilməsi: bu sahədə təhsil sisteminin inkişaf etdirilməsi.

Lakin, bütün bu problemlərin mövcudluğuna baxmayaraq ölkəmiz üçün yeni olan bu bazar strukturu gələcəkdə yüksək templərlə inkişaf edəcəkdir. Belə ki, özəlləşdirmə prosesinin davam etməsi, iri korporasiyaların, holdinq strukturlarının yaranması, bununlada iri səhmdar cəmiyyətlərinin formalaşması Azərbaycanda QKB-ın lazımi səviyyədə bərqərar olunmasına və milli şirkətlərimizin səhmlərinin dünya fond birjalarında iştirakına şərait yaradacaqdır.

İlkin, "Qiymətli kağızlar və fond birjaları haqqında" qanun qəbul edilməsinə baxmayaraq, hələ də indiyə qədər investorların hüquqlarının qorunması, habelə dövlət qiymətli kağızlarının depozitarisinin yaradılması və bank sistemində depozitar fəaliyyətin tənzimlənməsi sahəsində bir sıra neqativ hallar müşahidə olunmaqdadır.

Onu da qeyd edək ki, qiymətli kağızların sistematik dövriyyəsi ölkəmizin maliyyə sistemini əsaslı surətdə yeniləşməsini stimullaşdıra bilər. Belə ki, Qiymətli kağızlar bazarının köməyi ilə əsas iqtisadi operatorlar arasında: maliyyə vasitəçiləri ilə kredit institutları; banklar, sığorta şirkətləri, fond birjaları arasında əlaqələr daha da güclənir. Odur ki, yaxın gələcəkdə ölkədə qiymətli kağızlar bazarının, xüsusilə də fond birjasının fəaliyyətinin inkişafı diqqət mərkəzində olmalıdır.

Kredit reytinqi artdığına görə respublika höküməti və şirkətləri öz qiymətli kağızları ilə dünya bazarına çıxmalı, cəlb olunacaq maliyyə resuslarından daha səmərəli istifadə etmək məqsədilə onları ən mühüm sosial-iqtisadi problemlərin həllinə xidmət edən layihələrin mənimsənilməsinə yönəltməli, ölkədə dünya maliyyə bazarlarının monitorinqi xidmətini yaratmalıdırlar. Azərbaycan Respublikası Milli Bankı isə bütün sivil ölkə də olduğu kimi, monetar məqsədlərinə çatmaq üçün belə bir bazarın formalaşmasında daha çox maraq olmalıdır.

QKB-da dövlətin ən başlıca məqsədi hazırda mövcud olan bazarı investisiyaların toplanmasına daha çox imkan yaradan, geniş əhatəli, effektiv və rəqabətli bazara çevirmək olmalıdır.

Ümumiyyətlə, ölkəmizdə QKB-ın inkişafı üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi məqsədəuyğundur: ölkənin milli maraqlarına cavab verən QKB konsepsiyasının işlənib hazırlanması; qanunvericilik və normativ bazanın daim təkmilləşdirilməsi və mövcud qanunvericiliyə riayət olunmasına ciddi nəzarətin həyata keçirilməsi; investorların hüquqlarının qorunması və onların maliyyə təhlükəsizliyinin təmin edilməsi; səhmdar cəmiyyətlərin dövlət səhm nəzarət paketlərinin səmərəli idarə edilməsi; emitent və investorların sayının artırılması; qiymətli kağızların hərəkətini və infrastrukturunu reqlamentləşdirən normativ sənədlərin öyrənilməsinin təşkili; qiymətli kağızlarla aparılan əməliyyatların nəzarətdə olması və b.

ОСНОВНЫЕ ПРОБЛЕМЫ ОПТИМИЗАЦИИ БЮДЖЕТНЫХ РАСХОДОВ

Алиева Ж.Дж.
Азербайджанский государственный экономический университет

В любой стране государственный бюджет – это ведущее звено финансовой системы. Он объединяет главные доходы и расходы государства. Бюджетные расходы представляют собой денежные средства, которые направлены на финансовое обеспечение задач и функций государства и местного самоуправления и в свою очередь характеризующиеся адресной потребляемостью, достаточностью и социальной направленностью.

Управление расходами во все времена считалось одной из важнейших проблем в каждом государстве независимо от уровня развития экономики и поступлений в казну правительства. Как правило, это было связано с тем, что средства, выделенные из государственной казны для финансирования отдельных отраслей экономики или социальной жизни страны, оказывались недостаточными.

Выделяют следующие группы госрасходов:расходы на национальную безопасность;расходы на научные исследования;расходы на осуществление внешней политики;финансирование социальной сферы (образование, здравоохранение, культура, спорт и др);создание резервных фондов;расходы на гос. управление;расходы по обслуживанию государственного долга.

Необходимо периодически проводить оценку эффективности и результативности использования бюджетных средств и в соответствии с её результатами определять пути оптимизации бюджетов.В качестве основных направлений формирования расходов предлагается переход от модели управления затратами к модели управления результатами.

В свою очередь практика показала, что существуют проблемы, которые оказывают негативное воздействие на реализацию оптимизационных мероприятий: нарушение принципов целевого характера бюджетных средств и нерациональное расходование бюджетных средств. Под нецелевым использованием бюджетных средств понимается использование средств, которое не позволяет достичь заданного результата или в процессе реализации плана были установлены неправомерные действия.

У Азербайджана имеются такие проблемы как, высокие расходы на оборону по сравнению с здравоохранением. Но у нас есть закон "О бюджетной системе", и этим законом определяются приоритеты. И в нашем законе есть защищенные статьи. То есть что бы ни произошло, эти статьи должны быть реализованы и обеспечены финансами. В первую очередь это зарплата бюджетников, во-вторых - это пенсии. В-третьих - пособия беженцам и вынужденным переселенцам. Далее лекарства и лекарственные препараты, которые закупаются государством и затем бесплатно раздаются населению, скажем, диабетикам, больным туберкулезом и т.д. Что же касается того, что у нас большая часть бюджета идет на оборону и безопасность, то это объективно. Не стоит забывать, что Азербайджан находится в состоянии войны с Арменией и 20 % наших земель оккупировано. Поэтому Азербайджан должен создать современную армию, а это, естественно, требует крупных финансовых средств. Эта позиция Азербайджана не должна ставиться под вопрос.

В структуре бюджетных расходов на военные расходы планируется направить 1 778,5 миллиона манатов (при росте на 8,6 процента), капиталовложения увеличатся на 10,7 процента до 6930 миллионов манатов, расходы в сфере промышленности и строительства – на 10,7 процента – до 6 951,6 миллиона манатов, на образование – на 3,5 процента – 1 711,2 миллиона манатов, здравоохранение – на 7,2 процента – 777,7 миллиона манатов. На социальную защиту и социальное обеспечение прогнозируется снижение расходов на 1,5 процента – до 2 040,5 миллиона манатов, на науку – на три процента – до 142,5 процента, на прокуратуру, судебные и правоохранительные органы - на 1,1 процента – 1 227,1 миллиона манатов и т.д.

Бюджетная политика в социальной сфере направлена на:обеспечение финансовыми ресурсами базовых услуг, прежде всего, образования и здравоохранения;сокращение социального неравенства на основе перераспределения социальных расходов государства в пользу наиболее уязвимых групп населения.

Президент Азербайджана Ильхам Алиев утвердил Закон «О прожиточном минимуме на 2015 год».Согласно закону, этот показатель по стране будет увеличен со 125 манатов в этом году до 131 маната, в том числе для трудоспособной части населения - до 140 манатов (136 манатов в 2014 году), для детей и пенсионеров - до 108 манатов (103 маната).

Расходы государственного бюджета Азербайджана на 2015 год прогнозируются в размере 21,1 миллиарда манатов, что составляет 35,3 процента от ВВП. Расходы госбюджета по сравнению с 2014 годом [с учетом ожиданий] увеличатся на 5,2 процента, а с 2013 годом – на 10,2 процента.

Очевидено, без борьбы с нецелевым использованием средств государственного бюджета говорить ни о какой оптимизации расходов не имеет смысла. Нецелевое использование бюджетных средств стало массовым явлением. Опыт развитых стран подсказывает, что надо сделать прозрачным, подконтрольным общественности весь процесс составления плана расходования бюджетных средств и само расходование. Иными словами, бюджет республики, области или района должен быть более подробным и выполняться гласно по каждому направлению бюджетных средств, вплоть до небольших сумм, чтобы все видели, на что власти собираются потратить и как в действительности тратят деньги налогоплательщиков. Для этого бюджет должен быть детализированным, открытым и понятным.

Предусматриваются следующие задачи в области оптимизации расходов:

- Следует установить жесткие сметы расходов для всех государственных органов и бюджетных учреждений. Необходимо пересмотреть статус государственных унитарных предприятий. Большинство из них должно получить статус акционерных обществ со 100-процентным государственным участием. Главным распорядителям средств государственного бюджета необходимо взять под контроль обязательства, принимаемые от их имени бюджетными учреждениями.

- Следует завершить формирование механизма, препятствующего принятию законов без учета их последствий для бюджетной системы. Основы такого механизма к настоящему времени созданы. И законодательная, и исполнительная власть значительно повысили ответственность за принимаемые решения и их реализацию.

- Расходная часть бюджета должна стать инструментом достижения важнейших социальных и экономических целей. Для этого необходимо овладеть современными методами оценки

рациональности бюджетных расходов, внедрять индикаторы результативности затрат государственных средств.

- Предстоит продолжить оптимизацию сети высших и профессиональных учебных заведений в соответствии с потребностями страны. Нуждаются в уточнении источники финансирования этих организаций. Оптимизация сети научных учреждений, финансируемых из государственного бюджета, должна быть проведена путем сосредоточения средств на поддержке наиболее перспективных тем и направлений.

- Необходимо разработать Концепцию реформирования системы социальных льгот и выплат, предусмотрев при этом замену большинства категориальных льгот адресными формами социальной поддержки населения и ликвидацию ведомственных льгот.

- Осуществление государственных закупок (заказов) должно происходить прозрачно, на конкурсной основе.

- Осуществление расходов на оплату бюджетными организациями потребляемых топливно-энергетических ресурсов должно быть жестко увязано с тарифной политикой государства в этой сфере.

- Повышение оплаты труда государственных служащих в размерах, необходимых для обеспечения конкурентоспособности государственной службы на рынке труда, при прочих равных условиях должно происходить в том числе за счет сокращения общей численности занятых в государственном секторе.

СТРАТЕГИЯ ПОВЫШЕНИЯ ПОТЕНЦИАЛА НАЦИОНАЛЬНОЙ БАНКОВСКОЙ СИСТЕМЫ АЗЕРБАЙДЖАНА

Кишиев Дж.Е.

Азербайджанский государственный экономический университет

Целью настоящего исследования является определение методологических принципов развития и формирования потенциала национальных банков экономики переходного периода (на примере Азербайджанской Республики) в сопряженности с обеспечением условий экономического роста на основе оценки деловой активности отдельных групп и совокупности национальных банков в целом в изменяющейся социально-экономической среде развития страны. Цель работы обусловила следующие задачи:

• определить принципиальные положения формирования кредитного потенциала национальных банков в условиях перехода к рыночной экономике с учетом современного уровня развития национального и мирового рынка банковских услуг;

• проанализировать совокупное воздействие социально-экономических условий и факторов на состояние банковского сектора, формирование кредитного потенциала национальных банков с учетом особенностей экономики трансформационного периода на примере Азербайджанской Республики;

• оценить влияния институциональных взаимосвязей банковской системы страны с другими структурами экономики и выявить инструменты, позволяющие использовать потенциальные возможности этих взаимосвязей для обеспечения активизации деятельности национальных банков в развитии экономики страны;

• определить стратегию повышения активности деятельности национальных банков, адекватной требованиям экономического роста страны, с использованием выявленных различий банков по ориентации их деятельности и реакции на меняющиеся социально-экономические условия их функционирования;

• выявить особенности развития системно значимого и системообразующего Международного Банка Азербайджана и определить его роль в социально-экономических преобразованиях страны.

Потенциал национальных банков - возможности предоставления современных банковских услуг (инструментов и банковских продуктов), обеспечивающих, наряду с коммерческими интересами банков, национальные социально-экономические интересы страны в финансовой и денежно-кредитной сфере.

Республики с учетом: а) качественной неоднородности национальных банков и реакции различных групп банков (крупных, средних и мелких) на воздействие факторов внешней среды; б) направлений и ориентиров стратегии развития банков каждой группы в соответствии с уровнем системной значимости и занятой конкурентной нишей; в) тенденций структурных изменений банков страны по группам, различающимся уровнем финансово-кредитного потенциала и конкурентной средой их функционирования;

- разработан метод системного анализа формирования кредитного потенциала национальных банков с обоснованием влияния социально-экономической среды в комплексе основных условий и факторов, таких как курс денежно-кредитной политики, уровень развитости институциональной базы, состояние денежной сферы и другие факторы;

- проанализированы и обобщены тенденции развития национальных банков в условиях трансформационного периода развития экономики Азербайджана сокращение их количества и повышение качественных параметров сформировавшихся к настоящему времени национальных банков - расширение возможностей предоставления современных банковских услуг;

- предложен комплекс мер по формированию институциональной основы развития национальных банков Республики с учетом функциональной и организационной специфики деятельности (различий сфер деятельности на рынке банковских услуг) малых, средних и крупных (системно значимых) национальных банков, участия каждой группы банков в развитии экономики страны;

- обоснован методологический подход к оценке развития национальных банков и в их составе Международного Банка Азербайджана как системно значимого банка страны, в соответствии с принципиальными эволюционными изменениями социально-экономической среды в стране и интеграционными тенденциями в мировой экономике, обеспечением конкурентоспособности и укреплением позитивного имиджа национальной банковской системы;

- разработана концепция развития Международного Банка Азербайджана в рамках стратегии динамичного развития в направлениях: а) сопряженности с основными ориентирами социально-экономической стратегии развития

Азербайджанской Республики, включая развитие промышленности и других отраслей реального сектора национальной экономики; б) трансформации его в национальный банк, банк европейского уровня, способного конкурировать с западными кредитными организациями и обеспечивать современный уровень банковских услуг на национальном и международном финансовом рынках.

Теоретическая и практическая значимость проведенного исследования состоит в выявлении и комплексной оценке воздействия на структурные изменения и уровень деловой активности национальных банков изменений социально-экономической среды - макроэкономических условий и факторов, что дает основание для вывода о необходимости приведения реальной (неформализованной) неоднородности национальных банков к законодательному закреплению статуса малых, средних и системно значимых банков.

Практическая реализация изложенных в работе принципов и рекомендаций будет способствовать созданию современной прочной базы для повышения потенциала национальных банков в обеспечении ускоренных темпов социально-экономического развития Азербайджана.

Практическая реализация изложенных в работе принципов и рекомендаций будет способствовать созданию современной прочной базы для повышения потенциала национальных банков в обеспечении ускоренных темпов развития Азербайджана.

НАЛОГОВЫЙ ПОТЕНЦИАЛ И МЕХАНИЗМЫ ЕГО ФОРМИРОВАНИЯ

Асланова К.Г.
Азербайджанский государственный экономический университет

Теоретическое развитие налоговой политики во многом зависит от развития терминологии. В основе данного направления лежит понятие «налог», от которого образуются другие дефиниции. Одной из них является «налоговый потенциал» которую активно разрабатывают в последнее двадцатилетие.

Налоговый потенциал — это совокупность объектов налогообложения в рамках действующей налоговой системы, расположенных на территории данного субъекта федерации.

Совокупная величина налогового потенциала определяет возможности правительства субъекта Федерации по формированию доходной части бюджета региона, а также потенциально возможную сумму доходов федерального бюджета, собираемую с данной территории.

В широком смысле «налоговый потенциал» — это совокупный объем налогооблагаемых ресурсов территории. В более узком, практическом, смысле «налоговый потенциал» представляет собой максимально возможную сумму поступлений налогов и сборов, исчисленных в условиях действующего законодательства.

Рассмотрение механизма формирования и оценки налогового потенциала невозможно без исследования теоретико-методических основ, в частности, обоснования экономической природы и сущности изучаемого процесса, выявления факторов, воздействующих на него, разработки понятийного аппарата, формирования определения.

Поэтому формулирование четких и обоснованных определений, устранение разночтения в терминологии создают основу для дальнейших научных исследований, обеспечивающих возможность формирования налогового потенциала.

Налоговый потенциал имеет двойственный характер. Так исходя из определения потенциала как «совокупности всех имеющихся возможностей, средств в какой либо области, сфере», и «источника, возможностей, средств, запасов, которые могут быть использованы для решения какой-либо задачи, достижения определенной цели», можно рассматривать два варианта включения налогооблагаемых ресурсов территории в ее налоговый потенциал.

С одной стороны если рассматривать только те ресурсы, которые на данный момент на законодательной основе подлежат налогообложению, то максимальная «совокупная величина налогового потенциала» будет достигнута, в случае если будут устранены имеющиеся налоговые льготы, не будет ситуаций уклонений от уплаты налогов, и других «потерь». То есть использовать все возможные ресурсы.

С другой стороны, если рассматривать не вовлеченные в законодательное налогообложение ресурсы, то мы расширим понятие потенциала. В данном случае речь пойдет о легализации неформальной и теневой экономики, и как следствие увеличении налогооблагаемых ресурсов территории.

Первый подход имеет больше негативных последствий воздействия на социальную, политическую и экономическую сторону деятельности субъектов, однако в теории позволяет решить некоторые текущие проблемы. Второй же подход более нацелен на достижение некоторых долгосрочных, «программных» целей. В связи с этим возникает новый фактор в категории «налоговый потенциал» — время выраженное в краткосрочных или долгосрочных периодах.

Отсюда возможно выделение двух подкатегорий:

1. Функциональный налоговый потенциал — это возможные частично налогооблагаемые, или не налогооблагаемые субъекты, способные оперативно полностью войти в процесс налогообложения, и не требующие сильного изменения законодательства.

2. Стратегический налоговый потенциал — субъекты хозяйственной деятельности, которые не подвержены законодательному налогообложению, в силу неформального или незаконного характера деятельности. Требует введения новых законов или изменения старых. Позволяет увеличить будущие налоговые поступления для реализации каких либо программ, проектов.

Измерение и последующее наблюдение за изменением налогового потенциала региона позволяет более глубокого исследовать проблемы теории и практики региональной экономики, разрабатывать антикризисные меры, привлекать инвестиции в реальный сектор экономики, а также моделировать эффективные схемы формирования регионального бюджета.

Как инструмент налогового регулирования налоговый потенциал используется для решения следующих задач:

- корректировка пропорций расширенного воспроизводства;
- оптимизация уровня налоговой нагрузки на экономику;
- оценка степени эффективности существующих и планируемых к введению налогов;
- определение состава и структуры системы налогообложения;
- разработка направлений налоговой политики;
- уменьшения дифференциации социально-экономического развития субъектов государства.

Можно выделить следующие основные направления по увеличению налогового потенциала:
- рост налоговых и неналоговых доходов;
- увеличение сбора недоимки;
- повышение инвестиционной привлекательности.

В результате можно сказать, налоговый потенциал, по мнению многих экономистов, это возможность налогов приносить доходы в бюджет. Эффективная реализация и рост налогового потенциала субъекта государства по праву считаются важнейшими условиями динамичного развития экономики страны. Обеспечение последовательного развития налогового потенциала будет способствовать росту финансовой самостоятельности и повышению уровня социально-экономического развития. Возможности практического применения заключает во внедрении рекомендации по определению налогового потенциала при формировании и совершенствовании налоговой политики.

БУХГАЛТЕРСКАЯ (ФИНАНСОВАЯ) ОТЧЕТНОСТЬ – ОСНОВА АНАЛИЗА ФИНАНСОВОГО СОСТОЯНИЯ ОРГАНИЗАЦИИ

Агаева С.Р.
Азербайджанский государственный экономический университет

Анализ финансовой отчетности – это процесс, при помощи которого оценивают прошлое и текущее финансовое положение и результаты деятельности организации. Для определения финансового положения организации используется ряд характеристик, которые наиболее полно и точно показывают ее состояние. Проводят анализ финансового состояния организации, как правило, при помощи инструментов финансового анализа, таких, как анализ структуры баланса, расчет коэффициентов ликвидности, рентабельности, деловой активности, финансовой устойчивости, вероятности банкротства. Анализ финансового состояния предприятия преследует несколько целей: – определение финансового положения предприятия; – выявление изменений в финансовом состоянии в пространственно-временном разрезе; – выявление основных факторов, вызывающих изменения в финансовом состоянии; – прогноз основных тенденций финансового состояния организации. Информационной базой для расчета данных показателей служит бухгалтерская отчетность, состоящая из бухгалтерского баланса, отчета о прибылях и убытках, отчета об изменениях капитала, отчета о движении денежных средств, приложения к бухгалтерскому балансу и отчету о прибылях и убытках. Все показатели необходимо рассчитывать в совокупности за ряд периодов и анализировать в динамике. Бухгалтерская отчетность – это единая система данных об имущественном и финансовом положении организации и о результатах ее хозяйственной деятельности. В общем случае годовая бухгалтерская отчетность коммерческих организаций (кроме страховых и кредитных) включает: – бухгалтерский баланс; – отчет о прибылях и убытках (отчет о финансовых результатах); – отчет об изменениях капитала; – отчет о движении денежных средств; – иные приложения к бухгалтерскому балансу и отчету о прибылях и убытках; – пояснительную записку; – аудиторское заключение, подтверждающее достоверность бухгалтерской отчетности организации, если она подлежит обязательному аудиту или если организация самостоятельно приняла решение о проведении аудита бухгалтерской отчетности. Основными требованиями, которым должна удовлетворять бухгалтерская отчетность, являются:

1. Достоверность. Бухгалтерская отчетность должна давать достоверное представление о финансовом положении организации, финансовых результатах ее деятельности и изменениях в ее финансовом положении. Информация о финансовом положении формируется главным образом в виде Бухгалтерского баланса, информация о финансовых результатах деятельности организации – в виде Отчета о прибылях и убытках, информация об изменениях в финансовом положении организации – в виде Отчета о движении денежных средств. Для обеспечения достоверности данных бухгалтерской отчетности организации обязаны проводить инвентаризацию имущества и обязательств, в ходе которой проверяются и документально подтверждаются их наличие, состояние и оценка. Перед составлением годовой бухгалтерской отчетности проведение инвентаризации является обязательным (кроме имущества, инвентаризация которого производилась не ранее 1 октября отчетного года).

2. Полезность. Информация считается полезной, если она уместна, надежна, сравнима и своевременна. Информация уместна, если наличие или отсутствие ее оказывает или способно оказать влияние на решения (включая управленческие) пользователей отчетности, помогая им оценить прошлые, настоящие или будущие события, подтверждая или изменяя ранее сделанные оценки. Информация надежна, если она не содержит существенных ошибок. Чтобы быть надежной, информация должна объективно отражать факты хозяйственной деятельности, к которым она фактически или предположительно относится. Сравнимость информации означает возможность для пользователей отчетности сравнивать показатели деятельности за разные периоды времени, чтобы определить тенденции в финансовом положении организации и финансовых результатах ее деятельности. Пользователи должны также иметь возможность сопоставлять информацию о разных организациях, чтобы сравнить их финансовое положение, финансовые результаты деятельности и изменения в финансовом положении. Информация своевременна, если она способна наилучшим образом удовлетворить потребности пользователей, связанные с принятием решений, т.е. если достигнут баланс между ее уместностью и надежностью.

3. Полнота. Полнота обеспечивается единством указанных выше отчетов, а также соответствующими дополнительными данными.

4. Существенность. В бухгалтерскую отчетность должны включаться существенные показатели. Показатель считается существенным, если его нераскрытие может повлиять на экономические решения заинтересованных пользователей, принимаемые на основе отчетной информации. Решение организацией вопроса, является ли данный показатель существенным, зависит от оценки показателя, его характера, конкретных обстоятельств возникновения. То есть существенность показателя при формировании бухгалтерской отчетности определяется совокупностью качественных и количественных факторов.

5. Нейтральность. При формировании бухгалтерской отчетности организацией должна быть обеспечена нейтральность информации, содержащейся в ней, т.е. исключено одностороннее удовлетворение интересов одних групп пользователей бухгалтерской отчетности перед другими. Информация не является нейтральной, если посредством отбора или формы представления она влияет на решения и оценки пользователей с целью достижения предопределенных результатов или последствий.

6. Последовательность. Организация должна при составлении отчетности придерживаться принятых ею содержания и форм отчетности последовательно от одного отчетного периода к другому. Изменение принятых содержания и формы Бухгалтерского баланса, Отчета о прибылях и убытках и Пояснений к ним допускается в исключительных случаях, например при изменении вида деятельности. При условии соблюдения всех требований, предъявляемых к бухгалтерской отчетности, она имеет достаточно широкие аналитические возможности. По данным Бухгалтерского баланса можно осуществить следующие аналитические процедуры: – проанализировать состав, структуру и динамику активов (имущества) и источников их формирования (собственных и заемных); – путем сопоставления отдельных статей актива и пассива Баланса оценить ликвидность баланса и платежеспособность организации; – на основе изучения соотношения величины собственного и заемного капитала оценить финансовую устойчивость предприятия; – оценить вероятность банкротства.

MİLLİ MÜHASİBAT UÇOTU STANDARTLARININ TƏTBİQİ ŞƏRAİTİNDƏ BİZNES QƏRARLARININ QƏBULUNUN ƏSASLANDIRILMASI

Kamilov L.A.
Azərbaycan Dövlət İqtisad Universiteti

Ölkəmizdə iqtisadiyyatın yüksələn templə inkişaf etməkdə və dünya iqtisadi məkanına qovuşmaqda olduğu müasir dövrdə müəssiələrin (biznesin) idarə edilməsi daha çox operativlik tələb edir. Bazardakı sürətli dəyişikliklər, məhsul və xidmətlərin daha qısa dövriyyəsi, istehlakçı tələbinin dəyişməsi periodunda operativ və strateji qərarların qəbulu və onların icrasına nəzarət üçün informasiya bazasının kompleksliyini və mükkəmməliyini zəruri edir. Azərbaycanın biznes mühiti şəraitində biznesmenlər üçün qeyri-müəyyənliyin əsas daxili amillərindən biri təşkilatın istər cari vəziyyəti və istərsə də perspektivləri

haqqında informasiyanın natamam olmasıdır. Bu səbəblər (vəziyyət) idarəetməyə yeni yanaşmaların formalaşmasını və onların tətbiqinin alətlərini(vasitələrini) tələb edir, hansılar ki;

• təşkilatın ağır iqtisadi problemlərini aydınlaşdırır

• tədbirlərin həyata keçirilməsi üçün xəbərdarlıqların vaxtında verilməsini təmin edir.

İnformasiya təminatı nöqteyi-nəzərindən optimal seçim kimi təşkilatda qərarların qəbuluna dəstək sistemi (QQDS) yaradıla bilər. QQDS-in işlənməsi və tətbiqinin rəhbərlik və aparıcı mütəxəssislər üçün müəssisənin missisiyasına, həmçinin onun strateji və taktiki məqsədlərinə uyğun olan, əsaslandırılmış qərarların qəbulunda operativ imkanlar formalaşdırmaq üçün informasiya dəstəyinin yaradılmasıdır. Belə sistemin əsasını aşağıdakılar təşkil edir:

• iqtisadi və maliyyə qiymətləndirilməsi, planların tərtibi, modellərin işlənməsi və biznes proqnozların tərtibi üçün həm daxili həm də xarici mənbələrdən analitik və müqayisə xarakterli verilənlərin və informasiyanın təqdim olunması;

• sistemin rəhbərləri ilə qarşılıqlı fəaliyyətdə və idarəetmə proseslərində informasiya, maliyyə, riyazi və evristik modellərin formalaşdırılması.

Müasir riyazi və proqram vasitələri qərar qəbuluna hazırlıq zamanı etibarlı köməkçi kimi çıxış edirlər. Onlar işgüzar danışıqlara hazırlıq, bazarın strateji təhlili və maliyyə sferasında proqnozların tərtib edilməsi zamanı təcrübəli məsləhətçi rolunu oynaya bilərlər. Geniş mənada maliyyə proqramları qeyri-müəyyənlik şəraitində optimallaşdırma məsələlərini həll edirlər. Burada Direkt-kostinq sisteminin tətbiqi bir çox hallarda effektli ola bilər.Ümumiyyətlə, Direkt-kostinq sisteminin Maliyyə hesabatlarının hazırlanmasında tətbiqi Ümumi Qəbul Edilmiş Mühasibat Uçotu Prinsipləri və Beynəlxalq Maliyyə Hesabatları Standartları ilə qadağandır. Direkt-kostinq "əlavə sifariş qəbul etmək üçün müəyyən bir məbləğdə hasilatı artırmaq" məsələsi və digər bu kimi qısa-müddətli qərarların qəbulu üçün optimal metoddur. Lakin, Direkt-kostinq dolayı xərclərdəki dəyişiklikləri nəzərə almadığı üşün dolayı xərclərin sürətli dəyişdiyi hallarda səmərəsiz nəticələrə yol açır.

QQDS-in effektivliyinin artırılması üçün mühasibat uçotunun üstün sistemi tətbiq edilməlidir. Milli Mühasibat Uçotu Standartları əsasında yeni uçot qaydalarının tətbiqi müəssisənin maliyyə vəziyyəti və fəaliyyətinin nəticələri barədə düzgün iqtisadi qərarların verilməsinə dair istifadəçilər üçün əhəmiyyətli hesab edilən müvafiq informasiyanın təqdim edilməsini nəzərdə tutur. Bu nöqteyi nəzərdən MMUS-ların tətbiqi vəziyyəti xeyli yaxşılaşdıra bilər. Laki, bu sahədə keçid proseslərinin sürətləndirilməsi vacibdir. Əvvəlcə onu qeyd edək ki, MHBS-də təqdim edilən maliyyə hesabatlarından ("Mənfəət və zərər haqqında hesabat", "Kapitalda dəyişikliklər haqqında hesabat", "Pul vəsaitlərinin hərəkəti haqqında hesabat") fərqli olaraq MMUS-da mühasibat uçotunun hesablar planı tətbiq edilir və bu da ilk növbədə "Mühasibat balansının tərtibinə dair verilmiş tələblər əsasında hazırlanmalıdır.Yeni hesablar Planı təsdiq edilmiş olsa da onun tətbiqinə dair müvafiq Təlimat işlənib hazırlanmamışdır. Məhz bu vəziyyət MHBS və MMUS-larda olan nəzəri-metodoloji və metodiki yanaşmaların, metodların praktiki baxımdan tam reallaşdırılmasına imkan vermir.

Bundan əlavə MMUS tətbiqində aşağıdakı problemlər mövcuddur:

• Beynəlxalq və yeni milli uçot, hesabat sistemi ilə işləyə biləcək peşəkar uçot kadrları kifayət sayda deyildir, bu sistemin tətbiqində onların maraqları zəifdir. Bu isə, bir tərəfdən ondan irəli gəlir ki, yeni uçot və hesabat sisteminə tam keçilməsi tələbi müəssisələr qarşısında ciddi şəkildə qoyulmur, digər tərəfdən, yeni standartlar əsasında hazırlanan maliyyə hesabatına tələbat yoxdur, nəticədə həmin hesabatın hazırlanmasında onlar maraqlı deyil;

• Maliyyə hesabatına, daha doğrusu onun informasiyasına tələbatın az olması, həm də onunla izah edilə bilər ki, ölkə daxilində fond bazarı zəif inkişaf etmişdir, bu sahədə rəqabət demək olar ki, yoxdur. Belə ki, iqtisadi cəhətdən möhkəm olan müəssisə və şirkətlərin xeyli hissəsi qapalı səhmdar cəmiyyətləri şəklində fəaliyyət göstərir. Açıq səhmdar cəmiyyətlərinin səhmlərinin ölkə daxili fond birjalarında alqı-satqısı isə formal xarakter daşıyır.

• informasiyanın kənar istifadəçilərinin, xüsusilə də biznes fəaliyyəti ilə məşğul olan, gəlir götürmək məqsədilə investisiya qoymaq arzusunda olanların, maliyyə uçotu və hesabatı vasitəsilə formalaşdırılan informasiyanı iqtisadi qərarların qəbul edilməsindən öncə təhlil və şərh etmə vərdişləri yoxdur və bir çox hallarda bilgiləri kifayət deyildir.

AZƏRBAYCANDA İNHİSARÇILIQ FƏALİYYƏTİNİN DÖVLƏT MEXANİZMİ VƏ ONUN TƏKMİLLƏŞDİRİLMƏSİNİN PRİORİTETLƏRİ

Ağakişiyev Z.İ.
Azərbaycan Dövlət İqtisad Universiteti

Dünya iqtisadiyyatında baş verən inhisarçılıq meyllərinin tənzimlənməsində ənənəvi antiinhisar tədbirləri və normalarının artıq yetərli olmaması isə mövcud mexanizmlərin təkmilləşdirilməsini və yenilərinin tədbiq edilməsini obyektiv zərurətə çevirir.

Müstəqillik illərində Azərbaycanda antiinhisar siyasətinin həyata keçirilməsi, rəqabətin qorunması və inkişafı, təbii inhisarların məhsul və xidmətlərinə qiymətlərin tənzimlənməsi sahəsində kifayət qədər qanun və normativ aktların qəbul olunmasına baxmayaraq onların bir çoxu kifayət qədər səmərəli reallaşma mexanizminə malik deyildir. Digər tərəfdən müasir dövrdə milli iqtisadiyyatın və bazarın inkişafının iqtisadi paradiqmasının dəyişməsi nəticəsində rəqabəti və inhisarları tənzimləmə meyarları, normaları və standartları, onların tətbiqinin mexanizmləri və üsullarını modifikasiya olunur. bütün bunlar öz növbəsində inhisarçılıq fəaliyətinin məhdudlaşdırılması və effektiv rəqabət mühitinin formalaşdırılmasının metodoloji və əməmli problemlərinin araşdırılmasını tələb edir.

Qeyd etmək lazımdır ki, bazar rəqabətinin inhisarlar tərəfindən sıxışdırılması nəticədə cəmiyyəti külli miqdadrda iqtisadi-sosial itkilərə müruz qoyur və iqtisadi tərəqqinin əngəlinə çevrilir, əgər tarixi baxımdan inhisarçılığın tənzimlənməsi probleminin tədqiqinə diqqət yetirsək onda bunun hələ iqtisadi nəzəriyyənin formalaşması dövründən öncəyə aid olmasını və antiinhisar tənzimlənməsinin tarixi köklərinin daha qədim olduğunu görərik. Daha sonralar inhisarçılıq fəaliyyətinin tənzimlənməsi ilə əlaqədadr qanunvericilik bazası təkmilləşdirilmiş və ilk antiinhisar qanunları kimi 1890-cı ildə ABŞ-da Şerman qanunu, 1914-cü ildə Kleyton qanunu, 1936-cı ilin Robinson-Petman qanunu qəbul edilmiş və 1950-ci ildə bu qanuna Seller-Kefover düzəlişləri qəbul edilmişdir. Aparılan araşdırmalar birmənalı olaraq qeyd etməyə imkan verir ki, antiinhisar siyasəti və onun qarşıya qoyduğu məqsədlər, vəzifələr, onlara nail olmağın yolları və s. bu kimi məqamlara yanaşmalar müxtəlifdir. Bir qayda olaraq siyasətçilər bu məqsədlərə nail olmaq üçün zəruri olan xərclərin, məsrəflərin miqdarı haqda düşünmür və nəyin bahasına olursa-olsun dövlətin vəsaitləri hesabına bu məqsədlərə çatmağı məqsədəuyğun hesab edirlər. Belə ki, süni şəkildə istehsalın birləşməsinə və ya əmtəə bazarlarının genişlənməsinə maneəçilik törədir ki, bu da öz növbəsində rəqabət prosesində zəif inhisarçıların bazardan sıxışdırılıb çıxarılmasına mane olar. Lakin müasir dövrdə dövlət müdaxiləsinin optimal həddinin təmin edilməsi və müdaxilənin mənfi nəticələrini azaltmaq üçün antiinhisar qanunvericiliyinin hazırlanması və təkmilləşdirilməsində iqtisadçıların rolu durmadan artır.

Bu isə öz növbəsində gələcəkdə qarşılaşa bilinən inhisarçılıq məhdudiyyətlərinin müəyyən edilməsinə və kartellərin yaranması halının aradan qaldırılması, mövcud olanların isə dayanıqlılığının zəiflədilməsinə səbəb ola bilər. Qeyd etmək lazımdır ki, köhnə tiptənzimləmə metodları bir sıra hallarda ziddiyyətli (bir çox hallarda sahələrarası əlaqələr, ekoloji və sosial problemlər nəzərə alınmadan tətbiq olunduğuna görə), hətta müəmmalı, əksər hallarda qeyri-şəffaf və gözlənilməz idi. Müasir dövrdə bir sıra ölkələrdə artıq tətbiq edilməyə başlayan və geniş təbliğ olunan yeni tip tənzimləmə metodlarının məqsədi – zəruri sahələrdə rəqabəti formalaşdırmaq, aydın, şəffaf qanun və mexanizmlərdən istifadə etməklə inhisarçı şirkətin fəaliyyətini tənzimləməkdir. Qloballaşma şəraitində inzibati (qanunverici) tənzimləmə metodları ilə yanaşı geniş tətbiq olunan metod normativ-istiqamətləndirmə metodudur. Bu metod dövlət sifarişləri, vergilər, bank faizləri və dövlət subsidiyaları vasitəsilə reallaşdırılır. Dövlət bu vasitələrdən istifadə etməklə bir qayda olaraq milli bazarın müxtəlif seqmentlərinə təsir edir və orada rəqabətin intensivliyini tənzimləyir. Bu metodun tətbiqində əsas məqsəd isə sahibkarlıq fəaliyyətini stimullaşdırmaqdır ki, bu da prioritet sahələri inkişaf etdirmək üçün dövlət sifarişləri, dövlətin vergi güzəştləri və subsidiyalar tətbiq etməsi ilə həyata keçirilir. Dünyada baş vermiş iqtisadi böhran və bir sıra ölkələrin valyuta məzənnəsi və monetar, fiskal siyasətləri sahəsində apardıqları antiböhhran tədbirləri daxili bazar və dünya bazar qiymətlərində kəskin fərqlərin yaranmasına gətirib çıxarmışdır. Nəticədə dünyada neftin qiymətinin qalxmasına baxmayaraq məhsul artıqlığı, investisiya çatışmamazlığı və s. səbəblərdən bir sıra ölkələrin məhsullarının qiymətlərinin çox aşağı düşməsi prosesi müşahidə olunur.

Bazarda rəqabət vəziyyəti daim inkişaf etdiyindən bu dəyişiklikləri sistematik müşahidə etmək, rəqiblərin imkanlarını düzgün qiymətləndirmək, təsərrüfat subyektlərinin seçdikləri strategiyaların rəqabətə dayanıqlı olmasını yoxlamaq dövlət orqanlarının bir vəzifəsi kimi çızış etməlidir. Milli iqtisadiyyatın davamlı inkişafını təmin etmək baxımından antiinhisar siyasətinin həyata keçirilməsində əsas çətinlik törədən problem isə rəqabət qabiliyyətinin dərəcəsinin müəyyən edilməsidir.

XIII BÖLMƏ

DİLÇİLİK

MÜRƏKKƏB SÖZLƏRİN KOMPONENTLƏRİ ARASINDA ƏLAQƏ

Şivəxanlı G.F.
Sumqayıt Dövlət Universiteti

Dilimizdə mürəkkəb sözlərin əmələ gəlməsində aşağıdakı cəhətlər özünü göstərir: maddi əsas; komponentlərin məna xüsusiyyətləri; komponentlərin tipləri; forma və məzmun münasibətləri; komponentlər arasında əlaqə.

Komponentləri arasındakı əlaqəyə görə mürəkkəb sözləri iki qismə ayırmaq olar: 1) tabesizlik əlaqəsilə birləşən mürəkkəb sözlər, 2) tabelilik əlaqəsi ilə birləşən mürəkkəb sözlər.

Bu iki əlaqənin əsas mahiyyəti ondan ibarətdir ki, bəzi mürəkkəb sözlərin komponentləri məna etibarilə öz müstəqilliyini mühafizə etdiyi və biri digərindən asılı olmadığı halda, bəzi mürəkkəb sözlərin komponentləri məna etibarilə biri digərindən aslı olur və birinci komponent ikincisinin bu və ya digər cəhətdən tamamlamağa xidmət edir. Mürəkkəb sözlərin komponentləri arasındakı bu iki əlaqədən birincisi tabesizlik, ikincisi isə tabelilik əlaqəsini təmsil edir.

Bu nöqteyi-nəzərdən nəzərdən dilimizdə olan bütün mürəkkəb sözlər iki böyük və əsas qrupa bölünə bilər:

1. Tabesizlik prinsipi üzrə düzələn mürəkkəb sözlər
2. Tabelilik prinsipi üzrə düzələn mürəkkəb sözlər

Müasir Azərbaycan ədəbi dilində komponentləri tabesizlik əlaqəsi əsasında birləşən mürəkkəb sözlərin əsasən aşağdakı növlərinə təsadüf edirik.

a) Məzmun və forma etibarilə bir- birindən fərqli olan sözlərin birləşməsi ilə əmələ gələnlər. Belə sözlər çox zaman eyni nitq hissələrindən ibarət olur; məsələn, Məmmədhüseyn, Cəfərqulu, Məmmədəli. Belə mürəkkəb sözlərin komponentlərinin heç birində xüsusi bir şəkli əlamət olmur. Lakin bu tipli mürəkkəb sözləri başqa bir məna verən mürəkkəb söz şəklinə salmaq üçün onların sonuna müəyyən şəkli əlamət artırıla bilər, belə hallarda komponentlər arasındakı tabesizlik əlaqəsi pozula bilmir.

b) Eyni sözün təkrarı ilə əmələ gələnlər; məsələn, böyük-böyük, tez-tez, səhər-səhər. Belə sözlərin birinci və ya ikinci komponenti, yaxud hər iki komponenti müəyyən şəkli əlamət qəbul edə bilər; məsələn, gəlhagəl, növbənöv, günbəgün. Bu şəkli əlamətlər belə onlar arasındakı tabesizlik əlaqəsini pozmur.

c) Tam sinonim sözlərin təkrarı ilə düzələnlər; məsələn, gözəl-göyçək, səs-küy, tez-tələsik. Belə sözlərdə komponentlərin sadə və ya düzəltmə olması da onlar arasındakı tabesizlik əlaqəsini poza bilmir; məsələn, saysız-hesabsız.

ç) Nisbi sinonim birləşməsindən düzələnlər; məsələn, el-oba, əl-ayaq, həyət-baca.

d) Biri məcazi mənada sinonim olan sözlərin birləşməsi ilə düzələnlər; məsələn, ürək-dirək.

e) Antonim sözlərin birləşməsindən düzələnlər; məsələn, gecə-gündüz, az-çox, dost- düşmən.

Müasir Azərbaycan ədəbi dilində komponentləri tabelilik əlaqəsi əsasında birləşən mürəkkəb sözlərdə ya yanaşma və ya idarə əlaqəsi müşahidə edilir.

Yanaşma əlaqəsi əsasında formalaşmış mürəkkəb sözlərin aşağdakı növlərinə təsadüf edilir:

a) Birinci komponenti sifət, say, əvəzlik, zərf, ikinci komponenti isim olanlar; məsələn, uzunsaç, ikiqat. Belə sözlər mətnin xaricində mürəkkəbliyini tamamilə mühafizə edə bilmir, sadəcə birinci növ təyini söz birləşməsinə və ya əlaqəsi olmayan müstəqil sözlərə çevrilə bilər.

b) Birinci komponenti sifət,say, ikinci komponenti düzəltmə sifətdən ibarət olan mürəkkəb sözlər; məsələn, boşboğazlıq, üçmərtəbəli

c) Birinci komponenti təktərəfli birləşmədən, ikinci komponenti sifətdən ibarət olan mürəkkəb sözlər; məsələn, üzüsulu, diliacı

İdarə əlaqəsi əsasında formalaşan mürəkkəb sözlərin aşağıdakı növləri vardı:

a) Belə mürəkkəb sözlərin əsas qismi ikinci növ təyini söz birləşməsi əsasında formalaşır; məsələn, suiti, kəklikotu. Belə mürəkkəb isimlərin çoxunda komponentləri müstəqil söz kimi təsəvvür etmək

mümkün deyildir.

b) Bu növ mürəkkəb sözlərin əhəmiyyətli bir qismi də feili sifət tərkibləri əsaında formalaşır; məsələn, günəbaxan, qaradinməz

c) İdarə əlaqəsi əsasında formalaşan mürəkkəb sözlərdən bir qismi –ma, –mə şəkilçisi vasitəsilə düzəlmiş isimlərin başqa sözlərlə birləşməsi yolu ilə əmələ gəlir; məslən, anadangəlmə, ucdantutma

ç) İdarə əlaqəsi əsasında formalaşmış mürəkkəb sözlərin bir qismi də komponentlərdən birincisi çıxışlıq, ikincisi yönlük halında olmaqla formalaşır. Məsələn, başdan-başa, gündən-günə.

Müasir Azərbaycan dilində zəngin xüsusiyyətlərə malik olan tabelilik və tabesizlik əlaqəsi əsasında düzələn mürəkkəb sözlərdən hansının daha qədim olduğu məsələsi Azərbaycan dili tarixinin qarşısında duran vacib məsələlərdən biri olmalıdır.

"AR-ƏR" ŞƏKİLÇİSİNİN TƏSİRLİLİK-TƏSİRSİZLİK KATEQORİYASINDA ROLU

Əsgərova L.S.
Sumqayıt Dövlət Universiteti

-Ar, -ər şəkilçisi ən çox təsirsiz məlum feillərdən bir qat səbəblilik anlamlı təsirli feillər əmələ gətirir və ya feilin mənaca konkret bir növünü, başqa bir sözlə, bir işi görmək və başa çatdırmaq semantik mərkəzini yaradır.

-Ar şəkilçisi təsirsiz feili təsirli formaya salan omonim şəkilçidir. Gələcək zaman və feili sifət şəkilçisi kimi işlənən ***–ar*** şəkilçisinin əsas fərqi leksik şəkilçi olmasıdır, eyni zamanda bu şəkilçi bir o qədər də məhsuldar olmamışdır. Məsələn:

Üzdülər, çıxardılar çün bu Hüseynin tənin,
Yas qurub göydə qurub mələklər cümləsi zar etdilər.

Azərbaycan dilində ***-ar -ər*** şəkilçisi vasitəsilə sifət və isimdən feil düzəlir və həmin feillərin bir qismi təsirli, bir qismi isə təsirsiz olur.

Dil faktları göstərir ki, ***-ar,-ər*** şəkilçisi sifətə artırıldıqda təsirsiz feil əmələ gəlir: Məs: *Birdən Ərmağan qızardı, bozardı. Dodaqları gah qızarır, gah saralır, gah da kətan kimi ağarırdı; Qar əriyir, sellər axır, ot göyərir səhrada.*

Göründüyü kimi, bu cümlələrdə ***-ar, -ər*** şəkilçisi ilə düzəlmiş *ağar, bozar, göyər* feilləri obyektə təsir edə bilməmiş, *kimi?, nə?, haranı?* suallarına cavab verən söz tələb etməmişdir.

Maraqlı cəhətlərdən biri də budur ki, bu təsirsiz feillərin hamısı rəng bildirən sifətlərdən - *ağ, boz, göy* sözlərindən əmələ gəlmişdir. Belə vəziyyət digər türk dillərində də vardır. Dmitriyev qumuq dilində feil düzəldən şəkilçilərdən danışarkən yazır ki, ***-ar, -ər*** qumuq dilində rəng bildirən sifətlərdən təsirsiz feil əmələ gətirir.

Lakin ***–ar, -ər*** şəkilçisini ismə artırdıqda bundan fərqli vəziyyət alınır. Belə ki, bu şəkilçini atributiv çalarlığı olan bəzi isimlərə artırdıqda təsirsiz, atributiv olmayan bəzi ismə artırdıqda isə təsirli feil əmələ gəlir: Məsələn:

Balaca oğlu isə o gün quzuları və buzovları otarırdı; Qiyası öz sürüsünü... otarırdı. və s.

Məlum olduğu üzrə, dilimizdə *yaşarmaq* feilinin kökü olan yaş sözü həm isim *(göz yaşı)*, həm də sifət *(yaş//sulu)* kimi tanınır. *Közərmək* feilinə gəldikdə isə onun kökü olan *köz* sözü hal-hazırda yalnız isim kmi işlənir. Lakin bu sözə diqqətlə nəzər saldıqda onda da sifətə məxsus çalarlıq *(qırmızılıq)* olduğu aşkara çıxır. E.V.Sevortyan haqlı olaraq göstərir ki, *köz* isimdən əmələ gəlmiş *közər* feili ola bilsin ki, tarixən göz kimi qırmızı olmağı bildirməmişdir. Bu cəhəti nəzərə alıb güman etmək olar ki, *yaşar və gözər* feilləri formalaşarkən *yaş və göz* sözlərində əlamət məzmunu üstünlük təşkil etmiş və ona görə də *ol//er* köməkçi feillərindən törəmiş olan ***–ar, -ər*** şəkilçisi *ağ, boz, göy* sifətlərindən təsirsiz feil əmələ gətirdiyi kimi, bu sözlərdən də təsirsiz feil əmələ gətirmişdir. *Otarmaq* feilinə gəldikdə isə demək lazımdır ki, bu təsirli feilin kökündə, yəni *ot* sözündə heç bir əlamət məzmunu yoxdur.

Dilimizdəki ***–ar, -ər*** şəkilçisi ilə düzəlmiş feillərdən bəzisinin təsirli, bəzisinin isə təsirsiz olmasında bu şəkilçinin mənşəyi, onun hansı sözdən törəməsi böyük rol oynayır. Başqa şəkilçilər kimi - ***ar,-ər*** şəkilçisi də törəmiş olduğu sözün xüsusiyyətini indiyədək mühafizə edib saxlaya bilmişdir. Bu xüsusiyyəti onun düzəltdiyi sözlərdə aydın şəkildə görmək olar. Odur ki, ***-ar, -ər*** şəkilçisi ilə düzələn feillərin təsirli və təsirsiz olduğunun səbəblərini müəyyənləşdirərkən onun hansı sözdən, hansı feildən törədiyini nəzərə almaq lazımdır.

Dil faktlarına əsasən belə bir mülahizə yürütmək olar ki, sifətlərə və atributiv isimlərə artırılan ***–ar,***

-ər şəkilçisi *ol//er* köməkçi feillərindən törəmişdir. Dilimizdəki *ağ-ar-ağ ol, boz-ar-boz ol, göy-ər-göy ol, yaş-ar-yaş ol* və s. misallar bu fikrin doğruluğunu təsdiq edən faktlardandır. Verilmiş dil faktları göstərir ki, ***-ar, -ər*** şəkilçili bu feillər əvvəllər mürəkkəb olmuş, *olmaq//ermək* feilləri mürəkkəb feilin bir komponentini təşkil etmiş, lakin zaman keçdikdən sonra "uzunmüddətli inkişaf prosesi" nəticəsində bunlar şəkilçi halına düşmüşdür. Əgər biz ***–ar, -ər*** şəkilçisi ilə düzəlmiş bu feillərə diqqət yetirsək, onlarda *olmaq* feilinin xüsusiyyətini görmüş olarıq.

Bütün bunları nəzərə alaraq dilimizdəki feil düzəldən ***–ar, -ər*** şəkilçisinin bir mənbədən təşəkkül tapdığına inanmaq çətindir. Bəzi dilçilərimiz bu şəkilçinin təşəkkülünü müxtəlif formada izah etsələr də, bunların eyni mənbədən olmaması qənaətinə gəlməkdə haqlıdırlar.

Faktlardan aydın olur ki, Azərbaycan dilində ***-ar, -ər*** şəkilçisini sifətə və atributiv mənalı ismə artırdıqda təsirsiz, atributiv mənaya malik olmayan ismə artırdıqda isə təsirli feil əmələ gəlir.

İSMAYIL ŞIXLININ ƏSƏRLƏRİNDƏ ŞİVƏ SÖZLƏRİNİN ƏSAS NİTQ HİSSƏLƏRİNƏ GÖRƏ TƏSNİFİ

Əhmədova F.Z.
Sumqayıt Dövlət Universiteti

Dilimizin ayrı-ayrı şivələrində işlənən və ancaq onlara məxsus olan sözlərə dialektizmlər deyilir.

Obrazların dilini fərdiləşdirmək, zəngin sinonim cərgələr vasitəsilə fikri daha obrazlı ifadə etmək üçün əsərlərində dialekt və şivə sözlərdən istifadə edən ədiblərdən biri də xalq yazıçısı İsmayıl Şıxlıdır. Onun əsərlərində işlənmiş dialekt və şivələr içərisində nitq hissələri üzrə daha çox isim və fellərə rast gəlmək olur.

İsimlər: Mərəkə (yığıncaq, məclis), pərdi (tavan), qıymaça (üçkünc və ya dördkünc baş yaylığı), mətəris (hami, kömək, daldalanacaq), xamralı (sacda bişirilən qalın çörək).

Halay bəy heç olmasa bir-iki xamralı çörəyi verər ("Ölən dünyam").

Tejən (qoyun dərisindən olub, içində qatıq, süd saxlamaq üçün dəri tuluq), nəmi (dəyədə ağartı yığılan xüsusi yer).

Şamxalın arabir anasının gözündən qaçıb nəmiyə girməsi, tejənlərin ağzını açması məgər yaddan çıxardımı? ("Dəli Kür").

Çəçiy (atın qabaq ayaqları).

Qəmər dal ayağı üstə qalxıb çəçiyi havada oynatdı.

Çətən (çöldə quzu saxlamaq üçün qarğı ilə hörülmüş yer), qaynar (paltar yumaq üçün qızdırılmış su), doqqaz (həyət qapısı), şenlik (kənd, oba, yaşayış məntəqəsi).

Qızı qaytarsa, sabah baş qaldıırb şenliyin arasında gəzə bilməzdi ("Dəli Kür").

B) Sifətlər: Deyikli (nişanlı), sınqın (qəlbi yaralı), çim (tam, tamam).

Cahandar ağa atın çim batmasına dözə bilmədi.

İlanyalı (uzunsov ot tayası).

Həyətdə ilanyalı yığılmış odunlara, iri meyvə ağaclarına baxdı ("Ayrılan yollar").

Qaradaban (uğursuz, xeyir gətirməyən).

Balaca da, böyük də qaçın qaradaban gəlir, dinməyəcəklərmi? ("Ölən dünyam")

Caydax (kök, canlı), ərəmik (doğmayan, qısır), suçlu (günahkar). Ərəmik camış tək anqırıb gəzirdi ("Dəli Kür".)

C) Əvəzliklər: Nə vaxt? (havaxt?)

Yenə nə olub, ay qız? Haqq salamı havaxtdan kəsibsən? ("Ayrılan yollar").

Heç kim (heş kim), həmin (haman).

Ç) Fellər: Yortmaq (yavaş-yavaş qaçmaq), çimir eləmək (yuxu almaq, mürgüləmək).

Sən atanın goru bir az çimir eləyək ("Ayrılan yollar").

Kirimək (sakitləşmək, susmaq), öləzimək (zəifləmək, sönmək).

Allahyar öləziməkdə olan lampaya baxıb daha da darıxdı ("Dəli Kür").

Dinşəmək (qulaq asmaq).

Alan ətrafı dinşədi ("Ölən dünyam").

Şinimək (dayanıb durmaq), marığa yatmaq (pusqu qurmaq), çağnamaq (tapdalamaq, ayaqlamaq), qanrılmaq (dönmək, çevrilmək).

D) Zərflər: Təfərrinclə baxmaq (diqqətlə baxmaq).

Təfərrinclə ipək qumaş pərdələrin əhatə etdiyi təmiz yorğan-döşəyə baxdı (“Ölən dünyam”). Lateyr danışmaq (ədəbsiz danışmaq).

Başım batsın, bir az lateyr danışmağı, şit-şit zarafat etməyi tərgidə bilmirdim (“Dəli Kür”).

Korun-korun (yavaş-yavaş).

Orta ocaqda korun-korun yanan kötüyün üçün vurub qorlandırdı, çır-çırpı yığıb üstünə tökdü (“Dəli Kür”).

Bəzən yazıçılar əsərlərində elə dialekt sözləri işlədirlər ki, onları heç bir dialektoloji tədqiqat və lüğətlərdə tapmaq olmur.

Elə sözlərin toplanıb tədqiq edilməsi dilimizin lüğət fondunun zənginləşməsinə kömək edə bilər.

AZƏRBAYCAN DİLİNİN TƏŞƏKKÜL TARİXİ

İmanova Z.V.
Sumqayıt Dövlət Universiteti

Doğma ana dilimiz olan Azərbaycan dili – Azərbaycan türkcəsi və Azərbaycan xalqının təşəkkülü III- VII əsrlərdə baş vermiş, VII- VIII əsrlərdə başa çatmışdır. Bu zaman Azərbaycanda gedən dini mübarizə artıq sona yetmişdir.

XI əsrdə Azərbaycan dili Qafqazda və qonşu ölkələrdə geniş inkişaf tapır.

Azərbaycan dili türk dillərinin oğuz qrupuna aiddir, daxildir. Yerli əhalinin əsas dili olan Azərbaycan dili XI əsrin ortalarında oğuz tayfaları dilinin güclü təsiri altında tam şəkildə formalaşmışdır. XII əsrdə artıq ədəbi Azərbaycan dili təşəkkül tapdı. Şairlər fars və ərəb dili ilə yanaşı bu dildə də əsərlər yazırdılar. N. Cəfərov, “ Azərbaycan türkcəsinin milliləşməsi tarixi ” əsərində XI- XII əsrlərdən başlayaraq Azərbaycanda meydana çıxan möhtəşəm türk dövlətlərində rəsmi dil kimi ərəb, fsrs dilləri ilə yanaşı türk dilindən də istifadə olunduğunu göstərir.

Azərbaycan dili (Azəri, Azərbaycan Türkcəsi) – Azərbaycan Respublikasının və Rusiya Federasiyasının Dağıstan Respublikasının rəsmi dövlət dilidir. Türk dillərinin cənub - qərb qrupuna daxildir. Azərbaycan dilindən Azərbaycan, İraq, Gürcüstan, Rusiya, Türkiyə, Ukrayna, Rusiya ərazisində geniş istifadə olunur.

Azərbaycan Respublikası ərazisində bu dilin cüzi fərqlənən dörd dialekti vardır:

1. Şərq dialekti – Quba, Şamaxı, Bakı, Muğan və Lənkəran dialektləri.
2. Qərb dialekti – Qazax, Qarabağ, Gəncə dialektləri.
3. Şimal dialekti – Şəki, Zaqatala və Qax dialektləri.
4. Cənub dialekti – Naxçıvan, Ordubad, İrəvan dialektləri.

Azərbaycan dili zaman içində böyük irəliləyiş göstərmiş qədim dillərdən biridir. “ Dədə Qorqud Dastanları ” nın dili ədəbi dilin lüğət şəkli olaraq qəbul edilirsə, hal- hazırda xalqa xidmət edən bu dilin yaşı 1300 ildən artıqdır. Bunula yanaşı Həsənoğlunun qəzəlləri, “Dastani Əhməd Harami ” və bu kimi əsərlərin dili də ox qədim dil mədəniyyətimizdən xəbər verir. Azərbaycan yazılı ədəbi dilinin tarixi isə bu ana qədər əldə olan qaynaqlara əsasən XIII yüzillikdən başlayır.

Azərbaycan ədəbi dilinin 800 ilə yaxın inkişaf tarixi iki böyük dövrə ayrılır – qədim və yeni dövrlər. Qədim dövr təxminən XIII – XVIII əsrləri, yeni dövr isə XVII yüzillikdən sonrakı zamanı əhatə edir. Qədim dövr : Azərbaycan ədəbi dilinin istifadə olunduğu coğrafiya genişliyi ilə diqqətləri çəkməkdədir. Cəlairilər, Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər kimi Azərbaycan dövlətlərinin saray və ordu dili olan bu dil bütün Ön Asiyada ədəbi dil rolunu oynamışdır.

Dövrlər arası fonetik fərqlər çoxdur.Belə ki, yeni dövr Azərbaycan ədəbi dili eyni zamanda fonem tərkibinin sabitləşməsi ilə seçilməkdədir. Birinci dövrdə o a ünlü, t // d, m // b , h // g // x ünsüz dəyişimi artıq birincilərin (o və t, m, h) zəfəri ilə başa çatır : av- ov, dutmaq- tutmaq; qani- xanı- hanı və s. Bu dövrdə q’dim Azərbaycan ədəbi dilinin Osmanlı Türkcəsi ilə ortaq olan bir sıra kəlmələri (şimdi, şöylə, şu, kəndi və s.) yeni dövrdə artıq işləkliyini itirməyə başlayır. Bu, Türk ədəbi dillərinin ayrılmasının (differensasiyasının) sona çatmasına bir işarədir. Eyni zamanda bu dövrdə əski Azərbaycan Tükcəsi üçün dogma sayılan sözlər də arxaikləşməyə başlamışdır.

Yeni dövr: Azərbaycan ədəbi dilinin bu dönəmi üç dövrü əhatə edir.

1. Ədəbi dilin məhəlliləşmə dövrü (XVIII);

2. Milli dilin yaranması və inkişafı dövrü (XIX əsr və XX əsrin birinci yarısı);
3. Modern (müasir) dövrü (XX əsrin birinci yarısından sonra).

XX əsrdə Azərbaycan ədəbi dilinin inkişafında üç dövr özünü göstərir: 1) Ədəbi dil xalq dili ilə bərabərləşmə dövrü. Bu hal özünü " Molla Nəsrəddin " jurnalının yazılarında, C. Məmmədquluzadə, Ə. Haqverdiyev kimi yazıçıların əsərlərində göstərməkdədir;

2) Daha çox Osmanlı (Türk) və əski Azərbaycan dilinin kökünə uyğun ədəbi dil yaratmaq. Bu özünü " Füyüzat " və " Həyat " kimi jurnal və qəzetlərin, Ə. Hüseynzadə kimi yazıçıların dilində özünü göstərir. Bu dilin o zamanki Türk ədəbi dilindən fərqlənmədiyini deyə bilərik;

3) hər kəs tərəfindən anlaşılan, ədəbi dil normalarına dayanan ədəbi dil. Heç bir ləhcə təsiri qəbul etməyən bu dil A. Şaiq, C. Cabbarlı, S. Hüseyn, A. Səhhət kimi şair və yazıçılar tərəfindən istifadə olunmuşdur. Yeni dönəm Azərbaycan ədəbi dilinin müasir inkişaf dövründə önəmli hadisələrdən biri də, Azərbaycan ədəbi dilinin dövlət dili statusu qazanması olmuşdur. Cümhuriyyət hökuməti 27 iyun 1918-ci ildə o zaman Türk dili deyilən Azərbaycan dilini dövlət dili elan etmişdir. Azərbaycan dili dövlət dili olaraq Azərbaycan SSR konstitutsiyasında (1978) yer almışdır. 1995- ci ildə " Azərbaycan dili " xalq referendumu ilə qəbul edilən müstəqil Azərbaycan Respublikasının yeni konstitutsiyasında da dövlət dili olaraq yer alır. Azərbaycan ədəbi dili, xalq ünsiyyət dilinin işlənmiş halıdır; ciddi fonetik, sintaksis, qrammatik və üslub qaydaları ilə cəmiyyətə yüksək səviyyədə xidmət verən şəklidir.

Orta əsrlərdə Azərbaycanda Türk, Ərəb və Fars dillərində nəfis əlyazma örnəklərinin meydana gəlməsi, dünyanın ən tanınmış kitablarının ölkəyə gətirilməsi ilə qədim kitab mədəniyyətimizin zənginləşməsi bir vaxta düşür. Qaynaqlar bu dönəmdə Azərbaycanda bir milyondan artıq əlyazma kitabının olduğunu göstərir. Azərbaycan dilinin yaranması, inkişafı, onun dünya dilləri arasında mövqeyi, əsrarəngizliyi bu dilin daha da irəliləcəyinin təminatıdır.

KOMPONENTLƏRİNİN SABİTLİK DƏRƏCƏSİNƏ GÖRƏ SÖZ BİRLƏŞMƏLƏRİNİN TƏHLİLİ

Qəhramanova A.E.
Azərbaycan Dillər Universiteti

Söz birləşməsi iki və daha artıq müstəqil sözün məna və qramatık cəhətdən birləşməsindən əmələ gəlir. Söz birləşmələrində komponentlərin həm mənaca, həm də forma-quruluş baxımından bağlılığı eyni dərəcədə əsasdır. Yəni, söz birləşməsində struktur-semantik bütövlük olmalıdır.

Komponentlərin struktur-semantik bütövlüyü və obyektiv reallıq nəticəsində yaranmış əlaqənin xüsusi xarakteri ilə şərtlənən komponentlərin sabitlik dərəcəsinə görə, eləcə də frazeoloji birləşmələr, frazeologizmlər və ya frazeoloji vahidlər adlandırılan söz biləşmələri dəyişkənliyə (a free combination – sərbəst söz birləşməsi) və sabitliyə (a set expression) görə də fərqləndirmək olar.

Sözlərin əsas və ya törəmə nominativ mənalarda birləşməsi yolu ilə yaranan söz birləşməsi sərbəst söz birləşməsi sayılır, çünki belə birləşmə nitq prosesində dilin qrammatik quruluşunun mövcud qaydaları əsasında tərtib edilir(1, s.119) Məsələn:

- Eliza, tell Mrs. Pearce not <u>to make coffee</u> (kofe düzəltmək) for me in the morning.

Komponentləri sintaktik və semantik cəhətdən parçalanmayan, quruluşca sərbəst söz birləşməsinə və ya cümləyə oxşayan, mənaca sözə, söz birləşməsinə və ya cümləyə ekvivalent olan, dildə hazır şəkildə mövcud olub, ənənəyə görə ya bir formada, ya da qrammatik cəhətdən dəyişdirilərək işlədilən konstruksiyalara frazeoloji vahid deyilir (1, s.27). Məsələn:

- It was the custom of kings at that time to keep a fool <u>to make them laugh</u> (güldürmək, əyləndirmək) after finishing more serious business.
- Don`t you think it`s time <u>to make peace</u> (barışmaq) with your brother? There is no point in arguing anymore.
- The person who never <u>made a mistake</u> (səhv etmək) never tried anything new. (Albert Einstein)
- The children like <u>to make believe</u> (inanmaq, təsəvvür etmək) that they live in a castle.

Frazeoloji vahidlərin sərbəst söz birləşmələrindən fərqi odur ki, onların komponentləri ayrılıqda işlənmir, bir vahid şəklində çıxış edir. Frazeoloji birləşmələrə struktur-semantik, semantik, leksik, sintaktik sabitlik xasdır. Frazeoloji birləşmələr müəyyən lüğəvi mənaya malik olur, lakin bu məna geniş və mücərrəd olduğundan onlar müxtəlif kontekstlərdə işlənə bilir, ancaq heç vaxt lüğəvi məna ilə

konteksual məna arasında əlaqə qırılmır.

Sərbəst söz birləşmələrindən fərqli olaraq, sabit söz birləşmələrində sözlər üzvi surətdə birləşir, onları bir-birindən ayırmaq, birini başqası ilə əvəz etmək və hər bir sözü müstəqim mənada düşünmək olmur. Sərbəst söz birləşmələrini təşkil edən sözləri isə başqa sözlərlə, sinonimləri ilə əvəz etmək olur və onlar müstəqim mənalarında işlədilir.

A.V.Kunin frazeoloji adlandırmanı leksik adlandırma ilə müqayisə edərək göstərir ki, frazeoloji adlandırmada konnotativlik üstündür. O, üslubi cəhətdən markalanmışdır, onda dəyərləndirmənin xüsusi çəkisi çox yüksəkdir. Dilçi frazeoloji adlandırmanı qanuni dil hadisəsi hesab edir və onu insanın obyektləri və onlara münasibəti ifadəli dil vasitələri ilə işarələndirmək cəhdi ilə bağlayır.

- He`s finding it difficult to make time (zaman ayırmaq, vaxt tapmaq) for entertainment.
- Julia, I couldn`t bear it any longer. Oh, to see them sitting there at lunch together, laughing, chatting, making game of me! (məsxərəyə, zarafata qoymaq)
- Jane displayed her irritation at our late arrival by making a great show of (diqqətə çatdırmaq) serving the cold dinner.

S.Cəfərov sərbəst və sabit söz birləşmələrinin başqa dilə tərcümə prosesini də araşdırmış və burada da onların fərqli xüsusiyyətlərə malik olduğu qənaətinə gəlmişdir. Sərbəst birləşmələr başqa dilə olduğu kimi, sözbəsöz tərcümə edilə bildiyi halda, sabit birləşmələr əksər hallarda olduğu kimi tərcümə edilə bilmir və əgər sözbəsöz tərcümə edilərsə çox zaman mənasız, gülünc ifadələr alınır. Məs.:

Sərbəst söz birləşmələri:

- to make cars/glass/tractors – maşın/ şüşə/ traktor *istehsal etmək,*
- to make breakfast/ supper – səhər/ axşam yeməyi *hazırlamaq* və s.

Sabit söz birləşmələri:

- to make notes of a lecture – mühazirədən qeydlər etmək
- to make a trip – gəzintiyə çıxmaq
- to make chin music – söhbət/qiybət etmək, boş-boş danışmaq
- to make smb believe – kimisə inanmağa məcbur/ vadar etmək və s.

Frazeoloji birləşmələrin qiymətləndirilməsinin əsas tipləri kimi metafora, metonimiya və müqayisədir. Onların əksəriyyəti insan tərəfindən törədilən hərəkətləri və ya insanın düşdüyü vəziyyəti əks etdirir. Məsələn:

- Come on, don`t make a mountain out of a molehill (milçəkdən fil düzəltmək, nəyisə şişirtmək). It`s not that important.
- Are you trying make a monkey out of me? (kimisə axmaq yerinə qoymaq)
- Make no bones about it (heç şübhə etmə/ şübhəsiz). Mary is a great singer.

Misallara əsasən deyə bilərik ki, əksər feli frazeoloji birləşmələrin əsasında müvafiq söz birləşmələrinin metaforik qiymətləndirilməsi dayanır. Onlar adların ötürülməsi hərəkətlərin oxşarlığı əsasında həyata keçirilir.

Sərbəst söz birləşmələrindən fərqli olaraq sabit söz birləşmələrinin semantikası heç də həmin söz birləşməsini əmələ gətirən sözlərin mənalarının sadəcə yığını deyil. Bu birləşmədə iştirak edən vahidlər leksik mənalarının bir bütöv daxilində tam birləşməsini təmsil edən mürəkkəb prosesdir. Adi halda "to make" sözü "etmək, düzəltmək, hazırlamaq" mənalarını verir. Lakin həmin fel sabit söz birləşməsinin komponenti kimi çıxış etdikdə o öz ilkin mənasından uzaqlaşaraq fərqli mənalar ifadə edir. Məsələn: "to make cat`s paw of someone" sabit söz birləşməsində `to make` feli yeni məna kəsb edir. Bu birləşmənin mənası `kimisə öz təsiri altına salmaq`, `quzuya döndərmək` şəklində tərcümə olunaraq "to make"felinin ilkin mənasından uzaqlaşır.

"to make monkey out of someone" (kimisə axmaq yerinə qoymaq) söz birləşməsində də "to make" feli yeni məna ifadə edərək öz müstəqim mənasından uzaqlaşır.

Gördüyümüz kimi, nümunələrdə verilən hər bir sabit söz birləşməsində "to make" feli "qoymaq", "salmaq" və digər mənalar ifadə edərək birləşmə daxilində öz həqiqi mənasından uzaqlaşmışdır. Bu da onu göstərir ki, hər bir söz sabit söz birləşməsinin komponenti kimi çıxış edərkən özünün ilkin mənasından qismən və ya tam şəkildə uzaqlaşaraq fərqli olan yeni məna çalarlığı qəbul edir.

Sabit birləşmələr nitq faktı deyil, dil faktıdır. Sabit birləşmələr nitq prosesində düzəldilən sərbəst birləşmələrdən fərqli olaraq nitqə hazır şəkildə daxil edilir. Qeyd etmək lazımdır ki, nitq vahidləri danışıq vaxtı iki və daha artıq dil vahidinin birləşməsi ilə meydana çıxır. Nitq vahidləri dil vahidlərindən fərqli olaraq, nitq prosesində düzəldilir, həmin an üçün zəruri ehtiyacı ödəmək məqsədi güdür, lakin dil vahidlərindən hazır şəkildə istifadə olunur.

Sərbəst söz birləşmələrində bütövün mənası komponentlərin mənasından doğur, hər iki komponenti sinonimlə əvəz edə bilərik, hətta birləşməni başqa formada da işlədə bilərik. Ancaq bu əməliyyatların heç birini sabit söz birləşmələrində edə bilmərik.

Beləliklə, tezisdə komponentlərinin sabitlik dərəcəsinə görə müasir ingilis dilində mövcud olan sərbəst və sabit söz birləşmələri arasında kifayət qədər fərqli xüsusiyyətlərin mövcud olduğunu gördük**.** Sərbəst birləşmələrin komponentləri müstəqil mənalı sözlərdən ibarət olur və həmin sözlər birləşmə daxilində də ilkin leksik mənasını - məna müstəqilliyini mühafizə edib saxlayır. Sərbəst birləşmənin tərəfləri həm mə`naca, həm də qrammatik cəhətdən bir-biri ilə bağlı olur. Tərəflərin nominativ mənası və tərəflər arasında sintaktik əlaqələr aydın müşahidə edilir. Onlar dildə hazır şəkildə mövcud olmadıqlarından dilimizdə sərbəst birləşmələrin özləri deyil, quruluş modelləri mövcuddur. Nitq prosesində dilin lüğət tərkibindən məqsədəuyğun sözlər seçilib götürülür, həmin modellər əsasında birləşmələr yaradılır. Bu cür birləşmələrin əlvanlığı artıq nitq fəaliyyəti ilə, danışanın məqsədi, bilik dairəsi, şəxsi-psixoloji keyfiyyətləri, təfəkkür inkişafı, həyat materialını qavrama, dərk etmə, adlandırma qabiliyyəti və s. ilə bağlıdır. Sabit birləşmələr isə sərbəst birləşmə modelləri əsasında qurulur. Lakin sərbəst birləşmələrin komponentləri məna müstəqilliyinə malik olduğu, həqiqi mənada işləndiyi halda, sabit birləşmələrin komponentlərindən biri zəif, son dərəcə ümumi semantikası ilə, yaxud tərəflərdən birinin və ya hər ikisinin məcazi mə'nada işlənməsi ilə birləşmə komponentlərinin ayrılmazlığına səbəb olur.

HEYDƏR ƏLİYEVİN NİTQ MƏDƏNİYYƏTİ VƏ NATİQLİK MƏHARƏTİ

İbrahimova A.Z.
Gəncə Dövlət Universiteti

Nitq fikrin canlandırılmasını təmin edən əsas amildir. Fikrin izahı və onun anlaşıqlı şəkildə çatdırılmasında nitqin rolu böyükdür. İnformasiya mübadiləsi zamanı insanların bir-birilərini qavraması və anlaması nitq ünsiyyətinin necə qurulmasından asılıdır.Adi adamların nitqi informasiyanın sadəcə olaraq verilməsinə xidmət etdiyi halda, dahi şəxsiyyətlərin nitqi informasiya mübadiləsi ilə yanaşı olaraq insanlarda müxtəlif fikir və ideyaların canlandırılması işinə də xidmət edir. Böyük insan kütləsinin qəlbinə yol açan, onları düşünməyə, fəaliyyət göstərməyə istiqamətləndirən belə bir nitqin olduğunu Azərbaycan xalqının dahi oğlu Heydər Əliyevin timsalında gördük.

Əgər biz Heydər Əliyevin nitqində olan fikir genişliyinə, diapazona diqqət etsək görərik ki, o alimlər içərisində elm dili ilə, sənətkarlar məclisində sənət dili ilə, siyasətçilər meydanında siyasət dili ilə, xalq qarşısında xalqın anlayacağı dil ilə danışır. 1995-ci ildə Azərbaycan Respublikasının Konstitusiyasının müzakirəsi zamanı 21-ci maddə olan "Dövlət dili" haqqında maddənin müzakirəsi zamanı bir çox ziyalılarımız maddənin Azərbaycan Respublikasının Dövlət dilinin "Azərbaycan dili" adlandırılmasının əleyhinə çıxırdılar. O zaman müdrik Rəhbər çox səbrlə qeyd etdi ki, [1] "...Burada nə deyirlərsə, hamısını qoy yazsınlar və xalqa çatdırsınlar, hər şeyi aydınlaşdıraq. Məsələ bundan ibarətdir.Ona görə mən istəyirəm ki, siz məsuliyyəti dərindən dərk edərək müzakirə edəsiniz, bu məsələyə səthi yanaşmayasınız. Bu, çox mühüm məsələdir. Məsələn, bizim bəzi ziyalılar deyirlər ki, əgər indi biz Azərbaycan dili yazsaq bəs onda Füzuli nə dildə yazıbdır, C.Məmədquluzadə nə dildə yazıbdır?

Eyni zamanda deyirlər ki, guya 1935-36-cı illərdə bizim dilimiz türk dili adlanıbdır və dilimizin adı o vaxt dəyişilibdir. Amma şəxsən məndə bu barədə tarixi bir sənəd yoxdur.Dilimiz zəngindir, çox ahəngdar bir dildir, dilimizin söz ehtiyatı çox böyükdür, qrammatika sahəsində həddindən artıq böyük nailiyyətlərimiz var. Şəxsən mən bu dili sevirəm. Bilirsiniz ki, keçmişə qara yaxmaq istəyənlər bunu bir müddət etdilər. Ancaq bu əhəmiyyətsizdir. Tarixi dəyişdirmək olmaz."

Heydər Əliyevin nitqində özünəməxsus cazibədarlıq, məntiqilik, aydınlıq bütün tamlığı ilə əks olunur. Həmin əlamətləri təhlil edərkən ondakı nitq mədəniyyətinin və natiqlik məharətinin, xüsusən də məntiqi danışığın daxili mexanizmini açmaq mühüm əhəmiyyət kəsb edir. Nitqin təsirediciliyi özünü onda göstərir ki, hər kəs ona diqqət kəsilir, hər kəs üçün bu nitq düşündürücü xarakter daşıyır.

Professor M.Yusifov qeyd edir ki, [2, səh 114-120] Heydər Əliyevin nitqi emosional xarakter daşıyan sintaktik vahidlərlə dolu və zəngindir. O, göstərir ki, Böyük Rəhbərin nitqində işlədilən emosional sintaktik vahidlər xalq dilinin incəliklərindən qidalanır və onları aşağıdakı kimi ümumiləşdirmək olar:

a) heyrət və təəccüb obrazlılığı;

b) müqayisə və bənzətmə obrazlılığı;
c) obrazlılığı canlandırmaq üçün ifadə vasitəsi tərkibində məcazi məna daşıyan xüsusi sözlər;
d) mətndə frazeoloji sinonim kimi işlədilənlər;
e) mətndə frazeoloji variant kimi işlənənlər;
j) ümumxalq ifadələrinin müvafiq şəkildə dəyişdirilib işlədilməsi;
i) ümumxalq dilinə məxsus şəkildə işlənənlər;

Göründüyü kimi, məcazi məna daşıyan sözlər, frazeoloji vahidlə ümumxalq dili incəliklərindən qidalanan ifadə vasitələri-bunların hamısı həm mətndəki emosionallığın canlandırılmasına həm də hökm, qətiyyət, dəqiqlik, və konkretlik şəklindəki informasiyaları qüvvətləndirmək vəzifəsi daşıyır. Ümumxalq dili ilə bağlı ifadələr Heydər Əliyevin nitqində seçilir və mətnə uyğun canlandırılır.

Azərbaycan xalqının tarixində adları xalqımızın mədəniyyət səlnaməsinə əbədi həkk olunmuş söz dahiləri çoxdur. Lakin Heydər Əliyevin özünəməxsusluğu özünü onda göstərir ki, onun doğma dilini dərindən bilməsi, ürəkdən sevməsi və ana dilinə olan hörməti daha qabarıq şəkildə özünü göstərir. Bu ilk dəfə özünü onda göstərdi ki, 1969-cu ildə Azərbaycan Dövlət Universtetinin 50 illiyi qeyd olunanda yenicə Azərbaycanın rəhbəri seçilmiş Heydər Əliyev ilk dəfə iclası Azərbaycan dilində apardı. Hamını heyran edən bu dil özünün obrazlılığı, zənginliyi, xüsusi ahəngdarlığı və metodikliyi ilə fərqlənirdi. Onun nitqindəki böyük təsir gücünün əsas səbəbi həm öz doğma dilini dərindən bilməsi və ürəkdən sevməsi, həm də ana dilinə olan böyük hörməti ilə bağlıdır.

Hər bir xalq öz dilinin qayğısına qalmalıdır. Əlbəttə, burada xüsusi məsuliyyət ziyalıların və digər sənət adamlarının üzərinə düşür. Belə məsuliyyəti başa düşən Böyük Rəhbər göstərirdi ki, insanların mədəniyyəti və elimin səviyyəsi yüksəldikcə dilimizin də təkmilləşməsinə və zənginləşməsinə, onun söz ehtiyatının genişlənməsinə daha çox qayğı göstərmək lazımdır. Bu da respublikamızın bütün ədəbiyyatçı-larının, yazıçılar ittifaqının ən mühüm vəzifələrindən biridir. Azərbaycan ədəbi dilinin saflığına, kütlələrin nitq mədəniyyətinə daim qayğı göstərməlidir [3].

Şübhəsiz ki, ulu öndərin nitq mədəniyyəti və dil haqqında fikirləri təsirsiz qalmamışdır. Onun mət-buatda dil və nitq mədəniyyəti ilə bağlı çıxışlarından sonra nitq mədəniyyəti sahəsindəki araşdırmalara başlanılmış və bu sahədə müəyyən uğurlar qazanılmışdır. Dissertasiyalar yazılmış, məqalələr, monoqrafiylar hazırlanmışdır. MEA Dilçilik institutunda(1981) nitq mədəniyyəti şöbəsi yaradılmışdır [4].

Heydər Əliyevin nitq mədəniyyəti və ana dili barədəki fikir və düşüncələrində, çıxışlarında xalqımızın mənəvi varlığı, bu günü və gələcəyi barədə istiqamətlər müəyyən edilmişdir.

ATTRİBUTİVE CLAUSES

Kərimli İ.Ş.
Gəncə Dövlət Universiteti

A subordinate clause is said to be attributive if its function in the complex sentence is analogous to that of an attribute in a simple sentence. It differs from an attribute in so far as it characterizes the thing denoted by its head word through some other action or situation in which that thing is involved. This could not, in many cases at least, be achieved within the limits of a simple sentence.

Compare, for example, the sentence 'By October Isabelle was settled in the house where, she intended, she would live until she died.' (R. WEST) The clause where ... she would live with the dependent clause until she died contains information which could not be compressed into an attributive phrase within a simple sentence. It is common knowledge that attributive clauses can be defining (or restrictive, or limiting) and non-defining (or non-restrictive, or descriptive). The non-defining ones do not single out a thing but contain some additional information about the thing or things denoted by the head word, e. g. Magnus, who was writing an article for Meiklejohns newspaper, looked up and said, "That's an interesting little essay, isn't it?" (LINKLATER) Non-defining attributive clauses pose the question of boundary line between subordination and co-ordination, which in this case becomes somewhat blurred. This is especially evident in the so-called continuative clauses, which are used to carry the narrative a step further, namely in sentences like the following: But in the morning he went to see Meiklejohn, whose enthusiasm on hearing the news was very comforting. (LINKLATER) We shall have the governess in a day or two, which will be a great satisfaction. (BAIN, quoted by Poutsma) Sentences of this kind may be taken as specimens of subordination weakened and a subordinate clause passing on to

something like a co-ordinate position in the sentence. We shall see other varieties of this development in our next chapter. The question about the place of an attributive clause deserves a few remarks. Most usually, of course, an attributive clause comes immediately after its head word. This is too common to need illustration. But that is by no means an absolute rule. Sometimes an attributive clause will come, not immediately after its head word, but after some other word or phrase, not containing a noun. This is the case, for instance, in the following sentence: He wanted Ann to die, whom his son passionately loved, whom he had himself once come near to loving. (SNOW) The intervening infinitive to die, coming between the attributive clauses and their head word Ann, does not in any way impede the connection between them. A different kind of separation is found in the following sentence: Jeremy saw the scene breaking upon him that he had dreaded all day and he felt no energy to withstand it. (A. WILSON) The subordinate clause that he had dreaded all day has the noun scene as its head word. Now this noun forms part of the complex object the scene breaking upon him. No ambiguity is created by the separation, as the subordinate clause cannot possibly refer to the pronoun him, and there is no noun between scene and the subordinate clause. That the word that is the relative pronoun and not the conjunction, is seen from the fact that dreaded, being a transitive verb, has no object coming after it; that the phrase all day is not an object is obvious because if the thing denoted by it were thought of as the object of the action the phrase must have been all the day.

VERBİDS İN ENGLİSH

Quliyeva K.Z.
Gəncə Dövlət Universiteti

The complicated structure and character of the verb has given rise to much dispute and controversy. The morphological field of the English verb heterogeneous. It includes a number of groups or classes of verbs, which differ from each other in their morphological and syntactic properties.

All English verbs have finite and non-finite forms.The finite verb invariably performs the function of the verb- predicate. Finite verbs are subdivided into regular and irregular depending on the way the participle II are formed.Non-finite verbs perform different functions according to their intermediary nature (subject, object, adverbial modifier, attribute). They may be used as any member of the sentence but the predicate. Inside the sentence verbals make up complexes with other members of the sentence.

The English verbids include four forms:

1) the Infinitive
2) the Gerund
3) the Present Participle
4) the Past Participle

The infinitive is the non-finite form of the verb which combines the properties of the verb with those of the noun, serving as the verbal name of a process.The infinitive is used in three fundamentally different types of functions:

a) as a notional, self-positional syntactic part of the sentence
b) as the notional constituent of a complex verbal predicate built up around a predicator verb
c) as the notional constituent of a finite conjugation of the verb

The gerund is the non-finite form of the verb which, like the infinitive, combines the properties of the verb with those of the noun. Similar to the infinitive, the gerund serves as the verbal name of the process, but its substantive quality is more strongly pronounced than that of the infinitive. Namely, as different from the infinitive, and similar to the noun, the gerund can be modified by a noun in the possessive case or its pronominal equivalents (expressing the subject of the verbal process), and it can be used with prepositions.The general combinability of the gerund, like that of the infinitive, is dual, sharing some features with the verb, and some features with the noun. The verb type combinability of the gerund is displayed in its combining:

1) with nouns expressing the object of the action
2) with modifying adverbs
3) with certain semi-functional predicator verbs, but other than modal
4) of the noun type is the combinability of the gerund:

5) with finite notional verbs as the object of the action
6) with finite notional verbs as the prepositional adjunct of various functions
7) with finite notional verbs as the subject of the action
8) with nouns as the prepositional adjunct of various functions.

The gerund, in the corresponding positional patterns, performs the functions of all the types of notional sentence-parts: the subject, the predicative, the object, the attribute, the adverbial modifier

The present participle is the non-finite form of the verb which combines the properties of the verb with those of the adjective and adverb, serving as the qualifying-processual name. In its outer form the present participle distinguishes the same grammatical categories with gerund as retrospective coordination and voice.The verb-type combinability of the present participle is revealed:

a) in its being combined with nouns expressing the object of the action
b) with nouns expressing the subject of the action
c) with modifying adverbs
e) with auxiliary finite verbs (word-morphemes) in the analytical form of the verb.

The past participle is the non-finite form of the verb which combines the properties of the verb with those of the adjective, serving as the qualifying processual name. It is a single form, having no paradigm of its own. It conveys implicitly the categorial meaning of the perfect and the passive. The main functions in the sentence are those of the attribute and the predicative.

MÜASİR AZƏRBAYCAN DİLİNDƏ SÖZ YARADICILIĞI VƏ ONUN TƏDRİSİNDƏ YENİ TƏLİM ÜSULLARINDAN İSTİFADƏ

Qurbanova S.V.
Gəncə Dövlət Universiteti

Dildə yeni söz yaratmaq lüğət tərkibini zənginləşdirən vasitələrdən biridir.Dilimizdə olan sözlərin demək olar ki, əksəriyyəti sözyaratma yolu ilə əmələ gəlmişdir. Sözyaratmanın mənbələri, imkanları, vasitələri, formaları, xüsusiyyətləri və digər cəhətləri ilə məşğul olan dilçilik şöbəsi **derivatologiya** adlanır. Derivatologiya, təxminən Azərbaycan dilçiliyində XX əsrin 60-cı illərində müstəqil şöbə kimi formalaşmışdır. Derivatologiya dilçiliyin bütün şöbələri ilə sıx əlaqədardır.Lakin bu əlaqə leksikologiya və qrammatika arasında daha yaxın və möhkəmdir.Sözlərin leksik-semantik əlamətləri araşdırılarkən derivatologiya leksikologiyaya daha da yaxınlaşır, bir-birinin ümumi və xüsusi məsələlərinə əsaslanır.Sözün morfoloji quruluşu ilə əlaqədar derivatologiya morfologiyaya, sintaktik əlaqələrlə bağlı isə sintaksisə müraciət edir, beləliklə, şöbələrarası əlaqə sıxlaşır və daha da artır.

Söz yaradıcılığı dil haqqında elmin xüsusi bir bölməsidir.Bu bölmədə sözlərin hansı üsul və vasitələrlə yaranmasından bəhs olunur.Dilimizin lüğət tərkibinin bir hissəsi dildə lesik yolla yaranan vahidlərin hesabına artıb zənginləşir. Ədəbi dilimizin lüğət tərkibi onun daxili imkanları əsasında, başlıca olaraq, iki yolla zənginləşir; birincisi yeni söz və ifadə yaradılmaqla, ikincisi dialekt və şivələrdən söz və ifadə götürülməklə.Müasir Azərbaycan ədəbi dilində semantik yolla söz yaradılması semantik hadisələr əsasında əmələ gələn sözlərdə müşahidə olunur.Dildə bu və ya digər omonimin daxili imkanlar əsasında yaranması semantik hadisənin nəticəsidir və bu vasitə ədəbi dilin lüğətini daha da zənginləşdirir. Dilimizdə semantik yolla omonim sözlərin əmələ gəlməsinin tarixi çox qədimdir.Belə ki, " omonimlərin hesabına dilimizin lüğət tərkibinin zənginləşməsi onun ən qədim, ilk təşəkkülü dövrlərindən başlamış davam edən hadisələrdən biridir". Müasir Azərbaycan ədəbi dilində morfoloji yolla söz yaradıcılığı son dərəcə mürəkkəb bir prosesdir. Morfoloji yolla sözlər, əsasən, sözdüzəldici şəkilçilərin (leksik şəkilçilərin) vasitəsilə yaradılır.Bildiyimiz kimi, sözdüzəldici şəkilçilərə (leksik şəkilçilərə) dilimizdə vəzifə, peşə, kəmiyyət, keyfiyyət, əşya və s. mənaları bildirən **-lıq, lik, luq, lük şəkilçisi**, əşya adı, termin, qarşılıqlı iş adı və əlamət bildirən **-ma, mə şəkilçisi,** əşya adı, hal-vəziyyət və hərəkət bildirən **-ar, ər şəkilçisi** və s. şəkilçilər aiddir. Müasir Azərbaycan ədəbi dilində morfoloji yolla, yəni şəkilçilər vsitəsilə yeni sözlər yaradılması digər yollara nisbətən, daha məhsuldar xarakter daşıyır.Bu da dilimizdəki sözdüzəldici şəkilçilərin çox zəngin olması ilə əlaqədardır. Dilimizin sintaktik imkanları əsasında əmələ gələn yeni sözlər sintaktik yolla yaranan sözlər adlanır.Bu yolla yeni söz yaradılarkən iki və daha artıq sözün birləşməsindən istifadə edilir; məsələn: *tozsoran (iki-sözü), əlüzyuyan (üç sözlü)*.Sintaktik yolla iki sözün birləşməsindən ibarət yeni sözlər yaradılması dilimiz üçün daha

xarakterikdir. Müasir Azərbaycan ədəbi dilində sintaktik yolla yeni söz yaradılmasının iki üsulu vardır:**1.Leksik-sintaktik üsulla söz yaradılması.2.Leksik-qrammatik üsulla söz yaradılması.**

Leksik-sintaktik üsulla söz yaradılması qaydası ilə yaranan sözlərdə ancaq leksemlər-leksik vahidlər birləşərək sintaktik əlaqə əsasında yeni söz əmələ gətirir; məsələn: qayınana, qayınata, şəkərçörək, şüşəbənd, beşdaş və s.Leksik-qrammatik üsulla yaradılan sözlərdə həm leksik, həm də qrammatik şəkilçilərdən istifadə olunur.Məsələn, dəvəquşu, quşotu, suiti, ayaqqabı sözlərinə ahəngə görə **- ı, i, u, ü** şəkilçisinin artırılması ilə, anadangəlmə, göydəndüşmə sözlərində isə birinci komponentə **-dan, -dən** sözdəyişdirici, ikinci komponentə isə **-ma, -mə** sözdüzəldici şəkilçisinin artırılması ilə yeni leksik-qrammatik üsulla yaradılan sözlər yaradılır.

Bildiyimiz kimi, məktəb şagirdləri dərin və hərtərəfli biliklərlə təmin edir, onlarda bacarıq və vərdişlər formalaşdırır, yüksək mədəniyyətə, mütərəqqi dünyagörüşə malik olan şəxsiyyət yetişdirir.Məhz bu xüsusiyyətlərə malik olan bir şəxsiyyət yetişdirmək üçün ümumtəhsil məktəblərində dərslərdə dünya standartlarına cavab verə biləcək yeni təlim üsullarından istifadə etmək lazımdır.Qrammatikanın əsas şöbələrindən biri olan morfologiya 1992-ci il Azərbaycan dili proqramında qrammatikanın əsas şöbələrindən biri kimi V-VI siniflər üçün nəzərdə tutulmuşdur.Hazırda proqramın tələbinə görə morfologiya bəhsi XI sinifdə də tədris olunur.Orta ümumtəhsil məktəblərində morfologiyanın tədrisində söz yaradıcılığı ilə bağlı praktik əhəmiyyətli məsələlər qarşılıqlı əlaqədə şagirdlərə öyrədilir.Məktəbdə morfologiya təliminin məzmununa daxil olan söz yaradıcılığı üzrə ən əsas məfhumlar bunlardır:kök, şəkilçi, leksik və qrammatik şəkilçilər, sözlərin quruluşca növləri.Kök və şəkilçilər haqqında mövzu IV sinifdə geniş şəkildə keçilir.”Söz yaradıcılığı” bölməsi “Nitq hissələri” bölməsindən əvvəl öyrədilir.Bununla yanaşı, “Sözün tərkibi” bəhsinin öyrədilməsi ilə əlaqədar olaraq, şagirdlərə Azərbaycan dilində söz yaradıcılığı haqqında məlumat verilir.

Şagirdin biliyini üzə çıxarmaq, onu düzgün qiymətləndirməyi bacarmaq müəllimin əsas keyfiyyətlərindən biridir.Bu keyfiyyətlərin üzə çıxarılması da müəllimdən yüksək qabiliyyət tələb edir.”Söz yaradıcılığı” bölməsi orta ümumtəhsil məktəblərinin V-VI siniflərində tədris olunur.V sinif dərsliyinə kök və şəkilçi, VI sinif dərsliyinə isə mürəkkəb sözlər mövzusu daxildir.Söz yaradıcılığı geniş bölmədir.Bu bölmənin tədris olunmasında yeni təlim üsullarının bir neçəsindən istifadə olunur.Yeni təlim üsullarına təqdimat, kublaşdırma, ziqzaq, beyin həmləsi, bibö, akvarium, auksion, mühazirə, karusel, klaster(şaxələndirmə), anlayışın çıxarılması, müzakirə, söz assosiasiyaları, problemli vəziyyət, venn diaqramı, layihələrin hazırlanması, sorğu vərəqləri və müsahibə aiddir.”Söz yaradıcılığı” bölməsinin tədris olunmasında da bir neçə təlim üsullarından istifadə olunur.Bunlardan biri beyin həmləsidir.Beyin həmləsi üsulu vasitəsilə şagirdlərin yeni bilikləri üzə çıxarılır, müzakirə olunan məsələyə maraq oyadılır.Əqli hücum tətbiq edilərkən müəllim həll olunmalı problemi elan edir.Sual lövhəyə yazılır və ya şifahi şəkildə verilir.Əqli hücum zamanı yeni mövzu ilə əlaqədar hər hansı bir fikrin, ifadənin tamamlanması üçün mümkün variantları müəyyənləşdirmək tapşırığı vermək də məqsədəuyğundur. Müəllim mümkün qədər çox şagirdin fikir söyləməsinə nail olmalıdır. BİBÖ (nəyi bilirik, nəyi bilmək istəyirik, nəyi öyrəndik və nəyi öyrənməliyik) şagirdlərin əvvəlki biliyi, təcrübəsi ilə yeni biliklər arasında əlaqə yaratmağa imkan verir.Müəllim lövhədə 3 sütundan ibarət cədvəl qurur və aşağıdakı bölmələri qeyd edir: “Nəyi bilirik”, “Nəyi bilmək istəyirik”, “Nə öyrəndik və hələ nələri öyrənməliyik”.Şagirdlər əvvəl mənimsəmiş olduqları bilikləri bir daha nəzərdən keçirir və öyrənmək cavabını tapmaq istədiyi məsələləri, sualları müəyyənləşdirir.Bu məqsədlə müəllim özü və ya şagirdlər cütlər, qruplar halında mətni oxuyur.Cütlər və ya qruplar mövzu barəsində əvvəlki biliklərinə dair qeydlər aparırlar.Mətn oxunduqdan sonra müəllim ikinci sütundakı suallara qayıdır, əgər mətndə sualların cavabları verilibsə, onları üçüncü sütunda qeyd etməyi tapşırır.Şagirdlərin qeydləri dinlənilir, məqsədəuyğun sayılan cavablar müvafiq sütunda qeyd edilir.Şagirdlər əvvəlki biliklərini yeni öyrəndikləri biliklərlə müqayisə edir, nəticə çıxarırlar.Mühazirə məlumatın müəllimdən şagirdə ötürülmə üsuludur.Bu üsuldan mövzu ilə bağlı məzmunun zənginləşdirilməsi, tamamlanması məqsədilə istifadə etmək məqsədəuyğundur.Belə qısa mühazirələr 10-15 dəqiqə ərzində aparılır.Klaster (şaxələndirmə) üsulunda müəllim tərəfindən lövhədə və ya iş vərəqlərində dairə çəkilir və onun mərkəzində yazılmış anlayışı ilə bağlı söz və ya ifadələr söyləmək şagirdlərə tapşırılır.Mərkəzdə yazılmış anlayışdan başlayaraq hər növbəti söz onunla əlaqəli sözlər xətlərlə birləşdirilir.Vaxt bitənə kimi mümkün qədər çox fikir yazmaq və onları əlaqələndirmək tövsiyə olunur.Vaxt bitəndən sonra alınan klaster müzakirə edilir və ümumiləşdirmə aparılır.Bir daha onu deyə bilərik ki, səmərəli seçilmiş təlim üsulları vasitəsilə azərbaycan dili fənni bölmələri keyfiyyətli şəkildə tədris olunar.

TYPES OF SYNTACTİC RELATİONS

Səfərova N.E.
Gəncə Dövlət Universiteti

Syntactic relations constitute a universal feature and are realized depending on the level of a word-phrase and a sentence. Word-forms having grammatical distinctions form various syntagmatic groupings based on dominational and equipotent connection. Domination is constructed in such a way that finds its realization in the two types: one-way domination and two-way domination. In the one-way domination one constituent is principal, dominating, called a head-word, the other is subordinate, dominated, called an adjunct-word. This structure forms syntactic relations of subordination which falls into the two main divisions: objective subordinate connections; qualifying subordinate connections. The first unites the process with the object – direct *(*e.g. *visit a friend, make a call, attended the conference, answer a question)*or indirect*(*e.g. *gave him a gift, will write a letter to a friend, explained the rule to me, brings books for the sister).*

Qualifying connections are of attributive and adverbial type. Attributive connections unite a thing with its attribute either restrictive *(*e.g. *an interesting story, a pretty girl, an exciting trip)* or non-restrictive (e.g. *a young woman, a ten-dollar-note, a wooden box, a blue colour).* Adverbial connection is established between the process and its modifiers or adverbial modifiers such as time, place, manner, intensity, result, reason *(*e.g. *is held tomorrow, arrived at the airport, sings beautifully, terribly interesting, too young to smoke, delayed because of the weather).So subordinate relations build up word-groups as secondary parts of the sentence which are otherwise called complements represented by attributes as noun complements, object and adverbial modifiers as verb complements.*

The bilateral or two-way domination creates a predicative connection of words occupying the position of subject and predicate by forming predicative syntactic relations, which occur between the process including action, state, feeling and its subject either personal or impersonal *(*e.g. *he is running, they live, we have admired, it rained, it is interesting).Thus predicative relations make up the predication consisting of the principal parts of sentence: subject and predicate and are of the subtypes: Primary Predicative Relations and Secondary Predicative Relations.* Primary predication finds its realization in the position of subject and predicate in two-member sentences. Secondary predicative relations are formed by verbals inside infinitival, participial and gerundial complexes: e.g. *the nominative absolute participle construction* (e.g. *We could not go on with the work all the figures being checked. I had to ask for further details, some particulars missing); the objective and subjective with the infinitive/participle constructions (*e.g. *I want him to study Arts. He is reported to have made a speech at the conference. I saw her crying. They were heard laughing)*; *gerundial complexes (*e.g. *We insisted on taking the exam on Monday. Can we rely on your assistant's doing it? It's no use their complaining about it.)* The third syntagmatic grouping of words is constituted by word-forms related to one another on an equal rank, making up so called equipotent or coordinative combinations. It means that domination is missing and words occupy syntactically equal positions which are expressed either syndetically with conjunctions, prepositions, or asyndetically with punctuation, word order, intonation:e.g. *kept silent and listened; met but had no talk; playing, chatting, laughing.*

Subordinate, predicative, coordinate syntactic relations determine distinguishing three types of word-phrases: *subordinate phrases* as binary structures in which one of its constituents is syntactically the leading element originating such subordinate relations as objective, attributive and adverbial modifying; subject and predicate, being explicit or implicit, are united by predicative relations which form *predicative phrases;* coordinate syntactic relations build up together immediate constituents of *coordinate phrases* consisting of two or more syntactically equivalent homogeneous elements.

Syntactic relations and ways of their expression

So words are syntagmatically connected by the grammatical syntactical relations which have grammatical means of expression in a word-phrase and the sentence in general. Rigid word order in English serves as a basic means of indicating commonly syntactic relation in the structure. Due to the scarcity of morphological devices, English has developed a fixed word order which in most cases shows without fail the syntactic position of a word in a syntactic unit. That is why, in the English sentence the following rules are observed: the subject precedes the predicate; the noun is modified by the preceding attribute; the object follows the predicate; the adverbial modifier begins the sentence or stands at the end

of it; homogeneous members follow each other.

Word order combined with intonation serves as a means of indicating the logical centre of the sentence, highlighting the syntactic status of its constituents. Syntactic relations may be also indicated by structural words, special connectors (prepositions or conjunctions): e.g. 'Peter and Mary' – shows the connecting conjunction 'and'; 'the owner of the house' –the connection preposition 'of'; the relations between 'the children were laughing merrily' are indicated not only by the order of the respective positions but also by inflexions – the agreement of their grammatical forms in person and plural. Above all, a specific function is performed by agreement(or concord) based on formal correspondence between members of a syntactic group in person and number(e.g. this book – these books/that, those); the predicate must agree with the subject in person and number as well (e.g. radio and television have changed; the butter is; either Tom or Harry is coming; there is plenty of time; the police were); government based on changes when traditionally the object is to take the form required by the governing element, normally, a verb or a preposition (e.g. I saw him. I am his brother. We rely on them. He is John's father) and adjoinment based on the adjoining position of two words joined by the common grammatical function and meaning(e.g. a nice story, the country, rapidly recovered, valuable natural resources).

To summarize, relevant features concern not only types of syntactic relations between members of syntactic groups, but also ways of their expression which do exist with different degree of their realization such as: word order, function words, agreement, government, adjoinment, punctuation and intonation.

THE DİFFERENCE BETWEEN TENSE AND ASPECT CATEGORİES

Babayeva A.M.
Gəncə Dövlət Universiteti

Traditionally, tense and aspect are seen as grammatical categories of verbs. Indeed, insofar as verbs display morphological variation in languages, there is a strong tendency for such variation to include inflectional differences between forms that reflect temporal and aspectual distinctions, such as the difference between the present tense form *sings* and the past tense form *sang* in English. However, some modifications to the identification of tense and aspect with grammatical categories of verbs must be made. To begin with, it has long been recognized that periphrastic constructions, such as the English Perfect (*I have sung*) and Progressive (*I am singing*), are employed in functions similar to those of inflections. Furthermore, tense and aspect do not always present themselves as separate and neatly delineated categories.

Among the multitudinous definitions of tense and aspect in the literature, we may cite those as: tense is grammaticalisation of location in time, and aspect is "grammaticalisation of expression of internal temporal constituency" (of events, processes etc.). Thus defined, the two categories are conceptually close in that both deal with time. But they may also be interwoven in grammatical systems in that one and the same grammatical form may combine temporal and aspectual elements in its semantics. For instance, the very common and central distinction between imperfective and perfective verb forms would appear to be a straightforward example of aspect; yet it typically involves not only aspectual notions but also restrictions on temporal reference, in that perfective verb forms are usually taken to refer to past events. This fact has a cognitive basis: we may say that the prototypical uses of perfectives coincide with the default view of an event as a completed whole. But normally such a perspective is possible only if the event is wholly in the past. Therefore, in languages which do not mark the imperfective-perfective distinction, verbs that are typically event-denoting such as 'arrive', 'close', and 'kill' may be interpreted as referring to the past in the absence of any marking to the contrary. Verbs that typically denote states such as 'sleep', on the other hand, tend to be interpreted as referring to the present.

So we may come to the conclusion that: TENSE refers to the absolute location of an event or action in time, either the present or the past. It is marked by an inflection of the verb:

David *walks* to school (present tense) David *walked* to school (past tense) Reference to other times -- the future, for instance -- can be made in a number of ways, by using the modal auxiliary *will*, or the

semi-auxiliary *be going to*:

David *will walk* to school tomorrow David *is going to walk* to school tomorrow. Since the expression of future time does not involve any inflection of the verb, we do not refer to a "future tense". Strictly speaking, there are only two tenses in English: present and past.

ASPECT refers to how an event or action is to be viewed with respect to time, rather than to its actual location in time. We can illustrate this using the following examples:

[1] David *fell* in love on his eighteenth birthday. [2] David *has fallen* in love. [3] David *is falling* in love.

In [1], the verb *fell* tells us that David fell in love in the past, and specifically on his eighteenth birthday. This is a simple past tense verb.

In [2] also, the action took place in the past, but it is implied that it took place quite recently. Furthermore, it is implied that is still relevant at the time of speaking -- David has fallen in love, and that's why he's behaving strangely. It is worth noting that we cannot say **David has fallen in love on his eighteenth birthday*. The auxiliary *has* here encodes what is known as PERFECTIVE ASPECT, and the auxiliary itself is known as the PERFECTIVE AUXILIARY.

In [3], the action of falling in love is still in progress -- David is falling in love at the time of speaking. For this reason, we call it PROGRESSIVE ASPECT, and the auxiliary is called the PROGRESSIVE AUXILIARY.

Aspect always includes tense. In [2] and [3] above, the aspectual auxiliaries are in the present tense, but they could also be in the past tense:

David *had fallen* in love -- Perfective Aspect, Past Tense David *was falling* in love -- Progressive Aspect, Past Tense

The perfective auxiliary is always followed by a main verb in the *-ed*form, while the progressive auxiliary is followed by a main verb in the *-ing* form. These points are exemplified in the table below:

	Perfective Aspect	Progressive Aspect
Present Tense	*has fallen*	*is falling*
Past Tense	*had fallen*	*was falling*

While aspect always includes tense, tense can occur without aspect (David *falls* in love, David *fell* in love).

FRAZEOLOGİZMLƏRİN YARANMASINDA SOMATİK VAHİDLƏRİN ROLU VƏ ONLARIN MAHİYYƏTİ HAQQINDA

Sadıqova E.R.
Bakı Slavyan Universiteti

Dilimizdə mövcud olan frazeoloji birləşmələrin müəyyən bir hissəsini somatik frazeologizmlər təşkil edir. Nitqimizin ifadəli, zəngin, obrazlı olmasında somatik frazeologizmlərin rolu danılmazdır.

Azərbaycan dilinin qədim leksik qatında mövcud olan və xüsusi yer tutan bədən üzvlərinin adlarını bildirən leksemlərdən ibarət somatik frazeoloji vahidlər türk dillərinin zəngin frazeoloji tərkibində də özünü qabarıq şəkildə göstərir. Somatik frazeoloji vahidlər müxtəlifsistemli dillərin frazeoloji fondunun qədim qatı hesab olunurlar. Azərbaycan dilində somatik frazeologizmlərin qədimliyi isə özünü həmin dillərdə intensiv şəkildə işlədilməsində göstərir.

Müxtəlifsistemli dillərin frazeologiyasını təşkil edən somatik frazeologizmlər aid olduğu millətin dünyagörüşünü, adət-ənənəsini, inanclarını, həyat tərzini, məişətini özündə əks etdiyi kimi, Azərbaycan dilinin frazeologiyasında da xalqın zəngin milli mənbələri öz əksini tapıb.

Somatizmlər məcazi mənaların mürəkkəb sistemini yaratmaq imkanına malikdir və frazeologizmlərin əmələ gəlməsində böyük rol oynayır. Bu baxımdan somatik frazeoloji birləşmələr bir çox müasir elmi tədqiqatların obyektinə çevrilmişdir.

Beləliklə, dilçilikdə insanın bədən orqanları ilə bağlı birləşmələrə somatik birləşmələr deyilir. Somatik termini qədim yunan dilində mövcud olan soma-"bədən, bədənə aid" terminindən əmələ gəlmişdir. Bu termini dilçilikdə ilk dəfə olaraq Estoniya dilçisi F.Vakk istifadə etmişdir. Eston dilində tərkibində orqan adları mövcud olan birləşmələri tədqiq edərkən onlara somatik adını vermişdir.

Somatik frazeologizmlər xalqın qədim mədəni tarixini, insanların ətraf aləmə baxışlarını əks etdirməsi baxımından frazeologiyanın qədim qatını təşkil edirlər. Bəzi tədqiqatçıların hesablamalarına əsasən somatik frazeologizmlər mədəni spesifik gücü ilə frazeoloji fondun 25%-ni təşkil etməkdədirlər. Bu fikri də onunla izah edirlər ki, insan orqanizminin hissələrinin adları dil leksikonun qədim qatlarına daxildir. Dilin semantik sistemindən asılı olaraq, somatik frazeoloji birləşmələrin komponenti kimi müxtəlif somatizmlər çıxış edir.

Əslində tərkibində orqan adları mövcud olan birləşmələr hər dildə geniş şəkildə istifadə olunur. Və son dövrlərdə bu mövzu ilə əlaqəli bir çox araşdırmalar aparılmışdır. Somatik birləşmələrin söz düzümündə yer alan kəlimələrdən biri açar mövqeyi daşıyıb, birləşmənin əsas mənasını öz üzərində daşıyır.

Azərbaycan dilində insanın bədən üzvlərinin adlarını bildirən sözlər leksikanın ən qədim nüvəsini təşkil edir. Onların özünəməxsusluğu linqivistik ədəbiyyatda dəfələrlə işıqlandırılmışdır. Dildəki somatik frazeologizmlərin çoxu bu dilin lüğət tərkibini təşkil edən başqa dil vahidləri kimi qədim tarixə malikdir və bu xüsusiyyət onları lüğət fondundakı somatik leksemlərə yaxınlaşdırır. Bununla belə, somatik ifadələri dilin lüğət fondunun tərkib hissəsi hesab etmək düzgün olmaz, çünki lüğət fondunu təşkil edən sözlər dildə yeni sözlər yaratmaq üçün bir ehtiyat mənbəyidir. Somatik frazeologizmlər isə dildə "daşlaşmış" ifadələr olduğundan yeni sözlər yaratmaq xüsusiyyətinə malik deyildir.

Somatik frazeoloji birləşmələrə daxil olan sözlər bir-birilə əlaqəyə girmir. Onlar yalnız genetik cəhətdən, mənşəcə söz birləşməsi hesab edilə bilər, çünki onlar konkret bir söz birləşmələrinin, yaxud cümlələrin mənasının dəyişdirilməsi nəticəsində yaranmışdır.

İnsanın daxilində, ruhunda yaranan müxtəlif hisslər onun hərəkətlərində, xarakterində də özünü büruzə verir. Bütün bunların insanın daxili və xarici bədən quruluşunda öz əksini tapması təbii bir haldır. Bütün bu xüsusiyyətlər somatik xarakterli frazeologizmlərdə əks olunmaya bilməzdi. Xalqın daşlaşmış təsəvvürlər əsasında yaranan frazeoloji birləşmələr insanın öz daxili orqanlarına hakim ola bilmədiyini, eyni zamanda hiss və duyğularını idarə edə bilmədiyini göstərir. İnsanın daxili orqanlarının adlarından yaranmış somatik frazeoloji birləşmələr daha çox insanların hiss və duyğularını, mənəvi keyfiyyətlərini ifadə edir.

Frazeoloji vahidlərin formalaşmasında somatizmlər mühüm rol oynayır. Dil faktrolarının təhlili bir daha sübüt edir ki, somatik frazeoloji vahidlərin formalaşmasında somatizmlər eyni dərəcədə iştirak etmirlər. Bu baxımdan somatizmləri məhsuldar və qeyri məhsuldar olmaqla iki qrupa ayırmaq olar. Somatik frazeoloji vahidlərin semantik cəhətdən qruplaşdırılmasında bunu daha aydın görmək mümkündür. Dilin lüğət tərkibini təşkil edən sözlərin yalnız müəyyən qismi frazeoloji birləşmələrin formalaşmasında iştirak edir. Dildə elə sözlər vardır ki, onlar bir sıra frazeoloji vahidlərin yaranmasında iştirak edir. Bunlar sırasında somatizmlərin adını çəkmək mümkündür. Bəzi sözlər isə yalnız bir neçə birləşmənin formalaşmasında iştirak edirlər.

Məlumdur ki, somatik frazeoloji vahidlər bədən üzvlərinin adları əsasında formalaşırlar. Anatomik cəhətdən bədən üzvləri xarici və daxili üzvlər olmaqla iki qrupa ayrılırlar. Bu baxımdan həmin birləşmələri xarici və daxili üzvlərin adları ilə formalaşan somatik frazeologizmlər kimi qruplaşdırmaq mümkündür. A.Axundovun bölgüsünə əsasən frazeologizmlərin tərkibində iştirak edən somatizmlərə aşağıdakıları aid etmək mümkündür:

Xarici bədən üzvləri: ayaq, ağız, barmaq, baş, boyun, əl, qol, qulaq, daban, göz, üz, qaş, alın, çiyin, dırnaq, kiprik, kürək, dodaq, barmaq.

Daxili bədən üzvləri: diş, dil, beyin, dalaq, böyrək, ürək.

Bunu da qeyd etmək vacibdir ki, göstərilən somatizmlərin heç də hamısı somatikfrazeoloji birləşmələrin formalaşmasında eyni dərəcə də iştirak etmirlər. onların bəziləri məhsuldar olduğu halda, bəziləri qeyri-məhsuldarlığı ilə seçilirlər. Məsələn, ürək somatizmi ilə formalaşan somatik frazeologizmlərin sayı barmaq komponentli birləşmələrin sayından nəzərə çarpacaq dərəcədə çoxdur.

Tədqiqat obyektimiz olan Azərbaycan dili başqa dillər kimi somatik frazeoloji vahidlərlə zəngindir. Azərbaycan dilində somatik frazeologizmlər çox geniş işlənmə dairəsinə malikdir. Bütün dillərdə olduğu kimi, Azərbyacan dilində də somatik frazeoloji sistem zəruri ehtiyac nəticəsində formalaşmışdır. Somatik frazeoloji birləşmələrin zənginləşməsi prosesi həmişə davam edir.

TƏHSİL İŞÇİLƏRİNİN NİTQİNDƏ İŞLƏNƏN FRAZEOLOJİ VAHİDLƏRİN İŞLƏNMƏ ÖZÜNƏMƏXSUSLUĞU

Rəhimova F.M.
Bakı Slavyan Universiteti

Frazeoloji birləşmələr dildə möhkəmlənmiş, daşlaşmış sabit dil vahidləridir. Frazeoloji vahidlər öz inkişafının təşəkkül dövründə sözlərin, söz birləşmələrinin və cümlələrin məcazlaşma prosesinə məruz qalaraq semantik bütövlük, işlənmə sabitliyi, struktur qapalılığı və yeniləşmə qazanmaqla frazeoloji çevrilmə nəticəsində yaranmışdır. Frazeoloji vahidlərin işlənməsi nitq mədəniyyətinin ayrılmaz bir hissəsidir. Frazeoloji vahidlər ekspressiv üslub vasitəsi kimi dilimizə xidmət edir və eləcə də tərbiyəvi əhəmiyyət kəsb edir. Frazeoloji vahidlər nitqdə daha parlaq, rəngarəng, obrazlı, özünəməxsus, ahəngdar, lətafətli səslənməyə malikdir. Frazeoloji vahidlərin nitqdə rolu yalnız nominativ və kommunikativ funksiyalarla məhdudlaşmır.

1. Frazeoloji vahidlər nitqi obrazlı və daha ifadəli edir;
2. Nitqi yığcamlaşdırır;
3. Nitqə ekspressiv - emosional rəngarənglik verir;
4. Nitqdə qiymətli, ümumiləşdirmiş nəticələr çıxarmağa imkan yaradır;
5. Nitqə sözlərin mənaca yığımını, birləşməsini yüngülləşdirir.

Bu baxımdan da təhsil işçilərinin nitqində işlənən aşağıdakı frazeoloji vahidlər onların nitqinə daha bir gözəllik bəxş etmişdir.

Boyun qaçırtmaq-öhdəsinə götürməmək mənasında;

Məsələn: Təhsilin keyfiyyətinin qiymətləndirilməsi sektorunun müdiri Emin Əmrullayev: “Səlahiyyətlər aşağı olduğuna görə məktəb rəhbərliyi nəticələrə görə cavabdehlikdən *boyun qaçıra* bilir və "idarəetmə məsələləri səlahiyyətimdə olmadığından, nəticəyə də mən məsuliyyət daşımıram" deyir”.

Gözə çarpmaq – diqqəti cəlb etmək mənasında;

Məsələn: Bakı Şəhəri üzrə Təhsil İdarəsinin Beynəlxalq əlaqələr və ictimaiyyətlə əlaqə sektorunun müdiri Arzu Tairquliyeva: “Bəlkə də ilk baxışdan bu yeniliklər elə də *gözə çarpmır*, amma inanın ki, qısa müddətdən sonra biz bu islahatların nəticələrinə şahid olacağıq. Təhsilin şəxsiyyətyönümlü məzmununun yaradılması strategiyanın əsas istiqamətlərindən biri olacaq”.

Gözdən keçirtmək-nəzər salmaq mənasında;

Məsələn: Bakı Şəhəri üzrə Təhsil İdarəsinin Beynəlxalq əlaqələr və ictimaiyyətlə əlaqə sektorunun müdiri Arzu Tairquliyeva: “Şagirdlərin sağlamlığı, təhsil nailiyyətləri və ümumiyyətlə, gələcək nəslin sağlamlığı qidalanmadan çox asılıdır. Bu gün biz məktəblərin qida məhsulları ilə təminatı məsələlərini bir daha *gözdən keçiririk”*.

Əlifba öyrətmək- hər şeyi yenidən başlamaq mənasında;

Məsələn: zərbaycan Təhsil Şurasının sədri Əjdər Ağayev : “Əgər imtahan verəndən sonra abituriyentin bilik keyfiyyəti 500-600 bala müvafiq olsa, demək bu, keyfiyyətli bilikdir. Həmin biliklə ali məktəbə qəbul olubsa, onun oxuması da həmin baza üzərində olacaq. Amma ali məktəbə 150 balla qəbul olunan tələbəyə gərək yenidən *əlifba öyrədək*”.

Qulaq kəsilmək-dinləmək mənasında;

Məsələn: BDU-nun hüquq elmləri doktoru, professor Firudin Səməndərov: ”Böyük arzu ilə müəllimlik etmişəm. Tələbələrim mühazirəmə *qulaq kəsiləndə*, zəhmətimin hədər getməməsinə sevinmişəm. 46 ildir ki, auditoriyada tələbə qarşısındayam”.

əl atmaq - təşəbbüs etmək mənasında;

Məsələn: Azərbaycan Respublikasının keçmiş təhsil naziri Misir Mərdanov: “Elmi-texniki tərəqqinin sürəti daim yüksələn xətlə inkişaf edir. Burada inqilabi dəyişikliklər tez-tez baş verir. Belə bir şəraitdə “Təhsilin məzmununa nələr gətirilməlidir?”, “Hansılar daha vacib sayılır?” sualları həmişə gündəmdə olmuşdur. Bütün bunlara aydınlıq gətirilməsi üçün müxtəlif eksperimentlərə *əl atılmışdır*”.

Yaxa qurtarmaq-qurtulmaq mənasında;

Məsələn: Azərbaycan Respublikasının keçmiş təhsil naziri Misir Mərdanov: “ Elə direktorlar var ki, təhsilin müasir problemlərini lazımınca dərk etmir, yenilikləri qəbul etmək istəmir, köhnə təsəvvürlərdən və təfəkkür tərzindən *yaxa qurtara bilmir*, vəzifə məsuliyyəti, təşkilatçılıq qabiliyyəti, kollektivi vahid məqsəd ətrafında səfərbər etmək baxımından müasir tələbləri ödəmir, yaradıcılıq və təşəbbüskarlıqları ilə fərqlənmirlər”.

Söz vermək-vədə vermək öhdəsinə götürmək mənasında;

Məsələn: Azərbaycan Respublikasının təhsil naziri Mikayıl Cabbarov: “Təyinatımın ilk günündən

söz vermişəm və bu gün də bunu vurğulayıram ki, xaricdə təhsil alan hər bir azərbaycanlı tələbənin qayğıları, ehtiyacları bizim diqqət mərkəzində olacaqdır".

Üzü ağ etmək-doğrultmaq mənasında;

Məsələn: Bakı şəhəri 20 saylı məktəbin müəllimi Fatma Musayeva: "Şagirdlərim hər zaman müxtəlif olimpiadalarda yüksək nəticələr əldə edərək mənim *üzümü hər zaman ağ ediblər*".

Dil tapmaq- qarşılıqlı anlaşma, razılıq əldə etmə mənasında;

Məsələn: 102 nömrəli məktəbin direktoru Məmmədov Qaçay: "Məktəbdə 140 müəllim çalışır, hərəsi bir xasiyyətdədir.Onlarla *dil tapmaq*, qəlblərinə yol tapmaq lazımdır".

Gözlərindən oxumaq-anlamaq mənasında;

Məsələn: Xaçmaz şəhər 4 saylı orta məktəbin müəllimi Nüşabə Məcidova: "Sinfimdə 24 şagird təhsil alır.Həmişə onların daxili aləminə nüfuz etməyə, arzu və istəklərini *gözlərindən oxumağa* çalışıram".

İlk başda təhsil sahəsi deyərkən gözümüzün önündə rəsmi üslubda danışan çıxışlar gəlir və bu çıxışlarda frazeoloji vahidlərin işlənmə dərəcəsini minimum təsəvvür edirik. Lakin göstərdiyimiz nümunələrdən aydın olur ki, bu heç də belə deyil. Göründüyü kimi işlətdiyimiz boyun qaçırtmaq, əl atmaq, gözdən keçirtmək, gözə çarpmaq, gözlərindən oxumaq, dil tapmaq, üzü ağ etmək, söz vermək, yaxa qurtarmaq, qulaq kəsilmək, əlifba öyrətmək və s. kimi frazeoloji vahidlər təhsil işçilərinin nitqini daha da ekspressiv etmiş, rəngarənglik qatmışdır.

LEKSİK ALINMALARIN MƏNİMSƏNİLMƏSİ

Məhərova N.X.
Bakı Slavyan Universiteti

Sözün mənimsənilməsi çoxpilləli prosesdir. Bu prosesə intralinqvistik və ekstralinqvistik amillər təsir göstərir. Sözün dilə gəlməsi ilə dilin lüğət tərkibinə girməsi üçpilləli hadisədir. Birinci pillədə başqa dildən söz dilə gətirilir. İkinci mərhələdə alınma sözün yeni dildə işləkliyi artır. Üçüncü pillədə söz tam mənimsənilir, yəni dilin normalarına uyğunlaşır, lüğət tərkibinə daxil olur. Alınma sözlərin mənimsənilməsi dedikdə digər dillərdən alınan sözlərin ana dilinin normalarına uyğunlaşdırılması nəzərdə tutulur. Məlumdur ki, hər bir dilin özünəməxsus fonetik sistemi və qrammatik quruluşu var. Ona görə də başqa dillərdən alınan sözlərin bir qismi dildəki formasını saxlayırsa da, bir qismi sözalan dilin sistemində, onun qaydaları əsasında yenidən müəyyən şəklə düşür, öz əvvəlki formasını dəyişir. Sözlərin bir qismi adətən, fonetik, qrafik, leksik-semantik və qrammatik cəhətdən adaptasiya olunur. Alınma sözlərin mənimsənilməsi aşağıdakı istiqamətlərdə həyata keçir:

Fonetik və qrafik mənimsəmə.Alınma sözlərin, o cümlədən beynəlmiləl termin və sözlərin qrafik mənimsənilməsi onların alan dilin qrafik vasitələri, hərfləri, qrafemləri ilə yazılışını nəzərdə tutur. Qrafik mənimsəmə transkripsiya və transliterasiya ilə birbaşa bağlıdır. Transkripsiya sözün səs formasının, transliterasiya isə onun qrafik formasının obyekt dilin vasitələri ilə verilməsidir. Transliterasiya latın dilindəki trans+litera komponentlərinin birləşməsindən əmələ gəlmişdir. "Trans" ikikomponentli sözün birinci hissəsi olub Azərbaycan dilində "vasitəsi ilə" mənasına gəlir.İkinci komponent "litera" "hərf" mənasındadır. Transliterasiya bir dilin hərflərinin başqa dilin hərfləri ilə verilməsidir. Transliterasiya zamanı başqa dilin leksik vahidinin yazılış forması alınır. Yəni, alınan sözün qrafemləri alan sözün qrafemləri ilə əvəz olunur, alınan söz, alan dilin orfoepik qaydaları ilə oxunur. İngilis dilindən Azərbaycan dilinə keçmiş hotel(hotel), klub(club) və s. sözlər transliterasiya yolu ilə mənimsənilmişdir. Bu üsuldan onomastik vahidlərin alınmasında daha geniş istifadə olunur: London(London), Texas(Texas) və s. Bir dildən digərinə transliterasiyanın yerinə yetirilməsi bu iki dilin əlifbasındakı qrafemlərin qarşılaşdırılmasını,onların qarşılıqlarını müəyyənləşdirməyi tələb edir. Transkripsiya əcnəbi sözün səslərinin alan dilin səsləri ilə verilməsidir. Başqa dilin səslərinin yazıda verilməsi səsin uyğun gələn səsi verən qrafemlə əvəzlənməsi nəzərdə tutulur. Bu baxımdan transkripsiya da qrafik mənimsəmə ilə bağlıdır.

Transkripsiya zamanı sözün səs forması saxlanılır. Bəzi hallarda sözün səs cildinin bir qədər, yaxud qismən dəyişməsi baş verir və bu dəyişmə sözalan dilin fonetik xüsusiyyətlərinə uyğun şəkildə baş verir. Sayt (site), onlayn (online), treyler (trailer), cins (jeans) və s. kimi sözlər bu şəkildə mənimsənilmişdir. Digər dillərdən Azərbaycan dilinə keçən alınma sözlərin fonetik səviyyədə mənimsənilməsi ilə bağlı təhlildən aydın olur ki, bu alınma sözlərin böyük qismi dilin lüğət tərkibində

özünə yer almışdır. Onların tələffüz və yazılışı Azərbaycan dilinin qrammatik normalarına uyğun aparılır. Lakin bu sözlərin transkripsiya və transliterasiyasında vahid normanın qəbul edilmədiyindən bir sıra sözlərin yazılışında müxtəliflik özünü göstərir. Normanın bu şəkildə pozulması müasir dövrdə mətbuatda nəşr olunan yazılarda özünü göstərir. Mənimsəmənin bu növünə aşağıdakı sözləri misal göstərmək olar:

«Aut»(ing. aut[aut]- 1)oyun zamanı topun və ya şaybanın oyun meydançasından kənara çıxması vəziyyəti; 2) rinqdəki hakimin idmançının nokautda olmasını bildirən komanda. Transliterasiya yolu ilə alınmışdır. Tələfüzü ingilis dilinə uyğundur; «Liga»(ing. league[li:g]: 1) Böyük Britaniya və ABŞ-da məsafə ölçüsü; 2)ittifaq, birlik. Həm transkripsiya, həm də transliterasiya olunmuşdur. Son "ue" birləşməsi ingilis dilində oxunmursa, alınma variantında bu birləşmə "a" saiti ilə əvəz olunur. Birinci hecada fonetik prinsip əsas götürülmüşdür. "ea" birləşməsinin transkripsiyası ilə "i" əvəzlənməsi aparılıb.

Leksik-semantik mənimsəmə. Leksik mənimsəmə altında biz sözün leksik vahid kimi mənimsənilməsini nəzərdə tuturuq. Tədqiqatçıların əksəriyyəti onu leksik alınmaların dildə özünə yer tutması ilə eyniləşdirir. Lakin qeyd etmək lazımdır ki, leksik mənimsəməni yalnız bununla məhdudlaşdırmaq olmaz. Sözlərin semantik dəyişikliklər əsasında mənimsənilməsi və sözlərin qrammatik dəyişikliklər əsasında mənimsənilməsi kimi iki forması fərqləndirilir. İkinci forma qrammatik mənimsənilməni əhatə edir. Burada eyni zamanda, qrammatik uyğunlaşma halı da özünü göstərə bilər. Alınma sözlər leksik-semantik cəhətdən iki şəkildə mənimsənilir: bir qismi mənaca heç bir dəyişiklik edilmədən, digər qismi isə dəyişilərək. Leksik-semantik yolla bir dildən digərinə keçən terminlər hazır şəkildə götürülür. Onlardan bəziləri yeni dil mühitində mənbə dildə mənsub olduqları xüsusiyyətləri müəyyən dərəcədə itirir, daxil olduğu dilin bəzi xüsusiyyətlərini qəbul edir.Alınma sözlərin ekzotik qismi Azərbaycan dilində mənaca dəyişmir, öz mənbə semantikasını saxlayır: lord, ser, leyborist və s. Alınma sözlər o vaxt dilin öz vahidlərinə çevrilir ki, onlar forma cəhətdən mənimsənilməklə yanaşı, həm də müstəqil leksik mənaya malik olsun. Belə semantik dəyişmə Azərbaycan dilindəki ingilis mənşəli sözlərdə müşahidə olunur. Məsələn, böyük tennis və voleybolda topun oyuna daxil edilməsi «servis» (service) adlanır. İngilis dilindən Azərbaycan dilinə keçən ilk məna da idman termini olmuşdur. Sonralar servis "məişət xidməti" anlamında da işlənməyə başlanmışdır. İngilis mənşəli «boykot» sözünün işlənməsində də semantik dəyişiklik hiss olunur. Məlumdur ki, bu söz Azərbaycan dilinə siyasi və iqtisadi mübarizə formasını bildirən termin kimi daxil olmuşdur. Müasir dilimizdə boykot leksik vahidi özünün terminoloji mənasını saxlamaqla yanaşı, semantik tutumunu da genişləndirmişdir. Həmin alınma ictimai-siyasi termin sahəsindən çıxıb məişət çərçivəsində işlənməklə, ümumədəbi dilin fəal leksik vahidinə çevrilib. Boykot leksemi müxtəlif sahələrin terminoloji sistemində də özünəməxsus yer tutmuşdur. Diplomatiya termini kimi boykotun mənası bir dövlətin başqa dövlətlə və bir qrup dövlətlə ticarət əlaqələri yaratmaqdan və saxlamaqdan imtina etməsidir.

Qrammatik mənimsəmə. Leksik alınmalar mənşəcə mənsub olduqları dillərin qrammatik əlamətlərini qismən özlərində daşıyır.Onlar keçdikləri dillərdə bu əlamətləri qoruyur. Bir sıra leksik alınma obyekt dildə qrammatik seqmentasiyaya uğraya bilir. Qrammatik mənimsənilmə prosesinin tədqiqi göstərir ki, dildə foneeik mənimsənilməyə nisbətən bu proses daha məhdud səviyyədə gedir. Qrammatik mənimsənilmənin geniş yayılması dilin qrammatik normalarının daha sərt xarakter daşımasından irəli gəlir. Bununla yanaşı qeyd etmək lazımdır ki, dil əlaqələri prosesində leksik alınmaların obyekt dildə özünə yer tutması onların tərkibindəki qrammatik vasitələrin uyğunlaşması və mənimsəməyə məruz qalmasına səbəb olur.

Deyilənləri yekunlaşdıraraq bu nəticəyə gəlmək olar ki, alınma sözlər dilin bütün yaruslarında fonoloji,qrafik, morfoloji, sintaktik, leksik və semantik cəhətdən mənimsənilməlidir. Alınma sözlər o vaxt dilin öz vahidlərinə çevrilir ki, onlar forma cəhətdən mənimsənilməklə yanaşı, həm də müstəqil leksik mənaya malik olsun.

TƏYİNİN İKİNCİ DƏRƏCƏLİ CÜMLƏ ÜZVLƏRİ SİSTEMİNDƏ YERİ

Qulami Ş.A.
Bakı Slavyan Universiteti

Cümlə sözlərin məna və qrammatik cəhətcə tam formalaşmış ifadə tərzi olub, bitmiş bir fikir ifadə etməklə başqa sintaktik vahidlərdən seçilir və dilin sintaktik quruluşunun əsas vahidi kimi çıxış edir. Cümlə bir-birindən fərqli məna və vəzifəyə malik müxtəlif mövqeli sözlərdən düzəlir ki, bunlara da

cümlə üzvləri deyilir.

Cümlə üzvləri özlərinin mənalarına, vəzifələrinə və mövqelərinə görə baş və ikinci dərəcəli üzvləri adı altında iki qrupa bölünür:

Baş üzvlər: mübtəda, xəbər.

İkinci dərəcəli üzvlər: tamamlıq, təyin, zərflik.

İkinci dərəcəli üzvlər, əsasən, baş üzvlərə tabe olub, onların ətrafında qruplaşdığı kimi, bəzən biri digərinə tabe olub, onun ətrafında qruplaşır. Beləliklə, ikinci dərəcəli üzvlər baş üzvləri və biri digərini izah edir. Qeyd edildiyi kimi cümlənin ikinci dərəcəli üzvləri tamamlıq, təyin və zərflikdən ibarətdir.

Cümlədə əşya ifadə edən hər hansı bir söz – üzvə aid olub, onun əlamət, keyfiyyət və kəmiyyətini bildirən ikinci dərəcəli üzvə təyin deyilir.Təyin özəlamətini yox,başqa bir əşyanın əlamətini bildirir.Deməli, təyin etdiyi sözlər qrammatik və semantik cəhətdən əlaədə olur. İlk baxışda sadə görünən bu qrammatik və semantik əlaqələr müəyyən çətinlik törədir. Onlar aşağıdakı kimi qruplaşdırmaq olar : 1) Hansı morfoloji vahidlər təyin funksiyasında çıxış edə bilər, 2) Təyinlər hansı prinsip əsasında sıralanır 3) Təyin hansı mövqedə işlənə bilər, 4) Təyin vəziyyətinə təsir edən faktorlar.

Qeyd edilən məsələlərin izah edilməsi hım nəzəri , həm də praktik baxımdan müəyyən aktuallıq kəsb edir.

Eyni zamanda, təyinin tədqiq edilməsi bilavasitə söz birləşməsinin daha dərindən öyrənilməsinə xidmət edə bilər. Təyin öz xüsusiyyətinə görə digər cümlə üzvlərindən əsaslı surətdə fərqlənir. Bu da ondan ibarətdir ki, bir cümlədə eyni zamanda bir neçə təyin ola bilər. Beləliklə, təyin cümlənin mübtədasına, tamamlığına, ismi xəbərin ad hissəsinə, isimlə və bəzi ismi birləşmələrlə ifadə olunan zərfliyinə, həmçinin təyininə, daha doğrusu, bəzi ismi sifətlərlə ifadə olunan təyininə aid olur.

Təyinin ifadə vasitələrindən danışarkən qeyd etmək istərdik ki, müasir ingilis dilində təyin geniş ifadə imkanlarına malikdir. Təyin ikinci dərəcəli cümlə üzvü olaraq müxtəlif nitq hissələri və feilin təsriflənməyən formaları ilə ifadə olunur : Bunlara aiddir : sifət, xüsusilə, vəziyyət bildirən sifətlər, feili sifət , əvəzliklər , saylar , yiyəlik halında olan isimlər , sözönü ilə işlənən isimlər, məsdərlər , sözönülü cerundlar. Təyinin ifadə vasitələrinə aid misallar aşağıdakılardır :

1. Sifətlə - *A **cold** rain began to fall.*

2. Feli sifət – *The **broken** cup is on the table.*

3. Müxtəlif növ əvəzliklərlə - *Take **this** book. **My** book is on the table. **Some** boys are in the yard.* və s.

4. Sayla – *Two letters were translated yesterday. The **second** boy is my friend.*

5. Yiyəlik halında olan isimlə - ***Tom's** book is on the table. **Old Jolyon's** face was reddened.*

6. Ümumi halda olan isimlə - *It was a stone house. I happened near the **river** side.*

7. Sözönü ilə işlənən isimlə - *The door **of the room** is brown. The key **to the door** is on the table.*

8. Məsdərlə - *There is a book **to read**.*

9. Sözönü ilə işlənən cerundla – *I enjoy the manner **of his talking**.*

10. Vəziyyət bildirən sifətlə - *He found the man **alive**.*

Müasir Azərbaycan dilindən fərqli olaraq, ingilis dilində, təyin təyin olunan sözdən əvvəl və ya sonra işlənə bilir, məsələn:

*I saw a **barking** dog.*

*A dog **barking** ran away.*

Təyinlə bağlı diqqəti cəlb edən məsələlərdən biri də təyinin cümlədə sıralanması hallarıdır. Bu da ondan irəli gəlir ki, təyinin cümlədə özünəməxsus qərarlaşmış yeri yoxdur. Onun cümlədəki yeri təyin olunan sözün yerindən asılı olur. Buna görə də təyinin cümlədə yerindən deyil, onun təyin olunan sözə görə yerindən danışmaq lazımdır, təyin olunan söz cümlədə hansı yerdə dururs, təyin də orada durur.

Bunların hər biri haqqında növbəti tədqiqatlarda daha ətraflı məlumat veriləcək.

СВЯЗНОЙ ТЕКСТ И ЯЗЫКОВАЯ КОММУНИКАЦИЯ

Мамедова Н.М.

Бакинский славянский университет

Текст как лингвистический термин понимается в разных значениях и в лингвистических исследованиях разделен на два типа: микротекст и макротекст. Макротекст является законченным

речевым произведением, и характеризуется значением, структурой, целью, композицией. И один маленький миниатюр, и одно стихотворение в прозе, и один рассказ, и один повест, и один роман тоже считается макротекст. Роман «Тихий Дон» М.А.Шолохова, повесть «Метель»А.С.Пушкина является самостоятельные макротексты.

На самом деле термин микротекст понимется в разных значениях. До изучении лингвистики текста термин микротекст принимали как один или несколько предложений выбранных для анализ и исследовании. Нр.: Рев ветра и грохот разъяренных волн потрясали полуразбитый корабль, и он трещал, скрипел и дрожал предсмертной дрожью раненого животного. Ураган обгонял тучи и волны, волны обгоняли корабль, и все вместе они неслись с бешеной скоростью, будто низвергаясь поверхности земли в мировую бездну. (А.Белинский).

С.И. Москальская считает что, под макротекстом понимается «целое речевое произведение…, то есть текст в широком смысле слова». «Микротекст – это сверхфразовое единство (сложное синтаксическое целое) – текст в узком смысле слова». Итак, микротекст – это минимальная текстовая единица, а макротекст – это такая текстовая единица, которая представляет собой объединение нескольких микротекстов.

Макротекст может быть частью параграфа или главы, совпадать с параграфом, главой, может быть отдельным произведением (рассказом, статьей, романом). Понятия микро- и макротекста различают только в противопоставлении целого и части.

Иногда абзац и сложное синтаксическое целое отождествляется. Обе они играют семантико-стилистическую роль. Именно поэтому абзац и сложное синтаксическое целое могут в своих частных проявлениях совпадать, соответствовать друг другу.

«Например: Дождь в течение всего лета шел некрупный и теплый. Сначала люди остерегались его, сидели дома, а потом началась нормальная жизнь под дождём, как если бы его и не было. Люди в этом случае действовали подобно курам, ибо существует точная примета предсказания длительности дождя: если во время дождя куры прячутся в укрытие - значит дождь скоро перестанет. Если куры, как ни в чем не бывало бродят по улице, по дороге, по зеленым лужайкам - значит дождь зарядил надолго, по всей вероятности на несколько дней (Солженицын).

Такое совпадение хотя и не случайно, но отнюдь не обязательно. Не случайно, потому что абзацное членение текста подчинено, прежде всего, его смысловому членению, а сложное синтаксическое целое, хотя и является синтаксической единицей, свои формальные показатели объединённости отдельных компонентов приобретает тоже на основе их семантической спаянности. Но совпадение это не обязательно потому, что абзац композиционно организует текст, он выполняет не только логико-смысловую функцию, но и выделительную, акцентную, эмоционально-экспрессивную. Кроме того, абзацное членение в большей мере субъективно, нежели синтаксическое».

Макротексты формируются на основе цепы микротемов и в зависимости от объема произведении, путем умело координации сообщает читателю главную тему.

КАТЕГОРИЯ РОДА В АНГЛИЙСКОМ ЯЗЫКЕ

Гаджиева Г.Н.
Бакинский славянский университет

Роль существительного представляет собой не чисто грамматическую, а лексико-грамматическую категорию, поскольку существительное имеет фиксированную характеристику по роду. Собственно грамматической категории рода у английского существительного нет, поскольку нет соответствующих грамматических показателей (окончании), однако в языке существует ряд лексических и словообразовательных способов указания родовой (чаще-просто половой) принадлежности. Например: boy-girl, cow – bull, cock-hen, duck-drake, а также словообразовательные средства woman-teacher, he-wolf, tom-cat; суффикс –ess для обозначения женского пола actress, poetess, lioness. В английском языке – в случаях где род существительного различается – это категория семантическая, а не грамматическая, поскольку ни у самого существительного, ни у определения к нему формальных показателей рода нет. Род определяется лишь по соотнесению с личным местоимением 3 л. ед. ч. (he , she, it).

Средний род, как и в русском, в основном обозначает неодушевленные предметы (впрочем,

и одушевленному существительному baby может соответствовать местоимение it). Существует также определенная корреляция по роду между некоторыми типами существительных и заменяющими их местоимениями. В частности, традиционные названия стран соответствуют местоимению женского рода (England, Australia and her people) тогда как официальные, политические или географические наименования соответствуют местоимению среднего рода (The United Kingdom and its peoples; The continent of Australia: its climate and natural resources)..

В фольклорных и поэтических произведениях обычно используется местоимение мужского рода, если нечто представлено как существо активное, сильное, уподобляющееся человеку, и, напротив, используется местоимение женского рода, если нечто представлено как существо слабое, нежное, или как-либо уподобляемое женщине. Так, в английском фольклоре Sun=he, Moon=she, Wind, Ocean, River=he, Nature=she, Fear, Love=he, Hope, Mercy=she. С местоимением женского рода традиционно соотносятся названия судов (boat, ship и т.д.), а также других транспортных средств- если о них говорится с ласкательным оттенком (Something is wrong with my car, I can't start her); в нейтральном контексте допустимо и местоимение среднего рода (I saw a car at the curb; its window was broken).С тем же ласкательным оттенком возможно употребить местоимение женского рода и по отношению к любому неодушевленному объекту, над которым человек совершает какие-то действия (I am trying to move this cupboard over to other wall. Just give me a hand with her/ with it). В частности Смирницкий в своей книге «Морфология английского» доказывает не существование рода в английском языке как в грамматическом так и лексико – грамматическом смысле. С другой стороны М.А. Ганшина и Н. М. Васильевская тоже объясняют не существование рода в английском языке.

ПЕРСИДСКИЕ МОТИВЫ С. ЕСЕНИНА И ВОСТОЧНАЯ КЛАССИКА

Искендерова А.А.
Бакинский славянский университет

Стремление Есенина попасть в Персию ограничивалось с тем фанатизмом, когда фанатическое превращается в фантастическое, а недостижимое уже достигнуто и уже воплощаемым в реальность.

Персия, которая возникла в сознании писателя как точка притяжения становится символом веры Есенина.

Есенин сам устанавливал иерархию со своими персидскими писателями как взаимодействия ученика и учителей. Есенин в сущности повторял путь Пушкина, который стараясь «открыть новые миры», стремился изучать « свой образец и дать ему вторичную жизнь».

«Персидские мотивы» несут следы пушкинской формулы. Есенин в период создания « Персидских мотивов» проявлял особенное внимание к поэтическому наследию востока.

Персия Есенина это Восток. Для писателя к пониманию Восток входит и Восток и Коран, и арабские сказки, и традиционные народно поэтические представления. Довольно очевидно, что топонимика, ономастика, образная система « Персидских мотивов» призвана перенести и переносит нас в полу фантастическую, в полу реальную Персию Есенина. Имена восточных героев и образы связанные с ними воспринимаются как особая система основных идей Есенинского цикла, которые в главном определяют не персидские или русские мотивы, а вообще человеческие.

Важно подчеркнуть, что в «Персидских мотивах» присутствуют три имени реальных исторических лиц. Это имена Саади, Хайяма и Фирдоуси. Они живут в « Персидских мотивах», наполняют собой мир Персии и мир русского поэта, который соглашается и не соглашается с ними, сопоставляет «свою» Персию с их голубой страной.

Целует ли его герой женщину, он ревнует не к «реальному», живому тегеранскому чайханщику или влюбленному сопернику иранцу, а к своему восточному предку поэту: Ты сказала, что Саади// Целовал лишь только в грудь. Когда он хочет выразить ощущение душевного покоя, счастья разделенной любви, писатель не находит лучшего сравнения чем «нежность как песни Саади».

Подыскивая точное определение, которое могло бы более адекватно воплотить контуры

придуманной им, а также реальной Персии он использует и другой имя символ « Голубая родина Фирдоуси». Каждый из восточных поэтов упомянутых Есениным в «Персидских мотивах», занимает прочное положение в его душе и в его цикле: имя Саади связано с темой любви, нежности, красоты, имя Хайяма с развитием философской идеи., имя Фирдоуси с большим эпическим понятием .

В «Персидских мотивах» образность, которая восходит к ирано – таджикской литературе, тюрко кавказской любви («обнимает розу соловей», «глаза как яхонты», образы сада, путника призвана передать не только восток, а эмоциональное состояние , душу героя цикла, который сходен со внутренним миром героев восточных поэм.

Цикл « Персидские мотивы» принято называть любовным циклом поэта. Герой поэмы не только очарованный странник. Главное в нем не меняющиеся лири образа, а постоянные человеческие качества: он философ и поэт остается им и «обличье бродяги», и в образе влюбленного и который обращает любимой не только светлые и грустные слова «соловьиной песни», но и о проблемах бытия. («Дорогая с чадрой не дружись, // Заучи эту заповедь в кратце».)

В « Персидских мотивах» тема поэта является одним из сквозных тем в « Персидских мотивах» . Исходы этой темы тоже восходят восточной классике.

В основе « Персидских мотивов» лежит определенное впечатление поэта. Но как и для всякого другого поэтаэта действительность не была ориентировано не только на обстоятельства живого востока, он постигал ее и в востоке, и его стихийному уму как философа гуманиста, и его «скитальческой» судьбе поэта, чья «честь и жизнь за честь продана».

У восточных мудрецов путь это дорога к известному пределу, определенной истине, а путник личность движущаяся к цели. Так рисовали образ путника « учителя» Есенина, это была не сознательная аллегория, а художественная система где мысли и эмоции выражено свободной, « напевной «песнью».

Так, в «Персидских мотивах» не так уж много совпадений с образами и поэтикой классиков востока. Суть этого художественного парадокса состоит в том, что это поэма развивалась в эстетической атмосфере персидской поэтической школы, причем Есенин взаимодействовал не с конкретными авторами конкретных произведений, а со всей поэтической культурой, который дал толчок к замыслу поэмы, и всему что можно было бы назвать художественной жизнью бессмертного творения Есенина.

SAY MİFOLOJİ SİSTEMDƏ ƏN GENİŞ YAYILMIŞ İŞARƏLƏR TOPLUSU KİMİ

Əhmədova E.M.
Bakı Slavyan Universiteti

Azərbaycan dilçiliyində say bir sistem kimi xüsusi yer tutur. Kəmiyyət anlayışının, say məfhumunun ifadəsi bir sıra məsələlərlə bağlıdır.

Təfəkkürün tarixi inkişaf prosesində kəmiyyət anlayışı, o cümlədən saylar getdikcə daha çox mücərrədləşmişdir. Dildə bu mücərrədləşmə qrammatik kateqoriyanın ən mühüm komponenti kimi təzahür edir. Şübhəsiz, hər bir dilin milli orijinallığı sayların dildə reallaşma vəziyyətini təyin edir, başqa sözlə desək, say kateqoriyası hər bir dilin quruluşundan, səciyyəsindən asılı olaraq, müxtəlif şəkildə özünü göstərir.

Kəmiyyət kateqoriyası insan idrakının ümumiləşmiş, mücərrəd bir kateqoriyası kimi özünün inkişafında bir sıra mərhələlər keşmişdir ki, bu da öz növbəsində ayrı-ayrı dillərdə sayların xüsusi bir nitq hissəsi kimi formalaşması və qrammatik kateqoriya kimi meydana çıxması ilə öz əksini tapmışdır.

Dilimizin lüğət tərkibində başqa nitq hissələrinə nisbətən saylar az yer tutsa da, onların əhəmiyyəti böyükdür, əhatə dairəsi genişdir. Belə ki, saylardan çoxlu miqdarda düzəltmə və mürəkkəb sözlər yaranır. Bunu da qeyd etmək lazımdır ki, hər hansı bir dildə məişətlə, dini görüşlər, müxtəlif adət və ənənələrlə bağlı olaraq bəzi saylar daha tez-tez işlədilir. Bunlar müqəddəs, sevimli və qiymətli saylar hesab edilir.

Dilçilik ədəbiyyatında bu məsələ sayların sakramentallığı adlanır.

Dünya dillərinə əsasən aşağıdakı saylar sakramentaldır: üç, beş, yeddi, səkkiz, doqquz, on iki, qırx və s. A.İ. Popov həmin saylar haqqında yazır: " Müəyyən kultlarla bağlı olan bir sıra rəqəmlər (yeddi və başqaları) çox vaxt qəbilədən və onun əlamətlərindən, eyni zamanda dilindən aslı olmayaraq həmin kultların fəaliyyəti və ya təsiri dairəsində geniş yayılır".

İnsan təbiətdə baş verən hadisələrin arxasında magik qüvvənin dayandığını zənn etməklə yanaşı, bir sıra rəqəmlərin də fövqəltəbiiliyinə inanmış və onları iki qismə ayırmışdır: uğurlu və uğursuz rəqəmlər. Mifoloji təsəvvürlərdə hər ikisi qeyri-adi işarələrin törədicisidir. Dünya mifik sistemində, xüsusilə xristianlıqda üç dəfə altı rəqəminin təkrarı (666) iblisin gəlişini, üç dəfə səkkizin yanaşı işlənməsi (888) İsus Xristosun yenidən doğuşunu bildirir. Eləcə də iyirmilik say sistemində 13 nəhs rəqəmi hesab edilir. Ay təqvimində bir neçə rəqəm – 10, 13, 16, 25 bədbəxtlik, 29 isə uğursuzluq gətirən gündür, qalan hallarda isə nəhsliyi deyil, iki müqəddəsliyi – 1-i (tanrı) və 3-ü (dünyalar) özündə əks etdirən şöhrət rəmzi olmasından bəhs açılır.

Hər bir ənənəvi mədəniyyət üçün xarakterik olan rəqəmlər var. Onların hansı rəqəmlər olması bir təsadüf olmayıb, həmin mədəniyyətin bazasını təşkil edən mifoloji dünya modeli ilə bağlıdır. Məhz sayların ilk mifoloji xüsusiyyətə malikliyini söyləyən xalq misirlilər olmuşlar. Lakin onlar sayları nitq hissəsi kimi göstərməmişlər. Misirlilərdən sonra hindlilər sayların sakrallığı ilə yanaşı, ilk dəfə sayın nitq hissəsi (ad bildirən sözlər işərisində) olduğunu qeyd etmişlər. Həmçinin saylar ayrı-ayrı dillərin qohumluğunu sübut etmək üçün də əsas faktlardan biri kimi qeyd edilməlidir.

Azərbaycan mifik təfəkküründə kök salmış müqəddəs rəqəmlərin açımında riyazi mifologiyanın müstəsna rolu vardır. M. H. Təhmasib " Əfsanəvi quşlar" məqaləsində "Məlik Məmməd " nağılı ilə bağlı 40 və 30 ədədlərinin simurq quşu ilə əlaqəsini şərh etmişdir. O, 40 ədədinin uzaq məsafəni ifadə etdiyini, o dünya ilə bu dünya arasındakı məsafənin 40-a bərabər olduğunu (40 tuluq su, 40 şaqqa ət) qeyd edir. Simurqun "otuz quş" anlamında olmasını və bu adın daha başqa mənaları ifadə etdiyini yazır.

Kəmiyyət anlayışını dildə ifadə etmək baxımından türk dilləri dünyanın inkişaf etmiş dilləri ilə bir səviyyədə dayanır və kəmiyyət anlayışının ifadəsinin rəngarəngliyi baxımından dünyanın digər dillərindən geri qalmır.

Reprezentativ çoxluğun türk dillərində ifadə oluna bilməsi də türk təfəkküründə kəmiyyət kateqoriyasının inkişafını göstərir.

DOKTOR CAVAD HEYƏTİN "İKİ DİLİN MÜQAYİSƏSİ" ƏSƏRİ

Bayramova D.T.
Bakı Slavyan Universiteti

Tezisin əsas mövzusu Cavad Heyətin "İki dilin müqayisəsi" adlı tədqiqatıdır. Burada tədqiqat elmi təhlilə cəlb edilərək dilçilik üçün bir sıra maraqlı problemlər izlənilir.

"İki dilin müqayisəsi" müəllifin qırx illik gərgin axtarışlarının nəticəsidir. Əsər Azərbaycan türkcəsinin fars dili ilə müqayisədə son dərəcə zəngin lüğət fonduna , söz ehtiyatına, məna tutumuna malik olduğunu göstərməklə İran mühitində dilimiz, milli mənsubiyyətimiz haqqında bu vaxta kimi formalaşan şovinist baxışları alt-üst edir.

Cavad Heyət konkret misallar əsasında göstərir ki, Azərbaycan türkcəsi təkcə folklor, şifahi dil faktı deyil, həm də çağdaş elmi, ədəbi, publisistik əsərlərə mənbə olan dil bazasıdır.

Müəllifin özünün də qeyd etdiyi kimi " "İki dilin müqayisəsi" adlı bu əsər türk dilinin qüdrətini bu dili yetərincə bilməyib, keçmişin qərəzli mühakimələrinə uyan soydaşlarımıza göstərmək üçün qələmə alınmışdır. Bu əsərdə türk dili (oxucuların fars dili ilə tanışlığı və mətləbə diqqətlə yanaşa biləcəklərini nəzərə alaraq) fars dili ilə müqayisəli şəkildə götürülmüş, onun özəllikləri yığcam şəkildə şərh edilmişdir".

Cavad Heyət tədqiqatında Orxan-Yenisey abidələrinin dilini tutarlı dil faktı kimi təhlilə cəlb edir, o vaxtki sovetlər birliyinin geniş məkanını, Şərqi Türküstanı, İran və Balkanları xatırlamaqla 28 türk

ləhcəsindən xəbər verir.

Cavad Heyətin bu əsəri Ə.Nəvainin "Moğayesət-ül-lüğəteyn" əsərinin davamıdır. "Moğayesət-ül-lüğəteyn" kitabında cığatay türk dili fars dili ilə tutuşdurulmuş, bu kitabda isə həmin məqsəd üçün Azərbaycan türkcəsi seçilmiş, araşdırma mövzusu kimi Azərbaycan ədəbi dilinin özəllikləri və sözləri götürülmüşdür.

Əlişir Nəvai "Moğayesət-ül-lüğəteyn" əsərində diqqəti cəkən araşdırmalar aparmış, fars dilində dəqiq ekvivalenti olmayan, 100 türk sözünü misal gətirmiş, fars dilində ümumiyyətlə qarşılığı olmayan xeyli türk feli sadalamışdır. Nəvai yazır ki, nümunə olaraq göstərilən bu yüz sözün farsca qarşılığı yoxdur. Ona görə də bu yüz sözün mənasını farsdillilərə başa salmaq istəsək, ərəb dilindən alınma sözlərin köməyi ilə düzəlmiş bütöv cümlələrdən istifadə etmək məcburiyyətində qalırıq.

Doktor Cavad Heyət isə öz əsərində 1650 türk sözünü göstərir ki, fars dilində onların qarşılığı yoxdur. Qarşılıqlı müqayisələrə əsaslanan bu əsər Azərbaycan türkcəsinin üstünlüyünü sübut edir.

Fars dilində qarşılğı olmayan türk sözləri:

Azərbaycan tərcümə	**Farsca(transkripsiya)**	**Farscadan azərbaycancaya**
Acıtma	*Xəmirmaye, xəmir-e torş*	*Xəmir mayası, balatı (turş xəmir)*
Ada	*Cəzire*	*Ada*
Adaş	*Həmnam*	*Eyni adlı, adları eyni olan*
Ərgin	*Maye, mozab*	*Maye, axar, axıcı, ərimiş, əridilmiş*
Əsmər	*Gəndomqun*	*Qarabuğdayı*
Önəm	*Əhəmiyyət; lozum*	*Əhəmiyyət, lüzum, zəruriyyət*
Barışmaq	*Solh kərdən, aşti kərdən*	*Selh yaratmaq, barışmaq*
Bilək	*Moç-e dəst*	*Əlin bilək hissəsi*
Qılıq	*Ğeleğ*	*Əxlaq, xarakter, xasiyyət*
Qımıldamaq	*Təkan xordən*	*Tərpənmək, yerindən oynamaq*
Küsəyən	*Zu drənc, delnazok*	*Tez inciyən, qəlbiyuxa, nazikürək*

Müəllif özü kitabın birinci çapı üçün yazdığı ön sözdə qeyd edir ki, "Türk dilini araşdırmaq üçün istifadə edilmiş sözlər Azərbaycan ədəbi dilindən, Azərbaycan şair və yazıçılarının əsərlərindən alınmışdır. Odur ki, ana dili türk dili olan oxucuların heç də hamısı güman etməsinlər ki, bütün bu sözlər onlara tanış sözlərdir".

Kitabın ikinci çapında müəllif bəzi məsələlərdə düzəlişlər etmiş, doğruluğuna şübhə etdiyi səkkiz sözün siyahısını nəzərdən keçirmiş, təkrar getmiş sözləri ixtisar edərək onların əvəzində kitaba 126 yeni türk sözü artırmışdır.

Bir də qeyd etmək lazımdır ki, bu əsəri qələmə almaqda məqsəd fars dili və ədəbiyytında işlədilən türk sözlərinin lüğətini hazırlamaq deyil, Azərbaycan türkcəsi və fars dillərinin qarşılıqlı araşdırılmasıdır.

ATALAR SÖZLƏRİNDƏ ŞƏXS ADLARI

Ağayeva L.N.
Bakı Slavyan Universiteti

Müasir dilçiliyin ən aktual mövzularından biri folklor nümunələrinin dilinin həm linqvistik, həm koqnitiv, həm də ədəbiyyatşünaslıq baxımından araşdırılmasıdır. Bu sırada atalar sözlərində şəxs adlarının zəngin poetik xüsusiyyətləri xalqın sənətkarlıq qabiliyyətini aydın şəkildə əks etdirir. Mübaliğəsiz demək olar ki, atalar sözlərinin onomastikasının tədqiqi yolu ilə müvafiq milli adların yaranması və işlədilmə xüsusiyyətləri elmi şəkildə şərh oluna bilər. Digər tərəfdən xalq ədəbiyyatının dilinin araşdırılması Azərbaycan ədəbi dilinin formalaşması tarixinin və özünəməxsusluğunun öyrənilməsi üçün zəngin material verir.

Azərbaycan dilində işlənən atalar sözləri və zərb məsəllərin (paremik vahidlərin) tərkibindəki leksik vahidlər - sözlər üslubi rənglərə qarşı həmişə həssas mövqe tutmuş, daim dildə müxtəlif məna yükü daşımışdır. Burada ümumi və xüsusi olmaq üzrə sözləri iki qütbə ayırmaq da mümkündür. Onların leksik-semantik strukturunda və fonetik-qrammatik sistemində olan ümumi səciyyə sintaktik vahid kimi paremiyalarda lazımınca işıqlandırılmamışdır. Onomastika ilə bağlı yazılmış F.Xaliqovun folklor onomastikasına həsr olunmuş doktorluq dissertasiyasından və Pedaqoji

Universitetdə keçirilən onomastik konfransın materiallarında bir neçə tezis istisna olmaqla atalar sözlərindəki onomastik vahidlər nə üslub, nə də dil tarixi baxımından araşdırılmamışdır. Halbuki, bu folklor nümunələri bədii üslubun inkişafının öyrənilməsi baxımından çox zəngin material verir.

Bəzi atalar sözləri və məsəllərin ümumi məzmununa, orada işlədilən leksik vahidlərin, o cümlədən şəxs adlarının funksiya və məna çalarlarına diqqət yetirdikdə onların hansı dövrün məhsulu olduğunu, hansı məqamlarda yaranıb formalaşdığını təxmin etmək mümkündür.Bundan başqa atalar sözlərinin tərkibindəki dil vahidləri onun aid olduğu xalqın dilinin inkişaf tarixini də özündə əks etdirdiyindən, atalar sözləri dil tarixi baxımından da çox əhəmiyyətlidir.

Atalar sözləri və məsəllərin ilk yaranma mərhələsini bu qrupa daxil olan şəxs adlarının semantikasında fərdi anlayış, adlandırma funksiyası, konkret məna aparıcı anlam kimi təzahür edir, sonrakı mərhələlərdə isə tədricən tamamlayıcı, məcazlaşmış məna fərdi anlayışı üstələyir. Belə atalar sözləri və məsəllərin çoxu tarixi şəxsiyyətlərin adı ilə əlaqədardır.

Nadiri taxtda görüb, Süleymanı qundaqda - atalar sözü, insanın dünyagörüşünün geniş olduğunu, yaşının çox olduğunu göstərir. Azərbaycan folklorunda bu atalar sözünə bir neçə variantda təsadüf edilir: *Süleymanı taxtda, Nuhu gəmidə görüb: Nuhu taxtda, Süleymanı qundağda görüb;* Cəlal Bərgüşadın "Siyrilmiş qılınc" romanında bu atalar sözü yeni variantda, başqa-başqa tarixi şəxsiyyətlərin adı ilə işlədilir*:" Deyirdilər ki, baba Çinar Makedoniyalı İsgəndəri taxtda, İran şahı Daranı qundaqda görüb.* Bu, atalar sözlərində dayaq leksik vahidləri kimi işlədilən *Süleyman, İsgəndər, Dara və Nadir* - müxtəlif zaman və məkan daxilində yaşayıb, fəaliyyət göstərən tarixi şəxsiyyətlərin adlarıdır.

Bəzi atalar sözlərində surətin adı əvəzinə, onun vəzifəsini, peşəsini, sənətini və ya müəyyən əlamətini bildirən sözlər işlənir. Məsələn: Vəzir, Vəkil, Rəmmal, Usta, Dərzi, Dəmirçi, Zərgər, Qarı, Keçəl və s."Keçəl başını yudun? - Yudum da, quruladım da", "Keçəl əlac bilsə öz başına edər", Keçəl qatıq tapsa öz başına yaxar". Maraqlıldır ki, belə atalar sözlərinin demək olar ki, hamısının nağıl variantı mövcuddur. Məsələn: Azərbaycan nağıllarında keçəl haqqında onlarca nağıl mövcuddur ki, bu nağılların ümumi nəticəsi məhz həmin atalar sözləridir. Adları əvəz edən bu sözlərin özünəməxsus üslubi xüsusiyyətləri vardır.

Ümumiyyətlə, atalar sözlərində işlədilən şəxs adları çox vaxt, necə deyərlər, müxtəlif mənaları bildirən "təmsilçi" kimi çıxış edir. Əksər hallarda "hər hansı" qeyri-müəyyən əvəzliyin yerində işlənərək, özünün ilkin adlandırma funksiyasını itirir, ümumiləşmiş məna ifadə edir. Bu cür antroponimik vahidlər ya ahəngdarlığına, ya da alliterasiya xüsusiyyətinə görə seçilir: *Baba durub, Babacan durub, Ağa Nəzərəm, belə gəzərəm, bir yumruqla qırxın əzərəm, Əl Tutmaq, Əlidən qalıb* və s.

ŞƏXS ADLARININ QRAMMATİK XÜSUSİYYƏTLƏRİ HAQQINDA

Şərifova Y.B.
Bakı Slavyan Universiteti

Müasir Azərbaycan dili zəngin antroponimik leksikaya malikdir. Azərbaycan onomastik mənbələrində antroponimik kateqoriyalara dair külli miqdarda dil faktları özünü göstərir. Azərbaycan şəxs adları müxtəlif xüsusiyyətlərə malik olan leksik kateqoriyalardandır.Azərbaycan dilinin antroponimik leksikasında xüsusi kəmiyyəti və tutumu, forma və məzmunu ilə seçilən şəxs adları xalqımızın tarixi yaradıcılıq məhsulu və mənəvi sərvətidir.Hər bir xalqın mədəni tarixində xüsusi şəxs adları böyük əhəmiyyət kəsb etmiş və edir. Şəxs adları insan cəmiyyəti yarandığı gündən meydana gəlmiş, cəmiyyətin ictimai, siyasi, sosial, iqtisadi və mədəni tərəqqisi ilə bağlı inkişaf yolu keçmiş, müxtəlif dövrlərdə və müxtəlif şəraitdə formalaşmış, nəhayət, dilimizdə şəxs adlarının müasir və zəngin sistemi yaranmışdır.

Azərbaycan dilində şəxs adlarının mənşəyi, inkişafı və yaranma yolları müxtəlifdir. Şəxs adları xalq tərəfindən yaradılır və yaşadılır. Şəxs adları uşağa ata – anası, qohumları tərəfindən verilir və dövlət tərəfindən rəsmi qeydiyyata alınır, ona hüquqi status verilir, cəmiyyət içərisində şəxsin varlığı təsdiqlənir, insan ona verilmiş adı ömrü boyu daşıyır, həyatdan köçdükdən sonra da həmin adla tanınır.

Dünyanın əksər dillərində olduğu kimi Azərbaycan dilində də şəxs adlarının öyrənilməsi istiqamətində xeyli işlər görülmüş, bu adların linqvistik xüsusiyyətləri ilə bağlı qiymətli fikirlər söylənilmiş, maraqlı konsepsiyalar irəli sürülmüşdür. Məlumdur ki, şəxs adları sabit kateqoriya deyildir . Tarixin müxtəlif inkişaf mərhələlərində onlar da dəyişir, təkmilləşir, yeniləri ilə əvəz olunur, bir qismi unudulur, yaxud uzun illərdən sonra unudulmus adlar yenidən xatırlanır. Ad insanı yaşatdığı kimi, insan

da adı yaşadır. Ad xalqımızın ictimai – siyasi baxışı, dünyagörüşü , həyata münasibəti, istək və arzusu ilə bağlı yaranır, sadə və mürəkkəb sözlər əsasında formalaşır. Odur ki, Azərbaycan dilində şəxs adları leksik xüsusiyyətlərinə görə təkkomponentli və çoxkomponentli olur.Təkkomponentli şəxs adları bir sözdən ibarət olur və ərazidə geniş şəkildə işlənir. Azərbaycan antroponimik sistemində təksözlü şəxs adları miqdarca çoxluq təşkil edir. Dilimizdə iki və daha çox sözün birləşməsi yolu ilə yaranan şəxs adları çoxkomponentli adlar cərgəsinə daxildir. Bu haqda elmi nəzəri ədəbiyyatlar və müxtəlif qaynaqlarda geniş məlumatlar vardır.Belə adlar mürəkkəb şəxs adları olub vaxtilə dilimizdə fəal şəkildə işlənmiş və zaman keçdikcə arxaik cərgəyə keçmişdir. Onu da qeyd edək ki, dilimizə aid bəzi mənbələrdə çoxkomponentli şəxs adlarının bir qisminin orfoqrafiyasında uyğunsuzluğa yol verilir, mürəkkəb şəxs adlarının tərkib hissələri ayrı yazılır.Belə faktların aradan qaldırılması üçün şəxs adları lüğətinin hazırlanması,hər bir yazılışı və deyilişinin düzgün müəyyənləşdirilməsi aktual məsələlərdən biridir.

Azərbaycan antrponimik sistemində şəxs adlarının morfoloji xüsusiyyətlərini araşdırarkən onların nitq hissələrinə görə qruplaşması daha çox diqqəti cəlb edir.

Məlum həqiqətdir ki , şəxs adlarının əsas hissəsini isimlər təşkil edir. Məsələn, Zöhrə, Fidan, Fuad, Zümrüd və s. Ümumiyyətlə götürdukdə, isimdən yaranmış şəxs adları 60% təşkil edir.

Azərbaycan antroponimik sistemində azad, aydın, bala, sarı, ağ, əziz, igid, yaxşı, gözəl və s. sifətlərdən müxtəlif şəxs adları əmələ gəlir. Məsələn, Aydın, Gözəl, Göyçək, Güllü, Bəyaz və s.

Feldən düzəlmiş şəxs adlarına feli şəxs adları da demək olar. Məsələn, Yaşar, Anar, Dursun, Qorxmaz, Haqverdi, Tanrıverdi və s.. Araşdırmalar göstərir ki, feli şəxs adları kişi adlarında üstünlük təşkil edir.

Bunlardan başqa zərflərdən əmələ gələn Səhər, İlkin, saydan əmələ gələn Bircə, Bircəxanım, nidadan əmələ gələn Əhsən, Afərin, İnşallah və s. şəxs adlarına da rast gəlinir.

Müasir Azərbaycan ədəbi dilinin və dialektlərinin lüğət tərkibində olan şəxs adlarında diqqəti cəlb edən bir xüsusiyyət də onların tam və natamam meyara görə fərqlənməsidir. Tam adlar o adlara deyilir ki, onun leksik və qrammatik tərkibində heç bir yarımçıqlıq yoxdur. Məsələn, Mehdi, Kamal, Vaqif , Səbinə, İbad və s. Dialektlərdə və ya danışıq dilində, bəzən də ədəbi dildə tam adlar formasını dəyişərək yarımçıq şəklə düşür. Məsələn, Səbiş, Kamış, Diliş, İbiş, Xaniş və s.

Elmi ədəbiyyatda bu cür adlara elliptik, yəni kəsik adlar da deyilir. Bəzən bunlara dilimizdə nəvazişli adlar da deyilir.

AŞIQ ƏLƏSGƏR YARADICILIĞINDA ONOMASTİK VAHİDLƏR

Mustafayeva G.E.
Bakı Slavyan Universiteti

Azərbaycan aşıq sənəti, milli aşıq poeziyası tarixində şərəfli yer tutan sənətkarlardan biri Aşıq Ələsgərdir. O, qeyri-adi fitri qabiliyyəti sayəsində yaratdığı müxtəlif şəkilli, müxtəlif məzmunlu sənət incilərində özünə məxsus bədii boyalarla ifadə etdiyi ümumbəşəri didaktik fikirləri ilə bu müqəddəs sənətin zirvəsinə yüksəlmişdir. Qüdrətli el sənətkarının yaratdığı əsərlər aşıqlarımızın repertuarında geniş yer tutmuş, şənliklərin, məclislərin bəzəyinə çevrilmişdir. Aşıq Ələsgər yaradıcılığını belə zirvəyə qaldıran isə onun dilinin sadəliyi, zənginliyi və xəlqiliyidir.

Aşıq Ələsgərin şeirlərinin lüğət tərkibinin təhlili göstərdi ki, burada istənilən dil vahidlərinə rast gəlmək olaur. Bu dil vahidləri icərisində onomastik vahidlər öz istifadə formasına, tezliyinə və məqamına görə çox fərqlənirlər. Belə ki, aşıqın şerlərində təsadüfən işlədilən ad yoxdur, hər bir ad müəllifin hansısa bir fikrinin əsasını təşkil edir. Firdovsinin, Nizaminin, Nəsiminin, Füzulinin, Hafizin adlarının çəkilməsi, "Onlar da yazdığı, ayə, məndədi" deməsi təsadüfi sayılmamalıdır. Aşıq dinləmə yolu ilə onların əsərlərindən çox şey öyrənmişdir. Yaradıcılığında rast gəldiyimiz "Şəninə dastan yazıram, Rüstəmin dastanı kimi", "Rüstəmin Rəxşi kimi gətirir cövlana, deyin", "Ürəyim bir Kərəmə, bir Şeyx-Sənana yanır", "Səxavətdə misli Hatəm, səddə İsgəndər kimidi", "Qəlbdən yas tuturam Məcnuna, Fərhada bu gün", "Hüsndə Yusifsanı, kamalda Loğman kimidi", "Hər yana kağız dağıldı, Süleyman fərmanı kimi", "Min yaşasın Ismayılı, nərəsi Heydər kimidi", "Erkək yan-yana kəsildi, Minanın qurbanı kimi" və b. ifadələr deyilənləri təsdiq edir.

Yaradıcılığa Səhnəbanının eşqi ilə başlayan Ələsgər bütün ömrü boyu gözəlləri vəsf eləmişdir. Onun müxtəlif mövzuda yaratdığı şeirləri də gözəlin və gözəlliyin mədhi tərifindən ibarətdir. Əsərlərində

adları çəkilən Əsli, Pərzad, Gövhər, Güləndam, Güllü, Müşgünaz, Telli, Gilə, Həcər, Mələk, Şahpəri və başqa gözəllər sadə kəndli qızlarıdır. Bunlar sadə olduqları qədər də ürəyi təmiz, ismətli, həyalı, məhəbbətlərinə sədaqətli və mehribandırlar. Kəlbəcərdən söhbət açarkən aşıq deyir:

Züleyxa təmkinli gözəllər hamı, \Siması, libası, qurğu-nizamı; \"Qardaş" deyib, dindirirlər adamı, \ Hörmətləri, mərfətləri yaxşıdı.

Aşıq Ələsgər yaradıcılığında Azərbaycan torpaqlarının vəsvi də zirvədə dayanır. Aşıq Ələsgərin adı çəkiləndə Göyçə mahalı, Göyçə mahalının adı çəkiləndə Aşıq Ələsgər yada düşür. O, "Adım Ələsgərdi, Göyçə mahalım", "Adım Ələsgərdi, əslim göyçəli", "Göyçənin qonağa çoxdu hörməti" – deyərək, belə bir diyarın övladı olması ilə fəxr edir. Göyçə mahalının, eləcə də bütün Azərbaycanımızın zəngin təbii gözəllikləri, orada yaşayan vəfalı, alicənab insanları, mərd igidləri; hurilərlə, pərilərlə müqayisəyə gələn gözəl qız-gəlinləri aşığın ilham mənbəyidir.

Aşığın ilk şeirlərindən olan "Köynəyinə" rədifli qoşmasında deyilir: Sinən Kəbə, köynək Kəbə örtüyü, İzin versən, sürtəm üz köynəyinə. Burada aşiqin məşuqəsinə olan məhəbbətinin müqəddəsliyi, səmimiliyi, aliliyi, paklığı insanı heyran edir. Nümunədən də göründüyü kimi müəllif insan obrazını təqdim edən də belə hansısa bir yer adının semantikasında gizlənən mənadan çox ustalıqla istifadə edə bilir.

Aşıq şerlərində biz dini adlarla, mifonimlərlə də qarşılaşırıq. Allahın varlığına inanan haqq aşığı mövcud olan dinlərin heç birinə mənfi münasibət bəsləməmişdir. O, peyğəmbərlərin hamısına ehtiramını bildirmiş; Quran qədər, Incil, Zəbur və Tövrata da müqəddəs kitab kimi baxmışdır. Bununla belə o, "Kəbə qıblam, dinim – Məhəmməd dini", – deyərək, müsəlman olması ilə fəxr eləmişdir.

Aşıq Ələsgər böyük bir nasehdir. Onun yaradıcılığının əksər hissəsi oxucuya (dinləyiciyə) tərbiyəvi fikirlər aşılayır. Aşığın neçə-neçə bəndi, onlarla beyti və misrası xalqın dilində atalar sözü və zərb-məsəl olmuşdur: "Qarı düşman bir də gəlib dost olmaz", "Haqdan yanan çıraq bad ilə sönməz", "Haqq-nahaq seçilə haqq divanında", "Dövlətdən qismətin beş arşın ağdı", "Can deməklə candan can əskik olmaz", "Qaytarmazlar pirə gələn qurbanı", "Qiyamət odundan pisdi tənə söz", "Dost uzaq olmaqla könül yad olmaz", "Muşlar pələng olmaz, tülkülər – aslan", "Dərd tüğyan eyləsə, mey içmək olar", "Sayğısız iyidi düşman aldadar", "Kişi gərək dediyindən dönməsin", "Qonşuya kəc baxan özü ac olu", "Güzəran xoş olub, gün xoş keçəndə, ağ otaqdan tövləxana yaxşıdı" və s. Aşıq Ələsgər böyükdür, ona görə böyükdür ki, min illik bir ənənənin axarında öz sözünü demiş, heç kəsi təkrar eləməmiş, qeyri-adi bir söz sənəti yaratmışdır.

TÜRKOLOGİYADA MÜRƏKKƏB SİNTAKTİK BÜTÖVLƏRİN TƏDQİQİ

Zeynallı T.Ə.
Bakı Slavyan Universiteti

Cümlədən böyük səviyyənin, yəni mətnin dilçilikdə araşdırılması problemi 20-ci yüzilin 2-ci yarısından sonra ortaya çıxmasını qeyd edən M.Musayev bütövlükdə mətn sintaksisinin filoloji elm sahəsi kimi 20-ci yüzilliyin sonunda formalaşmasını , Avropa dilçiliyi , xüsusən də Praqa funksional dilçilik məktəbinin böyük xidməti olduğunu vurğulayır.

M.Z .Zəkiyev 20-ci əsrin 60-cı illərində mətn sintaksisi sahəsində böyük uğurlar qazanmasını da vurğulayır. Sözü gedən kitabda mürəkkəb sintaktik bütövlərin quruluşu və tərkib daxilindəki cümlələrin əlaqələnməsi məsələsinə daha çox toxunulub.Mürəkkəb sintaktik bütövlərin sərhədləri , həcmi , semantik xüsusiyyətləri , mətndə əlaqələndirici vasitələri tatarca mətnlər əsasında işləyib hazırlayır.Elmi əsərin əsas məqsədini izah edən M.Z.Zəkiyev mürəkkəb sintaktik bütövlərdə əsas məsələnin onları təşkil edən cümlələr arasındakı münasibətlər eləcə de onları bağlayan vasitələri ətraflı tədqiqata cəlb etməyi və müstəqil , bərabərhüquqlu cümlələr arasındakı bağlılığı öyrənmək üçün vacib olan tələblərə əlaqəli nitqin hansı hissəsi cavab verirsə, mürəkkəb sintaktik bütövdə hüdudları ondan asılı olaraq müəyyənləşir.

M.Musayev türk ədəbi dillərində mətn sintaksisinə dair aparılan tədqiqatçıların başlıca mövzularının mətnin qrammatikası və semantikası , mətn və üslubiyyat, komponentlərin bir- biri ilə bağlanması , bağlayıcı vasitələr, sərhədləri, həcmi kimi məsələləri qeyd edir.

M.Musaoğlu da əldə olan türk mətnlərinin həm nəsr, həm də nəzmlə olduğunu vurğulayır. O əsasən şeir üçün xarakterik olan sintaktik paralellik, inversiya və parselyatikləşmə hadisələrini qeyd edir; At ayağı külük olur,Ozan dili çevik . (K.D.Q.); Bu işə Mehri xan da razı oldu.Əhməd xan da. (Koroğlu).

Cümlə hər hansı sözlə başlayıb o sözlə bitmir, ancaq ona müqabil sözlə bitir. Məs.;" Axşama az qalırdı.İki yolun ortasında görünən günəş yavaş-yavaş saralırdı.Gündüzdəki istidən sonra hava bir az soyumuş, səhərdən bəzi yerə od püskürən günəş sanki yorulub dücdən düşməyə başlamışdı".-cümlələrindəki ifadə olunan bütün fikirlər.Əslində, " axşama az qalırdı" – cümləsinin yekunudur.Axşamın necə düşməsini biz mətndə növbəti verilən cümlələr vasitəsilə öyrənirik.Eyni zamanda baş verən ardıcıl sadalanan təbiət hadisələri oxucunun gözü qarşısında axşamın üfüqündə batan günəşini,alatoranını xatırladır.

" Kəndin adı xoşuma gəlmirdi.Fikirləşirdi.Belə böyük , bağ-bağatlı kəndin adı " Yovşanlı " olmamalı idi.Ələmgil köçəri olduqları vaxtlarda da bu yerə " Yovşanlı" deyirdilər.Başdan-ayağa yovşanlıq idi.Qışda da yovşan iyi gəlirdi burdan.Ələmgil arana qayıdanda burda binə salardılar.Dağda enən qoyun gərək yovşan da yeyə idi.Yovşan yeyən qoyunun ciyərlərində yara , qurd olmur.Gör nə vaxtdır yovşanın kökünü kəsiblər: Amma yel əsəndə yovşanın ətrini gətirir özü ilə".

İ.Məlikzadədən verilmiş nümunədə I şəxsin kəndin adının xoşuna gəlməmə səbəbi növbəti cümlələrdə " kəndi " lekseminin " bu yer " , "burada", kimi işarə əvəzlikləri ilə ifadə olunur.Eyni zamanda da yovşanla adlandırma səbəbi əlaqələndirilir: köçəri olmaqları, onların arana qayıdanda burada binə salmaları, eləcə də yovşanın dağdan enən qoyun üçün sağlam qida mənbəyi olması izah olunur, ancaq qarşılaşdırma-zidiyyət ifadə edən " amma" bağlayıcısı vasitəsilə müəllif yuxarıda verdiyi fikirləri təkcə yovşanın izahına deyil, eyni zamanda hadisələrin gedişində və sonluqda " amma " -nı da izah edir və aydın olur ki, yovşanın növü kəsilib, amma ətri qalıb, çünki hər yel əsdikcə yovşanın ətrini özü ilə gətirir.

Morfoloji təkrarlar: " Qoca durduğu yerdən tərpənib çarpayısına tərəf getdi.Onun uzunboğaz çəkməli, güclü ayaqları altında döşəmə zarıdı.O, yastığın üstündən boş " Belomor" paçkasını götürüb, qalın qabarlı barmaqları arasında əzərək yerə tulladı, rəngi solmuş qalife şalvarının cibindən təzə paçka çıxırdı, tələsmədən açıb papiros yandırdı, dərindən sümürdü,-xırıldaya-xırıldaya hey öskürdü.Gözləri sulandı.Əlinin arxasıyla gözlərini silib, fikirli-fikirli ayaqlarının altına baxdı.Sonra ağır başını qaldırıb, papirosunu ara vermədən tüstülədə-tüstülədə diqqətlə nəzərlərini Toğrulun üzünə dikdi.

Sintaktik bütövlərin sərhədlərinin müəyyənləşdirilməsində üslub, janr,bədii və elmi əsərin bəsitliyinin , kamillik və dərinliyinin bu sahədə böyük əhəmiyyəti olduğunu qet edən Q.Kazımov, L.Q.Fridman, M.Z.Zəkiyev və b. mikromətnin dəqiq başlama və qurtarma sərhədinin olmadığını da vurğulayırlar. Sintaktik bütövlərin ümumiyyətlə, sərhəddi olmaması heç buna ehtiyac duyulmadığından bəhs edən dilçilər də olmuşdur." Müasir Azərbaycan dili.Sintaksis" kitabında mürəkkib sintaktik bütövlərdən danışarkən ilk növbədə sintaktik səviyyədə yaruslardan söz birləşməsi- müxtəsər cümlə- sadə geniş cümlə- mürəkkəb cümlə-qarışıq tipli mürəkkəb cümlə-mürəkkəb bütöv (mətn) şəklində mürəkkəbləşmə ardıcillığından da bəhs edilmişdir. Bu da " dilin söz birləşməsi və ya cümlə " kimi, eləcə də" onlardan böyük bir sintaktik vahiddən söhbət gedirsə" ,onun sərhədlərinin mövcud olmasının zəruriliyini də qeyd etmək vacibdir. Bu isə öz növbəsində dilçilikdə mürəkkəb sintaktik bütövlərin sərhədlərini müəyyənləşdirmək məqamında bir sıra prinsiplərə yol açmışdır.V.Dresslerin fikrincə, mətnin sərhədlərini fonoloji cəhətə əsasən, yəni sintaktik bütövün başa çatdığını göstərən daha aydın pauzaya əsasən müəyyənləşdirmək olar. Ə.Xəlilov isə sintaktik bütövün təşkilində böyük rolu olan mərkəzi cümləni tapıb, təhlilə cəlb etməyi məqsədəuyğun hesab etmişdir.

Mövcud olan mətnləri giriş,izahedici , nəticə cümlələrə ayrırlar.Bu haqda F.Allahverdiyeva " Mürəkkəb sintaktik bütövlərin komponentləri arasında sintaktik əlaqə vasitələri" adlı namizədlik dissertasiyasında qeyd edir ki, " struktur-kompozisiya baxımından mətn çox və yaxud az dərəcədə dəqiq sərhədə malik aşağıdakı 3 mərhələ vasitəsilə yaranır :

- başlanğıc
- orta
- son.

Başlanğıc mərhələsi mətnin ümumi mövzusunun mübadilə prosesində mövzuya daxil edilməsidir.Onun tərkibi mətnin mövzusunun dolğunluğu ilə bağlıdır.

Əgər son mərhələnin konkretləşdirici mahiyyətdə olması abzas başlanğıc mərhələ ilə şərtlənirsə, abstrakt sonluq əksinə başlanğıc nöqtəsi kimi özünü göstərir.Konkret başlanğıc elə başlanğıcdır ki, burada mətnin məzmun və informasiyası sanki əvvəl verilir.Məqsəd isə bu informasiyanın sonrakı komponentlərdə müxtəlif istiqamətlərdən inkişbaf etməsi, əlavə səciyyələrlə

zənginləşməsidir.Başlanğıc orta və son mərhələlər əslində struktur-sintaktik mahiyyətə malik deyillər.Müəyyən dərəcədə onlar dinamik kateqoriyalardır.Beləliklə, mətnin başlanğıc və sonluğu müxtəlif sintaktik-məntiqi məzmunda dondurula blər və bu zaman mətnin başlanğıca münasibətdə əksinə dolum prinsipi ilə formalaşır bunlar başlanğıc və sonluğun dolum məzmunun və mətnin başlanğıc komponentindəki təkrar özünü göstərə bilər.Mətnin son komponentindəki struktur sintaktik uzunluq özünü göstərə bilər.Və nəhayət, mətnin mikrosüjeti məzmun xarakterli açıq-aydın siqnalizatorlarla qapana bilər.Bütün bunlar danıçıq nitqinə aiddirlər.Mətn dilçiliyi üzrə ixtisaslaşmış digər alim V.Qak mətni bu şəkildə müəyyənləşdirməyi təklif edi : "zaman və məkanda təşkil olunmuş bir bütövü nəzərdə tutan hər hansı bir cümlələr ardıcıllığını mətn kimi qəbul etmək mümkündür". Lakin L.Kaseviçin fikrincə, cümlələrin birliyi öz-özlüyündə hələ mətn yaratmır, daha dəqiq desək, vahid bütöv mətn yaratmır.Hökmən hansısa təşkiledici prinsip olmalıdır ki, onun da əsasında mətn son dərəcə özünəməxsus ,daha dəqiq imkanlarını , forma əlamətlərinin qarşılıqlı münasibətini öyrənmək lazım gələrdi".

TERMİNOLOJİ QATDA YENİLƏŞMƏ BARƏDƏ

Ağazadə K.A.
Bakı Slavyan Universiteti

Dünyaya inteqrasiya, cəmiyyətin inkişafı, dilimizin yeni leksik vahidlərlə zənginləşməsinə səbəb olan amillərdəndir. Cəmiyyətdə baş verən dəyişmələr ictimai hadisə olan dilə bilavasitə təsir edir. Elm və texnikanın inkişafı ilə əlaqədar olaraq, meydana gələn belə sözlər xüsusiləşmiş məna kəsb edir və adi sözlərdən fərqlənir. Belə sözlər termin adlanır. Dilin bu leksik qatı cəmiyyətin inkişafına uyğun olaraq, hər an dəyişikliyə məruz qalır və yeni-yeni leksik vahidlərlə zənginləşir. Dilin leksik sistemini təşkil edən sözlər öz semantikası baxımından fərqlənir və müəyyən qruplara bölünür. Leksik qatın qruplaşma prinsiplərini ümumiləşdirərək, onu spesifik əlamətləri ilə seçilən iki hissəyə bölmək olar: lüğət tərkibinin daha çox hissəsini təşkil edən ümumi leksika və xüsusi leksika. Xüsusi leksikanı təşkil edən söz qruplarının mənası, ümumi leksikadan fərqli olaraq, dil daşıyıcılarının hamısına məlum olmur. Lakin müəyyən dövrdən sonra xüsusi leksik vahidlərin bir qismi ümumişlək leksik fonda keçir. Bu proses daimi olduğundan, ümumi və xüsusi leksikanın dəqiq sərhədləri olmur. Ümumi leksikanı təşkil edən söz qruplarının mənası isə hamıya məlum olur. Ümumi və xüsusi leksikada özünü göstərən bəzi fərqlər var. Bu fərqlərdən xüsusi leksikaya aid olan əsas xüsusiyyətlər bunlardır:

I.X üsusi leksikanın digər dillərə tərcümə olunma imkanlarının məhdudluğu;

II. Digər dillərdən xüsusi leksik vahidlərin alınma imkanlarının daha geniş olması;

III.Çoxmənalılığın, omonimliyin, sinonimliyin xüsusi leksikada məhdud şəkildə özünü göstərməsi;

IV. İfadə və məzmun planında müəyyən fərqlərin üzə çıxması və s.

Bəzən bir termin elm və texnikanın bir neçə sahəsində işlənə bilər. Məsələn: *arpalıq* – ümumişlək söz, həm də termin kimi işlənir. *Dolama* - həm tibb termini kimi, həm də ümumişlək söz kimi işlənir. Bu sözlər daxil olduğu sahədə bir mənada işlənir. Belə ki, hər bir terminin mənası bütövlükdə anlayışlar sistemi ilə müəyyən bir elm sahələrinin terminologiyası ilə təyin edilir. *Arpalıq* – ümumişlək söz, səpmək üçün yararlı yer mənasındadır, termin kimi isə atın azı dişlərindəki çökəkliliyi mənasında işlənir. D*olama* - tibb termini kimi dirnaq altının iltihab verməsi xəstəliyi, ümumişlək söz kimi isə dolama yollar adlanır.. Eyni sözün ifadə etdiyi mənalar müxtəlif semantik sahələrə aid olur, bir söz bir iki, üç sözə çevrilir omonimlik meydana çıxır ki, bu mənalar arasında semantik əlaqə tapmaq mümkün olmur. Məsələn: *alt* - ümumişlək söz kimi bir şeyin aşağı hissəsi, musiqi termini kimi isə alçaq səsli nəfəslə çalınan musiqi alətidir. A*zad* - ümumişlək söz mənasında başqasından asılı olmayan, sərbəst olan insan, botanikada isə bərk oduncaqlı ağac növü mənasındadır. B*ölük* - hərbi termin kimi işlədərkən piyada və bəzi xüsusi qoşun hissələrində batalyon tərkibinə daxil olan əsgəri hissə, ümumişlək söz kimi parça, tikə mənasındadır. *Bölmə* - hərbi termin yəni kiçik əsgəri hissə adlanır, riyaziyyatda isə bölmə cədvəli kimi işlədilir. B*oy* - ümumişlək söz kimi bədənin uzunluğu, folklorda isə dastanda müəyyən hadisəyə həsr edilmiş fəsil, hissə kimi işlədilir. C*ürə* - zoologiyada ördəyəoxşar kiçik su quşudur, digər mənalarından biri forma**,** növ mənasında; məsələn: insanlar anadan bir *cürə* doğulmur, *cürə* musiqidə işlədilən söz kimi, sazın dörd simli kiçik növü anlamlarını verir. Morfologiya – dilçilikdə dilin morfoloji quruluşunu öyrənən sahə mənasında, fiziologiyada isə bitkilərin quruluşunu öyrənən elm mənasında işlənir. T*romb* -

tibb termini kimi qan damarında əmələ gələn qan laxtasıdır, başqa mənası isə coğrafiyada işlədilir; məsələn: atmosferin burulğanlı, çox güclü, şaquli hərəkəti, xortumu anlamındadır. T*ik* - tibb termini kimi əzələlərin, başın çiyinin və s. qeyri- ixtiyari olaraq, atmasından ibarət əsəb xəstəliyidir, ümumişlək söz kimi isə materialdan paltar hazırlamaq mənasını verir. T*oplu* - hərb termini mənasında topu olan, qrammatikada isə varlığın çoxluğunu bildirən söz kimi işlədilir.

Dilçilik ədəbiyyatında terminoloji sistemdə omonimlik yol verilməz hal kimi qeyd edilir. Lakin ayrı-ayrı terminlərin omonimlik keyfiyyəti daşıdığını müşahidə etmək olur. Bu daha çox hallarda müxtəlif sahə terminologiyasında özünü göstərir.

ИЗУЧЕНИЕ ЯЗЫКОВОЙ КАРТИНЫ МИРА В СОВРЕМЕННОМ ЯЗЫКОЗНАНИИ

Бабаева Н.А.
Бакинский славянский университет

Возникновение термина «языковая картина мира» связано с интересом современной лингвистики к проблеме отражения человека в языке. Термин «языковая картина мира» – фундаментальное понятие, выражающее взаимоотношения человека с миром. Многообразие языковой картины мира определяется спецификой восприятия мира разными народами и конкретными индивидами.

Автор термина «картина мира» – Людвиг Витгенштейн («Логико-философский трактат») говорит о речевом характере мышления; Лео Вайсгербер, которому принадлежит термин «языковая картина мира», рассматривает картину мира на основе учения Вильгельма фон Гумбольдта о «внутренней форме» и «духе народа».

Многообразие определений терминов «картина мира» и «языковая картина мира».

Отличие терминов «картина мира» и «языковая картина мира»: картина мира относится к числу фундаментальных понятий, выражающих взаимоотношения человека с миром. Картины мира чрезвычайно многообразны, так как это всегда своеобразное видение мира, его смысловое конструирование в соответствии с определенной логикой миропонимания. Они обладают исторической, национальной, социальной детерминированностью. Существует столько картин мира, сколько имеется способов мировидения: каждый человек воспринимает мир и строит его образ с учетом своего опыта.

Языковая картина мира – это модель мира, созданная языком и существующая в языке.

Концептуальная картина мира как основа языковой картины мира: концептуальная картина мира богаче языковой картины мира; это образ мира, который находится в сознании человека в виде понятий.

Картина мира отражается в концептах. Термин «концепт» впервые упоминается в 1928 г. С. А. Аскольдовым-Алексеевым, определившим его как мысленное образование, которое замещает в процессе мысли неопределенное множество предметов, действий, мыслительных функций одного и того же рода. Совокупности концептов языка Д.С.Лихачев называет его концептосферой. Концептосфера любого языка концентрирует культурные смыслы на всех уровнях ценностно-смыслового единства культуры – от нации в целом до отдельной личности, играет особую роль в культурном творчестве.

Благодаря концептосфере каждая национальная культура существует как определенная целостность. Богатство культуры определяется количеством ее внутренних и внешних связей с другими культурами и с отдельными ее отраслями.

Концепт понимается как фрагмент объективной действительности, зафиксированной в сознании этноса и каждого представителя данного этноса.

Основной вариант представления концепта – вербализация, т.е. представление концепта с помощью языковых средств – лексических и фразеологических.

Один из центральных концептов русского сознания – концепт «дружба», представляющий многоаспектное явление, которое охватывает межличностные отношения, основанные на общности интересов, духовной близости, доверии и откровенности. Концепт «дружба» относится к числу аксиологических концептов, релевантных для культуры народа, отображающих и формирующих ценностные ориентиры представителей этой культуры.

В широком смысле концепт «дружба» обозначает и социальные отношения, т.е. связан как с моралью, нравственностью, долгом, верностью, справедливостью, так и с носителем всех этих качеств – другом.

Изучение основных концептов языковой картины мира – и концепта «дружба» в частности – в составе терминологических, фразеологических и других сочетаний расширяет знания человека о языке.

TƏRCÜMƏ SƏNƏTİNİN BƏZİ PROBLEMLƏRİNƏ DAİR

Rəhimova L.A.
Bakı Slavyan Universiteti

Bədii tərcümə ifadə etdiyi estetik mənaya əsasən yaradıcılıq sahəsi hesab olunur və məhz bu səbəbdən də özünün ifadə etdiyi mənaya uyğun yanaşma tələb edir. Bu sahədə də digər sahələrdə tələb olunduğu kimi istedad əsas tələblər sırasındadır. Yaradıcılıq nümunəsinin keyfiyyətində əvvəlcə istedad,söz duyumu,daha sonra məsuliyyət və zəhmət nə qədər vacib rol oynayırsa,tərcümə də belədir.Tərcümə əsərinin keyfiyyətini əsərin müəllifi ilə yanaşı,bəzən ondan da artıq dərəcədə tərcüməçinin istedadı,işinə məsuliyyəti müəyyən edir ki,bu halın əksi qarşılaşdıqda söz duyumu, mətni hiss etmə və fikir ifadə etmə bacarığı,oxuduğunu və duyduğunu təxəyyülündə canlandırma,təsvir etmə qabiliyyəti, bir də sözsüz ki, gördüyü iş qarşısında məsuliyyət hissi olmayan tərcüməçidən yaxşı tərcümə gözləmək olmaz.Tərcümə nəzəriyyəsi toplularında tez-tez "tərcüməçi hər iki dili dərindən bilməli,onların tarix və adət ənənələrinə yiyələnməlidir" cümləsinə rast gəlirik. Bu cümləni tərcüməçi öz işində hər zaman rəhbər tutmalıdır, çünki tərcüməçi tərcümə etdiyi dili yüksək səviyyədə bilmirsə,onun hər hansı bir sözü, ifadəni araşdırıb öyrənməsi mümkündür.Amma öz ana dilini yüksək səviyyədə bilmirsə,sözü duymaq bacarığı yoxdursa hər hansı sözün,ifadənin düzgün çevrilmədiyini,yerində olmadığını, "yerləşdirildiyi yerə yad gəldiyini-uyğun olmadığını" da hiss etməyəcək,daha dəqiq desək ,dogru olanının tapılmasında çətinlik çəkəcək.Bədii tərcümənin bir çox problemləri vardır ki, bunlara bir sıra nümunələr vermək olar: tərcüməçi tərcümə etdiyi əsəri oxucu kimi oxumağı bacarmalı,müsir dövrdə redaktor problemi, tərcümənin əsas və heç də az əhəmiyyət daşımayan problemlırindən biri olan müəllif və əsər adlarının orijinal formada saxlanılıb-saxlanılmaması və digər məsələlər bu siyahını artırmaqdadır.Bədii tərcümənin uğurlu olmasını təmin edən yollardan biri əsasən yazıçıların bu işlə məşğul olmasıdır.İstedadlı yazıçının yaxşı tərcüməçi olm şansı daha artıqdır.Və yaxud,yaxşı ədəbiyyat nəzəriyyəçisi, ədəbiyyatşünas elmı-nəzəri ədəbiyyatın uğurlu tərcüməçisi ola biləcək və yaxud yaxşı dil biliyinə malik tərçüməçi eyni zamanda yazıçı istedadına malik olmalı və nəzəriyyə,ədəbiyyatşünas elmi-nəzəri ədəbiyyat biliklərinə yiyələnməlidir.Yəni profil mütləq müəyyən edilməlidir.

Tərcümə sırasında orijinal müəllif ilə tərcüməçinin yaradiciliq fərqi ondan ibarətdir ki,yazıçının təxəyyül çeşməsindən süzülüb gələn bədii materialı tərcüməçi "hazır şəkildə" qəbul edir,öz yaradıcılıq labaratoriyasında dərindən təhlil edərək doğma dilində səsləndirir.Bu zaman isə tərcüməçinin qarşısına qoyulan tələbləri yerinə yetirməlidir.Tərcümənin hər növünün və hər sahəsinin ayri-ayriliqda dərin bir proses olduğunu nəzərər alsaqda tərcüməçi ən çətin anları milli kolorit daşıyıcıları,coğrafi adlar,xüsusi adlar və s. bu kimi hallarda yaşayır.

Bildiyimiz kimi tərcümənin bir çox tərcümə metodları var.Lakin son dövrlərə nəzər saldıqda daha çox tərcümələrdə transliteraiya metodundan istifadə olunur.Bu növ ötürülmə geniş yayıldığı kimi də,dillərdə dərin iz qoyur.Məsələn ingilis dilində işlənən *"mer","lendlər",*alman dilində *"Morger"*sözləri.Lakin transliterasiyadan o zaman istifadə olunur ki, orijinldakı sözün mənasının leksik lakonikliyinə fikir verilsin və əgər dildə həmin sözün tərcüməsinə uyğun söz yoxdursa bu zaman bu üsul daha məqsədə uyğun bir üsul kimi dəyərləndirilsin.Əgər translitersiya yolu ilə çevrilən realı çox nadir hallarda və ya ilk dəfə işlədilirsə (başqa dilə ilk tərcümə edilirsə) onda münasib kontekstdə izahat verməyə ehtiyac duyulur.Lakin tərcüməçiləri bəzən rahat üsula daha tez cəlb edir və bu zaman onlar sözün kökünü ,ifadə etdiyi mənanı,qarşılığının olub-olmadığını araşdırmadan bu metoddan istifadə edir.Bu isə ümumi tərcümə sənətinin estetikasını və oxucunun tərcüməyə olan marağını yox etməyə kifayət edir.Bütün bunları nəzərə alan tərcüməçinin qarşısında ilk öncə tərcümə etdiyi əsərin oxucusu olmaq tələbi qoyulmlıdır.Bu zaman o oxuduğu hər iki əsər arasında fərqi duymalı və mümkün qədər oxucunun bu fərqi duymamağını etməlidir ki,tərcümə əsəri ona verilən yeni həyatla yaşasın.

AZƏRBAYCAN VƏ RUS DİLLƏRİNDƏ "BEL" KOMPONETLİ FRAZEOLOJİ BİRLƏŞMƏLƏRİN MİLLİ-MƏDƏNİ XÜSUSİYYƏTLƏRİ

Məmmədova E.T.
Bakı Slavyan Universiteti

İnsanın bədən hissələri və orqanları müxtəlif mədəniyyətlərdə, çeşidli dillərdə həqiqi-ilkin mənadan başqa simvolik məna da daşıyırlar. Bədən üzvləri və onların adları insanın xarakterini, xüsusən də onun milli-mədəni xüsusiyyətini ifadə edir və çox zaman da frazeologiyanın tərkibinə daxil olurlar. Frazeoloji birləşmələr xalqın milli-mədəni dəyərlərini, dünya görüşünü və təfəkkür tərzini özündə birləşdirməklə onları nəsildən-nəsilə ötürürlər. Frazeoloji birləşmələrin sayəsində hər bir dilin milli xüsusiyyətləri ortaya çıxır; onlar xalqın ruhunu, özünəməxsusluğunu təcəssüm etdirirlər. Bunu müqayisəyə cəlb etdiyimiz bel komponentli frazeoloji birləşmələrdə də aydın şəkildə müşahidə edə bilərik. Azərbaycan və rus dillərində bel komponentli frazeoloji birləşmələrin az olmasına baxmayaraq onlar istər Azərbaycan, istərsə də rus mentaliteti üçün mühüm əhəmiyyət kəsb edir və dildə geniş şəkildə işlənir. Bel / спина konponentinin frazeoloji birləşmələrdə yaratdığı mənaları nəzərdən keçirək:

1. *Bel güc-qüvvət kimi*. Bel bədənin möhkəm, davamlı hissəsidir, çünki burada onurğa sütunu yerləşir. Bu baxımdan bel güc-qüvvət rəmzi sayılır: belini düzəltmək-распрямить спину. Bel komponentli analaoji frazeoloji birləşmələr də bu mənanı ifadə edirlər: beli bağlı olmaq-иметь опору, arxası möhkəm-за широкой спиной, dalında (arxasında) durmaq-стоять за спиной. Güc, qüvvət digər tərəfdən, insanı təkəbbürlü edir. Azərbaycan dilinin frazeoloji birləşmələrində bunu aydın şəkildə görə bilirik: belinə çöpdən dirək! Bu frazeoloji birləşmə rus dilinə "гора родила мышь" kimi tərcümə edilir. Yersiz təkəbbürü bildirən "quyruğunu belinə (belinin tirinə) qoymaq" ifadəsi isə ruscaya "задрать хвост (нос)" olaraq çevrilir.

2. *Bel qorxaqlıq, acizlik kimi.* Adətən, mərd, igid insan təhlükə qarşısında sinəsini qabağa verib qəhrəmanlıq göstərir, qorxaq, cəsarətsiz biri arxasını dönüb qaçır, yaxud da düşmən tərəfin qarşısında diz çökür. Bunu hər iki dildə mövcud olan frazeoloji birləşmələrdə aydın şəkildə görmək olar: belinə mindirmək-подставить (подставлять) спину, bel bükmək-гнуть спину, belini əymək-клонить спину. Hünər anında mərd, igid insanlar sinəsini qalxan tək önə çəkərlərsə, qorxaq, cəsarətsiz insanlar arxasını dönərlər. Azərbaycan dilinin frazeoloji birləşmələrində bel bəzən arxa sözü ilə əvəz olunur: birinə arxasını dönmək-повернуться (поворачиваться) спиной, arxasını çevirmək-показать (показывать) спину, özgənin arxasında gizlənmək-прятаться за чужую спину. Qorxaqlığın başqa bir əlaməti xəyanət və satqınlıqdır: arxadan zərbə vurmaq (endirmək)-всаживать нож в спину, arxadan vurmaq-ударить (ударять) в спину, за спиной-arxasında, gizlində.

3. *Bel etibar, inam kimi.* Folklor nümunələrində qəhrəmanlar atın belində döyüşə atılar, təhlükədən qurtulmaq üçün də sadiq dostlarının belinə minib daha salamat yerə gəlib çıxarlar. Belin başqa bir vəzifəsi qəhrəmanların qılıncını üzərində gəzdirməkdir. Dədə-Qorqud dastanında oğuzlar belinə həm də müqəddəs saydıqları qopuzu bağlardılar. Bu baxımdan bel bədənin ən etibarlı hissəsidir. O, Azərbaycan dilinin frazeoloji birləşməsində bu mənanı özündə qoruyur: bel bağlamaq-inanmaq, güvənmək, etibar etmək.

4. *Bel əzab-əziyyət kimi.* İnsan istər real, istərsə də mifik varlıqların belində yalnız təhlükədən qurtulmaz, o həm də yeni bir mürəkkəb vəziyyətlə qarşılaşar; Məlikməmməd qara qoçun belində əjdahalarla dolu əzab-əziyyətli qaranlıq dünyaya düşür. Quranın 94-cü surəsində Allah peyğəmbərinə müraciət edir: "Məgər biz sənin sinəni genişləndirmədikmi? Və məgər ağır yükünü səndən götürmədikmi? Sənin belini bükən yükü". Azərbaycan dilində əzab-əziyyət ifadə edən bel komponentli frazeoloji birləşməyə rast gəlməsək də, rus dilində bunun əksini görürük: на своей спине испытать (почувствовать)-öz üzərində təcrübədən keçirmək.

5. *Bel zəhmətkeşlik kimi.* Qədim insanlar müəyyən heyvanların dünyanı belində saxladığına inanırdılar. Bunlardan biri tısbağalar idi. Amerika hindularına görə Kosmik ağac tısbağanın belində bitirdi. Bu baxımdan bel zəhmətlə, çalışqanlıqla assosiasiya oluna bilər: belini düzəltmədən işləmək-работать не разгибая спины, belini əymək-ломать спину. Belini əyərək işləmək yerinə, tənbəllik də edirlər: əli belində gəzmək. Hətta başqa birindən öz məqsədləri üçün istifadə edirlər: belində gəzmək. Rus dilində bu frazeoloji birləşməyə ekvivalent olan "ездить верхом" ifadəsində bel komponentinin adı çəkilməsə də, onu asanlıqla təsəvvür edə bilirik. Ümumiyyətlə, tənbəllik edərək özgə əməyindən istifadə

etmək hiyləgər insanlara xas xüssusiyyətdir. Sözsüz ki, bunu yaradan səbəb zəhmətə qatlanmaq qorxusudur. Rus dilində təsadüf etdiyimiz frazeoloji birləşmələr də bunu ifadə edir: выезжать (выехать) на чужой спине-özgənin hesabına iş görmək, сидеть за чьей-л. спиной-özünə yaxşı yer tapmaq.

Beləliklə, müqayisəyə cəlb olunan Azərbaycan və rus dillərinin frazeoloji birləşmələrində "bel" əksər hallarda özündə mənfi məna daşıyır. Nümunələrdən bəlli oldu ki, onlar daha çox qorxaqlıq, zəiflik, xəyanət, əzab-əziyyət ifadə edirlər.

QAN QOHUMLUĞU TERMİNLƏRİ MÜRƏKKƏB SÖZLƏRİN TƏRKİB HİSSƏLƏRİ KİMİ

Məmmədova R.H.
Bakı Slavyan Universiteti

Qan qohumluğu terminləri mürəkkəb sözlərin, mürəkkəb qohumluq terminlərinin yaranmasında da mühüm rol oynayır. Ana, ata, oğul, qız və s. terminlərin vasitəsilə yeni mənalı sözlər, qohumluq münasibətlərini bildirən adlandırmalar yaranır. İndi isə, mürəkkəb sözlərin yaranmasında iştirak edən qan qohumluğu terminlərini nəzərdən keçirək:

"Ana" terminin köməyi ilə yaranan terminlər. Ana-bacı. Bu söz danışıqda işlənir. "Ana-bacı kimi olanlar, bir-birinə çox yaxın olanlar, yaxın dostlar, rəfiqələr" mənasını ifadə edir.

Ana-bala. Ana ilə oğlu və ya qızı. Səməd getdi. Ana-bala baş-başa verib ağlaşdılar. B.Talıblı.

Anacan. Anaya nəvazişlə müraciət. [Rəsul:] Anacan dayanmağa halım yoxdur, gərək mən gedəm. "Aşıq Qərib".

Ana(dan)bir. Bir anadan doğulan, bir anadan olan.

Anadandoğma, anadangəlmə. İki mənada işlənir: 1) Lap doğulandan xas olan; xilqətində olan, yaradılışında olan; fitri. Anadangəlmə lal, anadangəlmə pəltək. [Mürşüd:] Adamda gərək qanacaq, anadangəlmə olsun. S. Rəhman. 2) Daınışıqda işlənir, tamamilə lüt, çılpaq mənasındadır.

Ana sözü ilə bağlı maraqlı sözlərdən biri anayolu adlanır. Oğlan evindən qızın anasına göndərilən hədiyyə el arasında anayolu adlanır. "Böyüklərin yolunu gözlə" deyirik. Hər iki halda yol sözü hörmət mənasında işlədilmişdir. Deməli, anayolu – anaya hörmət deməkdir. Maraqlıdır ki, ayaq sözü də hörmət mənasında işlədilə bilir: "Kiminsə ayağına getmək...", "kimisə kiminsə ayağına vermək" ifadələri də az işlədilmir. Burada ayaq məhz hörmət anlamını əks etdirir.

"Ata" terminin vasitəsilə yaranan sözlər: Ata-ana. Öz övladına münasibətdə kişi və qadın; valideyn.

Ata-analı, atalı-analı. Atası və anası olan. Ata-analı böyüsünlər.

Ata-anasız, atasız-anasız. Atası və anası olmayan; yetim. [Hacı Murad:] Budur, on iki ildir ki, sən ata-anasız yetimi … boya çatdırmışam. S.S. Axundov.

Ata-baba. Əcdad, ulu baba, nəslin ilk baniləri. Ata-bab yurdu.

Ata-bala. Ata ilə oğlu, ya qızı. [Hacı Murad:] İrəli gəl, əyləş. Bir az ata-bala dərdləşək. S.S.Axundov. Atalı-balalı. Ata ilə oğlu (oğulları), ya qızı (qızları) bir yerdə. Atalı-balalı bu evin tikilməsində, içərisinin sahmana salınmasında onlar [Mehman və Gülyanaq] nələr etməmişdilər. Ə.Vəliyev. Atabir, atadanbir. Bir atadan törəmiş, ata tərəfdən doğma olan. Atabir qardaş.

Atadanqalma. İrs olaraq atadan qalmış. Atadanqalma ev.

Babacan. Dilimizdə babaya, yaxud qoca kişiyə mehribanlıqla müraciət kimi işlənir.

Qan qardaşı. Azərbaycan dilində bu temin iki mənada işlənir: 1) doğma qardaş; 2) səmimi dost. Sağımda, solumda məsləkdaşlarım; Fikir qardaşlarım, qan qardaşlarım. X.Rza.

Ögey qardaş. Atası, yaxud anası ayrı olan qardaş. [Səba xanım:] Mələkənin münasibətdə olduğu üçüncü adam sizin ögey qardaşınız Sultan Toğruldur. M.S.Ordubadi.

Süd qardaşı. Ayrı-ayrı atadan olub, bir anadan süd əmmiş adam. [Babək:] Elə isə bu vaxta qədər qafil olmuşam və elə bilmişəm ki, iki qardaşım var, biri kiçik qardaşım Abdulla, digəri süd qardaşım ərəb oğlu Müaviyə… Ə.Məmmədxanlı.

Qardaşqanı ağacı. Xalq təbabətində işlənən bir bitki və onun çiçəyi.

Qardaş payı. yarı-yarıya bölmək.

Bacı-qardaş. Bu söz bacı ilə qardaş; bir-birinə çox yaxın və dost olanlar, bacı və qardaş kim mehriban olanlar; bir-birinə çox bənzər olan iki şey, tay olan iki şey haqqında deyilir.

Dilimizdə "kiçik oğul", "ortancıl oğul", "böyük oğul" söz birləşmələrinə də rast gəlirik.

"Oğul" və "qız" terminlərinin mənsubiyyət şəkilçisi artırılaraq digər qohumluq terminlərinə artırılması ilə düzələn terminlər Azərbaycan dilində daha çox istifadə edilir. Məsələn, dayıoğlu (ananın qardaşı oğlu), əmioğlu (atanın qardaşı oğlu), xalaoğlu (ananın bacısı oğlu), bibioğlu (atanın bacısı oğlu), qardaşoğlu, bacıoğlu, əmiqızı (atanın qardaşı qızı), bibiqızı (atanın bacısı qızı), xalaqızı (ananın bacısı qızı), dayıqızı (ananın qardaşı qızı), qardaşqızı, bacıqızı.

"Uşaq" sözünün artırılması ilə düzələn qohumluq terminləri isə bunlardır: əmiuşağı, dayıuşağı, xalauşağı, bibiuşağı, qardaşuşağı, bacıuşağı.

"Nəvə" sözünün vasitəsilə əmələ gələn qohumluq terminlərinə dayınəvəsi, xalanəvəsi, bacınəvəsi, qardaşnəvəsi, əminəvəsi, bibinəvəsi sözlərini misal göstərə bilərik.

Kiçik komponentli qohumluq terminləri: kiçik bacı, kiçik qardaş, kiçik xala, kiçik dayı və s.

Qoşa söz şəklində olan qohumluq terminləri bir-biri ilə antonim və ya sinonimlik təşkil edir. Məs.: oğul-qız, oğul-uşaq, ana-ata, bacı-qardaş, nəvə-nəticə, dədə-baba və s.

Azərbaycan dilində qan qohumluğu terminlərinin iştirakı ilə yaranan bir çox adlandırmalar mövcuddur.

Q.Qeybullayev "Azərbaycan ailə və nikah" adlı tarixi etnoqrafik tədqiqatında XIX əsr və XX əsrin əvvəllərində ailədə əvvəlki uşaqlar qız olduqda və təkrar olduqda onlara Qızyetər, Qıztamam, Qızqayıt, Qızbəsdi və s. adların olduğunu göstərir.

Qohumluq terminlərinə onomastik vahidlərin tərkibində də rast gəlirik. Bu onomastik vahidlərin yaranmasında ən çox baba, ata, oğul, ana, qardaş, bacı, əmi, bibi, xala, dədə qohumluq terminləri iştirak edir. Prof. A.Qurbanov "baba" sözünün dilimizdə bibi, nənə, dədə, lələ, qaqa // qağa, cici // ciji (ana) və s. sözlərin fonetik quruluşuna uyğun, yəni bir hecanın iki dəfə təkrarı nəticəsində yarandığını qeyd etmiş və bu terminin vasitəsilə aşağıdakı toponimlərin yarandığını göstərmişdir: Babaküçə (Masallı, Lerik), Babaxanlı (Cəlilabad), Babalı (Xaçmaz), Babagil (Lerik), Ağbab (Erm.), Şıxbabalı (Ağdam) və s.

Ata termini ilə əmələ gəlmiş onomastik vahidlərə Atabəy (Şamxor), Atakişi (Kürdəmir), Ataxal (Gədəbəy), Alma-ata və s.; oğul/ oğlan termini ilə düzələn onomastik vahidlərə Koroğlu, Eloğlu (Tərtər), Oğuldərə (Laçın), Pərioğlular (Ağdam), Qaraoğlan (Ağdam), Saloğlu (Qazax) və s.; əmi termini ilə yaranan onomastik vahidlərə Baləmi, Xanəmi, Əmikişi, Əmidostu və s.; kişi termini ilə yarananlara isə Xankişi, Bəykişi və s. misal göstərmək olar.

N. Xudiyev qohumluq məzmunlu mürəkkəb adlar haqqında qeyd edir ki, ailə və qohumluq münasibətləri bildirən sözlər hansı cinsi bildirirsə, ad kimi formalaşandan sonra da həmin cinsi bildirir. Belə adlara misal olaraq ana terminindən yaranan Anaxanım, Anaqız və s.; ata terminindən əmələ gələn Atabəy, Atakişi, Ataxan, Atamalı və s.; bacı terminindən düzələn Ağabacı, Xanbacı, Şahbacı və s.; qardaş terminindən yaranan Hacıqardaş, Qardaş, Xanqardaş və s.; dədə terminindən əmələ gələn Dədəkişi, Dədəbəy, Şahdədə və s.; bibi terminindən düzələn Bibixanım, Bibinisə və s. kimi onomastik vahidləri qeyd edə bilərik. Həmçinin, bala terminindən düzələn Bala Qusar (Qusar), Balakənd (Sabirabad), Bala Qacar (Bərdə) və s. toponimlərinə rast gəlirik.

S.Cəfərov tabesizlik əlaqəsi əsasında düzələn mürəkkəb qohumluq terminlərinin Azərbaycan ədəbi dilində bir sıra növlərini göstərir. Bunlardan biri də nisbi sinonim sözlərin birləşməsindən düzələnlərdir. Məs.: ata-ana, dədə-baba və s.

DİL VƏ DİLİN CƏMİYYƏTDƏ ROLU

Bayramova T.M.
Bakı Slavyan Universiteti

1. Dilin yaranması
2. Dilin təkamül prosesi
3. Dilin sintezi

Dilin necə meydana gəldiyini dəqiq bilmək mümkün olmamışdır. İzləri yarım milyon il əvvələ qədər gedib dayanan insan həyatına baxıldığında insanların bu işi necə inkişaf etdirdiklərinə dair bir dəlil tapılmamışdır. İlk insanlar, ətraflarındakı səsləri təqlid edərək primitiv dilləri meydana gətirmişlər. Müasir dillərin hamısında təbii səs əks olunmalarına qarşılıq olan sözlər var. Bu da əksetmə nəzəriyyəsini dəstəkləyir. Azərbaycan dilində vızıltı, mırıltı, pıçıltı, çıtırtı, səs-küy, havlama, xoruldama kimi sözlər əks olunan sözlərdir. Buna baxmayaraq konkret olmayan, səs faktına sahib olmayan sözlərin meydana

gəlməsini bu nəzəriyyə ilə izah etmək çətindir. Bununla da həm dilin yaranmasının başlanğıcı, həm də nitqin başlanğıcı qoyuldu demək olar.

Mütləq mənada dil, düşüncənin və dünya görüşünün əlaqə vasitəsi olaraq başa düşülür. İlkin olaraq Vilhelm fon Humboldtun elədiyi bu tərif, dilin insanların bütün kompleks fəaliyyətləri və düşüncə prosesləri üçün imtina edilməz olduğu gerçəyindən yola çıxır. Dil insanlar arasındakı sadəcə olaraq ünsiyyəti təmin edən bir vasitə deyil, obyektlərin və faktların hissləri də dil olaraq yaradılmışdır. Obyektlər və vəziyyətlər dünyanın dil olaraq anlayışı sayəsində semantik əlaqələrə çevrilərlər. Bu semantik kontekstlərdə olmadan insanlar üçün dünyada bir yol tapma imkanı mümkün olmazdı. O halda insanlar ilkin olaraq semantik sayılan bir dünyada şüursuz varlıq kimi yaşamamışlar. İnsanlar ta qədimlərdən dil vasitəsilə anlaşmış, hətta dil ilə iç içə yaşayıblar. Bu, obyektlərin hər zaman dilin bir məzmunda olduğu insanın var olmasını ifadə edər. Bu yanaşma da dilin faktı qarşısında ünsiyyət vasitəsi olaraq görülür. (Martin Heidegger, Ernst Cassirer, Hans-Georg Gadamer).

Dil insanların istifadə etdiyi en aktual anlaşma vasitəsidir. Bu vasitə mədəniyyətin daşıyıcısıdır. Elə bununla əlaqədardər ki, dil və mədəniyyət bir – birinə davamlı təsir edən iki faktdır. Bu iki faktdan hər hansı birində olan dəyişiklik digərini də təsir edir. Bu da təbii bir davamlılıq və tabe olma vəziyyətini doğurur. Dil, cəmiyyətdə var olan bir həqiqətdir. Ona görə də cəmiyyət mövcud olan ünsürlərin mənimsəməsi olmadan bir dilə kənardan təsir etmək çətindir.Dil bir milləti birləşdirən, qoruyan və o millətin ortaq malı olan ictimai bir müəssisədir. Əsrlər boyu inkişaf edərək meydana gəlmiş bir ictimai təşkilatdır.Dil insanlarla bütün əlaqələrimizdə bizə vasitəçilik edər və ictimai bağlarımızı təşkil edən bir vasitə olaraq həyatımızın bütün mərhələsində yanımızdadır. Evdə, məktəbdə, küçədə, bazarda, iş yerində və hər yerdə dil ilə iç içə yaşayarıq. Dil dünyaya göz açar –açmaz əldə etdiyimiz əlaqə vasitəsi deyildir. İnsan təzə - təzə ağlayaraq, təqlidlər, bəzi hərəkətlərlə öz isteklərini başa salmağa çalışar. Uşaq yaşadığı cəmiyyətin dilini uzun bir müddətdə öyrənir sonra isəeşitdiyi səslərin müəyyən anlayışlara, hərəkətlərə, varlıqlara qarşılıq olduğunu başa düşməyə başlayaraq dili öyrənməyə ilk addımlarını atır.

Dil cəmiyyətin inkişafı üçün bir növ səbəbdir. Dilin insanların həyatında ünsiyyət vasitəsi kimi əvəzsiz rolu vardır. Yəni dilsiz cəmiyyət təsəvür ətmək qetri mümkündür. Keçmişdə də bu və ya digər vasitə ilə mütləq şəkildə dil anlaşma vasitəsi kimi özünü göstərmişdir.

Dil və dilin inkişafı,yaranması, yayılması məsələləri daim aktual olaraq qalcaqdır. Çünki insan yarandan yaranıb formalaşan bu ünsiyyət vasitəsi cəmiyyət mövcud olduqca öz mövcudluğunu qoruyub saxlayacaq.

Qısaca demək lazımdırsa, dil ictimai həyatın həm ifadəsi, həm də varlıq şərti vəziyyətindədir; həm nəticədir, həm də səbəbdir.

MÜASİR AZƏRBAYCANDA DİL SİYASƏTİ VƏ DİL QURUCULUĞU

Babayeva Ə.F.
Bakı Slavyan Universiteti

Cəmiyyətin yeniləşməsi, insana, insan amilinə qayğının, diqqətin artdığı bir şəraitdə dil siyasəti məsələləri və onun həlli əsas məqsəd kimi önə çəkilir. Cəmiyyətdə insanın fəal həyat mövqeyi tutub şəxsiyyətə çevrilməsini ünsiyyətsiz təsəvvür etmək mümkün deyil. Hər bir xalqın tarixində dil siyasəti mili şüurun, dövlətçilik təcrübəsinin möhkəmlənməsində, maarifçilərin ideyalarının təbliğində və onun dünyaya inteqrasiya olunmasında mühüm rol oynamışdır.

Azərbaycanda dil siyasəti, onun quruculuğu sahəsində görülən işlər yalnız milli müstəqillik qazandıqdan sonra xalqımıza nəsib olmuşdur. Tarixdən məlumdur ki, Azərbaycanda dövlət dili funksiyasını ayrı-ayrı dillər – ərəb, fars və rus dilləri tutmuşdur. Səfəvilər dövründə Azərbaycanda yaşayan xalqlar rəsmi ünsiyyəti ərəb, fars və rus dillərində aparırdılar. Azərbaycan Demokratik Cümhuriyyəti yarandıqdan sonra ünsiyyət vasitəsi məhz türk dili oldu.

Hər hansı bir dilin inkişaf etməsi, zənginləşməsi, lüğət tərkibinin formalaşması onun dildə geniş və hərtərəfli tətbiqi, həmin dildə ayrı-ayrı elm sahələrinin inkişafı olmadan mümkün deyil. XIX əsrin I yarısında elmi dilçiliyin inkişafı Azərbaycan ədəbi dil normasının müəyyənləşməsində Azərbaycanın görkəmli ziyalılarından A.Bakıxanov, M.F.Axundov, H.Zərdabi, N.Nərimanov və digərlərinin xüsusi xidmətləri olmuşdur.

Yeni əlifba ideyası, ərəb əlifbasına qarşı mübarizə kimi böyük tarixi hadisə Azərbaycan milli

mədəniyyəti ilə bağlıdır. Bu isə dil siyasəti sahəsində atılmış ilk addımlar idi. M.F.Axundov əlifba məsələsini böyük ictimai hərəkata çevirdi. Azərbaycanda sovet hakimiyyəti qurulana qədər xalqımız ərəb əlifbasını işləmək məcburiyyəti qarşısında qalmışdır ki, bu da onun mədəniyyətini, dilin inkişafını, onun quruculuğu prosesini ləngitmişdir.

Azərbaycanda ərəb əlifbasının islahatı M.F.Axundovun adı ilə bağlıdır. Onun elmi əsaslarla əsaslandırılmış müxtəlif layihələri, məqalə və çıxışları 20 ildən artıq bir müddəti əhatə edir. Artıq XX əsrin I rübündə ərəb qrammatikası Azərbaycan əlifbasından bəhs edən ziyalıların xeyli hissəsi latın qrafikalı əlifba tərəfdarı kimi mübarizə aparırdılar.

1920-1930-cu illər yeni qrafikalı əlifbaya keçid dövrü adlanır. Xalq arasında geniş təbliğat aparılır. 1924-cü ildə Azərbaycan MİK-nın qərarı ilə yeni türk əlifbasının əski əlifba ilə paralel tətbiq edilməsinə icazə verilir. Yeni əlifbaya keçid üçün böyük bir toplantı, qurultay çağırılır. 1926-cı ildə fevralın 26-da Bakıda I Beynəlxalq Türkoloji Qurultayın açılışı olur. 1929-cu il tarixində yeni latın qrafikalı Azərbaycan əlifbasına keçilir.

Dil siyasətində Azərbaycanda XX əsrin 80-ci illərindən başlayaraq yenidən əlifba məsələsi müzakirə olunmağa başlayır. Müstəqillik ərəfəsində yeni əlifbaya keçmək barədə qızğın mübarizələr gedir. Dilçi-alimlərimizdən A.Axundov, Ə.Əfəndizadə, A.Qurbanov, T.Hacıyev, Ə.Səfər və b. onlarla siyasətçilə Azərbaycanın yeni əlifbasına öz münasibətlərini bildirdilər. Müstəqillik əldə edən dövlətimiz artıq bu məsələləri (dil siyasəti, dil quruculuğu sahəsində qarşıda duran problemləri) günün tələbləri səviyyəsində araşdırmağa, həll etməyə başladı. Dil quruculuğunun elmi strategiyasını qurmağa, tətbiq etməyə başladı.

2001-ci il iyunun 18-də Azərbaycan Respublikasının Prezidenti, ümummilli lideri, ulu öndər Heydər Əliyevin ardıcıl olaraq imzaladığı qərar və sərəncamlar dil siyasəti sahəsində xüsusi xidmətləri vardır. Bu tarixdə qəbul edilmiş fərman misli görünməmiş tarixi bir sənəddir. Azərbaycan dilinin dövlət dili adlandırılması o zaman böyük hadisə oldu.

Bu gün Azərbaycan dili türk dilləri ailəsinin ən inkişaf etmiş dillərindən biridir. Dövlətimiz – respublikamızın prezidenti İ.Əliyev Azərbaycanın daxili və xarici siyasətində, dil siyasətində Azərbaycanın inteqrasiya olunmasında beynəlxalq səviyyədə tanınmasında ardıcıl olaraq iş aparır.

Müstəqil dövlətimiz, bütün sahələrdə, o cümlədən təhsil sahəsində Azərbaycan dilini öyrənməklə, tətbiq, təbliğ etməklə yanaşı orta və ali təhsil müəssisələrində gənc mütəxəssislər hazırlayır, dil siyasəti, dil quruculuğu uğurla davam etdirilir.

AZƏRBAYCAN DİLİNDƏ FELİ BAĞLAMA TƏRKİBLƏRİNİN MƏNA NÖVLƏRİ

Hidayətova F.Z.
Bakı Slavyan Universiteti

Feli bağlama tərkibləri də, feli bağlamalar kimi cümlədə həmişə asılı vəziyyətdə olaraq, aid olduqları əsas feli bu və ya başqa cəhətdən izah edir və buradan da onların məna növləri meydana çıxır. Feli bağlama tərkibləri nitq hissələrindən təşkil olunsa da, onların mənaları yalnız cümlədə, başqa sözlərlə əlaqədə özünü göstərir. Bu cəhətdən feli bağlama tərkiblərinin ifadə etdiyi mənalar ayrı-ayrı feli bağlamaların təklikdə ifadə etdiyi mənalardan genişdir. Feli bağlama tərkiblərini məna xüsusiyyətlərinə görə üç qrupa ayırmaq olar :

1. Ancaq zaman anlayışı ifadə edən feli bağlama tərkibləri;
2. Nisbi zaman anlayışı ifadə etməklə birlikdə digər mənalarda da işlənə bilən feli bağlama tərkibləri;
3. Zaman anlayışı ifadə etməyən, lakin başqa mənalarda işlənən feli bağlama tərkibləri.

Ümumiyyətlə, feli bağlama tərkiblərinin zaman anlayışı ifadə etməsi onların başqa mənalar ifadə etməsindən daha genişdir. Azərbaycan dili zaman anlayışı ifadə edən feli bağlama tərkibləri ilə zəngindir. Zaman anlayışı ifadə etmək feli bağlama tərkibləri üçün birinci dərəcəli xüsusiyyətdir. Feli bağlamaların özləri müəyyən zaman bildirmədiklərindən, onların vasitəsi ilə yaranan tərkiblər də özlüyündə heç bir müəyyən zaman bildirmir.

Feli bağlama tərkibləri cümlənin xəbəri ilə əlaqələnəndən sonra zaman anlayışı ifadə edə bilir. Dilimizdə olan feli bağlama tərkiblərinin əksəriyyəti belə anlayış ifadə etmək xüsusiyyətinə malikdir. Feli

bağlama tərkiblərinin aşağıdakı növlərinə nəzər salaq:

1.*-ıb,-ib,-ub,-üb və -araq,-ərək* şəkilçili feli bağlama tərkibləri

a) Aid olduğu sözün ifadə etdiyi hal və hərəkətlə eyni vaxtda baş verən hal və hərəkəti bildirir: Məs: "Nurcahan sarı rəngli, qarpızı samovarın qabağında oturub güllü stəkanları qırmızı haşiyəli ağ məhraba ilə silirdi." (S.Rəhimov)

b) Aid olduğu sözün ifadə etdiyi hal, hərəkətdən əvvəl baş vermiş hal və hərəkəti bildirir: "O, şəhər yolundan dönərək kərpic zavoduna yol alır." (Mir Cəlal)

Qeyd etmək lazımdır ki, -ıb,-ib,-ub,-üb və -araq,-ərək şəkilçili feli bağlama tərkiblərinin aid olduqları sözlərlə əlaqədə nisbi zaman anlayışı ifadə etmələri, əsasən, tərkibin məzmunundan, onun başqa sözlərlə əlaqəsindən asılıdır. Lakin burada da tərkibin aid olduğu sözün də təsiri vardır. Məsələn, belə hallar olur ki, cümlənin xəbəri bitmiş tərzdə olan fellə ifadə olunarkən, tərkib həmin xəbərin ifadə etdiyi hal və hərəkətdən əvvəlki hal və hərəkəti bildirir. Cümlənin xəbəri bitməmiş tərzdə olan fellə ifadə olunarkən isə tərkib həmin xəbərin ifadə etdiyi hal və hərəkətlə eyni vaxtda olan hal və hərəkəti bildirir. Məs: "Əsgər səliqə ilə çörək doğrayaraq sərili qəzetin üstünə qoydu." (Ə.Əbülhəsən) –cümləsində *çörək doğrayaraq* feli bağlama tərkibinin ifadə etdiyi *çörək doğramaq* işinin həmin tərkibin əlaqədar olduğu cümlədə ifadə olunan *çörəyi qəzetin üstünə qoymaq* işindən əvvəl baş verdiyi aydındır. Yəni, Əsgər əvvəlcə çörək doğramış, sonra isə doğranmış çörəkləri qəzetin üstünə qoymuşdur. Əgər qeyd etdiyimiz cümlənin bitmiş tərzdə olan fellə ifadə olunmuş *qoydu* xəbərini bitməmiş tərzdə olan fellə əvəz etsək, o zaman vəziyyət dəyişəcəkdir: "Əsgər səliqə ilə çörək doğrayaraq sərili qəzetin üstünə qoyurdu." Cümlənin bu variantında feli bağlama tərkibinin də, cümlənin xəbərinin də ifadə etdikləri iş eyni zamanda baş verir.

2. *–anda, -əndə, -kən və -dıqda, -dikdə, -duqda, -dükdə* şəkilçili feli bağlama tərkibləri, əsasən, aid olduqları sözün ifadə etdiyi hal və hərəkətlə eyni zamanda baş vermiş hal və hərəkəti bildirir. Məs: "Kəndin kənarına yaxınlaşanda arxasına baxdı." (S.Rəhimov) –dıqda, -dikdə, -duqda, -dükdə şəkilçili feli bağlama tərkibləri daha çox ani zaman ifadə etməklə fərqlənir. –anda, -əndə şəkilçili feli bağlama tərkibləri isə nisbətən davam edən zamanı , -kən şəkilçili tərkiblər isə bunların hər ikisinə nisbətən davamlı zaman bildirir.

3. *–a, -a ; -ə,-ə* şəkilçili feli bağlama tərkibləri zaman anlayışı ifadə etmir. Əsasən tərzi-hərəkət bildirir. Məs: "O, yeyə-yeyə danışırdı." və s.

4. *–ar-maz, -ər-məz və -caq,-cək* şəkilçili feli bağlama tərkibləri əsas felin ifadə etdiyi hal və hərəkətlə eyni zamanda baş verən hal və hərəkəti bildirir. Lakin bunlar daha çox ani zaman ifadə etmələri ilə eyni mənada işlənilən başqa növ feli bağlama tərkiblərindən fərqlənir. Burada bir hərəkətin baş verməsi anında ikinci hərəkət baş verməli olur. Birinci hərəkət ikinci hərəkətin başlanğıc nöqtəsi olur: "Dan yeri sökülər-sökülməz, çaparaq durub bir tikə çörəklə soğan yeyərdilər." (M.Süleymanov)

5. *–alı, -əli* şəkilçili feli bağlama tərkibləri:

a) Əsas felin ifadə etdiyi hal və hərəkətin başlanğıc vaxtını bildirir. Məs: "Ancaq yurd edəli Azərbaycanı, Dad-damaq vermisən bizim ellərə." (R.Rza)

b) Əsas feldə ifadə olunan hal və hərəkətin başlanğıc vaxtını bildirməklə bərabər, həmin hal və hərəkətin söz söylənən vaxta qədər davam etdiyini də bildirir: "Səndən ayrılalı görünür qəmgin." (S.Rüstəm)

6. *–dıqca, -dikcə ,-duqca, -dükcə* feli bağlama tərkibləri:

a) Əsas felin ifadə etdiyi hal və hərəkətlə eyni zamanda cərəyan edən hal və hərəkəti bildirir. Lakin bu hal və hərəkət davamlı və təkrarlı olmaqla, əsas felin ifadə etdiyi hal və hərəkətin da davamlı olmasını və təkrar edilməsini bildirir: "Atlar aşağı endikcə, Cırcır bulağından qalxan uzun ulaş ağacları görünürdü." (S.Rəhimov)

b) Əsas felin ifadə etdiyi hal və hərəkətin nə vaxta qədər davam etdiyini, onun son nöqtəsini bildirir: "Dünya durduqca bəxtiyar yaşa!" (S.Vurğun)

7. *–ınca, -incə, -unca, -üncə* şəkilçli fei bağlama tərkibləri:

a) Əsas feldə ifadə olunan hal və hərəkətin son həddini göstərir, onun nə vaxta qədər davam etdiyini bildirir: "Firidunun yerini deməyincə rahat etməyin."(M.İbrahimov)

b) Tərkibdə ifadə olunan hal və hərəkətin baş verib qurtarması müddətinə qədər əsas felin ifadə etdiyi hal və hərəkətin icrasının davam etdiyini bildirir: "Ürəkdən sevmədiyim, halına və xasiyyətinə bələd olmadığım adam tapmayınca ərə getməyəcəyəm." (Ə.Vəliyev)

c) Tərkibin ifadə etdiyi hal və hərəkət baş verənə qədər, əsas felin ifadə etdiyi hal və hərəkətin icra edilib bitdiyini bildirir: "Gecədən xeyli ötüncə söhbət elədilər." (Ə.Vəliyev)

d) Əsas felin ifadə etdiyi hal və hərəkətlə eyni zamanda baş verən hal və hərəkəti, bəzən də ondan əvvəlki hal və hərəkəti bildirir: "Bunu eşidincə yaralılar ikisi də bir ağızdan soruşdu." (Ə.Əbülhəsən)

Nümunələrdən də göründüyü kimi, feli bağlama tərkiblərinin məna növlərindən danışarkən birinci növbədə onların zaman anlayışı ifadə etməsi nəzər-diqqəti cəlb edir.

YENİYETMƏLƏR ÜÇÜN NƏZƏRDƏ TUTULAN BƏDİİ ƏSƏRLƏRİN TƏRCÜMƏSİ ZAMANI LEKSİK TƏKRARLARIN ÖTÜRÜLMƏSİ STRATEGİYALARI

Səfərova E.R.
Bakı Slavyan Universiteti

Bədii əsərlərin tərcüməsi tərcümə elminin ən çətin və məsuliyyətli sahələrindən hesab edilir. Helqreqenin qeyd etdiyi kimi, bu tip əsərlərin tərcüməsi zamanı tərcüməçi orijinal dilin mədəni estetik çalarları ilə yaradılmış konteksdə verilən mətni tərcümə dilinin mədəni estetik çalarları ilə yaradılmış kontekstinə ötürmüş olur (Helgregen, 2005, səh.9**).** Bu səbəbdən tərcüməçi verilmiş mətnin tərcüməsi zamanı orijinal dilin qanunlarına uyğun, və ya tərcümə dilinin ədəbi qanunlarına uyğun olaraq hərəkət etməli olduğunu öncədən müəyyən etməlidir (Davies, 2003, səh.69).

Ümumiyyətlə, nəsr əsərlərinin başqa dilə çevrilməsi prosesində tərcüməçi mütləq orijinalın sintaktik özünəməxsusluğunu, obrazlar sistemini nəzərə almalı, doğma dildə onun qarşılığını axtarıb tapmalıdır. Əlbəttə, müasir tədqiqatçıların göstərdiyi kimi bütün nəsr əsərlərinin son dərəcə mürəkkəb, çox vaxt oxucunun (hətta yazıçının özünün!) şüurla dərk etmədiyi, lakin təhtəlşüurda həkk olunan, əsər haqqında müəyyən emosional təsəvvür yaradan ahəngi var. Əsl tərcüməçi təkcə nəsr əsərinin məzmununu, təhkiyyə və sintaktik xüsusiyyətlərini verməklə kifayətlənməməli, onun daxili ritmini oxuculara çatdırmaq üçün doğma dilin bütün imkanlarından istifadə etməlidir. Tabbert qeyd edir ki, tərcümə elmi artıq uzun bir müddətdir ki, tərcümə dilində verilən mətnin oxunaqlı və orijinala uyğun şəkildə ötürülməsinə istiqamətlənib (Tabbert, 2002, səh.303).

Yeniyetmələr üçün nəzərdə tutulan əsərlərin tərcüməsi zamanı orijinalın təsir gücünü, effektini saxlamaq üçün tərcüməçi tərcümə dilinin mənsub olduğu müasir gənc obrazının xarakterik xüsusiyyətlərinə bələd olmalıdır, əks təqdirdə eyni təsir effektini tərcümə mətnində verə bilməyəcək. Davisin qeyd etdiyi kimi, uşaqlar üçün nəzərdə tutula əsərləri tərcüməsi, böyüklər üçün nəzərdə tutulan əsərlərin tərcüməsindən daha çətindir; beləki, böyüklər uşaqlarla müqayisədə tərcümə zamanı yaranan anlaşılmazlığı və biçimsizliyi daha real qəbul edirlər (Davies, 2003, səh.66). Bu qrupa məxsus əsərlərin tərcüməsi zamanı tərcüməçi üç əsas funksiyanın – ifadəlilik, informativlik və əsərin səslənməsi – əldə olunmasına çalışmalıdır (Newmark, 1988). Bunu üçün isə tərcüməci müxtəlif strategiyalara müraciət edir.

Tənqidi mənbələrə istinad edərək, belə tərcümə strategiyaları kimi mühafizə, sinonimiya, əvəzetmə, parafrazlar, əlavələr götürülə bilər (Ben-Ari, 1998; Davies, 2003;al-Khafaji, 2006). Bu halda, Davis xüsusilə leksik təkrarların ötürülməsi üçün mühafizə strategiyasına üstünlük verir (Davies, 2003, səh.73).

Bir çox hallarda tərcümməçilər leksik təkrarların tərcüməsi zamanı mühafizə strategiyasına müraciət edirlər. Bu strategiya isə orijinal mətində verilmiş təkrarların tərcümə mətnində tam dəqiq şəklini çəkməyə imkan verir. Digər bir strategiya növü isə sinonimiyadır (orijinal mətndə verilən təkrarların tərcümə mətnində sinonimlərinin verilməsi yoludur). Əvəzetmə isə leksik təkrarların ötürülmə strategiyalarının digər bir növüdür (orijinal mətndə ixtiyari təkrarın tərcümə mətnində uyğun ifadə ilə əvəz edilməsidir). Əl-Xəfəci isə dildə bir o qədər də, geniş yayılmayan "parafraz" strategiyasını irəli sürmüşdür (bu zaman tərcüməçi ixtiyari leksik təkrarı öz sözləri ilə ifadə etmiş olur).

Ümumilikdə, leksik təkrarların istifadəi və elecə də tərcüməsi zamanı ən çox müraciət olunan strategiya növləri sinonimiya və antonim tərcümə yollarıdır. Nümunələr:

- *I **didn't go back** that day. In fact, I **stayed away** all weekend as a protest (Burgess, 2003, p.17).*
- *Once or twice I've seen the alkies with women with them, but you never see any **young women** in there. **The girls** all*
  sleep out in doorways, in public... (Burgess, 2003, p.32)
- *It **used to be all right**. I mean, it was **awful** but it wasn't horrible (Burgess, 2003, p.61).*

Lakin tərcümə prosesi göstərir ki, leksik təkrarların tərcüməsi zamanı yuxarıda qeyd olunan

strategiya növlərinin konkret olaraq daha çox konkret birinə üstünlük verilməsi mübahisəli məsələdir. Bu səbəbdən bir çox hallarda ekvivalent tərcümə əldə edilməsi məqsədilə yuxarıda adı çəkilən strategiyalardan kombinasiya halında istifadə olunur.

DİALEKTİZM ANLAYIŞI VƏ DİALEKTİZMLƏRİN ƏSAS XÜSUSİYYƏTLƏRİ

Rəhimli G.M.
Bakı Slavyan Universiteti

Ümumxalq dilinin danışıq qolunun böyük bir hissəsini dialektlər təşkil edir. Buna görə də danışıq dili obyektlərinin bu növü ayrıca olaraq diqqəti daha çox cəlb edir.

"Dialekt" dedikdə, müəyyən ərazi, sosial, peşə birliyində yaşayan əhalinin məhdud danışıq variantı; bir-birinə yaxın olan bir neçə şivənin məcmusu, ləhcə nəzərdə tutulur (A.Qurbanov). Bu termin vasitəsilə dilçilikdə *"qəbilə dialekti", "etnik dialekt", "sosial dialekt", "ədəbi dialekt", "peşə dialekti", "sinfi dialekt", "ərazi dialekti", "dialektizm", "semantik dialektizm", "frazeoloji dialektizm"* və s. terminlər işlənir.

Dilin lüğət tərkibinin zənginləşməsində dialektlərin rolu və funksiyaları olduqca böyükdür. Dialektizmlərin dilin digər leksik qatı olan alınmalardan üstün cəhəti onların doğma sözlər olmasıdır.

Azərbaycan filologiyasında dialektizm anlayışı haqqında və bədii üslubda dialektizmlərin işlənməsinə münasibətdə fikir müxtəlifliyi var. Əksər tədqiqatçılar dialektizm termini altında bədii üslubda və ya ümumən ədəbi dildə özünü göstərən məhəlli dialekt əlamətlərini nəzərdə tuturlar. Ancaq bu izahla yanaşı, dilçilkdə dialektizm terminin sadəcə olaraq "məhəlli dialektlərə məxsus xüsusiyyət" mənasında anlaşılması halı da var.

Ə.Dəmirçizadə dialektizm terminini "dialekt xüsusiyyətləri", "şivə sözləri" mənalarında işlətmişdir. S. Cəfərova görə, dialektizmlər dialektə məxsus sözlərdir: "Dilimizin ayrı-ayrı şivələrində işlənən və onlara məxsus olan sözlərə dialektizmlər deyilir". A.Qurbanov dialektizm anlayışı haqqında yazır: "Dialektizm, əsasən, qeyri-ədəbi dil ünsürləri hesab edilən söz, ifadə, səs xüsusiyyətləri və qrammatik formalardır. Adətən, dialektizmlər ədəbi zəmin əsasında qurulmuş nitqdə, yaxud bu və ya digər bədii əsərin dilində nəzərə çarpa bilər". Azərbaycan romanlarında işlənmiş dialektizmləri tədqiq etmiş V.R.Mursaquliyevin qənaətinə görə, dialektizmlər bədii əsərlərin dilində müəyyən dialekt və şivə qruplarına xas olan söz və ifadələrdir. H.Həsənovun izahına görə, dialektizmlər müəyyən ərazidə məhdud dairədə işlədilən dialekt sözləridir.

Deyilənlərdən belə nəticə çıxarmaq olar ki, Azərbaycan dilçiliyində dialektizm anlayışının iki izahı mövcuddur: 1) Dialektizmlər bədii ədəbiyyatın dilində, yaxud ədəbi dil normalarına müvafiq nitqdə işlənmiş məhəlli dialekt xüsusiyyətləridir; 2) Dialektizmlər məhəlli dialektlərə məxsus sözlərdir.

Məncə, deyilən izahlardan ikincisi dialektizm anlayışının mahiyyətini ayrılıqda ifadə edə bilməz. Düzdür, ikinci izahda doğruluq var, lakin dialektizmlərin yalnız məhəlli dialekt sözləri hesab edilməsi ona görə özünü doğrultmur ki, belə sözlər ancaq bədii dildə və ya ədəbi dil normalarına müvafiq nitqdə işləndikdə dialektizmlik keyfiyyəti qazanır. Dialektizm anlayışının izahında ədəbi dil faktoru mütləq nəzərə alınmalıdır.

E.Əzizovun fikrincə, bədii əsərlərin dilində və ədəbi dil normalarına müvafiq nitqdə özünü göstərən dialekt xüsusiyyətlərini *dialektizm* termini ilə, dialekt leksikasından bəhs edilərkən şivələrin lüğət tərkibinə aid olan spesifik leksik vahidləri *dialekt sözləri* termini ilə ifadə etmək daha məqsədəuyğundur. Artıq müasir dilçilikdə dialektizm terminin "bədii ədəbiyyatın dilində üslubi vasitə kimi işlənən dialekt sözləri", "əsasən ədəbi dil normalarına müvafiq nitqdə özünü göstərən bu və ya digər dialektə məxsus fonetik, qrammatik və leksik xüsusiyyətlər" mənalarında işlədilməsi müəyyənləşmişdir.

Bədii ədəbiyyatda dialektizmlər, əsasən, yerli kolorit yaratmaq, surətin dilini fərdiləşdirmək üçün istifadə olunur. Odur ki, dialektizmlər əsərin qəhrəmanının dilində verilir.

Ədəbi dilimizin xalq sözləri və dialektizmlər hesabına zənginləşməsində S.Vurğun, S.Rüstəm, R.Rza, O.Sarıvəlli, S.Rəhimov, Ə.Vəliyev, İsmayıl Şıxlı kimi görkəmli sənətkarların rolu az olmamışdır.

Bütün bu deyilənlərdən çıxış edərək dialektizmlərin aşağıdakı müsbət xüsusiyyətlərini vermək olar.

1. Əsərlərdə hər hansı bir problemi işıqlandırmağa səy göstərən yazıçıların dilində obrazlar vasitəsilə dialektizmlərdən istifadə olunur.

2. Dialektizmlər şair və yazıçıların ifadəlilik imkanlarını artırır və sinonim cərgələrini zənginləşdirir.

Beləliklə, dilin lüğət tərkibinin zənginləşməsində mühüm rol oynayan nəinki dialektizmlər, hətta emosional-ekspressiv sözlər, onomastik vahidlər və başqa dil vahidlərindən bədii əsərdə həddindən çox istifadə etmək bədii əsərə xeyirdən çox ziyan verə bilər, məqsədəuyğun şəkildə, qədərincə istifadə olunması isə əsərin qiymətini artırar, əsərin dilini daha canlı, daha təbii edər.

AZƏRBAYCAN DİLİNDƏ İNGİLİS DİLLİ SÖZLƏRİN FONETİK UNİFİKASİYASININ XÜSUSİYYƏTLƏRİ

Əzizova S.Z.
Bakı Slavyan Universiteti

Fonetik unifikasiya sadəcə fonemlərin uyğunlaşdırılması prinsipi ilə məhdudlaşmır.Fonetik unifikasiyanın hüdudları, əslində, qrafik, orfoqrafik və orfoepik normaları əhatə edir. Bunları prinsipcə yaxınlaşdıran və birləşdirən ümumi bir cəhət vardır. Bu da yazı və nitqin düzgün ifadə edilməsi və çatdırılması üçün müvafiq işarələnmə sistemindəki elementlərin seçilib işlədilməsindən ibarətdir.

Fonetik unifikasiyanın bütün fonematik ,qrafik,orfoqrafik və orfoepik normaları transkripsiya və transliterasiya tələbləri səviyyəsində müəyyən edilir.

Transkripsiya sözü mənşəcə latın dilində (transcriptio) məxsusdur.Mənası hər hansı dildəki söz və ya terminlərin yazılışından ,qrafik və orfoqrafik normalarından asılı olmayaraq bütün incəlikləri ilə başqa dildə düzgün, dəqiq ifadə olunması deməkdir. Fonetik transkripsiya, adətən sözlərin başqa dillərdəki şəxs adlarının ,xüsusi adların,coğrafi adların və elmi terminologiyanın xüsusi işarələr sistemi verilməsi kimi başa düşülür. Burada eyni bir fonemin bu və ya digər variantlarını əks etdirmək üçün müxtəlif işarələrdən istifadə olunur.

Transkripsiya üsulundan ingilis dilində geniş istifadə olunur.İngilis dilli lüğətlərdə hər bir sözün qarşısında onun transkripsiya variantı ilə düzgün oxunuş qaydası göstərilir. Nə üçün ingilis dilində bu qədər geniş istifadə olunur? Cavab budur ki,ingilis dilində qədim yazı ənənələrinin saxlanmasında konservativizm prinsipi çox güclü tətbiq olunur.Bu da yazılı dilin normalarının uzun dövrlər ərzində saxlanması meylindən irəli gəlir.Aydındır ki, şifahi nitq yazı ilə müqayisədə olduqca mütəhərrikdir.Yəni yazıya icbari qaydalar tətbiq olunur və bu icbari qaydalara görə yazı prinsipi və normaları sabit saxlanır.Nitqə isə heç bir işarəni tətbiq etmək olmur.Odur ki,zaman keçdikcə, nitq vərdişləri yazı prinsiplərindən fərqləndikcə bu fərqlərin aradan qaldırılması üçün ,sözlərin düzgün tələffüz edilməsi üçün transkripsiya işarələri tətbiq olunur. Yazıda ənənəvi qaydaların saxlanmasının ən böyük əhəmiyyəti ondan ibarətdir ki, zaman keçir, yazı ilə nitq arasındakı norma tarazlığı dəyişir. Yazı qaydalarına nitq qaydaları ardıcıl tətbiq edildikdə, məsələn, min il bundan əvvəlki mətni oxuyub başa düşməkdə problem yaranır. Yazının sabitliyi qorunduqda isə min il bundan əvvəlki yazı bugün asanlıqla mənimsənilir və min il sonra da yazılı nitqin anlaşıqlı olacağı şübhə yaratmır. İngilis dilindən fərqli olaraq Azərbaycan yazılı dilinə zaman –zaman şifahi nitq çox böyük təsir göstərmişdir. Bu təsir fonem sistemindən tutmuş sözlərdə ,söz birləşmələrində və cümlələrdə uzun müddət yaşamaqda davam etmişdir.Məsələn ,türk dili ilə müqayisədə Azərbaycan dili fonemlərində baş verən fərqlənmələrin şifahi nitq təsiri olması istisna sayılmamalıdır.

Azərbaycan dilində işlənən ingilis dilli sözlərin müəyyan qismi fonetik tərkibinə və qrafik ifadəsinə görə eyniliyə malik olur.Ona görə də həmin tipli sözlərdə heç bir fonetik unifikasiya aparılmır.Belə sözlər mənbə dilində necə yazılırsa o qayda üzrə də Azərbaycan dilində işlədilir. Məsələn, amulet, ananas, angel , absurd,badminton, barter, despot, dominant, element, ellipsis kimi sözlər buna misal olar.

Azərbaycan dilinə daxil olan söz və terminlərin mənbə dildəkinə uyğun işlədilməsi və ya dəyişdirilməsi, əlbəttə ki,sözalan dilin daxili quruluşunun, onun fonetik, orfoqrafik, orfoepik və qrammatik tələbləri baxımından baş verir. Hər bir dilin özünəməxsus fonetik sistemi və qrammatik quruluşu vardır. Ona görə də hər bir dil başqa bir dildən söz və terminlər alarkən onları özünün fonetik və qrammatik qayda –qanunlarına tabe edir. Azərbaycan ədəbi dili də başqa dillərə məxsus söz və terminləri öz normalarına uyğun şəkildə alır. Bu cəhətdən alınma terminləri iki qrupa ayırmaq olar:

1. dəyişiklik edilmədən mənimsədilən terminlər

2. dəyişiklik edilərək mənimsənilən terminlər

AZƏRBAYCAN DİLİNİN FRAZEOLOJİ VAHİDLƏRİ LÜĞƏTLƏRİNİN TƏDQİQİ

Pəncəliyeva A.E.
Bakı Slavyan Universiteti

Azərbaycanşünaslıqda frazeoloji lüğətlər az miqdarda çap olunmuşdur ki, bu lüğətlərdən prof. M.T.Tağıyevin "Rusca-azərbaycanca frazeoloji lüğət", prof. Ə.Ə.Orucovun "Azərbaycanca-rusca frazeologiya lüğəti" kitablarını misal göstərmək olar.

Prof. Ə.Ə.Orucovun "Azərbaycanca-rusca frazeologiya lüğəti"nin yaradılması fikri hələ 1950-ci illərdə doğmuşdu. Lakin o zaman bunu həyata keçirmək üçün heç bir maddi və metodoloji əsas yox idi. Maddi baza dedikdə, ilk əvvəl lüğətin "skeletini" təşkil edəcək kartoteka nəzərdə tutulur ki, bunsuz ciddi mənada ümumiyyətlə heç bir lüğət yaradıla bilməz. Bu kartotekanı yaratmaq üçün birinci növbədə dildə işlənən frazeoloji materialın özünü toplamaq və sistemə salmaq lazım idi. Dilimizdə frazeoloji birləşmələr zəngin olsa da, az bir hissəsi yazılı əsərlərdə təsbit olunmuş, daha çox şifahi şəkildə işlənmişdir. Məhz lüğət materialının toplanmasında başlıca çətinlik bundan ibarət idi. İkinci çətinlik toplanmış frazeoloji materialın leksikoqrafik işlənməsi, yəni onların xüsusi bir lüğət donuna geyindirməsi idi.Nəhayət, rastlaşdığımız üçüncü ən böyük çətinlik ifadələrin rusca qarşılığını tapmaq məsələsi idi. Belə bir işə ilk dəfə təşəbbüs edildiyindən və bu sahədə lüğətin heç bir sələfi olmadığından bu çətin bir iş idi. Ümumilikdə lügətdə 5500 ifadə öz əksini tapmışdır. 1976-cı ildə "Elm" nəşriyyatında nəşr olunmuşdur. Lüğətin əlyazması Nəsimi adına Dilçilik İnstitunun lüğət şöbəsində başqa dilçi alimlərin iştirakı ilə müzakirə edilmiş, qrankalarda oxunmuş, onların, habelə rəsmi rəyçi filoloji elmlər doktoru, professor C.H.İvanovun qeyd və göstərişləri müəllif tərəfindən imkan daxilində nəzərə alınmışdır. Lüğət, bu tip lüğət yaratmaqda ilk təcrübə və addım olduğundan önəmli hesab olunur.

"Müasir rus dilində feli frazeologiya" kitabında rus dilinin frazeoloji birləşmələri tamamilə yeni bir üsulla tədqiq edilmişdir. Bu sahədə aparılan tədqiqat işlərinin yekunu kimi 1964-cü ildə M.T.Tağıyevin tərtib etdiyi "Müxtəsər rusca-azərbaycanca frazeoloji lüğət" ilk dəfə olaraq işıq üzü gördü. Bu lüğət rus dilinin frazeoloji vahidlərini və onların Azərbaycan dilindəki məna uyğunluqlarını əks etdirən ilk sorğu kitabı kimi nəzərdə tutulmuşdur. 1974-cü ildə həmin lüğətin yenidən işlənmiş və təkminləşdirilmiş variantı – "Rusca-azərbaycanca frazeoloji lüğət" nəşr edildi. "Rusca-azərbaycanca frazeoloji lüğətin 3-cü nəşri müəllif tərəfindən hazırlanmışdır. Bu zaman lüğətin sözlüyü genişləndirilmiş, lüğət məqalələri xeyli təkmilləşdirilmiş, frazeologizmlərin Azərbaycan dilindəki qarşılığı bir qədər də dəqiqləşdirilmişdir. Lüğətin bu nəşrinə ilk dəfə olaraq paremiyalar da əlavə edilmişdir. Atalar sözü və zərbi məsəllər lüğətin sonunda ayrıca bir bölmə kimi əlifba sırası ilə verilmişdir. Paremiyalar Azərbaycan dilinə çevrilərkən ya onların bu dildəki qarşılığı, ya da təxmini mənası verilir.

Lüğətə aşağıdakı vahidlər daxil edilmişdir:

a) iki və ya daha çox müstəqil nitq hissələrinə aid sözlərdən ibarət olan frazeoloji vahidlər;

b) müstəqil və köməkçi nitq hissələrinə aid olan sözlərin birləşməsindən əmələ gələn frazeoloji vahidlər;

c) zahirən cümlə quruluşlu frazeoloji vahidlər.

Rus və Azərbaycan dillərində zahirən eyni, ancaq mənalarına görə bir-birinə qarşı duran omonim birləşmələr vardır ki, bunlar həm frazeoloji vahid, həm də adi sintaktik birləşmələr kimi işlənir. Lüğətdə ancaq frazeoloji vahidlər verilir. Lüğətin əsas mətninə atalar sözləri daxil edilməmişdir,onlar əsas mətnə əlavə kimi verilmişdir. Frazeoloji vahidlər lüğətdə əlifba sırası ilə verilir. Bütün bu lüğətlər XX əsrin sonlarına yaxın çapdan çıxmışdır. Müasir dövrümüzə nəzər salsaq, Azərbaycan dilinin frazeoloji vahidləri lüğəti demək olar ki, yox dərəcəsindədir.

Müasir dlimizdə Atalar sözü və zərbi məsəllərə aid müxtəlif ikidilli lüğətlər çap olunduğuna rast gəlirik .

Frazeoloji vahidlərin lüğətlərinin hazırlanması və nəşri bizim dövr üçün mühüm hesab olunmalıdır.

ПОЭТИЧЕСКИЕ ПЕРЕВОДЫ ПРОИЗВЕДЕНИЙ М. Ю. ЛЕРМОНТОВА НА АЗЕРБАЙДЖАНСКИЙ ЯЗЫК

Махмудов Э.Р.
Бакинский славянский университет

В XIX веке Азербайджан испытывал не только влияние развивающейся экономики России, но и воздействие передовой демократической русской литературы. она оказала плодотворное влияние на развитие общественной мысли. Передовые деятели народов царской России, боровшиеся против деспотизма самодержавия, видели в русской классической литературе своего идейного союзника и активно обращались к ее художественному опыту. Огромное воздействие, которое русская художественная литература оказала на формирование и развитие прогрессивных литератур других народов России, определяется в первую очередь освободительным и гуманистическим пафосом русской литературы.

В этот период зарождаются и получают дальнейшее развитие почти все формы и типы литературных отношений между азербайджанским и русским народами. Среди них заметное место принадлежит переводу - одной из основным взаимопроникновения национальных культур.

Русская классическая литература еще в XIX веке вызвала пристальный интерес и восхищение передовых художников слова в Азербайджане. По мере развития дела художественного перевода все большее число шедевров русской литературы становилось достоянием национального читателя.

Еще в тот период азербайджанские читатели глубоко полюбили и особо выделяли среди других поэтов наряду с А. С. Пушкиным и М. Ю. Лермонтова. Его проникновенная романтическая лирика, восточные мотивы, исполненные глубокого пафоса, творческий интерес к кавказской тематике и вдумчивое, полное симпатии и уважения отношение к народам Кавказа и, в частности, к азербайджанскому народу, вызывали у передовых литераторов Азербайджана особое ощущение духовного сопереживания и родства, а также горячее желание познакомить родной народ с наследием Лермонтова.

Появление первых переводов и издание художественных произведений поэта на азербайджанском языке явилось в то время значительным событием в литературной жизни Азербайджана, - даже если эти переводы на первых порах еще не могли в достаточной мере передать всю художественную ценность, высокие достоинства оригинала.

В ряду первых переводчиков Лермонтова в Азербайджане - А. А. Адыгезалов, Фридун Кочарли, Аббас Сиххат; немало стихотворений переведено Абдулла Шаигом (Талыбзаде), Р. Эфендиевым.

Однако среди них особое место занимает Аббас Сиххат. К тому времени, когда он начал переводить Лермонтова, на его творческом счету уже были переводы Державина, Пушкина, Крылова, Никитина, Плещеева, Медведева, Грекова и других русских поэтов.

Большинство из этих переводов Аббаса Сиххата вошло в сборник "Магриб гюнешлери" ("Светила Запада").

Аббаса Сиххата в поэзии Лермонтова волновала страсть к свободолюбию, симпатия к народам Кавказа, глубокое понимание исторических судеб, традиций и обычаев, богатого фольклора этих народов. Восхищаясь лермонтовской поэзией, А. Сиххат стремился сохранить всю полноту и неповторимую красоту ее содержания при переводе лирических произведений великого русского поэта.

Переводы Аббаса Сиххата из Лермонтова явились важным событием в азербайджанской литературной жизни. Большой творческой удачей переводчика можно считать освоение им своеобразной формы лермонтовского стиха, сохранение его самобытной интонации.

Аббас Сиххат, являющийся основным переводчиком творчества Лермонтова в дореволюционном Азербайджане, многое воспринял из реалистических произведений русского поэта, приобщился к их идейному богатству, учился на их примере высокому мастерству, ясности и простоте поэтического выражения. Переводы Аббаса Сиххата не потеряли своей художественной ценности и по сей день, оказав благотворное воздействие на азербайджанских поэтов-переводчиков лирики М.Ю. Лермонтова.

ЛЕКСИЧЕСКАЯ АНТОНИМИЯ КАК СРЕДСТВА ВЫРАЖЕНИЯ КОНТРАСТА В АНГЛИЙСКОЙ ПОЭЗИИ XXI ВЕКА

Мамедова Р.Г.
Бакинский славянский университет

В последнее время, при все возрастающем интересе к лингвистике художественного, в частности поэтического, текста проблема противопоставления остается недостаточно изученной на языковом уровне.. Для этого в речи используются антонимы, которые являются лексическими способами выражения категории “противоположности” в языке. Антонимами называются различные по произношению и противоположные по смыслу лексические единицы. Антонимы - очень сильное стилистическое средство языка. Антонимические отношения слов независимо от сферы их функционирования не касаются их стилистической окрашенности и выразительности, они основаны на точном противопоставлении двух конкретных противоположных качеств или состояний.. Бинарность является существенным признаком антонимии. В отличии от синонимов,которые могут образовать достаточно протяженный ряд ,антонимы всегда выступают попарно. Если слово имеет несколько антонимов, они инее образуют ряд:слово входит в несколько антонимических пар. Например *slowly-rapidly slowly-quickly intelligent-foolish intelligent-silly clever-foolish clever-silly*.К дополнительным признакам антонимии относятся:

1. Грамматический принадлежность к одной части речи;
2. Функциональный одинаковая стилистическая и эмоциональная окраска.

Они нужны для передачи контрастов, для осуществления приема антитезы в ораторской и поэтической речи. Система средств, воплощающих принцип контраста, в лингвистическом плане базируется на антонимии, поэтому рассмотрение состава антонимов, употребляемых поэтами и особенностей их употребления занимает важнейшее место в изучении системы контраста. В этой диссертации эта проблема имеет существенное значение и посвящена всестороннему исследованию этого явления в работах британских поэтов XXI века.

По своей структуре антонимы делятся на словообразовательные(однокоренные) и абсолютные(разнокоренные).Между ними существуют не только морфологические, но и семантические различия. Разнокоренные антонимы являются наибольшим классом слов. К разнокоренным словам можно отнести такие примеры, как: *living – dead, day – night.* Разнокорневая (она также называется лексической) антонимия пронизывает все части речи, особенно прилагательные, глаголы, наречия существительные. Однокорневые антонимы образуются путем непосредственного присоединения к слову отрицательного аффикса. В этом и состоит отличие аффиксального антонима от корневого. Наиболее продуктивными антонимообразующими префиксами являются un-, in-, с вариациями im-, il-, ir-,dis-, которые образуют антонимические прилагательные, существительные и глаголы и соответствуют русской приставке не- или частице не. Например: *lucky - unlucky «удачный — неудачный»*, *polite - impolite «вежливый — невежливый.* Оксюморон (Oxymoron) – выразительное стилистическое средство сочетания двух противоположных по значению слов (прилагательное + существительное, наречие + прилагательное). Например*: sweet sorrow* – милая печаль; *horribly beautiful – ужасно красивая; deafening silence.* Особый интерес представляют так называемые энантиосема, когда одно и то же слово может иметь противоположные значения. К таким словам относятся, например, *handicap – препятствие, увечье, помеха,* которое в спорте имеет значение «*преимущество*». *Hold up* может обозначать «*поддерживать»* и «*препятствовать*». Ярким примером служит глагол *to dust*, обозначающий «*пылить*» и «*убирать*». Антитеза – английский лексико-синтаксический стилистический приём противопоставления противоположностей. Два параллельных предложения противоположного смысла соединяются в синтаксическое целое. Противопоставленные слова приобретают противоположные контекстные значения. *They speak like saints and act like devils – Они говорят как святые, а действуют как черти.* Антонимы очень часто используются в художественной речи, чтобы подчеркнуть контраст между понятиями. Система средств, воплощающих принцип контраста, в лингвистическом плане базируется на антонимии, поэтому рассмотрение состава антонимов, употребляемых британскими поэтами и особенностей их употребления занимает важнейшее место в изучении системы контраста. Стилистические функции антонимов находят выражение в особых фигурах речи, которые широко используются при реализации эстетической

функции языка. Явление антонимии лежит в основе оксюморона (от гр. oxymoron - остроумно-глупое) - яркого стилистического приема образной речи, состоящего в создании нового понятия соединением контрастных по значению слов, раскрывающего противоречивость описываемого. В английской поэзии и прозе оксюморон встречается во все времена. Современный британский поэт Эндрю Моушн в своем стихотворении "*Regime change"* пишет: "*And painful pleasure turns to pleasing pain"*. Крупнейший современный поэт В. Оден в стихотворении "На смерть Йетса" пишет: "*With the farming of a verse / Make a vineyard of the curse, / Sing of human unsuccess / In a rapture of distress"*. Сочетание *a rapture of distress* – оксюморон. Нарушение лексической сочетаемости в данном случае вызывается контрастностью семантического согласования: пара *rapture: distress*, имеет общие семы, но одновременно содержит и семы противопоставленные. Оба слова – *rapture* и *distress* – выражают очень сильное переживание, но в первом случае *восторг, восхищение* – эмоция в высшей степени приятная, а второе слово – *горе, бедствие* – выражает наивысшую степень страдания. Мы находим пример антитезы в произведении Джона Донна "Community": "Good we must love, and must hate ill''. В стихотворении Т. Гуда "Ноябрь" четырнадцать строк из пятнадцати содержат только односоставные отрицательные конструкции, начинающиеся с отрицания no.

No sun – no moon! / No morn – no noon! / No dawn – no dusk – no proper time of day – / No sky – no earthly view – / No distance looking blue …

Однообразный ряд упорно повторяющихся отрицательных конструкций передает монотонность и скуку осени.. Таким образом, стилистические функции антонимов разнообразны. Они выражают противоположность, обозначают противоречивую сущность явлений, диалектику жизни, и это противопоставление усиливает эмоциональность речи, иногда помогает в создании иронических оттенков. Также столкновение противоречивых понятий оттеняет характеры героев произведений, конструктивно организует текст, показывает последовательность событий, подчеркивает масштабность сцен, полноту охвата явлений. Их употребление делает речь выразительнее и семантически богаче.

İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ ŞAGİRDLƏRİN ŞİFAHİ NİTQİNİN XARAKTERİK XÜSUSİYYƏTLƏRİ

Abdullayeva H.M.
Bakı Slavyan Universiteti

Şifahi nitq elə bir mühüm vasitədir ki, bununla şagirdlərə bir tərəfdən dil vərdişləri aşılanır, digər tərəfdən isə, onların bu dili öyrənmək sahəsində əldə etdikləri ilkin bacarıqlar daha da möhkəmləndirilir; dilə aid öyrənilmiş söz və ifadələrin fəal lüğət ehtiyatına daxil olması və onlardan adi danışıq prosesində səmərəli istifadə etmək bacarığının inkişaf etdirilməsinə imkan yaradılır. İngilis dili tədrisinin başlanğıc mərhələsində dilə aid bütün ilk anlayışlar ilkin danışıq bacarığının aşılanması ilə əldə edilir. Şagirdlər şifahi nitq vasitəsilə ingilis dilində adi danışıq vərdişlərinə yiyələnir, öz fikrini sərbəst, heç bir çətinlik çəkmədən ifadə edə bilmək, başqasının danışığını düzgün anlamaq bacarığına yiyələnirlər.

İngilis dili tədrisində ən çətin və məsul vəzifə məhz şagirdlərdə fəal nitq vərdişlərinin inkişaf etdirilməsini təmin etməkdir. Bu bacarığa yiyələnmək isə o deməkdir ki, şagird mövcud lüğət ehtiyatından istifadə edərək, ünsiyyət prosesində öz fikrini sadə şəkildə asanlıqla ifadə etməyi bacarsın və başqasının nitqini dərk etməklə, öz nitqində istənilən söz və ifadəni seçməkdə çətinlik çəkməsin.

Şifahi nitqdə fikir səs örtüyü vasitəsilə əmələ gəlir və ifadə olunur. Yazılı nitqdə isə, fikir qrafik işarələrlə verilir. Belə ki, şifahi nitq qrafik əlaqə vasitəsilə ifadə edilir. Qrafik əlaqə vasitəsilə bütün deyilənləri yazmaq, bütün yazılanları isə, ucadan oxumaq mümkündür.

Danışıq prosesi olmadan başqa nitq növünü təsəvvür etmək mümkün deyildir. Öyrənilərn dildə yaxşı oxuyub yazmağı bacarmaq üçün ən əvvəl həmin dildə danışmağı öyrənmək lazımdır.

Təfəkkür həmişə nitqlə bağlıdır. Nitqlə təfəkkürün dialektik vəhdəti xarici dillərin tədrisində də nəzərə alınmalıdır. Bununla əlaqədar olaraq, tədris prosesini elə təşkil etmək lazımdır ki, öyrənilən dil – ünsiyyət vasitəsinə çevrilsin, şagirdlər öyrənilən dildə fikirləşmək bacarığı əldə etsinlər. Dil isə, yalnız ünsiyyət vasitəsi kimi, şagirdlər dərsdə fəal iştirak etdikləri zaman dilin tədrisində şifahi nitq başlıca məqsəd kimi qarşıya qoyulduğu vaxt təzahür edir.

İsbat olunmuş həqiqətdir ki, xarici dillərər məktəb şəraitində yalnız vasitəli şəkildə yiyələnmək mümkündür. Bu üsul "təbii", "qeyri-mütəşəkkil" ikidilliliklə xarakterizə olunur. İkidillilik prosesləri ana dili ilə xarici dilin mürəkkəb qarşılıqlı təsiri ilə səciyyələndirilir. Xarici dildən həmişə təbii ünsiyyət vasitəsi kimi istifadə etmək tələbatının olmadığı şəraitdə, sinifdə şagirdlərin sayca çox, xarici dil dərslərinin isə, miqdarının az olduğu təqdirdə, xarici dilə yiyələnmək prosesi çətinləşir. Belə şəraitdə, yəni xarici dilin dinamik bir sistem halında inkişaf etməsində ana dilindən qazanılmış vərdişlərin qarşılıqlı interferensiya (qarşılıqlı təsir) probleminin və onun aradan qaldırılması imkanlarının öyrənilməsi məktəb şəraitində xarici dilə yiyələnərkən biliklərin rolunu müəyyənləşdirməyə kömək edir.

Dil üzrə bacarıq və vərdişlər biliklər əsasında formalaşıq və inkişaf edir. Şifahi nitqə yiyələnmək problemindən danışarkən, bacarıq və vərdişlərin inkişafı mərhələlərinə dair elmi məlumatı nəzərə almaq lazımdır. Düzdür, ümumi psixologiyada bacarıq və vərdiş arasındakı mövcud qarşılıqlı əlaqə haqqında yekdil rəy yoxdur. Bu məsələni şifahi nitqə tətbiq etməklə, vərdişi fəaliyyətin avtomatik komponenti, bacarığı isə, biliyin şüurlu tətbiqi hesab edən psixoloqların fikri ilə razılaşmaya bilmərik. Şifahi nitqin əsasını dil vasitələrinə avtomatik yiyələnmək təşkil etdiyi üçün, onun vərdişsiz yaradıldığını güman etmək, əlbəttə, səhv olardı. Lakin, bu vasitələr hər dəfə yeni şəkildə kombinə edildiyinə və yeni məna bildirdiyinə görə nitqin özü bacarığa çevrilir.

Məktəb şəraitində biliklərin dərk edilməsi deduktiv və induktiv üsulların tətbiqi mühüm əhəmiyyət kəsb edir. Lakin bu barədə də fikir vahidliyi yoxdur. Bununla belə, yeni danışıq bacarığının yaradılmasında təkcə induksiya və ya deduksiyadan istifadə etməyin yaralı olmadığını qeyd eyməyi lazım bilirik. Çünki, şagirdlər nitqdə istifadə olunan materialı dərk etmədiyi təqdirdə, onlar müşahidə və ümumiləşmə aparmağı bacarmırlar. Nitqdə dil materiallarının tətbiqinə və bunun ardınca onun dərk olunmasına əməli qaydalar və təlimatlar kömək edir. Şagirdlərin fəaliyyəti əməli qaydalarla istiqamətləndirildiyi üçün bu prosesdə induksiya və deduksiya qarşılıqlı əlaqədə olur. Şagirdlər yalnız təlim materiallarına yiyələnmək bacarıq və vərdişlərinin yaranması nəticəsində əməli biliklər əldə edir və materialı nəzəri cəhətdən ümumiləşdirə bilirlər. Məhz buna görə də, ingilis dilində danışığın öyrədilməsi prosesində həmişə biliklərdən bacarıq və vərdişlərə aparan yolu yeganə yol saymaq, zənnimizcə, düzgün deyildir. Şagirdlərin ingilis dilində danışıq bacarığına yiyələnmələri üçün, onlarda dilə şüurlu münasibət tərbiyə etmək, dildən səmərəli istifadə etmək bacarığını formalaşdırmaq xüsusi əhəmiyyət kəsb edir. Xarici dildə nitqə yiyələnmədə müşahidə olunana şüurluluq, digər fənlərin mənimsənilməsi prosesindəki şüurluluqdan psixoloji cəhətdən xeyli fərqlənir. Bu fərq nitqin psixoloji xüsusiyyətlərindən irəli gəlir. Xarici dildə nitqə yiyələnməkdə dilin maddi əsasının (sözlərin və qrammatik sistemin) dərk edilməsi, beləliklə də bilik qazanılması nitq bacarıqlarının və vərdişlərinin yaradılması prosesində baş verir. Nitqdə avtomatiklik yaradılmasına yönəldilmiş intensiv nitq fəaliyyəti onunla nəticələnir ki, şagirdlər xarici dildə düşünməyə başlayır, yəni öyrənilən dil materialından düşünülmədən – induktiv surətdə istifadə edirlər. Bununla əlaqədar iki mühüm cəhəti xüsusilə qeyd etmək lazımdır.

Əvvəla, tədris prosesində şagirdin dilə düşünülmədən (intuitiv) surətdə yiyələnməsini yalnız məhdud dil (minimum dil materialları) əsasında təmin etmək mümkündür; ikincisi, şagirdlər dil materillarına şüurlu məqsədlər nəticəsində yiyələnirlər. Odur ki, təlim məqsədinə xidmət edən tapşırıqların xarakteri və ardıcıllığını müəyyənləşdirərkən bu cəhət nəzərə alınmalıdır.

DİALEKT VƏ ŞİVƏLƏRİMİZİN LÜĞƏT TƏRKİBİNDƏ ALINMA SÖZLƏR

Abbasov S.E.
Sumqayıt Dövlət Universiteti

Azərbaycan xalqı uzun əsrlər boyu Yaxin Şərq, rus və Qafqaz –iber xalqları ilə qarşılıqlı münasibətdə olduğundan dillərini də bir – birinə qarşılıqlı təsiri olmamış deyildir. Bu təsir hər şeydən əvvəl özünü dilin lüğət tərkibində göstərir. Dialektlərimiz lüğət tərkibində alınma sözlərin vəziyyəti çox vaxt ədəbi dildəki kimi deyildir. Dialektlərin lüğət tərkibindəki alınma sözlər ədəbi dildəki alınma sözlərlə nisbətən dilin daxili inkişaf qanununa əsasən istər şəkil ,istərsədə məzmunca dəyişikliyə daha çox məruz qalir.

Dialekt və şivəlimizin lüğət tərkibində alınma sözləri mənbəyi əsasən üçdür: 1) ərəb və fars; 2) rus; 3) qafqaz –iber dilləri.

Bunu da qeyd etməliyik ki, bütün dialekt və şivələrimizdə alınma sözlər eyni deyildir. Şərq dialekt

və şivələrində ərəb və fars sözləri qərb dialekt və şivələrinə nisbətən daha çox üstünlük təşkil edir. Qafqaz –iber dillərinin sözləri isə şimal dialekt və şivələri, eləcə də Qərbi Azərbaycan və Gürcüstan ərazisində yerləşən Azərbaycan dialekt və şivələrinin lüğət tərkibində özünü göstərməkdədir.

Ərəb və fars sözləri

Ərəb və fars sözləri dialekt və şivələrimizin lüğət tərkibinə çox qədim zamanlardan bəri daxil olduğundan dilin qayda və qanunlarina uyğun olaraq daha çox dəyişikliyə uğramişdir.Bu dəyişiklik iki cür olur;

1) Bu sözlərin bir qismi öz müstəqiliyini tədricən itirərərək yerli sözün icərisində məhv olub getmişdir. Əvvəllər alınma söz qarşılığı olan yerli sözlə yanaşı işlənmiş, (məs.; qada –bala,dava-dərman və s), sonra yerli sözlə calaqlanmış nəhayət, yerli sözün daxilində oz azadlığını itirərək onun bir hissəsinə çevrilmişdir.

2) Ərəb və fars sözləri uzun illər boyu fonetik qanunları təsiri altında get-gedə fonetik üzünə dəyişmişdir. Bu cür sözlərdən nümunə bir nəçəsini göstərək: əceb-əcayib, bobat-babat, ataş- atəş və s.

Rus dili vasitəsilə daxil olan rus və Avropa sözləri

XIX əsrin əvvəllərində Azərbaycanın Rusiya ilə birləşməsindən sonra istər ədəbi dil və istərsə dialekt və şivələrimizin lüğət tərkibində rus dili vasitəsi ilə dövlət idarəçiliyi, həyat və məişət ,mədəniyyət və texnika ilə bağlı olan bir sıra rus və beynəlmiləl sözləri daxil olmuşdur. Bu sözlər iki qismə ayrılır. 1)Azərbaycanda sovet hakimiyyətindən əvvəl dialekt və şivələrimizin lüğət tərkibində işlənən sözlərdir ki bunlar dilə çoxdan daxil olduğundan dilin qayda-qanunlarına əsasən tələffüz edilir.

Bu cür sözlərə misal olaraq: məkərə (yarmarka), samavar// sımavar, ətek//aptek və s Azərbaycanda sovet hakimiyyətindən əvvəl dialekt və şivələrimizdə rus və internasional sözlərin işlədilməsimdə gözəçarpan xüsusiyyətlərindən biri də budan ibarət dir ki, bu cür sözlər əhalinin savadsızlığı nəticəsində çox vaxt xalq etimologiyasına uydurularaq təhrif olunurdu.

2)Azərbaycanda sovet hakimiyyətindən sonra yeni ictimai münasibət, təsərrüfat, texnika , elm və mədaniyyətin sürətlə inkişafı ilə bağlı olaraq dialekt və şivələrimizin lüğət tərkibinə bir sıra rus və beynəlmiləl sözlər daxil olmuşdur.

Nümunə olaraq aşağıdakıları göstərmək olar: ferma, traktor, savxoz, qalxoz kino, avtomobil, plan, rayon və s.

Qafqaz-iber dillərindən keçən sözlər

Qafqaz-iber dilləri ilə Azərbaycan dilinin qarşılıqlı əlaqəsi, təsirlər məsələsi, demək olar ki, tədqiq olunmamış sahələrdən biridir. Buna görə də burada verdiyimiz bəzi misallar qəti hökm şəklində deyil, ehtimal xarakteri daşıyır. Sonrakı tədqiqat bu ehtimalların nə qədər doğru olduğnu aydınlaşdıracaqdır.

Dağıstan dillərindən keçən sözlər. Dağıstan dillərindən keçən sözlər bu dillərə qonşu olan dialekt və şivələrimizin lüğət tərkibində daha qabarıq şəkildə özünü göstərir. Bu sözlərə nümunə olaraq bir necesini göstərmək olar: -ana, xala, saxurcada isə nənəyə deyilir;-əmi arvadi, avarcada da bu mənada işlənir;

Verəcəyimiz misallar Muğan və Borçalı rayonlarından topladığımız dialektoloji materiallardan olacaq- dır:cincar (Şə.) –kicitkən, gürcü dilində eyni şəkildə işlənir; mərə (Muğ.)-çökək yer, gürcü dilində mere şəklində alcaq məhsuldar yer ;

ЯЗЫК КАК СИСТЕМА И ПСИХОЛОГИЗМ В УЧЕНИИ И. А. БОДУЭНА ДЕ КУРТЕНЭ

Ламазова Т.В.
Бакинский славянский университет

Концепция системности языка была разработана европейскими учеными: в конце XIX века польско-русским лингвистом И. А. Бодуэном де Куртенэ и швейцарским ученым Ф. де Соссюром (1920-е гг.). В понимании И. А. Бодуэна де Куртенэ системность языка рассматривается параллельно с синхронно-диахроническими представлениями о его развитии и функционировании. Принималось в качестве основополагающего следующее положение: хотя язык непрерывно меняется, развивается и совершенствуется, на каждом временном срезе он остается целостной системой взаимосвязанных единиц. Такое понимание синхронной системы

языка следует отличать от диахронических явлений, связанных с его эволюцией и относящихся к разным периодам языкового развития.

Последовательное понимание системности языка позволило И. А. Бодуэну де Куртенэ задать исключительно важный для современного языкознания вектор изучения *языка как системы систем*. Определяя сущность каждой подсистемы языка, он, прежде всего, исходил из характера соотношения между единицами разных языковых ярусов. Так, фонологический ярус рассматривался им в составе и взаимодействии с другими элементами языка, какими являются морфемы в сопряжении с их семасиологическими и морфологическими представлениями. При интерпретации языковой структуры и системы языка ученые Казанской лингвистической школы исходили из 1) объективного существования языка; 2) они обосновали необходимость изучения языковых систем и подсистем; 3) дали им верные определения и установили соотношения между ними на разных уровнях языка, начиная от фонемного, рассматриваемого во взаимодействии с другими живыми элементами языка (морфемы с их семасиологическими и морфологическим представлениями); 4) определили основные «атомы» (единицы) языковой системы: фонемы, морфемы, грамматические единицы и т.д.

Такое понимание системности языка ученый пытался воплотить, прежде всего, при взаимосвязанном описании фонетической и морфемной структуры слова. Суть его компаративистского подхода состоит в том, что система языка рассматривалась им как категория историческая, которая изменяется в процессе исторического развития языка. Иными словами, И. А. Бодуэн де Куртенэ рассматривал отдельные языки как исторически изменяющиеся системы. Понятие системы ученый пытался увязать с разграничением языка и речи. Как система язык присутствует только потенциально, хотя элементы находятся друг с другом в тесной связи, в тесном взаимодействии. Речь, напротив, - постоянная психофизическая реалия.

Психологизм проявлялся у И.Ф. Бодуэна де Куртенэ как в понимании языка в целом, так и в понимании отдельных единиц (например фонемы). Язык для И.А. Бодуэна де Куртенэ, - это «совокупность произносительных и слуховых представлений, соединенных с другими лингвистическими и нелингвистическими представлениями», это – комплекс членораздельных и значенательных звуков и созвучий, соединенных в одно целое чутьем определенного народа, как слышимый результат правильного действия мускулов и нервов, как одну из функций человеческого организма. Весь процесс произношения, начиная с экспирации и кончая работой губ, является физическим. Все произносительные явления сводятся к рефлексам, точнее – к ассоциации многих рефлексов, «но кто вызывает эти рефлексы?» - спрашивает И.Ф. Бодуэна де Куртенэ т отвечает, что при подлинном языке мы всегда можем констатировать внутреннюю инициативу, инициативу «души».

ПСИХОЛОГИЗМ В УЧЕНИИ О ФОНЕМЕ У И. А. БОДУЭНА ДЕ КУРТЕНЭ

Ламазова Т.В.
Бакинский славянский университет

Учение о фонеме существует почти целое столетие. Впервые термин фонема был введен в науку в 70-е годы XIX века (А. Дюфриш-Деженетта, Л.Аве, Ф. де Соссюр). Употреблялся он с целью отличия фонемы от звука как более общего и абстрактного понятия от реально произносимого. Одновременно с французскими лингвистами противопоставление общей физиологии звуков речи и их морфологического употребления было осуществлено И. А. Бодуэном де Куртенэ еще в ранних работах по др.-польскому языку и общему языкознанию (1870-1871). В русском языке термин «фонема» впервые употребил Н.В. Крушевский – коллега Бодуэна по Казанскому университету.

Подлинным основателем учения о фонеме явился И. А. Бодуэн де Куртенэ. Оно сводится к следующим положениям.

Основное понятие его теории – альтернация, под которой ученый понимал разнообразную реализацию одной и той же фонемы в разных контекстах. Вот почему И. А. Бодуэн де Куртенэ рассматривал фонему как *психический эквивалент звуков речи* с разных сторон: то как

«представление» (или «образец») звука в отличие от простой артикуляции звука; то как физическое звуковое обобщение, как сумму альтернирующих звуков, как сумму обобщающих моментов звучания в речи.

Психологизм проявлялся у И.Ф. Бодуэна де Куртенэ как в понимании языка в целом, так и в понимании отдельных единиц (например фонемы). Язык для И.А. Бодуэна де Куртенэ, - это «совокупность произносительных и слуховых представлений, соединенных с другими лингвистическими и нелингвистическими представлениями», это – комплекс членораздельных звуков и созвучий, соединенных в одно целое чутьем определенного народа, как слышимый результат правильного действия мускулов и нервов, как одну из функций человеческого организма. Весь процесс произношения, начиная с экспирации и кончая работой губ, является физическим. Все произносительные явления сводятся к рефлексам, точнее – к ассоциации многих рефлексов, «но кто вызывает эти рефлексы?» - спрашивает И.Ф. Бодуэна де Куртенэ т отвечает, что при подлинном языке мы всегда можем констатировать внутреннюю инициативу, инициативу «души».

Принципиальную значимость при этом приобретает понимание смысловой роли альтернаций. Вместо слова «смысловой» (семантический) И. А. Бодуэн де Куртенэ употребляет термин «*психический эквивалент*».

Итак, фонема представляется И. А. Бодуэну де Куртенэ следующим образом:

- это единица сложная;
- она состоит из элементарных единиц (свойств);
- функционируют такие элементарные единицы как неделимое целое;
- фонемы выступают как члены корреляций (соотношений);
- фонема – это отвлеченность, результат языкового обобщения реальных звучаний;
- эти реальные проявления - суть *антропофонической природы*.

Фонема у И. А. Бодуэна де Куртенэ по существу выступает как конструкт (понятие), как нечто постоянное (инвариант) в плоскости множества вариантов, реально произносимых и слышимых. Понимание фонемы как психической сущности (по И. А. Бодуэну де Куртенэ) решительно отвергал Н.С. Трубецкой. В «Основах фонологии» он пишет: «Фонема является языковым, а не психологическим понятием». Она есть функция языка, а не самый звук, и функция эта – смысловая, а не артикуляционная и не психическая.

Основное положение Н.С. Трубецкого сводится к следующему: фонема есть смыслоразлительная функция коммуникативной сущности языка.

ATALAR SÖZLƏRİNİ İDİOMLARDAN FƏRQLƏNDİRƏN XÜSUSİYYƏTLƏR

Orucova C.S.
Bakı Slavyan Universiteti

Atalar sözlərinin, deyimlərinin və sitatlarının dilçilikdə yeri mübahisəli məsələdir. Atalar sözləri müdriklik ifadə edir və mənəvi-əxlaqi dərs vermək məqsədi daşıyan qısa deyimlərdir. Atalar sözlərinin frazeologiya ilə ortaq cəhətləri ondan ibarətdir ki, hər ikisinin tərkibi sabitdir. Onların mənalarə ənənəvi və məcazi xarakter daşıyır. Eyni zmanada, onlar dildə hazır şəkildə mövcud olur. Atalar sözləri ümumi məzmuna malik deyimlərdir. İlk başxışda onların mənasını birbaşa, dərhal dərk etmək olmur. Məs, to blow one`s own trumpet, hansı ki, bu mənanı verir: özünü tərifləmək, lovğalanmaq, - bu idiomdur. Bu idiomun atalar sözünə çevrilməsi :It`s but a fool who blows his own trumpet or don`t blow your own trumpet. Yəni "Yalnız axmaqlar özlərini tərifləyə bilər".

Bir sıra alimlər aşağıdakı fikirləri söyləmişlər. V.V.Vinoqradov fikirləşir ki, atalar sözləri frazeoloji vahidlərin bir hissəsi kimi öyrənilməlidir. İ. Casares və N.N.Amasavanın fikrincə isə atalar sözlərini frazeologiyanın bir hissəsi kimi öyrəniilməsinə heç bir səbəb yoxdur. A.V.Kunin öz təsnifatında atalar sözlərini frazeoloji vahidlərin tərkibinə daxil etmiş və onları kommunikativ frazeoloji vahidlər adlandırmışdır. Bu baxımdan frazeoloji vahidin əsas kriteriyası onun sabitliyidir. A.V.Kuninin izahına əsasən, demək olar ki, atalar sözləri ilə idiomlar arasında elə də ciddi bir fərq yoxdur. Belə ki, məhz frazeoloji vahidlər (idiomlar) atalar sözlərinin tərkib hissəsi kimi işlənir. Belə ki, The last straw- (sonuncu çöp/küləş) aşağıdakı atalar sözündən götürülüb:

The last straw breaks the camel`s back. Hərfi tərcüməsi: Sonuncu küləş/ot dəvənin belini qırar. Amma hərfi tərcümə bədiilik ifadə etmədiyi üçün, onu belə əvəz edəcəyik: səbr kasası dolmaq, Digər bir misal: To catch a straw-saman çöpündən yapışmaq frazeoloji vahidi aşağıdakı atalar sözündən yaranıb. A drawing man catches at straws (Suda boğulan saman çöpündən yapışar).

Bundan əlavə bəzi atalar sözləri asanlıqla frazeoloji vahidlərə çevrilə bilər. Məs: Don`t put all your eggs in the basket – to put all one`s eggs in one basket (ehtiyat saxlamaq).

Atalar sözləri ilə frazeoloji ifadələri (idiomları) semantik cəhətdən müqayisə etsək, aşkar şəkildə göstərir ki, onlar xalqın, cəmiyyətin, kollektiv düşüncə, təfəkkür tərzini ümumiləşdirib, tərbiyələndirir., nəsihət verir – Don`t judge a tree by it`s bark-görünüş aldadıcıdır. Xəbərdarlıq edir, tənqid edir və s.

Lakin frazeoloji ifadələrin (idiomların) yuxarıdakı vəzifələri yerinə yetirmək kimi bir məqsədi yoxdur. Onlar atalar sözləri kimi ümumilikdə bir fikir ifadə etmir, sadəcə konkret bir anlayış bildirir. Onların nitqdəki funksiyası normativdir, kommmunikativv deyil.

Atalar sözləri məcazi ola da bilər, olmaya da bilər, ümumilikdə isə onlar emosional rənarənglik bildirir.

Ümumiyyətlə leksikologiya Atalar sözlərinin bütün xüsusiyyətləri ilə məşğul ola bilməz, bununla daha yaxşı folklorşünaslar məşğuldur. Lakin dildə hazır şəkildə mövcud olduğundan leksikada buna toxunulmaya bilməz.

BİTKİ ADLARININ DİLİN LEKSİK SİSTEMİNDƏ YERİ

Bayramova S.X.
Bakı Slavyan Universiteti

Dünya dillərinin hər birinin lüğət tərkibi müxtəlif səciyyəli və fərqli semantikalı sözlərdən təşkil olunur ki, onların içərisində ətraf aləmdə mövcud olan bitki adları da özünəməxsus funksiyası və mövqeyi ilə seçilir. Dilin leksik tərkibinin bu qatı həm də öz əhatəliliyi, funksional fəallığı, orijinallığı, kəmiyyəti və məna zənginliyi ilə, eyni zamanda insanların məişəti ilə sıx bağlı olması ilə diqqəti cəlb edir. Bu baxımdan bitki adlarında da, dilin leksik qatının digər söz qruplarında olduğu kimi, xalq həyatının müəyyən əlamətlərini görmək olur. Dilçilikdə leksik tərkibin müxtəlif qatlarının öyrənilməsinə xüsusi diqqət yetirilmiş və bugün də həmin istiqamətdə müəyyən araşdırmalar aparılmaqdadır.

Ümumi dilçilikdə olduğu kimi, Azərbaycan dilçiliyində də bitki adlarının digər tipoloji qrupa daxil olan dillərin analoji leksik vahidləri ilə tipoloji müqayisəli şəkildə öyrənilməsi isə elmi və praktik dilçilik baxımından xüsusi əhəmiyyət kəsb edir. Eyni zamanda ingilis və Azərbaycan dillərindəki bitki adlarının tipoloji müqayisə yolu ilə araşdırılması həm də bu dillər və onların daşıyıcıları olan xalq haqqında geniş təsəvvür əldə etməyə imkan verir. İngilis və Azərbaycan dillərinin də leksik tərkibinin böyük bir hissəsini bitki adları təşkil edir. Bu leksik adların çoxluğunu şərtləndirən amillərdən biri də odur ki, eyni bitkinin həm xalq danışıq dilində adı mövcud olur, həm də elmi terminoloji vahidləri özünü əks etdirir. Eyni zamanda, bizi əhatə edən aləmdə çoxlu sayda bitki növləri, onların çoxunun müxtəlif tipləri vardır ki, həmin tip bitkilərin də adlarını ifadə etmək üçün dildə xüsusi leksik vahidlər yaranmışdır. Bu rəngarənglik də hər bir dilin leksik qatında bitki adları və botanika terminlərinin çoxluğunu şərtləndirən amillərdəndəndir.

Ayrı - ayrı xalqların tarix boyu özünü göstərən yerdəyişmələri, onların kütləvi şəkildə bir coğrafi ərazidən köçmələri, yeni iqlim şəraitinə və coğrafi mühitə uyğun olaraq qurulan təsərrüfat fəaliyyətləri ətraf mühitdə olan müxtəlif bitki növlərini adlandırmalarına və bu zaman müşahidə edilən fərqli əlamətlər əsas götürülərək onlara ad vermələrinə imkan vermişdir. Bu proses ilk növbədə dil faktlarında öz əksini tapmış və bu zaman müxtəlif dialekt fərqlərinin yaranması prosesində məntiqi olaraq dildə öz əksini tapmışdır. Bu obyektiv və qanunauyğun proses bugün də bu və ya digər şəkildə davam etməkdədir. Xalqın həyatı və məişəti ilə sıx bağlı olan, müxtəlif xalqların tarixi inkişaf prosesində mühüm rol oynayan bitki adlarının yaranması cəmiyyət inkişafının ən qədim dövrləri ilə əlaqəlidir və hər bir xalqın məişəti və tarixi ilə bağlı ən müxtəlif hadisə və prosesləri özündə əks etdirməklə qədim inkişaf dövrləri haqqında geniş informasiya əldə edilməsi baxımından da böyük əhəmiyyət daşıyır.

Bu xüsusiyyəti isə həm ingilis dilinin daxil olduğu Hind - Avropa dilləri ailəsində, həm də Azərbaycan dilinin də daxil olduğu türk dilləri ailəsində müşahidə etmək mümkündür. Ayrı-ayrı dil ailələrində, o cümlədən bu dil ailələrinə daxil olan İngilis və Azərbaycan dillərinin hər ikisində ətraf mühitdə müşahidə olunan müxtəlif bitki növlərinin yaranma tarixi, onların ayrı - ayrı növlərinin həmin

dillərin daşıyıcıları olan ingilis və azərbaycan xalqının məişətinə daxil olma tarixi çox qədim olmaqla həm həmin xalqların tarixində, həm dilində, həm də məişətində öz izlərini qoymuş,bu dillərdə həmin bitkilərin adlandırılması üçün uyğun dil vahidlərinin yaranmasına səbəb olmuşdur. Bu baxımdan müxtəlif bitki növlərinin həmin xalqların məişətinə daxil olma, onların ayrı - ayrı növlərinin əhilləşdirərək mədəni növlərinin yetişdirilməsi tarixi fərqli olduğu kimi müxtəlif bitki növlərinin adlarının yaranma tarixi də ayrı - ayrı tarixi dövrlərə təsadüf edir. Azərbaycan dili bu ərazidə tarixən yaşamış və məskunlaşmış bir xalqın dili olmaqla təbii iqlimi, flora zənginliyi, bu ərazidə yetişən bitki növlərinin rəngarəngliyi ilə diqqəti cəlb edir və bu dildəki bitki adları öz müxtəlifliyiyi ilə seçilir.

Dilin ümumi leksik tərkibində mövcud olan və ümumxalq danışıq dilində ayrı - ayrı bitkiləri adlandıran sözlər bu və ya digər dildə botanikaya aid terminologiyanın formalaşmasında və sabitləşməsində mühüm əhəmiyyət kəsb edir. Belə ki, hər bir dildə o dildə danışanların danışıq prosesində bitkilər müxtəlif leksik vahidlərlə adlandırılır və bu adlar sonradan dildə botanika terminologiyasının əsasını təşkil etməklə həmin dilin bitki adları sistemini yaradır.

STRUKTUR DİLÇİLİYİN YARANMASININ LİNQVİSTİK ƏSASLARI

Aşrəliyeva A.T.
Bakı Slavyan Universiteti

XX əsr bütün elmlərin, o cümlədən, dilçiliyin coşğun inkişafı dövrüdür. Bu dövrdə yeni – yeni dilçilik məktəb və cərəyanları yaranır, dilçiliyin yeni aspektləri, yeni fənləri meydana gəlir. Belə cərəyanlardan biri də struktur dilçilik yaxud strukturalizmdir.

Ədəbi şərhin tarixi formalarından biri kimi strukturalizm XX əsrin əvvəllərində dilin təbiəti haqqında meydana çıxan yeni nəzəriyyələrin tərkibində yaranmışdır. Maraqlıdır ki, qədimlərdən bir elm sayılmış ədəbiyyat və dilçilik strukturalizmdə yenidən birləşmişdir.

Strukturalizm xalis dilçilik cərəyanı deyildir. "Struktur" ideyası elmin bütün sahələrində özünü göstərir; biz bu ideyaya nəinki təbiətşünaslıq elmlərində, hətta psixologiya, sosiologiya, estetika, tarix, ədəbiyyatşünaslıq və s. elmlərdə rast gəlirik.

Struktur dilçiliyin son məqsədləri - dili və dil proseslərini modelləşdirmək imkanları baxımından dilçilər riyaziyyata yaxın hesab edirlər. Bəs struktur dilçiliyin predmeti nədir? Struktur dilçiliyin predmetinin dəqiqləşdirməsi üçün ilk növbədə "ənənəvi" dilçilik və dilçilikdə "yeni metodlar" məsələsinə toxunmaq lazımdır.

Strukturalizmə qədərki dilçilik əsas iki anlayışa – söz və məna anlayışlarına bağlı idi. Klassik dilçilik çox zaman sözlərin mənasını izah edən və tərcümədə gərəkli olan lüğətçilik elmindən ibarət idi. Lap qədimdən, Platondan gələn sadə nəzəriyyəyə görə, sözlər mənalı səslər kimi qəbul edilirdi. Yeni dil nəzəriyyəsi klassik dilçiliyi alt-üst edən dilin işarəviliyi anlayışını irəli sürdü. Sözün yeni formulu belə oldu: işarə edilən - işarə -məna. Bu nəzəriyyədə sözlə onun bildirdiyi şeylər arasında heç bir əlaqə olmadığı aşkara çıxdı. Sözü işarə, dili isə işarə sistemi kimi təqdim edən semiotikanın əsas müddəalarını amerikan filosofu Çarlz Pirs (1839- 1914) və isveçrəli dilçi və psixoloq Ferdinand De Sösür (1857-1913) irəli sürdülər. Ç.Pirs bu ideyaları F.Sösürdən əvvəl qələmə almışdı, lakin strukturalizm F.Sösürün müdiri olduğu Ümumi Dilçilik kafedrasının tələbə və müəllimləri tərəfindən inkişaf etdirildi və Avropa universitetlərinin dilçilik kafedralarında yayıldı.

Adətən struktur dilçiliyin yaranmasını F.de Sössürün adı ilə, onun dilin sistem olması, struktur səciyyə daşıması haqqındakı fikirləri ilə bağlayırlar. Bir qayda olaraq, struktur dilçilər Sössürü öz sələfi adlandırırlar.

F.de Sössür "Ümumi dilçilik kursu" əsərində isə öz dörd müddəası ilə - "Dilçiliyin yeganə və həqiqi obyekti dildir", "Dil öz xüsusi qaydası olan sistemdir", "Dil substansiya deyil, formadır", "Dilin hər vəziyyətində hər şey münasibətlərə əsaslanır" – struktur dilçiliyin təməl daşını – spesifika, sistem, forma və münasibət – qoydu. F.de Sössürün bu əsəri 1916 - cı ildə nəşr edilmişdir.

Sössürün "Kursu" nəşr ediləndən 10 il sonra 1926 - cı ildə çex dilçisi Vilem Matezius Praha şəhərində "Praha dilçilik dərnəyi" adı ilə struktur dilçiliyin ilk dərnəyini təşkil etdi. 1928 - ci ildə Haaqa şəhərində keçirilən dilçilərin I beynəlxalq konqresində Praha dilçilik dərnəyinin üzvləri öz manifestlərini elan etdilər.

1939 - cu ildə Danimarkanın paytaxtı Kopenhagen şəhərində Viqo Bröndal və Lüi Yelmslev "Acta linquistika" ("Dilçilik əsərləri") adlı dilçilik jurnalı nəşr etdirdilər. Jurnalın ətrafında toplanan dilçilər struktur dilçiliyin Danimarka qolunu (qlossematika) təşkil etdilər. Hazırda struktur dilçilik Çexiyada

(Praha dilçilik məktəbi yaxud funksional dilçilik), Danimarkada (Kopenhagen dilçilik məktəbi, yaxud qlossematika), Amerika Birləşmiş Ştatlarında (Nyu - York, Yel dilçilik məktəbi yaxud deskriptiv dilçilik) inkişaf etmişdir.

Struktur dilçiliyin bütün məktəbləri dilə struktur baxımdan yanaşsa da, dili eyni mövqedən izah etmir. Struktur dilçiliyin müxtəlif məktəblərinin mövcudluğuda məhz bundan irəli gəlir: hər məktəb Sössürün dilçilik konsepsiyasında irəli sürülmüş müəyyən bir müddəasını öz fəaliyyəti üçün əsas götürür.

Lakin struktur dilçiliyin bütün məktəblərini birləşdirən ümumi cəhətləri də mövcuddur. Metodoloji baxımdan struktur dilçilik fəlsəfi əsasına görə bir sıra hallarda neopozitivizm və ona bənzər fəlsəfi cərəyanlara yaxınlaşan məntiqi dilçiliyin müasir cərəyanlarından biridir.

Metodika baxımından struktur dilçilik məktəblərini müşahidə və konstrukt səviyyələrinin fərqləndirilməsi (nitq və dil, mətn və sistem, davranış və modellərin fərqləndirilməsi), paradiqmatikada müxalifət (qarşılaşdırma) üsullarının, sintaqmatikada isə distributiv üsullarının ümumiliyi birləşdirir.

BƏZİ POLYAK ATALAR SÖZLƏRİNİN DİLİMİZƏ TƏRCÜMƏ XÜSUSUSİYYƏTLƏRİ

Alızadə Z.S.
Bakı Slavyan Universiteti

Hər bir dilin leksik-semantik sistemində funksiyaca tək-tək sözlərə uyğun olan və yaxud da ayrıca formalaşmış külli miqdarda müstəqil dil vahidləri vardır. Bu tipli leksikləşmiş söz birləşmələri bədii tərcümə prosesində müəyyən çətinliklər yaradır. Şifahi danışıq dilinin, folklorun xüsusiyyətlərini özündə cəmləşdirən bu ifadələrin böyük əksəriyyəti öz mahiyyətinə görə xalqın məişət və mədəni inkişafının spesifik xüsusiyyətləri ilə bağlıdır. Orijinalın dilində aydın, anlaşıqlı, doğma və tamamilə təbii görünən belə söz və ifadələr tərcümə prosesində müvafiq assosiasiyalar doğurmaya da bilər. Bəzən tərcüməçi Azərbaycan dilində müvafiq bir ifadəni tapa bilmir və həmin ifadəni hərfi tərcümə edir. Bu isə əksər hallarda personajların nitqində dərhal yad element təsiri bağışlayır və qeyri-təbii görünür. Deməli bu cür birləşmələrin semantikasından, işlənmə yerindən, konteksindən asılı olaraq müxtəlif şəkildə, müxləlif prinsiplər əsasında tərcümə yerinə yetirilə bilər. Bu isə tərcüməçidən yaradıcı ölçü hiss, həm orijinala, həm də tərcümə dilinə böyük həssaslıq tələb edir.

Azərbaycan və polyak dilləri fərqli dil ailələrinə məxsus olduqları üçün onların leksikasında bir ümumilik, bir oxşarlıq halları olmaya da bilər. Polyak dilində işlənən bir sıra frazeoloji birləşmələr, atalar sözləri, zərbi-məsəllər vardır ki, onları dilimizə tərcümə edərkən heç bir qarşılıq tapmaq mümkün olmur. Lakin adekvat tərcüməyə nail olmaq halları da mümkünsüz deyildir. Polyak dilində tez-tez rast gəlinən və dilimizə tərcümə edilərkən çətinlik yaradan bir neçə birləşməni nəzərdə keçirək.

1. *Baba z wozu, koniem lżej* – Məlumdur ki, tarix boyu at və arabanı daim kişilər idarə edib. Burada *"baba"* sözü lazımsız, yararsız bir şəxs kimi vurğulanır. Məna etibarilə burada daim səhvlər törədən, heç biri faydası olmayan insandan söhbət gedir. Hərfi tərcümə etsək bu cür alınar: *"Qarı (kaftar) yıxıldı, at yüngülləşdi"*.
2. *Wilk syty i owca cała* – Bu ifadə hər hansı bir işin sonunda iki tərəfində razılığı zamanı istifadə edilir. Hərfi tərcümə etsək bu cür alınar: *" Canavar tox, qoyun da bütöv"*.
3. *Co ma wisieć, nie utonie* – Bu ifadədə bildirilir ki, həyatımızın bir çox mərhələsi artıq qurulub və bizim davranışlarımız onu dəyişdirə bilməz. Hərfi tərcümə etsək bu cür alınar: *"Asılqanı olan heç nə bata bilməz"*.

Yuxarıda qeyd olunan hər üç nümunənin dilimizdə qarşılığı yoxdur, yəni tamamilə məzmun və forma fərqliliyi mövcuddur. Yalnız izah etmək, qeyddə göstərmək üsulu ilə mənanı oxucuya çatdırmaq olar. Bununla yanaşı bir sıra birləşmələrdə məna eyniliyi, forma müxtəlifliyi özünü göstərir. Aşağıdakı nümunələrə diqqət yetirək:

1. *Nie od razu Kraków zbudowano* – burada hər hansı bir məqsədə çatmaq üçün səbrli olmaq fikri ifadə olunur. *"Krakov birdən tikilməyib"* kimi tərcümə edilən bu birləşmə dilimizdə *"Kreml (Moskva) birdən tikilməyib"* şəklində istifadə olunur.
2. *Głodnemu chleb na myśli* – əgər kimsə bir şeyi həqiqətən çox ürəkdən əldə etmək istəyirsə bütün günü fikrində o canlanır. Hərfi olaraq *"Acın fikrindən çörək keçər"* kimi tərcümə edilən bu ifadə dilimizdə *"Ac toyuq yuxusunda darı görər"* kimi istifadə edilir.
3. *Czas to pieniądz* – tənbəlliyə, avaraçılığa sərf edilən hər bir dəqiqənin necə də dəyərli olması burada ifadə edilir. *"Vaxt puldur"* kimi tərcümə edilən bu birləşmə dilimizdə *"Vaxt qızıldır"*

şəklində mövcuddur.

Yuxarıda qeyd olunan hər üç nümunənin dilimizdə qarşılığı mövcuddur, lakin məzmun eyniliyi olsa da, forma fərqliliyi özünü büruzə verir. Dillərarası fərqlərə baxmayaraq tam adekvat olan birləşmələrdə azlıq təşkil etmir. Məsələn:

1. *Kruk krukowi oka nie wykole – Qarğa qarğanın gözünü çıxarmaz.*
2. *Kuj żelazo póki gorące – Dəmiri isti-isti döyərlər.*
3. *Darewanemu koniowi w zęby nie patrzą – Bəy verən atın dişinə baxmazlar.*
4. *Kto pod kim dołki kopie, ten sam w nie wpada – Özgəsinə quyu qazan özü düşər.*
5. *Mowa jest srebrem, a milczenie złotem – Danışmaq gümüşdürsə, susmaq qızıldır.*

Bu tipli birləşmələrin tərcüməsi ilə bağlı konkret resept, konkret qayda yoxdur. Bütün hallarda kontekstdən çıxış edərək, tərcümə transformasiyalarından istifadə edərək bu və ya digər birləşmənin uğurlu tərcüməsinə nail olmaq mümkündür.

CÜMLƏNİN AKTUAL ÜZVLƏNMƏSİNDƏ SÖZ SIRASININ ROLU

Tarıverdiyeva D.A.
Bakı Slavyan Universiteti

Məlumdur ki, sintaktik vahidlərin cümlənin iki üzvlənməsi əsasında formal-qrammatik və məntiqi-qrammatik üsulla aşkar etmək mümkündür. Cümlə təkcə formal-qrammatik əlamətlərinə görə deyil, kommunikativ məqsəddən, daşıdığı kommunikativ /ünsiyyət/ mənadan asılı olaraq nitqdə cümlənin bu və ya digər komponentlərinin dəyərliliyinə görə bölünür. Hələ 40-cı illərin ortalarında Praqa dilçiliyinin nümayəndəsi V.Mateziusun irəli sürdüyü "cümlənin aktual üzvlənməsi" adlı bölgüyə əsasən, cümlə 2 başlıca məzmun ünsüründən ibarətdir: 1. Məlumatın çıxış nöqtəsi olan ünsür, 2.Məlumatı əks etdirən ünsür.

Mətnin semantikasının öyrənilməsində mətn komponentlərinin aktual üzvlənməsinin, yəni tema – rema əvəzlənməsinin böyük rolu vardır. Cümlədə sözlərin və söz birləşmələrinin yeri cümlənin sintaktik quruluşu və cümlə üzvlərinin aktual üzvlənməsi ilə bağlı olur və söz sırası normaları həmin iki cəhətə əsasən müəyyənləşir.

Hər bir dilin sintaktik tipindən asılı olaraq, aktual üzvlənməni bütün dillərdəki cümlə quruluşlarına tətbiq etmək olar. Məlum olduğu kimi, cümlənin aktual üzvlənməsi məsələsi dilçiliyimiz üçün yeni deyildir. Cümlənin aktual üzvlənməsi haqqında ilk tədqiqatlar XIX əsrdə yaranan Gənc qrammatiklər məktəbinin nümayəndlərindən biri olan German Paulun, rus alimi A.Potebnya və fransız alimi A.Veylin adlarını çəkə bilərik. Bu təlimin əsasını fransız alimi A.Veyl qoymuşdur. Aparılan tədqiqatlardan məlumdur ki, aktual üzvlənmə yeni dövrdə sistemli şəkildə fransız alimi A.Veyli düşündürmüş, o, 1844-cü ildə hazırladığı "Qədim dillərdə söz sırası (müasir dillərlə müqayisədə)" adlı doktorluq dissertasiyasında bu sahədə özünə qədər meydana çıxan fikirləri ümumiləşdirmiş və bir sıra maraqlı nəticələrə gəlmişdir. A.Veyl belə hesab edirdi ki, sözün sintaktik sırası ideyaların sırasına uyğun gəmir, amma fikrin gedişi bütün dillərdə söz sırasına uyğun gəlir. Mübtəda hökmün mütləq birinci üzvü olmur. O belə hesab edirdi ki, fikirlərin gedişi dəyişərsə və əksinə qurularsa, onda söz sırası da dəyişməli və çevrilməlidir. A.Veylin bu qiymətli ideyaları sonralar görkəmli çex dilçisi V.Matezius tərəfindən inkişaf etdirildi və yeni bir dilçilik nəzəriyyəsi formalaşdırıldı. Çex dilçisi V.Matezius aktual üzvlənmə problemini linqvistik zəminə qaldırmışdır. V.Matezius aktual üzvlənmənin dil hadisəsi olduğunu sübut etməklə, cümlənin qrammatik üzvlənməsi ilə söyləmin aktual üzvlənməsinin oxşar və fərqli cəhətlərini aşkar etmiş, onların bir çox hallarda qarşı-qarşıya durduğunu izah etmişdir. Hazırda bir çox dünya dilçiləri, o cümlədən Azərbaycan alimlərinin bu sahədə sanballı tədqiqatları vardır. Lakin aktual üzvlənmə problemi sahəsində tədiqiqatlar hələ başlanğıc mərhələsində hesab oluna bilər. Bu sahədə səmərəli tədqiqatlar aparmış Ə.Abdullayev "Aktual üzvlənmə və mətn" adlı monoqrafiyasında yazır: "Aktual üzvlənmə problemi müasir dilçilik elminin çətin, mürəkkəb və az öyrənilmiş sahələrindən biridir. Suprasintaksisin ən yeni nailiyyəti hesab edilən aktual üzvlənmənin müxtəlif aspektlərdə araşdırılması dilin kommunikativlik imkanlarını, nitq və dil arasında olan sintaqmatik və paradiqmatik münasibətlərin milli orijinal təzahürünü müəyyən etmək baxımından xüsusi maraq doğurur"

Cümlənin aktual üzvlənməsi dedikdə, tərkib ünsürlərinin məlum olan və yeni məlumat verən iki hissəyə bölünməsi başa düşülür. Əgər əvvəllər aktual üzvlənmə yolu ilə eyni cümlədə müxtəlif hökmlər

ayırd edilirdisə, sonralar bu, formal-qrammatik üzvlənmə ilə yanaşı aparılaraq cümlələrin quruluşca xüsusi növlərini müəyyənləşdirməkdə mühüm rol oynamışdır. Kommunikativ sintaksis baxımından tətbiq olunan cümlənin aktual üzvlənməsi ənənəvi-formal qrammatikaya qarşı qoyulmasına baxmayaraq, onların arasındakı qarşılıqlı əlaqəni də nəzərə almaq lazımdır.

Ayrı-ayrı türk dillərində və ümumiyyətlə, türkologiyada bilavasitə funksional sintaksisə hazırlıq səpgili tədqiqatlarda cümlənin aktual üzvlənməsi məsələsinə bu və ya digər dərəcədə toxunulmuşdur. M.Z.Zəkiyevin, Q.P.Melnikovun, Ə.Cavadovun, S.A.Sokolovun, A.S.Safayevin, Z.R.Kərimovanın əsərlərində cümlənin aktual funksional, semantik üzvlənməsi ilə bağlı məsələlərə toxunulmuşdur. Azərbaycan türk dilçiliyində nə funksional sintaksis məsələləri nə də onun tərkib hissəsi olan cümlənin aktual üzvlənməsi məsələsi və bununla bağlı cümlə qatının iki səviyyəli səciyyəsi sistemli şəkildə izlənilməmişdir. Son 20-30 ildə Ə.Cavadov, K.Abdullayev, K.Vəliyev, N.Novruzova, Ə.Abdullayev və başqaları bu sahəyə diqqət yetirmişlər. Prof. Kamal Abdullayev "Azərbaycan dili sintaksisinin nəzəri problemləri" kitabında yazır: "Cümlənin aktual üzvlənməsi mümkün olan başqa üzvlənmələrindən öz funksional yönü ilə fərqlənir. Funksional sintaksisin əsas tədqiqat obyektlərindən biri olan aktual üzvlənmə prinsip etibarilə cümləyə yalnız onun quruluşundan çıxış edib, qiymət vermir, bu quruluşu sərhədlərindən kənara çıxarır".

Mətndə müəyyən məqsədlə işlədilən hər bir cümlə "məlum olan"ı bildirən və dilçilikdə "tema" adlandırılan çıxış nöqtəsinə və "yeni"ni bildirən, "rema" adlandırılan hissəyə malik olur. Tema həm danışanın, həm qəbul edənin ümumi bilik bazasıdır. Bu ümumi bilik olmasa, prinsip etibarilə informasiya ötürmək nöqteyi-nəzərindən irəli addım atmaq mümkün olmaz. Tema cümlələr arasında semantik bağlılıq yaradır, nəticədə bir cümlədə qeyri-müəyyən olan sonrakı cümlədə müəyyənləşir. Rema isə əksinə, məlumatın əsas nüvəsini və canını təşkil edir. Hər bir cümlədə verilən yeni informasiya remanı təşkil edir. Tema və remanın hər bir cümlədə formal əlamətləri söz sırası və intonasiyadır. Ədəbi dilimizin normalarına müvafiq qurulmuş sadə nəqli cümlələrdə adətən tema əvvəl, rema sonra işlənir; temada ton nisbətən yüksək olur, rema isə məntiqi vurğu ilə, nisbətən aşağı tonda tələffüz edilir. Prof.Qəzənfər Kazımov yazır: "Rema vasitəsilə tema- təbiət hadisələri, müxtəlif proseslər, şəxslər və əşyalar, ayrı-ayrı faktlar, zaman, şərait və s. Haqqında yeni məlumat veriir, müxtəlif məsələlər dəqiqləşdirilir".

Tema və rema tərkiblərinin kəskin fərqləndiyi rus dilindən fərqli olaraq Azərbaycan dilində başqa vəziyyət hökm sürür: rema bilavasitə xəbərdən əvvəldə yer tutur. Xəbər də daxil olmaqla cümlənin digər hissəsi tema olur. Rus dilində aktual məlumat cümlənin sonunda yerləşir, xəbər isə cümlənin əvvəllində gəlir

Azərbaycan dilində digər müxtəlif sistemli dillərdə olduğu kimi cümlə üzvünün aktuallaşması yazılı dildə əsasən söz sırasının hesabına həyata keçirilir. Dilimizdə kəskin, sabit, möhkəm söz sırasına malik olması aktual üzvlənmə elementlərinin təzahürü üçün çox münbit bir zəmin yaradır. Söz sırası sabit olduğu zaman aktuallaşma nəticəsində baş verən hər hansı yerdəyişmə cümlənin quruluşunda çox aydın, qabarıq şəkildə onun əsas səthindən seçilir.

Nəqli cümlələrdə adətən mübtəda "məlum olan"ı - temanı, xəbər isə "yeni"ni bildirir. Ona görə də bu cür cümlələr ədəbi dilin normal söz sırasını nümayiş etdirir. Müxtəsər nəqli cümlələrdə qayda üzrə əvvəlcə mübtəda, sonra xəbər, geniş nəqli cümlələrdə isə əvvəl mübtəda zonası, sonra xəbər zonası işlənir; məsələn:

> *Aslan ilə Züleyxa min üsrət ilə dolanırdılar. Kamil gizlindən onların yanına gəlirdi. Aslan naçar qalıb evi satdı. Qeyri şeylərindən də çox qalmamışdı. Züleyxa dolanmağın mümükün olmadığını görüb bir evdə qulluqçu dayandı. (Cəfər Cabbarlı)*
>
> *Hürkmüş ahu kimi alaçıqdan 16-17 yaşlı, ucaboylu, gözəl qamətli bir qız sıçrayıb çıxdı (Abdulla bəy Divanbəyoğlu)*

Beləliklə, məlumatı tema ilə dəqiqləşdirilmiş remanı cəminə bərabərləşdirmək mümkündür. Və bu hal istənilən dildə predikatların müəyyənləşməsində əsas çıxış nöqtəsi ola bilər.

Bir cəhəti də qeyd etməliyik ki, mübtəda tema ilə, xəbər isə rema ilə heç də həmişə üst-üstə düşmür. Azərbaycan dilində nitq situasiyasında mübtəda tamamlıq və xəbər həm tema, həm də rema funksiyasında çıxış edə bilərlər. Bu qrammatrik üzvlənmə ilə aktual üzvlənmənin müxtəlif kateqoriyalara mənsubluğundan irəli gəlir.

Prof Kamal Abdullayev Azərbaycan türk dilində bu və ya başqa cümlə komponentinin (üzvünün) aktuallaşmasına şərait yaradan, səbəb olan müxtəlif üsulları göstərir:

1. Söz sırası vasitəsilə aktuallaşma
2. Formal-qrammatik vasitələrinin köməyi ilə olan aktuallaşma:
3. Prosodik aktuallaşma

Cümlə quruluşunda özünə mövqe tutan yeni məlumat kommunikativ aktın psixologiyasına uyğun olaraq şüurlu surətdə cümlənin sonuna doğru yerləşdirilir. Belə olduqda cümlədə söz sırasının subyektiv təzahürü meydana çıxır və söz sırasının cümlədə təbii, obyektiv axan pozulur. Onu da qeyd etmək lazımdır ki, subyektivlik bu halda müəyyən mənada qanunauyğun bir səciyyə daşıyır, çünki məqsədəuyğun şəkildə seçilən və qruplaşan situasiya sisteminin simvolları olan tema-rema üzvlənməsini şərtləndirir.

QRAMMATİK ÜSULLA SÖZ YARADICILIĞI HAQQINDA

Kazımova A.N.
Bakı Slavyan Universiteti

Dil insanlar arasında əsas ünsiyyət vasitəsi olmağa başladığından bəri yeni sözlərin yaranmasına ehtiyac duyulmuşdur.Elm və texnikanın inkişafı dilə yeni sözlər gətirməyə səbəb olmuşdur.

Azərbaycan dilində sözdüzəltmə üsulları,əsasən,aşağıdakılardır:1) morfoloji üsul; 2)sintaktik üsul

Sözlərin böyük əksəriyyəti sözdüzəltmə yolu ilə xalqımızın tarixi inkişafı prosesində formalaşmış leksik material-söz və şəkilçilər əsasında yaranır.Dilimizin qədim dövrlərində uzun zaman sadə sözlərdən mürəkkəb sözlər düzəlməsi prosesi mühüm yerlərdən birini tutmuşdur.Sonralar mürəkkəb sözün tərkibində olan bir sözün şəkilçiyə çevrilməsi yolu ilə morfoloji proses meydana gəlmişdir.

Morfoloji üsulla sözlərin yaradılması müasir Azərbaycan dilində söz yaradıcılığı prinsiplərinə əsaslanır və bütövlükdə dilin leksik qatını zənginləşdirir.Morfoloji üsulla söz yaradıcılığı zamanı forma və məzmunca yeni leksik vahidlər meydana çıxır ki,bu da dilimizə məxsus sözdüzəldici şəkilçilər və bəzi alınma şəkilçilərin köməyi ilə baş verir.Tədqiqatçıların əksəriyyəti bu yolla söz yaradıcılığının daha məhsuldar olduğunu və daha çox milli dil qanunlarına əsaslandığını qeyd edirlər.Bunun əsas səbəbi isə dilimizin həm aqqlütinativ dil quruluşuna malik olması,həm də dilimizdə sözdüzəldici şəkilçilərin çox zəngin olması ilə əlaqədardır.

Müasir Azərbaycan dilində morfoloji yolla sözlərin yaranması prosesinin özünəməxsus çox zəngin,istər semantik və istərsə də şəkli xüsusiyyətləri meydana gəlmişdir.Ona görə də bu prosesi dürüst və aydın başa düşmək üçün onun ən abstrakt ünsürünü təşkil edən şəkilçilərin həm ümumi,həm ayrı-ayrı nitq hissələri üzrə və həm də xüsusən hər şəkilçinin özünə xas olan aləmini,məna və şəkil etibarilə qruplaşmalarını bilmək zəruridir.

Morfoloji yolla söz yaradıcılığı prosesində iştirak edən şəkilçilərin ümumi cəhətləri bunlardan ibarətdir: 1)leksik və ya qrammatikliyi; 2)məhsuldarlığı və qeyri-məhsuldarlığı ;3)törəmə yolları; 4)fonetik xüsusiyyətləri; 5)məna ardıcıllığı.

Müasir Azərbaycan dilində sözlərin sözdüzəldici şəkilçilərin köməyi ilə yaradılması zamanı kök söz kimi müxtəlif nitq hissələrinə mənsub sözlər çıxış edə bilər.Bu baxımdan onları adlardan düzələn və fellərdən düzələn sözlər şəklində qruplaşdırmaq olar.

Morfoloji yolla söz yaradıcılığında dilimizdə işlənən və fəal işləkliyə malik olan sözdüzəldici şəkilçilərin müxtəlifliyi və onların qoşulduğu sözlərlə birlikdə malik olduqları semantik mənalar da diqqətdən kənarda qalmamalıdır.Belə ki,dilimizdə çoxlu sayda sözdüzəldici şəkilçilər vardır ki,onların vasitəsilə yeni sözlər yaratmaq mümkündür.Məhz morfoloji üsulla söz yaradıcılığının məhsuldar olmasının bir səbəbi də dilimizin leksik şəkilçilərlə zəngin olmasıdır.

Müasir Azərbaycan dilində bəzi alınma şəkilçilər vasitəsilə də yeni sözlər yaranır. Bu cür şəkilçilərə misal olaraq aşağıdakıları göstərmək olar:**-gah** (nişangah), **-i/-vi** (sıravi),**-dar**(evdar) və s.

Söz yaradıcılığı prosesinin ikinci qolu-sintaktik yolla söz yaratma prosesi Azərbaycan ədəbi dili leksikasının inkişafında mühüm rol oynayır.Bu üsulla yaradılan sözlərə mürəkkəb sözlər və mürəkkəb lüğəvi anlayışları ifadə edən söz birləşmələri daxildir.

Mürəkkəb sözlər digər sözdüzəltmə üsulları ilə yaradılan sözlərdən onunla fərqlənir ki,burada dilimizdə əvvəlcədən mövcud olan iki və daha artıq söz bir-biri ilə əlaqəyə girərək semantik,qrammatik və fonetik cəhətdən tam formalaşmış vahid bir söz əmələ gətirir. Məsələn, **dağətəyi, yelqovan, islahedilməz** və s.

Dilimizdəki mürəkkəb sözlər semantik zənginliyinə, komponentlərin quruluşuna, əmələgəlmə qaydalarına görə olduqca rəngarəngdir. Bunlardan bir qismi söz birləşmələri əsasında

formalaşmışdır. Birinci növ ismi söz birləşməsi əsasında formalaşan mürəkkəb sözlərdə heç bir sözdüzəldici və sözdəyişdirici şəkilçinin iştirakı olmadan iki və daha artıq söz vahid bir söz kimi birləşir. Bu cür mürəkkəb sözlər,əsasən,yanaşma əlaqəsi əsasında formalaşır. Məsələn, **incəsənət, xoşsifət, beşulduz** və s.

Mürəkkəb sözlərin əmələ gəlməsi,əsasən,bizim xarici aləmlə olan əlaqəmiz və on münasibətimiz nəticəsində baş verir ki,bu da onların maddi əsasını təşkil edir.

"KİTABİ DƏDƏ QORQUDDA" ARXAİK LEKSİKA

Abbaszadə İ.M.
Sumqayıt Dövlət Universiteti

Hər şeydən öncə, folklor dilinin təməl örnəyi olan KDQ, şübhəsiz ki, həm də yazılı ədəbi dil örnəyidir. Hazırki əlyazmalarını XI yüzilliklə bağlayan tədqiqatçılar (Ş.Cəmşidov, T.Hacıyev) tamamilə haqlıdır ki, bu əlyazma da sonradan köçürülmüş variantdır. Dastanın dilində işlənmiş ərəb-fars sözləri, yazı mədəniyyəti ilə bağlı qəlib-klişelər, yazı üslubu ünsürləri bu abidəni həm də yazılı mədəniyyətin predmeti kimi zəruriləşdirir.

Leksikada təcəssümünü tapan arxetip layla, qədim türk etnik-psixoloji, mif-dastan layı üzvi şəkildə birləşdiyi üçün KDQ-nin lüğət tərkibi türk leksikologiyası tarixi üçün xüsusi əhəmiyyət daşıyır.

Son araşdırmalara görə, 3000-ə qədər (təxminən 2721) sözü əhatə edən KDQ leksikası Oğuz tarixini, dünyagörüşünü, düşüncəsini, həyat tərzini əhatə edir. KDQ dilində işlənən frazeoloji birləşmələr leksikanın tərkib hissəsi kimi ayrıca əhəmiyyət daşıyır.

KDQ-nin leksik mənzərəsi belə ümumiləşdirilə bilər:

1. Ümumişlək sözlər.
2. Terminoloji leksika.
3. Nomenklatur leksika.

Ümumişlək sözlər Oğuz türkcəsinin, xüsusilə Azərbaycan türkcəsinin əsas lüğət fondu ilə uyğun gəlir. Arxaik leksika ağız və şivələrdə bu gün də yaşamaqdadır. Əksəriyyəti təşkil edən ümumişlək sözlər valentliyi, məcazyaratma imkanlarının genişliyi ilə seçilir. Bu tipli sözlər məna genişlənməsi-daralmasını, birləşmə imkanları və s. semasioloji proseslərin öyrənilməsi üçün çox əhəmiyyətlidir.

Terminoloji leksika müxtəlif sahələri əhatə etsə də əsasən üç qrupu əhatə edir: a) təsərrüfat-iqtisadiyyat; b) hərbi- dövlətçilik anlayışları; c) dini leksika.

Nomenklatur leksika KDQ lüğətinin xüsusi tərkib hissəsidir. Burada onomastik vahidlər, xüsusilə toponimlər, antroponimlər, etnonimlər, eləcə də oronimlər, teonimlər, mifonimlər nəzərdə tutulur. Etnokulturologiya, tarixi coğrafiya və ümumən tarix üçün xüsusi əhəmiyyət kəsb edən xüsusi leksika sahəsinin statistik hesablamalara söykənən faktları, eləcə də müqayisəli təhlil nümunələri çox əhəmiyyətlidir. Özəlliklə KDQ-nın bədii-poetik əsər olmaqla yanaşı tarixi salnamə əhəmiyyəti daşımasının bir təsdiqi də yer, tayfa, insan adlarıdır. Bu adlar dastanın reallıq müstəvisidir. Dərbənd, Əlincə, Bərdə, Dərəşam, Gəncə, Bayburt, Düzmürd, Göycə, Qazılıq, İstanbul, Ağ qaya, Qaradağ... kimi yer adları, Bayat, Qayı, Oğuz, Qıpçaq, Üç Ok, Boz Ok, Türkmən... kimi tayfa-xalq adlarının, Qamğan (Qam xan), Bamsı Beyrək, Qorqud, Əgrək, Duxa qoca, Qutlu Mələk, Qıyan Səlcuq... kimi insan adlarının müxtəlif səpkili təhlili etnogenezis problemlərinin həlli üçün də əhəmiyyətlidir.

Şübhəsiz ki, dastanın arxaik mətnində ərəb-fars sözlərinin olmaması təbiidir. Ancaq dastan yazıya alınana qədər islam mədəniyyətinin təsirinə məruz qalmışdır. Bu sözlərin əlavəsi, mətnə daxil olması türk-islam mədəniyyətinin oluşması prosesinin inikasıdır. Söhbət arximətndən deyil, mövcud mətndən gedir. Hər hansı söz abidəsinin öz mövcudluq səviyyəsində öyrənilməsi zəruridir. Qorqudşünasların hesablamalarına görə işlənmə faizi 85 olan türk sözləri və işlənmə faizi 15 olan ərəb-fars sözləri KDQ mətninin mənşə baxımından leksikasının mexanizmini anlamaq üçün önəmlidir.

Qorqudşünaslıqda KDQ leksikasında erməni sözləri məsələsi də var. Bu baxımdan R.A.Baqramyanın "KDQ dastanlarının dilində erməni sözləri" adlı məqaləsinin məğzi ondan ibarətdir ki, qonşu Azərbaycan xalqının abidəsinə ortaq həyat tərzinə malik erməni xalqının çoxlu sözləri keçmişdir. Müəllif dastanın məhz Qafqaz arealına, azərbaycanlılara aid olmasını erməni sözlərinin varlığında görür.

KDQ leksikası türk dillərinin qədim kəsiyinin çox maraqlı bir səviyyəsi kimi, türk dilçilik paleontologiyasını öyrənməkdə ən mühüm qaynaqlardan biridir. Türk dillərində ləhcə və ağızlarında bu

gün də yaşayan KDQ leksikası türk dillərinin etimoloji lüğəti üçün də zəngin mənbədir.

MÜASİR İNGİLİS DİLİNDƏ ARTİKL VƏ ONUN TƏDRİSİNƏ DAİR

Oktay Saniye Seyfettin
Baki Slavyan Universiteti

Məlum olduğu kimi ingilis və Azərbaycan dilləri istər qrammatik quruluşuna, istərsə də mənsub olduğu dil ailəsi baxımından bir-birindən əsaslı surətdə fərqlənir. Qrammatik quruluşuna görə inglis dili analitik, Azərbaycan dili isə sintetik xüsusiyətlərə malikdir. Məhz buna görə də hər iki dildə bir sıra qrammatik qaydalar müxtəlif vasitələrlə ifadə olunur.

Hər iki dil arasında mövcud olan əsas bəzi məsələlərə nəzər salaq. İlk növbədə qeyd etmək istərdik ki, ingilis və Azərbaycan dillərinə xas söz sırası fərqlidir. İngilis dili fərqli cümlələrinə xas olan söz sırası belədir: Mübtəda + Xəbər + Tamamlıq. Azərbaycan dilində isə Mübtəda + Tamamlıq + Xəbər. Hər iki dil arasında müşahidə edilən bu fərq istər nəzəri, istərsə də dili öyrənmək baxımından çox çətinliklər törədir.

İngilis dilinin tədrisində çətinlik törədən məsələlərdən biri də ondan ibarəttdir ki, ingilis dilində mövcud olan bəzi nitq hissələri Azərbaycan dilində mövcud deyil. Həmin nitq hissələrinin ikisini xüsusilə göstərməq lazımdır: Artikl və sözönü. Dil öyrənənlər üçün onlar çətinlik törədir. Bizi öz tədqiqatımızda artiklın mahiyyəti və onun öyrənilməsində qarşıya çıxan çətinliklərin müəyyənləşdirilməsi maraqlandırır.

Mövcud ədəbiyyatın təhlili, eləcə də müşahidələr göstərir ki, xarici dil tədrisinin həllədici məsələlərdən biridə xarici dilin tədrisində anadili ilə xarici dilin müqayiseli kəçilməsi məsələsidir. Ona görə müasır ingilis dilinə xas olan artiklın linqvistik mahiyyətini açıqlamaq, sonra isə imkan daxilində onun Azərbaycan dilində qarşılığını müəyyənləşdirmək lazımdır.

İngilis dilində artikl köməkçi nitq hissələrindən biridir. Artikl bir qayda olaraq lazım olduqda ismin qarşısında işlənir. Əgər isimdən əvvəl sifət gələrsə, onda artikl sifəttən əvvəl gəlir. Məhz bunun nəticəsidir ki, tədrisin ilkin mərhələsində şagirdlər, eləcə də ingilis dilini təzə öyrənməyə başlayanlar səhv olaraq təz-təz ayrıca sifətində qarşınsında artikl işlədilir. İngiliz dilində iki artikl var: 1- Qeyri-müəyyən artikl; 2-Müəyyənlik artikl;

Tədris prosesində artiklla bağlı qarşıya çıxan çətinlikləri sadalamaqla qurtarmaq olmaz. Artiklın ümumiyyətlə işləmməsinə dair bütün qaydaları vermək imkan xaricindədir. Belə ki bu mövzu öz həcmi və mahiyyəti baxımından olduqca çətin və mürəkkəb bir mövzudur. Tədrisin ilkin mərhələsində qısaca olarak aşağıdaki məlumatı vermək lazımdır.

Qeyri-müəyyənlik artiklı one sözündən törəmişdir. Ona görə də bu artikl əsasən sayılabilən isimlərin qarşısında işlənir. Onun iki forması var: a, an

a book, a dog

an intərəsting book, a rəd applə.

Müəyyənlik artikl that işarə əvəzliğindən törəmişdir. Ona görə də müəyyənlik artiklı əsasən müəyyənləşdirmə, göstərmə xüsusiyətinə malikdir. İndi hər bir artiklın işləmməsinə dair bəzi nümunələrə nəzər salaq.

Qeyri-müəyyənlik artiklı əsasən aşağıdaki hallarda işlənir.

1-Təkdə olan isim prədikativ funksiyasında işlənir.

Hə is a doctor, o həkimdir

Yadda saxlamaq lazımdır ki belə vəziyyəttə artiklı Azərbaycan dilinə tərcümə edilmir.

2-Qeyri müəyyənlik artiklı öz ilkin mənasını saxlayır.

Wait a wəək. Bir hafta gözlə

3-Qeyri müəyyənlik artiklı haqqında ilk dəfə məlumat vərilən ismin qarşısında işlənir.

I saw a boy. Thə boy camə up to mə.mən bir oğlan gördüm bu oğlan mənə yaxınlaşdı.

Müəyyənlik artiklı məlum olan isimlərin qarşısında işlənir.

Müəyyənlik aşağıdaki hallarda başverir.

1-İsim konteks vəsitəsi ilə müəyyənləşir

I havə a dog, thə dog is black. Mənim bir itim var, bu it qaradır.

2-Müəyyənlik mətnin ümumi məzmunundan irəli gəlir.

Wə wənt to təh cinəma. Thə film was intərəsting. Biz kinoya gəttik, flim maraqlı idi.

3-Müəyyənlik konkrət situasiyadan irəli gəlir.

Thə door is opən. Qapı (Otağın qapısı) açıqdır.

Şübhəsiz, bir tezis səviyyəsində çox mürəkkəb bir xüsusiyyətlə malik olan artikıl haqqında verilən məlumat məsələnin mahiyyətini açа bilməz, beləlikdə biz qısa məsələlərin linqvistik və metodiki baxımdan aydınlaşdırılmasına cəhd edəcəyiq.

FRANSIZ DİLİNİN TƏDRİSİNDƏ ORİJİNAL MƏNBƏ OLAN BƏDİİ ƏSƏRLƏRİN METODİKİ VASİTƏLƏR KİMİ İSTİFADƏSİ

Abdullazadə L.Ə.
Bakı Slavyan Univeristeti

Orijinal mənbələr yazılı, səsli və audiovizual sənədlərdir .

Xarici dil dərslərində orijinal mənbələr kimi xəritə, telefon kitabcası, təqvim, jurnal, qəzet, telegram, çek, pasport, elanlar, mətbəx resepti, cizgi film, ailə şəkli, mahnılar, sənədli film, ədəbi tənqid, bədii əsərlər, video klipler, televiziya verlişləri, kitablar və s. istifadə oluna bilər.

Orijinal mənbə real həyata və aktual hadisələrə yönəlmiş olduğu üçün bu materialların xarici dil sinfində işlənməsi olduqca vacibdir. Orijinal mənbə dil öyrənənlərin daha aktiv daha yaradıcı olması üçün bir təhsil motivasiyasıdır.

Xarici dil dərslərində orijinal mənbələrin rolu:

1. Dil öyrənmə üçün dərs kitablarının az olması orijinal mənbələrin istifadəsini vacib edir.
2. Real orijinal mənbə ilə dərsi tamamlamaq dəsrin məqsədini ,keyfiyyətini daha da artırır.
3. Orijinal mənbələr xarici dil öyrənənləri daha da motivasiya edir.
4. Dərs sadəcə müəllimin fransızca ənənəvi dərslikləri ilə məhdudlaşmamaılıdır.
5. Orijinal mənbələr öyrənilən xarici dilin təmsil etdiyi xalqın mədəniyyətini, adət- ənənələirini, məişəti haqqında real biliklər verən ən gözəl və dəqiq bir vasitədir.

Yazılı orijinal mənbələri biz qəzət məqaləsində, jurnalarda, elanlarda, reklamlarda, bədii əsərlərdə tapa bilərik.

Səsli orijinal mənbələrə bunlar aiddir: mahnı, radiyoya qulaq asmaq və arzu olunan programları yadda saxlamaq üçün kaset və CD istifadə etmək və s.

Audivizual orijinal mənbələrə film (“Amelie”) cizgi filmlər (“Asterix”), reklam, sənədli film, musiqi klipi, birbaşa sosial və mədəni realığı əks etdirən TV izləmək və bu proqramları yazmaq üçün CD-ROM, DVD-ROM istifadə etmək.

Mətbuat üçün yazılı orijinal mənbələrə aid qəzetlər “ Revue2presse” , “Courrier İnternational”, gündəlik qəzetlər “Le Figaro”, “ Le Monde” ,“Liberation” və s.

Radio üçün orijinal mənbələr : “France Culture“, ARTE radio və s.

Televiziya üçün nümunələr: “Tv 5 Monde”, “La TéLè Libre” Fransa 3 xəbərləri və müxtəlif frankofon verlişlerini göstərmək olar.

Eləcə də, “YouTube” və ya” Dailymotion” vasitəsi ilə videoları, qısa filmləri, mahnıları asanlıqla əldə edə bilərik .

Orijinal mənbələr fransız dilinin tədrisi kursunda əsas aparıcı rol oynayır. Orijinal məlumatlar xarici dilin öyrənilməsində zəngin sonsuz bir mənbə rolunu oynayır. Sinifdə interaktiv ünsiyyəti inkişaf etdirmək üçün bir çox imkanlar təklif edir. Bundan başqa, bu məlumatların asand tapılması ilə yanaşı həmçinin xarici dil öyrənənlərdə diqqət çəkən bir həvəs yaratmasıdır. Həyat boyu xarici dilin öyrənilməsi üçün motivasiya əsasdır. Orijinal materiallar hədəf dildə şagirdləri ünsiyyətə təşviq edir və kommunikativ səriştəni artırır. Ədəbi əsərlərin orijinal mənbə kimi istifadəsinə nümunə olaraq Antuan de Sent-Ekzüperi “Balaca şəhzadə” əsərini misal cəkmək olar. Antuan de Sent-Ekzüperi- fransız yazıçısı və təyyarəçisi "Balaca şahzadə" və "İnsanlar planeti" əsərləri ilə dünya şöhrəti qazanmışdır.

Balaca şahzadə bir gün dost axtarmaq qərarına gəlir. Bunun üçün o səfər gedir və bir neçə planetləri ziyarət edir.Bu planetlərdə bir çox personajlar ilə tanış olur. Bir gün o bir təyyarəçi ilə taniş olur və iki personajın dostluğu başlayır. Balaca Şəhzadə orta məktəblərdə fransız dilinin

tədrisi üçün istifadə oluna biləcək ən uğurlu bədii əsərlərdən biridir.Bu bədii əsərdə işlənən sözlər (lüğət tərkibi) olduqca asandır. Əsər üzərində iş şagirdlərə yeni informasiyalar, naməlum sözlərin öyrənilməsində kömək edir. Qruplarla iş hər zaman məsləhət olunur.

Mətnin əsas elementlərinə sual qoymaq: kim? nə vaxt? harda nə üçün ? kimə ?

Əsərin əsas ideyasını tapmaq ,sözlərin düzgün başa düşülməsini yoxlamaq, eyni şəxsləri istinad edən ifadələrin(isim və əvəzliyin) altindan xətt çəkmək,bir personajı təsvir etmək üçün müxtəlif yollardan istifadə etmək, şərt, məqsəd, səbəb ...budaq cümlələrini tapmaq, hərəkət feillərini, təsviri elementləri seçmək,bir paragrafı seçmək və ayrı-ayrı parçalara bölərək yenidən sırayla düzmək,əsərin personajlarına uyğun səhnəciklər hazırlamaq, konkret misallarla əsərə öz fikrini bildirmək, öz ölkərindəki əsərlərə oxşarlıq və fərqliliyini müzakirə etmək.

СТАТУС И МЕСТО УСТОЙЧИВЫХ ГЛАГОЛЬНЫХ СЛОВОСОЧЕТАНИЙ В ЛЕКСИКО-ФРАЗЕОЛОГИЧЕСКОЙ СИСТЕМЕ РУССКОГО ЯЗЫКА

Зейналова Л.А.
Бакинский славянский университет

Для выявления научных основ обучения устойчивым глагольным словосочетаниям (УГС) русского языка необходимо определение той лингвистической теории, которая наиболее способна обеспечить решение поставленных задач. С этой целью необходимо определить статус и место устойчивых словосочетаний в лексико-фразеологической системе русского языка, рассмотреть сходства и различия между устойчивым словосочетанием и словом, между УГС и свободным словосочетанием.

Анализ лингвистической литературы по фразеологии показал, что все многообразие фразеологических концепций может быть условно сведено к широкому и узкому пониманию фразеологии, в основе которых лежит различное понимание фразеологизма. С точки зрения узкого понимания фразеологии устойчивые словосочетания выводятся за пределы фразеологии. Согласно широкому пониманию, фразеологический оборот - это воспроизводимая единица языка из двух или более компонентов словного характера, целостная по своему значению и устойчивая в своем составе и структуре. Такое широкое понимание предполагает рассмотрение в составе фразеологии устойчивых глагольных словосочетаний.

В связи с отбором минимума УГС возникает необходимость рассмотрения основных признаков ФЕ, их отличий от слов и переменных словосочетаний.

Как показывает анализ лингвистической литературы, к основным категориальным признакам ФЕ относятся воспроизводимость, целостность значения, устойчивость в составе и структуре, сверхсловность, второстепенными же являются такие признаки, как метофоричность, проницаемость и синонимическая заменимость лексемой.

Изучение лингвистической литературы показало, что фразеологические обороты русского языка делятся на следующие группы: а) фразеологические сращения - семантически неделимые фразеологические обороты, в которых целостное значение совершенно несоотносительно с отдельными значениями составляющих их слов; их значение так же немотивированно и совершенно условно, как и семантика слов с непроизводной основой; б) фразеологические единства - такие же неделимые и целостные, однако в отличие от фразеологических сращений, их целостная семантика является уже мотивированной отдельными значениями составляющих их слов; в) фразеологические сочетания, которые содержат слова как со свободным, так и со связанным употреблением; г) фразеологические выражения - это устойчивые в своем составе и употреблении фразеологические обороты, которые не только являются семантически неделимыми, но и состоят целиком из слов со свободными значениями; от фразеологических сочетаний они отличаются тем, что в них нет слов с фразеологически связанным значением.

Проведенное исследование позволяет определить следующее:

- УГС характеризуются общими для всех фразеологических оборотов свойствами: воспроизводимостью, устойчивостью, семантической целостностью; в связи с этим, данные единицы языка должны быть рассмотрены в составе фразеологии;
- Обладая рядом общих признаков, УГС в то же время отличаются от фразеологических сращений и единств тем, что имеют аналитическое значение: в УГС отчетливо

осознается компонент со свободным значением, тогда как во фразеологических единствах и сращениях говорящий отвлекается от значения его составляющих;

- УГС отличаются от свободных словосочетаний тем, что в своем составе имеют слова с фразеологически связанным значением, а также в УГС замена компонента в отличие от широкой замены компонентов в свободном словосочетании строго регламентирована.

Выявленные особенности УГС должны быть учтены при формировании у учащихся-азербайджанцев навыков пользования ими в речи в процессе обучения русскому языку как иностранному.

"ORTA MƏKTƏBLƏRDƏ İNGİLİS DİLİNDƏ ŞİFAHİ NİTQ VƏRDİŞLƏRİNİN İNKİŞAF ETDİRİLMƏSİ YOLLARI"

Rzazadə A.D.
Bakı Slavyan Universiteti

Çox çətin, mürəkkəb və gərgin dövr hesab edilən indiki şəraitdə tədris olunan xarici dilin, xüsusən də ingilis dilinin bütün incəliklərinə qədər öyrənilməsi zərurəti meydana çıxmışdır. Belə ki, ingilis dili dünya beynəlxalq dili kimi status almış və bu dilin öyrənilməsi müstəqillik qazanmış respublikamızda da geniş yayılmağa başlamışdır. Xarici dilin öyrədilməsində əsas məqsəd xalqların bir-birinə dostluq əlaqələrini möhkəmlətmək, dili öyrənilən xalqın tarixini, inqilabi keçmişini, elm və texnikasını, incəsənətini, yaşayış tərzini, adət və ənənələrini öyrətməkdir.

Xarici dilin tədrisi zamanı ilk növbədə istər yazılı olsun, istərsə də şifahi nitq zamanı nitqin düzgünlüyünə riayət etmək lazımdır. Nitqin düzgün olması üçün aşağıdakı normalara riayət etmək lazımdır:

1. Fonetik normalar. Səslərin düzgün işlıdilməsi, sözlərdə vurğuya riayət olunması, intonasiya. Orfoqrafik və orfoepik normalar.
2. Leksik normalar. Fikrin ifadəsi üçün düzgün leksik vahidlərin-sözlərin seçilib işlədilməsi. Kobud söz və ifadələrə yol verilməməsi.
3. Onomastik normalar. Onomastika sahəsində adlandırma prosesində süniliyə yol verilməməsi. Qondarma, qeyri-estetik vahidlərin işlənmə məqamları.
4. Semantik normalar. Sözlərin həqiqi və məcazi mənalarda işlənməsi. Mənanın daralması və genişlənməsi.
5. Qrammatik normalar. 1.Morfoloji normalar: Əsas, köməkçi və xüsusi nitq hissələri. Leksik və qrammatik şəkilçilər.2. Sintaktik normalar: Cümlə üzvləri. Söz birləşmələri, cümlə, söz sırası və s. ilə əlaqədar qaydalar.
6. Üslubi normalar. Müxtəlif üslublarda dil vahidlərindən istifadə. Yersiz təkrarların, dolaşıq fikirlərin və s. işlədilməsi.

İngilis dilinin tədrisi zamanı əsas məqsədlərdən biri də tələbələrdə şifahi nitq vərdişlərinin formalaşdırılması və inkişaf etdirilməsidir. Ona görə ki, xarici dilin öyrədilməsi və təqdim olunması zamanı kommunikativ vərdişlər ən zəruri faktorlardandır. Şifahi nitq ünsiyyətdə daha çox işlənir, buna görə də xarici dili öyrədərkən şagirdlərin şifahi nitqinin inkişafına daha çox diqqət yetirmək lazımdır. Şifahi nitqi dilin strukturu ilə birlikdə aşılamaq lazımdır ki, şagirdlərin lüğət fondu zənginləşdikcə onların cümlə qurmaq imkanları da artsın və təkminləşsin.

Orta məktəblərdə şifahi nitqin 2 forması mövcuddur:

1.Qulaq asma (Reading)
2. Danışma (Speaking)

Şagirdlərin müəllimlərə, başqa tələbələrə və hətta şifahi variantda olan mətnlərə dinləməyə ehtiyacı var. Bu zaman şagird mətnin mənasıını və sözlərin səslənməsini anlamağa çalışır ki, bu da tələbədə şifahi nitq vərdişləri yaradır.

Şagirdlərdə şifahi nitq vərdişləri əsasən praktiki çalışmalar əsasında inkişaf etdirilir. Bu zaman tələbələrin lüğət ehtiyatını zənginləşdirmək, ünsiyyət bacarıqlarını formalaşdırmaq, ən zəruri qrammatik anlayışları və dil konstruksiyalarını mənimsətmək, şifahi nitqini inkişaf etdirmək, yazı texnikası və yazılı nitq, dinləyib-anlama vərdişlərini inkişaf etdirmək üçün müxtəlif üsul və vasitələrdən istifadə etmək olar. Orta məktəblərdə əsasən aşağıdakı praktik çalışmalar keçirmək mümkündür:

1. Müzakirələr (Debates) – Müzakirələrdə şagirdlər öz fikirlərini müdafiə edərkən mütəqil

düşünməyə başlayır ki, bu da onların təfəkkürünü inkişaf etdirir. Bu zaman onlar fikirləşir, öz fikirlərini izah etmək üçün sözlər tapmağa çalışırlar. Bu da şagirdlərin lüğət ehtiyatını və söz yaradıcılığını inkişaf etdirir.

2. Nitqlər (Speeches) – Şagirdlərə mütəqil nitq söyləmək vərdişini aşılamaq üçün müəllim tərəfindən şərait yaradılmalıdır. Nitq söyləyən tələbə mövzusu ilə bağlı əvvəlcədən hazırlıq görməli və hazır olduqdan sonra sinif qarşısında natiq kimi çıxış etməlidir. Nitqin müddəti qısa olmalıdır və 5-7 dəq davam edə bilər.
3. Müsahibə (İnterview) – Bu zaman müəllimə şagirdlər arasında bölgü aparmalıdır. Müsahibəni şagirdlər öz aralarında və yaxud başqa şəxslər arasında apara bilərlər. Müsahibə apararkən həm müsahibə verən şagird, həm də müsahibə alan şagird öz fikrini çatdırmaq üçün yeni sözlər tapmağa və onlardan istifadə etməyə çalışır. Bu zaman da onda nitq vərdişləri yaranmağa başlayır.
4. Oyunlar (Role play) – Dərs zamanı müxtəlif didaktik oyunlardan istifadə etmək şagirdlərin həm zehnini möhkəmləndirir, həm də lüğət ehtiyatından istifadə zərurəti yaradır. Bu oyunlar qısa və uzun müddətli olmaqla dərs müddətində və qrup formasında aparıla bilər. Oyunların təşkili zamanı müəllim yaxından iştirak etməli və onlara oyun zamanı nəzarət etməlidir.
5. Sinifdə dialoqlar və mətnlərin oxunması (Reading dialogue and texts in class) – Təlim prosesində müxtəlif mətn və dialoqların oxunması da şifahi nitqin inkişafında müəyyən rol oynayır. Belə ki, mətn və ya dialoq oxunarkən mətni oxuyan şagird, eyni zamanda dinləyən şagirdlər yeni sözlərlə tanış olur və dinləyən şagirdlər arasında dinləmə vərdişləri yaranır. Sinifdə həm də hazır yazılmış audio, video materiallarında da istifadə edilə bilər ki, bu da həmçinin şagirdlərin şifahi nitqin bir hissəsi olan dinləmə vərdişlərinin yaranmasına kömək edə bilər.
6. Təqdimatlar (Presentations) – Müasir təlimdə ən çox istifadə edilən dərs üsullarından biri də təqdimatların hazırlanması və təqdim edilməsidir. Bu vəsaitlər həm müəllimlər tərəfindən, həm də şagirdlər tərəfindən hazırlana bilər. Şagird təqdimata hazırlayarkən ona əvvəlcədən hazırlıq görməli və sinifdə təqdim edərkən bütün nitq vərdişlərindən istifadə etməlidi.

Yuxarıda sadaladığımız praktik çalışmaların hər biri şagirdlərin şifahi nitq vərdişlərinin yaranmasında mühüm rol oynayır. Ancaq onu da nəzərə almaq lazımdır ki, bu çalışmaları şagirdlər arasında tətbiq etməkdən da vacib müəllimin bu vərdişlərin yaranmasındakı əsas roludur. İlk əvvəl müəllim şagirdlərdə oxuma vərdişlərini, danışma vərdişlərini yaratmalıdır. Bizə məlumdur ki, ingilis dili ana dilimizdən fərqləndiyi üçün bizim qarşımıza həmin dili öyrənərkən müəyyən çətinliklər çıxır. Bütün bunları nəzərə alaraq müəllim dərs prosesində bütün səslərin tələffüzünə və öyrədilməsinə ehtiyatla yanaşmalı və şifahi nitq vərdişləriin incəliklərini şagirdlərlə tanış etməlidir. Misal üçün ingilis dili əlifbasında yer alan "y" hərfinin özünü götürsək, aydın görə bilərik ki, işləndiyi vəziyyətindən asılı olaraq müxtəlix formalarda səslənir. Nümunə üçün: sözün əvvəlində "y" səsi kimi (yard), sözun sonunda "i" səsi kimi (city) və s. Təbii ki bütün bunlar ilk növbədə müəllim tərəfindən öyrədilməli və daha sonda təlim prosesindı qazanılmış biliklər şagird tərəfindən vərdişə çevrilməlidir.

İSMİ BİRLƏŞMƏLƏRDƏ İSMİN ASILI TƏRƏF KİMİ İŞLƏNMƏSİ VƏ ONUN XÜSUSİYYƏTLƏRİ

İmanova V.M.
Bakı Slavyan Universiteti

Söz birləşməsi anlayışı müxtəlif zamanlarda, müxtəlif şəkildə şərh olunmuşdur. O. Jespersona görə, söz birləşməsi iki və daha artıq sözün birlikdə işlənərək, mənalı ifadə yaratmasıdır. Eynilə, Kruisinga " sintaktik qrupları" cümlənin bir hissəsi kimi göstərir. Həlidey söz birləşməsi termini əvəzinə, qrup sözünü işlədir və qeyd edir ki, qrup müəyyən məntiqi əlaqə üzərində qurulan sözlərin birləşməsidir. O, bu birləşmələri həm də nominal qruplar adlandırırdı.

İsmi birləşmələrdə isə əsas tərəf isim olub, onu təyin edən, xüsusiləşdirən asılı tərəf əlavə olunur. Bu asılı tərəf bir sözdən ibarət sadə, bir neçə sözdən ibarət mürəkkəb söz də ola bilər. Məsələn: lovely rabbit və lovely hairy white rabbit standing at the door. Göründüyü kimi, asılı tərəf isimdən əvvəl və sonra da gələ bilər. Bu tərəflər sifətlə,isimlə, feli sifətlə ifadə oluna bilər. İsmin özü asılı tərəf kimi işləndikdə, sifətin bəzi xüsusiyyətlərini götürür. Biber və Clarkın fikrincə, ismin asılı tərəf kimi işlənməsi son dövrlərdə geniş miqyas almışdır və o, bunun səbəblərini araşdırır. İsim özü həm əsas,həm də asılı

tərəf kimi çıxış edə bilir.Asılı tərəf kimi işləndikdə, ismi təyin edib onu xüsusiləşdirir. Məs: a market price, a black ruber hanger. Bəzi hallarda isə isim sözönülü birləşmə ilə ifadə olunur (İnstitute of Development Studies). Asılı tərəf kimi isim 2 növdə olur: complement və adjunct. Complement dilimizə tamamlıq kimi tərcümə olunur, adjunct isə təsviredici söz olaraq işlənir və daha çox sifət ilə ifadə olunur.. Tamamlıq ilə ismin birləşməsindən söz açarkən, onların sintaktik birləşmənin tərkib hissəsini olduğunu , yoxsa 2 sözün yanaşı işlənməsindən yaranan morfoloji birləşmə olduğunu ayırd etmək bir qədər çətindir. Həmçinin birləşmələrdə tamamlıq ilə isim arasındakı bağlılıq sifətlə isimin birləşməsindən daha möhkəmdir. Pane və Huddleson bu iki növ arasında kəskin sərhəd yaradır. Digər klassifikasiyaya görə, asılı tərəf məhdud və qeyri-məhdud növlərə bölünür. İsmin asılı tərəf kimi işlənməsi məhdud növə aid olunur. Bu halda, asılı tərəf əsas tərəflə birləşib onun xüsusi növünü yaradır. Sifət isə qeyri-məhdud növə aid olub, ismi əlavə məlumatla təmin təmin edir.

Təsviredici söz (adjunct) isimdən həm əvvəl, həm də sonra işlənə bilər. İsimdən sonra işləndikdə, onunla əlaqə növünə görə sözönü ilə, bəzən də sözönü olmadan işlənir. Məsələn: a book to read

İsim+isim birləşmələrində premodifikasiya xüsusi yer tutur. Bu yol ilə nitq daha lakonik və ifadəli olur. Məsələn: silver box (gümüş qutu) – box made of silver (gümüşdən düzəldilmiş qutu)

İsim asılı tərəf kimi işlənərkən qazandığı xüsusiyyətlərdən biri də fleksiyaya uğrama qabiliyyətini itirməsi olur, belə ki, məhdud funksiyalarda işləndiyinə görə, o, çox vaxt cəmdə işlənə bilmir. Məsələn: book seller (not books seller). Hətta həmişə cəmdə işlənən isim də asılı tərəf kimi təkdə işlənə bilir (trouser press).Təkdə işlənmənin səbəblərindən biri çoxmənalılığın yaranmasının qarşısını almaq üçündür. Əgər cəm formada işlənərsə, bu daha çox kökdən,yəni qaydasız formada cəm forması düzələn isimlərə daha çox istinad olunur. Məsələn: teeth diseases. Bu növ birləşmələrə daha az təsadüf olunur. Daha bir xüsusiyyət isə, vurğudur, yəni vurğu sintaktik birləşməni mürəkkəb sözdən fərqləndirir. Məsələn: girl friend – girlfriend. Birinci misalda hər sözün öz vurğusu var, ikinci misalda isə vurğu birinci sözün üzərindədir. Ümumiyyətlə, müxtəlif alimlər bu birləşmələrdə vurğunun yeri barədə fərqli fikirlər irəli sürur. Plag qeyd edir ki, vurğunun yerini dəyişməsi struktur-semantik və analoji xüsusiyyətlərdən asılıdır. O, bildirir ki, tamamlıq və isimdən ibarət olan birləşmələrdə vurğu birinci tərəfin üzərinə, sifət və isimdən ibarət birləşmələrdə isə çox vaxt ikinci tərəfin üzərinə düşür. O, Gierberichdən fərqli olaraq sifət+isim birləşmələrində vurğunun heç də həmişə ikinci tərəfdə olması fikri ilə razılaşmır. Məsələn: `chocolate cake. Analoji xüsusiyyətlər də vurğunun sabit qalmasına kömək edir. `Main street, `Oxford street. Bütün yuxarıda sadalanan semantik,analoji xüsusiyyətlər vurğunu müəyyən etməkdə rol oynayır. Eyni sözün təkrarı ilə düzələn birləşmələrdə vurğu həmin mövqedə olur.(iron ware – silver ware). Əgər əsas tərəf feldən düzələn isimdirsə, bu zaman vuğu ikinci sözün üzərinə düşür. Quirkin fikrincə, iki isimdən ibarət olan birləşmələrdə asılı tərəf kimi işlənən ismi məna cəhətdən müxtəlif qruplara bölmək olar: material, məkan, zaman və məqsəd. Məsələn: She carried a leather bag – dəri çanta (material). Bu kateqoriyaya aid olan bəzi isimlər həm də şəkilçi artırmaqla sifət kimi işlənir: wool garment- woolen yarn.

Beləliklə, ismi birləşmələrin əsas xüsusiyyətlərini sadalasaq, onlara aşağıdakı xüsusiyyətləri aid edə bilərik: cəmlənə bilmə, məsələn: these books (plurality), müəyyənlik, məsələn: the streets of Baku (definitness,), sayıla bilmə, məsələn: four tables (countability) və s.

LEKSIKANIN TƏDRİSİNDƏ ÜSLUBİYYAT MƏSƏLƏLƏRİ

Hacızadə T.T.
Bakı Slavyan Universiteti

Orta məktəblərdə üslubiyyatın tədrisi mühüm və aktual məsələdir.Üslub dilin fonetik, leksik və qrammatik imkanlarının konkret istifadə olunması sistemidir. Ümummilli dil vahidlərinin məqsədəuyğun işlədilməsini, priyomlarını, dilin funksionallaşmasının qanunauyğunluğunu öyrənən sahə dilçilikdə üslubiyyat adlanır. Üslubiyyata dilçilikdə müxtəlif istiqamətlərdən yanaşmalar olmuşdur. Qədim antik dövr dilçiliyində üslubiyyat natiqlik sənəti və ritorikanın əsas hissəsi sayılmışdır.

Üslubiyyat üslublar haqqında elmdir.Funksional üslublara bədii, elmi, publisistik, məişət, rəsmi üslubları daxildir. Orta məktəb kursunun müxtəlif bölmələrdə üslubiyyatın tədrisiimkanları genişdir. Bu baxımdan leksikanın öyrədilməsi prosesi mühüm rol oynayır.

Orta məktəbdə tədris olunan Azərbaycan dili dərslərinin əsas məqsədi şagirdlərdə rabitəli nitq bacarıq və vərdişlərinin, fikrini sərbəst ifadə etmə qabiliyyətinin, müstəqil düşünmə, ünsiyyət qurma

bacarıqlarının, dilimizin lüğət tərkibini təşkil edən sözlərdən düzgün istifadə etmə bacarıqlarının formalaşdırılmasıdır. Orta məktəblərdə tədris olunan leksika bölməsi də məhz bunlara bilavasitə xidmət edir. Leksikanın tədrisi zamanı şagirdlər dilimizin lüğət tərkibinin zənginliyi ilə yaxından tanış olur, sözlərin leksik mənaları, işlənmə yeri, məcazi və həqiqi mənalı sözlər, frazeoloji birləşmələr, sinonim, omonim, antonim, çoxmənalı sözlər anlayışları ilə tanış olurlar. Əslində üslubiyyat üzrə aparılan işlər təcrid olunmuş formada deyil, lüğət üzrə, ədəbi tələffüz, cümlə qurmaq və rabitəli nitq vərdişlərinin inkişafı üzrə aparılan işlərlə bağlı şəkildə gedir.

Dilimizin lüğət zənginliyinə bələd olmamaq, sözlərin ekspressiv xüsusiyyətlərini bilməmək şagirdlərin yazılı və şifahi nitqində bir sıra üslub xətalarının yaranmasına səbəb olur. Nəticədə şagirdlər fikirlərini ifadə etməkdə çətinlik çəkir, sözlərin mənalarının dəqiq bilmədiklərindən bunları mətnə uyğun işlətməyi bacarmır, bəzən lazım olmayan sözü cümlədə bir neçə dəfə dalbadal təkrar etmələri danışıqda yoruculuğa səbəb olur və s.

Leksikalogiya bölməsinin tədrisi zamanı üslubiyyat nöqteyi-nəzərindən daha çox əhəmiyətə malik olan anlayışlar omonim, sinonimlərin və antonimlərin tədrisidir. Sinonimlərin tədrisinin düzgün təşkil olunması şagirdlərə sözlərin mənalarını, onların işlənmə mövqeyini aydınlaşdırmağa kömək göstərir,söz ehtiytlarının zənginləşməsinə səbəb olur. Elə bu səbəbdən də bir çox metodistlər dilin sinonim və omonimləri üzərində aparılan işlərin düzgün təşkilini nitqin səlis,düzgün və dəqiq olması istiqamətində aparılan vacib fəaliyyət növlərindən hesab etmişlər. Şagirdlərə sözlərin dəqiq işlədilməsinə dair nümunələrin izah olunması qarşıya qoyulan məqsədin həyatab keçirilməsindəmühüm rol oynayır. *Saf su,sərin,təmiz su;Dumduru,ləkəsiz su;Çiçəklənib bar verir; Sulananda bağ bağat. (N.Rəfibəyli) və s.* bu tip seir nümunələri və ya hər hansı bədii əsərdən gətirilmiş nümunələrlə sinonimlərin mahiyyətini şagirdlərə daha aydın çatdırmaq olar. Təbii ki,sinonimlərin üslub imkanları genişdir. Bununla bərabər nitqdə sözlərin təzad yaratması, sözün mənalarının nitqdə hansı imkanlara sahib olmasının müəyyənləşdirən vasitələrdən biri kimi antonimlərin də özünəməxsus rolu vardır. Çoxmənalı sözlərin tədrisi zamanı qarşıya çıxan problemlərin həlli də bu istiqamətdə aparılan vacib işlərdən hesab edilir. Bir sözün həm ilkin mənası, həm ilkin törəmə mənası, həm də məcazi mənalar üzrə aparılan işlər üslub baxımından mühüm əhəmiyyətə malikdir.

Üslubiyyatla bağlı aparılan ən mühüm işlərdən biri də dialektizmlərin öyrədilməsi prosesidir. Şagirdlərin nitqindəki müəyyən qüsurları aradan qaldırmaq tək Azərbaycan dili müəllimlərinin deyil, bütün fənn müəllimlərinin üzərinə düşən vacib məsələlərdəndir. Şagird nitqindəki dialektizm ünsürləri ilə hələ ilk günlərdən mübarizə aparmaq lazımdır.

Müasir dövrdə elmlərin tədrisi mövcud texnologiyalara,elmi bilikərə əsaslanır. Bu mənada yeni informasiya texnologiyalarının tədris prosesinə tətbiqi xüsusi əhəmiyyətə malikdir.Müasir təlim texnologiyalarının tədris prosesinə tətbiqi yüksək nəticələrin əldə olunmasına kömək edə bilər.Müasir təlim texnologiyalarından olan Venn dioqramı,söz assosiasiyaları,rollu oyunlar,auksion metodu,akvarium,cədvəllər və s. kimi metodların dərslərə tətbiqi şagirdlərdə söz ehtiyatının zənginləşməsi ilə yanaşı, üslubi imkanlarının da artmasına kömək edər, rabitəli nitqin formalaşmasına imkan yaradar

XARİCİ DİLİN TƏDRİSİNDƏ QRAMMATİKANIN ROLU

Qafarova A.N.
Bakı Slavyan Universiteti

Ali təhsil müəssisələrinin dil fakültələrində tədris edilən xarici dilin qrammatikasının öyrədilməsində müxtəlif metodlardan istifadə olunub. Hal-hazırda kommunikativ metoda üstünlük verildiyi üçün şifahi nitq, oxu və yazının tədrisində ən birinci qrammatikanın rolunu müəyyənləşdirmək lazımdır. Bunu da qeyd etmək vacibdir ki, hər hansı nitq fəaliyyəti növünün öyrədilməsində qrammatikanın rolu danılmazdır.

Qrammatikanın tədrisinin əsas məqsədi qrammatik vərdişlərin yaradılmasıdır və bu vərdişlər çox vaxt müxtəlif çalışmalar vasitəsilə tam aşılanır və möhkəmlənir. Bu çalışmaların içərisində tərcümə çalışmalarının yerini və rolunu müəyyənləşdirmək olduqca vacibdir. Nəzərə almaq lazımdır ki, xarici dil mühiti olmadığı bir şəraitdə müəilllim həmin dildə verbal davranışın nümunəsi olmalı, özünə inam nəticəsində yalnız dil daşıyıcıları ilə deyil, həmin dildən ünsiyyət vasitəsi kimi istifadə edən insanlarla da kommunikativ əlaqələr yaratmaq qabiliyyəti ilə seçilməlidir.

Məlumdur ki, kommunikativ kompetensiyanın ən mühüm tərkib hissələrindən biri qrammatik kompetensiyadır. Buna görə də aşağı kurslardan başlayaraq şifahi nitqin qrammatik aspektini təkmilləşdirmək lazımdır.

Qrammatikanı mükəmməl bilən bir şəxs yazıda, şifahi nitqdə az nöqsana yol verir. Yuxarıda qeyd etdiyimiz kimi, qrammatik materialı dərindən qavramaqda tərcümə çalışmalarının böyük əhəmiyyəti var. Tərcümə çalışmalarını edən şəxs o zaman müvəffəqiyyətə nail ola bilər ki, həm xarici dili, həm də öz ana dilini yaxşı, normal səviyyədə bilsin, yəni qrammatikanı bilməklə yanaşı hər iki dildə zəngin söz ehtiyatına malik olsun, dilini öyrəndiyi ölkənin adət-ənənələrini, quruluşunu, tarixi haqqında kifayət qədər biliyə malik olsun, çünki tərcümə zamanı elə məqamlar olur ki, sırf həmin ölkə, onun tarixi, coğrafiyası, siyasi quruluşu, dövlətçiliyi, idarəetməsi, adət və ənənələri, inancları və s. ilə əlaqəli olur. Bu məsələ ilə bağlı qeyd etmək lazımdır ki, xarici və ana dilləri müqayisə edərkən, onların tipoloji xüsusiyyətlərini öyrənərkən aydın olur ki, bu dillərin oxşar cəhətləri olsa da, fərqli cəhətləri də kifayət qədərdir. Elə bundan çıxış edərək tərcümə prosesində çox diqqətli olmaq lazımdır. Lakin onu da vurğulamaq yerinə düşər ki, bəzi müəllimlər tərcümə zamanı yalnız fikrin çatdırılmasına əhəmiyyət verir, cümlə quruluşunu, söz sırasnı nəzərə almadan bir növ heç bir danışıq normalarına əməl etmədən birtəhər fikri çatdıraraq ədəbi dil normalarına riayət etmədən "qəribə, bəzən isə gülməli " bir cümlə modeli yaradırlar. Bizə elə gəlir ki, bu düzgün deyil, çünki bu cümlələri tərcümə edən müəllim bu sahənin mütəxəssisidir və onun dərs dediyi, dil öyrətdiyi tələbələr də ixtisas fakültələrində oxuyur və bu ali təhsil müəssisəsini bitirdikdən sonra aldığı diploma görə bu sahənin tam hüquqlu mütəxəssisi hesab olunacaq. Bəs əgər o, öz peşəsini, sənətini yaxşı bilməsə, yarımçıq bilsə, bəs onda necə? Burada dahi Nizaminin müdrik beytləri yada düşür:

Kamil bir palançı olsa da insan,

Yaxşıdır yarımçıq papaqçılıqdan.

Düzdür, bəzi alimlər qrammatik-tərcümə metodunu artıq köhnəlmiş metod adlandırırlar, ancaq qrammatikanı bilmədən mətni düzgün tərcümə etmək, heç səlis danışmaq da mümkün deyil. Tərcümə edən zaman tələbələr çox vaxt zamanları səhv salırlar, indiki zamanda işlənən feli keçmiş zaman kimi, bəzən isə əksinə tərcümə edirlər və əlbətdə ki, bütün bunlar müəyyən anlaşılmazlıq yaradır. Məsələn, bu iki cümləyə nəzər salaq:

The book is on the table- Kitab stolun üstündədir.

There is a book on the table- Stolun üstündə kitab var.

Bu cümlələrin tərcüməsi müxtəlif olsa da, bəzi tələbələr belə hesab edirlər ki, əsas fikri- yəni stolun üstündə kitab olmasını çatdırmaq başlıca məqsəddir, çünki onlar qrammatik cəhətdən cümlələr arasındakı fərqi tam başa düşmürlər. Məhz buna görə istər ana dili, istərsə də öyrədilən xarici dilin qrammatikasını bilmək lazımdır. Bu yalnız qrammatikanı tədris edən müəllimə aid deyil. Xarici dildə hər hansı bir fənni tədris edən müəllim (bu fənn dil tarixi, ölkəşünaslıq, ölkə ədəbiyyatı, metodika, leksikologiya, fonetika və s. ola bilər) fənnindən asılı olmayaraq qrammatikanı mükəmməl bilməli və yeri gəldikcə onu tələbələrə sadə və aydın şəkildə izah etməlidir.

ИСПОЛЬЗОВАНИЕ ХУДОЖЕСТВЕННЫХ ТЕКСТОВ ПРИ ОБУЧЕНИИ АНГЛИЙСКОГО ЯЗЫКА

Гусейнова Э.Т.

Бакинский славянский университет

Чтение литературы – по сей день является одним из продуктивных методов улучшения языка, будь то, в письменной или устной. Актуальность данной темы вызвана необходимостью привить молодому поколению любовь к чтению, литературной речи, повышения качества уроков, знаний, познавательной деятельностью. ***Основными целями*** исследования в этой сфере являются: а) проанализировать теоретические основы использования художественной литературы на уроках; б) выявить индивидуальные черты использования литературных отрывков во время урока; в) выявить рациональные сочетания художественных произведений для каждого урока и уровня знаний студентов; г) провести компьютерную обработку материалов исследования. Использование в качестве примеров художественные произведения различных английских авторов – один из примеров, приведения для каждого уровня знания языка, свои определенные тексты.

Объектом исследования является интерес к учебному процессу при использовании адаптированной литературы на уроках. На данный момент в Бакинском Славянсокм Университете используется литература следующих авторов: Шарлота Бронте, Джейн Остин, Джек Лондон и т.д

Предметом исследования является содержание и эффективность методов использования художественных произведений на уроке.

Практическая значимость заключена в том, что

1. Будет разработана и апробирована на практике система упражнений;
2. Разработаны рекомендации по проведению уроков с использованием методов использования художественной литературы на уроках

Проблема обучения чтению во многих странах остаётся до сих пор актуальной. Учителя-практики указывают на необходимость работы с книгой и слушания рассказов с самого раннего возраста. По их мнению, начиная уже с детского сада нужно объяснять ребенку ту особую роль, которую чтение играет в его жизни. Важными ***пунктами использования*** художественных текстов при обучении английского языка являются: а) Улучшать знания алфавита и фонетики, объяснять детям, что слово в речи и на письме состоит из слогов; б) необходимо развивать способность различать графемы (буквы и группы букв, которые составляют единства в письменном или устном сообщении) и фонемы (для построения устных слов), а также способность передать сообщение из графем и фонем; в) необходимо автоматизировать узнавание слова; г) важно обогащать у ребенка знания о языке. Враг обучения чтению – это «плоский» текст, ничего не значащий, там, где ничего не происходит. Нужно разнообразить и чередовать тексты: простые и более сложные, короткие и более длинные, смешные и серьезные, известные и менее известные, вчерашние и сегодняшние. Также индивидуальный подход к каждому ученику в педагогическом процессе занимает важно место: Термин «индивидуальный подход» понимается как система дидактических средств организации учебного процесса по иностранному языку, включающая изменение цели, содержания, процесса и формы и ориентирующая курс иностранного языка на приобретаемую студентами профессию и возможные сферы его реального использования в профессиональной деятельности. Индивидуальный подход рассматривается нами как сложное педагогическое явление, определяющее эффективность обучения иностранному языку и предполагающее активную роль субъекта учебной деятельности. Условиями успешной реализации индивидуального подхода выступают дифференциация, которая выражается в учете первоначальной языковой подготовки студентов, постановка личностно значимых для студента целей, выработка устойчивых и рациональных навыков самостоятельной работы и умения осуществлять системный подход к овладению знаниями.

Таким образом детальное изучение данной темы позволит улучшить педагогический процесс обучения английского языка.

СЛОВАРЬ КАК СОСТАВНАЯ ЧАСТЬ УЧЕБНОГО КОМПЛЕКСА ПО РУССКОМУ ЯЗЫКУ ДЛЯ АЗЕРБАЙДЖАНСКОЙ ШКОЛЫ

Эфендиева Н.Д.
Бакинский славянский университет

Для улучшения активности и самостоятельности учащихся общеобразовательной школы выдвигает на повестку дня проблему вооружения их рациональными приемами учебной деятельности, связанной с самостоятельным добыванием знаний из справочной литературы как источника лингвистической информации, формирования и совершенствования у учащихся учебно-информационных умений и навыков, привития интереса к работе со словарями и справочниками. Это представляется особенно актуальным в связи с ускорением роста информационных запросов в век научно-технического прогресса во всех сферах жизни общества. В развитии у учащихся жизненно важных умений и навыков самостоятельной работы с книгой особое значение имеет систематическая и целенаправленная работа с учебными словарями, являющимися источниками знаний в различных областях русского языка.

В современной лингводидактике учебный словарь как средство обучения получил статус одного из компонентов единого учебного комплекса для общеобразовательной школы, входящего

в единую скоординированную систему средств обучения языку, который должен быть соотнесен с другими компонентами целостного методического комплекса. В связи с этим, систематическое использование учебного словаря-компонента комплекса в учебном процессе считается обязательным, а работа со словарями в обучении русскому языку как иностранному представляется в виде составной части единой и целостной системы учебно-воспитательной работы в школе. Так как словарь является компонентом учебного комплекса, использование его в пределах такой системы должно быть скоординировано с работой учащихся с другими компонентами учебного комплексе по русскому языку.

Выделение умений и навыков пользования словарями в составе общих учебно-информационных умений и навыков учащихся, а процесса их использования в качестве компонента единой системы работы над словом в общеобразовательной школе требует определения выработки навыков работы с учебными словарями как особого аспекта в обучении русскому языку как иностранному.

Проведенное исследование свидетельствует о том, что сегодня рано говорить о приобретении словарем статуса неотъемлемого компонента учебного комплекса по русскому языку как иностранному в азербайджанской школе. В первую очередь потому, что общеобразовательная школа с азербайджанским языком обучения до сих пор не располагает учебным словарем, обладающим подобным статусом. В связи с отсутствием среди вспомогательных средств обучения русскому языку как иностранному специального учебного словаря, способного дополнять учебник и обогащать арсенал средств обучения, формирование у учащихся-азербайджанцев элементарных навыков работы со словарями и другими видами справочной лингвистической литературы становится невозможным. На уроках русского языка учащиеся не получают никакой информации лексикографического характера, лишь изредка и эпизодически обращаются к словарям общего характера, не владеют элементарными навыками работы со справочной лингвистической литературой.

Сегодня перед отечественной методикой преподавания русского языка как иностранного стоит важная задача - разработать учебный словарь со статусом неотъемлемого компонента учебного комплекса по русскому языку и обеспечить его систематическое и целенаправленное использование в учебном процессе. Немаловажное значение имеет разработка и внедрение в процесс обучения русскому языку методически обоснованной системы упражнений, направленных как на формирование первичных умений и навыков пользования словарями, так и на совершенствование языковых знаний, речевых умений и навыков учащихся с привлечением учебных образцов справочной лингвистической литературы.

LEKSİK MƏŞĞƏLƏLƏRİN MƏQSƏD VƏ VƏZİFƏLƏRİ

Əliyeva S.İ.
Bakı Slavyan Universiteti

Məlum olduğu üzrə, dilin lüğət tərkibində başlıca cəhət onun əsas lüğət fondudur. Lüğət fondunun əsas əlamətləri onun uzun əsrlər boyu yaşaması, sabitliyi, xəlqiliyi və lüğət tərkibinin inkişafı üçün baza olmasıdır.

Cəmiyyət inkişaf edir, bu inkişaf özü ilə yeni məhfumlar da yaradır, bunları ifadə etmək üçün sözlər lazımdır. Belə sözlərin yaranmasında müxtəlif mənbə və üsullar da vardır. Bunlar birinci növbədə xalqın öz dilindən götürülmüşdür. Əgər xalqın öz dili hesabına bu sözləri yaratmaq mümkün deyilsə, onda başqa dillərdən, birinci növbədə məhfum hansı dildə yaranmışsa, o dildən həmin anlayışı ifadə edən sözü alib dilə gətirmək lazımdır. Lüğət tərkibinin zənginliyi bu və ya digər xalqın təfəkküründün dərinliyindən və genişliyindən xəbər verir.

Xarici dilin öyrənilməsində əlifba təliminə qədər aparılan leksik məşğələlər böyük əhəmiyyət kəsb edir. Leksik məşğələlərin psixoloji cəhətdən də əhəmiyyəti böyükdür. Belə ki, bu məşğələlər zamanı şagirdlərin diqqəti əsasən bir nöqtədə, canlı danışıq dilinə yiyələnməkdə mərkəzləşir. Məşğələlər zamanı müəllim tərəfindən verilən müxtəlif növlü şifahi tapşırıqlar nəticisində şagirdlər həm müəyyən miqdarda söz öyrənir, həm də həmin sözlərdən cümlələr düzəldərək öz fikirlərini rabitəli olaraq ifadə etmək vərdişləri qazanırlar.

Leksik məşğələlərin məqsəd və vəzifələrinin şərhinə keçməzdən əvvəl bir məsələni qeyd etmək lazım gəlir. Bu da leksika sözünün mənasından ibarətdir. Leksika yunanca " Lexikos" sözündən olub , söz, ifadə məzmununu ifadə edir. "Leksik məşğələ" birləşməsi də buradan meydana çıxmışdır.Yəni həmin ifadə məhz şagirdə söz öyrətməyi, bu sözlərdən yerli- yerində istifadə etmək vərdişləri aşılamağı tələb edir.

Leksik məşğələlərin qarşısında duran vəzifələr də bununla müəyyən edilir. Buna əsasən deməliyik ki, ingilis dili üzrə əlifba təliminə qədərki dövrdə aparılan leksik məşğələlərin əsas vəzifəsi şagirdlərə ingiliscə sözlər öyrətməkdən ibarətdir. Həmin məşğələlərin qarşısında duran başlıca məqsəd şagirdlərə yeni söz və ifadə öyrətmək və ünsiyyət prosesində bunlardan istifadə etməyə aid praktik vərdişlər aşılamaqdan ibarətdir. Leksik məşğələlərin səmərəli və düzgün təşkili şagirdlərin sonrakı mərhələlərdə oxuduğu bu və ya digər mətnin məzmununu tərcümə etmədən başa düşməsinə kömək edir. Onlarda düzgün oxu vərdişləri yaradır, praktik olaraq dilə yiyələnmək üçün maraq oyadır.

Leksik məşğələlər dövründə müəllim şagirdlərə aşağıdakı vərdişlərin aşılanmasına nail olmalıdır:

1.Öyrədilən yeni söz və ifadələrin mənasını başa salmaq, fikir mübadiləsi zamanı onları cümlələrdə düzgün işlətmək bacarığına yiyələnmək;

2.Yeni öyrənilən ingilis dili sözlərini düzgün məxrəclə nümunəvi surətdə tələffüz etmək;

3. Müəllimin sinifdə işlətdiyi əmr və sərəncamlarını dinləyərək mənasını başa düşmək və onlara riayət etmək;

4.Şagirdlərdə müəyyən miqdarda söz ehtiyatı yaratmaq.

Leksik məşğələlərin keçirilməsini müəllim qabaqcadan planlaşdırmalı, öyrədəcəyi söz və ifadəni əvvəlcədən müəyyən etməlidir.İlk leksik məşğələlərdə müəllimin qarşisinda duran əsas vəzifələrdən biri də verilən suallara şagirdlərdən düzgün və tam cavab almaqdır.İlk leksik məşğələ üçün əyani vəsait olaraq aşağidakılardan istifadə olunması məsləhət görülür: əşyanın özü, şəkillər, maketlər və.s.

İlk leksik məşğələlər dövrü əyani vəsaitdən istifadə etmək bir tərəfdən müəllimin işini yüngülləşdirir, dərsdə vaxta qənaət edilir, digər tərəfdən isə öyrədiləcək materialın şagirdlərin hafizəsində daha da möhkəmləndirilməsinə kömək göstərir.

XARİCİ DİLİN TƏDRİSİNDƏ TƏRCÜMƏNİİN ROLU

Çakmak Ahmet Fesih
Bakı Slavyan Universiteti

Xarici duilin tədrisində tərcümə çox böyük rol oynayış Bunu həm tədrisin həm ilkin, həm də sonrakı mərhələləri barədə demək olar. Bu da məlumdur ki, xarici dil həm nüxtəlif dillərdə danışan öyrənçilərə, həm də eyni dildə danışan öyrənçilərə tədris olunur. Bunların tədrisinin hər birisinin özünün özəllikləri var. Əvvəla, xarici dilin tədrisini başlayarkən hər çey sadədən başlaraq mürəkkəbə doğru gedir. Əvvəlcə öyrənçilərə sadə, onların tanış olduqları, daha çox isifadə etdikləri əşyalar göstərilirç ana və xarici dildə adları səsləndirilir. Bunu da yaddan çıxarmaq lazım deyil ki, ayrı-ayrı predmetlərin adları, onların yazılışı da öyrədilir. Bu hələ dil bilgisi deyil. Bu dil bilgisi olsaydı lüğətdəki sözləri əzbərləmək yolu ilə dili öyrənmək mümkün olardı. Söz sanki müəyyən bir binanı inşası üçün istifadə olunan tikinti materialıdır. Məlumdur ki, binanı inşa etməzdən öncə onun layihəsini çəkmək lazımdır, sonra isə həmin layihə yerin səthinə köçürülür. Lauyihənin bütün elementləri bir-biri ilə əlaqəlidir. Bunların hamısı sanki bir qəlib rolunu oynayır. Kərpic kəsənlər əvvəlcə qəlibləri yan-yana düzür, sonra isə onları palçıqla doldururlar. Xarici dil də bu minvalla öyrədilir. Şagirdlərə sözlər öyrədildikcə dilin srtukturu, müxəlif cümlə növləri də onların n\əzərinə çatdırılır. Bu process ilkin mərhələdən bağlaraq sona qədər davam edir.

Məlumdur ki, bizi əhatə edən gerçək aləmdə mövcud əşya, hərəkət və sairin hamısı konkret deyil. Məsələn, *qələm- pen, kitab-book, jurnal-register* və s. kimi əşyaları öyrənçilərə göstərməklə onların hansı mənada işləndiyini başa salmaq mümkündür. Lakin mücərrəd ism və feilləri əyani çəkildə öyrənçilərə göstərib başa salmaq mümkün deyil. Məsələn, *məhəbbət, sevgi loce, affection, dosluq friendship, hiss-feeling, həyəcan-excitement* və sair kimi isimləri konkret predmet və hərəkət kimi təqdim etmək mümkün deyil.

Əgər öyrənçilərin hamısı eyni dilin daşıyıcılarıdırsa, burada tərcümədən istifadə edilr və deyilənləri tərcümə vasitəsi ilə anlatmaq asandır, ancaq öyrənçilər və öyrətmən eyni dilin daşıyıcıları deyillərsə,

onda tərcümə üsulundan istifadə etmək mümkün deyil.

Jeremy Harmer özünün "The Practice of English Language Teaching (UK, 2000) kitabında tərcümənin ingilis dilinin tədrisindəki rolundan bəhs edərkən yazır:"Tərcümə sözün mənasını təqdim etməyin ən azan və tez üsuludur, ancaq burada da müəyyən problemlər var. Birincisi odur ki, heç də həmişə sözləri tərcümə etmək asan deyil, ikincisi isə tərcümə etmək mümkün olduqda da, tərcümədən çox istifadə etdikdə elə bil öyrənciləri sözün özüə yox təcüməsinə marağı artır.

Təzə sözün təqdimatı zamanı tərcümə bu işi asanlaşdırır, bu yaxşıdır, həm də q yaddan çıxarmaq lazım deyil ki, ana dilindən istifadə həm öyrəncilərin, həm də müəllimin işini yüngülləşdidir." (s.162)

Xarici dilin tədrisində tərcümənin rolu özünü sabit və sərbəst sözbirləşmələrinin tədrisində daha lazımlı olduğunu daha çox göstərir. Məlumdur ki, sərbəst sözbirləşmələrindəki sözlərin hər biri cümlədə və sözbirləşməsində öz lüğəti mənasında işlənir, lakin sabit sözbirləşmələrində komponentlər ğz ilkin lüğəti mənalarını itirərək vahid bir mənanın ifadəçisinə çevrilir. Buna görə, tədrisin bu mərhələsində öyrəncilər həm sərbəst, həm də sabit sözbirləşmələri haqqında məlumatlı olmalıdırlar ki, *I take a bus to the University* cümləsindəki *to take a bus* sabit sözbirləşməsini *mən universitetə avtobus götürürəm* kimi yox, *mən universitetə avtobusla gedirəm* kimi tərcümə etsinlər.

Tədrisin bu mərhələsində atalar sözü və zərb məsəlləri, cümlə və fraza şəklində olan idiomlar da yaddan çıxarılmamalıdır. Əlbəttə ki, bu, tədrisin yuxarı mərhələsinə aid olan bir hərəkətdir.

FELİN İNDİKİ ZAMAN FORMASININ ORTA MƏKTƏBLƏRDƏ TƏDRİSİ FORMALARI

Həsənova A.K.
Bakı Slavyan Universiteti

Müasir dövrdə orta məktəblərdə xarici dillərin tədrisi yüksək peşəkarlıqla tədris olunur. Bunların içərisində alman dili də özünəməxsus yerlərdən birini tutur. Ümumiyyətlə, indi müasir təhsil sisteminə verilən tələblər mövcud olduğundan müəllimlərdən yüksək peşəkarlıq və əzmkarlıq tələb edilir. Yeni tədris metodlarına əsasən dərslər, xüsusilə də xarici dil dərsləri yeni, interaktiv metodlarla keçirilməlidir. Müasir dərsin təşkilinə verilən tələblər də bunu tələb edir.

Yeni biliklərin mənimsənilməsi işinin təşkili xüsusi formada olmalıdır. Belə ki, müəllim yeni metod və vasitələrdən istifadə etməklə, çalışmalıdır ki, tədris etdiyi fənni maksimum səviyyədə mənimsətsin.

Mənim də dissertasiya mövzum sırf qrammatika ilə bağlı olduğundan istədim ki, sırf bütün dillərdə ən geniş və çətin mövzu olan zamanların tədrisi probleminə toxunum. Çünki feil nitqin əsasını təşkil edir. Ümumiyyətlə, dili isim və feilsiz təsəvvür etmək mümkün deyil və onu orta məktəblərdə tədris edərkən şagirdlərə maksimum səviyyədə çatdırmaq lazımdı.

Xüsusi vurğulamaq istədiyim məqam felin indiki zaman forması olan "Präsens" dir. Präsens indiki zaman formasıdır və feil bəhsini əsasını təşkil edir. Bütün feilləri öyrənərkən ilkin olaraq onun məsdər formasını və indiki zamanda şəxsə görə dəyişməsi ,başqa sözlə desək şəxslənməsini öyrənirik.

İndiki zamanın təsrifi zamanı ən əsas rol oynayan köməkçi feillər olan " haben " və "sein " feilləridir. Haben dilimizə "malik olmaq", "vardır" kimi tərcümə olunur:

Ich habe	wir haben
Du hast	ihr habt
Er,sie,es hat	Sie/sie haben

Bu "haben " feilinin şəxsə görə dəyişməsidir. Bir neçə misalla daha dəqiq izah edək

:Ich habe eine Schwester. Er hat ein Auto.

Du hast einen Bruder. Wir haben viele Freunde u.s.w.

İndi isə "sein " felinin dəyişməsinə baxaq. Bu feil dilimizə "olmaq" kimi tərcümə olunur. Bu feil kökündən dəyişən feildir.

İch bin	wir sind
Du bist	ihr seid
Er,sie ,es ist	Sie/sie sind

Bu feil Azərbaycan dilindəki şəxs sonluqlarıdır. Mən şagirdəm, sən tələbəsən və s. kimi. Bir neçə nümunə ilə fikrimizi əsaslandıraq:

Ich bin Student. Wir sind fleissig.
Du bist Schulerin Ihr seid faul u.s.w.

Bu feillər felin digər zaman formalarının da formalaşmasında xüsusi rol oynayir bilavasitə bu feillərin köməyi ilə düzəlir. İndi isə digər feillərin məsdər formasına və necə dəyişməsinə baxaq. Məsələn: schreiben –yazmaq, gehen-getmək, machen –etmək və s. Əsas sonluqların dəyişməsini göstərək:

1. – e ich geh - e
2. -(e) st du geh - st
3. -(e) t er, sie, es geh -t
4. –en wir geh -en
5. –(e) t ihr geh- t
6. –en sie geh-en

Bəzi kökündən dəyişən feillər də vardir. Məs: lessen –oxumaq

Ich lese wir lesen
Du liest ihr lest
Er, sie, es liest lesen və s.

Ümumiyyətlə orta məktəblərdə qrammatik mövzuları izah edərkən ən yaddaqalan metodlardan istifadə etmək lazımdır. Slayd şou hazırlayıb proyektor vasitəsilə əyani göstərməklə və çoxlu misallarla izah etməklə və yaxud sırf qrammatik mövzuları özündə əks etdirən mahnılara qulaq asmaqla. O zaman izah edilən mövzu şagirdin yaddaşında daha yaxşı qalır. Çünki həm əyani, vizual olaraq görür, həm də eşidir. Bu da təbii ki, effektli olacaqdır. Ümumiyyətlə, xarici dili mahnılarla öyrənmək ən geniş yayılmış və ən çox səmərəsi olan metodlardan biridir ki, müasir dövrdə bu metod hətta qrammatik mövzuların izahı zamanı belə köməyimizə çatır. Məqsəd dili mənimsətməkdirsə müəllim hər bir interaktiv metoddan istifadə etməlidir.

V SİNİF DƏRSLİYİNDƏ "DİL QAYDALARI"

Abbaszadə S.İ.
Bakı Slavyan Universiteti

Kurikulum proqramının zəruri hissələrindən biri də məzmun xətləridir. Məzmun xətləri-fənn üzrə ümumi təlim nəticələrinin reallaşmasını təmin etmək üçün müəyyən olunan məzmunun zəruri hissəsidir. Məzmun xətlərinin hər bir sinif üzrə əsas və alt standartları mövcuddur. Məzmun xətlərindən biri olan dil qaydalarının öyrədilməsi zamanı şagirdlərin dərketmə imkanlarına uyğun olaraq müvafiq metod seçilməli, şagirdlər fəal axtarışa cəlb edilməli, onlarda müstəqil fikir oyadılmalıdır. V sinif dərsliyində (Rafiq İsmayılov, Dilrüba Cəfərova, Gülarə Xudiyeva, Xanım Qasımova V siniflər üçün "Azərbaycan dili" , Bakı-2012) verilən dil qaydalarının öyrənilməsi əsas baza rolunu oynayır.

Dil qaydalarını şagirdlərə mənimsətmək üçün dərslikdə zəngin mətn və məntiqi təfəkkürü inkişaf etdirəcək çalışmalar sistemi tərtib edilmişdir. Həmin çalışmalar eyni zamanda mətnlə bir başa və yaxud da dolayı yolla əlaqəlidir. Mətndə verilən sözləri dil qaydalarına uyğun tələffüz etməklə şagirdlər şifahi nitq bacarıqlarını da inkişaf etdirmiş olur.

V sinif dərsliyində verilən dil qaydaları sadədən mürəkkəbə doğru sıralanmışdır. İbtidai sinifdən ayrılan V sinif şagirdləri bu sinifdə dil qaydalarını sistemli şəkildə öyrənəcək, sözün əsas tərkibini yaranma üsullarını, qrammatik mənasını izah etməyi, cümləni məqsəd və intonasiyaya görə fərqləndirməyi bacaracaqdır.

V sinifin mövcud dərsliyinə əsasən aşağıdakı dil qaydalarının öyrədilməsi nəzərdə tutulmuşdur:

1) Saitlərin növləri-qalın saitlər, incə saitlər, dodaqlanan saitlər, dodaqlanmayan saitlər, açıq saitlər, qapalı saitlər; 2) Samitlərin növləri-kar ,cingiltili; 3) Ahəng qanunu; 4) Saitlərin uzun tələffüzü-qoşasaitli sözlərdə yanaşı gələn saitlərin tələffüzü, tərkibində "ov", "öv" hərf birləşmələri olan sözlərin tələffüzü, tərkibindəki saitlərdən birinin digərinə nisbətən uzun tələffüzü; 5) "O" saitinin "A" kimi tələffüzü; 6) Söz sonunda cingilitili samitlərin tələffüzü; 7) "K" samitinin tələffüzü və yazılışı-"k" samiti "y" samitinin kar qarşılığı olan [x□] kimi səslənməsi, son samiti [x□] kimi tələffüz olunan sözlərə saitlə başlanan şəkilçi artırıldıqda "k" samiti "y" samitinə keçməsi ; 8) "Q" samitinin yazılışı və tələffüzü-yazıldığı kimi, [x] kimi, [k□□] kimi, son samiti "q" ilə yazılan, lakin [x] kimi tələffüz olunan sözlərə saitlə başlanan şəkilçi artırıldıqda "q" samiti "ğ" samitinə keçməsi; 9) Qoşa samitlə bitən təkhecalı

sözlər-İki eyni samitlə bitən təkhecalı sözlərə samitlə başlayan şəkilçi qoşulduqda söz kökündəki samitlərdən birinin düşməsi, qoşa samitlə bitən bəzi təkhecalı sözlərin deyilişi zamanı qoşa samitlər arasında sait səsin tələffüz olunması; 10) Qoşasamitli sözlərin tələffüzü-yanaşı gələn kar samitlərdən ikincisinin cingilitili tələffüz olunması, qoşa "q" ilə yazılan sözlərdə birinci samit özünün kar qarşılığı kimi tələffüz olunması, sözdə "n" samiti "b", "m" samitlərindən əvvəl gəldikdə [m] kimi tələffüz olunması;11) Sözün səs tərkibi; 12) Sözün məcazi mənası necə yaranır;

13) Frzaeoloji birləşmələr; 14) Çoxmənalı sözlər; 15) Omonimlər; 16) Sinonimlər; 17) Antonimlər; 18) Etimologiya nədir?; 19) Terminlər; 20) Arxaizmlər; 21) Kök və şəkilçi; 22) Leksik və qrammatik şəkilçilər; 23) Sözün başlanğıc forması; 24) Şəkilçilərin variantları-qoşulduqları sözün son hecasından asılı olaraq şəkilçilərin iki və dörd cür yazılması; 25) Bir cür yazılan şəkilçilər; 26) Sözönü şəkilçilər; 27) Söz yaradıcılığı; 28) Düzəltmə sözlər; 29) Eyniköklü sözlər; 30) Mürəkkəb sözlər; 31) Defislə yazılan mürəkkəb sözlər- yaxınmənalı və ya əksmənalı sözlərin birləşməsindən əmələ gəldikdə, sözlərin təkrarından yarandıqda, tərkibindəki sözlərdən biri və ya hər ikisi leksik mənaya malik olduqda, birinci tərəfi "qeyri", "əks", "super" və s. kimi sözlərdən ibarət olduqda ; 32) Konkret və mücərrəd isimlər; 33) Ümumi və xüsusi isimlər; 34) Tək və cəm isimlər.Toplu isimlər; 35) İsimin halları; 36) Əlamət və keyfiyyət bildirən sözlər; 37) Sifətin dərəcələri-adi dərəcə, azaltma dərəcəsi, çoxaltma dərəcəsi; 38) Feilin məsdər forması; 39) Təsdiq və inkar feillər; 40) Feilin zamana görə dəyişməsi-indiki zaman, keçmiş zaman, gələcək zaman; 41) Feilin şəxsə görə dəyişməsi; 42) Mürəkkəb isimlər və onların yazılışı; 43) Mürəkkəb sifətlər və onların yazılışı; 44) Mürəkkəb feillər və onların yazılışı.

Təqdim olunan dil qaydalarının mənimsənilməsində müəllimin qarşısında duran əsas vəzifə həmin dil qaydalarının şagirdlərdə yarada biləcək çətinlik dərəcəsini aradan qaldırmağa, fənlərarası və fəndaxili əlaqə imkanlarının müəyyənləşdirməsinə və dərs zamanı qarşıya qoyduğu məqsədə nail olmaqdır. Bununla yanaşı dil qaydalarının öyrədilməsidə əsas işlərdən biri də düzgün metodun seçilməsi və həmin metodlardan yerli-yerində istifadə edilməsidir.

XIV BÖLMƏ

ƏDƏBİYYATŞÜNASLIQ

"MOLLA NƏSRƏDDİN" JURNALI VƏ QABDULLA TUKAY

Qurbanova V.M.
Sumqayıt Dövlət Universiteti

Tatar xalqının görkəmli şairi Qabdulla Tukayın ömür yolu özündən sonra yazıb-yaradan sənətkarlar üçün bir örnək olmuşdur. İyirmi yeddi il ömür yaşayan sənətkar öz xalqını sevmiş, onun maariflənməsi, inkişafı üçün əlindən gələni əsirgəməmişdir. Qabdulla Tukay cəmi iyirmi yeddi il ömür sürməsinə baxmayaraq mənalı bir həyat keçirmiş, tatar xalqının rifahını düşünən yenilməz mücadilə adamı, böyük bir şair kimi ədəbiyyat tarixinə əbədi həkk olunmuşdu. Çar Rusiyasının ağır, əzablı, məşəqqətli boyunduruğu altında boya-başa çatan Q.Tukayın poetik təfəkkürü çox erkən formalaşmışdır. Ətrafındakı haqsızlıqlara, eybəcərliklərə dözməyən şair özünəməxsus şəkildə dövrün mürəkkəb hadisələrini şeir dilinə gətirərək böyük bir ağrıyla, acıyla millətinin dərdlərinə şərik olmuş, bu istibdada qarşı kəskin mübarizə aparmışdır. Yaradıcılığında gah satira, gah parodiya, gah da sətiraltı mənaların dili ilə danışaraq cəhaləti, geriliyi, mövhumatı tənqid etmişdir. Q.Tukay bu yolla tərəqqiyə doğru addımlar ataraq xalqını oyatmağa çalışmışdır.

XX əsrin başlanğıcında Yaxın Şərqin yazıçı və şairləri "Molla Nəsrəddin" jurnalını yaxından izləyir və onun ideyaları ilə ruhlanırdılar. Bunlardan bəziləri "Molla Nəsrəddin" məktəbinin şagirdi olmağa can atır və bununla da fəxr edirdilər. Bu sənətkarlardan biri də Qabdulla Tukaydır.

"Molla Nəsrəddin" ilk dəfə nəşrə başladığı zaman Q.Tukay Uralskda mətbəədə mürəttiblik edirdi. Q.Tukayı yaxından tanıyanlar deyirlər ki, o, 1907-ci ildə Uralskdan Kazana köçərkən, özü ilə Puşkinin əsərlərindən bir cildini və bir də "Molla Nəsrəddin" jurnalının bir neçə nömrəsini götürmüşdür. Qabdulla Tukayın "Molla Nəsrəddin" jurnalına olan münasibəti haqqında tatar ədəbiyyatşünaslığında da ətraflı məlumatlar verilir.

Qabdulla Tukay "Molla Nəsrəddin"i sevmək və oxumaqla kifayətlənmirdi. O, öz yaradıcılığında bu jurnaldan öyrənməyə çalışır, jurnalın səhifələrində dərc olunan satirik şeirləri tatar dilinə tərcümə edir və "Yaşen", "Yalt-Yult", "Uklar" və başqa bu kimi satirik jurnallarda çap etdirirdi.

Qabdulla Tukay şair və publisist olmaqla yanaşı, eyni zamanda gözəl mütərcim idi. O, Mirzə Ələkbər Sabir, Koltsov, Lermontov, Maykov, Pleşşeyev, Polonski, Nikitin kimi böyük şairlərin əsərlərini tərcümə edərək tatar oxucusuna təqdim etmişdir. M.Ə.Sabirin şeirlərinin tatar dilinə ilk tərcüməsi də Q.Tukay tərəfindən olmuşdur. Buna misal olaraq 1908-ci il "Molla Nəsrəddin" jurnalınının 30-cu nömrəsində Sabirin "Boynu buruq" imzası ilə dərc edilmiş "Şikayət" şeirinin tatar dilinə tərcüməsini də göstərmək olar.

Peterburqda nəşr olunan "Ülfət" adlı tatar qəzetində "Molla Nəsrəddin" jurnalının baş redaktoru C.Məmmədquluzadə haqqında yüksək fikirlər söylənmişdir. Baxçasarayda çıxan "Tərcüman", Kazanda nəşr olunan "Kazan müxbire" "Mola Nəsrəddin"i yaxından izləyirdi. Kazandakı "Vakt", Orenburqdakı "Şura", "Çöküç", "Yalt-Yult", "Yulduz", "Edil", "Akmulla" və s. mətbuat orqanlarının səhifələrində mollanəsrəddinçilərin ideya-estetik mövqelərini müdafiə edirdi. Bu mətbuat orqanlarında "Molla Nəsrəddin"nin fəaliyyəti bir qayda olaraq ardıcıl şəkildə işıqlandırılır, C.Məmmədquluzadənin jurnalistik fəaliyyətinə böyük qiymət verilirdi. C.Məmmədquluzadənin "Molla Nəsrəddin"i ilə Q.Tukayın "Yalt-Yult"u Sabirlə Tukay arasında mənəvi bağlılığın mövcudluğunu qabardırdı.

"Molla Nəsrəddin" jurnalının 1913-cü il 13-cü nömrəsində özünün fəal müxbiri Q.Tukayın vəfat etdiyi dərin hüzn və kədərlə dolu məlumat dərc olunmuşdur.

Beləcə özündən sonra böyük bir ədəbi məktəb yaradan Qabdulla Tukay tatar ədəbiyyatında yeni səhifə açmışdır.

Q.Tukay yaradıcılığı təkcə tatar xalqı tərəfindən deyil, digər türk xalqları tərəfindən də sevilərək oxunur.

MƏSTAN GÜNƏRİN "TROYA NAĞILI" POEMASINDA CƏMİYYƏT PROBLEMİ

Quliyeva K.Ş.
Sumqayıt Dövlət Universiteti

Poemanın girişində əsəri "yumorlu poetik fantaziya" adlandırsa da, müəllifin qabartdığı məsələlər əslində bugünkü həyatımızın ciddi, düşündürücü problemlərindəndir. Demosfen adlı qəhrəmanın ətrafında baş verən hadisələrdən aydın olur ki, cəmiyyət əxlaqlı, təmiz adamlar üçün çox dözülməzdir. Həyatın çətinliyini bu uşağın dilindən oxuculara çatdıran müəllif əsərin lap əvvəlindən sonuna qədər pulun nələrə qadir olduğunu göstərmişdir. Oxuculara elə gəlir ki, pul olmasa bu dünyaya gəlmək, cəmiyyət içinə çıxmaq olmaz. Xüsusilə də, rüşvətin adi hal kimi qəbul edildiyini göstərən bu əsərdə şair nazirin, xəstəxana işçilərinin timsalında rüşvətxorluğu, özbaşınalığı, əxlaqsızlığı, Afroditanın timsalında isə yalanı, xəyanəti ifşa etmişdir. İfşa yolu isə məhz balaca Demosfendir. Qəhrəman bütün olanların şahidi, zəmanə ilə barışmayan, hətta bu iyrənc cəmiyyətin bir üzvü olmaqdan boyun qaçıran obrazdır:

Troya döyüşçüsü
iki gündü təzədən
qayıtmışdı həyata,
möhkəm-möhkəm qarnına
yığıb ayaqlarını,
istəmirdi boy ata...

Haqsızlıqlar qəhrəmanın düşüncəsinə heç cür sığmır. Çünki bu cəmiyyətin insanları halal zəhmətlə yaşayan namuslu, saf insanların həyatını faciə kimi qəbul edir, hətta onlara gülüb ələ salırlar. Müəllif bu hadisəni ürəkağrısı ilə qeyd etmişdir. Şan-şöhrətə, pula hərislik, yaltaqlıq insanlar arasında çox surətlə yayılsa da, Demosfen bu xəstəliyə nəinki yoluxmur, hətta mübarizə aparır. Öz əqidəsi ilə digər obrazlardan, bütün insanlardan fərqlənən bu qəhrəmanın C.Məmməd-quluzadənin "Ölülər" əsərindəki kefli İsgəndərlə, M.F.Axundzadənin "Hekayəti-Molla-İbrahimxəlil kimyagər" komediyasındakı Hacı Nuru və başqa qəhrəmanlarla oxşar cəhətlər çoxdur. Bütün obrazlar açıqfikirli, vicdanlı, dövrünün haqsızlıqları ilə barışmayan şəxsiyyətlərdir. Xalqının taleyinə acıyan, daim onun gələcəyini düşünən bu qəhrəmanlar üçün həyat çətindir. Bataqlıqda olan millətin halı onları sarsıdır:

Şairlik gözləmir ki,
Səni...
..."Millət", "ədalət" deyib
əla gərnəşənlərə
el-obanın içində
taleyin töhmət ola.
...Birdən başını tutub
hönkürürsən: ilahi
hər ümidin yolunda
mən ölməyə hazıram
Millətim millət ola.

1985-1986-cı illərdə qələmə alınan bu poema əslində müasir mühiti və indiki cəmiyyəti əks etdirir. Nəinki xəstəxanalarda, təhsil ocaqlarında, idarələrdə, ümumiyyətlə, cəmiyyətdə bəzi rüşvətxorlar və müftəxorlar tənqid olunur, yaltaqlıq, özbaşınalıq kimi mənfi keyfiyyətlər simvolik mənada təqdim olunsa da, əslində Troya deyil,səksəninci illər Azərbaycan məkanıdır. Məstan Günər rüşvətxorları, əxlaqsızları ifşa edərkən mətnaltı məna oxucuya əsil həqiqətləri açıb göstərir. Müəllif məhz bu üsulla əsərin ideyasını ifadə etmiş və öz məqsədinə nail olmuşdur.

YUSİF XAS HACİBİN "QUTADQU – BİLİK" POEMASI AZƏRBAYCAN ƏDƏBİYYATŞÜNASLIĞINDA

Əhmədli N.Y.
Sumqayıt Dövlət Universiteti

"Qutadqu bilik" poemasının tədqiqinə Azərbaycan ədəbiyyatşünaslığında gec – XX əsrin 70-ci illərindən başlanmışdır. Prof. P.Xəlilov XI-XIII əsrlər özbək ədəbiyyatından danışarkən bu poemadan da bəhs etmişdir. P.Xəlilov "SSRİ xalqları ədəbiyyatı" dərsliyinin ikinci cildində "Qutadqu bilik" , onun yarandığı dövr, əsərin müəllifi,quruluşu, vəzni və sair haqqında yığcam bəhs etmişdir. "Yusif Balasaqunlu ilk dəfə olaraq əruz vəznini türkdilli poeziyaya tətbiq etmişdir. O, "Şahnamə"nin mütəqarib bəhrini seçmişdir.

Daha sonra "Qutadqu-bilik" haqqında geniş və dolğun məlumat türkoloq Fərhad Zeynalova məxsusdur. Tanınmış alim həm "Qədim Türk yazılı abidələri (orta dövr)" əsərində həm də "Türkologiyanın əsasları" dərsliyində poemanın orta türk dövrünə məxsus olduğunu bildirmişdir. Öz fikirlərini Fərqanə nüsxəsi əsasında şərh edən müəllif haqlı olaraq bu qənaətə gəlmişdir ki, "Qutadqu-bilik" hər şeydən əvvəl poetik ədəbi bir əsrdir. Belə ki, burada əxlaq, ədəb-ərkan, təlim-tərbiyə məsələləri, mənəvi həyatda davranış tərzləri ümumiləşdirilir, əsər əxlaq dərsliyi səciyyəsi daşıyan bir salnamə təsiri bağışlayır."

Tanınmış ədəbiyyatşünas alimlər Ə.Səfərli və X.Yusifli "Qədim və Orta əsrlər Azərbaycan ədəbiyyatı" kitabinda poemanı Azərbaycan ədəbiyyatı müstəvisində təhlil etmişlər. Müəlliflər əsərin qısa məzmununu vermiş, əsas obrazları, onların tutduğu mövqeyi qısaca şərh etmişlər.Burada poemanın bədii xüsusiyyətlərindən də bəhs edilmişdir.

" Qudatqu bilik" poemasının 1970-ci ildə 900 illik yubileyi münasibətilə əsərə həsr olunmuş xüsusi nömrədə prof. Vaqif Aslanov, professor Azadə Rüstəmova əhatəli məqalələrlə çıxış etmişlər.

Poema Azərbaycan dilində ilk dəfə olaraq 1994-cü ildə Kamil Vəliyev və Ramiz Əskərin sətri tərcüməsi ilə nəşr olunmuşdur.

"Qudatqu bilik" poemasının poetik tərcüməsi isə Xalq şairi Xəlil Rza Ulutürkə məxsusdur. Xəlil Rza Ulutürk poemanı 1998-ci ildə nəşr etdirmiş və ona dolğun məzmunlu ön söz yazmışdır. Müəllif ön sözdə poemanın bədii məziyyətlərindən bəhs edərək, əsərin ümumtürk ədəbiyyatındakı mövqeyini yüksək qiymətləndirmişdir: "XI əsr yadigarı "Qudatqu bilik" türkdilli xalqların ilk poeması, onların dil xüsusiyyətlərini, bədii təfəkkür gücünü öz aynasında göstərən birinci möhtəşəm ədəbi abidəsidir. Bir xalq deyil,bütün türkdilli ulusların ortaq sərvətidir və çox güman ki, həmin dövrdə, yəni Qaraxanlılar deyilən Türk sülaləsinin əzəmətli bir dövlət kimi çiçəkləndiyi çağlarda həmin dövlətin himayəsində yaşayanların və ədəbi dil bilənlərin hamısı üçün anlaşıqlı olmuşdur".

Bunlardan əlavə bir sıra qədim dövr və orta əsr ədəbi abidələrinin tədqiqi ilə əlaqədar olaraq, bu və ya digər dərəcədə "Qudatqu bilik" haqqında bəhs etmişlər. Dilçi alimlərdən N.Xudiyev, E Əzimov, Ə.Quliyev, İ.Məmmədov və başqaları poema və onun müəllifi barədə maraqlı fikirlər söyləmişlər.

"Qudatqu bilik" poeması, qeyd etdiyimiz kimi Azərbaycanda müxtəlif aspektlərdən tədqiq olunmuşdur. Həcmindən asılı olmayaraq yazılan hər bir məqalə, çap olunan əsər alqışlanmalıdır. Şübhəsizdir ki,indiyədək "Qutadqu bilik" poemasının haqqında ən qiymətli tədqiqat Azərbaycan filologiyasında professor Ramiz Əskərə məxsusdur.

R.Əskərin 2003-cü ildə çap etdirdiyi "Qutadqu bilik" monoqrafiyası yalnız dilçilik əsəri deyil. Müəllif monoqrafiyasının ən böyük fəsli olan birinci fəsli "Qutadqu bilik" əsərinin müəllifinin yaşadığı dövrə, onun həyatına, poemanın poetik quruluşuna, obrazların tipologiyasına və s. kimi ühüm problemlərə həsr etmişdir. Alim bu monoqrafiyada əsərin dilini və onun morfoloji quruluşunu geniş tədqiqata cəlb etsə də, müraciət etdiyi zəngin mənbələr əsasında poemanı bir ədəbiyyatşünas-alim kimi də araşdırmışdır.Xüsusilə əsərin vəzni, onun nüsxələri və qaynaqları haqqında müəllifin gəldiyi elmi nəticələr öz orjinallığı və elmi-nəzəri səviyyəsi ilə diqqəti cəlb edir. R.Əskər qeyd etdiyimiz məsələrlə bağlı dünyanın bir çox alimlərinin (N.Baskakov, S.Malov, H.Vamberi, V.Radlov, R.Arat, M.Ergin və b.) apardığı tədqiqatları sistemləşdirmiş, poemanın tədqiqinin hər bir mərhələsinə öz münasibətini bildirmişdir.

Söz yoxdur ki, "Qudatqu bilik" poemasının geniş tədqiqi ədəbiyyatşünaslığımızda həllini gözləyən vacib və təxirəsalınmaz problemlərdən biridir. Poema haqqında dəyərli tədqiqat əsərlərinin ortaya çıxması gələcəkdə bu boşluğu qismən də olsa dolduracaqdır.

MAHMUD KAŞĞARİNİN "DİVANİ LÜĞƏT-İT TÜRK" ƏSƏRİNDƏ DÖYÜŞ NƏĞMƏLƏRI

Toy Murad Durmuş
Sumqayıt Dövlət Universiteti

Türk xalqlarının, o cümlədən Azərbaycan xalqının ortaq və möhtəşəm ədəbi-tarixi abidəsi sayılan Mahmud Kaşğarinin "Divani lüğət-it türk" əsəri həm də qədim türklərin yaratdıqları zəngin folklor örnəklərinin mühüm qaynaqlarından sayılır. Əsərdə ümumtürk folklorunun bir sıra janrlarından maraqlı örnəklər-atalar sözləri və məsəllər, rəvayətlər, inam və sınamalar, mərasim və ayin nəğmələri, qədim türk dastanları toplanmışdır. Bu cəhət onu göstərir ki, "Divan" yalnız bir izahlı lüğət, tanıtma və öyrətmə kitabı deyil, geniş məzmunlu ensiklopedik bir əsərdir. Bircə onu qeyd etmək kifayətdir ki, əgər "Divani lüğət-it-türk" əsəri olmasaydı, qüdrətli türk-hun hökmdarı və sərkərdəsi Alp Ər Tonqa haqqında xalqın qoşduğu matəm nəğmələri-ağılar bu günümüzə gəlib çatmazdı. "Divan"da qeydə alınmış folklor nümunələri, türklərin etnoqrafik mərasimləri, milli məişətini əks etdirən xalq deyimləri və sair haqqında dərin və ətraflı tədqiqatlar aparan professor Aybəniz Kəngərli əsərin yüksək əhəmiyyətini göstərərək yazır: "Türklərin etnoqrafik həyatını, o cümlədən də folklorunu həm öz dövründəki çağdaş mənzərəsi, həm də daxili mahiyyəti baxımından mükəmməl şəkildə və dərindən bilən Mahmud Kaşğari "Divan"da etnoqrafik mədəniyyəti əks etdirən fakt və hadisələri, onların etnoloji və yozumunu bugünkü filoloji elmə, türkoloji düşüncəyə fayda və təkan verə biləcək bir səviyyədə təqdim-təhlil etmişdir. Bu sıradan onun əski türk mifoloji inanışlarıyla bağlı elmi izahat və dəyərləndirmələri xüsusi maraq doğurur."

Tanınmış alimin bu fikrindən qaynaqlanaraq qeyd edə bilərik ki, "Divan"da qeydə alınmış folklor örnəklərinin mühüm bir hissəsini döyüş nəğmələri təşkil edir. Bu nəğmələr yabakularla, tanqutlarla, uyğurlarla döyüşlərə həsr olunmuşdur. Türkün qələbə əzmi, mübarizliyi, cəsarət və bahadırlığı bu nəğmələrin başlıca ideyasını təşkil edir. Bu nəğmələrin ədəbi-tarixi əhəmiyyətinin mühüm bir keyfiyyəti də ondadır ki, burada qədim türk tayfalarının milli məişəti, təsərrüfat həyatı, mənəvi dəyərləri əks olunmuşdur. Məsələn, yabakularla döyüşləri poetikləşdirən nəğmələrdə onların hökmdarı Budrac xandan, bu tayfanın məişətindən, dolanışığından bəhs olunur:

İrtışdadır yeməyi,
Çırmalanır biləyi.
Qızğın onur ürəyi
O, gəlməyə yığışır.

Bu bənddən aydın olur ki, yabakular İrtış çayının sahillərində məskən salıblar. Onlar döyüş hazırlığı görür, digər tayfa və qəbilələrlə birləşərək İrtışı keçib hücum etmək istəyirlər. O da maraqlıdır ki, bu nəğmələrdə yabaku döyüşçülərə alplar, alpağut(igidlər, ərənlər)-deyə müraciət olunur. Bu cəhət türkün zəngin mənəviyyatını, düşmənə bəslədiyi obyektiv münasibəti göstərir.

"Divan" da əks olunmuş döyüş nəğmələrinin bir qismi tanqutlarla vuruş səhnələrinin təsvirindən bəhs edir. Mənbələrdə İran dilli tayfalar olduğu güman edilən tanqutlarla türklər arasında uzun sürən savaşlar təsvir edilir. "Divan"da bu nəğmələrin sayı iyirmidən çoxdur. Döyüçüləri qələbəyə ruhlandırmaq, mübarizlik hissi, düşməni məğlub etməyə çağırış nidaları nəğmələrin məzmununa kəskin və döyüşkən ruh gətirir. Aşağıdakı nümunədə düşməni əzən türk döyüşçüsünün şücaəti tərənnüm olunur:

Yağı bəydən uzaq oldu,
Görüb qoşun çaşıb qaldı.
Ölüm onu qonaqladı,
Ağzı içrə ağı sağdı.

Yetib onu süngülədi,
Yarası başın təzələdi.
Ərlər bayıb şadlıq etdi,
Onun alpın qırıb tökdü.

Göründüyü kimi, bu nəğmələrdə cəsarət, əzmkarlıq, döyüşçü fədakarlığı bədii obrazlarla təsvir olunmuşdur. Bu təsvir məna tutumunun dərinliyi, poetik detalların rəngarəngliyi və ifadəliliyi ilə diqqəti cəlb edir. "Divani lüğət-it türk" əsəri bu baxımdan əvəzsiz mənbə kimi bütün dövrlərdə əhəmiyyətini saxlayır.

MAHMUD KAŞĞARİNİN "DİVANİ LÜĞƏT-İT TÜRK ƏSƏRİ" AZƏRBAYCAN ƏDƏBİYYATŞÜNASLIĞINDA

Toy Murad Durmuş
Sumqayıt Dövlət Universiteti

Türklərin bəşər sivilizasiyası tarixində özünəməxsus yeri vardır. Bu ulu xalqın zəngin mənəvi xəzinəsinin mühüm bir hissəsini xalq ədəbiyyatı təşkil edir. Məlumdur ki, xalq ədəbiyyatı millətin şifahi yaddaşından süzülüb gəlir, öz genetik kökləri üzərində cilalanaraq inkişaf edir, kamilləşir. Qədim folklor mətnlərinin bu günümüzə gəlib çatmasında yazılı ədəbiyyatın, görkəmli alimlərin, şair və yazıçıların böyük xidmətləri vardır. Onların əsərlərində yüzlərlə atalar sözü, məsəllər, idiomatik ifadələr, milli təfəkkürü əks etdirən etnoqrafik detallar və sair öz əksini tapmışdır. Bu baxımdan həmin əsərlərin ümumtürk mədəniyyəti tarixində əhəmiyyətli mövqeyi diqqəti cəlb edir. Belə mənbələrdən biri də türk dünyasının böyük oğlu Mahmud Kaşğarinin "Divani lüğət-it türk" əsəridir.

İlk öncə onu qeyd etmək lazımdır ki, Mahmud Kaşğarinin "Divani lüğət-it türk" əsəri ümumtürk ədəbiyyatının dörd mühüm təməl incisi sayılan mənbələrdən biridir. Buraya yalnız türk mədəniyyətinin deyil, həm də dünya ədəbiyyatının nadir incilərindən sayılan "Kitabi-Dədə Qorqud" dastanları, bəşər tarixində həcmcə ən böyük epos olan "Manas" dastanı, görkəmli mütəfəkkir Yusif Xas Hacibin "Qudatqu-bilik" poeması və dahi ensiklopedik alim, dilçi, filosof və etnoqraf Mahmud Kaşğarinin "Divani lüğət-it türk" əsəri daxildir.

"Divani lüğət it-türk" universal bir əsər kimi türk dilinin bütün qrup, ləhcə, şivələrinin xüsusiyyətlərini özündə əks etdirməklə möhtəşəm bir ədəbi-elmi abidədir. Bu əsər uzun müddət elm aləminə bəlli olmamışdır. Xoş bir təsadüf nəticəsində "Divani lüğət-it türk" 1914-cü ildə Türkiyədə tapılmış və Kilisli Rüfət tərəfindən 1915-1917-ci illərdə üç cilddən ibarət kitab şəklində nəşr olunmuşdur. Bu nəşrdən sonra dünya alimləri əsərlə dərindən maraqlanmışlar. Buna görədir ki, indiyədək "Divani lüğət it-türk" əsəri çin, rus, macar, ingilis, özbək, qazax, fars və başqa dillərə tərcümə olunmuşdur. Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, M.Kaşğarinin əsəri Azərbaycan dilinə çox gec-2006-cı ildə tərcümə olunmuşdur. Əsəri Azərbaycan dilinə professor Ramiz Əskər tərcümə edərək çap etdirmişdir. Qeyd etmək vacibdir ki, keçən əsrin 30-cu illərində "Divani lüğət-it türk" məşhur dilçi Xalid Səid Xocayev tərəfindən Azərbaycan dilinə tərcümə olunsa da, əsər çap olunmamış, Xalid Səid Xocayev isə qırmızı terrorun qurbanı olmuşdur.

Əsərin çapına qədər Azərbaycan filologiyasında "Divani lüğət-it türk" barədə müxtəlif dövrlərdə B.Çobanzadə, S.Xocayev, Ə.Abid, F.Zeynalov, E.Əlibəyzadə, T.Hacıyev, S.Əlizadə, Ə.Rəcəbov, K.Vəli Nərimanoğlu və digər görkəmli alimlər bəhs etmiş, bir sıra dəyərli tədqiqat əsərləri yazmışlar.

Professor Elməddin Əlibəyzadə "Divan"la bağlı "Azərbaycan xalqının mənəvi mədəniyyət tarixi" adlı əsərində maraqlı fikir və mülahizələr irəli sürmuş, M.Kaşğariyə və onun bu fundamental əsərinə ayrıca fəsil həsr etmişdir. Alim öz əsərində məşhur hun hökmdarı Alp Ər Tonqanın ölümünə həsr olunmuş ağılardan-matəm nəğmələrindən bəhs edərkən onları geniş şərh etmiş, bu ağıların ədəbi-fəlsəfi mahiyyətini açıqlamağa səy göstərmişdir.

Tanınmış alim Aybəniz Əliyeva-Kəngərli "Azərbaycan folkloru və kitab mədəniyyəti" adlı monoqrafiyasında "Divani lüğət-it türk" əsərini Azərbaycan folklor kitabının hazırlıq-özül mərhələsi kimi qiymətləndirmişdir. Müəllif öz əsərində "Divan"da qeydə alınmış folklor nümunələrini təhlil etmiş, onları həm məzmun, həm də sənətkarlıq baxımından dəyərləndirmişdir. Məsələn, A.Kəngərli "Divan"dakı nəğmələrin bir qismini folklor bahariyyələri kimi şərh etmiş, bu nəğmələri həm əski, həm də çağdaş türkcədə verməklə maraqlı müqayisələr aparmışdır. Bu nümunəyə diqqət yetirək:

Kaklar kamuğ kölərdi,
Tağlar başı ilərdi.
Ajun tını yırıldı
Tütü çeçək cərgəşür.

Bu bənd çağdaş türkcədə belə səslənir:

Quru yerlər tamam sulandı,
Dağların başı göründü.
Dünyanın soyuğu yumşaldı,
Hər cür çiçək cərgələndi.

"Divani lüğət-it türk" əsəri haqqında H.Araslı, M.Təhmasib, Ə.Səfərli və başqa alimlərimizin də maraqlı tədqiqatları mövcuddur. Ümumiyyətlə, Azərbaycan ədəbiyyatşünaslığında M.Kaşğarinin "Divan"ı geniş və əhatəli tədqiqatlar üçün zəngin bir mənbədir.

AŞIQ SÜMMANİNİN DASTAN YARADICILIĞI BARƏDƏ

Şimşek Selma Mehmet
Sumqayıt Dövlət Universiteti

Aşıq Sümmaninin zəngin yaradıcılığının mühüm bir hissəsini dastanlar təşkil edir. Öncə onu qeyd etmək lazımdır ki, dastan termini Türkiyə folklorşünaslığında xalq romanları anlamından başqa, həm də olmuş bir hadisənin, müəyyən əfsanə və rəvayətin nəzmlə ifadəsini də bildirir. Çox vaxt Türkiyə folklorşünaslığında iri həcmli xalq romanları əvəzinə hekayə termini işlədilir. Məsələn, "Əsli və Kərəm" hekayəsi, "Aşıq Qərib" hekayəsi, "Əmrah ilə Səlvi" hekayəsi və s.

Aşıq Sümmaninin hekayəçiliyi və hekayələri dedikdə onun dastan ifaçılığı və dastanları ("Sümmani ilə Gülpəri", "Almaz ilə Qəhrəman" və "Mahiri") nəzərdə tutulur. Aşığın yalnız nəzm hissəsindən ibarət olan dastanları arasında "Şəkərli kəndində uçan damın dastanı" , "Zəlzələ dastanı", "Ay ilə gün dastanı", "Ruh və nəfs dastanı" , "Xəlil İbrahim dastanı" və digər əsərlər xüsusi yer tutur.

"Şəkərli kəndində uçan damın dastanı" bu kənddə bir toy məclisində baş vermiş faciəli əhvalatdan bəhs edir. Aşıq bu əhvalatın Ərzurumun Nəriman bölgəsində baş verdiyinə işarə edərək hamının şad və xürrəm halda sevinc içində olduğunu təsvir etmişdir :

Seyrə cəm olmuş necə cavanlar,
Sevişir, gülüşür səbi - subyanlar.
Əlləşir, güləşir çox pəhləvanlar,
Aslan cəngi bir meydana yetişdim.

Otuz iki bənddən ibarət bu dastanda müəllif bu əhvalatı təsvir edərkən toy mərasimində icra olunan ayinləri, adət ənənələri, müxtəlif dini və milli ritualları zəngin çalarları ilə verir. Meydana yığışan qız-gəlinlər, gənclər və yaşlılar bu mərasimdə müqəddəs ənənələrə hörmətlə riayət edirlər:

O divanda əda etdik namazı,
Əl qaldırıb haqqa qıldıq niyazı
Hər kəs xanəsinə qıldı pərvazı
Rahat olub bir iskana yetişdim.

Bütün bu mərasimi ardıcıllığı ilə təsvir edən aşıq kənd camaatının mənəvi dəyərləri uca tutduqlarını poetik misralarla ifadə etmişdir. Poetik təhkiyə səciyyəsi daşıyan bu təsvirlər canlı və maraqlı lövhələr kimi yadda qalır. Dinləyici auditoriyası hadisənin sanki canlı şahidinə çevrilir. Çünki bu təhkiyə üslubu sənətkarın özünün də obrazının konkret cizgilərini yaradır:

Təkbirdə lisanlar verdi avazı,
Hər kəs təqsimində oldular razı,
Dedilər Sümmani qalx endir sazı,
Dəm çəkəlim, xoş zamana yetiştim.

Aşıq Sümmani bu ürəkaçan təsvirlərdən sonra evin damının çökdüyünü, adamların uçuqların altında qalıb həlak olmalarını ürəkağrısı ilə qələmə almışdır. Dastanın əvvəlindəkində xoş ovqat yaradan mənzərə ilə damın uçması arasındakı təzad əhvalatı daha real və həyati detallarla təqdim etmək ustalılığı aşığın yüksək sənətkarlığını nümayiş etdirir. Aşıq Sümmaninin bu faciəsinin ağırlığını, ərşə çıxan ah-nalələri qəmli misralarla ifadə etmiş, "aman, Allah, nə nə fəğana yetişdim."- deyə özü də nalə çəkərək iztirab və həyəcanlarını bildirmişdir. Aşağıdakı bəndlər bu əhvalatı daha aydın təsəvvür etməyə imkan yaradır:

Bu necə zülmdür yetişdi bizə,
Torpaqlar saçıldı üz ilə gözə.
Eşdilər sonra da çıxdı cənazə,

Artdı fəğan, ah-amana yetişdim.

Çıxdı bir cənazə kimə danışaq,
Can evində damarları yumuşaq,
Ruh qəfəsdən uçmuş, köksündə uşaq,
Buraxmamış, o cavana yetişdim.

Azərbaycan ədəbiyyatında tarixi mənzumə janrını xatırladan bu əsər Aşıq Sümmanin bir sənətkar kimi el-obanın dərdlərinə dərindən şərik olduğunu göstərir. Ümumiyyətlə, Aşıq Sümmaninin dastanları maraqlı və səciyyəvi cəhətləri ilə zəngin bir xəzinədir. Bu dastanların Azərbaycan aşıq ədəbiyyatında mövcud uyğun janrlarla müqaisəli şəkildə araşdırılması gələcək tədqiqatlar üçün yeni istiqamətləri müəyyənləşdirməyə imkan yarada bilər.

AŞIQ SÜMMANİ YARADICILIĞINDA BUTA MƏRASİMİ

Şimşek Selma Mehmet
Sumqayıt Dövlət Universiteti

Doğu Anadolu aşıq mühitinin yetişdirdiyi görkəmli saz-söz sənətkarlarından biri də Aşıq Sümmanidir. Onun əsl adı Hüseyindir. O, 1861-ci ildə Ərzurum bölgəsinin Nəriman qəzasının Samiqala kəndində anadan olmuşdur. Samiqala kəndində camaatın dolanışığı əkin-biçin və heyvandarlıqla bağlı olduğundan balaca Hüseyn də on bir yaşından çobanlığa başlamış, uşaqlığını təbiətin qoynunda keçirmişdir.

Aşıq Sümmaninin həyatı və onun buta alması barəsində xalq arasında bir-birindən maraqlı əhvalatlar yayılmışdır. Tanınmış folklorşünas Umay Günayın apardığı araşdırmalardan məlum olur ki, Aşıq Sümmaninin buta alması ilə əlaqədar üç variant mövcuddur. Biz bu yazımızda bu variantların hər birini ayrı-ayrılıqda nəzərdən keçirməyi məqsədəuyğun sayırıq.

Buta mərasimi ilə bağlı variantların birində deyilir ki, Hüseyn Ablak daşı adlanan yerdə qoyunları atarkən atasının tövsiyəsi ilə buradakı şəhid məzarlarının ətrafını basmış kol-kosu təmizləyərkən yuxuya gedir. Yuxuda o, ixtiyar bir qoca görür. Qoca ac olduğunu söyləyir və ondan kəndin yolunu soruşur. Hüseyn heybəsindəki arpa çörəyini ona uzadır. Atlı çörəkdən bir loxma aldıqdan sonra geri qaytarır. Hüseyn bunun səbəbini soruşduqda o, "Xızır çörək yeməz"-deyir. Xızır peyğəmbər Hüseynə İsmi-əzəm duasını öyrədir və ona deyir: "Oğlum, bu duanı qırx gün oxu, məni gördüyünü kimsəyə söyləmə. Qırxıncı gün Ablak daşına get, Haqqın buyurduğunu alarsan. Bu sözdən sonra o qeyb olur.

Hüseyn ayıldıqda gördüklərinin röya, yoxsa xəyalmı olduğunu anlaya bilmir və bayılır. Onu bayğın bir halda məzarlıqdan tapan əmisi evlərinə gətirib ayıldır.

Hüseyn hər gün İsmi-əzəm duasını oxuyur, qırx günün tamamlandığını bilmək üçün bir çubuğu hər dəfə çərtərək işarətləyir. O, Xızırın tövsiyəsinə əməl edərək yuxusunu heç kəsə danışmır.

Qırxıncı gün ərənlər bulağından abdəst alır, namazın vaxtını öyrənmək üçün günəşə baxarkən yenidən yuxuya dalır. Yuxuda o, yaşıl cübbəli üç dərviş və Xızırı görür. Ona oxuma-yazma öyrədib kağızda yazılmış "Gülpəri" sözünü oxudurlar. Ona badə içirir və eyni anda Gülpəriyə də badə verirlər. Hüseyn beləcə Bədəxşan əmirinin qızı Gülpəriyə aşiq olur.

- Digər bir varianta görə, Hüseyn yuxuda Xızır peyğəmbəri görür və Xızır peyğəmbər ona:
- Əssalamün əleykim, Sümmani-deyə müraciət edir.

Sümmani heyrətlə :

- Sümmani kimdir ? – deyə soruşur.

Xızır peyğəmbər ona deyir: "Qorxma, oğul, sən istəyinə çatdın. Sənə Sümmani təxəllüsü verildi. Gördüklərini heç kəsə söyləmə".

O, Sümmanini kənd camesinə gətirib qeyb olur. Camedə ayılan Sümmani bir çubuğu hər gün çərtərək qırx gün gözləyir. Qırx gün tamamlandıqdan sonra Sümmani başına gələnləri "Tək-tək" rədifli qoşmada bu cür anladır:

Oyandım qəflətdən oldum pərişan,
Bir nur doldu aləmlər ruşan,
Salam verdi, gəldi üç dərvişan,
Lisanları bir xoş sədası tək-tək.

Dedilər, Sümmani, gəl etmə məram,
Adamı çürüdür dərd ilə vərəm.
Sənincün dünyada görüşmək haram,
Belə yazmış qələm xudası tək-tək.

Aşıq Sümmani beləcə Gülpərinin eşqinə düşərək ömrü boyu onun həsrəti ilə yaşayır. Demək olar ki, bütün ömrünü səyahətlərdə keçirən Sümmaninin lirikasında həsrət və kədər notları, iztirabları, dərdli misralar onun sevgilisinə qovuşa bilməməsi ilə bağlıdır. Aşığın poeziyasında bir tərəfdən özünün fərdi yaşantıları, hiss və həyəcanları ifadə olunursa, digər tərəfdən yaşayıb - yaratdığı cəmiyyətin ziddiyyətləri, sosial ədalətsizliklər real görüntüləri ilə təsvir edilir.

Aşıq Sümmaninin şeirlərində sufi motivlərin bədii ifadəsi onun ilk gəncliyində buta alması ilə əlaqədardır. Buta mərasimi, sevgilisi Gülpəriyə sonsuz məhəbbəti, aşığın poeziyasını dini-ürfani çalarlarla zənginləşdirir.Onun sufi məzmunlu şeirləri dini-fəlsəfi mahiyyəti, dərin məna tutumu və forma rəngarəngliyi ilə aşıq poeziyasının bənzərsiz örnəklərindən sayılır.

MƏXDİMQULU FƏRAQİNİN MƏHƏBBƏT LİRİKASI

Misirli T.F.
Sumqayıt Dövlət Universiteti

Türkmən xalqının yetişdirdiyi ən qüdrətli söz sənətkarlarından biri də Məxdumqulu Fəraqidir. Professor Ramiz Əskər bu görkəmli şairin türkmən ədəbi fikir tarixindəki yerini çox maraqlı və tutarlı bənzətmə ilə müəyyənləşdirmişdir: "Onun türkmən ədəbiyyatındakı yerini və mövqeyini qısaca olaraq bir cümlə ilə səciyyələndirmək istəsək, deməliyik ki, Bayron ingilis ədəbiyyatı, Dante italyan ədəbiyyatı, Puşkin rus ədəbiyyatı üçün nədirsə, Məxdimqulu da türkmən ədəbiyyatı üçün odur".

M.Fəraqinin poeziyasının mühüm bir hissəsini onun sevgi və məhəbbət mövzusunda yazdığı şeirləri tutur. Şairin zəngin yaradıcılığında məhəbbət insanın ruhi və gözəllik aləmindəki estetik məziyyətlərin ali nəticəsi kimi meydana çıxır,onun şeirlərinin poetik bəndlərində ideal münasibətlərin, ülvi duyğuların ifadəsini tapır. Onun "Gözəlsən" , "Yar səndən" , "Gözüm düşdü", Seyran içində, "Eşqin kitabini açalım" kimi qoşma və gəraylılarında ilahi və dünyəvi məhəbbət vəhdətdə tərənnüm olunur. Pak və coşqun məhəbbət, insani hisslər, aşiqin iztirab və həyəcanlartı onun sevgi şeirlərində obrazlı misralarla ifadə ediılir. Bu baxımdan onun qoşmaları xüsusilə diqqəti cəlb edir. Fəraqi sevgi əzablarını, həsrət və nisgilini özünəməxsus şəkildə dilə gətirir:

Şeyx Sənan tək eşq oduna qalansam,
Şibli kimi toz-torpağa bulansam,
Kəbə varib, yeddi kərə dolansam,
Görən,xəbər tutarammı, yar, səndən?

"Yar səndən" adlı qoşmada şair aşiqin ülvi hisslərini qələmə alarkən bir sıra tarixi və əfsanəvi hadisələrin, şəxsiyyətlərin adını çəkir. Müqəddəslərin (Yusif, Cərcis, İsa, Yunus) adlarını poetikləşdirməklə o, bədii fikri daha dolğun və məzmunlu şəkildə oxucuya çatdırır. Maraqlıdır ki, bu qoşmada şairin ürfani görüşləri real duyğularla birləşərək bir ahəngdarlıq təşkil edir. Doqquz bənddən ibarət bu qoşmanın demək olar ki, hər bəndi məhz bu ruhdadır. Qoşmanın son bəndinə nəzər salmaqla bu keyfiyyəti aydın görmək olar:

Məxdumqulu, aşiqlərin məstində,
Nərgiz gözü heyran edər dəstində,
Yeddi yerdə, doqquz fələk üstündə,
Görən, xəbər tutarammı, yar, səndən.

Şairin məhəbbət mövzusunda qələmə aldığı şeirlərin mətnində onun ürfani görüşləri, sufi düşüncələri əks olunmuşdur. Bu duyğu və düşüncələri o, təsəvvüf simvolikası, sufi işarələr və eyhamlar vasitəsilə poetikləşdirir. Ulu Tanrıya tapınmaq, onun qüdrət və əzəmətini duymaq Fəraqinin sufi şeirlərinin başlıca ideya istiqamətini təşkil edir. Sənətkarın fikrincə, maddi dünya müvəqqətidir, dünyanın sirlərini dərk etmək üçün uca Yaradana sığınmaq, mənəvi dünyanın gözəlliklərində saflaşmaq, ölümü də var olmaq kimi anlamaq lazımdır:

Məxdimqulu, sirrim çoxdur,
Mən neyləyim, açan yoxdur,

Ölmək haqq, dirilmək haqdır.
Oxudun Quran içində.

Bənddən göründüyü kimi, Məxdimqulu Fəraqi təriqət poeziyasının ürfani məqamlarını dərindən dərk edən bir sənətkardır. Bu ülfani məqamları şair sufi simvolikası ilə işarələyərək öz fikirlərinin poetik formalarını yaradır.Müəllifin "Seyran içində" gəraylısında mürəkkəb sufi anlayışları, təsəvvüf simvolikası və digər ürfani elementlər şeirin məzmununa ilahi bir ruh gətirir.

Ümumiyyətlə, Məxdumqulu Fəraqinin şeirlərində dini təsəvvüf elementləri, sufi motivləri kamilliyə çatmağa çalışan aşiqin iç duyğularını ifadə edir.Onun poeziyasında "ərən", "dərviş", "sübhan" və sair kimi təsəvvüf terminləri sıx-sıx işlənir. Maraqlıdır ki, ürfani şeirlərində yalnız sufi aşiqlərdən deyil, həm də "dilli sənalı quşlardan" ulu tanrıya şükranlığı bildirmək üçün göylərə ucalan ağaclardan, bir sözlə, təbiətlə insanın vəhdətindən geniş söhbət açılır. Bu da Fəraqi poeziyasının sufi semantikasını müəyyənləşdirən mühüm bir keyfiyyət kimi özünəməxsus və orijinal səciyyə daşıyır.

MİLLİ AZADLIQ MÜCAHİDİ-NAMİQ KAMAL

Məmmədova T.Y.
Sumqayıt Dövlət Universiteti

XX əsr Türkiyə ədəbi-mədəni fikir tarixində özünəməxsus mövqeyi olan görkəmli şəxsiyyətlərdən biri də Namiq Kamaldır. həm bədii, həm də ictimai-siyasi fəaliyyəti ilə öz vətəni və milləti qarşısında əvəzsiz xidmətlər göstərmiş, yurd sevgisini, azadlıq və istiqlaliyyət duyğularını dərin mənalı əsərlərində yüksək pafosla ifadə etmişdir.

Namiq Kamalın ruhuna və yaradıcılığına hakim kəsilən vətən mövzusu, vətənpərvərlik hissləri özündən sonrakı nəsillərə böyük təsir göstərmişdir. Təsadüfi deyildir ki, türk dünyasının böyük vətənpərvəri Mustafa Kamal Atatürk onun haqqında demişdir. "Vətənin azadlığı və istiqlaliyyəti yolunda ölməyi bugünkü nəslə Namiq Kamal öyrətdi".

Namiq Kamal bütün əsərlərində vətənin böyüklüyünü, millətinin qüdrət və əzəmətini sənətkarlıqla qələmə almışdır. O, hələ "İbrət" qəzetində işlədiyi zaman yazdığı məqalə və şeirlərində Türkiyənin gələcəyi naminə mübarizələrdən, qorxulu çarpışmalardan çəkinməmiş cəsarətlə haqq səsini yüksəltmişdir. Şeirlərinin birində o,xalqı milli-dini birlik uğrunda mübarizəyə səsləyərkən əsil hürriyyət sərkərdəsi kimi çıxış edir:

Qalxın, ey əhli vətən, biz də şadan olalım,
Dini-millət uğrunda, haydı qurban olalım.
Şan günüdür bu gün, ey millətin aslanları,
Çəkəlim qılıncları, tökəlim al qanları.

Misralardan göründüyü kimi, bu çağırış mübariz bir döyüş sərkərdəsinin öz silahdaşlarına əzmkar müraciətini yada salır.

Məlumdur ki, Namiq Kamalın zəngin və çoxşaxəli yaradıcılığında "Hürriyyət qəsidəsi" xüsusi yer tutur. Bu şeirdə o, vətən eşqini, azadlıq arzularını, milli-etnik duyğularını obrazlı misraların axarında ifadə etmiş, özünə xas coşqunluqla məqsəd və məramını bildirmişdir. Təsadüfi deyildir ki, bu böyük sənətkarın ədəbi-bədii irsini tədqiq edən araşdırıcıların ümumi qənaətinə görə, "Hürriyyət qəsidəsi" türk ədəbiyyatının ən güclü poeziya örnəklərindən biri kimi qiymətləndirilir. Otuz bir beytdən ibarət olan bu qəsidə ideya-məzmun xüsusiyyətlərinə görə himn kimi səciyyələnir. Bu baxımdan "Hürriyyət qəsidəsi" lirik duyğularla yanaşı, sosial motivlərlə də olduqca zəngindir:

Görüb ehkami-əsri münhərif sidqi - səlamətdən,
Çəkildim izzəti-iqbal ilə babü-hökumətdən.
Usanmaz kəndini insan bilənlər xalqa xidmətdən,
Mürüvvətmənd olan, məzlumə əl çəkməz ianətdən.

İlk dəfə "Vakit" qəzetinin 2 iyun 1876-cı il tarixli nömrəsində dərc olunmuş bu qəsidəni Namiq Kamalın ədəbi-ictimai fəaliyyətinin proqramı kimi səciyyələndirməkolar.

Vətənini xöşbəxt və azad görmək istəyən ədib istiqlal uğrunda mübarizəni damarlarında türk qanı axan Anadolu kəndlisinin başlıca arzusu kimi təsvir və tərənnüm edir. Şair bütün varlığı ilə xalqa bağlılığını, milli soykökünə sədaqətini öz əsərlərində nümayiş etdirmiş, xalqın qurtuluşu, vətənin cəhalət və mənəvi əsarət girdabından xilas olması üçün şəxsiyyət azadlığını ön plana çəkmişdir. O, millətinə xidmət etməyi, ona sədaqətli olmağı böyük qürur hissi ilə ifadə edərək yazırdı:

Vəqf eylədim vücudumu mən rəhi millətə,
Bəzləylədim həyatımı fikri himayətə,
Cismim aləmdə olsa da, hunum boğar məni,
Verməm macal mən sənə xalqa xəyanətə.

Onu da qeyd edək ki, Namiq Kamalın poetik yaradıcılığı ideya-estetik prinsipləri ilə həm romantik, həm də realist üsulları, lirik və sosial duyğuları özündə birləşdirir. Özünü bir fərd kimi xalqının övladı sayan şair daim işığa can atır, mənəvi əsarətə, zülm və istibdada qarşı mübarizə yollarında türk ziyalısının mütərəqqi ənənələrini davam və inkişaf etdirirdi. Onun poeziyasında milli-etnik duyğular nə qədər güclüdürsə, bəşərilik, humanist hisslər də bir o qədər coşqun və əzəmətlidir. Başqa sözlə, onun poeziyasında insan taleyi, mənəvi təkamül, elm və milli əxlaq prinsipləri, vətəndaşlıq duyğusu daha geniş və dərin bir fəlsəfi-sosial mahiyyət daşıyır. Məhz bu sosial-fəlsəfi mündəricəsi ilə Namiq Kamal poeziyası türk övladının keçmişinin, bu gününün və gələcəyinin bədii salnaməsinə çevrilmişdir.

XIX ƏSR AZƏRBAYCAN EPİK ŞEİRİNİN BƏZİ XÜSUSİYYƏTLƏRİ

İsmayılova Ə.Ş.
Sumqayıt Dövlət Universiteti

XIX əsrin əvvəllərindən başlayaraq Azərbaycan şeirində epik poeziyasının əsas ideya xüsusiyyətlərindən birini realist meyillərin özünəməxsus şəkildə güclənməsi təşkil edir. Bunun da ən mühüm səbəbləri arasında poeziyada ictimai motivlərin getdikcə genişlənməsidir. Rusiyanın Azərbaycanı işğalından sonra həm qarşılıqlı ədəbi əlaqələrin, həm də sosial-siyasi vəziyyətin təsiri nəticəsində epik şeirin rəngarəng təzahür formaları meydana çıxır. Xalqın istismarçılara qarşı nifət və qəzəbini əks etdirən poetik mətnlər həlledici rol oynayır. Maarifçi poeziyada bu cəhət daha çox ədalətli cəmiyyət axtarışlarında, ağıl və zəkanın təntənəsində özünü göstərir. XIX əsrin 30-40-cı illərindən etibarən epik poeziya sosial həyata daha çox müdaxilə edir. Mirzə Baxış Nadim, Baba bəy Şakir, Qasım bəy Zakir və başqa şairlərin yaradıcılığında ictimai zülmə, sosial ədalətsizliyə qarşı etiraz motivləri daha çox epik detalların fonunda müşahidə olunur. Mirzə Baxış Nadim çar Rusiyasında mövcud quruluşun eybəcərliklərini, süründürməçiliyi, rüşvətxorluğu epik cizgilər vasitəsilə açıb oxucuya göstərir, real həyat həqiqətlərini istehzalı misralarla ifadə edirdi. Aşağıdakı nümunədən bunu aydın görmək olar:

Hər kimə söz deyirəm ovcun açır ki, mənə ver,
İstəyir qırxa başım misali-dəllək Ağayar.
Düşmənin tənə sözü, həm urusun zavtrası,
Bağrımı parə edib, qoymayıb aram-qərar

Maraqlıdır ki, M. B. Nadinin bu təsvirləri özündən sonra yaranan müxtəlif janrlı əsərlərin ideyaları ilə üst-üstə düşür. Məsələn M. F.Axundzadənin "Sərgüzəşti-mərdi xəsis" komediyasında Hacı Qara həbs olunarkən çar hüquq-mühafizə orqanlarının süründürməçiliyindən və bürokratizmindən vahiməyə düşərək deyir: " Mən silistdən qaçırdım, genə silistə düşdüm. Çibindən birəyədək başlayacaqlar soruşmağa. Di gəl boş-boş suallara cavab ver. Gözlə ki,axırı nə olacaq. "

Onu da qeyd edək ki, XIX əsrin epik şeirində real meyillər bu dövrdə fəaliyyət göstərən sənətkarların yaradıcılıqlarında fərqli şəkildə özünü büruzə verir. Problemə bu aspektdən yanaşsaq A.Bakıxanovun poeziyasında epik lövhələrin səciyyəvi cəhətlərini görə bilərik. Şairin "Mişkatül-ənvar" və "Miratül-cəmal" poemalarında, "Qarı və harun", "Kələkbazlıq", "Ümidin boşa çıxması" kimi mənzum hekayəsində lirika ilə satirik boyalar bədii harmoniya təşkil edir, epik təsvirin özünəməxsus çalarlarını müəyyənləşdirir. Onun "Kələkbazlıq" adlı mənzum hekayəsində hazırcavab insanların orjinal səciyyə daşıyır. Əsərdə adı Məhəmməd olan bir nəfər gənci qucaqlayıb öpdüyü üçün gəncin şikayəti əsasında o, şahın hüzuruna çağrılır. Şah qəzəblə onun bu nalayiq hərəkətinin səbəbini soruşduqda həmin adam ona " bilndə ki,onun adı Məhəmməddir, özümdən asılı olmayaraq gənci qucaqlayıb öpdüm" – deyə cavab verir. Şah çox çirkin və eybəcər görkəmi olan bir nökərini çağırıb " bunun da adı Məhəmməddir, əgər bu ada aşiqsənsə,onda bu adamı da öp "-deyir. Şahın bu əmrindən boyun qaçırmaq üçün kələkbaz kəndli ona belə cavab verir :

Doğrudur, adlanır bu da Məhəmməd,
Təkcə mən deyiləm burada ümmət.
Qoy onu başqası öpsün bu anda

Ta ki, feyz aparsın bir müsəlman da.

Göründüyü kimi, A.Bakıxanov bu mənzum hekayədə dindən, müqəddəs şəxsiyyətlərin adından öz məqsədləri üçün istifadə edən yaramaz və hiyləgər insanları tənqid edir. Şair bütün mənzum hekayələrində olduğu kimi, bu əsəri də özünəməxsus ibrətamiz əxlaqi-didaktik sonluqla yekunlaşdırır :

Bizə nə xoş gəlsə, biz də o saət,
Adına deyərik təqva, ibadət.
Qüdsi də belədir,yeri gələndə,
Deyir ki, itaət edirəm mən də.

A.Bakıxanovun mənzum hekayələri müasirlərindən fərqli olaraq yığcam məzmunu, əxlaqi-didaktik ideyası və lirik üslubun təzahürü ilə səciyyələnir. Cəmi on bir beytdən ibarət olan "Xeyirli işin faydası" əsərində şair xalq üçün yaşayıb-yaratmağı, faydalı əməlləri təbliğ edir. "Məşvərətin şərtləri" adlı hekayədə isə " doğruya zaval yoxdur" ideyası əks olunmuşdur. Ümumiyyətlə, A.Bakıxanovun mənzum hekayələrində epik təhkiyənin mühüm əlamətlərindən biri sujetin əsas iki obraz arasında baş verən əhvalat üzərində qurulmasıdır. "Məşvərətin şərtləri"ndə əmir və fazil şəxs, "Məlamət əlaməti"ndə bağban və hökmdar, "Tədbirin gözəlliyi"ndə nədim və sultan obrazları buna nümunə ola bilər. Fikrimizcə, mütəfəkkir şair bu cür poetik üsuldan istifadə etməklə, obrazlardan birinin dili ilə özünün maarifçi görüşlərini ifadə etməyə çalışmış, yuxarıda qeyd etdiyimiz kimi, düşüncələrini əxlaqi didaktika ilə bitirmişdir. "Məşvərətin şərtləri" adlı mənzum hekayədə müəllif qayəsi xalq ədəbiyyatından gələn müdrikliklə ifadə olunmuşdur.

Düzlükdən qüdrətli bir dövlət yoxdur,
Ey Qüdsi, düzlükdə səadət çoxdur.

XIX əsr Azərbaycan poeziyasında epik şeirin inkişaf yolları özünəməxsus məzmun və forma xüsusiyyətlərinin zənginliyi ilə səciyyələnir. Abbasqulu ağa Bakıxanovun epik poeziyasında bu cəhətlər daha qabarıq şəkildə nəzərə çarpır.

ELÇİNİN HEKAYƏLƏRİNDƏ FOLKLORİZM

Hüseynova A.E.
Sumqayıt Dövlət Universiteti

Azərbaycan ədəbi nəsrində folklordan istifadənin formaları genişdir. X.Manaflı Azərbaycan nəsrində onların etnoloji, ənənəvi və intellektual modellərinin mövcudluğunu qeyd edir. Bu istiqamətləri Azərbaycan nəsri üzrə araşdırmaya cəlb edən X.Manaflı nədənsə folklorizmi ayrı-ayrı yazıçıların – xüsusilə Anarın, Ə.Mustafayevin və Elçinin yaradıcılığı əsasında araşdırır. Ancaq Elçinin yaradıcılığından bəhs edərkən onun yaradıcılığında əsasən ənənəvi folklorizmi önə çəkir və onu geniş təhlilə cəlb edir. Bununla belə, ədibin yaradıcılığında etnokulturoloji folklorizmin mövcudluğunu inkar etmir: "Elçin xalqın etnik həyatını, adət-ənənələrini, məişətini, psixoloji durumunu öyrənməyə daim meylli olmuşdur. Xalqının taleyini, tarixini dərindən bilən, öz əsərlərində dönə-dönə bu həyatı bədii ədəbiyyata gətirən İlyas Əfəndiyevin ailəsindəki ziyalı mühiti hələ çox gənc yaşlarından Elçini bu mühitə bağlamış, onda xalqın tarixinə, ədəbiyyatına güclü müşahidə, aydın mühakimə mövqeyi yaratmışdı. Əlinə qələm aldığı ilk illərdən bunlar Elçin düşüncəsinə hakim kəsilmiş və 60-cı illər nəsrinə belə bir əhval-ruhiyyə gəlmişdir". Elçinin milli dəyərlər üzərində ədəbiyyata gəlməsinə aydın münasibət bildirən bu mülahizələr onun folklor qaynaqları, milli həyat və düşüncə ilə ədəbiyyata gəldiyi illərlə sıx bağlı olduğunu kifayət qədər aydın əks etdirir. Tənqidçi A.Hüseynova görə, "bu dövrə qədərki nəsrdə adama elə gəlir ki, mövzu qıtlığı və mövzu təkrarçılığı nəzərə çarpır. 60-cı illərin ədəbiyyatında isə bədii nəsrin artıq təbliğat mövzularını araya gətirir, oxucu diqqətinə yönəldir". Belə bir dövrdə yaradıcılığa başlayan Elçinin hansı cəbhədə dayanması onun gələcək yaradıcılıq yolunun müəyyənləşdirilməsi üçün həlledici məqam idi. Milli həyata, folklor qaynaqlarına daha yaxın olan Elçin X.Manaflının dediyi kimi, "Elçin ədəbiyyatçılığa başladığı ilk vaxtlarda məhz ikinci mövqedə dayandı. İlk yaradıcılıq nümunələrindən başlamış bütün sonrakı dövrdə həmin mövqeyinə daim sadiq qaldı. Xüsusilə müasir mövzuda yazdığı əsərlərdə onun folklorizmdən istifadəsinin özünəməxsus ifadə tərzi var. Bir çox hallarda bu, üstüörtülü,

mətnaltıdır, eyham şəklindədir. Bəzi məqamlarda isə ənənəvi folklor süjetlərinin, obrazlarının və motivlərinin yeni səpkidə - bütün milli koloriti, mövzu və məzmun gözəlliyi ilə əks olunmasındadır. Buna görə də Elçin yaradıcılığında folklorizmdən istifadə formaları bir-birindən müəyyən cəhətləri ilə fərqlənir". Elçin yaradıcılığında folklorizmin ifadəsinin aydın elmi şərhini verən X.Manaflı burada yenə etnofolklorizmin ədibin yaradıcılığında təzahür formalarını müəyyən edir. Əsərlərindəki etnofolklorizm xüsusiyyətləri üzərində dayanır, ancaq əsas tədqiqat kimi isə ədibin yaradıcılığında ənənəvi folklorizm məsələsini daha çox önə çəkir.

Təbii ki, Elçin yaradıcılığında ənənəvi folklorizmdən istifadə üstünlük təşkil edir. Amma bununla belə ədibin yaradıcılığında həm etnoloji, həm də intellektual folklorizmdən istifadə də vardır və hətta bir sıra nəsr əsərlərində onlar özlərini güclü şəkildə göstərməkdədir. Biz əlbəttə, nəsrimizdə folklorizm məsələlərinin yaxşı tədqiqatçısı olan X.Manaflıya hansısa bir şəkildə irad tutmaq fikrindən uzağıq. Sadəcə olaraq Elçin nəsrinin ayrıca olaraq folklorizm kontekstində öyrənilməsi zamanı aşkar oldu ki, ədibin yaradıcılığında folklorizmin hər üç tipindən yeri gəldikcə istifadə edilmişdir.

Bizə belə gəlir ki, bu xüsusiyyət 60-cı illərdə yaranan nəsrimiz üçün bütövlükdə əsas xüsusiyyətlərdəndir. Çünki Anar, Ə.Mustafayev kimi folklorizm elementləri bu dövrdə yetişən Ə.Əylisli, M.Süleymanlı və başqa yazıçıların yaradıcılığından da yan keçməmişdir.

60-cı illərin əvvəllərində nəsrə gələn və yeni ədəbi axtarışlarda olan Elçin ənənəvi və trafaret mövzulardan qaçıb ilk növbədə gördüyü, rastlaşdığı həyat faktı və hadisələrini qələmə aldı. Onların bir qismi regional, müəyyən məhəlli düşüncəni əks etdirsə də, çox güclü folklorizmi ilə səciyyələnirdi. Bu baxımdan elə "Baladadaşın ilk məhəbbəti", "Sarı pencək", "Qatar. Pikasso. Latur. 1968", "Baladadaşın toy hamamı", "Talvar" və başqa hekayələr yaxşı nümunə idi.

Elçin yaradıcılığında folklorizmin hər üç nümunəsindən istifadənin izləri elə onun hekayələrində görünməkdədir. Yuxarıda misal gətirdiyimiz "Bülbülün nağılı"na bir daha diqqət yetirək. C.Əhmədov Elçinin qəhrəmanları haqqında yazır: "Elçinin hekayələrinin əsas qəhrəmanları gənclərdir. O, gənclərdən necə yazmağı yaxşı bilir, yaxşı bacarır. Mən burada müasir gənclərin məhəbbətindən, gənc ailələrin təşkilindən bəhs olunan "On ildən sonra" və "Qırmızı ayı balası" hekayələrini ayrıca qeyd etmək istərdim... Gəmi təmiri zavodunun mühəndisi S.Səlimov nədənsə yenicə qurduğu ailəsini dağıtmışdır. O, arvadı Şəfiqədən, bir balaca qızı Leyladan ayrı yaşayır. Yenicə ailə qurmuş, sevgiyə, məhəbbətə əyləncə kimi baxan gəncləri tərbiyə etmək, onları doğru yola çağırmaq, təbii olaraq yazıçılarımızın borcudur. Elçihn bu mövzunun bədii həllini orijinal şəkildə vermişdir. Balaca Leyla dörd yaşında ikən babası Mədəd kişi ona oyuncaq, qırmızı ayı balası almışdır. Bu oyuncaq hekayədə bədii bir vasitə rolunu oynamış, mühəndis S.Səlimovu tənhalığın üzücü, dəhşətli və əzablı təsirindən, ailəsizlikdən qurtarmış və onu gənc ailəsinə qovuşdurmuşdur.

Elçinin hekayələrində incə bir yumor vardır. Gənc yazıçı cəmiyyətimizin üstünlüklərini, adamlarımızda özünü göstərən yeni və müsbət əxlaqi keyfiyyətləri təsdiq etməyi bacardığı kimi, irəliləyişimizə mane olan, keçmişdən miras qalan köhnəlik qalıqlarını, tüfeyli həyat tərzinin puç aqibətini də amansızcasına qamşılayır". Göründüyü kimi, tənqidçi etiraf etməsə də, hekayədə təsvir edilən məişət həyatı və əxlaqı etnoloji folklorizm detalları üzərində qurulmuşdur. "Bülbülün nağılı"nda olduğu kimi, burada da Elçin cəmiyyətin həyatına müraciət edir. Burada baş verən hadisəni hekayəyə gətirir, milli ənənənin təhrifinin qarşısını alır. Adicə bir ayı balası ailəni dağılmaqdan xilas edir. Buradakı problem heç də "Bülbülün nağılı"nda olandan kiçik deyildir.

MÜTƏRƏQQİ İDEYALARIN CARÇISI

Gürpınar Çetin Yusuf
Sumqayıt Dövlət Universiteti

Bəşər tarixində baş verən mühüm sosial-siyasi inqilablar, ictimai titrəyiş və zəlzələlər bir qayda olaraq milli şüurun, mənəvi dirçəlişin canlanması və inkişafı ilə müşahidə olunur. Çar Rusiyasında sosial quruluşu lərzəyə gətirən 1905-1907-ci illər inqilabı yalnız slavyan xalqlarının deyil,türk-müsəlman xalqlarının da ictimai-siyasi və mədəni həyatında mühüm dəyişikliklərə səbəb oldu. Romanovlar sülaləsinin ayrı-seçkilik siyasəti milli ucqarlarda kəskin etirazlarla qarşılandı. Türk-müsəlman xalqlarının qabaqcıl ziyalıları,şair və yazıçıları çarızmin yeritdiyi siyasətə qarşı çıxır,cəsarətlə milli geriliyi, cəhalət və fanatizmi,çar çinovniklərini tənqid atəşinə tuturdular. Belə sənətkarlardan biri də tatar xalqının

görkəmli şairi, XXəsr tatar tənqidi-realist ədəbiyyatının qüdrətli nümayəndəsi Qabdulla Tukaydır. Cəmi 27 il (1866-1913) ömür sürən, ömrü boyu maddi sıxıntılar çəkən bu görkəmli söz sənətkarı doğma xalqını dərin məhəbbətlə sevmiş, onu cəhalət girdabından,əsarət boyunduruğundan xilas etməyə çalışmışdır.

Q.Tukay tatar xalqının cəhalət və əsarətdə saxlamağa cəhd edən mürtəce qüvvələrə qarşı var qüvvəsi ilə mübarizə aparmış, yalnız satirik şeirləri ilə deyil, həm də kəskin ruhlu publisistik yazıları ilə mətbuatda çıxış etmişdir. Onun tənqidi məqalələri "Fikir", "Yeni əsr", "Ox", "İldırım" kimi satirik qəzet və jurnallarda çap olunmuşdur. Qeyd etmək yerinə düşər ki, Q.Tukay da görkəmli satirik şairimiz M.Ə.Sabir kimi öz xalqını qəflət yuxusundan oyatmağa və bu yolda mövcud əngəlləri yıxmağa çalışmışdır. Q.Tukaya "Molla Nəsrəddin" jurnalının və M.Ə.Sabir yaradıcılığının böyük təsiri olmuşdur.

Qabdulla Tukayın poeziyası məzmunca zəngin olduğu kimi, formaca da rəngarəngdir. O da bir çox Şərq şairləri kimi klassik janrlarda qələmini sınamışdır. Lakin Q.Tukay ənənəvi janrlara novatorcasına yanaşmış, yenilikçi ideyaların təbliğatçısı, köhnəliyin və geriliyin ifşaçısı kimi tanınmışdır.

Milli-etnik köklərə bağlılıq, xalq məhəbbəti Q.Turkayın yaradıcılığını şərtləndirən başlıca ideyalardır. O, M.Hadi, N.Kamal, M.Ə.Sabir, T.Fikrət və türk dünyasının digər şairləri kimi millətinə bəslədiyi tükənməz sevgini hərarətli misralarla dilə gətirmişdir. Q.Tukay "Millətimə" şeirində öz hisslərini yüksək pafosla, səmimi misraların axarında poetikləşdirmişdir:

Bütün fikrim gecə-gündüz sizə aiddir, millətim,
Səhhətindir səhhətim, həm illətindir illətim.
Müqəddəssən, möhtəşəmsən içimdə bütün hər şeydən,
Dəyişməm kainata millətimi, millətimi.

Qabdulla Tukay öz şeirlərində mərdlik, dostluğa sədaqət, humanizm kimi mənəvi keyfiyyətləri təbliğ edir, cəhalətpərəstliyi, namərdliyi, geriliyi kəskin ifadələrlə tənqid atəşinə tuturdu. Bu məqamda onun fikirləri Sabirin qabaqcıl ideyaları ilə yaxından səsləşir.

Mən mum kimi yumşalıram xeyirxah işə,
Doğru sözdən şirin olur ağzım həmişə,
Namərdliyi qılınc kimi kəsirəm ancaq,
Lütfkar ol, alqış söylə sən bu vərdişə.

Maraqlıdır ki, Q.Tukayın bu qəbil şeirlərində lirik duyğular ictimai fikir və düşüncələrlə birləşərək bədii bir vəhdət təşkil edir. "Öz xalqıma" adlı qəzəl bu baxımdan səciyyəvidir.Qocaman ədəbiyyatşünas P.Xəlilov şairin bu şeirini onun "hərarətli andı" kimi qiymətləndirmişdir. Qəzəldə Q.Tukay vətənpərvərlik duyğularını, xalqına, onun dilinə və mədəniyyətinə sonsuz məhəbbətini poetik boyalarla ifadə etmişdir. "Yer üzünün çələngisən, hər varlıqdan müqəddəssən"- deyə xalqına müraciətlə səmimi hisslərini dilə gətirir. Oxucu bu şeirdə vətəndaş bir şairin alovlu qəlbinin səsini eşidir, ona heyran olur.

Qabdulla Tükay mütərəqqi ideyalar carçısı, vətəninin, millətinin vurğunu kimi tatar və başqırd ədəbiyyatında silinməz izlər buraxmış, özündən sonra bir çox sənətkarlara dərin təsir göstərmişdir.

QABDULLA TUKAYIN XATİRƏLƏRİ HAQQINDA

Gürpınar Çetin Yusuf
Sumqayıt Dövlət Universiteti

Görkəmli tatar şairi Qabdulla Tukayın yaradıcılığında millət və vətən mövzusu, milli-azadlıq duyğularının tərənnümü, səmimi hisslər mühüm yer tutur. Onun qısa, lakin mənalı ömrü tatar xalqının xöşbəxtliyin yolunda şam kimi ərimiş, gərgin və məşəqqətli mübarizələrdə keçmişdir.Türk xalqlarının ədəbiyyatını sevə-sevə araşdıran,görkəmli söz sənətkarlarının əsərlərini Azərbaycan dilinə tərcümə edən tanınmış türkoloq və tərcüməçi Ramiz Əskər Qabdulla Tukayın haqqında yazmışdır: "Qabdulla Tukay tatar ədəbiyyatının Dankosu idi. Ürəyini günəşə çevirərkən bütün varlığı ilə yandı, doğma xalqını zülmətdən, cəhalətdən çıxmasına kömək etdi, bu yolda həyatını əsirgəmədi."

Doğrudan da, bu böyük sənətkarın zəngin yaradıcılığını diqqətlə izlədikdə onun doğma xalqına nə qədər qırılmaz tellərlə bağlı olduğunu görmək olar. O da çox yaxşıdır ki, Tukayın xatirəsini xalq heç vaxt

unutmur, onun adı vətənində, eləcə də türk ellərində böyük məhəbbətlə anılır.Onun çoxşaxəli yaradıcılığını əhatə edən beş cildlik əsərləri nəşr olunmuş, haqqında dəyərli tədqiqat işləri aparılmış, məqalə və dissertasiyalar aparılmışdır.

Qeyd etmək mütləq yerinə düşər ki, Q.Tukayın poeziyasında, eləcə də, məqalə və publisist yaradıcılığında zülm və cəhalətə, sosial bərabərsizliyə, ədalətsiz cəmiyyətə qarşı mübarizə ictimai mühitlə birbaşa bağlı idi.Çünki onun həyatı, xüsusilə uşaqlığı və gəncliyi çox ağır şəraitdə keçmiş, olmazın zülm və müsibətlər görmüşdür.

Kiçik yaşlarında atasını itirən balaca Tukayı anası Məmdudə xanım ataraq başqasına ərə gedir. Lakin bir neçə ildən sonra o da xəstəlikdən vəfat edir. Üçilə kəndində yaşayan babası onu öz himayəsinə götürür. Güzəranı ağır keçən bu ailədə onun cismani və mənəvi işgəncələri daha da artır. Q. Tukay "Yadımda qalanlar" başlığı altında çap etdirdiyi xatirələrində həmin günləri acı-acı xatırlayaraq yazır: "Bu çoxuşaqlı ailəyə bir də məni əlavə etdilər. Ögey nənəmin altı göyərçini arasında mən yad bir zağça idim. Ağlayanda məni ovundurmaq, şəfqət ehtiyacı olanda əzizləmək, yazığı gəlmək, ac-susuz olanda yedirib-içirmək heç kimin yadına düşmürdü, məni dürtmələmək və sancmaqdan başqa bir işləri yox idi."

Bu kədərli xatirələrdə Q.Tukayın iç sızıltılarının, çəkdiyi dərd və iztirabların ağırlığı insan ləyaqətini alçaldan cəmiyyətə qarşı nifrət hissi oyadır. Yeməyə quru çörək belə tapa bilməyən bu ailənin yoxsul həyat tərzi minlərlə tatar ailəsi üçün çəkilməz dərdə çevrilmişdi.

Q.Tukayın xatirələrində uşaqlıq illərinin dərd və qayğıları kədərli duyğularla təsvir olunmuşdur. Bu təsvirlərdə şikayət və inilti o qədər də hiss olunmur. O, bu yoxsul və ziddiyyətlərlə dolu cəmiyyətdə baş alıb gedən özbaşınalıqlardan, mərhəmətsiz və insafsız insanlardan bəhs etdiyi kimi, qəlbində iz buraxan mərhəmətli adamlardan da məhəbbətlə söz açır. O, ögey nənəsinin etdiyi zülmlərdən bəhs edərkən ona şəfqət və qayğı ilə yanaşan Sacidə adlı qızın xeyirxahlığını olduğunu kimi real görüntüləri ilə təsvir edir.: "Bu ailədə (O vaxt artıq yetişkin qız olan Sacidədən başqa) hamı mənim xəstəliklərimə eyni şəkildə yanaşırdı: "Gəbərsə yeyənin biri azalar" .

İndiyə qədər yadımdadır ki, Sacidə nənəmdən gizlin mənə təsəlli verir, nəvaziş göstərirdi, elə ki, nənə yaxınlaşırdı mənə heç bir dəxli olmayan biganə adam roluna girirdi. O vaxtdan o qız mənim qəlbimdə bir mələk kimi yer tutur. Elə ki, onun haqqında düşünməyə başlayıram, dərhal gözlərim qarşısında ağappaq, pak bir mələk surəti canlanır."

Şairin şəxsi həyatında çəkdiyi əzab və məşəqqətlər onun şeirlərində silinməz izlər buraxmışdır. "Dilənçi" adlı şeirində kimsəsiz və yalavac bir insanın zavallı vəziyyətini real boyalarla təsvir etmişdir:

Qışdır, boran, sərt hava lopa-lopa qar yağmada,
Torpaq üstrə düşən qarı külək dərhal sovurmada.
Sızlayır yel, qışqırır yel, artır boran qar artdıqca,
Durmuş məscid qabağında bu havada kor bir qoca.
Yoxdur halı zavallının, ayaq üstə güclə durmuş:
-Versəniz bir qara pul, manat deyil, qəpik-quruş.

Q. Tukay qoca dilənçinin pərişan vəziyyətini təsvir edərkən qış fəslinin fonunda onu oxuculara təqdim edir. Bu da real həyat lövhəsi kimi dərin təsir bağışlayır.

Ümumiyyətlə, Q.Tukayın "Yadımda qalanlar" adlı xatirələri yalnız onun həyatını öyrənmək baxımından deyil, həm də iyirminci əsr tatar xalqının yoxsul həyatını, cəhalət və avamlığın hökm sürdüyü cəmiyyətin iç üzünü, onun ictimai faciələrini göstərmək baxımından da əhəmiyyətlidir.

TÜRK TARİXİNİN TƏSVİRİ H.CAVİDİN "TOPAL TEYMUR" ƏSƏRİNDƏ

Talıbova U.R.
Azərbaycan Dillər Universiteti

XX əsr Azərbaycan ictimai fikrində özünəməxsus yeri olan, nə sələflərinə, nə də xələflərinə bənzəməyən Hüseyn Cavid zəngin ədəbi irs qoyub getmişdir. Yaradıcılığının hər addımında həm poeziyada, həm də dramaturgiyada novatorluğu ilə həmişə seçilmişdir. Ömrü boyu öz vicdanına sığınan ədib, daima həqiqət axtarışında olmuşdur. Hətta həyatı bahasına başa gəlsə belə heç bir zaman həqiqətdən qaçmamışdır: "Əsiri olduğum bir şey varsa, o da həqiqət və yenə həqiqətdir".

Hüseyn Cavid həm də türk mədəniyyətinin və ədəbiyyatının inkişafı yolunda mübarizə aparmış, türk xalqlarının birliyi uğrunda həmişə çalışmışdır. Cavidin İstanbulda təhsil görməsi, Türk ədəbiyyatının güclü təsiri altında olması, həyatının önəmli bir dövrünü Türkiyədə keçirməsi də bunlara təkan vermişdir. Dövrün ən önəmli şəxsiyyətləri ilə tanış olmuş, türkçülüklə bağlı ənənələri dərindən mənimsəmişdir.

Cavid türk tarixinin obyektiv öyrənilməsinin və türk böyüklərinin doğru dəyərləndirilməsinin vacibliyini bəyan etmişdir.

Cavid qələmə aldığı faciələrdə Şərq taleyinin müxtəlif ciddi problemlərini işıqlandıraraq türkçülük ideyalarını təbliğ etmişdir Azərbaycan Türk filosofunun fikrincə, Türk hökmdarlarına başqa millətlərin alimlərinin deyil, millətimizin öz alimlərinin gözü ilə baxıb qiymət verməliyik. Eyni zamanda, Cavid türklərin həmişə törələrinə sahib çıxmalarını və milli şərəflərini uca tutmalarını, xüsusilə qeyd etmişdir.

Türk tarixinə həsr olunan əsərlərin meydana gəlməsi, milləti özünə tanıtmaq, türk millətinin keçmişdə buraxdığı səhvləri bir daha təkrarlamaması üçün dövrün yazıçıları səy göstərmiş,və bunun uğrunda çalışmışlar. Bunun üçün də, ümumtürk mədəniyyəti yaratmaq və türkün türkə dost olduğunu göstərmək Hüseyn Cavid yaradıcılığı üçün də başlıca xüsusiyyət idi. Cavid doğru buyururdu ki, ortaq türk tarixi olmadığı üçün türk hökmdarlarına sahib çıxa bilmərik. Eyni zamanda türklər tarixlərini doğru bilmədikləri üçün vaxtilə Türk sultanlarının bir-birilərilə apardıqları müharibələrdən bu gün də nəticə çıxara bilmirlər.

1925-ci ildə yazılan "Topal Teymur" əsərində Cavid özündən öncəki türkçülərin mövqeyi ilə yaxından tanış olmuş, və onlarla həmfikir olmuşdur. Belə ki, H.Cavid böyük imperiyaların dünyanı yenidən bölüşdürdüyü, müharibələrin hökm sürdüyü mürəkkəb bir dövrdə öz etiraz səsini duyurmaq üçün "Topal Teymur" tarixi dramını yazdı. Bütün dövrlər üçün aktual olan problemləri görkəmli, tarixi şəxsiyyətlərin dili ilə çatdırmağa çalışdı.

"Topal Teymur" əsərini yazarkən açıq hiss olunur ki, müəllif tarixi hadisələri dərindən öyrənmişdir, bəzi şəxsiyyət adlarını tarixdə olduğu kimi saxlamışdır. Mişkinaz Cavidin Cavid haqqındakı xatirələrindən birini xatırlamaq yerinə düşərdi: "Cavid bir dəfə dedi ki, "Topal Teymur" u, "Peyğəmbər" i yazarkən elə bil onlarla üzbəüz oturub söhbət etmişəm. Onlar mənə sanki öz təbiətləri haqqında danışmışlar. Bəzən onların bu və başqa səhv hərəkətlərini üzlərinə deyir, günahlandırır, nə üçün belə etdiklərini soruşurdum. Doğrudur, onlar da özlərini doğrultmaq üçün mənə cavablar verirdilər. Bəziləri məni qane edir, bəziləri yox".

Beş pərdədən ibarət, nəsrlə yazılmış "Topal Teymur" tarixi dramında H.Cavid tarixə sadiq qalmağa çalışmışdır. Cavidin bu əsəri yazmaqda əsas məqsədi türkçülük ideyalarının möhkəmlənməsi, türkün türkdən başqa dostunun olmadığını göstərmək idi. Əks təqdirdə əsərdə də olduğu kimi olacaqların faciəsini əks etdirmək idi.

Şərqin fateh, hökmdar kimi tanıtdırdığı Əmir Teymurla türk sultanı İldırım Bəyazid arasında yaranmış gərgin ixtilaflar və hər iki hökmdarın cahangirlik ehtirasından doğan qanlı çəkişmələr Hüseyn Cavidi yalnız tarixin dolaşıq və faciəli hadisələri kimi cəlb etməmişdir. Dramda əmir Teymurun tarixi fəthləri haqqında ətraflı məlumat verilməmişdir .Lakin biz bariz bir şəkildə əsərdə Teymurun İldırıma qarşı üstün olduğunun şahidi oluruq.Əlbəttə ki, bu səbəbsiz deyildi. Türkçülüklə bağlı axınların bir çoxunda Teymur imtiyazlı yerdə durur.

Teymurun yürüşlərində əsas məqsədi "dilləri başqa ürəkləri daha başqa" olan Avropalılar qarşısında yenilməz bir türk dövləti yaratmaqdır. Bu siyasətə mane olan türk hökmdarlarının da üstünə qoşun yeritməkdən çəkinmir. Evləndiyi serb qızının təsirilə yabançı təsirlərə uyaraq məmləkətinin qapısını türk düşmənlərinin üzünə açan İldırımın sadəlövhlüyü və xeyirxahlığı əslində xalqını daha böyük fəlakətlərə sürükləyir. Təsadüfi deyil ki, Teymur onun üzərinə hücuma keçən zaman İldırımın əsas müdafiəçiləri serblər və rumlar olur.

Cavidin bu əsəri yazmaqda əsas məqsədi türkçülük ideyalarının möhkəmlənməsi, türkün türkdən başqa dostunun olmadığını göstərmək idi.Əks təqdirdə əsərdə də olduğu kimi olacaqların faciəsini əks etdirmək idi.Tarixdə ilk dəfə iki güclü türk bir-birinə savaş açdı. Bu səhvi sonrakı nəsillər də davam etdirdilər: Uzun Həsən – Sultan Mehmet Fatih, Şah İsmayıl Xətai – Sultan Səlim. Bütün bu savaşlar, çəkişmələr türk millətinin bütövlüyünə vurulan zərbə şəklində dəyərləndirilmişdir."Topal Teymur"əsərindəki səhnələr də bu mülahizələri təsdiq etməkdədir.

Bu faciəni təsvir etməklə böyük ədib türkün indiki nəsillərini birləşməyə, birlik olmağa çağırır.

Cavid XX yüzildə Turan ideyasını əsərlərində yaşadan böyük Türk aydınlarımızdan biridir. Onun yaradıcılığında Türk dünyasının sütunları sayıla biləcək Türk tarixi, Türk fəlsəfəsi, Türk dili və Turan ideyası bir bütündür. Beləliklə böyük ədib güclü türk fatehini öz əsərinə gətirməklə Türkçülüyü milli ideal kimi təbliğ edir, onun tarixi mövqelərini möhkəmləndirirdi.

ƏLİ ƏMİRLİNİN "BÜTÜN DEYİLƏNLƏRƏ RƏĞMƏN VƏ YA AĞA MƏHƏMMƏD ŞAH QACAR" PYESİNDƏ HÖKMDAR VƏ ŞƏXSİYYƏT PROBLEMİ

İbrahimova S.V.
Azərbaycan Dillər Universiteti

Tarixi yüz altmış ilə yaxın bir dövrü əhatə edən Azərbaycan dramaturgiyası özünəməxsus bir hadisədir. Dramaturqun müasir və tarixi mövzuda yazdığı pyeslərində dünəni, bu günü, gələcəyi və milli varlığı uğrunda mübarizəsi öz dramatik təcəssümünü tapmışdır. Əli Əmirlinin pyesləri nəinki milli teatrımızın, hətta qonşu xalqların da teatr səhnəsində tamaşaya qoyulub və qoyulmaqdadır.Əli Əmirlinin "On beş pyes" kitabından sonra oxuculara təqdim edilən "Hasarın o üzü" müəllifin ikinci kitabıdır.

Kitaba daxil edilən ikinci tarixi pyes nisbətən qədim tariximizi yada salan "Bütün deyilənlərə rəğmən və ya Ağa Məhəmməd şah Qacar"dır. Əsərdə - Ağa Məhəmməd şah Qacar, anası-ağıllı, dünyagörmüş Ceyranxanım, qardaşı- Cəfərqulu xan, Cahanbani, Şeyx Cəfər Tonkabuni, Kərim xan Zənd, Axund Hacı Babək kimi bitkin obrazlar var. Dramaturq Qacarın mürəkkəb taleli şəxsiyyətini olduğu kimi bütün rəngləri ilə verib. Əli Əmirli ikinci tarixi pyesi olan "Bütün deyilənlərə rəğmən və ya Ağa Məhəmməd şah Qacar" pyesini 2005-ci ildə qələmə almışdır. Dramaturqun XVIII əsrin sonlarının ictimai – siyasi hadisələrinə müraciət etməsi təsadüfi deyildir. Azərbaycan xalqının tarixi inkişaf mərhələsində XVIII və XIX əsrlər hadisələri mühüm yer tutur. Bu baxımdan Qarabağ xanlığı ilə bağlı baş vermiş ictimai-siyasi hadisələr və bu dövrlərdə yaşamış şahlar bir çox dram əsərlərinin əsas mövzusu oldu. Bu şahlardan biri də Xacə şah- Ağa Məhəmməd şah Qacar idi.

Acınacaqlı hal kimi yada salmaq istərdik ki, illərlə bir çox şəxsiyyətlər kimi, Ağa Məhəmməd şah Qacara münasibətimiz bu dövrün hakim siyasətinə görə müəyyənləşdirilmiş, indiyənə kimi bu talesiz, bədbəxt, lakin ağıllı, siyasi biliyə malik mahir sərkərdə barəsində həqiqəti söyləmək imkanımız xaricində olub. Biz bu qüdrətli Azərbaycan türkünü xalqımıza qan içən, qəddar cəllad, yadelli işğalçı kimi tanıtmış, onu öz mühitindən çıxarıb, min bir sual qarşısına qoymuşuq. XVIII əsrin II yarısının və XIX əsrin əvvəllərinin xronikasını əhatə edən "Bütün deyilənlərə rəğmən və ya Ağa Məhəmməd şah Qacar" faciəsində tariximizin ən tragik bir mərhələsi – torpaqlarımızın parçalanması və bu fonda keçirdiyimiz mənəvi sarsıntılar dövrü təsvir olunur. Milləti keçmişə, kökə, yaddaşa qaytaran bu əsəri ilə Əli Əmirli narahat ruhların bəlirlərinə varmaq imkanı yaradır. Bədii obrazı, tarixi şəxsiyyəti, faciəsi və narahat ruhu ilə həmahəng olan Ağa Məhəmməd şah Qacar pyesdə torpaqların birliyi və müstəqilliyi naminə, ölümü belə gözə alan şəxsiyyət kimi təqdim edilir.

Əsərin giriş hissəsində Ağa Məhəmməd şah Qacarın iqamətgahı diqqətə çəkilir. Taleyinə bədbəxtlik möhürü vurulmuş hökmdarın üz-gözündən nigaranlıq, gərginlik, qaraqabaqlıq, zəhmlik, qansızlıq yağır. Başında ağırlığı uzaqdan hiss olunan şahlıq tacı, əynində qara libası var. Səhnənin əvvəlində ona dönük çıxanlara o, aman vermir, hətta öz doğma qardaşları-Rzaqulu, Mustafaqulu, Murtuzqulu xanı məhv edir.Qacar, özü də dediyi kimi, sonu olmayan bir sınağa çəkilir. Amma bu elə bir sınaqdır ki, sonda mükafatı yoxdur. Siyasi xadim kimi ideal keyfiyyətlər, insan kimi isə ən yırtıcı, amansız, ədalətsiz simaya malik, mürəkkəb xarakterli Qacar əsər boyu həm əməli,həm də psixoloji baxımdan inkişafda göstərilərək yetkinləşdirilir. Lakin saray həyatının xəyanəti Qacarın özünü də məhv edir. Xidmətçisi arxadan xəncəri Qacarın kürəyinə sancır. Qacarın ölüm səhnəsi daha çox tarixi faktlara əsaslansa da, çox böyük sənətkarlıq və məqsədli incəliklə işlənərək "az danışılan" Şuşa basqını, Şuşanın müdafiəsi məsələsini ödəyir. Sonda onu deyə bilərik ki, Ağa Məhəmməd şah Qacar öz dövrünün dünyagörüşündə xanlıqları birləşdirmə cəhdində məhv edilmişdir. Tariximiz, ədəbiyyatımız, səhnəmiz öz gerçəkliyin sahibi olmalıdır. Bu tarixin tələbidir!

M.F.AXUNDOV VƏ XIX ƏSR QADINI

Umudlu G.S.
Azərbaycan Dillər Universiteti

Bəşər cəmiyyəti iki qütbün - qadının və kişinin psixologiyası, düşüncə tərzi, üzləşdiyi problemlər arasında yaranmış gərginlik sahəsində formalaşır və yaşayır. Təbii ki, bütün ictimai - siyasi epoxalarda bəşəriyyəti narahat edən qlobal problemə çevrilən gender məsələsi zamanın ruhuna uyğun olaraq bu və ya digər şəkildə işıqlandırılmışdır. İstər Qərb, istərsə də Şərq ictimai - bədii fikrində qadın obrazları bədii

ədəbiyyatda insan konsepsiyası çərçivəsində tədqiq edilərək mühüm sosialproblemqismində çözülmüşdür. Azərbyacan ədəbiyyatında XII əsrdə Nizami Gəncəvi yardıcılığında ilk cücərtiləri nəzərə çarpan qadın obrazları XIX əsrdə günün ən aktual və təxirəsalınmaz probleminə çevrildi. XIX əsrdə M.F.Axundovun yaradıcılığında cəmiyyətin ilk növbədə, özü də radikal şəkildə həll etməli olduğu problem səviyyəsində təcəssüm olunmuşdur. Əgər onun sələfləri qadının cəmiyyətdə acınacaqlı vəziyyətini təsvir etməklə kifayətlənirdilərsə M.F.Axundov qadınlarda mərd, cəsarətli, mübariz ruh tərbiyə etmək vasitəsilə onların azadlıqlarının konkret yol və vasitələrini də müəyyənləşdirirdi.

M.F.Axundov cəmiyyətə özünün ayrı-ayrı baxış bucaqlarından yanaşaraq yaratdığı obrazlarla qadınların fərdi problemini milli həyatın bir sahəsi tək əks etdirirdi. İctimaiyyətin bütün diqqətini bu dövrdəki qadına münasibətdə haqsızlıqlara, azğınlıqlara yönəltdi. İdeal qadın obrazı yaratmaq arzusu ilə yaşayan ədib Şərəfnisənin məsumluğu, Pərzadın acizliyi, Tükəzin cəsarətliliyi, Sonanın bütün çürümüş, kiflənmiş əxlaq qaydalarına nifrət ruhu ilə alovlanan qəlbi,Səkinənin mübarizliliyi, dövrün qurbanına çevrilən qadınların hüquqsuzluğunun real cizgilərlərini ön plana çəkmişdi.

M.F.Axundovun yaradıcılığında qadın, onun ailədə və sosial mühitdə mövqeyi mühüm yer tutur. XIX əsrdə ilk dəfə qadının mənəvi aləminin dialektikasını təcəssüm edən ədib dram nümunələri yaradaraq burjua cəmiyyətində qadının üz-üzə gəldiyi problemləri işıqlandırmışdır. M.F.Axundova Azərbaycan tarixinin yeni mərhələsində qadınların həyatını, mübarizəsini, ictimai amalını əks etdirmək nəsib olmuşdur. Heç də təsadüfi deyil ki, sələflərindən və müasirlərindən fərqli olaraq məhz M.F.Axundov yaradıcılığında qadın taleyi, hüquqsuzluğu, cahilliyini bu qədər geniş və real cizgilərlə vermişdir.

M.F.Axundovun yardıcılığında cəmiyyətdəki problemlər qadın obrazlarının ziddiyyətləri, xarakterlərinin mürəkkəbliyi fonunda təcəssüm olunmuşdur. O, qadına daim yüksək qiymət vermiş, onun ağrı - acısını, hüquqsuzluğunu, taleyini daim diqqət mərkəzində saxlamış, zaman keçdikcə onun həyatındakı dəyişiklikləri ön plana çəkmişdir. M.F.Axundov yaratdığı əsərləri ilə yaşadığı mühitə meydan oxudu, cəmiyyətin diqqətini bu dövrdəki gerçəkliklərə, haqsızlıqlara, azğınlıqlara yönəltdi. Müəllif əsrlər boyu davam edən qadın hüquqsuzluğunu bəzən satirik, bəzən də realist bədii vasitələrdən istifadə edərək tənqid atəşinə tutmuşdu. Bu baxımdan M.F.Axundov ədəbiyyat tarixində əsasını qoyduğu və uzun əsrlər boyu təcəssümünü tapmış bir ənənənin yaradıcısı olmuşdur.

M.F.Axundov ilk əsərlərindən başlayaraq yaradıcılığının sonunadək bütün əsərlərində ictimai mühit, insanlığa zidd, yad olayları bütün təfərrüatı ilə məharətlə qələmə alaraq əsas diqqəti qadın probleminə yönəltmişdi. Bu əsərlər Azərbaycan sənətkarının qəlbini yaralayan, mənəviyyatını bürüyən, sarsıdan bir tarix yaratdı. Həmin tarixin kuliminasiya nöqtəsində hələ yazılı ədəbiyyatın yarandığı anlardan böyük şəxsiyyətləri, klassikləri düşündürən qadın problemi dayanırdı ki, bu məsələyə münasibətində müəllif rəngarəng mövqe seçərək əsrlər boyu davam edən qadın hüquqsuzluğunu bəzən satirik, bəzən romantik, bəzən də realist bədii vasitələrdən istifadə edərək tənqid atəşinə tutmuşdu.

Komediyalarında fərdi xüsusiyyətləri və xarakterlərindəki orjinallıqla seçilən və canlı həyat qüvvəsi ilə rəsm edilən əsas qadın surətləri bunlardır: Şəhrəbanu xanım, Şərəfnisə xanım, Xanpəri (”Müsyö Jordan və Dərviş Məstəli şah”), Ziba xanım, Şölə xanım, Nisə xanım, Pəri xanım (”Sərgüzəşti-vəziri-xani-Lənkəran”), Pərzad, Zalxa (”Hekayəti-Xırs Quldurbasan”), Sona xanım, Teyybə xanım, Tükəz (”Sərgüzəşti-Mərdi –Xəsis”) və ya (”Hacı Qara”),Səkinə xanım, Zeynəb , Zibeydə (”Mürafiə vəkillərinin hekayəti”) . Ayrı-ayrı zümrə və təbəqəyə mənsub olan, müxtəlif ictimai şəraitdə yetişən həmin qadınlar və qızların qüvvətli və sağlam keyfiyyətləri, istərsə də zəif, mütərrəddid və məhdud sifətləri arasında ümumi bir yaxınlıq və bənzəyiş vardır.

M.F.Axundov həmin qadınları münbit bir zəmanədən - milli Azərbaycan həyatından və mühitindən götürmüşdür. Bu səbəbdən də qadınların mənəviyyatında və ruhi - psixoloji aləmində milli psixologiyanın dəyişilməz keyfiyyətləri, canlı kolorit çox qüvvətli çıxmışdır. Ədibin dramaturgiyasında adı çəkilən qadın tipləri hər biri dövrünün eləcə də zümrəsinin tipik xüsusiyyətlərini özündə ümumiləşdirən, fərdi, özünəməxsus keyfiyyətlərə malik dolğun surətlərdir. Yazıçı belə surətləri yaradarkən onlara böyük həssaslıqla, məhəbbətlə, ümid və inamla yanaşmışdır. Dahi mütəfəkkir qadınların cəmiyyətdə böyük qüvvə olduğunu sübut edərək, onların mənəvi azadlığı məsələsini ən mühüm, ən ciddi və ən aktual məsələ kimi ön plana çəkmişdir. Öz fəlsəfi məktublarında habelə dramaturgiya yaradıcılığında qadının qul vəziyyətində yaşamasına və insanlıq hüququndan məhrum olmasına qarşı etiraza geniş yer verilmişdir.

M.F.Axundov həmin qadınları münbit bir zəmanədən - milli Azərbaycan həyatından və mühitindən götürmüşdür. Bu səbəbdən də qadınların mənəviyyatında və ruhi - psixoloji aləmində milli

psixologiyanın dəyişilməz keyfiyyətləri, canlı kolorit çox qüvvətli çıxmışdır. Ədibin dramaturgiyasında adı çəkilən qadın tipləri hər biri dövrünün eləcə də zümrəsinin tipik xüsusiyyətlərini özündə ümumiləşdirən, fərdi, özünəməxsus keyfiyyətlərə malik dolğun surətlərdir. Yazıçı belə surətləri yaradarkən onlara böyük həssaslıqla, məhəbbətlə, ümid və inamla yanaşmışdır. Dahi mütəfəkkir qadınların cəmiyyətdə böyük qüvvə olduğunu sübut edərək, onların mənəvi azadlığı məsələsini ən mühüm, ən ciddi və ən aktual məsələ kimi ön plana çəkmişdir. Öz fəlsəfi məktublarında habelə dramaturgiya yaradıcılığında qadının qul vəziyyətində yaşamasına və insanlıq hüququndan məhrum olmasına qarşı etiraza geniş yer verilmişdir.

Qeyd edək ki, XIX əsrin əvvəllərində qadınların üzləşdikləri cəhalətdən yaxa qurtarmağım yolunun təhsildən keçdiyini deyən Mirzə Fətəlinin əsərləri bu gün də gender məsələsinin öyrənilməsi, tədqiqi baxımından çox qiymətli mənbədir. Ona görə ki, yaşadığımız XXI əsrdə də bəzən qız və qadınlarımız məhz təhsil almadıqlarına, öz hüquqlarını bilmədiklərinə görə istər cəmiyyətdə, istərsə də ailədə problemlərlə üzləşirlər.

AZƏRBAYCAN DASTANLARI

Sadıqlı T.N.
Bakı Slavyan Universiteti

Qədim türk-oğuz epik ənənəsi ilkin ibtidai çağlardan erkən orta yüzilliklərəcən poetik düşüncə və bədii təxəyyülün gücüylə türk mənəvi-mədəni sisteminin, atlı həyat tərzindən doğan etnik yaşam biçiminin, bahadırlıq, cəngavərlik duyğusunun yaşaması işinə xidmət etmişdir.

Azərbaycan folklorunda "dastan" anlayışı aşıq yaradıcılığının məhsulu olan epik-lirik əsərləri ehtiva edir. Şeirlə nəsrin növbələşməsi prinsipinə əsaslanan dastanların süjeti təhkiyə şəklində söylənilir. Aşıqlar bunu "dastanın yurdu" adlandırırlar. Qəhrəmanların lirik duyğulanmaları, iztirab və həyəcanları, kədər və sevincləri, həsrət və nisgilləri,deyişmə və bağlaşmaları isə aşıq şeiri ilə verilir.

Azərbaycan dastanlarını aşağıdakı şəkildə təsnif etmək mümkündür:

1. Qəhrəmanlıq dastanları;
2. Məhəbbət dastanları.
3. Ailə-əxlaq dastanları.

Yüzillər boyunca türkün həyat tərzinin, duyum və düşüncə biçiminin əsas axarını bahadırlıq, cəngavərlik təşkil etdiyindən etnik-mənəvi sistemin güzgüsü olan folklorda, o cümlədən də dastançılıq ənənəsində qəhrəmanlıq motivinin geniş və qabarıq yer alması təbii-tarixi zərurətdən irəli gəlmişdir. Alplıq – bahadırlıq təbliğ-tərənnüm edən nəhəng oğuznamə silsiləsindən (mərkəzdə "Kitabi-Dədə Qorqud" boyları olmaqla) "Koroğlu" eposuna, qaçaq dastanlarınacan öz aparıcı mövqeyini qoruyub saxlayan qəhrəmanlıq motivi qədim türk-oğuz cəmiyyəyindəki yaşamaq,mövcud olmaq təsəvvürünün sonrakı tarixi dövrlərə etnik-irsi daşıyıcı funksiyasını yerinə yetirmişdir.

Aşıq tərəfindən ifa edilə hər bir üç hisssədən: ustadnamə, dastan özü və duvaqqapmadan (bəzən də cahannamə və ya vücudnamədən) ibarətdir. Aşığın dastana başlamazdan əvvəl dediyi ustadnamələr (adətən, üç ustadnamə deyilir) bir tərəfdən qədim ustadları xatırlayıb yaşatmaq, bir tərəfdən də ustadnamədə deyilmiş hikmətamiz aforizmləri, el müdrikliyindən, uzunmüddətli həyat təcrübəsindən gələn məsləhətləri dinləyicilərə çatdırmaq, adamlarda xeyirxahlıq, mərdlik, ləyaqət, halallıq kimi yüksək insani keyfiyyətlər yaratmaq məqsədi daşıyır.

Ustadnamədən sonra dastanın əsas süjeti gəlir ki, onu da şərti olaraq dörd mərhələyə ayırmaq mümkündür:

1. Qəhrəmanın qeyri-adi möcüzəli doğuluşu;
2. Buta alma mərhələsi;
3. Qabağa çıxan maneələr və onlara qarşı mübarizə;
4. Sınaqdan çıxma, müsabiqə, qələbə.

Dünya xalqlarının əksəriyyətində, o cümlədən də türk folklor ənənəsində qəhrəmanın qeyri-adi möcüzəli doğuluşu geniş yayılmış bir motivdir. İlkin ibtidai təxəyyülün məhsulu olan nağıllarımızda da möcüzəli doğuluşa tez-tez rast gəlinir. Dastan qəhrəmanları qeyri-adi doğuluşu ilə seçilir. Məsələn, məşhur dastanlarımızın qəhrəmanlarından İbrahim, Şah İsmayıl, Şahzadə Əbülfəz, Heydər bəy, Tahir eləcə də, Zöhrə dərviş, Xızır, nurani qoca, Həzrət Əli tərəfindən verilmiş almanı atanın iki bölüb öz arvadı ilə yeməsi nəticəsində ana bətninə düşürlər. Qurbani, Məcnun, Lətif şah, Kərəm, Əsli, Məsum,

Səyyad, Seydi və onlarca daha başqa dastan qəhrəmanı isə dua, nəzir-niyaz, qurban kəsmək, ac doyurmaq, yol çəkmək, körpü salmaq və s. nəcib işlər sayəsində Allah tərəfindən ata-anaya övlad payı olaraq verilirlər.

Dastan süjetinin ikinci mərhələsi "buta" motivi ilə bağlıdır. "Buta" motivi dastanlarda çeşidli şəkillərdə təzahür edir.

1. "Mehr-Mah", "Məhəmməd Güləndam", "Seyfəlmülk" sırasından olan dastanlarda qəhrəman şəklini gördüyü qıza vurulur;
2. "Şah İsmayıl", "Kərim-Süsən", "Əsli-Kərəm" dastanlarında qəhrəman qızın özünü görüb vurulur.
3. Oğlan qızın sorağını eşidib onun arxasınca gedir və s.

Azərbaycan xalq dastanlarının ümumi sayı yüzdən yuxarıdır. Variantlar da nəzərə alınsa, bu say üç yüzə yaxın ola bilər.

Azərbaycan aşıqlarının dastan yükü onların epik repertuarının əsasıdır. Repertuarın daşınması ustad-şagird ənənəsinə söykənir və sənəd şəcərəsi xətti ilə davam edir.

ƏBDÜRRƏHİM BƏY HAQVERDİYEVİN "XORTDANIN CƏHƏNNƏM MƏKTUBLARI" POVESTİNDƏ MÖVHUMAT VƏ CƏHALƏTİN İFŞASINA DAİR

Qafarlı N.İ.
Bakı Slavyan Universiteti

Əbdürrəhim bəy Haqverdiyev XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biridir. Ə. Haqverdiyev dramaturgiyada olduğu kimi, nəsrdə də öz sözünü demiş yazıçılarımızdandır. Onun nəsr əsərlərinə "Xortdanın cəhənnəm məktubları", "Ayın şahidliyi", "Mozalanbəyin səyahətnaməsi", "Marallarım" silsiləsinə daxil olan hekayələrini misal göstərmək olar. Ədibin nəsr əsərlərinin əsas mövzularından biri dini mövhumat və cəhalətin ifşasıdır.

Ə. Haqverdiyev "Xortdanın cəhənnəm məktubları" povestini 1907-ci ildə "Molla Nəsrəddin" jurnalında təfriqə şəklində çap etdirmişdir. Ədib bu əsərində öz dövrünün eybəcərliklərinə gülmüşdür. O, "cəhənnəm" sözünü mənfi tiplər cəmiyyəti mənasında işlətmişdir.

Əsərin əsas tənqid hədəfləri yalançı mollalar, seyidlər, məşədilər, axundlar, hacılardır. Əsərdə Ağ Molla, Molla Ağa Dərbəndi, Hacı Mehdiqulu, Hacı Mirzə Əhməd ağa kimi mənfi obrazlara rast gəlirik. Dillərindən Allah sözü əskik olmayan bu insanlar avam camaatı aldatmaqdadırlar. Ürəkkeçmədən əziyyət çəkənlər, baş ağrısına mübtəla olanlar, bir para xəstəliklərə tutulanlar, qudurmuş it tutanlar həkimə getmək yerinə bu yalançı mollalara üz tutur, onların duaları ilə məramlarına çatacaqlarına inanırlar. Özlərini müqəddəs şəxslər kimi göstərməklə xalqın gözündən pərdə asan bu fırıldaqçılar avam insanların vəziyyətindən istifadə edirlər.

Avam camaat arasında mövhumatı yayan, onların cahilliyindən istifadə edən mollardan biri də Fazili-Dərbəndidir. Xalq arasında baş yarmağın, zəncir vurmağın, bədənin dərisini yırtıb oraya qıfıl, palanduz, sümbə, kotan dəmiri taxmağın binasını qoyan bu "müqəddəs" mövhumata aid bir neçə kitab da yazmışdır. O, röyalarını həqiqət hesab etmiş, avam camaat da buna etiqad bağlamışdır. Ədib Fazil-Dərbəndi obrazı ilə yalnız onun kimi şarlatanları deyil, eyni zamanda ona inanan cahil insanları da tənqid edir.

Biz əsərdə "Deşikli ağac", "Qazaq qəbri", "Xəlifəli ocağı", "Cındırlı pir", "Öskürək piri", "Cicim ocağı" kimi yerlərin mövhumat ocaqları olduğunu görürük. Uşağı olmayanlar "Deşikli ağac"a, çillə kəsdirənlər ya "Qazaq qəbri"nə, ya da "Xəlifəli ocağı"na, dərdi olanlar "Cındırlı pir"inə, uşaqları göy öskürəyə tutulmuş analar "Öskürək piri"nə, ilan vuranlar "Cicim ocağı"na üz tuturlar. Ədib bu məsələlərə toxunmaqla müsəlman dünyasındakı mövhumatı ifşa edir. O, göstərir ki, insanlar müxtəlif pirlərə üz tutmaqla arzularının reallaşacağına, xəstəliklərinə dərman tapacaqlarına inanırlar, bu da onların cəhalətindən irəli gəlir.

"Malıma haram qatmaram" deyən yalançı məşədilərin xalqı inandırmaq üsullarından biri də imamlara and içməkdir. İmamlar az adamların evinlərin yıxmayıblar. Hətta Məşədi Sümbə oğrularla əlbir olub, oğurluq malları onlardan ucuz qiymətə alır, eyni zamanda da sələmçiliklə məşğul olur. O, sələmçiliklə məşğul olmasına da belə haqq qazandırır ki, guya dara düşənlərə kömək edir.

Əsərdə Hacı Mirzə Əhməd ağanın simasında din xadimlərinin ən kəskin ifşası verilir. Öz yoxsul əmioğlusu Fərmanı sevən Gövhərtacı atası Hacı Kamyab Gəray xana vermək istəyir. Hacı Kamyabı qızının xoşbəxtliyi yox, Gəray xanın dövləti maraqlandırır. Hər iki gənc sözləşib qaçdıqda, Hacı Mirzə Əhməd ağa kimi "müqəddəs" adama pənah aparırlar. İlk baxışda iki gənci qovuşduracağını zənn etdiyimiz bu "müqəddəs" görünüşlü ruhaninin siması bu hadisədən sonra aydınlaşır. O, Gövhərtacın kəbinini özünə kəsməklə, hər iki gəncin məhvinə səbəb olur.

Əsərdə tənqid hədəfinə çevrilən obrazlardan biri də Dəsturovdur. Camaatın gözündən pərdə asan Dəsturovu və onun kimi seyidləri ifşa hədəfinə çevirən cəhətlərdən biri onların oruc və namaza diqqət yetirməsi ilə eybəcər əməlləri arasındakı ziddiyyətdir. Özünü seyid adlandıran bu fırıldaqçı dinə aid əsası olmayan əhvalatlar danışır, avam camaatı aldadır. O, bir seyid kimi xalqın başına açdığı fırıldaqları özü etiraf etsə də, hərəkətlərində heç bir haqsızlıq görmür. Çünki onun yaşadığı mühit bu fırıldaqlara bəraət vermişdir.

Povestdə yalnız yalançı mollalar, axundlar, məşədilər tənqid edilmir, eyni zamanda "Tənbihül-qafilin" kimi dini kitablar da ifşa hədəfinə çevrilir.

Ə. Haqverdiyevin bu məsələlərə toxunmaqda məqsədi xalqı qəflət yuxusundan oyatmaq, mövhumatın avam insanların başına necə müsibətlər gətirdiyini göstərmək olmuşdur. Ədib mövhumi uydurmalara inanan avam xalqın halına yanmış, onların gözünü açmaq istəmişdir.

JURNALİST ETİKASININ POZULMASININ ƏSAS SƏBƏBİ JURNALİSTLƏRİN ETİK PRİNSİPLƏRİ BİLMƏMƏSİDİR

Qasımova G.S.
Bakı Slavyan Universiteti

Kütləvi informasiya vasitələri sistemi bəşəriyyətin informasiya cəmiyyətinə yaxınlaşmasında və demokratik dəyərlərin yayılmasında həlledici rol oynayır. Əslində, bu gün informasiya texnologiyalarının inkişaf surətinin dəyişməsi, qloballaşma və informasiya cəmiyyətətinə keçidin də sürətlənməsinə gətirib çıxarmışdır. Təbii ki, bu proseslər cəmiyyətdə kütləvi informasiya vasitələrinin (KİV) rolunu daha da artırmışdır. Bu KİV-ə yeni imkanlar tanımaqla bərabər, onun qarşısında yeni vəzifələr də müəyyən etmişdir.

Hazırda KİV bir çox ictimai-siyasi və sosial-iqtisadi problemlərin müzakirə olunduğu ictimai tribunaya çevrildiyindən və jurnalist fəaliyyətində mətbuat azadlığı prinsipləri əsas tutulduğundan etik meyarlar problemi də aktuallaşmışdır. Belə ki, müxtəlif məzmunlu və formatlı proqramların hazırlanması zamanı fərqli situasiyalar yaranır. Məhz bu dəyişkən situasiyalarda müəllif, aparıcı və ya reportyorun etik normaları gözləməsi əsas tələblərdən birinə çevirilir. Ona görə də etik normalar probleminin öyrənilməsi çağdaş jurnalistika elminin ən aktual mövzularından biridir.

Jurnalist yaradıcılığının etik cəhətləri ilə demokratik cəmiyyətdə söz və mətbuat azadlığı birbaşa bağlıdır. Söz azadlığı hüquqi əsaslara və dərk olunmuş ictimai məsuliyyətə söykənir. Bu mənada KİV sahəsində hüquq və etikanın xeyli təmas nöqtələri vardır. Bəzən onların oxşar təsir obyektlərinə malik olması, hər ikisinin normativ xarakter daşıması, auditoriyaya hüquq normaları ilə etik prinsiplər arasındakı fərqi görməyə mane olur. Həqiqətən də, hər iki halda müxtəlif situasiyalar zamanı jurnalistlərin fəaliyyətini nizamlayan mütləq və standart qaydalar tətbiq olunur. Lakin hüquqi normaların mənbəyi – dövlət təsisatları, ilk növbədə, qanunvericilik hakimiyyəti orqanlarıdır. Etik standartlar isə peşəkar jurnalist birliklərinin özü tərəfindən formalaşdırılır. Müvafiq olaraq əgər hüquqi nizamlayıcılar kənardan – hökumətin qərarı ilə gətirilirsə etik nizamlayıcılar, bir qayda olaraq, korporasiya daxilində razılaşmanın nəticəsidir. Həmçinin hüquqi normalar nə qədər sabitdirsə, etik normalar bir o qədər amorfdur.

Jurnalist yaradıcılığında əhəmiyyətli rola malik etikanın pozulmasının əsas səbəblərindən biri etik prinsipləri jurnalistlərin bilməməsidir. Bu da öz növbəsində media sahəsində çalışanların jurnalist təhsilinin olmamasından irəli gəlir. Jurnalist təhsili deyilərkən təkcə formal təhsil nəzərdə tutulmamalıdır. Jurnalistika sahəsində qeyri-formal təhsil müəssisələri (ixtisaslaşmış kurslar) da jurnalist etikasının öyrənilməsi baxımından bir addım ola bilər.

Bu sahədə digər əhəmiyyətli məqam isə jurnalist məsuliyyətidir. Jurnalist daim öz üzərində işləməli, jurnalistika sahəsində olan yenilikləri öyrənməli və fəaliyyətində tətbiq etməlidir. Bununla

yanaşı o, həmçinin cəmiyyətin hadisələrə, davranış normalarına reaksiyasını bilməli və kəskin reaksiyaya səbəb olan hərəkətlərdən qaçınmalıdır. Yəni özünütəhsil (informal təhsil) jurnalist etikası sahəsində çox vacib məqamdır. Bu faktı jurnalistika sahəsində çalışan və peşəkarlıqları ilə seçilən qeyri-ixtisas sahiblərinin varlığı da təsdiqləyir.

Etik prinsinsiplərin öyrənilməsi və əməl olunmasına nəzarət sahəsində faydalı fəaliyyət Milli Televiziya və Radio Şurasına (MTRŞ) aiddir. Milli Televiziya və Radio Şurası (MTRŞ) qanunlara və Əsasnaməsinə müvafiq olaraq televiziya və radio yayımı sahəsində dövlət siyasətini həyata keçirmək və bu fəaliyyətin tənzimlənməsi istiqamətində müvafiq tədbirlər görmək səlahiyyətinə malikdir. Milli Televiziya və Radio Şurasının qanunla müəyyən edilmiş səlahiyyətləri çərçivəsində bu sahədə monitorinq aparması və mövcüd faktlar üzərində təhlil, statistika və tövsiyələr hazırlaması, seminarlar, debatlar, müzakirələr keçirməsi vəziyyətin müsbət istiqamətdə dəyişməsinə səbəb olar. Xüsusi qeyd edilməlidir ki, bu günə qədər də MTRŞ televiziya və radio kanallarının monitorinqi, qanunun tələblərinin pozulması hallarının müəyyənləşdirilməsi və digər məsələlərlə bağlı müvafiq tədbirlər həyata keçirmiş, habelə mövcud nöqsan və çatışmazlıqların aradan qaldırılması üçün qanunvericilik təşəbbüsləri ilə çıxış etmişdir. Lakin MTRŞ teleradio qurumlarının yaradıcılıq, peşə və maliyyə fəaliyyətinə müdaxilə etmək səlahiyyətinə malik deyil və deməli, bu sahələrdə müşahidə olunan çatışmazlıqlara görə məsuliyyət teleradio qurumlarının öz üzərinə düşür. Media qurumları jurnalistləri bu sahə ilə bağlı beynəlxalq terninq və seminarla cəlb etməli, beynəlxalq təcrübəni öyrənməli, öz etik kodekslərini hazırlamalı və fəaliyyətlərində bu qaydalara əsaslanmalıdırlar. Etik qaydaların pozulması media qurumunun nüfuzuna xələl gətirdiyindən, bu məsələdə media şirkətləri maraqlı olmalıdır.

KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN CƏMİYYƏTİN İNKİŞAFINDA ROLU

Ağayeva T.C.
Bakı Slavyan Universiteti

İnformasiyanın – ölkədə və dünyada baş verən hadisələrin cəmiyyətə çatdırılmasında kütləvi informasiya vasitələrinin (KİV) rolu danılmazdır. KİV mürəkkəb proseslərdə müşahidəçi və iştirakçı rolunu oynamaqla informasiyanın cəmiyyətə çatdırılmasını təmin edir. Elə KİV-in funksiyaları – məlumatlandırmaq, maarifləndirmək, əyləndirmək onların cəmiyyətin inkişafındakı rolunu sübut etməyə yetərlidir.

Məlumatlandırmaq: KİV-in ilkin funksiyası cəmiyyəti informasiya ilə təmin etməkdir. Çünki baş verən hadisələr daim insanların maraq dairəsindədir. Bu marağa laqeydlik isə KİV-in öz vəzifəsindən imtina etməsi demək olardı. Cahangir Məmmədli "Jurnalistikaya giriş" kitabında bu funksiya barədə yazır: "Təsəvvür edin ki, hansısa qəzet, yaxud telekanal informasiyadan imtina etmişdir. Bu qəzetin oxucusu, bu telekanalların auditoriyası güclü xəbər xidməti təşkil etmiş digər qəzet və telekanallardan mütləq sayca xeyli aşağı olacaqdır".

Maarifləndirmək: Jurnalistika nəzəriyyəçiləri KİV-in maarifləndirici funksiyasını xüsusi olaraq qeyd edirlər. Ümumiyyətlə, maarifçilik işi jurnalistikada bir çox vasitə və üsullarla həyata keçirilir. Professor Cahangir Məmmədli "Jurnalistikaya giriş" kitabında bildirir ki, "Məlumatlandırmanın özünü maarifçiliyin tərkib hissəsi hesab etsək, bu üsulların nə qədər geniş olduğunu görərik. Lakin bu funksiya özünü daha çox analitik janrlarda, xüsusilə publisistikada göstərir".

Əyləncə: Əyləncə dedikdə, əlbəttə ki, burada sırf əyləncə kəsb edən televiziya, radio proqramı və ya qəzet materialı nəzərdə tutulmur. Professor Cahangir Məmmədlinin də qeyd etdiyi kimi ən yaxşı əyləncə funksiyası "əyləncə-qavrama" üsulu ilə həyata keçirilir. Məsələn: Qəzet səhifələrindəki krossvordlar insanı əyləndirməklə yanaşı, həm də düşündürür və məlumatlandırır. Əyləncə-qavrama üslubunda olan televiziya və radio proqramlar bu gün dünyada aparıcı efir vaxtına çevrilsə də, Azərbaycan televiziya və radiolarında sırf əyləncə xarakterli verilişlərə daha çox yer verilir. Bunlara televiziyalardakı şou-proqramlar, radiolardakı "DJ" verilişlərini misal göstərmək olar.

ПОИСКИ ПОЛОЖИТЕЛЬНОГО ГЕРОЯ В РАННИХ РАССКАЗАХ А.П. ЧЕХОВА

Сеидзаде Н.С.
Бакинский славянский университет

Творчество А.П.Чехова 80-х годов воплощает в себе не столько поиски положительного начала, сколько усиление социальной критики. Главными признаками человеческого характера стали пессимизм, бездуховность, тоска по общей идее. Мировоззрение и творчество Чехова данного периода характеризуется мучительными блужданиями по общей идее положительного начала. В первой половине 80-х годов Чеховым было написано в пределах 400 произведений. Однако во всех этих рассказах у Чехова нет ясной концепции человека. Казалось бы поиски положительного начала приведут писателя к изображению сильных характеров. Однако Чехов остается верен своей манере изображения. Комизм и ирония, сложные социальные проблемы составляют главную специфическую особенность творчества Чехова.

В рассказе «Толстый и тонкий» Чехов раскрывает социальный мир героев. При описании портретов героев на первый план выводится не духовная, а социальная фактура. В рассказе «Смерть чиновника» Чехов применяет прием гиперболизации, чтобы глубже раскрыть характер человека. Страх перед вышестоящим чином раскрывает слабость характера чиновника Червякова. В рассказе «Маска» Чехов срывает маску с лица интеллигентов-либералов. Казалось бы будет раскрыт духовный статус интеллигентов. Однако они тоже холопы перед сильными мира сего.

Особенно часто Чехов извлекает комический эффект из ситуаций, связанных с невозможностью безошибочно сориентироваться в иерархическом мире разных чинов, званий, орденов, состояний и из недоразумений, вытекающих из этой социальной, обозначенной пестроты и неравенства («Толстый и тонкий», «Маска» и др.).

Другая форма бытописания, другая категория ориентации человека в окружающим его мире – поглощенность отдельных людей своим индивидуальным интересом, образом поведения, ходом мыслей, абсолютизация каждым своего «я» и вытекающие отсюда несовпадения и столкновения («Тоска», «Горе», «Талант»). Героями юмористических рассказов, карикатур, новелл Чехова были чиновники, обыватели, служащие, представители всех сословий. Героев, вступавших в борьбу с социальным злом и с самим собой, Чехов не показывал. Человек Чехова подавлен текущей социальной действительностью. Любая борьба неприемлема для чеховского человека. Пассивное созерцание и приспособление к текущей социальной действительности берут верх над духовной субстанцией, над практической деятельностью. Таким образом, художественное исследование кризиса, проникающего в повседневность, в быт, в рассказах Чехова первой половины 80-х годов идет разными путями; оно многомотивно, многопроблемно.

Герой рассказа «Горе» токарь Григорий Петров всю жизнь пьянствовал, избивал жену. Так прошла вся его жизнь. Но когда он «очнулся» от страшного сна, называемого жизнью, и решил жить настоящей человеческой жизнью, было уже поздно. Трагикомизм его положения этим и определяется: человек строит планы на будущее, а жизнь подошла к концу. Современники признавались Чехову в том, что рассказ «Горе» - это лучшее его создание из всего написанного до этого.

В краткости и лаконичности Чехов видел силу искусства слова. Для Чехова уметь хорошо писать – это значит уметь сокращать. А это требует огромного мастерства, энергии и настойчивости. И все эти качества были у Чехова.Чехов знал, что талант сам по себе еще ничего или почти ничего не значит. Его нужно развить вечным трудом. Лишь постоянный и упорный труд над своим талантом создает настоящего художника. Рассказ «Талант» (1886) посвящается этому вопросу. В нем изображена среда художников, «подающих надежды», но их талант погибает потому, что цель искусства им не понятна. Рассказ рисует хорошо знакомые Чехову по судьбам близких ему людей нравы богемы.

Главный герой, художник Егор Саввич, - это человек ленивый, малообразованный, ведущий беспорядочную жизнь. Он не работает, а только скучает, пьет и мечтает о том, как станет знаменитостью. Его друзья – художники похожи на него: они мало работают и только мечтают об известности и о больших деньгах. Чехов скептически относится к таким «гениям»: И ни одному из них не приходит в голову, что время идет... а еще ничего не сделано; что все трое – жертва того неумолимого закона, по которому из сотни начинающих и подающих надежды только двое, трое выскакивают в люди, все же остальные попадают в мираж, погибают. Художники не понимают, что они отнюдь не великие таланты, и предпочитают жить в мире своих мечтаний, не пытаясь воплотить

их в жизнь. Безответственность и самовлюбленность не только губят самих художников, но и сказываются на окружающих их людях. Об этом говорит судьба девушки Кати, на которой Егор Саввич отказывается женится. В данном случае Чехов не переводит своих героев от одной системы отсчета в другую, т.е. из положения статики в положение динамики. Динамика бытия остается вне поля зрения Чехова. Он раскрывает не эволюцию характера человека, а его деградацию. Социум полностью растворил потенции человека.

Итак, в поле наблюдения Чехова – характер, условиями бытия и сферой испытания которого является прозаическая повседневность, привычный круговорот быта и будней. Реалистическое познание мира в рассказах начала 80-х годов захватывает область житейского, прозаического, низкую действительность. Социальный порок, мещанство, обывательская мораль исключают духовные начала. Человек Чехова не стремится познать самого себя, свое духовное начало, расширить пределы духовного «я». Духовное совершенствование неприемлемо для них. Они не совершенствуются, а деградируются.

ƏLİ NƏZMİ SATİRASINDA SABİR ƏNƏNƏLƏRİ

Hüseynova Z.A.
Bakı Slavyan Universiteti

Əli Nəzmi Azərbaycan ədəbiyyatında satirik poeziyanın ən görkəmli nümayəndələrindən biridir. O, yaradıcılıga 1898-ci ildən başlamışdır. ”Şərqi-Rus”, “Molla Nəsrəddin”, “Zənbur” və başqa mətbuat orqanlarında əsərlərini cap etdirmişdir. Onun ən cox əməkdaşlıq etdiyi jurnal isə “Molla Nəsrəddin”jurnalı olmuşdur. Təsadüfi deyil ki, ”Molla Nəsrəddin” jurnalının redaktoru olan əvəzsiz yazıcımız Cəlil Məmmədquluzadə 1922-ci ildə Tiflisdən Bakıya qayıdıb yenidən fəaliyyətə başlayarkən qəzetdə belə bir maraqlı elan vermişdir: ”Necə il ayrı düşəndən sonra yada salırıq yoldaşımız və ikinci Sabirimiz Kefsizi (Məşədi Sijimqulunu) harda olduğunu bilmədiyimiz üçün ondan bir xəbər tuta bilmədik. Ümidvarıq ki, tez bir vəqtdə öz lətafətli şeirləri ilə məcmuəmizi zinətləndirəcəkdir”.

Əli Nəzmi 1931-ci ilə, yəni “Molla Nəsrəddin “jurnalı bağlanana qədər onun əsas yazarlarından olmuşdur. Bundan başqa bu görkəmli satirik onlarla başqa mətbuat orqanlarında (“Tuti”, “Məzəli”, “Babayi-Əmir” və s.) otuzdan artıq müxtətif acıq və gizli imzalarla cıxış etmişdir. Onun ən cox istifadə etdiyi imzalar isə bunlardır: Məşədi Sijimqulu, Əlidəyənəkli, Bikəs, Peşiman qoca, Hekayəçi, Kefsiz, Şallax, Həcamətverdi və s.

Əli Nəzmi də Mirzə Ələkbər Sabir kimi satirik şairdir. Mirzə Ələkbər Sabirin öz əsərlərində toxundugu problemlər Əli Nəzminin də əsərlərinin başlıca mövzusu olmuşdur. Əli Nəzminin ortaya qoydugu problemlər azadlıq, vətən, insansevərlik, milli dil və s. problemlərdir. Sabir kimi Əli Nəzmi də xalqını qabaqcıl millətlər arasında görmək istəyirdi. Maarif düşmənlərinə ,cəhalət və nadanlığa ,qeyri-bərabər evlənməyə, çoxarvadlılığa, əcnəbilər qarşısında mütiliyə, millətin taleyinə biganə qalanlara acı-acı gülürdü. Onun “Qız və dədəsi” əsəri cəhalətə qarşı yazılmış gözəl əsərlərdən biridir. Bu əsərdə məktəbə getmək, oxumaq, savad almaq istəyən bir qıza atası belə cavab verir:

Qız nədi,məktəb nədi,ay qızım,axmaqlama!
Biz deyilik ki,cuhud,erməni,sarsaqlama!

və yaxud da “İdeal”əsərində:

Kəndimi yəhudilərə oxşatmamışam mən,
Gürcülərə bil ki,özümü qatmamışam mən,
Rus,ermənitək kəndimi aldatmamışam mən,
Məktəb qapısın görməyib a,əhli-əyalım,
Puc olmagıdır millətin ancaq idealım.

Bu kiçik şeir parçalarında biz görürük ki, Əli Nəzmi də Mirzə Ələkbər Sabirin məşhur “Beynəlmiləl” şeirində oldugu kimi Azərbaycanı inkişaf etmiş xalqlarla müqayisə edir.Gürcülər, ermənilər, yəhudilər, ruslar və başqa millətlər oxumağa, inkişaf etməyə meyl göstərdikləri halda azərbaycanlılar hələ də qəflət yuxusunda yatıblar. Oxumağı, təhsil almağı onlar “axmaqlamaq” kimi başa düşürlər. Fanatizm və xürafatın ifşası Əli Nəzminin yaradıcılıgının əsasını təşkil edir. Əli Nəzminin şeirlərində xalqın inamından öz şəxsi məqsədləri naminə istifadə edən mollaların, axundların, hacıların, seyidlərin “iyrənc”simaları ifşa hədəfi olur. “Mənəm” satirasında mollanın öz sözü ilə onun ic aləmi ortaya cıxır:

Mən xəlqi dəvət eylərəm,müştaqi-qəflət eylərəm,
Qərqi-cəhalət eylərəm,bu rəzmdə aslan mənəm!
Zahirdə mən xud aliməm,həm rəhnümayi-aliməm,
Batində lakin zaliməm,hər iş tutan pünhan mənəm!

Azərbaycan ədəbiyyatında Sabirin üslubuna yaxın olan, onun ənənələrini davam etdirən şairlərin icində Əli Nəzmi özünəməxsus yer tutur. Hətta böyük ədibimiz "Molla Nəsrəddin" jurnalının redaktoru olan Cəlil Məmmədquluzadə onu "İkinci Sabirimiz" adlandırmışdı. O,Əli Nəzminin "Sijimqulunamə" kitabına yazdığı ön sözdə qeyd edirdi : "Biz bunu qəti deyə bilərik ki, "Molla Nəsrəddin"ə yaraşan şivənin məzəliliyi və duzluluğunda, məharət və lətafətdə Sabirə yavuq gələn və ona əvəz olan birinci Məşədi Sijimqulu-Kefsiz olubdur...Sabirin vəfatından sonra ikinci Sabirimiz birincinin yerini boş qoymadı. Məşədi Sijimqulu-Kefsizin zövq və səfalı, məzə və duzlu şeirinin hec bir vaxt dalı kəsilmədi. O özü cismən qocaldısa da,onun kəlamının lətafəti bir zərrə qədər əskilmədi".

Onu da qeyd etmək lazımdır ki,iyirmi birinci əsr olmasına baxmayaraq, Əli Nəzminin əsərlərində ortaya qoydugu problemlər hələ də öz aktuallığını itirməyib.

MƏMMƏD ARAZ POEZİYASINDA VƏTƏN MOTİVİ

Hacızadə T.E.
Bakı Slavyan Universiteti

Vətənpərvərlik duyğuları ilə zəngin Məmməd Araz yaradıcılığı Azərbaycan poeziyasının parlaq səhifələrindən birini təşkil edir. Şairin yüksək bədii-fəlsəfi ümumiləşdirmələrlə səciyyələnən, lakonik deyim tərzinə malik dərin ictimai məzmunlu lirikası gücünü vətən təbiətinin gözəlliklərindən, böyük tarixi keçmişimizdən və milli ədəbi fikrin tükənməz xəzinəsindən almışdır. Ana dilinin bütün incəliklərini özündə toplamış bu poetik irs gəncliyin mədəni-mənəvi dəyərlərə ehtiram ruhunda formalaşdırılması baxımından müstəsna əhəmiyyətə malikdir.

Görkəmli xalq şairi mənalı, keşməkeşli və şərəfli, bütövlükdə Vətənə və sənətə həsr olunmuş əsl şair-vətəndaş ömrü yaşamışdır. Xalq şairi Məmməd Araz poeziyasında Vətən-ata ocağı, doğma-yurd, el-oba, Kür-Araz deməkdir. İxtisasca coğrafiya müəllimi olan Məmməd Araz ədəbiyyatda bütöv Azərbaycanın ən kamil, bitkin, dolğun poetik coğrafiyasını yaratmağa nail olmuşdur. Milli birlik, mənəvi bütövlük və azadlıq Məmməd Araz şeirinin əsas ilham qaynağıdır.

Məmməd Araz yaradıcılığının baş qəhrəmanı Azərbaycandır. Onun "Vətən mənə oğul desə nə dərdim, mamır olub qayasında bitərdim", "Azərbaycan-Dünyam var", "Qarabağ düzü" və s. kimi vətən daşının izini daşıyan şeirləri bu mövzuda ən yaxşı əsərlər kimi dillər əzbərinə çevrilmişdir.

Səndən ötdü mənə dəydi,
Məndən ötən sənə dəydi.
Məndən, səndən ötən zərbə
Vətən, vətən sənə dəydi...

Azərbaycanın xalq şairi Məmməd Araz "Məndən ötdü, qardaşıma dəydi" adlı bu şeirini xalq şairi Bəxtiyar Vahabzadəyə həsr edərək ikiyə bölünmüş vətəninin ağrı-acısından, qanlı tarixindən yoğrulmuş bir ovqatı canlandırmışdır. Şeirin hər misrasında şairin vətəninə olan sevgisi, iki yerə bölünərək qəlbinə nisgil salan yurduna dərin məhəbbəti əks olunmuşdur. Yalnız Şimali və Cənubi Azərbaycana, eləcə də arada sərhəddə çevrilən Araza həsr etdiyi şeirlərində yox, ümumiyyətlə, bütün yaradıcılığında vətən, yurd motivi dərin iz buraxmışdır. Məmməd Araz tarixin yaddaşını vərəqləyib ölkənin xanlıqlara parçalandığı zamanları xatırlayır, mənəmlik hissinin gətirdiyi bəlaların ölkəmizdə, mənəviyyatımızda, iqtisadiyyatımızda, siyasətimizdə açdığı yaraları göstərməyə çalışırdı. Elə burada Məmməd Araz dühası üsyana qalxır, babaların, ataların adından istifadə edən, elin, yurdun,Vətənin parçalanmasına gətiribçıxaran, bir dövləti müxtəlif feodallıqlara parçalayan soysuz "ataları" günahlandırır, kimliyindən asılı olmayaraq onu vicdan məhkəməsinə çəkir. Vətəninin ən ağır günlərində millətinə səslənərək "Vətən daşı olmayandan olmaz ölkə vətəndaşı" deyən şair yaradıcılığı boyu həmin hissiyyatı yaşadır. Onun üçün millət-genetik səviyyədə, yaddaş-ağrı səviyyəsində dərk olunmuş vəhdətdən və bütövlükdən ibarətdir, əsl, həqiqi poeziya isə ümumbəşəri yaddaşdır. Məmməd Arazın şeiri də düşüncədə, əxlaqda və qeyrətdə belə yaddaşın şeirdə ifadəsidir. Müsahibələrinin birində "mən Araz şairiyəm" deyən Məmməd Araz vətən deyəndə bütöv Azərbaycanı nəzərdə tuturdu. Müəllif təkcə Şimali Azərbaycanı yox, şimallı-cənublu bütöv, o taylı-bu taylı Azərbaycanı tərənnüm edir, bəzən isə daha kəskin şəkildə çıxış edərək öz

üsyan nidalarını göylərə ucaldır, Araz-Vətən həsrətini tüğyan etdirirdi. Şairin xalqımızın əsrlərlə formalaşmış yüksək mənəvi dəyərlərini tərənnüm edən əsərləri insanlarımıza vətənpərvərlik və mübarizlik ruhunun aşılanmasında böyük xidmətlər göstərib. Ölməz xalq şairi Məmməd Arazın yazdığı əsərlər, ədəbiyyat tariximizə verdiyi töhfələr sırf millidir, azərbaycançılıq ideologiyasına söykənən və ondan qidalanan bir poeziyadır. Bu qayaya söykənən ulu babaları kimi daşlaşan, heykəlləşən, Vətənin daşına, çınqılına çevrilən Məmməd Araz da əsl azərbaycanlı idi. Məmməd Araz dühası təkcə azərbaycançılığı ilə məhdudlaşmır, "Azərbaycan dünyasından" dünyaya baxır, Azərbaycan poeziyasını, azərbaycançılığı dünyaya calayır.

XX əsrin sonlarında Azərbaycan dövlətinin yenidən müstəqilliyə qovuşduğu bir zamanda, xarici irticanın və erməni daşnaqlarının Dağlıq Qarabağda apardıqları müharibə və işğalın təsiri ilə Respublikada yaranan xaos, müstəqilliyin itirilməsi təhlükəsi şairi bir vətəndaş kimi narahat edirdi. Narahat şair ölkəmizdə 90-cı illərin əvvəllərində baş alıb gedən hərc-mərcliyin necə fəlakətə səbəb ola biləcəyini görür, milləti ayağa qalxmağa səsləyirdi.

Məmməd Araz nədən yazırsa-yazsın, şerlərində həmişə xalqın mənəviyyatına, kökə, ilkinliyə, təbiiliyə arxalanır. Yüksək vətəndaşlıq mövqeyi, ideyalılıq və xəlqilik onun yaradıcılıq yolunu müəyyənləşdirən başlıca keyfiyyətlərdir.

«ПОИСКИ ИСТИНЫ «ЛИШНИМ ЧЕЛОВЕКОМ» В РОМАНЕ И.С. ТУРГЕНЕВА «РУДИН»

Исмаилова А.М.
Бакинский славянский университет

В образе главного героя романа «Рудин»(1855) Тургенев обобщил и углубил несколько характерных для изображенных им ранее «лишних людей» черт, а ряд проблем, связанных с их судьбой, поставил острее и определеннее.

Рассказывая о прошлом Рудина, Тургенев особенно выделил в нем факты, наиболее типичные для жизни лучших представителей дворянской интеллигенции его поколения. Рудин получил прекрасное образование. Он учился в Московском, Гейдельбергском и Берлинском университетах. Он увлекался философией Гегеля и , подобно многим современникам Тургенева, стал гуманистом и просветителем. Рудин – первый герой Тургенева, которого писатель вывел из узкого круга личных переживаний.

Он, как и многие «лишние люди», любит возиться с собственными и чужими чувствами, любит объяснять их, но делает он это уже не потому, что его во всем одолевают сомнения, а в силу «проклятой привычки каждое движение жизни, и своей, и чужой, пришпиливать словом, как бабочку булавкой».

Писатель во всем поставил своего нового героя выше его предшественников. Рудин и умен, и талантлив, и память его огромна. Из прочитанного Рудин к тому же умел извлекать «все общее, хватался за самый корень дела и уже потом проводил от него во все стороны светлые, правильные нити мысли, открывал духовные перспективы». Он умел заставлять своих слушателей почувствовать себя «как бы живыми сосудами вечной истины, орудиями ее, призванными к чему-то великому».

Искренне веря в то, что ему открылись многие великие истины, Рудин ,будучи красноречивым оратором, умел увлекать сердца, умел заставлять верить. А он знал, что человек должен верить в себя, в силу своего разума. Он говорит: «…людям нужна эта вера: им нельзя жить одними впечатлениями, им грешно бояться мысли и не доверять ей. Скептицизм всегда отличался бесплодностью и бессилием…»И Рудин прославляет ум, которому свойственно «стремление к отыскиванию общих начал в частных явлениях».

Страстный пропагандист, Рудин прославляет науку и образование. Прославляет потому что уверен – именно они дают человеку столь необходимую ему веру в самого себя. Он не сомневался, что всякая научная система и философия прежде всего основаны на знании главных законов, начал жизни, на знании, добытом человеческим умом. Наука и образование, а также и вера в себя, которую с их помощью приобретает человек, открывая необходимые ему законы жизни, - главное для Рудина.

Он убежден, что все это и есть то крепкое начало и та твердая почва, не имея которых человек не может понять смыла своей жизни. «…если у человека, - говорит Рудин, - нет крепкого начала, в которое он верит, нет почвы, на которой он стоит твердо, как может он дать себе отчет в потребностях, в значении, в будущности своего народа? Как может он знать, что он должен сам делать…».

Итак, в романе «Рудин» вопрос о познании потребностей и будущего своего народа выдвигается как основной вопрос времени, и что очень важно – в прямую зависимость от него ставится здесь и вопрос о предназначении человека.

Истинное наслаждение для Рудина – созерцание и познание сущности жизни, но при этом он критикует эгоизм и скептиков, Рудин убеждает своих собеседников в том, что именно эгоизм и скептицизм порождают бессилие и бесплодие, а сущность жизни ускользает, остается не познанной им. «Порицать, бранить имеет право только тот, кто любит», - говорит Рудин.

Так отрицание только во имя отрицания уже здесь отвергается Тургеневым. Отрицание во имя любви, а значит, ради созидания лучшего провозглашает его герой как главную и самую дорогую из открывшихся ему истин. Рудин познал многие истины. Он владеет даром красноречия, с помощью которого пропагандирует свои мысли. Но достаточно ли этого, чтобы быть тем, в ком нуждалась в тот исторический момент Россия? Тургенев пытается ответить на эти вопросы в своем романе.

Для этого он прежде всего стремится раскрыть и положительные и отрицательные черты этого чрезвычайно сложного и противоречивого образа. Рудину свойственны такие отрицательные качества характера, как стремление властвовать над людьми, постоянно всех поучать, без надобности вмешиваться в чужие дела.

Известно, что свое несколько ироническое отношение к Рудину Тургенев вначале выразил было даже в самом названии романа – «Гениальная натура», но впоследствии он отказался от него, так как ирония в названии мешала бы созданию живого, полноценного образа «лишнего человека», у которого слово с делом в трагическом разладе.

В первом варианте романа Тургенев вложил в уста Лежнева только одни очень суровые, исключительно отрицательно характеризующие Рудина слова. И все же самый суровый приговор выносит себе сам Рудин. Происходит это в романе не сразу. Вся его жизнь, как показывает Тургенев, сопровождается сложной внутренней, полной глубоких противоречий борьбой.

Главная черта Рудина, как и всех людей известного типа, раскрылась в момент решающего для него испытания – « испытания любовью». Рудин этого испытания не выдержал.

AZƏRBAYCAN TELEVİZİYA JURNALİSTİKASININ YARANMA TARİXİ VƏ BU GÜNÜ

Hümbətova T.R.
Bakı Slavyan Universiteti

Televiziya jurnalistikanın spesifik bir sahəsi və aparıcı qoludur.KİV-in bu sahəsi ənənəvi jurnalistika ilə ekranın ifadə vasitələrini özündə birləşdirərək gerçəkliyin özünəməxsus şəkildə ifadəsinə nail olur. Jurnalistika faktı kimi televiziya gerçəklik haqqında informasiyanı görüntü (təsvir), söz və səs effektlərinin köməyi ilə tamaşaçıya çatdırır. Bu zaman təsvir və canlı insan nitqi vasitəsilə hadisənin audiovizual obrazını yaratmaqla tamaşaçını bir növ hadisənin iştirakçısına çevirmək keyfiyyəti televiziyanın əsas xüsusiyyəti kimi özünü göstərir. Əslində bu məqam televiziyanı başqa kommunikasiya vasitələrindən (qəzet, kino, teatr və s.) fərqləndirən əsas cəhətdir. Ona görə də bu sahədə televiziya sənətinin sintetizminə, teleyayım prosesində yaradıcılığın kollektiv xarakterinə, əsas yaradıcı peşələrə, onların funksiyaları və televiziya verlişinin yaranmasi prosesində qarışıqlı fəaliyyətə, müəllif (reportyor, müxbir, şərhçi, icmalçı, ssenarist), redaktor, rejissor, operator, rəssam, diktor və s. işinin xarakterinə xüsusi diqqət yetirmək lazım gəlir. Televiziyanın kütləvi informasiya vasitələri sisteminə daxil olması bəşər həyatına inqilabi dəyişikliklər gətirdi, insanların çox uzaqlarda baş verən hadisələri əyani görmək imkanlarını artırdı. İkinci dünya müharibəsindən sonra planetdə gedən siyasi proseslərlərdə və informasiya müharibəsində televiziya həlledici rol oynadı. Televiziyanın vizuallıqla bağlı olan spesifikası, onun ekranlılığı, hər şeydən əvvəl, qavrayış şəraitinin və xarakterinin müəyyənləşməsinə öz təsirini göstərdi. Televiziya qavrayış və sürətini tamaşaçıya özü diqtə edir. Mətbuatla müqayisədə

televiziyada informasiyanın (geniş mənası) tez keçiciliyi onun çatışmayan cəhəti kimi qiymətləndirilməməlidir.

Bu da faktdır ki, televiziya tamaşaçı diqqətinin həmişə bütünlüklə ona yönəldilməsini tələb etmir. Bir sıra hallarda tamaşaçılar ekrana əsas məşğuliyyətləri və ya söhbətləri fonunda baxırlar. Televiziyanın funksiyalarını belə qruplaşdırmaq olar:

a) İnformasiya;
b) mədəni maarifçilik;
c) inteqrativ;
ç) sosial-pedaqoji;
d) əyləndirmə (rekreativ);
e) reklam-təşviqat və s.

Televiziya insanın minillik xəyalı, arzusu, onun istəklərinin gerçəkləşməsidir. Çünki hər şeyi uzaqdan görmək və göstərmək istəyi hələ min il əvvəllər yaranmış, bəşəriyyətin bu istəkləri qədim yunan əsatirlərindən tutmuş əfsanəvi Şərq nağıllarınadək bütün xalqların yaradıcılığında öz əksini tapmışdır. Bu gün texnoloji inkişafı və geniş yayım imkanları ilə böyük nailiyyətlər qazanmış Azərbaycan televiziyası mövcud tərəqqiyə nail olmaq üçün uzun bir yol keçmişdir. Ölkəmizdə televiziyanın inkişaf tarixini bir sıra mühüm əlamətlərə görə fərqləndirmək olar:

1) Lazımi texniki səviyyənin yaradılması, kütləvi verilişlərə başlamaq və yayımın təkmilləşdirilməsi;

2) kütləvi kommunikasiyanın xüsusi növü kimi televiziya sisteminin idarə olunmasının və fəaliyyətinin təşkili, ekran yaradıcılığının spesifik sahəyə çevrilməsi və telepublisistikanın formalaşması;

3) Televiziyanın cəmiyyət həyatına təsirinin güclənməsi və jurnalistikanın təməl prinsiplərinin ön plana çəkilməsi;

Məhz bu prinsipial əlamətlərə görə Azərbaycan televiziyasının inkişaf tarixini 3 dövrə bölmək olar:

I.Başlanğıc dövr (1953-1960-cı illər);
II. Kütləvi verilişlər dövrü (1960-1980-ci illər);
III. İctimai həyata nüfuzun güclənməsi dövrü (1980-ci ildən bugünədək).

YENİ MEDİANIN SOSİAL MEDİADA TANITIMI

Ələsgərova Ü.E.
Bakı Slavyan Universiteti

Veb 2.0 - istifadəçi xidmətinə təqdim edildikdən sonra informasiya axını artıq tək istiqamətli deyil, iki istiqamətdə yayılır. Bu texnologiyanın meydana çıxması ilə yanaşı jurnalistikada medianın yeni bir qolu olan Yeni media formalaşdı. Yeni medianı ənənəvi mediadan fərqləndirən bir çox amillər var. Buna geniş auditoriyanı əhatə etmək, sürətlilik, eyni zamanda həm yazı, həm audio, foto, videonu özündə birləşdirməsi, istənilən yerdə və zamanda əlçatımlı olması və s. aiddir. Lakin yeni medianı fərqləndirən daha bir amil sürətli şəkildə geridönüşümə (feed back) sahib olmasıdır. Yəni yeni mediada məhsul ortaya qoyulduqdan dərhal sonra hədəf kütləsi fikirlərini bildirə bilir.

Yeni mediadan qısa bir müddət sonra ortaya çıxan digər böyük təsir qüvvəsi isə sosial mediadır. Sosial media sosial ünsiyyət və paylaşma üçün nəzərdə tutulub. Sosial media veb əsaslı texnologiyalardan istifadə etməklə ünsiyyəti interaktiv dialoqa çevirir. Sosial Medianın tərkibinə xəbər saytları, sosial şəbəkələr və MSN, Google Talk kimi ünsiyyət vasitələri daxildir.

Sosial medianın bu tərkib hissələri bir- biri ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir. Məsələn xəbər portalları ilə sosiial şəbəkələr arasındakı əlaqəni buna misal göstərmək olar.

Yeni media ilə sosial media daim qarşılıqlı əlaqədədir. Günümüzdə əksər qəzetlərin, TV və radioların Facebook, Tvitter hesabları mövcuddur. Ənənəvi medianın tərkib hissələri olan bu Kütləvi İnformasiya Vasitələri insanlarla birbaşa əlaqədə olsa da, social şəbəkələrdən də aktiv istifadə edirlər. Bu media orqanları evdə, işdə rastımıza çıxır. Lakin yalnız onlayn şəkildə fəaliyyət göstərən elektron

Kütləvi İnformasiya Vasitələrinin tanıtıma daha çox ehtiyacı var. Bu tanıtımı isə daha çox sosial şəbəkələr vasitəsilə edir. Nəyə görə sosial şəbəkələr?

Məlumdur ki, sosial şəbəkələr içərisində ən tanınanı Facebookdur. Dünya ölkələri üzrə ümumi istifadəçilərinin sayı 1,38 milyardı keçən şəbəkənin ölkə üzrə istifadəçilərinin sayı isə 2 milyona yaxındır. Azərbaycada sosial şəbəkələrin istifadə payının 89%-i Facebook sosial şəbəkəsinin payına düşür. Bundan gündəlik ünsiyyət üçün istifadə edənlərlə yanaşı, son məlumatları əldə etmək üçün müraciət edənlər və öz məhsulunu reklam etmək istəyənlər də var. Və məhz bu təbəqə bizim hədəf kütləmizi təşkil edir.

Bütün bu səbəblərə görə də istər ənənəvi, istərsə də yeni media sosial medianın bu gücünə müraciət edir. Elektron Kütləvi İnformasiya Vasitələri öz rəsmi səhifələrində gündəlik xəbərlərini paylaşaraq daha geniş kütləyə çatmasına nail olur. Sosial şəbəkədə ən çox tanınan Kütləvi İnformasiya Vasitələrininsəhifələri bir neçə milyon insanı öz ətrafında birləşdirir. Yerli mediada isə bu rəqəm 250-300 min arasında dəyişir. Bu tipli electron Kütləvi İnformasiya Vasitələri Bizimyol.info, Azxeber.com, Ölke.az saytlarını missal çəkmək olar. Azxeber.com saytının rəsmi səhifəsinin izləyicisi 250 mindən artıqdır.

Bircə paylaşımla 300 min istifadəçinin gördüyü jurnalistika məhsulu istifadəçilər tərəfindən paylaşılaraq daha çox insan kütləsinə çatır. İnsanların yazdığı rəylər əsasında yeni media daha bir işi-sosial sorğunu asanlıqla və avtomatik şəkildə həyata keçirərək əlavə xərcdən qaçınmış olur. Bundan başqa, əvvəllər reklam vasitəsilə külli miqdarda maliyyə sərf edib auditoriya toplayan Kütləvi İnformasiya Vasitələri artıq daha çox auditoriyanı tamamilə pulsuz əldə etmək şansına sahibdir.

Digər tərəfdən yeni fəaliyyətə başlamış elektron Kütləvi İnformasiya Vasitələri üçün ideal tanıtım sahəsi məhz sosial şəbəkələrdir. Bir- birindən fərqli və maraqlı paylaşımlarla istifadəçilərin diqqətini cəlb edən media orqanı çox qısa zamanda sosial şəbəkələr vasitəsilə məşhurlaşır. Bütün bu səbəblərə görə də yeni media tanıtım üçün sosial mediaya müraciət edir.

Məlumdur ki, bazar iqtisadiyyatı dövründə fəaliyyət göstərmək istəyən istənilən Kütləvi İnformasiya Vasitələri özlərinə gəlir mənbəyi, reklam və sponsor tapmalıdırlar. Buna görə də onların reytinqi, oxucu sayı digərlərindən daha yüksək olmalıdır. Ölkə əhalisinin 1 milyondan çox hissəsi sosial şəbəkələrdən istifadə etdiyi dövrdə insanları cəlb etməyin, reytinq qazanmağın və özünü tanıtmağın ən mükəmməl vasitəsidir.

AZƏRBAYCAN ƏDƏBİ NƏSRİNDƏ PSİXOLOGİZM

Niftəliyeva F.Ə.
Bakı Slavyan Universiteti

Ədəbiyyat insan münasibətlərinin məcmusudur. İnsan problemi eyni zamanda qəhrəman problemidir, şəxsiyyət sənətkarın və bədii obrazın xarakteri məsələsidir. Bədii ədəbiyyatda insanın xarakterinin konfliktlərdə və mübarizələrdə formalaşdığı adi həqiqətdir. Lakin düşdüyü mühitdə konfliktlərin müxtəlifliyi, ziddiyyətlərin kəskinliyi, mübarizənin daha da güclü olduğu zamanlarda imkanların daxilində mübarizə aparır. Universal insan tipini fərqləndirən cəhət odur ki, burada insan, bəzən təbii imkanlardan daha artıq gücə malik olur. Burada söhbət təbii ki, fiziki gücdən deyil, mənəvi-psixoloji, səviyyədən söhbət gedir.

Azərbaycan ədəbiyyatşünaslığında psixologizm bir bədii üsul kimi (roman, povest, hekayə, dram) ədəbi janrlarda bədii ifadə vasitəsi kimi işlənərək mahiyyətcə yeni forma aldı.

Müsbət qəhrəman ənənəsi, dövlət üçün yaşamaq yaratmaq prinsipi artıq yeni ənənəylə əvəz olunmağa başladı. Bu ənənənin ən səciyyəvi cəhətlərindən biri ondakı psixologizmdir, insanların daxili aləmini, onların mənəvi dünyasındakı ziddiyyətləri nəsrin obyektinə çevirməsidir. Roman və povestlərində yazıçıların əsas məqsədi şəxsiyyətin daxili aləminin çalarlarını, insan taleyinin zaman axarında başqalaşmasını, başqa sözlə, zaman-insan –tale problemini aydınlatmaqdan, mənəvi suverenliyi ifadə etməkdən ibarət olub. Qəhrəmanın dərin psixoloji aləminə nüfuz etmək bu dövr yazıçılarının həm nəsrinə, həm də dramaturgiyasına xas olan ən əlamətdar xüsusiyyətlərdən biridir. Bu lirizm oradan başlanır ki, yazıçı təbiətdə də, cəmiyyətdə də, insanda da gözəlliyin vurğunudur; bu gözəlliyi tapa və görə bilir.

Müəyyən bir tarixi mərhələdə bədii ədəbiyyatın ümumi simasını müəyyənləşdirən səciyyəvi əlamətlər diqqəti cəlb edir. Bu səciyyəvi əlamətlər həmin dövrdə yazıb yaradan sənətkarın yaradıcılığı üçün xarakterik idi. Həmin cəhətlər ədəbiyyat tarixinin müəyyən bir mərhələsinin ümumi mənzərəsini yaratmış olur. Lakin eyni zamanda bədii yaradıcılıq üçün axtarışlar , tapıntılar səciyyəvidir. İlk zamanlar hər hansi bir sənətkarın bədii tapıntısı, bədii kəşfi yalnız onun yaradıcılığına aid olursa, sonralar tədricin həmin keyfiyyət və əlamətləri başqa sənətkarlar mənimsəmiş olur.

Məhz İ.Əfəndiyevin nəsri sovet nəsrinin sosioloji şablonlarını dağıtdı, sosialist realizminin estetik ehkamları ilə düz gəlməyən, xalq həyatının milli – mənəvi mənafeləri baxımından təcəssüm etdirən nəsr təmayülü yaratdı və ədəbiyyatımıza lirik-psixoloji üslub gətirdi. O, 50-ci illərin sonunda yeni Azərbaycan nəsrinin bədii-fəlsəfi əsaslarını yaradan ədiblərin önündə gedirdi. M.Hüseynin «Yeraltı çaylar dənizə axır», M.İbrahimovun «Böyük dayaq», İ.Hüseynovun «Yanar ürək», S.Əhmədlinin «Dünyanın arşını» əsərləri ilə birlikdə nəsri sosioloji ehkamların məngənəsindən xilas edən, sovet əxlaq normalarına qarşı milli mənəviyyatı qoyan əsər İ.Əfəndiyevin «Söyüdlü arx» romanı idi.

Burada İ.Əfəndiyev yeni bir üsul işlədərək "müsbət qəhrəman"ı tamamilə yox etmir. Nuriyyə köhnə sevgisini yenidən tapsa da, onun evli olduğunu biləndən sonra tamamilə əlaqəni kəsir. "Körpüsalanlar"da isə vəziyyət tamamilə dəyişir və biz xəyanətkar qadın surətini görürük.

Lirik-psixoloji üslubun meydana gəlməsi öncə insanın daxili aləmini, hiss və duyğularını daha aydın və ətraflı təsvir etmək imkanı verdi.

İ.Əfəndiyevi adı çəkilən ədiblərdən fərqləndirən bu idi ki, həmin yazıçılar sosioloji üslubdan tam xilas ola bilmədilər, İ.Əfəndiyev isə inadkar bir əzmlə yeni nəsrin poetikasını yaratdı. Onun nəsri sozün həqiqi mənasında 60-cı illər nəsli üçün bədii-fəlsəfi örnək oldu.

Psixoloji nəsrdə ən aparıcı məsələlərdən biri qəhrəmanın ikiləşməsi problemidir. Məsələn, rus ədəbiyyatında Tolstoyun, Dostoyevskinin qəhrəmanları ikiləşən qəhrəmanlardır. Psixoloji nəsrdə ikiləşmə odur ki, insan daim özü özüylə, öz daxili məniylə toqquşmada olur.

Yaradıcılıq elə bir mürəkkəb prosesdir ki, qarşıya qoyulan problemlərin həlli zamanı təkcə realist üsulun imkanları ilə kifayətlənmək yazıçıya kifayət etmir. "Bədii əsərdə bəzən nə isə birbaşa şərhə uymur, obyektiv, yaxud subyektiv səbəblər üzündən adi üsullarla "dərk olunmağa" müqavimət göstərir və bu zaman da müəllif şərti vasitələrə müraciət etməli olur.

Milli düşüncə amalının, müstəqillik ideyasının, suveren dövlət dünyagörüşünün, demokratik baxış sisteminin təməli məhz ədəbiyyatla bağlıdır.

TARİXİ HƏQİQƏTLƏRİN " DƏLİ KÜR" ƏSƏRİNDƏ ƏKS OLUNMASI

Əliyeva Ş.F.
Bakı Slavyan Universiteti

Bədii əsərlər tarixlə sıx əlaqəsi olan yaradıcılıq sahəsidir. Yazıçı öz dövründən əvvəlki dövrlərə aid yazdığı tarixi roman, povest, hekayə, poema və dramlarda o keçmişi, o dövrün tarixini, adi və görkəmli insanları, məişəti və düşüncə tərzini verməyə çalışır, şərh edir, onları quru və darıxdırıcı şəkildə deyil, gözəl, bədii-estetik donda ortaya çıxarmağa can atır. "Tarixi roman" keçmişin, tarixin fonunda insan həyatı və cəmiyyətin təhlilidir. Burada tarix müəyyən dərəcədə təhrif oluna bilir, müəllifin planına və fantaziyasına uyğunlaşdırılır. Burada məqsəd tarix yazmaq deyil, o tarixdəki insanların düşüncəsini, hiss-həyəcanlarını, kimliyini təsvir etməkdir. Və bu yolda tarixi keçmişlə bu gün arasında körpü salınır, tarixin bu günə qədər davam etdiyi, zamankı insanla bugünkü insanın çox yaxın olduğu məlum olur. Digər tərəfdən, öz dövrünü, zəmanəsinin yaxşı və nöqsan cəhətlərini, sevindirici və əzabverici tərəflərini, ümumiyyətlə, gözəl bildiyi öz yaşadığı zamanı təsvir edən yazıçı gələcək nəsillər üçün tək bədii əsər deyil, həmçinin insanların nə düşündüyünü, cəmiyyətdə hansı əxlaq və mənəviyyatın hökm sürdüyünü göstərən, özəl həyatı təsvir edən tarixi əsər yaradır. Gələcəyin tarixçisi həmin yazıçının ya şadığı dövrün tarixini yazarkən bu yazıçı qədər dərin və həssas ola bilməyəcək və ya o keçmiş dövrün tarixçisində bu "insani tarixi" tapmayacaq. Keçmiş zamanlarda böyük, dahi yazıçı və şairlərin yaratdığı bədii əsərlər öz zamanının səciyyəvi cəhətlərini dərindən əks etdirdikləri üçün dövrün tarixi, məişəti, mənəvi dəyərləri haqqında əvəzsiz məlumatlar verir. Siyasi tarix və ya arxeologiya bunu, o əvəz edə bilmir. Yaxşı tarixi roman birinci növbədə bədii əsərdir, ədəbiyyat növüdür, sonra isə poetik tarixdir. Tarixi romanların əksinə olanlar tarixi hadisələrin təsvirində qeyri-dəqiqliyi, tarixi hadisələrin müəllif təxəyyülündən gələn insanlarla süni birləşdirilməsini gerçək tarixin təhrif və təftişi kimi qəbul edirlər. Lakin bir çox tarixi

romanlarda müəllif dövrün, həyatın geniş epik lövhəsini yaratmağa nail olub. “Tarixi roman sanki bir elm kimi tarixin sənətlə qovuşduğu nöqtədir, tarixi tamamlayır, onun o biri tərəfidir”

Bütün XIX əsr boyu Azərbaycanın ictimai-siyasi və mədəni mühitindəki dəyişmələr çar hökumətinin yerlərdəki siyasəti ilə birbaşa bağlı idi. Rusiyanın özündə baş verən hadisələr bu və ya digər dərəcədə öz təsirini Azərbaycanda da hiss etdirirdi. Rusiyanı inqilab dalğaları bürüyür, cəmiyyəti sıçrayışla irəli aparmaq istəyənlərlə hökumət arasında ziddiyyətlər getdikcə daha kəskin şəkil alırdı. İ.Şıxlı romanında bu qüvvələrlə üz-üzə duran, onunla ölüm-dirim savaşına girməyə məcbur qalan milli tarixi varlığı geniş epik planda təsvir edir; tarixi varlığın xarakterini açır, gücünü və gücsüzlüyünü göstərir.

"Dəli Kür" romanında XIX əsrin ikinci yarısının, daha çox isə son onilliklərinin hadisələri təsvir olunur. Romanda çar hökumətinin Azərbaycanda siyasi və iqtisadi cəhətdən möhkəmlənməsinin konkret mənzərələri əks olunmuşdur. Bu mənzərələr həmin dövrün ictimai-siyasi münasibətlərini dolğun və tam obyektiv əks etdirir. Romanda Göytəpə kəndinin ətrafında yerləşən və dədə-babadan göytəpəlilərə məxsus olan meşənin qoruq elan edilməsi əhvalatı çar hökumətinin Azərbaycan torpaqlarını iqtisadi fəthinin yeni mərhələsini səciyyələndirməklə dramatizmi artırır, hadisələrin cərəyanını məişət planından çıxararaq bədii konfliktdə milli konteksti gücləndirir. Çarizmin Göytəpə kəndinə və bu kəndin sakinlərinə münasibəti bütövlükdə Azərbaycana və Azərbaycan xalqına münasibət kimi mənalanır. Göytəpə kəndi mikromühit olaraq makromühiti - Azərbaycanı simvollaşdırır.

Azərbaycan tarixində oxuyuruq: 1870-ci il "Əsasnamə"sində də yeni bir şey yox idi və o, 1847-ci il "Əsasnamə"lərinin eyni idi. Həmin "Əsasnamə"lərdə də kəndlilərin şəxsən asılı olmaması, hər 15 yaşına çatmış kəndliyə (kişiyə) beş desyatin pay torpağı verilməsi nəzərdə tutulmuşdu. 1870-ci il "Əsasnamə"sində bunlar vəd edilirdi. Əslində, torpağı 5 desyatindən az olan kəndlilərin böyük əksəriyyətinə əlavə torpaq payı verilmədi... Rusiyada təhkimçilik hüququ ləğv ediləndə, dövlət kəndliyə öz torpağını satın almaq hüququ ilə bərabər, bu torpağı almaq üçün ona borc pul da vermişdi. Amma Azərbaycan kəndlisinə borc pul verilməmişdi və onun torpağı satın alması mümkün deyildi. Bu, çarizmin milli müstəmləkə siyasətinin təzahürü idi".1 Tarixi həqiqət aydın göstərir ki, kəndlilərin torpaqsız qalması və buna görə də ağır maddi vəziyyət içərisində yaşamasının kökü "çarizmin milli müstəmləkə siyasəti"nin, milli ayrı-seçkiliyin nəticəsi idi.Rus kəndlilərindən fərqli olaraq müsəlman kəndliyə torpaq almaq üçün "borc pul" verməməkdə çarizmin siyasəti kifayət qədər məkrli idi. Çar hökuməti çox yaxşı başa düşürdü ki, müsəlman mühitində torpaq probleminin yarımçıq həll olunması sinfi qarşıdurmanı gücləndirəcək. Bu, çarizmin milli birliyə, milli bütövlüyə zərbə vurmaq siyasəti idi...Bu və bunun kimi bir çox tarixi həqiqət bu əsərdə öz əksini tapmışdır. İsmayıl Şıxlının "Dəli Kür" romanı ona görə oxucunun məhəbbətini qazanmışdır ki, orada yalnız ayrı-ayrı surətlərin deyil, müəyyən tarixi dövr, bu dövrdə cəmiyyətin psixologiyası, ictimai ziddiyyətləri, inkişaf meyilləri düzgün bədii əksini tapmışdır.

MİF VƏ ONUN XÜSUSİYYƏTLƏRİ

İsmayılova L.Z.
Bakı Slavyan Universiteti

Mif dünyanın yaranması,təbiət hadisələri,allahlar,qəhrəmanlar,qədim xalqarın adət-ənənləri,etiqadları haqqında möcüzəli əfsanəyə, rəvayətə deyilir.Dünyanın hər bir xalqının özünə məxsus mifləri olmuşdur.Mif yaradıcılığı bəşəriyyətin mədəni inkişaf tarixində çox əhəmiyyətli hadisədir.İbtidai cəmiyyət adamının dünyanı anlayıb dərk etməsində onun mühim rolu olmuşdur.O həmdə bəşər övladının özünü tanımasının ilkin nümunəsidir.Təsadüfi deyil ki,mifologiya qədim mədəniyyətin,incəsənətin beşiyi adlandırılmışdır.

Mif dünyanın işarələrlə,sakral obrazlarla dərkidir.Miflər arxetipik,universal, fövqəltəbii obrazlar silsiləsidir və qədim xalqalardan biri kimi Azərbaycan türklərinin ilkin dünya görüşünün məhsuludur.Bəzən konkret obraz,xüsusi ad şəklində yaddaşlarda yaşasa da, hər biri müəyyan varlığın yaranması,fəaliyyəti və məhvində bəhs açan primitiv əhvalatın daşıyıcısıdır.Daha çox əski çağlara aid yazılı abidələrdə,nağıl,epos və şifahi epik ənənənin başqa formalarında,inam və etiqadlarda mifik düşüncənin qalıqlarına rast gəlirik.

Azərbaycan türklərinin mənəvi simasının formalaşmasında ən mühim vəzifə mifoloji düşüncənin kortəbii şəkildə yaranan məhsullarının üzərinə düşmüşdür.Mədəniyyətin ən arxaik əlamətlərinin və elementlərinin kompleks şəkildə əksinə də mifologiyanın daşıyıcılarında rastlaşırıq.

Mifin bitdiyi,qurtardığı yerdən tarix başlayır.Lakin mifoloji təsəvvürsüz heç bir xalqın qədim tarixi və mədəniyyəti yoxdur.Ona görə ki,arxaik mədəniyyətlərin hamısı mənbəyini mifoloji təsəvvürlərdən alır.

Mifologiya məzmun və formaca müxtəlif olduğuna görə müxtəlif məqsədlərə xidmət etmişdir.Onun köməyi ilə insan kosmosu,ətraf aləmi bəşərləşdirməklə heyrət və həyəcanı dəf edir ,özünə təskinlik verir,pis yaxşını ayır edə bilir.Mifologiyada keçmiş, gələcək və indiki zaman uzlaşdırılır. Mifologiya real,həyati əsaslara malik anlayışdır.O,gerçək dünyanın hadisələrini,faktlarını sadələvhcəsinə təcəssüm etdirən,avamcasına şərh edən insan əqlinin erkən mərhələsində əmək təcrübəsi prosesində,müəyyən sosial-iqtisadi şəraitdə meydana gələn yaradıcılıqdır. İnsanların əmək və həyat təcrübəsi genişləndikcə mifoloji fantastikanın da dairəsi genişlənir.Mifologiya elminin insan həyatında keçmiş dövrlərdən əhəmiyyətli faktları bizə çatdırdığı üçün dərindən araşdırılmalıdır.

Mifin mənası əfsanə, rəvayətlə bağlı olub, əcdad mədəniyyətinin daha əski qatlarında yaranmış bədii dəyərləri əhatə edir. Mif hərfi mənada (yunanca mifos sözündəndir) dünyanın və insanın yaranması barədə əfsanələr, erkən etnosların tanıdığı dünyanı idarə edən allahlar, tanrılar haqqında hekayətlər, dünyanın bu günü və sabahı, dağılıb yenidən yaranması barədəki ilkin bədii yaradıcılığıdır. Mif erkən etnosun dünya, insan və insanın dünya hadisələri barədəki bədii düşüncəsidir. Bu düşüncənin zaman hüdudu qeyri-müəyyəndir.

Azərbaycan mifologiyası ümumtürk mifologiyasının tərkib hissəsidir. Qədim türk mifologiyası qaynaqlarından bəhrələnən mifologiyamız əski türk mifoloji modelini qoruyub saxlamaqla onu yeni miflər, inanclar, kultlar, adət-ənənə və mərasimlərlə zənginləşdirən yaradıcılıq sahəsidir. Digər türk xalqlarında olduğu kimi, Azərbaycan türklərinin mifologiyasında Tanrı (Göy Tanrı-baş allah) və Humay (yerin hamisi) kimi əsas mifik obrazların izlərini tapmaq mümkündür.

Azərbaycan mifologiyası əski inam, etiqad, antropomorfik və zoomorfik görüşlərlə zəngindir. Bunlar arasında əcdad kultu özünəməxsus yer tutur. Bu kultun əsas mənası budur ki, əcdad kultu yeddi nəsildən bir təzələnsə də, hər bir türk ən azı son yeddi nəslin şəcərəsi və mənsub olduğu soyun, tayfanın hansı nəslə məxsus olduğunu bilməlidir. Bu gün bizə əcdad kultunu yaşadan mif və ya əfsanələrin silsilə nümunələri gəlib çatmışdır. Onlar içərisində işıq-şüa, ağac-dünya ağacı, dağ və onların nəsil törədicilik xüsusiyyətinin əks olunması, sırf mif formulalarının çarpazlaşması – yerlə göyün qovuşmasından insan övladının törəməsi, totemistik-zoomorfik (Hümayun, Simurq, Səməndər quşları, Dövlət quşu, Ağ quş, Qara quş, Qurd, at və s.) görüşlərlə bağlı ilk insanın yaranması və nəhayət insanın gildən, torpaqdan, ağacdan yaranması ilə bağlı təsəvvürlər gəlib çıxmışdır.Azərbaycan mifoloji modeli sadə və aydın dərk ediləndir. O, mif mətnlərinə, mif estetik düşüncəsinə əsaslanmaqla türkün erkən təsəvvürlər çevrəsini əhatə edir.

“EDDA” VƏ “OĞUZNAMƏ” EPİK MƏTNLƏRİNİN ORTAQ CƏHƏTLƏRİ

Mirzəyeva S.S.
Bakı Slavyan Universiteti

Dünya xalqlarının epik ənənəsi onların inkişaf mərhələsinə görə yazıya alınırdı. Avropa və türk xalqlarında bu dövr XII-XIII əsrdən etibarən müşahidə edilməkdədir. Məsələn, “Kitabi-Dədə Qorqud” dastanın yazıya alınma tarixini XII əsrə aid edirlər. Bu günkü mövzumuz “Oğuznamə” və “Edda” mətnləri olduğu üçün onun üzərində durmağı məqsədəuyğun sayırıq.

Bu iki epik mətinin müqayisəsini təsadüfən seçməmişik:

-Hər iki mətn demək olar ki, eyni dövrdə XIII-XIV

əsrlərdə yaranmışdır.

-Hər iki epik mətni qələmə alan şəxslər yazar olamaqla yanaşı ictimai xadim və tarixçidirlər.

-Mətnlərin hər birində xalqların mifoloji baxşları ilə yanaşı, fatehlik yürüşlərindən də bəhs olunur.

Bunları nəzərə alaraq aşağıdakı paralelləri aparacağıq.

Öncə “Oğuznamə”nin müəllifinə nəzər salaq:

Bizə gəlib çatan “Oğuznamə” dastanını ilk kəs qələmə alan XIV əsrin məşhur misirli tarixçisi mənşəcə türk olan Misirli Əbu Bəkr İbn Abdullah İbn Aybek ad-Davadaridir. Oğuznamə uyğur əlifbası ilə yazılmışdır.

Oğuz xanla bağlı yaranan "Oğuznamə" eposu oğuz-türkmən tayfalarının mif və əfsanələrinin nəticəsində yaranan dastandır. Bunlardan ən qədimi XIII-XIV əsrə aid edilən karluk-uyğur versiyasıdır.

Onun yeganə nüsxəsi Paris milli kitabxanasında qorunur. Bu epik mətn özündə türklərin ibtidai dünya görüşünü, mərasimlərini ifadə edir. Əsər iki hissəyə bölünür. Birinci hissədə oğuzların totemistik baxışlarından bəhs edilir, ikinci hissədə isə, Oğuz xanın fatehliyindən onun dövlət quruculuğundan bəhs olunur.

Avropada "Oğuz" dastanı ilə müqayisə oluna biləcək epik mətn "Böyük Edda" və "Kiçik Edda" əsərləri ola bilər. Bunun əsas səbəblərindən biri də bu mətnləri günümüzən yazılı şəkildə gəlib çatması ilə bağlıdır. Bu isə hər iki xalqın mədəniyyət nümunələrində yer alan mifopoetik elementləri qarşılıqlı şəkildə araşdırmaq üçün zəmin yaradır.

Ünumgerman mədəniyyətinin bir hissəsi olan, islandlara məxsus "Edda" iki formada günümüzə gəlib çatmışdır. Bunlardan biri "Kicik Edda"dır. "Mythen und Sagen des Nordnes" ("Şimal mifləri və saqaları") adlı mifoloji ensiklopediyada qeyd olunur ki, mifoloji mətnlər toplusu olan "Kiçik Edda" böyük island alimi və dövlət xadimi Snorri Sturlunson (1179-1241) tərəfindən toplanılmışdır. Daha sonra qeyd olunur ki, bu mif toplusu "Snorra-Edda" yaxud "Prossa- Edda" adı ilə tanınır. Bu işində Snorri Sturlunson vikinqlər dövrünə aid bütpərəstliklə bağlı nəsillərdən- nəsillərə ötürülən mədəniyyət nümunələrini Hesiodun iki min il öncə yunan miflərini bir yerdə sistemləşdirdiyi kimi toplamağa cəhd göstərmişdir.

Daha bir "Edda" mətnləri isə nəzm formasındadır. Bu mətnlər 1643-cü ildə yepiskop Brinolf Sveynsson tərəfindən əldə edilib. Perqament üzərində olan bu əlyazma da XIII əsrə aid edilir. Snorri Sturlunsonun "Edda" əsəri o dövrdə məşhur olduğu üçün bu mifoloji mətnlərə də "Edda" adı verilir. Lakin bu mətnləri bir-birindən fərqləndirmək üçün Snorri Sturlunsonun nəsr əsəri "Kiçik Edda", nəzm şəklində olan mətnlər isə "Böyük Edda" adlandırılır. Edda sözünün etimologiyası bu günə qədər dəqiq müəyyənləşdirilməyib. Bəziləri bu sözü "oddidən kitab" (Snorrinin uşaqlığında yaşadığı kənd), bəzən "ulu nənə", bəzən də "poeziya" kimi açmağa cəhd edirlər. Hazırda "Böyük Edda" Kopenhagendəki şah kitabxanasında Codex Regius 2365 adı altında saxlanılır.

"Oğuznamə" dastanında olduğu kimi bu epik mətndə həm də xalqın ibtidai inanclarından bəhs olunurhəm də fatehlik yürüşlərindən bəhs edilir. Oğuzla müqayisə olunacaq əsas obraz isə Odindir.

İSMAYIL ŞIXLININ "ÖLƏN DÜNYAM" ROMANINDA İCTİMAİ-SİYASİ VƏ TARİXİ HADİSƏLƏRİN ƏKSİ

Abuşova S.A.
Bakı Slavyan Universiteti

XX əsr Azərbaycan ədəbiyyatı tarixində İsmayıl Şıxlı adı həm bir yazıçı, həmdə ictimai-siyasi xadim kimi kifayət qədər geniş tanınır.Xalq yazıçısı İ.Şıxlı 1919-cu il martın 22-də Qazax rayonunun Şıxlı kəndində dünyaya göz açıb.1965-ci ilin martında AzərbaycanYazıçılar İttifaqının katibi seçilib, 70-ci illərdə "Azərbaycan" jurnalının baş redaktoru olub.1981-ci ilin yayında isə İttifaqın rəhbərliyinə gətirilib və düz 1987-ci ilin iyununa kimi qurumun sədri vəzifəsində çalışıb.

Müstəqillik uğrunda mübarizə illərində yaşının çox, səhhətininsə nasaz olmasına baxmayaraq, Vətənin istiqlalı üçün əlindən gələni edib.Yanvar qırğınına etiraz olaraq 45 il üzvü olduğu Sov.İKP sıralarını tərk eləyib, xahiş və təzyiqlərə baxmayaraq geri addım atmayıb.Həmin illərdə Milli Məclisə üzv seçilib.İstiqlal bəyannaməsinə səs verənlərdən biri olub.

Özünəməxsus dəsti-xətti,yaradıcılıq maneraları və orijinal üslubu ilə seçilən İsmayıl Şıxlı Azərbaycan ədəbiyyatına təkrarsız sənət inciləri bəxş etmişdir.O, 1995-ci il martın 10-da "Ölən dünyam"ın son nöqtəsini qoyub demişdi:"İndi rahat ölmək olar".Elə həmin il iyulun 26-da bu böyük insan dünyasını dəyişib və təəssüf ki,"Ölən dünyasını" kitab şəklində görə bilməyib.

İsmayıl Şıxlı yaradıcılığının zirvəsi olan"Ölən dünyam" romanı ictimai-siyasi və tarixi hadisələrin hədsiz dərəcədə kəskin verilməsi ilə seçilir.Patriarxal quruluşunun müdafiəçisi kimi çıxış edən ədib 37-ci il repressiyası, dağılmaqda olan və yeni yaranan quruluş arasındakı kəskin təzadları maraqlı süjet xətti, kompozisiya və zəngin koloritli obrazlar sistemi ilə əks etdirmiş, bununla da forma baxımından əvvəlki iki romandan fərqlənən "Ölən dünyam" əsərini yaratmışdır.Yazıçı konkret zaman çərçivələrini qıraraq gah keçmişə, gahda gələcəyə ekskurs edərək iki böyük nəslin taleyini bizlərə göstərə bilmişdir.

Güllüxanım, Halaybəy, Çapıq Əmrah, Kabı Kəsəmənli, Fətullayev surətləri öz fərqli qanun-qayda və ideologiyaları ilə keçmiş dövrlə müasir zamanın arasındakı təzadları aşkara çıxarmaqda müstəsna roloynayırlar.

Ömər Koxa, Güllü arvadın həyat yolunun keçdiyi 3 mərhələ: sosialist inqilabının,1937-ci illərin crepressiyasının və müstəqillik dövrlərinin növbələşməsi bir çox məqamda, xatirələrdə keçmişə qayıdış vasitəsilə dövrün təhlili bizə mövcud zaman və keçmiş arasında fərqləri açıq-aydın görməyə imkan verir.Güllü arvadın uşaqlığının, Ömər Koxanın cavanlığının keçdiyi dövrdən Şəmiddinin öldürüldüyü dövrə qədər böyük dəyişikliklər olmuşdur.İlkin mərhələdə ağsaqqal sözü,mərdlik cəmiyyəti idarə edən qanunlar səviyyəsində idi.Ömər Koxa,Güllü arvad ömürlərinin böyük bir hissəsini bu qanunların qüvvədə olduğu bir zamanda keçiriblər.Övladları isə patriarxallığın pozulmağa başladığı bir zamanda dünyaya gəliblər.Ələddinin ölümündən sonra istər Alqazaxlılar ,istərsədə Çıraqlılar ailələrində baş verən fikir haçalanması da bunu sübut edir.

İsmayıl Şıxlı obrazların xarakterlərini açmaqda əlavə şərhə yol verməmiş,konkret səhnələrin,kiçik detalların, bəzən bir hərəkət,bir sözün vasitəsilə oxucuda müfəssəl təəssürat yarada bilmişdir.Gülü xanımın qadın cəsarəti,böyük bir nəsli layiqincə idarə qabiliyyətinin,Ömər Koxanın mərdlik qanunlarının dəyişilməzliyinin ifadəsində kiçik bir fraqment də oxucuya bəs edir.İstər Halay bəyin,istərsə də Kabı Kəsəmənlinin ideologiyasının anlaşılmasında bizə konkret bir səhnə də kifayətdir.

İsmayıl Şıxlı xırda detalların arxasına böyük mənalar "yükləməklə"oxucunudüşünməyə vadar edən bir sənətkardır.Əsərdə yer alanAlqazaxlıların iti Alan sahiblərinə sədaqəti ilə obraz səviyyəsinə yüksəlmişdir. Romanın sonunda illər boyu canavar sürüsüylə meşədə qalan Alanın Həsənağanı görən kimi onun yanına gəlməsi bir rnöv "geriyə dönüş" sayılabilər.İsmayıl Şıxlının bu səhnədə yer verdiyi "itin qan yaddaşı hərəkətə gəldi" ifadəsi illər keçsədə xalqın başına nə müsibətlər gəlsədə heç nəyin unudulmayacağının təsdiqi kimisəslənir.

Hər bir xalqın həyatında taleyüklü dönüş nöqtələri olur.Bu dönüş nöqtələri xalqın yeni,xoşbəxt yaxud bədbəxt həyat mərhələlərinə keçməsinin təzahürünə çevrilir.XX əsr Azərbaycan tarixi isə belə dönüş nöqtələrinin çoxluğu ilə xarakterizə edilir."Ölən dünyam"da qarşımıza qoyulan dövrlərin müqayisəsi ilə ölkənin siyasi,ictimai mənzərəsi açıq-aydın önümüzdə canlanır.

XƏLİL RZA ULUTÜRK YARADICILIĞINDA ANA DİLİ PROBLEMİ

Quliyeva B.M.
Bakı Slavyan Universiteti

Dil hər şeydən əvvəl insanlar arasında ünsiyyət vasitəsidir. Azərbaycan "Respublikasının dövlət dili Azərbaycan dilidir, Azərbaycan Respublikası Azərbaycan dilinin inkişafını təmin edir". Bu dilin meydana gəlmə və formalaşmasında Tomris, Babək, Ş.İ. Xətai, M.Füzuli, Q.Zakir, M.P.Vaqif, S.Vurğun, M.Ə.Sabir, Mirzə Cəlil, Mir Cəlal, M.İbrahimov, M.Şəhriyar, Bülbül, Ü.Hacıbəyli, S.Tahir, S.Rüstəm, M.Araz, B.Vahabzadə və başqalarının əvəzsiz xidmətləri olmuşdur.

Xalq şairi X.R.Ulutürkün yaradıcılığında "Ana dili"nə xüsusilə diqqət yetirilir. "Xəlil Rzanın milli mənlik şüur və məfkurəsinin ilkin təzahürü ana dilinə ciddi münasibətlə bağlıdır. Dil məsələsi gah kənardan dolayısı ilə, gah da daxilən, iç mahiyyətlə ifadə olunmuşdur. Dil ulu əcdad, Vətən bütövlüyünün, milli varlıq və qeyrət müəyyənliyinin əsası kimi təbliğ olunmuş, mənəvi-milli simasızlığa, özülsüzlüyə ciddi etiraz edilmişdir".

Şair dil məsələsinə nisbətən daha xolerik tərzdə yanaşır, həmvətənlərinə, onların timsalında bütün cahana malik olduqları mənəvi dəyərlərə sahiblənmə bucağından köklənir və "Laylam mənim, nərəm mənim" şeirini qələmə alır.

Şeirin adının belə seçilməsi heç də təsadüf deyildir. Çünki şeirin məzmununda müəllif qədim Azərbaycan tarixinə, ədəbiyyatına şifahi örnəklərimizə köklənməklə fikrini izah edir:

-Lay-lay dedim yatasan,
Qızılgülə batasan
Qızılgül kölgəsində,
Şirin yuxu tapasan.

Ananın körpəsini uyutmaq üçün söylədiyi layla körpənin ruhunu necə oxşayırsa, X.Rzanın ana dili haqqında şeiri də eyni estetik təsiri özündə ehtiva edir. Belə təsir özünü B.Vahabzadənin "Ana dilim",

X.Rzanın "Azərbaycan türkcəsi" (1990) və "Özbək dili" (1986) kimi şeirlərdə də relyefli ifadə olunur. B.Vahabzadənin "Ana dilim" şeirindən bir parçaya diqqət yetirək:

Dil açanda ilk dəfə ana söyləyirik biz,
"Ana dili adlanır bizim ilk dərsliyimiz.
İlk mahnımız laylanı, anamız öz südüylə,
İçirir qəlbimizə bu dildə gilə-gilə.

Bu isə X.R.Ulutürkün "Azərbaycan türkcəsi" şeirindən parçadır:

Ulduzlarda səslənən laylamsan, bayatımsan.
Məni ərşə qaldıran bir cüt nur qanadımsan.
Ey batmış xəzinəmin diri qızıl külçəsi,
Azərbaycan türkcəsi!

Bu isə Xəlilin "Özbək dili" şeirindən fraqmentdir:

Araxçınlı qadınların dinlədinmi laylasını,
Sən yarandın o İlahi nidalardan, özbək dili!

X.Rzanın "Ana dili" ("Laylam mənim, nərəm mənim") şeirində laylanın axıcılığı, rəvanlığı "Ana dili"nin üzərinə ustalıqla köçürülür. Ruhu dilləndirən bu sədanın hardan gəldiyi sualı ortaya çıxınca qədim Azərbaycan tarixinə qiyabi ekskurs olunur.

Şairi düşündürən digər bir məsələ "Ana dili"nin məhv olmaq təhlükəsi idi. X.Rza şeirdə müqayisəli situasiya yaradır. Yaşadılan, var olan bir dil nəyə qadirdir?, dilin məhvi nələrə aparıb çıxara bilər? kimi suallar meydana gəlir. Dilin məhv olması babalarımızdan təhvil aldığımız əski tarixin yoxa çıxması deməkdir, Göy-Gölün Göy-Göllükdən, Qoşqarın Qoşqarlıqdan məhrum olmasıdır. Şair məhz belə bir ciddi problem ətrafında düşünür, dili mühafizə etmək üçün onun uğrunda mübarizə aparır. O, hələ 1969-cu ildə Heydər Əliyevə yazdığı məktubunda aşağıdakıları deyirdi:

"Azərbaycan dilinin təsir dairəsini genişləndirmək, milli simasını itirmişlərə qarşı amansız olmaq, qənimətçilərə, rüşvətxorlara qarşı mübarizədə əsla güzəştə getmədən döyüşmək... Sizinlə birlikdə mənimdə məramımdır"

Dil məsələsinə həsr olunmuş əsərlərdən biri də yuxarıda söylədiyimiz kimi "Azərbaycan türkcəsi" (1990) şeiridir. Şeir Ulutürkün məhbəsdə keçirdiyi günlərdə Azərbaycan türkcəsinə xitab formasında qələmə alınmışdır. Şair Azərbaycan türkcəsinin Günəş qədər əbədiliyini arzulayırdı. "Həbsiyyə" şeirlərini qələmə alarkən ana dilinin onun sətirlərinə Günəş işığı səpdiyini duyur, qaranlıq zindanda parlayan bir Günəşə sahibliyini hiss etdirir. Şeirin son misralarında X.R.Ulutürkün pozitiv düşüncəsi, dilin qüdrətinə inamı özünü büruzə verir.

Min il bundan sonra da yaşayacaq dünyada.
Füzulinin nəfəsi, Şəhriyarın nəfəsi-
Dağıt bu dar qəfəsi,
Dağıt zülmət məhbəsi,
Azərbaycan türkcəsi!

"Özbək dili" şeirində isə "Azərbaycan türkcəsi" və "Özbək dili"nin şair üçün eyni dəyər daşıdığının şahidi oluruq. X.R.Ulutürk Azərbaycan dilinə hansı istiliklə yanaşırdısa, özbək dilinə də bu cür doğma münasibət bəsləyir.

1960-cı ildə "Ana dili" və digər şeirlərinə görə ictimai-bədii mühitdən uzaqlaşdırılan şair dissident olmaq dərəcəsinə gəlib çatdığı vaxtlarda aşağıdakıları qeyd edirdi:

"Mən hələ 1962-ci ildə "Ana dili" şeirim üstündə Vəli Axundov yoldaş tərəfindən milli məhdudluqda, lovğalıqda ittiham olunduğum üçün, bu tənqidin obyektiv olmadığını bir daha yada salmaq üçün MK-ya məhz həmin kitabı göndərməyi lazım bilmişdim. Rus, belarus, ukraynalı anaların dərdini öz dərdi bilən, onların göz yaşlarını ovcuna toplayan bir şairin ürəyində cılız duyğular axtarmayın –demək istəmişdim".

Şair poemalarında da Azərbaycan dili məsələsinə toxunmuşdur.

Balaların həsrətdir Azərbaycan dilinə,
Azərbyacan dilinə yas saxlayan yekəbaş!
Milləti istəyənlər qol çirməyir, iş görür.
Millətbazlar sənin tək özgələri köçürür.

ОСНОВНЫЕ ЧЕРТЫ ПОЭТИКИ АКМЕИЗМА В ТВОРЧЕСТВЕ А. А. АХМАТОВОЙ

Гусейнова А.Н.
Бакинский славянский университет

Акмеизм (от греч. acme – высшая степень чего-либо, расцвет, вершина) – одно из модернистских течений в русской поэзии 1910-х годов, сформировавшееся как реакция на крайности символизма. Названием этого течения подчёркивалась устремлённость его приверженцев к новым вершинам искусства. Акмеизм объединил поэтов, различных по идейно-художественным установкам и литературным судьбам. Акмеисты, пришедшие на смену символистам, не имели детально разработанной философско-эстетической программы. Но если в поэзии символизма определяющим фактором являлась мимолётность, сиюминутность бытия, то в качестве краеугольного камня в поэзии акмеизма был положен реалистический взгляд на вещи. Если символисты в своём творчестве ориентировались на музыку, то акмеисты – на пространственные искусства: архитектуру, скульптуру, живопись.

Акмеизм насчитывает шестерых наиболее активных участников течения: Н. Гумилёв, А. Ахматова, О. Мандельштам, С. Городецкий, М. Зенкевич, В. Нарбут. На роль «седьмого акмеиста» претендовал Г. Иванов, но подобная точка зрения была опротестована А. Ахматовой, которая заявляла, что «акмеистов было шесть», и седьмого никогда не было».

Главные идеи акмеизма были изложены в программных статьях Н. Гумилёва «Наследие символизма и акмеизм» и С. Городецкого «Некоторые течения» в современной русской поэзии». «На смену символизма, - писал Н. Гумилёв, - идёт новое направление, как бы оно ни называлось, акмеизм ли (высшая степень чего-либо, цвет, цветущая пора) или адамизм (мужественно твёрдый и ясный взгляд на жизнь), во всяком случае, требующее большего равновесия сил и более точного знания отношений между субъектом и объектом, чем то было в символизме. Однако чтобы это течение утвердило себя во всей полноте и явилось достойным преемником предшествующего, надо, чтобы оно приняло его наследство и ответило на все поставленные им вопросы. Слава предков обязывает, а символизм был достойным отцом». С. Городецкий считал, что «символизм... заполнив мир «соответствиями», обратил его в фантом, важный лишь постольку, поскольку он... просвечивает иными мирами, и умалил его высокую самоценность. У акмеистов роза опять стала хороша сама по себе, своими лепестками, запахом и цветом, а не своими мыслимыми подобиями с мистической любовью или чем-нибудь ещё».

Для творчества акмеистов свойствен интерес к минувшим литературным эпохам: «Тоска по мировой культуре» - так определил впоследствии акмеизм О. Э. Мандельштам. Это мотивы и настроения «экзотического романа» у Гумилёва; образы древнерусской письменности Данте и психологического романа XIX в. у А. А. Ахматовой; античность у Мандельштама.

Творчество Анны Ахматовой в группе акмеистов и в русской поэзии в целом следует определить как «трагический лиризм». Если её коллеги по акмеизму определяются по принципу художественного преображения внешней реальности в объективном аспекте, в энергии действия, в непосредственном переживании культуры как памяти и как одной из целей жизни, то Ахматова сосредоточивает своё художественное внимание на внутренней, эмоциональной сфере, на становлении личности, на внутренних конфликтах, через которые проходит личность в условиях самой трагической эпохи истории России.

«Только Ахматова, - писал В. Жирмунский, - пошла как поэт путями открытого ею нового художественного реализма, тесно связанного с традициями русской классической поэзии...». Лирика Ахматовой опиралась на достижения классической русской поэзии – творчество Пушкина, Баратынского, Тютчева, Некрасова, а из современников – Блока. Блок назвал её «настоящим исключением» среди акмеистов. Но в то же время раннее творчество Анны Ахматовой выразило многие принципы акмеистической эстетики, воспринятые поэтессой в индивидуальном понимании.

Вещные детали в художественном мире Ахматовой, бытовые интерьеры, смело введённые прозаизмы, та внутренняя связь, какая всегда просвечивает у неё между внешней средой и потаённо бурной жизнью сердца, - всё живо напоминает русскую реалистическую классику, не

только романную, но и новеллистическую, не только прозаическую, но и стихотворную. Ахматовой свойственна не музыкальность стиха символистов, а логически точная передача тончайших наблюдений. Вопреки акмеистическому призыву принять действительность «во всей совокупности красот и безобразий», лирика Ахматовой исполнена глубочайшего драматизма, острого ощущения непрочности, дисгармоничности бытия, приближающейся катастрофы.

Ахматова до последних дней своей жизни очень высоко оценивала роль акмеизма и в своей собственной жизни и в литературе той эпохи. Она не переставала называть себя акмеисткой – как бы в пику тем, кто не хотел видеть роли и значения этого течения. Ахматова нашла в акмеистической группе, руководимой таким мастером как Гумилёв, и включавшая в себя Мандельштама, поддержку важнейшей стороне своего таланта - реализму, научилась точности поэтического слова и отгранённости самого стиха.

Школа акмеизма – очень строгая, включающая долгую традицию – вплоть до греческой античности. Акмеистическая дисциплина дала Ахматовой возможность и силу вынести то бремя, которое выпало на ее долю.

“DAHİ QETSBİ” ƏSƏRİNDƏ QADIN OBRAZLARININ ÖZÜNƏMƏXSUSLUĞU

Məmmədova İ.K.
Bakı Slavyan Universiteti

“Caz əsri” adlandırılan dövrün tipik əsəri hesab olunan “Dahi Qetsbi” romanı F.S.Fitsceraldın şah əsəri hesab olunur. Bu əsərin əsas qəhrəmanı Cey Qetsbi olsa da, qadın obrazların təsvirinə geniş yer verilmişdir və onlar əsərdə cərəyan edən hadisələrin gedişində mühüm əhəmiyyət kəsb edirlər. Romanda aşağıdakı qadın obrazları vardır: Dezi Byukenen, Cordan Beyker, Mirtl Uilson, Ketrin və b. qadınlar. Əsərin əsas qadınları qəhrəmanlarının hər birinin özünəməxsus xüsusiyyətləri tam dəqiqliklə işlənmişdir.

Romanın əsas qadın qəhrəmanı Dezi Byukenen çox ziddiyyətli obrazdır. O, Nik Karraueyin əmisi qızı, Tom Byukenenin həyat yoldaşı, Cey Qetsbinin isə sevdiyi qadındır. Cavanlıqda Ceyin sevgilisi olmuş Dezi onu gözləyəcəyinə söz versə də, Cey müharibədə olanda sevilmək ehtiyacı duyur və həmin vaxt onla evlənmək istəyən Toma razılıq verir. Əsərdə hadisələr onun ətrafında cərəyan edir. Dezi həlim, gözəl, üç yaşlı uşaq anası olan zəkalı evdar qadın kimi təsvir edilir. O, bəzi xüsusiyyətlərinə görə müsbət, bəzilərinə görə isə tamamilə mənfi bir obraz kimi təqdim olunur. Fitsceraldın ən uğursuz qadın qəhrəmanıdır. Zahirən gözəl olsa da, o, duyğusuz, axmaq, eqoist, başqa insanların hsslərinə önəm verməyib onları incidən biridir. Əsərin əvvəlindən Fitscerald Deizini ehtiyatla saf, təmiz biri kimi təsvir edib Qetsbinin sonsuz sevgi və sədaqətinə layiq bir qəhrəman kimi qələmə almağa çalışsa da, sonda onun özünü təqdim etdiyinin tam əksi olduğu görünür. Fitsceraldın yazıçı kimi ustalığı nəticəsində bu birdən-birə baş vermir. Biz roman davam etdikcə bu obrazın tədricən necə dəyişildiyinin, daxili aləminin açıldığının şahidi oluruq. Əsərin sonunda onu bu qədər çox sevən və həyatını ona qurban vermiş Qetsbinin dəfnində iştirak etməməsi, onu atıb getməsi ilə yazıçı Dezinin əsl sifətini oxuculara açmış olur.

Cordan Beyker öz xarakteri və adı ilə 1920-ci illərin – caz əsrinin “yeni qadınları”nı təmsil edir. Cordan adı hər iki cinsin nümayəndələrinə aid ola bilir. O, gözəl, qolfla məşğul olan, cəmiyyətin qadınlara qoyduğu qaydalara uyğun yaşamağa müqavimət göstərən, kişi təbiətli, mənfəətpərəst, eqoist qəhrəmandır. Elə bu xüsusiyyətlər də onu digər qadın qəhrəmanlardan köklü şəkildə fərqləndirir. Dezinin ən yaxın rəfiqəsidir. Yalnız müstəqil həyat tərzinə görə onu Mirtlın bacısı Ketrinlə müqayisə etmək olar. Cordan həm də riyakardır. O, ilk qolf yarışında qalib olmaq üçün hiyləyə əl atır.

Əsərdəki Dezi və Mirtl isə qeyri-müstəqil, evli, amma hər an xəyanatə hazır qadın obrazlarıdır. Bu ortaq xüsusiyyətlərinə baxmayaraq, Dezi və Mirtl bir-birindən çox fərqlənir. Mirtl canlı, yaşamağa, öz vəziyyətini inkişaf etdirməyə çalışan, daha çox görünüşünə fikir verən, süni və hətta qəribə qadın obrazıdır. Onun ölüm səhnəsinə xüsusi diqqət ayıran yazıçı, müxtəlif bədən üzvlərinin dağılmasını aydın təsvir etmişdir. Bununla da oxucuda elə təəsürat yaranır ki, o, bir qadın kimi bədənindən istifadə edərək qazandığı günahlara görə cəzalandırılır. Bundan əlavə, Mirtılın ölümünün Dezinin əlindən olması da əsərdə diqqət çəkən məqamdır. Sanki, bununla Dezi Mirtldan intiqam almış olur.

Psixoloji baxımdan yanaşdıqda aydın olur ki, Dezi, Mirtl və Cordan arasında çox böyük fərq var və hətta onlar üçbucağın üç fəqli tərəfi kimidirlər, hekayədə bir-birinin rolunun tamamlamasına dayaq olsalar da, tam fərqli, müstəqil insandırlar.

Romandakı digər qadın obrazlarına müəllif daha tənqidi və müəyyən qədər təhqirlə yanaşmışdır. Hətta onların bəzilərinin adı belə çəkilmir. həmin qadınlar əsərdə içki düşkünü kimi təsvir olunur. Lakin bu qadınların heç biri Mirtl qədər mənfi münasibət görmür. Belə ki, o Tom tərəfindən döyülür, xəyanətinin üstü açılanda yoldaşı Corc tərəfindən otağa kilidlənir. Bütün bunlar Fitsceraldın qadınlara olan mühafizəkar baxışının təcəssümüdür. Romanda kişilər qadınları təmin edə bilmək üçün işləyib pul qazanırlar və qadınlar üzərində hökmran mövqedə dayanırlar. Yalnız Cordan və Nikin münasibətlərində bu hökmranlıq hiss olunmur. Baxmayaraaq ki, sonda Niki münasibətlərinə son qoymasqla öz hökmranlığını nümayiş elətdirir. Əsərdə qadın surətləri ilə bağlı diqqəti çəkən digər bir məqam onların heç birinin pak, təmiz olmamasıdır, hətta romanın əvvəlində Dezi və Cordanın ağ geyinməsi bu vəziyyəti sadəcə daha qabarıq göstərir.

"Dahi Qetsbi" romanındakı qadınlar əsərdəki digər qəhrəmanlar kimi pulu hər şeydən, sevgidən yüksək tuturlar və sonda tək qalmayacaq qədər ağıllıdırlar.

İLYAS ƏFƏNDİYEVİN YARADICILIĞINDA PSİXOLOGİZMLƏR

Əliyeva M.Ə.
Azərbaycan Dövlət Pedaqoji Universiteti

Ədəbiyyat tariximizdə xüsusi yeri olan, Türk dünyasının ünlü sənətkarı, görkəmli xalq yazıçısı İlyas Əfəndiyevin zəngin və çoxçeşidli yaradıcılığı onlarca elmi monoqrafiyaların, tədqiqatların və araşdırmaların mövzusu olub. 1939-cu ildə "Kənddən məktublar" adlı ilk kitabı çap edildikdən sonra ədib bir sıra maraqlı hekayələr yazdı. "Apardı sellər Saranı", "Yun şal", "Qarı dağı", "Sən ey qadir məhəbbət", "Qəhrəmanla bülbülün nağılı" və s. hekayələr aydın və məlahətli təhkiyəsi ilə oxucuların rəğbətini qazandı. 60-cı illərdən etibarən İlyas Əfəndiyev iri həcmli povest və romanlar "Söyüdlü arx"(1958), "Körpüsalanlar" (1960), "Dağlar arxasında üç dost"(1963), "Sarıköynəklə Valehin nağılı"(1976-78), "Geriyə baxma, qoca"(1980), "Üçatılan"(1981), "Qaçaq Süleymanın ölümü"(1993), "Xan qızı Gülsənubərlə tarzən Sadıqcanın nağılı"(1996) kimi bədii-estetik fikir zənginliyi ilə seçilən əsərlər yazdı. Bu əsərlərdə səlis və şirin təhkiyə ilk cümlələrdən oxucunu özünə cəlb edir. Yazıçı hər bir obrazın daxili aləmini, dəruni hiss və duyğularını, əxlaqi psixoloji vəziyyətini ustad sənətkar qələmi ilə təsvir edir. Obrazların daxili aləminə nüfuz etmək, onların mənəvi-əxlaqi keyfiyyətlərini və ülvi hisslərini yüksək bədii dillə oxuculara çatdırmaq İlyas Əfəndiyev yaradıcılığına xas olan ən mühüm cəhətlərdir.

Lirik-psixoloji üslubun meydana gəlməsi öncə insanın daxili aləmini, hiss və duyğularını daha aydın və ətraflı təsvir etmək imkanı verdi. 60-cı illər nəsrində, xüsusilə dramaturgiyasında lirik-psixoloji üslubun təşəkkül tapması ilə milli teatrımızda yeni yaradıcılıq məktəbi formalaşdı. Ədəbiyyatşünaslıqda psixologizm bir bədii üsul kimi (roman, povest, hekayə, ssenari, dram) ədəbi janrlarda bədii ifadə vasitəsi kimi işlənərək mahiyyətcə yeni forma alıb. İlyas Əfəndiyev nəsrinin ən səciyyəvi cəhətlərindən biri ondakı psixologizmdir, insanların daxili aləmini, onların mənəvi dünyasındakı ziddiyyətləri nəsrin obyektinə çevirməsidir. Roman və povestlərində yazıçının əsas məqsədi şəxsiyyətin daxili aləminin mübhəm çalarlarını, insan taleyinin zaman axarında başqalaşmasını, başqa sözlə, zaman-insan –tale problemini aydınlatmaqdan, mənəvi suverenliyi ifadə etməkdən ibarət olub. Qəhrəmanın dərin psixoloji aləminə nüfuz etmək yazıçının həm nəsrinə, həm də dramaturgiyasına xas olan ən əlamətdar xüsusiyyətlərdən biridir.

"Söyüdlü arx" romanında Nuriyyə ilə Səadətin arasındakı dialoqda hər iki obrazın daxili aləmi bir daha üzə çıxır. Nuriyyənin Səadətlə geniş dialoqu təsirli ifadə tərzi, kəskinliyi və psixoloji toqquşması ilə diqqəti cəlb edir. Nuriyyə qəlbindən keçirdiklərinin hamısını Səadətə deyir, ürəyini boşaldır, azad nəfəs alır. Burada mətləb uzun uzadı uzadılmır, əsas fikir obrazlı şəkildə qısa və yığcam deyilir. Və bəzən yazıçı sözə sığmayan fikirləri daxili duyğuların mübhəm çalarlarında açır. Sözlə deyilməyən, hiss və duyğu ilə "deyilən" fikirlə. Və bu hiss uzaq ənginliklərə fikrin qanadlarında yüksəlir. Romanda əsərin qəhrəmanı Nuriyyə azadlıq hissini öz daxili dünyasından keçirir. Hər bir surət öz fərdi xarakterinə uyğun hiss və duyğularını təsirli verməklə həm də daxili vəziyyətinin və emosiyasının rəngarəng çalarlarını göstərir. Səciyyəvidir ki, yazıçı yaratdığı obrazların mənəvi-psixoloji aləmini az sözlə, səlis, dərin və mənalı ifadələrlə sərgiləyir. Onun nəsr əsərlərində gənclərin mənəvi dünyası, xarakteri, psixologiyası açıqlanır. Əsərlərinin qəhrəmanları haqqında yazıçı yazırdı ki, mənim əsərlərimin qəhrəmanları müasir

həyatda xarüqələr yaradan gənclərdir. Bu qəhrəmanlar öz fəaliyyətlərində elm və mədəniyyəti təbliğ edir, ucqar kənd və rayonlara yol çəkir, rüşvətxorluğa, ədalətsizlik və haqsızlığa qarşı mübarizə aparırlar.

İlyas Əfəndiyevin nəsr əsərlərinin dilində, xüsusən hər bir obrazın xarakterində onun öz dünyagörüşü və psixologiyası görünür. Onun nəsr əsərlərində qaldırdığı aktual problemlər çağdaş mənəvi və ictimai tələblər baxımından bədii ustalıqla təsvir edilir. Yazıçı hər bir obrazın xarakterindəki ziddiyyətləri, işıqlı keyfiyyətlərlə yanaşı həm də kölgəli cəhətləri göstərir.

İlyas Əfəndiyev yaradıcılığı üçün səciyyəvi olan əsas cəhətlərdən biri onun cazibəli, təbii və canlı bir dildə yazmasıdır. Bədii üslubu formalaşdırıb, dolğunlaşdıran mənbələr cərgəsində folklor poetikasının, folklor ənənə və motivlərinin rolu İlyas Əfəndiyevin yaradıcılığında olduqca güclüdür. Tənqidçi – ədəbiyyatşünas, professor Yaşar Qarayev yazırdı ki, "Əlbəttə, mübahisə etmək olar ki, İlyas Əfəndiyev daha çox nasirdir, ya dramaturq? Hətta mübahisə etmək olar ki, nəsrdə də, daramaturgiyada da o, daha çox ədibdir, yoxsa şairdir? Lakin bir şey mübahisəsizdir: İlyas Əfəndiyev hər şeydən əvvəl, bir lirikdir, şairanə istedada və üsluba malikdir." İlyas Əfəndiyev əsərlərinin bədii siqlətinin məna çalarını onun özünəməxsus fərdi üslubu təşkil edir. Özlüyündə üslub çox mənalı anlayışdır. Rus şairi A.Blok yazmışdır: "Hər bir yazarın üslubu onun ruhuyla sıx bağlıdır. Təcrübəli insan üsluba baxaraq yazarın ruhunu görə bilər." Professor Tofiq Hacıyev düzgün qeyd edir ki, lirizmi, bir tərəfdən, dramaturqun dilindəki şeiriyyəti qidalandırır , o biri tərəfdən hadisə və obrazlarındakı psixologizmi şərtləndirir. Bu lirizm oradan başlanır ki, yazıçı təbiətdə də, cəmiyyətdə də, insanda da gözəlliyin vurğunudur; bu gözəlliyi tapa və görə bilir. Gözəlliyin də lirika ilə dil açması təbiidir. Buna görə də İlyas Əfəndiyevin dilində güclü şeiriyyət var. Bu şeiriyyət təkcə sevgi səhnələrinin təsvirində, lirik qəhrəmanların emosional söhbətlərində deyil, bütövlükdə İlyas Əfəndiyevin bədii sənətindədir, nəsrində və dramaturgiyasındadır.

Ustad sənətkar insan qəlbinə və mənəviyyatına dərindən nüfuz etdiyindəndir ki, hər bir obrazın daxili hiss və həyəcanlarını, həyata və insanlara baxışını incə, psixoloji çalarlarla üzə çıxarır. İlyas Əfəndiyevin nəsr əsərlərinə məxsus emosionallıq, dərin psixologizm, incə lirizm və təzad ayrı-ayrı obrazların mürəkkəb və ziddiyyətli xarakterləri vasitəsilə açılır. Parlaq istedadı və çoxçeşidli yaradıcılığı ilə ədəbiyyat tariximizdə xüsusi bir mərhələ təşkil edən unudulmaz sənətkarın heç zaman təravətini və bədii siqlətini itirməyən əsərləri əsrlər boyu yaşayacaq. İlyas Əfəndiyev sənəti, İlyas Əfəndiyev ədəbi irsi həmişə yaşadır.

MEHDI HÜSEYNIN " ŞEYX ŞAMİL" DRAMINDA TARİXƏ REALİST BAXIŞ

Şəkiyeva K.X.
Azərbaycan Dövlət Pedaqoji Universiteti

Xalq yazıçısı Mehdi Hüseyn klassiklərin və müasirlərin təcrübəsindən öyrənə - öyrənə hekayə , povest , dram və romanları , ədəbi-tənqidi çıxışları və publisist yazıları ilə Azərbaycan sovet ədəbiyyatı tarixində silinməz iz qoymuşdur. Dramaturji fəaliyyəti M.Hüseynin yaradıcılığında önəmli ədəbi istiqamətlərdən biri kimi diqqəti cəlb edir.O, bir –birinin ardınca " Şöhrət", " Şeyx Şamil " , "Nizami", "İntizar", "Qardaşlar", "Cavanşir ", "Alov" pyeslərini yazmışdır.Böyük oxucu kütləsinin rəğbətini qazanan dram əsərlərindən biri də " Şeyx Şamil " (1940-1941) pyesidir. Əsər ikinci dünya müharibəsi illərində yazılmışdır.

19-cu əsrdə Dağıstan xalqının milli qəhrəmanı kimi tanınan Şeyx Şamilin şəxsiyyəti bir çox sənətkarların diqqətini cəlb etmişdir.Mehdi Hüseyn həmin mövzuya müraciət edəndə artıq ikinci dünya müharibəsi başlamışdır .Bu şəraitdə sovet ideologiyasına sədaqət hissinin tərənnümü ,ona qarşı çıxanlara kəskin nifrət formalaşdırılması başlıca meyarlardan idi. Yəhya Seyidovun fikrincə, Mehdi Hüseyn "Şeyx Şamil" pyesində azadlıq və istiqaliyyət uğrunda mübarizə mövzusunu önə çəkmiş, mürəkkəb və ziddiyyətli həyat yolu keçmiş tarixi şəxsin xarakter cizgilərini açmağa nail olmuşdur. Mehdi Hüseyn öz dramatik qəhrəmanını hər şeydən əvvəl igid bir döyüşçü və təşkilatçı kimi canlandırmışdır. Şeyx Şamil vətənin, millətin azadlığı uğrunda oğlundan belə keçməyə hazır olan ata olmuşdur. Tarixi mənbələrdən də məlumdur ki, Şeyx Şamil böyük bir sərkərdə olmaqla yanaşı imam kimi də tanınmışdır.Mehdi Hüseyn pyesdə bu tarixi mənbəyə sadiq qalaraq Şeyx Şamili bir sərkərdə olmaqla yanaşı imam kimi də göstərmişdir.Şeyx Şamil həm öz dövründə , həm də günümüzdə sevilən

şəxsiyyətlərdən biri olmuşdur. O cümlədən,"Şeyx Şamil" pyesi də həm yazıldığı dövrdə geniş ədəbi maraq doğurmuş ,həm də müasir dövrümüzdə sevilərək oxunur.

Pyesdə mürəkkəb və ziddiyyətli obrazlar ,dolğun xarakterlər vardır. Əsərdə diqqəti çəkən obrazlardan biri də Şeyx Şamilin qayını Sultandır. Şamildən fərqli olaraq Sultan pis xislətli ilə, acgözlüyü ilə oxucunun nifrətini qazanmışdır. Sultan çox tamahkardır ,rus generalı ilə əlbir olub ,Şamili öldürdükdən sonra onun yerinə keçmək istəyir . Şeyx Şamilin milli azadlıq hərəkatı ilə bağlı planlarını generala çatdırır .Şamilin oğlu Qazi Məhəmmədin qasidini öldürməklə yüzlərlə igidin ölmünə bais olur. Yazıçı Sultan obrazını yaratmaqla Şamilin güclü və zəif tərəflərini açır. Məsələn, Şeyx Şamil Sultanın iki yüz döyüşçünü qəsdən ölümə verdiyini bilməsə də məğlubiyyət xəbəri onu çox sarsıdır. Sultan Şamilin gözündən pərdə asmaq üçün hətta xəncərlə özünü yaralayır. Şeyx Şamil onun xəyanətinə əmin olduqdan sonra özü onu öldürür.

Pyesdə Şeyx Şamilin rus generalı ilə rus xalqına münasibəti fərqlidir.Şeyx Şamilin rus millətinə sevgisi,hörməti böyük idi. Bunu rus ordusunda döyüşən zabit Tamarin və Dmitriyə olan münasibətində də görmək mümkündür. Pyesdə Tamarin də humanistliyi ilə,şair qəlbi ilə oxucunun məhəbbətini qazanmışdır. O, yersiz yerə qanın su yerinə axmağına narazı idi ,müharibə istəmirdi.Tamarin A.S.Puşkinin nəslindən idi. Puşkinin öldürülməsindən təəssüflənir, özü də gözəl şeir söyləyir . Şeyx Şamilin ədalətinə inandığı üçün Şamilin tərəfinə keçir. Döyüş zamanı Tamarin yaralanır. Şeyx Şamil ona deyir :"Biz 20 ildi vuruşuruq... biz nə vaxt qalib gələcəyik..." Tamarin: "Qəhrəman rus soldatı bu dağlara ölüm yox, böyük xalqın məhəbbətini gətirəndə..." Bu sözləri dedikdən sonra Tamarin əbədi olaraq gözlərini yumur.Yazıçı Tamarin obrazını yaratmaqla heç bir xalqın müharibə istəmədiyini göstərmişdir. Müharibə siyasi liderlərin çılğın ehtirasları üzündən yaranır.Qurban isə yenə xalq, millət olur. Müasir dövrümüzdə də siyasi liderlərin ağlasığmaz var-dövlər hərisliyi, başqalarının torpağına sahib olmaq ehtirası ucbatından minlərlə körpələr isti ata-ana qucağından, dinc həyatlarından məhrum olurlar. Bu baxımdan Şeyx Şamil pyesi təqdirə layiqdir. Çünki pyesdə zamanın bütün çirkinlikləri öz əksini tapmışdır.Pyesdə müharibəni sevən liderlər və müharibəni sevməyib müharibənin qurbanı olan xalqın taleyi öz əksini tapmışdır. Millət varsa ədəbiyyat da var, millətin taleyini əks etdirən ədəbiyyat isə hər zaman seviləcəkdir.

İSİ MƏLİKZADƏNİN "EVİN KİŞİSİ" POVESTİNDƏ "MÜSBƏT QƏHRƏMANI" TİPİ

Əliyeva İ.R.
Azərbaycan Dövlət Pedaqoji Universiteti

İ.Məlikzadənin ilk hekayələri və povestləri keçən əsrin altmışıncı illərinin həyat həqiqətlərini əks etdirirdi. O hekayə və povestlərin qəhrəmanları da elə İsi yaşında ya da ondan cavan idilər. «Evin kişisi» povestindəki milisioner Qaçay, «İki günün qonağı»ndakı İslam, «Kövrək qanadlar»dakı, «Qartal yuvası»ndakı, «Sağlıq olsun»dakı obrazlar... hamısı cavan idi. Və bu cavanlar bir balaca qəsəbədə ya bir rayon mərkəzində, ya da kənddə-kəsəkdə yaşayırdılar. Onlar, sosrealizmin tələbiylə yanaşsaq, «müsbət qəhrəman» deyildilər. Və buna görə də, bəzi tənqidçilər İsini tənqid edirdilər ki, niyə bu obrazları passiv verir. Onlar niyə sözdən işə, etirazdan mübarizəyə keçmirlər? Nə olsun ki, bu obrazlar mənən təmizdirlər, safdırlar?

Amma zaman dəyişmişdi, altmışıncı illərdə stereotiplərdən, şablonlardan fərqli bir ədəbiyyat yaranırdı və İsi Məlikzadə də o ədəbiyyatı yaradanlardan biri idi. Onlara sonralar «altmışıncılar» deyəcəkdilər.

Əlbəttə, İsi Məlikzadə yaradıcılığından söz açan müəlliflər onun yaradıcılıq yolunu mərhələlərə də ayırıblar. Bu da təbiidir. Mən belə düşünürəm ki, İsi Məlikzadənin yaradıcılığının birinci dövrü öncə adını çəkdiyim povestləri ilə bitir. İkinci dövrü isə «Küçələrə su səpmişəm» povesti ilə başlayır. Bu povestdə İsi Məlikzadə artıq o «kövrək qanadlar»dan fərqli yeni bir qəhrəman tipini oxuculara təqdim edir. Artıq həyatı dərk edən, çətinlikdən, əzablardan, maddi və mənəvi sıxıntılardan keçərək formalaşan bir insanla üzləşirik.

"Evin kişisi" povestində İsi Məlikzadə adi bir insanı - sıravi milis işçisi Qaçayın həyatını təsvir edir. Qaçay öz hərəkətləri və davranışı ilə sovet ədəbiyyatının "müsbət qəhrəmanı" tipi ilə heç cür uyuşa bilməz. Çünki o, mənfiliklərə qarşı mübarizə apara biləcək qəhrəman səviyyəsində deyil. Hətta Qaçay "müsbət qəhrəman"a xas olmayan avam və sadəlövh düşüncə tərzilə gülüş də doğurur.

Rəisi Qaçayı ironiya ilə "Koroğlu" adlandırır, lakin Qaçay nəinki Koroğlu, heç onun dəlilərindən də deyil. Amma Qaçay daxilən saf və təmiz insandır. O, kiminsə qarşısında əyilir, sınır, amma bu təmizlik onu tərk etmir. Məsələ burasındadır ki, Qaçay tipli insanlar ədəbiyyatın qəhrəmanı olmamışdılar. Onlar adi həyat tərzi, gün - güzəran ağırlığı, maddi və mənəvi qayğıları ədəbiyyatın predmetinə çevrilməmişdi. Təsadüfi deyil ki, "Evin kişisi" çap olunandan sonra bəzi tənqidçilər "bu necə qəhrəmandır? bu qəhrəman niyə passivdir?" deyə haray qopardılar. Lakin unudulurdu ki, ədəbi qəhrəmanın tipləri müxtəlif ola bilər və Qaçay kimi insanlar isə həyatda, reallıqda mövcuddurlar. İsi Məlikzadə isə süni şəkildə Qaçaya "müsbət qəhrəman" pasportu, "mübarizlik" vəsiqəsi bəxş etməmişdir.

Lakin əlbəttə, İsi Məlikzadənin yaratdığı ədəbi qəhrəmanların heç də hamısı Qaçaya oxşamır. Qaçay sadəcə olaraq sadə, təmiz və mənəviyyatlı insanların bir nümunəsidir. Bu qəhrəmanların hamısının qarşısında istisnasız və tərəddüd eləmədən "işıqlı" sözünü bədii təyin kimi işlətmək mümkündür. Lakin İsi Məlikzadənin təsvir etdiyi bu işıqlı insanların hər birinin öz fərdi dünyası, mənəvi aləmi var. Və İsi Məlikzadə hər bir qəhrəmanı təsvir edəndə özünəməxsus bədii boyalar, təravətli ifadə vasitələri tapa bilmişdir.

İsi Məlikzadənin təsvir etdiyi KƏND keçən əsrin 60-90-cı illərindəki Azərbaycan kəndidir. İsi bu kəndi yaxşı tanıyırdı və yaxşı tanıdığı üçün də özündən heç nə uydurmurdu. O, kəndi ideallaşdırmırdı, özündən əvvəlki yazıçılardan fərqli olaraq bu kəndin ordenli - medallı, şöhrətli qəhrəmanlarından söz açmırdı (onsuz da bu mövzuda onlarla əsərlər yazılmışdı). İsi bu kəndin ağrı-acılarından, mənəvi baxımdan ekoloji tənəzzülündən, kənddə yaşayan insanların müxtəlif qayğılarından danışırdı. Bu baxımdan onun üç povestini xatırlatmaq kifayətdir: "Quyu", "Yaşıl gecə" və "Dədə palıd".

İsi Məlikzadənin "Evin kişisi" povestində cəmiyyətin pozulmamış, əxlaqi cəhətdən saf, büllur insanları ilə eybəcər mühit arasında mübarizə təsvir edilir və o saf, büllur insanlar bu mübarizədə real baxımdan məğlub olsalar da, istəklərinə yetməsələr də, bir təmizlik etalonu, simvolu kimi həyatdan ədəbiyyata gəlirlər. Ədəbiyyat bu qəhrəmanların simasında özü də saflaşır, durulaşır. Qabaqcadan planlaşdırılmış «müsbət» qəhrəmanlardansa, taleyi dolanbaclardan, mürəkkəb dolaylardan keçən obrazlar yaratmaq, onları «boyaların qatışığında» təsvir etmək «altmışıncılar»ın sənət prinsipi idi. Burada yerinə düşər deyim ki, İsi Məlikzadə XX əsr Azərbaycan nəsrində KƏNDi təsvir edən, onu bütün reallıqları ilə, ictmiai-mənəvi prizmalardan canlandıran yazıçılardan idi. Deyək ki, Süleyman Rəhimov və Əbülhəsən Ələkbərzadə Azərbaycan kəndinin bütöv mənzərəsini epik planda canlandırmağa səy göstərmişdilərsə də, Əli Vəliyev kəndin zəngin folklor aləmini, ağbirçəkli-ağsaqqallı dünyasını, İlyas Əfəndiyev romantik aləmini, Sabir Əhmədli dramatizmlə dolu ictimai həyatını və sosialist həyat tərzinin naqisliklərini, İsa Hüseynov müharibə dövrü və müharibədən sonrakı Azərbaycan kəndinin faciəli məqamlarını, Mövlud Süleymanlı köçəri elat dünyasını, mifik aləmini…ədəbiyyata gətirmişlərsə, İsi Məlikzadə o kəndin, yaxud balaca bir qəsəbənin və rayon mərkəzinin adi insanlarını təsvir edirdi. Bu əsərləri oxuyanda ən əvvəl qarşında o kəndin təbiət mənzərələri («Dədə palıd», «Yaşıl gecə») canlanır, sonra təbiətin özü qədər saf, təbii insanları səni özünə cəlb edir və sonra da bu insanları bədbəxtliyə, uğursuzluğa düçar etmək istəyən mühitlə tanış olursan.

İsi Məlikzadə ömrünün son illərində «Qırmızı şeytan» və «Dolaşaların novruz bayramı» povestlərini qələmə aldı. «Qırmızı şeytan»da Azərbaycanın XI Qızıl Ordu tərəfindən istilası ilə 20 Yanvar faciəsi arasında paralel müqayisələr apardı və ictimai-siyasi zorakılığın nələr törətdiyi faciələri canlandırdı. «Dolaşaların novruz bayramı»nda isə yetimxana uşaqlarını, onların taleyini bədii lövhələrlə təqdim etdi.

YENİ PEDAQOJİ TEXNOLOGİYALARIN ƏSAS TƏTBİQİ İSTİQAMƏTLƏRİNİN MÜƏYYƏNLƏŞDİRİLMƏSİ

Səlimova A.S.
Bakı Slavyan Universiteti

Pedaqoji texnologiya prosessual kateqoriya kimi bilavasitə tədris (və tərbiyə) prosesi ilə müəllimin və tələbənin fəaliyyəti, onun strukturu, vasitələri, metodları və s. ilə bağlıdır.

Ölkəmizdə aparılan islahatların, təhsil quruculuğunun indiki mərhələsində əsas diqqət qarşıya qoyulan vəzifəyə uyğun olaraq təhsilin məzmununun yeniləşməsinə, yeni pedaqoji texnologiyalar əsasında həyata keçirilməsinə yönəlmişdir.

Qabaqcıl pedaqoqlar dünya təcrübəsinə əsaslanaraq yeni pedaqoji texnologiyaların şəxsiyyətə yönəlmiş təlim, fəal idrak, inkişafetdirici təlim, qabaqlayıcı təlim, təlim-tərbiyə sisteminin çevikliyi, əməkdaşlıq, dialoji təlim prinsiplərini tədris prosesinə gətirmişlər.

Pedaqoji texnologiyalardan istifadənin əsas istiqamətləri innovasiyalarla əlaqədər biliyin, müvafiq anlayışların düzgün mənilmsənilməsi, müasir təlim prinsipləri, təlim metodlarından öz yerində maksimum səmərəli istifadə olunması ilə bağlıdır.

Təlim texnologiyalarından istifadə onun müxtəlif növləri – problemli təlim, proqramlı təlim, işguzar oyunlar, modul təlim, kompyuter təlimi və s. bunların hamısı təlim texnologiyalarının formaları kimi təhlil edilməlidir.

Pedaqoji ədəbiyyatlarda təhsil texnologiyalarının təhlili göstərir ki, yeni pedaqoji texnologiyalar xarakterik əlamətlərə malikdir. Müəllimin bələdçiliyi ilə dərsdə problemi tələbələrin özlərinin həll etməsi pedaqoji texnologiyaların əsas ideyasını təşkil edir. Bələdçi-fasilitator tədqiqatların aparılması istiqamətində tələbələrə şərait yaradır, istiqamət verir, təlim prosesini əvvəlcədən layihələşdirir. Təlim prosesində tələbə şəxsiyyətinin inkişaf edirilməsi zamanı təlim məqsədlərini əsaslı şəkildə həyata keçirir.

Yeni pedaqoji texnologiyalardan istifadə edən müəllimin novatorluğu, onun yenilikçi kimi dünya təcrübəsindən istifadə edərək, yeni tədris metodları, dərs tiplərini müəyyənləşdirməsi təhsildə inkişaf üçün geniş imkanlar yarada bilər.

Yeni təlim texnologiyalarının tətbiqi ilə keçirilən müasir dərslər ənənəvi dərslərdən bir çox üstün cəhətləri ilə fərqlənir.

«İnteraktiv» termini «dialoq, qarşılıqlı fəaliyyət göstərmək» kimi izah olunur. Fəal, interaktiv təlim metodları və üsullarının tətbiqi tədris prosesini xeyli intensivləşdirir, onu hər bir şagird üçün daha əhəmiyyətli və maraqlı edir, dərsdə fəallığın maksimum artmasına zəmin yaradır, bununla da təlimin inkişafetdirici aspektini nəzərə çarpan dərəcədə gücləndirir. Təlim-tərbiyə prosesində interaktiv təlim metodlarının tətbiqi şagirdlərdə müstəqil düşünmək, sərbəst rəy söyləmək, başqasının fikrinə münasibət bildirmək, qərar qəbul olunmasında iştirak etmək və sair bu kimi xüsusiyyətlərin təşəkkülünə bilavasitə kömək etməklə tənqidi təfəkkürün formalaşmasına, müstəqillik və çeviklik amillərinin güclənməsinə zəmin yaradır.

İnteraktiv təlim dərsdə yaranan, meydana çıxan tələbələrarası öyrənmə ünsiyyəti və əməkdaşlığı, müəllim-tələbə birliyini nəzərdə tutur. İnteraktiv metodlar isə təlim prosesində öyrənmə və anlaşmaya, bacarıq və keyfiyyətlərə tələbələrin yiyələnməsini həyata keçirən üsullar, tərzlər, işlər, yanaşmalar, vasitələrdir.

Elə bu səbəbdən də inkişaf etmiş ölkələrdə təhsil tələbə-dərslik müəllim sistemində qurulmuşdur. Əlbəttə, yeni interaktiv texnologiyaya əsaslanan müəllim sinifdə ənənəvi tədris metod və üsullarından imtina etməli, biliklərin əldə edilməsi yolunda bələdçi rolunu oynamalıdır. Bu baxımdan aparılan tədqiqat işləri qabaqcıl təcrübənin öyrənilməsinə, söylənilən fikir və mülahizələr ilk növbədə dərsin keyfiyyətinin yüksəldilməsinə, dərsə verilən yeni tələblərin həyata keçirilməsinə yönəlmişdir. Dərsin yeniləşməsi isə təlim texnologiyalarının prosesə tətbiqindən əsaslı şəkildə asılıdır. Görkəmli pedaqoq-alim C.P.Kapitsa vaxtilə deyirdi ki, təhsil gələcəyə yönəlmiş sənaye sahəsidir. Alimin bu nəzəriyyəsi artıq həqiqətə çevrilmişdir. Belə ki, ötən əsrin 60-cı illərində Amerika və Avropa məktəblərində islahatlar keçirilmiş və təlimin texniki vasitələrinin geniş tətbiqinə başlanmış, tədris prosesinə texnikanın tətbiqi zəminində təlimin texnologiyası yaranmışdır. Bu tərbiyə sahəsinə də nüfuz edərək pedaqogikaya pedaqoji texnologiya kimi daxil olmuşdur. Hazırda texnologiyanın pedaqogikaya daxil olması təhsil texnologiyalarının və eyni zamanda pedaqoji texnologiyaların yaranmasına səbəb olmuş və ümumiyyətlə, pedaqoji texnologiya mahiyyət etibarı ilə təlim-tərbiyə prosesinin layihələşdirilməsinin sistemi metodu kimi səciyyələndirilmişdir.

ƏDƏBİYYATDAN MƏNƏVİYYATA

Mirzəyeva A.C.
Bakı Slavyan Universiteti

Ədəbiyyat mənəviyyatın qidasıdır. İnsan doğulduğu andan etibarən daim müşahidə edir.Bu müşahidələr daha sonra ədəbiyyatla, tamaşalarla, filmlərlə davam etdirilir. Bu danılmaz faktdır ki, ədəbiyyat insanı həyata hazırlayır,elə bir həyata ki, qarşılaşa biləcəyi bütün möcüzələr, təhlükələr, xoşbəxtliklər və faicələr orada öz əksini tapmışdır. Bu vasitə ilə insanlar yalnız yaşadıqları hadisələri müşahidə etmir,eyni zamanda şüuraltı olaraq gələcəkdə baş verə biləcək hər hansısa çətin situasiyadan

çıxış yollarını öyrənirlər. Çünki istənilən ədəbi nümunə güclü təxəyyül, məntiqi düşüncəyə açılan qapıdır.

Milli-mənəvi dəyərlər çox geniş və əhatəlidir. Bu dəyərlər xalq yaradıcılığı nümunələrində, dini təsəvvürlərdə, elm və mədəniyyət abidələrində, dilin qorunub saxlanılması ilə bağlı əsərlərdə, görkəmli tarixi şəxsiyyətlərin yaradıcılığında, qaya və daş rəsmlərində, arxeoloji qazıntılarda, başqa mənbələrdə öz əksini tapır. Bu milli-mənəvi dəyərlərdə xalqın dili, mənşəyi, dini təsəvvürləri, xarakteri, adət-ənənələri, düşüncə tərzi, qabiliyyəti və istedadı, insani münasibətləri və digər sosial-psixoloji keyfiyyətlər öz ifadəsini tapır. Milli-mənəvi dəyərlərin elə bir nümunəsi tapılmaz ki, orada gənc nəslin təlim-tərbiyəsinə, əxlaqına, ağlına, zəkasına, onların mənəvi-psixoloji aləminə aid fikirlər söylənməsin. Hər bir xalq və ya etnos özünü düzgün dərk edib qiymətləndirmək və tərəqqiyə nail olmaq üçün yalnız özünün mənəvi keçmişinə dərindən bələd olmalıdır. Biz bu gün milli-mənəvi dəyərlərimizi özündə əks etdirən ədəbiyyatımızdan, dilimizdən – mərifət xəzinəsindən daha çox bəhrələnməli və onları tədqiq edərək gənc nəslə çatdırmalıyıq. Bunlar bir tərəfdən milli-mənəvi dəyərlərə olan hörmət və münasibətimizi ifadə edər, digər tərəfdən gənc nəslin öz soykökünə bağlanmasında, onlarda milli ləyaqət, qürur hislərinin formalaşmasında əhəmiyyətli rol oynayar.

Hər xalqın özünəməxsus milli-mənəvi dəyərləri olduğu kimi, Azərbaycan xalqının da minilliklərin süzgəcindən keçib gəlmiş davamlı və dayanaqlı dəyərlər sistemi var. Bu dəyərlər xalqımızın etnik milli hislərini, xarakterini, düşüncə tərzini, xasiyyətini, insanlarla qarşılıqlı münasibətlərini özündə ehtiva edir. Xalqın elmə, maarifə, mədəniyyətə aid fikirləri ilk növbədə bu dəyərlərdə cəmlənir.

Fəxrlə deyə bilərik ki, Azərbaycan şifahi xalq yaradıcılığı nümunələrində insan mənəviyyatına, psixologiyasına aid irəli sürülən fikirlər klassiklərimizin yaradıcılığında, daha konkret desək, onların yaratdığı bədii obrazlarda əks olunaraq müasir ədəbiyyatımıza ötürülmüşdür..

Ədəbiyyatımız bədii və elmi təfəkkürün vəhdəti nəticəsində yaranaraq, dövrün sosial, fəlsəfi – psixoloji xüsusiyyətlərini özündə əks etdirir. Bu baxımdan klassik irsimiz təhsilin nəzəri və elmi problemlərinin öyrənilməsində əvəzolunmaz mənbədir. Yazıçı və şairlərin, filosofların əsərləri həmin dövrün güzgüsüdür. Xalqın iztiablarını, adət-ənənələrini, əxlaqını, keçirdiyi hisləri, arzu və xəyallarını, xarakterini, milli ləyaqət və qürurunu öyrənmək üçün bu mənbələrə müraciət etmək lazımdır.

Ədəbiyyat həm də ruhu tərbiyələndirir. İnsan ruhu kamil səviyyəyə yüksəldikdə mövcud cəmiyyət də qüsurlardan arınar. Bunu da ilk növbədə humanizmin, mənəviyyatın,milliliyin , vətənpərvərliyin əks olunduğu ədəbiyyatla həyata keçirmək mümkündür. Bu sahədə ədəbiyyatın hər iki qolu bərabər fəaliyyət göstərir. Qədimliyi, milliliyi ilə seçilən şifahi xalq ədəbiyyatında bayatı,laylalar, oxşamalar, nəğmələr, nağıllar, əfsanələr, dastanlar və s. yalnız uşaqların təfəkkürünün formalaşmasına deyil, yetkin insanların milli-mənəvi dəyərlər timsalında kamilləşməsinə gətirib çıxarır.

Belə müsbət nəticənin əldə olunması üçün yalnız tədris prosesində ədəbiyyat dərsləri kifayət etmir,xüsusi telekanalların açılması, şifahi xalq nümunələrinin tamaşalara, televiziyaya daha çox tətbiqi bu prosesi sürətləndirə bilər. Belə bir deyim var ki, ”Uşaq eşitdiklərilə deyil, gördüklərilə tərbiyələnər”.

Bu vasitələrlə həm əxlaqi-mənəvi keyfiyyətlərin yüksəldilməsinə, həm də ədəbiyyatı ekranlaşdıraraq gələcək nəsillərə etibarlı ötürülməsinə gətirib çıxarar.

XIX ƏSRİN İKİNCİ YARISI, XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCAN MAARİFPƏRVƏRLƏRİNİN PEDAQOJİ İRSİNDƏ VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİ ƏXLAQ TƏRBİYƏSİNİN MÜHÜM TƏRKİB HİSSƏSİ KİMİ

Məmmədzadə N.İ.
Bakı Slavyan Universiteti

XIX əsrinikici yarısı, XX əsrinəvvəllərində Azərbaycanda sosial, iqtisadi-siyasi şərait,ağır həyat tərzi insanların təlim, tərbiyəsinə müəyyən dərəcədə təsir göstərirdi. Bu dövrdə əsil insan və xalqa layiq vətəndaş yetişdirmək məsələsi maarifçi pedaqoqları narahat edən əsas problemlərdən biri idi. Onlar cəmiyyətdəki nöqsanları tənqid edir, bu nöqsanların aradan qaldırılması istiqamətində öz fikir və ideyalarını irəli sürürdülər.

Vətənpərvərlik, doğruçuluq, xeyirxahlıq, şərəf, vicdan kimi əxlaqi keyfiyyətlər tarixin istənilən dövründə mühüm əhəmiyyət kəsb etmişdir. Əslində vətənpərvərlik çox dərin bir hissdir. Vətənpərvərliyi

cəmiyyətin inkişafı üçün hərəkətverici qüvvə kimi də başa düşmək olar. Əsil vətəndaş təkcə vətənini sevən şəxs deyil, həmçinin vətənin inkişafı, gələcəyi üçün əlindən gələni edən şəxsdir. Vətənpərvərlik anlayışına insanın öz xalqının mədəniyyətinə, adət və ənənələrinə, ölkənin siyasi quruluşuna, ictimai – iqtisadi münasibətlərinə və s. hörmət və məhəbbəti aiddir.

XIX əsrin ikinci yarısı, XX əsrin əvvəllərində yaşayıb, fəaliyyət göstərmiş Azərbaycanın maarifpərvər pedaqoqlarının ən əsas məqsədlərindən biri vətənpərvər gənclər yetişdirmək olmuşdur. Onlar gənclərin elm sahəsində irəli getməsi, millətin tərəqqisi üçün əllərindən gələni əsirgəmirdilər. Bu dövrdə yeni açılmış məktəblər insanlar arasında baş alıb gedən cəhalətin aradan qaldırılması üçün müstəsna əhəmiyyətə malik idi.

Dövrün A.A.Bakıxanov, M.F.Axundov, M.Kazımbəy, N.Nərimanov, C.Məmmədquluzadə, Ü.Hacıbəyov, H.Zərdabi kimi qabaqcıl pedaqoqları, müsəlman müəllimlərinin qurultayı, "Səfa", "Nəşri-maarif", "Nicat" kimi xeyriyyə cəmiyyətləri vətəndaşlıq tərbiyəsi istiqamətində işlərin aparılmasında böyük rol oynamışlar.

Cəmiyyətlərin fəaliyyətinin əsasını o dövrdə Azərbaycan dilinin inkişafına nail olmaq təşkil edirdi. Çünki təlimin ana dilində təşkil olunması vətənpərvərlik tərbiyəsində böyük rol oynayır. Bu dövrlərdə ana dilli təhsil uğrunda mübarizə aparan N.Nərimanov, C.Məmmədquluzadə kimi maarifçilər xeyriyyəçilik cəmiyyətlərinin təşkil etdiyi tədbirlərdə fəal iştirak edir, bu sahədə əhəmiyyətli qərarların qəbul edilməsi ilə məşğul olurdular.

N.Nərimanov ana dili haqqında gözəl fikirlər söyləmiş və bununla da öz dilinə olan sonsuz sevgisini bir daha sübut etmişdir. O deyirdi: " Ana dili! Elə bir dildir ki, diyari – qürbətə biganələr içinə düşəndə, ona həsrət qalırsan. Onu eşidəndə ürəyin döyünməyə, üzün gülməyə başlayır. Bir dəqiqə ərzində vətəni gözünün qabağına gətirirsən...".

M.F.Axundovun da bir maarifçi pedaqoq kimi ən mühüm xidmətlərindən biri təlimin ana dilində aparılmasına çalışması idi. O, xalqın geriliyinin əsas səbəblərindən biri kimi təlimin ərəb dilində aparılmasını görürdü.M.F.Axundov qeyd edirdi ki, təlimin ərəb dilində aparılmasını o dövrdə fəaliyyət göstərən Azərbaycan məktəblərinin ən pis cəhətidir. M.F.Axundov gənclərin vətənpərvər ruhda yetişməsi üçün əlindən gələni etməklə yanaşı, özü də xalq üçün canlı bir nümunə idi. O, xalqını sevir, onların cəhalətdən xilas olmasını istəyirdi. Təkcə istəməklə kifayətlənmirdi. Eyni zamanda bu sahədə mühüm işlər görürdü.

Maarifçi pedaqoqlar içərisində özünəməxsus yeri olan H.Zərdabi əsil vətəndaş yetişdirməklə bağlı dəyərli fikirlər söyləmişdir. O, öz fikirlərinin bəzilərini redaktoru olduğu "Əkinçi" qəzetində dərc etdirirdi. O, təlim - tərbiyə sahəsində, xüsusilə də vətəndaşlıq tərbiyəsi istiqamətində aparılan işlər zamanı qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün xalqın adət - ənənələrinin qorunub saxlanmasını, onların təbliğini vacib hesab edirdi. Milli adət və ənənələr həyatımızın müxtəlif sahələrində - musiqi, rəqs, eləcə də incəsənətin digər növlərində qorunub saxlanılır. H.Zərdabi öz məsləkdaşlarını millətə layiqli vətəndaş yetişdirmək uğrunnda birgə mübarizə aparmağa çağırırdı. O, belə hesab edirdi ki, əgər hamının qüvvəsi birləşərsə o zaman istəkləri həyata keçirmək daha asan və tez başa gələr.

Dövrün digər bir məşhur pedaqoqu F.Köçərli xalqın təhsilinə böyük önəm verirdi. O, deyirdi ki, təhsil prosesini vətənpərvər gənclər yetişdirmək istiqamətində qurmaq lazımdır. F.Köçərli ictimai mühitin insana təsirini şəxsiyyətin formalaşmasında mühüm faktor kimi qeyd edərək, mühitin yeniyetmələrin, gənc nəslin tərbiyəsinə göstərdiyi mənfi təsirləri kəskin şəkildə tənqid edirdi. Bu təsirlərdən insanları qorumaq üçün işlər görürdü. Digər pedaqoqları öz apardıqları işlərdə bu amilləri nəzərə almağa səsləyirdi. O, düşünürdü ki, əsil vətəndaşın zəhmətkeş və əməyə qiymət verməyi bacaran birisi olmalıdır.

H.Z.Tağıyevin bir maarifçi kimi Azərbaycan xalqının milli vətənpərvər inkişafı uğrundakı fəaliyyəti milli məzmun və beynəlmiləl səciyyə daşıyırdı. Onun maarifçilik təşkilatlarının təşkilində böyük rolu olmuşdur. Bakıda "Nəşri – maarif", "Nicat" cəmiyyətlərinin təşkil edilməsi və fəaliyyəti H.Z.Tağıyevin əməyi nəticəsində həyata keşmişdir. Bu cəmiyyətlərin də gənc nəslin vətənpərvərlik tərbiyəsi istiqamətində əhəmiyyətli rolu olmuşdur. Cəmiyyətlərdə təşkil edilən müxtəlif tədbirlərdə dövrün maarifçi pedaqoqları iştirak edirdilər.

Ümumiyyətlə Azərbaycan maarifpərvərlərinin elmi – pedaqoji irsindəki vətənpərvərlik ideyaları onların öz millətlərinə, vətənlərinə olan sonsuz məhəbbətin nəticəsi idi.

XIX əsrin ikinci yarısı, XX əsrin əvvəllərində yaşamış, xalqın rifahı üçün mübarizə aparmış hər bir maarifçi pedaqoqun vətənpərvərlik tərbiyəsi ilə bağlı fikir və ideyalarının müasir dövrümüzdə yeniyetmələrin tərbiyəsi prosesində nəzərə alınması, onların məsləhətlərinə əməl edilməsi vacibdir.

Vətəndaşlıq tərbiyəsi əxlaq tərbiyəsinin mühüm tərkib hissəsi kimi istər yüz il öncə, istər müasir dövrümüzdə, istərsə də yüz il sonra hərtərəfli və ahəngdar inkişaf şəxsiyyət yetişdirmək üçün əsas amillərdən biri olaraq qalacaqdır.

ÖLKƏŞÜNASLIĞIN TƏDRİSİNDƏ ŞƏKİLLƏRİN ROLU

Qəniyev S.N.
Bakı Slavyan Universiteti

Ölkəşünaslıq bir ölkənin, regionun tarixi, iqtisadi, coğrafi, siyasi, sosial, mədəni aspektdən tədqiqi ilə məşğul olur. Buna görə də o coğrafiya, tarix və digər yaxın fənlərin birgə öyrənilməsini zəruri edir. Xarici dil dərslərində ölkəşünaslıq fənni dili öyrənilən ölkənin tarixi, coğrafiyası, sosial, iqtisadi və siyasi həyatı haqqında geniş məlumatlar verir.

Xarici dilin tədrisi üçün olan dərslik və digər materiallarda dili öyrənilən ölkənin ölkəşünaslığı haqqında da məlumatlara yer verilir. Bundan başqa ölkəşünaslığın tədrisi üçün ayrıca dərsliklər və digər dərs vəsaitləri də mövcuddur.

Ölkəşünaslığın tədrisində təkcə dərsliklər deyil qəzet məqalələri, radio və televiziya verilişləri, müxtəlif statistik məlumatları özlərində əks etdirən diaqramlar və qrafiklər, eləcədə şəkillər mühüm rol oynayırlar. Bu cür əyani vəsaitlər ölkəşünaslıq dərslərində ayrı-ayrı mövzular keçilərkən səmərəli istifadə oluna bilər. Son illərdə bir çox ölkələrdə şəkillərin də yer aldığı dərsliklər sürətlə yayılmaqdadır. Əvvəllər dərsliklərdə başlıca yeri mətnlər tuturdusa indi şəkillər mətnlərlə yanaşı əsas informasiya mənbəyi hesab olunurlar. Əsas almandilli ölkələr olan Almaniya, Avstriya və İsveçrə ölkəşünaslığının tədrisi də bu baxımdan istisna deyil və alman dilinin tədrisində geniş istifadə olunan dərsliklər və digər dərs vəsaitlərinin hazırlanması və tərtibatında şəkillərdən geniş istifadə olunur. Alman dili və ölkəşünaslığı dərslərində şəkillərlə iş bir sıra amillərdən asılıdır:

1. seçilmiş şəkillərin tipindən
2. şəkillərin funksiyalarından
3. dilin hansı məqsədlə öyrənilməsindən
4. ayrı-ayrı mədəniyyətlərdə tədrisdə istifadə üçün nəzərdə tutulan şəkillərə reaksiyadan və s.

Şəkillər daha asan və tez qavranılan kommunikasiya vasitələridir. Buna görə də ölkəşünaslığın tədrisində müxtəlif şəkillərdən və əyani vəsaitlərdən geniş istifadə olunmalıdır. Bura müxtəlif fotoşəkillər, qrafik təsvirlər, xəritələr də aid edilə bilər. Şəkillər keçirilənlərin yadda saxlanılmasına müsbət təsir edirlər. Belə ki, biz qəbul etdiyimiz informasiyaları özümüzdən asılı olmayaraq şəkil şəklində yadda saxlayırıq.

Ölkəşünaslıq dərslərində də dili öyrənilən ölkənin tarixi, coğrafiyası, mədəniyyəti, sosial, iqtisadi, siyasi həyatında baş vermiş mühüm hadisələri də şəkillərin köməyi ilə daha yaxşı yadda saxlamaq olar. Buna misal olaraq Almaniyanın ikinci dünya müharibəsi dövrünə aid fotoşəkilləri, bu ölkənin iri şəhərlərində yerləşən məşhur abidələrin şəkillərini göstərmək olar. Bu şəkillər dili öyrənilən ölkəyə açılan pəncərə rolunu oynayırlar.

Ölkəşünaslığın tədrisində istifadə olunan şəkillər dili öyrənilən ölkə haqqında mövcud bilikləri genişləndirməyə, ölkə haqqında təsəvvürləri artırmağa xidmət etməlidir. Buna görə də ölkəşünaslıq dərslərində istifadə olunan şəkillər düzgün seçilməlidir. Bu seçim keçirilən mövzu ilə yanaşı şagirdlərin və tələbələrin bilik səviyyəsi və onların motivasiyasından da asılıdır. Ölkəşünaslığın, ümumiyyətlə dilin tədrisində istifadə olunan şəkillər texniki cəhətdən keyfiyyətli olmalıdırlar. Bu da dərsin gedişinə təsir göstərən amillərdəndir. Buna görə də ölkəşünaslıq dərsliklərində mətnlərlə yanaşı keyfiyyətli şəkillərdən istifadə olunmalıdır və dilin öyrənilməsində və ölkəşünaslığın tədrisində mətnlərlə yanaşı keyfiyyətli şəkillərin istifadəsi vacibdir.

Şəkillər dərsliklərdə daim istifadə olunmalıdır və dərsliklər də öz növbəsində yeni tələblərə uyğun olmalıdır. Ölkəşünaslıq dərslərində şagirdlərdə və ya tələbələrdə dərsliklərdə olan mətnlərlə yanaşı yuxarıda qeyd olunan əyani vəsaitlər və şəkillərlə həvəs oyatmaq lazımdır. Belə olan təqdirdə dərsin səmərəli keçməsi və istənilən nəticəyə nail olmaq mümkündür.

Sonda onu da qeyd etmək lazımdır ki, sadalanmış əyani vəsaitlərlə iş müstəqil, fərdi şəkildə təşkil olunmalıdır. Yəni ölkəşünaslıq dərslərində şəkillərdən istifadə ayrı-ayrı müəllimlərdən asılıdır.

Beləliklə, ölkəşünaslıq dərslərində şəkillərdən istifadə zəruri olduğu kimi, müəllimlərin də fərdi metodları nəzərə alınmalıdır.

RƏŞAD NURİ GÜNTƏKİN VƏ AZƏRBAYCAN

Kevser Gülsüm Receb
Sumqayıt Dövlət Universiteti

XX əsrdə türk xalqının yetişdirdiyi görkəmli ədəbi similardan biri də Rəşad Nuri Güntəkindir. (1889-1956). Cumhuriyyət dövrü türk ədəbiyyatında geniş ad-san qazanan və məşhurlaşan yazıçı yalnız ədəbi həyatda deyil, eləcə də Türkiyənin ictimai həyatında da böyük şöhrət qazanmışdır. O, 1938-1943-cü illərdə Böyük Millət Məclisinin millət vəkili, Fransada Türkiyənin mədəniyyət işləri üzrə attaşe (1947-1954) , eyni zamanda YUNESKO da Türkiyənin təmsilçisi olmuşdur. Ağır və gərgin dövlət işləri ilə məşğul olmasına baxmayaraq, Rəşad Nuri Güntəkin zəngin bədii yaradıcılıq yolu keçmişdir. O, birinci dünya müharibəsini, ikinci Məşrutiyyət dönəmini, qurtuluş savaşı illərini öz gözləri ilə görmüş, zəngin həyat təcrübəsini irili-xırdalı çoxsaylı əsərlərində əks etdirmişdir. Məhz bu təcrübə Şərq-Qərb ədəbi təfəkkürünü, yeni dünyagörüşünü, milli-genetik köklərə bağlılığı təsvir etməyə yazıçıya imkan vermişdir. O, Anadolu ziyalıları ilə cəmiyyət və xalq arasındakı mövcud uçurumu görüb, bu uçurumun sosial-siyasi səbəblərini əks etdirməyə çalışmışdır. R. N. Güntəkinin əsərlərində sentimalist ruhla yanaşı, geniş realist təsvirlər əsas yer tutur. Onun "Xarabalar çiçəyi", "Çalıquşu", "Damğa", "Dodaqdan qəlbə", "Acımaq" və digər əsərləri yalnız Türkiyədə deyil, eləcə də bir çox ölkələrdə məşhurlaşmış, bir sıra əcnəbi və qohum dillərə tərcümə olunmuşdur. Görkəmli ədibin bir sıra hekayə və romanları Azərbaycan dilinə də tərcümə olunmuş, geniş oxucu kütləsinin dərin rəğbətini qazanmışdır. Ədəbiyyatşünas Ə. Əhmədov yazıçının roman yaradıcılığı haqqında məqalələr çap etdirmişdir. Professor Elman Quliyev "Türkiyə -türk ədəbiyyatı" (2003), "Türk xalqları ədəbiyyatı" (2009) kitablarında Rəşad Nuri Güntəkinə ayrıca olaraq oçerklər həsr etmişdir.Professor Aydın Abi Aydın "Türkiyə ədəbiyyatı tarixi" (2009), dərsliyinin ikincicildində R. N. Güntəkindən ətraflı bəhs etmiş, dövri mətbuatda və elmi jurnallarda onun haqqında müxtəlif səpkili əsərlərlə çıxış etmişdir. Ümumiyyətlə, Rəşad Nuri Azərbaycan ədəbiyyatına və ədəbiyyatşünaslığına bağlayan köklər XX əsrin əvvəllərinə gedib çıxır. Ədib 1919-cu ildə Azərbaycan artistlərinin qastrol tamaşaları münasibətilə yazdığı " Azərbaycan teatrı" məqaləsində xalqımızın milli-mənəvi dəyərlərini diqqət və həssalıqla araşdırmış, milli teatırımızın təşəkkül və inkişafını təhlil etmişdir. O, bu məqalədə Azərbaycan teatrının ideya-sənətkarlıq səciyyəsini Üzeyir Hacıbəyovun yaradıcılığı əsasında nəzərdən keçirmiş, böyük bəstəkarın "Arşın mal alan" , " O olmasın, bu olsun " komedyalarını yüksək qiymətləndirmişdir. Görkəmli sənətkar bu məqalədə Azərbaycan milli teatrının yaranıb formalaşdığı yarım əsrə yaxın bir dövrdə inkişafını diqqətlə işləmiş, bu sahədə Azərbaycan ziyalılarının rolunu layiqincə dəyərləndirmişdir. O, Həsən bəy Zərdabi, Nəcəf bəy Vəzirov , Cəlil Məmmədquluzadə, Hüseyn Ərəblinski, Əbdürrəhim bəy Haqverdiyevin, Hüseyn Cavid kimi sənətkarların Azərbaycan dramaturgiyasına , teatra verdikləri töhfələrdən, gətirdikləri yeniliklərdən bəhs edərkən göstərmişdir ki, xalqın milli teatrının cəfakeş ziyalıları tərəfindən inkişaf etdirilir və mənəvi sərvətə çevrilir. Azərbaycan teatrı da məhz adları çəkilən bu cür ziyalıların danılmaz xidmətləri sayəsində yaranaraq inkişaf etmişdir.

Onu da qeyd edək ki, ədəbiyyatşünas Ə. Əhmədov Azərbaycan ədəbiyyatşünaslığında Rəşad Nuridən geniş bəhs edən ilk alimdir. O, yuxarıda adını çəkdiyimiz monoqrafiyasında yazıçının "Çalıquşu", "Damğa", "Yarpaq tökümü" və digər romanlarını araşdırmış, yazıçının roman yaradıcılığının tipoloji cəhətlərini səciyyələndirmişdir. Ə.Əhmədov, Rəşad Nurinin romanlarında işıqlandırdığı sevgi, ailə, uşaq və əxlaq problemini mühüm sosial məsələlər kimi nəzərdən keçirmiş, o dövr Türkiyə cəmiyyətində fərd və toplum, şəxsiyyətin mənəvi dünyası kimi mövzuların ədəbi aləmdə geniş maraq doğurduğunu qeyd etmişdir. Ədibin romanlarında iç-içə girmiş fabula xətləri, fərdin mənəvi azadlığı, tənhalığın doğurduğu faciələr və sair problemlər Azərbaycan ədəbi tənqidində və ədəbiyyatşünaslığında mərkəzi və aktual mövzular kimi müntəzəm araşdırılmışdır. Bu araşdırmalar indi də davam edir.

IV BÖLMƏ

METODİKA, PEDAQOGİKA VƏ PSİXOLOGİYA

TƏLİMDƏ FƏNLƏRARASI ƏLAQƏNİN HƏYATA KEÇİRİLMƏSİNİN PEDAQOJİ VƏ PSİXOLOJİ MƏSƏLƏLƏRİ

Qasımova G.F.
Sumqayıt Dövlət Universiteti

Son illərdə fənlərarası əlaqəyə təhsilin elmi səviyyəsinin yüksəldilməsi biliklərin şagirdlər tərəfindən daha dərindən mənimsənilməsi və tətbiqinin məktəbdə təlim-tərbiyə prosesinin təkmilləşdirilməsinin səmərəli vasitəsi kimi böyük əhəmiyyət verilir.

Məktəb, ölkəmizin sosial və iqtisadi inkişafını, elmi biliklərin insan fəaliyyətinin bütün sahələrinə əhəmiyyətli dərəjədə nüfuz etməsini və bunun nətijəsində isə isə yeni elmi problemlərin meydana çıxmasını nəzərə almaya bilməz. Məhz buna görə də məktəbdə təlimin məzmunu daim yeniləşir, elmi səviyyəsinin yüksəldilməsi tələb olunur. Lakin ayrı-ayrı tədris fənlərinin məzmununun təkmilləşməsi digər fənlərin məzmununu, həmin fənlərin öyrənilməsi prosesində şagirdlərin əldə etdikləri bilik, bajarıq və vərdişləri nəzərə almadan kifayət qədər səmərəli ola bilməz. Başqa sözlə, təlimin elmi səviyyəsinin yüksəldilməsi fənlərarası əlaqəni zəruri edir.

Təlimdə fənlərarası əlaqənin həyata keçirilməsi dedikdə müxtəlif elmlər arasında obyektiv surətdə mövjud olan məktəbdə müxtəlif tədris fənlərində öyrənilən fakt və hadisələr arasında müəyyən edilən və təşəkkül tapan əlaqələrin inikası başa düşülür.

Fənli təlim sistemində, ümumtəhsil fənlərindən hər birinin həqiqi aləmin fakt və hadisələrinə bir qədər birtərəfli, «öz nöqteyi-nəzərindən» baxmasından ibarət olan məlum didaktik məhdudiyyət vardır. Bu halda öyrənilən hadisənin ayrı-ayrı jəhətlərinin bir-birindən ayrılması və onların bəzi hiperbolizasiyaları tamamilə zəruri hesab edilməlidir.

Lakin bir fənnin dar çərçivəsində materialın özünəməxsus təhlili və nəzərdən keçirilməsi öyrənilən obyektin digər jəhətlərinin dərk edilməsi ilə üzvi surətdə əlaqələndirilməsi, onda şagirdlərdə real aləm və hadisələr haqqında düzgün olmayan təsəvvürlər formalaşa bilər. Təlim üçün çox qiymətli olan hərtərəfli, tam qavrayış və təsəvvürlərin əmələ gəlməsini, elmi anlayışların formalaşmasını, təbiət və jəmiyyətdə dialektik qanunauyğunluqların dərk edilməsini çətinləşdirər.

Fənlərarası əlaqə şagirdlərdə elmi anlayışların və dialektik materialist dünyagörüşünün formalaşmasında xüsusi rol oynayır. Anlayışların formalaşması isə idrakın əsas elementidir. Elmlərin əsaslarının mənimsənməsi elmi anlayışlar sistemi, elmi biliklər sisteminin formalaşFənlərarası əlaqə əldə olunan biliklərin masına əsaslanır. Anlayışların formalaşması və inkişafı şagirdin mürəkkəb fikri fəaliyyəti prosesində baş verir, nətijədə vahid hadisənin analiz və sintezi əsasında onun mühüm əlamətləri ayrılır. Düzgün formalaşmış elmi anlayışlar öyrənilən jisim və hadisələrin mahiyyətini obyektiv və tam surətdə daha dərin və hərtərəfli əks etdirməyə imkan verir.

Fənlərarası əlaqənin olmadığı hallarda isə şagirdlərdə anlayışlar səthi, bəzən isə təhrif olunmuş şəkildə formalaşır.

Elmi anlayışların formalaşmasına imkan verən fənlərarası əlaqə bizi əhatə edən aləmi hərəkətdə və inkişafda görməkdə, bu inkişafın ümumi qanunauyğunluqlarını öyrənməkdə dünyanın materiyadan ibarət olmasına və onun dərk edilə bilməsinə inam yaranmaqda, çoxnövlü hərəkətlərin varlığına və bu hərəkətlərin bir formadan digərinə qarşılıqlı keçə bildiyini görməkdə şagirdlərə kömək edir.

Fənlərarası əlaqə əldə olunan elmi biliklərin öyrədilməsində mühüm rol oynayır. Riyaziyyat, fizika, kimya, rəsmxət, biologiya kimi tədris fənlərinin və onların qarşılıqlı əlaqələrinin öyrənilməsi şagirdlərin praktik fəaliyyətə hazırlanmasına və şüurlu surətdə peşə seçməsinə yardım göstərir.

Məktəb təlimində fənlərarası əlaqənin reallaşdırılması şagirdlərdə daha aydın assosiativ və məntiqi əlaqələrin yaranmasına imkan verir, onların biliklərini konkretləşdirir və formalizmin aradan qaldırılmasına müsbət təsir göstərir. Bütün bunlar ayrı-ayrı fənlərin proqramlarının daha yaxşı mənimsənilməsinə kömək edir, biliklərin şüurlu, dərin və möhkəm olmasını təmin edir.

Biliklərin dərin və möhkəm olması, təlimin keyfiyyəti ayrı-ayrı fənlər arasında hansı assosiativ və məntiqi əlaqə yaradılmasından, müxtəlif nəticə və ümumiləşdirmələrdə qonşu fənlərin qanunlarından, real varlığın hadisələrindən nə dərəjədə və nejə istifadə edilməsindən çox asılıdır.

FİZİKA VƏ RİYAZİYYAT KURSLARININ ƏLAQƏLİ TƏDRİSİ

Əzimova Ü.Q.
Sumqayıt Dövlət Universiteti

Orta məktəbdə tədris olunan fizika fənni şagirdlərdə elmi anlayışların formalaşmasını, fizika qanunlarının və nəzəriyyələrin mənimsənilməsini və eləcə də fizika elminin tədqiqat metodlarının dərk edilməsini təmin edir. Təbiət elmi olan fizika fənninin əsasını təşkil edən hadisə və qanunlarla riyazi fənlər və digər təbiət fənləri arasında təbii bağlılıq vardır. Məhz buna görə də fizika fənninin tədrisində maddi dünya hadisələrinin obyektiv ümumi əlaqəsi barədə şagirdlərə düşündürücü və inandırıcı məlumatlar elə çatdırılmalıdır ki, onlar bu elmlərin əsaslarını dərk edə bilsinlər. Tədris prosesində şagirdlər geniş elmi dünyagörüşə yiyələnməli, keçilən proqram materialını şüurlu mənimsəməli, fiziki hadisə və qanunlar arasında ümumi əlaqə olduğunu dərk etməlidirlər.

Orta məktəbdə fənlərarası əlaqə fizikanın öyrənilməsinin əsas istiqamətlərindən birini təşkl edir. Fizika elmi digər elm sahələrindən müəyyən bilikləri özünə daxil edir. Fizika dərslərində çoxlu sayda hadisə və proseslərin öyrənilməsi üçün şagirdlərin riyaziyyatdan, kimyadan, biologiyadan və s.-dən kifayət qədər bilikləri lazımdır. Bununla yanaşı həmin fənlərin də öyrənilməsi üçün fizikadan və fizikanın tədqiqat metodlarına dair möhkəm və dərin biliklər tələb olunur. Məsələn, bioloji prosesləri dərindən anlamaq üçün enerjinin çevrilməsi və saxlanması qanununu, kimyəvi proseslər üçün spektrokopiyanı, astronomiya üçün fiziki hadsələri, qanunları və fizikanın tədqiqat metodlarını bilmək çox vacibdir. Bu o deməkdir ki, fənlərarası əlaqə öz ifadəsini müasir şəraitdə elmlərin geniş miqyasda inkişaf etmiş diferensasiyası və inteqrasiyasında tapır.

Fizika ilə riyaziyyat, fizika ilə kimya, fizika ilə digər təbiət elmləri arasında əlaqə yaradılması şagirdlərin aldıqları biliklərin zənginləşdirilməsi və daha da dərindən möhkəmləndirilməsində ən təsirli faktordur. Böyük rus alimi **M.V**. Lomonosov yazırdı **"Riyaziyyat fizikanın gözü, kimya isə sağ əlidir".** Fizika kursunun tədrisində riyazi üsullardan qanunları ümumi və daha dəqiq şəkildə ifadə etmək üçün, bir sıra ümumi nəzəri məsələlər və qanunauyğunluqları isbat etmək üçün, çıxarılmış ifadələrdən yeni düsturlar almaq, ölçülməsi mümkün olmayan kəmiyyətləri təyin etmək, müxtəlif kəmiyyətlər arasında qrafik və funksional asılılıqları müəyyən etmək üçün istifadə olunur. Ona görə də orta məktəb fizika kursunda riyaziyyat daha əhəmiyyətli yer tutur. Məktəbdə fizikanın öyrədilməsində riyazi dil vacibdir, çünki riyaziyyat fizika qanunlarının ifadə vasitəsi olub, təcrübi tədqiqatlardan alınan nəticələrin, ən sadə ifadə və qanunların nəzəri əsaslandırılması üçün lazımdır. Şagirdlər hələ fizika kursunun tədrisinin birinci pilləsində riyazi işarələrdən istifadə etməyi, kəmiyyətlərin müəyyən hərflərlə ifadə olunmasını öyrənir, fizika məsələlərini hesabi üsulla həll edirlər. Fizika kursu tədrisinin ikinci pilləsində isə fizika fənninin tədrisində riyaziyyatın rolu xeyli artır. Burada fizika müəllimi fiziki hadisələrin araşdırılmasında və izahında mürəkkəb riyazi modellərdən istifadə edir. Yuxarı siniflərdə çıxarılmış düsturların müxtəlif dəyişiyliklərində riyazi çevirmələrdən istifadə olunur. Adətən belə dəyişilmələrdə məqsəd fiziki düsturu təhlil etmək üçün ona əlverişli şəkil vermək və ya düstura daxil olan kəmiyyətlərin fiziki mənasını təyin etməkdir

Fizikanın tədrisi prosesində hələ ilk anlardan müəyyən fiziki anlayışlar verilir, onlar düsturlar şəklində ifadə olunur. Bu məqsədlə fiziki kəmiyyətləri ifadə etmək üçün müəyyən işarələnmələrdən-hərflərdən istifadə olunur. Məsələn gedilən yol, yerdəyişmə, sürət, təcil, kütlə, həcm, sıxlıq, qüvvə, təzyiq, impuls, eneji və s.

Həmçinin riyaziyyatda öyrədilən nöqtə, düz xətt, bucaq həndəsi fiqur, sabit, dəyişən kəmiyyətlər, arqument və funksiya, çoxluq, koordinat sistemi, vektor və onun xassələri, qrafik asılılıqlar, törəmə, differensiallanma kimi anlayışlar fizikada geniş istifadə olunur.

Məktəb fizika kursunda nöqtənin koordinatı koordinat sistemi, düz və tərs mütənasib asılılıq, kvadrat və kub qüvvət asılılıqları, laqorifmik və triqonometrik funksional asılılıq, öyrədilir. Onların qrafikləri qurulur. Bunlar fiziki qanunların öyrənilməsi müəllim tərəfindən istifadə olunur. Törəmənin öyrənilməsi zamanı müəllim tərəfindən istifadə olunur. Törəmənin öyrədilməsi sürət, təcil, cərəyan şiddəti, induksiya e.h.q. və digər anlayışların öyrədilməsini asanlaşdırır. Məsələn:

$$\upsilon = \frac{dx}{dt} = x^{/}, \quad a = \frac{dv}{dt} = \frac{d^2x}{dt^2} = \upsilon^{/} = x^{//}$$

$$i = \frac{dq}{dt}, \quad E = -\frac{d\phi}{dt} = -\dot{\phi}(\cdot), \quad E = -L\frac{di}{dt} = -L\dot{i}(\cdot) \text{ və s.}$$

Differensiallama və inteqrallama əməliyyatları rəqslər və dalğalar bölməsində mühüm rol oynayır.

Fizika və riyaziyyat kurslarının əlaqəli tədrisinə aid tədrisin birinci mərhələsində aşağıdakı misalları göstərmək olar:

1.	Mexaniki hərəkət	Sadə tənliklər. Məsafə, sürət və zaman arasındakı əlaqə. Təcil, sürət və zaman arasındakı əlaqə. Bərabərsürətli hərəkət
2.	Kütlə, həcm və sıxlıq. Kütlə və sıxlıq vahidləri $\rho = \frac{m}{V},\ m = \rho V,\ V = \frac{m}{\rho}$	Uzunluq, zaman və sahə anlayışları.Üçbucaq, düzbucaqlı, və kvadrat. Paralelopiped, kürə onların sahə və həcmləri
3.	Ağırlıq qüvvəsi. Elastiklik qüvvəsi $F = G\frac{M \cdot m}{R^2},\ F_{el} = -kx$	Düz və tərs mütənasib asılılıqlar. Onların qrafikləri
4.	Qüvvələrin toplanması. Qüvvənin ölçülməsi. Dinamometr	Vektorların toplanması. Parçaların ölçülməsi. Düz mütənasib asıllıqlar.
5.	Təzyiq. Maye və qazlarda təzyiq. Paskal qanunu. $P = \frac{F_n}{S},\ P = \rho gh$	Sahə düsturları. Kəmiyyətlərin mütənasibliyi.
6.	Birləşmiş qablar qanunu. Hidravlik pres. $\rho_1 h_1 = \rho_2 h_2,\ \frac{F_2}{F_1} = \frac{S_2}{S_1}$	Kəsr şəkilli ifadələr. Kəmiyyətlərin bərabərliyi və mütənasibliyi.
7.	Atmosfer təzyiqi. Toriçelli təcrübəsi. Manometrlər.	Kəmiyyətlər arasındakı mütənasiblik.
8.	Lingi tarazlıq şərti. Qüvvə momenti. Faydalı iş əmsalı. $F_1 d_1 = F_2 d_2,\ M = Fd$	Tənasüb, faiz, fiqurların oxşarlığı.Mütənasiblik şərti.
9.	Çevrə üzrə hərəkət. Bucaq sürəti. Mərkəzəqaçma təcili $\omega = \frac{\varphi}{t},\ a = \omega^2 R$	Çevrə, çevrə uzunluğu, radius, çevrəyə toxunan. Dönmə bucağı.
10.	Mexaniki iş və güc . Enerji, enerjinin saxlanma qanunu $A = Fs\cos\alpha,\ N = \frac{A}{t} = Fv,\ E_k = \frac{mv^2}{2},\ E_p = mgh$	Cəbri ifadələr, düz və tərs mütənasib asılılıqlar. Bərabərliklər.
11.	Rəqsi hərəkət $x = x_m \cdot \sin\omega t$ $v = x_m\omega\cos\omega t = v_m\cos\omega t$ $a = -x_m\omega^2\sin\omega t = -a_m\sin\omega t$	Triqonometrik funksiyalar. Törəmə
12.	İstilik hadisələri. İstilik miqdarı. Xüsusui istilik tutumu. Xüsusi ərimə, buxarlanma və yanacağın xüsusi yanma istiliyi. $Q = cm\Delta t,\ Q = Lm,\ Q = \lambda m,$	Müsbət və mənfi ədədlər. Funksional asılılıqlar və onların qrafikləri

	$Q = qm$	
13.	Elektrik hadisələri. Elektrik sahəsi. Sahə intensivliyi sahələrin toplanması. Nöqtəvi yükün sahə intensivliyi.	Vektorların toplanması. Kəmiyyətlər arasındakı funksional asılılıqlar.

FİZİKANIN TƏDRİSİNDƏ KOMPLEKS YANAŞMA METODUNUN TƏTBİQİ VƏ ONUN PROBLEMLƏRİNİN HƏLLİ YOLLARI

Məmmədova G.M.
Sumqayıt Dövlət Universiteti

Fizikanın (həmçinin digər təbiət elmlərinin) öyrənilməsinə kompleks yanaşmanın zəruriliyi, metodologiyası və üsulları professor Zahid Qaralovun "Təhsil sistemlərinə müasir baxış" monoqrafiyasında elmi cəhətdən yüksək səviyyədə öz əksini tapmışdır. Monoqrafiyada dünyada daha çox yayılmış təhsil sistemlərinin qarşılıqlı müqayisəli təhlilindən alınmış ümumi nəticələri dəyərləndirərək, onlara geniş istinad etmək olar.

Fizikanın yaxşı və dərindən öyrənilməsini təmin etmək məqsədilə öyrənmə-öyrətmə prosesində təhsilin məqsədi, məzmunu, vasitələri, metodikası, keyfiyyətin ölçülməsi və qiymətləndirilməsi ən zəruri parametrlərdir. Bunlar kompleks şəklində götürülərək birlikdə inkişaf etdirilməlidir:

- fizika fənnindən proqram, dərslik və dərs vəsaitləri, tədris planları, tədris metodikası, təlimin texniki vasitələri, fənn müəllimləri və müəllim-şagird münasibətləri vahid sistem təşkil etməli, ahəngdar surətdə birləşməli və inkişafda olmalıdır;
- fizikanın tədrisində dərsin məzmunun keyfiyyətli mənimsənilməsi üçün təlimin texniki vasitələrinin tətbiqinə nail olunmalı, məktəblərin maddi-texniki bazası müasir tələblərə uyğun avadanlıqlarla təmin edilməlidir. Şagirdlərin sərbəst fiziki eksperiment, laboratoriya işləri və digər tapşırıqları yerinə yetirmələri üçün minimum bilik və bacarıqlara malik olmaları təmin edilməlidir. Aparılan təcrübələrin şagirdlərin inamına və gələcəkdə elmə olan maraqlarına çevrilməsinə nail olunmalıdır;
- tədris prosesini təhsil alanın tələblərinə uyğunlaşdırmaqla, hər bir şəxsin gələcək həyati təminatının bu gün aldığı təhsilin səviyyəsindən asılı olduğunu tərbiyə etməklə təhsil alanın şəxsi keyfiyyətləri nəzərə alınmalı, bütün bu məqsədlərə çatmaqda isə müəllimə sərbəstlik verilməlidir;
- biliklər inteqrasiya edilməli, öyrənilən nəzəri məsələlərin praktik tətbiqi təmin olunmalı, öyrənənin əməli fəaliyyətinin məhsuldarlığına və məşğulluğunun səmərəsinin artırılmasına, insani keyfiyyətlərinin zənginləşməsinə xidmət göstərməlidir;
- fizikanın tədrisində yeni tədris texnologiyalarından istifadə genişləndirilməli, müəllimlərin interaktiv metodlardan, informasiyalardan, yeni tədris texnologiyalarından istifadəsi "hamılıqla" həyata keçirilməli və fizikanın tədrisində kompüterdən istifadə etməyi hər bir müəllim bacarmalıdır;
- təhsil sistemində fizika müəllimlərinin ilkin hazırlığı, yenidən hazırlanması, ixtisasının artırılması və sərbəst təhsil almalarında yeni pedoqoji, təlim texnologiyalarının səmərəli tətbiqinə xüsusi fikir verilməli, nəticəyönlü kurikulumun hazırlanması həyata keçirilməlidir. Fizikanın tədrisi sahəsindəki yeniliklər tədris prosesinə gətirilməli, fizikanın tədrisi metodikası ilə bağlı yeni yanaşmaların tətbiqi, dərslik və dərs vəsaitlərinin yaradılması, eksperimentdən çıxarılması və müasir tələblər səviyyəsinə çatdırılması təmin olunmalıdır.

Fizika kursunun orta məktəblərdə əsas fənn kimi tədrisi bir-biri ilə bağlı bir neçə problemin kompleks həllini tələb edir.

Bu kompleksə fizika fənninə dair tədris planları (hər sinifdə həftəlik, illik saatların sayı), fənn proqramları (bilik və bacarıqların məzmunu, ardıcıllığı, nəzəri və praktiki materialların nisbət göstəricisi və s.), əyani və texniki vəsaitlər, laboratoriya işləri, məsələ və suallar toplusu, dərslik və dərs vəsaitləri, metodik ədəbiyyat, fizika müəllimlərinin hazırlıq səviyyəsi, onların ixtisasının artırılması və digər məsələləri həyata keçirən qurumlar, ixtisaslarının artırılması və digər məsələləri həyata keçirən qurumlar, tədrisin keyfiyyətinə nəzarət, şagirdlərin bilik və bacarıqlarının qiymətləndirilməsi üzrə meyarlar və s. daxil edilməlidir.

Hazırda fizika (və başqa fənlər) üzrə tədris kompleksinin, o cumlədən, müasir fizika kabinetini yaratmaq, fənlərin əyani və təcrübələr əsasında tədrisini təşkil etmək məsələsi ən aktual məsələlərdən biri hesab olunur. Bunlar məktəbin bütövlükdə maddi-texniki bazasının möhkəmləndirilməsinə xidmət göstərəcəkdir.

Məktəblərin tədris bazasını gücləndirmək, o cümlədən, fizikanın tədrisinin təcrübi tərəfini yüksək səviyyədə təmin etmək, boşalmış fizika kabinetlərini yenidən müasir tədris-tərbiyə kabinetinə çevirmək məqsədilə aşağıdakı tədbirlərin həyata keçirilməsi vacibdir:

1. Fizika cihazları və digər tədris avadanlığı istehsal edən ixtisaslaşdırılmış zavod-fabrik kompleksi yaradılmalı və bu iş dövlət tərəfindən təşkil olunmalıdır.
2. Məktəb avadanlığı, o cümlədən, tədris-təcrübə kompleksi istehsal edən özəl qurumlar yaradılmalıdır.
3. Hazırda fəaliyyət göstərən sənaye müəssisələrində dinamiki və iş görmək gücündə olan mini avadanlıqların, o cümlədən, kiçik mühərrikli maşın və mexanizmlərin, qurğuların, tədris əhəmiyyətli cihazların istehsalı üzrə xüsusi bölmələrin, sahələrin, sex və laboratoriyaların yaradılması təmin olunmalıdır.
4. Təhsil Nazirliyinin və Milli Elmlər Akademiyasının və Ali-texniki məktəblərin nəzdində məktəb avadanlıqlarının hazırlanmasına xidmət edən xüsusi konstruktor büroları, şöbə və laboratoriyalar yaradılmalı,onların fəaliyyətini əlaqələndirən mütəxəssis qrupu fəaliyyət göstərməlidir.
5. Məktəblərdə tədris avadanlıqlarının, xüsusilə sadə cihaz, qurğu və sistemlərin hazırlanması üçün texniki dərnəklər yaradılmalı, rəhbərlik isə xüsusi təcrübəsi, bilik və bacarığı olan mühəndis-konstruktorlara, yüksək ixtisaslı fizika müəllimlərinə tapşırıla bilər.

Paralel olaraq məktəblər yeni avadanlıqları qəbul etməyə, səmərəli istifadəyə, fizika müəllimlərini isə bu avadanlıq kompleksləri ilə işləmək üçün hazırlamaq lazımdır.

FİZİKA FƏNNİNİN TƏDRİSİNDƏ İSTİFADƏ OLUNAN SƏMƏRƏLİ TƏLİM METODLARI

Məlikzadə R.Z.
Sumqayıt Dövlət Universiteti

Təlim metodları - ümumtəhsil məktəblərində təhsilin məzmunun şagirdlər tərəfindən mənimsənilməsinə yönəldilmiş iş üsullarıdır. Təlim metodunun dərsin məqsəd və məzmununa, şagirdlərin yaş xüsusiyyətinə uyğun seçilməsi şagirdlərin idrak fəaliyyətinin inkişafına, qazandıqları bilikləri praktikada tətbiq etmək bacarığı və vərdişlərinə yiyələnmələrinə kömək edir, onların dünyagörüşlərini formalaşdırır, biliklərə müstəqil yiyələnməyə hazırlayır. Təlim prosesinin səmərəsini artırmaq üçün müxtəlif tədris vəsitələrindən, proqramlaşdırılmış təlimdən, fəal təlim metodlarından istifadə olunur.

Metod yunan sözü olub "metods" sözündən olub, şərh, izah qaydası, nəyə isə yol, öyrənməyin yolu mənasını verir.Metod məqsədə çatmaq, gerçəkliyin dərk olunmasına və onun praktiki dəyişdirilməsinə nail olmaq üçün istifadə olunan səmərəli yol və vəsaitlərin məcmusudur.

Təlimin metodları təlimin məqsəd və vəzifələrini yerinə yetirmək işinə xidmət edir. Təlimin məqsəd və vəzifəsi isə təhsil vermək və tərbiyə etməkdən ibarətdir. Deməli, təlimin metodları eyni ilə tərbiyənin metodlarıdır. Pedeqoji prosesdə tərbiyə təlim vasitə ilə formalaşır və metod işin-icra tərzidir.

Təlim metodları yalnız müəllimin deyil, şagirdlərin də fəaliyyətini əks etdirir, onların fəaliyyətini, müstəqilliyini təmin edir. Bu mənada təlim metodları şagirdlərin idrak fəaliyyətinə istiqamət verir, onların yolunu işıqlandıran məşələ çevrilir.

Hələ XI-XII əsrlərdən başlayaraq şərq pedeqogikası tarixində görkəmli filosoflar – Əl-Fərabi, İbn Sina, Bəhmənyar, Cami, N. Tusi və başqaları təlimdə tapşırıqlara, təmrinlərə, məşq etməyə yüksək qiymətlər vermişlər. Təmrin, məşq insan həyatında mühüm rol oynayır.

İngilis filosofu F. Bekon metodu qaranlıq gecədə yolçunun yolunu işıqlandıran çırağa bənzədirdi. F. Bekon deyirdi ki, kitab bilikləri ilə biz təbiətə ağalıq edə bilmərik. Təlimdə müşahidə, ümumiləşdirmə, induksiya və eksperiment olmalıdır. R.Dekartın fikrincə, təlimdə müəllimin dediyi şifahi sözləri əşyalar, təcrübələr əvəz etməlidir. Təlimdə əzbərşiliyin, doqmatizmin və formalizmin əleyhinə çıxanlar arasında çex pedeqoqu Y.A.Komenskinin fikri xüsusi əhəmiyyətə malikdir. Komenski təlimdə müəllimin şərhinə, müsahibəyə, terminlərə, təkrara, müşahidəyə, təhlilə, sual-cavaba, müqayisə və əyaniliyə yüksək qiymət

verir, təlimdə əyaniliyi mexanikanın **"qızıl qaydasına"** bərabər tutur, müqayisəni əqlin çırağı, məktəbi insanlıq emalatxanası adlandırmışdır.

Orta ümumtəhsil məktəbində fənlərin tədrisində istifadə olunan təlim metodları ***təlimedici, tərbiyəedici və inkişafetdirici*** funksiyalara malikdir. Tədris metodikası sahəsindəki məşhur alimlərin fikrincə tədris prosesində təlimedici funksiya aparıcı əhəmiyyətə malikdir. Bu funksiyanın mahiyyəti dərs prosesində qarşıya qoyulmuş məqsədə uyğun olaraq effektli metodun seçilməsində, məzmunun son dərəcə aydınlığının və ifadəliyinin təmin edilməsində özünü göstərir. Digər ümumtəhsil fənləri kimi orta məktəbdə tədris olunan fizika fənni də təlimedici və tərbiyəedici funksiyaya malikdir.Təlimedici funksiyanın effektivliyi, adətən, dərsdə müəllim-şagird əks əlaqəsinin köməyi ilə müəyyən edilir. Şagird yiyələndiyi biliklərdən yeni biliklərin əldə edilməsi üçün istifadə edə bilirsə, deməli təlimedici funksiya yerinə yetirilmişdir. Təlim metodları əxlaqa, şəxsiyyətin bütün mənəvi xassələrinə təsir edir.

Təlimedici funksiyanın mahiyyəti dərsdə qoyulmuş didaktik vəzifəyə uyğun olaraq dəqiq və adekvat metodun seçilməsində məzmunun son dərəcə aydınlığının və ifadəliyinin təmin edilməsində özünü göstərir. Bu funksiyanın effektivliyi, adətən. əks əlaqənin köməyi ilə müəyyən olunur. Şagird yiyəndiyi biliklərdən yeni biliklərin əldə olunması üçün istifadə edə bilirsə, deməli, təlimedici funksiya yerinə yetirilmişdir.

Təlim prosesində tərbiyəvi iş dərsin müəyyən hissəsndə, onun üçün bilavasitə şəraitin olduğu anda yerinə yetirilərdi. Adətən bir çox hallarda material şərh olunub başa çatdıqdan sonra tərbiyəvi nəticə çıxarılır.

Pedaqogikanın aparıcı nəzəriyyəsi inkişafetdirici təlimdir.Təlim prosesində müəllim şagirdlərin idrak fəaliyyətlərini idarə edir, onu inkişaf etdirir. Metodist alim Ş. Əlizadənin fikirlərinə görə təhsilin inkişafetdirici funksiyasına evristik təlim fonunda baxmaq lazımdır. Evristik təlim inkişafetdirici təlimdən keyfiyyətcə yeni vəzifələrlə fərqlənir. İnkişafetdirici təlim prosesində fikri fəaliyyətin əsas komponentləri-məqsəd, məzmun, motivasiya əməliyyatı və korreksiya vəhdətdə olur. Fikri inkişafın əsası bilikdir. Biliklərin məqsədyönlü əldə edilməsi onun fundamenti hesab olunur. Biliyə yiyələnmə qaydaları nə qədər məqsədəuyğun olsa, qiyməti o qədər artır. Maraqlı, əyləncəli təlim təfəkkür prosesini fəallaşdırır.

Orta ümumtəhsil məktəblərində fizika kursunun tədrisinin təhsil əhəmiyyəti şagirdləri fizika elminin əsaslarına aid müəyyən həcmdə sistematik bilik, bacarıq və vərdişlə silahlandırmaqdan və təlim prosesində onların təfəkkürünün düzgün inkişafını təmin etməkdən ibarətdir. Bu məqsədlə tədris prosesində müəllim çalışmalıdır ki, fizika fənninin tədrisi ilə şagirdlərdə tərbiyənin optimal forması yaransın. Şagirdlərdə fizikanı və texnikanı öyrənməyə göstərdiyi maraq onlarda əxlaqi və əmək tərbiyəsi ilə uzlaşsın. Orta məktəbin fizika kursu şagirdləri, onları əhatə edən mürəkkəb fiziki hadisə komplekslərindən baş çıxarmağa, onu təhlil etməyə, müxtəlif hadisələrin ümumi cəhətlərini ayırd etməyə, təbiətdə baş verən hadisələri aydın və düzgün başa düşməyə doğru yönəltməlidir. Şagirdlərin əsas faktları yaxşı bilmələri və möhkəm mənimsəmələri onların təbiətdə, məişətdə, istehsalatda müşahidə etdikləri hadisələri fizika qanunlarına əsasən izah etmək bacarığı ilə müəyyən edilir.

Fizikanın tədrisi prosesində şagirdlər fizika cihazları ilə rəftar etməyi, fiziki kəmiyyətləri ölçmək qaydalarını, elektrik dövrələrini yığmaq, elektrotexnika ölçmələri aparmaq, müxtəlif xarakterli məsələlər həll etmək, dövri mətbuatdan istifadə etməyi, malik olduqları bacarıq və vərdişləri həyata tətbiq etməyi öyrənməlidirlər. Tədris prosesində şagirdlərə verilən praktik bacarıq və vərdişlər dairəsi elə omalıdır ki, fizikanın tədrisi prosesində şagirdlər müasir texnika ilə tanış ola bilsinlər. Bu birinci növbədə hərbi texnika üçün vacibdir. Məsələn, reaktiv hərəkət və onun praktik tətbiqi, üfüqə bucaq altında atılmış cismin hərəkəti və s. Bütün hərbi texnikanın əsasını fizika qanunları təşkil edir.

Tədris materialının məzmunundan, tədris metodları və tədrisin təşkili formalarından asılı olaraq fizika kursunun tədrisi qarşısında şagirdlərin dünyagörüşünün formalaşdırılması və əmək tərbiyəsi, əxlaqın tərbiyə edilməsi, insan şəxsiyyətinin hərtərəfli və harmonik inkişafı, vətəni müdafiə etməyə həmişə hazır olması kimi keyfiyyətlərin aşılanması vəzifəsi durur. Fizikanın tədrisində şagirdlərin düzğün tərbiyəsi hər şeydən əvvəl orta məktəbdə fizikanın müasir elmi səviyyədə tədris edilməsini, şagirdləri fizika elminin əsasları ilə silahlandırmağı, təlimi həyatla əlaqələndirməyi tələb edir. Təhsil sisteminin son illərdə yenidən qurulması və proqramların müntəzəm olaraq təkmiləşdirilməsi məhz məktəb qarşısında duran əsas vəzifənin–yetişən gənc nəslin tərbiyəsinin düzgün təşkil edilməsinə yönəlmişdir.

Fizika kursunda şagirdlərin elmi dünyagörüşünün əsasını təşkil edən məsələlər aşağıdakılardan ibarətdir: fiziki anlayışların elmi izahı, məkan, zaman, maddə, kütlə, qüvvə, iş, enerji kimi fiziki hadisələrin dialektik xarakterinin açılması və idrak prosesinin dialektikası.

Orta ümumtəhsil məktəblərində fizika kursu şagirdlərin vətənpərvərlik tərbiyəsi üçün geniş imkanlar açır. Bu iş respublikamızdakı ən vacib elmi-texniki kəşflərin üstünlüyü, aparıcı alimlərimizin səmərəli işi, eləcədə əmək adamlarının, ixtiraçıların və s. işləri barədə danışmaqla, onlara dair sərgilər düzəltmək, divar qəzetləri buraxmaq və s. tədbirlərlə həyata keçirilir. Şagirdlərə ölkəmizdə elmin nəhəng inkişafı xüsusilə fizikanın inkişafının dünya miqyasına çıxa bilməsi haqqında danışmaqla da vətənpərvərlik tərbiyəsini aşılamaq olar. İmpulsun saxlanma qanunu çox mühüm bir hadisənin–reaktiv hərəkətin səbəbini izah etməyə imkan verir. Məhz reaktiv hərəkətdən istifadə edərək raketlərdə kosmik uçuş mümkün olmuşdur. Kosmik eranın əvvəlindən bəşəriyyət kosmanavtikanın nailiyyətlərindən insanların rifahi naminə istifadə etmək məsələsini qarşıya qoymuşdur. XX əsrin 70-ci illərində ölkəmizdə tətbiqi kosmanavtika elmi "Yerin kosmosdan tədqiqi" adlı yeni elmi istiqamət yaranmışdır. Azərbaycanda yaranmış bu elmin banisi akademik Tofiq İsmayılov olmuşdur. Onun rəhbərliyi ilə ilk dəfə olaraq ətraf mühütə kosmosdan nəzarət edən peykaltı ölçü sistemi yaradılmışdır.

Həmyerlimiz Kərim Kərimov 1965-ci ildən ölənə qədər keçmiş SSRİ-nin Baş Kosmik İdarə rəhbəri, artilleriya, aviasiya, pilotlu və pilotsuz raket texnikasının sınaq və istismarı üzrə Dövlət Komissiyasının sədri kimi yüksək vəzifə tutmuşdur.

Şagirdlərin vətənpərvərlik tərbiyəsi heç də yalnız elmi və texnikanın nailiyyətlərini göstərməklə kifayətlənə bilməz, həm də bu məqsəddə onlara ölkəmizdə perspektivli su, günəş və istilik elektrik stansiyalarının, neft-qaz kəmərlərinin və s. yaradılması haqqında məlumat vermək, bu istehsalat sahələrinin ölkəmiz üçün nə qədər dəyərli və perspektivli olmasına şagirdlərin təsəvvürünü yönəltmək lazımdır.

Müəllim şagirdlərdə vətənpərvərlik tərbiyəsi aşılamaq üçün təkcə müasir elmi-texniki tərəqqi ilə kifayətlənməməli həmçinin keçmiş elmi nailiyyətlərini yada salıb vətən alimlərinin əməyini xüsusi qeyd etməlidir.

ELEKTRODİNAMİKA BÖLMƏSİNİN QANUN VƏ ANLAYIŞLARININ ELMİ-METODİK ANALİZİ

Rüstəmova L.İ.
Sumqayıt Dövlət Universiteti

“Elektrodinamika” bölməsində dərs materialının məzmununa baxaraq, ilk olaraq qeyd etmək lazımdır ki, orta məktəbdə makroskopik elektrodinamika və klassik elektron nəzəriyyəsindən ibarət olan klassik elektrodinamikanın əsasları öyrənilməlidir.

Bu nəzəriyyələrin əsaslarını qavramaq üçün iki qrup məsələlərin öyrənilməsinə baxmaq lazımdır. Birincisinə aiddir- elektrik, maqnit və elekromaqnit sahələrinin xassələri, və həmçinin sabit cərəyan qanunları, ikincisinə isə - müxtəlif mühütlərdə elektrik cərəyanı qanunauyğunluqları.

Ümumi şəkildə məktəb fizikası kursu üçün dərs materialının seçiminə görə didaktik tələbləri nəzərə alaraq, hər iki qrup məsələlərə nə daxildir ,ona baxaq.

Birinci qrup məsələlər şagirdləri Maksvelin elektromaqnit sahəsinin nəzəriyyəsinin əsas ideyaları ilə tanış etməlidir. Məlumdur ki, bu nəzəriyyənin məzmununu daha lakonik və dəqiq formada Maksvelin tənlikləri əsk etdirir. Bu tənliklər elektrotexnikanın, radiotexnikanın və istənilən elektromaqnit hadisələrinin nəzəriyyəsinin əsasını təşkil edir.

Metodik ədəbiyyatda Maksvelin tənliklərinin orta məktəbdə mümkün öyrənilməsinə aid tədqiqatlar verilib. Bu zaman tənliklərə, ya elektromaqnit hadisələrin öyrənilməsinin yekunu kimi baxmaq lazımdır, ya da tənliklərin istifadəsi ilə elektromaqnit hadislərini öyrənmək lazımdır. Hər iki halda, təklif olunur ki, bu tənliklərə sadələşmiş riyazı görünüşdə baxmaq lazımdır. Tədqiqatlar bitdikdən sonra, məlum olundu ki, öyrənmənin bu yolu əsasən fakultativ kurslarda mümkündür. Yalnız, praktika göstərdi ki, belə məzmunlu fakultativ kurslar geniş yayıla bilməyib.

Maksvel tənliklərinin orta məktəbdə inteqral, xüsusi ilə də differensial formada öyrənilməsi onu anlamaq üçün istifadə olunan riyazi apparatın mürəkkəb olduğuna görə mümkün deyil. Bununla bərabər, şagirdlər Maksvel tənliklərində əks olunan elektromaqnit sahəsi biliklərinin əsas ideyaları ilə tanış ola bilərlər. Bu tənliklərə baxaq:

$$\oint_{\ell} \vec{H} d\vec{\ell} = \int_{S} \vec{j} d\vec{S} + \frac{d}{dt} \int_{S} \vec{D} d\vec{S}, \quad (1.1)$$

$$\oint_{\ell} \vec{E} d\vec{\ell} = -\frac{d}{dt} \int_{S} \vec{B} d\vec{S}, \quad (1.2)$$

$$\oint_{S} \vec{D} d\vec{S} = \int_{V} \rho dV, \quad (1.3)$$

$$\oint_{S} \vec{B} d\vec{S} = 0, \quad (1.4)$$

burada H və B – maqnit sahəsinin gərginliyi və induksiyasıdır, D və E – elektrik sahəsinin induksiyası və gərginliyidir, j və ρ - cərəyan sıxlığı və yükün həcmi sıxlığıdır.

Tənliklərdən birincisi, maqnit sahəsinin mənbəyi – ya hərəkət edən yük (elektrik cərəyanları), və ya elektrik sahəsinin dəyişənləridir (dəyişən cərəyanlar) faktını əks etdirir. İkinci tənlik elektromaqnit induksiya qanununu ifadə edir. O, göstərir ki, burağan elektrik sahəsinin mənbəyi – zaman ilə dəyişən maqnit sahəsidir. (1.3) və (1.4) tənlikləri uyğun olaraq elektrik və maqnit sahələri üçün Qauss teoremidir. Bu tənliklər elektrik sahənin induksiya xəttlərinin yüklərdə başlayıb və bitməsi faktını,həmçinin maqnit sahəsinin induksiya xəttlərinin isə həmişə qapalı olması faktını əsk etdirir.

Maksvell tənliklərinə daxil olunan kəmiyyətlər qeyri asılı kəmiyyətlərdir. Onlar arasında müəyyən münasibət var:

$$\vec{D} = \varepsilon\varepsilon_0 \vec{E} \quad (1.5)$$

$$\vec{B} = \mu\mu_0 \vec{H} \quad (1.6)$$

$$\vec{j} = \gamma \vec{E} \quad (1.7)$$

burada ε, μ, γ - mühüt xassələrini xarakterizə edən kəmiyyətlərdir.

(1.1) - (1.4) tənliklərin (1.5) - (1.7) tənlikləri ilə birləşdirməsi hərəkətsiz mühitdə makroskopik elektrodinamikanın əsasını yaradır. (1.5) və (1.6) tənlikləri, sahəni mühütdə xarakterizə edən kəmiyyətlərini, sahəni vakuumda xarakterizə edən analoji kəmiyyətlər ilə bağlayır.

Orta məktəbdə öyrənilən suallara baxmaq üçün, hər sahə üçün (E, B) qüvvə xarakteristikası və mühütün öz xarakteristikalarını(ε μ ρ) istifadə etmək kifayətdir.

(1.7) tənliyi Om qanununun differensial formasıdır.

Elektrik və maqnit sahələri yüklü zərrəciklərə təsiri ilə aşkar olunurlar. Elektrik sahəsinin gərginliyi E və maqnit sahəsinin induktivliyi B məlum olduqda, bu sahələrdə v sürəti ilə hərəkət edən q yüklü zərrəciklərə təsir edən qüvvəni tapmaq olar: Lorens düsturuna görə:

$$\vec{F} = q\{\vec{E} + [\vec{\upsilon}, \vec{B}]\}.$$

Qüvvə, başlanğıc şərtləri və zərrəciklərin kütləsi məlum olan zaman, onun hərəkətinin xarakterini təyin etmək olar. Buna görə Lorens qüvvəsinin düsturu elektrodinamikanın əsas tənliyidir.

Baxılan qanunauyğunluqlar şagirdlər tərəfindən onlara aydın formada və hətta bəziləri kəmiyyət nisbəti ilə izah oluna bilər. Xüsusi ilə bu, elektromaqnit induksiya qanunlarına, Qaus teoreminə, Lorens qüvvəsinə, Om qanununa aiddir.

Elektrodinamikanın suallarının ikinci qrupunu müxtəlif mühütdə elektrik cərəyanlarının qanunauyğunluğu təşkil edir. Onlara elektron nəzəriyyəsi əsasında baxmaq məqsədəuyğundur. Müxtəlif mühütlərdə xüsusi ilə də metallarda və yarımkeçiricilərdə elektrikkeçiriciliyin mexanizmi, kvant nəzəriyyəsi əsasında düzgün əks oluna bilər , hansı ki, elektronların enerjisinin dəyişməsinin kvant xarakteri və onların enerji səviyyələri ilə paylanılmasının xüsusi xarakteri nəzərə alınır.

Orta məktəb fizika kursunda müxtəlif mühütlərdə cərəyan hansı nəzəriyyəyə əsasəöyrənilməlidir sualına dəfələrcə baxılıb.

Fizikanın tədrisində əsas ustalıq ondan ibarətdir ki, materialı elə səpgidə düzmək mümkün olsun ki, ardıcıl məntiqi əməliyyat, təkmil, ətraflı eksperimentlə, minimum vaxt sərf etməklə və şagirdlərin optimal gərgin əqli fəaliyyətinin (qabiliyyətinin) iştirakı ilə əsas fiziki anlayışları formalaşdırmaq, əsas fiziki qanun və fiziki nəzəriyyələr haqqında təssəvvür yaratmaq mümkün olsun.

MÜASİR KVANT NƏZƏRİYYƏSİNƏ GÖRƏ METALLARIN ELEKTRİK KEÇİRİCİLİYİNİN TƏDRİSİ METODİKASI

Talıflı A.F.
Sumqayıt Dövlət Unuversiteti

Rikke metallarda cərəyan daşıyıcılarının təbiətinin müəyyən etmək üçün kütlələri dəqiq məlum olan mis-aliminium-mis slindirlərini ardıcıl qoşaraq onları sabit cərəyan mənbəyinə birləşdirilmiş və belə sistemdən təqribən 1 il ərzində $3{,}5\cdot10^6$ *Kl* yük buraxmışdır. Təcrübədə metallarda elektrik cərəyanı axması ilə maddə daşınmaması və cərəyan daşıyan zərrəciklərin bütün metallar üçün eyni olması sübut olunmuşdur. L.İ. Mandelştam və N.D.Papeleksi ballistik qalvanometrdən istifadə edərək cərəyan daşıyıcıların xüsusi yükünü hesablamışlar. Beləliklə, təcrübi olaraqaq metallarda elektrik cərəyanı daşıyıcılarının elektronlar olması sübuta yetirilmişdir. Metalların xassələrini onlarda xaotik hərəkət edən çoxlu sayda sərbəst elektronların olması ilə izah edən nəzəriyyə metalların klassik elektron nəzəriyyəsi adlanır. Elektron nəzəriyyəsinin əsasını 1900-cü ildə P.Drude qoymuşdur. Elektronlar kristal qəfəsin düyünlərindəki atomlarla toqquşurlar və elektronun sürəti dedikdə onun istilik hərəkəti sürəti nəzərdə tutulur $\overline{\upsilon_i}$ götürülür. Bu nəzəriyyə elektrik müqavimətinin yaranması, həmçinin Om və Coul-Lents qanunlarını izah edərək xüsusi müqavimətin materialın məxsusi parametrləri ilə ifadə edilməsinə imkan yaradır. Nəzəri tədqiqatlar aparan Drude qəbul edirdi ki, elektronlar elektrik sahəsində sürətlənərək qəfəs ionları ilə toqquşduqda enerjilərini itirir və istiqamətlənmiş hərəkət sürəti sıfra qədər azalır. Bu nəzəriyyəyə görə axan cərəyanın sıxlığı $J = en\overline{\upsilon} = \dfrac{ne^2\bar{l}}{2m\overline{\upsilon_i}}$ kimi hesablanır və materialın keçiriciliyini üçün: $\sigma = \dfrac{e^2 n\bar{l}}{2mv}$ alınır. Klassik elektron nəzəriyyəsinə görə toqquşma zamanı elektron öz kinetik enerjisini tamamilə kristal qəfəsə verir. Bu enerji metalın qızmasına sərf olunur. Vahid zamanda vahid həcmdən ayrılan istilik miqdarı:

$$\Delta Q = n\frac{\overline{\upsilon}}{\bar{l}}\cdot W_k = \frac{ne^2l^2}{2m\overline{\upsilon}}\cdot E^2 = \lambda E^2$$

Sonuncu ifadəni diferensial şəkli Coul-Lents qanununun ifadəsi ilə uyğun olması klassik elektron nəzəriyyəsinin mühüm nailiyyətlərindən biridir. Klassik elektron nəzəriyyəsinin uğuru həmçinin metalların elektrik keçiriciliyi ilə istlik keçiriciliyi arasında əlaqənin dəqiq izah edilməsi ilə əlaqədardır. *Videman* və *Frans* təcrübi olaraq elektrik keçirmə əmsalı σ ilə istlikkeçirmə əmsalı χ –nın nisbətinin bütün metallar üçün eyni qiymətə malik olduğunu və temperaturun xətti funkisyası olmasını göstərmişlər.. Videman və Frans istilikkeçirmə və elektrikkeçirmə əmsalları arasında aşağıdakı əlaqəni müəyyən etmişlər.

$$\frac{\chi}{\sigma} = 3\left(\frac{k}{e}\right)^2\cdot T$$

Bu ifadədə mütənasiblik əmsalının bir sıra metallar *(Ag,Cu)* üçün kifayət qədər dəqiqliklə ödənilməsi klassik elektron nəzəriyyəsinin doğruluğunu sübuta yetirir. Lakin sonrakı tədqiqatlar bu asılılığın xəttilikdən kənara çıxmasını aşkar etmişdir.

Kassik elektron nəzəriyyəsi təcrübi faktları izah etdikdə bir sıra çətinliklərlə üzləşir. Klassik nəzəriyyənin ilk çətinliyi metalların elektrik müqavimətinin temperaturdan asılılığı göstərilə bilər. Xüsusi müqavimətin temperatur asılılığının nəzəri ifadəsinə görə $\rho \approx \sqrt{T}$ olduğu halda, təcrübədə $\rho \approx T$ alınır. Klassik elektron nəzəriyyəsinə görə lektronların konsentrasiyası və sərbəst yolun orta uzunluğu temperaturdan asılı deyil, elektronların sürəti isə temperaturun kökü ilə mütanisibdir. Klassik nəzəriyyənin ikinci çətinliyi Videman-Frans qanununda kəmiyyət uyğunsuzluğudur. Klassik elektron nəzəriyyəsi bərk cismin istilik tutumunu izah etməyə də acizdir. İstənilən bir cismin molyar istilik tutumu Dülonq-Pti qanununa görə 3R-ə bərabərdir. Metallarda sərbəst elektronlar istilikkeçiricilik hadisəsində iştirak etdiklərindən, onlar həm də istlik tutumuna malik olmalıdırlar.

Göstərilən çətinliklər klassik nəzəriyyənin səhv olduğunu, yeni nəzəriyyə - *keçiriciliyin kvant nzərəiyyəsinin yaranmasını tələb edir*. Keçiriciliyin kvant nəzəriyyəsi klassik elektron nəzəriyyəsinin təsvir olunan bütün çətinliklərini tamamilə aradan qaldırmışdır.

Elektronun atom daxili proseslərlə elektrik yükünü daşınmasının kvant nəzəriyyəsi *Y.Frenkel* və *A.Zommerfeld* tərəfindən yerinə yetirilmişdir. Kvant nəzəriyyəsi kifayət qədər mürəkkəb riyazi aparata əsaslanır və kursun hüdudlarından kənara çıxır. Bu səbəbdən burada yalnız metallarda elektron proselərini doğru və dürüst əks etdirən nəzəriyyənin keyfiyyət xüsusiyyətləri atomun quruluşu əsasında izah edilir.

Müsbət yüklü nüvələrdən ibarət olan atomlarda mənfi yüklü elektronlar nüvə ətrafında orbitlər boyunca hərəkət edirlər. Orta məktəb kursundan məlumdur ki, *Bor nəzəriyyəsinə* görə elektronların fırlanma orbitləri ixtiyari ola bilməz və ciddi təyin olunan radiuslarda malik *stasionar hallarla* xarakterizə olunur. Orbitdə yerləşən elektron W_n -enerjini, impuls momentini, *m*-maqnit momentini və *S*-spini xarakterizə edən 4 kvant ədədi qanunlarından olan *Paulli prinsipinə* görə elektronlar orbitlərdə elə paylanırlar ki, heç olmasa 1 kvant ədədi fərqlənsin, yəni 4 kvant ədədi eyni olan elektron mövcud deyildir.

Orbitdə ən çoxu əks işarəli spinlə 2 elektron məskunlaşa bilər. Atomda elektron qatları *n* kvant ədədinin nömrəsinə görə fərqlənirlər və hər qatda n^2 sayda orbit mövcud olur. Qeyd olunanlara əsasən ayrıca (sərbəst) atomun kvant halı sxematik olaraq enerji səviyyələri ilə təyin olunur.

Atomlar birləşərək bərk cisim əmələ gətirdikdə atom nüvəsinə yaxın elektronların halında mühüm dəyişiklik baş vermir. Bu hallar d*axili elektron qatları* adlanır. Xarici elektron qatlarında yerləşən elektronlar isə atomları bir-birinə yaxınlaşması səbəbindən güclü qarşılıqlı təsirə məruz qalaraq öz hallarını dəyişirlər. Bir sıra hallarda cisim əmələ gəldikdən sonra da elektronlar məxsus olduğu molekullar tərəfindən saxlanılır və buna görə də sərbəst yük mütəhərrik olmur. Belə materiallar elektriki keçirmir və dielektrik (izolyator) olurlar. Digər hallarda valent elektronlar mütəhərrikliyə malik olurlar və belə materiallar metal kimi özünü göstərir. Aralıq halında, adi temperaturlarda mütəhərrik elektronların sayı az olan materiallar yarımkeçirici adlanır. Materialların müxtəlif elektrik xassələrinə malik olması elektronların orbitləri doldurması əsasında, enerji diaqramı vaitəsilə izah oluna bilər.

İzolə olunmuş atomun enerji diaqramında olan elektron halları maddə əmələ gətirdikdə zolaqlara çevrilir.Zolaqların diskret enerji səviyyələri arasında məsafə istilik enerjisinə nəzərən çox kiçik olduğundan, elektron zonaları daxilində asanlıqla bir səviyyədən digərinə keçərək sərbəst hərəkət edə bilər. Zolaqlar **icazəli zona,** zolaqlararası fəza isə **qadağan olunmuş zona** adlanır. Sonuncularda elektron ola bilməz və bu zonanı sıçrayışla qət edə bilər. Elektronların belə səviyyələr üzrə paylanmasında icazəli zona tam dolu, növbəti zona isə tamamilə boş olarsa, belə material dielektrikdir. Dielektriklərdə mütəhərrik elektron, yəni keçiricilik yaratmaq üçün elektron ΔE enerjisini əldə etməlidir. Qadağan zonanın böyük qiymətində belə keçidlər çox yüksək temperaturlarda baş verir. Adi temperaturlarda isə keçirici elektronlar olmadığından, material elektrik keçirmir, dielektrik olur. Əgər ΔE nibətən kiçik olarsa elektronların həyəcanlaşması nisbətən kiçik (otaq və daha aşağı) temperaturlara uyğun gəlir və belə materiallar **yarımkeçirici** adlanır.

İcazəli zona qismən dolu olarsa, enerjinin minimumluq prinsipinə görə mütləq sıfırda elektronlar zonanın dibinə yığışar. Elektronlar sıfırdan fərqli istənilən temperaturda ($T \neq 0$) zona daxilində sərbəst hərəkət edərək keçiricilik yaradırlar və belə materiallar keçirici (metal) olur. Icazəli zonada diskret səviyyələr arasında enerji fərqi $\approx 10^{-22}$-$10^{-23}\,eV$, 1 *K-ə* uyğun gələn istilik enerjisi isə xeyli böyük $10^{-4}eV$ təşkil etdiyindən (otaq temperaturunda istilik enerjisi 0,025 *eV təşkil edir*), 0 *K*-dən fərqli istənilən temperaturda elektronlar icazəli zonada daha yüksək səviyyələrə qalxaraq sərbəst hərəkət edirlər və metallara uyğun yüksək keçiricilik yaranır. Qismən dolu icazəli zona isə *keçirici zona* adlanır. Atomların sonuncu orbitində yalnız bir elektron olması və ya bərk cismin əmələ gəlməsi zamanı zonalrın bir-birini «örtməsi» nəticəsində qismən dolu zona yaranır. Birinci halda atomdan *N* valent elektronu zolağın orbitlərdə cüt-cüt yerləşərək yalnız $\frac{N}{2}$ sayda orbiti doldurur, qalan $\frac{N}{2}$ sayda orbit isə boş qalır. Metallarda $n \approx 10^{-29}\,m^{-3}$ olduğu nəzərə alınarsa, $W_{max} \approx 10^{-18}\,C \approx 8eV$ olur. Dəqiq nəzəriyyə elektronların metalda orta enerjisinin qiymətindən bir qədər kiçik - $\sim 5eV$ olduğunu göstərir. Beləliklə, kvant nəzəriyyəsinə görə hətta 0 *K* temperaturda belə elektronlar kifayət qədər böyük enerjiyə malik

olurlar.əgər enerji temperatur ilə ifadə edilərsə, bu enerıi ~40000 *K*-ə uyğun gələr. Elektronun yerləşdiyi son səviyyə *Fermi səviyyəsi,*ona uyğun enerji isə *Fermi enerjisii* adlandırılır. Fermi enerjisi temperaturdan çox zəif asılı olur və otaq temperaturunda onun qiyməti mütləq sıfırdakı qiymətindən cüzi fərqlənir. Bu səbəbdən istilik hərəkəti elektronların kinetik enerjisnə təsir edir və *keçirici elektronların. istiliik tutumundakı payı* nəzərə çarpmayaca*q* dərəcədə kiçik olur.

MÜASİR DÖVRDƏ FİZİKANIN TƏDRİSİNDƏ ŞƏXSİYYƏTYÖNLÜ YANAŞMANIN PROBLEMLƏRİ

Fətəliyeva P.M.
Sumqayıt Dövlət Universiteti

Şəxsiyyətə yönəlmiş təhsil, insanın müəyyən qədər bilik və bacarıqlar alması istiqamətinə yönəlmiş təhsil növündən, respublikamızın sosial-iqtisadi inkisaf tələbləri ilə yanaşı, inkişaf etmiş ölkələrin iqtisadiyyatının infrastrukturunun tələblərinə uyğunlaşmağı bacara bilən, yaradıcı fəaliyyətin və davranışın subyekti olan şəxsiyyətin inkişaf etməsinə imkan verən təhsilə keçilməsini tələb edir. Bununla bağlı "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda şəxsiyyətyönlü təhsilin həyata keçirilməsi ilə bağlı təhsil sistemi qarşısında duran vəzifələrin də mahiyyətini dəyişərək yeni əhəmiyyət kəsb edən vəzifələr aşağıdakı kimi müəyyənləşdirilmişdir:

-ölkənin modernləşməsi üçün zəruri olan insan kapitalını inkişaf etdirmək və bununla Azərbaycan Respublikasının beynəlxalq rəqabət qabiliyyətini yüksəltmək;

-məsuliyyətini dərk edən, demokratiya prinsiplərinə, xalqın milli ənənələrinə, insan hüquq və azadlıqlarına hörmət edən, azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil, yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirmək;

-milli mənəvi və ümumbəşəri dəyərləri qoruyan, inkişaf etdirən, geniş dünyagörüşə malik olan, təşəbbüsləri, yenilikləri qiymətləndirməyi bacaran, nəzəri və praktiki biliklərə yiyələnən, müasir təfəkkürlü və rəqabətqabiliyyətli kadrlar hazırlamaq" .

Müasir Azərbaycanın təhsil sistemində müəllim-şagird və müəllim-tələbə münasibətlərinin tənzimlənməsi və təkmilləşməsində şəxsiyyətyönlü yanaşma nəticəyönümlülüyə aparan ən düzgün yoldur. Bu prosesdə müəllim tədrisin müxtəlif tərəflərini dərk etməli, fərdilikləri, xüsusiyyətləri, yeni texnologiya və sistemləri nəzərə almalı, oyrənənlərə yeni bilik və bacarıqların əldə edilməsində, yeni cəmiyyətin tələblərinə uyğunlaşmaqda və onların sosial-ictimai dəstəklə əhatə olunmalarında, bir şəxsiyyət kimi formalaşmaları üçün əlverişli mühitin yaradılmasında yardımçı olmalıdır. "Muəllim təhsilin əhəmiyyətini dərk etməli, humanist olmalı, oz fənnini, pedaqogika və psixologiyanı gözəl bilməli, şəxsiyyətyonlü pedaqoji üsullardan həmişə istifadə etməli, öz intellektual səviyyəsini daim inkişaf etdirmək üçün çalışmalıdır".

Təhsilin müasirləşməsi şəraitində, müəllim fəaliyyətini sinif otağı ilə məhdudlaşdırmamalı, şəxsiyyətin və cəmiyyətin sifarişlərinə uyğun biliklərin həcmini daim artırmalı,pedaqoji xidmət bazarının tələbini düzgün müəyyənləşdirməli və buna uyğun müstəqil elmi-tədqiqat işi aparmalı,peşəkarlıq səviyyəsinin daima yüksəldilməsinə çalışmalıdır. Bu istiqamətdə iş apararkən müəllim digər həmkarları ilə daim qarşılıqlı münasibət qurmalıdır. "Ənənəvi təhsil sistemi artıq vaxtını keçirmiş, indiki dövrün tələbləri ilə uzlaşmır.O, təkamül yolu ilə, yeni keyfiyyət dəyişiklikləri aparılmaqla tədricən dəyişdirilməli, sosial, şəxsiyyətyönlü təhsil sisteminə adaptasiya olunmalıdır".

Bu gün ümumdünya və Azərbaycan təhsil sistemində fizika kursunun məzmun və strukturuna qoyulan tələblərin dəyişməsi, onda müasirliklə ayaqlaşmağı tələb edir. Azərbaycan məktəblərində tədris olunan fizika fənninin nəticəyönümlü məzmununun yaradılması və fizikanın tədrisi metodikasının müasir tələblərə cavab verən şəxsiyyətyönlü təlim metodlarına gətirilməsi problemləri aktual olaraq qalmaqdadır. Hazırkı dövürdə fizikanın tədrisi metodikasının tədqiqi sahəsində çalışan alim-pedaqoqlar, bu problemlərin həllində şəxsiyyətyönlü yanaşmanı pedaqoji fəaliyyətin ən üstün və müasir istiqamətlərindən biri hesab edirlər. Şəxsiyyətyönlü yanaşmaya aid olan anlayış və xüsusiyyətlərin təhsilalanın fərdi keyfiyyətləri ilə bağlı olması, onu digərlərindən əsaslı olaraq fərqləndirir. Fərdi kefiyyətlərin inkişafı məqsədilə aparılan tədris-təlim prossesində fərqli məqsədlər həyata keçirilir-təhsilalana mövcud sosial təcrübəni-müxtəlif təhsil proqramlarında nəzərdə tutulan bilik, bacarıq və vərdişləri öyrədirlər. "Bu prinsip təhsil prosesinin subyektləri arasında münasibətlərin

dialoqlaşdırılmasını, təhsilalanın fəallaşdırılması üçün prosesin problemləşdirilməsini, təlim prosesinə hər bir oyrənənin real şəxsi təcrübəsinin daxil edilməsini və təlimin subyektin fərdi yaradıcılığının inkişaf etdirilməsinə yönəldilməsini-fərdiləşdirilməsini nəzərdə tutur.

"Elmi-texniki tərəqqi, təlim və pedaqoji texnologiyaların müasirləşməsi, yeniləşməsi, istehsal prosesinin müntəzəm olaraq təkmilləşməsi, orta məktəbdə fizikanın məzmununun və onun tədrisi metodikasının daima təkmilləşməsini tələb edir. Ona görə də hazırda insan-təbiət, insan-texnika əlaqələrinin dərinləşməsi, fizikanın əsaslarının daha səmərəli metodlardan istifadə olunaraq tədrisinə böyük ehtiyac yaratmışdır".

Təbiət hadisələri, eləcə də fiziki hadisə və anlayışların nəticəyönümlü öyrədilməsi prossesi daha çox fərdilik, şəxsiyyətyönlü yanaşma-eyni zamanda hər bir təhsilalanın fərdi xüsusiyyətlərini nəzərə alaraq öyrədilməsini tələb edir.Fiziki hadisə və anlayışların öyrədilməsi zamanı hər bir şagirdin psixoloji və fizoloji durumu nəzərə alınmalı, fərdi, ona məxsus subyektiv keyfiyyətlərin formalaşmasına və inkişafına yönəldilməlidir.

Şəxsiyyətyönlü yanaşmanın psixoloji modeli dərketmə bacarıqlarının inkişafına yönəldilmişdir. İndiyə qədər dərketmə bacarıqları fərdi deyil, tipik (refleks, planlaşdırma, məqsədəyönlülük) olaraq öyrənilirdi. Bu bacarıqların yeganə inkişaf vasitələri tədris prosesi olduğundan, onun normativ məzmun və strukturu "etalon" kimi qurulurdu. İndi pedaqoji aləmdə şəxsiyyətyönlü təhsilin quruluş prinsiplərinə, dərkolunmasına və təşkilinə başqa cür baxış formalaşmışdır. Bu baxışların əsasında hər bir təhsil alanın şəxsi keyfiyyətləri kollektivin subyekti kimi deyil, özünəməxsusluğunun, özünü dəyərləndirmənin, fərdin (subyektin) təkrar olunmaz təcrübəsinin tanınması durur. Bu gün fizikanın öyrədilməsində əsas məqsəd planlaşdırılmış nəticələrin əldə olunması deyil, hər bir təhsil alanın fərdi keyfiyyətlərinin üzə çıxarılması ilə yanaşı, onun inkişafını təmin edən şəxsiyyətyönlü yanaşmanın yeni pedaqoji texnologiyaların düzgün müəyyənləşdirilməsindən ibarət olmalıdır.

Fərdilik hər bir insana məxsus irsi və tədris-təlim prosesində formalaşan keyfiyyətlərin ümumi xarakteristikasıdır. Bu kefiyyətlər özünü müxtəlif fəaliyyət növlərində: oyun, təlim, əmək, idman, yaradıcılıq prosesi, çətin anlarda və s. göstərir. Məktəbdə şəxsiyyətyönlü təhsil modelini səmərəliliyinin artırılması üçün ilk növbədə aşağıdaki məsələlər həyata keçirilməlidir:

1. tədris-təlim prosesinin konsepsiyasını təlim və tərbiyənin vəhdəti kimi deyil, fərdiliyin inkişafı, bacarıqların formalaşması, təhsil və tərbiyənin üzvi olaraq bir-birini tamamlaması kimi qəbul edilməsi;
2. tədris-təlim prosesində iştirakçıların: idarəedicilər, müəllimlər, təhsilalan və valideynlərin qarşılıqlı münasibətlərinin spesifik xüsusiyyətlərinin üzə çıxarılması;
3. tədris-təlim prosesinin məhsuldarlığının innovativ dəyərlərinin müəyyənləşdirilməsi.

Nəzərə almaq lazımdır ki, ümumtəhsil məktəblərdə fizikanın öyrədilməsində bütün şagirdlər üçün vahid standartların olması ilə yanaşı, həm də onların hər birinin müxtəlif fərdi xüsusiyyətləri də vardır. Bu gün təhsildə əsas məqsədlərdən biri də hamıya təhsil verməklə yanaşı, eyni zamanda hər kəsin fərdi xüsusiyyətlərini nəzərə almaqla, hər bir şəxsə ayrılıqda təhsil vermək kimi olmalıdır. Bu fərqin aradan qaldırılması üçün şəxsiyyətyönlü yanaşmanın təlim texnologiyalarına üstünlük verməsi vacibdir.

ANA DİLİ TƏLİMİ İDEYASININ YARANMASI VƏ FORMALAŞMASI

Məmmədova Ü.V.
Sumqayıt Dövlət Universiteti

XIX əsr Azərbaycan məktəb tarixi zənginliyi və mürəkkəbliyi ilə fərqlənir. Bu dövr bir neçə səciyyəvi xüsusiyyəti ilə seçilmişdir. Hər şeydən öncə ana dili təliminin inkişafına mane olmaq üçün ruslaşdırma siyasəti həyata keçirilirdi. Bu dövrdə digər tərəfdən ərəb və fars dilinin Azərbaycanda hakim dil səviyyəsində qalmasına üstünlük verilmişdir. Bunlar da ana dili təlimi qarşısında ciddi problemlərin yaranmasına səbəb olurdu. K.D.Uşinski yazırdı ki, dil xalqın bütün çoxəsrlik mənəvi həyatının ən dolğun və ən düzgün tarixi olmaqla bərabər, hələ nə kitab, nə də məktəb olmadığı dövrlərdə belə xalqı öyrədən və onu tarixin sonuna qədər öyrətməkdə davam edən ən böyük xalq tərbiyəçisidir.

XIX əsrin 60-cı illərdən başlayaraq Azərbaycanın bir çox görkəmli nümayəndələri, müəllim və maarifçiləri təlimin ana dilində aparılması uğrunda gərgin mübarizəyə başladılar. M.F.Axundovun bu istiqamətdə apardığı mübarizə daha çox diqqəti cəlb edirdi. O, xalqın ümumi mədəni səviyyəsinin aşağı olmasının əsas səbəbini ərəb əlifbasında görürdü. M.F.Axundzadə ömrü boyu bu məqsəd uğrunda

mübarizə aparmış və onun ideyası ölümündən sonra reallaşmışdır. M.F. Axundovun ana dili təlimi uğrunda mübarizəsi nəticəsiz qalmadı.

M.F.Axundzadə ənənələrini davam etdirməkdə H.Zərdabi və onun "Əkinçi" qəzeti böyük əhəmiyyət kəsb etmişdir. M.F.Axundovdan fərqli olaraq Zərdabi uşaqların ümumi elmi təhsilini, ana dilində dünyəvi məktəblər yaratmaq ideyasını dövrün tələblərinə uyğun olaraq əsaslandırırdı. Məhz buna görədir ki, müasirləri onu "Zaqafqaziya müsəlman ziyalılarının müəllimi və mənəvi atası" adlandırmışdır.

"Əkinçi" qəzeti dövrün maarifinin, təhsilinin yayılmasına müsbət təsir göstərdi. H.Zərdabi ana dili məktəbləri ilə bərabər dünyəvi təhsil uğrunda mübarizə aparırdı. Dünyəvi və elmi təhsilin inkişafı bu dövrün ən mühüm problemlərindən biri olub.

H. Zərdabinin ənənənələrini davam etdirməkdə "Ziyayi-Qafqaziyyə" və "Kəşkül" mətbu orqanları xüsusilə fərqlənirdi. M. F. Axundov və H. Zərdabinin müasiri, görkəmli yazıçı və jurnalist ömrünün 50 ildən çoxunu xalq maarifinin inkişafına həsr edən Məmmədağa Şahtaxtlı "Kavkaz" qəzetində nəşr etdiyi məqalədə ana dili təliminə toxunur və faydalı fikirlər söyləyirdi. O, dərsliklər tərtib etməyi, rus dilindən dərslikləri milli dilə tərcümə etməyi, şifahi xalq ədəbiyyatı nümunələrindən qiraət materialları hazırlamağı, dərs vəsaitləri yaratmağı təklif edirdi. Onu daha çox ərəb əlifbasından xilas olmaq məsələsi düşündürürdü.

F. Köçərli də ana dili təlimini yaxşılaşdırmaq ideyasını davam etdirirdi. O, bir tərəfdən ruslaşdırma siyasətinə, digər tərəfdən isə əlifbanı dəyişdirmək uğrunda mübarizə aparır, sxolastik üsulların əleyhinə çıxırdı.

Ana dili təlimi ideyasının sonrakı mərhələsində S.Ə.Şirvani, M.T.Sidqi, S.M. Qənizadə, H.Mahmudbəyov, S.Vəlibəyov, R.Əfəndiyev, N.Nərimanov, C. Məmmədquluzadə və başqaları mühüm rol oynadı. Onlar fəaliyyətlərini iki mərhələ üzrə davam etdirdilər. Birinci mərhələ dərslik yazmaq, ikinci mərhələ isə ana dilinin təlim və tərbiyəsi imkanlarını qorumaq məqsədilə fəaliyyətlərini davam etdirməklə yadda qaldı.

Nəticə olaraq onu deyə bilərik ki, ana dili təliminin yaranması və inkişafında böyük xidmətləri olan ziyalılar həmişə dərslik yazmaq, müntəxabat tərtib etmək, rus dilindən kitablar tərcümə etmək, müəllim üçün metodik vəsaitlər hazırlamaq, ərəb əlifbasını dəyişdirmək uğrunda mübarizə aparmışlar ki, bu da ana dilinin yaranması və formalaşması tarixində mühüm mərhələ təşkil edir.

BƏDİİ ƏSƏRLƏRİN ÖYRƏDİLMƏSİNDƏ MƏTN ÜZƏRİNDƏ İŞİN TƏŞKİLİ FORMALARI

Məmmədova S.İ.
Sumqayıt Dövlət Universiteti

Mətn üzərində işin təşkili təlimə səmərəli təsir göstərən vasitələrdən biridir. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün ədəbiyyat fənni üzrə proqramda da (kurikulumda) bu məsələ təlim nəticələrindən biri hesab edilmiş və ədəbiyyatın öyrədilməsində müasir yanaşmalardan biri kimi qiymətləndirilmişdir: "şagird müxtəlif janrlarda yazılmış mətnlər üzərində sərbəst işləyir, onlarda ifadə olunmuş əsas ideyanı şərh edir, mətni məzmuna uyğun hissələrə ayırır və müvafiq plan tərtib edir".

Bədii əsərlərin öyrədilməsi iki istiqamətdə aparılır. Bunlardan birincisi əsərin məzmununun öyrədilməsi ilə bağlıdırsa, ikinci istiqamət isə təhlilin səmərəli aparılması ilə əlaqədardır. Biz də bu mərhələlərdə aparılan işin sistemini verməyi məqsədəuyğun hesab edirik. Əvvəlcə məzmunun mənimsədilməsində mətn üzərində hansı işlərin aparılmasına münasibət bildirək.

Metodik ədəbiyyatlarda əsaslandırılır ki, mətn üzərində işdə hər əsərin janrına, üslubuna, forma və məzmununa və s. uyğun olaraq müvafiq formalar müəyyənləşdirmək, işə yaradıcı yanaşmaq tələbi qarşıya məqsəd qoyulmalıdır. Təcrübə göstərir ki, bədii ədəbiyyatı sevdirmədən onun mahiyyətini açmaq, şagirdlərin mühakimə və maraqlarını inkişaf etdirmək olmaz. Müəllimin bu istiqamətlərdə işi nümunəvi təşkil etməsi vacib məsələdir. Buna nail olmaq üçün məzmunun mənimsədilməsinə hazırlıq, mətnin oxunması, mətnin planlaşdırılması, çətin sözlərin öyrədilməsi əsas iş formalarından biri kimi seçilməlidir.

Göstərdik ki, əsərin öyrədilməsində təhlil dərslərinin aparılması çox mühüm əhəmiyyət kəsb edir. Sual yarana bilər ki, təhlil dərslərində mətn üzərində hansı işlər aparmaq əhəmiyyətli sayılır? Bu iş formalarından birincisi obrazlar üzrə işin təşkilidir. İkinci mərhələ isə bədii təsvir və ifadə vasitələri üzərində işin aparılmasıdır.

Deyilənləri ümumiləşdirsək aşağıdakı nəticələri əldə edə bilərik:

1. Mətn üzərində iş dərsin bütün mərhələrində əsas məqsəd kimi qarşıya qoyulmalıdır.

2. Mətndən müəyyən parçaların seçilməsi. Bunların üzərində geniş diskussiya yaratmaq imkanının yaradılması, plan tutmaq, suallar tərtib etmək. Obrazlar və bədii təsvir və ifadə vasitələri üzərində geniş iş aparmaq əsərin məzmin və təhlilinin yüksək səviyyədə qavranılmasına müsbət təsir göstərir.

3. Mətn üzərində işin təşkili, bədii təsvir və ifadə vasitələri üzərində geniş iş aparmaq əsərin dilini öyrənməyə kömək edir, əsərin açılmasına müsbət təsir göstərir.

4. Mətn üzərində iş formalarının düzgün aparılması məzmun və formanın, əsərin quruluşunun dərindən öyrənilməsinə geniş imkan yaradır.

MÜASİR PEDAQOJİ TEXNOLOGİYALARIN TƏSNİFATI

Əliyeva Ş.D.
Sumqayıt Dövlət Universiteti

Pedaqoji texnologiya – fərdi yanaşma və kollektiv iş prinsiplərini qarşılıqlı tətbiq etməklə müəllim və şagirdlərin planlaşdırılmış (layihələşdirilmiş) elə birgə fəaliyyətdir ki, nəticədə sinfin bütün şagirdləri təhsilin dövlət standartlarında nəzərdə tutulan bilik, bacarıq və vərdişlərə yiyələnir, tələb olunan səviyyəyə nail olur və onların fərdi qabiliyyətləri inkişaf edir.

Bu təriflərdə pedaqoji texnologiya müxtəlif terminlərlə və müxtəlif yanaşmalarla (prosesin təsviri, birgə fəaliyyət modeli və s.) açıqlansa da, mahiyyət etibarı ilə təlim-tərbiyə prosesinin layihələşdirilməsinin sistemli metodu kimi səciyyələndirilir.

Tədris prosesində şagirdin hərtərəfli şəxsiyyət kimi formalaşması üçün pedaqoji texnologiyalardan məqsədəuyğun və kompleks şəkildə istifadə edilməsi daha yüksək nailiyyətlər əldə etməyə imkan verir. Burada məqsədə və təlimin məzmununa müvafiq texnologiyaların seçilməsi, onların ardıcıl və qabaqcadan müəyyənləşdirilmiş vaxtda yerinə yetirilməsinə çalışmalıdır. Yəni, müəllim dərs prosesinin layihələşdirilməsini və onun reallaşdırılması əməliyyatlarını dəqiq düşünməlidir.

Pedaqoji texnologiyaların uğurla təşkili və tətbiqi onun ümumi prinsiplərini də yaxşı bilməyi tələb edir. Ədəbiyyatda pedaqoji texnologiyaların doqquz prinsipi olduğu göstərilir[1]:

1. Tərbiyəedici təlim prinsipi.
2. İnkişafetdirici təlim prinsipi.
3. Təlimdə müvəffəqiyyət əldə etmək prinsipi.
4. Bütün şagirdlərlə əks-əlaqə prinsipi.
5. Müntəzəm olaraq təkraretmə prinsipi.
6. Optimal psixi gərginlik prinsipi.
7. Təlim prosesində şagirdlərin maksimum iştirakı prinsipi.
8. Təlimdə yaxın inkişaf zonasına yönəlmə prinsipi.
9. Müəllim və şagirdlərin vahid məqsədlər üçün birləşməsi prinsipi.

Bu prinsiplər əsasən müasir (yeni) təlim texnologiyalarına məxsusdur.

Pedaqoji prosesin əsas texnoloji meyarları bunlardır:

- sistemlilik (komplekslik, bütövlük);
- elmlilik (konseptuallıq, inkişafetdirici olması);
- strukturluluq (ardıcıllıq, məntiqlik, alqoritmik olması, varislik);
- idarəedilən ola bilməsi (diaqnostik, proqnozluluq, effektivlik, optimallıq, təkrar edilə bilən);

Yeni (innovasion) **pedaqoji texnologiyaların mənbəyi və tərkib hissələri** kimi aşağıdakıları göstərmək olar:

a) sosial dəyişmələr və yeni pedaqoji təfəkkür;
b) elm – pedaqoji, psixoloji, ictimai, texniki elmlər;
c) qabaqcıl pedaqoji təcrübə;
d) texniki tərəqqinin nailiyyətləri;
e) keçmişin, ölkəmizin və xarici dövlətlərin təcrübəsi;
i) xalq pedaqogikası (etnopedaqogika) [2].

Məlumdur ki, məktəb təhsili praktikasında təlim-tərbiyə prosesinin çoxlu sayda variantları tətbiq olunur. Hər variantın müəllifi və onun icraçıları da pedaqoji prosesə fərdi yanaşır, öz elementlərini əlavə edirlər.

Hazırda məktəb praktikasında təlimlə bağlı aşağıdakı **yeni (müasir) təhsil texnologiyalarından** daha çox istifadə olunmaqdadır:

- Problemli təlim texnologiyası.
- İnkişafetdirici təlim texnologiyası.
- Dialoqlu-diskussiyalı təlim texnologiyası.
- İnteraktiv təlim texnologiyası.
- yunlarla müşayiət olunan təlim texnologiyası.
- Blok sistemi ilə təşkil olunan modul təlim texnologiyası.
- İstinad konspekti və siqnallarla aparılan təlim texnologiyası.
- Qabaqlayıcı təlim texnologiyası.
- Kollektiv təlim texnologiyası.
- Diferensial təlim texnologiyası.

Müasir pedaqogika pedaqoji texnologiyaları subyekt-subyekt (müəllim-şagird) münasibətlərinə görə üç qrupa bölürlər:

1. İzahlı-illüstrativ təlim texnologiyaları.
2. Şəxsiyyətyönümlü təlim texnologiyaları.
3. İnkişafetdirici təlim texnologiyaları.

İzahlı-illüstrativ, təlim texnologiyaları ilə aparılan pedaqoji proseslərdə şagirdlər hazır şəkildə tədris informasiyası alır, maarifləndirilir və onların reproduktiv fəaliyyəti təşkil olunur. Bu yolla şagirdlərdə ümumi təlim bacarıqları və vərdişləri formalaşdırmağa cəhd edilir.

Şəxsiyyət yönümlü təlim texnologiyaları ilə iş zamanı məktəblilərin fərdi xüsusiyyətləri nəzərə alınır və bu xüsusiyyətləri inkişaf etdirmək üçün hər bir şagirdə onun təlim fəaliyyətini təmin edən şərait yaradılır.

İnkişafetdirici təlim texnologiyalarının tətbiqi şagirdlərin intellektual (əqli) qabiliyyətlərinin, onların bir şəxsiyyət, bir fərd kimi özünəməxsus daxili inkişaf mexanizmlərinin hərəkətə gəlməsinə kömək edən təlim metodları, üsulları diqqət mərkəzində saxlanılır, onlardan daha çox və daha fəal şəkildə istifadə edilir.

Sonuncular – şəxsiyyətyönümlü və inkişaf etdirici təlim texnologiyaları müasir və ya yeni pedaqoji texnologiyalar adlandırılır [3].

TƏLİMDƏ İNTERAKTİV METODLAR VƏ TƏDRİS PROSESİNDƏ ROLLU OYUNLARDAN İSTİFADƏ

İsmayılova G.T
Sumqayıt Dövlət Universiteti

Hazırda interaktiv metodlar, fəal təlim metodları, təlim texnologiyaları anlayışlarına tez-tez rast gəlirik. Xarici beynəlxalq təşkilatlar, milli qurumlar, müasir təlim metod və texnologiyalarının təbliği müəllimlər arasında yayılması ilə əlaqədar 10 ildən artıqdır ki, seminarlar, mühazirələr, layihələr keçirirlər. Öyrənilən yeni tərz, metod, vasitə və yanaşmalar yaradıcılığı, müstəqilliyi inkişaf etdirməklə yanaşı, insan şəxsiyyətini, onun insanlara, təbiətə, cəmiyyətə münasibətini, mənəvi dünyasını və s. inkişaf etdirməli, zənginləşdirməlidir.

Metod olaraq interaktivlik təlim prosesində müəllim və şagird arasında işin gedişindən – mövzudan, şərhdən, dialoqdan, rollu oyundan həmin anda meydana çıxan yanaşma, izah və s.-dir. Yəni, bu tərz irəlicədən planlaşdırılmır, işin – təlim prosesinin gedişi bu məqamı ortaya çıxarır və daha çox şagirdin müstəqilliyi müdaxiləsi ilə baş verir. Hər bir təlim tapşırığının bu cür həlli vasitəsilə onlar idraki axtarıcılıq taktikalarını təkmilləşdirir, təlimdə öz müvəffəqiyyət formulunu hər kəsin özü qurur. Beləliklə, təlim prosesində şagirdlərarası əlaqə, qarşılıqlı təsir və əməkdaşlıq əsas olur. Təlim nəticəsi təlim prosesi iştirakçılarının qarşılıqlı qüvvəsi ilə əldə edilir, şagirdlər təlim nəticələrinə görə öz üzərilərinə qarşılıqlı məsuliyyət götürürlər.

İnteraktiv təlim dedikdə, dərsdə yaranan, təlim prosesində meydana çıxan, şagirdlərarası öyrənmə ünsiyyəti və əməkdaşlığı, müəllim – şagird birliyi nəzərdə tutulur. Çevik düşündürücü iştirak fəallığını

doğurmayan metodlar uşaqların marağını təmin etmir, onları canlandırmır, fəaliyyətə qoşmur. Digər tərəfdən, hər bir uşağın (şagirdin) öz idealı, marağı, həyata hazırlıq istəyi var. Belə ki, təlimin həm məzmunu, həm də metodları bu istəyi təmin etməlidir.

Fəal və interaktiv metodlar bir-birilə sıx bağlıdır, amma tam eyni deyillər. İnteraktiv metodların hansı prosesdə zərurətə çevrildiyini irəlidə qeyd etmişik. Bəs, fəal təlim metodları nədir? Bu anlayış XX əsrin 80-cı illərindən Azərbaycanda işlənməyə başlamışdır. "Fəal" sözü bəlli olduğu kimi daha işlək, hərəkətdə, təsirdə olan mənasını verir. Fəal təlim metodlarının interaktiv təlim metodları ilə yaxınlığı mahiyyətindən doğur, lakin doğuluş və seçim təsirinə görə bir-birindən fərqlənir. Belə ki, əgər interaktiv metodlar dərsdə təlim prosesinin gedişindən doğursa, yəni biri digərini əvəz edərək meydana çıxırsa və öyrənənlərin hamısının birlikdə tam, müstəqil fəaliyyətini təmin edirsə, fəal metodlar irəlicədən planlaşdırılmış təlimin fəallaşdırılmasına39 şərait yaradır. Ənənəvi olaraq işlənən söz metodları, əyani, praktik metodlar bu gün də fəal metodlar sırasına daxildir. Rollu oyunlar, müxtəlif xarakterli didaktik çalışmalar, esse, test tap- şırıqlarının icrası, diskussiya, müzakirə və s. fəal təlim metodlarıdır.

Təlimin fəal metodları dedikdə, öyrənənlərin məlumatlanmasını, idrak müstəqilliyini, fikri fəallığını, yaradıcılığını artıran metodlar nəzərdə tutulur. İnteraktiv təlim qarşılıqlı fəaliyyət prosesində yaradıcı fəaliyyətə əsaslanmaq deməkdir. İnteraktiv təlim şagirdlərə bilik vermə məsələlərində, həm də onları iradi, əxlaqi, əqli, estetik, mədəni, hüquqi dəyərlər yönümündə inkişaf etdirib formalaşdırır.

Beləliklə, "Tədris prosesinə fəal təlim metodlarının daxil edilməsi şagirdlərin passivliyinin aradan qaldırılmasına, təfəkkürün inkişafına, təlimin keyfiyyətinin yüksəldilməsinə şərait yaradır. Fəal təlim metodlarının tətbiqi nəticəsində "Təhsil sahəsində İslahat proqramı"nın təlim-tərbiyə prosesinin demokratikləşdirilməsi, humanistləşdirilməsi, humanitarlaşdırılması, diferensiallaşdırılması, fərdiləşdirmə, inteqrasiya prinsiplərini geniş tətbiq etməklə həyata keçirmək olar". Pedaqoji ədəbiyyatda təlim metodlarının müxtəlif növlərinin 40 olduğu göstərilir. Məsələn, beyin həmləsi (əqli hücum), BİBÖ, klaster (şaxə) anlayışının çıxarılması, söz assosiasiyaları, akvarium, rollar üzrə oyun,venn dioqramı, layihələrin hazırlanması, ESSE və s.

İnteraktiv təlim metodunun tərkib hissələrindən biri də "Rollu oyunlar"dır. Bu metod didaktikada ilkin formalaşmış metodlardan biridir. XX əsrin 20-30-cu illərində Azərbaycanda hətta ədəbi müzakirələri də bu metodla keçirirmişlər. Hələ Sovet dönəmində müəllimliyə başlayan bəzi müəllimlər dərslərində rollu oyundan şagirdləri fəallaşdırma və qabiliyyətlərinin artırma metodu kimi orta məktəbdə istifadə etmişlər. Rollu oyunu hazırda interaktiv metodlar sırasına daxil edən digər qabaqcıl müəllimlər vaxtı düzgün hesablamalıdırlar. Göstərilən şərtləri Azərbaycanın qabaqcıl müəllimləri və uşaq bağçası tərbiyəçiləri 50 ildir ki, tətbiq edirlər. Rollu oyun mövzuya, fənnə, sinfə görə müxtəlif cür imitasiya edilə bilər.

"Rollu oyunlar"a şagirdlər tərəfindən icra olunan kiçik həcmli səhnəcik və pyes kimi baxmaq olar."Rollu oyunlar" şagirdlər tərəfindən qazanılmış elmi biliklərin bədii şəkildə tətbiq olunmasına əsaslanır. "Rollu oyunlar" başqa interaktiv metodlara nisbətən şagirdlər tərəfindən daha asan qavranılır, daha maraqla qarşılanır, uzun müddət onların yaddaşlarında qalır. Belə oyunlar zamanı şagirdlər özlərini daha sərbəst, məsuliyyətli, inamlı, fəal, emosional şəkildə aparırlar. Bu cür oyunlar əsasən dənnək məşğələlərində, fənn gecələrində, siniflərarası bilik yarışlarında və digər sinifdənxaric tədbirlərdə daha maraqla qarşılanır. "Rollu oyunlar"a təkcə səhnəcik kimi baxmaq səhv olardı. Onun mətnində çox mühüm elmi əhəmiyyətli məlumatlar, fakt və rəqəmlər "gizlənir". Belə məlumatlar bir neçə dəqiqənin içində iştirakçılara (şagirdlərə) çatdırılır.

Hər bir müəllim apardığı fəndən ayrı-ayrı mövzuların tədrisi zamanı, mövzuya və şəraitə uyğun "Rollu oyunlar" mətni hazırlaya və onu dərs prosesində həyata keçirə bilər. Bir sıra metodik ədəbiyyatda ayrı-ayrı fənlər üzrə "Rollu oyunlar" mətnləri nəşr olunur.

ÜMUMTƏHSİL ORTA MƏKTƏBLƏRDƏ FİZİKANIN TƏDRİSİNDƏ EKOLOJİ MƏSƏLƏLƏR

Mərdanlı L.F.
Sumqayıt Dövlət Universiteti

Müasir mərhələdə insanın sağlamlığı və iş qabiliyyəti ətraf ekoloji mühitin vəziyyətindən əhəmiyyətli dərəcədə asılıdır. Ekaloji təhsilin məzmununun aparıcı ideyaları təbii şəkildə fizika elminin əsas funksiyalarına söykənir. Fizika-təbiət haqqında fundamental elm kimi şagirdlərin ekoloji biliklərinin formalaşmasında geniş imkanlara malikdir. Lakin bu imkanlar proqramlarda, dərsliklərdə metodiki və pedaqoji ədəbiyyatlarda lazımi səviyyədə açılmamışdır. Şagirdlərin ekoloji tərbiyəsi hər bir fənnin, o cümlədən fizika fənninin metodikası qarşısında duran aktual problemlərdən biridir. Ekologiya dedikdə insan cəmiyyəni əhatə edən ətraf mühütin qarşılıqlı əlaqəsinin öyrənilməsi qanunauyğunluqları haqqında biliklər sistemi başa düşülür. Müxtəlif hadisələrin ekoloji təsirinin öyrənilməsi təbiət elmləri arasında geniş əlaqələr olduğunu göstərir Ətraf aləmin qorunması-planetin ən aktual problemidir. Həmin problemin həllində fizika elminin əhəmiyyətlı rolu daim artır. Bu baxımdan fizikanın təlimində şagirdlərə öyrədiləcək əsas ekoloji bilikləri və yaxud həmin biliklərin aparıcı ideyalarının aşağıdakı kimi qruplaşdırılması məqsədəuyğundur: təbiət hadisələrinin qarşılıqlı əlaqəsi; əmək prosesində təbiətin dəyişdirilməsi; insanla təbiətin qarşılıqlı əlaqəsinin zəruriliyinin, mümkünlüyünün optimallaşdırılması və fiziki qanunların təbiətin mühafizəsində rolu. Texniki tərəqqinin sürətli inkişafı biosferdə maddələr mübadiləsinin yeni yollarını yaratmışdır. Bu isə təbiətdəki tarazlığın pozulmasına səbəb olur. Hazırda şəhər ətrafı mühüt sənaye, kənd təsərrüfatı və digər tullantılarla çirklənir. Hesablamalara görə bütün Yer kürəsində belə tullantıların sayı 500 milyon tondan çoxdur. Bu tullantılardan çoxu təbii dairəvi prosesdən kənarda qalır. Yer kürəsində təqribən $2 \cdot 10^{12}$ tona qədər karbon qazı vardır. Bundan təqribən 10^{11} tonu okeanlarla atmosfer arasında əlaqədə iştirak edir. Dünya okeanlarında karbon qazı atmosferdəkinə nisbətən 60 dəfə çoxdur. Qazlar soyuq suda daha yaxşı həll olduğundan okeanlar təbiətdə bir növ nasos rolunu oynayır. Soyuq tərəflərdə karbon qazı sular tərəfindən daha çox udulur, isti tərəfdə icə atmosferə buraxılır. Odur ki, tropik enliklərdə atmosferdəki karbon qazının parsial təzyiqi soyuq yerdəkinə nisbətən çox olur. Digər tərəfdən suda həll olan karbon qazının bir hissəsi oradakı canlıların skletinin yaranması ilə nəticələnir. Beləliklə, bu proses daim atmosferdə karbon qazının azalmasına səbəb olur. Lakin aparılan tədqiqatlar göstərir ki, dairəvi prosesə baxmayaraq hər il atmosferdəki karbon qazının miqdarı təqribən 0,2 % artır. Bu isə bir sıra dəyişiyliklər yaradır.

Məlumdur ki, karbon qazı infraqırmızı oblasta düşən işıq enerjisini udur. Günəşdən Yerə gələn şüalanmanın maksimumu görülən işıq oblastına düşür. Yerin şüalanması isə infraqırmızı oblasta düşür, deməli atmosfer bir növ filtr rolunu oynayır.Atmosfer Günəşdən gələn şüaları buraxır, Yerdən şüalanmanı isə buraxmır. Beləliklə, atmosferdə karbon qazının çoxalması get-gedə istiliyin artmasına səbəb olur.

Atmosferin çirklənməsinə təsir edən səbəblərdən biri də Yer atmosferinin toz hissəcikləri ilə çirklənməsidir. Son illərdə atmosferin toz qırıntıları ilə çirklənməsi əsrin əvvəlinə nisbətən 20 % artmışdır. Atmosfer şəraitinin dəyişməsi adamlara və onların sağlamlığına ciddi təsir edir. 2010-cu ildə London üzərində qalın toz-duman qatışığı bir neçə gün çəkilməmişdir. Bunun nəticəsində çoxlu insan həlak olmuşdur. Bizim nəfəs aldığımız atmosfer yüklü zərrəciklərlə - ionlarla zəngindir. Əgər atmosferdə mənfi ionlar çoxdursa nəfəs alma asanlaşır. Amma şəhər yerlərində, əsasən metro daxilində müsbət ionların artıqlığı əmələ gəlir.

Atmosferin çirklənməsi nəticəsində Yer üzərində uzun dalğalı elektromaqnit şüalanmasının sıxlığının çoxalması insan orqanizmində gedən elektrik proseslərini pozur və insanın səhhətinə güclü təsir göstərir.

Təlim prosesində biliklərin verilməsi təlimin təşkili formalarına əlavə tələblərin qoyulmasına ehtiyac yaradır. Şaqirdlərdə ekaloji təhsil və tərbiyənin formalaşdırılması məqsədilə orta məktəbdə tədris olunan aşağıdakı mövzuları nəzərdən keçirək. Təhsilin birinci pilləsində "İstilik mühərrikləri və faydalı iş əmsalı" mövzusu təbiidir ki, təbiətin mühafizə probltmi ilə bağlıdır. Nəqliyyat vasitələrində benzin və dizel yanacağı ilə işləyən istılık mühərriklərinin atmosferə buraxdığı qazların tərkibində insan həyatı üçün təhlükəli olan 50-dən artıq zəhərli komponent vardır. Bu komponentlərdən karbon oksidi, azot turşuları, müxtəlif aldehidlər, qurum, karbohidratlar və s. göstərmək olar. Bu mövzuların tədrisində qaz qarışıqlarının ayrı-ayrı komponentlərinin insanın sağlamlığına göstərdiyi təsirin şagirdlərə çatdırılması onlar üçün faydalıdır. Məsələn, karbon oksidi-rəngsiz, iysiz qaz olmaqla insan orqanizmində qırmızıqan kürəciklərinin eritrositlərinə zərərli təsir edir, mərkəzi sinir sisteminə təsir edərək oksigen aclığı əmələ

gətirir, baş gicəllənməsi, təngənəfəslik, yuxusuzluq və halsızlıq yaradır. Aldehidlər-əsasən formaldehidlər formasında mövcud olduqda insana kəskin həyəcanlaşdırıcı təsir edərək, mərkəzi sinir sisteminin fəaliyyətini zəiflədir. Havada 0,0008 % akreolin olması insan həyatı üçün təhlükəli olmasa da 0,002 % akreolin insana öldürücü təsir edir. Hazırda nəqliyyat vasitələrinin havanı çirkləndirməsi dıgər sənaye obyeklərindən qat-qat çoxdur. Məsələn Amerika Birləşmiş Ştatlarında atmosferin çirklənməsinin 60 %-i nəqliyyatın payına düşür. Hal-hazırda bütün dünyada nəqliyyat vasitələri ilə atmosferin çirklənməsinin fiziki-texniki üsullarla azaldılması problemləri üzərində geniş tədqiqat işləri aparılır. Bu problemlərə aşağıdakılar daxildir: atmosferə buraxılan müxtəlif tərkibli zəhərli qazların təsirini müəyyənləşdirmək; zərərli qazları neytrallaşdırıcılar vasitəsilə zərərsizləşdirmək; çirkləndirizi maddələrin miqdarı yanacaq sərfindən asılı olduğu üçün yanacağa qənaət etmək; ekaloji cəhətdən daha "təmiz" yanacaqlardan (qazlardan, sintetik spirtdən, müxtəlif qarışıqlardan və s.) istifadə etmək; istilik mühərriklərini başqa mühərriklərlə (məs. elektromobillərlə) əvəz etmək.

Ekoloji biliklərin formalaşmasında "Elektrodinavika" bölməsi daha geniş imkanlara malikdir. Elektrik sahəsi, mayelərdə elektrik cərəyanı mövzularının tədrisi ətraf mühitin mühafizəsi ilə əlaqələndirilərsə dərs daha canlı keçər. Məsələn, axar suları lazım olmayan qatışıqlardan təmizləmək üçün toz, qaz tutucu qurğuların effektivliyinin və f.i.ə.-nın artırılması ekoloji baxımdan faydalıdır.

İstilik elektrik stansiyaları nümunəsində ekoloji problemləri təhlil etmək olar. Respublikamızda istehsal olunan elektrik enerjisinin 70 % istilik elektrik stansiyalarının payına düşür. Odur ki, sənaye obyektlərindən kənara atılan zərərli qatışıqların 29 % -i İstilik elektrik stansiyaları payına düşür. Aşağı keyfiyyətli yanacaqla işləyən İstilik elektrik stansiyaları təbiəti daha çox çirkləndirir.

ŞAGİRDLƏRİN KİMYƏVİ NİTQ QABİLİYYƏTİNİN FORMALAŞMASINDA KİMYA DƏRSLƏRİNİN ROLU

Mikayılova G.Ş.
Sumqayıt Dövlət Universiteti

Orta məktəbin qarşısında duran əsas vəzifələrdən biri şagirdlərin təfəkkürü ilə yanaşı nitq qabiliyyətini də inkişaf etdirməkdən ibarətdir. Bu mühüm məsələlərin həllində başqa tədris fənləri kimi kimya fənni də öz rolunu oynamalıdır. Çünki, məktəblilərin əsas kimyəvi anlayışları və kimyanın əsaslarını nə qədər düzgün başa düşmüş olduqları, onları necə ifadə edə bilmələri, başqa sözlə desək, nitq qabiliyyətinin inkişafı ilə müəyyən edilir.

Kimya fənni tədris olunmağa başladığı ilk günlərdən şagirdləri terminləri düzgün ifadə etməyə və düzgün yazmağa alışdırmaq lazımdır. Belə ki, məktəblilər "hidroksid", "hidroksil"; "xlorid", "xlorit"; "sulfid", "sulfit" və s. kimi sözlərin axırını düzgün tələffüz etməyi bacarmalıdır. Əgər müəllim şagirdə "natrium-xlor götür", "tənliyin hər iki tərəfində oksigenləri düzəlt", "reaksiyanı yaz" və digər bu kimi ifadələrlə müraciət edirsə şübhəsiz ki, şagirdlər də "natrium-xlorid" əvəzində "natrium-xlor", atom və ya molekul əvəzində bir "dənə" oksigen, iki "dənə" hidrogen, valent əvəzində "qol" və sairə kimi sözlər işlədəcəklər ki, bunlara da qətiyyən yol verilməməlidir.

Şagirdlərin kimyəvi nitq qabiliyyəti hər şeydən əvvəl müəllimin özünün nitq mədəniyyəti ilə müəyyən edilir. Bu baxımdan müəllim şagirdlərə canlı nümunə olmalıdır. Tədris prosesinin səmərəli qurulması və şagirdlərin kimya biliklərinə dərindən yiyələnməsi hər şeydən əvvəl müəllimin nitqinin səlisliyindən, aydınlığından, bir sözlə ifadə tərzindən çox asılıdır. Müəllim kimyəvi işarələrin, formulların adlarını düzgün deməli, tənlikləri sözlə ifadə etməyi bacarmalı və bütün bunları şagirdlərdən də tələb etməlidir.

Müəllim tədris prosesində şagirdlərin şifahi və yazılı nitqinin qarşılıqlı əlaqəsinə əsaslanmaq prinsipinə daim əməl etməlidir. Bu məqsədlə istər keçən dərsin sorğusu, istərsədə yeni dərsin materialının möhkəmləndirilməsi zamanı şifahi üsulla yanaşı kontrol yazı işləri yazdırmaq üsulundan da istifadə etməlidir. Şifahi sorğuda şagird suallara şifahi cavab verməyə alışdığı kimi, yoxlama yazı işində yazılı şəkildə cavab vermək vərdişinə yiyələnir ki, bu da onun yazılı nitqinin inkişafına səbəb olur.

Şagirdlərin oxu vərdişlərinin normal inkişafını təmin etmək üçün təlimin hər bir mərhələsində bunu fərdi şəkildə öyrənmək zəruridir. Hər şagirdin oxusunun düzgünlüyü, sürəti, ifadəliliyi və şüurluluğunun səviyyəsini öyrənmədən, onların keyfiyyətinə təsir göstərən səbəbləri aşkara çıxarmadan geridə qalanlara vaxtında kömək göstərmək, təlimin keyfiyyətini yüksəltmək çətindir.

PEDAQOJİ TEXNOLOGİYALARIN KİMYA DƏRSLƏRİNƏ TƏTBİQİ

Çakır Rəcəb Mustafa
Sumqayıt Dövlət Universiteti

Pedaqoji texnologiya – fərdi yanaşma və kollektiv iş prinsiplərini qarşılıqlı tətbiq etməklə müəllim və şagirdlərin planlaşdırılmış (Layihələşdirilmiş) elə birgə fəaliyyətdir ki, nəticədə sinfin bütün şagirdləri təhsilin dövlət standartlarında nəzərdə tutulan bilik, bacarıq və vərdişlərə yiyələnir, tələb olunan səviyyəyə nail olur və onların fərdi qabiliyyətləri inkişaf edir.

Bu tərifl ərdə pedaqoji texnologiya müxtəlif terminlərlə və müxtəlif yanaşmalarla (prosesin təsviri, birgə fəaliyyət modeli və s.) açıqlansa da, mahiyyət etibarı ilə təlim-tərbiyə prosesinin layihələşdirilməsinin sistemli metodu kimi səciyyələndirilir.

Pedaqoji texnologiyalardan istifadə zamanı aşağıdakı mühüm tələblərə əməl olunmalıdır:

- pedaqoji texnologiya müəyyən elmi konsepsiyaya əsaslanmalıdır;
- tətbiq olunan pedaqoji proses konkret bir məqsəd əsasında elmi-metodik səviyyədə layihələşdirilməlidir;
- müəllim və şagirdlərin konkret fəaliyyəti dəqiq proqnozlaşdırılmalıdır və s.

Tədris prosesində şagirdin hərtərəfli şəxsiyyət kimi formalaşması üçün pedaqoji texnologiyalardan məqsədəuyğun və kompleks şəkildə istifadə edilməsi daha yüksək nailiyyətlər əldə etməyə imkan verir. Burada məqsədə və təlimin məzmununa müvafiq texnologiyaların seçilməsi, onların ardıcıl və qabaqcadan müəyyənləşdirilmiş vaxtda yerinə yetirilməsinə çalışmalıdır. Yəni, müəllim dərs prosesinin layihələşdirilməsini və onun reallaşdırılması əməliyyatlarını dəqiq düşünməlidir.

Ədəbiyyatda pedaqoji texnologiyaların doqquz prinsipi olduğu göstərilir:

Tərbiyəedici təlim prinsipi; İnkişafetdirici təlim prinsipi; Təlimdə müvəffəqiyyət əldə etmək prinsipi; Bütün şagirdlərlə əks-əlaqə prinsipi; Müntəzəm olaraq təkraretmə prinsipi; Optimal psixi gərginlik prinsipi; Təlim prosesində şagirdlərin maksimum iştirakı prinsipi; Təlimdə yaxın inkişaf zonasına yönəlmə prinsipi; Müəllim və şagirdlərin vahid məqsədlər üçün birləşməsi prinsipi.

Bu prinsiplər əsasən müasir (yeni) təlim texnologiyalarına məxsusdur.

Əməkdaşlıqla təlim texnologiyası ilə dərsə hazırlıq və onun gedişinin planlaşdırılması üçün aşağıdakı dörd addımı təklif etmək olar:

1-ci addım. Dərsin məqsədi və təlim-tərbiyə vəzifələri müəyyənləşdirilir:

1. Keçən dərslərdə öyrənilmiş materialların mənimsənilmə səviyyəsinin yoxlanması (testləşdirmə və ya ev tapşırığının yoxlanması kimi).
2. Öyrənilən materialın tətbiqinə aid praktik tapşırıqların yerinə yetirilməsi (yeni məsələlərin, problemlərin həlli).
3. Alınmış nəticələrin təhlili, ümumiləşdirilməsi, əsaslandırılması yolu ilə əqli bacarıqların formalaşdırılması (qruplarda alınan nəticələri müzakirə etmək, diskussiya təşkil etmək, bir qrup şagirdin verdiyi cavablara başqalarının münasibət bildirməsi yolu ilə).

Birinci dərsdə qruplara elə tapşırıqlar verilməlidir ki, onlar bu tapşırıqların yerinə yetirilməsində artıq yiyələndikləri bacarıqlardan istifadə edə bilsinlər.

Yeni dərsdə şagirdlərin yiyələnəcəyi konkret bilik, bacarıq və vərdişlər də əvvəlcədən müəyyənləşdirilməlidir, burada akademik, əqli və ümumtəlim bacarıq və vərdişlər ayrıca qeyd olunmalıdır.

Həmçinin, dərsdə istifadə olunacaq fəaliyyət növləri və vasitələri, tədris avadanlığı və tətbiq olunacaq hər bir fəaliyyət növünə ayrılan vaxt əvvəlcədən təxmini müəyyənləşdirilməlidir.

2-ci addım. Bir dərsdə kiçik qruplarda yerinə yetirilən tapşırıqların materialının həcmi müəyyən olunur.

Şagirdlərə elan olunur ki, qrupa verilən tapşırıqlar bütövlüklə hər kəs tərəfindən ayrıca öyrənilmir, hərə ona ayrılan hissəni öyrənir, sonra qrupda müzakirə edilir, hər bir şəxsin cavabı hamı tərəfindən dinlənilir və yadda saxlanılır. Tapşırığın həllində kim çətinlik çəksə yoldaşlarına müraciət edir və birlikdə həll edilir. Burada heç bir yarışma aparılmır, qrupun işinə ümumi qiymət verilir, onun uğuru hər bir üzvün necə fəaliyyət göstərməsindən asılı olur. Qrupların hamısı üçün eyni və ya hər qrupa ayrı-ayrı tapşırıq verilə bilər.

3-cü addım. Qruplarda əməkdaşlıqla təlim işi dərsin yalnız bir komponentidir, yeni dərsdə başqa metodlardan, tədris vasitələrindən də istifadə olunduğu unudulmamalıdır. Qruplara verilən tapşırıqlar yerinə yetirildikdən sonra kollektiv müzakirə başlamalıdır. Qrupun bir üzvü tapşırığın yerinə yetirilməsinə aid məruzə ilə çıxış etməlidir, tapşırığa aid verilən suala cavab verməyə qrupun hər bir üzvü hazır olmalıdır.

4-cü addım. Mükafatlandırma.

Mükafatlandırmada (həvəsləndirmədə) əsas qaydalar bunlardır:

- Əgər qruplarda şagirdlər həvəslə, produktiv (məhsuldar) işləyirsə onları hər dəfə tərifləməyə səy göstərməyin, bunu normal hal kimi qəbul edin (şagirdlərə də bunu təlqin edin);
- Mükafatlandırma (tərifləmə, xüsusi qeyd etmə və s.) aparıldıqda qrupun bütün üzvlərinə aid edilməlidir.
- Əgər qrup tərifə layiq işləməyibsə bunu hamının yanında qeyd etməyin, çünki bu halda qrup daxilində mübahisələr, ruhdan düşmə və b. Neqativ hallar əmələ gələ bilər. Belə qruplara həmin tapşırığın evdə həll edilməsi həvalə olunur və ya qrupa əlavə izahat verilir ki, onlar tapşırığın öhdəsindən gələ bilsin (tapşırığın yerinə yetirilə bilməməsinin səbəbini müəllim özündə axtarmalıdır: çətin tapşırıq verilib, şagirdlərdə lazımi bacarıqlar yaranmayıb və s.).
- Mükafatlandırma və qiymətləndirmə həm akademik müvəffəqiyyətlərə, həm də ünsiyyətin psixoloji aspektlərinə görə olmalıdır.

MƏKTƏBDAXİLİ QİYMƏTLƏNDİRMƏ

Temel Durmuş Mustafa
Sumqayıt Dövlət Universiteti

Azərbaycanda nəzərdə tutulan təhsil və qiymətləndirmə siyasəti milli maraqları əks etdirməklə yanaşı, bu sahədə əsaslı islahatyönümlü tədbirlərin həyata keçirilməsi zərurətini şərtləndirir. XXI - əsrin əvvəllərin dünyada gedən siyasi, iqtisadi və sosial dəyişikliklər bilavasitə idarəetmənin daha demokratik üsullarına keçilməsi, ölkədə açıq vətəndaş cəmiyyətinin qurulması, inkişaf etmiş ölkələrlə səmərəli əməkdaşlığın təmin edilməsi, milli özünəqaydış hisslərinin aşılanması kimi konkret məqsədlərin reallaş-dırılmasını tələb edir.

Zamanın tələbi kimi qəbul edilən, qiymətləndirmənin ədalətliliyinə, həyatiliyinə, şəffaflığına və hümanistliyinə zəmin yaradan qiymətləndirmə meyarlarından istifadə olunması əsas amillərdən biridir. Bu məqsədlə metodist alimlərin təklif etdikləri məktəbdaxili qiymətləndirmənin yeni strukturunu nəzərdən keçirək.

Məktəbdaxili qiymətləndirmə milli kurrikulumun məzmun standartlarına əsaslanır, şagird nailiyyətlərinin və irəliləyişlərinin monitorinqinə, şagirdin fəaliyyətinin təhsil standartlarına uyğunluğunun müəyyənləşdirilməsinə və ümumtəhsil pillələri üzrə buraxılış imtahanlarının aparılmasına xidmət edir, şagird nailiyyətlərinin qiymətləndirilməsi standartları gözlənilməklə tədrisin təkmilləşdirilməsi üçün qarşıya məqsədlər qoyur, onlara nail olma istiqamətində əldə edilən irəliləyişləri

qiymətləndirir, məktəblərin, qrupların və fərdlərin fəaliyyətlərinin monitorinqini həyata keçirərək nəticələr arasında müqayisələr aparır.

Məktəbdaxili qiymətləndirmə çoxnövlü qiymətləndirmələr (məsələn, çoxvariantlı açıq suallar, fəaliyyət tapşırıqları imtahanlar) vasitəsilə həm müəllimlər tərəfindən yarım illik üzrə aparılan, həm də standartlaşdırılmış qiymətləndirmələri kompleks şəkildə həyata keçirir. 9 və 11-ci siniflərdə buraxılış imtahanlarının statusunun genişləndirilməsini, təhsil sənədlərinin verilməsi üçün mərkəzləşdirilmiş və tam standartlaşdırılmış imtahan keçirilməsini, ali təhsil müəssisələrinə qəbul zamanı bu imtahanların əhəmiyyətinin artırılmasını nəzərdə tutur.

Müraciət etdiyimiz mənbələrdə məktəbdaxili qiymətləndirmə aşağıdakı formada aparılır: məktəbdaxili qiymətləndirmə mövcud qiymətləndirmə praktikası üzərində qurulmuşdur və nəticələr rubrikalar, digər diskruptiv (təsviri) qiymətləndirmə texnologiyasından istifadə etməklə formativ (müntəzəm, davamlı) qiymətləndirmə (şkaladakı balların sayı məqsəd və obyektlərdən asılı olur), kiçik və böyük summativ (yekun) qiymətləndirmələr (10 ballıq şkaladan istifadə etməklə) vasitəsilə qiymətləndirilir.

Pedaqoji araşdırmalar göstərir ki, qiymətləndirmə prosesinə kəmiyyət cəhətdən yanaşmanın ənənəvi olaraq üstün olması və bunun keyfiyyət cəhətdən az istifadə edilməsi daha mühüm problemdir. Bu problemdən çıxış yolu sözsüz ki, vardır. Mütəxəssislər aşağıdakı üsulları təklif edirlər:

1. Yazılı testlərdə və yoxlamalarda konstruktiv qeydlər.

2. Məlum "portfolio" sisteminin kimyanın tədris olunduğu siniflərdə də tətbiqi. Burada şagirdə aid olan və aşağıda adları çəkilənlərlə birlikdə bütün məlumat və sənədlər qeydə alınır.

* Cari qiymətləndirmə;

* Şagirdin dərs fəaliyyəti, onun psixoloji vəziyyəti, iş qabiliyyəti, yaşıdları və yaşlılarla münasibəti üzərində gündəlik müşahidələr;

* Təlim zamanı meydana çıxan problemlərin təsviri və onların təhlili;

* Müəllimin şagird haqqında (ona fərdi yanaşmada hansı düzəliş və dəyişikliklər edilməsi), təliminin fərdiləşdirilmə istiqamətləri haqqında qeydləri və proqnozları;

* Valideynlərin məktəblə əlaqəsi haqqında, müəllimin onlarla müzakirə etdiyi mövzular və şagirdin ailə şəraiti haqqında qeydlər;

* Psixoloqların psixoloji tədqiqatın nəticələri əsasında rəyi. Bu zaman şagirdin müəyyən dövr ərzində tədris nəticələri toplanır və sonra bu nəticələrin müəyyən edilməsi həm nailiyyətlərin, həm də problemlərin keyfiyyətcə təhlili aparılır. Yalnız bundan sonra şagirdin fəaliyyət inkişafının fərdi proqramı tərtib olunur.

* Məlumdur ki, qiymətləndirmənin ən mühüm üsullarından biri sözdür: o, müəllimin psixoloji dayağını, tədbirini və tənbehini ifadə edə bilər. Şagirdlərin ancaq bilik, bacarıq və vərdişlərinin deyil, onun şəxsi keyfiyyətlərinin də sözlə (tərif və iradlarla, məsləhət və təkliflərlə) qiymətləndirilməsi mümkündür. Verbal (sözlə) qiymətlən-dirmənin rolunun artması və eyni zamanda kəmiyyət qiymətinin əhəmiyyətdən düşməsi qiymətləndirmə prosesinin ən yaxşı göstəricisi kimi sayıla bilər.

* "Keyfiyyətcə qiymətləndirmə"nin uyğun, çevik və fərqləndirici meyarlarının işlənib hazırlanması və meyar cədvəli vasitəsilə istifadəsi, şagirdin nailiyyətlərinin kəmiyyətcə və keyfiyyətcə qiymətləndirilməsinin adekvat meyarlarının olması çox vacibdir (onların çeviklik, uyğunluq, fərqləndirmə dərəcəsi və s.).

FƏNLƏRARASI ƏLAQƏNİN FORMALARI

Qədirova G.A.
Sumqayıt Dövlət Universiteti

Pedaqoji ədəbiyyatın bir qismində fənlərarası əlaqə, müxtəlif fənlərin tədris proqramlarının didaktik məqsədlə qarşılıqlı razılaşdırılması kimi şərh olunur. Bu mənada fənlərarası əlaqə anlayışı, məktəb proqramları tərtib edilərkən hər bir tədris fənnindəki ardıcıllığı müəyyən etmək məqsədini güdür. Lakin təcrübə göstərir ki, fənlərarası əlaqənin funksiyası bununla bitmir. O şagirdlərin məntiqi mühakiməsinin inkişafında, bir-birinə yaxın elmlərin öyrəndikləri anlayışların dərinləşməsində, eyni materialın müxtəlif fənlərdə təkrarına yol verməməkdə, qarşılıqlı əlaqədə olan hadisələrin öyrənilməsinə kompleks yanaşmaqda və sair məsələlərdə böyük rol oynayır. Ona görə də həzırda didaktikanın əsas

prinsiplərindəi biri kimi qiymətləndirilən fənlərarası əlaqənin bütün funksiyalarının aşkar edilməsi böyük zəruriyyət kəsb edir.

Tədris prosesində ən çox nəzərə çarpan fənlərarası əlaqə növləri aşağıdakılardır: 1) quruluş əlaqəsi; 2) birtərəfli əlaqə; 3) tamamlayıcı əlaqə; 4) koordinasiya əlaqəsi; 5) inteqrasiya əlaqəsi.

Əlbəttə, bu cür qruplaşmanı bitmiş hesab etmək düz deyil. Əlaqənövləri qeyd etdiyimizdən xeyli toxdur. Göstərilən əlaqə növlərini ayrı-ayrılıqda nəzərdən keçirək.

1. **Quruluş əlaqəsi**. Bu əlaqə, verilmiş fənnin ayrı-ayrı mövzularının müəyyən qayda ilə düzülməsini səciyyələndirir, onun quruluşunu və ifadə olunma məntiqliyini pozmur, alınan biliklərdən əlaqəli fənlərin yeni mövzularını öyrənməkdə istifadə etmək üçün şərait yaradır. Həmin əlaqə növü çoxdan məlumdur və tədris proqramları tərtib edilərkən geniş istifadə olunur

2. **Birtərəfli əlaqə**. Bu əlaqə, mövzuların öyrənilmə dərinliyini artırmaq və şagirdlərin biliyini möhkəmləndirmək məqsədilə başqa fənlər üzrə biliklərdən istifadə etməklə həyata keçirilir.

3. **Tamamlayıcı əlaqə**. Bu əlaqə, yaxın fənlərdən birinin əsas mövzusu digər fəndə səthi öyrənildikdən sonra, yenidən öyrədilərkən həyata keçirilir. Ona görə də bunu tamamlayıcı əlaqə adlandırmaq olar. Tamamlayıcı əlaqənin əsas vəzifəsi, yaxın fənlərin kifayət qədər tam öyrənilməyən mövzuları üzrə bilikləri tamamlamaqdır.

4. **Koordinasiya əlaqəsi**. Bu əlaqə, müxtəlif fənlər üzrə tədris materialının seçilməsində həyata keçirilir. Yaxın fənləri tədris edən muəllimlər öz dərslərində eyni bir hadisəni öyrətdikdə eyni misal və nümayişlərdən istifadə edirlər. Buna oxşar halları bəzi dərsliklərin müəllifləri də təkrar edir.

Əgər şagird indi gətirilən misalı əvvəllər eşidibsə, bu bir də təkrar olunanda onu heç maraqlandırmır. Bu cür əlaqə təkrarın qarşısını alır, öyrədilən hadisənin yeni yolla əsaslandırılması isə şagirdlərin bilik dairəsini genişləndirir.

5. **İnteqrasiya əlaqəsi**. Bu əlaqə, proqramın ayrı-ayrı məsələlərinə kompleks şəkildə baxmaqla həyata keçirilir. İnteqrasiya əlaqəsini müxtəlif yollarla həyata keçirmək olar:

a) proqramın, bir neçə təbiət fənninin köməyilə öyrədilən mövzularına həsr olunmuş şagird konfransları ekskursiyalar, gecələr keçirməklə; təkrar vaxtı yaxın fənlər üzrə biliklərdən istifadə etməklə; anlayış və tərifləri yaxın fənlərdəkilərlə müqayisəli şəkildə öyrətməklə; müxtəlif fənlər üzrə biliklərdən istifadə edən məsələlər həll etməklə; yaxın fənn kabinetlərindəki əyani vasitələrdən istifadə etməklə; müəyyən bir fənnə aid mövzuları öyrədərkən onları gündəlik həyatla, istehsalatla, sənaye və kənd təsərrüfatının müxtəlif obyektlərilə əlaqələndirmək və öyrədilən təbiət hadisəsinin ayrıca verilmiş fənnə görə yox, bütün yaxın fənlərə aid olan cəhətlərini də şagirdlərə açıb göstərməklə.

Tədris prosesində, bütün yuxarıda saydığımız əlaqə növlərini birbirilə üzvi surətdə bağlı şəkildə həyata keçirməklə şagirdlərin aldığı biklərin dərinləşməsinə, möhkəmlənməsinə və tamamlanmasına nail olmaq mümkündür.

BÖYÜK VƏTƏN MÜHARİBƏSİ İLLƏRİNDƏ AZƏRBAYCANDA MƏKTƏBƏQƏDƏR TƏHSİLİN İNKİŞAFI

Şıxəliyeva K.Z.
Azərbaycan Müəllimlər İnstitutu

Böyük Vətən Müharibəsi zamanı - 1941-1945-ci illərdə məktəbəqədər təhsilin fəaliyyəti xeyli çətinləşdi. Lakin müharibə şəraitinə baxmayaraq Azərbaycanda məktəbəqədər tərbiyə müəssisələri öz işini dayandırmadı, əksinə bu illərdə məktəbəqədər tərbiyə ocaqlarının işini yaxşılaşdırmaq sahəsində bəzi təsirli hökumət tədbirləri görüldü.

Belə ki, Azərbaycan K(b)PMK və MİK 1940-cı ildə "Azərbaycanda uşaq bağçaları şəbəkəsinin genişləndirilməsi və onlarda işin yaxşılaşdırılması haqqında" qərar qəbul etdi. Bu qərar məktəbəqədər təhsilin inkişafına xeyli kömək etdi.

1940-cı illərdə Azərbaycanda hökumətin müvafiq qərarlarına uyğun olaraq xalq maarif orqanları tərəfindən təşkil edilən uşaq bağçaları ilə yanaşı ayrı-ayrı idarələrin: fabriklərin, zavodların, sovxozların, kolxozların və yaxın təşkilatların yanında uşaq bağçalarının geniş şəbəkəsi yaradıldı.

1940-cı ildə respublikamızda 43832 uşağı əhatə edən 909 məktəbəqədər tərbiyə müəssisəsi vardı. Bunlardan 388-i şəhərlərdə və 525-i kənd yerlərində idi ("Azərbaycan SSR-də xalq maarifinin nailiyyətləri". "Azərbaycan məktəbi" jurnalının nəşri, 1957, səh.198) .

Müharibə illərində məktəbəqədər təhsil müəssisələrinin əsas vəzifəsi sahibsiz, yetim, kimsəsiz uşaqları öz ətrafında toplamaq onları düzgün tərbiyəndirmək idi. Bu dövrdə vətənpərvərlik tərbiyəsinə də xüsusi diqqət yetirilirdi. Uşaqlar arasında da faşizmə qarşı nifrət hissi aşılanırdı.

II Dünya müharibəsi zamanı Azərbaycanda digər təhsil-tərbiyə müəssisələri kimi məktəbəqədər tərbiyə müəssisələrinin də normal iş ahəngi pozuldu.

Lakin müharibə hələ qurtarmamış hökumət məktəbəqədər tərbiyə müəssisələrinin şəbəkəsini bərpa və inkişaf etdirmək üçün tədbirlər gördü və bunun da nəticəsində yeni bir inkişaf dövrü başladı.

TARİXİN TƏLİMİNDƏ ŞAGİRDLƏRİN MÜSTƏQİL İŞLƏRİNİN TƏSNİFATI

Bəşirova G.H.
Sumqayıt Dövlət Universiteti

Müstəqil işi bir sıra alimlər öyrətmə metodu kimi, başqaları təlim priyomu, üçüncü qrup alimlər isə şagirdlərin fəaliyyətini təşkili forması kimi müəyyən edirlər.

Tədris zamanı şagirdlərlə müstəqil işin səmərəliliyi əsasən bu işin təşkili şəraitindən, verilən biliklərin məzmunu, xarakteri, bilik mənbəyindən müstəqil işin bu və ya digər tipinin və ya rolunun nəzərdə tutulmuş biliklərin məzmunundakı qarşılıqlı əlaqələrindən, bu işin yerinə yetirilməsi, gedişi və şagirdlərin nail olduqları nəticələrin keyfiyyətindən çox asılıdır.

N.Q.Dayri şəxsiyyətdə müstəqillik cəhətlərinin formalaşmasını əsaslandıraraq göstərir ki, şagirdlərin fəaliyyətində müstəqillik müxtəlif şəkildə üzə çıxır: tədrisin başlanğıc pilləsində, uşaqda müstəqilliyin ilk təzahürləri nəqletmə və təkrarlama şəklində ifadə olunur. Tədrisin bu pilləsi sanki yaradıcı fəaliyyəti hazırlayan mərhələdir. Həmin mərhələdən sonra uşaqda yaradıcılıq səyi qüvvətlənir. N.Q.Dayrinin irəli sürdüyü bu nəzəriyyə ilə tam razılaşmaq olmaz. Ona görə ki, müstəqil işin mahiyyəti birtərəfli işıqlandırılmışdır. Bu mülahizələrdən belə görünür ki, müstəqil işin mərhələləri nisbətliyinə N.Q.Dayri tərəfindən müstəqil işin növlərinin bir meyarı kimi baxılır. N.Q.Dayrinin müşahidələri müstəqil işləri təsnifatlaşdırmağa qadir deyildir. N.Q.Dayrinin özüdə təsdiq edərək göstərir ki, müstəqil və qeyri-müstəqillik arasındakı sədd oynaqdır, mürəkkəbdir.

R.Q.Mikelsona görə müstəqil iş müəllimin müşahidəsi altında və onun heç bir köməyi olmadan şagirdlərin tapşırığı yerinə yetirməsidir.

Göründüyü kimi R.M.Mikelson işlərin mahiyyətini xarici nöqtələrlə açmağa cəhd edirsə, E.Y.Qolant bu işdə şagirdlərin fəaliyyətinin strukturuna əsaslanır və haqlı olaraq göstərir ki, hər cür tapşırığı yerinə yetirərkən heç də müstəqil hərəkət etmək lazım deyil.

Müstəqillik anlayışı haqqında şagirdlərin elə bu fəaliyyəti başa düşülür ki, şagirdlər onu yerinə yetirdikdə maksimum fəallıq, yaradıcılıq, müstəqil mülahizə təşəbbüsü göstərilir.

Mövcud ədəbiyyatın araşdırılması və təhlili göstərir ki, müstəqil işin nisbətən dolğun tərifini B.P.Yesipov vermişdir. Yesipova görə müstəqil işin tərifi belədir: "Təlim prosesinə daxil edilən şagirdlərin müstəqil işi-bilavasitə müəllimin köməyi olmadan lakin onun tapşırığı ilə xüsusi ayrılmış vaxtda yerinə yetirilən işdir".

Müstəqil iş pedaqoq alimləri həmişə düşündürən tədqiqat obyekti olmuşdur. Müstəqil iş problemi üzrə geniş tədqiqat aparmış P.İ.Pidkasiştiy müstəqil işləri 4 növə bölür: 1) nümunə üzrə müstəqil işlər 2) rekonstruktiv müstəqil işlər 3) elmi anlayışların tətbiqinə xidmət edən variantiv müstəqil işlər 4) yaradıcı müstəqil işlər

Tarixi biliklərin verilməsi prosesində şagirdlərin müstəqil işlərinin təşkil edilərək və şagirdlərin bəzi psixoloji cəhətlərini və yaş xüsusiyyətlərinin nəzərə alınmasının çox böyük elmi-pedaqoji əhəmiyyəti vardır.

Müstəqil işlərin səmərəli təşkilinə nail olmaq üçün şagirdlərdə yadda saxlamanı təmin edən bütün tədbirlərin tətbiqinə diqqəti artırmaq lazımdır. Çünki ictimai-siyasi xarakterli mövzuların şüurlu mənimsənilməsi və yadda saxlanılması böyük diqqət və səy tələb edir. Müstəqil işlər yerinə yetirilərkən əldə edilmiş biliklərlə, yeni mənimsənilmiş biliklər tutuşdurulmalıdır.

KURS İŞLƏRİNİN YAZİLMASI ZAMANI HADİSƏLƏRİ MÜQAYİSƏ ETMƏK, ƏSASLANDIRMAQ BACARIĞININ FORMALAŞMASI

Əsədova G.M.

Sumqayıt Dövlət Universiteti

Ali məktəblərdə kurs və ya buraxılış işlərinin yazdırılmasında məqsəd tələbələrin elmi tədqiqat qabiliyyətinin inkişafına və yaradilmasına xidmət edir. Kurs və ya buraxılış işini işləyən tələbə istər istəməz bir sıra ədəbiyyatlardan istifadə edir və nəticədə eyni hadisəyə müxtəlif cür yanaşmalarla tanış olur. Buradan da tələbənin öz məntiqinə əsaslanaraq müxtəlif fikirləri təhlil etmək, müqayisəyə cəlb etmək bacarıqları formalaşır. Ən mühüm məntiqi əməliyyatlarından biri müqayisədən geniş istifadə etməkdir.

Müqayisədə təhlil hökmən iştirak edir, çünki tarixi hadisələrin müqayisə zamanı onların əlamətləri xüsusilə dürüst və tam şəkildə öz tərkib hissələrinə ayrılır və dərk edilir; eyni zamanda müqayisə sintez rolunu yerinə yetirir, çünki müqayisədə həmişə iki və daha artıq hadisə arasındakı əlaqələr müəyyən olunur.

Belə ki, orta əsrlər tarixi dövründən işlənən kurs işini işləyən tələbə müqayisə etmə üsulunun köməyi ilə orta əsrin müxtəlif dövrlərində baş vermiş antifeodal üsyanların və kəndli müharibələrinin ümumi xüsusiyyətlərini aşkara çıxarmağa cəhd edir. Kəndlilərin əsas mükəlləfiyyətlərinin müqayisəsi prosesində "biyar" və "töycü" anlayışlarının fərqli əlamətləri müəyyən edilir, sonra bu əlamətlərinin abstraklaşdırılması və ümumiləşdirilməsi zamanı "feodal mükəlləfiyyəti" qəbilə anlayışının müəyyənedici əlaməti ayrılır:

1.Feodal üçün asılı kəndlilər tərəfindən icbari işlərin yerinə yetirilməsi

2. Əşyalar və yaxud hadisələr bir ümumi əlamət üzrə, bir cəhətdən müqayisə edilir. Məsələn, əmək aləti, onlardan istifadə edilməsi əlamətinə görə. Əşyaları və hadisələri eyni zamanda bir neçə əlamətlərinə görə, müxtəlif cəhətlərdən (kompleks müqayisə) müqayisə etmək olar. Məsələn, zəhmətkeşlərin müxtəlif qruplarının vəziyyətini aşağıdakı cəhətdən müqayisə etmək olar: mülkiyyətin olmaması və yaxud olması, mülkiyyətin formaları, asılılığı, istismarın xarakteri və s. cəhətdən.

Müqayisənin məntiqi əməliyyatı ilə uyğun gələn müqayisənin tədris üsulu şagirdlərin zaman və məkan təsəvvürlərinin formalaşmasında, tarixi hadisələrin, əhvalatlarının, proseslərin mahiyyətini, səbəb və nəticələrini başa düşməyə imkan yaradır. İctimai inkişafın eyni cinsli proseslərinin səbəblərini, nəticələrini, əsas dövrlərini müqayisə etmək yolu ilə və müxtəlif ölkələrdə onların ümumi cəhətlərinin müəyyən edilməsi yolu ilə tələbə müəyyən qənaətə gəlir. Nəticədə mövzunun məzmununa və materialların asılılığına dair çoxlu misal toplamaq olar, lakin sözün həqiqi mənasında bu hələ elm demək deyildir. Əgər metodika inkişafın bu mərhələsində dayanmış olsaydı, o, ancaq ayrı-ayrı faktların toplayıcısı, asılılıqların qeydiyyatçısı, təsadüfi şeyi mühüm şeydən ayırmağı, nəzərə çarpan asılılığı izah etməyi və əsaslandırmağı bacarmağa qadir olmayan bir qeydiyyatçı olaraq qalardı. I.P.Pavlov yazırdı: "...çalışın ki, faktların səthində qalmayasınız. Faktların arxivariuslarına çevrilməyin. Onların yaranmasının sirrinə nüfuz etməyə çalışın. Onları idarə edən qanunları inadla axtarıb tapın".

Kurs işini işləyən tələbə müqayisə üsullarından müntəzəm surətdə istifadə edərək sonda məntiqi əməliyyatı getdikcə daha dürüst yerinə yetirmiş olur.

Tələbənin müqayisə priyomlarının formalaşdırılması üzrə aparılan işdə idrak təfəkkür fəaliyyətinin bəzi xüsusiyyətlərini hökmən nəzərə almaq lazımdır.

Kurs və ya buraxılış işinin işlənməsi zamanı tarixi hadisələri, əhvalatları, prosesləri müqayisə etmək bacarığı tələbələrdə əqli fəaliyyət üsulları əsasında formalaşır 1) hadisələrin müqayisə edilən əlamətlərinin tapılması; 2) müqayisə edilən mühüm əlamətlərin qeyri-mühüm əlamətlərdən ayrılması; 3) onların mühümlük dərəcəsi üzrə və mühüm əlamətdən asılı olaraq yerləşməsi və bu əsasda müqayisə planının tərtib edilməsi; 4) planda ayrılmış əlamətlərə görə hadisələrin ardıcıl müqayisəsi.

Nəticə olaraq deyə bilərik ki, kurs işlərinin yazılması zamanı hadisələri müqayisə etmək,əsaslandırmaq bacarığı formalaşmalıdır.

İXTİSAS ÜZRƏ TƏCRÜBƏ PROQRAMLARININ HƏYATA KEÇİRİLMƏSİ

Cəlalzadə B.M.
Sumqayıt Dövlət Universiteti

Ekspertlərdən biri demişdir: "İxtisas üzrə təcrübə proqramlarına olduqca az diqqət yetirilir. Halbuki müəllim peşəsinə yiyələnmiş tələbələr sonradan dönə-dönə qeyd edirlər ki, pedaqoji təhsil aldıqları

müddət ərzində onlar üçün ən qiymətli təcrübə tələbə kimi dərs demək olmuşdur". Aparılan tədqiqatlar ixtisas üzrə səmərəli təcrübə proqramlarının tərtib və tətbiq edilməsi sahəsində bir sıra ümumi problemlərin mövcud olduğunu müəyyənləşdirmişdir. Həmin problemlər aşağıdakılardır:

İxtisas üzrə təcrübə yerlərinin seçilməsinə lazımi diqqətin yetirilməsi. Çox zaman ixtisas üzrə təcrübə və ya praktikum yerləri yalnız praktikumda iştirak etmək arzusu əsasında seçilir. Bu amillərin mühümlüyünü qəbul etməklə yanaşı, ixtisas üzrə təcrübə yerlərinin seçilməsi hansı yerlərin daha yaxşı öyrənmə təcrübələrini təmin edə bilməsinə əsaslanmalıdır.

İxtisas üzrə təcrübə yerləri çox zaman təcrid olunmuş vəziyyətdə fəaliyyət göstərir. Bir çox təcrübə və ya praktikum yerlərində tələbə yalnız bir müəllimlə və bir qrup uşaqla işləyir. Ola bilər ki, dərs deyən tələbə heç məktəb rəhbərliyinə, digər müəllimlərə, kitabxana işçilərinə, katiblərə və texniki işçilərə təqdim olunmasın. Dərs deyən tələbə çox az hallarda məktəbin digər işçilərinin fəaliyyətini müşahidə etməyə və ya onlarla ünsiyyətə dəvət olunur. Yaxud da həmin tələbə, ümumiyyətlə, müəllimlərin hazırlanması üzrə proqram çərçivəsində öz təcrübələrini digər tələbələrlə və ya fakültə ilə bölüşməyə dəvət olunmur.

Təlimin sosial aspektləri üçün hazırlığın zəif olması. Müəllimlərin hazırlanması üzrə proqramlar tələbələri müəllim olduqları zaman onların daşımalı olacaqları hər cür məsuliyyətə az-az hallarda hazırlayır. Məsələn, dərs deyən tələbə əsasən dərs planını işləyib hazırlamaq və dərs demək üçün təcrübə keçdiyindən, ona məktəb idarəçiliyi işlərinin öhdəsindən necə gəlmək, işçilərin təcrübə qazanması işinə necə diqqət yetirmək və ya ailələrlə və cəmiyyətlə səmərəli qarşılıqlı münasibətləri necə qurmaq öyrədilmir. Bacarıqlı müəllim olmaq üçün bu vərdişlərə yiyələnmək tələb edilir.

Əməkdaşlıq edən əsas müəllimin fəaliyyətləri və ya onun tələbəyə məsləhət görə biləcəyi fəaliyyətlər üzərində düşünmək və onları əsaslandırmaq imkanlarının azlığı. Müəllimlərin hazırlanması üzrə proqramlarda yalnız sinifdə "nəyin səmərə verdiyi" deyil, həmçinin, dərs deyən tələbənin təcrübə üzərində düşünməsi yolları da öz əksini tapmalıdır. Əməkdaşlıq edən müəllim dərs deyən tələbəyə özünün unikal təlim üsullarını tapmaqda və təcrübədən keçirməkdə kömək etməyə görə əsas məsuliyyəti daşıyan şəxsdir. Bu işin yerinə yetirilməsi həm əməkdaşlıq edən müəllimdən, həmdə dərs deyən tələbədən sinifdəki əsas təlim fəaliyyətləri üzərində düşünməyi və onları əsaslandırmağı tələb edir.

Yuxarıda göstərilən problemləri yenilikçi yollarla həll edən müəllimlərin hazırlanması üzrə proqramların sayı getdikcə artmaqdadır. Nəticədə bu proqramların əsasında dərs deyən tələbələr üçün ixtisas üzrə daha əhəmiyyətli təcrübə proqramları yaradılmışdır. Müəllimlərin hazırlanması üzrə təkmil proqram yaxşı əlaqələndirilmiş və möhkəmləndirilmişelə konseptual və ya fəlsəfi əsasa malik olmalıdır ki, müəllimlərin hazırlanması üzrə bütün kursları bu əsas üzərində qurmaq mümkün olsun. Uğurlu proqramlarda belə bir cəhət qəbul olunurki, müəllimlər öz karyeralarına başladıqları zaman heç də hər şeyi bilmədiklərindən, müəllimlərin hazırlanmasının ən əsas diqqət yetirilməli cəhəti tələbələrə öz öyrənmə prosesini davam etdirmək və "düşünən praktiklər" olmaq arzusunu təlqin etməkdir. Con Devinin dediyi kimi, "biz birbaşa təcrübənin özündən daha çox təcrübə üzərində düşünmək nəticəsində öyrənirik". Yaradıcı düşünməyə meyl etməyən müəllimlər şablon davranışa əsaslanır və düşüncədən daha çox impuls, ənənə və inzibatçılıq əsasında hərəkət edirlər. Daimi öyrəncilər və yaradıcı düşünən müəllimlər isə, əksinə, məktəblərin məqsədlər, metodlar, problemlər və onların həllindən irəli gələn vəzifələri tənqidi şəkildə tədqiq edirlər ki, özlərinin təlim üslubuna və xüsusi dərs otaqlarının tələbələrinə daha çox uyğun gələn düşünülmüş yollarla hərəkət edə bilsinlər.

ERMƏNİ İŞĞALI ZAMANI DAĞIDILMIŞ MUZEYLƏRİMİZ

Talıbov N.M.
Sumqayıt Dövlət Universiteti

Muzeylər tarixi, maddi və mənəvi dəyərlərin saxlandığı, qorunduğu, öyrənildiyi və xalqa nümayiş olunduğu müəssisədir. Tariximizin daha dərindən öyrənilməsində muzeylərin əhəmiyyəti böyükdür. Ölkəmizdə müxtəlif növlü muzeylər mövcuddur. Tarix və diyarşünaslıq müzeylərinin bir çoxu erməni işğalına məruz qalmış və nəticədə tamamilə dağıdılmışdır. Bunlardan biri də Laçın rayon tarix və diyarşünaslıq muzeyidir. Muzeyin yerləşdiyi bina tarix və mədəniyyət abidəsi kimi qiymətləndirilirdi. Bu bina Sovet Hakimiyyətinin ilk illərində Pedoqoji Texnikom üçün nəzərdə tutulsada sonralar burada şəhər VIII illik məktəb kimi də fəaliyyət göstərmişdir. Müzeyin ümumi sahəsi 1200 kv/metr-dən çox idi. Müzey bir dəhlizdən, 24 otaqdan, 1 nümayiş salonundan və 72kv/metrlik bir fonddan ibarət idi. Muzeyin

həyətində müxtəlif əsrlərdə hazırlanmış bədii daş nümunələri, sujetli oymalar, at və qoç heykəlləri və bir çox məişət əşyalar açıq havada nümayiş etdirilirdi.

1983-cü ildən 1992-ci ilə qədər muzey tərəfindən geniş şəkildə ekspoziyalar təşkil olundu. Muzeyin əsas fondunda 5 mindən artıq eksponatlar toplandı. Yardımçı fondla birlikdə muzeydə ümumilikdə 10 minə yaxın əşya olmuşdur. 1989-cu ildə Laçın Tarix-Diyarşünaslıq Muzeyi Ümumittifaq Muzeylərə baxış müsabiqəsində qalib seçilmiş və direktoru ilə birgə xüsusi medalla təltif olunub. 1992-ci ildə Laçın rayonu işğal olunarkən muzeyin eksponatlarını çıxarmaq mümkün olmayıb.

Kəlbəcər tarix və diyarşünaslıq muzeyi Azərbaycanın Kəlbəcər rayonunda 1982-ci ilin sentyabrında yaradılmışdı. İşğal olunmuş muzeylər içərisində yüksək bədii və tarixi səciyyə daşıyan eksponatlarla zəngin olan ən əhəmiyyətli muzeylərdən biri idi.

Kəlbəcər tarix diyarşünaslıq muzeyində geologiya, arxeologiya, maddi-mədəniyyət, incəsənət əşyaları toplanmışdı. Muzeyin çöl divarlarını 2 mindən artıq müxtəlif rəng çalarlarına malik olan daşlar bəzəyirdi. Muzeyin həyəti 900 kv. metrdən artıq sahəni tuturdu. Burada nadir ağac və bitki nümunələri, müxtəlif qaya təsvirləri, qoç və at fiqurları arxeoloji əhəmiyyət daşıyan nümunələr toplanmışdı. Muzey ekspozisiyası koridor, üç kabinet və doqquz nümayiş salonunda cəmləşmişdi. Muzeyin fondunda 30-mindən artıq eksponat saxlanılırdı. Muzeydə Qanlıkənd istiqamətində yerləşən məşhur Lök qalasının maketi, Kəlbəcər dağlarında yaşayan bir çox vəhşi heyvanın müqəvvası, 150 milyon il yaşı olan, Tərtərçay qumluğunda aşkar edilmiş daşlaşmış ilbiz nümunələri, ibtidai icma quruluşu dövrünə aid olan oxlar, biçaqlar, baltalar, dəmir nizə ucluqları və s. nümayiş etdirilirdi.

Muzeydə 1986-cı ildə 147 yaşında vəfat etmiş və vaxtılə aşıq Ələskərin adına söz qoşduğu kəlbəcərli Güləndamın şəkli, onun şəxsən toxuduğu 100-dən artıq gəbə və kilim saxlanılırdı. Vaxtılə keçmiş SSRİ EA-nin müxbir üzvü Aleksey Makaruşev Kəlbəcərdə olarkən, bu muzey haqqında belə demişdi: "Bu, dünyanın yeganə muzeyidir ki, burada səbrlə bütün dağ süxurlarının nümunələri toplanmışdır."

Kəlbəcər tarix-diyarşünaslıq muzeyi 1993-cü ilin aprel ayına qədər fəaliyyət göstərmiş, sonra isə Ermənistan ordusu tərəfindən məhv edilmişdir. Onun eksponatlarının böyük əksəriyyətini xilas etmək mümkün olmamışdır.

Şuşa Tarix Muzeyi 1967-ci ildə yaradılıb. Muzey ilk dəfə Qarabağ xanlığı dövründə yaşamış Azərbaycan şairi Molla Pənah Vaqifin illustrasiyalarını əks etdirən sərgi ilə fəaliyyətə başlayıb. Bir il ərzində muzey eksponatların toplanması işini həyata keçirib və 1968-ci ildən sərgilər təşkil olunub. Şuşa Tarix Muzeyi şəhərin mərkəzində yerləşən Gövhər Ağa Məscidində fəaliyyət göstərib. 1989-cu ildə muzey bu binadan köcürülüb və eksponatlar Şuşa Tarix Muzeyinin Fonduna verilib. Həmin dövrdə Ermənistanın Qarabağ torpaqlarına qarşı əsassız iddiaları fonunda baş verən hadisələr nəticəsində muzeyə yeni bina verilməyib və demək olar ki, muzey fəaliyyətini dayandırıb. 1992-ci ildə Şuşanin ermənilər tərəfindən işgal edilməsindən sonra muzey rəhbərliyi Bakıda fəaliyyətini qurmaq istəsə də, buna nail olmayıb. Şuşa Tarix Muzeyində XX əsrə qədər dövrləri əhatə edən müxtəlif əşyalar, ləvazimatlar daxil olmaqla 5 mindən yuxarı eksponat olub. Eksponatların bir hissəsini Şuşada aparılan arxeoloji qazıntılar nəticəsində tapılan əşyalar təşkil edib. Eyni zamanda gil, gümüş və misdən eksponatlar yer alıb. Muzeydə həmçinin xalçaçı-rəssam Lətif Kərimov, rəssam Əmir Kərimov, bəstəkar Süleyman Ələsgərov və bütövlükdə Şuşadan olan elm, mədəniyyət və digər sahələrdə tanınan insanlara məxsus əşyalar saxlanılıb. Şuşa Tarix Muzeyinin Fondunun müdiri Mehriban Haciyevanın verdiyi məlumata görə, Qarabağ müharibəsi gedən dövrdə eksponatların köçürülməsi ilə bağlı Mədəniyyət Nazirliyinə, Nazirlər Sovetinə müraciət olunub. Lakin həmin qurumlar eksponatların köçürüləcəyi halda əhali arasında təşviş yaranacagını əsas gətirərək, bundan imtina edib. Şahid ifadələrinə görə, Şuşa işgal olunan gün ermənilərin artilleriya hücumu nəticəsində Şuşa Tarix Muzeyinin eksponatlarının saxlandığı Şuşa Tarix Muzeyinin Fondu dagılıb və eksponatlar məhv olub. Muzey bu gün fəaliyyətini tam dayandırıb. Xatırladaq ki, Şuşada Qarabağ Tarix Muzeyi, Natəvan adına Əlyazmalar Fondu, Bülbülün Ev Muzeyi, Şuşa qalasının Gəncə divarının yanında Daş Muzeyi, Mir Mövsüm Nəvvabın Ev Muzeyi, Üzeyir bəy Hacıbəylinin Ev Muzeyi də fəaliyyət göstərib.

Füzuli Tarix Diyarşünaslıq Muzeyi 1982-ci ildə yaradılmışdır. Muzeydə Füzuli rayonunun təbiətini və tarixinin əks etdirən 9 mindən çox eksponat toplanılmışdır. 1993- cü il iyul- avqust aylarında, rayonun erməni işğalına məruz qaldığı bir vaxtda, muzey eksponatlarının 7 minə yaxını çıxarılaraq Bakıda "İstiqlal" muzeyinə yerləşdirilmişdir. Muzeyin yaradıcısı və ilk direktoru tarix elmləri namizədi Bəhram Məmmədlidir.

Göründüyü kimi erməni işğalı Azərbaycana həm maddi həm də mənəvi cəhətdən ölçüyəgəlməz dərəcədə ziyan vurmuşdur. Şəhərlərimiz yandırılmış, insanlarımız öldürülmüş, tarixi abidələrimiz, muzeylərimiz dağıdılmışdır. Erməni işğalı zamanı tarix və diyarşünaslıq muzeylərinin dağıdılaraq məhv edilməsi həm də Azərbaycanın tarixinə qarşı bir hücum oldu.

SİFƏTİN TƏDRİSİNDƏ MÜASİR TƏLİM TEXNOLİGİYALARINDAN İSTİFADƏ

Muradlı Ç.M.
Sumqayıt Dövlət Universiteti

Hər bir müəllimin əsas və başlıca vəzifəsi Azərbaycan dili dərslərində ana dilimizi mükəmməl öyrətməkdir. Təhsildə müəyyən islahatların aparılması, dərsliklərin dəyişdirilməsi və təkmilləşdirilməsi ana dili müəllimini əsas məqsədindən yayındıra bilməz. Azərbaycan Respublikası Təhsil Nazirliyi Heydər Əliyevin təhsilə, tədrisi daha da yaxşılaşdırmaq ücün mükəmməl proqram və dərsliklərin tərtibi ilə əlaqədar tövsiyələrini, xüsusən, "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirməsi haqqında" tarixi fərmanını rəhbər tutaraq bu məqsədlə çox mühüm tədbirlər planı hazırlayıb həyata keçirməyə başladı.

Bu gün tam əminliklə deyə bilərik ki, kurikulum uğurlarımızın açarıdır. 2006-cı ildən Azərbaycan təhsil sahəsində həyata keçirilən islahatlardan biri də Milli kurikulum konsepsiyası oldu. Bildiyimiz kimi, müasir kurikulum şəxsiyyətyönümlü, şagirdyönümlü, nəticəyönümlü və tələbyönümlü cəhətləri ilə secilir. Bu cəhətlər şagirdin idraki, ünsiyyəti, həyati bacarıqlarını inkişaf etdirməklə onlarda milli və bəşəri dəyərləri formalaşdırır. Təhsil alanın istedad və qabiliyyətinin,potensial imkanlarının inkişafına xidmət edir. Eyni zamanda təhsilin məzmun və komponentlərini bir-biri ilə, həyatla sistemli şəkildə əlaqələndirilməsidir.

"Fəal təlim "(interaktiv) "Ənənəvi təlimdən" fərqli olaraq hafizəyə (yaddaşa) yox, təfəkkürə,monoloji təlimə deyil, dioloji təlimə əsaslanır. Bu baxımdan da şagirdlər bütün dərs zamanı fəaldır, biliklərin yaradıcı tətbiqi şəkildə keçirilməsi xoşagələn cəhətlərdəndir.

Bir neçə ildir ki, təhsil islahatı Azərbaycanda uğurla həyata keçirilir. Artıq ümum təhsil məktəblərinin I-VII sinifləri kurikulum əsasında hazırlanan proqram və dərsliklər əsasında işləyirlər.

ALTSTANDART : 4.1. Dil qaydalarını mənimsədiyini nümayiş etdirir.

4.1.2. Sözün qrammatik mənasını kontekstə uyğun izah edir.

MÖVZU : Sifət bəhsinin ümumi təkrarı.

NƏTİCƏ : Sözün qrammatik mənasını müəyyənləşdirir. Əsas nitqhissələrinin yazılışı ilə bağlı qaydalara əməl edir.

İŞ FORMASI : Qruplarla iş, fərdi iş.

İNTEQRASİYA : Məntiq, ədəbiyyat və fəndaxili (isim, sifət) əlaqə.

ÜSULLAR : Açıq suallar, Venn diaqramı

RESURSLAR : Kompyuter, proyektor, işvərəqləri.

MOTİVASİYA: Sinif qruplara bölünür (I, II, III və IV qrup). Sonra motivasiya yaratmaq üçün əvvəlcədən hazırladığım, tərkibində çoxlu sifətlər olan maraqlı bir mətni monitorda nümayiş etdirirəm. Mətndəki sifətlər üstüörtülü şəkildə verilir. Şagirdlərdən mətni oxumalarını tələb edirəm. Sonra şagirdlərdən üstüörtülü sözlərin hansı nitq hissəsi ola biləcəyini mətnə əsasən müəyyənləşdirməyi tapşırıram. Şagirdlər belə bir nəticəyə gəlirlərki, mətndə üstü örtülən sözlər məhz sifərlərdir.

Motivasiya:

Bir ****** ərəb ölüm ayağında idi. O, oğlanlarını yanına çağırıb son vəsiyyətini bildirir: "Mən sizə**** ad qoyub gedirəm. Çalışın, mənim ***** adımı axıra kimi qoruya biləsiniz". Qoca bu sözləri deyib gözlərini yumur.

Tədqiqat sualı : Sifətin dilimizdə rolu nədən ibarətdir?

Tədqiqatın aparılması: Tədqiqatın birinci mərhələsində qruplar öz aralarında inanıb etibar etdikləri bir lider seçib lövhəyə göndərirlər. Monitorda sifət bəhsinə aid müxtəlif test nümunələri görünür. Liderlər növbə ilə testləri oxuyur və cavablandırırlar.

Bundan sonra hər qrupa tapşırıqlar təqdim edirəm. Bu tapşırıqlar cədvəldə işlənilir və uşaqlar bir-bir təqdimatlarını edirlər.

Birinciqrup: Say vəsifətimüqayisəedin.

İkinci qrup : Sifət və ismi müqayisə edin.

Üçüncü qrup : Sifət və əvəzliyi müqayisə edin.

Dördüncü qrup: Sifətin əsas xüsusiyyətlərini müəyyənləşdirin.

Növbəti slaydda şagirdlərə şəkil nümayiş etdirilir. Birinci qrup – şəklə baxıb əlamət bildirən sifətlərə aid cümlələr qururlar. İkinci qrup keyfiyyət bildirən sifətlərə aid,üçüncü qrup azaltma dərəcəsinə aid, dördüncü qrupa isə çoxaltma dərəcəsinə aid cümlələr yazmaq tapşırılır. Sonunda qruplar təqdimatlarını edirlər.

Bundan sonra sifətin morfoloji təhlilinin necə aparılmasına aid bir nümunə göstərirəm və qruplara tapşırıq verirəm ki, əvvəl qurduqları cümlələrdəki sifətləri morfoloji təhlil etsinlər.

MƏLUMAT MÜBADİLƏSİ. Təqdimatların ardıcıl aparılması diqqətlə izlənilir.

NƏTİCƏLƏRİN ÇIXARILMASI :

- Şagirdlər sözün qrammatik mənasını müəyyənləşdirir;
- əsas nitq hissələrinin yazılışı ilə bağlı qaydalara əməl edirlər.

YARADICI TƏTBİQETMƏ: Ədəbiyyat dərsliyindən tərkibində sifətlər işlənən mətn yazmaq, oradan sifətləri seçib, morfoloji təhlil etmək.

Dərsin sonunda hər qrup üçün hazırlanmış meyar cədvəlində bütün mərhələdə qrupların aldığı qiymətlər müvafiq işarələrlə göstərilir və şagirdlərin fəallığı qeyd edilir.

TARİXDƏN EKSKURSİYALARIN TƏŞKİLİ VƏ ONLARIN METODİKASI

Hüseynova P.S.
Sumqayıt Dövlət Universiteti

Pedaqoji ensiklopediya qeyd edir ki, ekskursiya - bu şagirdlərdə tədris - tərbiyəvi işinin adi ,təbii şəraitdə və ya muzeylərdən və s.müxtəlif predmet və hadisələrin öyrənilməsini təşkil etməyə imkan verən forma və metoddur.

Tarix dərsində tarix üzrə ümumi tədris ekskursiyası , həmçinin ekskursiyaların başqa növləri , hər şeydən əvvəl onların məqsədlərində əks olunur. Tarix şagirdlərin elmi dünyagörüşlərinin formalaşmasına motiv yaradır.Ekskursiya əyaniliyi göstərir.Şagirdlərin idrak fəaliyyətinin spesifikası və götürmə emosionallıqları bununla təyin olunur.Tarixi keçmişin bilavasitə mənimsənilməsi və keçmişin predmetləri və indiki həqiqətlərin aktiv dərk edilməsi tədris ekskursiyasının mahiyyətini təşkil edir.

Tədris ekskursiyasının pedoqoji imkanları nədən ibarətdir ? O anlayışları konkretləşdirir, parlaq və bədii təsəvvürlərin yaradılmasına kömək edir, tarixi biliklərin müxtəlif mənbələrini cəlb etməyə, ən yaxşı üsulla öyrənilən hadisə və prosesləri canlandırmağa,keçmişi bərpa etməyə imkan verir.Tədris ekskursiyası şagirdlərin düşüncə və təxəyyülünün inkişafına imkan yaradır, onların idrak fəaliyyətini aktivləşdirir və müəyyən edir, tarixə maraq oyadır və inkişaf etdirir, həyatla əlaqəni həyata keçirir və nəticədə məktəblilərin mənəvi tərbiyəsinin formalaşmasına motiv yaradır, onların dünyagörüşlərinin genişlənməsinə, intellektlərin inkişafına xidmət edir və əmək, hərbi - vətənpərvərlik, estetik tərbiyəvi məsələlərini həll edir.

Tarix ekskursiyası dərsdənkənar ekskursiyadan fərqlənir :

a) məktəb proqramının əsasında keçirilir və tez - tez anoloji mövzu ilə sinifdə dərsi əvəz edir.

b) şagirdlər üçün məcburidir və bütün sinfi əhatə edir.

Tədris ekskursiyasını adətən ekskursovod deyil , müəllim keçirir.

Hal - hazırda məktəblərdə yüzlərlə diyarşünaslıq və tarix muzeyləri yaradılmışdır.Onlarda sinifdə dərsin keçirilməsinin bütün tələblərinə cavab verə bilən təlim keçirilə bilər - biliklərin yoxlanılması, dəftərlərdə qeydlər və s.Bu şagirdlərin muzeydə rahat yerləşdirilməsi nəticəsində mümkün ola bilər.Amma həmişə muzeydə keçirilən dərs məqsədəuyğundur, yalnız zəngin ekspozisiya materialları olduqda və həmdə sinfə gətirilı bilməyən ekspozisiya materialı olduqda daha məqsədəuyğun olur.

Tarix dərslərində tədris ekskuriyalarının formaları :

Təlim ekskursiyaları ekskursiya obyektinin xarakterindən asılı olaraq bir neçə formaya bölünə bilər.

a) muzey b) tarixi hadisələrin yerləri c)tarixi - mədəni abidələr d) müasir yerlər və s.

Didaktik məqsədinə və təlim prosesində yerinə görə təlim ekskursiyaları aşağıdakı növlərdə ola bilər.

Təlim ekskursiyalarının səmərəli təşkilinin metodik şərtləri aşağıdakılardır :

Tədris ekskursiyalarının effektiv keçirilməsinin metodik şərtlərinə tarix dərsinə verilən tələblər də aid ola bilər . V - XI siniflərdə tarix üzrə keçirilən tədris ekskursiyalarının bir neçə vacib metodlarının üstündə dayanaq.

Tədris ekskursiyası şagirdlərin xüsusi hazırlığını tələb edir.Müəllim əvvəlcədən siniflə ekskursiyanın mövzusu, yeri vaxtı haqqında müsahibə keçirir, qısa olaraq obyektin özəllikləri haqqında məlumat verir.

1. Şagirdlərin təfəkküründün inkişafının əsas tələbi ekskursiyada onların qarşısında düşünülmüş məsələlərin qoyulmasıdır (həm kollektiv , həm də fərdi). Şifahi və yazılı məlumat hazırlamaq , rəsm , şəkil çəkmək , həmçinin bülleten albom hazırlamaq , təşkil etmək və s.

Tapşırıq tarixi abidənin xüsusi "dilinin " başa düşülməsini formalaşdırılmalıdır.Həmçinin abidə , sənəd , hər hansı tarixi mənbə öz - özünə deyil , hər hansı tarixi hadisə əsasında proseslərin inkişafı kimi yaranır. Eksponatlardan hansı daha çox təəssürat yaratdı ? Ekskursuya dərsində ən çox nə yadda qaldı ? Dərsliklə müqayisədə siz yeni nə öyrəndiniz ? Hansı eksponatlar hadisə , təzahür insanlar haqqında daha aydın təsəvvür yaradır ? Sizin keçmiş haqqında düşüncələriniz ekskursiya dərsindən sonra necə dəyişdi ? Ekskursiya dərsində siz hansı tarixi mənbələrlə tanış oldunuz ? Gördüyünüz eksponatların " dilinin " öz ahəngi nədir ?

2. Bir çox hallarda ekskursiyanı ekskursovod keçirir , amma müəllim də ona hazırlaşmalıdır. Əgər ekskursiyanı müəllim aparsa , ekspozisiyanı öyrənir ,eksponatların fərdi xüsusiyyətlərini mənimsəyir , ətraflı təhlil üçün bir neçə obyekt seçir.

3. Müsahibə zamanı , müəllim ekskursiya obyektlərinin , materialının mənimsənilməsinə nail olmalıdır.Bu müsahbənin xarakteri müxtəlif ola bilər : bir halda əyani obyektlər bilikləri təyin edən mənbə kimi çıxış edir.Digər halda isə aparıcı rolu müsahibə tutur , əyani obyektlər isə bədii , sənədli dayaq rolunu oynayır. Təlim ekskursiysı şagirdlərin yalnız əyani təsəvvürlərlə yüklənməsi ilə məhdudlaşmır , onun gedişində xarici obyektin təsvirini və hadisənin mahiyyətinin açılmasını , onun qanunauyğunluqlarını birləşdirilməlidir.

Nəzəri material əyani obyektlərin mənimsənilməsini aktivləşdirir , onların mahiyyətini anlamağa kömək edir.Eyni zamanda zəruri tarixi təsəvvürlərin yaradılmasına , mürəkkəb anlayışları mənimsəməyə , ümumiləşdirilmiş biliklər əldə etməyə imkan yaradır.

Müəllim (və ya bələdçi) şagirdləri abidələri , eksponatları oxumağı və görməyi öyrətməlidir. Onların spesifikasını başa salmaq müəllimin fəaliyyətinin məcburi vəzifəsidir. Ekskursiyada həmçinin keçmişin şifahi canlandırılması obyekti onun ilk görüşündə təsvir etmək , dövr haqqında parlaq müsahibə ilə ayrı - ayrılıqda eksponatları bağlamaq , insanlar , onların əhval - ruhiyyələri , zövqləri , adət - ənənələrini qeyd etmək çox vacib və əhəmiyyətlidir.

MÜƏLLİM-ŞAGİRD MÜNASİBƏTLƏRİNİN PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

Nəbiyeva H.A.
Azərbaycan Müəllimlər İnstitutu

Pedaqoji fəaliyyətin psixoloji məzmununu təhlil edəndə onun ana xətti (vektoru) kimi "müəllim-şagird" münasibətlərini ayırd edirlər. Müəllim də, şagird də konvensial roldur. Özlərinin rol repertuarlarına görə onlar müxtəlif adamlarla bağlıdırlar. Bu kökdə də müəllim və şagirdlərin münasibətləri şaxələnir: "müəllim-müəllim", "müəllim-valideynlər", "şagird-şagird", "şagird-valideynlər" və s. tipli münasibətlər şəbəkəsi nə qədər çoxcəhətli olursa-olsun, onların mürəkkəb kontiniumunda mərkəzi, sistem təşkiledici münasibətlər "müəllim-şagird" münasibətləri sayılır. Pedaqoji ünsiyyət məkanında müəllim-şagird tərəfi-əməkdaş kimi müəyyən rol gözləmələri və normativləri ilə bir-biri ilə bağlıdırlar. Bəzi müəlliflərin qeyd etdikləri kimi, müəllimin şagirdlərə münasibətini, şagirdlərin isə müəllimə münasibətini nəzərə almadan onların ünsiyyətini psixoloji baxımdan açıqlamaq mümkün deyil.

"Müəllim" anlayışı ancaq şagirdlərə münasibət, "şagird" anlayışı isə yalnız müəllimə münasibət kontekstində özünün əsl mənasını kəsb edir. Müəllim şagird şəxsiyyətini inkişaf etdirmək və sinif kollektivini təşkil etmək üçün onları hərtəfli öyrənmək qabiliyyətinə malik olmalıdır. Müəllimin, sinif rəhbərinin öz şagirdlərini, sinif kollektivini, hər bir şagirdin xarakteristikasını, şagirdin kollektivə münasibətini, şəxsiyyətin istiqamətini, şagirdin müəyyən fəaliyyət növündə iştirakı kimi məsələləri daima diqqət mərkəzində saxlaması olduqca vacibdir.

Şagirdlərlə ətrafdakılar arasındakı münasibətlər bəzən öz əhəmiyyətinə görə birinci və ikincili münasibətlərə ayrılır. Birincili münasibətlərə "müəllim-şagird", "müəllim-şagird-valideyn", "şagird-valideyn", "şagird-şagird", "şagird-referent" qrup kimi münasibətlər; ikincili münasibətlərə isə şagirdin sinifdənkənar mühitlə, ictimai təşkilatlarla münasibətlər aid edilir. Bu bölgüyə əsasən kiçik məktəblilərin müəllim və həmyaşıdları ilə münasibətləri birincili münasibətlərə aid edilir. Məktəbdə "müəllim-şagird" münasibətləri "insan-insan" münasibətləri olduğuna görə, onlar "subyekt-subyekt" münasibətləri kimi əmələ gəlir və bu zəmində psixoloji baxımdan inkişaf edə bilər.

Şagirdlərin şəxsiyyətinin inkişafını şərtləndirən müxtəlif amillər içərisində onların müəəllimlərlə münasibəti xüsusi yer tutur. Müəllimlə şagirdin bir-biri ilə qarşılıqlı təsiri şəxsiyyətin formalaşmasının mühüm bir mərhələ təsadüf edir.

Müasir təhsil konsepsiyası müəllimin şagirdlərlə qarşılıqlı münasibətlərinin inkişafı baxımından kommunikativ qabiliyyətləri və bilavasitə onunla bağlı olan qabiliyyətləri-perseptiv və ekspressiv qabiliyyətləri önəmli sayır.

Müəllim-şagird şəxsiyyətini inkişaf etdirmək və sinif kollektivinin təşkili üçün aşağıdakı pedaqoji prinsiplərə riayət edilməlidir:

1. Şagird şəxsiyyətinə hörmət etməli, onun ləyaqətini qorumalıdır.
2. Şagirdin fikri müəllimin fikri ilə uzlaşsa da müəllim səbr və təmkinlə qulaq asmalı, şagirdin mülahizəsinin səhv olduğunu sübut etməlidir.
3. Uşağın yaradıcı fəaliyyətini inkişaf etdirməli, hər birinə öz gücünə müvagiq tələblər verməlidir.
4. Şagird şəxsiyyətini alçaldan hər cür tədbirdən uzaq olmalıdır.
5. Şagirdləri başqalarının dərdinə, sevincinə şərik olmağa öyrətmək ruhunda tərbiyə etməlidir. Fiziki cəhətdən qüsurlu olan uşaqlara qayğı ilə yanaşmalıdır və s.

Müəllim həmişə və hər yerdə öz şagirdlərinin ləyaqət hissinə hörmət etməli, onlarda bu hissin daha da inkişaf edib formalaşdırılmasına kömək göstərməlidir. O, hər bir şagirdi inkişaf edən və özünəməxsus fərdi xüsusiyyətlərə malik olan şəxsiyyət kimi görməlidir:

* Müəllim öz şagirdlərinə dərin hörmət və inam bəsləməli, səmimi qəlbdən sevməli, mənəvi dünyası ilə ehtiyatla davranmalıdır. Çünki məktəbdə mövcud olan əxlaqi münasibətlər, bilavasitə şagird-müəllim qarşılıqlı münasibətlərindən yaranır;

* Ədalətli olmaq: istər təlim prosesində, istərsə də tərbiyə prosesində. Şagird-müəllim qarşılıqlı münasibətində, şagirdlərin müəllimi şəxsiyyət kimi xarakterizə etdikləri zaman ən çox və ən yüksək qiymətləndirdiklərini keyfiyyət məhz budur;

* Müəllim şagirdə qarşı tələbkar olmalıdır. Onun tələbkarlığı qayğıkeşliklə, qarşılıqlı hörmətlə üzvi surətdə bağlı olmalı və şagirdlər tərəfindən başa düşülməlidir. Müəllim öz tələblərində yaşa və qabiliyyətə uyğunluq prinsipini gözləməlidir.

O, heç vaxt şagirdlərin kor-koranə şəkildə tələblərini yerinə yetirməsinə yol verilməməlidir. Uşaqların başqa adamlarla münasibətində qul itaətkarlığına qarşı da mübarizə aparmalıdır. Müəllim həmçinin şagirdlərdə özünə tələbkarlıq və özünütənqid kimi keyfiyyətlər tərbiyə etməlidir;

* Həssaslıq, səmimilik, uşaq sevincinə şərik olmaq və qayğısına qalmaq. Bunlar müəllimin yüksək mənəvi keyfiyyətlərindəndir və onun qarşılıqlı münasibətlərinin norma və qaydalarını müəyyən edir. Şagirdlərlə münasibətdə olarkən hər şey səmimi olmalıdır;

* Çətin anlarda şagirdə kömək etmək, müəllim-şagird münasibətlərini nizama salan mühüm əxlaq normalarından hesab olunur. Müəllim şagirdə təmənnasız şəkildə kömək göstərməli və ona dayaq olmalıdır;

* Müəllim öz şagirdlərinə, yoldaşlarına, valideynlərinə, vətən qayğısına qalmağı qyrətməli və onları bu ruhda tərbiyə etməlidir. O, həmçinin öz şagirdlərinə çöyüklərə hörmət etməyi, onların sözlərinə, məsləhətlərinə qulaq asıb əməl etməyi öyrətməlidir;

* Müəllim şagird kollektivinin də rəy və təklifləri ilə hesablaşmalı və nəzərə almalıdır. Şagirdlərin hədə-qorxu ilə, qışqırmaqla, danlamaqla və s. kimi neqativ təsirlərlə "fəallaşdırılmasına" cəhd göstərməməlidir;

* Müəllim şagirdə müraciət zamanı heç vaxt onun fizionomiyasını, xarakterik keyfiyyətini, xüsusiyyətini, tipik davranış tərzini əks etdirən sözlərlə ad qoymamalı və bu adlarla ona müraciət etməməlidir;

* Müəllim hər bir şagirdin davranışını, təlimə münasibətini diqqətlə öyrənməli və onun motivini müəyyənləşdirməlidir;

* Müəllim heç bir vaxt şagirdlərə qarşı "ögey-doğma" münasibət bəslə- məməlidir. Müəllimdə şagirdin düzgün olmayan davranışına görə yaranan qəzəb ona qarşı nifrətə çevrilməməlidir;

* Müəllim istər təlim prosesində, istərsə də tərbiyə işində hökmən şagirdlərinin yaş və fərdi xüsusiyyətlərini nəəzərə almalıdır;

* Müəllim öz şagirdlərinin müsbət və mənfi cəhətlərini görməyi bacarmalı, biribcilərin daha da inkişaf etdirilməsi qayğısına qalmalı, ikincilərin isə aradan qaldırılmasına çalışmalıdır;

* Müəllim təlim-tərbiyə prosesini elə təşkil etməlidir ki, hər bir yeni dərs, keçmiş dərsin davamı olsun və onu tamamlasın. Hər yeni tərbiyəvi təsir şagird şəxsiyyətinin hərtərəfli inkişafında yeni bir pillə olsun. Əgər belə olarsa, şagird həmişə yeni dərsi, müəllimi dərin maraqla və səbirsizliklə gözləyəcəkdir.

* Ədalətsizliyə, yalana, laqeydliyə, riyakarlığa və digər mənfi əxlaqi keyfiyyətlərə qarşı mübarizə aparmaq, müəllimin şagirdlərə verdiyi öyüd-nəsihət səviyyəsində qalmaqla, quru sözlərdən ibarət olmamalıdır.Belə mənfi keyfiyyətlərə qarşı mübarizə aparmaq, onun fəaliyyətinə, həyat tərzinin özünə sirayət etməlidir. Müəllimin mənəviyyatı, onun dünyagörüşü və digər əxlaqi-mənəvi keyfiyyətləri şagird üçün aydın olmalıdır. Yəni o, şagird qarşısında deyilən kimi də olmalıdır. Söz ilə əməl birliyi müəllimlik peşəsinə verilən əsas tələblərdən hesab olunur.Bu tələbə əməl edən müəllim, sözün əsl mənasında, şagirdlərinin sevimlisinə çevrilə bilər.

* Şagirdlərlə ünsiyyətdə olarkən müəllim özünəməxsus ünsiyyət üslubuna yiyələnməlidir. O, heç kimin üslubunu təqlid etməməlidir. Fərdi pedaqoji ünsiyyət üslubu yaratmadan müəllim öz pedaqoji fəaliyyətini, qarşısında duran vəzifələri lazımi şəkildə həyata keçirə bilməz;

* Müəllim şagirdlərlə qarşılıqlı münasibətdə olarkən, onların yaş, cins və fərdi xüsusiyyətlərini hökmən nəzərə almalıdır;

* Müəllim öz şagirdlərini elə ruhda tərbiyə etməlidir ki, onlar azad böyüsünlər, taleyin hökmünə boyun əymək, kor-koranə şəkildə tabe olmaq, özündən böyüklərin tapşırıqlarını itaətkarlıqla icra etməkdən, ümumiyyətlə, qul psixologiyasından uzaq olsunlar.

Beləliklə, müəllim həmişə fəal, yaradıcı şəxsiyyətdir. Sinif və şagird (tələbə) kollektivi kimi mürəkkəb orqanizmə pedaqoji rəhbərliyi həyata keçirmək üçün müəllim inadlı, qətiyyətli olmalı, hər hansı bir situasiyanı müstəqil həll etməyə hazır olmalıdır. Dözümlülük, özünü ələ ala bilmək müəllim peşəsi üçün zəruri olan keyfiyyətlərdəndir. Peşəkar müəllim ən gözlənilməz hallarda təlim-tərbiyə prosesində öz aparıcı mövqeyini saxlamağı bacarmalıdır.

YENİYETMƏLƏRİN CİNSİ-YAŞ XÜSUSİYYƏTLƏRİNİN NƏZƏRƏ ALINMASI

Xosrovova N.B.
Azərbaycan Müəllimlər İnstitutu

Cinsi dimorfizmin-cinslər arasında morfoloji, fizioloji və psixoloji şərtlərin formalaşması zəminində oğlan və qızlarda cinsi xüsusiyyətlər əmələ gəlir. Onlar insanın ümumi somatik xarakteristikasından tutmuş motivasiya sahəsinə qədər müxtəlif səviyyələrdə özünü göstərir. cinsi xüsusiyyətlər yeniyetmələrin yaş xüsusiyyətləri ilə vəhdətdə təzahür edir.

Yaş xüsusiyyətləri yeniyetmələrin hamısı üçün eyni dərəcədə səciyyəvi olan xüsusiyyətlərdir. cinsi xüsusiyyətlər isə dixotomik xarakrer daşıyır: onlar ya oğlanlar, ya da qızlar üçün səciyyəvi olan xüsusiyyətlər kimi özünü göstərir. Bu o deməkdir ki, yaş xüsusiyyətləri cinsi xüsusiyyətlərin təzahürünə təsir göstərdiyi kimi, cinsi xüsusiyyətlər də yaş xüsusiyyətlərinin təzahürünə özünəməxsus təsir göstərir.

Hələ vaxtilə K.D.Uşinskinin qadınların müəyyən keyfiyyətlərinə görə kişilərdən fərqləndiklərini qeyd etmişdi. Onun fikrincə, diqqətlilik, dəqiqlik, təmkinlilik, təkidlilik, uşaqlara anadangəlmə məhəbbət-bütün bunlar elə keyfiyyətlərdir ki, kişilərə nisbətən daha çox qadınlarda təsadüf olunur. Bu qadın keyfiyyətləri yeniyetmə qızların davranış və rəftarında özünəməxsus tərzdə təzahür edir.

Cinsi yetişkənlik dövründə qız orqanizmində əmələ gələn fizioloji dəyişikliklərin nəticələri onların davranışına və psixi halətlərinə mhüm təsir göstərir. Qızlar daha çox emosional olur və tez yorulurlar. Bu cəhətləri nəzərə alaraq qızların rejiminə və gigiyena qaydalarına əməl etmələrinə xüsusi nəzarət etmək vacibdir.

Cinsi cəhətdən tez yetişən qızlar özlərinin oğlan yaşıdlarından daxilən yaşlı olurlar. Lakin eyni zamanda onlardan özlərinin mühüm məziyyət hesab etdikləri cəldlik, qüvvə və sürət kimi keyfiyyətlərə görə geri qalırlar. Buna görə də, qızlar 12-14 yaşından başlayaraq özlərini yoldaşlarına bəyəndirmək üçün

yeni yollar axtarırlar. Müəyyən edilmişdir ki, qızlar çox vaxt göründüklərindən daha yaxşı olduqlarını göstərməyə səy edirlər.

V siniflərdə aparılmış bir tədqiqatın nəticəsinə görə, oğlanların əksəriyyəti (261 nəfərdən 230 nəfəri) xarici görkəmə əhəmiyyət vermir. Oğlanların, xüsusi aşağı siniflərdə başlarını həvəssiz qırxdırmaları, səliqəsiz geyinmələri hamıya məlumdur. Lakin oğlanlarda cinsi maraq təşəkkül tapdıqca onların da özlərinin zahiri görkəminə münasibəti dəyişir.

Zahiri görkəm qızlar üçün əsas məsələdir. Qızda sadəlik, təvazökarlıq kimi keyfiyyətlər tərbiyə edərkən, onun yaraşıqsız olmasını qeyd etmək və nəzərə çarpdırmaq olmaz. Belə söhbətlər qızlara son dərəcə ağır təsir göstərir. Qızlar zahiri görkəmi gözəl görünmək, başqalarının diqqətini cəlb etmək üçün ən etibarlı vasitə hesab edirlər. Artıq V sinifdən qızların hamısını maraqlandırır. Onların yaşı artdıqca bu marağın da məzmunu dəyişir və yeni keyfiyyətlər kəsb edir. Bir sıra hallarda isə zahiri görkəmə olan maraq ifrat formalarda özünü göstərir.

Müəyyən edilmişdir ki, yeniyetmə qızlarda özünün zahiri görkəminə və geyiminə yüksək maraq daha tez əmələ gəlir. Bu təbii marağın inkar edildiyi ailələrdə daha tez əmələ gəlir. Bu təbii marağın inkar edildiyi ailələrdə də zahiri görkəmə xüsusi maraq nisbətən asanlıqla formalaşır.

Qızlarda ilk təəssüratların güclü olması onların daha çox emosional olması ilə əlaqədardır. Qızlar özlərinin ilk təəssüratlarını unuda bilmir və onunla əziz xatirə kimi uzun müddət yaşayırlar. Oğlanların isə sonrakı təəssüratı nisbətən güclü olduqda ədətən əvvəlkinin unudulması ilə nəticələnir. Oğlanların həmişə yeni-yeni fikirlərə, adamlara, əyləncələrə və c. meyl etməsi onların qarşısında geniş üfüqlər açır. Bu zaman oğlanın zərərli təsirlərə düşməsi, öz yolundan kənara çıxaması imkanı da vardır. Belə nöqsanlara yol verməmək üçün qızlarda onlara xas olan xüsusiyyətlərin inkişafına vaxtında əlverişli şərait yaratmaq lazımdır.

Qızlar qayğı göstərməyi sevirlər. Onların bu xüsusiyyətləri istər yoldaşlarına, istərsə də balaca uşaqlara münasibətdə aydın təzahür edir. Qızlar ictimai işlərdə də kütləvi surətdə iştirak edirlər. Bu əsasda onlarda kollevçilik hissini inkişaf etdirmək olar.

Yeniyetmə qızlar öz imkanlarını qiymətləndirərkən daha ağıllı və realist hərəkər edirlər. müəyyən edilmişdir ki, oğlanlar öz imkanlarını adətən həddindən artıq qiymətləndirirlər. Qızlar əksər hallarda özlərinə tənqidi yanaşmağı bacarırlar. Oğlanlar çox vaxt hərəkətin özündən artıq onun effekti-ətrafdakı adamlara necə təsir göstərməsi ilə maraqlanırlar. Onların bir çox hallarda nalayiq hərəkətlər etməsi məhz bununla əlaqədardır.

Öz imkanlarını həddindən artıq qiymətləndirmə hallarına bəzən qızlarda təsadüf olunur. Lakin belə hallarda qızlar özlərini heç də"xüsusi şəxsiyyət" hesab etmirlər6 oğlarların arasında isə elələrinə təsadüf edilir ki, onlar özlərinin xüsusi məziyyətlərə malik olduqlarına inanırlar.

Yeniyetmə qızların tərbiyəsində onların bu xüsusiyyətindən istifadə etmək lazımdır. Qızlarda özünə tənqidi münasibəti gücləndirməklə, onlarda özünütərbiyə tələbatı yaratmaq mümkündür. Lakin bu pedaqoji məharət tələb edir.

Oğlanları qızlara qarşı qoymaq ciddi səhvdir. ailədə istər oğlanlara, istərsə də qızlara eyni qayğı ilə yanaşmaq lazımdır. Qızların yanında heç vaxt "qadın əməyinin" ağırlığından danışmaq olmaz. Qızlarda belə yanlış zehniyyət yaratmaqla onları heç vaxt həyata hazırlamaq mümkün deyildir.

Oğlanlarda qızlara və qadınlara hörmət hissinin formalaşmasında atanın təsiri böyük əhəmiyyətə malikdir. Bu məsələni yalnız oğlanların tərbiyəsində ata nümunəsininrolu ilə məhdudlaşdırmaq olmaz. ailədə uşaqların tərbiyəsi ilə analar məşğul olurlar. Yeniyetmələrin tərbiyəsi ilə anaların məşğul olması bir çox ailələrdə əmələ gəlmiş birtərəfli ənənənin nəticəsidir. Bu düzgün deyildir.Yeniyetmələrin tərbiyəsində atanın rolu əvəzsizdir.

Aydın məsələdir ki, cinsi xüsusiyyətlər ümumi xarakter daşımır. Hər bir yaş dövründə onlar özünəməxsus şəkildə təzahür edirlər. Oğlan və qızlarda cinsi xüsusiyyətlərin inkişafında hır bir yaş dövrünün öz yeri, öz xüsusiyyəti vardır.

Beləliklə, cinsi xüsusiyyətlər nəinki yeniyetmələrin yaş xüsusiyyətləri, həm də fərdi xüsusiyyətləri ilə vəhdətdə formalaşır. Bundan asılı olaraq eyni bir cinsi xüsusiyyət müxtəlif oğlan də qızlarda müxtəlif çalarla təzahür edir. Tərbiyə işində yeniyetmələrin cinsi xüsusiyyətlərini düzgün nəzərə almaq üçün onların yaş və fərdi xüsusiyyətlərini şərtləndirən amilləri ətraflı öyrənmək lazımdır.

AZƏRBAYCANDA PSİXOLOJİ FİKRİN TƏŞƏKKÜLÜ VƏ İNKİŞAFI

İbrahimli G.K.
Azərbaycan Müəllilər İnstitutu

Azərbaycanda psixoloji fikrin yaranması və inkişafını iki mərhələyə ayırmaq olar: eləməqədərki və elmi psixologiyanın təşəkkülü və inkişafı. Hər iki mərhələ bir-birinin daxilində formalaşmış, biri digərinin inkişafına zəmin yaratmışdır. Elməqədərki psixoloji fikirlərin yaranması tarixi çox qədimdən, eramızdan əvvəl başlanır. O, bir tərəfdən Şərq fəlsəfəsi fikrindən, digər tərəfdən isə xalq yaradıcılığından bəhrələnmişdir. Bununla yanaşı o, həyatın özündən, ictimai-tarixi proseslərdən asılı olaraq inkişaf etmiş, digər tərəfdən baş verən proseslər psixoloji fikrə öz təsirini göstərmişdir.

Azərbaycanda psixoloji fikrin inkişafı Azərbaycan psixoloqları tərəfindən geniş araşdırılmış və təhlil edilmişdir. Professorlardan: Ə.S.Bayramov və Ə.Ə.Əlizadə elməqədərki psixologiyanı "güzəran psixologiyası" adlandırırlar.

Prof.Ə.Bayramov yazır: "Hər bir xalq və ya etnos özünü düzgün dərk edib qiymətləndirmək və tərəqqiyə nail olmaq üçün yalnız özünün sosial-iqtisadi tarixi keçmişinə deyil, həm də öz psixoloji keçmişinə dərindən bələd olmalıdır".

Xalq yaradıcılığında xalqın düşüncə və davranış tərzibaş verən hadisələrə münasibət öz əksini bariz şəkildə tapır. Yəni hadisələrə münasibət, onun təhlili, ümid və istəklər bu yaradıcılığın əsasını təşkil edir.

Psixoloji fikrin yaranmasının digər istiqaməti isə yazılı ədəbiyyat, filosof və yazıçıların, şairlərin yaradıcılığıdır. Bu mənada "Kitabi-dədə Qorqud" dastanı, S.Şirazi, Nizami, N.Tusi və digər mütəfəkkirlərin yaradıcılığı Azərbaycan psixoloji fikrin yaranması, inkişafı və formalaşmasında əhəmiyyətli rol oynamışdır. onların yaradıcılığı bir tərəfdən xalqın təfəkkür tərzinin inkişafına təkan vermiş, digər tərəfdən isə bu əsərlərin özündə həyat reallıqları əksini tapmışdır.

Psixoloji fikrin inkişaf mərhələlərinin müəyyənləşdirilməsində şifahi xalq ədəbiyyatının, klassiklərimizin yaratdıqları əvəzsiz xəzinədir. Dədə Qorqud dünyasının əxlaq qaydaları, mərdlik, ləyaqət, şərəf, nəciblik anlayışları azərbaycanlı psixologiyasının, xarakterinin təməlidir. Zaman-zaman dəyişən, zənginləşən bir çox keyfiyyətləri deformasiyaya uğrayan azərbaycanlı psixologiyasının etnogeni, nüvəsi Dədə Qorqud dövründə təşəkkül tapmış, formalaşmışdır.

Azərbaycanda psixoloji fikrin birinci mərhələsi eramızdan əvvəl başlayıb, islam dininin Azərbaycana gəlişi ilə başa çatır. Lakin ikinci dövr asanlıqla, birdən-birə yaranmır. Neçə əsrlər boyu paralel yaşadı. Bu günki günümüzdə bu paralelliyin bir çox cəhətləri adət-ənənələrdə davam edir, yaşayır.

"İslamiyyətdə milli mənsubiyyət yoxdur" şüarı ilə Azərbaycan dünyasına daxil olan islam dini millətlərin, xalqların müxtəlifliyini, özünəməxsusluğunu, milli simasını dini biliklərlə əvəz etməyə çalışdı. bu isə təfəkkürdə, düşüncədə inam və əqidədə yeniləşmə demək idi. İslam dini təkcə qılıncla deyil, siyasətlə, ideologiya ilə, şüurlara təsirlə, inandırma yolu ilə yayıldı.

Orta əsrləri Şərqin intibah dövrü adlandırırlar. Bu dövrdə elmin müxtəlif sahələrində nailiyyətlət qazanıldı, görkəmli şəxsiyyətlər yetişdi. Bu dövrdə ərəb, fars dili, adət-ənənəsi yuxarı dairələrdə, ədəbiyyatda geniş yayılsa da, sadə xalq arasında türk dili, türk ənənəsi qorunub saxlanılırdı. Azərbaycan xalqının psixologiyası məhz bu zəmində formalaşırdı.

XVIII əsrin sonları-XIX əsrin əvvəllərində belə mürəkkəblik, ziddiyyət, dolaşıqlıq azmış kimi, dini, düşüncəsi, həyat tərzi tamamilə fərqli olan ruslar Azərbaycana daxil olur. Psixoloji fikrin ikinci mərhələsi başa çatır, üçüncü mərhələ başlayır.

XIX əsrin sonlarına doğru Azərbaycanda maarif, mədəniyyət inkişaf edir, ziyalılar nəsli yetişirdi. elə buna görə də, XX əsrin əvvəllərini, inqilabaqədərki dövrü Azərbaycanın yeni bir intibah dövrü hesab edirlər. Xalqın həyat tərzi, düşüncə və təfəkküründə böyük dəyişikliklər baş verdi.

Böyük Oktyabrın qələbəsindən sonra SSRİ adlanan məkanda bir sistem yarandı. "Öyünərsə, ər öyünsün, aslandı, öyünmək qadınlara böhtandı" deyən qədim türk qadınlarını sevillər, almazlar, həyatlar əvəz etdi. Bu Azərbaycanda psixoloji fikrin dördüncü mərhələsi idi. Yeni düşüncə tərzi, yeni insanlar, yeni həyat yarandı. Yeni müstəqil dövlətlər yarandı. Azərbaycan xalqı öz müstəqilliyinielan etdi. Bununla da xalqımızın həyatında yeni bir mərhələ-müstəqillik, suverenlik mərhələsi başladı.

Azərbaycanda psixoloji fikrin beşinci mərhələsi də bu illərdən başlanır. İdeoloji, iqtisadi sistem dəyişdi. İnsanlar həyat və düşüncə tərzini dəyişməli oldu. Yeni dövrün psixologiyası yaranmağa, inkişaf etməyə başladı.

Azərbaycan psixologiya elmi özünün yeni, mühüm bir dövrünə qədəm qoymuşdur. yaşlı nəslin nümayəndələri olan professorlardan: Ə.Bayramov, Ə.Əlizadə, M.Həmzəyev gənc nəslin nümayəndələri-prof.S.Seyidov, prof.B.Əliyev Azərbaycan psixologiya elminin yeni istiqamətini müəyyənləşdirməklə yanaşı, özləri də səmərəli şəkildə elmi axtarışlarını davam etdirir, gənc kadrların hazırlanmasında iştirak edirdilər.

Beləliklə, Azərbaycanda psixoloji fikrin, elmi psixologiyanın inkişaf tarixinin öyrənilməsi həm də xalqın həyat tərzinin, ictimai-tarixi proseslərin, düşüncə və təfəkkür tərzinin inkişafı və formalaşmasının öyrənilməsində mühüm əhəmiyyət kəsb edir. bütün bunlar isə milli şüurun, milli özünüdərkin formalaşması deməkdir.

ADAPTASIYANIN PSİXOFİZİOLOJİ MAHİYYƏTİ

Rüstəmova A.Ə.
Azərbaycan Müəllimlər İnstitutu

Adaptasiya anlayışı XIX əsrlərdə ortaya çıxdı. Bu termin lap qədim latın sözü olan "adaptatio" yəni alışma, uyğunlaşma, düzəltmə mənalarını verən sözlərdən yaranmışdır. Adaptasiya terminini tibb və psixologiya elmində ilk dəfə Q. Aubertom işlətmişdir. Q.Aubertoma görə adaptasiya həssaslığın dəyişməsi təsiri ilə hisslərin analizatoru qıcıqlandırması nəticəsində meydana gəlir. Sonralar bu anlayış daha geniş mənada, yəni orqanizmin mövcud və dəyişən şəraitə uyğunlaşdırılması kimi istifadə olunmağa başlanıldı (S.A.Milaslova).

XIX əsrin sonlarında adaptasiya problemi ilə bağlı sistemli şəkildə Bristola, Q.Tarda, R.Parka, U.Tomosa, D.Dyuri tədqiqatlar aparmışlar. Amerikalı elm xadimi R.Linton adaptasiyaya qarşılıqlı nəzəriyyələr konteksindən yanaşaraq onu dəyişikliklərdən yaranan nəticənin uyğunluğunun konsepsiyası kimi xarakterizə edirdi.

H.A.Oşurkova adaptasiyanı baş verən dəyişikliklərə fasiləsiz reaksiyanın verilməsi prosesi kimi təsnif edirdi. Adaptasiya daxili və xarici dəyişikliklər zamanı bəzi xarakterik xüsusiyyətlərin inkişafının təmin edilməsi, stereotiplərin formalaşması, müxtəlif standartların yaradılması prosesidir. Yeni fəaliyyətə uğurlu adaptasiyanın ana xəttini məhz psixofizioloji sistemlərinin sürətli inkişafının təmin edilməsi təşkil edir.

Adaptasiya insanın psixikasının davamlı fiziki və sosial şərtlərə fəal uyğunlaşması prosesidir. Adaptasiya insanın şəraitə uyğunlaşmasından, onun həayatındakı razılıq və narazılıq səviyyəsindən asılıdır.

K.K.Plantonov adaptasiyanın fizioloji,psixoloji və psixososial adaptasiya komponentlərini müəyyən etmişdir. Psixoloqlardan: Koçyubinskiy, N.S. Şeynika isə adaptasiyanın üç hissədən ibarət olduğunu qeyd etmişlər: bioloji, psixoloji, sosial.

Adaptasiya müxtəlif mexanizmlərin fəaliyyətinin uyğunlaşma səviyyəsi ilə bağlı şərtlərlə səciyyələnir. Adaptasiya və ya uyğunlaşma qıcıqlandırıcıların həssaslığının dəyişməsindən ibarətdir. Adaptasiya xoşagəlməz nəticələri düzəltmək üçün bütün parametrlərdə kəskin dəyişikliklərə səbəb olan mürəkkəb prosesdir.

Rus psixoloqu A.V.Suxarev adaptasiyanı insanın daxili və xarici mühitin şərtlərinə sistemli uyğunlaşma kimi xarakterizə edirdi. Adaptasiya analizatorların fəaliyyətindəki dəyişmələrdən asılıdır və müvafiq duyğulara diqqət yetirmək yolu ilə onu ixtiyari olaraq yox etmək mümkün deyil. M.E. Sandomirkova adaptasiyanın formalaşması nəticəsində insanda yalnız psixoloji cəhətdən deyil, eyni zamanda fizioloji cəhətdən onda humoral tənzimləmədə sabitliyin azalması ilə xarakterizə olunduğunu vurğulayırdı.

Adaptasiya mürəkkəb quruluşa malik mürəkkəb prosesdir. Bəzi psixoloqlar tərəfindən adaptasiya nəticələrin təzahürü kimi də qəbul edilir. Adaptasiya hadisəsini qıcığın reseptora uzunmüddətli təsiri zamanı onun fəaliyyətində baş verən dəyişmələrlə izah etmək olar. Adaptasiya analizatorların mərkəzi şöbəsində gedən proseslər nəticəsində meydana gəlir.

Adaptasiya- obyektiv vəziyyətlə əlaqədar olaraq xarici aləmdə baş verən dəyişikliklərlə xüsusi psixi fəaliyyətin arasında zəruri və müvafiq vasitələrin yaranması prosesidir. Adaptasiya əsas funksiyaların bir-birinə uyğunlaşdırılması üçün şərti mürəkkəb prosesdir.

Geniş mənada adaptasiya dəyişən şəraitə uyğunlaşma kimi başa düşülür. Psixoloji ədəbiyyatın təhlili göstərir ki, adaptasiyaya yanaşmalar müxtəlifdir. Psixoloq Z.KTruşinskiy adaptasiyanı orqanizmin

bioloji və ictimai ətraf mühitə qarşılıqlı uyğunlaşması kimi xarakterizə edirdi. V.Semke isə adaptasiyaya müxtəlif ekoloji şəraitə uyğunlaşmaq üçün orqanizmin qabiliyyəti olaraq yanaşırdı.

Adaptasiya hadisəsi qıcığın reseptora uzumüddətli təsiri zamanı onun fəaliyyətində baş verən ətraf dəyişikliklərlə səciyyələndirilir. E.A.Yamburq adaptasiyanı "akademik məktəb" adlandırmış, predmetlərin qavranılması və bir-birinə uyğulaşdırılması zamanı yaranan maneələrin aradan qaldırılması üçün lazım olan önəmli bir proses olaraq səciyyələndirirdi.

Bəzi alimlər adaptasiyanın üç yerə ayrıldığını qeyd edirlər.

- Psixofizioloji- P.K.Anoxin, F.B.Berezin, V.P.Koznakeyev.
- Sosial adaptasiya- V.Q.Aseyev, Q.A.Ball və başqaları.
- Professional adaptasiya (yeni şərtlərə uyğun yeni peşəkar fəaliyyətin qurulması) - V.D.Povarenkov, V.D.Sadrikov və başqaları.

Öz təqdiqatlarında A.N.Smirnov adaptasiya anlayışını şəxsiyyət və mühitin qarşılıqlı tələbləri əsasında qabaqcıl məqsəd və dəyərlərin optimal nisbəti kimi xarakterizə edir. Psixologiyada adaptasiya termini xarici aləmdə baş verən dəyişikliklərə obyektiv amillərin təsiri altında daxili narahatlıq və konfliktli vəziyyət olmadan müxtəlif tələblərə uyğunlaşma kimi səciyyələndirilir.

K.Q.Trott adaptasiyanı fərdi mühitlə ictimai mühitin tələbləri arasında optimal münasibətlərin uyğunluğu ilə bağlı mürəkkəb proses olaraq təsnif edirdi. O, adaptasiyanı norma və dəyərlərin mənimsənilməsi zamanı yaranan ziddiyyətlərin aradan qaldırılması üçün yeni stereotiplərin formalaşması baxımından xarakterizə edirdi. Bu baxımdan psixologiyada adaptasiyanın üç mərhələsini fərqləndirirlər:

- Adaptasiya qıcıqlandırıcıların fasiləsiz olaraq təsiri prosesində duyğunun tamamilə yox olması kimi özünü göstərir. Adətən qıcıqlandırıcıların fasiləsiz olaraq təsiri nəticəsində duyğular sönməyə doğru meyilli olur.
- Güclü qıcıqlandırıcıların təsiri nəticəsində duyğuların kütləşməsində ifadə olunan, təsvir etdiklərimizə yaxın başqa hadisələr də adaptasiya adlandırılır.
- Zəif qıcıqlandırıcıların təsiri altında həssaslığın artması nəticəsində adaptasiya meydana gəlir. Duyğuların bir sıra növünə xas olan bu adaptasiya növünü pozitiv adaptasiya adlandırmaq olar.
- Adaptasiya reseptorlarda başlayıb bütün sinir analizatorlarını əhatə edən dinamik prosesdir.Adaptasiyanın effektivliyi dəyişən şəraitə fəaliyyətin alışmasından, uyğunlaşmasından asılıdır.
- Psixoloq F.B.Berezin adaptasiyanı həm proses, həm də nəticə olaraq təsnif edirdi. Bu anlayış daxili dinamik stereotiplərin xarici şərtlərə reaksiyasıdır. Adaptasiya prosesinin əsas məqsədi dəyişən real sistemlərin komponentləri arasında tarazlığın yaradılmasıdır.Morfofunksional dəyişikliklərdən asılı olaraq adaptasiyanın bir neçə mərhələsi vardır: adaptasiyaya keçid, uzunmüddətli adaptasiya, davamlı adaptasiya, adaptativ vəziyyət..
- Adaptasiya termini xüsusi dəyişən şəraitdə sistemin sabitliyinin qorunub saxlanılması, uğurlu nəticə əldə edilməsi üçün dəyişikliklərə uyğunlaşdırma kimi anlaşılır. D.B.Andreyeva adaptasiya anlayışını yeni şərtlərə fərdi uyğunlaşma kimi səciyyələndirirdi. B.Q.Rubin və S.Kolesnikov isə uyğunlaşma anlayışını "sosial rolların mənimsənilməsi üçün əsas olan aktiv bir proses olaraq" izah edirdilər.
- Q.Qartman adaptasiyanı münaqişəli situasiyalarla, yəni azad konfliktli vəziyyətlə bağlı proses kimi qəbul edirdi. Adaptasiya prosesinin məqsədi dəyişən faktorlara adekvat reaksiyanın verilməsidir. Adaptasiya prosesinin öyrənilməsinə böyük töhvə verən bir çox alimlərdən: M.R.Bityanova, A.A.Maslou,L.Kolominskiy, A.V.Petrovskiy,A.A.Rean,K.Rodjers, A.Freyd, T.Sibutani, X.Xartman, V.V.Boriskin, və başqaları olmuşlar.
- Öz tədqiqatlarında N.N.Kirüxina (2007) adaptasiyanın üç aspektini göstərir: bioloji, sosial, fizioloji.N.N.Kirüxinanın müəyyənləşdirdiyi üçlü proses adaptasiyanın bütün fenomen aspektlərinin inkişafına şərait yaradır.
- Adaptasiya baş verən dəyişikliklərə psixi sistemin adekvat reaksiyası prosesidir. Psixoloq V.V.Falileyev yeni şəraitə adaptasiya üçün emosional vəziyyətin mütləq olduğunu qeyd etmişdir. Eyni zamanda alim adaptasiyanın aşağıdakı nəticələrini göstərirdi:
- Sinir sisteminin fəaliyyətinin səmərəliliyinə təsir göstərir.
- Stressin, frustrasiya halının qarşısını alır.
- Psixi proseslərdə harmonik, ahəngdar vəziyyət yaradır.
- Adaptasiya reseptorlarda yaranan qıcıqlandırıcıların həssaslığının intensiv şəkildə dəyişikliyə uğraması nəticəsində yaranan mürəkkəb prosesdir. A.A.Rean (2005) adaptasiyanın iki aspektini göstərir:

prosessual və rezultativ(tamamlayıcı) adaptasiya.Uğurlu adaptasiyanın əsas məqsədi dəyişilən şəraitdə sistemin tənzimləmə və tarazlaşdırma funksiyasını və xarakterik xüsusiyyətini yerinə yetirməsidir.

YENİYETMƏLİK YAŞ BÖHRANININ PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

Rəhimova F.T.
Azərbaycan Müəllimlər İnstitutu

Yeniyetməlik yaşını, adətən, "keçid yaşı", "böhranlı yaş" kimi səciyyələndirirlər. Orqanizmdə baş verən fizioloji proseslər nəticəsində yeniyetmələrin rəftar və davranışında yaşlılar və yaşıdları ilə münasibətində neqativ hallar: tərslik, höcətlik, dikbaşlıq, mənfi emosiyalar, bəzən isə aqressiv təzahürlər, affekt tipli reaksiyalar meydana çıxır. Onlar yaşlıların tələblərinə mane olmaq istəyir, onlara müqavimət göstərir, balacaları buyurur, onlara göstərişlər verir, müstəqilliyə və sərbəstliyə can atırlar.

Rus psixoloqu A.Q.Kovalev haqlı olaraq qeyd edir ki, burada söhbət heç də yeniyetmələrin "yaş böhranı"ndan deyil, yaşlılarla, xüsusilə müəllimlərlə və tərbiyəçilərlə münasibətlərinin böhranından gedir. Yeniyetmələrin rəftar və davranışında öz mənliyini ifadə və təsdiq etmək meyli, özünü göstərmək, başqalarına özünün mövcudluğunu göstərmək tələbatı güclənmiş olur. Özünütəsdiq, çətin bir işi öz boynuna götürmək təşəbbüsləri artır. Getdikcə onların şəxsiyyətində qeyri-sabit, dəyişkən hallar meydana gəlir. Etinasızlıq və hövsələsizlik halları çoxalır.

Sübut edilmişdir ki, yeniyetməlik dövrü fiziki keyfiyyətlərin inkişafı və formalaşması üçün senzitiv dövrdür. Bu dövrdə uşağın müstəqilliyə artan tələbatı ilə onu həyata keçirmək imkanları arasındakı ziddiyyət inkişafın hərəkətverici qüvvəsi rolunda çıxış edir. Bu ziddiyyətdən törəyən yaş böhranı yeniyetmənin yaşlılığa keçidini şərtləndirir.

Coşqun şəkildə baş verən yaş böhranı yeniyetmələrin psixi simasında daha kəskin dəyişikliklərə gətirib çıxarır. Bununla belə, böhran yaş dövründə yeniyetmənin özünüdərketmə və özünütəsdiqetmə səylərinin, "mən" obrazı və mənlik şüurunun emosional və idraki sferada əhəmiyyətli, müsbət yeni keyfiyyətlərin formalaşmasının əsasını qoyulur.

İnkişafda böhranların baş verməsi qarşısı alınmaz bir proses olduğuna görə, əsas vəzifə heç də onun qarşısını almağa deyil, yeniyetmənin bu mərhələni "ağrısız", "fəsadsız" keçməsini təmin etməkdən ibarət olmalıdır.Görkəmli psixoloq A.N.Leontyevin fikrincə, uşağın psixi inkişafında böhran xarakterli çətinliklərin yaranması zəruri və qanunauyğun xarakter daşımır. Böhranlar yox, yalnız əsaslı dönüşlər və inkişafda keyfiyyət dəyişiklikləri zəruridir. Böhranın əmələ gəlməsi ona dəlalət edir ki, lazımi keyfiyyət dəyişiklikləri vaxtında və tələb olunan istiqamətdə baş verməmişdir. Böhran olmaya da bilər, çünki uşağın inkişafi kortəbii proses deyildir.

Bununla əlaqədar, oğlan və qızlar özlərinə daha çox diqqət yetirməyə, daha yaraşıqlı görünməyə çalışırlar. Görkəmli psixoloq L.S.Vıqotski öz fikrini belə ifadə etmişdir: "Yeniyetməlik yaşını hamı "cinsi yetişmə yaşı" adlandırır. Lakin bu yaş, eyni zamanda, "şəxsiyyətin yetişməsi yaşıdır"

Yeniyetməlik yaş dövründə yaşlılıq hissinin meydana gəlməsi uşaqların özünüqiymətləndirməsinə də əsaslı təsir göstərir. Əvvəlki dövrdən fərqli olaraq, yeniyetmə indi öz həyatına passiv münasibət bəsləmir, özünə, öz şəxsi həyatına, şəxsiyyətinin xüsusiyyətlərinə maraq yaranır.

Bunun nəticəsi olaraq, yeniyetmədə özünüqiymətləndirmə tələbatı, özünü başqaları ilə müqayisə etmə meyli əmələ gəlir. Yeniyetmədə mənlik şüurunun yaranması onun öz davranışını, özünün mənəvi keyfiyyətlərini, xarakter və qabiliy- yətlərini dərk etməsi ilə başlayır. Mənlik şüurunun yaranması, onun "mən" olaraq araşdırdığı hər şey yeniyetmənin özünü necə qavraması ilə əlaqədardır.

Yeniyetməlik böhranı dövründə təzahür edən mənfi xüsusiyyətlər keçici xarakter daşıyır. Bu yaş mərhələsində xarakterin əlamətləri, şəxsiyyətlərarası münasibətin əsas formaları stabilləşir, mənəviyyatın, sosial yönəlişliyin təməli möhkəmlənir, şəxsi özünütəkmilləşdirmə cəhdləri–özünüdərketmə, özünü təsdiq- etmə və özünüifadə formalaşır. Yeniyetməlik yaşı fəallıq, coşğun ehtiraslar, qaynayan enerji, böyük arzu və ideallar dövrüdür. Yeniyetməlik yaşında bir-biri ilə ziddiyyət təşkil edən müxtəlif meyllər özünü göstərir.

Yaş psixologiyasında bu dövrün yeniyetməlik dövrü adlandırılmasının səbəbi uşaq şəxsiyyətinin yetkinləşməsi ilə əlaqədardır. Baş verən yetkinliklə, dəyişikliklə bağlı olaraq şagirdin təlim və tərbiyəsində, rəftar və davranışında müxtəlif tip psixoloji çətinliklər də özünü göstərir. Tənbəllik, kobudluq, qapalılıq, inadkarlıq, insanlardan uzaqlaşmaq və s. kimi mənfi keyfiyyətlər yaranır. Valideynin

uşağı cəzalandırması, töhmətləndirməsi isə heç bir səmərə vermir, əksinə uşaqda daha da sərt psixoloji xüsusiyyətlər formalaşdırır.

Uşağı ilə "ümumi dil" tapa bilməyən valideyn uşağının get-gedə uzaqlaşdığını hiss edir. Yeniyetmə başqalarının təsirindən daim uzaqlaşmağa meyl göstərir ki, bu da onun qapalılığına yol açır. Digər bir xüsusiyyət isə yeniyetmənin kitablara "acgöz" münasibəti və mütaliəyə üstünlük verməsi ilə bağlıdır. Uşaq heç bir yaş dövründə yeniyetməlik dövründə olduğu qədər kitaba meyl göstərmir, ömrünün sonrakı illərində də heç vaxt bu qədər mütaliə ilə məşğul olmur.

Yeniyetmələri xarakterizə edən digər bir cəhət də onların məktəbdə keçilən fənlərə seçici münasibət bəsləməsi ilə bağlıdır. Yeniyetmə gələcəkdə hansı sahəyə hazırlaşacaqsa, həmin fənlərə daha çox maraq göstərir. Hətta yeniyetmə dərsləri "lazımlı" və "lazımsız" qruplara ayırır.

Yeniyetməlik böhranı dövründə təzahür edən mənfi xüsusiyyətlər keçici xarakter daşıyır. Bu yaş mərhələsində xarakterin əlamətləri, şəxsiyyətlərarası münasibətin əsas formaları stabilləşir, mənəviyyatın, sosial yönəlişliyin təməli möhkəmlənir, şəxsi özünütəkmilləşdirmə cəhdləri–özünüdərketmə, özünü təsdiq- etmə və özünüifadə formalaşır. Yeniyetməlik yaşı fəallıq, coşğun ehtiraslar, qaynayan enerji, böyük arzu və ideallar dövrüdür. Yeniyetməlik yaşında bir-biri ilə ziddiyyət təşkil edən müxtəlif meyllər özünü göstərir.

Psixoloji və sosial yetkinliyi lazımi səviyyədə olmayan yeniyetmə böyüklər qarşısında özünün yeni fikirlərini sübuta yetirməyə çalışır, bərabər hüquqlara nail olmağa, ona verilən imkanları genişləndirməyə çalışır. Eyni zamanda yaşlıdan kömək və müdafiə olunmaq istəyir. Yeniyetmə gözləyir ki, yaşlılar onun bu mübarizəsini təhlükəsiz edəcək, onu riskli addımlar atmağa qoymayacaqlar. Onun, əksinə, əsaslandırılmış və ciddi şəkildə etirazı bir anlığa narazılığa səbəb olsa da, əslində yeniyetməni sakitləşdirir, emosional rahatlığa çıxarır.

Yeniyetməlik yaş dövrü keçici bir mərhələ olub, yeniyetmənin zəngin imkanlarının bazasıdır. Müəllim və valideynlər bu dövrün müsbət cəhətlərinə diqqət yetirib onların inkişafına nail olsalar, çətinliklərin aradan qaldırılması uğurla nəticələnəcəkdir. Yeniyetmənin daxili mövqeyi ilə ictimai vəziyyəti arasında ziddiyyəti aradan götürmək, əslində yeniyetmənin həyatı üçün vacib perspektiv vəzifənin həlli yolunun tapılması deməkdir.

Məktəb psixoloqu öz işini müəllimlər və valideynlərlə sıx əməkdaşlıq şəraitində qurmalıdır. Məktəbdə V sinifdən başlayaraq yeniyetmələrin yaşıdları və yaşlılarla ünsiyyəti, şagird kollektivinin formalaşması, yeniyetmələrin həmyaşıdları ilə normal qarşılıqlı münasibətləri, oğlanlar və qızlar arasındakı münasibətlər onun iş sistemində əsas yer tutmalıdır. O, yeniyetmələrin aqressiv hərəkətlərinə və ya utancaqlığına, ünsiyyətdə qapalılığa, özünüqiymətləndirmədə qeyri-adekvat mövqelərinə düzgün qiymət verməli, şagird kollektivində müşahidə olunan küsülülüyü xüsusi treninqlər və ya qrup ünsiyyəti metodları ilə aradan qaldırmağa nail olmalıdır.

Psixoloq nəzərə almalıdır ki, yeniyetməlik dövrü yalnız çətinliklər, ziddiy yət və böhranlar dövrü deyildir. Bu yaş dövrü gələcək şəxsiyyətin təşəkkülünün əsas və zəngin bazası, B.A.Suxomlinskinin təbirincə desək, "vətəndaşın doğulması" dövrüdür. Məktəb psixoloqunun peşəkar fəaliyyəti bu sahədə iş sisteminin qurulmasında, ilk növbədə, diaqnostik metodlar vasitəsi ilə yeniyetmələrin davranış qüsurlarının determinantlarını müəyyənləşdirməyə, belə davranışın para- metrlərini və səviyyələrini aşkara çıxarmağa, pedaqoji tövsiyələrə, müvafiq korreksiyaedici tədbirlərin həyata keçirilməsinə yönəlməlidir.

Beləliklə, yeniyetmələrlə iş prosesində praktik psixoloqun əsas vəzifəsi:

1/ yeniyetmələrin psixoloji vəziyyətini başa düşməli, baş vermiş böhranın həllində konstruktiv qərar qəbul etməli;

2/ böhranın məhsuldar həlli üçün şərait yaratmalı, müəllimlərə və valideynlərə məktəblinin yaşadığı bu dövrün psixoloji xüsusiyyətlərini aydınlaşdırmalı, yaşlılara yeniyetmələr arasında münasibətlərin optimal variantının seçilməsinə, formalaşmasına kömək etməlidir;

3/ vaxtında "asılılıq böhranı"nın və müstəqillik böhranının qeyri-məhsuldar formalarının vaxtında diaqnozunu qoyub lazımi psixoloji kömək göstərməli;

4/ yaş böhranı zamanı inkişafın ləng getməsinə təsir göstərən psixoloji çətinlikləri müəyyənləşdirib aradan qaldırmaq üçün digər mütəxəssisləri konsiliuma cəlb etməlidir.

Onu da nəzərə almaq lazımdır ki, böhranlı dövrlərdə yaşlılarda narahatlıq törətməyən yeniyetmələr də diqqət mərkəzində olmalı və psixoloqdan kömək almalıdır. Bir sözlə, bu yaş dövründə yeniyetmələri başa düşməyi bacarmalı və onlara vaxtında kömək göstərilməlidir.

ŞƏXSİYYƏTİN İNKİŞAFI VƏ ÖZÜNÜTƏRBİYƏ

Nəcəfova S.A.
Azərbaycan Müəllimlər İnstitutu

Şəxsiyyətin özünüdərk etməsinin böyük bəhrələrindən biri özünütərbiyədir. Özünütərbiyə insan həyatında elə bir fenomendir ki, dünyada heç bir qüvvə onu əvəz edə bilməz. Özünütərbiyə insanın xarici aləmi və özünü dərk etməsinin mühüm tərkib hissəsi kimi müəyyən olunur.

Özünütərbiyə yüksək əxlaqi şüura istinad edir. Özünütərbiyənin qarşısında duran əsas məqsəd insanda öz əxlaqi hərəkət və davranışları şüurlu surətdə istiqamətləndirmək, öz əxlaqi keyfiyyətlərini daim yaxşılaşdırmaq, özündə hiss etdiyi nöqsanları təkidlə aradan qaldırmaq, mənəvi cəhətcə özünün müntəzəm surətdə təkmilləşdirmək qabiliyyətini artırmaqdan ibarətdir. İnsan ancaq özünü dərk etmək sayəsində özünü tərbiyə edə bilər.

İnsanın özünütərbiyəsinin müvəffəqiyyəti məhz bilavasitə onun şüurluluq dərəcəsindən asılıdır. Bu o deməkdir ki, insan yalnız əxlaqi şüurunu yüksəltmək, idrak qabiliyyətini artırmaq yolu ilə özünü yalnız tərbiyənin obyekti deyil, həm də tərbiyənin subyekti edə bilər.

Özünütərbiyə cəmiyyətdə mövcud olan tərbiyə sisteminin bir hissəsidir. Özünütərbiyə şəxsiyyətin müəyyən inkişaf mərhələsində meydana gəlir və onun inkişafına təsir edir. Özünütərbiyə fərdin ictimai əxlaq tələblərinə fəal münasibətidir.

Özünütərbiyə prosesində şəxsiyyət yalnız ictimai əxlaqın imperativ tələblərinə əməl etməklə kifayətlənmir, özü xarici aləmi və özünü dərk etmək yolu ilə əxlaqi tələblərin mənəvi dəyərinə inam hasil edir və yalnız bundan sonra bunları öz əxlaqi sərvətlərinə çevirmək üçün fəaliyyət göstərir. Bu fəaliyyət özünütərbiyə fəaliyyətidir. İnsan da öz fəaliyyətinin sahibidir. O, öz "əxlaqi aləminin", öz "əxlaqi sərvətlər səltənətinin" yaradıcısıdır.

Özünütərbiyə bilavasitə insanın özünün əxlaqi yaradıcılığıdır. Bu nöqteyi nəzərdən əxlaq tərbiyəsinin müvəffəqiyyəti xeyli dərəcədə insanın özünün bu tərbiyədə şüurlu iştirakından asılıdır. Deməli, tərbiyə prosesində insanın əxlaqi əsası qoyulur, əxlaqi təsəvvürləri, inamları, adətləri, idealları formalaşır.

Şəxsiyyət inkişaf etdikcə özünütərbiyə daha böyük rol oynamağa, özünü aydın şəkildə göstərməyə başlayır. Psixoloqların apardıqları tədqiqatlar göstərmişdir ki, özünütərbiyə tələbatı şüurlu, planlı iş kimi aydın şəkildə özünü yeniyetməlik dövründə göstərməyə başlayır.

Belə ki, yeniyetmə özündə iradi keyfiyyətlər, xarakter əlamətləri tərbiyə etməklə şəxsiyyətinin keyfiyyətini dəyişdirir və özündə daha dərin keyfiyyətlər qazanır. Əvvəla, özündə olan qorxaqlığı, cəsarətsizliyi, utancaqlığı və s. aradan qaldırır, onları islah edir. Özünün hərəkət və davranışını daha da fəallaşdırır, çəkinmədən, qorxmadan müəyyən işlərdə fəal iştirak edir. Öz meyl və imkanlarını üzə çıxarır. Bu səviyyədə yeniyetmə və gənc özünə fərd, canlı varlıq kimi deyil, düşünən, özünü təkmilləşdirə bilən, müəyyən fiziki, psixi, sosial fəallıq göstərən, sosial sərvət və normalara yiyələnən bir şəxsiyyət kimi baxır.

Buradan isə onların öz şəxsiyyətinin sürətli inkişaf tələbatları meydana gəlir ki, bu da özünütərbiyənin bir vasitə kimi həyata keçirilməsinə gətirib çıxarır. Həyat şəraiti, yetkinlik dövrü ilə əlaqədar olaraq yeniyetmənin xarakteri bəzən mənfi hallardan müsbət hallara, bəzən isə müsbət keyfiyyətlərdən mənfi keyfiyyətlərə doğru dəyişir, inkişaf edir.

Qədin Yunanıstanın məşhur natiqi Demosfen haqqında hamıya məlum olan belə bir fikir var ki, o, uşaqlıqda pəltək imiş. Öz üzərində təkidlə və qətiyyətlə iradi məşqlər aparmaqla bu fiziki qüsurunu aradan qaldırmış və ən mahir natiq olmuşdur. Görkəmli sərkərdə Napoleon uşaqlıqda çox zəif olub. O, öz üzərində iradi məşqlər aparmaqla sərkərdə səviyyəsinə yüksəlmişdir.

Göründüyü kimi, gənclər özlərində möhkəm iradə tərbiyə etməklə cəsarətlilik, qorxmazlıq, mənəvi qəhrəmanlıq kimi yüksək keyfiyyətlərə yiyələnə bilərlər. Qüvvətli iradəyə malk olmaq nəinki adamın qarşıya qoyduğu məqsədə nail olmasına, eyni zamanda onun öz fəaliyyət, hərəkət və davranışı üzərində hakim olmasına kömək edir. İlk gənclik dövründə özünütərbiyə fiziki və iradi özünütəkmilləşdirmə ilə yanaşı, mənəvi təkmilləşdirməyə də xidmət edir. Gənclər özlərində dosta, yoldaşa qarşı sadiqlik kimi keyfiyyətləri tərbiyə etməyə cəhd göstərirlər. Şəxsiyyət inkişaf etdikcə özünütərbiyə daha böyük rol oynamağa, özünü aydın şəkildə göstərməyə başlayır. Psixoloqların apardıqları tədqiqatlar göstərmişdir ki, özünütərbiyə tələbatı şüurlu, planlı iş kimi aydın şəkildə özünü yeniyetməlik dövründə göstərməyə başlayır.

Belə ki, yeniyetmə özündə iradi keyfiyyətlər, xarakter əlamətləri tərbiyə etməklə şəxsiyyətinin keyfiyyətini dəyişdirir və özündə daha dərin keyfiyyətlər qazanır. Əvvəla, özündə olan qorxaqlığı, cəsarətsizliyi, utancaqlığı və s. aradan qaldırır, onları islah edir. Özünün hərəkət və davranışını daha da fəallaşdırır, çəkinmədən, qorxmadan müəyyən işlərdə fəal iştirak edir. Öz meyl və imkanlarını üzə çıxarır. Bu səviyyədə yeniyetmə və gənc özünə fərd, canlı varlıq kimi deyil, düşünən, özünü təkmilləşdirə bilən, müəyyən fiziki, psixi, sosial fəallıq göstərən, sosial sərvət və normalara yiyələnən bir şəxsiyyət kimi baxır.

Buradan isə onların öz şəxsiyyətinin sürətli inkişaf tələbatları meydana gəlir ki, bu da özünütərbiyənin bir vasitə kimi həyata keçirilməsinə gətirib çıxarır. Həyat şəraiti, yetkinlik dövrü ilə əlaqədar olaraq yeniyetmənin xarakteri bəzən mənfi hallardan müsbət hallara, bəzən isə müsbət keyfiyyətlərdən mənfi keyfiyyətlərə doğru dəyişir, inkişaf edir.

Qədin Yunanıstanın məşhur natiqi Demosfen haqqında hamıya məlum olan belə bir fikir var ki, o, uşaqlıqda pəltək imiş. Öz üzərində təkidlə və qətiyyətlə iradi məşqlər aparmaqla bu fiziki qüsurunu aradan qaldırmış və ən mahir natiq olmuşdur. Görkəmli sərkərdə Napoleon uşaqlıqda çox zəif olub. O, öz üzərində iradi məşqlər aparmaqla sərkərdə səviyyəsinə yüksəlmişdir.

Göründüyü kimi, gənclər özlərində möhkəm iradə tərbiyə etməklə cəsarətlilik, qorxmazlıq, mənəvi qəhrəmanlıq kimi yüksək keyfiyyətlərə yiyələnə bilərlər. Qüvvətli iradəyə malk olmaq nəinki adamın qarşıya qoyduğu məqsədə nail olmasına, eyni zamanda onun öz fəaliyyət, hərəkət və davranışı üzərində hakim olmasına kömək edir. İlk gənclik dövründə özünütərbiyə fiziki və iradi özünütəkmilləşdirmə ilə yanaşı, mənəvi təkmilləşdirməyə də xidmət edir. Gənclər özlərində dosta, yoldaşa qarşı sadiqlik kimi keyfiyyətləri tərbiyə etməyə cəhd göstərirlər.

Özünütərbiyə insanın aktiv fəaliyyəti kimi özündə müsbət keyfiyyətlər tərbiyə edib təkmilləşdirməyə və mənfi keyfiyyətləri aradan qaldırmağa yönəldilmiş müntəzəm, məqsədyönlü və şüurlu fəaliyyətidir.

Özünütərbiyə-insan şəxsiyyətinin təkmilləşdirilməsinin zəruri şərtidir. Özünütərbiyənini komponentləri tərkibinə dərk olunmuş məqsəd və vəzifələr, ictimai tələbatlar və həyati ideallar daxildir ki, onlar özünütəkmilləşdirmə proqramında öz əksini tapmışdır. Özünütərbiyənin ən mühüm komponenti tələbat və motivlərdir ki, bunlar da insanı sistematik olaraq aktiv fəaliyyətə dərkolunmuş təhrikedici daxili qüvvələrdir.

Özünütərbiyə insanın kamilləşmək, mənəvi, fiziki, pedaqoji, estetik, əxlaqi cəhətdən özünü cəmiyyətdə tutmaq, istədiyi mövqeyə uyğunlaşdırmaq meyli ilə əlaqədardır.

Onların hər biri insandan özünütərbiyə üzrə praktik fəaliyyətdə özünütərbiyənin proqram qaydalarına müvafiq şəkildə öz iradəsini, hisslərini formalaşdırmağa kömək edir.

Eyni zamanda insan şəxsiyyətinin bu inkişaf sferaları bir-biri ilə sıx surətdə bağlıdır. Onlar bir-birindən asılıdır, biri digərini tamamlayır. Odur ki, onlar özünütərbiyəyə kompleks yanaşmanı, özünüyoxlama, özünənəzarət və korreksiya işlərini aparmaqla fasiləsiz olaraq özünütərbiyənin rəhbərliyini həyata keçirməyi tələb edir.

Özünənəzarət bir tərəfdən insanın özünə nəzarəti, özünü tənzim etməsidir. İnsan özünə nəzarət etməyi, öz hərəkət və davranışlarına kənardan baxa bilməyi, öz nöqsanlarını görməyi, öz əməllərində yaxşını pisdən, xeyiri şərdən düzgün ayırd etməyi bacarmalıdır ki, bunun əsasında da öz xarakterindəki qüsurları islah etsin, özünü tərbiyə edə bilsin. Özünənəzarət cəmiyyətdə mövcud olan əxlaqi münasibətlərin mühüm tərkib hissəsidir.

Özünütərbiyə üçün özünüdərketmə və özünütəhlil də lazımdır. Özünüdərketmə- şəxsiyyətin özünün mənəvi və fiziki keyfiyyətlərini, davranışını, mənafeyini anlaması, özünə tənqidi münasibət bəsləməsi, cəmiyyətdə öz yerini, mövqeyini aydın başa düşməsidir. Bu da, ilk növbədə, özünüqiymətləndirmə ilə bağlıdır. Çünki bunsuz insanın sosial mühitdə, sosial qruplarda özünütəyin və özünütəsdiq etməsi mümkün deyildir.

Beləliklə, özünütərbiyənin təşkili yollarının vəzifələrinə aşağıdakıları aid edirik:

* Şagirdlərin (tələbələrin) özlərində şəxsiyyətin müsbət keyfiyyətlərini inkişaf etdirmələri və öz davranışındakı bu və ya digər nöqsanı aradan qaldırmalarına cəhd göstərməyi oyatmaq. Əgər belə cəhd yoxdursa bunu misallar əsasında şagirdə başa salmaq, onlarda inam yaratmaq zəruridir.

* Şagirdin(tələbənin) öz şəxsiyyətinə tənqidi yanaşmasına, öz davranışının xüsusiyyətlərini təhlil edə bilməsinə, öz qüsurlarını göstərməsi və dərk etməsinə köməklik göstərmək.

* Müəllim və tərbiyəçi şagirdin (tələbənin) özünütərbiyə proqramını tərtib etməsinə, hansı keyfiyyəti inkişaf etdirmək lazım gəldiyini, hansıları isə aradan qaldırmağın zəruri olduğunu müəyyənləşdirməsinə köməklik göstərməlidir.

* Müəllim və tərbiyəçi şagirdləri (tələbələri) özünütərbiyənin ən səmərəli, düşünülmüş yolları, priyomları ilə silahlandırmalıdır.

ƏLİMDƏ GERİDƏ QALAN UŞAQLARIN PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

Alıyeva V.İ.
Azərbaycan Müəllimlər İnstitutu

Pedaqoji psixologiyanın ən mühüm problemlərindən biri də təlimdə geridə qalan uşaqlarla aparılan psixoloji işin təşkilidir. Psixoloqların geridə qalan şagirdlərlə apardıqları işlər zamanı müəyyən edilmişdir ki, bu cür uşaqlar deduktiv əqli nəticə apara bilmir, əsas əlamətləri ayırmaq və onların əsasında ümumiləşdirmə aparmaqla çətinlik çəkirlər.

Bununla yanaşı olaraq geridə qalan şagirdlər təhlil aparmaqda da çətinlik çəkir, adətən onların mücərrədləşdirmə və ümumiləşdirmə səviyyələri problemin məhsuldar şəkildə həlli üçün lazım olan səviyyədən aşağı olur. Təlimdə yetirməyən şagirdlərin sözlü-məntiqi təfəkkürünün inkişafı əyani-əməli təfəkkürlərindən geridə qalır. Ona görə də, həmin şagirdlər ya qaydanın şərhini başa düşmür, ya da qayda haqqında yalnız formal biliklər məsələnin düzgün həllinə gətirib çıxarmır.

Psixoloji tədqiqatlar təlimdə geridə qalan şagirdlərin üç tipini müəyyənləşdirməyə imkan vermişdir:

Birinci tip özünün öyrənməyə qabilliyinin aşağı səviyyəsi ilə, lakin təlimə qarşı müsbət münasibətləri və məktəbli mövqelərini saxlamaları ilə xarakterizə olunurlar.

İkinci tip geridə qalan şagirdlər fikri fəaliyyətinin yüksək keyfiyyətləri və məktəbli mövqelərini qismən və ya tamamilə itirmələri ilə fərqlənirlər.

Üçüncü tip şagirdlərdə öyrənməyə qabillik aşağı olmaqla onlarda təlimə qarşı mənfi münasibət və məktəbli mövqelərini qismən və ya tamamilə itirmə xüsusiyyətləri özünü göstərir.

Psixoloji tədqiqatlar geridə qalan şagirdlərin bu cür tiplərinin özünəməxsus yarımtipləri olduğunu da aşkara çıxarmışdır (N.İ.Muraçkovski).

Hər bir tipi yarımtiplərə ayırmaq üçün aşağıdakı iki göstəriciyə istinad olunmuşdur:

1/ şagirdlərin təlimdəki müvəffəqiyyətsizliklərini əvəz etmələrinə imkan verən vasitələr;

2/ gələcəkdə müəyyən fəaliyyətə qarşı yönəlmənin olması və ya da olmaması.

Bu göstəricilərdən asılı olaraq birinci tip şagirdlər arasında iki yarımtip müşahidə olunur. Bunlardan birincisinə təlim işlərindəki müvəffəqiyyətsizliyi hər hansı praktik fəaliyyətin köməyi ilə əvəz etməyə çalışan şagirdləri aid etmək olar. Belə şagirdlər üçün ümumi olan cəhət onlarda mücərrət təfəkkürün inkişaf etməməsi və bununla əlaqədar olaraq məsələnin şərti və həlli yollarını konkretləşdirmək cəhdindən ibarətdir. Onların bu cür hərəkətləri təlimdə bəzi müvəffəqiyyətlər qazanmaq imkanı verir.

Bu cür şagirdlərdə analitik təfəkkür inkişaf etmədiyinə görə təlim materialını çətinliklə mənimsəyirlər. Onlar təhlili məsələ həllinin bütün gedişində tətbiq edə bilmədiklərinə görə çox vaxt məsələni də axıra kimi həll edə bilmirlər.

Geridə qalan şagirdlərin həmin yarımtipində gələcəkdə müəyyən fəaliyyət növünə qarşı yönəlişlik, arzu olunan peşəyə dair az və ya çox dərəcədə aydın təsəvvür mövcud olur. Adətən, bu cür yönəlişlik onların təlim fəaliyyətindəki müvəffəqiyyətsizliklərini əvəz edən praktik fəaliyyətinin məzmunundan asılı olur. Bununla əlaqədar olaraq həmin şagirdlərdə özünüqiymətləndirmə obyektiv xarakter daşıyır.

Geridə qalan birinci tip şagirdlərin ikinci yarımtipinə təlim işindəki hər cür çətinlikdən qaçmağa çalışan şagirdləri aid etmək olar. Təlimdə müvəffəqiyyət qazanmağa çalışan həmin şagirdlər çox vaxt qadağan olmuş yollardan istifadə etməyə çalışırlar: yoldaşlarından köçürür, onların gizlincə dediklərinə istinad edir və s. Bu cür şagirdlər başqa işlərin hamısına da təlimə yanaşdıqları kimi yanaşırlar. Ətraf aləm haqqında onların təsəvvürləri olduqca məhduddur. Birinci yarımtipdən fərqli olaraq onlar hətta təlim tapşırıqlarının mahiyyətini anlamağa cəhd göstərmirlər. Bir qayda olaraq gələvək haqqında düşünmürlər.

İkinci tipə aid etdiyimiz geridə qalan şagirdlər məktəbə yaxşı hazırlıq və oxumaq həvəsi ilə gəlirlər. Lakin həmin uşaqlar evdə səbrlə oturub işləməyə alışdırılmamış olurlar. Onlarda yalnız xoşlarına gələn

işlə məşğul olmaq adəti hökm sürür. Ona görə də diqqəti cəmləşdirmək, hafizəni gərginləşdirmək, fəal şəkildə fikirləşmək onlarda narazılıq yaradır. Bunun əsasında təlimdə yaranan müvəffəqiyyətsizlik mənəvi konfliktin yaranmasına gətirib çıxarır. Bu da öz növbəsində təlimə qarşı mənfi münasibət yaradır. Belə uşaqların gələcək planları təlimlə bağlı olmur. Onların maraqları müxtəlif olur ki, bunların içərisində idrak maraqları xüsusi yer tutur.

Təlimdə geridə qalan ikinci tip şagirdlər arasında da iki yarımtip müəyyənləşdirmək mümkündür. Bunlardan birinci yarımtipə özünün təlimdəki müvəffəqiyyətsizliyini, kollektivdəki uğursuz vəziyyətini sinifdənkənarn şagirdləri aid etmək olar. Onların gələcək haqqında arzuları sinifdənkənar məşğuliyyətin həmin sahəsi ilə bağlı olur. Bu cür şagirdlərdə təlimin geniş sosial motivləri formalaşmamış olur.

İkinci yarımtipə məxsus olan şagirdlərin təlimdəki müvəffəqiyyətsizlikləri onları başqaları ilə, xüsusilə də məktəbdənkənar qruplarla əlaqəyə girmək üçün yollar axtarmağa yönəldir. Belə uşaqlarda tez-tez mənfi sosial istiqamətə malik olan maraq və meyllər müşahidə olunur. Belə şagirdlər çox vaxt şagird mövqeyini itirirlər. Onlar intizamı kobudcasına pozurlar və müəllimlərin yanında etibarlarını itirirlər.

Dərsdə geridə qalan üçüncü tip şagirdlərin xarakteristikasını vermək o qədər də çətin deyildir. Bu tipə aid olan şagirdlər bir növ birinci tip şagirdlərin zəif öyrənməyə qabillik xüsusiyyətlərini və ikinci tip şagirdlərin asosial istiqamətlərini özlərində əks etdirirlər.

Təlimdə geridə qalma, eləcə də təlimdə müvəffəqiyyətsizliyin səbəblərinin və onların tilərinin təhlili müəllim üçün mühüm bu xəstəliyin qarşısını almaq mühüm əhəmiyyətə malikdir. Çünki bu zaman məktəbdə özünə yer edən bu xəstəliyin qarşısını almaq və aradan qaldırmaq imkanı yaranır. Lakin hələ psixoloji tədqiqatlar həmin xəstəliyin qarşısını almağın tam səmərəli yollarını aşkara çıxara bilməmişdir. Bu sahədə aparılan ayrı-ayrı tədqiqatlara istinad edərək təlimdə geridəqalmanın aradan qaldırılmasına kömək edə biləcək yolları nəzərdən keçirək:

Birinci tipə mənsub olan şagirdlərlə birinci növbədə elə iş aparmaq tələb olunur ki, onların müvəffəqiyyətlə oxumalarını ləngidən, ona mane olan fitri fəaliyyət xüsusiyyətləri yenidən qurulmuş olsun. Ümumiləşdirmə qabiliyyətinin zəif inkişaf etməsi, əyani-əməli təfəkkürün məntiqi təfəkkürə nisbətən üstünlüyü həmin şagirdlərlə iş apararkən təlimin ilk mərhələsində əyani obrazlara istinad etmək zəruridir. Bu zaman məllim elə şərait yaratmalıdır ki, istifadə olunan əyani vəsait şagirdlərin diqqətini əsas fikri məsələnin həllindən uzaqlaşdıran ikinci dərəcəli əlamətlərə yönəltsin.

Həmin şagirdlərlə aparılan mümarisələrin xarakterinə də ciddi fikir verilməlidir. Sübutluluğun məntiqi strukturunun inkişafına, əqli nəticələrin formalaşmasına imkan verən mümarisələrdən geniş istifadə olunmalıdır. Öyrənməyə qabillliyi zəif olan şagirdlərlə müqayisəli təhlil tələb edən mümarisələrin aparılması daha faydalıdır. Müəllim elə şərait yaratmalıdır ki, hər bir şagird orada özünü göstərə bilsin, müəllim isə şagirdləri hər bir, hətta ən kiçik müvəffəqiyyətinə görə rəğbətləndirsin.

Şagirdlərə verilən tapşırıqlar içərisində elələri də olmalıdır ki, şagirdlər müstəqil şəkildə asanlıqla yerinə yetirə bilsinlər. Belə olduqda şagirdlərdə müstəqil işləri yerinə yetirməyə qarşı müsbət münasibətin formalaşması imkanı yaranır.

PEDAQOJİ FƏALİYYƏT VƏ MÜƏLLİM ŞƏXSİYYƏTİNİN PSİXOLOGİYASI

Ağazadə N.A.
Azərbaycan Müəllimlər İnstitutu

Pedaqoji fəaliyyət cəmiyyətin yaşlı üzvlərinin gənc nəsli tərbiyə etməkdən ibarət olan fəaliyyətidir. Pedaqoji fəaliyyət müəllimin təlim, tərbiyə, inkişaf və şagirdlərin təşkili zamanı cəmiyyət tərəfindən irəli sürülən sifarişə müvafiq olaraq şəxsiyyətin formalaşmasına yönəldilmiş peşə fəallığıdır.

Pedaqoji fəaliyyət mürəkkəb fəaliyyətdir. Onun müxtəlif cəhətləri diqqəti cəlb edir. Pedaqoji fəaliyyətin psixologiyasından danışarkən, ilk növbədə, müəllimin əməyini, müəllimin qarşıya qoyduğu məqsədləri, onun pedaqoji fəaliyyət prosesini necə qavraması və həyata keçirməsini, eləcə də öz fəaliyyətinin vəzifəsini, seçdiyi forma və metodların aktuallığını necə dərk etməsini və s. nəzərdə tuturuq.

Pedaqoji fəaliyyətin strukturunda aşağıdakı cəhətləri ayırd edə bilərik:

1 pedaqoji fəaliyyətin motivləri- insanı böyütməklə əlaqədar ictimai tələbat;

2/ pedaqoji fəaliyyətin məqsədi- cəmiyyət üzvlərinin tərbiyəsi;

3/ pedaqoji fəaliyyətin predmeti-insandır. Fəaliyyətin başqa növlərindən fərqli olaraq, pedaqoji fəaliyyətin predmeti özünəməxsus xüsusiyyətə malikdir. Burada əsas cəhət ondan ibarətdir ki, insan öz fəaliyyətinin həm obyekti, həm də subyekti kimi çıxış edir.

4/ müəyyən iş və əməliyyatların məcmuyundan ibarət olan fəaliyyətin özü- ayrı-ayrı öyrədici, inkişafetdirici və tərbiyələndirici iş və əməliyyat;

5/ pedaqoji fəaliyyətin vasitələri- məktəbdə təlim və tərbiyənin məzmunu, forması və metodları;

6/ pedaqoji fəaliyyətin şəraiti- cəmiyyətin böyüməkdə olan gənc nəslin tərbiyəsinə qayğısı, məktəbin maddi cəhətdən təchiz olunması, məktəbin pedaqoji kollektivindəki birlik, məktəbə yüksək səviyyədə rəhbərlik;

7/ pedaqoji fəaliyyətin nəticəsi-şagird şəxsiyyətinin əlamət və keyfiy- yətlərin formalaşması və s.

Bu cəhətlərdən hər biri pedaqoji fəaliyyətin səmərəliliyi üçün əsas amil rolunu oynayır. Pedaqoji fəaliyyət bu cəhətlərə malik olmadan bir fəaliyyət kimi təzahür edə bilməz. Pedaqoji fəaliyyət müəllimin şagirdlərinə təsirini əhatə edir. Pedaqoji ünsiyyət fəaliyyət zamanı müəllim və şagirdlərin əməkdaşlığından ibarətdir.

Psixoloji tədqiqatlar əsasında müəyyən edilmişdir ki, pedaqoji fəaliyyət zamanı müəllim bir deyil, bir neçə məqsəd və vəzifəni yerinə yetirir.

Psixoloqlar həmin məqsədlərin aşağıdakı təsnifatını vermişlər:

1/ cəmiyyətin sosial sifarişindən irəli gələn ümumi ilkin məqsədlər;

2/ təlim fəaliyyətinin spesifikliyindən irəli gələn konstruktiv məqsədlər;

3/ sinfin konkret tərkibi ilə bağlı olan operativ pedaqoji məqsədlər.

Pedaqoji fəaliyyət mürəkkəb və çoxcəhətli bir fəaliyyətdir. Qarşıda duran konkret vəzifələrdən asılı olaraq pedaqoji fəaliyyətin müxtəlif növlərini fərqləndirirlər. Buraya: öyrətmə, tərbiyə etmə,təşkilatçılıq, təşviqatçılıq, özünütəhsil fəaliyyətlərini və s. aid etmək olar. Pedaqoji fəaliyyətin həmin növləri ümumi struktura malikdir.

Ümumiləşdirilmiş şəkildə götürsək, burada 3 komponenti xüsusilə qeyd edirlər:

1/ pedaqoji məqsəd və vəzifələr;

2/ həmin məqsəd və vəzifələri həyata keçirməklə bağlı olan pedaqoji təsirlər;

3/ müəllimin öz pedaqoji fəaliyətini təhlil etməsi ilə əlaqədar olan işləri.

Beləliklə, pedaqoji fəaliyyətin məqsəd və vəzifələri psixi inkişafın müxtəlif cəhətlərini (öyrədici, inkişafetdirici, tərbiyələndirici) əhatə edir. Həmin məqsəd və vəzifələrin ümumi xüsusiyyətləri ondan ibarətdir ki, onlar müəllimə tam hazır şəkildə təqdim edilmir, yaradıcı xarakter daşıyır.

Pedaqoji vəzifələrin həll edildiyi şərait pedaqoji şərait adlanır. Bu cür şərait olmadan, müəllim tərəfindən planlaşdırılmış, düçünülmüş şəkildə olduğu kimi, gözlənilmədən şagirdin davranışı ilə əlaqədar da yarana bilir ki, bu zaman müəllim qeyri-müəyyənlik şəraitində hərəkət etməli olur.

Müəllimin pedaqoji fəaliyyətinin digər mühüm komponenti şagirdlərə təsir etməklə bağlı olan vasitələri seçmək və tətbiq etməkdən ibarətdir.

Bu vasitələri şərti olaraq 3 qrupa bölmək olar:

1/ müəllim tərəfindən təlim materialının məzmununun seçilməsi və işlənməsi (nəyi öyrətmək?);

2/ şagirdlərin imkanlarının müəyyənləşdirilməsi və onların psixi inkişafının yeni səviyyəsinin layihələşdirilməsi (kimi öyrətmək?);

3/ şagirdlərə təsir göstərilən metodların və təşkilati tədbir formalarının seçilməsi və tətbiqi (necə öyrətmək?).

I halda müəllim bir predmetçi (fənn müəllimi), II halda diaqnost, III halda isə o, tədqiqatçı kimi çıxış edir.

Pedaqoji fəaliyyətin III komponenti öz əməyini təhlil etməsi, dərk etməsi, qiymətləndirməsi və təshih etməsindən ibarətdir. Bu cəhət müəllim tərəfindən fəaliyyətin gedişini və onun nəticəsini öyrənməyi, sərf olunan vaxtın səmərəliliyini düzgün müəyyənləşdirməyi, təcrübəni ümumiləşdirməyi, bir sözlə, onları həyata keçirməyi əhatə edir. Nəticədə pedaqoji refleksiya baş verir ki, bu da müəllimi pedaqoji fəaliyyətin səviyyəsini onun əldə olunmuş nəticəsi əsasında öyrənməyə yönəldir.

Müəllimlik peşəsi üçün müəllim şəxsiyyəti əvəzolunmazdır. Müəllim şəxsiyyəti bu peşənin mərkəzində dayanır və onun uğurlu olub-olmaması müəllimin kamilliyindən, elmi dünyagörüşündən, intellektual səviyyəsindən və ünsiyyət keyfiyyətlərindən asılı olur. Müəllimlik peşəsinə verilən ümumi tələblər içərisində müəllim şəxsiyyəti və ona verilən tələblər daha aktualdır.

Şagird şəxsiyyətinin formalaşmasına təsir edən amillər içərisində müəllim şəxsiyyəti əsas yer tutur. Kamil şəxsiyyət sosial-psixoloji fenomen kimi özünün təkrarolunmazlığı, unikallığı, çoxcəhətliliyi, mənəvi-psixoloji, intellektual və ünsiyyət keyfiyyətləri ilə fərqlənir.

Müəllim şəxsiyyəti onun peşə fəallığının mənbəyi və hərəkətverici qüvvəsidir. Pedaqoji fəaliyyət prosesində müəllim şəxsiyyəti, onun əməyinin müvəffəqiyyətini şərtləndirən amillərdəndir.

Müəllim şəxsiyyəti tələb olunan səviyyədə inkişaf edib formalaşmazsa, o, öz fəaliyyətinin məqsədinə uğurlu şəkildə nail ola bilməz. Müəllim şəxsiyyəti pedaqoji fəaliyyət prosesində daha da yetkinləşmiş və kamil bir səviyyəyə çata bilər. Buna nail olmaq üçün müəllimdən coşğun bir həvəs tələb olunur.

Müəllim şəxsiyyəti onun pedaqoji əməyinə istiqamət verir. Müəllim şəxsiyyətinin strukturuna gəldikdə isə buraya: onun əməyinin xarakterini müəyyənləşdirən psixi keyfiyyətlərin, qabiliyyətlərin mürəkkəb vəhdətini və sairəni aid etmək olar. Müəllim şəxsiyyəti özünün istiqamət və motivasiyası, sərvət meyli, qabiliyyəti, yaradıcı mövqeyi, mənəvi keyfiyyətləri ilə xarakterizə olunur.

Müəllim şəxsiyyətinin istiqaməti, ilk növbədə, özünün motivləşmə sferası, ideyaları, dünyagörüşü, əqidə və inamı ilə müəyyən olunur. Burada müəllimin yüksək ideyalılığı və inamının öz peşəsində oynadığı sosial rolu anlamasının səviyyəsini də xüsusi olaraq qeyd etmək lazım gəlir. Bunlar bir növ müəllim şəxsiyyətinin keyfiyyətini təşkil edirlər.

Müəllim şəxsiyyətinin strukturunda özünü göstərən psixi halətlərə və proseslərə gəldikdə onlar epizodik, struktur xarakter daşıyır, bir növ şəxsiyyətin yaranmasında ehtiyat rolunu oynayırlar. Müəllim şəxsiyyətinin strukturunda təcrübə, bilik, bacarıq və adətlər özünəməxsus yer tutur və onun fəaliyyətinin səmərəliliyində mühüm rol oynayır.

Müəllim şəxsiyyətinin struktur komponentləri içərisində ən az dəyişməyə meyli olan onun istiqamətidir. Bu cəhəti dəyişmək, tərbiyə etmək nisbətən çətindir. Müəllim şəxsiyyətinin düzgün formalaşması həlledici əhəmiyyətə malikdir.

Pedaqoji fəaliyyətin müvəffəqiyyətində yüksək keyfiyyətlərə malik olan müəllim şəxsiyyətinin formalaşması mühüm əhəmiyyətə malikdir. Həmin keyfiyyətlər fəaliyyət prosesində tədricən şagirdlərin şəxsiyyətinin əlamətlərinə çevrilir. Müəllimin öz fəaliyyətində müvəffəqiyyət qazanmasında onun əxlaqi və iradi keyfiyyətlərində mühüm yer tutur. Bu keyfiyyətlər möhkəmlənir və müəllimin şəxsiyyətinin daimi əlamətlərinə çevrilir.

Müəllimin iradi qüvvəsinin ən parlaq ifadələrindən biri onun məqsəd yönəlişliyi, daima böyük pedaqoji vəzifələri həll etməyə yönəlməsindən ibarətdir. İradəli müəllim təkcə şagirdin qarşısına tələb qoymaqla kifayətlənmir, eyni zamanda həmin tələbin dəqiq və vaxtında yerinə yetirilməsinə nəzarət edir.

Pedaqoji işin müvəffəqiyyəti üçün müəllimdə dözümlülük, hövsələnin olması zəruridir. Əgər müəllim özünü ələ ala bilmirsə, o sinfi də ələ ala bilməyəcəkdir. Müəllim özünü ələ ala bilməyi, öz hərəkətlərinə nəzarət etməyi bacarmalıdır.

YENİ TƏLİM TEXNOLOGİYALARI ƏSASINDA LİRİK ƏSƏRLƏRİN ÖYRƏDİLMƏSİ

Quliyeva S.Ə.
Sumqayıt Dövlət Universiteti

Ədəbiyyat proqramında xeyli yer tutan lirik şeirlərin qavranılması və öyrənilməsindəki özünəməxsusluq müəllimləri daim ciddi düşündürür. Axı poeziyanı duymağı, sevməyi, onunla yaşamağı, onu təsirli ifa ilə çatdırmağı şagirdlərə öyrətməliyik. Poeziya nümunələri sözə daha həssas münasibət, poetik dilə, onun çalarlarına xüsusi yanaşma tələb edir.

Hər hansı bir şeirdəki güclü ahəng, hisslərin, duyğuların parlaq ifadəsi şagirdləri cəlb etməlidir. Bu mənada Əhməd Cavadın "Göygöl" şeirinin nümunəsinə diqqət edək. IX sinifdə bu şeirin tədrisinə iki saat vaxt ayrılır. Məktəb təcrübəsində, adətən birinci saat məzmunun öyrənilməsinə, ikinci saat isə təhlilə həsr edilir. Həmin şeir həm VIII sinifdə, həm də IX sinifdə tədris edilir. Fikrimizcə, şeirin mayasında güclü bədiilik var. Lakin təəssüflə qeyd etmək istərdim ki, bu bədiiliyi dərs prosesində müəllimlər lazımi qaydada çatdıra bilmirlər. Bunun üçün müəllimdən xüsusi zövq, diqqət və həssaslıq tələb olunur. Şeirin qavranılmasının bir başqa çətin xüsusiyyəti isə ordakı mətnaltı məqamlara diqqətin ayırılmamasıdır. Azərbaycanın müstəqilliyni, üç rəngli bayrağımızı hər şeydən üstün tutan Əhməd Cavad bütün hiss və

həyəcanlarını bu şeirdə verməyi bacarmışdır. Müəllim də müstəqil Azərbaycanın gələcəyinə - uşaqlara bu məsələləri öyrədəndə bu vətənpərvər şairin duyğularını nəzərə almalıdır.

Şeiri yalnız peyzaj lirikasının nümunəsi kimi təqdim etmək onun məğzinin, mənasının birtərəfli çatdırılması deməkdir. Bu da tədris prosesində şagirdlərə Əhməd Cavad və onun şəxsiyyəti haqqında çatdırılan məlumatların onlarda marağa səbəb olmamasına, onun mübarizəsinə və yaradıcılığına qarşı soyuq münasibətə gətirib çıxara bilər. Biz nəzərə almalıyıq ki, azadlığımız uğrunda hər şeydən imtina edən bu əziz insanların xatirəsinə bu cür hörmətsizlik yolverilməzdir.

Şeir haqqında proqramda oxuyuruq: "Göygöl" şeirində Göygölün gözəlliyinin bədii təsviri. Əsərdə şair nisgili...".

Dərsdə bu nisgilin yaranma səbəbi açıqlanmalı və bunu şagirdlər bütün aydınlığı ilə dərk etdirilməlidir. Bu, şairin əsərdə tutduğu yola uyğun həyata keçirilməlidir; müəllif hər bənddə ilk növbədə birbaşa Göygölün gözəlliyinə diqqəti cəlb edir, ona heyranlığını ifadə edir, sonra isə böyük ustalıqla, ikibaşlı deyimlə nisigilini, gizli niyyətini əks etdirir.

Əsərin daxili mənasını şagirdlərə müstəqil şəkildə dərk etdirmək üçün onun təhlilinə ayrılan saatı daha səmərəli təşkil etmək lazımdır. Müəllim çalışmalıdır ki, şeirdəki ürəyəyatan sözləri, obrazlılığı ilə diqqəti cəlb edən ifadələri şagirdlərdə bədii zövqün formalaşmasına, estetik tərbiyənin zənginləşməsinə yönəltsin.

ƏDƏBİYYAT DƏRSLƏRİNDƏ MƏZMUN XƏTLƏRİNİN ROLU

Nəbizadə G.M.
Sumqayıt Dövlət Universiteti

Kurikulum təhsili şagirdlərdə əzbərçilik yolu ilə deyil, şagirdin sərbəst düşünməsi, öyrəndiklərini özünün qavradığı şəkildə tətbiqetmə bacarığını inkişaf etdirə bilir, şagirdin məntiqi düşüncələrini təkmilləşdirir. Kurikulum mənşəcə latın sözü olub lüğəti mənası "yol", "istiqamət" deməkdir, yəni şagirdlərə müasir təhsil sisteminin istiqamətlərini göstərir. Kurikulum dünya təhsil sistemində, eyni zamanda Azərbaycanda da tətbiq olunan yeni hadisədir, yəni müasir təhsil formasıdır. Kurikulum təlim prosesi ilə bağlı bütün fəaliyyətlərin təşkilini və həyata keçirilməsini əks etdirən konseptual, çoxşaxəli sənəddir.Bildiyimiz kimi, cəmiyyət gənclərin, gənclər isə müəllimlərin əsəridir, məhz müəllimlərin gərgin və ağır zəhməti nəticəsində gələcək uğurların bünövrəsi, təməli qoyulur. Ona görə bütün yeniliklərdən və qabaqcıl təcrübədən şagirdlərin inkişafi, savadlanması, dünyagörüşünün artmasıüçün istifadə etmək lazımdır. Müəllim gələcək cəmiyyətin memarıdır. Müəllim üçün qaranlıq olan hər bir şey şagird üçün zülmətdir.

Kurikulum təhsilin məzmunu, təşkili və qiymətləndirilməsi ilə bağlı bütün məsələləri özündə əks etdirir. Bu sənədin mahiyyətində əsasən şəxsiyyət yönümlülük, şagird yönümlülük, nəticə yönümlülük,tələb yönümlülük, inteqrativlik, qiymətləndirmə standartları və mexanizmləri dayanır.Fənn kurikulumunda girişdən sonra birinci bölməni "fənnin məzmunu" təşkil edir. Buraya daxildir: ümumi təlim nəticələri, məzmun xətləri üzrə ümumi təlim nəticələr, məzmun standartları və s.

Fənn kurikulumunda fənlər üzrə məzmun xətləri verilmiş, o cümlədən ədəbiyyat fənni üzrə 3 məzmun xətti müəyyənləşdirilmişdir:

1.Ədəbiyyat və həyat həqiqətləri

Şagird:müxtəlif janrlarda yazılmış mətnləri uyğun hissələrə ayırır, müvafiq plan tərtib edir, məzmununu müxtəlif formalarda nəql edir;

- bədii nümunələri ideya-məzmununa uyğun ifadəli oxuyur, məzmunu mənimsədiyini nümayiş etdirir;
- bədii nümunələri məzmun və ideya istiqamətinə, obrazların səciyyəsinə, sənətkarlıq xüsusiyyətlərinə, qəhrəmanları əməllərinə görə təhlil edir;
- şifahi və yazılı ədəbiyyatın oxşar və fərqli cəhətlərini, xarakterik xüsu-siyyətlərini konkret niimunələr əsasında izah edir, fikirlərə aydınlıq gətirir;
- bədii nümunədəki təsvir və ifadə vasitələrinin rolunu aydınlaşdırır.

2.Şifahi nitq

Şagird: nitqində düzgün tələffüz qaydalarına əməl edir, söz ehtiyatından səmərəli istifadə etməklə, öz düşüncələrini aydın şəkildə çatdıra bilir;

- bədii nümunəiərin kollektiv müzakirəsi zamanı fikirlərə tolerant, obyektiv və ədalətli münasibət bildirir, başqalarının fikrinə hörmətlə yanaşır, ümumi rəyə gəlməyi bacarır;
- bədii nümunələrlə bağlı fikirlərini aydın, ardıcıl, məqsədyönlü, yığcam, bədii təsvir və ifadə vasitələrindən istifadə etməklə şərh edir, fikirlərini dəqiq çatdıra bilir.

3. Yazılı nitq

Şagird:

- yazılı nitqində məzmuna uyğun üslub müəyyənləşdirir, orfoqrafiya qaydalarına əməl edir, yazılı nitq bacarıqlarını nümayiş etdirir;
- mətni fakt və dəlillərlə zənginləşdirməyə çalışır, mövzu ilə bağlı əldə etdiyi əlavə məlumatları əlaqələndirir, problemlərə münasibət bildirir, bacarığını göstərməyə çalışır.

MOTİVASİYANIN YARADILMASINDA FƏAL TƏLİM ÜSULLARININ SPESİFİK XÜSUSİYYƏTLƏRİ

Paşayev E.C.
Sumqayıt Dövlət Universiteti

"Fəal təlim üsulları" yaxud "interaktiv iş üsulları" adı ilə tanınan bu üsullar müasir dərs modelinin əsas özəyini təşkil edir. İnteraktiv sözünün mənası ingilis dilində *qarşılıqlı əlaqə*, *fəaliyyət göstərmək* kimi mənaları ifadə edir. Motivasiyanın yaradılmasında bu təlim üsullarının rolu xüsusi əhəmiyyətə malikdir. Çünki, kurikulum sistemi ilə qurulan dərs modellərində motivasiya yaradılarkən, fəal təlim üsullarından istifadə olunur. Belə ki, bu iş üsullarından istifadə etməklə müəllim , bir növ mövzunun adını, həmçinin, demək istədiyi fikri şagirdlərin diqqətinə çatdırmaq üçün lövhədə mövzuya uyğun şəkildə fəal təlim üsullarının mexanizmindən istifadə edir və şagirdlərdən tələb olunan cavabı istəyir. Beləliklə də, motivasiya bu üsulların əsasında təşkil edilmiş olur. Z.Veysovaya görə, "motivasiya qismində ortaya gətirilmiş problem və onun həlli tələbatı fəal dərsdə təfəkkür prosesini işləməyə sövq edən və şagirdlərin idrak fəallığını artıran amil kimi çıxış edir". Elə bir müasir dərs modeli olmasın ki, orada bu iş üsullarından istifadə edilməsin. Çünki bu təlim üsulları dərsdə şagirdlərin idrak marağını gücləndirir, onları yeni axtarışlara sövq edir.

Fəal təlim üsulları üzərində öz dərsini quran hər bir müəllim əvvəlcədən bu problem ətrafında evdə xüsusi bir şəkildə hazırlaşmalı, şagirdlər qarşısında sinifdə dərsini necə aparacağı barədə düşünməlidir. Zahirən bu məsələ asan görünsə də, lakin problemin daxilinə endikdə, həqiqətən, məsuliyyətli bir iş olduğunu anlamaq olur. Bu təlim əsasında qurulan dərsin məsuliyyətini dərk edən hər bir müəllim bu işə ciddi və yaradıcı şəkildə yanaşmalıdır. Müəllim dərsə hazırlaşarkən fikirləşməlidir ki, hansı üş üsullarından, təchizatlardan istifadə edəcək. İş üsullarını elə seçməlidir ki, bunlar şagirdlərin idrak marağını artırsın, onları motivasiyaya sövq etsin, düşündürsün. Ən əsası isə bu iş üsulları şagirdləri yeni axtarışlara aparsın, onlarda tədqiqatçılıq meyillərini gücləndirsin və yeni biliklər əldə etməyə kömək etsin.

ƏDƏBİ ƏSƏRLƏRİN SƏNƏTKARLIQ XÜSUSİYYƏTLƏRİNİN ÖYRƏDİLMƏSİNDƏ YARANAN PROBLEMLƏR

Məmmədli N.R.
Sumqayıt Dövlət Universiteti

Söz sənətini duymaq, söz əzabını hiss etmək onu yaratmaq qədər çətin bir məsələdir.Duyumdan başlayan söz sənətinin əsas xüsusiyyətlərini məktəb yaşlarından şagirdlərə öyrətmək çox mühüm və ciddi, həm də çətin bir işdir. Bu vacib məsələnin həll edilməsində ədəbiyyat bir təlim fənni kimi məktəbdə geniş imkanlara malikdir. Lakin ədəbiyyat dərsləri hələ də bəzi hallarda çox quru tədris olunur, çılpaq təhlilə geniş yer verilir. Bu isə ədəbiyyatın estetik təsir gücünü azaldır, onun bədii xüsusiyyətlərinin və müxtəlif şəkil ayrılmalarının ətraflı mənilsənilməsinə və kifayət qədər ortaya çıxarılmasına mane olur.

Məktəbdə ədəbi əsərlərin sənətkarlıq xüsusiyyətlərinin təhlili metodikanın mühüm problemlərindəndir. Məktəblilərin ədəbi inkişafı sənətkarlıq məsələlərini öyrənmək və mənimsəməklə sıx bağlıdır. Məlumdur ki, ədəbiyyatşünaslıq həmişə məktəbdə ədəbiyyat tədrisinin elmi əsası olmuşdur.

Lakin ədəbiyyat dərslərində aparılan bədii təhlillə ümümi ədəbiyyatşünaslıq araşdırmalarını eyniləşdirmək olmaz. Biz məktəbdəki bədii təhlilə ədəbiyyat proqramının tələbi əsasında yanaşmalıyıq. Bizcə ədəbi təhlilin məqsədi əsas nəzəri anlayışları, sənətkarlıq məsələlərini şagirdlərin bədii qavrayışı səviyyəsində aydınlaşdırmaqdan ibarət olmalıdır.

Ədəbiyyat müəlliminin vəzifəsi ədəbi əsərlərin bədii xüsusiyyətlərinin öyrənilməsinə şagirdlərin marağını artırmaq, onlara bədii dil, üslub, sujet, kompozisiya, ədəbi növlər və yaradıcılıq metodları haqqında düzgün elmi biliklər verməkdir.

Ədəbi əsərlərin bədii dil xüsusiyyətlərinin öyrədilməsində dil faktorunun əhəmiyyəti əsərin sənətkarlıq xüsusiyyətlərinin və müəllifin sənətkarlıq qabiliyyətinin araşdırılmasında əsas rol oynayan ünsür kimi özündə göstərir. Buna görədir ki, bədii ədəbiyyat sahəsində müəyyən səviyyədə biliyə malik olmadan, sənət tarixinə aid dil faktlarını lazimi qədər mənimsəmədən şagird tərəfindən bədii əsərin başa düşülməsi imkanı xeyli məhdudlaşa bilər.

Son illərdə bir çox elm sahələri – sosiologiya, psixologiya, üsıubiyyat, estetika bədii əsərlərin sənətkarlığının dərk olunması probleminə xüsusi əhəmiyyət verir. Heç şübhə yoxdur ki, N.Gəncəvi, M.Füzuli, M.P.Vaqif, S.Vurğun kimi böyük şairlərin əsərlərinin yaşaya bilməsinə səbəb təkcə onların ideyası, bəşəri problemləri həll etməsi deyil, həm də həmin klassiklərin əsərlərinin yüksək poetik ilham və sənətkarlıqla yaradılmasıdır. Odur ki, bədii əsərlərin təhlili zamanı sənətkarlıq, bədiilik məsələlərinin izahına xüsusi diqqət yetirilməlidir. Bunsuz Füzuli istedadının dərəcəsi, Füzuli dühasının böyüklüyü natamam qalar və şagirdlərə onu birtərəfli anlatmış olarıq.

İndi ədəbiyyatı dərk etmək probleminin həlli üçün psixoloq, ədəbiyyatşünas, sosioloq və metodistlərin əlbir işləməsi zəruriyyəti yaranmışdır. Ədəbiyyat metodikasının vəzifəsi şagirdlərin ədəbi inkişafından asılı olaraq onlar tərəfindən bədii əsərlərin sənətkarlığının dərk olunmasının xüsusiyyətini çıxarmaqdan, bədii əsərin tədrisi zamanı dərketməni təkmilləşdirməyin yollarını müəyyənləşdirməkdən ibarət olmalıdır.

MÜASİR TƏHSİLDƏ MÜƏLLİM ŞAGİRD MÜNASİBƏTLƏRİ

Novruzova S.S.
Sumqayıt Dövlət Univeristeti

Təhsilin müasir vəzifələri hər şeydən əvvəl şagirdin tam bir şəxsiyyət olaraq sərbəstlik əldə etməsini tələb edir.

Məktəbdə şagird üçün elə demokratik bir şərait yaradılmalıdır ki, təlim əməyi və tərbiyəvi təsirlər şagird üçün cansıxıcı fəaliyyətə çevrilməsin. Şagird öz bacarığını, nəyə qadir olduğunu nümayiş etdirə bilsin. Bunun üçün məktəbdə müəllim-şagird münasibətləri səmimiyyətə və qarşılıqlı etimada əsaslanmalıdır.

Bəs müasir dövrün müəllim-şagird münasibətləri necədir?

Fikrimcə, müəllim ilk növbədə yaxşı bir psixoloq olmalıdır. Hər bir şagirdin psixologiyasına yaxından bələd olmalıdır. Əgər biz müəllimlər sinfə daxil olub, ən azı 25 şagirdə bilik vermək istəyiriksə, ilk növbədə o şagirdlərin hər birini dərindən tanımalıyıq. Şagirdlərin hamısı eyni dünyagörüşünə, eyni tərbiyəyə, eyni biliyə sahib ola bilməz. Gəlin unutmayaq ki, hər bir şagirdin məxsus olduğu bir ailə və onun fərdi xüsusiyyətləri mövcuddur. Deməli, müxtəlif ailələrdən məktəbə müxtəlif şagirdlər gəlir. Bu da yuxarıda qeyd etdiyimiz kimi müxtəlif şagirdlər deməkdir.

Müəllim-şagird münasibətlərinin mərkəzində müəllim dayanır. Xalq özünün ən qiymətli, ən əziz sərvətini - övladlarını müəllimə etibar edir. Şagird şəxsiyyətini formalaşdırmaq vəzifəsini həyata keçirən müəllim özü hərtərəfli şəxsiyyət kimi təşəkkül tapmalı, hər bir şagirdə humanistcəsinə yanaşmalı, eyni zamanda müasir tələblərlə ayaqlaşan bir ziyalı olmalıdır.

Təcrübə göstərir ki, şagirdə müəllim şəxsiyyətinin təsirini heç nə ilə əvəz etmək mümkün deyildir. Müəllimin sözü ilə əməli arasında fərq olmamalıdır.

Respublikamızın təhsil sisteminin müasirləşməsi, informasiya əsrinin tələblərinə uyğunlaşması, təhsilin məqsəd və vəzifələrinə yeni baxış və münasibətlərin formalaşması müəllim – şagird münasibətinin inkişafıdır. Hər bir müəllimin qarşısında dayanan çətin və olduqca məsuliyyətli işi uğurla başa çatdırarsa, gənc nəslin düzgün yetişməsi də yetərlidir.

İKT-dən təlim prosesində geniş istifadə etmək üçün yaradılan çoxsaylı texnoloji proqramlar pedaqoji texnologiyaları ilə uzlaşdırıldıqda və birlikdə istifadə edildikdə şagird düşüncəsi əyanilikdən,

zəngin bilik və məlumat bazasından yararlanaraq sürətlə öz bilik dünyasını qurur. Müəllim təkcə özü şagirdlərdə təlim motivləri formalaşdırmaqla kifayətlənməməli, həmçinin şagirdlərin özünün özünü motivləşdirməyə cəhd etməsinə də çalışmalıdır. Bu vacib məsələ olduğundan müəllimlər onun metodika və texnologiyalarını mükəmməl bilməlidirlər.

Hazırkı dövrün müəllimi hərtərəfli biliyə, elmi-texniki nailiyyətləri tətbiq edə bilmək bacarığına malik olmalıdır. Şagirdin də məhz bu tələblər səviyyəsinə hazırlanması onun pedaqoji əməyinin əsas məqsədi olmalıdır.

İstər sinif, istərsə də məktəb şagird kollektivi yekcins deyildir. Burada yaxşı nümunəvi sayılanlarla yanaşı "çətin", "intizamsız" şagirdlərə də rast gəlinir. Bəzi hallarda belə şagirdlə iş faydasız görünür, bir çox müəllimlər isə belələri ilə məşğul olmağı əhəmiyyətsiz hesab edirlər. Şagirdlərin təlim marağının azadlığı hazırkı dövrdə bu cür faktlara daha çox rast gəlinir.

Müəllim cəmiyyətin güzgüsüdür. Müəllim yeganə şəxsdir ki, cəmiyyət öz övlardarının 16 ilini ona həvalə edir. İlk dəfə məktəbə qədəm qoyan şagirdin biliyi, təlim-tərbiəysi, vətənpərvərlik ruhunda böyüməsi və ən nəhayət, bir insan kimi formalaşması məhz müəllimlərin öhdəsinə düşür.

Təhsil sahəsində qoyulan bütün məqsədlərin taleyi müəllim tərəfindən qoyulan və onun iştirakı ilə şagirdlərlə birlikdə həyata keçirilən təlim məqsədləri ilə bilavasitə bağlıdır. Buna görə də pedaqoji və psixoloji fəaliyyəti aktual hesab etmək lazımdır. Hər bir şagird məktəbə bir fərd kimi gəlir. Onun cəmiyyətdə bir şəxsiyyət kimi formalaşmasını təmin etmək müəllimlərin borcudur.

Müstəqil Azərbaycanımızın gələcəyi olan şagirdlərlə münasibətdə müəllimlər olduqca diqqətli olmalıdırlar. Pedaqoji əməkdaşlıq elə qurulmalıdır ki, hərtərəfli şəxsiyyət tərbiyə etmək mümkün olsun. Bunun üçün hər bir müəllim zəhmətə qatlaşmalı, müəllim-şagird münasibətlərini düzgün təşkil etməlidir.

Müəllim elm-bilik xəziənəsinin qapısını şagirdlərin üzünə açan bir varlıqdır. Gəlin unutmayaq ki, ən ali şəxsiyyətlər də, ən nüfuzlu alimlər də, mühəndislər də məhz müəllim tərəfindən cəmiyyətə hazırlanır.

Arzu edirəm ki, müstəqil Azərbaycanın fədakar müəllimləri hər zaman əmin-amanlıq içərisində yaşasın! Çətin və məsuliyyətli olduğu qədər də şərəfli olan bu işdə bütün müəllimlərə səbr arzu edirəm.

Əziz müəllimlər, gəlin müəllim-şagird münasibətlərimizi elə quraq ki, sözün əsl mənasında digər dövlətlərə də hər zaman nümunə olaq!

AZƏRBAYCAN RESPUBLİKASININ ÜMUMTƏHSİL MƏKTƏBLƏRİ ÜÇÜN COĞRAFİYA FƏNNİ ÜZRƏ TƏHSİL PROQRAMLARI (KURİKULUMU)

Əhmədova A.N.
Sumqayıt Dövlət Univeristeti

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 15 iyun 1999-cu il tarixli, 168 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı" ölkəmizdə təhsil islahatlarının həyata keçirilməsi üçün ilkin təkan oldu. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il tarixli, 233 nömrəli qərarı ilə "Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulumu)" kimi dövlət əhəmiyyətli mühüm sənəd qəbul edildi. Bu sənədə əsasən fənlər üzrə təhsil proqramlarının (kurikulumların
hazırlanmasına başlanıldı və bu iş müvəffəqiyyətlə davam etdirilməkdədir. "Təhsil haqqında" zərbaycan Respublikasının Qanununun qüvvəyə minməsi ilə əlaqədar olaraq Milli Kurikulum sənədinə əlavə və dəyişikliklər edilməklə "Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları(kurikulumları)" qəbul edildi. Bütün fənlər kimi, Coğrafiyadan da hazırlanmış yeni təhsil proqramı (kurikulumu) bir daha nəzərdən kecirildi.

Coğrafiya fənni üzrə təhsil proqramının (kurikulumun) xarakterik cəhəti ondan ibarətdir ki, təlim prosesində şagirdlərin yaddaşının təkcə yeni elmi biliklərlə zənginləşdirilməsinə deyil, həm də təfəkkürünün, şəxsi keyfiyyət və qabiliyyətlərinin inkişaf etdirilməsinə, həyat üçün zəruri olan bacarıqların qazanılmasına imkan yaranır, şagirdyönümlülüyə, nəticəyönümlülüyə,
şəxsiyyətyönümlülüyə, tələbyönümlülüyə istinad olunur.

Coğrafiya fənni üzrə təhsil proqramının (kurikulumun) nəticəyönümlü, şagirdlərin meyil, maraq və qabiliyyətlərinə əsaslanan, onların potensial imkanlarını nəzərə alan, fənnin xarakterik xüsusiyyətlərini, məqsəd və vəzifələ rini, fənnin məzmununu, təlim strategiyalarını və şagird nailiyyətlərinin qiymətləndirilməsini özündə əks etdirən konseptual bir sənəddir.

Coğrafiya fənni üzrə təhsil proqramının (kurikulumun) ən mühüm xarakterik cəhəti onun nəticəyönümlü olmasıdır. Bu sənədin hazırlanması zamanı, bir qayda olaraq, bütün təlim prosesində əldə edilməsi nəzərdə tutulan nəticələr əvvəlcədən müəyyənləşdirilir və məzmuna gətirilir. Bu nəticələr həm məzmunu ifadə edir, həm də qiymətləndirmə standartlarının hazırlanmasına şərait yaradır. Nəticələrin əvvəlcədən müəyyən olunması onları əldə etməyə yönəlmiş fəaliyyətlərin inkişafını izləmək və istiqamətləndirmək üçün imkan yaradır. Coğrafiya fənni üzrə təhsil proqramındakı (kurikulumdakı) təlim nəticələri ətrafda baş erən təbii hadisə və proseslərin yaranma səbəblərinin, inkişaf xüsusiyyətlərinin, onların ərazi zrə paylanma qanunauyğunluqlarının, Yer kürəsi əhalisinin və ölkələrin sosial-iqtisadi inkişafına və qlobal problemlərə dair bilik və bacarıqların mənimsənilməsinə yönəlmişdir.

Coğrafiya fənni üzrə təhsil proqramının (kurikulumun) özünün daha mürəkkəb strukturu, məzmunu və əhatə etdiyi sahələrin miqyası ilə seçilir. Şagirdlərin dünyada baş verən təbii, ictimai-siyasi proses və hadisələri dərk etməsinə, təbiət-cəmiyyət əlaqələrini, insanların müxtəlif xarakterli fəaliyyətlərini, coğrafi mühitin məskunlaşma və təsərrüfat fəaliyyəti üçün əlverişlilik səviyyəsini qiymətləndirməsinə və məntiqi mülahizələr irəli sürməsinə imkan verir.

Coğrafiya fənni üzrə təhsil proqramı (kurikulumu) hazırlanarkən fənnin spesifik xüsusiyyətləri əsas götürülmüşdür. Nəzərə alınmışdır ki, bu fənnin vasitəsilə şagirdlərdə Yer planetinin Günəş sistemində mövqeyi və onun fiziki -coğrafi nəticələrinə, coğrafi təbəqədə ərazi dəyişmələrinin əsas qanunauyğunluqları və bununla əlaqədar Yer səthi təbiətinin qlobal, müasir, ekoloji sistemlərinin yaranması xüsusiyyətlərinə, təbiətdə baş verən təbii hadisə və proseslərin meydana gəlmə səbəblərinin inkişaf mexanizminə, onların ərazi üzrə paylanma qanunauyğunluqlarına, cəmiyyətin sosial-iqtisadi inkişafını təmin etmək üçün təbii ehtiyatlardan səmərəli istifadənin və ətraf mühitin mühafizəsinin mümkün yollarına dair bilik və bacarıqlar formalaşdırılır.

Coğrafiya fənni kurikulumu əsasında insanın məkanda fəaliyyətinin təşkili, ona təsir edən təbii, sosial-iqtisadi və siyasi amillərin sosial-iqtisadi sistemlərin fərqləndirici cəhətləri müqayisə olunur. Bunun əsasında təhlili və ərazidə formalaşan müxtəlif miqyaslı şagird dünyada cərəyan edən qlobal təbii və sosial-iqtisadi proseslərin insan fəaliyyətinə nə dərəcədə təsir etməsini kompleks şəkildə təhlil edərək proqnozlaşdırır. Coğrafiya fənni üzrə təhsil proqramı iqtisadi və fiziki coğrafiyanı kompleks şəkildə öyrənməyə imkan verir və şagirdlərdə məlumatları təhlil etmək, statistik iqtisadi göstəriciləri müqayisə etmək, müvafiq nəticələr çıxarmaq, texniki -iqtisadi hesablamalar aparmaq, diaqramlar və qrafiklər qurmaq, xəritə oxumaq bacarıqlarının formalaşdırılmasını, ətraf mühitə həssas və qayğıkeş münasibətin, hissi-emosional keyfiyyətlərin yaranmasını təmin edir.

Coğrafiya fənni kurikulumunda təbiət-cəmiyyət əlaqələrinə dair biliklər əsasında şagirdlərdə məntiqi və yaradıcı təfəkkürün inkişaf etdirilməsi nəzərdə tutulur. Onlarda tədqiqatçılıq bacarığı, fikirlərini ümumiləşdirərək təqdimatlar etmək, proqnoz və referatlar hazırlamaq, təbiətdə və cəmiyyətdə baş verən hadisə və prosesləri təhlil edib qiymətləndirmək bacarıqlarının formalaşdırılması mühüm istiqamətlər kimi diqqət mərkəzində saxlanılır. Fənnə aid nəticələr 3 məzmun xətti üzrə müəyyən edilir: coğrafi məkan, təbiət, cəmiyyət. Müəyyən olunmuş məzmun xətlərinin köməyi ilə şagirdlərin şüurunda əhatə olunduqları təbiətin vahid, bütöv və bölünməz obrazı yaradılır. Şagird əvvəlcə yaşadığı Yer kürəsini bir planet kimi öyrənir, onun Günəş və öz oxu ətrafında hərəkətinin coğrafi nəticələrini araşdırır. Sonra Yer kürəsinin quruluşu, relyefi, coğrafi təbəqəsi, təbiəti, iqtisadiyyatı, əhalisi, sərhədləri haqqında müəyyən biliklər alır və bu bilikləri kontur xəritə, atlas, qlobus və digər məzmunlu xəritələr üzərində tətbiq edir, diaqramlar qurur, statistik göstəricilərdən istifadə edir, cədvəllər çəkir.Fənnin əhəmiyyəti, məqsəd və vəzifələri.

Coğrafiya fənni şagirdlərin coğrafi təbəqənin əmələ gəlməsi və fəaliyyət mexanizmini, təbəqədə mövcud olan inkişaf qanunauyğunluqlarını dərk etməsinə, Yer kürəsində təbii komplekslərin əmələ gəlməsini, təbiətdə baş verən coğrafi hadisələrin və təbii proseslərin başvermə səbəblərini izah etməsinə imkan verir. Günəş sistemində Yer planetinin mövqeyini və bununla bağlı hadisələri müşahidə etməyə şərait yaradır. Bu fənn Yerin təbii imkanlarının iqtisadiyyatın inkişafına təsirinin, onlardan səmərəli istifadə olunmasının, təbii resurslarla təminat sahəsində yaranan problemlər və onların həlli yollarının, təsərrüfatın inkişafı nəticəsində təbii komplekslərdəki qlobal ekoloji problemlərin nəticələrinin öyrənilməsində əhəmiyyətli rol oynayır. Coğrafiya fənninin ümumtəhsil məktəblərində tədris olunmasının başlıca məqsədi şagirdlərdə Azərbaycanın təbii şəraiti, təbii ehtiyatları, əhalisi və demoqrafik vəziyyəti, dünya ölkələri ilə müqayisədə Azərbaycanın iqtisadi və sosial-coğrafi xüsusiyyətləri, qloballaşma rosesində iştirakı barədə təsəvvürlər yaratmaqla, dünyanın səbəb-nəticə əlaqələri zəminində kompleks şəkildə qavranılması, ətraf mühitin antropogen dəyişilməsinin bəşəriyyətin

inkişafına təsiri ilə bağlı biliklər, ekoloji problemlərə həssas münasibət, vətəndaşlıq mövqeyi formalaşdırmaqdan, onların idrak qabiliyyətini, iqtisadi təfəkkürünü və ekoloji mədəniyyətini inkişaf etdirməkdən ibarətdir.

Ümumiyyətlə, coğrafiyanın tədrisi vasitəsilə şagirdin:ümumi orta təhsil səviyyədə coğrafi təbəqənin əhəmiyyətini və onun mühafizəsinin həyat üçün vacibliyini, təbii mühiti təşkil edən komponentlərin əsas xüsusiyyətlərini, təbiətdəki coğrafi hadisələrin başvermə səbəblərini və yerləşmə qanunauyğunluqlarını bilməsi, xəritə və plan üzrə təhlillər aparması, xəritədən, coğrafi məlumatlardan, statistikadan istifadə etməklə alınmış nəticələrə dair diaqramlar, cədvəllər qurması;tam orta təhsil səviyyədə ümumi orta təhsil səviyyəsindəki fəaliyyət istiqamətləri dərinləşdirilməklə coğrafi təbəqənin tərkib hissələrinin inkişaf qanunauyğunluqlarını, insan və təbiətin qarşılıqlı əlaqəsini, təbii kompleksləri müqayisəli təhlil etməsi, onlarda baş verən dəyişikliklərin səbəblərini nümunələr əsasında şərh edərək gələcək üçün proqnozlar verməsi, ətraf mühitdə baş verən dəyişiklikləri müşahidə etmək üçün təcrübələr qoyması, sınaqlar keçirməsi, onların nəticələrini ümumiləşdirib təqdim etməsi, geosiyasi dəyişiklikləri təhlil etməsi, bu dəyişikliklərin Azərbaycana təsiri barədə mülahizələr irəli sürməsi, dünya ölkələrinin təbiəti, təbii ehtiyatları, əhalisi, iqtisadi inkişaf meyilləri haqqında əlavə məlumatlar toplaması və sistemləşdirməsi təmin olunur.

AZƏRBAYCAN DİLİNİN TƏDRİSİNDƏ YEİ TƏLİM TEXNOLOGİYALARINDAN İSTİFADƏ

Rzayev E.Z.
Sumqayıt Dövlət Universiteti

Son dövrlərdə ölkəmizdə təhsil sahəsində aparılan islahatlar, həyata keçirilən dövlət proqramları tədris prosesinin keyfiyyətinin daha da yaxşılaşdırılmasına və gənc nəslin azad fikirli bir şəxsiyyət kimi formalaşmasına münbit şərait yaradır. Təhsilsahəsində baş verən yeniliklər müəllim-şagird münasibətlərində, idarəetmədə böyük dəyişikliklərə səbəb olur.Tədris prosesində qabaqcıl pedaqoji texnologiyalardan istifadə, interaktiv təlim metodlarının tətbiqi müəllimin işini asanlaşdırır, fənnə marağın artmasına, təlim prosesinin daha da inkişaf etməsinə səbəb olur. Yeni təlim texnologiyalarından səmərəli istifadə etməklə Azərbaycan dilinin tədrisində daha yüksək nəticələr əldə etmək mümkündür.

Ana dilini yaxşı bilmədən tədrisi bu dildə aparılan bütün digər fənləri mənimsəmək qeyri-mümkündür. Ona görə də istər orta, istər ali məktəbdə Azərbaycan dilinin incəliklərini öyrədən müəllim öz məsuliyyətini dərk etməli, işinə həssas və diqqətli yanaşmalıdır.

Mövzunu mənimsətmək,mövzu haqqında şagirdlərdə müstəqil fikir formalaşdırmaq,məqsədə nail olmaq üçün düzgün metod,priyom, texnologiyaları seçmək, yerli-yerində istifadə etmək lazımdır. Bu şərtlərə əməl olunduğu halda dərsin keyfiyyətindən və tədrisdəqarşıya qoyulan məqsədə nail olmaqdan danışıla bilər.

Elmi araşdırmalar göstərir ki, insan bütün ömrü boyu qazanılan məlumatın təxminən 70% ni 6 yaşa qədər əldə edir.Maraqlısı ondan ibarətdir ki, məktəbə daxil olduqdan sonra uşağın idrak fəallığı mühim dərəcədə ləngiməyə başlayır. Bu nəyə görə baş verir? Səbəb çox sadədir.Məktəbə qədər ki, dövrdə uşaq dünyanı bir tədqiqatçı kimi dərk edir: o suallar verir və suallara cavab tapmaq üçün imkanı daxilində olan müxtəlif mənbələrdən istifadə edir və ilk növbədə, öz təcrübəsinə əsaslanır. Onu əhatə edən dünyanı müstəqil dərk edərək uşaq öz maraqlarına görə fəaliyyət göstərir.Uşaq məktəbə başladıqda isə artıq ondan tələb ediləni öyrənməyə məcbur edirlər.Şagirdin bilikləri hazır şəkildə əldə etməsi onun idrak fəallığında ləngiməyə gətirib çıxarır.Fənlərin tədrisində əzbərçiliyə üstünlük verilməsi həmin şagirdlərin gələcəkdə cəmiyyətdə öz mövqeyini tuta bilməməsinə belkə də birinci səbəbdir.Dünyanın inkişaf etmiş ölkələrində isə əksinə olaraq ilk növbədə uşaqların idrak fəallığının təfəkkürünün inkişaf etdirilməsinə əhəmiyyət verilir.Bunun səbəbini isə bu cür izzah edirlər.İnsan beyni bütün informasiyaları yadda saxlamağa qadir deyil və istifadə olunmuyan informasiya qısa müddətdə unudulur.Onda niyə görə vaxtımızın çoxunu unudacağımız informasiyaları əzbərləməyə sərf etməliyik?!

Deməli, müəllimin ilk növbədə məqsədi müstəqil fikir yürütməyi bacaran bir şəxsiyyət formalaşdırmaq olmalıdır.

Şagirdi fəallaşdırmaq üçün, ilk növbədə, vacibdir ki, o təlim prosesinin mərkəzi obyekti kimi çıxış etsin. Təlim uşağın maraq və tələbatlarına, onun bilik səviyyəsi, imkan və qabiliyyətlərinə yönəlməlidir. Müəllim şagirdə şəxsiyyət kimi yanaşmalı, onun fərdi cəhətləri nəzərə almalı və hörmət əsasında münasibət göstərməlidir.Tədris prosesi elə təşkil olunmalıdır ki, idrak fəallığını, təbii öyrənmə fəaliyyətini doğursun, onda yeni biliklərəyiyələnmək həvəsini yaratsın. İdrak fəallığı, ilk növbədə, təfəkkürün formalaşması əsasında yaranır. Buna nail olmaq üçün təlim prosesində idrak fəallığını stimullaşdıran problemli situasiyalar yaradılmalıdır. Uşaqda bu problemin həlli tələbatın yaranması nəticəsində bütün idrak prosesləri də fəallaşır, o yeni bilikləri kəşf etməyə yönəlir.

Fəal/interaktiv təlim texnologiyasında istifadə olunan iş üsulları ənənəvi təlim metodlarından bir sıra cəhətləri ilə fərqlənir. Belə ki ənənəvi üsullar müəllimə aid idi, onun bilikləri şagirdə necə çatdırılması işinə xidmət edirdi. Fəal/interaktiv təlimdə isə iş üsulları birbaşa şagirdə, onun axtarışlarının gedişinə, alınan nəticələrinin necə ortaya qoyulmasına, şagirdlərin tədqiqatçılıq qabiliyyətinin, təfəkkürünün inkişaf etdirilməsinə xidmət edir.Bu üsul demək olar ki uşaqların məktəb qədər ki dövür ərzində biliklərin əldə edilməsi ilə eynilik təşkil edir.

Yuxarıda qeyd etdiyimiz kimi şagird tədris prosesində tədqiqatçı kimi çıxış edir. Bu iş üsullarnı ənənəvi təiim metodlarından fərqləndirən cəhət də məhz həmin üsulların birbaşa şagirdlərə aydınlaşdırılması, ondan istifadəyə dair konkret bir təlimatın verilməsidir.Həmin iş üsullarının bəzilərinə nəzər salaq.

1. Şaxələndirmə (Klaster)

Ona semantik xəritə də deyilir.

Bu zaman mərkəzi dairədə əsas anlayış qeyd olunur. Xətlər anlayışın şaxələnməsinə işarədir. Yeni dairələr yeni anlayışları göstərir. Beləliklə, nəyin nədən asılı olduğu əyaniləşdirilir. Onu daha çox ümumiləşdirici dərslərdə, həmçinin motivasiya mərhələsində istifadə etmək olar.

2. **Venn diaqramı**

Məlumatların oxşar və fərqli cəhətlərinin dairələr formasında əlaqələndirilməsi, əyaniləşdirilməsi Venn diaqramının əsas cəhətidir. Kiçik qruplara tapşırıq veriləndə və ya böyük qrupla iş aparanda bu iş üsuluna müraciət etmək olar. Bu zaman hər bir dairədə müqayisə ediləcək məlumatların fərdi keyfiyyətləri, onların kəsişməsi nəticəsində yaranan yerdə isə hər iki obyektin oxşar cəhətləri əks olunur.

3. Beyin həmləsi (Ona əqli hücüm da deyilir)

Verilmiş suala qısa zaman ərzində daha çox cavabın toplanmasıdır. İdeyalar saf-çürük edilmədən lövhədə qeyd olunmalıdır. Ən çox motivasiya mərhələsində istifadə olunur.

4. Karusel üsulu

Sinif bir neçə qrupa bölünür. Hər qrupa eyni tapşırıq verilir: mövzu barəsində şagirdlər bildiklərini qısa formada, tezislər şəklində iş vərəqində qeyd edirlər. Tapşırığın icra vaxtı elan olunur. Qruplar işi yekunlaşdırır və müəllim elan edir ki, indi hər qrup öz iş vərəqini saat əqrəbi istiqamətində yaxınlıqda yerləşən obiri qrupa ötürsün. Qruplar vərəqi alan kimi qeyd olunan fikirlərə öz əlavələrini edir və təkrar fikirlərin yazılmasına yol verilmir. Sonra həmin vərəq digər qrupa ötürülür. Onlar da tamamlama işlərini həyata keçirirlər. Bu iş o zamana qədər davam edir ki, qrupun iş vərəqi özünə çatmış olur.Bu iş üsullarından istifadə etməkləAzərbaycan dilinin tədrisində qarşıya qoyulan məqsədə müvəffəqiyyətlə nail olmaq olar.

MİLLİ KURİKULUMUN XÜSUSİYYƏTLƏRİ

Bərgüşadova G.Y.
Sumqayıt Dövlət Universiteti

Milli kurikulum təhsilin məzmunu(ümumtəlim nəticələri, məzmun xətləri, əsas və alt standartlar),təşkili(fəal dərsin təşkili prinsipləri, fəal dərsin planlaşdırılması, fəal dərsin forma və üsulları) və qiymətləndirilməsi(qiymətləndirilmə mexanizmləri və standartları) ilə bağlı bütün sənədləri özündə əks etdirən konseptual sənəddir.

Azərbaycan təhsil sisteminə 90-cı illərdən başlayaraq yeni pedaqoji terminologiya kimi daxil olmuşdur. Bu, "Kurikulum" pedaqoji terminologiyası idi. Daha sonralar elm və təhsil sahələrində termin kimi işlənməyə başlamışdır. Kurikulum təhsilin məzmunu, təşkili və qiymətləndirilməsi ilə bağlı bütün məsələləri özündə əks etdirir. Kurikulumun əsasını tərtib, tətbiq, qiymətləndirmə və təhlil təşkil edir.

Kurikulum mənşəcə latın sözü olub lüğəti mənası "yol, istiqamət" deməkdir.

Azərbaycan Respublikasında ümumi təhsilin konsepsiyası (Milli Kurikulum) ölkəmizdə ümumi təhsilin modelini ən ümumi formada əks etdirən konseptual sənəddir.

Burada ümumi təhsilə və ümumi təhsilli şəxsə verilən tələblər, ibtidai, əsas və orta təhsilin məqsədləri, təhsil pillələrində tədris olunan fənlərin məqədləri(ümumi təlim nəticələri şəklində), bu məqsədlərin həyata keçirilməsini təmin edən pedaqoji prosesin təşkili, şagird nailiyyətlərinin qiymətləndirilməsinin ümumi prinsipləri və bu sənəd əsasında yaradılan fənn kurikulumlarının strukturu müəyyən olunmuşdur.

Kurikulum islahatını zəruri edən bir sıra səbəblər vardır:

- Cəmiyyətdə yeni ictimai münasibətlərin yaranması
- Dünya təhsil sisteminə inteqrasiya-informasiya əsrinin tələbləri
- Təhsilin məqsəd və vəzifələrinə yeni baxış və yanaşmaların formalaşması
- Mövcud ümumi təhsil proqramlarınn müasir tələblərə cavab verməməsi
- Planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçid və s.

Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyasi-Milli Kurikulumu konseptual xarakterli çərçivə sənədi olub ümumi təhsil üzrə təlim nəticələrini və məzmun standartlarını, ümumi təhsilin hər bir pilləsində nəzərdə tutulan fənləri, həftəlik dərs və dərsdənkənar məşğələ saatlarının miqdarını, pedaqoji prosesin təşkili, təlim nailiyyətlərinin qiymətləndirilməsi və monitorinqi üzrə əsas prinsipləri, fənn kurikulumlarının strukturunu əhatə edir.

Milli Kurikulum ictimai-siyasi, mədəni və sosial həyatın qloballaşdığı və universallaşdığı, informasiya-kommunikasiya texnologiylarının rolunun artdığı, rəqabətin gücləndiyi müasir dövrdə hər bir şəxsin istedad və qabiliyyətinin müstəsna əhəmiyyət kəsb etdiyi nəzərə alınaraq, müstəqil qərarlar qəbul etməsi üçün onun zəruri təhsil səviyyəsinə və bacarıqlara malik olmasına, cəmiyyətin inkişafının əsas hərəkətverici qüvvəsi olan insanın formalaşdırılmasına və problemlərin həllinə yönəlmişdir. Milli Kurikulum bilavasitə aşağıdakı funksiyaların reallaşdırılmasına kömək edir:

- ümumi təhsilin pillələri, bu pillələrdə tədris olunan fənlər arasında əlaqələrin və ardıcıllığın təmin edilməsi;
- fənlərin məzmununcəmiyyətin tələbatına uyğun daim təkmilləşdirilməsi və yeniləşdirilməsi;
- təlim texnologiyalarının çevikliyi və interaktivliyinin təmin olunması;
- nəticəyönümlü fənn kurikulumlarının hazırlanıb tətbiq olunması;
- təlim mühitinin, təhsil fəaliyyətinin səmərəliliyinin, təlimin inkişafetdirici və qabaqlayıcı xarakterinin, bilik, bacarıq və vərdişlərin təhsil pillələri üzrə konsentrik prinsip əsasında müəyyənləşdirilməsinin təmin olunması;
- şagird nailiyyətlərinin obyektiv qiymətləndirilməsi və stimullaşdırılmasının təmin edilməsi.

Milli Kurikulum aşağıdakı ümumi prinsiplərə istinad olunmaqla hazırlanmışdır:

- milli və ümumbəşəri dəyərlərin nəzərə alınması;
- ümumi inkişafı, meyil və maraqları nəzərə alınmaqla bütün şagirdlərə əlverişli təlim şəraitinin yaradılması;
- tələbyönümlülük;
- nəticəyonümlülük;
- şagirdyönümlülük;
- inteqrativlik

Milli kurikulumun yaradılmasının təhsil sisteminin nizamlanmasında böyük rolu olmuşdur.

ƏDƏBİYYAT TƏLİMİNDƏ TƏDQİQATÇILIQ METODLARINDAN İSTİFADƏ

Əliyeva G.X.
Sumqayıt Dövlət Universiteti

Tədqiqatçılıq metodu haqqında pedaqoq və metodist alimlər maraqlı fikirlər söyləmişdilər. Bu metod şagirdlərə məqsədə çatmaq yollarını, əsas vəzifələri həll etmək istiqamətlərini, pedaqoji prosesin səmərəliliyini artirmağın üsul və vasitələrini müəyyənləşdirməyi öyrədir.

Əsas məqsədə nail olmaq üçün tətbiq edilən, şağirdləri müstəqil fikir söyləməyə imkan yaradan iç formaları, vasitə və yollar tədqiqatçılıq metodu kimi xarakterizə olunur.

Metodun mahiyyəti ilə bağlı pedaqoqlar müxtəlif mülahizələr irəli sürmüşdülər. İ.Y.Lerner bu metodu "tədqiqat prinsipləri" adlandırır. Akademik M.Mehdizadə isə qeyd edir ki, "prinsip" metoda nisbətən geniş anlayışdır. Ədəbiyyat təliminde N.İ.Kudryaşevin bölgüsündə də bu metod əksini tapır. Onun müəyyənləşdirdiyi metodların təsnifi belədir: yaradıcı oxu, evristik tədqiqatçılıq, reproduktiv (bərpaedici) metodlar.

Tədqiqatçılıq metodunun bəzi xarakterik xüsusiyyətlərinə münasibətimizi bildirək. Bu metod əsəri müstəqil təhlil etmək, məzmunu dərk etməkdə ən səmərəli yanaşma istiqamətidir. Müəllim bu metoddan müxtəlif formalarda istifadə edə bilər. "Kurrikulumun əsasları"nın tələbinə uyğun müasir dərs modelini qurmaqda bu metoddan istifadəyə keçmək olmaz. Müəllim hər hansı bir problemi kollektiv, qruplar üzrə, fərdi araşdırmasını təşkil edə bilər, şagirdləri müəyyən bir mövzunun həllinə istiqamətləndirər. Başqa sözlə, müəllim əvvəlcədən tədqiqat sualını müəyyənləşdirir, problemi seçir, müzakirəsini aparır. Sual yarana bilər ki, tədqiqatçılıq metodu şagirdlərdə hansı bacarıqların yaranmasına təsir göstərir. Bunları aşağıdakı kimi ümumiləşdirmək olar:

1. Şagirdləri problemi həll etmək üçün müxtəlif mənbələrdən istifadə etməyə istiqamətləndirir;
2. Həm fərdi, həm də qrup halında tədqiqat aparmağa imkan yaradır, mövzu, anlayış, fakt və hadisə ilə bağlı müəyyən məlumatlar toplamağa müsbət təsir göstərir;
3. Müqayisə etməyə, fikirləri əsaslandırmağa, nəticə çıxarmağa, oxşar və fərqli cəhətləri üzə çıxarmağa imkan yaradır;
4. Nəzəri məlumatları, fakt və hadisələri, anlayışları təcrübədə tətbiq etmək, yoxlamaq bacarığını inkişaf etdirir;

Nəticə olaraq onu deyə bilərik ki, metodlar bir-biri ilə əlaqədardır, biri digəri üçün vasitə rolunu oynayır. Mahiyyət isə birdir: şagirdlər bədii əsəri düzgün təhlil etsin, mövzunu mənimsəsin, müstəqil söyləsin və fikirlərini əsaslandırmağı bacarsın.

RİYAZİYYATIN TƏDRİSİ PROSESİNDƏ FUNKSİYA QRAFİKİNİN QURULMASI BACARIQLARININ FORMALAŞDIRILMASI

Əbilova N.M.
Sumqayıt Dövlət Universiteti

Diferensial hesabı vasitələrindən istifadə etmədən qrafiklərin qurulmasının əsas üsullarını şərh edək. Elementar üsulları mexaniki qeyri-elemntar üsullarla nisbətən funksional intuisiyanın inkişafına bilavasitə verilmiş funksiyanın növünə əsasən ümumi halda olsa da funksiyanın qrafikini təsəvvür etmək bacarığının inkişafına imkan verir.

Beləliklə, məhz qrafiklərin praktik tətbiq edildiyi məsələlərdə bir qayda olaraq, elementar vzasitələr tamamilə kifayətdir, bununla yanaşı diferensial hesabı vasitələrini istifadə edən qrafiklərin dəqiq qurulması üsulları kimi funksiyanın araşdırılması vəzifələrinə tabe olan qrafiklərin sirf illuüstrativ rol oynadığı məsələlərdə tətbiq edilir. Lakin funksiyanın verilməsi üsullarından heç biri funksiya haqqında kifayət qədər tam təsəvvür əldə etmək üçün əlverişli deyildir. Bu da təbiidir, düsturlardan söhbət gedən yerdə insanın intuisiyası hədsiz dərəcədə zəif işləyir. Məsələn,

$$y = \frac{1}{1+x^2} \qquad \text{və} \qquad y = \frac{1}{1-x^2}$$

düsturları kənardan baxdıqda biri-birinə çox oxşardır, lakın bu düsturların təyin etdiyi funksiyaların ümumi cəhətləri çox azdır. Kifayət qədər diqqətli şagird üçün görmək çətin deyildir ki, bu düsturlarındakı kiçik fərq doğrudan da ayırd edə bilməz. Əksinə, əgər bu funksiyaların qrafiklərini qursaq, onda hətta ən təcrübəsiz riyaziyyatçı da onların köklü fərqini müşahidə edə bilər. Daha bir misalı nəzərdən keçirək.

$y = \frac{x^2+1}{x+1}$ funksiyanın sonsuzluqda da özünü necə aparmasını dərhal söyləmək çətindir. Lakin onun qrafikini quraraq inanmaq olar ki, $x \to -\infty$ və $x \to +\infty$ olduqda o, asimtotik olaraq $y = x-1$ düz xəttinə yaxınlaşır.

İnsan qavrayışının xüsusiyyəti belədir; formal ifadələri pis təsəvvür edir və həndəsi olaraq çox gözəl "görür". Riyazi təcrübədə təcrübədə də müəyyən xassəyə malik olan və ya mailk olmayan funksiya nümunələri hər şeydən əvvəl həndəsi, yəni qrafiki qurulur və yalnız bundan sonra lazım gəldikdə bu nümunələr üçün münasib düsturlar seçirlər.

Nəhayət, qrafiklər elementar riyaziyyatın müxtəlif məsələlərinin (tənliklər, bərabərsizliklər və s.) həlli üçün tamamilə güclü və faydalı vasitədir.

Dekart koordinatlarında funksiya qrafikinin ciddi tərifini verək.

Tutaq ki, müstəvi üzərində xOy dekart koordinat sistemi verilmişdir.Koordinatları $(x, f(x))$ olan müstəvinin nöqtələri çoxluğuna $y = f(x)$ funksiyasının qrafiki deyilir. Qrafikin tərifi onun qurulma qaydasını göstərir. Funksiyanın təyin oblastına daxil olan hər bir x nöqtəsi üçün verilmişfunksiyanın qiymətini hesablamaq və alınan nöqtələri müstəvi üzərində qeyd etsək $y = f(x)$ funksiyasının qrafikini alarıq.

Bu qayda dəqiq qrafiki qurmağa imkan verir. Əgər funksiya sonsuz çoxluqda təyin olunarsa, hər bir nöqtə üçün belə qurmanın yerinə yetirilməsi mümkün deyildir. Ona görə praktik olaraq təqribi qrafiklə, başqa sözlə, qrafikin eskizi ilə kifayətlənmək lazim gəlir. Onda dərhal belə sual meydana çıxır. Qrafiki hansı dəqiqliklə qurmaq lazimdir ki, onu mühüm hesab etmək mümkün olsun, bəs qeyri mühüm olan nədir? Bu suala vahid cavab yoxdur. Çünki hər bir konkret misalın öz səciyyəvi xüsusiyyətləri vardır.

Qrafiklərin qurulmasında hər şeydən əvvəl onun qurulması məqsədini nəzərə almaq lazımdır. Hansı məsələlərə daha çox, hansılara isə az diqqət yetirilməsi, məhz bu məqsəddən asılıdır. Həm də qeyd etmək lazımdır ki, qrafikləri məsələ həllinə tətbiq etdikdə onların qurulması üçün dəqiq hesablamalara və xüsusi cihazlara (pərgar, millimetrli kağız, iti uclu qələm və s.) ehtiyac olmur.

Funksiyanın qrafiki necə qurulur? Çoxlu sayda müxtəlif konkret qurma üsulları vardır, onların hamısını aşağıdakı kimi təsvir etmək olar. Bilavasitə qurulmuş müəyyən qədər sadə qrafiklər ehtiyatı, qalan daha mürəkkəb qrafiklər müəyyən əməliyyatın köməyi ilə bu sadə qrafiklərin əsasında qurulur.

KUBU İKİQAT BÖYÜTMƏK, BUCAĞI ÜÇ BƏRABƏR HİSSƏYƏ BÖLMƏK MƏSƏLƏLƏRİNİN BƏZİ ÜSULLARLA HƏLLİ

Hüseynova Y.M.
Sumqayıt Dövlət Universiteti

a) Məsələnin iki maddi düzbucağın köməyi ilə həlli. Əvvəlcə aşağıdakı lemmanı isbat edək.

Lemma. Hər hansı düzbucaqlı trapesiyada diaqonallar bir-birinə perpendikulyar olarsa, onda diaqonalların parçaları həndəsi silsilə əmələ gətirir.

İsbat. Tutaq ki, ABCD trapesiyasında: $BA \perp AD, AC \perp BD$ – dır (şəkil 12).

$AO = y, BO = x, CO = b, DO = a$ ilə işarə edək. ABD və ABC düzbucaqlı üçbucaqlılardan $\frac{a}{y} = \frac{y}{x}; \frac{y}{x} = \frac{x}{b}$ yazmaq olar (düzbucaq təpəsindən hipotenuza endirilmiş perpendikulyarın xassəsinə

görə). Bu iki tənasübdən : $\frac{a}{y}=\frac{v}{x}=\frac{x}{b}$ alarıq. Buradan görünür ki, *b,x,y,a* ədədləri həndəsi silsilə əmələ gətirir. $\frac{a}{y}=\frac{v}{x}=\frac{x}{b}$ bərabər nisbətlər sırasında $a=2, b=1$ götürək onda:

$$\frac{2}{y}=\frac{y}{x}; \qquad y^2=2_x \tag{1}$$

$$\frac{v}{x}=\frac{x}{1}; \qquad y=x^2 \tag{2}$$

alırıq.

(1) ilə(2)-dən $x^4=2x$ və ya $x^3-2=0$ alınır. Yəni biz kubu ikiqat böyütmək məsələsinin tənliyini alırıq.

(2) Bu lemmadan axtarılan kubu tilini qurmağın belə bir üsulu alınır. O nöqtəsində kəsişən iki qarşılıqlı perpendikulyar b və c düz xətləri üzərində verilmiş kubun tilinə bərabər OC=a və OD=2a parçasını götürürük (şəkil 12 a) a=1 qəbul etdkdə OC=1 və OD 2 olur. Sonra iki maddi düzbucaq götürüb, bunların təpələrinin OB və OA üsulları üzərində elə yerləşdirirk ki, onların bir tərəfləri uyğun olaraq C və D nöqtələrindən keçsin, o biri tərəfləri isə bir-birinə yanaşmasın. Onda şəkildən göründüyü kimi, diaqonlları bir-brinə perpendikulyar olan ABCD düzbucaqlı trapesiyası alınır.

(3) Yuxarıda göstərdiyimiz lemmaya görə x=OB parçası axtarılan kubun tilidir.

(4) B) Məsələnin iki kəsişən parabolanın köməyi ilə həlli.

(5) Yuxarıda biz $y^2=2x$ və $y=x^2$ tənliklərini almışdıq. Bu tənliklərin qrafiklərini quraq (şəkil 12b). Qrafiklərin A kəsişmə nöqtəsinin absisi axtarılan kubun tilidir.

2. Bucağı üç bərabər hissəyə bölmək məsələsi.

a) Məsələnin ixtiyari götürülmüş düz xətt parçası vasitəsi ilə həlli.

Tutaq ki, verilmiş ABC=a bucağını Y^c bərabər hissəyə bölmək lazımdır (şəkil 13). Xətkeş üzərində ixtiyarı bir parça götürək və B nöqtəsini mərkəz, həmin parçanı radius qəbul edib bir çevrə çəkək. Bu çevrə ilə ABC bucağı tərəflərinin kəsişmə nöqtələrinin A və C ilə işarə edək.

Sonra xətkeşi A nöqəsinə yapışdırıb, elə hərəkət etdirək ki, onun üzərində qeyd edilmiş parçanın bir ucu çevrə üzərinə, o biri ucu isə CB düz xətti üzərində düşsün, yəni həmin parça DE vəziyyətini alsın. B nöqtəsi ilə D nöqtəsini birləşdirək. Deməli, DE=DB+BA-dır. İndi isbat edək ki, $\angle DBE=\frac{1}{3}\angle ABC$-dir. DBE və DBA üçbucaqları bərabəryanlı üçbucaq olduğundan $\angle DBE=\angle DEB,\ \angle BDA=\angle BAD$ olar, *BDE* və *ABE* üçbucaqlarında xarici bucağın xassəsinə körpe; $\angle BDA=2\angle DBE$ və $\angle ABC=\angle AEB+\angle BAE=\angle DBE+\angle BDA=\angle DBE+2\angle DBE=\angle DBE$ alınar.

Beləliklə, $\angle ABC=3\angle DBE$ və ya $\angle DBE=\frac{1}{3}\angle ABC$ olur.

b) Məsələnin trisektor köməyi ilə həlli.

Bucağı uc bərabər hissəyə bölmək üçün işlədilən alətə trisektor deyilir.

Trisektor qayda ilə birləşdirilmiş ikişarnirli rombdan ibarətdir (şəkil 13 a). Şəkildə bu roblar OACB və OMNE-dir. Birinci rombun OB tərəfi isə birinci rombun OC diaqonalı üzəri ilə gedir.

Tutaq ki, POQ bucağını üç bərabər hissəyə bölmək lazımdır. Trisektoru O təpəsini (iki rombun ortaq təpəsini) verilən bucağın O təpəsi üzərinə qoyub, onu elə yerləşdirirk ki, bu rombların OA və OE tərəfləri uyğun olaraq bucağın OP və OQ tərəfləri üzərinə düşsün. Şəkildən aydın görünür ki, $\angle POM=\angle MON=\angle NOQ=\frac{1}{3}\angle POQ$-dir.

RİYAZİYYAT TƏLİMİNDƏ ANALİZ VƏ SİNTEZ

Qasımova Ə.M.
Sumqayıt Dövlət Universiteti

Analiz-məntiqi bir metod, tədqiqat metodu olub, tamın hissələri kimi hər biri ayrılıqda tədqiq olunan obyektin tərkib elementlərinə (əlamətlərə, xassələrə, münasibət fikrən və ya praktik) ayrılmasından ibarətdir.

Sintez-ayrı-ayrı elementləri tamda birləşdirən məntiqi metoddur.

Riyaziyyatada analiz dedikdə çox vaxt "əks istiqamətdə" aparılan mühakimə başa düşülür. Başqa sözlə, məchuldan (tapılması, isbatı tələb olunandan) məlumata (verilənə, isbat olumuşsa və ya doğruluğu qəbul olunana) doğru istiqamətlənən mühakimədir.

Təlim üçün mühüm əhəmiyyəti olan belə anlamda analiz məsələ həllinin, teorem isbatının axtarılması vasitədir. Sintez analizin gedişində alınan məlumlara istinad edərək məsələnin həllini və ya teoremin isbatını verir.

Analiz və sintez praktik olaraq biri-birindən ayrılmaz olub, biri-birini tamalayaraq vahid analitik-sintetik metodu əmələ gətirir. Belə ki, məsələn, analizin köməyi ilə mürəkkəb məsələ bir sıra sadə məsələlərə ayrılır, sonra isə sintez vasitəsilə bi sadə məsələlər həllinin vahid tamda birləşməsi baş verir.

İlk anlamda analiz tamdan bu tamın hissələrinə doğru gedən yol (təfəkkür metodu) kimi, sintez isə hissələrdən tama doğru gedən yol (təfəkkür metodu) kimi nəzərədən keçirilmişdir.

Analiz və sintez təlim prosesində özünü ən müxtəlif formalarda göstərir:

-məsələ həllinin metodları;

-teorem isbatının metodları;

Riyazi anlayışlarının xassələrinin öyrənilməsi metodları və s.

Analiz və sintez elmi tədqiqat metodu kimi xüsusi halda tədris materialının öyrənilməsi metodu kimi də özünü göstərir. Riyaziyyat kursunun təlimində onların tətbiqi nümunələrini göstərək.

I.Teoremlər isbatının analitik və sintetik metodları.

1.Üçbucağın daxili bucaqları cəminin 180^0-yə bərabər olduğunu isbat edin.

A) Analitik isbat metodu.

Açıq bucaq 180^0-yə bərabərdir. Deməli, istənilən üçbucağın bucaqlar açıq bucaqda yerləşdiyini göstərmək kifayətdir.(şəkil 20)

Bunu açağıdakı kimi etmək olar:

a) MN//AB çəkərək C nöqtəsində
açıq bucaq qurur;

b) $\angle 2$ artıq açıq bucaqda yerləşir

c)AC kəsən, AB // MN olduğu üçün $\angle 1 = \angle 5$;

ç) BC kəsən, AB // MN olduğu üçün $\angle 3 = \angle 4$;

d)onda $\angle 5 + \angle 2 + \angle 4 = 180^0$ olur.

e) bərabər bucaqları nəzərə alsaq $\angle 1 + \angle 2 + \angle 3 = 180^0$

B. Sintetik isbat metodu

a) MN//AB çəkirik.

b) BC kəsən, MN //AB olduğundan $\angle 4 = \angle 3$;

c)AC kəsən, MN // AB olduğundan $\angle 1 = \angle 5$;

ç) $\angle 5 + \angle 2 + \angle 4 = 180^0$ açıq bucaq;

d) $\angle 1 + \angle 2 + \angle 3 = 2d$ (b,c bəndlərinə görə).

2. Bərabərsizliyi isbat edin.

$$\frac{a+b}{2} \geq \sqrt{ab}, \quad a \geq 0, \; b \geq 0$$

Analitik metod	Sintetik metod
$\frac{a+b}{2} \geq \sqrt{ab,}$ $\Downarrow$ $a+b \geq 2\sqrt{ab}$ $\Downarrow$ $a-2\sqrt{ab}+b \geq 0$ $\left(\sqrt{a-}\ \sqrt{b}\right)^2 \geq 0$ aşkardır.	$\left(\sqrt{a-}\ \sqrt{b}\right)^2 \geq 0$ $\Downarrow$ $a-2\sqrt{ab}+b \geq 0$ $\Downarrow$ $a+b \geq 2\sqrt{ab}$ $\Downarrow$ $\frac{a+b}{2} \geq \sqrt{ab}$ b.i.t.o.

Gətirilən misallardan görünür ki, təkliflərin analitik isbat metodunun mahiyyəti ondan ibarətdir ki, tələb olunan təklifin əsaslandırılması üçün başlanğıc bu təklifin özüdür, həmin təklif məntiqi əsaslandırılmış addımlar yoli ilə doğruluğu məlum olan təklifə gətirilir.

Sintetik metodun mahiyyəti ondan ibarətdir ki, elə doğru təklif axtarılır ki, onu məntiqi əsaslandırılmış addımlar yolu ilə tələb olunan təklifə çevirmək olar.

TƏNLİKLƏRİN TƏQRİBİ ÜSULLARLA HƏLLİNİN ÜMUMPEDAQOJİ ƏSASLARI

Əliyeva N.Ə.
Sumqayıt Dövlət Universiteti

Tənliklərin təqribi üsullarla həllinə nəzər saldıqda görünür ki, şagirdlər bu işə ilbəil yəni, tədricən hazırlanmalıdırlar. Problemin həlli ilə bağlı riyaziyyat kursu üzrə şagirdlərin real elmi bazası olmalıdır. Bura daxil olan elmi- nəzəri müddəaların şərhini verək.

Tənlik və onun kökləri-Müasir elmi nöqteyi nəzərindən iki funksiyanın bərabərliyinə tənlik deyilir. Yəni müəyyən aralıqda təyin olunmuş *f(x)* və *g(x)* funksiyalarının bərabərliyi, yəni *f(x)=g(x)* (1) bərabərliyi təyin edir.

Tənliyi həll etmək *x* arqumentinin dəyişənini elm qiymətini ($x = x_0$) tapmaq deməkdir ki, (1) bərabərliyi doğru bərabərliyə çevrilsin. Yəni $f(x_0) = g(x_0)$ burada x_0 tənliyin kökü adlanır.

Dəyişənin tənliyi doğru ədədi bərabərliyə çevirən qiymətinə həmin tənliyin kökü deyilir.

Qeyd etmək lazımdır ki, tənliyin bir kökü, bir –neçə kökü və ya sonsuz sayda kökü ola bilər. Elə tənliklər də vardır ki onun kökü yoxdur.

1. *x=2* ədədi *2x+5=9* tənliyin yeganə köküdür.
2. *x=-3* və x=4 ədədləri *(x+3)(x-4)=0* tənliyinin köklərıdir.
3. Ədədin modulunun tərifinə görə sıfır və istənilən mənfi ədəd $x + |x| = 0$ tənliyinin kökləridir.
4. Yenə də ədədin modulunun tərifinə görə $|x| = -1$ tənliyinin kökü yoxdur.

Tənliyin kökləri çoxluğuna onun həlləri çoxluğu deyilir.

Deməli 1-ci misaldakı tənliyin həlləri çoxluğu $\{2\}$, 2-ci misaldakı tənliyin həlləri çoxluğu $\{-3,4\}$, 3-cü misaldakı tənliyin həlləri çoxluğu $x << 0$ şərtini ödəyən ədədlər çoxluğudur. 4-cü misaldakı tənliyin həlləri çoxluğu isə boş çoxluqdur.

Tənliyi həll etmək onun həllər çoxluğunu tapmaq deməkdir.

4x-3 və -2x+5=1 tənliklərinin hər ikisinin həlləri çoxluğu $\{2\}$-dir.

Həllər çoxluğu eyni olan tənliklərə eynigüclü tənliklər deyilir.

Həllər çoxluğu Ø olan tənliklərə də eynigüclü tənliklər deyilir. Bu mənada $x^2 = -9$ və $|x| = -3$ tənlikləri də eynigüclü tənliklərdir.

Verilən tənliyi onunla eynigüclü olan tənliyə gətirərkən aşağıdakı xassələrdən istifadə olunur:

1. Toplananın işarəsini dəyişərək tənliyin bir tərəfindən digər tərəfinə keçirdikdə verilən tənliklə eynigüclü tənlik alınır.

2. Tənliyin hər iki tərəfini sıfırdan fərqli eyni bir ədədə vurduqda və ya böldükdə verilən tənliklə eynigüclü tənlik alınır.

Göstərilən xassələri ədədi bərabərliyin xassələrinə əsaslanaraq isbat etmək olar. Əgər *f(x)* və *g(x)* funksiyaları xəttidirsə (1) bərabərliyini qeyd etdiyimiz xassələrin köməyi ilə *ax=b* şəklində tənliyə gətirilir.

Verilmiş *a* və *b* ədədləri üçün *ax=b* şəklində olan tənliyə birdəyişənli xətti tənlik deyilir; burada *x* dəyişəndir.

$$5x = 12,3,1x = 7,2\frac{3}{8}x = -6,2;-8,5x = 9,4;0 * x = 5;3x = 0$$

birdəyişənli tənliklərdir.

a və *b* ədədlərinin qiymətlərindən asılı birdəyişənli xətti tənliyin həllər çoxluğunun necə olmasını araşdıraq.

1-ci hal $a \neq 0, b$ istənilən ədəddir. Bu halda tənliyin adi $x = \frac{b}{a}$ kökü var və deməli onun həllər çoxluğu $\left\{\frac{b}{a}\right\}$ birelementli çoxluğudur.

Məsələn *-3x=0,6* tənliyində $a = -3 \neq 0, b = 0,6$ olduğundan, onun kökü *x=-0,2*-dir və deməli, həllər çoxluğu $\{0,2\}$ çoxluğudur.

2-ci hal $a = 0, b \neq 0$. Bu halda tənlik *Ox=b* şəklində olur. İstənilən *x* ədədi üçün *Ox=0* olduğundan və $b \neq 0$ qəbul edildiyindən, tənliyin kökü yoxdur. Deməli tənliyin həllər çoxluğu boş çoxluqdur. (Adətən, bu belə yazılır: $x \in Ø$).

3-cü hal. *a=0, b=0*. Deməli, tənlik *Ox=0* şəklindədir. İstənilən *x* üçün *Ox* hasili sıfıra bərabər olduğundan, alarıq ki, bu halda istənilən ədəd *Ox=0* tənliyin köküdür. Bu da o deməkdir ki, *Ox=0* tənliyinin həllər çoxluğu sonsuz çoxluqdur.

Qeyd. Bəzən *a* və *b* əmsalları başqa dəyişəndən asılı olur. Belə dəyişənə parametr deyilir. Yuxarıda verilən araşdırmalardan istifadə edərək *a* və *b* əmsalları parametrdən asılı olduqda, tənliyin həlləri çoxluğunu tapmaq olur.

ТЕХНОЛОГИЯ ИНТЕРАКТИВНОГО ОБУЧЕНИЯ

Байрамова П.Г.
Бакинский славянский университет

На современном этапе в школах Азербайджанской Республики по Национальному курикулуму приинтеграции учебных предметов возможно совершенствование учебного процесса, которое направлено на углубление взаимосвязей и взаимозависимостей между предметами.

Применяются различные типы и формы уроков, а также различные методы обучения в школах Азербайджанской Республики,целью которых является усвоение знаний учащимися.

В последние годы проводятся постоянные поиски и внедрения педагогических инноваций, среди которых следует отметить внедрение новых педагогических технологий.

Различают такие модели обучения как:

1) пассивная - гдеученик выступает в роли «объекта» обучения (слушает и смотрит)

2) активная - где ученик выступает «субъектом» обучения (выполняет самостоятельную работу, творческие задания)

3) интерактивная – это такая модель, при которой учебный процесс осуществляется в атмосфере постоянного, активного взаимодействия всех учеников. Здесь ученик и учитель являются равноправными субъектами обучения.

В интенсификации учебного процесса применениеинформационных технологий способствует активизации познавательной деятельности учащихся. Следует отметить, что интерактивное обучение является специальной формой организации познавательной деятельности. Таким образом, на современном этапеприменение интерактивных методов обучения являются основными методическими инновациями.

Интерактивное обучение - это, прежде всего, учебный процесс основанный на диалоговом обучении, в ходе которого осуществляется взаимодействие между преподавателем и обучающимся. Интерактивное обучение имеет вполне конкретные и прогнозируемые цели. Надо отметить, что при интерактивной модели обучения, интеграция в начальной школе должна быть построена по нескольким направлениям и на разных уровнях:

- внутрипредметная интеграция;
- межпредметная интеграция.

Суть интерактивного обучения состоит в том, что учебный процесс организован таким образом, что невозможно неучастие ученика в коллективном, взаимодополняющим, основанным на взаимодействии всех его участников процесса обучающего познания.

В начальной школе русский язык в школах с русским языком обучения имеет особое место, так как он связан со всеми остальными школьными дисциплинами. Русский язык отражает все стороны действительности и без знания языка невозможно развитие мыслительной деятельности. В цепочке «русский язык – другие предметы» устанавливается связь не столько для русского языка, сколько для всех других предметов, т.к. язык в качестве орудия познания является одним из решающих условий усвоения учащимися знании по какому-либо предмету.Технология интерактивного обучения одновременно решает три основные задачи: познавательную, коммуникативно-развивающую, социально-ориентационную.

Существует огромное количество технологий интерактивного обучения. Различают такие технологии интерактивного обучения как: 1)Работа в парах; 2)Работа в малых группах;3)Аквариум; 4)Мозговой штурм; 5)Карусель и др.Например: При объяснении урока по русскому языку в начальных классахна тему « Прямое и переносное значение глаголов » , на этапе «ПРИМЕНЕНИЕ » можно устно выполнить следующее задание:

[Показывается на слайде] Какое значение имеет глагол в предложениях?

Крутится карусель	**Крутится под ногами**	**Крутится на месте**
(движется по кругу)	(мешает)	(вертится, постоянно меняет положение)

AZƏRBAYCAN XALQ PEDAQOGİKASININ BÜNÖVRƏ DAŞI - ƏMƏK TƏRBİYƏSİ

Eylazova S.C.
Bakı Slavyan Universiteti

Məlum olduğu kimi, insanın əmələ gəlməsi və inkişafı uzun müddət davam etmiş və bu prosesin əsasını təşkil edən ilkin amil məhz əmək olmuşdur. Belə ki, yaşamaq üçün insanlar qidaya, paltara, mənzilə malik olmalı idilər, "*yaşayışın cəfasını azaldıb, səfasını çoxaltmalı*" idilər. Bunları isə əmək sərf etmədən əldə etmək mümkün olmazdı: yemək üçün çalışmaq, yaxşı yemək üçün yaxşı çalışmaq gərəkdir. Sərin və duru su içmək üçün yaxşı bulaq aramaq, "*bulaq çıxarmaq*" və ya bulanıq, fəna suyu durultmaq lazım gəlir. Geyinmək üçün paltar əldə etmək, mənzilə malik olmaq üçün ev tikmək, daha yaxşı ev tikmək üçün daha çox zəhmət çəkmək, böyük şücaət göstərmək zəruridir. Xülasə, hər bir daxili ehtiyacı, arzunu ödəmək üçün zəhmət çəkmək, iş görmək, əmək prosesində iştirak etmək tələb olunur. Yusif Vəzir Çəmənzəminlinin sözləri ilə desək, insan "*onu yaşamağa sövq edən amillər varlığına bağlıdır*".

İnsan orqanizmi yalnız hərəkətdə olduğu zaman normal inkişaf edə bilir. Əmək isə belə hərəkəti təmin edir. Əmək prosesində fiziki iş zehni işlə birgə görülür. Atalar sözündə deyildiyi kimi, "*Əl işlər, baş buyurar*". Hətta öz mütəhərrikliyi ilə çoxlarında təəccüb doğuran kiçik uşaqların hərəkətində də bu, özünü göstərir. Belə ki, uşaq hərəkət etdiyi zaman düşünür, hərəkətlərini nizama salır, istəyinə çatmaq üçün daha səmərəli yollar arayıb axtarır. Nəticədə onun əzələləri ilə bahəm beyni də, zehni də inkişaf edir. Buna görədir ki, fizioloqlar haqlı olaraq hər hansı əməyi başda sinir sistemi olmaqla bədəni təşkil edən üzvlərin ahəngdar, birgə fəaliyyəti nəticəsində yaranan mürəkkəb fizioloji hadisə adlandırırlar. K.Marks öyrədir ki, insanın əməyi onun "*cismani və əqli qüvvələrinin hərəkətə gəlməsindən ibarət olan*" bir fəaliyyətdir.

Doğrudan da əmək adamın həm fiziki, cismani, qüvvələrini həm də zehni qabiliyyətini hərəkətə gətirib inkişaf etdirir. Əmək fəaliyyətində insan fiziki cəhətdən inkişaf edib möhkəmlənir. Alimlər müəyyən etmişlər ki, yaradıcı əməklə maşğul olanlar, ondan zövq alanlar çox yaşayırlar, uzun ömür sürürlər. Eyni qayda ilə əmək insanı əqli cəhətdən də zənginləşdirib yüksək zirvəyə qaldırır, onun görüş dairəsini genişləndirir, əldə etdiyi bilikləri ümumiləşdirməyi və xarici aləmin izah edilməsinə tətbiq etməyi, bununla da təbiəti öz arzusuna uyğun tərzdə dəyişdirməyi ona öyrədir.

Tarix boyu insanlar məhz əmək prosesində təbiətin qanunauyğunluqlarını dərk etmiş və bu qanunauyğunluqlardan istifadə etmək yolu ilə öz tələbatlarını ödəməyə çalışmışlar. Əmək prosesi xarici aləm haqqında insan biliyinin və dünyagörüşünün mənbəyidir. Obyektiv bir proses olmaq etibarilə o, adama ətraf mühiti olduğu kimi öyrənmək imkanı verir.

Azərbaycan xalq pedaqogikasındakı fikirlərə görə, insan həyatının əsas işi və yaşayış mənbəyi əməkdir, zəhmətdir. Zülmətə qatlaşmaqla hər bir arzuya çatmaq olar : *" İnsanın qüdrəti öz əlindədir*" , "*Adam axtardığını zəhmət qapısında tapar*" , "*Hər kəs öz bəxtinin dəmirçisidir*".

Uşaq müəyyən yaşa çatdıqda öz əməyi hesabına yaşamalıdır.O, hətta atasının mal-dövlətinə də bir o qədər göz tikməməlidir. Bu fikir " *Üç şahzadə*" nağılının əsas süjet xəttini təşkil edir. Nağıl padşahın öz oğlanlarına dediyi bu sözlərlə qutarır:- "*Mən qəsdən elə elədim ki, siz çıxıb gedib özünüzə çörək axtarasınız. Çünki öz əli ilə qazanmayıb ata malına göz dikənlər axırda bədbəxt olarlar*". Eyni fikir aşağıdakı atalar sözlərində də təkrar edilir: "*Ata malına göz dikən malsız, davarsız qalar*", yaxud: "*Ata malından mal olmaz, özün qazanmaq gərək*". Ümumiyyətlə xalqa görə, ağıllı övlada ata malı lazım deyildir. Çünki o, öz əməyi sayəsində özünə həyat qurmaq iqtidarına malikdir. Ata malının səfeh övlad üçün də əhəmiyyəti yoxdur, ona görə ki, səfeh övlad atasından qalan var-dövlətin hamısını tezliklə dağıdıb qutarcaqdır.Bu mənada "*Ağıllı oğul neylər ata malın, səfeh oğul neylər ata malın*" aforizmi də yerində səslənir.

Əməkçi kütlənin rəyincə , " *İşləməyən dişləməz*", "*Əməksiz yemək olmaz*". Bu o deməkdir ki, əməyə qabil olnalrın hamısı işləməlidir, hər kəs öz gözünü başqasının əlinə dikməməlidir, özu çalışıb öz zəhməti hesabına yaşamalıdır. "*Sağ əlin əməyi sol ələ haram*", olduğu kimi, başqasının hesabına ömür sürmək və ya ömür sürməyi arzu etmək haramdır. "*Arı və milçək*" nağılında bu cəhət çox aydın şəkildə ifadə olunub. Həmin nağılda tənbəl və tüfeyli insanların rəmzi kimi verilmiş milçək öz zəhməti ilə yaşamayıb, başqalarının hesabına ömür sürməyə çalışdığına görə, daha doğrusu "*zəhmətsiz bal yemək*" istədiyinə görə bal arılarının hücumuna və nifrətinə məruz qalır. Nağıldakı arı dünya üzündə öz namuslu zəhməti ilə yaşayan, əməkdən zövq alan vüqarlı zəhmət adamlarının timsalıdır. "*Kişi gərək öz əlinin əməyinə göz diksin*" aforizmi bu adamların həyat fəlsəfəsidir. Belə həyat fəlsəfəsinə malik "*bir tək arı(yəni zəhmətkeş) bir yığın çibindən(yəni tüfeyli və tənbəl adamlar kollektivindən) yaxşıdır*". Xalqa görə, insan heç vaxt zəhmətdən qorxmamlıdır. Zəhmət, əmək adamı asılılıqdan qurtarır, müstəqil edir.

İşi sevmək, əməyi sevmək adamı asılılıqdan qurtarıb müstəqil etdiyi kimi, tənbəllik də adamı ac və dilənçi edir: "*Çalışan ac qalmaz, tənbəl tox*". Tənbəllik adamı başqalarından asılı və bədbəxt edir: "*Tənbəllik bədbəxtliyin açarıdır*".

İşdən boyun qaçıran, lakin "*yağ yeyib yaxada gəzən*" adamlara zəhmətkeş kütlələr həmişə nifrət etmiş və nağıllardakı hadisələrin gedişindən göstərmişdir ki, axşam toyuq tara çıxanda ağzını çuval kimi açıb əsnəyən, ömrünün, gününün necə keçdiyinə qiymət verməyən, vaxtını hədər yerə ötürən, əməkdən qaçan adam istər istəməz tənəzzülə uğramalıdır. Böyük rus pedaqoqu K.D.Uşinskinin təbirincə desək, "*Şəxsi əməksiz insan irəliyə doğru gedə bilməz, bir yerdə dayana bilməz: o geri getməlidir.İnsanın bədəni, ürəyi və ağlı əmək tələb edir və bu tələb elə şiddətlidir ki, əgər hər hansı bir səbəbdən insanın həyatda şəxsi əməyi olmasa, o zaman o, həqiqi yolunu itirmiş olur və onun qarşısında iki başqa yol açılır: hər ikisi məhvedici olan bu yollardan biri-həyatdan əbədi narazlılıq, tutqun bir laqeydlik və hədsiz cansıxıntısıdır; o biri – könüllü surətdə, hiss edilməz şəkildə öz-özünü məhv etməkdir ki, bu yolla gedən*

şəxs çox surətlə uşaq əyləncələri və ya heyvani ehtiraslara qədər tənəzzül edir.Bu yolların hər ikisində ölüm adamı diri-diri bürüyür, çünki şəxsi əmək, sərbəst əmək –məhz həyat deməkdir".

"Əmək-məhz həyat demək" olduğu üçün əməyə səhlənkarcasına münasibət bəsləyənlər, bekarçılğı sevənlər, işdən qorxanlar, avaralar, tənbəllər, yuxarıda dediyimiz kimi, xalq pedaqogikası nümunələrində son dərəcə kəskin pislənilmişdir. Yenə də faktlara müraciət edək: "Şəms və Qəmər" nağılının bir yerində oxuyuruq: "...bir quş pərvaz edib, bir ağacın başına qondu.Onun dalınca da iki quş gəldi, oldular üş quş. Bu quşlar başladılar ağacın başında yuva tikməyə. Quşların ikisi işləyirdi, ot, agac, torpaq gətirirdi. Biri də agacın başında oturub öz-özünə oxuyurdu. Quşlar nə qədər eləyirdilər o işləmirdi. Axirda quşlar ikisi onn üstünə düşüb onu dimdikləri ilə tikə-tikə edib yerə atdılar".Aydın məsələdir ki, işcil quşların tənbəl, çərənçi quşa olan bu münasibətində zəhmət adamları özlərinin həmin sifətlərə malik olan adamlara qarşı münasibətlərini bildirmişlər.

Zəhmətkeş xalqın tənbel və tüfeylilərə mənfi münasibəti "Tənbəl Əhməd" nağılında da aydın əks edilmişdir. Xalq öyrədir ki, tənbəl özü də cürbəcürdür. Adi tənbəldən başqa bir də şah tənbəli vardır. Bu şah tənbəli deyər: " Ver yeyim, ört yatım, gözlə canım çıxmasın".

Əməkçi xalq tənbəlliyi pisləməklə, kəskin tənqid və ifşa etməklə, çalışqanlığı, zəhmətsevmək və fəallığı isə yüksək qiymətləndirməklə gəncliyi işdən qorxmamağa, fəal, işgüzar olmağa, yaradıcı əməkdə iştirak etməyə çağırmış və " Bərəkət hərəkətdir"- demişdir.

Xalqın fikrincə zəhmət həm də rahatlıq üçün vacibdir: "Əvvəl zəhmət çəkən sonra rahat olur". Bir də rahatlığın qədrini əməklə məşğul olanlar daha yaxşı bilərlər: " Zəhmət çəkməyən rahatlığın qədrini bilməz". Doğurdan da "...əməkdən sonra, adama səma da daha aydın görünür, günəş də daha işıqlı gəlir, adamlar da daha xoş görünürlər. Gecənin kabusu təzə açılmış səhər işığından qaçıb gizləndiyi kimi, hüzn, cansıxıntısı, şıltaqlıq və boş arzular da heç bir iş görməyən avara və romantik qəhrəmanlara böyük əziyyət verən bu bəlalar da əməyin açıq və sakit simasından qaçıb gizlənir".

Söz yox ki, aylar illəri, illər əsrləri qovduqca xalqımızın əmək tərbiyəsi üzrə olan təcrübəsi, fikir və ideyaları, adət və ənənələri daha da zənginləşib cilalanacaqdır. Məktəblərimiz və başqa təlim-tərbiyə müəssisələrimiz ondan yaradıcılıqla istifadə etməklə yeni insan yetişdirmək sahəsində dövlətimizin qarşıya qoyduğu vəzifələri daha müvəffəqiyyətlə həyata keçirməyə nail olacaqdır.

BAĞÇAYAŞLI UŞAQLARDA RİYAZİ TƏSƏVVÜRLƏRİN FORMALAŞDIRILMASINDA HƏNDƏSƏ ELEMENTLƏRİNİN ROLU VƏ ƏHƏMİYYƏTİ

Abbasova V.Ə.
Bakı Slavyan Universiteti

Məktəbəqədər təlim və tərbiyə-ümumi təhsil sisteminin başlanğıc mərhələsi olub, uşaqların məktəbə hazırlanması məqsədilə təşkil edilmişdir. Təhsil sisteminin bu mərhələsi ailə və bağçanın birgə fəaliyyətinə əsaslanır. Təlim tərbiyə məsələləri bağça təliminde vəhdət təşkil edir. Bağçayaşlı uşaqların təlimi ilkin mərhələ olduğu üçün bağça ilə birinci sinif arasında varislik təmin edilməlidir.

Uşaq ən kiçik yaş dövründən məktəbə hazırlıq dövrünə qədər böyük inkişaf yolu keçir, onun praktik, idraki, bədii-estetik bacarıqları inkişaf edir və sistematik təhsil sisteminə girməyə hazırlanır. Bağça uşaqlarının əqli inkişafı məzmununa bunlar daxil olur; hissetmə, qavrayış, diqqət, təfəkkür və nitqin inkişaf etdirilməsi, təbiət və ictimai həyatın sadə hadisələri haqqında təsəvvürlərin formalaşdırılması. Uşaqların əqli inkişafı məşğələlərdə, oyunlar və sadə əmək prosesində həyata keçirilir. Bağça uşaqlarında elementar riyazi təsəvvürlərin formalaşdırılması müəyyən yaş qrupları üzrə aparılır. Aşılanacaq riyazi biliklərə əşyaları saymaq, əşyaları müxtəlif keyfiyyətlərinə və əlamətlərinə görə müqayisə etmək, onları ölçülərinə görə düzmək, formasına görə təsnif etmək və ayırd etmək daxildir. Bu zaman kub, kürə, paralelepiped, kvadrat, dairə kimi əşyalar əsas obyektlər və ya vasitələr hesab edilir.

Eyni formalı əşyaların ölçülərinə görə müxtəlif olması, məsələn böyük kub, kiçik kub və s.-konkret təsəvvürün yaranmasına kömək edir.

Fəzada istiqamətin formalaşdırılmasına aid-"irəli-geri", "yuxarı-aşağı", "sağa-sola", kimi çalışmalar, əşyaların bir-birinə nəzərən yerləşməsi vəziyyətləri (arxasında, yanında, qabağında və s.) müəyyən edilir.

Vaxt təsəvvürlərinin formalaşdırılmasına (dünən, bu gün, sabah) aid çalışmalar verilir.

Tam və hissələri haqqında təsəvvürlər yaratmaq üçün, əşyanın 2, 4 bərabər hissəyə bölünməsi (məsələn, vərəqin 2 bərabər hissəyə və hər hissənin də 2 bərabər hissəyə bölünməsi) nümayiş etdirilir.

Həndəsi fiqurlardan: düzbucaqlının iki, dörd bərabər hissəyə bölünməsini iki üsulla etmək olar:

1. Hər dəfə düzbucaqlı alınır.
2. Bölünmə nəticəsində üçbucaqlar alınır.

Hissələrdən yeni fiqurun düzəldilməsinə aid çalışmalar verilir.

Uşaq bağçasında fəza təsəvvürlərin formalaşdırılması əsasən oyun xarakterli məşğələlərdə daha əlverişli olur. Sujetli həndəsi oyunlar və ya çalışmalar uşaqlar üçün daha maraqlı olur. Hazır şəkillər əsasında uşaqların fəza təsəvvürlərini formalaşdıran çalışmalar və tapmacalar da vermək olar.

Kibrit çöpləri vasitəsilə həndəsi fiqurun düzəldilməsi, hissələrə ayrılması, fiqurun başqa fiqura çevrilməsi kimi çalışmalar uşaqlar tərəfindən çox maraqla qarşılanır.

Həndəsi fiqurların sadə xassələri haqqında məlumatlar bağça tərbiyəçisinə bəlli olmalıdır ki, o, uşaqlarla məşğələ keçərkən, həndəsi fiqurlardan oyun elementləri kimi istifadə edir.

Bağça uşaqlarının həndəsi fiqurlarla tanışlığı məzmununa aşağıdakılar daxildir:

1. Həndəsi fiqurlarla tanışlıq: dairə, kvadrat, kub, düzbucaqlı, bunların adlarının düzgün tələffüzü, fiqurların müqayisə edilməsi, elementləri ilə tanışlıq, müxtəlif fiqurlardan lazım olan fiqurun seçilməsi və s.

2.Fiqurların daxili və xarici oblastları haqqında təsəvvürlərin yaradılması, fiqurların formalarına, rənglərinə, ölçülərinə görə (eyni fiqurlar) qruplaşdırılması;

3.Müstəvi və fəza fiqurlarının qarşılıqlı müqayisəsi: kvadrat və düzbucaqlı; kürə (şar) və dairə; kub və kvadrat, düzbucaqlı paralelepiped və düzbucaqlı;

4.Üçbucaq və dördbucaqlı ilə tanışlıq;

5.Fiqurların uşaqlar tərəfindən təsvir edilməsi (forması, elementləri və s.).

Yuxarıda sadalanan məzmun çərçivəsində elementar ümumiləşdirmələr aparılmalıdır. Məsələn, kvadratla düzbucaqlı, düzbucaqlı ilə dördbucaqlı. Bu fiqurların hamısında 4 tərəf və 4 bucaq vardır və s.

Uşaqlarda fəza təsəvvürlərini formalaşdırmaq üçün onlarda ilk növbədə fəzanı qavramaq, fəzada istiqaməti müəyyən etmək, fəzada əşyaların qarşılıqlı vəziyyətini öyrənmək kimi vərdişləri aşılanmaq lazımdır. Fəzanın qavranılmasında təkcə görmə, eşitmə və hissi analizatorlar vasitəsilə əldə edilən təsəvvürlər kifayət etmir. Fəza münasibətlərinin dərk olunması müşahidə, müqayisə, ölçmə, təcrübə və məntiqi təhlillə bağlıdır.

Bütün yuxarıda deyilənləri ümumiləşdirsək onu qeyd edə bilərik ki, məktəbəqədər təhsildə uşaqlara ilkin həndəsi anlayışlar tam və dolğun şəkildə aşılansa, bu təhsil sisteminin sonrakı pillələrində uşaqların riyazi anlayışları daha dərin şəkildə mənimsəmələrinə köməklik göstərər.

İKİNCİ SİNİF ANA DİLİ DƏRSLƏRİNDƏ İNTEQRASİYA İMKANLARI

Zülfüqarova M.M.
Bakı Slavyan Universiteti

Azərbaycan dili bizim milli sərvətimiz və dəyərimizdir. Əvəzsiz dəyərin aşılanması ailədən başlayır və elmi biliklər verilməklə məktəbdə dərinləşdirilir. Bu nöqteyi nəzərdən hər bir dərsliyinin ilk bölməsi bu vəzifəni yerinə yetirilməsinə yönəldilir. Ana dilinin köməyi ilə uşaqlarda doğma vətənimizə, yurdumuzun azadlığı uğrunda çarpışan mübarizələrə, əmək adamlarına, ölkəmizdə və xaricdə yaşayan xalqlara, dostlarımıza məhəbbət, xalqımızın adət və ənənələrinə, haqqa ədalətə hörmətə səadət tərbiyə edilir.

İkinci sinif ana dili dərsliyində "Dəyərlərimiz" adlanan birinci bölməyə "Bilik günü", "Üçrənli bayraq", "Ədəbi məşəl","Rənglərin anası", "Novruz bayramı","Azərbaycan əlifbası","Qədim xalça", "Çahargah əfsanəsi" kimi mövzular daxildir. "Bilik günü" mövzusunun tədrisi zamanı həyat bilgisi fənninin "Yenidən məktəb" mövzusu ilə əlaqə yaratmaq olar. " Bayraq "(2.2.1,1.2.1) mövzusunu keçərkən həyat bilgisi fənninin 2.3.1 –"Dövlətimiz", 2.3.2-"Dövlət rəmzlərimiz" mövzuları ilə əlaqə yaratmaq olar. Bu dərs qruplarla iş formasında keçirilsə daha çox səmərə verər. Müəllim əvvəlcə problem qoyur; "Uşaqlar, hər bir dövlətin milli atributları var. Bəs Azərbaycan Dövlətinin milli atributları hansılardır? " Belə suallar ayrıca vərəq şəklində də qruplara verilə bilər. Qrupların adı dövlət rəmzlərinin adına uyğun olaraq "Bayraq", "Gerb", "Himn" adlandırmaq olar. Hər qrupun adına uyğun olaraq lövhəyə şəkil asılır və onlar adına uyğun atributlar haqqında məlumat verirlər. Məsələn; " Himn" qrupu

himnin musiqi və sözlərinin kimin yazıdığını deyəndən sonra bütün qruplar da daxil olmaq şərti ilə himni oxuya bilər, "Gerb" qrupu gerb haqqında məlumat verə bilərlər ; "Azərbaycan Respublikasının Dövlət gerbi palıd budaqlarından və sünbüllərdən ibarət qövsün üzərində yerləşən şərq qalxanının təsvirindən ibarətdir. Qalxanın üstündə Azərbaycan Respublikası Dövlət bayrağının rəngləri fonunda səkkizguşəli ulduz, ulduzun mərkəzində alov təsviri vardır."

"Bayraq" qrupu dövlət atributlarında olan bayraq haqqında məlumat verə bilər; "Azərbaycan Respublikasının Dövlət bayrağı eni bərabər olan rəngli üç üfiqi zolaqdan ibarət düzbucaqlı parça şəklindədir; üst zolaq mavi rəngdə, orta zolaq qırmızı rəngdə, aşağı zolaq yaşıl rəngdədir. Bayrağın hər iki üzündə qırmızı zolağın ortasında ağ rəngli aypara və səkkizguşəli ulduz təsviri vardır"

Müəlllimin motivasiyalaşdırıcı suallarından sonra şagirdlər mövzunu lövhədə yazırlar və mətni oxuyurlar. Şagirdlər mətni oxuyandan sonra öyrəndikləri yeni məlumatları lövhədə qeyd edirlər. Hər bir qrup üçün meyar cədvəli hazırlanır. Dərsin bütün mərhələlərində qiymətləndirmə aparılır. Qiymətləndirmə "+", "-" işarələri ilə göstərilir. Son nəticə olaraq bütün şagirdlərin bilikləri qiymətləndirilir.

AZƏRBAYCANDA QADIN TƏHSİLİ

Arif Karabacak Recep
Bakı Slavyan Universiteti

Azərbaycanın Rusiya tərəfindən işğal edilməsinə qədərki dövrdə xalq maarifinin ümumi və vahid sistemi olmadığı kimi, qadın təhsilinin də sistemi olmamışdır. Qadın təhsili məhdud dairədə olub, evlərdə xüsusi şəxslər tərəfindən həyata keçirilirdi. Qadın təhsili ilə əsasən ruhani təhsili almış qadınlar məşğul olurdu. Keçən əsrin 30-cu illərinə aid mənbələrdə Bakı, Şuşa və Nuxada evlərdə qız məktəbinin mövcud olmasına, orada dini kitablarla bərabər, dünyəvi fənlərin də tədris edilməsinə, ipək saplarla tikiş öyrədilməsinə və s. aid maraqlı məlumatlar vardır.

XIX əsrin ortalarına aid olan mənbələrdə qadın təhsili ilə məşğul olan məktəblərin və tədris edilən fənlərin adlarına rast gəlinir. Bu məktəblərdən birində Məşədi Səkinə və Xırdaxanım adlı iki qadın öz evlərində xüsusi qız məktəbi açmışdılar.

Xırdaxanımın məktəbində olmuş N.S. Stepanova «İki il Qafqazda» adlı əsərində yazır: «Bakıda ikən Xırdaxanım adlı bir qadının öz evində təşkil etdiyi məktəbə getdim. Onun dediyinə görə, ana dili, hesab, fars dili, tarix, nəğmə, rəsm, Quran və şəriət dərsləri keçir. Mənim xahişimlə nəğmə dərsini keçdilər. Mən şərq musiqisini başa düşməsəm də deyə bilərəm ki, müəllimə xanım xanəndədir, şagirdlər də gözəl oxuyurlar. Sonra qızların əl işlərinə, çəkdikləri şəkillərə, tikmələrə baxdım, oxularına qulaq asdım, adam inana bilmir ki, bu qızları öyrədən xanım müəllim, adi ev qadınıdır.

Qeyd etmək lazımdır ki, belə qadınlar tərəfindən açılan məktəblər Şuşa, Şamaxı, Gəncə, Nuxa və b. şəhərlərdə də olmuşdur.

1830-cu illərə aid mənbələrdən birində Bakıda - İçəri şəhərdə 2 qadın müəllimənin yanında 25 qızın oxuması göstərilir.

1850-ci illərdə belə məktəblərdən Şamaxı şəhərində maarifpərvər qadınlardan biri olan Gülbəyim xanım tərəfindən açılmışdır. Ruhani məktəblərindən fərqli olaraq bu məktəbdə şəriətlə yanaşı ana dili, hesab, fars dili, tarix, nəğmə və rəsm tədris edilirdi. Bundan əlavə, əl işi - güləbətin sapla tikiş tikmək öyrədilirdi.

Bu məktəb özünün orijinallığı və mütərəqqiliyi ilə diqqəti cəlb edirdi. Onun məktəbi iki kiçik otaqdan ibarət idi. Bu göstərilən məktəblər qadın təhsili sahəsində xeyli rol oynamaqla, onun sonrakı inkişafına da böyük təsir etmişdir.

XIX əsrin 60-cı illərinə aid arxiv sənədlərində Gəncədə 11 qadın müəllimin (yəni mollanın) evdə qız təhsili ilə məşğul olması göstərilir. Burada cəmi 55 qız oxuyurdu, bunların hamısı imkanlı şəxslərin qızları idi. Təhsil isə pullu idi. Qızların təhsil alması işi əsasən şəhərlərdə az-çox həyata keçirilirdi. Kənd qızlarınn təhsili ilə heç kəs maraqlanmırdı.

Azərbaycanın Rusiya tərəfindən işğalından sonra qadın təhsilinin yeni forması meydana gəldi. Burada qulluq edən hərbi və mülki qulluqçu ailələrin sakin olması nəticəsində rus qız məktəbləri meydana gəldi. Azərbaycan ərazisində rus dilində ilk qız məktəbi 1848-ci il aprelin 30 Şamaxıda açıldı.

«Müqəddəs Nina» adlı xeyriyyə cəmiyyəti 1848-ci ildə qız məktəbi adlanan bu təhsil ocağı Qafqazın o zamankı canişinin M.S.Voronsovanın arvadının təşəbbüsü ilə təşkil edilən eyni adlı xeyriyyə

cəmiyyəti tərəfindən açılır və saxlanılırdı. «Müqəddəs Nina» qadın xeyriyyə cəmiyyətinin tərkibində azərbaycanlı qadınlar da fəal iştirak edirdilər. «Müqəddəs Nina» qadın cəmiyyətinin Şamaxı qız məktəbi cəmi 11 il yaşadı.

Məktəbin saxlanmasında yerli teatr tamaşalarından əldə edilən vəsaitin də böyük köməyi olmuşdur. Bu cəmiyyətin idarə heyəti də qadın əl işləri və digər şeylərdən ibarət lotereya düzəldirdi ki, buradan əldə edilən gəlir məktəbin saxlanmasına xərclənirdi. Bütün bunların nəticəsində 1850-ci illərdə Şamaxı qız məktəbi bütün Zaqafqaziyada olan qız məktəbləri içərisində ən çox vəsaitə malik idi. Bu məktəbdə rus dili, hesab, əl işləri də öyrədilirdi. Şagirdlərin, ransionçuların sayı günü-gündən artırdı. Bu məktəb yerli dvoryanlardan olan yeniyetmələrə və burada qulluq edən dövlət məmurlarının qızlarına ibtidai savad verirdi.

Qeyd etmək lazımdır ki, təhsilin rus dilində aparılmasında və şagird heyətinin əsasən yuxarı təbəqələrdən olmasına baxmayaraq, Şamaxı qız məktəbi Azərbaycanda qadın təhsilinin inkişafına xeyli təsir etdi.

AZƏRBAYCANIN MÜHAFİZƏ OLUNAN TƏBİƏT ƏRAZİLƏRİ

Qasımova Z.Ə.
Bakı Slavyan Universiteti

Azərbaycan çox müxtəlif təbii-coğrafi şəraiti, olduqca zəngin və füsunkar təbiəti olan bir ərazisi var. Elmi-texniki tərəqqinin yeni yüksək mərhələsində çoxsahəli sənayenin və kənd təsərrüfatının sürətlə inkişafı, müxtəlif nəqliyyat növlərinin hədsiz çoxalması təbiətdən və təbii sərvətlərdən daha geniş istifadə olunması ilə nəticələnir. Söz yox ki, insanın müasir fəaliyyəti cəmiyyətə böyük fayda da verir: əhalinin ümumi güzaranı yaxşılaşır, xəstəliklərin qarşısı xeyli azalır. Lakin insanın təbiətə müdaxiləsi əksər hallarda neqativ ekoloji hadisələrlə də nəticələnir: təbii ekosistemlərin deqradasiyası, bir çox bitki və heyvan növlərinin sıradan çıxması, təbii resursların tükənməsi baş verir. Bu baxımdan, dövlət tərəfindən yaradılan qoruqlar təbiətin və ətraf mühitin mühafizəsinin köməyinə gəlir.Hələ ötən əsrin ortalarından Azərbaycanın müxtəlif bölgələrində yaradılmış qoruq və yasaqlıqlar milli təbiətimizi gələcək nəsillər üçün yaşatmaq məqsədilə təşkil olunmuşdu. Hal-hazırda 8 Milli Park, 13 Dövlət Təbiət Qoruğu, 19 Dövlət Təbiət Yasaqlığı, yaşı yüzdən yuxarı 2083 ağac, 37 geoloji və paleontoloji obyektlər və 15 min hektar endemik və qiymətli meşə növü sahələri vardır. Bununla yanaşı bir Qobustan tarixi təbiət dövlət qoruğu və Bakı Dənizkənarı Milli Park fəaliyyət göstərir.

Respublikamızda nadir və nəsli kəsilməkdə olan fauna və flora növlərinin qorunub saxlanılması məqsədi ilə qoruq və yasaqlıqlar yaradılır. Bu gün Azərbaycan ərazisinin 10,3 faizi mühafizə olunan təbiət zonasıdır. Bu isəümumilikdə 800 min hektardan çox ərazi deməkdir. 7 il əvvəl bu rəqəm 4,5 faizi təşkil edirdi. Burada yalnız heyvanlar deyil, eyni zamanda landşaft sistemi, bitki örtüyü də mühafizə edilir. Bura 8 Milli Park, 12 təbiət qoruğu, 23 yasaqlıq aiddir.

Dövlət Təbiət Qoruqları - səciyyəvi və nadir təbiət komplekslərini və obyektlərini təbii vəziyyətdə qoruyub saxlamaq, təbiət proseslərinin və hadisələrinin gedişini öyrənmək məqsədi ilə yaradılan təbiəti mühafizə və elmi tədqiqat idarələri statusuna malik ərazilərdir. Dövlət Təbiət qoruqlarının torpaqlarından, habelə onun hüdudlarında olan sulardan, bitki və heyvanlar aləmindən təsərrüfat məqsədləri üçün istifadə edilməsi qadağandır.Qoruğun əsas vəzifəsi onun ərazisindəki zənginlikləri qoruyub ilkin (təbii) halında saxlanılmasıdır. Bununüçün qoruğun ərazisi hərtərəfli öyrənilməlidir.

Yasaqlıq – xüsusi mühafizə olunan təbiət ərazisi olub, təbiət komplekslərinin yerləşdiyi və mühafizə edildiyi və qismən ərazisində təsərrüfat və turizm fəaliyyəti ilə məşğul olmağa icazə verilən ərazilərdir.Bitki və heyvanların qorunmasında və sayca artırılmasında yasaqlıqların əhəmiyyətı böyükdür. Odur ki, Həyat bilgisi dərslərində müəllim izah edir ki, Yasaqlıq hər hansı bir ərazidə bəzi bitki və heyvan növlərinin və təbii kompleksin bir hissəsini müvəqqəti və ya daimi mühafizəsini həyata keçirir. Yasaqlıqlar quşların yuva qurması, tükdəyişməsi, qışlaması, balıqların kürü tökməsi üçün əlverişlı şəraitdir.Yasaqlıqların təbii gözəlliklərin, mağaraların və başqa komplekslərin qorunmasında də əhəmiyyəti böyükdür.

Qoruqlar təbiətin ən yüksək mühafizə formalarından biridir. Burada müxtəlif təbii zonaların xarakterik landşaftları, kökü kəsilməkdə olan, yaxud nadir hallarda rast gəlinən bitki və heyvan növləri, eləcə də sıradan çıxmaq təhlükəsinə məruz qalan təbii komplekslər və onların komponentləri, mağaralar, şəlalələr buzlaqlar və s. qorunur. Qoruqlarda geoloji kəşfiyyat işləri, şumlama, mal-qara

otarılması, turizm, ov etmək, balıq tutmaq, ağac kəsmək, bitkiləri məhv etmək, ümumiyyətlə təbii sərvətlərdən istifadə etmək və onların təbii halını pozmaq qadağan edilir. Qoruqlar təbii canlı laboratoriya sayılır. Burada müxtəlif obyektlərdə uzun illər boyu tədqiqatlar aparılır, təbiətin etalon v.ə kontrol sahələrdə mürəkkəb ekoloji sistemlərin inkişafı qanunauyğunluqları öyrənilir.

Milli Parklar – Xüsusi ekoloji, tarixi, estetik və digər əhəmiyyət daşıyan təbiət komplekslərinin yerləşdiyi və təbiəti mühafizə, maarifçilik, elmi, mə- dəni və digər məqsədlər üçün istifadə olunan təbiəti mühafizə və elmi tədqiqat idarələri statusuna malik olan ərazilərdir.

YENİYETMƏLƏRİN SOSİALLAŞMA PROSESİ AKTUAL PEDAQOJİ VƏ SOSİOLOJİ BİR PROBLEM KİMİ

Altunkaynak İsmihan Hasan
Bakı Slavyan Universiteti

Pedaqogika, psixologiya və sosiologiya sahəsində çalışan alimlər və son zaman aparılan fundamental elmi tədqiqatlar yeniyetmələrin sosiallaşma prosesini bir tərəfli bir proses kimi qəbul edirlər. Bir tərəfdən bu yeniyetmələrin sosial təcrübəsini öyrənməkdən, sosial mühitə və onda baş verən sosial münasibətlərin sisteminə qoşulmaqdan, o biri tərəfdən həmin bu sosial münasibətləri sistemini həyatda göstərən fəaliyyətləri və fəal həyat mövqeyi ilə özlərini praktiki hərəkətlərində təsdiq edib, rəhbər tutmaqdan ibarətdir.

Yeniyetmələrin sosiallaşma prosesində müasir dövrdə iki mühüm amil təsir göstərir. Onlardan biri mikromühütin dəyişən obyektiv və subyektiv şəraitləridir, digər tərəfdən ictimai tərəqqi yeniyetmələrin şüuruna, maraq dairələrinə, tələbatlarına, mənəvi sosial dəyərlərinə və onların şəxsiyyəti-sosial özünü təsdiqləmələrinə təsir göstərən amillərdir. Tərbiyəvi işlər planlaşdırılanda bu amillərin təsirini mütləq nəzərə alıb, müxtəlif tədbirlər aparmaq lazımdır. Müasir pedaqogika, psixologiya, sosial elmləri yeniyetmələri müstəqil bir sosial-demoqrafik qrup kimi müəyyən edirlər və onları fərdi-sosial xüsusiyyətlərini cəmiyyətdə tutduqları spesifik mövqeyi ilə bağlayırlar. Şəxsiyyətin sosiallaşma prosesində yeniyetmələrin cəmiyyətin ictimai münasibətlərini qəbul edib və onları struktur cəhətindən daha da dərinləşdirib, genişləndirilməsi praktiki fəallıqları pozitiv bir hal kimi qəbul olunmalıdır. Məhz yeniyetmələr gələcəkdə cəmiyyətin aparıcı tərəqqi qüvvəsi kimi çıxış edəcəklər və özlərinin peşə mədəniyyəti və sosial mənəvi mövqeləri ilə ümumi gənclər hərəkətinin zənginləşməsinə nail olacaqlar. Cəmiyyətin rəsmi hökumət orqanlarında işləyib, daha da püxtələşib, formalaşacaqlar. Yeniyetmələrin sosiallaşma prosesi cəmiyyətdə baş verən sosial iqtisadi, mənəvi, intellektual proseslərin inkişafı ilə sıx bağlıdır və onların müasir həyat şəraitində sosial statuslarının formalaşmasına və daha da dərin və geniş dünya görüşünün inkişafına əhəmiyyətli təkan verir.

Yeniyetmələrin mənəvi və sosial cəhətdən yetkinliyə çatması, onların sosiallaşması, müasir şəraitdə pozitiv sosial adaptasiyası bir çox nisbi sərbəst sosial amillərdən asılıdır. Burada ailəni, məktəbi, şagird kollektivini yaşadığı ərazini, KİV-i, yeniyetmələrin formal və idarə olunmayan qruplarını sadalamaq olar. Sözsüzki, onların hərəsinin yeniyetmələrin sosial tərbiyəsinə və vətəndaş formalaşmasına öz xüsusi təsirləri vardır və bu prosesdə orta ümumtəhsil məktəbin mənəvi-tərbiyəvi mərkəz kimi qəbul olunmağı çox zəruridir. Sosiallaşma prosesində yeniyetmələr real həyat şəraitində özlərinin real imkanlarının sərhədlərini təyin edib özlərini sinif və məktəb kollektivlərində sosial nöqteyi-nəzərindən fəal bir yaradıcı qüvvə kimi müəyyənləşdirirlər. Bu işdə onlara müəllim kollektivi və ictimai təşkilatların nümayəndələri dərində və yaxından kömək etməlidirlər, onları müxtəlif tədbirlərə cəlb edib, maraq dairələrini genişləndirməlidirlər. Mənəvi-intellektual, siyasi-ictimai tədbirlərdə fəal iştirak etmək tələbə yeniyetmələrə özlərinin mənəvi-siyasi dəyərlərini müəyyən etməyə, etik-estetik qayda qanunlarına riayət imkanı verir və gələcəkdə özlərinin şəxsiyyəti sosial özünü təyin etmələrinə ciddi sürətdə təkan verir. Belə fəaliyyət bilavasitə yeniyetmələrin vətəndaş kimi formalaşmasına böyük imkanlar yaradır və şüurlu şəkildə onları cəmiyyətin aparıcı bir qüvvəsi kimi çıxış etməyə təkan verir. Orta ümumtəhsil məktəblərində təlim tərbiyə prosesi, məktəbin xüsusi spesifik şəraiti və imkanları yeniyetmələrin özlərini böyük bir gənclər qurumunun bir hissəsi kimi hiss etmələrinə səbəb olur. Bu qrupun ümumi imkanlarının pozitiv mənada xüsusiyyətlərinə əsaslanaraq, cəmiyyətdə baş verən siyasi ictimai proseslərinin fəal bir qüvvəsi kimi iştirak etməsində böyük təkan verici təsirə malik olurlar. Eyni zamanda, məktəbin şagird kollektivi həm dərs prosesində, həmdə sinifdən xarici və məktəbdən kənar

tərbiyə tədbirlərində yeniyetmələrin fərdliliyinin dərinləşməsinə və şəxsiyyəti orjinallığına, yüksək mənəviyyatına nail olmağa da kömək edir.

Ümumiyyətlə yeniyetmələrin şəxsiyyətinin sosiallaşması müxtəlif təsirlər altında baş verir (Meqa amillər, makro amillər, mezo amillər və subyektiv amillər). Meqa amillərin təsiri (kosmos, planet, dünya) makro amillər(ölkə, cəmiyyət, onun sosial ictimai sistemi, iqtisadi inkişaf səviyyəsi, dövlət) mezo amillər(region, şəhər həyatı, kənd həyatının tərsi, qəsəbə) mikro amillər (ailə, qonşular, məktəb, idman seksiyaları, yaradıcı qurğular, yaşadığı ərazi , dostlar, tanışlar, həmyerlilər) subyektiv amillərdən söz açanda biz yeniyetmələrin özlərinin təbii xüsusiyyətlərini, digər tərəfdən onların fərdi (psixoloji, sosioloji, pedaqoji) xüsusiyyətlərini nəzərdə tuturuq. Yeniyetmələrin sosiallaşmasında cəmiyyət bütün sosial institutlarının məqsədini fəaliyyətlərinin məzmununu və proqramlaşdırılmış nəticəni təyin edir və ayrı sözlə desək, bütün sosial institutların qarşısında mühüm bir sosial tələb qoyub, onun pozitiv həllinə qulluq edən təkanverici amillərin inkişafına mümkün qədər əlverişli şərait yaradır. Sosiallaşma prosesi yeniyetmələrdə özlərinə inam, mənəvi və sosioloji, optimist məqsədyönlülük kimi hissiyatlar oyadır və Z. Feyerbaxın sözləri ilə desək " insan o yerdə, o şəraitdə özünü reallaşdırır, o mühitdə nailiyyətlər qazanır hansılardakı, o yeni şəkildə öz imkanlarına, öz bacarıqlarına inanır".

MÜƏLLİMİN PEŞƏ FƏDAKARLIĞI VƏ HUMANİZMİ

Ağayeva A.N.
Bakı Slavyan Universiteti

Respublikamız müstəqilliyə qədəm qoyduğu gündən bu günə kimi təhsil sahəsində dəyişikliklər və yüksək inkişaf müşahidə olunur. Bu gün təhsilimizin əsas məqsədi hərtərəfli inkişaf etmiş, ahəngdar şəxsiyyət formalaşdırmaqdır. Bu işdə bütün məsuliyyət demək olar ki, müəllimin üzərinə düşür.

Müəllimlik peşəsi şərəfli, məsuliyyətli və mürəkkəb işdir. Çünki o, dünyada ən yüksək dəyər olan insanla işləyir və bu işdə səhvə yol vermək olmaz. Ulu öndər H.Əliyevin " Mən müəllimdən yüksək ad tanımıram." ifadəsi müəllimlik peşəsinin nə qədər dəyərli olduğunu bir daha sübut edir. Müəllimin öz peşəsinə, şagirdlərə həqiqi insani münasibəti vacibdir. V.A.Suxomlinski yazır ki, " Mənim üçün yeniyetmənin həyatımdan keçərkən yaddaşımda və ürəyimdə heç bir iz qoymaması ən böyük cəza olardı. Əgər o, sənin yanından simasız cahil kimi gedərsə deməli, sən onda heç bir iz qoya bilməmisən. Və yəqin ki, müəllim üçün bundan daha kədərli sonluq ola bilməz."

V.A.Suxomlinskinin fikrində böyük həqiqət vardır. Çünki məktəbdə müəllimin şagirdə qarşı düzgün münasibəti pedaqoji cəhətdən mühüm əhəmiyyətə malikdir. Şagirdə qarşı göstərilən düzgün münasibət onun şüur və davranışının formalaşmasına müsbət təsir göstərir. Müəllimin hər bir şagirdin yaşını, psixologiyasını, fərdi xüsusiyyətlərini öyrənib, onlara düzgün münasibət göstərməsi tərbiyə işində vacib məsələlərdən biridir.

Müəllim-şagird münasibətlərinin düzgün qurulmasında ən vacib şərtlərdən biri də hər bir şagirdə hörmət və tələbkarlıqla yanaşmaqdır. Cəmiyyətdə hörmət və tələbkarlıq insanlar arasındakı qarşılıqlı münasibətin əsasını təşkil edir.

Pedaqoji etika elmi müəllimin peşə etikasınının əsas kateqoriyalarını müəyyənləşdirmişdir. Peşə fədakarlığı və humanizmi də müəllimin peşə mədəniyyətinin əsas kateqoriyalarına daxildir.

Pedaqoji fədakarlıq və humanizm müəllim üçün elə vacib keyfiyyətlərdir ki, onlarsız əsl müəllim və ya tərbiyəçi olmaq qeyri–mümkündür. Bir çox görkəmli şəxsiyyətlər A.S.Makarenko, V.A.Suxomlinski və s. müəllimin fədakar əməyinə, humanizminə dair gözəl əsərlər yaratmışlar.

Bəs nə üçün müəllimin əsas xüsusiyyətlərindən biri peşə fədakarlığı və humanizmidir?

İlk növbədə etik anlayış kimi fədakarlığın ifadə etdiyi mənanı aydınlaşdırmaq vacibdir. Fədakarlıq anlayışı cəmiyyətin mənafeinə görə öz şəxsi mənafeindən imtina etməklə bağlı olsa da, mənəvi xüsusiyyət kimi ideallara nail olmaq naminə bir sıra çətin öhdəliklərin könüllü surətdə qəbul edilməsi deməkdir. Əvvəllər müəllimin peşə fədakarlığı ilə bağlı " Bütün həyatını işinə qurban verdi." ifadəsi tez-tez işlədilirdi. Amma artıq bu ifadə öz qüvvəsini itirib. Çünki müəllim şagirdləri üçün yaşamaqla yanaşı, eyni zamanada özü üçün də yaşayır.

Pedaqoji fədakarlıq şagirdlərdə özünə tənqidi yanaşmaq, özünütərbiyə, özünütəkmilləşdirmə bacarıqlarının formalaşdırılmasını tələb edir. Özündə belə keyfiyyətlər formalaşdırmaq hamı üçün çətin bir prosesdir.

Aparılmış tədqiqatlar və pedaqoji təcrübələr sübut edir ki, məktəblərdə müəllimlər şagirdlərdə özünütənqidi münasibət bacarığı formalaşdırmaq işinə lazımi diqqət göstərmirlər. Bu məsələni İ.A.Dontsov da öz əsərində işıqlandırmışdır. O, yazır ki, məktəb şagirdlərə özünütənqid, özünütəkmilləşdirmə, özünə inam, özünüidarə və s. kimi keyfiyyətlərin formalaşdırılması işində zəif fəaliyyət göstərir və məkətəbi bitirən məzunların demək olar ki, bir çoxunda məsuliyyət, özünütəhsilə meyl, müstəqil qərar qəbul etmək və s. kimi bacarıqlar olmur. Yuxarıda sadaladığımız keyfiyyətlər fədakarlığın tərkib hissəsidir. Bu komponentlər təcrübəyə tətbiq olunmadıqda bir çox problemlər yaranır. Ona görə də gələcəkdə ola biləcək mənəvi toqquşmaların, çətinliklərin qarşısını ala bilmək üçün hər bir müəllimdə maraq, müdriklik, inadlılıq kimi keyfiyyətlərə əsaslanan pedaqoji fədakarlıq qabliyyəti olmalıdır.

Təhsildə müəllim fədakarlığı onun qızıl qaydalarından biri olan humanizmlə sıx bağlıdır. Azərbaycan təhsilinin humanistliyində dinə və dindar adamlara dözümlü münasibət göstərmək, milli və ümumbəşəri dəyərlərə, insan hüquqları və azadlıqlarına, insanlara qayğı və hörmət göstərmək və s. cəhətlər mühüm əhəmiyyətə malikdir. Təhsilin humanistləşdirliməsi humanitar fənlərlə yanaşı digər fənlərin əsasında da həyata keçirilir. Humanist yönümlü məzmuna yiyələnmək humanist təfəkkürün, qarşıya çıxan problemlərə nikbin baxışların formalaşdırılmasına, şagirdlərin insan həyatının mənasını başa düşməsinə gətirib çıxarır. Buna görə də humanistlik hər bir müəllim üçün ən vacib keyfiyyətlərdən biridir. Pedaqoji humanizm şagirdlərə müsbət keyfiyyətlərin aşılanması, onlara məhəbbət və hörmət göstərməklə şagirdlərin daxilində olan müsbət keyfiyyətləri üzə çıxarıb, inkişaf etdirməyi vacib sayır.

Həqiqi münasibətlər laqeydlikdən, eqoizmdən uzaq, şagirdin şərəf və ləyaqətinə qarşı hörmətə əsaslanan münasibətdir. Əsl humanizm tələb edir ki, insanın "mahiyyəti ilə mövcudluğu" arasındakı uçurum aradan götürülsün. Müəllim-şagird arasındakı humanist münasibət qarşılıqlı anlaşma və inama əsaslanmalıdır. Belə münasibətlərin yaranmasında ilk növbədə yaş xüsusiyyətləri problem yaradır. Ona görə ki, müəllim və şagird müxtəlif dövrlərin nümayəndələridir. Bir tərəfdən yüksək savada, təcrübəyə, geniş dünyagörüşünə malik müəllim, digər tərəfdən hələ xarakteri tam formalaşmamış mənəviyyatı möhkəmlənməmiş şagird dayanır. Bu fərqlər onların yaxınlaşmasında psixoloji amildir. Əsl humanist, peşəsinin ustası olan müəllim bu çətinliyi aradan qaldırmağı bacarmalıdır. Bu sahədə aparılan tədqiqatlardan sübut olunur ki, müəllim humanist, qayğıkeş, həsas olarsa, şagirdlə mənəvi yaxınlıq zamanı baş verən bütün maneələr öz qüvvəsini itirəcəkdir.

Müəllim-şagird arasındakı humanist münasibət pedaqoji məqsədəuyğunluq çərçivəsində olmalıdır.

ŞAGİRDLƏRƏ ƏXLAQİ KEYFİYYƏTLƏRİN AŞILANMASINDA TELEVİZİYANIN ROLU

İsmayılova G.K.
Bakı Slavyan Universiteti

Cəmiyyət inkişaf etdikcə əxlaqi münasibətlər dəyişir və inkişaf edir. Uşaqlara əxlaqi keyfiyyətlərin aşılanması məsələsi bu günümüz üçün olduqca aktualdır. Çünki hər bir uşaq cəmiyyətin bir üzvüdür və cəmiyyətimizin inkişafı isə məhz uşaqların əxlaqi keyfiyyətlərindən asılıdır.

Uşaqlara əxlaqi keyfiyyətlər körpəlikdən ailədə aşılanır. Bəzən bu irsi xarakter də daşıyır. Daha sonra isə bu işdə ailənin rolu əvəzolunmazdır. Ailədə uşaqlara düzgün tərbiyə verilməsi uşağı bir növ əxlaqi cəhətdən cəmiyyətə daxil olmağa hazır edir.

Uşaqların əxlaqi keyfiyyətlərə yiyələnməsində digər bir amil isə ətraf mühitdir. Ailədə tərbiyənin əsası nə qədər düzgün qoyulsa, əgər uşağın düşdüyü mühit, ətrafındakı dostları sağlam deyilsə, onun ailədə aldığı tərbiyəsinin təsirinin azalması ehtimalı böyükdür. Çünki uşaq psixologiyası xarici təsirləri tez qəbul edir və uzun müddət bu təsirlərdən azad ola bilmir. Əgər söhbət kiçik yaşlı məktəblidən gedirsə, onun ailə tərbiyəsi nə qədər sağlam olsa da o istər – istəməz pis vərdişləri olan məktəb yoldaşlarının təsiri altına düşəcək. Burada pis vərdişlər qeyri-ixtiyari hərəkətlər etmək, dırnaq yemək, müəyyən səslər çıxarmaq, yalan danışmaq, dəcəllik və s. ola bilər.

Gənclərdə isə əxlaqi keyfiyyətlərə yiyələnmə bir qədər fərqlidir. Əgər hər bir gənc pis vərdişinin fərqinə varsa və bu vərdişlərdən azad olunmağa çalışsa, müəyyən mənada özündə hər hansı bir əxlaqi keyfiyyəti tərbiyə etmiş olacaq. Bu da özünütərbiyənin elementlərindən biridir.

Həm gənclər, həm də məktəb yaşlı uşaqlara əxlaqi keyfiyyətlərin aşılanmasında televiziyanın rolu danılmazdır. Bu gün televiziyamız insanları maarifləndirmək üçün müəyyən xidmətlər göstərir. Lakin televiziya verilişlərinin əks təsirləri də olur ki, bu da uşaqların əxlaqi tərbiyəsində özünü biruzə verir. Televiziyamızda yayımlanan verilişlərə nəzər salaq.

Hal-hazırda ATV telekanalında yayımlanan ÖZ ARAMIZDA verilişi insanları tərbiyələndirmək işində ön sıralardadır. Bu verilişi izləyən hər bir gənc, məktəbli buradan yalnız müsbət keyfiyyətlər götürə bilər. Çünki bu verilişin əsas məqsədi köməyə ehtiyacı olan insanlara əl tutmaq, yardım etmək, cəmiyyətimiz üçün hal-hazırda aktual olan məsələləri (narkomaniya, alkoqolizm və s.) işıqlandırmaqla xalqımızı, cəmiyyətimizi maarifləndirməkdir.

Daha sonra reklam çarxlarına nəzər yetirək.

Bizim reklam olmasa da, Azərbaycan dilinə tərcümə edilmiş "Sən qabyuyan deyilsən, qadınsan" reklam çarxına nəzər salsaq, buradakı qüsurları aşkar görə bilərik.

Məgər qabyuyan olmaq pis işdirmi ki? Keçmiş zamanlarda, texnologiyanın inkişaf etmədiyi vaxtlarda analarımız, nənələrimiz qab yumuyublarmı? Bu reklamı bir növ qab yuyanı, işləyən, halal zəhmətlə pul qazananları təhqir etmiş hesab edirəm.

Təbii ki, kiçik yaşlı məktəblilər bu reklam çarxının dərinliyinə vara bilməz və "qabyuyan" yaddaşlarında mənfi bir xüsusiyyət kimi qala bilər. Həmçinin, valideynləri qabyuyan işləyən uşaqlar başqalarının yanında utana bilərlər.

Uşaqların əxlaqi cəhətdən tərbiyə olunmasında televiziyamıza daxil olan Çizgi Filmlərinin də böyük rolu vardır. Çizgi filmlər uşaqların əqli, estetik, əxlaqi cəhətdən tərbiyə olunmasında, onların dünyagörüşünün inkişafında böyük əhəmiyyətə malikdir. Azərbaycanın ən gözəl çizgi filmlərindən biri olan "Tık-tık xanım" çizgi filminin əsas ideyası DOSTLUQdur. O uşaqlara dostluqda hər kəsin özünə uyğun adamla dostluq etməsini və onun qədrini bilməsini, dosta sadiqliyi təbliğ edir.

Bütün bunlardan əlavə televiziyamızda yayımlanan intellektual tipli verilişlərin də sayı az deyildir.

Bu verilişlər uşaqların məntiqi təfəkkürünü inkişaf etdirir, onları intellekt cəhətdən yüksək səviyyəyə çatdırır. Bu tip verilişlərə çox yer verilməsi həm kiçik yaşlı məktəblilər üçün, həm də gənclərimiz üçün olduqca faydalıdır.

YENİYETMƏ YAŞI DÖVRÜNDƏ YENİYETMƏLƏRİN TƏLİM FƏALİYYƏTİ VƏ TƏLİM FƏALİYYƏTİNƏ MÜNASİBƏTİ

Əliyeva D.V.
Bakı Slavyan Universiteti

Yeniyetmə yaşı 10-11 yaşdan 14-15 yaşa qədər olan dövrü əhatə edir. Bu dövrü çətin, keçid, böhran dövrü adlandırırlar. Çünki bu zaman insanın uşaqlıqdan yetkinliyə qədəm qoyması baş verir. İstər fiziki, istərsə də psixi inkişaf baş verir. Bu zaman yeniyetmələr öz ətrafdakıları tərəfindən sevilmək istəyir, diqqət istəyir. Bu tələbat ödənilmirsə cəmiyyət "çətin" yeniyetmə deyilən şəxslə üzləşəcəkdir.

Bu dövrdə yeniyetmələrin aparıcı fəaliyyəti həmyaşıdları ilə intim-şəxsi ünsiyyət olur. Lakin təlim, ictimai-təşkilati, bədii, idman, əmək fəaliyyəti də özünəməxsus yer tutur.

Yeniyetməlik yaş dövründə bir çox sahələrdə olduğu kimi təlim fəaliyyətində də bir çox dəyişikliklər olur. Bu dəyişiklik istər idrak proseslərində, istərsə də təlimə münasibətdə özünü göstərir.

Qeyd etdik ki, yeniyetmələrin idrak proseslərində dəyişikliklər özünü göstərir. Belə ki, bu zaman həm fənlərin sayı çoxalır, həm də yeniyetmələr artıq elmlərin əsasını sistemli şəkildə öyrənməyə başlayırlar. Bunun üçün də yeniyetmələrdən yüksək əqli inkişaf və idrak proseslərinin inkişafı tələb olunur. Beləliklə, bu zaman yeniyetmələrin qavrayışı geniş əhatəli olmaqla ardıcıl və seçici olur. Yəni onların qavrayışı daha çox maraqlandıqları əşya və hadisələrlə bağlı olur. Hafizə də xeyli inkişaf edir. Bu dövrdə şagirdlər məntiqi, eləcə də ixtiyari hafizədən istifadəyə üstünlük verirlər. Eləcə də hafizənin mühüm proseslərindən biri olan yaddasaxlamanı yaxşılaşdırmaq yollarına maraq artır. Onlar başa düşür ki, materialı məntiqi yaddasaxlama daha yaxşı nəticə verir, nəinki mexaniki. Lakin mexaniki yaddasaxlamaya da ehtiyac duyulur. Məsələn, tərif, teorem, şeir və s. öyrənilməsi zamanı. Qavrayış və hafizədən fərqli olaraq yeniyetməlik dövründə idrak proseslərindən biri olan diqqətin təzahür və inkişafına mənfi təsir edəcək səbəblər olur. Bu dövrdə diqqətin tez-tez yayınması halları baş verir. Şagirdin müəllimlərə və fənlərə seçici münasibət bəsləməsi, tələbat və maraq dairəsinin dəyişməsi,

keçirdiyi psixi hallar, cinsi yetişmənin başlanması ilə əlaqəli güclü təəssüratlar, öz yoldaşları yanında özünü göstərmə, yaşlılıq hissi və s. diqqətin inkişafına mənfi təsir göstərə bilir. Həmçinin bu yaş dövründə təxəyyülün inkişafında xeyli irəliləyiş baş verir. Bərpaedici təxəyyül daha çox inkişaf edir. Yeniyetmələrdə fantastik, romantik surətlərin yaradılmasına meyl daha yüksək olur. Artıq 14-15 yaşlarda təxəyyül surətləri daha real, daha tənqidi xarakter daşımağa başlasa da, lakin yeniyetmələr romantik surətlərdən tam yaxa qurtara bilmirlər. Yeniyetmələrdə təfəkkürün inkişafında da dəyişikliklər baş verir. Kiçik məktəblilər daha çox konkret cisimləri müqayisə edir, ümumi təsəvvürlərə və məişət anlayışlarına üstünlük verirlər. Lakin yeniyetmələr isə elmi anlayışları mənimsəyir, ümumi hökmlərdən istifadə edir, onların təfəkkürü daha çox mücərrəd xarakter daşımağa başlıyır.

Yeniyetmələrin təlim fəaliyyətində olan dəyişikliyin ən birinci səbəbi onlarla bir müəllim deyil, bir neçə müəllimin məşğul olmasıdır. Hər bir müəllimin öz tələbatı olur ki, bu da yeniyetmələrin müəllimlərə fərdi yanaşmağına səbəb olur. Belə ki, yeniyetmə hər bir müəllimə uyğun olaraq davranış tərzinə riayət edir, dərsə hazırlaşması belə fərdi xarakter daşıyır. Belə ki, hansı müəllimi bəyənmirlərsə onun dərsinə hazırlaşmırlar və ya daha həvəssiz hazırlaşırlar. Hər bir müəllimin öz dərsi aparma tərzi olduğu üçün yeniyetmə də buna uyğun davranmağa başlıyır. Təbii ki, bu zaman yeniyetmələr bu müəllimlərdən bəzilərini sevir, bəzilərindən hətta zəhlələri gedir, bəzilərinə isə laqeyd olaraq yanaşırlar. Yeniyetmələr onlarla ünsiyyətdə daha çox olan, ədalətli, yeniyetmələrlə mülayim olan, maraqlı dərs keçən, dərsi daha yaxşı izah edən, demokratik ünsiyyət üslubuna malik olan müəllimləri sevirlər və yüksək qiymətləndirirlər.

Təlimə münasibətdə dedik ki, müəllim dərsi maraqlı aparırsa bu şagirdi uzun müddət yayınmadan özünə cəlb edir. Bu dövrün özünəməxsusluğu ondadır ki, yeniyetmələr özlərini yetkin hesab etdiklərindən və daha çox fəal olduqlarından müxtəlif işlərə həvəslə maraq göstərirlər və demək olar ki, uğurlu nəticə əldə edirlər. Təlim fəaliyyətinin köhnə formaları ilə yeni tələbatlar arasında ziddiyyətlər yaranır. Elə həmin ziddiyyətlərin həlli prosesində də yeniyetmələrin təlim fəaliyyəti inkişaf edir. Bu dövrdə şagirdin təlim fəaliyyətinin özünəməxsusluğundan biri də müstəqilliyin inkişafı ilə bağlıdır.

Lakin təlimə münasibətdə "çətin" yeniyetmələrin təlim fəaliyyətinə göstərdiyi maraq bu qeyd etdiklərimizdən tamamilə fərqlənə bilər. Daha həssas dönəm olan yeniyetməlik dövründə "çətin" yeniyetmələrin uğur və uğursuzluq şəraiti də təlim fəaliyyətinə özünəməxsus təsir edir. Bu zaman bir çox hallarla qarşılaşmaq olar. Belə ki, əksər zaman "çətin" yeniyetmələr təlim fəaliyyətini və onun vacibliyini dərk edirlər, lakin məktəb, təlim, oxumaq onların hər birinin həyatında eyni əhəmiyyətə malik olmur. Bəzisi təlimə daha çox vaxt ayırır, bəzisi dırnaqarası yanaşır, bəzisi ümumiyyətlə fikir vermir. "Çətin" yeniyetmələrdə özünəməxsus ziddiyyətlərdən biri də odur ki, o biliklərə yiyələnməyə səy göstərsə də, qiymətə, məktəbə laqeyd münasibət bəsləyir. O aşağı qiymət aldıqda əsəbiləşir. Lakin özünü müəllimlərə, yoldaşlarına elə göstərir ki, guya onun aldığı aşağı qiymətin onun üçün heç bir əhəmiyyəti yoxdur. Özünü daha sakit və təmkinli göstərir. Bununla da, o təlim fəaliyyətindəki müvəqiyyətsizliyə olan əsl münasibətini pərdələmiş olur.

Bu yaş dövründə "çətin" yeniyetmələrdə təlim maraqlarının yaranmasına və inkişaf etdirilməsinə xüsusi diqqət yetirilməlidir. Bunun üçün müəllim və valideynlər onlara düzgün istiqamət verməli, həmin yaş dövrünün xüsusiyyətlərini nəzərə alaraq onlarla davranmalı, dərsdə müəllim əməkdaşlıq şəraiti yaratmalı, onlara daha çox fərdi yanaşmalıdır.

Yeniyətmələr müəllimlərə olduğu kimi fənlərə də "seçici" münasibət bəsləyirlər. Onlarda peşə marağının formalaşması ilə əlaqəli olaraq fənləri "maraqlı" və ya "maraqsız" ,"lazımlı" və ya "lazımsız" fənlərə ayırırlar. "Çətin" yeniyetmələr bəzən öz sinif yoldaşları ilə, eləcə də müəllimlərilə konflikt yaşayırlar. Bu da birbaşa onların təlim fəaliyyətinə təsir göstərir. Hansı müəllimlə konflikt yaşayırlarsa onun dərsinə laqeyd münasibət bəsləyirlər. Eləcə də, həmin müəllimlə xoş münasibəti kəsirlər. Ümumiyyətlə bu konfliktli hal həm müəllimə, həm də yeniyetməyə emosional cəhətdən mənfi təsir göstərir. Lakin yeniyetmə emosional cəhətdən buna tam hazır olmadığına görə daha mənfi təsri göstərir. Araşdırmalar nəticəsində məlum olmuşdur ki, yeniyetmələrin, xüsusən də "çətin" yeniyetmələrin həyatında ən çox yaşanan problem müəllim-şagird münasibətləridir. Yeniyetmələrin şikayətləndiyi hallar olur ki, "müəllim məni sevmir", "müəllim mənə haqsız olaraq aşağı qiymət yazır", "o, mənə düzgün olmayan iradlar bildirir" və s. Müəllim isə "şagird dərsimi dinləmir" , "şagird dərsimi mütəmadi olaraq pozur və bu zaman mən özümlə bacara bilmirəm" və s. kimi sözlər.

Təlim fəaliyyətində şagirdlərin akademik göstəricilərinə görə onları qiymətləndirmək ənənəvi bir hala keçib. Yaxşı oxuyan, əlaçı şagirdlər müəllimlərin gözündə daha fərqlidir. Dərslərində zəif olan şagirdlərin isə müəllim diqqətindən kənarda qalması halları baş verir. Müəllimin bu cür "seçici"

münasibət bəsləməsi düzgün deyil. Hər bir şagirdin özünün üstün cəhətləri var və müəllimin işi bunu tapıb üzə çıxarmaqdır. Ümumiyyətlə müəllimin məqsədi və vəzifəsi şagirdlərə sistemli şəkildə bilik, bacarıqları vermək, onları hamıya faydalı bir şəxsiyyət kimi yetişdirməkdir. Lakin bu vəziyyətdə, bu yaş dövründə müəllimin məsuliyyəti daha da artmalıdır. Çünki yeniyetmələrin hər birinin öz motivasiyası, maraq dairəsi və xüsusiyyətləri vardır. Müəllim çox bacarıqlı pedaqoq olmalıdır ki, hər birini qane edəcək bir ortaq məxrəc tapa bilsin. Bu yaş dövründə müəllim daha çox yeniyetmələrin öz nüfuzunu qoruyub saxlamağına imkan yaratmalıdır. Şagird elə fikirləşsin ki, onun pis qiymət almasında günahkar müəllimdir. O bununla bəxti gətirməməsini və hadisələrin onun üçün əlverişsiz olması ilə özünə bəraət qazandırsın. Lakin qarşılığında yeniyetmənin təlim fəaliyyətinə marağı daha da artar və öz nüfuzunu qoruyub saxlayar. Müəllim öz yeniytmələrinə yaxşı ad-san(reputasiya) qazandırmağa çalışmalıdır.

Yeniyetmələr və bəzi "çətin" yeniyetmələr həmyaşıdları, müəllimləri və valideynləri ilə ünsiyyətdə olmağa çalışır, onlardan diqqət, qayğı gözləyir. Əgər bu tələbatlar ödənilməzsə, yeniyetmənin özü haqqında neqativ fikirləri formalaşar, özünü lazımsız, gərəksiz sayar. Belə hallarda ya özünə qapanma olar, hər şeydən qaçmaq istəyər, ya da aqressivləşər.

YENİYETMƏLƏRİN FORMALAŞMASINDA AİLƏNİN ROLU

Məmmədova M.K.
Bakı Slavyan Universiteti

Yeniyetmələrin formalaşmasında ailə cəmiyyətin tərbiyəvi institutu kimi çıxış edir və cəmiyyətin müxtəlif sahələrində gedən prosesləri ailə tərbiyəsində xüsusi formada əks etdirir. Yeniyetmələrin ilk şəxsi münasibətləri onların öz ailə üzvləri ilə olan münasibət ilə başlayır.Ailə valideyn və övladların qaçılmaz qarşılıqlı sevgi və hörməti əsasında yaranan qurumdur. Cəmiyyət üçün birinci növbədə sağlam düşüncəli,sağlam əxlaqlı insanların yetişdirilməsi ailədən başlayır. Bütün valideynlər vəzifəsindən, maddi durumundan asılı olmayaraq hər bir ata ana öz övladına yüksək formada tərbiyə verməyə, onu hərtərəfli gözəl əxlaqlı insan kimi yetişdirməyə çalışmalıdır.Tərbiyənin bütün növləri - əxlaqi, estetik, əqli, fiziki, əmək tərbiyəsi ilk olaraq ailədə formalaşır.

Valideynlər yeni yetmələrin formalaşdığı zamandan etibarən onun davranış və inkişafını yaxından izləməlidirlər.Valideynlər böyütdükləri övladının bütün yaş dövrlərində xüsusilə yeniyetmə yaş dövründə övladlarının təlim və tərbiyəsinə xüsusi diqqət yetirsinlər. Belə olmayan təqdirdə yeniyetmələrin tərbiyəsində boşluqlar əmələ gələbilər. Bu halda isə gələcəkdə cəmiyyət üçün yararlı olmayan insan yetişə bilər. Çünki, valideynlərin öz övladlarına vaxtında vermədiyi tərbiyə ona nə məktəbdə, nə də cəmiyyətdə öyrədiləcək.Yeniyetmələrin tərbiyəsində valideynlər bir çox xüsusiyyətlərə diqqət yetirməlidirlər.

Birinci növbədə valideynlər özləri uşaqlara nümunə olmalıdırlar. Bu zaman ilk növbədə "sözlə əməlin birliyi"nə xüsusi diqqət verilməlidir. Bu prinsipə əsaslanmasa valideynlə yeniyetmələr arasında müəyyən çətinliklər əmələ gələ bilər.Və bu verdiyit ərbiyənin həyata keçməsində maneçilik törədə bilər.

İkinci növbədə tərbiyə sevgiylə həyata keçirilərsə daha gözəl nəticəsi ola bilər. Bu zaman yeniyetmə sevildiyini və valideynləri tərəfindən nə qədər dəyərli olduğunu hiss edər, valideynlərinə güvənləri genişlənər. Ailədə sevgiylə böyüyən uşaqların həyata baxışları da daha optimist olur və cəmiyyətdə öz yerlərini daha asanlıqla tuta bilirlər.

Üçüncü növbədə isə valideynlər yəni ata və ana övladlarının tərbiyəsində birlikdə qərar verməlidirlər. Əgər valideynlər fərqli fikirlər söyləyərlərsə belə halda övladların da çaşqınlıq əmələ gələ bilər.Fikir ayrılıqları yaranarsa belə bu övladların yanında müzakirə edilməməlidir.

Ailə övladlarının bütün yaş dövrlərində onların davranışına, rəftarına diqqət yetirməlidirlər, xüsusilə yeniyetmə yaş dövründə buna daha diqqətlə yanaşmalıdırlar. Çünki yeniyetmə dövrü həm də böhran dövrü hesab olunduğuna görə onların davranışında çoxlu dəyişikiklər baş verir. Buna daha yaxından diqqət yetirlməlidirki, gələcəkdə davranışları pis formaya gəlib çıxmasın. Bu tərbiyə prosesində valideyn üçün qarşısında duran ən məsul vəzifələrdən biridir.

Valideynlər övladlarının yeniyetmə yaş dövründə kimlərlə yoldaşlıq etdiklərinə də nəzarət etməlidirlər. Bunun üçün uşaqlarının dostlarını tez-tez evlərinə dəvət etməlidirlər, onların valideynləri ilə münasibət qurmalıdırlar. Bu zaman valideynlər uşaqlarının dostları barədə daha çox məlumatlı ola bilərlər və əgər çətinlik yaranarsa daha tez onu aradan qaldıra bilərlər.

Yeniyetmələrin tələbatlarını dəqiq bilmək mütləq vacib bir amildir. Bu zaman yeniyetmələrlə mütləq şəkildə səmimi və mehriban münasibət yaratmaq lazımdır, onların nə istədiklərini dəqiq öyrənəndən sonra əgər bu yalnış fikirdədirsə onu daha çox səbr göstərməklə düzgün yola gətirmək lazımdır. Nəzərdə saxlamaq lazımdır ki, bütün səhvləri bir gündə düzəltmək mümkün deyil. Bildiyimiz kimi tərbiyə özü uzunmüddətli bir prosesdir və onun nəticələri gec özünü göstərir.

Yeniyetmələrin tərbiyəsində asudə vaxtlarını aradan qaldırmaq üçün əmək, fiziki tərbiyəvasitələrinə yönəltmək lazımdır. Bu zaman yeniyetmələrin enerjisi daha çox idmana, əməyə sərf olunur. Onlarda dözümlülük, cəldlik, güclülük və s. kimi keyfiyyətlər formalaşır. Belə olduğu halda yeniyetmələrin artıq zamanları qalmayaqdir pis işlərə qoşulsunlar.

Valideynlərin yeniyetmələrin tərbiyəsində məktəb ilə mütəmadi olaraq əlaqə yaradılması məqsədə uyğundur. Bu prosesdə məktəb ilə ailə arasında zidiyyətlərin yaranmasına imkan verilməməlidir. Tərbiyə-təhsil prosesində ailə və məktəb bir yerdə hərəkət etməlidirlər.

Ümumiyyətlə, yeniyetmələrlə rahat münasibət yaratmaq çətindir. Onlar həmişə narahat və səbrsiz olurlar. Mütləq yeniyetmənin özünə güvənini və özünü qiymətləndirməni yaradaraq problemin yarısını həll etmək mümkündür. Valideynlər əsas çalışmalıdırla rözlərini düzəltsinlər daha sonra övladlarının yalnışlarını aradan qaldırsınlar.

ORTA ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNİN PROQRAM VƏ DƏRSLİKLƏRİNDƏ SƏMƏD VURĞUN POEMALARININ TƏDRİSİNİN ƏHƏMİYYƏTİ

Məmmədova T.H.
Bakı Slavyan Universiteti

S.Vurğun yaradıcılığı orta məktəblərdə geniş təqdim edilsə də, onun lirikasının qüdrəti, xüsusiyyətləri, formaları, ideya-bədii mahiyyəti, sənətkarlıq məsələlərinin tədrisi kifayət qədər həllini tapmamışdır. Orta məktəb dərsliklərində də bu problemə geniş yer verilməmiş, müəllimlərin bu sahədəki ehtiyacları tam ödənilməmişdir.

Elmi ədəbiyyatda şairin poemalarının üslub, forma, habelə məzmun və mahiyyət etibarilə geniş təsnifatı mövcuddur:

Mənzum romanın sərhədlərinə yaxınlaşan əsərlər: “Komsomol poeması”, «Aygün», «Bakının dastanı», «Muğan»

Epik mündəricəli poemalar: «26-lar», «Aslan qayası», «Üsyan», «Dar ağacı»

Liro-epik poemalar:«Bəsti», «Ölüm kürsüsü»

Lirik poemalar: «Acı xatirələr», «Anamın dərdi», «Talıstan», «Qız qayası»

Lirik-fəlsəfi, siyasi-publisistik poemalar: «Zamanın bayraqdarı», «Leninin kitabı», «Zəncinin arzuları»

Publisistik poemalar: «Macəra», «Xumar», «Muradxan», «Kənd səhəri»

Nəsihətamiz poemalar: «Ayın əfsanəsi», «Ölən məhəbbət», «Bulaq əfsanəsi»

Alleqorik poemalar: «Bülbül və bağban», «Yazla qışın deyişməsi», «Çil toyuğun tək yumurtası»

Dramatik poema: «Hürmüz və Əhrimən»

Hal-hazırda orta məktəblərdə S.Vurğun yaradıcılığı VII sinifdə 3 saat, IX sinifdə 3 saat (I S.Vurğunun həyat və yaradıcılığı haqqında məlumat-1 saat, “Mən tələsmirəm” şeirində həyata bağlılıq, insanın yaşamaq eşqinin tükənməzliyi ideyasının ifadəsi-1saat, S.Vurğunun “Mən tələsmirəm” şeirinin oxusu, məzmunu, əsərdə insanın həyata bağlılığı-1saat), XI sinifdə 5 saat (S.Vurğunun həyatının öyrənilməsi-1saat, yaradıcılığınını öyrədilməsi-1 saat, “Vaqif” dramının mövzu və ideyası, məzmunun öyrədilməsi-1saat, əsərin təhlili-1saat, “Vaqif” pyesinin sənətkarlıq xüsusiyyətləri-1saat) olmaqla geniş tədris olunur. Təəssüf ki, lirik və dramatik yaradıcılığına ayrılıqda diqqət olunsa da, poemaları üzərində ayrıca dayanılmır.

S.Vurğun yaradıcılığı geniş və sistemli şəkildə XI sinifdə tədris olunsa da, şairin epik əsərlərindən yalnız “Muğan” və “Aygün” poemasının qısa təhlili verilir.

Dərslikdə Səməd Vurğunun epik əsərləri üç qrupa ayrılır:

1.Əfsanəvi mövzulara həsr olunmuş poemalar-“Bulaq əfsanəsi”, “Qız qayası”, “Aslan qayası”, “Ayın əfsanəsi”, “Hörümüz və əhrimən”

2. Tarixi mövzulara həsr olunmuş poemalar-“Zamanın bayraqdarı”, “Dar ağacı”, “26-lar”, “Üsyan”, “Macəra”

3. Sovet həyatını əks etdirən poemalar. S.Vurğunun tarixi mövzuda yazdığı poemaları onun müasir, sovet mövzulu poemalarına yaxındır.

S.Vurğunun yaradıcılığını tədris edərkən müəllim dərsliklərlə yanaşı, müntəxəbatlardan da istifadə edir ki,şagirdlər daha geniş məlumat əldə etsinlər. Təəssüf ki dərsliklərdə olduğu kimi müntəxəbatlarda da S.Vurğunun lirik və dramatik əsərləri əksini tapdığı halda poemalarına yer verilməmişdi.

Əvvəlki proqramda S.Vurğun yaradıcılığına V sinifdə 2 saat, VI sinifdə 4 saat, VII sinifdə 1 saat IX sinifdə 3 saat, XI sinifdə 4 saat (S.Vurğunun həyatı-1 saat, yaradıcılığı, şeirləri, dramaturgiyası, tərcümələri-1saat "Muğan" poemasının məzmunu, Mingəçevir su elektirik stansiyasının tikintisinin tərənnümü-1 saat, poemanın təhlili, əsərdə müəllif obrazı, Sarvan, Manya, Muğan qızının səciyyəsi, əmək adamları-1 saat) olmaqla geniş tədris olunur.

Müşahidələr göstərir ki, S.Vurğun poemalarının tədrisinə indiki dərsliklərdən və proqramlardan fərqli olaraq əvvəlki dərsliklərdə və proqramlarda daha dərin və geniş yer verilmişdi.

MÜASİR FRANSIZ DİLİNİN TƏDRİSİNDƏ İKT-NİN ROLU

Rzayeva K.T.
Bakı Slavyan Universiteti

XXI əsrdə yeni informasiya texnologiyalarının istifadəsi çox böyük üstünlük təşkil edir.İnformasiya və müasir texnonlogiyalar nazirliyi ilə Azərbaycan Respublikası Təhsil Nazirliyi təhsildə multimedia vasitələrinə əsaslanan yeni bir təşəbbüsün əsasını qoydu.Bu o deməkdir ki, tədris prosesinin səmərəliliyinin artırılması istiqamətində işlərə başladılar.Artıq yeni təhsil prosesində lövhə,təbaşir,qırmızı qələm və kitablar az istifadə olunur. Hal-hazırda onları notebook,internet,video və digər cihazlar əvəz edir.Nəticədə tələbələr yeni terminlər öyrənir. Məsələn: printer, faks,sayt, skaner və.s.

İndiki dövrdə xarici dilin tədrisində müxtəlif növ saytlardan istifadə edirik.Qeyd etdiyimiz kimi, müəllimlər öz tələbələrinə dili daha yaxşı öyrətmək üçün daima yeni metodlar axtarmağa çalışırlar. Məsələn: Onlar öz tələbələrinə verilən mövzu haqqında internetdə məlumatlar axtarmağı tapşıra bilərlər və.s.

İnformasiya və müasir texnologiya vasitələrinin dərs prosesində istifadə olunmasının üstünlükləri var: Dərs zamanı uşaqlar müəllimin verdiyi nəzəri materiallardan kifayətlənmir və bunun üçün də onlar internet üzərində axtarış aparırlar.İnternetdən tapdıqları məlumatlar əsasında onlar informasiyanı birbaşa və ya interaktiv yolla həyata keçirmək və digər layihələrin əsasını qoymağa nail olurlar.İnternet vasitəsi ilə onlar qrup şəklində çalışaraq informasiya mübadiləsi qura bilirlər.Multimedia vasitələri tələbələri ənənəvi metodlardan uzaqlaşdırır və onları yeni metodlar ilə(səsli ifadələr,şəkillər və.s) işləməyə sövq edir. Həmçinin internet vasitələri distans təhsil almaq üçün də imkanlar yaradır.

Hal-hazırda xarici dilin öyrənilməsində yeni texnologiyalardan geniş istifadə edilir. Dərs zamanı bu texnologiya vasitələrinin tətbiqi sinifdə dil bacarıqlarının, düşünmə qabiliyyətlərinin möhkəmləndirilməsinə, bir-birləri ilə qarşılıqlı əlaqə qurmağa, ölkənin müasir mədəniyyəti və gündəlik həyatını eləcə də hədəf dili öyrənməyə imkan yaradır. Informasiya texnologiyaları bizi dünyada baş verən bütün siyasi hadisələrdən, hər dəqiqə dəyişən yeniliklərdən xəbərdar edir.

Həmçinin şagirdlərin öz dil səviyyələrini artırmağa kömək edən müxtəlif növ çalışmalar var: təkrar çalışmalar, yaddaş, fərqləndirmə bacarığı, dəyişmə,əvəz etmə və.s. Qarşımızda duran əsas vəzifələrdən biri də yeni informasiya texnologiyalarının təhsilə səmərəli tətbiqidi. Bildiyimiz kimi ilk addımlar məktəb səviyyəsində atılmalıdır. Düzdür ölkəmizdə fəaliyyət göstərən bəzi özəl məktəbəqədər müəssisələrdə kiçikyaşlı uşaqlar kompüterlə tanışlığa başlayır.Amma kompyüter biliklərinin əsası məhz orta məktəbdə qoyulmalıdır. Ümumiyyətlə, məktəbəqədər yaşlı uşaqların kompüterdən istifadəsi onların sağlamlığı üçün çox təhlükəli ola bilər.Yalnız məktəbdə bu texnologiyalar haqqında məlumat verilməli, onların sərbəst şəkildə kompüterlərdə işləmələrinə şərait yaradılmalıdır. Əgər əvvəllər kompüterdə işləməyi bacarmaq kompüter savadı hesab olunurdusa, artıq indi bu ümumi savad hesab olunur. Kompüteri bilməyən üçün təhsil almaq elmi yaradıcılıqla məşğul olmaq çətindir.

İnformasiya və kommunikasiya texnologiyaları orta məktəb kursunda geniş istifadə olunur. Şagirdlərlə aparılan sorğular da tədrisdə İKT-nın istifadəsinin onlarda özünə inamı və fənnə marağı artırdığını sübut edir.

Bu gün dünyada insanların böyük əksəriyyəti müxtəlif məqsədlər üçün kompüterdən geniş istifadə edirlər. Xüsusən gənc nəsil üçün kompüterdən istifadə onların gündəlik həyat tərzinə çevrilib.Müasir dövrdə İKT-nın inkişafı hər bir ölkənin intellektual və elmi potensialın vacib göstəricilərindən biridir.Bu texnologiyaların sürətli inkişafı və yayılması bəşəriyyətin inkişafı üçün geniş imkanlar yaradır.

Bildiyimiz kimi,İKT-nın tətbiqinə Azərbaycanda da böyük diqqət yetirilir. Son illərdə ölkəmizdə İKT sahəsində ciddi addımlar atılıb.Hazırda İKT sektoru ölkəmizdə ən dinamik inkişaf edən sahələrdən biridir. Aərbaycan Respublikasinda informasion cəmiyyətinin qurulması və kompüterləşmə sahəsində uğurlu addımlar atılmışdır. Bu sahədə həyata keçirilən dövlət siyasətinin ümdə vəzifələrdən biri İKT-nin cəmiyyətin müxtəlif sahələrində xüsusilə də təhsil sistemində geniş tətbiq edilməsi məsələsidir.

Fikrimizcə,müasir təlim metodlarından və İKT-dan istifadə sinif mühitində dəyişiklik etməyə və müəllimlə şagird arasında, şagirdlərin öz aralarında, məktəblə ev arasında baş verən qarşılıqlı əlaqələr qurmağa imkan yaradır.

ФОРМИРОВАНИЕ ПОЛОЖИТЕЛЬНОЙ УЧЕБНОЙ МОТИВАЦИИ НА УРОКАХ РУССКОГО ЯЗЫКА

Арс Эсра Мехмет
Бакинский славянский университет

Мотивация - это некое эмоциональное состояние, которое побуждает к действию.

Процесс формирования и закрепления у школьников положительных мотивов учебной деятельности называется мотивацией учебной деятельности.

Современный комбинированный урок, где сочетается и опрос, и изучение нового материала, приводит к тому, что слабые учащиеся не успевают усваивать материал. Следовательно, необходим дифференцированный подход к обучению, чтобы ученики не теряли интерес к предмету и веру в себя. Такой подход к обучению повышает мотивацию, рост которой тесно связан с показателем удовлетворённости школьников учебным процессом.

В современной школе вопрос о мотивации учения без преувеличения может быть назван центральным, так как мотив является источником деятельности и выполняет функцию побуждения и смыслообразования. Развитие школьника будет более интенсивным и результативным, если он включен в деятельность, соответствующую зоне его ближайшего развития, если учение будет вызывать положительные эмоции, а педагогическое взаимодействие участников образовательного процесса будет доверительным, усиливающим роль положительных эмоций.

Сейчас ни для кого не секрет, что успешность школьника определяется не только и не столько его способностями, сколько его желанием учиться, то есть мотивацией. Для успешного овладения каждой деятельностью необходим определенный уровень интеллекта; дальнейший же успех обусловливается не интеллектом, а другими индивидуально-психологическими особенностями. Известна также масса случаев, когда дети, обладающие блестящими умственными способностями, имели слабую успеваемость и, наоборот, дети-«отличники» отличались вполне посредственными способностями.

Если говорить о желании учиться, то можно отметить, что это сложное многофакторное образование. В его составе психологи выделяют познавательные мотивы, связанные с содержанием учебной деятельности и процессом ее выполнения, а также социальные мотивы, связанные с различными отношениями учащегося с другими людьми. Познавательные мотивы в самом широком смысле — это желание ребенка освоить новые знания или способы получения новых знаний. Социальные мотивы — стремление быть полезным обществу или занять в этом обществе определенную позицию.

Считается, что, для того чтобы ребенок учился успешно, необходимо сочетание познавательной и социальной мотивации. Если мотивация будет только познавательной, знания школьника скорее будут однобокими и, возможно, оторванными от практики. Если желание учиться имеет только социальную природу, то интерес ко всем предметам будет довольно поверхностным, школьник станет учиться ради оценки.

Для того чтобы понять, в чем кроются причины неуспеваемости ученика, можно обратиться к вопросу его учебной мотивации. В первую очередь необходимо определить, насколько сильно его желание учиться, учится ли он из-за интереса к новым знаниям или из желания выглядеть определенным образом перед сверстниками, учителями, родителями. Затем надо постараться культивировать у ребенка тот или иной аспект его мотивации.

Как понять, какова учебная мотивация школьника, что побуждает его учиться? Психологами изобретена масса методов, позволяющих это сделать. Однако у каждого метода есть свои достоинства и свои недостатки. Так, например, сильные стороны опросников, позволяющих понять, что ребенок думает о причинах своего поведения, — простота и однозначность их обработки. В числе недостатков можно назвать следующие: школьник не всегда осознает свои мотивы, а потому и не может о них рассказать. Кроме того, вмешивается фактор социальной желательности — стремление показать себя в лучшем свете, что также искажает оценки.

ИСПОЛЬЗОВАНИЯ МУЛЬТИМЕДИЙНЫХ СРЕДСТВ В УЧЕБНОМ ПРОЦЕССЕ

Ахмедли Н.И.
Бакинский славянский университет

Стремительное развитие информационных и коммуникационных технологий, характерное для 80 - 90-х гг. XX века, приводит к значительной перестройке информационной среды современного общества, открывая новые возможности общественного прогресса, находящего свое отражение, прежде всего, в сфере образования.

Мультимедиа технологии (МТ) - совокупность технологий (приемов, методов, способов), позволяющих с использованием технических и программных средств мультимедиа продуцировать, обрабатывать, хранить, передавать информацию, представленную в различных формах (текст, звук, графика, видео, анимация) с использованием интерактивного программного обеспечения. Лекция, проводимая с применением МТ, становится более гибкой и эффективной с дидактической точки зрения, т.к. МТ позволяют:

- повысить информативность лекции (не надо писать мелом на доске);
- осуществить психологическую разрядку за счет дискретного наложения звука;
- повысить наглядность обучения за счет использования различных форм представления учебного материала (текст, формулы, графики, рисунки, диаграммы, таблицы и др.);
- повысить внимание аудитории в период его снижения (25-30 минут после начала лекции и последние минуты лекции) за счет художественно - эстетического выполнения слайдов - заставок, представленных в данный момент лектором или за счет разумно применимой анимации;
- повысить доступность и восприятие информации;
- повысить мотивацию обучения.

Главное преимущество мультимедиа состоит в возможности использования интерактивного взаимодействия преподавателя-лектора как с программно-аппаратным средством, предполагающим обмен текстовыми командами и ответами, так и одновременное общение со студенческой аудиторией - возможность задавать вопросы, следить за эмоциональной обратной связью.

Как результат, содержание педагогической деятельности в инновационном образовательном процессе с использованием МТ, существенно отличается от традиционного. Значительно усложняется деятельность по разработке курсов,она требует от преподавателя развития специальных навыков, приемов педагогической работы. Так разработка курсов на базе МТ требует не только свободного владения учебным материалом, но и специальных знаний в области современных информационных технологий и технологических навыков работы с техническими средствами. В отличие от традиционного образования, где центральной фигурой является преподаватель, центр тяжести при использовании МТ постепенно переносится на обучающегося, который активно строит свою индивидуальную учебную траекторию. Важная функция преподавателя - поддержать обучающегося, способствовать его успешному продвижению в море учебной информации, и таким образом происходит установление равноправного партнерства преподавателя и обучающегося. А также предоставление учебного материала с помощью МТ

требует гораздо более активных и интенсивных взаимодействий между преподавателем и студентом.

Информатизация образования предъявляет новые требования к профессиональным качествам и уровню подготовки педагогов, требует существенной перестройки в их работе, значительных усилий для повышения самостоятельности учащихся, создания на занятиях атмосферы творческого поиска и делового сотрудничества. Использование мультимедийных средств в качестве инструмента означает появление новых форм мыслительной, мнемической, творческой деятельности, что можно рассматривать как историческое развитие психических процессов человека и продолжить разработку принципов исторического развития деятельности применительно к условиям перехода к постиндустриальному обществу. Сущность и специфика мультимедийных средств обучения влияет на формирование и развитие психических структур человека, в том числе мышления.

Компьютер является мощным средством оказания помощи в понимании людьми многих явлений и закономерностей, однако, нужно помнить, что он неизбежно порабощает ум, располагающий в результате лишь набором заученных фактов и навыков.

Действительно эффективным можно считать лишь обучение, при котором студентам прививаются навыки мышления, причем мышления нового типа, определенным образом отличающегося от мышления, сформировавшегося на основе пользования средствами массовой коммуникации. Пересмотру подвергаются представления не только о мышлении; но и о других психических функциях: восприятии, памяти, представлениях, эмоциях и др. Докомпьютерная система образования слишком ориентирована на "рациональное" мышление, не дает простора оригинальным идеям, подавляет попытки поставить под сомнение авторитеты, поощряет стандартное поведение.

Процесс овладения мультимедийным инструментарием, перестройки деятельности человека с введением в ее структуру нового элемента давно интересует психологов. Л.С. Выготский еще в 1937 г. писал о том, что включение инструмента в процесс поведения человека вызывает к жизни целый ряд новых функций, связанных с использованием данного инструмента и управлением им, делает ненужным целый ряд естественных процессов, работу которых теперь выполняет инструмент, видоизменяет протекание психических процессов и их интенсивность, длительность, последовательность, замещает одни функции другими, т.е. перестраивает всю структуру поведения.

УРОКИ РУССКОГО ЯЗЫКА В СИСТЕМЕ ТРАДИЦИОННОГО ОБУЧЕНИЯ В ШКОЛЕ И ИХ РАЗВИВАЮЩИЕ ВОЗМОЖНОСТИ

Мамедова Ф.Дж.
Бакинский славянский университет

На современном этапе предъявляются следующие требования к уроку русского языка:

1. Дидактические требования:

- Четкое формулирование образовательных задач в целом и их составных элементов, их связь с развивающими и воспитательными задачами. Определение места конкретного урока русского языка в общей системе уроков.

- Определение оптимального содержания урока в соответствии с требованием государственных стандартов, учебной программы и целями урока, с учетом уровня подготовки и подготовленности учащихся.

- Прогнозирование уровня усвоения учащимися знаний, уровня сформированности умений и навыков как на уроке русского языка, так и на отдельных его этапах.

- Выбор наиболее рациональных методов, приемов и средств обучения, стимулирования и контроля, оптимального их воздействия на каждом этапе урока, выбор, обеспечивающий познавательную активность, сочетание различных форм коллективной и индивидуальной работы на уроке и максимальную самостоятельность в учении учащихся.

- Реализация на уроке всех дидактических принципов.

- Создание условий успешного обучения русскому языку как иностранному.

2. Психологические требования:

- Проектирование развития учащихся в пределах изучения конкретного учебного предмета и конкретного урока русского языка;

- Учет в целевой установке урока русского языка психологической задачи изучения учебной темы и результатов, достигнутых в предшествующей учебной работе;

- Предусмотрение отдельных средств психолого-педагогического воздействия, методических приемов, обеспечивающих развитие учащихся в процессе их обучения русскому языку как иностранному;

- Соответствие содержания и структуры урока принципам развивающего обучения; учет контроля, анализа и оценки деятельности школьников, осуществляемых учителем, и взаимной критической оценки, самоконтроля и самоанализа учащихся;

- Осознание психологической цели и внутренняя готовность к ее осуществлению;

- Соблюдение педагогического такта и создание положительного психологического климата на уроке (поддержание атмосферы радостного, искреннего общения, делового контакта и др.);

- Учет возрастных и индивидуальных особенностей учащихся.

3. Гигиенические требования: 1) соблюдение температурного режима; 2) обеспечение нормальной освещенности и проветривания помещения; 3) предупреждение утомления и переутомления учащихся; 4) чередование видов деятельности (смена слушания выполнением практических работ); 5) своевременное и качественное проведение физкультминуток; 6) соблюдение правильной рабочей позы учащегося и соответствия классной мебели росту школьника.

Как показало исследование, в школьной практике традиционно выделяются следующие типы уроков: 1) уроки сообщения нового материала; 2) уроки обобщения и систематизации изученного (повторения и закрепления материала); 3) уроки контроля знаний, умений и навыков учащихся.

В традиционных типах урока учитель планирует и комбинирует структуру урока, подбирает методы и формы, которые могут способствовать более основательному усвоению знаний и повышению роста знаний каждого ученика.

К нетрадиционным типам уроков следует отнести: а) уроки-игры (деловые, ролевые, художественные); б) уроки-сценарии (по примеру ТВ-программ); в) уроки-поиски (с организацией самостоятельной работы учащихся) и т.д.

ETNOPEDAQOGİKA VƏ ETNOPEDAQOJİ MATERİAL ANLAYIŞLARIN MAHİYYƏTİ

Müslüm Çakır Mehmet
Bakı Slavyan Universiteti

Müasir təlim-tərbiyə işlərinin müvəffəqiyyəti xalqın pedaqoji ənənələrindən bacarıqla istifadədən əhəmiyyətli dərəcədə asılıdır. Pedaqoji mühitdə bu sahədə bir-birinə çox yaxın iki termin işlədilir: «xalq pedaqogikası» və «etnopedaqogika».

Azərbaycanda xalq pedaqogikası sahəsində əsaslı elmi tədqiqatların aparılmasına XX əsrin 50-ci illərindən başlanmışdır. Bu sahənin ilk görkəmli tədqiqatçıları Ə.Ş.Həşimov, A.F.Xiktibidze, Q.N.Volkovdur. Onlar ilkin tədqiqatlarında «xalq pedaqogikası» anlayışından istifadə etmişlər.

«Etnopedaqogika» isə yeni anlayışdır. Xalq pedaqogikası və etnopedaqogika anlayışlarının mahiyyətini dərk etmək üçün hər ikisinə dair mövcud baxışlardan bəzilərini nəzərdən keçirək.

«Xalq pedaqogikası – şifahi xalq yaradıcılığında, uşaq oyunlarında, oyuncaqlarda hifz olunmuş tərbiyəvi təcrübənin və pedaqoji məlumatların məcmusudur». Xalq pedaqogikası – təlim-tərbiyənin məzmunu, məqsədi, vasitələri, üsulları, təşkilatı və s. məsələləri haqqında, kütlələrin tarix boyu gündəlik

müşahidələrin nəticəsi kimi əldə etdikləri, əmək və yaşayış şəraitinin təsiri altında topladıqları pedaqoji bilik, təcrübə, baxış, qayda-qanun və adət-ənənələri məcmusudur.

«Xalq pedaqogikası» - xalqın kollektiv yaradıcılığının tərkib hissəsi, kütlələrin pedaqoji mədəniyyətinin təzahürü olub və s. xalq pedaqogikası insan və onun tərbiyəsi haqqında xalqın tarixən formalaşmış empirik biliklərinin, məlumatlarının məcmusudur.

Etnopedaqogikanın isə ilk tərifi Q.N.Volkova məxsusdur. O yazırdı: «Etnopedaqogika gənc nəslin tərbiyəsi üzrə xalq kütlələrinin təcrübəsi haqqında, onların pedaqoji görüşləri haqqında elmdir; məişət pedaqogikası, ailə, nəsil, qəbilə, xalq və millət pedaqogikası haqqında elmdir».

Etnopedaqogika – tərbiyəvi hadisələrə elmi baxışları özündə əks etdirən, sosial və pedaqoji prosesləri təhlil edən pedaqogika ilə xalqın mədəni ənənələrinin qarşılıqlı əlaqəsini, təsirini öyrənən elmdir.

Etnopedaqogika fərqli olaraq təcrübəyə üz tutur, ona xidmət edir və bu prosesdə müəllimləri, tərbiyəçiləri uzun əsrlərin sınaqdan keçərək yoxlanmış pedaqoji vasitələrilə silahlandırır.

Xalq pedaqogikası və etnopedaqogikada fiziki və əmək tərbiyəsi əsas yerlərdən birini tutur. Bir çox folklor materiallarında fiziki qüvvənin, hünərin zəruriliyindən bəhs edilərkən həmin qüvvənin nəcib əxlaqi və iradi keyfiyyətlərlə vəhdətdə olduğu zaman daha böyük məna kəsb etdiyi müxtəlif formalarda dönə-dönə qeyd olunmuşdur. Xalqa görə fiziki tərbiyə işində məşqçi-müəllimlər, rəhbərlər lazımdır. Lakin adam öz üzərində müstəqil çalışmaqla, öz orqanizmini möhkəmlətməklə də çox şeyə nail ola bilər.

Məlum olduğu kimi, insanın əmələ gəlməsi və inkişafı uzun müddət davam etmiş və bu prosesin əsasını təşkil edən ilkin amil məhz əmək olmuşdur. Əmək bəşər cəmiyyətinin maddi və mənəvi varlığının, yaranmasının və inkişafının əsasıdır. İnsan orqanizmi yalnız hərəkətdə olduğu zaman normal inkişaf edə bilir. Əmək isə belə hərəkəti təmin edir. Əmək prosesində fiziki iş zehni işlə birgə görülür.

Əmək prosesi xarici aləm haqqında insan biliyinin və dünyagörüşünün mənbəyidir. Obyektiv bir proses olmaq etibarı ilə o, adama ətraf mühiti olduğu öyrənmək imkanı verir. İnsanların əmək fəaliyyəti onların mənəvi həyatları ilə də sıx əlaqədardır. Mənəvi keyfiyyətlərin, nəcib insani sifətlərin, demək olar ki, hamısı əmək prosesində yaranır, təşəkkül edib formalaşır və əmək fəaliyyəti ilə bağlı olur. Necə ki, «İşləyən dəmir işıldar», eləcə də işləyən adam həm bədəncə, həm də əxlaqca saf olar: «İşləmək canı saf edər».

Xalqa görə, insan heç vaxt zəhmətdən qorxmamalıdır. Zəhmət, əmək adamı asılılıqdan qurtarır, müstəqil edir. Beləliklə, əməkçi xalqa görə iş, zəhmət insan üçün zəruridir; insan dünyada faydalı iş görmək üçün doğulubdur. Azərbaycan xalqının böyük oğlu N.Gəncəvinin sözləri ilə desək, «Biz dünyaya zəhmət üçün gəlmişik, boş hədyanlar xatirinə gəlməmişik».

İBTİDAİ SİNİFLƏRDƏ TƏLİMİN KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİNDƏ İKT- NIN ƏHƏMİYYƏTİ

Piriyeva G.A.
Bakı Slavyan Universiteti

Son dövrlərdə texnologiya sahəsinin sürətli inkişafı onun insan həyatının bütün sahələrinə daxil olmasına səbəb olmuşdur. Hər bir ölkənin təhsil sistemi həmin ölkənin real mühiti ilə uzlaşmalıdır. Texnologiyanın geniş imkanlarından istifadə edən, olduqca bol informasiya mühiti ilə əhatə olunan bugünkü şagirdin diqqətini təlimə cəlb etmək, onun marağını təmin etmək üçün texnologiyanın tədris alətinə çevrilməsinin zəruriliyi bir fakt kimi qarşımızda dayanır. İKT-nin inkişafında İlham Əliyevin bu sektora olan diqqət və qayğısının nəticəsidir ki, bu gün İKT-nin inkişaf göstəriciləri üzrə ümumdünya səviyyəsinə doğru sürətlə yaxınlaşmaqdadır. XXI əsr Azərbaycan dünyada İKT ölkəsi kimi tanınır. Son illərdə cəmiyyətin həyatında informasiya texnologiyalarının, kompyüterlərin yeri və rolu köklü sürətdə dəyişmişdir. İnkişaf etməkdə olan ölkəmiz dünya təhsil sisteminə inteqrasiya edir. Qlobal dünyanın informasiya bolluğu şəraitində məktəbin, təhsilin vəzifələri dəyişir. İKT-nın tətbiqi nəticəsində yaranan yeni təhsil sistemi insanların intelektual imkanlarını dəfələrlə artır, daha az zaman müddətində daha çox informasiyanı keyfiyyətli mənimsəməyə imkan verir.

İKT- dən istifadə etməklə biz müasir Azərbaycan təhsil sistemini xalqımızın milli maraq və xüsusiyyətlərini nəzərə almaqla yeni təhsil modelini qura bilərik. İnsan həyatının bütün sahələrində modernləşmə və innovasiya proseslərinin getdiyi XXI əsrdə yetişməkdə olan nəslin təlim və tərbiyəsi prosesində effektiv pedaqoji texnologiyalar xüsusi əhəmiyyət kəsb edir. Bu gün respublikamızda təhsilin bütün pillələrində İKT-nin tətbiq və istifadə edilməsi, eyni zamanda İKT-nin özünün tədris olunması, uşaqlarda müstəqil şəkildə informasiya toplamaq, analiz etmək, ötürmək qabiliyyətinin formalaşdırılması övladlarımızın gələcəkdə informasiya cəmiyyətinin qiymətli üzvlərinə çevrilməsində mühüm rol oynaya bilər.

Biz, bilirki ki, məktəb cəmiyyətin sosial sifarişini yerine yetirməlidir. Məktəbliləri dərin və hərtərəfli yüksək biliklərlə təmin etməli, onlarda bacarıq və vərdişlər formalaşdırmalı, yüksək mədəniyyətə, mütərəqqi dünyagörüşə malik olan şəxsiyyət yetişdirməlidir. Müasir təlim metodlarından və İKT-dən istifadə sinif mühitində dəyişiklik etməyə və müəllimlə şagird arasında, şagirdlərin öz aralarında və məktəblə ev arasında baş verən qarşılıqlı əlaqələr qurmağa imkan yaradır. İbtidai siniflərdə dərslərin İKT ilə təşkili aktual məsələlərdəndir. İbtidai siniflərdə İKT-nin tətbiqi şagirdlərdə ətraf aləmi informasiya baxımından təhlil etmə və müvafiq nəticələr çıxarmaq bacarıqlarının formalaşdırılmasına imkan yaradır. İnformasiya ilə işləmək bacarığı müxtəlif praktiki üsullara bələd olmağa, həmçinin, müasir texniki vasitələrlə informasiya mübadiləsi aparmağa kömək edir.

Müasir tələblərə uyğun olaraq, dərsləri yeni pedaqoji texnologiyaların və İKT-nin tətbiqi ilə tədris etmək lazımdır. Kurikulumla keçirilən interaktiv dərslərdə şagirdlərin təfəkkürü inkişafına xüsusi fikir verilir, köhnə biliklər əsasında yeni biliklər yaranır. İKT ibtidai sinif şagirdinin informasiya ilə işləməyi onu müstəqil şəkildə tapmağı, təhlil etməyi və ötürməyi öyrədir. İnformasiya cəmiyyətində inkişafın aparıcı amillərindən biri biliklərin ötürülməsi sisteminin səmərəli qurulmasıdır. Müasir təhsil sistemlərində təhsil proqramlarının keyfiyyətini təmin etmək üçün İKT vasitələrindən geniş istifadə olunur və təhsil prosesini xeyli sadələşdirir, onu dinamik və çevik edir. Nəticə etibarilə müəllimin rolu dəyişilir, o, yüksək peşə kompetensiyasına malik olmaqla yanaşı, İKT sahəsində bilik və bacarıqlara malik olmalı, fəal şəkildə metod və texnologiyalar hazırlayıb tətbiq etmək bacarıqlarına malik olmalıdır. İKT-dən istifadə fənlərin ənənəvi tədrisini tamamilə dəyişdirir, dərs materialını, anlama və yadda saxlama proseslərini optimallaşdırır, ən əsası isə dərsə marağı artırır.

İKT-nin tətbiqi şagirdlərin aşağıdakı yaş xüsusiyyətlərinin nəzərə alınmasına əsaslanmalıdır:

– ibtidai siniflərdə aparıcı fəaliyyət olan oyundan təlim fəaliyyətinə keçid baş verir. Kompyüterin oyun imkanları ilə didaktik imkanlarının əlaqələndirilməsi bu prosesi daha yavaş edir;

–dərslərin kompyüterlə keçirilməsi yüksək emosional gərginliyi qismən də olsa, aradan qaldırmağa imkan verir və təlim prosesini canlandırır;

– dərsdə əldə edilmiş bilik və bacarıqların çox hissəsi kiçikyaşlı məktəblilər tərəfindən sinifdənkənar fəaliyyətdə istifadə edilmir. Qazanılmış bilik və bacarıqların kompyüterdə tətbiqi onların aktuallaşmasına və onları əldə etmək üçün motivasiyanın artmasına gətirib çıxarır;

– multimedia dərslikləri tədrisin bütün əsas mərhələlərini dərs materialının izahından başlayaraq biliyə nəzarət və yekun qiymətlərin qoyulmasına qədər avtomatlaşdırmaq üçün nəzərdə tutulub. Bu zaman təlim materialı əyləncəli və rəngarəng bir formada, müəyyən oyun elementləri əlavə edilməklə, qrafika, animasiyalar, video-fraqmentlərdən və səs effektlərdən istifadə etməklə təqdim olunur.

Qeyd etmək lazımdır ki, ibtidai siniflərdə İKT-nin tətbiq edilməsi, tədrisin tərkibinin zənginləşməsinə, şagirdlərin öyrənmək marağının yüksəldilməsinə, onların yaradıcılıq qabiliyyətlərinin inkişaf etdirilməsinə onun məntiqi və zehni fəaliyyətlərinin stimullaşdırılmasınada öz rolunu oynayacaqdır.

İnformasiyalaşdırılmış təlim sistemlərinin təlim-tədris prosesində oynadığı mühüm rolun xüsusiyyətlərinə dair bunu göstərmək olar ki, ənənəvi tədris metodikasından fərqli olaraq, müasir tədris metodikasında interaktivlik və fərdi yanaşma İKT-nin təhsildə tətbiqinin birbaşa nəticəsi kimi çıxış edir. İKT tətbiq etməklə təhsilin keyfiyyətinin daha da artırılmasına çox böyük önəm verilir və bu istiqamətdə kifayət qədər normativ hüquqi baza vardır.

XIX ƏSRDƏ AZƏRBAYCANDA MƏKTƏBLƏRİN YARANMASI

Samet Şenemre Huseyn
Bakı Slavyan Universiteti

60-cı illərin ictimai hərəkatı məktəb həyatının canlanmasına güclü təkan verdi. Birdə qeyd etmək lazımdır ki, 1865-ci illərdə Zaqafqaziyada dövlət məktəblərinin üç əsas növü üzrə (gimnaziya və progimnaziya, qəza və ibtidai məktəblər) şagirdlərin sayı isə üç dəfə artıq qalmışdı.(2652 nəfərdən 9163 n.) Demək olar ki, bu artım ibtidai təhsil arasında təhsil yayan və gimnaziya üçün hazırlıq rolunun oynayan qəza məktəblərində bu 10 il ərzində şagirdlərin sayı təxminən olduğu kimi qalmışdı və keçid dövrü ərəfəsində yenidənqurma zərurəti qarşısında idi.

1867-ci ildə Zaqafqaziya və Qafqaz məktəblərinin yenidən qurulması məsələsini müzakirə edərək yeni nizamnamə layihəsi nəzərdən keçirildi. Bu Qafqaz məktəbləri üçün təsdiq edilmiş sonuncu nizamnamə üzrə bütün təhsil müəssisələri və pansionlar genişləndi. Pansinlarda tərbiyə məqsədilə rəsm, gimnastika, sənətkarlıq, bağçılıq, nəğmə, oyun və musiqi məşğələləri təşkil edildi. Bütün bunlar yeniyetmələrə əqli əməkdən sonra bir növ istirahət verməklə bərabər onların əxlaqına təsir etməli və xüsusi istedadların üzə çıxmasına imkan yaratmalı idi. 1867-ci il nizamnaməsi üzrə ilk dəfə olaraq təhsil haqqı tətbiq edildi və ən mühüm cəhətlərindən biri də QTD-nin bərpa edilməsidir. (QTD- tədris müəssisələrinin ali idarəsi). 1867-ci il nizamnaməsi ilə QTD nəzdində 6 direksiya o cümlədən Bakı quberniyası və Dağıstan vilayəti xalq məktəblər direksiyası ilə (Bakı şəhərində idi.) Gəncə quberniyasında ümumtəhsil məktəbləri o cümlədən dövlət məktəbləri çox olduğundan bu direksiyanın inzibati mərkəzi 1877-ci ildə gəncə şəhərinə köçürüldü. Zaqatala dairəsi bir müddət Kuban vilayəti xalq məktəblər direksiyası, sonralar isə Tiflis məktəblər direksiyası tabeliyinə keçdi. 1867-ci il nizamnaməsində xüsusi təhsil müəssisələri, pansion və ümumtəhsil xarakterli məktəblər açmaq üçün daha ciddi qayda qoyuldu. Xüsusi məktəb açmaq istəyənlər məktəbin müvafiq dərəcəsinə uyğunlaşdırılmalı idilər. Bundan başqa həmin şəxsdən müəyyən təhsil və əxlaqca etibarlılıq tələb olunurdu. 1867-ci ildən QTD-nin " Sərəncamlar" adlı aylıq orqanın meydana gəlməsi də məktəb həyatında böyük hadisə idi. Burada nəşr edilən əmr və sərəncamlar elmi pedaqoji, metodik məqalə və məlumatlar, məktəb həyatına aid yazılar məktəb işçiləri üçün çox faydalı idi. Beləliklə 19-cu əsrin ikinci yarısında Çarizmin Qafqazda hökmranlığı daha da möhkəmləndi və bununla əlaqədar olaraq xalq maarifi sistemindəki əvvəlki müstəsnalıq tədricən aradan qaldırıldı. 1867-ci ilin nizamnaməsi Zaqafqaziyada sonuncu oldu.

1870-ci illərdə imperiya üzrə bir sıra məktəb nizamnamələrinin, o cümlədən gimnaziya və progimnaziyanın, realnı məktəblərin meydana gəlməsi ilə Zaqafqaziya xüsusi məktəb nizamnamələri qüvvədən düşdü. Beləliklə, bütün Qafqaz ilə bərabər Azərbaycan maarif sistemi də Rusiya imperiyasındakı sistemə uyğunlaşdırıldı və məktəblər imperiya daxilindəki nizamnamələrlə idarə edilməyə başladı. 1873-cü il qərarı ilə Qafqaz ölkəsinin xalq maarifindən birdəfəlik imperiya daxilindəki məktəb şəbəkələrinə daxil oldu və rus dilinin tədrisi daha da gücləndirildi. 1874-cü ildə şəhər, 1875-ci ildə isə kənd normal məktəblərin nizamnaməsi qəbul edilərək yenə də ümumrusiya məktəb sistemi əsas götürüldü.

Rusiya məktəb şəbəkəsinə daxil edilməsi ümumrusiya qanunlarının tətbiqini xeyli çətinləşdirdi. Zaqafqaziyada zemstvo müəssisələrini ümumi əsgəri mükəlləfiyyətin olmaması əhalinin mili-dini xüsusiyyətlərinin müxtəlifliyi və ictimai-iqtisadi həyatın özünəməxsus bir çox cəhətləri məktəbin inkişafına müəyyən dərəcədə mane olurdu. Bununla belə ölkədə iqtisadiyyatın tərəqqisi xalqın təhsilə olan ehtiyacı nəticəsində mövcud məktəblərin yenidən qurulması və yeni məktəblərin açılması prosesi başlandı. Bu tərəqqi həm də azərbaycanlılardan olan şagirdlərin get-gedə artmasında özünü göstərirdi.

60-cı illərin məktəb islahatı ilə əlaqədar meydana gələn məktəblərin biri də şəhər məktəbləridir. Tip etibarı ilə yeni olan bu məktəbləri açmaqda hökumətin məqsədi «Bütün təbəqələrdən olanların uşaqlarına ibtidai əqli və dini, əxlaqi təhsil verməkdən ibarət idi». Bu məktəblərin mərkəzi hökumət tərəfindən 1872-ci il may ayının 31-də təsdiq edilmiş xüsusi nizamnaməsi var idi. Nizamnaməyə görə, şəhər məktəbləri ya dövlət hesabına, ya zemstvo, şəhər icması və təbəqələri yaxud da xüsusi şəxslərin hesabına açıla bilərdi. Şəhər məktəbləri əsasən bir, iki, üç və ya dördsinifli nəzərdə tutulurdu. Azərbaycanda şəhər məktəbləri, demək olar ki, mövcud qəza məktəbləri əsasında yarandı. Təkcə Azərbaycanda deyil, bütün Cənubi Qafqazda şəhər məktəbi ilk dəfə Şuşada təşkil edildi. Bu Şuşa qəza məktəbini daha çox şagirdə malik olması ilə əlaqədar idi.

TƏSVİRİ SƏNƏTİN ŞAGİRDLƏRİN ESTETİK TƏRBİYƏSİNDƏ ROLU

Akçam Mustafa Yakup
Bakı Slavyan Universiteti

Şagirdlərin estetik zövqünün formalaşmasında və düzgün istiqamətləndirilməsində təsviri sənətin böyük əhəmiyyəti vardı. Təsviri sənət əsərlərinin timsalında şagirdlərdə vətənə məhəbbət, əməyə məhəbbət, ekologiyaya həssas yanaşmaq və cəmiyyətin digər problemlərinin düzgün araşdırılmasında mühüm rol oynayır.

Sənət əsərləri ilə yanaşı rəssamların yaratdığı əsərlər və özlərinin həyat və yaradıcılığının öyrədilməsi gənc nəslin tərbiyəsində əvəzedilməzdir. Ona görə də mən bu məqalədə ayrı-ayrı Azərbaycanda fəaliyyət göstərən rəssamların təsviri sənət əsərlərini və özlərinin yaradıcılığını tədqiq etmişəm.

Azərbaycan realist dəzgah boyakarlığının yaradıcılarından bırı olan B.Kəngərlinin yaratdığı "İlanlı dağ Ay işığında", «Günəş batarkən», «Bahar» mənzərələri, «Qaçqınlar» silsiləsinə daxil olan yurdsuz insanların portretləri, «Elçilik», «Toy» kimi məişət kompozisiyaları, eləcə də 1910-cu illərdə Naxçıvan teatrında tamaşaya qoyulmuş "Ölülər" (C.Məmmədquluzadə), «Hacı Qara» (M.F.Axundzadə), «Pəri-cadu» (Ə.Haqverdiyev) və b. səhnə əsərlərinə verdiyi bədii tərtibat və geyim eskizləri Azərbaycan rəssamlığının dəyərli örnəklərindəndir.

SSRİ Rəssamlıq Akademiyasının həqiqi üzvü M.Abdullayevin tablolarında respublikanın geniş, rəngarəng panoramı təsvir olunmuşdur. Rəssamın «Axşam», «Mingəçevir işıqları», «Azərbaycan çöllərində» (triptix), «Sevinc» və s. əsərlərində əmək adamları məişət səhnələri lirik səpkidə verilmişdir. «Hindistan silsiləsi»nə görə M.Abdullayev beynəlxalq Nehru mükafatına (1970) layiq görülmüşdür. Xalq rəssamının çoxillik yaradıcılıq fəaliyyəti "Şöhrət" (1997), "İstiqlal" ordenləri ilə qiymətləndirilmişdir.

SSRİ Rəssamlıq Akademiyasının həqiqi üzvü xalq rəssamı T.Salahovun «Növbədən qayıdanlar», «Səhər qatarı», «Abşeron qadınları», «Yeni dəniz» tablolarında dövrün qəhrəmanlıq pafosu, Xəzərdə yüksələn polad adaların əzəməti duyulur, T.Salahovun yaratdığı «Bəstəkar Qara Qarayevin portreti» əsəri portret sənətinin klassik nümunələrindəndir.

Orijinal və bənzərsiz yaradıcılığa malik T.Nərimanbəyovun əsərlərində doğma yurdun təbiəti, müasirlərinin obrazı əlvan dekorativ boyalarla təsvir edilir. Rəssamın «Səadət», «Sevinc», «Torpağın bərəkəti», «Bazar» və s. tabloları natürmort və mənzərələri nikbinlik motivləri ilə səciyyələnir. Onun improvizasiya məharəti «Parisi xatırlayarkən», «Bethoven dünyası» tablolarında, səhnə dekorlarında aydın nəzərə çarpır. T.Nərimanbəyovun milli və beynəlmiləl ənənələrin sintezinə əsaslanan yaradıcılığı dünya şöhrəti qazanmışdır. N.Əbdürrəhmanovun "Çəltik becərənlər", «Dağlarda qürub çağı», Cəfərovun «Sabahın düşüncələri», «Həyat», «Mənim Azərbaycanım» tabloları Azərbaycan təbiətini canlandıran lirik mənzərələr, sənət xadimləri - şair "Ələğa Vahid"in, bəstəkar A.Məlikovun portretləri kalorit zənginliyi ilə diqqəti cəlb edir.

Yuxarıda qeyd etdiyimiz kimi şagirdlərin estetik tərbiyəsinin formalaşmasında teatrın rolunu qeyd etmişdik. Çünki teatrda uşaqlar əyani surətdə həyatın mənfi, müsbət cəhətlərini dərk etməyə başlayırlar. Müsbət qəhrəmanlar haqqında bədii obraz formalaşır. Teatr-dekorasiya sahəsində işləyən rəssamlardan Əzim Əzimzadəni misal göstərmək olar. O bir sıra teatr tamaşalarına çəkdiyi geyim eskizləri, Azərbaycan realist teatr-dekorasiya sənətinin yaradıcılarından biri olan R.Mustafayevin 1920-30-cu illərdə „Ölülər" (C.Məmmədquluzadə), „Üsyan" (D.Furmanov), „Dəmirçi Gavə" (Ş.Sami), „Sevil", „Od gəlini", „1905-ci ildə" (C.Cabbarlı), „Şeyx Sənan" (Fl.Cavid), „Dağılan tifaq" (Ə.Haqverdiyev), „Şah İsmayıl" (M.Maqomayev), „Arşın mal alan", „Leyli və Məcnun", „Koroğlu" (Ü.Hacıbəyov), „Aşıq Qərib" (Z.Hacıbəyov), „Sonalar gölü" (P.Çaykovski) və s. dram, opera və balet tamaşalarına verdiyi bədii tərtibat Azərbaycan teatr-dekorasiya sənətinin inkişafında mühüm yer tutmuşdur. Teatr rəssamlığı sahəsində fəaliyyət göstərən rəssamlardan İ.Seyidovanın „Leyli və Məcnun" (Ü.Hacıbəyov), „Sevil" (F.Əmirov), Ə.Fətəliyevin „Koroğlu" (Ü.FIacıbəyov), „İnsanın taleyi" (İ.İ.Dzerjinski), „Bahadır və Sona" (S.Ələsgərov) operalarına, Ə.AImaszadənin „Gülşən" (S.Hacıbəyov), „Qaraca qız" (Ə.Abbasov) baletlərinə, N.Fətullayevin „Şərqin səhəri" (Ə.Məmmədxanlı), „Otello" (V.Şekspir), „Vaqif' (S.Vurğun), „Mahnı dağlarda qaldı" (İ.Əfəndiyev), İ.Axundovun „Solğun çiçəklər" (C.Cabbarlı), „Şeyx Sənan" (Fl.Cavid), S.Şərifzadənin „Cavanşir" (M.Hüseyn), „Kəndçi qızı" (M.İbrahimov) və s. dram tamaşalarına verdikləri bədii tərtibatlar xüsusilə diqqəti cəlb edir.

Dediklərimizi nəzərə alaraq belə qərara gəlmək olar ki, təsviri sənətin bütün sahələri xüsusən, rəsm, boyakarlıq, muzey, teatr şagirdlərin estetik tərbiyəsinin müsbət formalaşmasını müəyyən edir.

AİLƏ TƏRBİYƏSİ VƏ ELMİ DÜNYAGÖRÜŞÜ

Alkan Emine Mehmet
Bakı Slavyan Universiteti

Ailə ata-ananın bir-birinə olan qarşılıqlı sevgisi ve hörməti əsasinda təşkil edilən ve daha sonra ana-ata arasındakı bu münasibətin övladlarla birləşdirilməsi nəticəsini verən müqəddes bir qurumdur.Ailələrin özlərinə aid qayda – qanunları əxlaqi dəyərləri vardır.Bu dəyərlər əsas olaraq ailədə uşaqların düzgün tərbiyə olunması ve onların cəmiyyətə hazırlanması məsələsində çox ciddi təsir göstərir.Ailə də düzgün tərbiyə almayan uşaqlar böyüdükcə cəmiyyət içində ve ictimai qruplarda münasibət qurmaqda problemlər yaşayacaqlar.Bir çox pedaqoq uşağın ilk öncə ailədə tərbiyə almasını tövsiyə etmişdir.Ailə kiçik bir dövlətdir. Bir dövlətin mövcudluğunu qoruyub saxlaması üçün nizam – intizam nə qədər lazımdırsa ailədə də əxlaqi dəyərlər o qədər lazımdır.

Ailədə tərbiyə işinin nizamlı şəkildə, tərbiyənin prinsiplərinə uyğun olaraq aparılması lazımdır.Əsas olaraq ailədə bu işlə ana məşğul olmalıdır.Bizim ailə tərbiyəmizin əsas mənbəyi müqəddəs İslam dinidir.İslam dinində əxlaqi dəyərlər dini dəyərlərlə birlikdə öyrədilir.Ona görədə dinimizdə əxlaqi dəyərlərə böyük əhəmiyyət verilir.Valideynlər uşağın şəxsiyyətinin formalaşdığı 3-4 yaşlardan başlayaraq onun davranışlarını,inkişafını izləməli ve əxlaqi anlayışları anlamağa başladığı 7 - 8 yaşdan etibarən əxlaqi dəyərləri öyrətməyə başlamalıdır.Bu dövrlərdə valideynlər bir sıra məsələlərə diqqət yetirməlidirlər:

- Bu dövrlərdə valideynlər uşağa yaxşı nümunə olmalıdırlar
- Sevgiyə arxalanan bir tərbiyə metodu istifadə etməlidirlər
- Əxlaqi dəyərlər "qadağa silsiləsi " kimi təqdim edilməməlidir
- Ana və ata birlikdə hərəkət etməlidirlər.
- Uşaqlarını kütləvi informasiya vasitələrinin təhlükəsindən qorumalıdırlar.

Ailə şəxsiyyətin formalaşması məsələsinə ,tərbiyə məsələsinə birbaşa təsir göstərdiyi kimi uşaqların elmi dünyagörüşünün formalaşmasındada böyük təsir göstərir. Dünyagörüşü həyata, təbiətə, cəmiyyətə, təfəkkür hadisələrinə olan elmi, fəlsəfi, əxlaqi, hüquqi, dini bilik, estetik, siyasi, ideya və əqidələrlə çox yaxından əlaqəlidir ,çünki bütün bu amillərə baxışların sistemi elmi dünyagörüşü kimi özünü əks etdirir. Elmi dünyagörüşü insanların cəmiyyətdə özünü qəbul etdirməsinə ,hadisələrə düzgün baxabilməsinə,fərqli sahələrdə yeniliklərlə tanış olub özünü inkişaf etdirməsinə cox kömək göstərir.Buna görədə ailədə uşağın elmi dünyagörüşünün inkişafının təmin edilməsi,ona şəraitin yaradılması ailənin ən əsas vəzifələrindən biridir.

Müxtəlif tarixi dövrlərdə və müxtəlif ictimai quruluşlarda ailə tərbiyəsinin nəzəri və texnogiya ilə bağlı konsepsiyalar ümumbəşəri dəyərlər xeyirxahlıq, ləyaqət, düzlük, doğruçuluq, insanlara məhəbbət, əməksevərlik, məhəbbət kimi müsbət kəmiyyətləri formalaşdırmağı özündə birləşdirir.

Bütün ailələrdə uşaqların tərbiyəsinə böyük qayğı göstərilir. Uşaq şəxsiyyətinin hərtərəfli ahəngdar inkişafı üçün onun ailədə xoşbəxt, mehriban mühitdə böyüməsi vacib amillərdən biridir. Ailə uşağa nə qədər müsbət təsir göstərərsə , uşağın fiziki ,əxlaqi və əmək tərbiyəsinin nəticələri bir o qədər yüksək olar. Ailə və uşaq bir – birini güzgü kimi əks etdirir. Ailədə uşaqların bu şəkildə fərqli sahələrdə ətraflı tərbiyə alması onların cəmiyyətə yararlı hala gəlməsini və cəmiyyətdə özlərinə yər tapmalarına kömək göstərir. Uşağın fiziki, əxlaqi və əmək tərbiyəsinin nəticəsi olaraq elmi dünyagörüşünün yaxşı səviyyədə inkişafı təmin edilir.

Hər bir ailədə uşaqların tərbiyə ədilməsi məsələsində bəzi prinsip və qaydalara əməl ədildiyi kimi, tərbiyənin əsas məqsədlərini nəzərə alaraq təşkil edilməsi də tərbiyə prosesinin nəticəsinə müsbət şəkildə təsir göstərir. Bu məsələ eyniylə elmi dünyagörüşünün inkişafının təmin edilməsi məsələsində də əhəmiyyətlidir. Yəni elmi dünyagörüşünün formalaşmasında da bəzi əsas amillərə diqqət yetirmək lazımdır.

Valideynlər birbaşa bu işin təqibçisi olmalıdırlar və uşaqların inkişafına mənfi təsir göstərəcək səhvlərə yol verməməlidirlər. Təbii ki, uşaqların tərbiyəsi və elmi dünyagörüşü onların yetişdiyi ailə mühitindən çox asılıdır. Mən demək istərdimki, bizim uşaqlarımızın hər zaman görəbiləcəyi, yaxşı nümunə olan ana – atadan başqa bir şeyə ehtiyacı yoxdur.

ŞAGİRDLƏRİN ELMİ DÜNYAGÖRÜŞÜ

Alkan Hasan Ahmet
Bakı Slavyan Universiteti

Dünyagörüşü – insanın, ictimai qrupun, sinfin, yaxud cəmiyyətin fəaliyyət istiqamətini və real aləmə münasibətini müəyyən edən baxışlar sisteminə verilən addır. Bu sistemdə ictimai şüurun formaları olan (elm, fəlsəfə, əxlaq, incəsənət, estetika, din və.s) görünür. Başqa sözlə desək dünyagörüşünü həyata, təbiətə, cəmiyyətə, təfəkkür hadisələrinə olan elmi, fəlsəfi, əxlaqi, hüquqi, dini bilik, estetik, siyasi,ideya və əqidələrin ümumiləşmiş sistemi kimi də başa düşmək olar.

Cəmiyyətin maddi həyat şəraiti, varlıqdünyagörüşünün mənşəyidir. Maddi həyat şəraitinə, varlığa baxış elmi və qeyri – elmi ola bilər. Bundan asılı olaraq dünyagörüşü də elmi, yaxud qeyri – elmi olur.

Elmi dünyagörüşünün əsaslandığı bəzi amillər vardır.Bunlara reallıqlar, düzgün biliklər, zəka, elmin nailiyyətləri olaraq baxabilərik. Bütün bu amillər elmi dünyagörüşünün əsas əlamətləri olub, onu qeyri – elmi dünyagörüşündən fərqləndirir.

Tarixin, cəmiyət inkişaf etməsi , insanın bilik ehtiyatının artması, elm, texnika, mədəniyyət və incəsənət kimi sahələrdə yeni nailiyyətlər qazanması nəticəsində dünyagörüşünün elmiliyi də dəqiqləşir. Buna görədə dünyagörüşünün elmiliyi tarixi xarakter daşıyır.

Elmi dünyagörüşün formalaşmasına ciddi təsir göstərən şərtlər var.Bunlar tərbiyə ilə , təhsillə, sosiallıqla əlaqəlidir.Elmi dünyagörüşün formalaşmasının çox mühüm şərtlərindən biri də təhsildir. Dünyagörüş insanın bütövlükdə dünyaya, özünün oradakı mövqeyinə olan baxışlarının ümumiləşdirilmiş sistemi kimi səciyyələndirilir. Elmi dünyagörüşə malik olan insanlar təbiətin və cəmiyyətin inkişaf qanunlarını, həyatın məqsədi və mənasını elmi dünyagörüşə malik olmayanlara görə daha aydın təsəvvür edirlər. Təlim prosesi şagirdlərin dünyagörüşünün inkişafı probleminə istiqamətlənir, onlarda "şəxsiyyət azadlığı" kimi çox mühüm keyfiyyətin formalaşması şəraitini yaradır.

Əgər şagirdlər yaşlarına uyğun olaraq elmi dünyagörüşə malik olmasalar bu o dəməkdir ki, onların elmi dünyagörüşünün formalaşması məsələsi ciddi problem olaraq irəli yaşlarda gün üzünə çıxacaq. Cəmiyyətin elmi dünyagörüşünün inkişaf etməsi, o cəmiyyətin fərdlərinin xüsusi ilə gənclərinin ayrılıqda elmi dünyagörüşünün formalaşması prosesinin tam təşəkküllü yerinə gətirilməsinə bağlıdır.

Elmi dünyagörüşün formalaşması davam edən prosəsdir.Çünki onun tarixi xaraktər daşıması , yəni məlumatların öğrənilməsi , kütləvi informasiya vasitələri ilə informasiya bolluğunun yaranması insanların elmi dünyagörüşünü inkişaf etdirir.

Müasir dövrdə ailələr,təhsil ocaqları, xüsusi ilə də özəl məktəblər və litsəylər elmi dünyagörüşünün formalaşması məsələsinə çox əhəmmiyət vərir.Bununla bağlı olaraq fərqli elmi sahələrdə ,ölkə daxili yada ölkə xaricində səminarlar təşkil edilir.Diğər ölkələrdə aparılan təlim-tərbiyə prosəsiylə öz təlim-tərbiyə prosəsini müqayisə edirlər.Bütün bu prosəslər elmi dünyagörüşünün formalaşması məqsədi daşıyır.Özəl məktəblərdə təhsil alan şagirdlərin elmi dünyagörüşü müəyyən qədər diğərlərindən fərqlənəbilir. Özəl məktəblərdə xarici əlaqələr daha güclü olur,fərqli elm sahələrində səminarlar təşkil olunur və şagirdlərin elmi sahələrdə təşkil olunan yarışmalara iştirak ətmələrinə imkan yaradılır.Ölkə daxili və xarici səfərlər düzənlənir.Bu fəaliyyətlərə iştirak ədən şagirdlər qazandıkları yəni biliqlər və təcrübənin nəticəsi olaraq ,artıq elmi dünyagörüşü inkişaf etmiş şagirdlər sırasına daxil olurlar.

Şagirdlərin elmi dünyagörüşünün formalaşmasında əsas rol oynayan amillərdən biridə ailədir. Ailə də tərbiyə prosesi hələ uşaq ana bətnində olandan başlayır amma tərbiyədən bir qədər fərqli olaraq dünyagörüşünün inkişafı məktəb dövründə başlayır. Bu dövrlərdə ailədə ana-atanın davranışları, sözləri, elmi bilikləri, təlim-tərbiyə səviyyəsi uşağın əvvəlcə şəxsiyyətinin formalaşmasına, daha sonrada dünyagörüşünün formalaşmasına təsir edir. Valideynlər olaraq övladlarımızın cemiyyətdə iradəli, xaraktərli, bacarıqlı, elmi və qeyri-elmi dünyagörüşünə malik olmasını arzu ediriksə ki, bu bütün ana-atanın ən böyük arzularından biridir, özümüzdən başlayaraq elmi dünyagörüşünün inkişafının vacibliyini dərk etməliyik və ona görə də istər ana, istərsə ata olaraq uşaqlarımıza qarşı vəzifələrimizi tam şəkildə yerinə yetirməliyik.

İNTEQRASİYAYA MÜXTƏLİF YANAŞMALAR

Kərimli G.R.
Bakı Slavyan Universiteti

XX əsrin əvvəllərindən başlayaraq inteqrativ kurikulumun izah edilməsi müzakirə mövzusu olmuşdur. Son yüz il ərzində fənlərarası fəaliyyət üçün nəzəriyyəçilər üç əsas kateqoriya təklif etmişlər. Onlar kateqoriyaları oxşar şəkildə şərh etsələr də, təklif edilən kateqoriyalara əksər hallarda müxtəlif ad verilirdi. İnteqrasiya sanki dərəcə və metod məsələsinə çevrilmişdi. Məsələn, 1935-ci ildə ABŞ-da ingilis dili müəllimlərinin milli şurası aşağıdakı izahı irəli sürdü:

"Əlaqə başqa fənlərə hərdən maraq göstərməklə təsadüfi xarakter kəsb edə və bir qədər güclü ola bilər, çünki müəllimlər planlaşdırma zamanı başqa fənlərin materiallarından və ya problemi və mövzunu izah edərkən bir sıra fənlərdən istifadə edə bilərlər. Birləşmə iki fənnin əlaqəsi müəyyən olunur və eyni müəllimin rəhbərliyi altında həyata keçirilir. İnteqrasiya bütün fənlərin və təcrübələrin birləşdirilməsidir."

Amerika Birləşmiş Ştatlarında müəllimlər və orta təhsillə maraqlnan mütəxəssislər 1980-1990-cı illərdə bu araşdırmalarda iştirak ediblər. Müxtəlif yerlərdə təhsil mütəxəssisləri inteqrasiyaya müxtəlif yanaşmaların mənalarını açıqlıyırlar. Biz onlardan üç ən sadə, ən yaxşı, ən münasibini seçmişik: çoxfənli, fənlərarası və fəndaxili. Mütəxəssislər inteqrasiyaya üç müxtəlif nöqteyi-nəzərdən yanaşırlar. Məsələyə yenidən baxdıqda aydın görürük ki, bizim izahımız on il bundan əvvəl irəli sürülmüş, əsaslandırılmışdır. Qeyd edilən üç kateqoriya inteqrasiya haqqında olan müxtəlif yanaşmaları dərindən anlamaq üçün başlanğıc nöqtəsi olacaqdır.

Çoxfənli yanaşmada əsas diqqət tədris fənlərinə verilir, çünki bir qrup müəllim mövzu müəyyənləşdirir və həmin mövzunu öz fənlərinə uyğun tədris edir. Çoxfənli inteqrasiya müxtəlif fənlərin bir-birilə ümumi movzu ilə bağlı əlaqələrini göstərir. Çoxfənli inteqrasiya yaratmağın müxtəlif yolları mövcuddur və onlar bir-birindən inteqrasiya cəhdlərinin intensivlik səviyyələrinə görə fərqlənirlər.

Fənlərarası inteqrasiya zamanı müəllimlər kurikulumun bir neçə məzmun xətti əsasında, ümumi məsələləri ətrafında təşkil edirlər. Onlar ayri-ayri fənlərdə olan ümumi öyrənmə problemlərini bir yerdə nəzərdən keçirməklə fənlərarası əlaqələrin formalaşmasına xüsusi diqqət verirlər.

Konkret bir mövzunu fənn daxilində əlaqələndirdikdəfəndaxili əlaqədən istifadə edilir. Məsələn, xarici dilin tədrisində oxu, yazı və ünsiyyəti bir-biri ilə əlaqələndirmək, və ya qrammatikanı , fonetikanı və lüğət üzrə işi bir-biri ilə əlaqəli öyrətmək fəndaxili əlaqəyə ən yaxşı nümunədir.

Çoxfənli yanaşmalarda müəllimlər vərdişləri, bilikləri, hətta münasibətləri məktəb kurikulumlarında birləşdirirlər. Bəzi məktəblərdə, məsələn, şagirdlər ətraf mühitə rəğbət bəsləməyi öyrənirlər. Vaşinqton ştatında Mount Reyner ibtidai məktəbində müəllimlər sülh mövzusunu məktəb kurikulumunun bütün hissələri ilə birləşdirirlər. Şagirdlər hər həftəni sülhsevər, hörmətcil və məsuliyyətli olmaqla başlayırlar. Onlar bir sıra məsələlərə əməl edir və öz siniflərində sülh haqqında məlumat alırlar. Oxu zamanı, məsələn onlar nağıllarda olan müsbət qəhrəmanların xüsusiyyətlərini təhlil edirlər, müəllimlər isə hər sinifdə sülh günlərinin ümumi sayını yazırlar. Müəllimlər üzərində sülh işarəsi olan paltar geyir, şagirdlər bir-birlərini sülh işarəsi ilə salamlayırlar.

Birləşmə əsas, həlledici vərdiş növlərini də əhatə edə bilər. Məktəblərin çoxunda hər fənnə aid olan müsbət iş bacarıqlarına xüsusi diqqət verirlər. Təhsil mütəxəssisləri, müəllimlər kurikulumda texnologiyanı komputer vərdişləri vasitəsi ilə bütün fənlərlə əlaqələndirə bilər. Kurikulumlarda savad təlimi birləşmənin başqa bir nümunəsidir.

İnteqrativ əlaqələndirməyin ən məşhur növü mövzu və ya problemə bir neçə fənnin mövqeyindən yanaşmaqdır. İbtidai siniflərdə keçirilən bu yanaşma öyrənmə mərkəzlərində təcrübədən keçirilir. Məsələn, "nümunə" mövzusu üçün hər bir öyrənmə mərkəzinin müəyyən fəaliyyət növləri vardır və onlar şagirdlrə həmin mövzunu müxtəlif fənlərin, məsələn, riyaziyyat, elm, sosial fənlər və s. tədrisində öyrənirlər . Şagirdlər hər bir öyrənmə mərkəzində müəyyən fəaliyyətləri yerinə yetirməklə konsepsiyanı müxtəlif fənlərin perspektivlərindən öyrənirlər.

ИСПОЛЬЗОВАНИЕ ИНТЕРАКТИВНОЙ ДОСКИ НА УРОКАХ РУССКОГО ЯЗЫКА КАК ИНОСТРАННОГО

Абилова К.Ю.
Бакинский славянский университет

Сегодня с развитием информационных технологий методические разработки с использованием компьютерного оборудования и интерактивной доски приходят и в общеобразовательную школу. Это вызывает не только интерес учеников к обучению, но и влияет на качество получения и усвоения учащимися знаний по русскому языку. Использование компьютеров и интерактивных досок на уроках русского языка становится для учителя неотъемлемым помощником в борьбе за интерес к предмету и организации коллективной работы класса.

Специалисты различают несколько направлений в применении интерактивных досок в школе:

- презентации, демонстрация и моделирование;
- повышение активности учеников на уроке;
- увеличение темпа урока.

Интерактивная доска - ценный инструмент для обучения всего класса. Это - визуальный ресурс, который может помочь учителям сделать уроки живыми и привлекательными для учеников. Интерактивная доска позволяет преподнести ученикам информацию, используя широкий диапазон средств визуализации (карты, таблицы, схемы, диаграммы, фотографии, рисунки и др.).

Ученики становятся более активными и заинтересованными на уроке, на котором используется интерактивная доска. Информация становится для них более доступной и понятной, что улучшает атмосферу понимания в классе, и ученики становятся более нацеленными на работу.

Все записи на интерактивной доске могут быть сохранены на компьютере и вновь открыты при повторении пройденного материала.

Полностью функционирующие интерактивные доски обычно включают 4 компонента:

- компьютер;
- мультимедийный проектор;
- соответствующее программное обеспечение;
- интерактивная доска.

Интерактивные доски могут быть прямого или обратного проецирования. При прямом проецировании проектор находится перед поверхностью интерактивной доски, при обратном проецировании - сзади. Отдельные модели интерактивных досок могут быть оснащены специальными карманными компьютерами для обмена данными с интерактивной доской.

Интерактивные доски бывают 3-х типов:

1) доски, фиксирующие сопротивление поверхности при прикосновении (материал, фиксирующий сопротивление передает сигналы на компьютер при срабатывании специальной мембраны; такие доски могут управляться не только специальными маркерами, но и прикосновением к доске руками или иными предметами);

2) доски, фиксирующие электромагнитные импульсы (эти доски управляются специальными электромагнитными ручками (маркерами), работающими на батареях);

3) лазерные доски (эти доски имеют твердую рабочую поверхность с инфракрасными лазерными сканерами, установленными на поверхности).

Эффективное использование интерактивной доски делает урок ярким, насыщенным, интерактивным; повышает активность учащихся, развивает память, внимание, скорость реакции и другие психологические особенности учащихся.

В процессе обучения русскому языку как иностранному интерактивная доска используется:

- как обычная доска для обычной работы в классе (только мел заменён электронным карандашом);
- как демонстрационный экран (показ слайдов, наглядного материала, фильмов) для визуализации учебной информации изучаемого;
- как интерактивный инструмент - работа с использованием специализированного программного обеспечения, заготовленного в цифровом виде.

Таким образом, используя возможности применения интерактивной доски, достигается цель, как научить учащихся выполнять работу, которую иногда делать совершенно не хочется.

РОЛЬ ЖУРНАЛА «РУССКИЙ ЯЗЫК И ЛИТЕРАТУРА

В АЗЕРБАЙДЖАНЕ» В РАЗВИТИИ МЕТОДИЧЕСКОЙ МЫСЛИ В ОБЛАСТИ ПРЕПОДАВАНИЯ РУССКОГО ЯЗЫКА В РЕСПУБЛИКЕ

Гасымова Т.М.
Бакинский славянский университет

В конце XX столетия, с восстановлением государственной независимости Азербайджана русский язык получил статус иностранного языка, в связи с чем приобрела особую актуальность проблема методов и приемов обучения русскому языку как иностранному в общеобразовательных школах республики. Исследователи и методисты начали изучение вопросов преподавания русского языка учащимся-азербайджанцам, организации учебного процесса, разработки и внедрения в процесс обучения новых учебников и учебных пособий, применения интерактивных методов и приемов обучения русскому языку как иностранному в средней школе. Появились диссертационные исследования и научные монографии, определяющие научные предпосылки преподавания языка в качестве иностранного, научные статьи и методические рекомендации по практическим вопросам методики обучения русскому языку как в начальных классах, так и на среднем и продвинутом этапах средней общеобразовательной школе. Особое значение в формировании новой методической мысли в области преподавания русского языка как иностранного приобрели образцы периодической печати, издаваемые в Азербайджане, в частности, учебно-методический и культурно-общественный журнал «Русский язык и литература в Азербайджане», издаваемый Бакинским славянским университетом, на страницах которого читателям были представлены материалы, посвященные вопросам как языка, литературы, художественного перевода, так и методики преподавания русского языка как иностранного.

Следует отметить, что журнал «Русский язык и литература в Азербайджане» уже в первые годы своего существования получил признание и высокую оценку широкой педагогической общественности не только в Азербайджане, но и в Закавказье. С октября 1949-го по 1970 год журнал выходил под названием «Русский язык и литература в нерусской школе». В 1970 году он был переименован в «Русский язык и литература в азербайджанской школе». В 1979 году журнал приобретает иной статус: он становится самостоятельным ежемесячным учебно-методическим журналом Министерства просвещения Азербайджанской Республики. А с 1985 года журнал издается под нынешним названием «Русский язык и литература в Азербайджане». Все годы журнал служил и сегодня продолжает служить как совершенствованию методики преподавания русского языка и образованию преподавателей школ и вузов, так и развитию русистики в республике, появлению новой плеяды русистов-исследователей.

В различных рубриках журнала публикуются статьи, освещающие теоретические вопросы русского языка, актуальные проблемы его функционирования в Азербайджане, методики его преподавания в высших учебных заведениях и средних общеобразовательных школах республики.

В лингвистических и методических разделах журнала запечатлена вся история русистики и методики преподавания русского языка в Азербайджане. Журнал освещает самые злободневные вопросы преподавания русского языка в контексте постоянно меняющегося вместе с обществом школьного и вузовского образования - от общих проблем лингводидактики и воспитания учащихся средствами русского языка до конкретных методических форм и приемов обучения различным видам речевой деятельности, лингвистической и культурной компетенции в различных типах школ и вузов.

Сегодня в журнале можно найти материалы, охватывающие широкий круг вопросов педагогики, лингвистики, истории литературы и литературоведения. Вынося на широкое обсуждение проблемы программ и учебников по русскому языку и литературе, журнал приглашает к сотрудничеству всех, кто заинтересован в улучшении преподавания русского языка в школах нашей республики. На его страницах, начиная с первого номера, публикуются статьи ученых из ближнего и дальнего зарубежья - России, Украины, Белоруссии, Болгарии, Грузии, Китая, Казахстана, Киргизии, Узбекистана, Израиля, Японии.

Журнал подробно информирует о работе международных научных конференций, посвященных актуальным проблемам русского языка и литературы как в республике, так и за ее пределами. предлагает свои страницы для научных статей, результатов исследований молодых ученых и аспирантов, соискателей и магистрантов. Благодаря профилю издания лингвисты и

литературоведы приобретают ценный опыт связывания теоретических вопросов с практикой преподавания.

МЕСТО ПРОБЛЕМНЫХ СИТУАЦИИ В ВОСПИТАНИИ ДЕТЕЙ МЛАДШЕГО ВОЗРАСТА

Алиева Н.К.
Бакинский славянский университет

Развитие чувства уважения к старшим органически связано задачей воспитания культуры поведения детей по отношению к окружающим. Состав привычек культурного поведения значительно обогащается: дети осваивают правила поведения в общественных местах (в транспорте, на улице, в библиотеке и т.п.), в разных ситуациях общения (со знакомыми и незнакомыми людьми). Воспитывается привычки быть всегда вежливым, готовность активно проявлять заботу о старших и младших, бережно относится к результатам труда взрослых, к их деятельности. Продолжается формирование культуры речи, нравственных качеств (правдивости, честности, скромности). Важной задачей воспитания поведения в общественных местах детей младшего возраста является формирование коллективных взаимоотношений со сверстниками.

Взаимоотношения – это комплекс взаимосвязанных компонентов. Важнейшие из них – общительность и гуманные отношения к сверстникам, сотрудничество и умение коллективно планировать свою деятельность, организованность и культура общения. В связи с этим решение задачи формирования культурных взаимоотношений связано с осуществлением задач воспитания устойчивых доброжелательных отношений в детском коллективе, культуры общения, организованного поведения.

Следует заметить, что в современных исследованиях нет единства в выборе термина, обозначающего задачу. Несмотря на терминологические разногласия, все исследователи согласны в одном: в процессе решения «познавательной» («проблемно - познавательной», «поисково - познавательной») задачи («вопроса», «упражнения», «задания») учащиеся самостоятельно приходят к новым знаниям или способам их получения, то есть поиск способа решения или само решение возлагается на учащихся.

По мнению С.И. Брызгаловой, процесс решения задачи на уроке в начальной школе выглядит следующим образом:

- предъявление задачи учителем;
- возникновение проблемной ситуации (осознание фактов, данных в тексте задачи, как противоречивых);
- выход из проблемной ситуации (решение), который может проходить разными путями: путём индукции (гипотеза – проверка гипотезы – ответ); путём дедукции (ответ - доказательство правильности ответа).

С.И. Брызгалова предлагает использовать на уроках в начальной школе разные способы решения проблемной задачи:

- проблемная задача полностью решается самим учителем с соблюдением всех этапов решения (проблемное изложение);
- решение выполняется учащимися под руководством учителя через систему проблемно-ориентированных вопросов (эвристическая беседа);
- вся задача или ее часть решается школьниками в форме самостоятельного исследования (исследовательский метод).

Остановимся подробнее на вопросе использования методов проблемного обучения средствами системы Л.В. Занкова. Обучение в системе Л.В. Занкова осуществляется на основании единой методической системы. Методическая система определяется Л.В. Занковым как единство, обладающее типическими свойствами. К типическим свойствам системы Л.В. Занкова относятся: многогранность, процессуальность, коллизии, вариантность.

Рассмотрим свойство коллизий. В процессе познания и процессе изучения любого школьного предмета часто встречаются ситуации, когда новые знания в чём-то сталкиваются со старыми знаниями (или даже в чём-то им противоречат), когда старых знаний оказывается недостаточно для решения поставленной задачи или когда необходимо выбрать правильный

подход к решению задачи из нескольких альтернатив. Подобную ситуацию Л. В. Занков назвал коллизией.

В системе Л.В. Занкова коллизии проходят через систему упражнений во всех учебниках по всем предметам. Учебный материал содержит достаточно таких ситуаций, когда сведения сталкиваются, вступают друг с другом в противоречие. Коллизии используются для возбуждения интенсивной учебной деятельности школьников. Л.В. Занков подчёркивал: «для активной творческой работы мышления очень важно, чтобы человек, сталкиваясь с чем-то непонятным, рождающим вопрос, «удивился», эмоционально загорелся этим вопросом, чтобы непонятное вызвало в нём эмоцию удивления».

Выше изложенную подтверждает ниже приведенный примерно.

• ***Оказывается в ситуации выбора мнения, подхода, варианта решения и т.п.:***

Фрагмент приветствия

Учитель: - Здравствуйте!

Ученики: - Здравствуйте, Любовь Васильевна!

Учитель: - Ребята, а как вы догадались, с кем я хотела поздороваться?

Ученики:

- Вы сказали «здравствуйте», а значит, хотели поздороваться со всеми ребятами, а не с кем-то в отдельности.

- Вы на меня посмотрели.

- Ой, а на меня не посмотрели, значит, Вы со мной не поздоровались?

- А может, Вы поздоровались с цветами на окне или с деревьями за окном, ведь Вы на них тоже посмотрели.

- Вам нужно было назвать того, с кем Вы здороваетесь.

Учитель:

- Давайте попробуем поздороваться ещё раз:

- Здравствуйте, девочки!

- Здравствуйте, мальчики!

- Здравствуйте, ребята!

- Что помогло вам догадаться, с кем я поздоровалась? *(Обращения).*

Таким образом, коллизия – это проблемная ситуация, разрешая которую, ученики строят гипотезу, намечают и обсуждают способы проверки её истинности, аргументируют, проводят эксперименты, наблюдения, анализируют их результаты, рассуждают, доказывают. Так система развивающего обучения Л.В. Занкова реализует одно из требований нового Федерального Государственного Образовательного Стандарта - освоение способов решения проблем творческого и поискового характера.

Таким способом, я изучили роль проблема обстановок в ходе обучения дошкольников, какие имеют все шансы являться применены, в свой взор, и присутствие воспитании культуры действия в социальных участках у ребят меньшего года.

ALİ MƏKTƏBLƏRDƏ ŞİFAHİ NİTQİN İNKİŞAF ETDİRİLMƏSİNDƏ DİALOQLARIN ROLU

Qəmbərova A.M.
Bakı Slavyan Universiteti

Şifahi nitq insanların bir birilə müxtəif situasiyalarda ünsiyyəti prosesidir. Bu prosesdə insanlar müxtəlif jest və mimikalardan da istifadə edərək öz fikrini ifadə edirlər. Lakin ictimaiyyət və üslublar baxımından şifahi nitqi tələbərdə inkişaf etdirən zaman elmi kateqoriyaları gözləmək çox vacib məsələlərdəndir. Çünki tələbələrə məişət üslubu və ya bədii üslub səviyyəsində şifahi nitqi aşılamaq və inkişaf etdirmək onlarda elmilik prosesini arxada qoymuş olur. Bu baxımdan da tələbələrdə şifahi nitqi inkişaf etdirmək üçün bir sıra üsul və vasitələrdən istifadə olunur və tətbiq olunur.

Şifahi nitqi inkişafında praktik məşğələlər daha da səmərəlidir. Bu məşğələlərdə tələbələrin həm yazılı, həm də şifahi nitqinin inkişafı üçün müxtəlif iş formalarından istifadə edilməlidir. İstər şifahi, istərsə də yazılı ədəbi dil normalarının mənimsənilməsi üçün auditoriyada aparılan praktik

məşğələlər tələbələrdə mükəmməl nitq vərdişlərinin formalaşmasına, möhkəmlənməsinə kömək edir. Eyni zamanda praktik məşğələlərin həm Azərbaycan, həm əcnəbi yazıçıların əsərləri, həm də ədəbi dil materialları əsasında aparılması tələbələrin bədii ədəbiyyata olan marağının artırılmasına da xidmət edir. Lakin əvvəlcə tələbələrə şifahi nitqi ifadə tərzi və dəqiqliyinin aşılanması vacib məsələlərdəndir. Çünki tələbə nitqin ifadə tərzini bilməsə daha çox çətinliklərlə üzləşə bilər:

- Nitqin aydınlığı.Danışanın nitq obyekti haqqında mükəmməl biliyə, məlumata malik olması əsas amil kimi. Nitqin obrazlılığı;
- Nitqin yığcamlılığı. Fakt və dəlillərə istinadən işlədilən hər bir sözün əhəmiyyəti dərk edilərək, aydın və sadə cümlələrlə nitqin qurulması;
- Nitqin təmizilyi. Nitqdə anlaşılmayan əcnəbi sözlərin, dialektizmlərin, jarqon sözlərin lüzumsuz yerə işlədilməsinə yol verilməməsi;
- Nitqin düzgünlüyü. Fikri çatdırarkən söz və ifadələrin düzgün seçilməsi. Dilin fonetik, leksik, qrammatik qayda – qanunlarına riayət edilməsi;
- Nitqin zənginliyi. Geniş söz ehtiyatına malik olmaq nitqin zənginliyinin əsas meyarı kimi;
- Nitqin sadəliyi. Nitqin aydın, anlaşıqlı olması, asan qavranılması, qısa, lakonik ifadə olunması sadə nitqin əsas cəhəti kimi;
- Nitqin münasibliyi.Nitqin məlumatın mövzusuna, məqamına, yerinə, auditoriyaya və s. münasibliyi;
- Nitqin rabitəliliyi. Hər hansı məsələ haqqında danışarkən müəyyən məntiqi ardıcıllığa riayət edilməsi;

Şifahi nitq inkişafının yollarından biri də dialoqlardır. Müəllim auditoriyada əyani vasitələrdən istifadə edərək dialoqlar üçün mövzular verir. Bu zaman tələbələr ya böyük qrup, ya da kiçik qrup halında dialoqlar qurur, eyni zamanda həmin dialoqları rollarla da təqdim edə bilərlər. Tələbələr dialoqları nümayiş etdirdikdən sonra müəllim onların səhvlərini düzəldir. Dialoqlar şifahi nitq inkisafında müstəsna rol oynayaraq onun inkişafını sürətləndirir. Məhz buna görə də tələbələrdə şifahi nitqi yaxşılaşdırmaq üçün dərslərdə dialoqlardan geniş istifadəedilməlidir.

Tələbələrin şifahi nitq qabiliyyətini inkişaf etdirmək üçün ifadəli oxudan, şeir parçalarının əzbərlənməsindən, dialoqların tərtib edilməsindən istifadə edildiyi kimi, yazılı nitqin inkişafında yazı işlərindən, şəkil üzrə inşalardan, sərbəst mövzuların, ifadələrin yazılmasından istifadə etmək məqsədəuyğundur. Şifahi və yazılı nitqi inkişaf etdirmək üçün müxtəlif əyani vasitələrdən: şəkillərdən, slaydlardan istifadə olunmalı, çalışmalar üzrə iş aparılmalıdır. Şifahi nitqin inkişafı olduqca mürəkkəb və uzunmuddətli bir prosesdir. Tələbələr şifahi nitqi mükəmməl öyrənmək üçün bir sıra üsul və vasitələrə həm praktik məşğələlər zamanı, həm də şifahi şəkildə yiyələnə bilərlər.

РОЛЬ ПЕСНИ ПРИ ОБУЧЕНИИ АНГЛИЙСКОМУ ПРОИЗНОШЕНИЮ

Султанова С.Ф.
Бакинский славянский университет

Одним из самых сложных моментов при обучении иностранному языку является постановка четкого и правильного произношения, так как, в большинстве случаев, учащиеся сосредотачивают все свое внимание только на изучении необходимой лексики и грамматических структур. Однако, правильная постановка звуков так же важна, как и все остальные элементы языка.

Английское произношение учащихся в русском секторе может быть неадекватным вследствие неумения передавать тембр английских гласных. Практика показывает, что даже если учащийся строго следует каноническим указаниям (определённое положение губ, соответствующее положение языка по горизонтали и вертикали), ему крайне редко удаётся точно передать английский «гласный» звук. Для того чтобы гласный приобрёл именно английское звучание, школьник должен «увидеть», «почувствовать» этот гласный, представить его себе во всем объеме, со всеми возможными слуховыми, зрительными и пространственными ассоциациями. Такой эмоциональный «портрет» гласного важно нарисовать при самом первом предъявлении его учащимся. Использование песенно-музыкального материала позволяет вводить новые лексические или грамматические единицы, опираясь на несколько каналов восприятия одновременно. Музыкальное сопровождение отлично воспринимается

аудиалами, а при добавлении движений – кинестетиками. Если в классе есть наглядный материал к той или иной песне, то не будет никаких проблем с запоминанием этого материала и у визуалов.

Такая комплексная подача новой информации, помимо проблемы снятия трудностей восприятия, одновременно развивает у учащихся те каналы восприятия, которые у них недостаточно развиты. Опираясь на зрительные образы, дети с хорошо развитым визуальным каналом восприятия развивают слух, так как они все время слышат музыку и звуки иностранного языка, сопровождающие эти зрительные образы. Делая разминку, танцуя или играя в определенную игру под музыку и в сопровождении английских фраз, кинестетики привыкают запоминать необходимые для игры или песни слова и предложения.

Пособий, содержащих песни и рифмовки под музыку на различные грамматические и лексические темы существует сейчас довольно много. Повторение и отработка слов и фраз иностранного языка могут быстро наскучить учащимся, в то время как петь они готовы бесконечно. Используя песни и музыку, мы можем расширять объем памяти самым естественным способом. Что касается развития и тренировки долговременной памяти, то психологи давно доказали, что человек хорошо помнит только то, что он пережил эмоционально. Песни используются как яркое средство эмоционального воздействия, способствующее восприятию и адекватному воспроизведению звука. Песни могут успешно применяться и при отработке так называемых трудных фонетических сочетаний, а также при работе над ритмом. Именно поэтому, прослушивание и пение песен столь эффективны при работе над английским произношением.

В английском языке произношение слов очень отличается от написания – довольно много буквенных сочетаний, которые читаются совсем не так как пишутся. Использование песен в процессе обучения позволяет тренировать не только слух, но и восприятие. Поначалу распознаются знакомые слова, затем смысл всей песни. Не секрет, что читать, переводить со словарем и воспринимать на слух английскую речь – вещи разные. Песни на английском как нельзя лучше способствуют процессу усвоения полученных знаний. Если при обучении детей песенки позволяют сделать паузу, разрядить обстановку, дать ребенку отдохнуть и вновь сконцентрироваться, то при обучении взрослых песенный материал используется больше, как способ тренировки восприятия английской речи на слух. Как показывает опыт, целенаправленные песни в сочетании со специальными фонетическими упражнениями – короткими фразами, включающими звук, в произнесении которого тренируются учащиеся, являются действенным стимулом для тщательной самостоятельной отработки английских звуков. При этом учащиеся с пониманием принимают замечание преподавателя о том, что небрежное исполнение песни с нечеткими, нечистыми, «грязными» звуками не может доставить эстетического удовольствия ни исполнителю, ни тем более слушателю.

ИЗ ИСТОРИИ ВОЗНИКНОВЕНИЯ И РАЗВИТИЯ ПЕДАГОГИЧЕСКИХ ТЕХНОЛОГИЙ

Фаттахова Г.Г.
Бакинский славянский университет

Исторически понятие “технология” возникло в связи с техническим прогрессом и согласно словарным толкованиям есть совокупность знаний о способах и средствах обработки материалов.

Технология – от греческих слов techno (искусство, ремесло) и logos (понятие, учение). Технология включает искусство организации и искусство владения процессом и в результате внедрения данного опыта превращается в персональное мастерство. Технологический процесс всегда предусматривает определенную последовательность операций с использованием определенных средств и условий.

Возможности людей расширяются с развитием науки и техники. Появившиеся новые технологии, такие как электронные, информационные, имеют огромные обучающие ресурсы. Качественные изменения, возникающие при этом, свидетельствуют о том, что привычные процессы «научения» уже не укладываются в рамки традиционных методик и средств обучения, а также индивидуальных способностей преподавателя. Появляются новые технические, информационные, полиграфические, аудиовизуальные средства с характерными методиками,

которые становятся неотъемлемым компонентом образовательного процесса, внося в него определенную специфику и способствуя тем самым расширению спектра педагогических технологий.

В последнее время понятие "педагогическая технология" получает все более широкое распространение в теории обучения и воспитания. Именно в этом смысле термин "технология" и его вариации "образовательные технологии", "технология обучения", "воспитательные технологии", "технологии в обучении", "технологии в образовании" стали использоваться в педагогической литературе и получили множество формулировок.

Следует отметить, что педагогическое явление, которое сегодня обозначается термином "педагогическая технология" выступало предметом дискуссий и научных споров в течение многих десятилетий.

Диалогам великого философа Сократа (ок. 469-399 до н. э.) с учениками, сегодня можно смело присвоить статус технологий обучения, направленных на стимуляцию мыслительной деятельности учеников, активизирующих работу интеллекта и способствующих "рождению мысли".

Великим "отцом педагогики" Я. А. Коменским (1592—1670) была создана технология классно-урочной системы обучения, которая сохраняет доминирующее положение и в современном образовательном обществе. Педагогические идеи великого дидактика также легли в основу технологии "массового образования" с потребностями индустриального общества в массовом, а затем и в всеобщем образовании. Он призывал к тому, чтобы обучение стало "механическим" (т.е. технологическим), стремясь обыскать такой порядок обучения, который приводил бы к положительным результатам.

Идею Я.А. Коменского о технологизации обучения поддерживал И.Г. Песталоцци. Он создал "механизм" образования, опираясь на который каждый подготовленный педагог может воспитать любого ученика.

Впервые в 20-е гг. термин «педагогическая технология» упомянут в работах по педологии (И.Г. Шавлов, В.М.Бехтерев, Д А. Ухтомский, С.Т. Шацкий). В это же время распространие получило понятие "педагогическая техника", которая в Педагогической энциклопедии 30-х гг. была определена как совокупность приемов и средств, направленных па четкую и эффективную организацию учебных занятий.

Термин "технология образования" появился в 40-50-х гг., когда началось внедрение в учебный процесс обучения технических средств. Позже этот термин трансформировался в "педагогические технологии".

Но в середине 60-х гг. началось обсуждение содержания этого понятия на международных конференциях, в результате которых было определено два направления его толкования в зависимости от уровня и результатов исследований в различных странах (США, Англия, Франция, Япония, Венгрия, Италия). Часть исследователей утверждали необходимость применения технических средств и средств программированного обучения, а другая часть – выступали за повышение эффективности организации учебного процесса и преодоление отставания педагогических идей от стремительного развития техники. Таким образом, первое направление было обозначено как "технические средства в обучении", второе как "технология обучения" или "технология учебного процесса".

К концу 70-х - началу 80-х гг. XXв. вследствие развития техники и начавшейся затем компьютеризации обучения понятия "технология обучения" и "педагогическая технология" все чаще стали осознаваться как система средств, методов организации и управления учебно-воспитательным процессом. При этом были выделены две стороны педагогической технологии: применение системного знания для решения практических задач и использование в учебном процессе технических устройств.

Технология обучения играет большую роль в развитии учебного процесса, изменяя его организационные формы, методы, содержание, что, в свою очередь, оказывает воздействие па педагогическое мышление преподавателей и слушателей. Такое толкование технологии подчеркивает не только важность взаимосвязи всех компонентов процесса обучения в единой системе, но и их взаимовлияние, развитие, приводящее к изменению менталитета педагога и учащихся

Если раньше под педагогической технологией понималась попытка технологизации учебного

процесса, то сегодня педагогические технологии выделились в отдельный, относительно самостоятельный раздел педагогики.

Приведем несколько определений понятия “педагогическая технология”, которые имеют место в современной науке.

Согласно В. П. Беспалько педагогическая технология – это содержательная техника реализации учебного процесса.

А. Пашаев и Ф. Рустамов под педагогическими технологиями подразумевают обработанные для компьютерного обучения по заранее данным характеристикам оптимальные дидактические процессы. Говоря о педагогических технологиях в практическом смысле – это знания, умения, навыки и комплекс операций с целью реализации поставленных задач обучения и воспитания.

Технологии обучения, в конечном счете, обеспечивает оптимизацию форм организации обучения, во время которого необходимо учесть возможности участников этого процесса с использованием технических средств. (Ф. Рустамов, Т. Дадашова)

И. П. Волков определяет педагогические технологии как описание процесса достижения планируемых результатов обучения.

Педагогическая технология – это строго научное проектирование и точное воспроизведение гарантирующих успех педагогических действий (В. А. Сластенин).

Краткий анализ истории возникновения и развития педагогических технологий, показывает, что каждая из них возникает на основе существующих благоприятных экономических и социальных предпосылок. Можно сказать на сегодняшний день был внесен существенный вклад в развитие педагогических технологий и создана определенная основа для предстоящих научных поисков.

РОЛЬ НЕТРАДИЦИОННЫХ ФОРМ ОБУЧЕНИЯ НА УРОКАХ РКИ

Керимзаде Х.А.
Бакинский славянский университет

Изменения, происходящие в сфере образования Азербайджанской Республики, продиктованы необходимостью соответствия мировым стандартам качества образования.

Формирующаяся новая система образования в стране нацелена на решение важной задачи. Это сопровождается модернизацией педагогической теории и практики учебно-воспитательного процесса. Происходит смена образовательной парадигмы: предлагаются иное содержание учебников, иные подходы к методам преподавания, иные отношения, иное поведение, иной педагогический менталитет. Словом, идёт выстраивание новой модели обучения подрастающего поколения. Её основные цели и составляют суть внедряемого в средних школах национального куррикулума.

Урок - это, систематически применяемая для решения задач обучения, развития и воспитания учащихся, форма организации деятельности постоянного состава учителей и учащихся в определенный отрезок времени.

Уроки классифицируют, исходя из дидактической цели, цели организации занятий, содержания и способов проведения урока, основных этапов учебного процесса, дидактических задач, которые решаются на уроке, методов обучения, способов организации учебной деятельности учащихся.

Известно, что целью обучения является формирование коммуникативной компетенции, включающей в себя как научную, так и социо-культурную компетенцию, ибо без знания социо-культурного фона нельзя сформировать коммуникативную компетенцию даже в ограниченных пределах.

Формирование положительной мотивации должно рассматриваться учителем как специальная задача. Как правило, мотивы связаны с познавательными интересами учащихся, потребностью в овладении новыми знаниями, навыками, умениями. Но первая и естественная потребность обучения - коммуникативность. Для организации благоприятного климата,

ориентирующего учащихся на коммуникацию, необходимо выбирать такие формы урока, которые будут стимулировать деятельность учащихся.

Нетрадиционные форма урока используются, в первую очередь, для повышения эффективности образовательного процесса за счет активизации деятельности учеников на уроке.

Нетрадиционные формы урока позволяют шире вводить элементы занимательности, что повышает интерес к предмету.

Интерес к работе вызывается и необычной формой проведения урока, чем снимается традиционность урока, оживляется мысль.

Исследования и опыт педагогов-новаторов показали, что для поддержания плодотворной и эффективной деятельности учащихся удачно применение нетрадиционных форм проведения занятий, например таких, как видео-урок, урок-дискуссия, урок-спектакль, урок-экскурсия и т. п.

Дело в том, что такие формы занятий поддерживают интерес учащихся к предмету и повышают мотивацию к учению. Во время таких уроков расширяется кругозор учеников, плюс с увеличением информации о культуре страны, изучаемого языка, совершенствуется социокультурная компетенции учащихся.

Замена традиционной формы организации уроков вовлекает учащихся в “предлагаемые обстоятельства”, усиливает “личную сопричастность” каждого ученика к происходящему на уроке, создает общий побудительный фон к деятельности, учит школьников работать с книгой, способствует самореализации, проявлению креативности, самостоятельности и, таким образом, способствует повышению мотивации изучения иностранного языка.

ИСПОЛЬЗОВАНИЕ ИКТ НА УРОКАХ РУССКОГО ЯЗЫКА

Гараева С.С.
Бакинский славянский университет

Современность предъявляет все более высокие требования к обучению русскому языку. Объемы информации растут, и часто традиционные способы ее передачи, хранения и обработки оказываются неэффективными. Разрабатываются пути повышения результативности общего образования, вкладываются большие средства в разработку и внедрение новых информационных технологий. Применение информационно-коммуникационных технологий (ИКТ) на уроках русского языка в средней школе прежде всего позволяет активизировать задачу формирования навыков самостоятельной познавательной и практической деятельности обучаемых.

Информационные и коммуникационные технологии *(ИКТ)* – это обобщающее понятие, описывающее различные устройства, механизмы, способы, алгоритмы обработки информации. Важнейшим современным устройствами ИКТ являются компьютер, снабженный соответствующим программным обеспечением и средства телекоммуникаций вместе с размещенной на них информацией.

Современное обучение должно проводиться таким образом, чтобы у учащихся пробуждался интерес к знаниям, возрастала потребность в более полном и глубоком их усвоении, развивалась инициатива и самостоятельность в работе. В процессе обучения учащиеся должны не только овладеть установленной системой научных знаний, умений и навыков, но и развивать свои познавательные способности и творческие силы. Для этого необходимо, чтобы в школе особое место занимали такие формы занятий, которые обеспечивают активное участие в уроке каждого ученика, повышают значимость знаний и индивидуальную ответственность школьников за результаты учебного труда. Эти задачи можно успешно решать через технологию мультимедийных форм обучения.

Компьютерное обучение несет в себе огромный мотивационный потенциал. Действительно, использование мультимедиа позволяет заинтересовать каждого ученика, насытить урок разнообразными материалами, расширяет возможности варьирования различных форм воздействия и работы, делая урок ярче и насыщеннее. Особая роль принадлежит, конечно,

визуальным материалам — фото, плакатам, видеофрагментам, анимациям и т.п. Однако для эффективного внедрения данного вида обучения в систему предметного среднего образования необходимо соблюдение ряда педагогических и психологических условий.

Действительно, использование ИКТ на уроках дает возможность воздействовать на три канала восприятия человека: визуальный, аудиальный, кинестетический, а значит, способствует эффективному усвоению учебному материала. Увеличивается объем материала за счет экономии времени. Расширяются возможности применения дифференцированного подхода в обучении, осуществляются межпредметные связи. Но, пожалуй, самое главное преимущество использования ИКТ на уроках – повышение мотивации обучения, создание положительного настроя, активизация самостоятельной деятельности учащихся.

Безусловно, использование компьютера на уроках русского языка должно быть в комплексе с другими имеющимися методическими средствами. Естественно, что использование современной техники на каждом уроке нереально, да это и не нужно. Но умелое использование ИКТ на уроках не только повышает их эффективность, в первую очередь, способствует повышению познавательных потребностей учеников. Каждый учитель в состоянии распланировать свои уроки таким образом, чтобы использование компьютерной поддержки было наиболее продуктивным, уместным и интересным для учащихся.

Использование средств информационно-коммуникативных технологий – необходимое условие для современного образовательного процесса, когда главным становится не трансляция фундаментальных знаний, а развитие творческих способностей, создание возможностей для реализации потенциала личности. ИКТ используются не как цель, а как еще один педагогический инструмент, способствующий достижению цели занятия.

Необходимо помнить, что использование ИКТ на уроке русского языка должно быть эффективным, а не только эффектным. Главное – помнить: ИКТ не заменяют учителя, а служат средством, повышающим результативность процесса обучения.

ПСИХОЛОГИЧЕСКИЕ И МЕТОДИЧЕСКИЕ ПРЕДПОСЫЛКИ ИНТЕГРИРОВАННОГО ОБУЧЕНИЯ РКИ

Гасанова С.Г.
Бакинский славянский университет

В современном мире, в условиях динамической глобализации всех сфер реальной социальной действительности Европа пришла к единому мнению о необходимости формирования многоязычной личности. Азербайджан является частью европейского пространства. Современная ситуация в Азербайджанской Республике и России, условия сближения культур, выход на международную арену предполагают их многочисленные контакты. Эти потребности контактов определяют важность изучения русского языка в Азербайджане. В настоящее время пересматриваются цели и задачи преподавания иностранных языков, появляются новые концепции и подходы к обучению иностранным языкам, в практику входят новые формы и методы обучения. К числу новых методов обучения иностранным языкам и их модификаций относится интеграция. Овладение русским языком на интегрированной основе становится для студентов-филологов способом приобщения к русской культуре, новым способом формулировки своих мыслей.

Проблема обучения русскому языку (РКИ) на интегрированной основе в филологической аудитории важна как с теоретической, так и с практической точки зрения. Основу интеграции как новой технологии обучения составляет концепция укрупнения дидактических единиц (УДЕ). Данная концепция стала разрабатываться ещё в середине XX в. профессором В.Ф.Шаталовым, П.М.Эрдниевым и С.Н.Лысенковой. Она рассматривалась с точки зрения её возможностей для построения целостной современной технологии обучения, в максимальной степени реализующей задачу развития интеллектуальной личности ученика. Технология обучения, основанная на УДЕ , раскрывает и приводит в действие огромные психофизиологические резервы головного мозга у каждого ученика. Преимущества внутрипредметной интеграции – УДЕ перед общепринятой методикой обучения объясняются психологически - опорой на закономерности продуктивного мышления.

Интегрированные занятия являются эффективной формой, используемой для систематизации знаний в современной школе, так как на данных уроках осуществляется синтез знаний различных учебных дисциплин. Цель интегрированного занятия дать обучающимся всесторонние знания о предмете изучения, его целостную картину. Межпредметная интеграция в обучении русскому языку как иностранному может рассматриваться и с точки зрения общности методов, выработки умений и навыков, а также общности между предметами в плане развития умственных способностей студентов. Рассматривая сущность методов обучения русскому языку как иностранному, следует исходить из того, что в методике преподавания метод выступает как способ познания, путь исследования, путь достижения какой-то цели или же решения проблемной задачи. Интегрированные занятия являются эффективной формой, используемой для систематизации знаний в современном вузе. В результате синтеза знаний различных учебных дисциплин образуется новое качество, представляющее собой неразрывное целое. Интегрированное занятие имеет психологическое преимущество: пробуждает интерес к предмету, снимает напряжённость, неуверенность, помогает сознательному усвоению подробностей, фактов, деталей, тем самым обеспечивает формирование творческих способностей учащихся, так как позволяет внести не только учебную, но и познавательную деятельность. Исследования психологов показывают, что межпредметные связи на первоначальных этапах их включения в познавательную деятельность студента играют роль ситуационного или пускового стимула. Решая межпредметные познавательные задачи, студент направляет свою активность либо на поиск неизвестных отношений, в которых находятся предметные знания, либо на формирование новых понятий на основе установленных конкретных межпредметных связей.

В настоящее время интеграция превращается в ведущую закономерность развития педагогической науки, в том числе методики преподавания русского языка как иностранного.

Обучение на интегрированной основе предполагает:

- обучение русскому языку как средству межнационального общения в условиях национально-русского двуязычия на материале лингвокультурологических текстов;
- выработку сознательно-когнитивного подхода к изучению нерусскими студентами русского языка;
- развитие коммуникативной компетенции студентов.

Исходя из психологических и методических особенностей двуязычия и двукультурья, нами предполагается :

- дальнейшее исследование проблем интегрированного обучения русскому языку;
- совершенствование учебников и всего учебно-методического комплекса в аспекте реализации интегрированного обучения;
- последовательная унификация методики интегрированного обучения русскому языку и межпредметных связей (литература, история, живопись, музыка).
-создание методических пособий и разработка поурочных планов в помощь преподавателю-словеснику.

Всестороннее изучение проблемы интеграции в образовании подтвердило её значимость и положительное влияние на педагогический процесс, выразившиеся в стремлении развития современной личности, обладающей системным мышлением, способностью к осознанным, самостоятельным действиям, а также к приобретению новых знаний и умений.

Педагогическая интеграция в самом широком значении слова – это процесс и результат развития, становления и формирования многомерной человеческой целостности.

QİYMƏTLƏNDİRMƏNİN ÜMUMİ PRİNSİPLƏRİ VƏ STANDARTLARI

Əkbərova A.A.
Azərbaycan Dövlət Pedaqoji Universiteti

Fənlər üzrə məzmun standartlarının müəyyən olunmasında əsas məqsəd həmin standartların hər bir tələbə tərəfindən mənimsənilməsi istiqamətində hədəflərin təyin edilməsidir.Qəbul edilmiş standartlara uyğun bilik və bacarıqlara nail olmaq üçün hər bir tələbənin fəaliyyəti fasiləsiz stimullaşdırılmalı,onların daha yüksək səviyyəli standartları mənimsəməsi üçün zəruri şərait yaradılmalıdır.Optimal vəziyyətdə heç

bir şagirdin tədris ili boyunca geri qalmasına imkan verilməməli, əksinə, hər bir tələbənin irəliləməsi diqqət mərkəzində olmalıdır.Bu baxımdan tələbə nailiyyətlərinin qiymətləndirilməsi davamlı, dinamik və bir çox hallarda rəsmi olmayan prosesdir. Bu prosesdə müəllimlərin tələbənin üzərində müşahidəsi, tələbənin sinif işləri və ev tapşırıqlarını yerinə yetirmələri, yazılı və şifahi cavabları əhəmiyyətlilik baxımından eyni dərəcədə vacibdir.

Düzgün həyata keçirilmiş qiymətləndirmənin nəticələri müəllimin fəaliyyəti, bu fəaliyyətin tələbənin tələbatına nə dərəcədə cavab verməsi,habelə kurikulumda, planlaşdırmada və dərsliklərdə müvafiq dəyişikliklərin aparılması zərurəti haqqında qərar qəbul etməyə imkan verir.

Şagird nailiyyətlərinin qiymətləndirilməsi tələbənin biliklərə yiyələnmək, onlardan istifadə etmək, nəticə çıxarmaq bacarıqları haqqında məlumatların toplanması prosesi kimi qəbul edilir və aşağıdakı məqsədlərə xidmət edir:

- şagirdin irəliləyişlərinin (geriləmələrinin) izlənilməsi (monitorinqi);
- təlim prosesində qərarların qəbulu;
- şagirdin təlim nəticələrinin qiymətləndirilməsi;
- kurikulumun qiymətləndirilməsi.

Qiymətləndirmə və təlim proseslərinə təhsilin qarşılıqlı əlaqədə olan iki tərəfi kimi baxılır. Sistemli proses olan qiymətləndirmə - təlim nəticələri ilə maraqlı tərəflər arasında səmərəli əks-əlaqə vasitəsi kimi aşağıdakı komponentləri əhatə etməklə qurulur:

Qiymətləndirmə məlumatları. Bunlara tələbələrin nailiyyətlərini və təlimə münasibətlərini, müəllimin hazırlıq səviyyəsini, fənn kurikulumlarının xarakterik cəhətlərini, təlim resurslarının bölgüsünü əks etdirən məlumatlar və fəaliyyətlərin icra mexanizmləri daxildir.

Məlumatların toplanması. Bu proses seminar və məşğələ dərslərində frontal sorğuların, коllокviumların, test tapşırıqlarının keçirilməsi və yoxlanılması, auditoriyada müsahibələrin aparılması, fənn kurikulumlarının icra vəziyyətinin, tələbə və müəllimlərin fəaliyyətlərinin müşahidəsi, qiymət cədvəlləri və digər tədris sənədlərinin təhlil edilməsi kimi üsullarla həyata keçirilir. Toplanmış məlumatlar şagirdlərin təlimə münasibətlərini və onların nailiyyətlərini, professor-müəllim heyətinin hazırlıq səviyyəsini, kurikulumların məqsədəmüvafiqliyini və s. əhatə edir.

Qiymətləndirmə nəticələri. Həmin nəticələrdən tədris prosesinin planlaşdırıl- ması və istiqamətləndirilməsi, qiymət ballarının hesablanması, müqayisələrin aparılması, təhsil sənədlərinin və lisenziyaların verilməsi, təhsilin bir pilləsindən digərinə keçilməsi, pedaqoji nəzəriyyələrin formalaşdırılması, təhsil siyasətinin qurulması və onun təsirliliyinin monitorinqinin aparılması, təlim resurslarının bölgüsü, kurikulumun və tədrisin keyfiyyətinin dəyərləndirilməsində istifadə olunur, eyni zamanda geniş ictimaiyyəti məlumatlandırmaq məqsədi daşıyır.

Qiymətləndirmə standartları. Bu standartlar təhsilin keyfiyyətini qiymətləndirmək üçün əsas meyarları təyin edir, tələbə nailiyyətlərinin və təhsil imkanlarının qarşılıqlı dəyərləndirilməsi üçün istifadə olunan qiymətləndirmə üsulları və vasitələrinin keyfiyyətini təsvir edir, qiymətvermə prosesinin qanuniliyinə zəmanət verir.

Bütün növ qiymətləndirmələrin aparılmasında aşağıdakı prinsiplərə riayət olunur: məqsədəuyğunluq; nailiyyətlərin və təhsil imkanlarının qarşılıqlı dəyərləndirilməsi; toplanılmış məlumatların keyfiyyətcə müvafiqliyinin və etibarlılığının təmin olunması; qiymətləndirmədə şəffaflıq, ədalətlilik, qarşılıqlı razılaşma və əməkdaşlıq; təlim fəaliyyətində qiymətləndirilmə nəticələrinin inkişafetdirici rolunun təmin olunması.

4.1.3. Qiymətləndirmə standartlarının və vasitələrinin hazırlanması

Hər bir fənn kurikulumunda ***məzmun standartları*** və onların mənimsənilməsi üçün istifadə olunan strategiyalarla yanaşı, nail olunmuş təlim nəticələrinin, əldə edilmiş bilik və bacarıqların qiymətləndirilməsi üçün müvafiq ***qiymətləndirmə standartlarının*** nümunələri də əhatə olunur.

Məzmun standartları inteqrativ təlim nəticələri olub tələbənin müvafiq bilik, bacarıq və dəyərlərə nail olmaqla səviyyəcə dəyişməsini təmin edir.

Qiymətləndirmə standartları məzmun standartlarının hansı səviyyədə reallaşdığını yoxlamaqla baş vermiş dəyişikliklərin dərəcəsini müəyyən edir.

Qiymətləndirmə standartları müəyyən səviyyələr (məsələn, 4 səviyyə) üzrə ***qiymətləndirmə sxemləri (QS)*** şəklində hazırlanır. QS xüsusi növ qiymətləndirmə şkalasıdır və iki əsas məsələni əhatə edir:

Mən nəyi qiymətləndirməliyəm (obyekt, məzmun, aspektlər, tərəflər, xüsusiyyətlər)?

Aşağı, orta və yuxarı nailiyyət səviyyələrinin xüsusiyyətlərini necə müəyyənləşdirmək olar?

Hər bir səviyyə müəyyən bal sistemi ilə müşaiyət olunur. Bu məqsədlə, məsələn, hazırda ali təhsil sistemində istifadə edilən çoxballı qiymətləndirmə sistemindən də istifadə edilə bilər.

QS-lər qiymətləndirmənin daha ədalətli, obyektiv, etibarlı və ardıcıl həyata keçirilməsinə imkan verir, tədrisin səmərəliliyi ilə bağlı müəllimləri faydalı məlumatlarla təmin edir və tələb edir ki, hər bir müəllim müvafiq şərtlər üzrə öz meyarlarını müəyyənləşdirsin.QS-lər tələbənin işini qiymətləndirmək üçün müəllimin sərf etdiyi vaxtı azaldır, keyfiyyət səviyyələri vasitəsilə müxtəlif qabiliyyətə malik tələbələrin təhsil aldığı qrupları nəzərə almağa şərait yaradır.

QS-lər fəaliyyətin qiymətləndirilməsi zamanı istifadə olunan meyarlarla bağlı tələbələrin məlumatlandırılmasını, onların işinin necə qiymətləndiriləcəyini və onlardan nələrin tələb olunduğunu aydın şəkildə göstərməklə konkret məqsəd və tələbləri (meyarları) müəyyən edir, tələbə işlərinin keyfiyyətini daha yaxşı qiymətləndirməklə təlim prosesində irəliləyişlərin qiymətləndirilməsi üçün çərçivə təyin edir.

QS-lər mahiyyət etibarı ilə iki növə ayrılır:

Holistik QS tələbələrin işi ilə bağlı ümumi təəssürat yaradır. Bu növ QS-lər sürətli qiymətləndirmə aparmaqla tələbə nailiyyətləri haqqında ümumi mənzərəni təsvir edir.

Analitik QS tələbələrin ayrı-ayrı fəaliyyət sahələri üzrə qiymətlərini təyin edir. Bu zaman tələbələrin fəaliyyəti ardıcıl qiymətləndirilməklə onların nailiyyətləri haqqında daha ətraflı informasiya verilir, lakin qiymətləndirmə üçün daha çox vaxt tələb olunur.

QS-in elementləri:

- qiymətləndiriləcək əsas sahələr;
- nailiyyətin müxtəlif səviyyələrini dəyərləndirmək üçün qiymətləndirmə şkalası;
- səviyyə üzrə etiket: nailiyyət səiyyəsini təsvir edən söz və ya rəqəm;
- səviyyə deskriptoru: nailiyyət səviyyəsini daha müfəssəl təsvir edən söz (ifadə);
- səviyyə indikatorları: hər bir nailiyyət səviyyəsi üzrə diqqət yetirilmə məsələsinə aid konkret nümunələr;

Standart: nail olunması nəzərdə tutulan nəticə.

QS-lər vasitəsilə qiymətləndirmə standartlarının hazırlanması aşağıdakı ardıcıllıqla aparılır:

- təlim məqsədi təyin edilir (bilik, bacarıq, münasibət, nəticə), tələbələrin nəyi bilməsi və bacarması barədə mülahizələr dəqiqləşdirilir;
- qiymətləndirmə məqsədi seçilir (diaqnostik, formativ, summativ);
- hansı növ qiymətləndirmə sxemlərindən istifadə edilməsi barədə qərar verilir (holistik, analitik);
- qiymətləndirmənin aspektləri (bilik və bacarıqlar, onların əldə olunması yolları, tətbiqi və s.), yaxud əsas sahələri müəyyənləşdirilir və təsvir edilir;
- müxtəlif nailiyyət səviyyələri keyfiyyət baxımından müəyyənləşdirilir və təsvir edilir;
- nailiyyət səviyyələrinin qiymətləndirmə ballarına görə sayı dəqiqləşdirilir;
- səviyyə deskriptorlarının (təsviri indikatorlar) növləri (kəmiyyət, normativ, deskriptiv) seçilir. Deskriptiv növ seçilərsə, bütün nailiyyət səviyyələrinin sözlə təsviri verilir;
- hər bir səviyyə üzrə müxtəlif nümunəvi tələbə tapşırıqları hazırlanır;
- zərurət yaranarsa qiymətləndirmə sxemi nəzərdən keçirilir və lazimi dəyişikliklər edilir.

Qiymətləndirmənin hər bir aspekti üzrə səviyyə deskriptorları müvafiq qiymətləndirmə sahəsinin və səviyyəsinin mahiyyətini, məzmununu təsvir edir. Səviyyə deskriptorları tərtib edilərkən aşağıdakılar nəzərə alınır:

- tələbələrin başa düşəcəyi sadə dildən istifadə edilməsi, fikirlərin qısa və sadə ifadə olunması;
- "pis", "orta səviyyəli", "kafi", "yaxşı" və ya "əla" kimi qeyri-müəyyən və formal deskriptorlardan istifadə edilməməsi;
- imkan daxilində müşahidə oluna bilən bacarıqların və ya təlim nəticələrinin xüsusiyyətlərinin təsvir edilməsi;
- qiymətləndirmə səviyyələrinin sərhədlərinin optimal müəyyənləşdirilməsi, qəbul edilmiş intervalların bərabərliyi;
- səviyyələr şkalasının şagird nailiyyətlərini tam əhatə etməsi;
- nailiyyət səviyyələri üzrə təsvirlərin məzmununun eyni üslub və formada tərtib ediməsi;
- fəaliyyət səviyyələrinin bütün aspektlər üzrə uyğun olması (məsələn, bir aspekt üzrə 4-cü səviyyə qiymətinin digər aspekt üzrə 4-cü səviyyə qiyməti ilə müqayisə oluna bilməsi).

- əvvəlcə "ən yüksək", sonra isə "ən aşağı" səviyyələrin müəyyənləşdirilməsi, daha sonda isə"aralıq" səviyyələrin hazırlanması.
- ən yüksək səviyyənin real olması;
- ən aşağı səviyyənin yalnız çatışmazlıqları deyil, həmçinin minimal nailiyyətin xüsusiyyətlərini əks etdirməsi.

Qiymətləndirmə standartları hazırlanarkən aşağıdakı amillərə diqqət yetirilir:

- bəzi məzmun alt-standartlarının hər birinə ayrılıqda olmaqla, bəzilərinə isə qrup halında bir qiymətləndirmə standartı hazırlana bilər.
- məzmun alt-standartı qiymətləndirmə üçün az əhəmiyyətli olduqda ona qiymətləndirmə standartı hazırlanmaya bilər;
- bir sıra hallarda hər hansı bir məzmun alt-standartı üçün qiymətləndirmə standartının hazırlanması mümkün olmaya bilər.

Məhz bu səbəblərə görə qiymətləndirmə standartlarının hazırlanmasında baza rolu oynayan və təlim standartlarını, gözlənilən təlim nəticələrini təyin edən hər bir fənn kurrikulumu, adətən, qiymətləndirmə standartları toplusundan daha əhatəli və geniş hazırlanır. Bəzən də bir sıra qiymətləndirmə standartları kurikulumda aşkar əks olunmasa da, müxtəlif qiymətləndirmə tədbirlərində onlardan istifadə edilir.

Qiymətləndiriləcək bacarıqların təyin olunması prosesində onların idraki xarakterdə olması xüsusilə nəzərə alınır ki, bu da qiymətləndirmə tapşırıqlarının mürəkkəblik səviyyəsinin müəyyən olunmasında vacib şərt hesab olunur, mənimsəmənin əsas xüsusiyyətlərini (məntiqi düşünmə, prosedurların yerinə yetirilməsi, anlayışların dərk edilməsi, problemlərin həlli) əhatə edir.

Tələbələrin məzmun standartlarına nə dərəcədə nail olduğunu ölçmək və qazanılmış bacarıqlar üzrə yekun (summativ) qiymətləndirmələr aparmaq üçün qiymətləndirmə vasitələrinin (məsələn, testlərin) hazırlanması aşağıdakı ardıcıllıqla aparılır:

- qiymətləndirmə vasitələrinin hazırlanması prosesində bu vasitələrin məqsədəuyğunluğu (məhz "nəzərdə tutulanın" qiymətləndirməsi) və etibarlılığı (real məlumatlara əsaslanması);
- yekun (summativ) qiymətləndirmə vasitələrində bütün standartların reprezentativ (təmsiledici) seçiminin təmin olunması,
- yekun (summativ) qiymətləndirmə vasitələrində bütün səviyyələr üzrə də reprezentativ seçimin təmin edilməsi.

İBTİDAİ MƏKTƏBDƏ RİYAZİYYATIN TƏDRİSİNİN MÜASİR QOYULUŞU

Həsənova V.R.
Qafqaz universiteti

Elmin və texnikanın inkişaf etdiyi bu dövrdə yetişən gənc nəslin hərtərəfli inkişaf etməsində eyni zamanda məntiqi təfəkkürün inkişafında riyaziyyat fənninin rolu əvəz edilməzdir.Çünki riyaziyyat bilavasitə məntiqin inkişafına xidmət edir.Məntiqi təfəkkür isə şagirdin elmin digər sahələrində uğur qazanmasına kömək edir.Riyaziyyat müəlliminin fəaliyyəti çoxşaxəlidir.Müəllim daim riyazi ədəbiyyatlar oxumalı, keçəcəyi dərs haqqında maksimum bilik səviyyəsinə malik olmalıdır.Son dövrdə artıq fəal interaktiv təlim bizim təhsil sistemimizə daxil oldu və özü ilə bərabər bir çox yeniliklər gətirdi.Bu yeniliklər əlbətdəki müsbət istiqamətdə təhsilə təsir etdi.Müxtəlif sayda yeni metodlar meydana çıxdı ki,müəllimlər bu metodlarla dərslərini səmərəli şəkildə qura bilirlər.Ancaq bu cür dərslərin qurulması bir-iki saat deyil günlərlə vaxt tələb edir.Buna baxmayaraq dərsdə qırx beş dəqiqə ərzində yüksək səviyyədə təlim prosesi aparmaq mümkündür.Fəal interaktiv təlimlə hər bir şagirdin daxilindəki xəzinəni kəşf etmək mümkündür. Mən elə düşünürəm ki,müəllim dərsə hazırlaşan zaman keçəcəyi mövzuya uyğun motivasiyanı düzgün qurmalıdır.Motivasiya düzgün qurulduqda şagirdlərdə yeni dərs haqqında müəyyən qədər fikir formalaşır.Sonra müəllim tədqiqat sualı ortaya qoymalı və şagirdlər fərdi şəkildə fikirlərini iş vərəqəsinə yazmalıdır.Sonda fikirlər müzakirə edilir.Hər şagird məsələyə fərdi yanaşıb öz prizmasından cavab verir.Beləliklə sinifdə iyirmi dörd şagird varsa,ən azı on-on beş müxtəlif fikir eşitmək mümkündür.Bununla da şagirdlər bir-birindən nəsə öyrənmiş olur. Müəllim biliyi şagirdlərə hazır şəkildə deyil tədqiqat nəticəsində ötürmüş olur.Başqa sözlə desək müəllim rəhbər

funksiyasını yerinə yetirir və lazım gəldikdə öz müdaxilələrini edir.Şagird isə sərbəst şəkildə biliyə yiyələnir.Müəllim təlim məqsədindən asılı olaraq müxtəlif təlim metodlarından istifadə edə bilər."Əqli hücum", "BİBÖ","Auksion" kimi metodlardan istifadə etmək şagirdlərin sərbəstliyini və fikir azadlığını inkişaf etdirir.Yaddaşın yaxşı inkişaf etməsi üçün Klaster üsulu,məntiqi tənqidin və yaradıcı təfəkkürün inkişafı üçün isə disskusiya,proqnozlaşdırma,müzakirə metodlarının seçilməsi məqsədə uyğundur.Mən elə düşünürəm ki,fəal interaktiv təlimin məqsədi də məhz şagirdlərin dərsə marağını artırmaqdır.Ona görə də müəllim informasiya texnologiyalarına bələd olmalıdır.Məktəblərdə bu cür dərslərin qurulması üçün şərait yaradılmalıdır və müəllimlərin İKT hazırlığı artırılmalıdır.Kompyuter laboratoriyaları yaradılmalı və müəllimlər,laborantlar üçün kompyuter kursları təşkil olunmalıdır.Şagirdlər və müəllimlər təqdimatlar zamanı Power Point proqramından istifadə edə bilərlər. Təqdimatın tərkibində sxemlər,cədvəllər, qrafiklər, praktiki tapşırıqlar, testlər ola bilər. İnteraktiv təlim metodları riyaziyyat dərsləri üçün olduqca əlverişlidir.Mən elə düşünürəm ki, şagirdin aktiv fəaliyyəti, müəllimin şagirdlə və şagirdlərin bir-birilə əməkdaşlığı, didaktik oyunlardan istifadə olunması, şagirdlərin sinifdə qeyri-ənənəvi yerləşdirilməsi (partaların düzülüşü) və.s dərslərin müasir qoyuluşunun tərkib hissəsidir.

X BÖLMƏ

ÜMUMİ İQTİSADİYYAT

1. Müslümov Y.N. İqtisadi qloballaşmanın və regional inteqrasiya proseslərinin inkişafının milli gömrük siyasətinə təsiri..... 378
2. Quliyev M.F. Birbaşa xarici investisiyaların cəlb edilməsi problemləri..... 379
3. Bayramova F.S. Azərbaycanın neft gəlirlərinin ölkə iqtisadiyyatına təsiri məsələləri..... 381
4. Sazoğlu Önder Tahir. Asiya Sakit Okean iqtisadi əməkdaşlığı (ASİƏ)..... 382
5. Əliyev N.N. Azərbaycan neftinin inkişaf tarixi..... 384
6. Feyziyeva Ü.E. Kənd təsərrüfatının inkişafında lizinq əməliyyatlarının səmərəliliyinin qiymətləndirilməsi..... 385
7. Rəhimli V.E. Səhmləşdirmənin iqtisadi məzmunu və funksiyaları..... 387
8. Кязимова Н.И. Современные проблемы и перспективы системы банковского надзора..... 388
9. Rəhimov M.R. Kommersiya fəaliyyətinin makroiqtisadi səviyyədə idarəedilməsi..... 391
10. Зейналов Э.Ф. Деловая репутация фирмы..... 392
11. Ələsgərova K.C. Məşğulluğun dövlət tənzimlənməsi..... 393
12. Əhmədova V.H. Müasir şəraitdə xarici iqtisadi siyasət strategiyasının formalaşdırılması mexanizminin hüquqi təminatı..... 395
13. Yusifli T.Q. Kapital bazarı resurslarının formalaşdırılmasında onun rolu..... 397
14. Yusifli T.Q. Maliyyə kredit siyasətinin makroiqtisadi sabitlikdə rolu..... 398
15. Hümbətova X.D. Milli iqtisadiyyatın maliyyə sabitliyinin təmin edilməsinin prinsipləri..... 400
16. Allahverdiyev R.N. Regional innovasiya siyasəti..... 402
17. Babazadə N.A. Rəqabət qabiliyyətli iqtisadiyyatın yaradılmasında innovasiya əsaslı texnoparkların rolu..... 403
18. Həsənova C.F. Yeni iqtisadi şəraitdə Azərbaycan Respublikasında intellektual mülkiyyət obyektlərinin qiymətləndirilməsinin nəzəri aspektləri..... 405
19. Mehdizadə G.A. Sosial siyasətin təkmilləşdirilməsi istiqamətləri..... 407
20. Qəhrəmanova G.R. Bazar iqtisadiyyatının struktur problemləri və onun təmin olunmasının əsas istiqamətləri..... 408
21. Насибова М.А. Правовые аспекты регулирования денежного капитала в Азербайджанской Республике..... 409
22. Əliyev O.Ə. Strateji planlaşdırma konsepsiyaları və modelləri..... 411
23. İbrahimov Q.Ə. Azərbaycan Respublikası gömrük - tarif siyasətinin hüquqi təminatının formalaşması məsələləri..... 414
24. İsmayılov F.Ə. Azərbaycan Respublikası dövlətin aqrar siyasətinin hüquqi təminatı və təkmilləşdirilməsi məsələləri..... 415

25. Süleymanova L.N. Nəqliyyat – logistik kompleksdə formalaşan münasibətlərin hüquqi aspektləri..... 417
26. Əliyev E.V. Milli proqramların formalaşdırılması və iqtisadi sahələrində tətbiqi..... 418
27. Quluyeva H.M. Daşınmaz əmlak bazarının formalaşması və fəaliyyətinin metodoloji aspektləri..... 420
28. Nəsirova G.A. Milli innovasiya sisteminin formalaşmasının təşkilati-hüquqi aspektləri..... 422
29. Məmmədov A.M. Azərbaycanda gömrük-tarif tənzimlənməsinin formalaşmasının əsas istiqamətləri..... 424
30. Набиева И.М. Зарубежный опыт регулировании рынка труда..... 425
31. Abdullayeva L.B. Müstəqillik illərində Azərbaycan iqtisadiyyatınıln və ixracının diversifikasiyası siyasəti..... 426
32. Niftiyev İ.M. Bank sisteminin təkmilləşdirilməsi istiqamətləri və rəqabət qabiliyyətinin artırılması yolları..... 427
33. Niftiyev İ.M. Rəqabət strategiyalarının hazırlanmasında nəzəri əsaslar və metodologiyalar..... 428
34. Mirzəyeva N.A. Əhali gəlirlərinin formalaşması və tələbat sistemində rolu..... 429
35. Mustafayev A.M.İşsizliyin göstəriciləri və onun dunamikasını müəyyənləşdirən amillər..... 431
36. Zeynalov A.A. Sosial ədalət nəzəriyyəsi və rifah..... 432
37. Zeynalov A.A. Məşğulluğun yüksəldilməsi istiqamətləri..... 434
38. İsmayıllı Ş.İ. Müasir şəraitdə əhalinin sosial müdafiəsi problemləri..... 436
39. Ağayeva N.K. Maliyyə təhlükəsizliyin təminatında monetar siyasətin alətləri..... 437
40. Əliyev A.N. Müasir bazar iqtisadiyyatı şəraitində inflyasiyanın tənzimlənməsi..... 440
41. Namazova L.Y. Turizmdə reklam təminatının əsas məqsədi və turizmin inkişafında onun rolu..... 441
42. Əsgərli Y.R. Azərbaycanda investisiya siyasəti və investisiya fəaliyyəti..... 442
43. Qasımzadə C.T. Azərbaycan Respublikasında innovasiyanın tənzimlənməsi istiqamətləri..... 444
44. Солтанова Л.А. Некоторые аспекты повышения роли финансового контроля в планирование государственного бюджета..... 447
45. Мустафаев М.Я. Нефтяная стратегия Азербайджанской Республики..... 448
46. Atayev F.M. Aqrar sənaye kompleksinin ölkə iqtisadiyyatında rolu..... 450
47. Паналиева Л.Е. Национальное богатство и конкуренто-способность национальной экономики..... 451
48. Muradov R.C. Torpaq resurslarından istifadənin iqtisadi səmərəliyi..... 453
49. Mahmudov N.F. Məhsulun keyfiyyətinin təmin olunması üzrə beynəlxalq standartların yaranması və inkişaf tarixi..... 455
50. Yusifova T.N. Kadr potensialından səmərəli istifadə..... 456
51. Зверева А.Г. Основный направления формировании рынка рекламы в Азербайджане..... 459
52. Hacıyev T. İnnovasiya anlayışı, nəzəri aspektləri..... 460
53. Dünyamalıyev E.Ə. Azərbaycanın ÜTT ilə qarşılıqlı faydalı əlaqələrinin formalalaşdırılması-xarici ticarət əlaqələrinin tənzimlənməsinin istiqaməti kimi..... 461

XI BÖLMƏ

MÜƏSSİSƏLƏRİNİN İQTİSADİYYATI VƏ İDARƏEDİLMƏSİ

1. Abbaslı M.V. Biznesdə reklam işinin təşkili..... 464
2. Osmanov E.Ç. Biznes fəaliyyətinin səmərəliliyinin təmin edilməsi istiqamətləri..... 465
3. Qaçayev E.İ. Heyətin idarəolunması strategiyasının formalaşması və işlənib hazırlanması problemləri..... 467
4. Soltanov V.K. İstehsala xidmətin təşkilinin yaxşılaşdırılmasının zəruriliyi..... 468
5. Əliyeva İ.S. Azərbaycanda turizmin inkişaf imkanları..... 470
6. Atayev Ü.V. İnnovasiya fəaliyyətinin stimullaşdırılması və idarə edilməsi üsulları..... 471

7. Довлетханова Г.Д. Современное состояние страховой деятельности в Азербайджане и его совершенствование..... 472
8. Şıxkərimov S. T. Müəssisənin ödəmə qabiliyyətinin təhlili..... 474
9. Quliyeva G.N. Müəssisənin işgüzar fəallığının təhlili..... 475
10. Vəliyeva A.S. Turizm sahəsində sahibkarlıq fəaliyyətinin təkmilləşdirilməsi istiqamətləri..... 476
11. Nəbiyev B.Z. Müəssisələrdə keyfiyyətin idarəetmə metodlarının məhsulun rəqabət qabiliyətliliyinə təsiri..... 477
12. Məmmədova Ü.Ş. Aqrar sahədə ixrac potensialının artırılmasının zəruriliyi..... 478
13. Cəlilova D.X. Qloballaşma və ona təsir edən amillər..... 479
14. İbrahimova L.N. Azərbaycanın iqtisadi sahələrinin inkişafında azad iqtisadi zonaların rolu..... 480
15. Məhəmmədov İ.N. İqtisadiyyatın tənzimlənməsi metodları..... 482
16. İsmayılov Y.E. Azərbaycan Respublikası ixrac potensialının müasir vəziyyəti və hüquqi təminatının təkmilləşdirilməsi istiqamətləri..... 483
17. Əhmədova Ş.H. İqtisadi inteqrasiyanın reallaşdırılma xüsusiyyətləri..... 484
18. Гусейнова С.Р. Разработка конкурентной стратегии развития предприятий молочной промышленности..... 486
19. Həsənova G. Biznes (müəssisə) əmtəə və qiymətləndirmə obyekti kimi..... 487
20. Əşrəfova R.M. Aqrar sferada qiymətlərin tənzimlənməsi mexanizminin təkmilləşdirilməsi..... 488
21. Hüseynova S.A. Qloballaşma və insan hüquqları..... 489
22. Rəhimli H.H. İqtisad elmi ilə biznes praktikasındakı istehlakçı davranışı modellərinin fərqliliklərin azaldılmasında "Nobel mükafatı" laureantlarının rolu..... 491
23. Мешадизаде С.В. Основные направления развития в совершенствования рекламы в коммерческих фирмах..... 493
24. Адыгезалова Н.Е. Современные тенденции развития рекламы в Азербайджане..... 494
25. Cəfərli M.Y. Azərbaycan Respublikası həyata keçirilən sosial siyasətin maliyyələşdirilməsi məsələləri..... 496
26. Əhmədova N.S. Azərbaycanda turizmin vəziyyəti..... 497
27. Əlizadə Ş.M. Bazar münasibətləri şəraitində kiçik və orta sahibkarlığın inkişafına dövlət dəstəyinin hüquqi təminatının təkmilləşdirilməsi məsələləri..... 499
28. Əliyeva A.M. Regionların davamlı inkişafının tədqiqinin nəzəri əsasları..... 501
29. Mirzəyeva S.Ş. Azərbaycanda regional inkişafın tənzimlənməsinin xarakterik cəhətləri və onun təkmilləşdirilməsinin prioritetləri..... 503
30. Эйвазов Э.М. Организация учета и отчетности на предприятиях сферы услуг..... 505
31. Шукюрова Г.А. Методы регулирования денежно – крендитного обращения..... 506
32. Аллахвердиев А.Н. Государственный финансовый контроль и его роль в повышении эффективности финансовой системы..... 508
33. Koroğluyeva Ü.H. Təşkilati idarəetmə strukturunun qurulması prinsipləri..... 510
34. Nəsibov O.M. Bazar infrastrukturunun elementi kimi fond birjalarında qiymətəmələgəlmənin təkmilləşdirilməsi istiqamətləri..... 513
35. Hacızadə N.H. Lizinq münasibətləri sisteminin quruluşu..... 514
36. Kazımov P.N. Marketinq tədqiqatları vasitəsilə kommersiya fəaliyyətinin təhlili mexanizmi..... 517
37. Kazımov V.M. İnvestisiya prosesi və onun kommersiya fəaliyyətinə təsir mexanizmləri..... 519
38. Məmmədzadə N.M. Turizm bazarında rəqabətliliyin formalaşmasının xüsusiyyətləri..... 521
39. Əhmədova E.E. Ticarət fəaliyyətində XYZ təhlilininn aparılmasının xüsusiyyətləri..... 523
40. Şahmarova A.Ə. Birja fəaliyyətinin əhəmiyyəti və onun əsas funksiyalarının təhlili..... 525
41. Həsənli Ə.İ. Əmtəə bazarları və onların formalaşmasına birjaların təsiri. 527
42. Əbilzadə A.Ş. Risk-menecment və investisiyaların risk səviyyəsi ilə əlaqələri..... 529
43. Tağızadə E.C. Azərbaycanda fond birjalarının milli iqtisadiyyatına təsiri..... 531
44. Zalov O.C. Müasir reklamın inkişafında müasir texnologiyalardan istifadə yolları..... 533
45. Mehdibəyli G.Ə. Mərkəzi Bank və onun əməliyyatları..... 535
46. Hüseynli A.Ə. Xarici iqtisadi siyasətin strategiyası..... 536

47. Quluzadə A.N. Neft emalı müəssisələrində heyətin idarə edilməsinin təşkili..... 537
48. İbrahimova G.A. Neftqazçıxarma sənayesinin inkişafında investisiya layihələrinin rolu və onların əsaslandırılması mexanizmi..... 538
49. Dadaşova J.N. Azərbaycanın GUAM ölkələri ilə iqtisadi əlaqələrinin yüksəldilməsinin strategiyası..... 539
50. Hacıyeva S.İ. Azərbaycan Respublikasının xarici iqtisadi əlaqələrinin əsas istiqamətləri..... 541
51. Gülməmmədova A.N. Azərbaycanın neft-qaz strategiyası və BİM-in inkişafında onun rolunun qiymətləndirilməsi..... 542
52. Qocayev A.R. Azərbaycanın xarici ölkələrlə ticarət əlaqələrinin inkişaf perspektivləri..... 543
53. Əliyeva T.M. Ticarət müəssisələrinin satış fəaliyyətində müasir meyllər..... 545
54. Dadaşova S.R. Milli iqtisadiyyatın resurs təminatı və ondan istifadənin dövlət tənzimlənməsi..... 546

XII BÖLMƏ

MÜHASİBAT UÇOTU

1. Qurbanov E.R. Pul-kredit sistemində iqtisadi təhlükəsizliyin təmin edilməsinin zəruriliyi..... 548
2. Сеидзаде Р.Ш. Некоторые проблемы организации финансового контроля и аудита..... 550
3. Əbdürəhmanova A.A. Maliyyə bazarının ölkənin sosial-iqtisadi inkişafında rolu və əhəmiyyəti..... 551
4. Tağıyeva A.V. Azərbaycanda kiçik biznesin kreditləşməsində bankların rolu..... 553
5. Иманова Т.И. Налог, как основной источник увеличения бюджетных доходов..... 554
6. İsgəndərli T.R. Müəssisənin debitor və kreditor borclarının uçotu..... 556
7. Orucov İ.Ş. Mühasibat balansının iqtisadi oxunuşu və onun beynəlxalq standartlara uyğunlaşdırılması problemləri..... 557
8. Vəliyev R.A. Maliyyə hesabatının keyfiyyət meyarları və prinsipləri..... 559
9. İsgəndərli O.R. Kommersiya banklarında daxili auditin tənzimlənməsi xüsusiyyətləri..... 560
10. Musayev O.Ə. Müəssisənin maliyyə sabitliyini xarakterizə edən əmsallar və onların hesablanma üsulları..... 561
11. Novruzəliyev R.B. Kommersiya banklarında auditin mahiyyəti, zəruriliyi və onun formaları..... 562
12. Qaradağlı Z.Ç. Maliyyə hesabatının istifadəçiləri üçün auditin zəruri xüsusiyyətləri..... 563
13. Abdullayeva F.N. Maliyyə sabitliyi anlayışı və onun əhəmiyyəti..... 564
14. Əliyeva N.R. Mühasibat uçotunda sintetik hesabatların mahiyyəti və əhəmiyyəti..... 565
15. Məmmədova K.H. Bank marketinqinin təşkilində reklam işinin əhəmiyyəti..... 566
16. Hüseynov H.A. Qeyri-maddi aktivlərin uçotunun auditi..... 568
17. Hüseynov O.V. Kommersiya səmərəliliyi və ona təsir edən amillər..... 569
18. Məmmədova Ü.Ə. Müasir dövrdə gəlirlər və xərclərin uçotu, onların müəssisənin maliyyə fəaliyyətində rolu..... 570
19. Qocayev X.L. Səhm bazarının təşəkkülü və müasir inkişaf meylləri..... 572
20. Hənifəyev Ə.Ş. Vergi yükü – vergi sistemini xarakterizə edən göstərici kimi..... 574
21. Hənifəyev Ə.Ş. Vergi siyasətinin vergi yükünün optimallaşdırıl-masına təsiri..... 576
22. Bayramlı N.M. Biznesdə mövqələrin təhlili və səlahiyyətlərinn bölüşdürülməsi..... 578
23. Əhmədli Ə.Ə. Ticarət müəssisəsi işçilərinin əməyin maddi həvəsləndirilməsinin təkmilləşdirilməsi..... 581
24. Əliyeva N.Ə.Pul kütləsinin tənzimlənməsi..... 582
25. Əliyeva N.Ə. Pul siyasətinin həyata keçirilməsində müasir texnologiyaların tətbiqi..... 584
26. Məmmədli A.M. Qızıl bazarı və onun inkişaf xüsusiyyətləri..... 586
27. Şıxıyeva P.E. Mərkəzi bankın bank risklərinin idarə olunmasında rolu..... 587
28. İsayeva Ə.V. Beynəlxalq maliyyə qurumlarının fəaliyyətlərində nailiyyətlər və çatışmamazlıqlar..... 589
29. İslamzadə S.A. Bank sistemində iqtisadi təhlükəsizlik amilləri..... 590

30. Ələkbərova A.R. Azərbaycanda maliyyə ehtiyatlarının səmərəli istifadə olunmasında nəzarət fəaliyyətinin təkmilləşdirilməsi..... 592
31. Həsənli G.N. Müasir dövrdə bankların inkişaf xüsusiyyətləri..... 594
32. Hüseynova N.E. İpoteka kreditləşməsi və onun inkişaf istiqamətləri..... 596
33. Hüseynova N.E. İpoteka kreditinin verilməsinin hüquqi aspektləri..... 598
34. Həsənzadə F.M. Azərbaycan qiymətli kağızlar bazarı, iqtisadiyyatın davamlı inkişafında onun rolu..... 599
35. Balaxanova L.M. Büdcə xərcləri və onların maliyyələşdirilməsi sistemi..... 601
36. Yusifzadə P.R. Müəssisənin maliyyə mexanizmi və onun təkmilləşdirilməsi..... 602
37. Atakişiyev F.H. Regionların sosial-iqtisadi inkişafında vergi amilinin rolu..... 602
38. Məmmədov V.Q. Beynəlxalq maliyyə bazarları..... 604
39. Mitəlov R.Ə. Dövlət maliyyə nəzarəti və onun təkmilləşdirilməsi..... 605
40. Musayeva A.E. Maliyyə biznesinin formalaşmasında kommersiya banklarının rolu..... 606
41. Манафлы Н.М. Роль финансового контроля и повышение эффективности управления государственным долгом..... 608
42. Muradova M.Y. Sığorta təşkilatlarında pul axınlarının hərəkət metodları..... 610
43. Muradova M.Y. Sığorta təşkilatlarında maliyyə nəticələrinin formalaşması..... 611
44. Ağadadaşov Ə.İ. Bank xidmətləri sferasında marketinqin tətbiqi..... 612
45. İbrahimova L.İ. Milli iqtisadiyyatın tənzimlənməsində istifadə edilən proqram, normativ balans metodlarının istifadə imkanları..... 614
46. Qarazadə F.N. Azərbaycanda tibbi sığortanın inkişaf istiqamətləri..... 615
47. Mahmudova S.Y. Azərbaycanda fond bazarının problemləri..... 617
48. Алиева Ж.Дж. Основные проблемы оптимизации бюджетных расходов..... 618
49. Кишиев Дж.Е. Стратегия повышения потенциала национальной банковской системы Азербайджана..... 620
50. Асланова К.Г. Налоговый потенциал и механизмы его формирования..... 621
51. Агаева С.Р. Бухгалтерская (финансовая) отчетность – основа анализа финансового состояния..... 623
52. Kamilov L.A. Milli mühasibat uçotu standartların tətbiqi şəraitində biznes qərarlarının qəbulunun əsaslandırılması..... 624
53. Ağakişiyev Z.İ. Azərbaycanda inhisarçılıq fəaliyyətinin dövlət mexanizmi və onun təkmilləşdirilməsinin prioritetləri..... 626

XIII BÖLMƏ

DİLÇİLİK

1. Şivəxanlı G.F. Mürəkkəb sözlərin komponentləri arasında əlaqə..... 627
2. Əsgərova L.S. "Ar-ər" şəkilçisinin təsirlilik-təsirsizlik kateqoriyasında rolu..... 628
3. Əhmədova F.Z. İsmayıl Şıxlının əsərlərində şivə sözlərinin əsas nitq hissələrinə görə təsnifi.. 629
4. İmanova Z.V. Azərbaycan dilinin təşəkkül tarixi..... 630
5. Qəhrəmanova A.E. Komponentlərinin sabitlik dərəcəsinə görə söz birləşmələrinin təhlili..... 631
6. İbrahimova A.Z. Heydər Əliyevin nitq mədəniyyəti və natiqlik məharəti..... 633
7. Kərimli İ.Ş. Attributive clauses..... 634
8. Quliyeva K.Z. Verbids in English..... 635
9. Qurbanova S.V. Müasir Azərbaycan dilində söz yaradıcılığı və onun tədrisində yeni təlim üsullarından istifadə..... 636
10. Səfərova N.E. Types of syntactic relations..... 638
11. Babayeva A.M. The difference between tense and aspect cateqories..... 639
12. Sadiqova E.R. Frazeologizmlərin yaranmasında somatik vahidlərin rolu və onların mahiyyəti haqqında..... 640
13. Rəhimova F.M. Təhsil işçilərinin nitqində işlənən frazeoloji vahidlərin işlənmə özünəməxsusluğu..... 642
14. Məhərova N.X. Leksik alınmaların mənimsənilməsi..... 643
15. Qulami Ş.A. Təyinin ikinci dərəcəli cümlə üzvləri sistemində yeri..... 645

16. Мамедова Н.М. Связной текст и языковая коммуникация..... 646
17. Гаджиева Г.Н. Категория рода в английском языке..... 647
18. Искендерова А.А. Персидские мотивы С.Есенина и восточная классика..... 647
19. Əhmədova E.M. Say mifoloji sistemdə ən geniş yayılmış işarələr toplusu kimi..... 649
20. Bayramova D.T. Doktor Cavad heyətin "İki dilin müqayisəsi" əsəri..... 650
21. Ağayeva L.N. Atalar sözlərində şəxs adları..... 651
22. Şərifova Y.B. Şəxs adlarının qrammatik xüsusiyyətləri haqqında..... 652
23. Mustafayeva G.E. Aşıq Ələsgər yaradıcılığında onomastik vahidlər..... 653
24. Zeynallı T.Ə. Texnologiyada mürəkkəb sintaktik bütövlərin tədqiqi..... 654
25. Ağazadə K.A. Terminaloji qatda yeniləşmə barədə..... 655
26. Бабаева Н.А. Изучение языковой картины мира в современном языкознании..... 656
27. Rəhimova L.A. Tərcümə sənətinin bəzi problemlərinə dair..... 657
28. Məmmədova E.T. Azərbaycan və rus dillərində "Bel" komponentli frazeoloji birləşmələrin milli-mədəni xüsusiyyətləri..... 658
29. Məmmədova R.H. Qan qohumluğu terminləri mürəkkəb sözlərin tərkib hissələri kimi..... 659
30. Bayramova T.M. Dil və dilin cəmiyyətdə rolu..... 661
31. Babayeva Ə.F. Müasir Azərbaycanda dil siyasəti və dil quruculuğu..... 662
32. Hidayətova F.Z. Azərbaycan dilində feli bağlama tərkiblərinin məna növləri..... 663
33. Səfərova E.R. Yeniyetmələr üçün nəzərdə tutulan bədii əsərlərin tərcüməsi zamanı leksik təkrarların ötürülməsi strategiyaları..... 664
34. Rəhimli G.M. Dialektizm anlayışı və dialektizmlərin əsas xüsusiyyətləri..... 665
35. Əzizova S.Z. Azərbaycan dilində ingilis dili sözlərin fonetik unifikasiyasının xüsusiyyətləri... 666
36. Pəncəliyeva A.E. Azərbaycan dilinin frazeoloji vahidləri lüğətlərinin tədqiqi..... 667
37. Махмудов Э.Р. Поэтические переводы произведений М.Ю.Лермонтова на Азербайджанский язык..... 668
38. Мамедова Р.Г. Лексическая антонимия как средства выражения контраста в английской поэзии XXI века..... 669
39. Abdullayeva H.M. İngilis dilinin tədrisində şagirdlərin şifahi nitqinin xarakterik xüsusiyyətləri..... 671
40. Abbasov S.E. Dialekt və şivələrimizin lüğət tərkibində alınma sözlər..... 672
41. Ламазова Т.В. Язык как система и психологизм в учении И.А.Бодуэна Де Куртенэ..... 673
42. Ламазова Т.В. Психологизм в учении о фонеме у И.А.Бодуэна Де Куртенэ..... 674
43. Orucova C.S. Atalar sözlərini idiomlardan fərqləndirən xüsusiyyətlər..... 675
44. Bayramova S.X. Bitki adlarının dilin leksik sistemində yeri..... 676
45. Aşrəliyeva A.T. Struktur dilçiliyin yaranmasının linqvistik əsasları..... 677
46. Alızadə Z.S. Bəzi Polyak atalar sözlərinin dilimizə tərcümə xüsusiyyətləri..... 678
47. Tarıverdiyeva D.A. Cümlənin aktual üzvlənməsində söz sırasının rolu..... 679
48. Kazımova A.N. Qrammatik üsulla söz yaradıcılığı haqqında..... 681
49. Abbaszadə İ.M. "Kitabi Dədə Qorqudda" arxaik leksika..... 682
50. Oktay Saniye Seyfettin. Müasir ingilis dilində artikl və onun tədrisinə dair..... 683
51. Abdullazadə L.Ə. Fransız dilinin tədrisində orijinal mənbə olan bədii əsərlərin metodiki vasitələr kimi istifadəsi..... 684
52. Зейналова Л.А. Статус и место устойчивых глагольных словосочетаний в лексико-фразеологической системе русского языка..... 685
53. Rzazadə A.D. Orta məktəblərdə ingilis dilində şifahi nitq vərdişlərinin inkişaf etdirilməsi yolları..... 686
54. İmanova V.M. İsmi birləşmələrdə ismin asılı tərəf kimi işlənməsi və onun xüsusiyyətləri..... 687
55. Hacızadə T.T. Leksikanın tədrisində üslubiyyat məsələləri..... 688
56. Qafarova A.N. Xarici dilin tədrisində qrammatikanın rolu..... 689

57. Гусейнова Э.Т. Использование художественных текстов при обучении английского языка..... 690
58. Эфендиева Н.Дж. Словарь как составная часть учебного комплекса по русскому языку для Азербайджанской школы..... 691
59. Əliyeva S.İ. Leksis məşğələlərin məqsəd və vəzifələri..... 692
60. Çakmak Ahmet Fesih. Xarici dilin tədrisində tərcümənin rolu..... 693
61. Həsənova A.K. Felin indiki zaman formasının orta məktəblərdə tədrisi formaları..... 694
62. Abbaszadə S.İ. V sinif dərsliyində "Dil qaydaları"..... 695

XIV BÖLMƏ

ƏDƏBİYYATŞÜNASLIQ

1. Qurbanova V. M. "Molla Nəsrəddin " jurnalı və Qabdulla Tukay..... 697
2. Quliyeva K.Ş. Məstan Günərin "Troya nağılı" poemasında cəmiyyət problemi..... 698
3. Əhmədli N.Y. Yusif Xas Hacibin "Qutadqu-bilik" poeması Azərbaycan ədəbiyyatşünaslığında..... 699
4. Toy Murat Durmuş. Mahmud Kaşğarinin "Divani lüğət-it türk" əsərində döyüş nəğmələri..... 700
5. Toy Murat Durmuş. Mahmud Kaşğarinin "Divani lüğət-it türk" əsəri Azərbaycan ədəbiyyatşünaslığında..... 701
6. Şimşek Selma Mehmet. Aşıq Sümmaninin dastan yaradıcılığı barədə..... 702
7. Şimşek Selma Mehmet. Aşıq Sümmani yaradıcılığında buta mərasimi..... 703
8. Misirli T.F. Məxdimqulu Fəraqinin məhəbbət lirikası..... 704
9. Məmmədova T.Y. Milli azadlıq mücahidi – Namiq Kamal..... 705
10. İsmayılova Ə.Ş. XIX əsr Azərbaycan epik şeirinin bəzi xüsusiyyətləri..... 706
11. Hüseynova A.E. Elçinin hekayələrində folklorizm..... 707
12. Gürpinar Çetin Yusif. Mütərəqqi ideyaların carşısı..... 709
13. Gürpinar Çetin Yusif. Qabdulla Tukayın xatirələri haqqında..... 710
14. Talıbova U.R. Türk tarixinin təsviri H.Cavidin "Topal Teymur" əsərində..... 711
15. İbrahimova S.V. Əli Əmirlinin "Bütün deyilənlərə rəğmən və ya Ağa Məhəmməd şah Qacar" pyesində hökmdar və şəxsiyyət problemi..... 712
16. Umudlu G.S. M.F.Axundov və XIX əsr qadını..... 713
17. Sadıqlı T.N. Azərbaycan dastanları..... 714
18. Qafarlı N.İ. Əbdürrəhim bəy Haqverdiyevin "Xortdanın cəhənnəm məktubları" povestində mövhumat və cəhalətin ifşasına dair..... 715
19. Qasımova G.S. Jurnalist etikasının pozulmasının əsas səbəbi jurnalistlərin etik prinsipləri bilməməsidir..... 716
20. Ağayeva T.C. Kütləvi informasiya vasitələrinin cəmiyyətin inkişafında rolu..... 717
21. Сеидзаде Н.С. Поиски положителного героя в ранних рассказах А.П.Чехова..... 718
22. Hüseynova Z.A. Əli Nəzmi satirasında Sabir ənənələri..... 719
23. Hacızadə T.E. Məmməd Araz poeziyasında vətən motivi..... 720
24. Исмаилова А.М. Поиски истины «Лишним человеком» в романе И.С.Тургенева «Рудин»..... 721
25. Hümbətova T.R. Azərbaycan televiziya yurnalistikasının yaranma tarixi və bu günü..... 723
26. Ələsgərova Ü.E. Yeni medianın sosial mediada tanıtımı..... 724
27. Niftəliyeva F.Ə. Azərbaycan ədəbi nəsrində psixoloqizm..... 725
28. Əliyeva Ş.F. Tarixi həqiqətlərin "Dəli kür" əsərində əks olunmasına dair..... 726
29. İsmayılova L.Z. Mif və onun xüsusiyyətləri..... 727
30. Mirzəyeva S.S. "Edda" və "Oğuznamə" epik mətnlərinin ortaq cəhətləri..... 728
31. Abuşova S.A. İsmayıl Şıxlının "Olən dünyam" romanında ictimai-siyasi və tarixi hadisələrin əksi..... 729

32. Quliyeva B.M. Xəlil Rza Ulutürk yaradıcılığında Ana dili problemi..... 730
33. Гусейнова А.Н. Основные черты поэтики акмеизма в творчестве А.А.Ахматовой..... 731
34. Məmmədova İ.K. "Dahi Qetsbi" əsərində qadın obrazlarının özünəməxsusluğu..... 732
35. Əliyeva M.Ə. İ.Əfəndiyevin yaradıcılığında psixoloqizmlər..... 733
36. Şəkiyeva K.X. M.Hüseynin "Şeyx Şamil" dramında tarixə realist baxış..... 735
37. Əliyeva İ.R. İsi Məlikzadənin "Evin kişisi" povestində "müsbət qəhrəmanı" tipi..... 736
38. Səlimova A.S. Yeni pedaqoji texnologiyaların əsas tətbiqi istiqamətlərinin müəyyənləşdirilməsi..... 737
39. Mirzəyeva A.C. Ədəbiyyatdan mənəviyyata..... 738
40. Məmmədzadə N.İ. XIX əsrin ikinci yarısı, XX əsrin əvvəllərində Azərbaycan maarifpərvərlərinin pedaqoji irsində vətənpərvərlik tərbiyəsi əxlaq tərbiyəsinin mühüm tərkib hissəsi kimi..... 739
41. Qəniyev S.N. Ölkəşünaslığın tədrisində şəkillərin rolu..... 740
42. Kevser Gülsüm Recep. Rəşad Nuri Güntəkin və Azərbaycan..... 741

XV BÖLMƏ

METODİKA, PEDAQOGİKA VƏ PSİXOLOGİYA

1. Qasımova G.F. Təlimdə fənlərarası əlaqənin həyata keçirilməsinin pedaqoji və psixoloji məsələləri…… 743
2. Əzimova Ü. Fizika və riyaziyyat kurslarının əlaqəli tədrisi…… 744
3. Məmmədova G.M. Fizikanın tədrisində kompleks yanaşma metodunun tətbiqi və onun problemlərinin həlli yolları. ……. 746
4. Məlikzadə R. Fizika fənninin tədrisində istifadə olunan səmərəli təlim metodları…… 747
5. Rüstəmova L.İ. Elektrodinamika bölməsinin qanun və anlayışlarının elmi-metodik analizi….. 749
6. Talıflı A.F. Müasir kvant nəzəriyyəsinə görə metalların elektrik keçiriciliyinin tədrisi metodikası…….. 751
7. Fətəliyeva P.M. Müasir dövrdə fizikanın tədrisində şəxsiyyətyönlü yanaşmanın problemləri……..……. 753
8. Məmmədova Ü.V. Ana dili təlimi ideyasının yaranması və formalaşması…….. 754
9. Məmmədova S.İ. Bədii əsərlərin öyrədilməsində mətn üzərində işin təşkili formaları…… 755
10. Əliyeva Ş.D. Müasir pedaqoji texnologiyaların təsnifatı…….. 756
11. İsmayılova G.T. Təlimdə interaktiv metodlar və tədris prosesində rollu oyunlardan istifadə….. 757
12. Mərdanlı L.F. Ümumtəhsil orta məktəblərdə fizikanın tədrisində ekoloji məsələlər…… 759
13. Mikayılova G.Ş. Şagirdlərin kimyəvi nitq qabiliyyətinin formalaşmasında kimya dərslərinin rolu…….. 760
14. Çakır Rəcəb Mustafa. Pedaqoji texnologiyaların kimya dərslərinə tətbiqi……..…… 761
15. Temel Durmuş Mustafa. Məktəbdaxili qiymətləndirmə……... 762
16. Qədirova G.A. Fənlərarası əlaqənin formaları…….. 763
17. Şıxəliyeva K.Z. Böyük Vətən müharibəsi illərində Azərbaycanda məktəbəqədər təhsilin inkişafı. …… 764
18. Bəşirova G.H. Tarixin təlimində şagirdlərin müstəqil işlərinin təsnifatı…… 765
19. Əsədova G.M. Kurs işlərinin yazılması zamanı hadisələri müqayisə etmək, əsaslandırmaq bacarığının formalaşması……..... 765

20. Cəlalzadə B.M. İxtisas üzrə təcrübə proqramlarının həyata keçirilməsi…… 766
21. Talıbov N.M. Erməni işğalı zamanı dağıdılmış muzeylərimiz…….. 767
22. Muradlı Ç.M. Sifətin tədrisində müasir təlim texnologiyalarından istifadə…… 769
23. Hüseynova P.S. Tarixdən ekskursiyaların təşkili və onların metodikası…… 770
24. Nəbiyeva H.A. Müəllim-şagird münasibətlərinin psixoloji xüsusiyyətləri…… 771
25. Xosrovova N.B. Yeniyetmələrin cinsi-yaş xüsusiyyətlərinin nəzərə alınması..……. 773
26. İbrahimli G.K. Azərbaycanda psixoloji fikrin təşəkkülü və inkişafı……. 775
27. Rüstəmova A.Ə. Adaptasiyanın psixofizioloji mahiyyəti…….. 776
28. Rəhimova F.T. Yeniyetməlik yaş böhranının psixoloji xüsusiyyətləri…….. 778
29. Nəcəfova S.A. Şəxsiyyətin inkişafı və özünütərbiyə…….. 780
30. Alıyeva V.İ. Təlimdə geridə qalan uşaqların psixoloji xüsusiyyətləri…… 782
31. Ağazadə N.A. Pedaqoji fəaliyyət və müəllim şəxsiyyətinin psixologiyası…… 783
32. Quliyeva S.Ə. Yeni təlim texnologiyaları əsasında lirik əsərlərin öyrədilməsi……. 785
33. Nəbizadə G.M. Ədəbiyyat dərslərində məzmun xətlərinin rolu…… 786
34. Paşayev E.C. Motivasiyanın yaradılmasında fəal təlim üsullarının spesifik xüsusiyyətləri……. 787
35. Məmmədli N.R. Ədəbi əsərlərin sənətkarlıq xüsusiyyətlərinin öyrədilməsində yaranan problemlər……. 787
36. Novruzova S.S. Müasir təhsildə müəllim şagird münasibətləri…….. 788
37. Əhmədova A.N. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün coğrafiya fənni üzrə təhsil proqramları (kurikulumu)…….... 789
38. Rzayev E.Z. Azərbaycan dilinin tədrisində yeni təlim texnologiyalarından istifadə……. 791
39. Bərgüşadova G.Y. Milli kurikulumun xüsusiyyətləri……. 792
40. Əliyeva G.X. Ədəbiyyat təlimində tədqiqatçılıq metodlarından istifadə…….. 794
41. Əbilova N.M. Riyaziyyatın tədrisi prosesində funksiya qrafikinin qurulması bacarıqlarının formalaşdırılması……. 794
42. Hüseynova Y.M. Kubu ikiqat böyütmək, bucağı üç bərabər hissəyə bölmək məsələlərinin bəzi üsullarla həlli…….. 795
43. Qasımova Ə.M. Riyaziyyatın təliminde analiz və sintez…… 797
44. Əliyeva N.Ə. Tənliklərin təqribi üsullarla həllinin ümumpedaqoji əsasları…….. 798
45. Байрамова П.Г. Технология интерактивного обучения……... 799
46. Eylazova S.C. Azərbaycan xalq pedaqogikasının bünövrə daşı - əmək tərbiyəsi…… 800
47. Abbasova V.Ə. Bağçayaşlı uşaqlarda riyazi təsəvvürlərin formalaşdırılmasında həndəsə elementlərinin rolu və əhəmiyyəti……. 802
48. Zülfüqarova M.M. İkinci sinif ana dili dərslərində inteqrasiya imkanları…… 803
49. Arif Karabacak Recep. Azərbaycanda qadın təhsili…….. 804
50. Qasımova Z.Ə. Azərbaycanın mühafizə olunan təbiət əraziləri…… 805
51. Altunkaynak İsmihan Hasan. Yeniyetmələrin sosiallaşma prosesi aktual pedaqoji və sosioloji bir problem kimi…… 806
52. Ağayeva A.N. Müəllimin peşə fədakarlığı və humanizmi…… 807
53. İsmayılova G.K. Şagirdlərə əxlaqi keyfiyyətlərin aşılanmasında televiziyanın rolu…… 808
54. Əliyeva D.V. Yeniyetmə yaşı dövründə yeniyetmələrin təlim fəaliyyəti və təlim fəaliyyətinə münasibəti……..... 809
55. Məmmədova M.K. Yeniyetmələrin formalaşmasında ailənin rolu……... 811
56. Məmmədova T.H. Orta ümumtəhsil məktəblərinin proqram və dərsliklərində S.Vurgun poemalarının tədrisinin əhəmiyyəti……... 812
57. Rzayeva K.T. Müasir fransız dilinin tədrisində İKT-nin rolu……... 813
58. Арс Эсра Мехмет. Формирование положительной учебной мотивации на уроках русского языка……. 814
59. Ахмедли Н.И. Использования мультимедийных средств в учебном процессе..…….. 815
60. Мамедова Ф.Дж. Уроки русского языка в системе традиционного обучения в школе и их развивающие возможности…….. 817
61. Müslüm Çakır Mehmet. Etnopedaqogika və etnopedaqoji material anlayışların mahiyyəti…... 818
62. Piriyeva G.A. İbtidai siniflərdə təlimin keyfiyyətinin yüksəldilməsində İKT-nin əhəmiyyəti…. 819
63. Samet Şenemre Hüseyn. XIX əsrdə Azərbaycanda məktəblərin yaranması……. 820
64. Akçam Mustafa Yakup. Təsviri sənətin şagirdlərin estetik tərbiyəsində rolu……... 821

65. Alkan Emine Mehmet. Ailə tərbiyəsi və elmi dünyagörüşü……. 822
66. Alkan Hasan Ahmet. Şagirdlərin elmi dünyagörüşü…… 823
67. Kərimli G.R. İnteqrasiyaya müxtəlif yanaşmalar…….. 824
68. Абилова К.Ю. Использование интерактивной доски на уроках русского языка как иностранного…… 825
69. Гасымова Т.М. Роль журнала «Русский язык и литература в Азербайджане» в развитии методической мысли в области преподавания русского языка в республике…….. 826
70. Алиева Н.К. Место проблемных ситуаций в воспитании детей младшего возраста…….. 827
71. Qəmbərova A.M. Ali məktəblərdə şifahi nitqin inkişaf etdirilməsində dialoqların rolu…….. 829
72. Султанова С.Ф. Роль песни при обучении английскому произношению…….. 830
73. Фаттахова Г.Г. Из истории возникновения и развития педагогических технологий……. 831
74. Керимзаде Х.А. Роль нетрадиционных форм обучения на уроках РКИ…… 833
75. Гараева С.С. Использование ИКТ на уроках русского языка……. 834
76. Гасанова С.Г. Психологические и методические предпосылки интегрированного обучения РКИ…….. 835
77. Əkbərova A.A. Qiymətləndirmənin ümumi prinsipləri və standartları……. 836
78. Həsənova V.R. İbtidai məktəbdə riyaziyyatın tədrisinin müasir qoyuluşu……... 839